

"Gələcəkdə iqtisadiyyatın daha da şaxələndirilməsi, iqtisadi islahatların davam etdirilməsi ölkəmizin davamlı inkişafı üçün əlavə imkanlar yaradacaq və əminəm ki, Azərbaycan qarşıda gələn illərdə daha da güclü olacaq"

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Mündəricat

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.....4

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi 115

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi..... 287

Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi 383

Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.....434

Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi 532

Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi 599

Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi 643

Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi 697

Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi..... 757

Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi..... 822

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 7

2. AZƏRBAYCAN ÜÇÜN QLOBAL VƏ REGİONAL KONTEKST 8

3. AZƏRBAYCAN İQTİSADİYYATININ MÖVCUD VƏZİYYƏTİ 12

3.1. İqtisadi artımın mərhələləri: tənəzzüldən tərəqqiyə 13

3.2. Sıçrayışlı artım dövrünün (2004-2010) təhlili 15

3.3. Yüksək iqtisadi artımın təmini: makroiqtisadi siyasət 28

3.4. Yeni iqtisadi mərhələ: aşağı neft qiymətləri dövrü 35

3.5. İqtisadi vəziyyətin yekun qiymətləndirilməsi: GZİT təhlili 41

3.6. İqtisadi perspektivlər: baza senaridə proqnozlar 43

3.7. Yeni iqtisadi artım yanaşması: strateji seçim 44

4. STRATEJİ BAXIŞ 47

4.1. 2020-ci ilədək strateji baxış 47

4.2. 2025-ci ilədək uzunmüddətli baxış 48

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 52

5. HƏDƏF İNDİKATORLARI 56

6. STRATEJİ MƏQSƏDLƏR 58

7. STRATEJİ HƏDƏFLƏR 60

7.1. Strateji hədəf 1. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi 60

7.1.1. Prioritet 1.1. Neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsini tənzimləyəcək "qızıl qayda"nın qəbul edilməsi 62

7.1.2. Prioritet 1.2. Xərc/investisiya intizamının təminatı üçün mexanizmin yaradılması 67

7.1.3. Prioritet 1.3. Yeni iqtisadi modeldə effektiv pul siyasəti rejiminin tətbiq edilməsi 69

7.2. Strateji hədəf 2. Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi 72

7.2.1. Prioritet 2.1. İqtisadiyyatda dövlət sektorunun rolunun səmərəliliyinin artırılmasına dair ümumi yanaşmanın koordinasiya edilməsi 74

7.2.2. Prioritet 2.2. Özəlləşdirmə gündəliyinin uğurla icrası və prioritet sektorlarda özəlləşdirmənin həyata keçirilməsi 76

7.2.3. Prioritet 2.3. Özəlləşdirmə və birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması 78

7.3. Strateji hədəf 3. İnsan kapitalının inkişaf etdirilməsi 85

7.3.1. Prioritet 3.1. Təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi 87

7.3.2. Prioritet 3.2. Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması 93

7.4. Strateji hədəf 4. Əlverişli biznes mühitinin inkişaf etdirilməsi 95

7.4.1. Prioritet 4.1. Əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi 96

7.4.2. Prioritet 4.2. Təşviqedici mühitin yaxşılaşdırılması vasitəsilə biznesin davamlılığının möhkəmləndirilməsi 100

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 105
9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 106
10. TƏDBİRLƏR PLANI 108

1. QISA XÜLASƏ

Azərbaycan iqtisadiyyatının strateji yol xəritələri

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycan dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır.

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Sənəd təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin GZİT təhlilini, görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə edir. Qısamüddətli dövrdə seçilmiş prioritetlərə fokuslanmaqla orta və uzunmüddətli dövrlərdə iqtisadi inkişafın bünövrəsi qoyulacaqdır. Strateji Yol Xəritəsi iqtisadi inkişafa töhfə verən bütün faktorları, o cümlədən yerli və beynəlxalq özəl sektor nümayəndələrinin kommunikasiyası və əməkdaşlığı üçün imkanları təmin edəcəkdir. Dövlət investisiyaları katalizator rolunu oynayacaq, iqtisadi inkişafın lokomotivi isə özəl sektor olacaqdır.

Xüsusi olaraq qeyd edilməlidir ki, Strateji Yol Xəritəsinin qəbulundan sonra onun həyata keçirilməsi üçün müvafiq dövlət qurumları öz fəaliyyətlərini daha müfəssəl proqramlar əsasında quracaqlar. Sənəddə nəzərdə tutulan layihələrin həyata keçirilməsindən əvvəl texniki-iqtisadi əsaslandırılma aparılacaq və hər bir təşəbbüs üzrə müvafiq dövlət qurumları cavabdehlik daşıyacaqlar.

Milli iqtisadiyyat perspektivinin əsas xüsusiyyətləri

Son 10 ildə Azərbaycan dünyada iqtisadi artım tempinə görə ön sıralarda qərar tutmuşdur. Uğurla həyata keçirilən neft strategiyası əsasında əldə olunmuş gəlirlər hesabına infrastruktur modernləşdirilmiş, qeyri–neft iqtisadiyyatı inkişaf etdirilmiş, sosial rifah yaxşılaşdırılmış, dövlətin balansında olan aktivlər artmış və ÜDM-in həcmini aşan səviyyədə strateji valyuta ehtiyatları yaradılmışdır. 2014-cü ildən başlayaraq neft qiymətlərinin kəskin azalması və ticarət tərəfdaşı ölkələrində iqtisadi böhran nəticəsində ölkədə iqtisadi artım sürətinin yavaşıması, institusional və struktur çağırışlar, tədiyə balansı və qeyri–neft büdcə kəsiri, maliyyə–bank sektorunda baş verən proseslər fonunda Azərbaycanda yeni iqtisadi inkişaf yanaşmasına keçid zərurəti yaranmışdır. Davamlı inkişafı təmin edəcək yeni "avanqard" sektorların üzərində fokuslanmaqla, iqtisadiyyatın strukturu qeyri–ticari bölməyə nisbətən ticari bölmənin, hasilata nisbətən emalın, dövlət sahibkarlığına nisbətən özəl sahibkarlığın, aşağı texnologiya tutumlu sektorlara nisbətən yüksək texnologiyalara əsaslan sektorların, aşağıixtisaslı əməyə nisbətən yüksəkixtisaslı əməyə əsaslanan sahələrin, azgəlirli bazarlara nisbətən yüksəkgəlirli bazarların və aşağı dəyər yaradan sektorlara nisbətən yüksək dəyər yaradan sektorların daha üstün artımı hesabına yenidən

balanslaşacaqdır. Milli iqtisadiyyatın strukturunun yenilənməsi biznes mühitinin daha da yaxşılaşdırılması, ortamüddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiq edilməsi, maliyyə–bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə mümkün olacaqdır.

Buna görə də milli iqtisadiyyat perspektivi çərçivəsində dörd strateji hədəf seçilmişdir. Bu hədəflərin və 11 sektor üzrə strateji yol xəritələrinin həyata keçirilməsi nəticəsində real və maliyyə sektorları arasında tarazlığın təmin edilməsi yolu ilə davamlı iqtisadi inkişaf mümkün olacaqdır. İlk strateji hədəfə uyğun olaraq Azərbaycanda fiskal dayanıqlılıq təmin ediləcək və monetar siyasət üzən məzənnə rejimi üzərində qurulacaqdır. Fiskal və monetar siyasətlərin uzlaşdırılması makroiqtisadi sabitliyi təmin edəcəkdir. Milli iqtisadiyyat perspektivində ikinci hədəf paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və özəlləşdirmənin həyata keçirilməsi yolu ilə iqtisadi dinamikliyi təmin etməkdən ibarətdir. Üçüncü hədəf insan kapitalının inkişafı ilə bağlıdır ki, bununla əmək bazarının inkişafı milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılacaqdır. Nəhayət, dördüncü hədəf biznes mühitinin daha da yaxşılaşdırılmasını nəzərdə tutur.

Milli iqtisadiyyat perspektivində müəyyən edilmiş 11 sektorun dayanıqlı inkişafını təmin edəcək ümumi məsələlər əhatə olunmuşdur.

2. AZƏRBAYCAN ÜÇÜN QLOBAL VƏ REGİONAL KONTEKST

Azərbaycan iqtisadiyyatı orta və uzunmüddətli perspektivdə müxtəlif dəyişikliklərin təsirlərinə məruz qalan bir mühitdə inkişaf edəcəkdir. Belə təsirlərin müşahidə edilməsi və başa düşülməsi onların səbəb olduğu çətinliklərin öhdəsindən gəlmək və verdiyi imkanlardan faydalanmaq nöqteyi–nəzərindən vacibdir. Bu zaman proqnozlaşdırılmayan proseslərin başvermə ehtimalı böyük olsa da, qlobal meyillərin bir neçəsinin növbəti onilliklər ərzində qlobal iqtisadiyyata təsirlərinin ilk əlamətləri artıq indidən görünməkdədir. Bu təsirlərdən dördünün Azərbaycan üçün vacib olacağı yəqindir: qlobal iqtisadi güc mərkəzinin Asiyada yeni yaranmaqda olan bazarlara doğru yerdəyişməsi, texnoloji innovasiyaların əhəmiyyətli təsirləri, dəyişən geosiyasi konfiqurasiya və neft–qaz qiymətləri.

İnkişaf etməkdə olan bazarların iqtisadi əhəmiyyətinin davamlı artımı

Asiyanın inkişaf etməkdə olan bazarları hazırda dünyada yaradılan iqtisadi dəyərin təqribən beşdə birinə sahibdir. 2030-cu ildə bu pay üçdə birədək yüksələcəkdir. Asiyanın orta təbəqəsinin ölçüsündə də müvafiq artım gözlənilir. Proqnozlara görə, dünyanın orta təbəqəsi hazırkı 3 milyard nəfərdən 2023-cü ildə təqribən 5 milyard nəfərədək artacaq və bu artımın 80 faizi Asiyanın payına düşəcəkdir. Eyni inkişaf prosesləri həm də şirkət səviyyəsində özünü büruzə verəcəkdir: yeni yaranmaqda olan bazarlar hazırda illik gəlirləri 1 milyard ABŞ dollarından çox olan dünya şirkətlərinin təqribən dörddə birini əhatə etdiyi halda, bu payın 2025-ci ilə qədərki dövrdə demək olar ki, yarıyadək artması gözlənilir. Təkcə

Asiyada ümumi gəlirləri 1 milyard ABŞ dollarından ibarət təxminən 3 min yeni şirkətin olması gözlənilir. Bununla yanaşı, son zamanlar mal və xidmətlər üzrə qlobal ticarətin həcminin artımı ÜDM-in artımından iki dəfə yüksək sürətə malik olmuşdur. Ticarət həcmlərinin getdikcə artması Avrasiyanın mərkəzində, Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan kimi ölkələrin bu artımdan faydalanmasına şərait yaradır.[1]

Yeni texnologiyaların iqtisadi təsirləri

İnternet və yaxın tarixdə mobil internetin geniş yayılması qlobal istehlak mədəniyyətlərində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Rabitə əlaqələri üçün yeni imkanlar təklif etməklə, internet şirkətlərə istehlakçılarla onlayn əlaqə qurmağa imkan vermiş və milli sərhədləri aşan satış kanalları təmin etmişdir.

Yeni texnologiyalar həm artıq formalaşmış, həm də yeni formalaşan iqtisadi sahələrin inkişafına təsir edir. Avtomatlaşdırılmış bilik yaradılması prosesi, "İnternet nəzarəti" (dəyər zəncirləri boyu fiziki aktivlər arasında internet əsaslı avtomatlaşdırılmış əməkdaşlıq), uzaq məsafəli idarəetmə texnologiyaları, süni intellekt və robotlaşdırma mövcud bazar liderlərini sınağa çəkərək yeni şirkətlərin qlobal flaqmanlar kimi mövqelərini möhkəmləndirəcəkdir. Azərbaycanda həm dövlət, həm də özəl sektorda idarəetmə bio, nano, informasiya, kommunikasiya, sənaye, maliyyə və başqa sahələrdə qabaqcıl texnologiyaların tələblərinə uyğunlaşacaqdır. Yeni texnologiyaların inkişafı ilə yanaşı artan kibertəhlükəsizlik risklərinin idarə edilməsi qlobal çağırış olaraq Azərbaycan üçün də aktualdır. Qabaqcıl texnologiyaların idxalı ilə yanaşı, həm də onu idarə edən insan kapitalının formalaşdırılması, ümumilikdə təfəkkür tərzinin yeni qlobal çağırışlar və meyillərə uyğun inkişafı həyata keçiriləcəkdir. Daha qabaqcıl texnologiya və insan kapitalı daha yüksək əlavə dəyər yaradır. Azərbaycanın elmi potensialı qlobal meyillərə uyğun şəkildə yeni texnologiyaların inkişafına töhfə verəcəkdir.

Geosiyasi qeyri–sabitlik

Ötən illər ərzində misli görünməmiş qlobal siyasi qeyri–sabitlik müşahidə olunmuşdur. Bunun təsirləri siyasi rəhbərlərin tez–tez dəyişməsi, müharibə, terrorçuluq və sürətlə artan qaçqın axınında özünü büruzə vermişdir. Siyasi qeyri-sabitlik fonunda təhlükəsizlik problemlərinin olduğu və ya sanksiyaların tətbiq edildiyi ərazilərdə ticarət həcmləri kəskin surətdə azaldığı halda, böhranlı vəziyyətlərin öhdəsindən gəlindiyi, iqtisadiyyatın açıq olduğu və ya sanksiyaların aradan qaldırıldığı ərazilərdə bərabər səviyyəli artım müşahidə olunmuşdur. Geosiyasi baxımdan yenidən formalaşan dünyada Azərbaycanda risklər və çağırışlar düzgün qiymətləndirilərək sabit inkişaf təmin ediləcəkdir. Xüsusilə, iqtisadi təhlükəsizliyin əsas komponentləri – enerji, ərzaq, maliyyə və nəqliyyat təhlükəsizliyinin davamlı olması ölkənin geosiyasi kataklizmlərə qarşı dayanıqlılığını daha da gücləndirəcəkdir.

Neftin yeni qiymət hədləri

Ötən illər ərzində neftin qiymətləri düşmüş və qiymətlərdə volatillik artmışdır: neftin bir bareli 2008-ci ildə 150 ABŞ dollarına yaxınlaşdığı halda 2016-cı ildə 30 ABŞ

[1] Bu abzasda qeyd olunan məlumatlar Dünya Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) ekspertlərinin hesablamalarına əsaslanır.

dollarından da aşağı düşmüşdür.[2] Neft qiymətlərindəki bu cür qlobal azalmanın Azərbaycan iqtisadiyyatına da təsiri böyük olmuşdur. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2010–2014-cü illərdə iqtisadi artım sürəti yavaşlayaraq ildə orta hesabla 2,7 faiz olmuşdur. 2015-ci ildə ixracın həcmi və dövlət büdcəsinin gəlirlərinin azalması işsizlik səviyyəsinin əvvəlki ilə nisbətən 2 faiz artmasına səbəb olmuşdur. Aşağı neft qiymətləri səbəbindən cari hesablar balansında yaranmış gərginlik manatın məzənnəsinə təzyiqi artırmış və 2015-ci ildə milli valyuta iki dəfə devalvasiyaya uğramışdır.

Proqnozlar onu göstərir ki, neft–qaza qlobal tələbatda artım 2050-ci ilədək ildə təqribən 0,7 faiz zəifləyəcək (əvvəlki artım proqnozlarından 30 faiz az) və ümumi enerji sektorunda üzvi yanacaq növlərinin payı azalacaqdır. Bu şərtlər altında neft qiymətlərinin əvvəlki yüksək səviyyələrinə qayıdışı gözlənilmədiyi üçün yaxın gələcəkdə neft gəlirləri hesabına yüksək dayanıqlı artımın bərpa olunacağı proqnozlaşdırılmır. Beynəlxalq Valyuta Fondu Azərbaycan iqtisadiyyatının 2025-ci ilədək illik 2–3 faiz artacağını proqnozlaşdırır. Bu temp ötən bir neçə il ərzində müşahidə olunan artım səviyyəsinə uyğundur. Lakin belə aşağı artım səviyyəsi iqtisadiyyatın qarşısında duran məqsədlərə çatmağa, o cümlədən indiki və gələcək nəsillər üçün lazım olan sayda iş yerləri yaratmağa kifayət etmir. Buna görə də Azərbaycanda aşağı neft qiymətləri şəraitində iqtisadiyyat yeni təməllər üzərində qurulmaqla daha yüksək artım tempinə nail olunacaqdır.

Neft–qaz sektorunun iqtisadiyyatı inkişaf etdirmək potensialı zəiflədikcə, Qazaxıstan, Səudiyyə Ərəbistanı və Rusiya da daxil olmaqla, dünyanın təbii ehtiyatlarla zəngin ölkələri çətinliklərlə üzləşir və öz iqtisadiyyatlarını şaxələndirməyə təşəbbüs göstərirlər. Azərbaycanda da hazırda eyni vəziyyət mövcuddur. Ölkə ötən on il ərzində yaratdığı baza əsasında qlobal iqtisadiyyatdakı mövqelərini daha da gücləndirmək üçün güclü siyasi iradə və imkanlara malikdir.

Azərbaycan üçün potensial imkanlar

Neft qiymətlərinin 2008–2009-cu illərdəki səviyyələrə qayıdacağı ehtimal edilmir, lakin bu, baş versə belə, resurs sənayesi bütün suallar üçün doğru cavab deyildir. Keçmiş iqtisadi əhəmiyyətinə baxmayaraq, neft–qaz sektoru əvvəlki illər ərzində ümumi məşğulluğun 1 faizdən çoxuna[3] sahib olmayıb. İqtisadi artımın şaxələndirilməsi 10 milyona yaxın Azərbaycan vətəndaşına öz peşə arzularını gerçəkləşdirməyə və rifah səviyyəsini yüksəltməyə imkan verəcəkdir.

İqtisadi şaxələndirmənin sürətləndirilməsi üçün üç potensial imkan mövcuddur ki, bu imkanları əldən verməmək üçün müvafiq tədbirləri məhz indi həyata keçirmək olduqca vacibdir:

- Regionun ümumi iqtisadi inkişaf dinamikası daim dəyişir və ixracatı genişləndirmək imkanları yaradır. Azərbaycan ümumi əhali sayı 300 milyon nəfərdən çox olan və ÜDM-i 3 trilyon ABŞ dollarına çatan[4] üç iri iqtisadiyyat – İran, Türkiyə və Rusiya arasında yerləşir. İrana tətbiq edilən sanksiyalar aradan qaldırıldıqca və regiondakı digər iqtisadiyyatlar arasında yeni ticarət modelləri meydana gəldikcə, ölkə üçün unikal imkanlar açılır. Daha geniş

[2] Mənbə: Economist Intelligence Unit

[3] Mənbə: Dövlət Statistika Komitəsi

[4] Mənbə: Dünya Bankı

diametrdə isə Azərbaycan cəmi ÜDM-i 30 trilyon ABŞ dollarına çatan[5] Avropa Birliyi, Çin və Körfəz ölkələri bazarlarının yaratdığı dairənin mərkəzində yerləşir. Məsələn, Azərbaycanla dünyanın ikinci iqtisadiyyatı sayılan Çinin arasında yalnız Qazaxıstan var; Azərbaycanla Körfəz ölkələri arasında təkcə İran, Azərbaycanla Avropa Birliyi arasında isə yalnız Gürcüstan yerləşir. Beləliklə, həm qısa, həm də iriradiuslu dairədə Azərbaycanın bazarlara çıxmaq potensialı böyükdür.

- Qlobal iqtisadi mənzərə Avropada zəif və Çində azalan artıma görə dəyişməkdədir. Buna cavab olaraq, Çin onu əsas iqtisadi regionlarla birləşdirəcək "İpək Yolu" layihəsini həyata keçirməyi planlaşdırır ki, bu marşrutlardan biri də Azərbaycan ərazisindən keçir. Eyni zamanda, Avropa, Rusiya, İran, Hindistan və Mərkəzi Asiyanı birləşdirəcək Şimal–Cənub nəqliyyat dəhlizinin də bir xətti Azərbaycanın ərazisindən keçir. Bu təşəbbüslər ölkəmizin ərazisindən keçən əmtəə və sərnişin dövriyyəsinin həcmini artırmaqla marşrut boyu istehsal və nəqliyyat-logistika xidmətləri üçün imkanlar yaradacaqdır. Azərbaycan təkcə tranzit ölkəsi deyil, o, həm də öz ərazisindən keçən əmtəələr üzərində əlavə dəyər yaratmaq potensialına malikdir. Ümumilikdə isə Azərbaycanın ərazisindən keçən nəqliyyat dəhlizlərinin hesabına qlobal dəyər zəncirlərində ölkənin mövqeləri gücləndirilə bilər. Azərbaycan üçün belə yeni beynəlxalq imkanların açılması yüksək və dayanıqlı iqtisadi artım potensialı yaradır. Strateji Yol Xəritəsi bu imkanlardan faydalanmaq üçün hazırlanmışdır.
- Dayanıqlı iqtisadi artımı təmin edəcək investisiya qoyuluşlarında maraqlı olan Azərbaycanda qlobal investisiya meyilləri nəzərə alınacaqdır. 2007-ci illə müqayisədə dünya üzrə birbaşa xarici investisiya axını 2015-ci ildə 36 faiz artaraq 1,7 trilyon ABŞ dollarına çatmışdır. 2015-ci ildə inkişaf etmiş ölkələr birbaşa xarici investisiyaların 55 faizini cəlb edə biliblər. Artım əsasən birləşmə və satınalmalar ("M&As") hesabına baş vermişdir. 2015-ci ildə Asiya regionunda inkişaf etməkdə olan ölkələr dünya üzrə birbaşa xarici investisiyaların 1/3-ni cəlb etmişdir. Bu mənada Asiya regionu dünya üzrə ən çox investisiya cəlb edən regiondur. Rusiya və Qazaxıstan başda olmaqla, keçid ölkələrinə birbaşa xarici investisiya axını 2015-ci ildə 54 faiz azalmışdır.[6] Aşağı xammal qiymətləri və regional münaqişələr keçid ölkələrində birbaşa xarici investisiya axınları üçün əsas maneə olmuşdur. Birləşmə və satınalmaları nəzərə almasaq, dünyada birbaşa xarici investisiyaların axını qısamüddətli perspektivdə zəifləyəcəkdir. Çünki qlobal iqtisadiyyat kövrəkdir, qlobal maliyyə bazarları volatildir, tələb aşağıdır və inkişaf etməkdə olan ölkələrdə iqtisadi artım tempi zəifdir. İnvestisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühiti təmin ediləcək və özəl sahibkarlığın inkişafı daha da stimullaşdırılacaqdır.

[5] http://www.tradingeconomics.com/european-union/gdp

[6] Mənbə: Dünya İnvestisiya Hesabatı, 2016

3. AZƏRBAYCAN İQTİSADİYYATININ MÖVCUD VƏZİYYƏTİ

Azərbaycan iqtisadiyyatı son 10 il ərzində dünyanın ən yüksək iqtisadi artım tempinə malik ölkələrindən biri kimi keyfiyyət etibarı ilə yeni mərhələyə qədəm qoymuşdur. Bu müddətdə ölkədə həyata keçirilən iqtisadi siyasət iqtisadiyyatın həcminin əhəmiyyətli genişlənməsinə, əhalinin sosial rifahının yüksəldilməsinə, sosial–iqtisadi infrastrukturun tamamilə müasirləşdirilməsinə imkan vermişdir.

2004–2015-ci illər ərzində real olaraq orta hesabla 10,6 faiz iqtisadi artım müşahidə edilmiş, ÜDM-in nominal həcmi isə 7,6 dəfə artmışdır.[7] Dövr ərzində adambaşına ÜDM-in həcmində 6,5 dəfə artım olmuşdur ki, bu da Azərbaycanı dünya ölkələri arasında 134-cü yerdən 79-cu yerə yüksəltmiş,[8] əhalinin sosial rifahı əhəmiyyətli səviyyədə yaxşılaşmışdır. Yoxsulluq səviyyəsi 2004-cü ildəki 40,2 faizdən 4,9 faizə enmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının uğurla reallaşdırılması ölkənin neft gəlirlərinin artması ilə müşayiət olunmuş, əldə edilmiş maliyyə imkanları sürətli iqtisadi artımın maliyyələşdirilməsinə imkan vermişdir. 2004–2015-ci illər ərzində neft gəlirlərindən istifadə etməklə reallaşdırılmış iqtisadi artım modeli "aktiv şəkildə əsas kapitala investisiya qoyuluşu" xarakterli olmaqla, dövr üçün qarşıya qoyulmuş hədəflərin reallaşdırılmasına zəmin yaratmışdır.

Azərbaycanda reallaşdırılmış iqtisadi islahatlar ölkənin qlobal reytinq göstəricilərinin əhəmiyyətli yüksəlməsi ilə də müşayiət olunmuşdur. Təsadüfi deyildir ki, Dünya Bankının "Doing Business" hesabatına görə, Azərbaycan 2009-cu ildə dünyanın "lider islahatçı dövləti" kimi qiymətləndirilmişdir. Dünya İqtisadi Forumunun "2016–2017-ci illər üzrə qlobal rəqabətlilik hesabatı"na görə Azərbaycan 2006-cı illə müqayisədə 27 pillə irəliləyərək 138 ölkə arasında 37-ci mövqedə qərarlaşmışdır. Həmin hesabata əsasən, Azərbaycan makroiqtisadi mühitin keyfiyyəti göstəricisinə görə dünyada 39-cu, əmək bazarının səmərəliliyi üzrə 26-cı, milli gəlirin ÜDM-ə nisbəti üzrə 37-ci, infrastrukturun keyfiyyətinə görə isə 55-ci yerdədir.

Aparılmış iqtisadi siyasət Azərbaycanın dünya ölkələri sırasında adambaşına düşən milli gəlirin həcminə görə nəzərəçarpacaq dərəcədə irəliləməsinə səbəb olmuşdur. Dünya Bankının təsnifatına (atlas metodologiyasına görə) əsasən, Azərbaycan 2004-cü ildə adambaşına milli gəlirinin həcminə görə yoxsul ölkələr qrupuna aid edilmişdisə, 2005-ci ildə aşağı-orta gəlirli, 2009-cu ildən isə yuxarı-orta gəlirli ölkələr qrupuna daxil olmuşdur.

Son illər ərzində reallaşdırılmış iqtisadi artım modeli iri həcmdə strateji valyuta ehtiyatlarının formalaşmasına imkan vermişdir ki, bu da ölkə iqtisadiyyatının üzləşə biləcəyi potensial risklərin absorbsiya edilməsinə, həmçinin gələcək iqtisadi inkişafın maliyyələşdirilməsi prosesinə mühüm töhfə ola bilər. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2004-2010-cu illər ərzində iqtisadi artım tempi orta hesabla 16,9 faiz təşkil edirdisə, 2011-2014-cü illərdə bu göstərici 2,7 faiz olmuşdur. Eyni zamanda, 2004-2010-cu illərdə ölkə iqtisadiyyatına investisiya qoyuluşu orta hesabla 17,9 faiz, 2011-2014-cü illərdə isə bu göstərici 11,9 faiz təşkil etmişdir. Qoyulan investisiyanın həcminin 6 faiz bəndi azalmasına baxmayaraq, iqtisadi artım tempi 14,2 faiz bəndi aşağı düşmüşdür. Bu o deməkdir ki, 2004-2014-cü illər ərzində uğurla reallaşdırılmış iqtisadi artım modelinin özünün "doyumluluq" həddinə yaxınlaşması

[7] ÜDM və yoxsulluq səviyyəsi göstəriciləri Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanır

[8] Dünya İqtisadi Forumunun "2016–2017-ci illər üzrə qlobal rəqabətlilik hesabatı"na görə

keyfiyyətcə yeni iqtisadi artım yanaşmasına transformasiya zərurətini ortaya qoymuşdur.


2014-cü ilin sonlarından etibarən dünya əmtəə bazarlarında enerji daşıyıcılarının qiymətinin kəskin aşağı düşməsi Azərbaycanın xarici valyuta gəlirlərinin azalması ilə müşayiət olunmuşdur ki, bu da son 10 il ərzində reallaşdırılmış iqtisadi artım modelinin maliyyələşdirilməsi imkanlarını məhdudlaşdırmışdır. Neft gəlirlərinin azalması da öz növbəsində yeni iqtisadi artım yanaşmasına transformasiya zərurətini daha da gücləndirmişdir.

Hər iki amil bir daha onu göstərir ki, mövcud iqtisadi artım modeli özünün həyat tsiklini uğurla reallaşdıraraq qarşıya qoyulmuş hədəflərin əldə edilməsinə imkan vermişdir. Artıq yeni dövrün ən mühüm strateji çağırışı "kapital akkumulyasiyası" əsaslı modeldən "məhsuldarlıq (effektivlik)" əsaslı artım modelinə keçidi təmin etməkdir. Bunun üçün institusional mühitin keyfiyyətinin daha da yüksəldilməsi, əlçatan maliyyələşmə mənbələri, biznesin düzgün seqmentasiyası və ixtisaslaşması, makroiqtisadi siyasətin yeni çağırışlar əsasında müasirləşdirilməsi, ən başlıcası isə intensiv şəkildə yüksəkixtisaslı insan kapitalının hazırlanması tələb olunur.

3.1. İqtisadi artımın mərhələləri: tənəzzüldən tərəqqiyə

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etməklə birlikdə bir çox çağırışlar və risklərlə üzləşmişdir. Ölkənin son 25 ildəki iqtisadi artım prosesi 4 mərhələdə təsnifləşdirilə bilər (şəkil 1).

Şəkil 1. Azərbaycanda iqtisadi artımın mərhələləri



Mənbə: Dövlət Statistika Komitəsi

- ***Tənəzzül dövrü (1991-1994-cü illər):*** Dövlət müstəqilliyinin bərpasının ilk illərinə təsadüf edən bu dövr, Azərbaycanın müharibə şəraitində olması, Ermənistanın hərbi təcavüzü nəticəsində bir milyondan çox qaçqın və məcburi köçkünlərin problemlərilə üzləşməsi ilə birlikdə keçmiş İttifaq respublikaları

arasında ticarət əlaqələrinin zəifləməsi, nəticədə sosial-iqtisadi vəziyyətin kəskin pisləşməsi ilə xarakterizə edilə bilər. Həmin dövrdə regional qeyri-sabitlik, iqtisadi idarəetmədə səriştəsizlik, mövcud iqtisadi institutların tamamilə səmərəsizliyi Azərbaycanda iqtisadi böhranı dərinləşdirmişdir. Beynəlxalq Valyuta Fondunun hesabatlarına əsasən, bu dövrdə Azərbaycan iqtisadi potensialının 60 faizini itirmiş, mövcud istehsal infrastrukturu əhəmiyyətli şəkildə sıradan çıxarılmış, işsizliyin kəskin artımı fonunda hiperinflyasiya müşahidə edilmişdir. 1991-1994-cü illər ərzində Azərbaycanın real ÜDM-i ildə orta hesabla 17 faiz aşağı düşmüş, dövlət büdcəsinin maliyyələşməsi əsasən emissiya kanalları hesabına reallaşdırılmış, tədavülə buraxılan milli valyuta kəskin ucuzlaşmışdır.

- ***Dərin iqtisadi islahatlar, keçid və bərpa dövrü (1995-2003-cü illər):*** Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonrakı bu dövr, ilk növbədə, ölkədə siyasi sabitliyin bərpası, bazar iqtisadiyyatına keçidi və səmərəli iqtisadi münasibətləri təmin edəcək strateji iqtisadi islahatların reallaşdırılması nəticəsində yüksəkkeyfiyyətli iqtisadi artım üçün zəmin formalaşdırılması ilə xarakterizə edilə bilər. Genişmiqyaslı torpaq islahatları, dövlət əmlakının özəlləşdirilməsi kimi mühüm islahatların reallaşdırılması bu dövrə təsadüf edir. Dövrün digər mühüm xüsusiyyətlərindən biri də Azərbaycanın yüksək sürətlə inkişafını təmin edən neft strategiyasının təməlinin məhz bu dövrdə qoyulmasıdır. 1994-cü ildə 13 şirkətdən ibarət beynəlxalq konsorsiumla Azəri-Çıraq-Günəşli neft yataqlarının işlənməsinə dair ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və birbaşa təşəbbüskarlığı ilə imzalanmış "Əsrin Müqaviləsi"nin ilkin iqtisadi səmərəsi özünü göstərməyə başladı. Bu dövrdə iqtisadi artım təmin edilməklə itirilmiş potensial bərpa edilmiş, milli valyutanın və qiymətlərin sabitliyinə, işsizliyin əhəmiyyətli səviyyədə azaldılmasına nail olunmuşdur. Ölkənin strateji xarici valyuta ehtiyatları formalaşdırılmış, bank sisteminə etimad bərpa edilmiş, dövlət büdcəsinin dayanıqlı maliyyələşmə mənbələri təmin edilmişdir.

- ***İqtisadi inkişaf və tərəqqi dövrü (2004–2014-cü illər):*** Bu dövrdə reallaşdırılmış iqtisadi artım modeli Azərbaycan iqtisadiyyatını dünyanın ən sürətlə artan iqtisadiyyatlarından birinə çevirmişdir. Əldə edilmiş neft gəlirlərinin bir hissəsinin aktiv şəkildə ölkə iqtisadiyyatına investisiya edilməsi nəticəsində Azərbaycan qısa müddətdə yüksək–orta gəlirli ölkəyə çevrilmiş, sosial–iqtisadi infrastruktur tamamilə yenilənmiş, qlobal rəqabət qabiliyyətinə görə dünyada 37-ci yerdə qərarlaşmışdır.[9] Görülən tədbirlər və təbii sərvətlərin qiymətindəki artımlar ölkə iqtisadiyyatının sıçrayışlı inkişaf mərhələsinin əsasını qoymuş və 2004-2010-cu illər ərzində ÜDM ildə orta hesabla 16,9 faiz artmışdır. Neft-qaz istehsalının həcminin və qiymətinin artması neft sektoruna birbaşa xarici investisiya (BXİ) cəlb edilməsinə də öz töhfəsini vermişdir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin rəsmi açılışı olmuş və Azərbaycan qlobal səviyyədə iqtisadi əlaqələri yaxşılaşdırmaqla, neft-qaz istehsalı və ticarətinin davamlılığını təmin etmişdir. Bu illər ərzində neft gəlirləri tikinti, xidmət, dövlət idarəetməsi, müdafiə və sosial təminat kimi bir sıra digər sektorların da inkişafına birbaşa yol açmaqla ölkəyə tərəqqi gətirmişdir. İqtisadi artım prosesinin mühüm mərhələsini uğurla reallaşdırmağa imkan verən iqtisadi

[9] Dünya İqtisadi Forumunun "2016–2017-ci illər üzrə qlobal rəqabətlilik hesabatı"na əsasən

artım modeli sayəsində iqtisadiyyat 6 dəfə böyümüş, adambaşına düşən milli gəlir 5 dəfədən çox artmışdır.[10] Bu dövr ərzində ölkədə qiymətlərin sabitliyi qorunmuş, xarici valyuta gəlirlərinin əhəmiyyətli artması nəticəsində böyük həcmdə strateji valyuta ehtiyatları formalaşdırılmış, milli valyutanın məzənnəsinin izafi möhkəmlənməsinə yol verilməməklə beynəlxalq rəqabət qabiliyyəti qorunmuşdur. Dövr ərzində bank sektorunda aktivlik yüksəlmiş, əmanətlərin həcmi 11 dəfə, kreditlərin həcmi 19 dəfə artmışdır.[11] Bu dövrdə diqqət edilməli məqamlardan biri də 2011-ci ildən sonra iqtisadi artım sürətinin aşağı düşməsidir. İqtisadiyyata dövr ərzində qoyulan investisiyaların artmasına baxmayaraq, iqtisadi aktivliyin zəifləməsi müşahidə edilmişdir. Aktiv şəkildə kapital yığımı modeli bu dövrdən sonra özünün "doyumluluq" səviyyəsinə çatmışdır.

- ***Aşağı neft qiymətləri dövrü:*** 2014-cü ilin sonlarından etibarən dünya əmtəə bazarlarında neftin qiymətinin kəskin ucuzlaşmasının mənfi təsirləri 2015-ci ilin ikinci yarısından etibarən Azərbaycan iqtisadiyyatında müşahidə edilməyə başlamışdır. Mənfi təsir, ilk növbədə, tədiyə balansına, daha sonra iqtisadi artımın maliyyələşmə kanalları üzərindən iqtisadi aktivliyə ötürülmüşdür. ABŞ dollarının məzənnəsi milli valyutaya qarşı iki dəfəyə yaxın bahalaşmış, maliyyə sabitliyinin təmini üzrə bir sıra risklər formalaşmış, dövlət borcunun ödənilməsi üzrə fiskal yük artmışdır. Azərbaycan hökuməti iqtisadi aktivliyin bərpa edilməsi məqsədilə iqtisadi siyasətin daha da təkmilləşdirilməsi, institusional islahatların sürətləndirilməsi istiqamətində bir çox tədbirlər görmüşdür.

2015-ci ildən etibarən Azərbaycan iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Yeni iqtisadi artım yanaşmasına keçid məqsədilə 2010-2014-cü illərin iqtisadi artım modelinin, həmçinin həmin dövrdə reallaşdırılmış iqtisadi siyasətin təhlili nəticəsində əsas risk və çağırışların əsasında yeni artım dayaqlarının müəyyənləşdirilməsi zərurəti yaranmışdır.

3.2. Sıçrayışlı artım dövrünün (2004-2010) təhlili

2004-2010-cu illər ərzində Azərbaycan əldə edilmiş neft gəlirlərinin bir qisminin iqtisadiyyata yönəldilməsi nəticəsində yüksək iqtisadi artıma nail olmuşdur. Dövr üzrə iqtisadiyyatın orta artım sürəti 16,9 faiz olmuşdur ki, bu da dünya üzrə analoji göstəricidən 12,9 faiz bəndi, inkişaf etməkdə olan ölkələr üzrə müvafiq göstəricidən 10,6 faiz bəndi, MDB ölkələri üzrə müvafiq göstəricidən isə 12,6 faiz bəndi yüksəkdir.[12]


Neft sektorunda orta illik iqtisadi artım 24,9 faiz, qeyri-neft sektorunda isə 11,7 faiz təşkil etmişdir. Diqqət çəkən məqam ondan ibarətdir ki, qeyri-neft sektoruna qoyulmuş irihəcmli investisiyalar sektorun əhəmiyyətli artımına imkan vermişdir. 2010-cu ildən başlayaraq ölkədə iqtisadi artımın əsas hərəkətverici amili neft sektorundan qeyri-neft sektoruna transformasiya olmuş, 2010-2014-cü illər ərzində neft sektorunda 2,9 faizlik geriləmə olduğu halda, qeyri-neft sektoru 8,8 faiz artmaqla, ümumi 3 faizlik iqtisadi artıma nail olunmuşdur (şəkil 2).

[10] Mənbə: Dövlət Statistika Komitəsi

[11] Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

[12] Beynəlxalq Valyuta Fondunun və Dövlət Statistika Komitəsinin məlumatları

Şəkil 2. Sektorlar üzrə iqtisadi artım



1. *Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq*
2. *Elektrik və su təchizatı, tikinti*
3. *Ticarət, turistlərin yerləşdirilməsi və ictimai iaşə, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, maliyyə və sığorta fəaliyyəti, daşınmaz əmlak, kirayə və biznes xidmətləri*
4. *Dövlət idarəetməsi və müdafiə, təhsil, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, digər sahələrdə xidmətlərin göstərilməsi*

Mənbə: Dövlət Statistika Komitəsi

Yüksəktempli iqtisadi artım makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsinə imkan vermişdir. Dünya İqtisadi Forumunun hesabatına görə, Azərbaycan 2014-cü ildə 144 ölkə arasında makroiqtisadi mühitin keyfiyyət göstəricisinə görə 2008-ci illə müqayisədə 36 pillə irəliləyərək 9-cu yerdə, dövlət büdcəsi balansının ÜDM-ə nisbəti göstəricisinə görə 16 pillə irəliləyərək 15-ci yerdə, milli gəlirin ÜDM-ə nisbətinə görə 9-cu yerdə, cəmi dövlət borcunun ÜDM-ə nisbətinə görə isə 12-ci yerdə qərarlaşmışdır.

İqtisadi artımın təhlili göstərir ki, əldə edilmiş makroiqtisadi sabitlik və rifah üzərində neft amilinin təsiri hələ də əhəmiyyətlidir. Yüksək neft qiymətləri dövründə pro-tsiklik iqtisadi siyasət iqtisadi artımın dövlət tələbindən asılılığını yüksəltmişdir. Əsas çağırışlardan biri kimi iqtisadi artımın dövlət tələbi üzərindən dayanıqlı özəl tələb üzərinə transformasiyası öz aktuallığını qoruyub saxlayır.

<u>Artımın sektoral bölgüsündə əsas çağırış: *qeyri–ticari sektordan ticari sektora*</u>

Reallaşdırılmış sıçrayışlı iqtisadi artım modeli aktiv şəkildə "kapital akkumulyasiyası" xarakterli olmuş, nəticədə ölkədə irihəcmli və müasir sosial–iqtisadi infrastruktur qurulmuşdur. Azərbaycan bu dövr ərzində dünyanın sürətli inkişaf edən Cənub–Şərqi Asiya ölkələrində reallaşdırılmış "dövlət kapitalizmi" inkişaf modelindən istifadə etmişdir. "Dövlət kapitalizmi" xarakterli makroiqtisadi siyasətin ən aktiv qanadı isə fiskal siyasət olmuşdur. İrihəcmli neft gəlirlərinin dövlət tərəfindən iqtisadiyyata


yönəldilməsinin əsas kanalı kimi məhz dövlət büdcəsinin investisiya xərcləri çıxış etmişdir.

2010-cu ilədək iqtisadi artımın əsas hərəkətverici amili ənənəvi neft sektoru olsa da, 2010-2014-cü illərdə artıma əsas töhfə qeyri-neft sektorlarından formalaşmışdır. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2014-cü ildə qeyri-neft sektorunda 6,9 faiz, tikinti sektorunda 8,8 faiz, xidmət sektorunda 7,6 faiz artım qeydə alınmışdır. Bu sektorların ÜDM-dəki paylarının təhlili göstərir ki, təbii ehtiyatlar 2014-cü ildə iqtisadi artıma 37 faiz töhfə vermiş, ikinci yerdə isə 14 faizlik templə tikinti sektoru olmuşdur.

2014-cü il üzrə iqtisadi artımın sektorlar üzrə təhlili göstərir ki, aktiv dövlət kapitalizmi nəticəsində qeyri-neft ÜDM-in 80 faizə yaxın hissəsi, məşğulluğun isə 60 faizə qədər hissəsi qeyri-ticari sektorda istehsal edilmişdir. Qeyri-neft ÜDM-də qeyri-ticari sektorlar olan sosial və digər xidmətlər 28 faiz, tikinti sektoru 21 faiz, ticarət sektoru 13 faiz, nəqliyyat və anbar təsərrüfatı 7 faiz təşkil edir (şəkil 3). Bu dövrdə qeyri-neft ÜDM-in cəmi 8 faizi qeyri-neft sənayesinin hesabına formalaşmışdır. 2014-cü ildə kənd təsərrüfatı sahəsində yaradılmış əlavə dəyər ÜDM-in 6 faizini təşkil etsə də, ölkə üzrə məşğul əhalinin 36,7 faizi bu sahənin payına düşmüşdür. Kənd təsərrüfatında yüksək məşğulluq göstəricisi mülkiyyətində pay torpaqları olanların məşğul əhali kimi nəzərə alınmaları hesabına olmuşdur.

İqtisadiyyatın strukturunda aktiv dövlət kapitalizminin digər təsiri özünü özəl sektorun dövlətin investisiya fəaliyyəti ilə rəqabətə girməsinin rentabelli olmamasında göstərir. Bunun da nəticəsində özəl təşəbbüskarlığın daralması baş verir. Bu mənada, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin iqtisadiyyata töhfəsini nəzərə almasaq, iqtisadiyyatda özəl sektorun payının yüksəldilməsi mühüm çağırış olaraq qalır.

Şəkil 3. Sektorların iqtisadi artım səviyyəsinə görə qruplaşdırılması



1. *Azərbaycan üçün 2005-ci ilin sabit qiymətlərində ÜDM-ə əsasən (maliyyə vasitəçilərinin şərti hesablanmış xidmət haqları və vergidən əvvəl)*
2. *Nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, digər ictimai, sosial və fərdi xidmətlər*
3. *Elektrik, qaz və su təchizatı*

Mənbə: Dövlət Statistika Komitəsi


Qeyri–ticari sektorlar üzrə artımın tsiklik həssaslığını, dövlət maliyyəsindən yüksək asılılığını və nəhayət, qlobal dəyər zəncirinə inteqrasiya üçün imkanlarının zəif olmasını nəzərə alaraq, ticari sektorların inkişaf etdirilməsi, özəl təşəbbüskarlıq fəaliyyətlərinin genişləndirilməsi öz aktuallığını qoruyub saxlayır.

Əhalinin sosial rifahı: yoxsulluqdan yüksək–orta gəlirə

2004-2014-cü illər ərzində yüksək iqtisadi artım əhalinin sosial rifahının yüksəlməsi ilə də müşayiət olunmuşdur. Adambaşına düşən milli gəlir (Dünya Bankının atlas metodologiyası) 2004-cü illə müqayisədə 8 dəfə artaraq 7600 ABŞ dollarına çatmış, Azərbaycan qısa vaxt ərzində aşağı gəlirli ölkədən yüksək–orta gəlirli ölkəyə çevrilmişdir. İqtisadi artım məşğulluğun artımı ilə müşayiət olunmuş, 1,3 milyondan çox yeni iş yeri açılmış və bu iş yerlərinin 77,1 faizi daimi iş yerləri olmuşdur ki, onların da 62,9 faizi regionların payına düşmüşdür. Məşğulluğun artımı hesabına bu dövr ərzində əhalinin adambaşına gəlirləri real ifadədə 2,6 dəfə artmışdır.

Azərbaycan üzrə Gini indeksi (ölkədə gəlirin bölüşdürülməsinin keyfiyyət ölçüsü: 0 tam bərabərliyi, 1 isə bərabərsizliyi əks etdirir) müqayisə edilən ölkələrin orta qiymətləndirilməsinə nisbətən aşağı gəlir bərabərsizliyini əks etdirir. Palma nisbəti də (əhalinin ən varlı 10 faizinin ümumi milli gəlirdəki payını ən yoxsul 40 faizinin payına bölməklə müəyyən edilir) müqayisə oluna biləcək ölkələr üzrə orta göstəriciyə nisbətən kiçik gəlir bərabərsizliyi nümayiş etdirmişdir (şəkil 4).


Şəkil 4. Gəlirlərin bölüşdürülməsində qeyri–bərabərlik səviyyəsi



Mənbə: BMT-nin İnsan İnkişafı Hesabatı (ən son dövr 2005-2013-cü illəri əhatə edir)

Faktiki olaraq, Azərbaycanda vətəndaşların həyat səviyyəsinin yüksəldiyini bir neçə mühüm göstərici də əyani surətdə əks etdirir. Belə ki, yoxsulluq səviyyəsində yaşayan əhalinin xüsusi çəkisi on il ərzində altı dəfə azalaraq, 2005-ci ildəki 29,3 faizdən 2014-cü ildə 5 faizə qədər düşmüşdür. Bu illər ərzində dövlətin sosial müdafiə və təminat xərclərinin artırılması nəticəsində əhaliyə pensiya və müavinət ödənişləri 6,7 dəfə artmışdır. Digər sosial göstərici olan minimum əməkhaqqı isə 3 dəfədən çox artaraq 2005-ci ildəki aylıq 30 manatdan 2014-cü ildə aylıq 105 manata çatmışdır (şəkil 5).

Şəkil 5. Yoxsulluq səviyyəsi, sosial transfertlər və minimum əməkhaqqı göstəriciləri



1. *Müvafiq illərin sonuna olan göstəricilər*

Mənbə: Dövlət Statistika Komitəsi, Dünya Bankı

Əhalinin aşağı rifaha malik qrupuna göstərilən sosial xidmətlər əsasən maddi yardımların verilməsi ilə məhdudlaşır. Bunun isə yoxsul və aşağı peşəkarlıq

səviyyəsinə malik əhalinin yenidən əmək bazarına daxil olması perspektivi baxımından faydaları məhduddur. Məhz həmin əhali təbəqəsinin aktiv işçi qüvvəsinə inteqrasiya edilməsi baxımından sosial xidmətlər portfelinə keyfiyyətli təhsil və səhiyyə xidmətlərinin, zəruri hallarda, peşəkarlığın yüksəldilməsi kimi xidmətlərin daxil edilməsi vacibdir.

Əhalinin sosial rifahının yüksəldilməsinin digər mühüm komponenti kommunal xidmətlər sektorunun keyfiyyətinin yüksəldilməsidir. Dövr ərzində infrastruktura yönəldilmiş iri məbləğli investisiyalar əhalinin işıq, qaz, su təchizatı kimi kommunal xidmətlərə çıxış imkanlarını genişləndirmişdir. Kommunal xidmətlərin keyfiyyətinin kifayət qədər yüksəldilməsinə baxmayaraq, xidmətlər üzrə əsas aparıcı qüvvə qismində hələ də dövlət sektoru çıxış edir. Kommunal xidmətlər bazarının liberallaşdırılması və özəl sektoru cəlb etməklə inkişafı bu xidmətlərin keyfiyyətinin dayanıqlılığının təmin edilməsi və eyni zamanda, dövlət sektorunun fiskal yükünün azalması baxımından faydalı ola bilər.

Əhalinin sosial rifahını əks etdirən göstəricilərdən biri də mənzillə təminatdır. Hazırda Azərbaycanda adambaşına düşən orta mənzil fondu 17,9 m² təşkil edir ki, bu da MDB (20 m²) və Şərqi Avropa ölkələri (30 m²) üzrə orta göstəricilərdən azdır.[13]

İqtisadi artım amilləri: istehlak və investisiya aktivliyi

Azərbaycanda ÜDM-in artımı yerli istehlak və dövlət investisiyalarına mütənasib olmuşdur. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, faktiki son istehlak xərcləri 2005-2010-cu illər ərzində orta hesabla ildə 14,0 faiz, 2010-2014-cü illərdə isə müvafiq olaraq 9,0 faiz artmışdır.

Azərbaycanda 2004-2014-cü illər ərzində yüksək investisiya aktivliyi müşahidə edilmişdir. Dövr ərzində ölkə iqtisadiyyatına 148,9 milyard manat həcmində investisiya yönəldilmişdir ki, bunun da 54,1 faizi daxili, 45,9 faizi isə xarici mənbələr hesabına maliyyələşmişdir. Ümumi investisiya qoyuluşunun ÜDM-də xüsusi çəkisi 36,3 faiz, qeyri-neft sektoruna yönəldilmiş investisiyanın qeyri-neft ÜDM-də xüsusi çəkisi isə 50,7 faiz təşkil etmişdir.


Dövr ərzində yüksək investisiya aktivliyinin əsas mənbəyi Azərbaycanın yüksək neft gəlirləri olmuşdur. Bu dövrdə (2004-2014) Azərbaycan Respublikası Dövlət Neft Fonduna 90 milyard ABŞ dolları vəsait daxil olmuş, onun da 61 milyard ABŞ dolları ölkə iqtisadiyyatının inkişafına investisiya edilmişdir. Bu vəsaitin 92 faizi dövlət büdcəsinə transfertlər, 8 faiz hissəsi isə dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsinə yönəldilmişdir.[14]

Daxili mənbələr hesabına reallaşdırılmış investisiyaların həcmi 80,5 milyard manat təşkil etmişdir ki, bunun da 47,7 faizi dövlət büdcəsi (kapital xərcləri) hesabına maliyyələşdirilmişdir. 2014-cü ildə daxili investisiyaların 68,2 faizi dövlət investisiyaları olmuşdur (şəkil 6).

[13]Mənbə: Dövlət Statistika Komitəsi

[14] Mənbə: Azərbaycan Respublikasının Dövlət Neft Fondu

Şəkil 6. İnvestisiyaların ÜDM-də payı



1. *Qeyd etmək lazımdır ki, birbaşa xarici investisiya axınlarının heç də hamısı əsas kapitalın formalaşdırılmasına yönəldilmir*
2. *Dövlət və özəl sektor üzrə investisiya bölgüsü 2014-cü ilin dövlət büdcəsində 70 faiz və 30 faiz nisbətində qəbul edilmişdir*


İran barədə təhlillər yalnız ictimaiyyət üçün açıq olan məlumatlara əsaslanır

Mənbə: Dünya Bankının İnkişaf göstəriciləri

2007-ci ilə qədər Azərbaycan iqtisadiyyatına yönəldilmiş investisiyaların əsas mənbəyi birbaşa xarici investisiyalar (BXİ) olmuşdur. Lakin sonrakı dövrdə mənzərə dəyişmiş, daxili investisiya aktivliyi dövlət maliyyəsi hesabına yüksəlmişdir. Qeyd edilməlidir ki, Azərbaycanda birbaşa xarici investisiyalar hesabına formalaşmış əsas kapitalın ÜDM-də payı regional orta göstəricidən aşağıdır. Belə ki, 2014-cü ildə müvafiq olaraq Gürcüstanda 74 faiz, Qazaxıstanda 61 faiz, Türkmənistanda 55 faiz, Ukraynada 49 faiz, Qırğızıstanda 48 faiz və Moldovadakı 46 faizlə müqayisədə Azərbaycanda birbaşa xarici investisiyalar ÜDM-in 25 faizini təşkil etmişdir.

2004-2014-cü illər ərzində ölkə iqtisadiyyatına qoyulan BXİ-nin həcmi 52 milyard ABŞ dolları olmuşdur ki, onun da 85 faizi neft sektoruna, 15 faizi isə qeyri-neft sektoruna yönəldilmişdir. Həmin dövrdə qeyri-neft sektoruna qoyulan BXİ-nin xüsusi çəkisinin az olmasına baxmayaraq, artım sürəti yüksək olmuşdur. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ümumi BXİ-nin orta illik artımı 8,2 faiz təşkil etdiyi halda, qeyri-neft sektoru üzrə müvafiq göstərici 32,5 faizə çatmışdır. Yüksək artım sürətinə baxmayaraq, qeyri-neft sektoruna yönəlmiş BXİ mövcud potensialdan hələ də aşağı olaraq qalır (şəkil 7).

Şəkil 7. Birbaşa xarici investisiyanın ÜDM-də payı



1. *2012-2014-cü illər üzrə orta göstərici*

İran barədə təhlillər yalnız ictimaiyyət üçün açıq olan məlumatlara əsaslanır

Mənbə: BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı

Mövcud investisiya aktivliyinin strukturu üzrə ən mühüm çağırışlardan biri iqtisadiyyata yönəldilmiş investisiyaların məhsuldarlığının aşağı düşməsidir. 2004-2010-cu illərdə ölkə iqtisadiyyatına investisiya qoyuluşunun artım sürəti orta hesabla 17,9 faiz olmuşdursa, 2011-2014-cü illərdə bu göstərici 11,9 faiz təşkil etmişdir. Qoyulan investisiyanın cəmi 6 faiz bəndi azalmasına baxmayaraq, iqtisadi artım tempi 14,2 faiz aşağı düşmüşdür.[15] Bu, o deməkdir ki, mövcud model artıq irihəcmli dövlət maliyyəsi "impuls"larına belə tam reaksiya verə bilmir. Bundan isə belə nəticə çıxarmaq olar ki, investisiyaların qoyulduğu ənənəvi qeyri-ticari sektorlar artıq öz "doyumluluq" həddinə çatmışdır və ona görə də yaxın və ortamüddətli dövrdə investisiyalar daha yüksək məhsuldarlıq nümayiş etdirə bilən ticari sektorlara yönəldilməlidir.

İnvestisiya aktivliyi ilə bağlı digər mühüm çağırış daxili investisiyaların əsas mənbəyinin dövlət maliyyəsindən özəl sektorun üzərinə ötürülməsinə nail olmaqdır. Bu prosesin baş verməsində ləngimələr dövlət maliyyəsinin, xüsusilə də dövlət büdcəsinin dayanıqlılığı və yükü, səmərəli idarə edilməsi üzərində risklər formalaşdırır və özəl təşəbbüskarlıq fəaliyyətinin zəifləməsinə səbəb olur. Məhz bu səbəbdən, özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes-investisiya mühiti daha da təkmilləşdirilməli, BXİ-nin qeyri-neft sektoruna cəlb edilməsi istiqamətində işlər sürətləndirilməlidir.


[15] Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən

İqtisadi artım amilləri: xalis ixrac

Azərbaycanda iqtisadi artımın mühüm hərəkətverici qüvvələrindən biri də məhz xalis ixrac olmuşdur. Neft müqavilələrinin icrası Azərbaycanın neft ixracını əhəmiyyətli dərəcədə artırmış, ölkənin tədiyə balansı göstəriciləri yaxşılaşmışdır.

2004-cü ildə cari əməliyyatlar hesabı üzrə (CƏB) 5,8 milyard ABŞ dolları həcmində kəsir mövcud idisə, artıq 2005-ci ildən etibarən kəsir profisitlə əvəz olunmağa başlamışdır. 2005-2014-cü illər ərzində CƏB profisiti kumulyativ olaraq 110 milyard ABŞ dollarına çatmışdır. 2011-ci ildə bu göstərici özünün tarixi maksimumuna çataraq 17 milyard ABŞ dollarına yaxın, onun ÜDM-də xüsusi çəkisi isə 25,8 faiz olmuşdur.[16]

Şəkil 8. Neftin qiymətinin ticarət balansına təsiri




1. Əmtəə balansı

Mənbə: "Global Insights" Dünya Bazarının Monitorinqi və Dövlət Statistika Komitəsi

Xarici ticarət balansının qalığı 2004-cü ildə 3 milyard ABŞ dolları kəsirdən 2014-cü ildə 19 milyard ABŞ dolları həcmində profisitə yüksəlmişdir. Bu dövrdə əmtəə ixracı 6 dəfə, idxalı isə 2,6 dəfə artmışdır. Cari əməliyyatlar hesabının diqqət çəkən mühüm elementi məhz xidmətlər balansıdır (şəkil 9). Xidmətlər balansında diqqəti cəlb edən əsas məqam ondan ibarətdir ki, yüksək iqtisadi artım və rifahın yüksəlməsi xidmətlər balansında kəsirin böyüməsi ilə nəticələnmişdir. Belə ki, 2010-2015-ci illər ərzində balans üzrə kəsir 2 dəfə artmış, 2 milyard ABŞ dollarından 4 milyard ABŞ dollarına çatmışdır. Lakin buna baxmayaraq, bəzi xidmətlər üzrə artım müşahidə edilmişdir.

[16] Göstəricilər Mərkəzi Bankın tədiyə balansının məlumatlarına əsaslanır.


Şəkil 9. Xidmətlər balansında dəyişiklik



Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

Azərbaycanın tədiyə balansının təhlili onu göstərir ki, dövr ərzində ölkənin xarici iqtisadi mövqeyi güclənmişdir. Lakin eyni dövr ərzində tədiyə balansından neft sektoru göstəricilərinin təmizlənməsi fərqli bir mənzərə formalaşdırır. Belə ki, 2004-2014-cü illər ərzində qeyri-neft sektoru üzrə CƏB kəsiri kumulyativ olaraq 56 milyard ABŞ dolları olmuş, dövrün əvvəli ilə müqayisədə 2014-cü ildə kəsir 5 dəfə yüksəlmişdir. Bu, onu göstərir ki, yüksək neft gəlirləri ölkə iqtisadiyyatının qeyri-neft sektorunun idxaldan asılılığını artırmış, qeyri–neft büdcə dinamikasını nəzərə aldıqda, "əkiz kəsirlər" problemini əmələ gətirmişdir. Formalaşmış bu konyunktur şərait məzənnə siyasətinin çevikliyi və potensial səmərəliliyi, o cümlədən xarici valyuta ehtiyatlarının akkumulyasiyası məsələləri üzərində müəyyən risklər əmələ gətirmişdir.

Şəkil 10. Azərbaycan üzrə adambaşına ixrac göstəricisi *(min ABŞ dolları ilə, 2015)*




1. *2015-ci il üçün hesablamalar*
   İran barədə təhlillər yalnız ictimaiyyət üçün açıq olan məlumatlara əsaslanır

Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası, Beynəlxalq Valyuta Fondu

Azərbaycanın qeyri-neft ixracı 2004-2014-cü illərdə orta hesabla ildə 17 faiz artsa da, (2014-cü ildə 1,6 milyard ABŞ dolları) neft ixracından 16 dəfə, qeyri-neft idxalından 5 dəfə aşağıdır. Yəni qeyri-neft ixracı qeyri-neft idxalının maliyyələşdirilməsinə imkan verməmişdir ki, bu da qeyri-neft ixracının şaxələndirilməsini labüd edir (şəkil 11).

Şəkil 11. Adambaşına qeyri-neft/qaz ixracının müqayisəsi (*min ABŞ dolları ilə)*




Mənbə: Beynəlxalq Valyuta Fondu

Baxılan dövr ərzində Azərbaycanın qeyri-neft idxalı orta hesabla ildə 18 faiz artmışdır. 2011-ci ildən başlayaraq iqtisadi artımın nisbətən səngiməsi idxala da təsir etmiş və onun həcmi 1,4 milyard ABŞ dolları azalaraq, 2014-cü ildə 7,9 milyard ABŞ dolları, əhalinin hər nəfərinə düşən həcmi isə azalaraq, 900-1100 ABŞ dolları təşkil etmişdir.

İxracda olduğu kimi, Azərbaycanın adambaşına qeyri-neft və qaz idxalı da artmaqdadır. 2004-cü ildən 2015-ci ilə qədər bu idxal ildə 10 faiz artmışdır (şəkil 12). Bu artım Türkiyə üzrə orta illik göstəricidən (7 faiz) çox olsa da, Azərbaycanla təqribən eyni müqayisə nöqtəsindən başlayan, lakin ildə 15 faizlik artım nümayiş etdirən Gürcüstandan zəif olmuşdur (təqribən adambaşına 300-400 ABŞ dolları).

Şəkil 12. Azərbaycanda adambaşına düşən qeyri-neft/qaz idxalının müqayisəsi *(min ABŞ dolları ilə)*



Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası, Beynəlxalq Valyuta Fondu

2004-cü ildən bəri Azərbaycan iqtisadiyyatında güclü inkişaf meyilləri ilə yanaşı, ixracın şaxələnmə səviyyəsinin azalması da müşahidə edilmişdir. Eyni zamanda, ixrac məhsullarının çeşidliliyi də aşağı düşmüşdür.[17] Belə ki, "The Observatory of Economic Complexity" hesabatına görə 2004-cü ildə Azərbaycan ixracda 56 adda rəqabətqabiliyyətli məhsulla təmsil olunurdusa, 2014-cü ildə cəmi 23 adda rəqabətqabiliyyətli əmtəəsi ilə "ixracın çoxşaxəliliyi" indeksinə görə dünyada 108-ci yerdə olmuşdur. Azərbaycanın ticarət tərəfdaşları olan Gürcüstan 106 adda rəqabətqabiliyyətli əmtəə ixracı ilə dünya üzrə 66-cı yerdə, Türkiyə isə 380 adda müvafiq əmtəə ilə dünyada 51-ci yerdə qərarlaşmışdır.

2014-cü il üzrə "The Observatory of Economic Complexity" hesabatına görə, Azərbaycan ixracın həcminə görə dünyada 144 ölkə arasında 70-ci yerdə qərarlaşmışdır.

Gələcəkdə idxaldan asılılığı minimuma endirmək və yerli məhsullarla özünü təminetmə səviyyəsini daha da yüksəltmək məqsədilə rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının təşviqi sahəsində Azərbaycan hökuməti qanunvericilik bazasında bir sıra mühüm dəyişiklik həyata keçirmişdir. "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2016-cı il tarixli 1713 nömrəli Sərəncamı və "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli 811 nömrəli Fərmanı ölkənin ixracının şaxələndirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsinə təkan verəcəkdir.

[17] http://atlas.media.mit.edu/en/profile/country/aze/

İqtisadi artım amilləri: insan kapitalının keyfiyyəti

Dünya İqtisadi Forumunun hazırladığı İnsan Kapitalı İndeksinə (2015-ci il) əsasən, Azərbaycan 124 ölkədən 63-cüdür. Yuxarı-orta gəlirli 30 ölkə üzrə Azərbaycan insan kapitalına görə 15-ci yerdədir. Bu gəlir qrupuna daxil olan ölkələr üzrə ən yaxşı göstərici isə Macarıstan və Qazaxıstana məxsusdur. Azərbaycanda fərqli yaş qrupları üzrə ən aşağı keyfiyyət göstəricisi (təhsil və məşğulluq) 15–24 yaş qrupuna, ən yuxarı göstərici isə 55–64 yaş qrupuna aiddir. Bu, o deməkdir ki, ölkənin ən ixtisaslı kadr potensialı yaşlı nəsil arasında, ən zəif kadrlar isə gənclər arasındadır. 25–54 yaş qrupunda ixtisaslı kadrların mövcudluğu göstəricisinə görə ölkəmiz dünyada 85-ci yerdədir.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2014-cü ildə ölkə üzrə məşğulluğun 36,7 faizinin kənd təsərrüfatının payına düşməsinə baxmayaraq, ali və orta ixtisas təhsili müəssisələrində oxuyan 218690 tələbədən cəmi 2658 nəfəri kənd təsərrüfatı ixtisasları üzrə təhsil alır. Bu sahə üzrə ixtisaslı mütəxəssislərin azlığı kənd təsərrüfatında aşağı məhsuldarlığın ən əsas səbəblərindən biridir.

Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik Hesabatına (2016) əsasən, Azərbaycan 144 ölkə arasında ali təhsil və təlimin keyfiyyəti göstəricisinə görə 78-ci yerdə, ali təhsilə cəlb olunma üzrə 94-cü yerdə, işçi heyətinin təlimi üzrə 82-ci yerdə, ibtidai təhsilin keyfiyyəti göstəricisi üzrə isə 81-ci yerdədir. Bu baxımdan, məhsuldarlıq-əsaslı inkişaf modelinə keçid çağırışları fonunda ən mühüm təkmilləşdirmə istiqamətlərindən biri də insan kapitalının hazırlanması prosesinin keyfiyyətinin daha da yüksəldilməsidir.

3.3. Yüksək iqtisadi artımın təmini: makroiqtisadi siyasət

2004-2014-cü illər ərzində Azərbaycanda yürüdülən makroiqtisadi siyasətin hər iki istiqaməti - fiskal və pul-məzənnə siyasətləri iqtisadi artımın dəstəklənməsinə yönəlmişdir. Dövr ərzində Azərbaycan makroiqtisadi sabitlik göstəricilərinə görə qlobal miqyasda qabaqcıl mövqelərdə qərarlaşmış, əldə edilmiş iqtisadi siyasət uğurları ölkənin biznes–investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə yüksəltmişdir. Ötən dövr üzrə makroiqtisadi siyasətin təhlili onu göstərir ki, iqtisadi siyasətin formalaşdırılması və reallaşdırılmasında neft ən mühüm amil olmuşdur.

İqtisadi artım mühərriki: fiskal genişlənmə


Azərbaycan iqtisadiyyatının sıçrayışlı artım dövründə iqtisadi artıma yüksək ötürücülüyə malik ən mühüm siyasət istiqaməti fiskal siyasət olmuşdur. Fiskal göstəricilər dövr ərzində əhəmiyyətli dərəcədə yaxşılaşmış, dövlət maliyyəsinin iqtisadi artıma töhfəsi ciddi şəkildə artmışdır.

İrihəcmli dövlət maliyyə resurslarından istifadə edilməsi nəticəsində yüksək keyfiyyətli sosial–iqtisadi infrastruktur qurulmuş, iqtisadi aktivlik yüksəlmiş, bank–maliyyə sektorunda əhəmiyyətli dərəcədə canlanma müşahidə olunmuşdur.

2004-2014-cü illərdə dövlət büdcəsinin xərcləri 12,5 dəfə artmış, xərclərin ÜDM-ə nisbəti isə 14 faiz bəndi artaraq 32 faizə yüksəlmişdir. Fiskal genişlənmə əsasən büdcənin kapital xərcləri hesabına artmışdır. Belə ki, bu dövrdə cari xərclər 8 dəfə artdığı halda, kapital xərcləri 41,5 dəfə, büdcə gəlirləri isə 12 dəfə artmışdır. Lakin xüsusi diqqət çəkən məqam ondan ibarətdir ki, qeyri-neft gəlirlərinin ümumi gəlirlərdə xüsusi çəkisi 30 faiz bəndi azalaraq, 64 faizdən 34 faizə düşmüşdür. Gəlirlərin

artımının əsas hərəkətverici amili Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF) transfertlərin həcminin artması olmuşdur. Bu dövrdə transfertlərin həcmi 72 dəfə artaraq, 130 milyon manatdan 9,3 milyard manata çatmışdır. Bütövlükdə, büdcənin neft gəlirlərinin payı (neft sektorundan vergi daxilolmaları ilə birlikdə) 36 faizdən 66 faizə yüksəlmişdir. Qeyri-neft gəlirləri qrupuna daxil olan vergilər, gömrük daxilolmaları və sair daxilolmalar isə 7 dəfə yüksələrək, 966 milyon manatdan 6.3 milyard manata çatmışdır.[18]

Şəkil 13. Dövlət borcunun məbləği və büdcə kəsirinin səviyyəsi




Mənbə: “Ekonomist” jurnalının analitika şöbəsi, ARDNF

Dövlət büdcəsi 2004-2014-cü illərdə, demək olar ki, kəsirsiz icra edilmişdir (şəkil 13). Dünya İqtisadi Forumunun 2015-ci il üzrə hesabatına əsasən, Azərbaycan büdcə balansının ÜDM-ə nisbətinə görə dünyanın 144 ölkəsi arasında 16-cı yerdə, dövlət borcunun ÜDM-ə nisbətinə görə isə 14-cü yerdə qərarlaşmışdır (şəkil 14).

[18] Bu abzasda istifadə olunan göstəricilər Dövlət Statistika Komitəsinin və Maliyyə Nazirliyinin məlumatlarına əsaslanır.

Şəkil 14. Azərbaycanın fiskal vəziyyətinin müqayisəsi




1. *2013-cü ilin məlumatları (Malta və Lüksemburq daxil edilmədən). ÜDM-in həcminə düzəlişlər edilməmişdir*

Mənbə: "Ekonomist" jurnalının analitika şöbəsi

ARDNF-dən transfertlərin yüksək payı hesabına formalaşmış büdcə gəlirlərindən neft amilinin təmizlənməsi bir sıra fiskal çağırışların mövcudluğunu əyani şəkildə göstərir (şəkil 15). Belə ki, qeyri-neft büdcə kəsirinin qeyri-neft ÜDM-ə nisbəti 2004-cü ildəki 11 faizlik göstəricidən 2014-cü ildə 37 faizə yüksəlmişdir. Qeyd etmək lazımdır ki, bu göstərici özünün pik səviyyəsinə – 61 faizə 2008-ci ildə çatmış, daha sonrakı illərdə tədricən azalma meyilli olmuşdur. Qeyri-neft daxilolmaları dövlət büdcəsinin cari xərclərinin cəmi 60 faizlik (2014) hissəsini maliyyələşdirməyə imkan vermişdir.

Dövlət maliyyəsinin ən mühüm həlqələrindən biri də məhz ARDNF-dir. İrimiqyaslı neft layihələrinin reallaşdırılması nəticəsində 2015-ci ilin sonunadək fondun gəlirlərinin həcmi 98 milyard ABŞ dolları olmuşdur. Gəlirlərin 65 faizi və ya 64 milyard ABŞ dolları dövlət büdcəsinə transfertlər formasında ölkə iqtisadiyyatının inkişafına yönəldilmişdir. ARDNF-in ehtiyatlarından 6,3 milyard ABŞ dolları həcmində vəsait infrastruktur və sosial layihələrin maliyyələşdirilməsinə sərf edilmişdir ki, bu da iqtisadi aktivliyin yüksəlməsinə töhfə vermişdir.

Şəkil 15. Büdcə balansının ARDNF-in transfertlərindən asılılığı *(ÜDM-ə nisbəti, faizlə)*



1. Yalnız vergi gəlirləri, digər gəlirlər daxil edilmir

Mənbə: Dövlət Statistika Komitəsi, Maliyyə Nazirliyi

Vergi dərəcələrinin rəqabətqabiliyyətliliyi baxımından Azərbaycan region dövlətlərindən aşağı mövqeyə malikdir. Belə ki, cəmi vergi ödənişləri dərəcəsi Azərbaycanda 39,8 faiz təşkil etdiyi halda, bu göstərici Gürcüstanda 16,4 faiz, Qazaxıstanda 29,2 faizdir. Dünya Bankının məlumatına görə, 2014-cü ildə Azərbaycanda idxal xərcləri (1 konteyner üzrə) 3450 ABŞ dolları təşkil etmiş, lakin bu göstərici Türkiyədə 1235 ABŞ dolları, Gürcüstanda 1595 ABŞ dolları, Rusiyada isə 2595 ABŞ dolları həcmində olmuşdur. Dünya İqtisadi Forumunun 2015-ci il hesabatına görə, Azərbaycan "Gömrük prosedurlarının biznes üzərində yükü" indeksinə görə dünyada 144 ölkə arasında 122-ci yerdə bərqərar olmuşdur.

Fiskal siyasətin texnokratik istiqamətləri üzrə və dövlət investisiyalarının idarə edilməsinin keyfiyyəti göstəricilərinə görə əsas ticarət tərəfdaşları ilə müqayisədə bir sıra çağırışlar mövcuddur.

Fiskal idarəetmə ilə bağlı digər diqqət çəkən məqam dövlət büdcəsinin icrasında aylar üzrə müəyyən qeyri–mütənasibliyin mövcudluğudur. Bir çox illərdə dövlət büdcəsinin dekabr ayında icrası digər aylarla müqayisədə əhəmiyyətli səviyyədə çox olur ki, bu da öz növbəsində iqtisadiyyatda müəyyən natarazlıqlar formalaşdırır.


Yüksək neft qiymətləri və gəlirləri dövründə ciddi fiskal genişlənmə fiskal siyasətin pro–tsiklik xüsusiyyəti haqda qənaətin formalaşdırılmasına imkan verir. Fiskal dayanıqlılığı və fiskal multiplikatorun yüksək həddini təmin edə bilən səmərəli qaydaların tətbiqi fiskal idarəetmənin keyfiyyətinin daha da yüksəldilməsi baxımından mühüm çağırış olaraq qalır.

İqtisadi artım mühərriki: *pul və məzənnə siyasəti*

Yüksək neft gəlirlərindən dövlət maliyyə kanalları vasitəsilə inkişaf məqsədləri üçün istifadənin pul və məzənnə siyasəti üzərində də əhəmiyyətli təsirləri olmuşdur. 2004-2014-cü illər ərzində pul siyasəti göstəricilərində artan dinamika müşahidə edilmiş, ölkədə maliyyə aktivliyi yüksəlmişdir.

Beynəlxalq Valyuta Fondunun hesabatına görə, həmin dövrdə Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) pul siyasəti rejimi de–fakto məzənnənin hədəflənməsi olmuşdur. Məhz bu dövrdə məzənnə sabitliyi istehlak səbətində idxal məhsullarının əhəmiyyətli payını nəzərə almaqla, idxal inflyasiyasının qarşısının alınmasına imkan vermişdir (şəkil 16).

Şəkil 16. Azərbaycanda inflyasiya səviyyəsinin dinamikası



Mənbə: Dövlət Statistika Komitəsi

Mərkəzi Bankın məlumatlarına əsasən, 2004-2014-cü illərdə Azərbaycanda milli valyuta ilə pul təklifi-pul bazası 18 dəfə artaraq, 640 milyon manatdan 11,5 milyard manata çatmışdır. Dövriyyədə olan pul 21 dəfə, bankların müxbir hesablarında izafi likvid vəsaitlərin həcmi isə 3,3 dəfə yüksəlmişdir.

Manatla geniş mənada pul kütləsi (M2) 25 dəfə artaraq 17 milyard manata çatmışdır. Bu dövrdə iqtisadiyyatın monetizasiyası (M2/ÜDM) 8 faizdən 30 faizə yüksəlmişdir. İqtisadiyyata bank sektoru tərəfindən verilmiş kreditlərin həcmi 19 dəfə artaraq, 18 milyard manat təşkil etmiş, ÜDM-də xüsusi çəkisi isə 30 faizə çatmışdır.

Bank sektorunda yerləşdirilmiş əmanətlərin həcmi də dövr ərzində yüksək dinamikaya malik olmuşdur. Əmanətlərin həcmi 2004-2014-cü illərdə 11 dəfə artmışdır ki, bu da bank sektoruna etimadın yüksəlməsi ilə də izah edilə bilər. Bu dövrdə dollarlaşma (xarici valyutada əmanətlərin ümumi əmanətlərdə xüsusi çəkisi) 44 faiz bəndi aşağı düşərək, 36 faiz təşkil etmişdir.


Dövr ərzində dominant fiskal siyasət fonunda ekspansiv pul siyasətinin aparılmasına yüksək neft gəlirlərindən aktiv şəkildə istifadə edilməsinin dolayı təsirləri olmuşdur. Dövlət büdcəsinə ARDNF-dən irihəcmli transfertlər maliyyə bazarında izafi xarici valyuta kütləsi formalaşdırmış, AMB isə öz növbəsində milli valyutanın kəskin bahalaşmasına yol verməmək məqsədilə izafi valyuta təklifini sterilizasiya etmişdir. Nəticədə, manatla pul təklifi transfertlərin artım dinamikasına yaxın tempdə artmış, AMB iri həcmdə xarici valyuta ehtiyatları akkumulyasiya etmişdir.

Pul siyasətinin mühüm göstəricilərindən olan pul multiplikatorunun dinamikasında isə əhəmiyyətli artım olmamışdır. 2004-cü ildə 1,04 vahidə bərabər olan pul multiplikatoru 2014-cü ilin sonu üzrə cəmi 0,44 bənd artaraq 1,51 vahidə bərabər olmuşdur. Bunun da əsas səbəbi monetar dərinliyin artımının pul təklifinin artımına adekvat tempdən geri qalması olmuşdur.

Pul siyasətinin iqtisadiyyata ötürücülüyünün qiymətləndirilməsi əsnasında diqqət edilməli olan məqamlardan biri də pul kütləsinin strukturudur. 2014-cü ilin sonuna dövriyyədə olan nağd pul (M0) 10,2 milyard manat, M1 pul kütləsi 12,8 milyard manat, M2 pul kütləsi 17,4 milyard manat, M3 pul kütləsi isə 21,6 milyard manat təşkil etmişdir. Pul siyasətinin ötürücülüyünün səmərəliliyi üçün mühüm şərtlərdən biri nağd pul kütləsinin manatla geniş mənada pul kütləsinin (M2) həcmində payının aşağı olmasıdır. Bu göstərici 2014-cü ildə 58,2 faiz olmuşdur və 2004-cü illə müqayisədə 10 faiz bəndi azalsa da, hələ də öz yüksək həddini qoruyur. AMB tərəfindən ödəniş sistemlərinin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülsə də, iqtisadiyyatın nağdlaşma səviyyəsi hələ də yüksək olaraq qalır.

İqtisadiyyatda dollarlaşmanın səviyyəsi də pul siyasətinin ötürücülüyünə təsir edən ən mühüm amillərdən biridir. 1990-cı illərin əvvəllərində maliyyə–bank sistemində baş verən neqativ proseslər bank sisteminə etimadın zəifləməsi ilə nəticələnmişdir. Lakin 90-cı illərin ikinci yarısından etibarən aparılan iqtisadi islahatlar, milli valyutanın məzənnəsinin sabitləşməsi dollarlaşma göstəricisini əhəmiyyətli dərəcədə aşağı salmağa imkan vermişdir. 2004-cü ildə 80 faiz olan dollarlaşma göstəricisi 2014-cü ildə 36 faizə qədər azaldılmış, bu da öz növbəsində pul siyasətinin potensial manevr imkanlarını artırmışdır (şəkil 17).

Şəkil 17. İqtisadiyyatda dollarlaşma tendensiyası (*milyard manatla*)



Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı

Pul siyasətinin ötürücülüyünün yüksəldilməsi baxımından digər mühüm şərt banklararası pul bazarının inkişaf etdirilməsidir. Banklararası pul bazarı Mərkəzi Bankın faiz dəhlizi çərçivəsinin iqtisadiyyata təsir kanalının ötürülməsində ən mühüm həlqə hesab edilir. Faiz dəhlizində dəyişikliklərin pul bazarında əməliyyatların dəyəri və həcminə təsir imkanlarının məhdudluğu pul siyasətinin iqtisadiyyata ötürücülüyünə də mənfi təsir etmiş olur. Bu baxımdan, Azərbaycan maliyyə–bank sistemində pul bazarının daha yüksək səviyyədə inkişaf etdirilməsi çağırışı qalmaqdadır.

Müasir iqtisadiyyatın daha çox davranış iqtisadiyyatına meyil etməsi, o cümlədən maliyyə–bank xidmətləri istehlakçılarının informasiyaya çıxış imkanlarının genişlənməsi diqqətin pul siyasətinin şəffaflığı və hesabatlılığı üzərində fokuslanmasını labüd edir. Pul siyasətinin hesabatlılıq və şəffaflıq göstəricilərini mütərəqqi mərkəzi bankçılıq meyarları üzrə qiymətləndirdikdə, nəticə qənaətbəxş səviyyədədir. Bununla belə, keyfiyyət parametrləri üzrə çox sürətlə dəyişən gözləntilər kanalının üzərində diqqətin daim artırılması, pul siyasətinə olan etimadın yüksəldilməsi kimi vəzifələr ən mühüm çağırış olaraq qalmaqdadır.

2004-2014-cü illər ərzində pul siyasətinin nailiyyətlərindən biri də iri neft gəlirlərindən istifadə ilə müşayiət olunmuş sıçrayışlı iqtisadi artım dövründə milli valyutanın həddindən artıq möhkəmlənməsinə yol verilməməsi olmuşdur. Bu dövrdə pul siyasətinin əsas rejimi kimi məzənnənin hədəflənməsi rejiminin seçilməsi mahiyyət etibarilə həmin iqtisadi tsikl üçün adekvat olmuşdur. Bu iqtisadi tsikldə yüksək neft qiymətləri və artan neft ixracı ölkə iqtisadiyyatının xarici balansının əhəmiyyətli yaxşılaşması ilə müşayiət olunmuş, məzənnə siyasətinin ən mühüm hədəflərindən

olan iri həcmdə xarici valyuta ehtiyatlarının akkumulyasiyası baş vermişdir. Xarici valyuta ehtiyatlarına qarşı olan beynəlxalq tələblər (3 aylıq idxala, M2 pul aqreqatına nisbət) baxımından, AMB-nin malik olduğu ehtiyatlar həmin tələbləri dəfələrlə aşmışdır. Bununla belə, məzənnə dinamikasının qiymətlərə ötürücülüyünün aşağı səviyyədə saxlanılması, digər tərəfdən məzənnə siyasətinin xarici sektorun tənzimlənməsinə təsir imkanlarının əhəmiyyətli səviyyədə genişləndirilməsi mühüm vəzifə olaraq qalmaqdadır.

3.4. Yeni iqtisadi mərhələ: aşağı neft qiymətləri dövrü

2014-cü ilin sonlarından etibarən dünya əmtəə bazarında neft qiymətlərində kəskin enmələr müşahidə edilməyə başladı. 2014-cü ilin sonunda Brent markalı neftin dünya bazarında qiyməti ilin əvvəli ilə müqayisədə 44 faiz aşağı düşmüş, dövrün sonuna 62 ABŞ dolları təşkil etmişdir.[19] Neft qiymətləri ilə birlikdə Azərbaycanın əsas ticarət tərəfdaşları olan ölkələrdə iqtisadi aktivliyin azalması və milli valyutaların dəyərsizləşməsi də ölkə iqtisadiyyatına neqativ təsir etmiş, maliyyə-bank bazarında psixoloji gərginliyin yüksəlməsinə səbəb olmuşdur.

Yeni iqtisadi reallıqların milli iqtisadiyyata mənfi təsirlərini minimuma endirmək, xarici və daxili balansı korreksiya etməklə makroiqtisadi sabitliyi qorumaq Azərbaycan dövlətinin əsas prioritetlərindən biri olmuşdur. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan institusional islahatların əhatə dairəsi daha da genişləndirilmiş, həmçinin iqtisadiyyatın dövlət tənzimləməsi – vergi və gömrük idarəetməsinin daha da təkmilləşdirilməsi istiqamətində səmərəli addımlar atılmışdır. Aparılan islahatların təsiri qısa müddətdə biznes və investisiya aktivliyində müşahidə edilmiş və bu təsirin çoxşaxəli səmərəsinin ortamüddətli dövrdə daha da artacağı gözlənilir.


Ucuz neft qiymətləri dövrünün başlanması Azərbaycan iqtisadiyyatı qarşısında əhəmiyyətli çağırışlar formalaşdırmış oldu. Belə ki, yeni şəraitin milli iqtisadiyyata əsas təsir kanalları xarici balans (tədiyə balansı), daxili balans (dövlət maliyyəsi, o cümlədən strateji valyuta ehtiyatları; özəl investisiya tələbi → iqtisadi artım → makroiqtisadi sabitlik), o cümlədən bank-maliyyə sektoru (maliyyə sabitliyi) olmuşdur.

Ölkənin *xarici balansı* ucuz neft qiymətlərindən ən yüksək təsirlənmiş iqtisadi həlqə olmuşdur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2015-ci ildə xarici ticarət (əmtəə) dövriyyəsi 33,3 faiz azalaraq, 20,7 milyard ABŞ dolları, 2016-cı ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrünə nəzərən 24,9 faiz azalaraq 11,3 milyard ABŞ dolları təşkil etmişdir. 2015-ci ilin yekunu üzrə xarici ticarət saldosu 2,2 milyard ABŞ dolları (5,7 dəfə azalma), 2016-cı ilin yanvar–avqust aylarında isə 250,3 milyon ABŞ dolları olmuşdur.

2015-ci ildə ölkənin tədiyə balansında CƏB üzrə 2004-cü ildən bəri ilk dəfə olaraq kəsir (222 milyon ABŞ dolları) yaranmışdır. Kəsirin əsas mənbəyi ticarət balansı üzrə saldonun 3 dəfədən çox azalaraq, 19 milyard ABŞ dollarından 6 milyard ABŞ dollarına düşməsi olmuşdur (şəkil 18).

[19] Mənbə: “Ekonomist” jurnalının analitika şöbəsi

Şəkil 18. Neft qiymətlərinin neft gəlirlərinə və cari hesab balansına təsiri




Mənbə: “Ekonomist” jurnalının analitika şöbəsi, ARDNF, Maliyyə Nazirliyi

Tədiyə balansının digər mühüm elementi olan kapital və maliyyənin hərəkəti hesabının balansı CƏB üzrə kəsiri maliyyələşdirməyə imkan verməmiş, bu hesab üzrə kəsir 3 dəfə artaraq 9 milyard ABŞ dollarına çatmışdır.

Xarici sektor üzrə formalaşmış çərçivənin yaxşılaşdırılması, xarici balansın yeni dövrün reallıqları əsasında bərpa edilməsi, o cümlədən daxili iqtisadi balansa neqativ təsirlərin minimuma endirilməsi məqsədilə milli valyuta 2015-ci il ərzində 2 dəfə korreksiya edilmiş, ilin sonunda 1 ABŞ dollarının manata qarşı məzənnəsi ilin əvvəlindəki 0,78 manatdan 1,55 manatadək bahalaşmışdır (şəkil 19).

Şəkil 19. Manatın məzənnəsinin aşağı düşməsinə təsir edən amillər



1. 2016-cı ilin may ayının sonuna
2. ARDNF-in 33,6 milyard ehtiyatları daxil deyil
3. Maliyyə Nazirliyinin ilin sonuna hesablamaları

Mənbə: Azərbaycan Mərkəzi Bankı, "Ekonomist" jurnalının analitika şöbəsi, Maliyyə Nazirliyi

Milli valyutanın ucuzlaşmasının tədiyə balansının yeni səviyyədə tarazlanmasına qismən təsiri olmuşdur. Belə ki, xarici ticarət balansı üzrə qeyri–neft idxalı cəmi 7 faiz azalmışdır. Lakin məzənnənin korreksiyasına baxmayaraq, ölkədə irimiqyaslı yeni neft layihələrinin icrası səbəbilə neft sektorunun idxalı 1,7 dəfə artmışdır. Bütövlükdə, qeyri–neft sektoru üzrə CƏB kəsiri isə 1 milyard ABŞ dollarına yaxın səviyyədə azalmışdır.


Ucuz neft dövrünün formalaşdırdığı yeni konyunktur şərait *dövlət maliyyəsinə* də öz təsirini göstərmişdir (şəkil 20). Dövlət maliyyəsinin mühüm həlqəsi olan ARDNF-in gəlirləri 2015-ci ildə 38 faiz və ya 4,9 milyard manat azalmışdır. Digər tərəfdən milli valyutanın korreksiyası dövlət büdcəsinə transfertlərin həcmində xarici valyuta ehtiyatlarına qənaət imkanları vermişdir.

Mərkəzi Bankın məlumatlarına əsasən, ölkə üzrə cəmi strateji valyuta ehtiyatları 2015-ci ildə 24,4 faiz və ya 12,5 milyard ABŞ dolları azalaraq, 38,9 milyard ABŞ dolları olmuşdur. O cümlədən Neft Fondunun ehtiyatları 9,1 faiz (3,3 milyard dollar) azalaraq dövrün sonuna 33,6 milyard dollar təşkil etmişdir.

Yeni dövrün reallıqlarına uyğun olaraq, Azərbaycan hökuməti dövlət maliyyəsinin bütövlüyünü təmin etmək məqsədilə fiskal konsolidasiya tədbirlərinə qərar vermişdir. Belə ki, 2016-cı il üçün dövlət büdcəsində nəzərdə tutulan kapital xərclər əhəmiyyətli səviyyədə azaldılmışdır. Fiskal konsolidasiya öz–özlüyündə müsbət meyil olsa da, dövlət investisiyalarından yüksək asılılığa malik olan iqtisadi aktivliyin azalması bu mənada qaçılmazdır. Lakin ortamüddətli dövrdə iqtisadi artımın

dövlət tələbindən özəl tələbə transformasiya edilməsi aspektində fiskal konsolidasiyanın iqtisadi siyasət alternativi mövcud deyildir.

Şəkil 20. ARDNF-in transfertlərinin azalmasının büdcə balansına təsiri




1. Faktiki deyil, büdcədə nəzərdə tutulan tikinti xərclərinə əsasən hesablanmışdır

Mənbə: Maliyyə Nazirliyi, Azərbaycanın illik büdcə qanunvericiliyi

Dövlət maliyyəsinə yeni dövrün formalaşdırdığı neqativ təsir kanallarından biri də məzənnə korreksiyası nəticəsində dövlət və dövlət zəmanətli xarici borc ödənişləri üzrə fiskal yükün artımıdır.

Neftin qiymətinin aşağı düşməsinin mənfi təsirləri məcmu özəl tələbin (investisiya və daha çox istehlak) maliyyələşdirilməsi kanallarından biri olan *bank sektorundan* da yan keçməmişdir. Məcmu tələbin daralması, eyni zamanda məzənnənin korreksiyası bankların gəlirli fəaliyyət dairəsini kifayət qədər məhdudlaşdırmışdır. İqtisadiyyatda mövcud risklər bankları yüksək səviyyədə mühafizəkar kredit siyasətinə vadar edir ki, bunun da nəticəsində izafi likvidlik–aşağı gəlirlilik (bəzi hallarda zərər) formalaşır.


Şəkil 21. Beynəlxalq risklər



Mənbə: Bloomberg

Moody's reytinq agentliyinin tədqiqatının nəticələrinə görə, dövlət büdcəsinin kapital xərclərinin dinamikası ilə qeyri-işlək kreditlərin dinamikası arasında tərs mütənasib əlaqə vardır (şəkil 21). Bu isə fiskal konsolidasiya şəraitində maliyyə sabitliyi üçün risk deməkdir.

Şəkil 22. Qeyri-işlək kreditlər əmsalının müqayisəsi




1. *Qeyri-işlək kreditlər (məqsədli ehtiyatlar nəzərə alınmadan) cəmi kredit portfelinə bölünməklə hesablanır*
2. *Dünya Bankının məlumatları mövcud olmadığına görə Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları*

Mənbə: Dünya Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası, Azərbaycan Respublikası Mərkəzi Bankı

Yeni dövrün bank sektoruna, eyni zamanda pul siyasətinin iqtisadiyyata səmərəli ötürücülüyünə neqativ təsirlərindən biri də iqtisadiyyatda dollarlaşma meyillərinin yenidən vüsət almasıdır.

2015-ci ilin sonunda iqtisadiyyatda dollarlaşma səviyyəsi yenidən kəskin şəkildə artmışdır (şəkil 17). Bu isə öz növbəsində iqtisadi siyasətin manevr imkanlarına məhdudlaşdırıcı təsir etməklə yanaşı, bankların valyuta mövqeyinin zəifləməsinə də səbəb ola bilər (şəkil 23).

Şəkil 23. Bank sektorunda kredit faizləri, borc səviyyələri və qeyri-işlək kredit əmsalı



1. *2011-2015-ci illər üzrə qeyri-işlək kreditlər ödəmə müddəti 90 gündən artıq gecikdirilmiş cəmi aktivlərin əsasında hesablanmışdır. 2005-2010-cu illər üzrə qeyri-işlək kreditlər Mərkəzi Bankın qeyri-işlək kreditlər üzrə məlumatlarına əsasən hesablanmışdır ki, bu məlumatlar da ödəmə müddəti 90 gündən artıq gecikdirilmiş cəmi aktivlərin bir hissəsinə əsasən hesablanmışdır.*

Mənbə: Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Mərkəzi Bankı

Ucuz neft qiymətlərinin neqativ təsirlərinin daxili balansa təsir kanalları vasitəsilə reallaşması *iqtisadi artımın dinamikasında* da öz əksini tapmışdır. Rəsmi statistik məlumatlara əsasən, 2015-ci ildə ÜDM-in real artımı 1,1 faiz (2014-cü ildə 2,8 faiz) olmuş, o cümlədən qeyri-neft sektorunda 1,1 faiz (2014-cü ildə 7 faiz), neft sektorunda isə 1,2 faiz (2014-cü ildə 2,9 faiz azalma) artım müşahidə edilmişdir. 2016-cı ilin yanvar-avqust aylarında isə ÜDM real ifadədə 3,1 faiz azalmış, o cümlədən qeyri-neft sektorunda 5,8 faiz azalmış, neft sektorunda isə 2,5 faiz artmışdır.

2016-cı ilin sentyabr ayında *inflyasiya* ilin əvvəlinə nisbətən 8,9 faiz, orta illik inflyasiya 11,2 faiz, son 12 ayda 14,3 faiz olmuşdur. İlin əvvəlindən ərzaq məhsulları 10,9 faiz (orta illik 12,7 faiz), qeyri-ərzaq malları 10,4 faiz (orta illik 15,9 faiz), xidmətlər isə 5,1 faiz (orta illik 5,2 faiz) bahalaşmışdır. İnflyasiya dinamikasında artım əsasən məzənnə amili ilə əlaqədar olaraq, daha çox idxal qiymətləri hesabına baş vermişdir. Hal-hazırda Azərbaycanın malik olduğu strateji valyuta ehtiyatlarının həcmi ÜDM-in 100 faizini ötmüşdür. [20]

3.5. İqtisadi vəziyyətin yekun qiymətləndirilməsi: GZİT təhlili

Azərbaycan iqtisadiyyatı 2004-2014-cü illər ərzində sıçrayışlı iqtisadi artım dövründə gələcək dövr üçün zəmin ola biləcək səviyyədə əhəmiyyətli iqtisadi artım potensialı əldə etmişdir. Ucuz neft qiymətlərinin neqativ təsirlərinin davam etdiyi

[20] Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı

şəraitdə belə, gələcək iqtisadi inkişaf üçün yeni artım yanaşmasına transformasiya üçün geniş zəmin vardır.

Güclü tərəflər	Zəif tərəflər
● strateji cəhətdən əhəmiyyətli coğrafi mövqe ● ictimai-siyasi sabitlik ● sosial sahələrin daim dövlətin diqqət mərkəzində olması ● vətəndaşlara dövlət xidmətlərinin göstərilməsi sahəsində effektivlik və şəffaflığın artırılması (“ASAN xidmət” mərkəzləri) ● sahibkarlığın inkişafına, ixracın stimullaşdırılmasına, iqtisadiyyatın şaxələndirilməsinə və əlverişli investisiya mühitinin yaradılmasına dövlət dəstəyi ● əhəmiyyətli enerji və nəqliyyat dəhlizi üzrə qlobal layihələrdə iştirak ● enerji və ərzaq təhlükəsizliyi baxımından özünü təminetmə səviyyəsinin qənaətbəxş olması ● dövlət borcunun, işsizlik səviyyəsinin və inflyasiyanın qənaətbəxş səviyyədə olması	● makroiqtisadi siyasətin pro-tsiklik olması ● iqtisadiyyatın və ixracın zəif şaxələndirilməsi ● ölkə iqtisadiyyatının neft-qaz gəlirlərindən asılılığı ● dövlət müəssisələrində və özəl sektorda korporativ idarəetmənin yetərli səviyyədə olmaması ● birbaşa xarici investisiyaların əsasən neft-qaz sektoruna yönəldilməsi ● xarici şokları absorbsiya imkanlarının zəif olması ● investisiya qoyuluşlarında dövlətin payının böyük olması, özəl təşəbbüskarlığın zəif dinamikası ● ixracın əsasən xammalyönümlü olması ● istehsal sahələrində idxaldan asılılıq ● qeyri-rəsmi məşğulluq səviyyəsinin yüksək olması ● insan kapitalının inkişafı üzrə zəif qlobal mövqe ● xidmət ixracının təşviqinin zəif olması
İmkanlar	**Təhlükələr**
● qlobal dəyər zəncirinə inteqrasiya, iqtisadiyyatın şaxələndirilməsi imkanları ● prioritet sahələr üzrə inkişaf imkanlarının olması ● qeyri-rezident sahibkarlara əlverişli biznes mühitinin yaradılması ● dövlət mülkiyyətində rentabellik səviyyəsi aşağı olan sahibkarlıq subyektlərinin özəlləşdirilməsində həm yerli, həm də xarici sahibkarların iştirakı üçün əlverişli şərait yaratmaqla, özəl investisiya qoyuluşlarının təşviq edilməsi ● məşğulluqda qeyri-dövlət sektorunun rolunun artması	● regiondakı geosiyasi gərginliyin artması ● fiskal yükün artması ● investisiyaların istehsal sahələrindən daha çox infrastruktur layihələrə cəlb edilməsi ● təbii ehtiyatların tükənməsi, yeni artım sahələrinin itkiləri kompensasiya etmə səviyyəsinin aşağı olması ● orta gəlir səviyyəsinə düşmək və ya daha aşağı gəlir qrupuna enmək

GZİT təhlilinin nəticələri göstərir ki, iqtisadi artımın əsas hərəkətverici amillərinin yeni iqtisadi yanaşma üzərinə transformasiyası üçün əhəmiyyətli üstün cəhətlər mövcuddur.

3.6. İqtisadi perspektivlər: baza ssenaridə proqnozlar

Mövcud artım yanaşmasının xarakteri, son 4 ildə müşahidə edilən dinamika, qlobal neft bazarında gözləntilər bu qənaəti formalaşdırır ki, Azərbaycan iqtisadiyyatı baza ssenaridə yaxın və ortamüddətli dövrdə bir sıra çağırışlarla üzləşəcəkdir.

Beynəlxalq Valyuta Fondunun 2016-cı il IV maddə üzrə missiyasının sentyabr ayında ictimaiyyətə təqdim edilmiş nəşrində, Azərbaycan iqtisadiyyatının aşağı neft qiymətləri dövründə qarşılaşdığı çağırışlar nəzərə alınaraq, baza ssenaridə makroiqtisadi çərçivə üzrə proqnozlar açıqlanmışdır (cədvəl 1).

Cədvəl 1. Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə proqnozları

Göstərici	2014	2015	Proqnoz				
			2016	2017	2018	2019	2020
(illik dəyişmə, faizlə)							
ÜDM, *sabit qiymətlərlə*	2,8	1,1	-2,4	1,4	2,3	2,9	2,5
Neft sektoru	*-2,4*	*0,3*	*-0,4*	*-0,1*	*3,0*	*4,3*	*1,0*
Qeyri-neft sektoru	*6,9*	*1,1*	*-3,6*	*2,4*	*1,8*	*2,0*	*3,4*
İnflyasiya, *orta illik*	1,5	4,1	10,2	8,5	4,2	4,1	4,0
Manatla pul bazası	-0,9	-40,2	17,0	21,7	16,2	12,3	12,5
Manatla geniş pul kütləsi, M2	6,1	-50,6	2,8	13,2	16,8	19,1	24,3
İxrac	-11,1	-44,8	-13,2	13,6	8,7	8,5	4,6
İdxal	-16,3	4,7	-13,7	10,9	10,7	2,3	2,3
Qeyri-neft büdcə kəsiri/qeyri-neft ÜDM (payı, faizlə)	-35,8	-34,4	-37,7	-32,6	-31,8	-28,3	-27,4

Mənbə: Beynəlxalq Valyuta Fondu

Proqnozlar göstərir ki, sıçrayışlı iqtisadi artım yanaşmasının əlavə dəyər formalaşdırma imkanları yeni konyunktur şəraitdə məhdudlaşır. İqtisadi aktivliyin zəifləməsi məşğulluğun azalması və dövlətin sosial yükünün artması ilə müşayiət olunur. Dövlətin investisiya aktivliyinə yüksək həssaslığı olan sektorlarda – tikinti, xidmət və ticarət sahələrində məşğulluğun fiskal konsolidasiya şəraitində artması gözlənilmir.

Baza ssenaridə qısamüddətli dövrdə özəl tələbin daralması şəraitində dövlət büdcəsinin qeyri-neft daxilolmalarının (vergi-gömrük) icrasında müəyyən çətinliklərin yaranması mümkündür. Eyni zamanda, özəl tələbin daralması sosial müdafiə xərclərinin maliyyələşdirilməsində dövlət büdcəsi üzərində yükün daha da artması ilə nəticələnə bilər.

3.7. Yeni iqtisadi artım yanaşması: strateji seçim

Ölkənin gələcək iqtisadi artımının hansı "artım nöqtələri" vasitəsilə təmin edilməsi mühüm strateji qərardır. Aktiv şəkildə kapital yığımı modelinin yeni strateji dövrdə əlavə dəyər formalaşdırma imkanlarının daralması nəticəsində gələcək artım yanaşması ilə bağlı ölkənin qarşısında iki seçim vardır:

a. əməktutumlu artım yanaşması

b. məhsuldarlıq-effektivlik əsaslı artım yanaşması

Qlobal dəyər zəncirinə inteqrasiya, iqtisadi artımın keyfiyyəti və dayanıqlılığı baxımından münasib və məntiqli zaman dövründə məhsuldarlıq-effektivlik əsaslı iqtisadi artım yanaşmasına transformasiya strateji seçim ola bilər. Lakin yaxın və ortamüddətli dövrdə hər iki modelin kombinasiyasından istifadə edilməsi strateji seçim yanaşmasına keçid müddətinin daha qısa vaxt ərzində reallaşdırılmasına imkan verə bilərdi.

Xüsusilə də nəzərə almaq lazımdır ki, Azərbaycanda regionlarda işçi qüvvəsi Bakı şəhərinə nisbətən əhəmiyyətli səviyyədə ucuzdur və bu da regionlarda əməktutumlu klaster inkişafı üçün böyük potensial formalaşdırır. Bununla belə, strateji seçim – məhsuldarlıq əsaslı artım yanaşmasının qurulmasıdır. Bunun üçün yüksək keyfiyyətli institusional mühit, əlçatan maliyyələşmə mənbələri, biznesin düzgün seqmentasiyası və ixtisaslaşması və ən başlıcası, intensiv şəkildə yüksəkixtisaslı insan kapitalının hazırlanması tələb olunur.

Yeni artım yanaşmasına keçid: prioritet addımlar

İstər yaxın və ortamüddətli, istərsə də uzunmüddətli dövr üçün strateji çağırışlara adekvat reaksiyalar üçün islahat gündəliyində genişmiqyaslı institusional islahatlar durur. Daha keyfiyyətli, effektiv və inklüziv institutlar biznes–investisiya mühitini yaxşılaşdırmaqla, yaxın perspektivdə ucuz neft qiymətləri dövrünün neqativ təsirlərini minimuma endirməyə, orta və uzunmüddətli dövrdə isə məhsuldarlıq əsaslı artım yanaşmasına keçidə münbit zəmin formalaşdıracaqdır.

İnstitusional islahatların aparılması üçün aşağıdakı addımların atılması zəruridir:

- ***Məhkəmə-hüquq islahatlarının davam etdirilməsi.*** Müstəqil məhkəmə institutunun möhkəmləndirilməsi, qanunun aliliyinin təmin edilməsi mülkiyyət hüquqlarının qorunmasının başlıca şərtidir. Bu istiqamətdə islahatların sürətləndirilməsi hazırkı və potensial investorlarda investisiyalarının qorunmasına, sərmayə müqabilində gəlir götürəcəklərinə olan inamı yüksəldəcəkdir.
- ***Qanunun aliliyinin gücləndirilməsi.*** Qanunvericiliyin təkmilləşdirilməsi, qanunların icrası mexanizmlərinin gücləndirilməsi və şəffaflaşdırılması, onların proqnozlaşdırılması imkanlarının artırılması və eyni zamanda, qanunvericilik təşəbbüslərinin dəstəklənməsi mexanizmlərinin genişləndirilməsi xüsusi aktuallıq kəsb edir.

- ***Biznes mühitinin yaxşılaşdırılması.*** Biznesin dövlət tənzimləmə mexanizmlərinin effektivliyinin artırılması, vergi-gömrük idarəetməsinin keyfiyyətinin daha da yüksəldilməsi, bazara daxilolma məhdudiyyətlərinin minimuma endirilməsi, eyni zamanda, azad rəqabət mühitinin təmin edilməsi biznes mühitinin yaxşılaşdırılmasına imkan verəcəkdir. Bununla yanaşı, dövlət sektorunun kommersiya fəaliyyətini (sənaye, nəqliyyat, rabitə, maliyyə xidmətləri və s.) məhdudlaşdırmaqla özəl təşəbbüskarlıq üçün imkanları genişləndirmək mühüm əhəmiyyət kəsb edir.

Yeni *artım yanaşmasının maliyyələşmə mənbələrinin* genişləndirilməsi islahatların gündəliyində duran mühüm məsələlərdəndir. İlk növbədə, dövlət və özəl maliyyələşmə mənbələrinin imkanlarının dəqiqləşdirilməsinə, xarici investisiya qoyuluşlarının ciddi şəkildə təşviq edilməsinə ehtiyac vardır.

- ***Dövlət maliyyələşdirməsi.*** İlk növbədə prioritet inkişaf sektorlarının müəyyənləşdirilməsi lazımdır. Bundan sonra, həmin sahələrə Sahibkarlığa Kömək Milli Fondu və digər maliyyə mənbələrinin vəsaitləri hesabına sahəvi kreditləşməni reallaşdırmaq mümkündür.
- ***Özəl yığımların investisiyaya yönəldilməsi.*** Biznes mühitinin yaxşılaşdırılması biznes və ev təsərrüfatlarının yığımlarının investisiya şəklində iqtisadiyyatın inkişafına yönəldilməsinə imkan verə bilər.
- ***Xarici maliyyələşmə mənbələrinin genişləndirilməsi.*** Ölkədə məhkəmə-hüquq islahatlarının sürətləndirilməsi, qanunun aliliyinin təmin edilməsi xarici investorların biznes təşəbbüslərinin genişlənməsinə təkan verə bilər. Bu islahatların aparılması ilə yanaşı, xaricdə intensiv şəkildə investisiya yarmarkalarının keçirilməsi, prioritet sektorlara investisiya qoyuluşlarında müəyyən imtiyazların verilməsi (daxili investorlarla eyni şərtlərlə) yeni artım yanaşmasının xarici mənbələr hesabına maliyyələşdirilməsini asanlaşdıra bilər.

Yeni artım yanaşmasının effektivliyinin təmin edilməsi üçün *iqtisadi siyasətin və iqtisadi siyasət quruculuğu prosesinin və icrası mexanizmlərinin* daha da təkmilləşdirilməsinə və müasirləşdirilməsinə ehtiyac vardır. Bunun üçün aşağıdakı islahatlar tələb olunur:

- ***Fiskal siyasətin səmərəliliyinin yüksəldilməsi.*** Yeni iqtisadi yanaşmada fiskal siyasətin dominantlığını azaltmaqla ötürücülüyün yüksəldilməsi mühüm istiqamətlərdən biridir. Region ölkələri və əsas ticarət tərəfdaşları ilə müqayisədə rəqabətqabiliyyətli qeyri-neft sektorunun şaxələndirilməsi büdcənin vergitutma bazasının da genişləndirilməsini dəstəkləyə bilər. Bu istiqamətdə təxirə salınmadan optimal və rəqabətqabiliyyətli biznes və investisiya imkanlarının genişlənməsinə imkan verən çərçivənin qurulması məsələsinə baxıla bilər. Digər tərəfdən, fiskal idarəetmənin texnokratik çərçivəsinin təkmilləşdirilməsi baxımından kontr–tsiklik fiskal qaydaların tətbiqi, şəffaflıq və hesabatlılığın, dövlət investisiyalarının idarə edilməsinin keyfiyyətinin daha da yüksəldilməsi əsas prioritetlərdəndir.
- ***Pul-məzənnə siyasətinin səmərəliliyinin yüksəldilməsi.*** Bu istiqamətdə ən mühüm çağırış pul siyasətinin iqtisadiyyata ötürücülüyünün yüksəldilməsidir. Yüksək ötürücülüyün təmin edilməsi istiqamətində banklararası pul bazarının qurulması, pul siyasətinə etimadın yüksəldilməsi ilə dollarlaşmanın azaldılması, iqtisadi gözləntiləri adekvat idarəetmə çərçivəsinin qurulması, maliyyə sabitliyi siyasəti ilə koordinasiyanın daha da gücləndirilməsi tələb edilir.
- ***Proqnozlaşdırıla bilən iqtisadi siyasət modeli.*** İqtisadi siyasətin iqtisadi agentlər tərəfindən proqnozlaşdırıla bilməsi adekvat gözləntilərin

formalaşmasına və bu əsasda rasional qərarların qəbul edilməsinə imkan verir. Bunun üçün iqtisadi siyasət orqanlarının gözləntilərin formalaşdırılması mexanizmlərini təkmilləşdirmək, ictimaiyyətə ötürülən informasiya və təhlillərin təsirini əvvəlcədən nəzərə almaq, hökumət daxilində ictimaiyyətlə əlaqələrə koordinasiya olunmuş qaydada və yüksək diqqətlə yanaşılmasını təmin etmək lazımdır. Şəffaflıq və hesabatlılığın ən yüksək səviyyədə qurulması, bizneslə səmimi əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi iqtisadi siyasətin və islahatların effektivliyini yüksəldəcəkdir.

- ***Yüksəksəviyyəli koordinasiyanın təmin edilməsi.*** Makroiqtisadi, struktur siyasətinin formalaşdırılması və icrası zamanı qurumlar arasında koordinasiya institutunun möhkəmləndirilməsinə, effektivliyin daha da yüksəldilməsinə ehtiyac vardır. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2016-cı il tarixli Fərmanı ilə Maliyyə Sabitliyi Şurası yaradılmışdır. Şuranın fəaliyyətinin daha da genişləndirilməsi iqtisadi siyasətin səmərəliliyinin yüksəldilməsinə imkan verəcəkdir.

Yeni artım yanaşmasına keçid: səmərəli kommunikasiya

Mürəkkəb iqtisadi şəraitdə və iqtisadi islahatların reallaşdırılması prosesində ən arzuolunmaz vəziyyətlərdən biri də iqtisadi agentlərdə (investor və istehlakçılar) qeyri-adekvat gözləntilərin olması və bunun da təsiri altında qeyri-rasional iqtisadi qərarların verilməsidir.

Neftin qiymətlərində kəskin ucuzlaşma, eyni zamanda, Azərbaycan Respublikasının əsas ticarət tərəfdaşı olan ölkələrdə ciddi iqtisadi və maliyyə böhranlarının baş verməsi ölkədə iqtisadi agentlər arasında psixoloji gərginliyə səbəb olmuşdur. Psixoloji gərginliyin yüksəlməsinin səbəblərindən biri və bəlkə də ən əsası, makroiqtisadi siyasətin kommunikasiyasında, eləcə də adekvat gözləntilərin formalaşdırılması mexanizmlərində mövcud olan çatışmazlıqlardır. Siyasət orqanlarından iqtisadi agentlərə adekvat informasiya axınının olmadığı mühitdə informasiya boşluğu yaranır və bu da möhtəkirlərin vəziyyətdən öz maraqları çərçivəsində istifadə etməsinə, spekulyasiyaları artırmaqla gəlirlərini maksimallaşdırmasına imkan verir. Nəticədə, həm biznes, həm də ev təsərrüfatları spekulyasiyalar nəticəsində üzləşdikləri zərərin məsuliyyətini möhtəkirlərdən daha çox iqtisadi siyasət orqanları üzərinə qoyur, həmin qurumlara olan etimad azalır. Lakin diqqətdə saxlamaq lazımdır ki, müasir iqtisadi münasibətlərdə ən mühüm dəyərlərdən biri yüksək etimaddır. Məhz yüksək etimad gələcək uğurlu iqtisadi islahatlar üçün ən mühüm şərt hesab edilir.

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

Milli iqtisadiyyat üzrə 2020-ci ilədək strateji baxış Azərbaycan iqtisadiyyatının əvvəlcə xarici şokların mənfi təsiri nəticəsində yaranmış vəziyyətdən çıxmaq üçün qısamüddətli dönəmdə sabitləşdirilməsinə, ortamüddətli dönəmdə şaxələnmə və yeni hərəkətverici qüvvələr hesabına inkişaf xəttinin bərpa edilməsinə, dövrün sonunda isə dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə rəqabət qabiliyyətinin artırılmasına nail olmaqdır.

Strateji baxışın şərhi

2020-ci ilədək strateji baxış 2025-ci il və ondan sonrakı dövr üçün qurulacaq iqtisadiyyatın təməllərinin inkişafına xidmət edəcəkdir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində, həmçinin nəqliyyat–logistika dəhlizlərinin inkişafında mühüm rolu qorunmaqla yanaşı, həm də iqtisadiyyatının Strateji Yol Xəritəsində nəzərdə tutulan istiqamətlərdə irəliləməsi təmin olunacaqdır.

İqtisadiyyatın şaxələndirilməsində və ixtisaslaşmanın artırılmasında əsas məqsəd, qeyri–neft sektorunda daha çox dəyərin yaradılması əsasında gəlirlərin məbləğinin artırılması və ədalətli bölgüsünün aparılmasıdır. Son 10 il ərzində neftdən əldə edilmiş gəlirlər əhalinin məşğulluq səviyyəsini artırıb. Bununla belə, neft sektorunda əməyin intensivliyi zəif olduğu üçün bu sektora birbaşa cəlb edilmiş işçilərin sayı ümumi işçi qüvvəsinin cəmi 1 faizini[21] təşkil edir. Təbii ehtiyatlardan əldə edilmiş gəlirlər dövlət sektorunda və tikinti sahəsində məşğulluq səviyyəsini artırmışdır. Qeyri-ticari sahədə gəlirlərin azalması məşğulluğun əvvəlki səviyyədə təmin edilməsində problem yaratdığından, eləcə də azərbaycanlı miqrantların cəmləşdiyi qonşu ölkələrdəki iqtisadi geriləmə səbəbindən ölkədə yeni iş yerlərinin yaradılmasına ehtiyac vardır. İnfrastrukturun inkişafı və biznes mühitinin təkmilləşdirilməsi imkan verəcək ki, daxili və xarici mənbələr hesabına ölkə iqtisadiyyatına daha çox investisiya cəlb edilsin və bir sıra ticari mal və xidmət sektorunda yeni iş yerləri yaradılsın. Bu zaman işçi qüvvəsinin peşəkarlığının yüksəldilməsinə və yeni iqtisadi çağırışlara uyğunlaşdırılmasına xüsusi diqqət yetiriləcəkdir.

2020-ci il üçün strateji baxış həm də bazarlara çıxış imkanının daha da genişləndirilməsini ehtiva edir. Ticarət infrastrukturunun yaxşılaşdırılması və ticarət açıqlığının gücləndirilməsi daxili bazarların qorunması siyasəti ilə elə uzlaşdırılmalıdır ki, nəticədə təbii ehtiyatlardan daha səmərəli istifadə əsasında daha çox dəyər ölkədə qalsın və ədalətli bölüşdürülsün.

İnkişafın davamlılığının artırılması üçün ölkə iqtisadiyyatının, dövlət büdcəsinin və məzənnənin neftdən asılılığı azaldılmalıdır. Neftdən əldə edilmiş vəsait mal və xidmətlərə olan yerli tələbata əhəmiyyətli dərəcədə təsir göstərdiyi üçün neftin qiymətində baş verən dəyişiklik ölkə iqtisadiyyatında sabitliyi pozur. Məsələn, 2004-2014-cü illərdə illik artım tempinin orta hesabla 11,5 faiz dərəcəsi dəyişməsi nəticəsində şirkətlərin planlaşdırma imkanları məhdudlaşdı və özəl sektora qoyulan investisiyalar azaldı.[22] Bundan başqa, neftdən əldə edilən gəlirlər xarici valyutanın

[21] Mənbə: Dövlət Statistika Komitəsi

[22] Mənbə: Dünya Bankı və Dövlət Statistika Komitəsi

əsas mənbəyi olduğu üçün neftin qiymətində baş verən dəyişikliklər ölkənin milli valyutasının dəyər itirməsinə səbəb olur.

Əsas makroiqtisadi göstəricilərin, xüsusilə də, dövlət büdcəsinin neft gəlirlərindəki volatillikdən asılılığını aradan qaldırmaq üçün "qızıl qayda"nın tətbiqi nəzərdə tutulur. Bu yolla akkumulyasiya olunmuş neft gəlirlərinin nəsillər arasında ədalətli bölgüsü təmin ediləcək və ARDNF-dən dövlət büdcəsinə transfertlərin həcmi dayanıqlı iqtisadi inkişaf ehtiyacları ilə uzlaşdırılacaqdır. Pul siyasəti nəticəsində qiymət sabitliyi milli valyutaya etimadı artıracaq, intizamlı fiskal siyasətin formalaşdırılmasına xidmət edəcək və iqtisadi artıma müsbət təsir göstərəcəkdir. Bir sözlə, monetar siyasət məqsədləri, fiskal çərçivə və iqtisadi artım hədəfləri qarşılıqlı şəkildə bir-birini dəstəkləyəcəkdir. Maliyyə bazarlarının dərinliyi, həmçinin xidmətlərin çeşidi, keyfiyyəti və əlverişliliyi artırılacaqdır.

2016-2020-ci illərdə Strateji Yol Xəritəsinin həyata keçirilməsi zamanı sosial təsirlər qiymətləndiriləcək, iş yerlərinin yaradılması ilə yanaşı, mənzil təminatının yaxşılaşdırılması, müasir tələblərə uyğun təhsil və səhiyyə xidmətlərinin göstərilməsinə dəstək verən sistemin inkişafı, kommunal xidmətlərin təkmilləşdirilməsi və ünvanlı sosial yardım sistemindən reabilitasiyaya keçidin təmin edilməsi yolu ilə yoxsulluğun azaldılmasına səylər göstəriləcəkdir.

4.2. 2025-ci ilədək uzunmüddətli baxış

2025-ci ilədək milli iqtisadiyyat üzrə uzunmüddətli baxış dayanıqlı inkişaf magistralına daxil olmuş Azərbaycan iqtisadiyyatının bütün tərəflərin faydalı əməkdaşlığı şəraitində daha çox dəyər yaratmaqla rəqabət qabiliyyətinin gücləndirilməsinə nail olmaqdır.

Uzunmüddətli baxışın şərhi

Xüsusilə, azad rəqabət mühitinin inkişafı özəl sektorun dəstəklənməsi ilə müşayiət olunmaqla milli iqtisadiyyata daha çox investisiya cəlbi və bazarlara çıxış imkanının genişləndirilməsi ilə nəticələnəcəkdir. Milli iqtisadiyyatın inkişafı qlobal və regional kontekstdə başlıca meyillər nəzərə alınmaqla təmin ediləcək, həmçinin qlobal və regional dəyər zəncirlərinə inteqrasiya əsas götürüləcəkdir. Makroiqtisadi sabitliyin qorunması, biznes mühitinin yaxşılaşdırılması, özəl sektorun investisiya qoyuluşlarının təşviqi və dəstəkləyici dövlət sektoru Azərbaycanın 2025-ci ilədək olan dövrdə iqtisadi inkişaf perspektivinin fundamental əsasıdır.

Makroiqtisadi sabitlik

Daha çox şaxələndirilmiş və dayanıqlı iqtisadiyyatın əsasını sabit makroiqtisadi mühit təşkil edir. Makroiqtisadi siyasət seçimləri bu mühitin formasını müəyyən edir. Ötən illər ərzində, Azərbaycan Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatına əsasən, 10 ən stabil makroiqtisadi mühitə malik ölkələr arasında qərar tutmuşdur. Azərbaycanı 10 ən stabil makroiqtisadi mühitə malik ölkələr sırasında saxlamaq üçün növbəti 10 il ərzində daha çox şaxələndirilmiş gəlir strukturu yaradılacaqdır. ARDNF-dən transfertlər üçün “qızıl qayda”dan istifadə və güclü xərc çərçivəsinin şərtləndirdiyi fiskal intizam iqtisadiyyatı neft qiymətindəki dəyişkənlikdən qoruyacaq, ARDNF-in ehtiyat toplamasına imkan verəcək və dövlət borcunun aşağı səviyyədə saxlanılmasına şərait yaradacaqdır. Borc səviyyələrinin dayanıqlı artım potensialına uyğun səviyyədə saxlanılması, bu zaman təbii ehtiyatlardan əldə edilən gəlirlərin və balans uçotundan kənar borcların nəzərə alınması üçün fiskal qayda

işlənib hazırlanacaqdır. Həmçinin bu qayda dövlət xərclərini qeyri-neft ÜDM-i ilə əlaqələndirib qeyri-neft gəlirlərinin dövlət xərclərini ödəmə səviyyəsini artıracaqdır. Dövlət xərclərinin effektivliyini təmin etmək üçün büdcə tələbləri aydın müəyyən edilmiş məqsədlərlə, həmçinin icra göstəriciləri üzrə indikatorlarla əlaqələndiriləcəkdir.

Bütün bunlar Azərbaycanın əsas beynəlxalq reytinq agentliklərindən investisiya dərəcəli kredit reytinqi almasını təmin edə bilər. Bununla yanaşı, mühüm iqtisadi göstəricilər və açıq kredit mövqeyi və ya aktivlərin potensial qabarcıqları kimi mühüm risklərin izlənilməsi sistemi dayanıqlı inkişafı dəstəkləyəcəkdir.

Vacib məlumatların verilməsi, yerli və beynəlxalq investorların tələb etdiyi şəffaflıq səviyyəsinin təmin edilməsi məqsədilə manat üzən valyuta olmaqda davam edəcəkdir. Bu yanaşma makroiqtisadi mühiti daha asan proqnozlaşdırmağa imkan verəcək, daha yüksək həcmdə birbaşa xarici investisiyaları və sabit ticarət axınlarını dəstəkləyəcəkdir. Bu, həm də sabit və proqnozlaşdırılması mümkün olan inflyasiya mühitinin yaranmasına gətirib çıxaracaqdır ki, nəticədə Azərbaycanda ev təsərrüfatları öz yığımlarını bank sektoruna etibar etməklə maliyyə sabitliyinə daha çox dəstək vermiş olacaqlar. Manatın mübadilə məzənnəsində volatilliyin azalması Azərbaycanda investisiya risklərini də azaldacaqdır. Beynəlxalq kreditorların tətbiq etdiyi risk premiyası bu təsir nəticəsində azalaraq kapital xərcini aşağı salacaqdır.

Effektiv fiskal və monetar idarəetməni dəstəkləmək üçün maliyyə sektorunda sabitlik və likvidlik 2025-ci ilədək tam təmin ediləcəkdir. Bunun üçün dövlət istiqrazlarının və sərbəst dövriyyədə olan digər qiymətli kağızların daha likvid olması təmin edilməlidir. Likvidlikdə artım vacib qiymət siqnalı olub, real iqtisadiyyata daha çox kredit kütləsinin axını ilə nəticələnən likvid banklararası bazarın inkişafına təkan verir. Həmçinin daha dərin kapital bazarları çevik yerli investisiyalar üçün imkan qazandırır və bu, müvəqqəti sərmayə imkanları axtaran investorlar üçün xüsusilə vacibdir. Bu prioritetin əsas məqsədi daha çox yerli kreditorları və kredit axtaranları kapital bazarlarına cəlb etməkdən ibarətdir. Bu, kapital bazarlarının daha da şaxələndirilməsi və volatilliyin azaldılmasına gətirib çıxarır, həmçinin manatın daha cəlbedici olması üçün manat nominasiyalı investisiya qoyuluşlarına daha geniş imkanlar açır. Nəticədə, hazırda əsasən ABŞ dollarında saxlanan yığımlar get-gedə daha çox manata çevriləcəkdir. Daha dərin kapital bazarı həm də Mərkəzi Banka daha effektiv monetar siyasət yürütmək və bazarda qeyri-müəyyənlik olduqda son instansiya kreditoru kimi hərəkət etmək imkanı verəcəkdir. Azərbaycanda 2025-ci ilə qədərki dövrdə maliyyə sektorunda qısamüddətli sabitləşdirmə təmin ediləcək, ortamüddətli dönəmdə struktur islahatları ilə inkişaf gücləndiriləcək, uzunmüddətli dönəmdə isə maliyyə sektoru qlobal müstəvidə açıq rəqabətə hazırlanacaqdır. Ölkədə maliyyə sektorunda islahatların region dövlətlərinə nisbətən daha sürətlə aparılması, ölkəyə xarici investisiya cəlbini genişləndirməklə milli iqtisadiyyatın dayanıqlı inkişafına təkan verəcəkdir.

Yaxşılaşdırılmış biznes şərtləri və özəl sektorun investisiya qoyuluşları

2025-ci ilədək Azərbaycanda müasir texnologiyalara, bazarlara və maliyyə vəsaitlərinə bərabər çıxış imkanları təmin edən rəqabət mühiti yaradılacaqdır. Yerli şirkətlərin canlanmasına və xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərmələrinə şərait yaradacaq biznes mühiti təmin ediləcəkdir. Biznesin həyata keçirilməsinin asanlığı üç əsas sahəni əhatə edir: investisiya qoyuluşlarına şəraitin yaradılması, beynəlxalq dəyər zəncirlərinə inteqrasiya və biznes əməliyyatlarında qlobal standartlara nail olunması.

Azərbaycanın regional qovşaq kimi mövqeyinin gücləndirilməsi üçün səmərəli infrastruktura yüksək səviyyədə investisiya qoyuluşu davam etdiriləcəkdir. 2025-ci ildə

Azərbaycan iqtisadiyyatı ölkənin dəmir yollarının Gürcüstan, Türkiyə və İranın dəmiryol şəbəkəsi ilə Bakı-Tbilisi-Qars və Astara-Astara dəmiryol layihələri vasitəsilə birləşdirilməsindən, həmçinin Xəzər hövzəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisindən bəhrələnəcəkdir. Azərbaycanın şaxələndirilmiş nəqliyyat-logistika imkanları ölkədən ixracın artması üçün zəmin olacaq, bütövlükdə isə biznes xərclərinə qənaət edilməsinə gətirib çıxaracaqdır. Bundan əlavə, təkmilləşdirilmiş nəqliyyat infrastrukturu Azərbaycanın bütün bölgələrinin daha yaxşı inteqrasiyasına şərait yaratmaqla, regionlarda biznesin inkişafına əlavə təkan verəcəkdir. Müasir kommunikasiya imkanlarından istifadə etməklə sürətli genişzolaqlı şəbəkə vasitəsilə elektron xidmətlərin (e–təhsil, e–səhiyyə, e–bankçılıq, e–ticarət və s.) əhatə dairəsi genişləndiriləcəkdir. Xüsusilə, dövlət idarəetməsində rəqəmsallaşdırma biznes üçün şəffaf, hesabatlı, səmərəli və proqnozlaşdırıla bilən perspektivlər yaradacaqdır. Elektron xidmətlərin tətbiq dairəsinin genişləndirilməsi Azərbaycanda biznesin beynəlmiləlləşdirilməsi üçün zəmin olacaqdır. 2025-ci il perspektivində özəl sektorun infrastruktur quruculuğunda daha yaxından iştirakı təmin ediləcək ki, bu da iqtisadi səmərəliliyin artmasına gətirib çıxaracaqdır. Bundan əlavə, keyfiyyətli kommunal xidmətlər rəqabətli qiymətlərlə təklif ediləcək və nəticədə Azərbaycan keyfiyyətli kommunal xidmətlərin qiymətlərinə görə region ölkələri arasında ön sıralarda yer alacaqdır (qlobal sıralamaya görə hazırkı 65-ci yerdən təxminən 35-ci yerə yüksələcəkdir).[23]

Xüsusən MDB ölkələri, Türkiyə, Gürcüstan və İran kimi mühüm region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurları Azərbaycanın 2025-ci il üçün iqtisadi perspektivində regional ticarət qovşağı kimi mövqeyini gücləndirəcəkdir. Qeyri–neft mal və xidmətləri üzrə ticarətin əsas həcminə görə regional inteqrasiya Azərbaycanın geosiyasi və iqtisadi mövqeyi üçün əhəmiyyətlidir. Məsələn, Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsullarının, demək olar ki, 90 faizi Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə göndərilir.[24] Qonşu ölkələrlə ticarət sazişlərinin yekunlaşdırılması Azərbaycana daha sərfəli şərtlərlə xarici bazarlara mal və xidmət ixracını genişləndirmək imkanı verəcəkdir. Həmçinin regional inteqrasiya xarici investorlar üçün Azərbaycanın ixracyönümlü investisiya cəlbediciliyini artıracaqdır. 2025-ci ilədək regional inteqrasiyanı davam etdirərək, Azərbaycanda xüsusən yüksəkdəyərli məhsul və xidmətlər üçün qlobal dəyər zəncirlərinə inteqrasiya məqsədilə əlaqələr qurulacaq və sazişlər imzalanacaqdır.

Ticarətin asanlaşdırılması və keyfiyyətin dəqiq qiymətləndirilməsi üçün Azərbaycan şirkətlərində beynəlxalq standartlar və sertifikatlar tətbiq ediləcəkdir. 2025-ci ildən əvvəl beynəlxalq standartlara uyğunlaşma Azərbaycandan ixrac edilən malları rəqabətədavamlı edəcəkdir. Beynəlxalq sertifikatlardan daha çox istifadə etibarlı keyfiyyət ölçüsü yaradaraq yerli istehlakın səviyyəsini yüksəldəcəkdir. Azərbaycana coğrafi baxımdan ən yaxın iki regional bazarda – Avropa İttifaqı və Avrasiya İttifaqında ÜTT standartları əsas götürüldüyündən, Azərbaycanda da bu standartlara uyğun məhsul və xidmətlərlə qeyri–neft ixracının həcmi genişləndiriləcəkdir. Yerli şirkətlər öz məhsullarının keyfiyyətini yaxşılaşdırmaqla yerli istehlakçıların getdikcə artan keyfiyyət tələblərinə cavab verəcəklər. Nəticədə “Made in Azerbaijan” brendi beynəlxalq bazarlarda keyfiyyət göstəricisinə çevriləcəkdir. “Made in Azerbaijan” brendinin tanıdılması istiqamətində görüləcək işlərin effektivliyini artırmaq məqsədilə ölkədə istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatları əks etdirən internet portalı yaradılacaqdır. Bu portalda

[23] Mənbə: Dünya Bankı

[24] Mənbə: BMT-nin Comtrade məlumat bazası

məlumatların üç dildə – Azərbaycan, ingilis və rus dillərində yerləşdirilməsi istifadəçi əhatəsini genişləndirməklə, yerli məhsulların tanıdılması baxımından daha faydalı olacaqdır. Nəticədə, istehsalçı–istehlakçı arasında əlaqələr asanlaşacaq, rəqabətqabiliyyətli yerli məhsulların ixracının həcmi artacaqdır.

2025-ci il perspektivində Azərbaycanda sərmayə qoymuş investorların daha da möhkəmlənməsi və yeni birbaşa xarici investisiyaların cəlb edilməsi təmin olunacaqdır. Xüsusilə rəqabət üstünlüyü olan konkret investisiya layihələri maraqlı xarici sərmayədarlara təqdim olunacaqdır. Azərbaycanı qlobal dəyər zəncirlərinə inteqrasiya etmək imkanına malik mühüm investorların və ya eyni sektorda fəaliyyət göstərən şirkətlərə ciddi siqnal verən investorların cəlb olunması üçün xüsusi investisiya imtiyazları və təklifləri veriləcəkdir. Mövcud və potensial investorlara göstərilən xidmətlər onlara inzibati prosesləri çevik başa çatdırmağa və tikinti firmaları, təchizatçılar və ya təhsil sektorundakı təşkilatlarla əlaqə qurmağa imkan verəcəkdir. Xarici investorların yerli məhsul və xidmətlərə daha çox tələbatının yaradılması üçün mexanizmlər qurulacaqdır.

Geniş çeşidli və əlverişli maliyyə xidmətləri təklif edən sabit və dərin maliyyə sistemi formalaşdırılacaq ki, bu da iqtisadiyyatın və ev təsərrüfatlarının müvafiq ehtiyaclarını ödəməklə iqtisadi inkişafa töhfə verəcəkdir.

<u>Dəstəkləyici və asanlaşdırıcı dövlət sektoru</u>

Azərbaycanda növbəti onillikdə də iqtisadi yüksəlişə təkan veriləcəkdir. Dövlətin iqtisadiyyata müdaxiləsi zamanı siyasət, tənzimləmə, dövlət sifarişləri və dövlət sahibkarlığı fəaliyyəti institusional olaraq bir–birindən ayrılacaqdır. İqtisadiyyatın əsas aparıcı qüvvəsi olmaq əvəzinə, dövlət sektoru daha çox aşağıdakı üç prioritet ilə məşğul olacaqdır: Azərbaycan vətəndaşları üçün vasitə və imkanların yaradılması; müvafiq makroiqtisadi və tənzimləmə çərçivəsi ilə iqtisadi inkişafa təkan verilməsi; vergi gəlirlərinin ən rasional şəkildə xərclənməsinə imkan verən inzibati idarəçiliyin qurulması.

Sabit makroiqtisadi şərtlər, ciddi fiskal intizam və möhkəm hüquqi baza fiziki və əqli mülkiyyət hüquqlarının ciddi qorunduğu biznes mühiti yaradacaq və bunun nəticəsində özəl investisiya həcmi kifayət qədər artacaqdır. Bundan əlavə, müvafiq tənzimləmə siyasəti rəqabəti gücləndirərək istehsal edilən yerli mal və xidmətlərin təminatı, keyfiyyəti və səmərəliliyində ciddi artıma yol açacaqdır. Bu zaman yerli kiçik və orta müəssisələrin inkişafının dəstəklənməsinə xüsusi diqqət yetiriləcəkdir. Bu sahədə göstərilən təşəbbüslər kredit, ixracın artırılması, keyfiyyətli təlim proqramlarının təklif edilməsi və ya inzibati prosedurların sadələşdirilməsi imkanlarına çıxışı yaxşılaşdıracaqdır. Daha yaxşı dövlət planlaşdırması Azərbaycanın böyük logistika qovşağı, həmçinin region ölkələrinin daha üstün iqtisadi inteqrasiyası üçün tələb olunan zəruri infrastrukturun tikintisinə şərait yaradaraq, şəhər və kənd yerlərindəki gəlir fərqini aradan qaldırmağa kömək edəcəkdir.

Dövlət sektorunun 2025-ci il üzrə iqtisadi perspektivdə öz yenilənmiş rolunu həyata keçirməsi üçün dövlət müəssisələrinin fəaliyyəti ciddi monitorinq ediləcək və idarə olunacaqdır. Burada əsas məqsəd həmin müəssisələrdə dövlətin idarəetmə çərçivəsinin aydınlaşdırılması, həmçinin monitorinq və strateji menecmentin tətbiqi olacaqdır. Əksər dövlət müəssisələrinin fəaliyyətlərini nəzərə alacaq aydın mandat və icra hədəflərinin işlənib hazırlanması şəffaflığı artıracaq, habelə dövlət, dövlət müəssisəsi və ictimaiyyət arasında yaradıcı dialoqu inkişaf etdirəcəkdir. Monitorinq və sahiblik daha da möhkəmləndiriləcək, peşəkar korporativ strukturlar gücləndiriləcəkdir. Bundan əlavə, Azərbaycan dövləti öz portfelini strateji cəhətdən qiymətləndirərək, özəlləşdirilməndən sonra daha məhsuldar olacağı ehtimal edilən

qeyri-strateji aktivlərin özəlləşdirilməsini həyata keçirəcəkdir. Bütövlükdə bu proses ictimai və milli maraqları tam nəzərə alaraq, hər bir özəlləşdirmə prosesinin başlanğıcında lazımi tənzimləmə və bazar strukturunu yaradacaqdır.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış sosial rifah halının yaxşılaşdırılmasını və insan inkişafı indeksinin ən yüksək həddə çatdırılmasını təmin edən və yüksək texnoloji inkişafa və iqtisadiyyatın optimal strukturuna əsaslanan güclü rəqabətqabiliyyətli və inklüziv iqtisadiyyat qurmağı nəzərdə tutur.

Hədəf baxışın şərhi

Güclü orta təbəqə, rəqabət üstünlüyü olan sahələrdə dərin ixtisaslaşma, dünya iqtisadiyyatı ilə effektiv inteqrasiya, milli iqtisadi təhlükəsizliyin təmin edilməsi və inkişaf etmiş infrastruktur 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışın əsas sütunlarını təşkil edəcəkdir. Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, dünyanı dayanıqlı və güclü edəcək təxirəsalınmaz, cəsarətli və transformativ tədbirlərin həyata keçirilməsi öhdəliyinə sadiq qalacaqdır.

Sosial rifah

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış insan potensialının reallaşdırılması üçün geniş imkanlar təmin etməyi nəzərdə tutur. Yaxşı həyat keyfiyyəti üçün ilkin şərt rifah, səhiyyə və təhsildir.

2025-ci ildən sonrakı dövrdə yoxsulluq ünvanlı şəkildə tam aradan qaldırılacaq, keyfiyyətli səhiyyə xidmətlərinə və təhsilə çıxış imkanları genişləndiriləcəkdir. Ötən on il ərzində keçilmiş yolu davam edərək, dövlət iqtisadi inkişafın ən yoxsul insanları əhatə etməsini və beləliklə də ünvanlı olaraq yoxsulluğun aradan qaldırılmasını təmin edəcəkdir. 2025-ci ildən sonrakı dövrdə yoxsulluq probleminin həllinə iki yanaşma olacaqdır: layiqli iş yerlərinin sayının artırılması; əməkhaqqı və digər gəlirləri ilə ən zəruri ehtiyaclarını ödəyə bilməyən insanlara ünvanlı sosial dəstək. Minimum əməkhaqqı məbləğində tədrici artım işləyən yoxsul insanların xüsusi çəkisini minimuma endirəcəkdir. Xüsusən də minimum əməkhaqqı orta əməkhaqqı səviyyəsinin 60 faizinə yaxınlaşacaqdır.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 2025-ci ildən sonrakı dövrdə iqtisadi, sosial, demoqrafik, təbiət və texnoloji sahələrdə baş verə biləcək əsas dəyişikliklər və problemlər nəzərə alınacaqdır. Adekvat ərzaq təhlükəsizliyi sisteminin formalaşdırılması üçün yeni qida zənciri texnologiyalarının tətbiqinin genişləndirilməsi (biotexnologiya və nanotexnologiyalardan istifadə səviyyəsinin artırılması, digər istehsal texnologiyalarından istifadə vasitəsilə ərzaq istehsalının artırılması, qidanın medikallaşdırılması və yeni qida növlərinin yaradılması) və yeni aqro-ərzaq zənciri strukturlarının formalaşdırılması (orqanik məhsul istehsalının genişləndirilməsi, regional, yerli və alternativ qida zəncirlərinin formalaşdırılması, qida zənciri üzrə itki və tullantıların azaldılması və yenidən emal imkanlarının genişləndirilməsi) nəzərdə tutulur. Hazırda Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində Azərbaycan qida təminatına görə 61-ci, qida məhsullarının keyfiyyətinə görə 86-cı yerdədir. Daha yaxşı kənd təsərrüfatı sistemi Azərbaycanın hər iki göstərici üzrə mövqeyinin təxminən 40-cı yerə yüksəlməsinə imkan verəcəkdir. [25]

Şəhər yerlərində uyğun mənzil təminatı seçimləri Azərbaycanın kənd yerlərində olan hazırkı işçi qüvvəsinin şəhər yerlərindəki məşğulluq imkanlarından

[25] Mənbə: “Ekonomist” jurnalının analitika şöbəsi

bəhrələnməsinə şərait yaradacaqdır. Bu, nəinki yoxsulluq səviyyəsini azaltmağa kömək edər, hətta regionlar arasında gəlir bərabərsizliyinin azalmasına gətirib çıxara bilər. Mənzil təminatı artan şəhər əhalisinin tələblərini də əhatə edəcək və bu əhali qrupunun xüsusi çəkisi hazırkı təxminən 55 faizdən 70-75 faizədək artacaqdır. Daha yaxşı məşğulluq imkanlarına görə şəhərlərə axın və kənd yerlərində daha yüksək gəlirli məşğulluq imkanlarının artımı nəticəsində gəlirlərdəki bərabərsizlik azalacaqdır. 2025-ci ildən sonra Bakı ilə ölkənin digər regionları arasındakı gəlir fərqi adambaşına təxminən 50 faizdən 40 faizədək enəcəkdir.

İqtisadi inkişaf perspektivləri nəzərə alınaraq planlı şəkildə aparılan urbanizasiya nəticəsində orta təbəqənin güclənməsi – orta təbəqənin maddi rifah halının yaxşılaşdırılması, alıcılıq qabiliyyətinin yüksəlməsi və əmək məhsuldarlığının artması yolu ilə iqtisadi inkişaf tempi yüksək səviyyədə saxlanılacaqdır.

Səhiyyə xidmətləri və təhsilin keyfiyyətinin artması ilə insan kapitalına verilən töhfə 2025-ci ildən sonrakı dövrdə iqtisadi artımda mühüm rol oynayacaqdır. Azərbaycanın təhsilin keyfiyyətinə görə qlobal miqyasda hazırda 107-ci[26] yerdə qərarlaşması hələ də təkmilləşmə potensialının böyük olduğunu göstərir. Dövlət xidmətləri insanlar üçün eyni dərəcədə əlçatan olacaq və texnoloji bacarıqlara malik əhaliyə əlverişli rəqəmsal xidmətlər göstəriləcəkdir.

2025-ci ildən sonrakı dövrdə elektrik enerjisi, su və kanalizasiya, istilik və qaz təchizatı sektorlarında səmərəliliyin və xidmət səviyyəsinin yüksəldilməsi sosial rifahın yaxşılaşdırılmasına və insan kapitalının inkişafına xidmət edəcəkdir.

Təkmilləşdirilmiş təhsil sistemi səmərəlilik və innovasiyaya əsaslanan iqtisadiyyata keçidin əsasını təşkil edəcəkdir. Bu sistem Avropa İttifaqı üzvü olan Şərqi Avropa ölkələrinin nail olduğu səviyyəyə çatmağa imkan verən gəlirlərə şərait yaradacaqdır. Xüsusən də azgəlirli işçilər üçün belə keyfiyyətli həyatın təmin edilməsindən ötrü lazım olan əməkhaqqı artımları daha yüksək məhsuldarlıq və münasib iş imkanlarına çıxışdan asılı olacaqdır. 2025-ci ildən sonrakı dövrdə Azərbaycanın təhsil sistemi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən verilmiş PİSA balları kimi beynəlxalq standartlara uyğun qiymətləndiriləcəkdir. Təhsil səviyyəsi ən azı Şərqi Avropa ölkələri səviyyəsinə çatdırılacaqdır. Bundan əlavə, məktəbəqədər təhsilə əlçatanlıq ənənəvi Avropa səviyyəsinə qaldırılaraq, uşaqlara öz təhsil həyatlarına qədəm qoymaq imkanı veriləcəkdir. Ali təhsillilərin payı əhəmiyyətli şəkildə artacaqdır (qlobal sıralamada Azərbaycan hazırda 20 faizlə 91-ci mövqedədir). İT bacarıqlarının tədrisi ibtidai təhsildən ali təhsil səviyyəsinə kimi 2025-ci ildən sonrakı müasir tədris proqramının əsas hissəsini təşkil edəcəkdir. Beynəlxalq təhsil standartlarına uyğunlaşma məktəb və universitet səviyyəsində daha çox beynəlxalq mübadilə imkanları yaradacaqdır.

2025-ci ildən sonrakı dövr üçün Azərbaycan iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi rəqabətqabiliyyətli işçi qüvvəsi olacaqdır. Xüsusilə, gənclərin və qadınların işlə təminatına daha çox diqqət yetiriləcəkdir. Əmək bazarında çevik siyasətin həyata keçirilməsini təmin edən institutlar vasitəsilə sosial dialoqun inkişafı və inklüziv məşğulluğun artırılmasına nail olunacaqdır. Azərbaycanda insan kapitalının təkcə milli iqtisadiyyatın deyil, qloballaşan dünya iqtisadiyyatının da tələblərinə uyğun inkişaf etdirilməsi əmək miqrasiyasını elə tənzimləməyə şərait yaradacaq ki, daha çox dəyər ölkədə qalsın. Güclü, yüksəkixtisaslı və innovativ işçi qüvvəsi qlobal dəyər zəncirlərində Azərbaycanın mövqelərinin daha da möhkəmlənməsində mühüm rol

[26] Azərbaycanın qlobal mövqeyi barədə bu bölmədə əks olunan məlumatlar Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatına əsaslanır.

oynayacaqdır. Texnoloji imkanların artması, Azərbaycanın işçi qüvvəsinin bir sıra xidmət sferalarında ixrac fəaliyyəti göstərməsinə imkan yaradacaqdır. Bacarıqların inkişaf etdirilməsi, həmçinin əmək resurslarından səmərəli istifadə nəticəsində Azərbaycanda əmək məhsuldarlığı Şərqi Avropa ölkələrinin müvafiq göstəricisinin səviyyəsinə çatdırılacaqdır. Ümumilikdə 2025-ci ildən sonrakı dövrdə əmək bazarının tənzimlənməsi həyata keçirilərkən yüksək texnologiyaların, o cümlədən ağıllı maşınların və sistemlərin tətbiqi, həmçinin kommunikasiya imkanlarının genişlənməsi kimi amillərin təsiri nəzərə alınacaqdır.

2025-ci ildən sonrakı dövrdə Azərbaycanda ətraf mühitin mühafizəsinə daha çox diqqət yetiriləcək, ölkədə karbon emissiyasının azaldılması hava, su və torpağın ekoloji baxımdan daha təmiz olmasına şərait yaradacaqdır. Enerji səmərəliliyi prinsipi əsasında Azərbaycanda ÜDM-in hər bir vahidinin istehsalı üçün enerji sərfiyyatı minimuma endiriləcək, 2025-ci ildən sonrakı dövrdə ölkənin enerji balansında bərpa oluna bilən enerji növlərinin payı artırılacaqdır. Bundan əlavə, ekoloji tarazlığın qorunması əsas götürülərək, tullantıların, o cümlədən zərərli qazlar, çirkab suları və radioaktiv tullantıların səmərəli idarə edilməsi sistemi yaradılacaqdır.

İqtisadi rifah

2025-ci ildə makroiqtisadi sabitlik, xüsusilə fiskal dayanıqlılıq, əlverişli biznes mühiti, inkişaf etmiş infrastruktur, xarici bazarlara sərbəst çıxış və xarici investisiyaların cəlb edilməsi nəticəsində Azərbaycan iqtisadiyyatı xarici şoklara daha davamlı olacaq və ölkədə əmək məhsuldarlığı Şərqi Avropa ölkələrinin müvafiq göstəricisinə çatdırılacaqdır. Azərbaycan iqtisadiyyatı, Dünya İqtisadi Forumunda bildirildiyi kimi, səmərəlilikəsaslı modeldən innovasiyaəsaslı modelə keçəcəkdir. Əhalinin adambaşına düşən real gəlirləri ildə təxminən 5 faiz artacaq və Azərbaycan Dünya Bankının təsnifatına əsasən, "yüksəkgəlirli ölkə" statusu qazanacaqdır. Bu inkişaf prosesləri nəticəsində 2025-ci ildən sonrakı dövrdə adambaşına düşən gəlir səviyyəsinə görə Azərbaycan Şərqi Avropa ölkələrinin səviyyələrinə yaxınlaşacaqdır.

İnnovasiyaəsaslı modelin inkişaf etdirilməsi üçün fiziki, insan, institusional və sosial kapital təmin olunacaqdır.

2025-ci ildən sonra Azərbaycanın şaxələndirilmiş və dayanıqlı iqtisadiyyatında ümumi əlavə dəyərin dörddə üçündən çoxu qeyri-neft sektorlarında yaranacaqdır. Növbəti illərdə rəqabətədavamlı əmək xərcləri Azərbaycan iqtisadiyyatı üçün qısamüddətli katalizator rolunu oynayacaqdır. Lakin faktiki rəqabət üstünlüyü qabaqcıl texnologiyalar və digər innovasiya formalarından istifadə ilə yanaşı, keyfiyyətli təhsil və peşə təliminin nəticəsi kimi yüksək məhsuldarlıq hesabına yaranacaqdır. Başqa sözlə, 2025-ci ilədək olan dövr biliktutumlu iqtisadiyyata keçid dövrü olacaqdır.

2025-ci ildən sonrakı dövrdə innovasiyaəsaslı inkişaf modelinə keçid əvvəlki illərdə rəqabət üstünlüyü olan və inkişaf etmiş qeyri-neft sektorlarında ixtisaslaşmanın daha da dərinləşdirilməsi hesabına daha çox dəyərin ölkədə qalmasını təmin edəcəkdir. Texnologiya transferi və biliyin kommersiyalaşdırılmasının genişləndirilməsi investisiya qoyuluşunun səmərəliliyini artıracaqdır. İqtisadiyyatın həm regional, həm də sahələrarası strukturunun optimallığı artacaq ki, bu da tarazlı və dayanıqlı inkişafı təmin edəcəkdir. Xüsusilə, Azərbaycanda regional inkişaf mərkəzlərinin formalaşması bölgələrdə iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrində ixtisaslaşmanın dərinləşdirilməsi hesabına ümumi iqtisadi inkişafı təmin edəcəkdir. Bakı beynəlxalq əhəmiyyətə malik sənaye və xidmət mərkəzinə çevriləcəkdir.

2025-ci ildən sonrakı dövrdə karbohidrogen və qeyri-karbohidrogen gəlirləri arasındakı tarazlığa nail olunacaq və hər il ARDNF-dən iqtisadiyyata inyeksiyalar "qızıl qayda" əsasında təmin ediləcəkdir. Belə yanaşma neft-qaz qiymətlərindəki

dəyişikliklərin təsirini yumşaldaraq sərbəst üzən yerli valyutaya inamı artıracaq və iqtisadi inkişafın dayanıqlılığını təmin edəcəkdir. Makroiqtisadi sabitlik həm yerli, həm də xarici özəl sektor nümayəndələrinin investisiya qoyuluşlarının stimullaşdırılması üçün zəmin olacaqdır. Beynəlxalq maliyyə bazarları ilə inteqrasiya və maliyyə texnologiyalarının tətbiqi əsasında rəqabətqabiliyyətli maliyyə sistemi dayanıqlı iqtisadi inkişafı dəstəkləyəcək və əhalinin rifahını yaxşılaşdıracaqdır.

Qeyri-neft sektoruna əlavə investisiya qoyuluşları 2025-ci ilədək və ondan sonrakı dövrdə daha rəqabətli iqtisadiyyatın vacib hərəkətverici qüvvəsi olacaqdır. Bu səbəbdən gələcəkdə sənaye və xidmət sektorlarına birbaşa xarici investisiyalar daha geniş miqyasda cəlb ediləcəkdir. Texnologiya, bacarıqlar və qlobal dəyər zəncirlərinə çıxış təklif edən iri xarici şirkətlərin qeyri-neft sektoruna investisiya yatırımı Azərbaycanın qlobal iqtisadi xəritədə yerini möhkəmləndirəcəkdir. Azərbaycana xarici investorlar strateji olaraq üç aspekt üzrə cəlb ediləcəkdir: son dərəcə cəlbedici investisiya imkanlarının yaradılması (məsələn, müasir infrastruktura malik sənaye parkları); aparıcı beynəlxalq şirkətlərə məqsədyönlü çıxış; mövcud və gələcək investorlar üçün birinci sinif xidmətlər.

2025-ci ildən sonrakı dövrdə ixrac təkcə mal deyil, həm də xidmət çeşidinin artması hesabına şaxələnəcək və böyüyəcəkdir. İxracın artan məhsul və xidmət sayına əsaslanması neft və qaz qiymətlərindəki dəyişkənliklərdən asılılığı azaldıb, xarici valyuta gəlirini sabitləşdirəcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Strateji Yol Xəritəsi 2025-ci ilə qədər ÜDM-də 3 faizdən çox orta illik real artım və əlavə olaraq da 450 mindən çox yeni iş yerinin yaradılmasını nəzərdə tutur. Bu iş yerlərinin yaradılması 3 amilin təsiri nəticəsində mümkün olacaqdır: I) Strateji Yol Xəritəsi çərçivəsində görülən tədbirlər; II) digər əlavə tədbirlər və III) ümumi iqtisadi mühitin yaxşılaşması nəticəsində iqtisadi artım sürətinin yüksəlməsi. İqtisadiyyatın sektorları üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində qeyri-rəsmi məşğulluğun payı azalacaq və aşağıdakı dörd xüsusi hədəfə nail olunacaqdır:

Qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının hazırkı 2,6[27] faizlik göstəricidən 2025-ci ilə qədər 4 faizə çatdırılması. İqtisadiyyatın şaxələndirilməsində xarici investorların rolu çox əhəmiyyətlidir. Belə ki, xarici investorların töhfəsi yalnız sərmayə qoyuluşundan ibarət deyil, onlar, eyni zamanda, yeni sektorlara və dəyər zəncirlərinə daxil olmaq üçün zəruri olan yeni bacarıqlar, texnologiyalar və şəbəkələşmə imkanları gətirirlər. İqtisadiyyatın şaxələndirilməsi qeyri-neft sektoruna daha çox investisiya cəlb edilməsini tələb edir.

Qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından[28] 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması. 2015-ci ildə Azərbaycan iqtisadiyyatının idxal tələbi adambaşına 1000 ABŞ dollarına bərabər olmuşdur. İdxalı tarazlaşdırmaq üçün Azərbaycandan adambaşına 1500 ABŞ dolları həcmində məhsul ixrac olunmuşdur ki, bunun da 90 faizini neft və qaz məhsulları təşkil etmişdir.[29] Mal və xidmətlərin idxalının ixrac ilə balanslaşdırılması iqtisadi müstəqillik və sabitlik üçün son dərəcə vacibdir, lakin neft qiymətlərindən asılılığı azaltmaq üçün daha çox qeyri-neft sektoru məhsullarının ixracına ehtiyac vardır.

Ticari mal və xidmətlər sektorunda, məsələn istehsal və ya turizm sektorlarında 2025-ci ilə qədər 150 min əlavə iş yerinin yaradılması. Vətəndaşlar üçün iş yerlərinin yaradılması daim dövlətin prioritetlərindəndir. Lakin bəzi sektorların iqtisadi təsir imkanları digərləri ilə müqayisədə daha genişdir. İxracın şaxələndirilməsi üçün ticari mal və xidmətlər sektorunda, yəni beynəlxalq səviyyədə satıla bilən məhsulların (məsələn, sənaye və ya qida məhsulları) və ya xidmətlərin (məsələn, turizm və ya nəqliyyat) istehsalı ilə məşğul olan sektorlarda iş yerlərinin yaradılması zəruridir. Ticari mal və xidmətlər sektorunun iştirakçıları beynəlxalq rəqabətlə üzləşirlər və bu da adətən, məhsuldarlıqda sürətli artıma gətirib çıxarır.

Dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığının azaldılması. Bu gün dövlət sektorunda xərclənən hər ikinci manat (təqribən 50 faizi) ARDNF-dən edilən transfertlərin hesabına maliyyələşdirilir.[30] Bu rəqəm 2025-ci ilə qədər

[27] Bu göstərici son 5 il ərzində qeyri-neft və qaz sektorunda əsas kapitala yönəldilmiş xarici investisiyaların orta məbləğinin həmin müddət üzrə orta qeyri-neft ÜDM-ə olan nisbəti kimi hesablanmışdır.

[28] Mənbə: Dövlət Statistika Komitəsi

[29] Mənbə: BMT-nin Comtrade məlumat bazası

[30] Mənbə: Maliyyə Nazirliyi, ARDNF

15 faizə endirilməlidir. ARDNF-in transfert edə biləcəyi məbləğ onun gəlirləri ilə, yəni neftin qiymətləri ilə sıx əlaqələndirilmişdir. Bu asılılıq Azərbaycan iqtisadiyyatına neft qiymətlərindəki dəyişikliklərin ciddi təsirinin əsas səbəblərindən biridir. İqtisadiyyatda özəl investisiyaların payını artırmaq üçün sabit artım tempinin olması çox vacibdir və dövlət büdcəsinin Neft Fondunun transfertlərindən daha az asılı olmasını tələb edir.

Bu hədəflərə nail olmaq üçün milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə strateji yol xəritələrində nəzərdə tutulan strateji hədəf və prioritetlərin uğurla həyata keçirilməsi zəruridir. Eyni zamanda, nəzərdə tutulan tədbirlərin davamlı həyata keçirilməsi, işlək monitorinq və qiymətləndirmənin təmin edilməsi üçün investisiyaların və digər resursların səfərbər edilməsi tələb olunur. Hesablamalara görə, 2020-ci ilədək nəzərdə tutulmuş prioritetlərin yerinə yetirilməsi üçün iqtisadiyyata təxminən 27 milyard manat investisiya qoyuluşunun tələb ediləcəyi proqnozlaşdırılır. Bu məbləğ bütün sektorlar üzrə strateji yol xəritələri çərçivəsində tələb olunan cəmi vəsaiti əks etdirir. Nəzərdə tutulan vəsait bütün növ dövlət və özəl (yerli və xarici) mənbələr hesabına təmin ediləcəkdir. Bu investisiyalar Azərbaycan iqtisadiyyatı üçün 2020-ci ilədək müəyyən edilmiş hədəflərdən əlavə, gələcək üçün nəzərdə tutulmuş hədəflərə təsir baxımından da bünövrə rolunu oynayacaqdır. Prioritet sektorlar və ya iqtisadiyyatın digər sektorları üzrə yeni strateji hədəflərin müəyyənləşdirilməsi Azərbaycana Strateji Yol Xəritəsinin prioritetlərinin müsbət trayektoriyası ilə daha yüksək hədəflərə çatmağa kömək edəcəkdir.

6. STRATEJİ MƏQSƏDLƏR

Azərbaycan neft gəlirlərinin düzgün idarə edilməsi hesabına sosial və iqtisadi infrastrukturun qurulması, yüksək yığım və nisbətən kiçik xarici borc, yoxsulluğun azaldılması, özəl sektorun ÜDM-də payının yüksək həddə çatdırılması və biznes mühitinin yaxşılaşdırılması sahəsində uğurlara imza atmışdır. Strateji Yol Xəritəsi çərçivəsində yaxşı idarəetmə əsasında makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatın strukturunu təkmilləşdirmək, məşğulluğu artırmaq, tarazlaşdırılmış regional inkişafı təmin etmək, biznes mühitini yaxşılaşdırmaq və özəl sektorun iştirakçılığını gücləndirmək planlaşdırılır. Azərbaycan Minilliyin İnkişaf Məqsədləri üzrə bir çox hədəflərə nail olmuş və Birləşmiş Millətlər Təşkilatının 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin olunması üçün səmərəli milli icra mexanizmi yaradılacaqdır.

Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində dörd əsas strateji məqsəd nəzərdə tutulmuşdur.

Hazırkı qlobal mühit və neft qiymətlərinin dəyişkənliyi maliyyə dayanıqlılığının gücləndirilməsini, təbii ehtiyatlardan əldə edilən gəlirlərdən rasional istifadəni və ciddi makroiqtisadi çərçivənin qəbulunu obyektiv zərurətə çevirir. İqtisadi inkişaf istiqamətində görülən tədbirlər sayəsində dövlət öz məqsədlərini gerçəkləşdirmək üçün fiskal və monetar siyasətin daha rasional uzlaşdırılmasına çalışır. Azərbaycanın güclü fiskal dayanıqlılıq və monetar siyasəti ilə bağlı gələcək tədbirlər "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin birinci hədəfində təsvir olunmuşdur.

Bu baxımdan fiskal siyasət üçün çərçivənin təmin edilməsi və təbii ehtiyatlardan əldə olunan gəlirlərə kifayət qədər qənaət edilməsi üçün görülən tədbirlərlə yanaşı, Azərbaycanın təbii ehtiyatlarının düzgün idarə edilməsi məsələsi də nəzərdən keçirilir. Təklif edilən əsas institutlar bunlardır: neft gəlirlərindən rasional istifadə edilməsi üçün "qızıl qayda" yanaşması və dövlət borcunun idarə edilməsi üçün zəruri fiskal çərçivə. Bu kontekstdə Ortamüddətli Xərclər Çərçivəsinin daha da gücləndirilməsi, güclü büdcə idarəçiliyi və onun nəticəəsaslı büdcə təşkilinə uyğunlaşdırılması dövlət xərclərinin səmərəliliyinin təmin edilməsi və neft gəlirlərinin dəyişkənliyinin azaldılması üçün görülən tədbirlərin davamı olmalıdır. Birinci məqsəd ciddi fiskal çərçivə ilə yanaşı, həm də monetar çərçivə ilə bağlıdır.

Ciddi monetar siyasət çərçivəsi və məqsədlərinin effektiv icrası makroiqtisadi mühitin mühüm tərkib hissəsidir. Bu baxımdan, monetar siyasətin fiskal siyasətlə koordinasiyada həyata keçirilməsi, iqtisadiyyatdakı dəyişiklikləri əks etdirmək üçün monetar amillərdə tələb olunan düzəlişlərin qiymətləndirilməsi iqtisadi potensialın daha da gücləndirilməsi üçün zəruridir.

İqtisadi potensialın daha da gücləndirilməsi üçün monetar və fiskal çərçivələrin qarşılıqlı əlaqəsi ilə yanaşı, digər strateji məqsəd özəlləşdirmə və dövlət müəssisələrində islahatlarla bağlıdır. Bu sənəddə dövlət səhmdarlığı yanaşmasının qəbulu və dövlət müəssisələrinin islahat proqramının həyata keçirilməsi nəticəsində dövlət sektorunun iqtisadiyyatdakı səmərəliliyinin yaxşılaşdırılması ilə bağlı müddəalar verilmişdir. Strateji Yol Xəritəsi ölkədə özəl sektorun fəallığını yüksəltmək üçün həyata keçirilən mövcud təşəbbüsləri dəstəkləmək, dövlət müəssisələrinin səmərəliliyini artırmaq və biznes mühitini yaxşılaşdırmaqla, birbaşa xarici investisiyaların cəlbini stimullaşdırmaq məqsədi daşıyır və bu sahədə atılacaq addımlar ikinci hədəfdə təsvir olunmuşdur.

Rəqabətli, inklüziv və dayanıqlı iqtisadi məqsədlərə nail olmaq üçün göstərilən səylərin tərkib hissəsi kimi, üçüncü məqsəd insan kapitalının inkişafının daha da sürətləndirilməsidir. Bu məqsədlə həyata keçiriləcək təşəbbüslər əsaslandırılır və tədbirlər aşağıdakı istiqamətlərə uyğun planlaşdırılır: təhsilin insan kapitalına töhfəsi, müəssisələrin işinin daha səmərəli olmasına kömək üçün əmək məhsuldarlığının yaxşılaşdırılması.


Dördüncü məqsəd biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlıdır. Fiskal və monetar siyasət nəticəsində iqtisadiyyata veriləcək təkanlar əlverişli biznes mühiti şəraitində mövcud resurslardan daha səmərəli istifadəyə imkan yarada bilər. İqtisadiyyatı dəstəkləmək üçün biznes mühitinin yaxşılaşdırılması istiqamətində daha müfəssəl yanaşma milli iqtisadiyyatın sektorları üzrə strateji yol xəritələrində verilmişdir.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi

Azərbaycan iqtisadiyyatında baş verən proseslər ölkədə neft hasilatı və dünya bazarlarında neftin qiymətindəki dəyişkənliklə əhəmiyyətli dərəcədə bağlı olmuş və bu cür dəyişkənliklərin ÜDM-ə təsiri ardıcıl təkanverici mexanizmlər şəklində baş vermişdir (şəkil 24). Neftin qiymətindəki dəyişikliklər bilavasitə ARDNF-in dövlət büdcəsinə transfertlərinə təsir göstərmişdir. Eyni zamanda, ARDNF-in dövlət büdcəsinə transfertinin həcmindəki dəyişikliklər dövlət xərclərində də öz əksini tapmışdır. İqtisadiyyatda dövlət xərclərinin payını nəzərə alaraq, dövlət xərclərindəki dəyişikliklərin ÜDM-dəki dəyişikliklərlə üst-üstə düşdüyünü görmək olar. Bu səbəb–nəticə əlaqəsi və ötən illər ərzində neft qiymətlərindəki volatillik səbəbindən Azərbaycanda ÜDM artımı çox fərqli olmuş və Türkiyədə müşahidə edilən cəmi 4 faizlə müqayisədə Azərbaycanda ÜDM-in artımında orta standart kənarlaşma 2004–2014-cü illər arasında 11 faiz təşkil etmişdir.[31]

Şəkil 24. Neftin qiymətindəki dəyişkənliyin və ARDNF-in transfertlərinin Azərbaycan iqtisadiyyatına təsiri



Mənbə: Maliyyə Nazirliyi, Dünya Bankı


Azərbaycan iqtisadiyyatının təbii ehtiyatlardan və xüsusən də neftdən asılılığının həm qısa, həm də uzunmüddətli perspektivdə azaldılması zəruridir. 2013-cü ildə ARDNF-in transfertinin dövlət xərclərində payı 59 faizə[32] çatmışdır və bu vəziyyət makroiqtisadi sabitlik üçün ciddi təhdid yaradır. Büdcənin ARDNF-in transfertlərindən asılılığı 2013-cü ildən bəri azalsa da, bu transfertlərin büdcədə

[31] Mənbə: Dünya Bankı
[32] Mənbə: Maliyyə Nazirliyi, ARDNF

ümumi payı hələ də yüksək olaraq qalmaqdadır. Bu şəraitin, gələcəkdə neftin qiymətindəki dəyişkənliklər nəzərə alınmaqla, ÜDM artımına birbaşa təsir edə biləcəyi ehtimal edilir.

Uzunmüddətli perspektivdə neftin qiymətlərindən fiskal asılılıq bu sahəyə daha diqqətli yanaşmanı şərtləndirir. Azərbaycanın təbii resurslarının tükənən xarakterli olması diqqəti dayanıqlı iqtisadi inkişaf modelini qəbul etmək üçün alternativ yanaşmalar seçilməsinə yönəldir. Belə ki, hesablamalara görə, Azərbaycanın təsdiq edilmiş neft-qaz ehtiyatları İran, Səudiyyə Ərəbistanı və ya Qazaxıstan kimi ölkələrin analoji göstəricisi ilə müqayisədə daha tez tükənə bilər. Davamlı kəşfiyyat işlərinin aparılması (xüsusən də kiçik yataqlar) bu müddəti bir qədər artırsa da, hazırkı şərait növbəti 30 il ərzində neft-qaz ehtiyatlarından əldə olunacaq gəlirlərdən asılılığın azaldılmasını tələb edir (şəkil 25).

Şəkil 25. Neftdən asılılıq səviyyəsi



Mənbə: Maliyyə Nazirliyi, Beynəlxalq Valyuta Fondu

Neftdən yüksək asılılıq iqtisadiyyata fərqli yollarla təsir edir. Məsələn, neft ticarəti ilə bağlı xarici valyuta daxilolmalarının həcminin dəyişməsi və buna görə manatla bağlı müşahidə edilən qeyri-stabilliyin nəticəsi kimi, milli valyutaya inam azalır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2014-cü ildə Azərbaycanda dövlət sektoru hesabına formalaşmış əsas kapitalın ümumi yığımının ÜDM-də payı 20 faiz olduğu halda, özəl sektor üçün bu nisbət cəmi 8,6 faiz təşkil etmişdir. Bunun səbəbi, bir tərəfdən, dövlətin böyük neft gəlirlərinə çıxışı ilə əlaqəli olsa da, digər tərəfdən, özəl sektorun maliyyə resurslarına məhdud çıxışı ilə bağlıdır. Sonuncu təsir qismən onunla əlaqəlidir ki, neft gəlirlərinin mövcudluğu dövlət tərəfindən istiqrazların buraxılması zərurətini azaltmışdır; halbuki dövlət istiqrazları çox vaxt likvid kapital bazarının əsasını təşkil edir. Bundan əlavə, ümumi iqtisadiyyata nisbətdə dövlət sektorunun ölçüsü özəl sektorun "sıxışdırıldığı"nı göstərir: dövlət

xərclərinin qeyri-neft ÜDM-ə nisbəti son illərdə 52-59 faiz olmuşdur. Norveç Azərbaycanla müqayisədə kapital çatışmazlığı ilə üzləşməsə də, onun 28 faizlik[33] göstəricisi Azərbaycan üçün bu istiqamətdə əlavə inkişaf imkanlarının olduğunu göstərir.

Resurs sektorlarına əsaslanan artım, adətən, bu sektorlarda əmək tutumunun aşağı olmasına görə bütövlükdə özəl sektorda aşağı məşğulluq səviyyəsinə gətirib çıxarır. Resurs sektorlarının aşağı əməktutumlu olması Azərbaycana mənfi təsir etmişdir: neft-qaz sektorunun ÜDM-də payı azı 36,3 faiz olduğu halda, ümumi məşğulluqdakı payı cəmi 1-2 faizdir. Nəticədə, 2015-ci ildə özəl sektorda muzdlu işçilərin sayı 623,6 min nəfər təşkil etdiyi halda, dövlət xərclərinin artırılması dövlət sektorunda 878,9 min nəfərin işlə təmin edilməsinə imkan vermişdir.[34]

Bundan əlavə, dövlət xərclərində çox yüksək artım, adətən, izafi yüklənmə, aşağı büdcə intizamı və dövlət sektorunda səmərəliliyin azalması kimi bir sıra əlavə problemlər törədir. Azərbaycanın dövlət büdcəsi xərclərinin bəzi illər üzrə 50 faizdən çox artması eyni çətinliklərin təkrarlanması ehtimalını yüksəldir.[35]

7.1.1. Prioritet 1.1. Neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsini tənzimləyəcək "qızıl qayda"nın qəbul edilməsi

Əsaslandırma

Qlobal makroiqtisadi meyillər və onların yuxarıda təsvir edilmiş nəticələrinə görə proqnozlaşdırıla bilməyən kənar şoklar nəticəsində baş verən potensial çətinliklərin qarşısının alınması, gələcək nəsillər üçün ehtiyatın yaradılması və inteqrasiya edilmiş fiskal idarəetmə prinsiplərinin effektivliyi ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə nəzərdən keçirilməli olan dörd əsas komponent: neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsi, xərc və investisiya intizamı üçün mexanizmin yaradılması, Ortamüddətli Xərclər Çərçivəsinin gücləndirilməsi və nəticəəsaslı büdcə mexanizminin icrasının nəzərə alınması qeyd edilən istiqamətlər üzrə "qızıl qayda"nın qəbulunu zərurətə çevirir. Bu səbəbdən fiskal, monetar, iqtisadi hədəflər, habelə onlar arasındakı qarşılıqlı asılılıq və onların bir-birini tamamlaması daha optimal şəkildə nəzərə alınacaqdır.

Görüləcək tədbirlər

Tədbir 1.1.1: "Qızıl qayda" prinsipi ilə uzlaşdırmanın həyata keçirilməsi

Azərbaycanın dövlət büdcəsinə ARDNF-in transfertində sabitliyi təmin etmək üçün "qızıl qayda"nın tətbiqi nəzərdən keçiriləcəkdir.


Hazırda ARDNF-in Maliyyə Nazirliyinə köçürdüyü vəsaitlərin məbləği neftin qiymətindən asılı olaraq dəyişir. Fond ilə Maliyyə Nazirliyi arasında "qızıl qayda" adlanan daha ciddi köçürmə mexanizmi köçürülən məbləğləri sabitləşdirərək, dövlət xərclərini (və beləliklə də ÜDM-in artımını) neftin qiymətindəki dəyişkənliklərdən daha yaxşı qoruya bilər (şəkil 26).

[33] Mənbə: Avropa Komissiyası və Dünya Bankı

[34] Mənbə: Dövlət Statistika Komitəsi

[35] Maliyyə Nazirliyinin 2006-2008-ci illər üzrə məlumatı

Şəkil 26. “Qızıl qayda” prinsipi



Mənbə: Maliyyə Nazirliyi, Beynəlxalq Valyuta Fondu

Bu mexanizm bir sıra üstünlüklərə malikdir və bunların ən əsası sabitlikdir. “Qızıl qayda” ÜDM-in dəyişkənliyini azaldaraq Maliyyə Nazirliyi üçün əlçatan vəsaitlərin həcminin və manatın mübadilə məzənnəsinin proqnozlaşdırılmasını daha da asanlaşdıracaqdır. Proqnozlaşdırma imkanları da öz növbəsində uzunmüddətli artım və şaxələndirmə, habelə uzunmüddətli planlaşdırma və dövlət xərclərinin səmərəliliyinin yüksəldilməsi üçün şərait yaradacaqdır. Dövlət xərclərinin əhatəsi və dəyişkənliyinin məhdudlaşdırılması özəl sektorun sıxışdırılması imkanını da məhdudlaşdırır. Bunun digər təsiri Maliyyə Nazirliyinin bəzi illərdə dövlət büdcəsinin potensial kəsirini maliyyələşdirmək üçün kapital bazarlarına çıxışının tələb edilməsində özünü göstərəcək, bu isə kapital bazarının dərinləşməsinə töhfə verəcəkdir.


Bundan əlavə, ARDNF-dən dövlət xəzinədarlığına vəsaitin köçürməsinin optimal məbləği dəqiq müəyyən edilmədiyindən, Fond tərəfindən daha yüksəkgəlirli və uzunmüddətli investisiya edilməsində çətinlik yaranır. Büdcəyə transfertlərin məbləğinin məhdudlaşdırılması ARDNF-ə toplanan vəsaitlərin həcmini artıraraq, gələcək nəsillər üçün faydalı olacaqdır.

Bununla belə, “qızıl qayda”nın həyata keçirilməsi və artımın təmin edilməsində mühüm amil xərclərin müəyyən səviyyədə saxlanılmasından ibarətdir. Azərbaycanda dövlət xərcləri müəyyən səviyyədən aşağı endikdə uzunmüddətli mənfəət əldə etmək perspektivləri azala bilər. Bu vəsait iqtisadiyyatın inkişafı üçün lazım olduğuna görə uzunmüddətli perspektiv naminə qısamüddətli perspektivdə qarşıda duran məsələlər də diqqət mərkəzində saxlanılacaqdır.

Təcrübədə “qızıl qayda”

Mahiyyət etibarilə, “qızıl qayda”nın tətbiqi neft gəlirlərindən həddən artıq asılılıq səbəbindən dövlət büdcəsinin resurslarını məhdudlaşdıra bilər (şəkil 27). Bunun təsiri aşağıdakı kimidir: dövlət cari və kapital xərcləri üçün büdcəni tərtib edir. Büdcə xərclərinin böyük hissəsi qeyri-neft gəlirləri ilə ödənilir və qeyri-neft gəlirlərində kəsir (vergi-xərc fərqi) kiçik olduğuna görə, “qızıl qayda”da nəzərdə tutulduğu kimi, bu fərq neft gəlirlərinin orta həddə müəyyən edilmiş məbləği ilə ödənilir. Neft gəlirlərinin digər hissəsi özəl investisiyaların sıxışdırılmasının qarşısının alınması üçün xarici ölkələrə investisiya yatıran xüsusi fondda toplanır. Bu fond insanlar üçün gələcək ehtiyat toplamaqla, zaman keçdikcə böyüyür. Fondun özü bufer rolunu oynayır; neft qiymətləri müəyyən həddən aşağı düşdükdə fondda toplanmış ehtiyatlar dövlət büdcəsinə davamlı köçürülməklə baş verən dövri dəyişkənliklərə qarşı təhlükəsizlik buferi təmin edilir.

Şəkil 27. “Qızıl qayda”nın tətbiqi mexanizmi



1. Həmçinin daxili sektorda “büdcədənkənar maliyyələşməni” azaldır.

Təbii ehtiyatlardan asılı olan ölkələrin çoxunda müstəqil ehtiyat fondu yaratmaq və neft sektorundan asılılığı azaltmaq üçün müxtəlif prinsiplər tətbiq edilir. Məsələn, Norveçin neft fondu olan Norveç Dövlət Pensiya Fondundan dövlət büdcəsinə ildə 4 faiz həcmində transfert etməyə icazə verilir. Botsvananın Pula Fondu ölkənin almaz ehtiyatlarından əldə edilən gəlirləri gələcək nəsillər üçün saxlayır. Norveç Pensiya Fondundan fərqli olaraq, Pula Fondu faiz qaydası tətbiq etmir. Bunun əvəzində, ölkənin bütün digər xarici ehtiyatları müəyyən edilmiş həddən yüksək nisbətə çatdıqda həmin fonda köçürülür.

Təbii resurslardan asılı digər ölkələr yuxarıda qeyd edilən Norveç və Botsvana təcrübəsinə bənzər yanaşmalardan istifadə etsələr də, resurs qiymətlərindəki dəyişkənliklərdən qorunmağa daha az diqqət yetirirlər. Bu mexanizmlər “qızıl qayda”nın əsas xarakteristikasını heç də mütləq şəkildə nəzərə almır. Məsələn, Çili mis ehtiyatlarından əldə edilən gəlirlər üçün iki fond yaratmışdır: Pensiya Ehtiyat Fondu (PEF) və İqtisadi Sosial Stabilləşdirmə Fondu (İSSF). İstənilən müsbət saldo

bu fondlara köçürülür. 2009-cu il böhranının nəticələrini minimuma endirmək üçün fondlardan irihəcmli xərclərə baxmayaraq, hər iki fond böyüməkdədir. Qazaxıstan, Küveyt və Türkmənistan da fərqli uğur səviyyələri ilə neftdən əldə edilən gəlirləri gələcək nəsillərə saxlamaq üçün eyni xarakterli fondlara malikdirlər.

Tədbir 1.1.2: "Qızıl qayda" mexanizminin və parametrlərinin müəyyənləşdirilərək qəbul edilməsi

"Qızıl qayda" üzrə aparılan ümumi düzəlişlərə əsasən, mexanizm və onun parametrləri dəqiqləşdirilməlidir. Azərbaycan üzrə "qızıl qayda" mexanizmi müxtəlif hesablama məntiqinə əsaslanır. Mümkün variantlara aşağıdakılar daxildir:

Variant 1: Sabit köçürmə məbləği. Azərbaycanda ARDNF-dən dövlət büdcəsinə sabit köçürmə stabil və konservativ neft qiyməti, həmçinin gözlənilən orta ixrac həcmlərinə əsasən nəzərdən keçirilə bilər. Bu yanaşma iqtisadiyyatı neft qiymətindəki dalğalanmaların səbəb olduğu dəyişkənliklərdən qoruyaraq, qısamüddətli sabitliyi təmin edir. Belə qayda iqtisadiyyata daxil olan xarici valyuta məbləğini və milli valyutanın məzənnəsini proqnozlaşdırmaq imkanı yarada bilər. Lakin bu variantda dövlət büdcəsinə davamlı köçürmələrə icazə verilməməlidir: neft-qaz ehtiyatları tükəndikdən sonra sabit köçürülən məbləğ fondun illik faiz gəlirini üstələyə və bununla da fondun ehtiyatlarını sıfıra endirə bilər.

Variant 2: Sabit neft qiymətinə əsasən hesablanan köçürmələr. ARDNF-in köçürmələrinə sabit və konservativ neft qiymətinə əsasən hesablanan faktiki satış həcmləri kimi tərif verilə bilər (orta satış həcmlərinin qəbul edildiyi sabit köçürmə variantından fərqli olaraq). Bu yanaşma yalnız satılan həcmlərdə dəyişiklik baş verdikdə köçürmələrdə dəyişikliklərə yol açır. Bu halda uzunmüddətli perspektivdə neft-qaz ehtiyatları tükəndikdən sonra Fondda qalan potensial ehtiyatlardan istifadə üçün yeni "qızıl qayda"nın tətbiqi lazım gələcəkdir.

Variant 3: İnvestisiyalardan əldə ediləcək sabit gəlirlər. Dövlət büdcəsinə köçürmə ARDNF-in vəsaitlərinin idarə edilməsindən əldə olunan sabit gəlir şəklində aparıla bilər (bu qayda Norveçdə tətbiq edilən məntiqə uyğundur). Bu yanaşma neft qiymətindəki dəyişkənliklərdən asılılığı aşağı salsa da, fondun nisbətən kiçikölçülü olması səbəbindən ilkin mərhələdə 4 faizlik[36] (Norveçdə tətbiq edildiyi kimi) köçürmə dövlət büdcəsinin ehtiyaclarını ödəmək üçün kifayət etməyə bilər. Uzunmüddətli perspektivdə dövlət büdcəsinə yalnız orta faiz dərəcəsindən əldə edilən gəlirin köçürülməsi, kapital balansının saxlanılması və artırılması fondun gələcək nəsillər üzrə daim bölüşdürülməsi probleminin yaranmasına imkan vermədiyinə görə daha əlverişlidir.

Variant 4: İnvestisiyaların maliyyələşdirilməsi. Azərbaycan üçün digər alternativ variant yuxarıda verilmiş variantlardan birinə uyğun "qızıl qayda" mexanizminə mərhələli yanaşmadan ibarətdir. Bu yanaşma onu nəzərdə tutur ki, Azərbaycan iqtisadi inkişafın erkən mərhələsində olduğundan, əsaslı kapital qoyuluşu qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsinə şərait yarada


[36] Mənbə: Norveç Bankı

bilər. İnvestisiya imkanlarına və institusional inkişaf potensialına görə, ARDNF-dən transfertin tədricən azaldılması üçün qayda qəbul edə bilər. Fonddan azalan köçürmələrin qeyri-neft investisiya layihələrindən əldə ediləcək gəlirlərin artmasına görə tarazlaşdırılması iqtisadiyyata ümumi təsiri minimuma endirəcəkdir.

"Qızıl qayda" əsasında köçürmənin lazımi səviyyəsinin müəyyən edilməsi

Mexanizm seçildikdən sonra köçürmələrin arzuolunan səviyyəsi, qaydanın parametrlərinə dair razılığa gəlindiyi təqdirdə qəbul edilməlidir. Arzuedilən səviyyə köçürmələrin stabilliyindən əldə edilən mənfəəti qısamüddətli maliyyələşdirmə ehtiyacları ilə tarazlaşdırmalıdır. Bu cür tarazlaşdırma ölkənin sosial-iqtisadi inkişafı üçün vacibdir, çünki hazırda Azərbaycan həm adambaşına düşən ümummilli gəlir, həm də real kapital ehtiyatına görə bir sıra ölkələrlə müqayisədə geri qalır (şəkil 28). Davamlı iqtisadi inkişaf üçün dövlət öz investisiyalarının lazımi səviyyədə saxlanmasını təmin edəcəkdir.

Şəkil 28. Qısamüddətli perspektivdə neft gəlirlərinə ehtiyac



1. *1990–2014-cü illər üzrə*
   İran barədə təhlillər yalnız ictimaiyyət üçün açıq olan məlumatlara əsaslanır

Mənbə: BMT-nin İnkişaf Proqramı (UNDP), Dövlət Statistika Komitəsi, Dünya Bankı

Büdcə kəsirinin dövlət borcu hesabına maliyyələşdirilməsi mümkün olsa da, cari vergi–xərc fərqinin böyük olması ARDNF-dən nəzərəçarpan səviyyədə transfertlər tələb edir. "Qızıl qayda"nın parametrlərinin ölçülməsi zamanı bu məsələ də nəzərə alınacaqdır. "Qızıl qayda"da stabillik əsas məsələ olsa da, müəyyən zaman ərzində Fonda daxilolmalarda proqnoz dəyişikliyə imkan vermək üçün parametrlər qrafik üzrə

müntəzəm nəzərdən keçirilməlidir. Məsələn, “qızıl qayda” beşillik vaxt müddəti üçün təsdiqlənə və sonra Fondun ehtiyatlarının artımının dəyərləndirilməsi və dəyişikliklərin zəruri olub-olmadığının təsdiqlənməsi məqsədilə üçüncü il yenidən nəzərdən keçirilə bilər.

Bu yolla Azərbaycanda ölkənin qısamüddətli büdcə ehtiyaclarını qarşılamaq üçün “qızıl qayda”nın tətbiq edilməsinə çalışmaqla yanaşı, neft qiymətindəki dəyişikliklərin təsiri azaldılacaq, Fondun vəsaitlərinin hazırkı və gələcək nəsillər üzrə ədalətli bölgüsü təmin ediləcəkdir. Həm institusional və həm də praktiki tədbirlər maliyyə dayanıqlılığının təmin edilməsi və maliyyə siyasəti nəticəsində davamlı iqtisadi inkişafa nail olunması baxımından vacibdir. Xərc və investisiya intizamı yaratmaq üçün başladılan proqramlar iqtisadi siyasət, uzunmüddətli planlaşdırma və büdcənin tərtibi proseslərinin əlaqələndirilməsini asanlaşdırır. Bundan əlavə, strateji hədəflərin müəyyən olunması, potensial gələcək əməliyyatlarda mümkün büdcə risklərinin qarşısının alınması və bu proqramların effektiv tətbiqi Azərbaycanda maliyyə intizamının daha da gücləndirilməsi üçün vacibdir.

Azərbaycanın öz iqtisadi inkişafı üçün investisiya qoyuluşlarını daha da gücləndirəcək əlverişli mühit yaratmağa çalışdığını nəzərə alaraq, “qızıl qayda”nın icrası iqtisadiyyatın şaxələndirilməsi üçün davam edən kompleks tədbirlərə töhfə olacaqdır. Dəyişkən neft qiymətlərinin təsirinə davamlı olan və potensial iqtisadi riskləri yüngülləşdirən dayanıqlı maliyyə idarəçiliyi iqtisadiyyatın gələcək inkişafını şərtləndirir. “Qızıl qayda” iqtisadiyyatı kənar şoklardan qoruyur və iki əlavə mühüm tədbirin həyata keçirilməsi üçün əsas təşkil edərək, makroiqtisadi çərçivəni gücləndirir: səmərəli və effektiv xərcləmə. Bu istiqamətdə görülən tədbirlərin nəticəsi kimi, eləcə də yuxarıda təfərrüatları verilmiş “qızıl qayda”nı nəzərə alaraq, Ortamüddətli Xərclər Çərçivəsinin effektiv tətbiqi və nəticəyə hədəflənmiş büdcənin təşkili prosesinə keçid vəsaitlərdən daha rasional istifadəni təmin edəcəkdir.

7.1.2. Prioritet 1.2. Xərc/investisiya intizamının təminatı üçün mexanizmin yaradılması

Əsaslandırma

“Qızıl qayda”nın səmərəli və effektiv xərc siyasəti ilə tətbiqi Azərbaycanda dövlət sektorunun dayanıqlılığını və məhsuldarlığını təmin etməyə kömək edəcəkdir. Səmərəli xərc siyasəti kapital xərcləri üçün resurslardan rasional istifadəni təmin edir və bu zaman investisiya qoyuluşlarından gəlir əldəetmə və kapitalın özünüödəməsi kimi amillər nəzərə alınır. Başqa sözlə, büdcə intizamı tətbiq edilir. Bu cür siyasət zəruri texnoloji yüksəlişi və insan kapitalının inkişafını təmin etmək üçün düzgün layihələrin seçilməsinə imkan verir, yəni xərclər gələcək artım üçün təkanverici rol oynayan ehtiyaclara yönəldilir.

Maliyyə dayanıqlılığını və çoxsahəli fiskal siyasətin məqsədlərini təmin etmək üçün Azərbaycanda gəlir, xərc və dövlətin balans hesabatı kimi məsələləri nəzərə alaraq, inteqrasiya edilmiş fiskal xərcləri idarəetmə çərçivəsinin yaradılması planlaşdırılır. Bu baxımdan, çərçivənin dayanıqlı şəkildə icrası üçün xərc və investisiya intizamını təşviq edən tədbirlərin davam etdirilməsi vacibdir. Ona görə də Azərbaycanda belə intizamın standartlaşdırılması və təmin edilməsini nəzərdə tutan davamlı tədbirlər həyata keçiriləcəkdir. Neft gəlirlərindən dövlət büdcəsinə transfertlərin payının dayanıqlı səviyyəyə çatdırılması, 2014-cü ildə Dünya Bankı tərəfindən Azərbaycan üzrə aparılmış Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı (DXMH–PEFA) qiymətləndirilməsində öz əksini tapan tövsiyələrin icrası, vergi modeli

də daxil olmaqla fiskal çərçivənin təkmilləşdirilməsi, habelə dövlət borcunun idarə edilməsinin gücləndirilməsi üzrə göstərilən təşəbbüslər belə davamlı tədbirlər sırasına daxil ediləcəkdir. Bu intizam Azərbaycanda ardıcıl surətdə həyata keçirilən kompleks tədbirləri tamamlayan əsas amillərdən biri olduğundan, fiskal siyasətin səmərəli həyata keçirilməsi üçün əsas istiqamətləndirici prinsiplərin dərc və monitorinq edilməklə izlənilməsi vacibdir. Bu prinsiplərin icrasını tamamilə təmin etmək üçün, ehtiyac olduğu təqdirdə, əlavə qanunvericilik tədbirlərinin görülməsi nəzərdən keçirilə bilər. Bununla yanaşı, dövlət və özəl tərəfdaşların cəlb edilməsi və həmin prinsiplər üzrə öhdəliklərin uzlaşdırılması yolu ilə sözügedən prinsiplərin icrasına əlavə dəstək verilə bilər.

Görüləcək tədbirlər

Tədbir 1.2.1: Ortamüddətli Xərclər Çərçivəsinin yaradılması

Azərbaycanda büdcənin hazırlanması mexanizminin Ortamüddətli Xərclər Çərçivəsinə (OMXÇ) uyğun olaraq təkmilləşdirilməsi nəzərdən keçiriləcəkdir. Bu büdcə mexanizminin əsas məqsədi iqtisadi siyasəti, uzunmüddətli iqtisadi (o cümlədən büdcə planlaşdırmasını və büdcə proseslərini əlaqələndirmək), həmçinin strateji hədəfləri müəyyənləşdirməkdir.

OMXÇ dövlətə büdcə xərclərinin planlaşdırılması məqsədilə həm təşkilati, həm də sektoral büdcə resurslarının həcmi, bölgüsü, tətbiqi üçün zəruri olan inkişaf büdcəsinin tərkib hissəsi kimi investisiya layihələrinin əsas istiqamətləri barədə məlumat verməlidir. OMXÇ hökumətin öz strategiyasında müəyyənləşdirdiyi əsas hədəflərə uyğun olaraq, büdcədən vəsaitlərin ayrılmasını şərtləndirir. Bu zaman ilk olaraq hökumətin illik büdcə xərcləri müəyyən edilir (məsələn, qəbul edilmiş "qızıl qayda"ya uyğun olaraq). Müəyyən edilmiş məbləğ sonradan müxtəlif dövlət orqanları arasında bölüşdürülür. OMXÇ tətbiq olunduğu sistemlərdə bu növ bölüşdürmələr zamanı müvafiq dövlət orqanlarının müəyyən edilmiş iqtisadi və sosial siyasət kursunun qısa və ortamüddətli təsirləri nəzərə alınır.

OMXÇ-nin hazırlanması sonda dövlətin maliyyə resurslarının idarə edilməsi baxımından aşağıdakı üstünlüklərə malikdir: fiskal intizamın təmin edilməsi, dövlət büdcəsi göstəricilərinin proqnozlaşdırıla bilən olmasının təmin edilməsi, büdcə resurslarının sektorlararası və sektordaxili düzgün bölüşdürülməsinin təmin edilməsi, nəticələrə görə konkret subyektlərin məsuliyyətinin artırılması, dövlət büdcəsi xərclərinin səmərəliliyinin yüksəldilməsi.

Tədbir 1.2.2: Nəticəəsaslı büdcə mexanizminin təşkil edilməsi

Nəticəəsaslı büdcənin, OMXÇ-nin əsasını təşkil etməklə, aşağıdakı şərtlər daxilində reallaşdırılması zəruridir:

- dövlətin maliyyə resurslarının maddələr üzrə deyil, proqramlar və strateji hədəflər üzrə icrasının təmin edilməsi;
- proqramların və strateji hədəflərin, o cümlədən hər bir dövlət orqanının fəaliyyətindən gözlənilən əsas nəticələrin aydın şəkildə müəyyən edilməsi;
- dövlət qurumlarının məqsədlərinin və strateji prioritetlərinin kompleks və məqsədli proqramlara uyğunlaşdırılması;

- dövlət orqanları üzrə büdcənin həmin orqandan gözlənilən nəticələr əsasında tərtib edilməsi;

- dövlət qurumlarının büdcə vəsaitlərindən istifadəsi üzərində nəzarət mexanizminin qurulması;
- büdcə layihəsinin müvafiq icra hakimiyyəti orqanlarına büdcə təşkilatlarının fəaliyyətinin səmərəliliyini, nəticələrini və qənaətliliyini qiymətləndirməyə imkan verən göstəricilər sistemi əsasında tərtib edilməsi.

7.1.3. Prioritet 1.3. Yeni iqtisadi modeldə effektiv pul siyasəti rejiminin tətbiq edilməsi

Əsaslandırma

Mövcud qanunvericiliyə əsasən, Azərbaycan Respublikasında pul siyasətinin başlıca məqsədi qiymət sabitliyinin təmin edilməsidir. Qiymət sabitliyinin təmin edilməsi ölkədə makroiqtisadi sabitliyi möhkəmləndirməklə qarşıya qoyulmuş strateji hədəflərin reallaşdırılmasına əhəmiyyətli töhfə verəcəkdir. Azərbaycan iqtisadiyyatının mövcud reallıqları və mütərəqqi beynəlxalq təcrübə onu deməyə əsas verir ki, orta və uzunmüddətli dövrdə pul siyasətinin iqtisadiyyata yüksək ötürücülüyünün makroiqtisadi və maliyyə sabitliyinin əldə edilməsinə əhəmiyyətli töhfə verməsi məqsədilə ən optimal pul siyasəti rejiminə keçid təmin edilməlidir.

Görüləcək tədbirlər

Tədbir 1.3.1: Makroiqtisadi koordinasiyanın təmin edilməsi

Makroiqtisadi və maliyyə sabitliyi üzrə dövlət qurumları arasında koordinasiyanın təmin edilməsi qarşıya qoyulmuş hədəflərin reallaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycanda bu istiqamətdə artıq nəzərəçarpan tədbirlər görülmüşdür. Bu baxımdan əsas maraqlı tərəflər arasında tam koordinasiyanı təmin etmək məqsədilə, məsuliyyətlərin aydın bölgüsünə əsaslanmaqla, Azərbaycanda Maliyyə Sabitliyi Şurası (MSŞ) yaradılmışdır. MSŞ dəyişkən qlobal, regional və daxili mühiti təhlil edərək, koordinasiya edilmiş və çevik makroiqtisadi sabitlik üzrə siyasətin formalaşdırılmasına və səmərəli həyata keçirilməsinə əhəmiyyətli töhfə verəcəkdir.

MSŞ-nin yaradılması fiskal və monetar əməliyyatlar arasında əlaqəni təmin etmək üçün müxtəlif dövlət qurumları arasında yüksək səviyyədə koordinasiya əldə edilməsinin əhəmiyyətini göstərir. MSŞ-da müxtəlif sahələrdə makroiqtisadi siyasəti həyata keçirən dövlət qurumları təmsil olunur və Azərbaycan Respublikası Baş nazirinin rəhbərliyi ilə makroiqtisadi siyasət koordinasiya edilir. Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) pul siyasəti əməliyyatlarını həyata keçirməsi üçün sağlam platforma yaratmaq və siyasətin formalaşdırılmasının erkən mərhələsində monetar və fiskal qurumlar arasında effektiv kommunikasiyanı təmin etmək MSŞ-nin başlıca məqsədlərindən biridir.

MSŞ vasitəsilə Azərbaycanda davamlı olaraq makroiqtisadi vəziyyət təhlil ediləcək, bazar qiymətləndirmələri və perspektivləri, habelə inkişaf etməkdə olan bazar strukturları və vasitəçilik platformaları nəzərə alınacaqdır. Bu isə AMB-nin siyasət seçimlərinin müəyyənləşdirilməsi zamanı hərtərəfli məlumatla təmin edilməsi deməkdir. İqtisadiyyatın müəyyən edilmiş hədəflərə uyğun inkişaf etdiyini qiymətləndirmək üçün MSŞ müntəzəm olaraq iclaslar keçirəcəkdir. Bu səyləri dəstəkləmək məqsədilə MSŞ monetar siyasətlə daha geniş iqtisadi məqsədlər arasında əlaqə barədə təsəvvür yaratmaq üçün aktual mövzular barədə xüsusi işçi qruplar yarada bilər (bazar infrastrukturunun və institusional təsisatların

dayanıqlılığı, Azərbaycanın rəqabət qabiliyyəti və müqayisəli üstünlüyü, birbaşa xarici investisiyalar (BXİ) və s. üzrə).

MSŞ vasitəsilə, mandat və səlahiyyətlər nəzərə alınaraq, intizamlı koordinasiyanın təmin olunması iqtisadiyyatın dayanıqlılığı üçün mühümdür. Səmərəli fəaliyyəti ilə MSŞ ictimai etimadın yaradılması yolunda çox faydalı təsisat ola bilər. Bu qurum vasitəsilə sağlam koordinasiya və effektiv icra manatın cəlbediciliyinin artırılmasını və paralel olaraq, dollarlaşma səviyyəsinin azaldılmasını təmin edə bilər. Eyni zamanda, bu Strateji Yol Xəritəsinin bir hissəsi kimi, BXİ-nin və ixracın artımı iqtisadiyyatda dollarlaşmanın məhdudlaşdırılmasına kömək edəcəkdir. Uzunmüddətli dövrdə depozitlərin dollarsızlaşdırılması vasitəsilə öhdəliklərin manata konvertasiyasına və potensial olaraq, daha təkmil alətlərə, o cümlədən törəmə maliyyə alətlərinə əsaslanan dollarsızlaşdırılmadan istifadə ediləcəkdir. Bundan başqa, Şura maliyyə sabitliyinin gücləndirilməsi üçün müvafiq tədbirlər həyata keçirəcəkdir. Bu isə öz növbəsində maliyyə vasitəçiliyini dərinləşdirməklə, pul siyasətinin ötürücülüyünü gücləndirəcəkdir.

Tədbir 1.3.2: Yeni alternativ lövbərin hədəflənməsi

BVF-nin hesabatına görə, Azərbaycan 2015-ci ilin sonunadək de-fakto məzənnənin hədəflənməsi rejimini reallaşdırmışdır. Bu rejim əsnasında pul siyasətinin lövbəri qismində məzənnə çıxış etmişdir. Dünya bazarında neftin qiymətinin kəskin düşməsi xarici sektor üzrə balansın təmin edilməsi ilə bağlı ciddi çağırışlar formalaşdırmış, xarici sektorda olan problemlər daxili iqtisadi balans üzərində neqativ təsirlər əmələ gətirmişdir. Yeni dövrün şərtlərinə uyğunlaşmaq, daxili və xarici iqtisadi balansı təmin etmək üçün milli valyuta iki dəfəyə yaxın ucuzlaşmış, faktiki olaraq, pul təklifinin hədəflənməsi rejiminin tətbiqinə başlanılmışdır. Bu rejimin reallaşdırılması isə pul təklifinin – pul bazasının pul siyasətinin lövbəri kimi seçilməsi hesabına təmin edilmişdir.

Orta və uzunmüddətli dövrdə pul siyasəti rejiminin təkmilləşdirilməsi məqsədilə faiz dərəcələri nəzərə alınan lövbərlərdən biri seçilə bilər. Faiz dərəcələrinin lövbər qismində seçilməsi pul siyasətinin iqtisadiyyata ötürücülüyünü yüksəltməklə, qiymət və maliyyə sabitliyinin daha effektiv təmin edilməsinə imkan verəcəkdir.

Tədbir 1.3.3: Tam üzən məzənnə rejiminə keçidin təmin edilməsi

Qlobal əmtəə bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsinin Azərbaycanın xarici və daxili iqtisadi balansına neqativ təsirlərini minimuma endirmək, ölkə iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək, həmçinin ölkənin malik olduğu xarici valyuta ehtiyatlarının bütövlüyünü təmin etmək məqsədilə Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin 2015-ci il 21 dekabr tarixli qərarı ilə sabit məzənnə rejimindən imtina edilmiş, üzən–tənzimlənən məzənnə rejiminin tətbiqinə başlanılmışdır.

Tam üzən məzənnə rejiminin tətbiqinə nail olmaq üçün ilk növbədə yaxın və ortamüddətli dövrdə hazırda tətbiq edilən üzən–tənzimlənən məzənnə rejiminin məzmununun bir daha dəqiqləşdirilməsi vacibdir. Tam üzən məzənnə rejiminə keçid həyata keçirilməlidir və bu baxımdan, ilk növbədə yaxın və ortamüddətli dövrdə məzənnə siyasətinin əsas strateji hədəfi kimi idxalın əvəzlənməsi siyasətinin dəstəklənməsi prioritet seçilə bilər. Məhz istehlak səbətində idxal məhsullarının payının azaldılmasına nail olma səviyyəsinə uyğun şəkildə məzənnə üçün faktiki tətbiq edilən dəhlizin genişləndirilməsi, ortamüddətli dövrdə isə tamamilə ləğv edilməsi üzən rejimə səmərəli keçidi təmin edəcəkdir. Üzən məzənnə rejiminə keçidin şərtlərindən biri də daxili maliyyə bazarının inkişafına, bazarda hedcinq və məzənnə

risklərindən sığortalanmağa imkan verən digər maliyyə alətlərinin təqdim edilməsinə nail olmaqdır.

Bundan əlavə, Mərkəzi Bankın valyuta bazarına müdaxilə strategiyasının hazırlanması və onun maliyyə bazarı iştirakçılarına səmərəli şəkildə kommunikasiya edilməsinin təmin olunması istiqamətində tədbirlər nəzərdən keçiriləcəkdir.

Tədbir 1.3.4: Banklararası bazarın fəaliyyətinin təkmilləşdirilməsi

Pul siyasətinin iqtisadiyyata effektiv ötürücülüyünün təmin edilməsinin əhəmiyyətli aralıq həlqəsi banklararası bazardır. Bu bazarın səmərəli fəaliyyəti pul siyasəti qərarlarının faiz dərəcələri vasitəsilə iqtisadiyyata ötürülməsinə imkan verir.

Hazırda pul bazarının aparıcı seqmenti olan banklararası bazarda əməliyyatların həcmi nisbətən aşağıdır. Banklararası bazarın inkişaf etdirilməsi üçün kommersiya bankları arasında etimadın gücləndirilməsi, faiz dəhlizi parametrlərinin banklararası bazarın fəaliyyətini dəstəkləyici konstruksiyada istifadə imkanlarının təhlili xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, dərin və likvid qiymətli kağızlar bazarı banklararası bazarın inkişafını təmin edən amillərdəndir. Xüsusilə də dövlət qiymətli kağızlar bazarının inkişaf etdirilməsi banklararası bazarda təminat problemini həll etməklə, əməliyyatların həcminin artmasına təkan verə bilər. Banklararası bazarın inkişaf etdirilməsinə dair təfsilatlı tədbirlər "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə əks olunmuşdur.

Tədbir 1.3.5: Adekvat iqtisadi gözləntilərin formalaşdırılması və idarə edilməsi

Pul siyasəti rejiminin səmərəli tətbiqi zamanı ən çox istifadə edilən transmissiya kanallarından biri də gözləntilər kanalıdır. Səmərəli kommunikasiyanın təmin edilməsi biznes, dövlət sektoru və ev təsərrüfatlarının qəbul edilmiş pul siyasəti qərarlarından adekvat iqtisadi gözləntilərini formalaşdırır. Effektiv kommunikasiya çərçivəsinin qurulmasının digər üstün tərəfi həmin gözləntilərin adekvat idarə edilməsinə imkan verməsi və nəticədə rasional davranışların təmin edilməsidir.

Effektiv kommunikasiya strategiyası müasir qərarvermə prosesinin əsas elementlərindən birinə çevrilmişdir və hazırda Mərkəzi Bankın etimadının, habelə pul siyasətinin səmərəliliyinin artırılmasına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Qlobal iqtisadi meyillərin təhlili bir daha sübut edir ki, mərkəzi bankların effektiv kommunikasiya siyasəti ictimaiyyətin gözləntilərinin formalaşmasının və idarə edilməsinin ən mühüm vasitələrindəndir.

Pul siyasətinin kommunikasiyası bazar iştirakçılarının pul siyasətinin cari vəziyyəti və gələcək istiqamətləri, inflyasiyanın yaxın müddət ərzində proqnozlaşdırılan səviyyəsi, faiz dərəcələri, kreditləşmə şərtləri və sair bu kimi məsələlərin təfsilatı ilə ictimaiyyətə çatdırılmasını, bununla da gözləntilərin idarə olunmasını özündə ehtiva edir. Kommunikasiya strategiyası ictimaiyyətin pul siyasəti ilə bağlı proqnozlar verə bilməsi üçün ən vacib şərtlərdən biridir. Pul siyasətinin kommunikasiyasının əsas hədəfi iqtisadi proseslərə təsir etmək, o cümlədən qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün qəbul edilmiş həmin qərarlara adekvat gözləntilərin formalaşmasını təmin etməkdən ibarətdir. Kommunikasiya strategiyasının son hədəfinə nail olmaq üçün aralıq hədəflər müəyyən edilməlidir. Bu aralıq hədəflərə pul siyasətinə olan etimadın və şəffaflığın artırılması, eləcə də əsas hədəf kütlələrin iqtisadi maariflənmə səviyyəsinin yüksəldilməsi daxildir.


7.2. Strateji hədəf 2. Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi

Azərbaycanda iqtisadi artım üçün yeni ehtiyat mənbələrindən faydalanmaq, iqtisadiyyatın şaxələndirilməsi və qeyri–neft sektoruna daha çox investisiyaların cəlb edilməsi məqsədilə iqtisadiyyatda özəl sektorun xüsusi çəkisinin artırılması istiqamətində mühüm islahat proqramları həyata keçirilməkdədir. Həmçinin yerli şirkətlərin dünya bazarlarında daha uğurlu rəqabət aparmasına şərait yaratmaq üçün onların idarəetmə təcrübələrinin və səmərəliliyinin artırılmasına yönələn proqramlar işlənib hazırlanmaqdadır.

Ölkədə iqtisadi fəallığı gücləndirmək, özəl təşəbbüslərə dəstək vermək, iqtisadiyyatda dövrün tələbinə uyğun olaraq zəruri struktur dəyişiklikləri aparmaq, sağlam rəqabət mühiti formalaşdırmaq və milli iqtisadiyyatın səmərəliliyini yüksəltmək məqsədilə dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir.

Əksər ölkələrin təcrübəsi göstərir ki, iqtisadiyyatda özəl sektorun xüsusi çəkisinin artırılması maliyyə və aktivlər üzrə əməliyyatlar sahəsində mühüm irəliləyişlərə, həmçinin investisiyaların cəlb edilməsi üçün kapitala çıxış imkanlarının yaxşılaşdırılmasına səbəb olur (şəkil 29). Dünyada üç qlobal meyil iqtisadiyyatda dövlət sektorunun mülkiyyət payının getdikcə azaldılmasını zəruri edir: birincisi, daha qlobal sənaye və daha sürətli texnoloji inkişaf idarəetmə orqanlarının çevik reaksiyasını və yeni tələblərə sürətli adaptasiyasını zəruri edir; ikincisi, idarəetmə və mülkiyyətçilik siyasətinə diqqətin artırılması bu aspektləri dəyər yaradılması prosesinin əsas hərəkətverici qüvvələrindən birinə çevirir; üçüncüsü, dövlət sektorunun maliyyələşməsinə ictimai nəzarətin güclənməsi dövlət müəssisələrinin (bundan sonra – DM) dəyəryaratma prosesində iştirakını artırır. Bütün bu meyillər iqtisadi proseslərdə özəl sektorun iştirakının artırılması yolu ilə hər bir sektor üzrə və nəticə etibarilə, makroiqtisadi səviyyədə qarşıya qoyulan məqsədlərə çatmaq üçün zəmin yaradır.

Şəkil 29. Özəlləşdirmədən sonra istismar və maliyyə sahələrində irəliləyişlər, %-lə



Mənbə: Megginson, Nash & van Randenborgh (1994); Boubarki & Cosset (1998); D'Souza & Megginson (1998); İƏİT dövlət müəssisələrinin özəlləşdirilməsi, noyabr 2003-cü il

Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı 2016-cı ilə qədər iki dövlət proqramı – "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin I Dövlət Proqramı" və "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı" (bundan sonra – "I Dövlət Proqramı" və "II Dövlət Proqramı") həyata keçirilmişdir. Qeyd edilən hər iki dövlət proqramının əsas məqsədi iqtisadiyyatda aparılan struktur islahatlarını, sahibkarlığın inkişafını və sağlam rəqabət mühitinin formalaşdırılmasını sürətləndirmək, həmçinin investisiyalar cəlb etmək yolu ilə iqtisadi səmərəliliyin artırılmasına nail olmaq idi. Bu dövlət proqramlarının həyata keçirilməsi nəticəsində qeyri-neft sektoruna cəlb edilmiş investisiyaların artması, sahibkar və səhmdar təbəqəsinin daha da genişlənməsi, ölkədə yeni iş yerlərinin açılması və ya bərpa olunması sahəsində əhəmiyyətli irəliləyiş əldə edilmişdir.

Bundan əlavə, həmin proqramlar Azərbaycanda iqtisadi potensialın genişləndirilməsinə, azad rəqabət mühitinin yaradılmasına, əksər dövlət müəssisələrinin fəaliyyətinin yenidən qurulmasına, yeni avadanlıq və texnologiyaların, həmçinin müasir idarəetmə metodlarının tətbiqinə şərait yaratmışdır. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən bəhrələnərək, Azərbaycan dövlət əmlakının liberallaşdırılması və özəl sektorun inkişaf etdirilməsi istiqamətində təşviqedici fəaliyyətini davam etdirməkdədir. Ölkədə dövlət əmlakından istifadənin səmərəliliyinin artırılmasına, onun idarə olunmasının təkmilləşdirilməsinə və özəlləşdirilməsinə yönəlmiş yeni qanun layihəsi hazırlanır.

Dövlət əmlakının özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini iqtisadiyyatda özəl sektorun xüsusi çəkisinin artırılması ilə bağlı

əvvəlki proqramların davamı hesab etmək olar. Belə ki, yeni qanun layihəsinin məqsədi dövlətin idarəetmə funksiyalarının tədricən dövlətin tənzimləmə funksiyaları ilə əvəz edilməsi vasitəsilə dövlət xərclərinin azaldılması, şəffaf və müstəqil idarəetməyə təkan verilməsi, həmçinin yeni özəlləşdirmə metodlarının tətbiq edilməsi yolu ilə bazar iqtisadiyyatının daha da gücləndirilməsindən ibarət olacaqdır. Bundan başqa, layihənin hədəfləri sırasında nüfuzlu investorların, o cümlədən beynəlxalq maliyyə institutlarını, investisiya banklarını və fondlarını cəlb etməklə Azərbaycan iqtisadiyyatına sərmayə axınının daha da artırılması xüsusi əhəmiyyət kəsb edir. II Dövlət Proqramında özəlləşdirməyə açıq elan edilmiş müəssisələrin özəlləşdirilməsinin sona çatdırılması, həmçinin əvvəllər özəlləşdirilmiş müəssisələrin inkişafı üçün dəstək tədbirlərinin müəyyən edilməsi də yeni qanun layihəsində öz əksini tapacaqdır. Yeni qanun layihəsi əvvəlki Dövlət Proqramının icrasından sonra yaranmış digər tələblərin də ödənilməsi istiqamətində əlverişli imkanlar yaradacaqdır.

Hazırlanmış Strateji Yol Xəritəsinin səmərəli idarə olunması Azərbaycan iqtisadiyyatında özəl sektorun xüsusi çəkisinin daha da artırılması məqsədi daşıyan davamlı tədbirlərin reallaşdırılması və tətbiq edilmiş yeniliklərin tamamlanması üçün olduqca mühümdür. Bu baxımdan, Strateji Yol Xəritəsinin həyata keçirilməsi üçün iqtisadiyyatda dövlət sektorunun roluna ümumi yanaşmanın koordinasiyası, o cümlədən zəruri ehtiyat və prioritetlərin, xüsusilə də tələb olunan maliyyənin təmin edilməsi əsas amillər kimi diqqətdə saxlanılacaqdır.

Bundan başqa, iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində ən yüksək şəffaflıq səviyyəsini təmin etmək və səmərəliliyi yüksəltmək məqsədilə müasir korporativ idarəetmə prinsiplərinin tətbiq olunması, vacib struktur dəyişikliklərinin aparılması istiqamətində lazımi tədbirlərin həyata keçirilməsi, özəlləşdirmə prosesinə nəzarətin gücləndirilməsi və bu sahədə aşkarlığın təmin edilməsi də xüsusi əhəmiyyət kəsb edir. Diqqət yetiriləsi məqamlardan biri də dövlət əmlakının özəlləşdirilməsində şəffaflığın və məlumatlandırmanın təmin edilməsi, həmçinin müvafiq prosedurların elektron üsulla həyata keçirilməsidir.

7.2.1. Prioritet 2.1. İqtisadiyyatda dövlət sektorunun rolunun səmərəliliyinin artırılmasına dair ümumi yanaşmanın koordinasiya edilməsi

Əsaslandırma

Strateji Yol Xəritəsi özəlləşdirmə məqsədləri üçün dövlət səhmdarlığı və dövlətin mülkiyyətçisi olduğu müəssisələrdə onun iştirak səviyyəsinin müəyyən edilməsi ilə bağlı iki mühüm məsələnin nəzərə alınmasını təklif edir. Belə ki, dövlət mülkiyyətində olan müəssisələrin aktivlərində özəl sektorun xüsusi çəkisinin artırılması və ya onların dövlət mülkiyyətində saxlanılması ilə bağlı qərarlar müəssisənin fəaliyyətinin təkmilləşdirilməsi və rentabelliyinin artırılması məqsədilə verilməlidir. Bundan başqa, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı prioritetlər müəyyənləşdirilərkən ilk növbədə regionda rəqabət potensialı olan və sosial-iqtisadi inkişafa əhəmiyyətli töhfə verə biləcək fəaliyyətsiz müəssisələrin özəlləşdirilməsinə üstünlük verilməlidir.

Azərbaycan Respublikası Prezidentinin “Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında” 2016-cı il 19 iyul tarixli Fərmanı və “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 5 sentyabr tarixli Sərəncamı ölkədə

özəlləşdirmənin həyata keçirilməsinin effektivliyini təmin etmək üçün hüquqi bazanı daha da gücləndirmişdir.

Görüləcək tədbirlər

Tədbir 2.1.1: Dövlət mülkiyyətçiliyinə əsaslanan tələbatın müəyyən edilməsi

Uzunmüddətli dövr üçün dövlət mülkiyyətçiliyinə tələbatın müəyyən edilməsinin aşağıdakı 5 meyar əsasında həyata keçirilməsi planlaşdırılır:

- dövlət şirkəti özəl sektor vasitəsilə icra oluna bilməyən, lakin cəmiyyət üçün vacib olan maraqların təmin edilməsini həyata keçirir;
- dövlət mülkiyyətində olan müəssisələrin yaradılması və ya dəstəklənməsi zamanı DM-in fəaliyyət sahəsi üzrə milli maraqların mövcudluğu nəzərə alınmalıdır;
- dövlət mülkiyyətçiliyinin davam etdirilməsi həmin müəssisələrin uzunmüddətli dövr ərzində dövlət üçün əhəmiyyətli dərəcədə əlavə dəyər yaratdığı halda tələb olunur;
- dövlət mülkiyyətçiliyinin davamlı xarakter daşıması rəqabət mühitinin qorunub saxlanması və təbii inhisarçılığın qarşısının alınması məqsədilə tələb olunur;
- dövlət mülkiyyətçiliyinin davam etdirilməsi məşğulluğun təmin edilməsi üçün tələb olunur.

Tədbir 2.1.2: İdarəetmənin təkmilləşdirilməsi və səmərəliliyin yüksəldilməsi məqsədilə dövlət mülkiyyətində olan müəssisələr üzrə islahat proqramının icrası

Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar çərçivəsində sahibkarlığın inkişafı və sağlam rəqabət mühitinin formalaşdırılması sahəsində görülən işləri sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2016-cı il 5 sentyabr tarixində "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncamın əsas məqsədi yerli və xarici investisiyalar cəlb etməklə, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (bundan sonra – DM) idarə olunmasında şəffaflığı artırmaq və nəticədə diversifikasiya olunmuş, rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasına nail olmaqdır. Bu sahədə həyata keçiriləcək tədbirlərdən biri DM-in fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi qaydasının müəyyən edilməsidir. Bu qayda beynəlxalq təcrübə və milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla hazırlanacaqdır. Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə qaydaları və standartları, habelə həmin qaydaların və standartların mərhələlərlə tətbiqinə dair tədbirlər planı hazırlanacaqdır. Bu zaman DM-in idarəetmə orqanlarının üzvlərinə bonus ödənişlərinin verilməsi onların fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi ilə ("Performance Based Remuneration System") həyata keçiriləcəkdir. Bu müəssisələrin maliyyə hesabatları mərhələli şəkildə beynəlxalq standartlar tətbiq edilməklə təkmilləşdiriləcəkdir.

7.2.2. Prioritet 2.2. Özəlləşdirmə gündəliyinin uğurla icrası və prioritet sektorlarda özəlləşdirmənin həyata keçirilməsi

Əsaslandırma

Strateji Yol Xəritəsinin icrası zamanı özəlləşdirmə gündəliyinin və aktivlər üzrə təsnifləşdirmənin bütün maraqlı tərəflər arasında tam razılaşdırılması diqqətdə saxlanılacaqdır. Strateji Yol Xəritəsi üzrə aparılmış təhlillərdən əldə edilmiş nəticələr müvafiq iqtisadi bölmələrdən verilən məlumatlara əsaslanır.

Görüləcək tədbirlər

Tədbir 2.2.1: Gələcəkdə özəlləşdirilməyə açıq elan edilə biləcək bəzi təsnif olunmuş əmlaklara dair özəlləşdirmə gündəliyinin idarə olunması

Strateji Yol Xəritəsində xüsusi diqqət yetirilən məsələlərə əmlaklar üzrə mülkiyyət hüququnun əldə edilməsinin əsas prinsipləri, özəlləşdirmə qərarı və metodologiyası, həmçinin əmlakların ölçüsünə görə təsnifatı daxildir.

Özəlləşdirmənin qarşıda duran istiqamətlər üzrə planlaşdırılmasını daha da genişləndirmək və müəssisələrin sağlam şəkildə fəaliyyət göstərə bilməsini təmin etmək üçün korporativ idarəetmə tədbirləri, o cümlədən korporativ idarəetmə üzrə qanunvericiliyin təkmilləşdirilməsi, şəffaf maliyyə hesabatları və özəlləşdirmənin müvafiq hüquqi bazası üzrə tələblərin müəyyən edilməsi mövcud Strateji Yol Xəritəsində əlavə olaraq nəzərə alınacaqdır.

Strateji Yol Xəritəsinin icrasında iki əsas sahə mühüm rol oynayır. Birinci sahə özəlləşdirmə gündəliyinin və aktivlər üzrə təsnifləşdirmənin bütün maraqlı tərəflər arasında tam razılaşdırılmasını əhatə edir. İkinci sahə isə müxtəlif məsələlərin həllində yerli və qlobal ekspertlərlə səmərəli işləmək üçün ehtiyatların müəyyən edilməsidir.

Xarici investisiyaların cəlb edilməsinə daha səmərəli şərait yaratmaq məqsədilə yeni qanun layihəsinin hazırlanması prosesində iştirak edən xarici investorların stimullaşdırılması və investisiyaların qorunması üçün onlara əlavə güzəşt və üstünlüklərin, eləcə də dövlət zəmanətlərinin verilməsi nəzərdə tutulur.


Tədbir 2.2.2: Prioritet sektorlarda müəyyən edilmiş özəlləşdirmə yanaşmasının tətbiqi

Strateji Yol Xəritəsində sektorlar üzrə özəlləşdirməyə dair əsaslı yanaşmanın müəyyənləşdirilməsinə də yer verilmişdir (müvafiq sektorlarda daha ətraflı bəhs edilir). Bu baxımdan, Strateji Yol Xəritəsi üzrə aparılmış təhlillərdən əldə edilmiş nəticələr həyata keçirilən davamlı tədbirləri daha da gücləndirmək üçün əlavə perspektivlər verə bilər. Bu nəticələr iqtisadi sektorlara, məsələn, neft–qaz, kommunal xidmətlər, ağır sənaye və maşınqayırma, logistika və turizm sektorlarına dair strateji yol xəritələrində verilən məlumatlara əsaslanır.

"Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"nin həyata keçirilməsi vasitələrindən biri kimi, bu sektor üzrə güzəştlər, vergiqoyma prosedurları və kapital bazarlarının tənzimləyici infrastrukturunun yaradılması və inkişaf etdirilməsi neft-qaz sektoruna dair müvafiq bölmədə müəyyən edilmişdir. Bu istiqamətdə maliyyələşmə imkanlarından, məsələn, kapital bazarlarından səmərəli şəkildə yararlanmaq neft-qaz sektorunda dövlət müəssisələri üzrə sağlam maliyyə göstəricilərini, məhsuldarlığın artırılmasını və səmərəliliyi təmin edə bilər (şəkil 30). Buna görə də kapitala çıxış imkanlarını yüksəltmək məqsədilə milli neft şirkətlərinin yerli və ya beynəlxalq bazarlarda qiymətli kağızların emissiyası yolu ilə borclanması, yaxud yerli birjalarda

səhm buraxması təcrübələri nəzərə alına bilər. Bu yanaşmanı həyata keçirərkən şirkətləri tam şəkildə deyil, onların ayrı-ayrı hissələrini (məsələn, yanacağın pərakəndə satışı və ya polimer istehsalı) özəl kapitalın iştirakı üçün səhmlərin ilkin kütləvi təklifinə (İPO) çıxarmaq mümkündür.

Şəkil 30. Səhmlərin satışının şirkətlərin maliyyə vəziyyətinə və məhsuldarlıq göstəricilərinə təsiri



1. *Qiymətli kağızlar buraxıldıqdan sonra: -3 və -1 ilə +1 və +3 arasında 3 illik orta göstəricilərin təkmilləşmə faizi; hər göstərici üzrə nəzərdə tutulan məlumat paketində 14-28 İPO*

Mənbə: Wolf, C. və Pollitt, M.G., "Milli neft şirkətlərinin özəlləşdirilməsi: Firmaların göstəricilərinə təsirin qiymətləndirilməsi", Kembric Biznes Məktəbi Universiteti

Kommunal xidmətlər sahəsində səmərəliliyin və keyfiyyət səviyyəsinin təmin edilməsi məqsədilə özəl sektorun iştirakı nəzərdən keçirilə bilər. "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd edildiyi kimi, dəyər zənciri üzrə elektrik enerjisinin istehsalının, ötürülməsinin, paylanmasının və satışının bir-birindən ayrılması və liberallaşdırılması dünya təcrübəsində artıq sınaqdan keçirilmişdir. Bu təcrübə göstərir ki, elektrik enerjisi sektorunun liberallaşdırılması müxtəlif yollarla, o cümlədən 1) "Tik–idarə et–təhvil ver" (TİT modeli); 2) tam özəlləşdirmə; 3) idarəetməyə verilmə; 4) açıq tipli səhmdar cəmiyyətinə çevrilmə və ya 5) konsessiya müqaviləsi əsasında reallaşır. Bu sektorda özəlləşdirmə, əsasən, istehsal (strateji obyektlər istisna olmaqla) və satış sferalarını əhatə edə bilər.

"Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə göstərilən təşəbbüslərin səmərəli şəkildə reallaşdırılması üzrə qiymətləndirmə prosesi təmin edilməlidir. Bu məqsədlə, düzgün prioritetlərin müəyyən olunması ilə müşayiət edilən sistemli yanaşmanın tətbiqi nəzərdə tutulur. Müvafiq Strateji Yol Xəritəsində müəyyən edilən mərhələli yanaşmada müəyyən istehsal aktivlərinin səmərəliliyinin artırılması üçün özəl

müəssisələrə diqqət yetirilir və özəl sektorun iştirakçılığını təmin etmək üçün yaradılan istehsal aktivləri prioritetlər üzrə sıralanır. Rəqabətqabiliyyətli enerji alışı müqavilələri, özəlləşdirmə üçün hərraclar və yeni istehsal lisenziyaları vasitəsilə özəl sektorun səmərəli əməliyyat və icra göstəricilərinin təmin edilməsi istehsal portfelində qiymətləndirmə üçün potensial sahələrdir. Burada, həmçinin regionlarda elektrik enerjisinin paylanması fəaliyyətinin seçmə üsulla özəlləşdirilməsi nəzərə alına bilər.

"Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən, səmərəliliyi artırmaq məqsədilə istifadə edilməyən aktivlərin daha səmərəli istifadəsini təmin etməyin bir metodu kimi, bu sahədə özəl sektorun iştirakçılığı nəzərdən keçirilə bilər. Potensial rəqabət üstünlüyü və aşağı investisiya tələbi olan istifadəsiz aktivlərin canlandırılması, həmçinin gəlir əldə etmək və daha yaxşı idarəetmə qurmaq üçün bu aktivlərin səhmlərinin özəl şirkətlərə satılması yolu ilə bu sahələrdə özəl sektorun xüsusi çəkisinin artırılması məsələsi qiymətləndirilə bilər. Həmçinin böyük investisiya tələb edən və məhdud rəqabət üstünlüyünə malik olan istifadəsiz aktivlərin sağlamlaşdırılması, zərurət olduğu hallarda, torpaq və aktivlərin satılması və təyinatının dəyişdirilməsi vasitəsilə özəl sektorun sərəncamına verilməsi metodu da nəzərdən keçirilə bilər. Bu sahə üzrə özəlləşdirmə idxalın tədricən əvəz edilməsinə və gələcəkdə qlobal dəyər zəncirinə qoşulmağa istiqamətlənməlidir.

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nin mexanizmlərindən biri də özəl sektorun logistika sahəsində xüsusi çəkisinin artırılmasıdır. Həmin Strateji Yol Xəritəsində nəzərdə tutulan sektoral yanaşmada bu sahənin də potensial imkanlarından yararlanmaq olar. Qabaqcıl təcrübəyə malik bəzi ölkələrdə 30 il ərzində logistika sahəsində xeyli dövlət aktivləri özəlləşdirilmişdir. Təcrübə göstərir ki, özəl sektorun logistika sahəsində iştirakı əməliyyat gəlirləri üzrə marjanın, kommunikasiyanın şəffaflığının və açıqlığının, həmçinin xidmətlərin səviyyəsinin yüksəlməsinə səbəb olur. Bu həm də dövlət üçün daha yüksək gəlirlilik göstəricilərinin təmin olunması və bu sektorun rentabelliyinin təmin edilməsi deməkdir.

Logistika üzrə özəl sektorun xüsusi çəkisinin artırılması bu sahədə rəqabət mühitini sağlamlaşdıraraq, regional və beynəlxalq turizmin inkişafı üçün də ciddi təkan ola bilər. Azərbaycanda mədəni turizm, sağlamlıq turizmi, ekoturizm, kənd turizmi kimi turizm növləri üzrə tələbatın artırılması və qış turizminin inkişafına dəstək verilməsi kimi islahatların aparılması turizmlə bağlı digər altsektorların daha da inkişaf etdirilməsi strategiyası ilə bağlıdır. Turizmin inkişafında özəl sektorun iştirakının genişləndirilməsi istiqamətində atılacaq addımlar sırasında dövlət mülkiyyətində olan Şahdağdakı mehmanxanalardan başlamaqla, qış kurortlarının özəlləşdirilməsi məsələsi də nəzərdən keçirilə bilər. Peşəkar mehmanxana şəbəkələrindən idarəetmə heyətinin cəlb edilməsi və ya mövcud idarəetmə sisteminə əlavə inzibati çevikliyin gətirilməsi üçün özəlləşdirmə potensialı və özəlləşdirmə şərtləri qiymətləndirilməlidir.

7.2.3. Prioritet 2.3. Özəlləşdirmə və birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması

Əsaslandırma

Strateji Yol Xəritəsi və özəlləşdirməyə dair yeni qanun layihəsi Azərbaycanın iqtisadi inkişafına münbit şəraitin yaradılması üçün maliyyə vəsaitlərinin cəlb edilməsini, həmçinin investorların iştirakına dəstək verilməsi məqsədilə qanunvericilik şərtlərini və hüquqi müdafiə məsələlərini əks etdirir. Yerli özəl sektorun xüsusi

çəkisinin artırılması məqsədilə, Azərbaycan birgə iştirak etmək şərtilə kiçik şirkətlər qrupunun hədəf kimi qiymətləndirilməsini də nəzərdən keçirə bilər.

Görüləcək tədbirlər

Tədbir 2.3.1: Ən uyğun investor profillərinə struktur yanaşmanın tətbiq edilməsi

Azərbaycanda özəl sektorun iştirakı proqramlarının məqsədi ölkəyə yerli və xarici investorları fəal surətdə cəlb etməklə investisiya axınını gücləndirməkdir. Hazırkı Strateji Yol Xəritəsində ölkə iqtisadiyyatının inkişafının sürətləndirilməsi üçün maliyyə vəsaitlərinin cəlb edilməsi baxımından müxtəlif yanaşmalar müəyyən edilmiş, eləcə də hər hansı qurumun təşəbbüsü ilə investorların iştirakının dəstəklənməsi üçün onun hüquqlarının qorunması və qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. Bu yanaşma Azərbaycanda kapital bazarlarının inkişaf etdirilməsinə maraq göstərən investorların, o cümlədən öz biznesini inkişaf etdirmək marağında olan strateji alıcıların cəlb edilməsi üçün görülən tədbirlərə təkan verir.

İnvestorlar, məsələn, dövlət investisiya fondları, pensiya fondları, ianə fondları və özəl sektor investorları bu baxımdan xüsusi diqqət mərkəzində saxlanılacaqdır. MDB, Şərqi Avropa, Yaxın Şərq ölkələrində və Türkiyədə investisiya qoyan ən böyük bazar iştirakçıları ilə əlaqələr yaratmaqla potensial investorlar seçilə bilər. Bundan əlavə, inkişaf etməkdə olan bazarların ən böyük iştirakçılarından başqa, nəzərdə tutulan müəssisələrin fəaliyyət miqyasından asılı olaraq, digər xarici investorlar da cəlb edilə bilər. Regionda fəaliyyət göstərən sənaye konqlomeratları və yerli dəyər zənciri boyunca öz fəaliyyətini genişləndirən transmilli şirkətlərlə əməkdaşlığın qurulması özəl sektorun özəlləşdirmədə iştirakını genişləndirmək məqsədilə nəzərə alınacaqdır.

Yuxarıda qeyd edilən investisiya təşkilatlarının qlobal institusional aktivlərdəki payı təxminən 24 faizdir (36 trilyon avro).[37] Bu təşkilatlar son 5 il ərzində ölkələrin inkişafında aparıcı qüvvəyə çevrilmişdir. Azərbaycana belə investorları cəlb etməklə investisiya imkanlarını artırmaq və xarici kapital qoyuluşunu gücləndirmək olar.

İnvestorların daha effektiv seçilməsi məqsədilə onlar təhlil ediləcək və onların fərqli xüsusiyyətlərinə görə müxtəlif kateqoriyalara ayrılması, həmçinin bu kateqoriyalara aid olan investorlara ən uyğun fərdi yanaşma metodlarının tətbiqi imkanları araşdırılacaqdır. Belə yanaşmalardan biri fondların əlverişlilik (əlçatanlıq, qoyulan investisiyaların intensivliyi, yanaşmanın mürəkkəbliyi) və cəlbedicilik (aktivlərin səhm kapitalı və regionlar üzrə bölgüsü, gözlənilən maliyyə vəsaiti axını, investisiyaların zaman müddəti) baxımından təhlil edilməsi ola bilər. Digər yanaşma isə investorların risk və rentabellilik baxımından müxtəlif kateqoriyalara bölünməsi ola bilər. Ölkəyə investisiyaların cəlb edilməsi zamanı fondların ərazi üzrə paylanması, investisiya mandatları və məqsədləri, eləcə də investisiya qoyuluşuna mane olan hallar nəzərə alınmalıdır. Müxtəlif investor profilləri barədə aşağıda ətraflı qeyd edilmişdir.

Dövlət investisiya fondları (DİF)

Yaxın keçmişdə büdcə profisiti və investisiya göstəriciləri dövlət investisiya fondları tərəfindən idarə edilən aktivlərin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Karbohidrogen ixracı bazarlarına neft məhsullarının ixracı, inkişaf etməkdə olan bazarlara isə qeyri-əmtəə məhsullarının ixracı nəticəsində yaranmış büdcə

[37] Mənbə: Preqin, Towers Watson and Pension & Investments

profisitləri bu fondların inkişafını daha da sürətləndirmişdir. Dövlət investisiya fondlarının reytinqində karbohidrogen ehtiyatlarına əsaslanan fondlar yüksək mövqe tutur, digər fondlar isə qeyri-əmtəə ehtiyatlarına əsaslanan fondlardır (şəkil 31). Ona görə də Azərbaycanda neftin qiymətləri ilə kapital axını arasında olan əlaqəni zəiflətmək üçün ölkəyə daha çox qeyri-əmtəə ehtiyatlarına əsaslanan investisiya fondlarının cəlb edilməsi imkanları qiymətləndiriləcəkdir. Bununla belə, karbohidrogen ehtiyatlarının qiymətlərinin düşməsi nəticəsində karbohidrogen əsaslı fondların məruz qala biləcəyi mənfi təsirlər də nəzərə alınmalıdır.

Şəkil 31. Kapital mənbəyi əmtəə ixracından asılı olmayan 20 ən böyük fond

Reytinq	Fondların adları	Ümumi aktivləri 2014-cü il üzrə, milyard avro	Ölkə	Kapitalın mənbəyi
1	Dövlət Pensiya Fondu	673	Norveç	Karbohidrogen
2	Abu Dabi İnvestisiya Fondu	636	BƏƏ	Karbohidrogen
3	Sama Xarici Fond	550	Səudiyyə Ərəbistanı	Karbohidrogen
4	Çin İnvestisiya Korporasiyası	535	Çin	Qeyri-əmtəə
5	Xarici Valyuta üzrə Dövlət Aparatı	467	Çin	Qeyri-əmtəə
6	Küveyt İnvestisiya Şirkəti	451	Küveyt	Karbohidrogen
7	Honq Kong Monetar qurumu	341	Honqkonq	Qeyri-əmtəə
8	GIC	263	Sinqapur	Qeyri-əmtəə
9	Qətər İnvestisiya Şirkəti	250	Qətər	Karbohidrogen
10	Çin Milli Sosial Müdafiə Fondu	204	Çin	Qeyri-əmtəə
11	Temasek Holdinqi	132	Sinqapur	Qeyri-əmtəə
12	Abu Dabi İnvestisiya Komissiyası	74	BƏƏ	Karbohidrogen
13	Koreya İnvestisiya Korporasiyası	70	Cənubi Koreya	Qeyri-əmtəə
14	Gələcək Fondu	68	Avstraliya	Qeyri-əmtəə
15	Smaruk Kaznya Milli Fondu	64	Qazaxıstan	Karbohidrogen
16	Gəlirlərin Tənzimlənməsi Milli Fondu	64	Əlcəzair	Karbohidrogen
17	Ehtiyat Fond	63	Rusiya	Karbohidrogen
18	Milli Sərvətlər Fondu	62	Rusiya	Karbohidrogen
19	Qazaxıstan Milli Fondu	59	Qazaxıstan	Karbohidrogen
20	Beynəlxalq Neft Fondu	56	BƏƏ	Karbohidrogen

Mənbə: Preqin, SWFI

Dövlət investisiya fondları (DİF) pensiya fondları qədər mühafizəkar investisiya tələbləri irəli sürmür və bu fondlarda aktivlərin daha müxtəlif bölgüsü tətbiq edilə bilər. DİF aktivlərinin təxminən 50 faizi[38] səhm kapitalı və alternativ investisiyalar, məsələn, özəl səhm kapitalı və ya daşınmaz əmlak kimi bölünmüşdür. Ona görə də Azərbaycan səhm kapitalına investisiya qoyuluşu imkanları baxımından dövlət investisiya fondları üçün cəlbedici variant ola bilər.

Dövlət investisiya fondları hər hansı xüsusi aktiv növünün cəlb edilməsi baxımından üç geniş kateqoriyaya bölünə bilər: əmanət fondu, dövlət holdinq şirkətləri və inkişaf investorları. Əmanət fondlarının mandatını maddi rifahda sabitliyin yaradılması və rentabelliliyin maksimum artırılması təşkil edir. Bu fondların portfeli müxtəlif olub, səhm kapitalına birbaşa investisiya qoyuluşunun məhdud olması ilə

[38] Mənbə: Preqin

xarakterizə edilir. Dövlət holdinq şirkətlərinin mandatı isə strateji rentabellilikdən kapital rentabelliliyinə kimi fərqlənir. Bu fondlarda, ümumiyyətlə, digər investisiyalarla yanaşı, miras qoyulmuş aktivlər də idarə edilir və adətən strateji sahiblənmə gündəliyi tətbiq edilir. Üçüncü kateqoriyaya aid olan fondlar isə əsas diqqəti yerli və xarici strateji sektorlara yönəldir və özəl investisiya şirkətləri kimi eyni investisiya prosesi tətbiq edir, lakin yuxarıdakı iki fonddan fərqli olaraq risklərə qarşı həssaslığı daha aşağı səviyyədədir.

Pensiya və ianə fondları


Pensiya və ianə fondları maliyyə bazarlarında fəaliyyət göstərən institusional investorların mühüm hissəsini təşkil edir. 2014-cü ildə bu fondların dünya miqyasında idarə etdiyi aktivlərin ümumi dəyəri 9,6 trilyon avro olmuşdur.[39] Azərbaycan investisiya və ianə fondlarından təkcə investisiya məqsədləri üçün faydalanmaya da bilər. Bu fondların əksəriyyəti investisiya qoyuluşunun tərzinə görə "fondların fondu" hesab edildiyi üçün onların digər iştirakçılarla qarşılıqlı əlaqədə olması ehtimal edilir. Ona görə də belə investisiyaların uğurla cəlb edilməsi investorlar icmasında Azərbaycan haqqında təsəvvürləri gücləndirə bilər.

Ümumiyyətlə, pensiya fondları dövlət investisiya fondları ilə müqayisədə daha mühafizəkar investisiya strategiyaları həyata keçirsə də, onların aktivlərinin təxminən 20 faizi (1.8 trilyon avro) səhm kapitalına və alternativ investisiyalara cəlb edilir (şəkil 32). Bütün investorların cəlb edilməsində ayrı-ayrı halların və investisiya mandatlarının başa düşülməsi vacib olsa da, pensiya fondlarının investisiya qoyuluşunda üzləşdiyi məhdudiyyətləri nəzərə alsaq, pensiya fondlarını cəlb edərkən bu amilləri nəzərə almaq xüsusilə vacibdir. Ona görə də pensiya fondlarının planlarında maliyyə vəsaitinin ayrılması imkanlarının, onların gələcək borc öhdəliklərinin maliyyələşdirilməsinə olan ehtiyaclarının düzgün başa düşülməsi böyük əhəmiyyət kəsb edir, çünki bunlar həmin fondların investisiya strategiyasına təsir edə bilər. Pensiya fondları maliyyə vəsaitinin ayrılması imkanlarından və digər ehtiyaclardan asılı olaraq sabit gəlirlərə və ya riski idarə edilən məhsullara daha çox maraq göstərə bilər.

Pensiya fondlarının düzgün müəyyən edilməsi Azərbaycan üçün vacibdir, çünki bu, daha səmərəli investisiyaların cəlb edilməsinə şərait yaradır. Azərbaycanda ənənəvi investisiya məkanlarından fərqli portfelin yaradılması imkanları düzgün müəyyən edilmiş pensiya fondları üçün cəlbedici investisiya mühiti formalaşdıra bilər. Bundan başqa, regional pensiya fondlarının böyük hissəsi əsasən seçilmiş ölkələrdə mərkəzləşdiyi üçün uyğun hədəflərin müəyyən edilməsi Azərbaycan üçün daha asan ola bilər. Nəhayət, pensiya fondlarının Azərbaycan üçün uyğun investorlar olmasının digər bir səbəbi də odur ki, bu fondlar uzunmüddətli investisiya strategiyaları həyata keçirir və belə investisiyaların qiymətləndirilməsi üçün daxili əmək ehtiyatlarına malikdir.

[39] Mənbə: Preqin, Towers Watson, Pension & Investments

Şəkil 32. Avropa, Afrika və Yaxın Şərqin ən böyük pensiya fondları




Reytinq	Fondların adları	Ümumi aktivləri 2014, milyard avro ilə	Ölkə	Kapitalın mənbəyi
1	ABP	344	Niderland	Fond üzvlərinin töhvələri
2	PFZW	177	Niderland	
3	ATP	100	Danimarka	
4	Alecta	73	İsveç	
5	Bayerische Versorgungsk.	62	Almaniya	
6	Royal Dutch Shell	61	Niderland	
7	Metaal/tech Bedrijven	58	Niderland	
8	BT Group	56	Böyük Britaniya	
9	Bouwnijverheid	53	Niderland	
10	Universities Superannuation	53	Böyük Britaniya	
11	PFA Pension	53	Danimarka	
12	Lloyds Banking Group	49	Böyük Britaniya	
13	AMF Pension	45	İsveç	
14	Royal Bank of Scotland Group	44	Böyük Britaniya	
15	Keva	41	Finlandiya	
16	Electricity Supply Pension	40	Böyük Britaniya	
17	Varma	40	Finlandiya	
18	PME	39	Niderland	
19	Barclays Bank UK	34	Böyük Britaniya	
20	Sampension	34	Danimarka	

Mənbə: Towers Watson

İanə fondları nisbətən kiçik olub, özəlləşdirmə ilə bağlı investisiya sövdələşmələrində az iştirak edir, lakin nüfuzlu olduğu üçün onların Azərbaycana cəlb edilməsi ölkəyə və mövcud aktivlərə olan ümumi marağı artıra bilər. İanə fondları, ümumiyyətlə, uzunmüddətli investisiyalar yatırır və bu fondların həyata keçirdiyi investisiya strategiyaları onların Azərbaycan üçün uyğun investisiya fondu olduğunu göstərir.

Ən böyük ianə fondlarının reytinqinə ABŞ universitetləri başçılıq edir (şəkil 33). İki ölkə arasındakı məsafəni nəzərə alsaq, belə ianə fondlarının cəlb edilməsi üçün həmin investorların Azərbaycan barədə məlumatlandırılması böyük əhəmiyyət kəsb edir. Digər investisiya fondları kimi ianə fondlarının ehtiyacları və üstün tutduğu investisiya qoyuluşu təhlil ediləcək və bu fondların cəlb edilməsi üçün xüsusi strategiyalar hazırlanacaqdır.

Şəkil 33. Böyük universitetlərin nəzdindəki ianə fondları



Reytinq	İanə Fondları	Ümumi aktivləri, 2014, milyard avro	Ölkə	Kapitalın mənbəyi
1	Bill&Melinda Qeyts Etimad Fondu	30	ABŞ	Universitet haqları, donorlar və yerli fondlar
2	Harvard Universiteti	30	ABŞ	
3	Stənford Universiteti	21	ABŞ	
4	Yel Universiteti	20	ABŞ	
5	Prinston Universiteti	17	ABŞ	
6	Kaliforniya Universiteti	11	ABŞ	
7	Masaçussets Texnologiya İnstitutu	10	ABŞ	
8	Ford Universiteti	9	ABŞ	
9	Notre Dam Universiteti	8	ABŞ	
10	Miçiqan Universiteti	8	ABŞ	
11	Şimal-qərb Universiteti	8	ABŞ	
12	Pensilvaniya Universiteti	8	ABŞ	
13	Robert Vud Conson Fondu	8	ABŞ	
14	Kolumbiya Fondu	8	ABŞ	
15	Villiam və Flora Hevlet Fondu	7	ABŞ	
16	Lilli İanə Fondu	6	ABŞ	
17	Çikaqo Universiteti	6	ABŞ	
18	Dyuk Universiteti	6	ABŞ	
19	Virciniya Universiteti	6	ABŞ	
20	Vaşinqton Luis Universiteti	6	ABŞ	


Mənbə: “Pensions & İnvestments”[40]

Özəl sektor (yerli və xarici)

1-ci strateji hədəfdə qeyd edildiyi kimi, Azərbaycan iqtisadiyyatında özəl sektorun payı inkişaf etmiş ölkələrlə müqayisədə azdır. Özəl sektorun investisiya və məşğulluq səviyyəsindəki payı bu faktı bir daha sübut edir. Məsələn: 2014-cü ildə əsas kapitalın ümumi yığımının ÜDM-in 20 faizini təşkil edən həcmi dövlət sektorunun hesabına formalaşmış olduğu halda, özəl sektor üzrə bu göstərici 8,6 faiz olmuşdur.[41] Bu göstəricilərə əsasən demək olar ki, Azərbaycanda özəlləşdirmənin və sahibkarlığın gücləndirilməsi imkanlarını nəzərə almaqla, özəl sektorun daha da inkişaf etdirilməsi mümkündür (şəkil 34).

[40] “Pensions & Investments” - pulun idarəedilməsi üzrə beynəlxalq qəzet (http://www.pionline.com/)
[41] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Şəkil 34. Özəl sektor investisiyalarının ÜDM-də payı və muzdlu işçilərin sayının müqayisəsi



1. *Əsas kapitalın formalaşması birbaşa xarici investisiya axınlarına aid deyildi*
2. *2011–2015-ci illər üzrə məlumat olmadığı hallarda, orta göstərici kimi mövcud məlumat götürülmüşdür*
3. *Burada "rəsmi məşğulluq" dedikdə, rəsmi statistikada "muzdlu işçilər" kimi təsnif olunan əhali nəzərdə tutulur*

Mənbə: Dünya Bankı *(World Development Indicators)*, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Rusiya Federasiyasının Statistika Xidməti, TürkStat (2005–2014), Dünya Bankının göstəriciləri

Azərbaycanda xarici investisiyalar ölkə iqtisadiyyatının mühüm elementi hesab edilsə də, yerli özəl sektorun özəlləşdirmə prosesinə daha çox cəlb edilməsi nəzərə alınmalıdır. Azərbaycanda bu baxımdan yerli özəl sektordan investisiyaların daha çox cəlb edilməsi imkanları qiymətləndiriləcəkdir. Bu sahələrdə fəaliyyət göstərən potensial investorlara kiçik ailə bizneslər və ya varlı vətəndaşlar, eləcə də böyük yerli korporativ holdinqlər aid edilə bilər.

Bu istiqamətdə görülən ilkin tədbirlərdən biri potensial yerli investorların özəlləşdirmə imkanları barədə lazımi səviyyədə məlumatlandırılmalarıdır. Bunun üçün özəlləşdirmə aktivlərinin onlayn siyahısı mütəmadi olaraq yenilənəcək (bu tədbir artıq uğurla həyata keçirilir) və potensial investorların daha ətraflı məlumatlandırılmaları üçün mövcud məlumat bazası genişləndiriləcəkdir. Bundan başqa, iri holdinq şirkətlərinin özəlləşdirmənin faydaları (məsələn, mövcud biznesə şaquli və ya üfüqi inteqrasiya) barədə məlumatlandırılması üçün xüsusi təşviqat sənədləri və təqdimatlar hazırlanacaqdır. Nəhayət, özəlləşdirmə siyahısında uzun müddət qalmış, lakin az maraq doğuran müəssisələrin təhlili aparılacaq və bunun səbəbləri (özəlləşdirməyə təsir edən hallar) müəyyən edilərək təkliflər hazırlanacaqdır.

Bundan başqa, özəlləşdirmə təşəbbüslərinin dəstəklənməsi üçün geniş kommunikasiya strategiyası həyata keçiriləcəkdir. Xarici özəl sektorun özəlləşdirmə prosesinə cəlb edilməsi üçün 4.2.3-cü tədbir çərçivəsində müəyyən edilmiş prinsiplərdən istifadə etmək olar.


7.3. Strateji hədəf 3. İnsan kapitalının inkişaf etdirilməsi

İnsan kapitalı əmək məhsuldarlığının artırılmasında, dayanıqlı iqtisadi artımda, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində və ölkənin qlobal bazarlara inteqrasiyasında həlledici rol oynayır. Buna nail olmaq üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişaf etdirilməsində fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur. Bunu əsas tutaraq, Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçiriləcək islahatların ayrılmaz tərkib hissəsi kimi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və biliyin iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər hərtərəfli dəstəklənəcəkdir. Bu, iki səviyyədə təmin ediləcəkdir:

1) insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi;
2) əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması.


Dünya İqtisadi Forumunun 2015-ci il üçün açıqladığı “İnsan Kapitalı İndeksi” hesabatında Azərbaycan 124 ölkə arasında orta sıralarda (63-cü) yer almaqla Türkiyə, Çin, İndoneziya və Küveyt kimi ölkələri qabaqlamışdır (şəkil 35). Dünya İqtisadi Forumunun 2016–2017-ci illər üçün açıqladığı Qlobal Rəqabətlilik Hesabatında isə Azərbaycan 138 ölkə arasında 37-ci olmuşdur (şəkil 36). Bu, Azərbaycanın formalaşmış insan kapitalına, həm də rəqabət qabiliyyətini yüksəltmək imkanlarına malik olduğunu göstərir. Bu imkanlardan səmərəli istifadə etməklə, qısa və ortamüddətli perspektivdə insan kapitalını daha da inkişaf etdirmək və rəqabət qabiliyyətini artırmaq olar.

Şəkil 35. İnsan kapitalı indeksi, 2015-ci il



Mənbə: Dünya İqtisadi Forumu, "İnsan Kapitalı Hesabatı 2015"

Şəkil 36. Qlobal Rəqabətlilik İndeksi



Mənbə: Dünya İqtisadi Forumu, Qlobal Rəqabətlilik Hesabatı, 2016-2017

Bunun üçün insan potensialının inkişaf etdirilməsi, insan kapitalının keyfiyyətinin və əmək məhsuldarlığının yüksəldilməsi ilə bağlı məsələlərə xüsusi diqqət veriləcək, institusional və biznes mühiti daha da yaxşılaşdırılacaq, infrastruktur yaradılacaq, təhsil-təlim prosesi və ixtisaslı kadr hazırlığının, əmək bazarı və biznes sektoru arasında koordinasiyanın effektivliyi artırılacaq, innovasiyaya meyilli (elm və texnologiya tutumlu) istehsal (xidmət) sektorunun investisiya cəlbediciliyi artırılacaq,

klaster yaratma təşəbbüsləri dəstəklənəcək və əmək məhsuldarlığının yüksəldilməsi üzrə əsas prioritetlər müəyyənləşdiriləcəkdir.

7.3.1. Prioritet 3.1. Təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi

Əsaslandırma

İnkişaf etmiş ölkələrdə milli sərvətin böyük hissəsini insan kapitalı təşkil edir və iqtisadi artımda intellektual əmək üstün xüsusi çəkiyə malikdir. Azərbaycanda da ölkənin dayanıqlı inkişafını təmin etmək məqsədilə insan kapitalının formalaşdırılması və ondan səmərəli istifadə əsas prioritet hesab edilir və bu istiqamətdə təşəbbüslər dövlət tərəfindən dəstəklənir. Ötən illər ərzində insan kapitalının inkişafı ilə bağlı tədbirlər müəyyən edilərək icra olunmuş və hazırda icra olunan bir sıra strategiya, dövlət proqramları və konsepsiyalarda da öz əksini tapmışdır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda insan kapitalının inkişafı, bilik və innovasiyalara əsaslanan inkişaf prioritet təşkil edir. Eləcə də "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunları da ölkədə insan kapitalının inkişafına xidmət edən mühüm dövlət sənədləridir.

İnsan kapitalının keyfiyyətinin yüksəldilməsi və ondan səmərəli istifadə elmin və biliktutumlu istehsal (xidmət) sahələrinin inkişafına, əmək məhsuldarlığının və rəqabət qabiliyyətinin yüksəldilməsinə ciddi təsir göstərir. Hazırda Azərbaycanda insan kapitalının inkişaf etdirilməsi, qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində islahatlar aparılır. Bu islahatların davam etdirilməsi orta və uzunmüddətli dövrdə təhsilin (xüsusilə təhsilin ixtisaslı kadr hazırlığı pillələrində) keyfiyyətinin yüksəldilməsi, infrastrukturun və "elm-təhsil-istehsal" əlaqələrinin çevik idarəetmə mexanizminin qurulması, eləcə də şirkətlərin qlobal dəyər zəncirinə qoşulmaqla dünya bazarlarına inteqrasiyası üçün əhəmiyyətlidir.

Azərbaycanda insan kapitalının inkişafında fasiləsizliyin (ömürboyu öyrənmək) təmin edilməsi, məktəbəqədər və orta təhsil də daxil olmaqla, peşə təhsilli və ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, eləcə də "elm-təhsil-istehsal" əlaqələrinin təkmilləşdirilməsi istiqamətində məqsədli proqramların hazırlanması və həyata keçirilməsi davam etdiriləcəkdir. Daha keyfiyyətli insan kapitalının formalaşdırılması daha çox maddi və mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 3.1.1: Məktəbəqədər təhsillə əhatəolunma səviyyəsinin yüksəldilməsi və təlim-tərbiyə texnologiyalarının təkmilləşdirilməsi

Məktəbəqədər təhsil insan potensialının inkişafına və daha keyfiyyətli insan kapitalının formalaşmasına, uzunmüddətli perspektivdə əhalinin gəlirlərinə, iqtisadi artıma və davamlı inkişafa müsbət təsir göstərir. Hazırda Azərbaycanda həmin yaşda uşaqların məktəbəqədər təhsillə əhatəolunma səviyyəsi aşağıdır. Belə ki, 1-5 yaşlı uşaqların cəmi 14 faizi məktəbəqədər təhsillə əhatə olunur. Rəsmi statistik məlumatlara görə, 2015-ci ildə Azərbaycanda 1722 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərmişdir ki, bunlardan 1079-u körpələr evi, 631-i uşaq bağçası, 4-ü məktəb-uşaq bağçası, 8-i isə xüsusi uşaq bağçasıdır.

Məktəbəqədər təhsilin uzunmüddətli perspektivdə insan kapitalının keyfiyyətinin yüksəldilməsinə təsirini nəzərə alaraq, bu istiqamətdə stimullaşdırıcı tədbirlər həyata keçiriləcək, təlim-tərbiyə texnologiyaları təkmilləşdiriləcəkdir. Dövlət və özəl məktəbəqədər təhsil müəssisələrinin yaradılması, bununla bağlı normativ hüquqi sənədlərin hazırlanması və qəbulu dəstəklənəcək, müasir təhsil və təlim texnologiyalarına əsaslanan yüksəkixtisaslı pedaqoqların hazırlanması ilə bağlı tədbirlər həyata keçiriləcəkdir. Pedaqoji heyətin daha səmərəli fəaliyyət göstərməsi üçün onların sosial müdafiəsi ilə bağlı tədbirlər dəstəklənəcəkdir.

Məktəbəqədər təhsilin icbari olması məsələsi nəzərdən keçiriləcəkdir. İstedadın erkən yaşdan aşkar olunması, inkişafı və dəstəklənməsi üzrə sistemin yaradılması Azərbaycanın dayanıqlı inkişafı üçün vacibdir.

İri şirkətlərin məktəbəqədər təhsil müəssisələri açmaq təşəbbüsləri təşviq edilə bilər. Bu, şirkətlərdə əmək məhsuldarlığının artırılması (işçilərin övladları ilə bağlı qayğılarının azaldılması, ixtisaslı qadın işçilərin bilik və təcrübəsində fasiləsizliyin qorunması yolu ilə) və məşğulluqda gender bərabərliyinin qorunması baxımından əhəmiyyətli ola bilər.

Sadalanan tədbirlərin həyata keçirilməsi üçün məktəbəqədər təhsilin inkişafı üzrə dövlət proqramı hazırlana bilər.

Tədbir 3.1.2: Ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi və təmayülləşmənin inkişaf etdirilməsi

İqtisadiyyatın 11 sektoru üzrə strateji yol xəritələrində nəzərdə tutulan orta və uzunmüddətli hədəflərə çatmaqda ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi müstəsna rol oynayacaqdır. Belə ki, ümumi təhsil (ümumi ibtidai, ümumi əsas və ümumi orta təhsil) insan kapitalının formalaşmasında strateji əhəmiyyət kəsb edir. Bu baxımdan, ümumi təhsil sistemində idarəetmənin şəffaflığı və demokratikliyi, təhsilin keyfiyyətinə yönəlmiş yaradıcılıq və təşəbbüskarlıq mühitinin yaradılması bilikli cəmiyyət quruculuğunun əsas inkişaf prioritetlərindən hesab olunur. Azərbaycanda ümumi təhsildə infrastrukturun və keyfiyyətin yüksəldilməsi məqsədilə davamlı tədbirlər həyata keçirilir. 2003-2015-ci illərdə yeni məktəb binalarının tikilməsi və mövcud məktəblərin əsaslı təmiri ilə bağlı ciddi işlər görülmüşdür. Bu müddət ərzində maddi-texniki bazanın yaxşılaşdırılmasına baxmayaraq, tədrisin keyfiyyəti dövrün tələblərinə uyğun tam inkişaf etməyib. Orta təhsil pilləsində təhsilin keyfiyyətinin yüksəldilməsi üçün pedaqoji kadrların hazırlığının və tədrisin müasir təhsilvermə və təhsilalma texnologiyasına uyğunlaşdırılması, təhsilvermə və təhsilalma metodlarının təkmilləşdirilməsi ilə bağlı tədbirlər dəstəklənəcəkdir.

Ümumi təhsil sistemində “yaddaş” məktəbindən “təfəkkür” məktəbinə keçidin təmin edilməsi, mütərəqqi dünya təcrübəsinə əsaslanan təhsil proqramlarının (kurikulumların) hazırlanması və səmərəli tətbiqi, məktəb rəhbərlərinin, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, cəmiyyətdə müəllimlərin nüfuzunun yüksəldilməsi istiqamətində tədbirlər görüləcək, daha keyfiyyətli insan kapitalının formalaşdırılması üçün mövcud resurslardan səmərəli istifadə edilməsi istiqamətində islahatlar davam etdiriləcəkdir.

İnsan kapitalının formalaşmasında əsas rol oynayan təhsil işçilərinin, müəllimlərin sosial müdafiəsinin yaxşılaşdırılması və müəllimin nüfuzunun artırılması istiqamətindəki təşəbbüslər dəstəklənəcəkdir.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na uyğun olaraq, ölkədə 12 illik ümumi təhsilə mərhələli keçidin həyata keçirilməsinə

başlanmışdır. 12 illik təhsil ümumi təhsilin son iki ilində təmayülləşməni nəzərdə tutur. Təmayülləşmə peşə-ixtisas təhsili və ali təhsillə əhatəolunma səviyyəsini yüksəldəcək, əmək bazarına daxil olan gənclərin işsizlik riskindən qorunmasına kömək edəcək, Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyasını sürətləndirəcəkdir.

Azərbaycanda bundan sonra da təhsil sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması, şagirdlərin dərs vəsaitləri ilə təmin edilməsi istiqamətində fəaliyyətlər davam etdiriləcəkdir.

Tədbir 3.1.3: İlk peşə və orta ixtisas təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması

İlk peşə və orta ixtisas təhsili insan kapitalının formalaşmasında, eləcə də insan kapitalına investisiya qoyuluşunda əhəmiyyətli rol oynayır. İlk peşə və orta ixtisas təhsilinin inkişafı iqtisadi artım, əmək məhsuldarlığının yüksəldilməsi, əlavə dəyərin yaradılması, əmək bazarında tələb və təklifin uzlaşdırılması, məşğulluğun təmin edilməsi baxımından əhəmiyyətlidir. Xüsusilə də XXI əsrdə sürətlə yeniləşən texnologiya və elmi-texniki tərəqqi nəticəsində yeni peşə və ixtisasların yaranması ilk peşə-ixtisas təhsili və təlimlərinin əhəmiyyətini daha da artırır. Bu baxımdan, ilk peşə və orta ixtisas təhsili ölkənin strateji yol xəritəsinin bir hissəsi kimi təşviq edilir.

Azərbaycanda peşə təhsilinin inkişafı ilə bağlı bir sıra tədbirlər görülmüşdür. Belə ki, 2007-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" çərçivəsində peşə təhsili sistemində bir sıra tədbirlər həyata keçirilmiş, lakin peşə təhsili müəssisələrinə qəbul səviyyəsinin yüksəlməsinə baxmayaraq, gözlənilən nəticə əldə olunmamışdır. Bundan əlavə, Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin təsis edilməsi peşə təhsilinin inkişaf etdirilməsi və müasir dövrün standartlarına uyğunlaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında “İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı”nın əmək bazarının tələblərinə uyğunlaşdırılması, işəgötürənlərin kadr hazırlığına yaxından cəlb olunması, regionlarda, xüsusən də sənaye mərkəzlərində eyni peşə istiqamətləri üzrə paralel kadr hazırlığını həyata keçirən ilk peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin optimallaşdırılması, maraqlı tərəflərin, xüsusilə də müəssisə və təşkilatların nümayəndələrinin ilk peşə-ixtisas təhsili müəssisələrinin idarə olunmasına cəlb edilməsi dəstəklənəcəkdir. Bu məqsədlə, iqtisadiyyatın müxtəlif sektorlarından olan əsas işəgötürənlərlə sıx əməkdaşlıq əlaqələrinin qurulması, peşə təhsili müəssisələrinin keyfiyyət və kəmiyyət göstəricilərinın yaxşılaşdırılması ilə bağlı fəaliyyətlər təşviq ediləcəkdir.

Formal (dövlət təhsil sənədinin verilməsi ilə başa çatan) təhsillə yanaşı, informal (özünütəhsil yolu ilə biliklərə yiyələnmə) və qeyri-formal (müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan) üsullarla əldə edilmiş səriştələrin tanınması metodikası hazırlanacaqdır.

Əmək bazarının keyfiyyət tələblərini – bilik və bacarıqlara olan tələbləri müəyyənləşdirmək üçün müəssisələrin nümayəndələri və sosial tərəfdaşlar ilə birlikdə prioritet sahələr üzrə peşə standartlarının hazırlanması dəstəklənəcəkdir.

İlk peşə və orta ixtisas təhsili müəssisələrinin mövcud vəziyyəti araşdırılacaq, onların infrastruktur, maddi-texniki baza, müəllim-pedaqoji heyətinin potensialının qiymətləndirilməsi aparılacaqdır.

Peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması planına əsasən, peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması təşviq olunacaqdır.

Peşə təhsili müəssisələrinin mövcud müəllim-pedaqoji heyətinin diaqnostik qiymətləndirilməsi və onların bilik və bacarıqlarının artırılması, yeni müəllim heyətinin peşə təhsili və təlimi prosesinə cəlb edilməsi ilə bağlı tədbirlər dəstəklənəcəkdir. Peşə təhsili müəssisələrinin mövcud müəllim-pedaqoji heyətinin potensialı və peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi və ixtisaslarının artırılması, prioritet ixtisaslar üzrə yüksək peşəkarlığa malik istehsalat təlimi ustalarının və pedaqoji heyətin cəlb olunması üçün zəruri tədbirlər həyata keçiriləcəkdir. Həm işəgötürənlər, həm də onların tədris prosesinə cəlb ediləcək mütəxəssisləri üçün müvafiq həvəsləndirici və stimullaşdırıcı tədbirlər müəyyən ediləcəkdir.

Bundan əlavə, mövcud universitetlərin nəzdində 2 illik sub–bakalavr pilləsi (kolleclər) yaradıla bilər ki, bu da gənclərin orta ixtisas təhsili ilə əhatəolunma səviyyəsini artırar.

Tədbir 3.1.4: Ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi

Ali təhsil insan kapitalının formalaşmasında və inkişafında mühüm mərhələdir. Onun insan kapitalının formalaşmasına və inkişafına təsiri özünü iki şəkildə büruzə verir: 1) insan kapitalının formalaşmasında birbaşa iştirak edən ixtisaslı mütəxəssislərin hazırlaması; 2) yeni biliklərin yaranmasında, tətbiqində və ötürülməsində bilavasitə iştirak.

Ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, daha çox əlavə dəyərin yaranmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması dəstəklənəcəkdir. Bunun üçün ali təhsilin keyfiyyətinin yüksəldilməsi, qlobal təhsil məkanına inteqrasiyası, ali təhsilli kadrlara tələbatın ödənilməsi, habelə ali təhsilin informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması istiqamətində islahatlar sürətləndiriləcəkdir. Hazırda Azərbaycanda gənclərin ali təhsillə əhatəolunma səviyyəsi aşağıdır. Bu da uzaq perspektivdə ölkənin rəqabətqabiliyyətli və dayanıqlı inkişafına maneə törədə bilər.

Yüksəkixtisaslı kadr hazırlığının əmək bazarının tələbinə və beynəlxalq ixtisas təsnifatına uyğunlaşdırılması, uzunmüddətli proqnozlaşdırma mexanizminin hazırlanması istiqamətində fəaliyyətlər, əmək bazarında diferensiallaşmış əməkhaqqı və stimullaşdırma sisteminin yaradılması üzrə mexanizmlərin hazırlanması dəstəklənəcəkdir.

Universitet klasterlərinin yaradılması "təhsil–tədqiqat–innovasiya" zəncirinin effektivliyini artıra bilər. Bu baxımdan, ölkədə, ilk növbədə, bəzi ixtisaslaşmış universitetlərdə klasterlərin yaradılması təşviq ediləcəkdir. Ali təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi nəticəsində daha keyfiyyətli insan kapitalı və intellektual potensial formalaşacaq, əmək məhsuldarlığı artacaqdır.

Universitet klasterlərinin yaradılması araşdırma və təkmilləşdirmələrin həyata keçirilməsini, elmi nəticələrin istehsala tətbiqini stimullaşdıracaq, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəliliyi yüksələcəkdir. Klasterlərin dəstəklənməsi regionlarda insan kapitalının inkişafı üçün də əhəmiyyətlidir.

Özəl universitetlərin müstəqilliyinin artırılması və onların inkişafı üçün stimullaşdırıcı tədbirlər görüləcəkdir. Ali təhsil haqqında qanunun və dövlət proqramının qəbul edilməsi məsələsi nəzərdən keçiriləcəkdir.

Tədbir 3.1.5: Elmi-tədqiqat fəaliyyətinin inkişafı və biliklərə əsaslanan cəmiyyət quruculuğunun dəstəklənməsi

Elmin inkişafı yüksəkkeyfiyyətli insan kapitalının formalaşdırılmasında, istehsal olunan məhsul və xidmətlərin rəqabət qabiliyyətinin yüksəldilməsində, əmək məhsuldarlığının artırılmasında strateji əhəmiyyət kəsb edir. Azərbaycanda elmin inkişafı, elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi, tədqiqatların nəticələrinin istehsala tətbiqinin təşviqi ilə bağlı tədbirlər həyata keçiriləcəkdir.

Elmin inkişafı təşviq ediləcək, özəl sektor tərəfindən araşdırma və təkmilləşdirmələrə investisiya qoyuluşunu təmin etmək üçün stimullaşdırıcı tədbirlər görüləcəkdir. Bu, Azərbaycanın qlobal dəyər zəncirinə qoşulmasını sürətləndirə bilər. Beynəlxalq istehsal zəncirinə qoşulma özlüyündə "təhsil-elm-istehsal" əlaqələrinin təkmilləşdirilməsinə, əmək məhsuldarlığının yüksəldilməsinə müsbət təsir göstərəcəkdir.

Azərbaycan Milli Elmlər Akademiyası "elm-təhsil-istehsal" zəncirində aktiv iştirak etməklə Azərbaycanın qlobal istehsal zəncirində iştirakına öz töhfəsini verə bilər. Hazırda AMEA "elm-təhsil-istehsal" zəncirini qurmaq məqsədilə tədqiqat universitetinin yaradılması ilə bağlı bir sıra addımlar atmışdır.

Biznes mühitinin yaxşılaşdırılması şirkətlər tərəfindən araşdırma və təkmilləşdirmələrə investisiya qoyuluşunu stimullaşdırmaqla, elmin maliyyələşdirilməsində özəl sektorun xüsusi çəkisini artıra bilər. Hazırda Azərbaycanda araşdırma və təkmilləşdirmələrə çəkilən xərclərin ÜDM-də payı (0.2 faiz)[42] dünya üzrə orta göstəricidən aşağıdır.

Tədbir 3.1.6: İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi

Bütün təhsil pillələrində innovativ təlim metodologiyasının və müvafiq resursların yaradılması məqsədilə müsabiqə mexanizminin hazırlanması və müsabiqələrin keçirilməsi insan kapitalının inkişafı üçün vacibdir. Əlavə təhsil sahəsində keyfiyyətin yüksəldilməsi və rəqabət mühitinin formalaşdırılması üçün mülkiyyət formasından asılı olmayaraq, əlavə təhsil verən müəssisələrin potensialının gücləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi dəstəklənəcəkdir.

Ümumi təhsil müəssisələrinin müəllimlərinin peşəkarlıq səviyyəsinin artırılması üçün innovativ modellərin işlənib hazırlanması, ali təhsil müəssisələrində əlavə təhsil üzrə strukturların yaradılması, ixtisasartırma təhsilinin nəticələrinin qiymətləndirilməsi və stimullaşdırılması mexanizminin hazırlanması və tətbiqi təşviq olunacaqdır. Bundan başqa, yeni kurikulumlara və informasiya-kommunikasiya texnologiyalarına əsaslanan metodik vəsaitlərin, didaktik materialların, təlim vasitələrinin hazırlanmasını stimullaşdıran müsabiqə və qrant mexanizmlərinin yaradılması ilə bağlı təşəbbüslər dəstəklənəcəkdir.

Tədbir 3.1.7: İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi

[42] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Təhsil və elm sahəsində infrastrukturun təkmilləşdirilməsi bu sahələrin daha effektiv fəaliyyətinə təsir göstərə, insan kapitalının formalaşması və ondan istifadənin səmərəliliyini yüksəldə, innovasiyalara əsaslanan inkişafı təmin edə bilər. "Təhsil-elm-istehsal" sahələrinin qarşılıqlı, çevik və effektiv fəaliyyətinin təmin edilməsinə xidmət edən nəqliyyat, İKT, bina və tikililər, cihaz və avadanlıqlar, laboratoriyalar, sınaq mərkəzləri, fondlar, innovasiya müəssisələri, konsaltinq və mühəndislik xidmətlərinin və s. inkişafı istiqamətində təşəbbüslər davamlı olaraq dəstəklənəcəkdir.

İnformasiya infrastrukturunun (KİV, ixtisaslaşmış sərgi və konfransların keçirilməsi, qlobal və yerli bazarları öyrənən mərkəzlərin yaradılması, elektron kitabxana, tərcümə mərkəzləri, konsaltinq xidmətləri), eləcə də "təhsil-elm-istehsal" sahələrinin qarşılıqlı fəaliyyətinin effektivliyinin artırılması üçün digər vasitəçi qurumların fəaliyyəti dəstəklənəcəkdir. Eyni zamanda, məktəblərin, elmi təşkilatların, istehsal müəssisələrinin internetə çıxış imkanlarının və informasiya təminatının yaxşılaşdırılması istiqamətində fəaliyyətlər stimullaşdırılacaqdır. İKT bilikləri insanlara, eləcə də iqtisadiyyata yüksək dəyər gətirmək potensialına malik yeni iş yerləri yaratmaq imkanları verir. Bundan başqa, rəqəmsal savadlılıq Azərbaycanın gələcəyi və insan kapitalının inkişaf etdirilməsi üçün əsas element hesab olunur.

İKT bilikləri insan kapitalının formalaşmasında və istifadəsində həlledici amillərdən biridir. Müasir məktəblərin və universitetlərin yaranması, araşdırma və təkmilləşdirmələrin aparılması, istehsal və xidmət müəssisələrinin fəaliyyəti bu və ya digər dərəcədə İKT texnologiyaları ilə bağlıdır.

Hazırda ölkədə internetə çıxışı olmayan regionlar, məkanlar və məktəblər vardır. Yaxın və ortamüddətli perspektivdə ibtidai təhsildən başlayaraq, orta təhsilin bütün pillələrində İKT biliklərinin şagirdlərə aşılanması, qlobal informasiya məkanından səmərəli istifadə etmələri üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi dəstəklənəcəkdir. Orta məktəblərdə elektron kitabxanaların, intellektual oyunların yaradılması təşviq ediləcəkdir. İnternet resurslarından məqsədyönlü istifadə etmək üçün maarifləndirmə tədbirləri həyata keçiriləcəkdir.

E-məktəb sisteminin tətbiqi, Təhsil İnformasiya Sisteminin hazırlanması ilə bağlı işlər dəstəklənəcəkdir. Təhsilin bütün səviyyələrindən məzun olan şəxslərin iqtisadiyyatın və cəmiyyətin inkişafı üçün zəruri olan rəqəmsal bacarıqları əldə etməsinə, eləcə də İKT-nin təklif etdiyi imkanlardan tədris və təlim prosesində bacarıqla istifadə olunmasına şərait yaradılacaqdır.

Rəqəmsal tədrisin təşviqi məqsədilə, təhsilin bütün səviyyələrində kurikulumun yüksəkkeyfiyyətli rəqəmsal tədris materiallarının (məsələn, e-kitablar, e-seminarlar, açıq tədris materialları, veb-imtahanların keçirilməsi və s.) və müvafiq metodların köməyi ilə təkmilləşdirilməsi vacibdir. Müəllimlər və şagirdlər üçün hazırlanmış rəqəmsal tədris materiallarına müxtəlif rəqəmsal avadanlıqlarda sistematik qaydada əlçatanlığın təmin edilməsi dəstəklənəcəkdir.

Təhsil sahəsində texnoloji dəstəyin əldə olunmasına təminat vermək üçün təhsil qurumlarının rəhbərləri təhsil texnologiyaları haqqında davamlı olaraq məlumatlandırılacaq, təhsil texnoloqları üçün şəbəkələrin işi və təkmilləşdirmə kurslarının təşkili dəstəklənəcəkdir.

İKT bacarıqları müəyyənləşdiriləcək və müvafiq baza, eləcə də peşəkar standartlar təhsilin bütün səviyyələrində inkişaf etdiriləcəkdir. Tələbələrin İKT bacarıqlarının qiymətləndirilməsi (sınaqlar, beynəlxalq müqayisəli sorğularda iştirak, mövzu üzrə xarici qiymətləndirmələr) aparılacaq və qiymətləndirmələrin nəticələri inkişaf fəaliyyətlərinin planlaşdırılmasında baza rolunu oynayacaqdır.

Elm, təhsil və istehsal sahələrində maddi-texniki bazanın müasir tələblər səviyyəsinə çatdırılması təhsildə pedaqoji və tədris fəaliyyətinin normal işləməsini,

elmi tədqiqatların aparılmasını, sınaqdan keçirilməsi və tətbiqini, “elm-istehsal-bazar” əlaqələrinin optimallaşdırılmasını təmin edəcək, köməkçi xarakterə malik qurumların yaradılması təşviq ediləcəkdir. Bu isə təhsil, elm və istehsal siyasətini hazırlayan və həyata keçirən idarəetmə orqanlarının koordinasiyasını daha effektli edəcəkdir.

“Təhsil-elm-istehsal” əlaqələrinin optimallaşdırılması, bu “üçlüyə” daxil olan müəssisə və təşkilatların ixtisaslı kadrların hazırlanması, bazara hədəflənən elmi tədqiqat və işləmələrin həyata keçirilməsi üçün maliyyə imkanlarının yaxşılaşdırılması məqsədilə maliyyə-kredit infrastrukturu (büdcə və qeyri-büdcə fondları, kommersiya bankları) inkişaf etdiriləcəkdir.

“Təhsil-elm-istehsal” infrastrukturunun çevik işləmə mexanizminin qurulması üçün regional və funksional universitet və istehsal klasterlərinin yaradılması ilə bağlı fəaliyyətlər həvəsləndiriləcəkdir. Çoxsəviyyəli fasiləsiz təhsil sisteminin, universitet komplekslərinin, elmi-tədqiqat müəssisələri (AMEA və sahə institutları) və onların fəaliyyətinin iqtisadi effektivliyini artıran istehsal və xidmət sahələrinin inkişafı dəstəklənəcəkdir.

7.3.2. Prioritet 3.2. Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması

Əsaslandırma

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli, inklüziv və dayanıqlı inkişafı istiqamətində qarşıya qoyulan əsas tələb, insan kapitalının inkişafına və əmək məhsuldarlığının inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmasına nail olmaqdır. Bunun üçün qısa və ortamüddətli perspektivdə iqtisadi artımda intensiv əməyi stimullaşdıran sahələrin yaranması üstünlük təşkil edəcək, orta və uzunmüddətli perspektivdə isə biliktutumlu modelə keçid təmin ediləcəkdir. Əmək məhsuldarlığının və insan kapitalının inkişaf etdirilməsi iki səbəbdən əhəmiyyətli amil hesab olunur. Bir tərəfdən, intensiv əmək tələb edən inkişaf modelində əmək məhsuldarlığının yüksəldilməsi ölkə iqtisadiyyatında birbaşa əlavə dəyər yaratmaqla iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olacaqdır. Digər tərəfdən, yalnız əmək məhsuldarlığının yüksəldilməsinə nail olmaqla daha intensiv bilik tələb edən inkişaf modelinə maneəsiz keçid təmin ediləcəkdir. Bütün bunlar Azərbaycan məhsullarının qlobal bazarlarda rəqabətqabiliyyətliliyini təmin edəcək, eyni zamanda insan kapitalına investisiya qoyuluşunu daha cəlbedici edəcəkdir.

Son 15 ildə Azərbaycanda sürətli inkişaf təmin olunmuş və əmək məhsuldarlığı üç dəfədən çox artmışdır. Azərbaycanda 2000-2008-ci illərdə əmək məhsuldarlığının artımı orta hesabla ildə 13,6 faiz olmuşdur. 2008-ci ildən etibarən əmək məhsuldarlığında artım davam etsə də, artım sürəti orta hesabla ildə 2 faizə qədər azalmışdır.

Regionda ölkələrin inkişaf səviyyəsini nəzərə almaqla aparılan müqayisə Azərbaycanın əmək məhsuldarlığın yüksəldilməsi üçün geniş imkanların olduğunu göstərir. Belə ki, 2015-ci ildə Rusiyada bir məşğul əhali üzrə ÜDM 46 min ABŞ dolları, Türkiyədə 57 min ABŞ dolları, Azərbaycanda isə 36 min ABŞ dolları təşkil etmişdir.[43]

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində əhatə olunan 11 sektorda əmək məhsuldarlığını yüksəltmək üçün insan kapitalına investisiya qoyuluşu stimullaşdırılacaqdır.

[43] Mənbə: Beynəlxalq Əmək Təşkilatı

Azərbaycan aqrobiznes sektorunda əmək məhsuldarlığının artırılmasına təminat sisteminin, istehsalın və innovasiya fəaliyyətinin stimullaşdırılmasını təşviq etməklə nail ola bilər. Müxtəlif sektorlarda çalışan ixtisaslı işçilərə təlimlər vermək, sahibkarlara daha çox mənfəət əldə etməkdə və ehtiyac duyduqları fəaliyyətləri inkişaf etdirməkdə kömək etmək üçün təlim-tədris mərkəzləri və aqroklasterlər yaradılacaqdır.

İstehsalın təşviq edilməsi və sahibkarların maarifləndirilməsi məqsədilə məsləhət mərkəzləri təşkil olunacaqdır. Mərkəzlər istehsal və xidmət sektorlarından cəlb edilmiş peşəkar vasitəçi və məsləhətçilərdən istifadə etməklə, kiçik və orta sahibkarlıq subyektlərinə rəqabətqabiliyyətliliyin və məhsuldarlığın artırılması ilə bağlı məsləhət və dəstək verəcəklər. Mərkəzlərin əsas hədəfi kiçik və orta sahibkarlıq subyektlərinin qarşılaşdığı problemlərin həlli istiqamətində təkliflər irəli sürmək və onların müxtəlif şəbəkələrə çıxış imkanını yaxşılaşdırmaqdır.

Şirkətlərin elmi tədqiqat işləri ilə məşğul olmasını və innovasiyalı inkişafını stimullaşdırmaq üçün onlara nəticələrə əsaslanan güzəştlər və imtiyazlar verilə bilər.

Azərbaycanda aparılan davamlı iqtisadi islahatların tərkib hissəsi kimi, əmək məhsuldarlığını artırmaq üçün insan kapitalına investisiya qoyuluşu davam etdirilir. Bu məqsədlə, yaxın və uzaq perspektivdə təlim və tənzimləyici dəyişikliklərə nail olmaq istiqamətində mexanizmlərin yaradılması və tətbiqi, istehsalın həcminin və səmərəliliyinin yüksəldilməsi, investisiya qoyuluşunun stimullaşdırılması, innovasiyaların əlavə dəyər yaradan sektorlara tətbiq edilməsi və uyğunlaşdırılması vacib amillərdəndir.

Görüləcək tədbirlər

Tədbir 3.2.1: Dəstəkləyici sistemin yaradılması

Dəstəkləyici sistemin qurulmasına infrastrukturun təkmilləşdirilməsi, əmək təlimləri, əmək normaları, ticarət müqavilələri vasitəsilə bazarlara çıxış imkanının asanlaşdırılması və sürətləndirilməsi, eləcə də sənaye mərkəzləri və ya sənaye platformaları vasitəsilə klasterəsaslı inkişafa şərait yaradılması daxildir. Azərbaycanda qeyd olunan bütün istiqamətlər üzrə səylər davam etdirilir. Son onillikdə dövlət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində səmərəli investisiya layihələri həyata keçirilmiş, peşə təhsili və təlimlərinin inkişaf səviyyəsini yüksəltmək üçün müxtəlif fəaliyyət planları icra edilmiş, o cümlədən kənd təsərrüfatı sənayesi, ağır maşınqayırma və logistika kimi sektorlarda klasterəsaslı inkişaf yanaşması qəbul edilmişdir.

Azərbaycan Respublikasında artıq icrasına başlanmış layihələr davam etdiriləcək, o cümlədən əmək məhsuldarlığı sahəsindəki fəaliyyətlərin nəticələrini izləmək üçün monitorinqlər keçiriləcəkdir. Fəaliyyət prinsiplərini əsas tutaraq, ölkənin gələcək inkişafı yeni təkmilləşdirmə planları əsasında qurulacaqdır. Əmək məhsuldarlığının artırılması istiqamətində fəaliyyət planının hazırlanması və icrası prosesində effektiv beynəlxalq təcrübələrdən istifadə olunması zəruridir.

Fəaliyyət göstərən istehsal müəssisələrində insan resursları üzrə bacarıqların təkmilləşdirilməsi və inkişaf etdirilməsi, klasterli inkişaf üçün işçi qüvvəsinin hazırlanması və təkrar hazırlanması prosesi davam etdiriləcək, işə qəbul və təlim mexanizmini təkmilləşdirmək üçün müxtəlif stimullaşdırıcı və təşviqedici tədbirlər həyata keçiriləcəkdir. Kommersiya təşkilatlarında işəqəbul prosesinin asanlaşdırılması və çevik mexanizmin qurulması üçün dövlət tərəfindən yerli işədüzəltmə mərkəzi təsis edilməsi nəzərdən keçiriləcəkdir. Müxtəlif sektorlarda əmək bazarının tələblərinə

cavab verən perspektivli işçilərin hazırlanması məqsədilə mərkəz tərəfindən həyata keçirilən təlimlər tam olaraq dövlət tərəfindən maliyyələşdirilə bilər.

Tədbir 3.2.2: İstehsalın və investisiyanın təşviq edilməsi

İnvestisiyaların təşviqi məhsuldarlığın artırılması üçün stimullaşdırıcı maliyyə resurslarının təmin edilməsi istiqamətində həyata keçirilən fəaliyyətin əhəmiyyətini özündə ehtiva edir.

Azərbaycanın qlobal dəyər zəncirinə qoşulması ilə əsas diqqəti əmək məhsuldarlığının yüksəldilməsinə yönəldiləcək və gələcəkdə də stimullaşdırıcı proqramların tətbiqi davam etdiriləcəkdir.

Müəyyən edilmiş prioritet sektorlarda fəaliyyət göstərən müəssisələrin transmilli şirkətlərlə əlaqələrinin qurulması istiqamətində təşviqedici tədbirlər görüləcəkdir. Fəaliyyətinin stimullaşdırılması məqsədilə cəlb edilən şirkətlərə nəticələrə əsaslanan güzəştlər, investisiya subsidiyaları təklif edilə bilər. Bu güzəştlər istehsalın həcminin artırılmasına, dövlət subsidiyaları hesabına bir sıra kiçik yerli subtəchizatçılar klasterinin yaradılmasına və əlavə şirkətlərin cəlb edilməsinə imkan yarada bilər. Bu amillər isə öz növbəsində, əmək məhsuldarlığını yüksəldəcəkdir.

Tədbir 3.2.3: İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi

İnnovasiya fəaliyyəti istehsal və idarəetmə sahələrində əmək məhsuldarlığının və rəqabətqabiliyyətliliyin yüksəldilməsi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi üçün əsas hərəkətverici qüvvədir. Azərbaycanda innovasiyanın təşviqini stimullaşdıracaq fəaliyyət planları və dövlət proqramları hazırlanarkən bu fəaliyyətin əhəmiyyəti nəzərə alınacaqdır. İnnovasiya fəaliyyətini stimullaşdırmaq üçün ölkə elmi araşdırma və təkmilləşdirmələrə yüksək texnologiyalı məhsulların istehsalına görə mükafatlar və kreditlər vermək yolu ilə geniş diapazonlu bilik şəbəkəsi yaratmaq sahəsində bir çox imkanlara malikdir. Bu müddəaların ardıcıl, mərhələli və davamlı şəkildə icrasının diqqət mərkəzində saxlanılması uyğun və optimal nəticələrin əldə olunması üçün vacibdir.

Tədbir 3.2.4: Sektorlar üzrə əmək məhsuldarlığı təşəbbüslərinin reallaşdırılması

Sektorlar səviyyəsində əmək məhsuldarlığını artırmaq üçün əvvəlki tədbirlərə paralel olaraq təkmilləşməli olan sahələrin kompleks şəkildə araşdırılması davam etdiriləcəkdir. Əsas məqsəd hər bir sektor üzrə cavabdeh orqanlar, o cümlədən dövlət qurumları və sahə təşkilatları arasında səmərəli koordinasiyanı təşkil etmək və əmək məhsuldarlığının artırılması üçün tələb olunan mexanizmlərin qurulmasında onlara kömək etməkdir.

Gələcəkdə strateji yol xəritələrində əhatə olunan 11 sektor üzrə də əmək məhsuldarlığına dair əlavə təhlillərin aparılması məqsədəuyğundur.

7.4. Strateji hədəf 4. Əlverişli biznes mühitinin inkişaf etdirilməsi

Azərbaycanda həm makroiqtisadi, həm də sektorlar üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün proqramlar həyata keçirilmişdir. Nəticədə 2016-cı ildə Dünya Bankının hazırladığı “Doing Business” hesabatında Azərbaycan 189 ölkə arasında 63-cü olmuşdur. Hesabatda əks olunan 10 göstəricidən 5-i üzrə isə Azərbaycan dünya ölkələri arasında ilk 40-lıqda qərarlaşmışdır. 2004-2014-cü illərdə iqtisadi inkişafın əsas amili neft-qaz sektoruna xarici investisiyaların cəlb edilməsi və

dövlətin birbaşa və dolayı iştirakı ilə sərmayə qoyuluşu olmuşdur. Yeni iqtisadi yanaşma özəl sektorun qeyri-neft iqtisadiyyatına investisiya qoyuluşunu stimullaşdırmaq üçün biznes mühitinin daha da təkmilləşdirilməsini tələb edir. Bu baxımdan iqtisadi islahatlar biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etdirilməsini və institusional islahatları əhatə edəcəkdir. Makroiqtisadi sabitlik və infrastrukturun inkişafını dəstəkləməklə dövlət biznes şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verməyə davam edəcəkdir. Bu Strateji Yol Xəritəsində biznes mühitinin yaxşılaşdırılması ilə bağlı 11 sektoru əhatə edən konseptual məsələlər öz əksini tapmışdır. Daha müfəssəl tədbirlər planı hər bir sektor üzrə Strateji Yol Xəritəsində verilmişdir.

7.4.1. Prioritet 4.1. Əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi

Əsaslandırma

Ölkədə sahibkarlığın inkişafı, onun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, qabaqcıl beynəlxalq təcrübəyə uyğun cəlbedici biznes və investisiya mühitinin formalaşdırılması və əlverişliliyinin daha da artırılması, bu sahədə mütərəqqi tənzimləmə və hüquqi bazanın olması ən vacib məsələlərdir. Göstərilən hədəflərə nail olmaq üçün dövlət tərəfindən ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, rəqabətqabiliyyətliliyinin və ixrac imkanlarının genişləndirilməsi, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, beynəlxalq standartlara uyğun elektron dövlət xidmətlərinin göstərilməsi sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Sahibkarlıq sahəsində son illər ərzində əldə olunmuş sürətli inkişafın davamlılığının təmin edilməsi və rəqabətqabiliyyətliliyin möhkəmləndirilməsi, eləcə də beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması məqsədi ilə Komissiya yaradılmışdır.

Bu prioritet çərçivəsində Azərbaycan dövləti biznes mühitinin institusional əsaslarını gücləndirəcəkdir. Xüsusilə, azad rəqabət mexanizminin inkişaf etdirilməsi, dövlət-biznes münasibətlərində insan amilinin rolunun azaldılması ilə səmərəlilik, hesabatlılıq və şəffaflığın artırılması əsas istiqamət kimi götürüləcəkdir. Dövlətin daha bir rolu xarici bazarlara çıxışın təmin edilməsi üçün azad ticarət sazişlərinin bağlanması, texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılmasını təmin etməkdən ibarətdir. Həmçinin dövlət vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması və optimal vergi yükü siyasəti vasitəsilə biznes mühitinin səmərəliliyinin yüksəldilməsi istiqamətində də fəaliyyətini davam etdirəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 4.1.1: Azad rəqabət mühitinin inkişaf etdirilməsi

Özəl sektorun inkişafını dəstəkləyən əlverişli biznes mühitini təmin etmək üçün Azərbaycanda rəqabətə şərait yaradan mühüm islahatlar həyata keçirilmişdir.

Maliyyə sektoru və real sektor arasında tarazlıq nöqtəsinin müəyyən edilməsi probleminin həlli Azərbaycanda rəqabət mühitinin daha da təkmilləşdirilməsi yolu ilə

mümkündür. Belə ki, yalnız tam rəqabət şəraitində iqtisadiyyata stimul verməklə yerli məhsul və xidmətlərin rəqabətqabiliyyətliliyini artırmaq olar. Rəqabət mühitinin təkmilləşdirilməsi sağlam və tam təkmil rəqabət qanunvericiliyinin olmasını, bu qanunvericiliyin effektiv və müstəqil fəaliyyət göstərən rəqabət qurumu tərəfindən tətbiqini və ümumilikdə rəqabət prinsiplərinə əməl edən, rəqabətin inkişafındakı əngəlləri aradan qaldıran və inhisarçılığa yol verməyən iqtisadi siyasətin gerçəkləşdirilməsini tələb edir. Rəqabət qanunvericiliyinin pozulması hallarının ilkin araşdırılması və aşkar edilmiş qanun pozuntuları ilə bağlı qərarların qəbul edilməsi iki fərqli fəaliyyət istiqaməti olduğundan onların müvafiq ixtisaslaşması tələb olunur. Bu baxımdan, qabaqcıl xarici (ABŞ, Avstriya, Latviya, Litva, Macarıstan, Çexiya və s.) təcrübəyə uyğun olaraq Azərbaycanda müstəqil fəaliyyət göstərən rəqabət orqanının yaradılması nəzərdən keçiriləcək və beynəlxalq təcrübəyə uyğun Rəqabət Məcəlləsi qəbul ediləcəkdir.

Tədbir 4.1.2: Səmərəli vergi sisteminin təşviq edilməsi

Qabaqcıl beynəlxalq standartlara uyğunluq və dünyanın aparıcı ölkələrində tətbiq olunan vergi xidmətlərinin əksəriyyətinin göstərilməsi qarşıya məqsəd qoyulmuşdur. Buna görə də, özəl sektorun inkişafını və sahibkarlıq subyektlərinin rəsmiləşdirilməsini təşviq edən, ehtiyatla müəyyən edilmiş, real vergi tarifləri olan, səmərəli və ədalətli vergi və icra sisteminin təqdim edilməsi istiqamətində islahatlar davam etdirilir.

Vergi sistemi və onun idarə olunması əlverişli biznes mühitinin əhəmiyyətli bir hissəsi olduğundan, Azərbaycanda sahibkarlıq subyektləri tərəfindən vergi ödənişlərinin həyata keçirilməsini asanlaşdıran islahatlar aparılmışdır. Şəffaflığı artıraraq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatlar davam etdiriləcəkdir. Bu istiqamətdə irəliləmək məqsədilə, digər ölkələrdə şirkətlərin vergi yükü və bütün əməliyyatlar üçün dəyər zənciri boyunca vergilər nəzərə alınaraq, ədalətli vergi səviyyəsi qiymətləndiriləcəkdir. Sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün ölkənin vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması sahəsində mümkün islahatlar təhlil ediləcək və qiymətləndiriləcəkdir. Belə ki, bu islahatlar çərçivəsində sahibkarlıq subyektlərinin rəsmi qeydiyyatını təşviq etmək və vergi bazasını genişləndirmək məqsədilə vergi əmələtməsi xərclərinin azaldılması təşəbbüsləri nəzərdən keçiriləcəkdir. İcra olunan islahatlarla yanaşı, iqtisadi fəaliyyətin stimullaşdırılması, prioritet sektorlarda inkişafın təşviqi və xarici investisiyanın cəlb edilməsi üzrə fərqlənən vergi qaydalarının təsiri davamlı olaraq qiymətləndiriləcəkdir. İslahatların səmərəli icrasını təmin etmək üçün proses ərzində müvafiq hesabatlılıqla yanaşı, vergi inzibatçılığı kimi digər amillərin rolu da təhlil ediləcək və müvafiq formada nəzərə alınacaqdır. Vergi sistemindən əldə edilən vəsaitlərin dövlət proqramları vasitəsilə iqtisadi artıma və iş yerlərinin açılmasına töhfə verən şirkətləri stimullaşdırmaqla, iqtisadi inkişafa dəstək verən sahələrə investisiya edilməsi imkanları təhlil ediləcəkdir.

Tədbir 4.1.3: Dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyin artırılması

Əlverişli biznes mühitinin inkişafı üçün elektron hökumət xidmətlərinin müasir texnologiyaların tətbiqi genişləndirilməklə və onlardan istifadə imkanları sadələşdirilməklə təkmilləşdirilməsi davam etdiriləcəkdir. Dövlət e-ödəniş, e-vergi, e-intellektual idarəetmə və s. elektron xidmətlərin təşkilini genişləndirməklə, rəqəmsal

iqtisadiyyatın inkişafını dəstəkləyəcək və beləliklə də, dövlət idarəetməsinin təkmilləşdirilməsi ümumi iqtisadi səmərəliliyin artırılmasını təmin edəcəkdir.

Dünyada Azərbaycan brendi olaraq tanınan və "vahid məkan prinsipi əsasında dövlət xidmətləri göstərən "ASAN xidmət" mərkəzlərinin əhatə dairəsi genişləndiriləcəkdir. Ümumilikdə, dövlət orqanlarının informasiya sistemləri inteqrasiya olunaraq elektron xidmətlərin çevikliyi, səmərəliliyi və şəffaflığı təmin olunacaq ki, bununla da sahibkarlıq subyektləri öz resurslarına qənaət edəcək, yerli və beynəlxalq səviyyədə qarşılıqlı əlaqələr təkmilləşdiriləcək, bazarlara və resurslara çıxış imkanları genişlənərək ölkəyə investisiya axını güclənəcəkdir. Mütəmadi olaraq, istehlakçı məmnunluğu indeksinin ölçülməsi dövlət xidmətlərinin keyfiyyətinin daha da artırılması və biznes mühitinin davamlı təkmilləşdirilməsini təmin edəcəkdir.

Azərbaycanda dövlət satınalmaları irihəcmli olduğu üçün, məhsul və xidmətlərin satınalma prosedurlarının təkmilləşdirilməsi, o cümlədən dövlət satınalmaları prosesinin sürət və səmərəliliyinin artırılması təmin ediləcəkdir. Əlavə olaraq, dövlət satınalmalarının iri həcmindən yararlanaraq, dövlət tenderləri üzrə müəyyən normativlərin yaradılması ölkədə fəaliyyət göstərən yerli şirkətlərə və ya kiçik və orta sahibkarlıq subyektlərinə əlavə dəstək verəcəkdir.

Azərbaycanda dövlət-özəl tərəfdaşlığının daha da inkişaf etdirilməsi və biznes mühitinin yaxşılaşdırılması üçün tədbirlərin vaxtında və səmərəli icrası təmin ediləcək, infrastruktur sahələrinin inkişafı üçün özəl sərmayənin cəlb edilməsi biznesin inkişafına əlavə töhfə olacaqdır.

Tədbir 4.1.4: Azad ticarət sazişlərinin bağlanması

Azad ticarət sazişlərindən irəli gələn iqtisadi faydalardan yararlanmaq üçün Azərbaycan davamlı olaraq əlverişli ticarət sazişləri bağlayır.

Bundan sonra da ikitərəfli və çoxtərəfli ticarət sazişlərinin bağlanması yolu ilə ixrac fəaliyyəti stimullaşdırılacaq və ticarət marjasını artırmaqla biznes mühitinin əlverişliliyi təmin ediləcəkdir. Yaradılmış nəqliyyat-logistika infrastrukturu ölkənin xarici ticarətinin gücləndirilməsi üçün daha da inkişaf etdiriləcək, həmçinin Dünya Bankının hazırladığı "Logistik Nailiyyət İndeksi"ndə ölkənin mövqeyinin daha da yaxşılaşdırılması üçün ticarət logistikası üzrə təkmilləşdirmələr həyata keçiriləcəkdir.

Hazırlanan yeni azad ticarət sazişləri bazarların təhlili və dəyər zəncirində mövqelərin gücləndirilməsi üzrə aparılan qiymətləndirmələrə əsaslanacaqdır. Ənənəvi MDB bazarları ilə yanaşı, qeyri-neft ixracını artırmaq məqsədilə Avropa İttifaqı, Körfəz ölkələri, Çin kimi bazarlara daha əlverişli ticarət rejimi əsasında daxil olmaq istiqamətində fəaliyyət davam etdiriləcəkdir. Dövlət dəstəyilə ixrac bazarlarında logistika mərkəzlərinin tikintisinin texniki-iqtisadi əsaslandırılması və risk təhlili aparılacaq və bu layihələrin ölkənin ixracına verə biləcəyi real dəyər proqnozlaşdırılacaqdır.

Ölkədə qlobal informasiya cəmiyyətinin bir hissəsi olan elektron ticarətin beynəlxalq normalara uyğun infrastrukturunun və hüquqi bazasının inkişafı təmin olunmaqla, yerli məhsul və xidmətlərin xarici bazarlara çıxışının elektron ticarət vasitəsilə həyata keçirilməsi təşviq ediləcəkdir.

Ticarət sazişlərinin bağlanması və beynəlxalq müqavilələrdə iştirak barədə qərarların mümkün iqtisadi, sosial və siyasi nəticələri təhlil ediləcəkdir. Türkiyə və İranla ikitərəfli saziş imkanları nəzərə alınarkən müxtəlif sektorlar üzrə potensial təsirlərin qiymətləndirilməsi də əhəmiyyətlidir. Bu istiqamətdə hazırlıq tədbirlərinin görülməsi, o cümlədən risklərin azaldılması üzrə təkmilləşdirmə işlərinin yerinə yetirilməsi və sazişlərin bağlanması halında xüsusi tədbirlərin müəyyən edilməsi vacibdir.

Tədbir 4.1.5: Texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması, onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsi

Ölkədə əksər məhsullar, o cümlədən yeyinti məhsulları standartlara əsasən məcburi sertifikatlaşdırılır. Mövcud qanunvericiliyə əsasən milli standartlaşdırma sisteminin idarə olunmasına və tənzimlənməsinə cavabdeh mərkəzi icra hakimiyyəti orqanı Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsidir (SMPDK). Komitə ilə yanaşı, standartların hazırlanması, sertifikatlaşdırma, bazarda məhsulların standartlara və təhlükəsizlik tələblərinə uyğunluğuna nəzarət və qiymətləndirməni digər müvafiq dövlət orqanları da həyata keçirirlər.

Azərbaycanın milli standartlaşdırma sistemi inkişaf etmiş ölkələrdə mövcud olan və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələbləri əsasında formalaşdırılmış milli standartlaşdırma sistemləri ilə müqayisədə bir çox fərqli xüsusiyyətlərə malikdir. Bir sıra MDB dövlətləri, o cümlədən Rusiya Federasiyası, Qazaxıstan, Ukrayna və Gürcüstan bu cür fərqlərin aradan qaldırılması və istehsal etdikləri məhsulların beynəlxalq ticarətdə sərbəst dövriyyəsinə şərait yaradılması üçün ÜTT-nin tələbləri və Avropa İttifaqının modeli üzrə mövcud standartlaşdırma sistemlərini beynəlxalq tələblərə uyğunlaşdırmaqdadır.

Azərbaycan məhsullarının beynəlxalq ticarətdə sərbəst dövriyyəsinin təmin edilməsi və idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi üçün bir sıra tədbirlərin görülməsi məqsədəuyğundur. Bu tədbirlər hüquqi bazanın formalaşdırılmasından başlayaraq milli standartların beynəlxalq və Avropa standartlarına uyğunlaşdırılması ilə bağlı müvafiq tədbirlər planının qəbul edilməsinədək olan prosesləri əhatə edir. Belə ki, texniki tənzimləməyə dair qanun qəbul etməklə, məhsullara dövlət nəzarətinin təhlükəsizlik tələbləri ilə məhdudlaşdırılması və keyfiyyət tələblərinə uyğunlaşdırmanın könüllü edilməsi, yeyinti məhsullarına nəzarətin texniki tənzimləmə və standartlaşdırma sistemindən çıxarılması, məhsulların sertifikatlaşdırılmasının risk səviyyəsinə görə aparılması kimi məsələlər öz həllini tapacaqdır. Bundan əlavə, keyfiyyət məsələlərini tənzimləyən standartlaşdırmaya dair qanunun yeni redaksiyasının qəbulu sistemin hüquqi bazasını beynəlxalq tələblərə tam uyğunlaşdıracaqdır. Proses zamanı mövcud bütün standartlar tədricən könüllü olacaq və onların əvəzinə tamamilə yeni texniki reqlamentlər qəbul ediləcəkdir. Model kimi isə Avropa İttifaqının mövcud direktivləri götürülə və milli texniki reqlament kimi qəbul edilə bilər. Bu direktivlərin əsas tələblərinin təmin edilməsi üçün Avropa İttifaqında müvafiq beynəlxalq standartlara əsasən qəbul edilmiş istinad standartlar mövcuddur. Texniki reqlamentlər qəbul edildikdən sonra məhz həmin beynəlxalq standartlar da milli standartlar kimi qəbul ediləcəkdir. Eyni zamanda, mövcud standartlardan beynəlxalq standartlara uyğun gələnlər istinad standartı kimi qüvvədə qalacaq, uyğun olmayanlar və ya köhnə olanlar isə ləğv ediləcəkdir. Sadalanan tədbirlər tədrici keçid prinsipi əsasında aparılacaqdır. Belə ki, yeni texniki reqlamentlər və onların istinad edilmiş standartları qəbul edilənədək mövcud standartlar qüvvədə qalacaq və tədricən hər yeni texniki reqlament və onun istinad edilmiş standartı qəbul edildikcə köhnələr ləğv ediləcəkdir.

İnstitusional səviyyədə bu islahatlar aparılarkən bir sıra mühüm meyarlar əsas götürüləcəkdir: məhsulların təhlükəsizliyinin təmin edilməsi ilə liberal biznes mühitinin formalaşdırılması arasında balansın təmin edilməsi; tənzimləmə tədbirlərinin məhsulların təhlükəsizliyinin təmin edilməsi ilə məhdudlaşdırılması və keyfiyyətin artırılmasına xidmət edən standartlaşdırmanın məhsulların rəqabətqabiliyyətliliyinin artırılmasına töhfə verən fəaliyyətə çevrilməsi; idarəetmə sisteminin bazar

iqtisadiyyatının prinsipləri, eləcə də şəffaflıq, maraqların toqquşmaması, liberallıq prinsipləri əsasında qurulması; dövlət idarəetmə xərclərinin rasionallaşdırılması; sahibkarlıq fəaliyyəti üçün zəruri olan minimum müdaxilənin təmin edilməsi; istehsalata dövlət nəzarətinin bazara dövlət nəzarəti ilə əvəzlənməsi və istehsalata nəzarətin uyğunluğun qiymətləndirilməsi orqanlarına həvalə edilməsi; milli standartlaşdırma sisteminin işində özəl sektorun daha aktiv iştirakının təmin edilməsi; özəl sektorun normativ sənədlərin tətbiqinə çəkilən xərclərinin mümkün qədər azaldılması və prosedurların sadələşdirilməsi.

7.4.2. Prioritet 4.2. Təşviqedici mühitin yaxşılaşdırılması vasitəsilə biznesin davamlılığının möhkəmləndirilməsi

Əsaslandırma

Hazırda qlobal və regional miqyasda investisiyaların cəlb edilməsi istiqamətində rəqabət güclənir və biznesin təşviqi mexanizmləri təkmilləşdirilir. Bu sahədə aparılan islahatlar sürətləndirilməklə, regional miqyasda investisiyaların cəlb edilməsi istiqamətində ölkənin daha əlverişli mövqeyə çıxarılması planlaşdırılır. Belə ki, daha çox investisiya cəlb etməklə həm tədiyə balansındakı gərginlik aradan qaldırılacaq, həm də getdikcə optimallaşan dövlət investisiyaları özəl sərmayələrlə əvəzlənərək, dayanıqlı iqtisadi inkişaf təmin ediləcəkdir. Xüsusilə də xarici investisiyaların cəlbi Azərbaycanın qlobal və regional miqyasda dəyər zəncirinə daha dərindən qoşulması üçün zəmin yaradacaqdır. Eyni zamanda, daxili yığım potensialının investisiya edilməsi üçün də zəruri təşviqedici mexanizmlər inkişaf etdiriləcəkdir. Azərbaycanda biznesin təşviqi mühitinin beynəlxalq reytinqlərdə əks olunması xüsusi əhəmiyyət kəsb edir.

Görüləcək tədbirlər

Tədbir 4.2.1: Biznesin təşkilinin asanlaşdırılması üçün mövcud islahatların sürətləndirilməsi və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması

İnvestisiyanın cəlb edilməsi üçün ən vacib istiqamətlərdən biri təkmil, proqnozlaşdırıla bilən və stabil biznes mühitinin olmasıdır. Ölkənin investisiya imicini formalaşdıran faktorlar arasında ən əsası məhz beynəlxalq reytinqlərdə ölkənin mövqeyidir. Belə ki, bu reytinqlər investorlar üçün əhəmiyyətli olan əksər faktorlar (makroiqtisadi sabitlik, investisiya mühiti, məhkəmə sistemi və s.) üzrə göstəricilərə malikdir və sadəcə həmin reytinqlərə baxmaqla investor ölkə haqqında fikir formalaşdıra bilir.


Beynəlxalq reytinqlərdə Azərbaycanın mövqelərinin yaxşılaşdırılması üçün aşağıdakı istiqamətlərdə fəaliyyətlər davam etdiriləcəkdir:

1) qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilməsi;
2) qəbul edilmiş qərarların icrasının təmin olunması;
3) iqtisadi islahatların kommunikasiyasının gücləndirilməsi yolu ilə yerli və xarici ictimaiyyətin məlumatlandırılması.

Biznesin fəaliyyətinin asanlığının əsas göstəricisi Dünya Bankı Qrupu tərəfindən hər il qiymətləndirilən, özəl sektorun fəaliyyətinə yardım edən qayda və normalara əsaslanan “Doing Business” hesabatıdır. Bu hesabata əsasən, son illər ərzində Azərbaycanda biznesin təşkili asanlaşmışdır. Belə ki, bir sıra islahatlar və təkmilləşdirmələr, o cümlədən sahibkarlıq subyektlərinin fəaliyyətə başlaması üçün “bir pəncərə” sisteminin tətbiqi, şirkətlərdə möhürdən istifadə tələbinin aradan

qaldırılması, vergi və sosial sığorta ödənişləri üzrə elektron sistemin inkişafı məqsədilə 2007-2014-cü illərdə ölkə Prezidentinin imzaladığı sərəncamlar və digər müvafiq islahat tədbirləri nəticəsində Azərbaycan 2016-cı ildə dünyada 189 ölkə arasında 63-cü yerə yüksəlmişdir (şəkil 37).

Şəkil 37. Biznes fəaliyyətinin asanlığı indeksi üzrə Azərbaycanın mövqeyi



Mənbə: Dünya Bankının “Doing Business” adlı hesabatı, 2016

Doing Business hesabatının təhlili bir çox faydalı məlumatları açıqlayır: Azərbaycan hesabatda sahibkarlıq fəaliyyətinə başlama, əmlakın qeydiyyatı, investorların hüquqlarının qorunması, vergilərin ödənilməsi və müqavilələrin icrası kimi göstəricilər üzrə qənaətbəxş mövqedədir. Bu nəticələr göstərir ki, həyata keçirilən tədbirlər, o cümlədən ölkə Prezidentinin son sərəncamları sayəsində Azərbaycanda bir çox sahədə islahatlar dünya standartlarına uyğun reallaşdırılır. Azərbaycan bu göstəricilər üzrə əksər postsovet ölkələrindən irəlidə olsa da, aşağıdakı sahələrin nəzərdən keçirilməsindən başlamaqla, biznes mühitinin gücləndirilməsi ilə əlaqədar

göstərilən təşəbbüslər daha da təkmilləşdirilə bilər: tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, kredit alınması, xarici ticarətin aparılması və müəssisənin bağlanması. Özəl sektorun inkişafına kömək edəcək bu sahələr müəyyən qayda və müddəalara əsaslanır və bu məsələlər "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə ətraflı işıqlandırılmışdır.

Azərbaycanda biznesin təşkilinin asanlaşdırılmasına diqqətin artırılması iqtisadi inkişafın dəstəklənməsi sahəsində aparılan cari islahatları tamamlaya bilər. Bu baxımdan, əlavə islahat imkanlarını və bu sahədə görüləcək tədbirləri araşdırmaq məqsədilə ölkə Prezidentinin 2016-cı il 13 iyul tarixli "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı əsasında müvafiq Komissiya yaradılmışdır. Bu Komissiyanın təklifləri peşəkar taktiki gedişlərlə bütovlükdə hədəf seçilmiş iqtisadi inkişaf səylərinin gücləndirilməsi üçün çox əhəmiyyətli ola bilər. Beynəlxalq reytinqlər inkişaf məqsədləri üzrə tədbirlərin prioritetlərinin müəyyən edilməsində faydalı rol oynayır və onlar sırf bir məqsəd kimi yox, irəliləyiş üçün bir göstərici kimi qəbul edilməlidir.

Tədbir 4.2.2: Statistika infrastrukturunun təkmilləşdirilməsi

Azərbaycanda sahibkarlıq subyektlərinin inkişafını dəstəkləyən bir mühit qurmaq və biznes mühitini təkmilləşdirmək məqsədilə məqsədyönlü iqtisadi islahatlar həyata keçirilməkdədir. İqtisadi islahatların paralel şəkildə həyata keçirilməsi üçün ölkədə biznes mühitinə mənfi təsir edən qayda və maneələrin aradan qaldırılması məqsədilə davamlı olaraq mümkün tədbirlər nəzərdən keçirilir və inkişaf etdirilir. İslahatların davamlı inkişafının tələblərinə uyğun olaraq yeni tədbirlərin həyata keçirilməsi zərurəti yaranır. İslahatlara əlavə dəstək vermək üçün yaranan cari imkanlar üzrə daha səmərəli qərar verilməsi sahəsində həyata keçiriləcək tədbirlərə statistika infrastrukturunun gücləndirilməsi də daxildir.

Özəl investisiyalara şərait yaratmaq, bazar infrastrukturunu gücləndirmək və sahibkarlıq subyektlərinə daha əlverişli mühit yaratmaq məqsədilə reallığı əks etdirən faktlara əsaslanan siyasət və biznes qərarlarının qəbulu üçün statistika mühüm idarəetmə vasitəsidir. Azərbaycanın milli statistika sistemi genişçeşidli məlumatları və iqtisadi hesablamaları özündə birləşdirərək emal edir, eləcə də Dövlət Statistika Komitəsinin kanalları vasitəsilə dərc edilmiş çoxsaylı statistikaya çıxış imkanları verir. Bu baxımdan, gələcək təşəbbüslərin davamlı olması üçün milli statistika sisteminin zəruri ehtiyatlarla təmin edilməsi və dövlət orqanlarının qarşılıqlı əməkdaşlığı, məlumat sistemlərinin inteqrasiyası vacibdir. Bu əməkdaşlıq çərçivəsində, bir tərəfdən, fəaliyyətlərin bir-birini təkrar etməsi aradan qaldırılacaq, respondentlərə düşən yükün azaldılması təmin ediləcək, məlumatların toplanmasının və dövlət orqanları arasında yayılmasının səmərəliliyi yüksələcəkdir. Digər tərəfdən, milli statistika sistemi dəqiqliyin təminatı, məlumatlar arasında mümkün fərqlərin azaldılması və məlumatların yenilənməsinin təkmilləşdirilməsi vasitəsilə statistik infrastrukturun səmərəliliyinin yüksəlməsini təmin edəcəkdir. Bütün texniki məsələlər nəzərə alındıqdan, müvafiq qanunvericilik bazası təkmilləşdirildikdən sonra güclü statistik infrastruktur vacib analizlərin aparılmasına imkan yaradacaq və qərar qəbulu prosesinin, həmçinin vətəndaşların prosesə cəlb edilməsinin səmərəliliyini təmin edəcəkdir.

Tədbir 4.2.3: Yaxşı idarəetmə və effektiv stimullar vasitəsilə birbaşa xarici investisiya strategiyasının həyata keçirilməsi

Azərbaycanı investorlara əhəmiyyətli və müsbət mövqedə göstərən bir sıra amillər vardır: siyasi sabitlik və təhlükəsizlik; ölkənin təbii iqtisadi xüsusiyyətləri; biznes mühitinin ayrı-ayrı elementləri üzrə təkmil sistem (biznesə başlama, keyfiyyətli dövlət xidmətləri, elektron xidmətlər, liberal lisenziyalaşma, yoxlamaların dayandırılması); fiziki infrastruktur. Bu üstün cəhətlərin ölkəyə investisiya axınını təmin etməsi üçün islahatların davam etdirilməsi məqsədəuyğundur.

İnvestisiyanın təşviqi agentlikləri xarici investisiyaların cəlb edilməsində və biznes mühitinin formalaşdırılmasında fəal rol oynayır və dünya təcrübəsinə dair misallar onların müxtəlif səviyyələrdə iştirakını göstərir. Belə misallar "bir pəncərə" modelinin tətbiqindən tutmuş, təşviqat və danışıqlar üzrə fəaliyyət göstərən investisiyaların təşviqi agentliklərinin funksiyalarını və dəyər zəncirinə qoşulması üzrə əhatə dairəsini əks etdirir. Məsələn, Sinqapur, İrlandiya və Malayziyanın müvafiq dövlət agentlikləri öz fəaliyyətlərində əsas diqqəti stimullaşdırıcı tədbirlər vasitəsilə xarici investorların cəlb edilməsinə və inzibati mərhələlərdə onların problemlərinin həllinə yardım göstərilməsinə, investisiyanın icrasına dəstək verilməsinə və səmərəli altsektorəsaslı layihə işləmə metodlarının hazırlanmasına, həmçinin investisiyaların cəlb edilməsi vasitəsilə dövlətin ümumi inkişafı üzrə məqsədlərə nail olmağa yönəldirlər. Bu agentliklər xarici investisiyaların cəlb edilməsi məqsədilə investorlara dəstək üçün iş icazələrinin alınması və sahibkarlıq subyektlərinin qeydiyyatı, potensial biznes tərəfdaşları ilə əlaqələrin qurulması, məqsədyönlü subsidiyalar yolu ilə layihələrin maliyyələşdirilməsi, müxtəlif dövlət təşkilatlarında lobbiçilik fəaliyyətinin həyata keçirilməsi və s. kimi tədbirləri həyata keçirirlər. Qeyd olunan qabaqcıl dünya təcrübələrindən ölkədə geniş istifadə olunması nəzərdə tutulur.

Azərbaycanda iqtisadi artım və inkişaf məqsədlərinə uyğun xarici investisiyaların cəlb edilməsi və həcminin artırılması istiqamətində mühüm təşəbbüslər həyata keçirilmişdir.

Düzgün idarəetmə strukturunun yaradılması və stimulların (tənzimləmə, maliyyə və ya vergi sahəsində) müəyyənləşdirilməsi Azərbaycanın xarici investisiya cəlb etməsinə yardım göstərə bilər. Uğurlu stimul strukturunun müəyyənləşdirilməsi, ümumi yerləşdirmə profili, uyğun sahə və ya fəaliyyət sferası, həmçinin mümkün maliyyə və digər biznes-stimullar vasitəsilə doğru alətlər seçilməklə, investor perspektivi qəbul edilməlidir. Tənzimləyici, maliyyə və vergi stimulları ətrafında qurulmuş dövlət siyasətinin potensial təsirləri əlavə dəyərin yaradılmasının asanlaşdırılması üçün qiymətləndirilə bilər. Stimulların vaxt qrafiki də əhəmiyyətlidir. Belə ki, stimulların təsirləri müəyyən müddət keçdikdən və onların daimi olduğu zənn edildikdən sonra mənfi olur.

Potensial stimulların formatı 3 əsas sahədə qruplaşdırılmaqla geniş diapazonu əhatə edir: *Tənzimləyici stimullar* xarici investorlara yerli şirkətlər üçün də mövcud olan əmlak üzərində mülkiyyət hüququ verilməsi, valyuta nəzarəti məhdudiyyətinin və ya kapital tələblərinin azaldılması, əcnəbi işçilərin işə qəbulu kimi bərabər fayda və təminatları əhatə edə bilər. *Maliyyə stimulları* yığım və vergidən azadolma üzrə xərcləri, elmi-tədqiqat kreditlərini, kapitala vergi güzəştlərini, rüsumlardan güzəştləri nəzərdə tutur. *Vergi güzəştləri* isə müəyyən müddətə və müəyyən şərtlər əsasında gəlirlərdən bütün tutulmaları, korporativ və yerli vergiləri əhatə edir. İqtisadi inkişafı təmin etmək üçün Azərbaycanda bu alətlər artıq tətbiq edilir. Gələcək illərdə stimullar davamlı olaraq yenidən nəzərdən keçiriləcək və yenilənəcəkdir.

Maliyyə sektoru tərəfindən investisiyaların cəlb edilməsinə və xüsusilə də

qiymətli kağızlar bazarının inkişafı istiqamətində işlərin uğurla davam etdirilməsinə ehtiyac yaranmışdır. Hazırda bazarda valyuta derivativlərinə (fyuçers, forvard, svop və opsionlar) tələbat yüksəkdir. Bu tələbatın qarşılanmaması və kommersiya sektoru tərəfindən sözügedən alətlərdən istifadə edilmə imkanının olmaması sahibkarlar üçün qeyri-müəyyənliklə yanaşı, əlavə risklər də yaradır. Xarici valyuta derivativləri bazarının inkişafı Azərbaycanda xarici sərmayənin cəlbi üçün imkan yarada bilər.

Yarımçıq qalmış infrastruktur layihələrinin davam etdirilməsi və qeyri-neft iqtisadiyyatı üçün beynəlxalq inkişaf bankları ilə əməkdaşlıq və dövlət-özəl sektor tərəfdaşlığı xüsusi əhəmiyyətə malikdir. İndiki şəraitdə beynəlxalq investorların cəlbi üçün problemli aktivlərin satılması bazarının formalaşdırılması və beynəlxalq aktivləri idarəetmə şirkətlərinin Azərbaycana cəlb edilməsi zəruridir. Bunun üçün qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsinə, aktivləri idarəetmə şirkətinin yaradılmasının hüquqi bazasının formalaşdırılmasına baxıla bilər. Maliyyə bazarlarının inkişafı və xarici sərmayələrin cəlbi məqsədilə dövlət müəssisələrinin özəlləşdirilməsi prosesinin sürətləndirilməsi və səhmlərin ilkin kütləvi təklifinə (İPO emissiyasına) start verilməsi xüsusi önəm daşıyır. Bu tədbir dövlət mülkiyyətində olan problemli aktivlərin sağlamlaşdırılması baxımından da əhəmiyyətlidir.

Azərbaycanda islam maliyyəsinin inkişafı da xarici investisiyaların (xüsusən Körfəz ölkələrindən) cəlbi üçün əlavə təkan ola bilər. İslam maliyyə institutları real sektorda maliyyə xidmətlərinə çıxışın genişləndirilməsi, həmçinin kiçik və orta sahibkarlığın maliyyə əldə etmək imkanı üçün yaxşı platforma hesab olunur. Ölkədə artıma və iqtisadi inkişafa dəstək üçün xarici investisiyaların cəlb edilməsində onların iştirakı dəyərləndiriləcəkdir.

Ölkənin investisiya mövqeyinə və cəlbediciliyinə beynəlxalq və regional iqtisadi təşkilatlara üzvlük faktorları da təsir göstərir. Məsələn, investorlar ÜTT-yə üzvlüyü həmin ölkədə mülkiyyət və investor hüquqlarının qorunması və ölkənin ÜTT qarşısında öhdəliyinin olması səbəbindən stabil və proqnozlaşdırıla bilən ticarət və investisiya mühitinin mövcudluğu kimi qəbul edirlər və həmin ölkəyə daha çox investisiya qoyurlar.

Azərbaycanda investorların hüquqlarını qorumaq məqsədilə optimal hüquqi bazanın müəyyən edilməsi üçün təhlillər həyata keçiriləcəkdir.

İnvestisiya məhsuldarlığı sistemlərini nəzərə almaqla, yerli və qlobal ekspertlərlə işin təşviq edilməsi üçün tələb olunan əlavə resursların ayrılması prosedurları həyata keçirilə və birbaşa xarici investisiya üzrə potensial imkanları genişləndirmək məqsədilə görülmüş geniş investisiya tədbirləri daha da təşviq edilə bilər.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 27 milyard manat həcmində investisiyanın tələb olunacağı proqnozlaşdırılır. Bu məbləğ bütün sektorlar üzrə strateji yol xəritələri çərçivəsində tələb olunan cəmi vəsaiti əks etdirir və bütün növ dövlət və özəl (yerli və xarici) mənbələr hesabına təmin ediləcəkdir. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkənin bank sisteminin kreditləri və qrantlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitlərinin müəyyən edilmiş strateji hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitlərinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflər ilə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qrupları yaradılacaqdır. İşçi qruplarının hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qrupları illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupunun gündəlik iş rejimi və tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupunun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şəraiti yaradacaq, tələb olunduqda kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu ("delivery unit") müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qruplarının ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkil olunmasının təmin edilməsinə və zəruri hallarda əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.
- İcraya rəhbərlik olunması, eləcə də tələb olunan resurslar və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün strateji prioritetlər üzrə təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi

üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir strateji prioritetin uğurla tətbiq olunması üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb olunması tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədilə, özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlar ilə işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.
- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələr və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qruplarının illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qruplarının rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupunun rüblük iclasından ən azı 10 gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlili və qiymətləndirilməsini, həmçinin işçi qrupunun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinqin nəticələrinin və tövsiyələrin işçi qrupunun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar	İcra müddəti
Strateji hədəf 1. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi				
1.1. Neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsini tənzimləyəcək "qızıl qayda"nın qəbul edilməsi				
1.1.1.	"Qızıl qayda" prinsipi ilə uzlaşdırmanın həyata keçirilməsi	Maliyyə Nazirliyi	Dövlət Neft Fondu, İqtisadiyyat Nazirliyi, Maliyyə Sabitliyi Şurası	2017
1.1.2.	"Qızıl qayda" mexanizminin və parametrlərinin müəyyənləşdirilərək qəbul edilməsi	Maliyyə Nazirliyi	Dövlət Neft Fondu, İqtisadiyyat Nazirliyi, Maliyyə Sabitliyi Şurası	2017
1.2. Xərc/investisiya intizamının təminatı üçün mexanizmin yaradılması				
1.2.1.	Ortamüddətli Xərclər Çərçivəsinin yaradılması	Maliyyə Nazirliyi	İqtisadiyyat Nazirliyi, Dövlət Neft Fondu, Vergilər Nazirliyi	2017
1.2.2.	Nəticəəsaslı büdcə mexanizminin təşkil edilməsi	Maliyyə Nazirliyi	İqtisadiyyat Nazirliyi, Dövlət Neft Fondu, Vergilər Nazirliyi	2017
1.3. Yeni iqtisadi modeldə effektiv pul siyasəti rejiminin tətbiq edilməsi				
1.3.1.	Makroiqtisadi koordinasiyanın təmin edilməsi	Maliyyə Sabitliyi Surası		2017-2018
1.3.2.	Yeni alternativ lövbərin hədəflənməsi	Mərkəzi Bank	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi	2016-2017
1.3.3.	Tam üzən məzənnə rejiminə keçidin təmin edilməsi	Mərkəzi Bank	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası	2017

1.3.4.	Banklararası bazarın fəaliyyətinin təkmilləşdirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Maliyyə Nazirliyi, Mərkəzi Bank	2017
1.3.5.	Adekvat iqtisadi gözləntilərin formalaşdırılması və idarə edilməsi	Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi	2017-2018
Strateji hədəf 2. Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi				
2.1. İqtisadiyyatda dövlət sektorunun rolunun səmərəliliyinin artırılmasına dair ümumi yanaşmanın koordinasiya edilməsi				
2.1.1.	Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı normativ bazanın yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi	2016
	Dövlət mülkiyyətçiliyinə əsaslanan tələbatın müəyyən edilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi	2017-2020
2.1.2.	Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması	Əmlak Məsələləri Dövlət Komitəsi		2016-2018
	İdarəetmənin təkmilləşdirilməsi və səmərəliliyin yüksəldilməsi məqsədilə dövlət mülkiyyətində olan müəssisələr üzrə islahat proqramının icrası	Əmlak Məsələləri Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi	2017-2018
2.2. Özəlləşdirmə gündəliyinin uğurla icrası və prioritet sektorlarda özəlləşdirmənin həyata keçirilməsi				
2.2.1.	Gələcəkdə özəlləşdirməyə açıq elan edilə biləcək bəzi təsnif olunmuş	Əmlak Məsələləri Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi	2017

	əmlaklara dair özəlləşdirmə gündəliyinin idarə olunması			
2.2.2.	Prioritet sektorlarda müəyyən edilmiş özəlləşdirmə yanaşmasının tətbiqi	Əmlak Məsələləri Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi	2017-2018
2.3. Özəlləşdirmə və birbaşa xarici investisiya üçün uyğun investorların cəlb olunması				
2.3.1.	Ən uyğun investor profillərinə struktur yanaşmanın tətbiq edilməsi	İqtisadiyyat Nazirliyi	Əmlak Məsələləri Dövlət Komitəsi	2017-2020
Strateji hədəf 3. İnsan kapitalının inkişaf etdirilməsi				
3.1. Təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi				
3.1.1.	Məktəbəqədər təhsillə əhatəolunma səviyyəsinin yüksəldilməsi və təlim-tərbiyə texnologiyalarının təkmilləşdirilməsi	Təhsil Nazirliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	2017-2020
3.1.2.	Ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi və təmayülləşmənin inkişaf etdirilməsi	Təhsil Nazirliyi	Azərbaycan Milli Elmlər Akademiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2017-2019
3.1.3.	İlk peşə və orta ixtisas təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2017-2018
3.1.4.	Ali təhsil müəssisələrində “təhsil-tədqiqat-innovasiya” formatında inkişafın təşviqi	Təhsil Nazirliyi	Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat Nazirliyi	2017-2018
3.1.5.	Elmi-tədqiqat fəaliyyətinin inkişafı və biliklərə əsaslanan cəmiyyət quruculuğunun dəstəklənməsi	Azərbaycan Milli Elmlər Akademiyası	Təhsil Nazirliyi	2017-2020

3.1.6.	İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi	Təhsil Nazirliyi	Azərbaycan Milli Elmlər Akademiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	2017-2018
3.1.7.	İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi	Təhsil Nazirliyi	Azərbaycan Milli Elmlər Akademiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi	2017-2019
3.2. Əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması				
3.2.1.	Dəstəkləyici sistemin yaradılması	İqtisadiyyat Nazirliyi	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	2017
3.2.2.	İstehsalın və investisiyanın təşviq edilməsi	İqtisadiyyat Nazirliyi	Maliyyə Nazirliyi	2017-2020
3.2.3.	İnnovasiya fəaliyyətinə investisiya qoyuluşunun təşviq edilməsi	İqtisadiyyat Nazirliyi	Azərbaycan Milli Elmlər Akademiyası	2017-2020
3.2.4.	Sektorlar üzrə əmək məhsuldarlığı təşəbbüslərinin reallaşdırılması	İqtisadiyyat Nazirliyi	Azərbaycan Milli Elmlər Akademiyası	2017-2018
Strateji hədəf 4. Əlverişli biznes mühitinin inkişaf etdirilməsi				
4.1. Əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi				
4.1.1.	Azad rəqabət mühitinin inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi	Ədliyyə Nazirliyi	2017-2018
4.1.2.	Səmərəli vergi sisteminin təşviq edilməsi	Vergilər Nazirliyi	İqtisadiyyat Nazirliyi	2017

4.1.3.	Dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyin artırılması	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	2017-2018
4.1.4.	Azad ticarət sazişlərinin bağlanması	İqtisadiyyat Nazirliyi	Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi	2017-2020
4.1.5.	Texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılması, onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsi	Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi	2017-2019
4.2. Təşviqedici mühitin yaxşılaşdırılması vasitəsilə biznesin davamlılığının möhkəmləndirilməsi				
4.2.1.	Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə Komissiyanın yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası		2016 icra edilib
	Biznesin təşkilinin asanlaşdırılması üçün mövcud islahatların sürətləndirilməsi və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması	Komissiya	İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,	2017-2020

			İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası	
4.2.2.	Statistika infrastrukturunun təkmilləşdirilməsi	Dövlət Statistika Komitəsi	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi	2017-2018
4.2.3.	Yaxşı idarəetmə və effektiv stimullar vasitəsilə birbaşa xarici investisiya strategiyasının həyata keçirilməsi	İqtisadiyyat Nazirliyi	Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi	2017-2018
4.3. İnstitusional islahatların həyata keçirilməsi				
4.3.1.	Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası		2016 icra edilib
4.3.2.	İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası		2016 icra edilib
4.3.3.	Agentlik və "MİDA" MMC-nin yaradılması və Cəmiyyətin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi qaydasının hazırlanması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,	2016 icra edilib

			Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Mənzil İnşaatı Dövlət Agentliyi	
4.3.4.	Maliyyə Sabitliyi Şurasının yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası		2016 icra edilib
4.3.5.	Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası		2016 İcra edilib

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 119

2. QLOBAL TRENDLƏR 121

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 125

3.1. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində mövcud vəziyyət 125

3.2. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin GZİT təhlili 153

4. STRATEJİ BAXIŞ 157

4.1. 2020-ci ilədək strateji baxış 157

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 157

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 160

5. HƏDƏF İNDİKATORLARI 162

6. STRATEJİ MƏQSƏDLƏR 163

7. STRATEJİ HƏDƏFLƏR 164

7.1. Strateji hədəf 1. Ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi 164

7.1.1. Prioritet 1.1. Ərzaq təhlükəsizliyinin dayanıqlılığı və əhalinin ərzağa əlyetərliyi ilə bağlı məlumat və monitorinq sisteminin qurulması 164

7.1.2. Prioritet 1.2. Əhalinin bütün təbəqələrinin etibarlı ərzaq təminatına nail olunması mexanizmlərinin formalaşdırılması 167

7.1.3. Prioritet 1.3. Dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması 170

7.2. Strateji hədəf 2. Kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə artırılması 173

7.2.1. Prioritet 2.1. Həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsi 173

7.2.2. Prioritet 2.2. İdxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının artırılmasının təşviqi 180

7.2.3. Prioritet 2.3. Kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması və kooperasiyanın inkişafı 184

7.2.4. Prioritet 2.4. Kompleks layihələrin həyata keçirilməsi üçün dövlət-özəl tərəfdaşlığının inkişafı 186

7.2.5. Prioritet 2.5. Aqrobiznesin inkişafına dəstək infrastrukturunun formalaşdırılması 190

7.3. Strateji hədəf 3. Maliyyəyə çıxışın asanlaşdırılması 193

7.3.1. Prioritet 3.1. Kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi 194

7.3.2. Prioritet 3.2. Aqrar sığortanın inkişaf etdirilməsi 196

7.3.3. Prioritet 3.3. Aqrar sahəyə investisiya qoyuluşlarının təşviq edilməsi 198

7.4. Strateji hədəf 4. Kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminatın yaxşılaşdırılması 199

7.4.1. Prioritet 4.1. Torpaq bazarının inkişaf etdirilməsi 199

7.4.2. Prioritet 4.2. İstehsalçıların suvarma suyu ilə təminatının yaxşılaşdırılması 200

7.4.3. Prioritet 4.3. Kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika, maşın və avadanlıqlarla təminatının yaxşılaşdırılması və aqroservis xidmətləri bazarının inkişaf etdirilməsi 202

7.4.4. Prioritet 4.4. Toxum və ting bazarının inkişaf etdirilməsi və yerli istehsal potensialının gücləndirilməsi 203

7.4.5. Prioritet 4.5. Gübrə və bitki mühafizə vasitələri ilə təminatın yaxşılaşdırılması 204

7.4.6. Prioritet 4.6. Heyvandarlığın qarışıq qüvvəli yemlə təminatının yaxşılaşdırılması və damazlıq işinin inkişaf etdirilməsi 206

7.4.7. Prioritet 4.7. Kənd təsərrüfatı məhsulları istehsalçılarının baytarlıq və fitosanitar xidmətləri ilə təminatının yaxşılaşdırılması 207

7.5. Strateji hədəf 5. Kənd təsərrüfatı sahəsində elm, təhsil və informasiya-məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi 208

7.5.1. Prioritet 5.1. Aqrar təhsildə keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidin təmin edilməsi ... 209

7.5.2. Prioritet 5.2. Kənd təsərrüfatında elmi tədqiqatların planlaşdırılması, aparılması və nəticələrin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi 211

7.5.3. Prioritet 5.3. Aqrar sahənin ehtiyaclarına cavab verən informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması 212

7.6. Strateji hədəf 6. Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazarlara çıxışının asanlaşdırılması 214

7.6.1. Prioritet 6.1. Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi 215

7.6.2. Prioritet 6.2. Kənd təsərrüfatı məhsulları üzrə bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi 217

7.6.3. Prioritet 6.3. Kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi 218

7.7. Strateji hədəf 7. Ətraf mühitin qorunması, təbii resurslardan dayanıqlı istifadə və təbii amillərin kənd təsərrüfatına təsirlərinin idarə olunması 221

7.7.1. Prioritet 7.1. İqlim dəyişmələrinin və digər təbii amillərin kənd təsərrüfatına mənfi təsirinin azaldılması mexanizmlərinin işlənilməsi 222

7.7.2. Prioritet 7.2. Aqrar sahədə ətraf mühiti mühafizə mexanizmlərinin təkmilləşdirilməsi 224

7.7.3. Prioritet 7.3. Kənd təsərrüfatı torpaqlarından və su ehtiyatlarından dayanıqlı istifadə mexanizmlərinin təkmilləşdirilməsi 226

7.7.4. Prioritet 7.4. Ekoloji təmiz kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi 231

7.8. Strateji hədəf 8. Aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsi və biznes mühitinin təkmilləşdirilməsi 233

7.8.1. Prioritet 8.1. Əlverişli aqrobiznes mühitinin formalaşdırılması üçün tədbirlərin görülməsi 233

7.8.2. Prioritet 8.2. Elektron kənd təsərrüfatının qurulması, qeydiyyat, uçot və statistika sisteminin təkmilləşdirilməsi 235

7.8.3. Prioritet 8.3. Kənd təsərrüfatını tənzimləyən qurumların potensialının gücləndirilməsi 238

7.8.4. Prioritet 8.4. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi siyasətinin inkişaf məqsədləri əsasında təkmilləşdirilməsi 240

7.8.5. Prioritet 8.5. Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi sisteminin qurulması 242

7.9. Strateji hədəf 9. Kənd yerlərində məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi 244

7.9.1. Prioritet 9.1. Kənd yerlərinin sosial-iqtisadi inkişaf siyasəti üzrə potensialının gücləndirilməsi 245

7.9.2. Prioritet 9.2. Kənd yerlərində alternativ fəaliyyət sahələrinin inkişafının dəstəklənməsi ... 246

7.9.3. Prioritet 9.3. Yerli icmaların kəndin inkişafına dair təşəbbüslərinin dəstəklənməsi 248

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ **250**
9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ..... **251**
10. TƏDBİRLƏR PLANI..... **253**

1. QISA XÜLASƏ

“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə iqtisadiyyatın mövcud vəziyyətinin dərin təhlili əsasında Strateji Yol Xəritəsinin hazırlanması üzrə müvafiq tapşırıqlar verilmişdir. Buna uyğun olaraq, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi sahələrində mövcud vəziyyət müvafiq dövlət orqanlarının, tədqiqat mərkəzlərinin və müstəqil ekspertlərin iştirakı ilə sistemli və əhatəli şəkildə təhlil olunmaqla, silsilə müzakirələr keçirilmiş və müvafiq qiymətləndirmələr aparılmış, bunun əsasında “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” (bundan sonra–Strateji Yol Xəritəsi) hazırlanmışdır.

Bu Strateji Yol Xəritəsində ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

Strateji Yol Xəritəsinin 2016–2020-ci illər ərzində həyata keçirilməsi hesabına ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması üçün 9 strateji hədəfin reallaşdırılması nəzərdə tutulur. Bu strateji hədəflər ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılması, kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və müvafiq resurslara, o cümlədən maliyyəyə çıxışın asanlaşdırılması, kənd təsərrüfatı sahəsində elmi təminatın və təhsilin keyfiyyətinin yüksəldilməsi və məsləhət-informasiya xidmətləri sisteminin inkişaf etdirilməsi, bazar infrastrukturunun inkişafı və istehsalçıların bazara çıxışının asanlaşdırılması, təbii resurslardan dayanıqlı istifadə mexanizmlərinin formalaşdırılması, aqrar sahə üzrə biznes mühitinin təkmilləşdirilməsi və kənd yerlərində rifahın yüksəldilməsi məsələlərini əhatə edir.

Hər bir strateji hədəfin reallaşdırılması üçün 2016–2020-ci illər üzrə prioritet istiqamətlər müəyyən olunaraq əsaslandırılmışdır. Strateji Yol Xəritəsinin həyata keçirilməsi ilə bağlı planlaşdırılan bütün icra tədbirləri həmin prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır. Bu tədbirlərin hər birinin icrasının hansı meyarlar (indikatorlar) üzrə ölçüləcəyi əvvəlcədən müəyyən olunmuşdur ki, bunun da əsasında bütövlükdə Strateji Yol Xəritəsinin icrasının monitorinqi və qiymətləndirilməsi sistemi qurulacaqdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda həyata keçiriləcək prioritetlərin 2020-ci ildə real ÜDM-i birbaşa 575 milyon manat, dolayı şəkildə isə 660 milyon manat olmaqla, ümumilikdə 1235 milyon manat artıracağı və təxminən 20 min yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Təsirin gerçəkləşdirilməsi dövlət-özəl resursları hesabına 1170 milyon manat investisiya qoyuluşu tələb ediləcəyi proqnozlaşdırılır. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda göstərilən əsas təşəbbüslər Kənd Təsərrüfatı Nazirliyi tərəfindən əlaqələndiriləcəkdir.

Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə gözlənilən nəticələr

№	Prioritetin adı	Real ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(tam ştatlı işçilər, 2020)*	İnvestisiya məbləği *(milyon manatla)*
2.1.	Həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsi	450	-	440
2.4.	Kompleks layihələrin həyata keçirilməsi üçün dövlət-özəl tərəfdaşlığının inkişafı	130	7250	325
2.5.	Aqrobiznesin inkişafına dəstək infrastrukturunun formalaşdırılması	355	7725	350
3.1.	Kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi	210	-	-
6.3.	Kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi	90	5060	40
7.4.	Ekoloji təmiz kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi	-	-	15

Qeyd 1. Bu cədvəldə yalnız 2020-ci ildə real ÜDM-də 10 milyon manatdan çox artıma və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.

Qeyd 2. Bu rəqəmlər prioritetlərin təsirləri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli təhlillərin aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.

2. QLOBAL TRENDLƏR

Ötən əsrin 60–70-ci illərindən etibarən geniş miqyas alan və mineral gübrələrin, pestisidlərin və təkmil irriqasiya sistemlərinin tətbiqinin genişləndirilməsi, istehsalın mexanikləşdirilməsi səviyyəsinin yüksəldilməsi və seleksiya-damazlıq işlərinin təkmilləşdirilməsi ilə xarakterizə edilən "Yaşıl inqilab" sayəsində qlobal səviyyədə həm bitkiçilik, həm də heyvandarlıq sahəsində istehsalın əsaslı şəkildə intensivləşdirilməsinə nail olunmuşdur. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı məlumatları əsasında aparılan hesablamalara görə son 40 il ərzində dünya üzrə əkin sahələri təqribən 9 faiz artdığı halda, bitkiçilik məhsulları istehsalının həcmi 2,3 dəfə artmışdır. O cümlədən inkişaf etməkdə olan ölkələrdə bitkiçilik sahəsində məhsuldarlıq səviyyəsi bu müddətdə 70 faiz yüksəlmişdir. Kənd təsərrüfatında intensivləşmənin daha bir bariz nümunəsi budur ki, ümumi tələbatın və buna uyğun olaraq istehsal həcminin artımı fonunda, ötən dövr ərzində dünya üzrə hər nəfərə düşən əkin sahəsi göstəricisi 0,44 hektardan 0,25 hektara düşmüşdür. Oxşar olaraq, dünya üzrə süd istehsalının 61 faiz, ət istehsalının isə 27 faiz artdığı ötən 40 illik dövr ərzində mövcud mal-qaranın baş sayı 26 faiz artmışdır. Hətta bu dövr ərzində inkişaf etmiş ölkələrdə yüksək məhsuldarlığa malik cinslərdən ibarət heyvandarlıq təsərrüfatları hesabına mal-qaranın ümumi sayı təqribən 30–35 faiz azalmışdır.

İstehsalın intensivləşdirilməsinin daha bir zəruri şərti olan kənd təsərrüfatı torpaqlarının konsolidasiyası prosesi də, davamlı kənd inkişafı və təbii ehtiyatların səmərəli idarəedilməsi siyasətinin tərkib hissəsi kimi, kənd təsərrüfatı sahəsində müşahidə olunan daha bir qlobal meyildir. Bununla belə, kənd təsərrüfatı torpaqlarının konsolidasiyası prosesi daha çox inkişaf etmiş, həmçinin, sənayeləşmənin yeni vüsət aldığı ölkələr üçün xarakterikdir. Urbanizasiya və sənayeləşmə prosesinin zəif getdiyi, qeyri-kənd təsərrüfatı sektorunda məşğulluq imkanlarının məhdud olduğu ölkələrdə isə, hətta əksinə, kənd təsərrüfatı torpaqları irsən keçən varislik prosesinin nəticəsi olaraq, daha da kiçik və dağınıq hissələrə bölünür.

Müasir dövrdə qlobal səviyyədə kənd təsərrüfatı sahəsi "Yaşıl inqilab" mərhələsindən "İkinci yaşıl inqilab" və ya "Biotexnologiya inqilabı" mərhələsinə keçid dövrünü yaşayır. Belə ki, torpaq və su resurslarının məhdudluğu fonunda, intensiv istehsal üsulları ilə belə qlobal ərzaq təchizatının əhəmiyyətli həcmdə artırılması təmin edilsə də, ətraf mühit və ekosistem üzərində ciddi mənfi təsirlər də yaranmışdır. Bu amil müasir dövrdə dayanıqlı kənd təsərrüfatı istehsalına imkan verən yeni texnologiyaların tətbiqinin genişləndirilməsini zəruri etmişdir. Məhz buna görə də biotexnologiya müasir dövrdə qlobal ərzaq təhlükəsizliyinin köklü şəkildə gücləndirilməsi və ətraf mühitə mənfi təsirlərin azaldılması vasitəsi kimi çıxış edir. Biotexnologiya sayəsində quraqlığa, istiyə, soyuğa, torpağın şoranlaşmasına, zərərvericilərə, zəhərli herbisidlərə davamlı bitki növləri, habelə xəstəliklərə və iqlim dəyişkənliyinə davamlı heyvan cinsləri yaradılır. Belə növlər marjinal ərazilərdə təsərrüfatın səmərəliliyini təmin etməyə və deqradasiyaya məruz qalmış torpaqları bərpa etməyə yardım edir, həmçinin pestisidlərə və mineral gübrələrə olan ehtiyacı əsaslı şəkildə azaldır. Bununla belə, biotexnologiyaların tətbiqinin ətraf mühitə və qida təhlükəsizliyinə göstərə biləcəyi mənfi təsirlərin müəyyən olunması və nəzarət edilməsi üçün beynəlxalq standartlar əsasında hər bir ölkədə effektiv milli tənzimlənmə sistemlərinin yaradılması da mühüm qlobal çağırışlardan biridir.

Müasir dövrdə əkin sahələrinin becərilməsində istifadə olunan təkmil texnologiyalar kimi yeni suvarma üsullarının (damla, yağmurlama, tərləmə) və səmərəli əkin metodlarının (laydırsız şum, tirəyə səpin, sıfır becərmə, qarışıq əkin, lazer mala və s.) tətbiqi genişləndirilir. Bu metodların tətbiqi istehsalda

səmərəliliyi yüksəltməklə yanaşı, həm də təbii resurslardan dayanıqlı istifadəyə imkan verir.

Müvafiq istehsal texnologiyalarının inkişafı ilə yanaşı, aqrar sahədə fəaliyyət göstərən təsərrüfatların idarəedilməsi sisteminin də avtomatlaşdırılması təcrübəsi, xüsusilə inkişaf etmiş ölkələrdə genişlənməkdədir. Bu isə kənd təsərrüfatının mexanikləşdirilməsi prosesinin təsiri ilə bu sahənin əməktutumluluğunun azalması trendinin daha da sürətlənməsini şərtləndirir. Başqa sözlə desək, yeni istehsal və idarəetmə texnologiyalarının tətbiqi sayəsində müasir dövrdə kənd təsərrüfatı "*artıq işçi qüvvəsi*"nin "*nisbi məşğulluğu*"nu təmin edən sahə olmaqdan uzaqlaşır.

Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə qlobal ixracda emal olunmuş, yəni daha yüksək əlavə dəyər yaradılmaqla istehsal olunmuş məhsulların xüsusi çəkisinin getdikcə artması müşahidə olunur. Belə ki, qlobal ticarət üzrə TRADEMAP informasiya bazasının məlumatlarına əsasən, ilkin kənd təsərrüfatı məhsullarının və emal olunmuş məhsulların ümumi ixracdakı xüsusi çəkisi 2001-ci ildə müvafiq olaraq 41,4 faiz və 58,6 faiz idisə, 2015-ci ildə bu göstəricilər müvafiq olaraq 38,4 faiz və 61,6 faiz təşkil etmişdir. 2001–2015-ci illərdə ilkin kənd təsərrüfatı məhsullarının ixracının həcmi 2,5 dəfə artdığı halda, emal olunmuş məhsullar üzrə bu artım 2,9 dəfə olmuşdur.

2050-ci ildə 9,3 milyard nəfərə qədər artacağı proqnozlaşdırılan dünya əhalisinin qidalanması üçün tələb olunan ümumi ərzaq istehsalının, hazırki dövrlə müqayisədə 70 faiz artırılmasına ehtiyac yaranacaqdır.[1]

Qlobal səviyyədə yüksək sürətlə gedən urbanizasiya prosesi nəticəsində şəhər əhalisinin ərzaq məhsulları üzrə istehlak göstəricisinin həcmi böyük miqyasda artmışdır ki, bu da ənənəvi kənd təsərrüfatı istehsalı modelinin "*şəhər tələbatına yönəlik kənd təsərrüfatı*" ("*urban demand – oriented agriculture"*) yanaşması ilə əvəzlənməsini şərtləndirmişdir. Məhz buna görə də hazırda ilkin kənd təsərrüfatı məhsulları istehsalçılarının, emalçıların, təchizatçıların və distribüterlərin müəyyən bir ərazidə, kooperasiya formasında fəaliyyətinə əsaslanan və əsasən, şəhər yerlərinə yaxın ərazilərdə fəaliyyət göstərən aqroərzaq təchizatı sistemi kimi aqroparkların tətbiqi dünyanın bütün regionlarında genişlənməkdədir. Həmçinin, şəhər yerlərində hidroponik və digər innovativ texnologiyalardan istifadə olunmaqla, "*torpaqsız sahələrdə*" kənd təsərrüfatı məhsullarının yetişdirilməsi təcrübəsi də yayılmaqdadır.

Cəmiyyətin müasir inkişaf mərhələsində kənd təsərrüfatının gələcək inkişafı ilə bağlı çağırışlar, ilk baxışda fərqli görünən iki qlobal trend fonunda müəyyənləşir.

- ***Belə ki, qlobal miqyasda kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın artım tempi azalma meylinə malikdir***. FAO-nun hesablamalarına görə, ötən 40 il ərzində bu tələbatın ortaillik artım tempi 2,2 faiz olduğu halda, növbəti 40 il ərzində bu göstəricinin 1,1 faizə enəcəyi gözlənilir. O cümlədən inkişaf etməkdə olan ölkələr üzrə bu göstəricilər, müvafiq olaraq, 3,6 faiz və 1,3 faiz səviyyəsində qiymətləndirilir.
- Müasir dövrdə kənd təsərrüfatı sahəsi yalnız aşağı inkişaf səviyyəsinə malik olan ölkələrdə sosial-iqtisadi inkişafın yüksəldilməsi baxımından əhəmiyyətli rola malikdir. Müvafiq sənaye və xidmət sahələrinin inkişaf etdiyi və ya bu sahələr üzrə məqsədyönlü inkişaf strategiyasına malik olan ölkələrdə kənd təsərrüfatı əsas etibarilə, ərzaq təhlükəsizliyinin, məşğulluğun təmin edilməsi və qismən də ixracın şaxələndirilməsi vasitəsidir. Təsadüfi deyil ki, ötən onilliklər ərzində qlobal ÜDM-də kənd təsərrüfatının payı 9–10 faizdən 4–5

[1]Mənbə: Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)

faizə, dünya üzrə iqtisadi fəal əhalinin sayında kənd təsərrüfatı sahəsinə düşən iqtisadi fəal əhalinin payı isə 51 faizdən 38 faizə enib.

- ***2050-ci ildə bütün dünya üzrə ərzaq istehsalının artırılması zərurəti yaranacaq və hətta inkişaf etməkdə olan ölkələrdə müvafiq istehsal həcminin 2 dəfə artırılması zəruri olacaqdır.*** Çünki qlobal miqyasda həyat səviyyəsi standartlarının getdikcə yüksəlməsi trendinə uyğun olaraq ərzaq məhsulları istehsalının strukturunda sağlam və keyfiyyətli məhsulların xüsusi çəkisi getdikcə yüksəlir.

Dünya əhalisinin sayının artmasına, habelə inkişaf etməkdə olan ölkələrdə həyat səviyyəsinin tədricən yaxşılaşmasına görə qlobal miqyasda ərzaq məhsullarına artacaq tələbatın ödənilməsi zərurəti ilə bağlı beynəlxalq çağırışın reallaşmasına maneə yaradan aşağıdakı bir sıra problemlər mövcuddur:

- ***Dünya miqyasında torpaqların deqradasiyası çox təhlükəli şəkildə artır və dünyanın çox hissəsini əhatə edir***. FAO-nun hesablamalarına görə, dünya torpaq fondunun 1,2 milyard hektar sahəsi orta və ağır dərəcədə deqradasiyaya məruz qalmışdır. O cümlədən qlobal miqyasda əkin sahələrinin 20 faizi, meşələrin 30 faizi və otlaq sahələrinin 10 faizi deqradasiyaya uğramışdır. Dünya əhalisinin 25 faizi və ya 1,5 milyard nəfər birbaşa olaraq deqradasiyaya uğramış ərazilərdən asılıdır. Araşdırmalar göstərir ki, torpaqların deqradasiyası, əsas etibarilə, zəif torpaq idarəçiliyi səbəbindən baş verir.
- ***Kənd təsərrüfatı sahəsindəki fəaliyyətlər qlobal iqlim dəyişikliklərinə adaptasiya olunmalıdır***. Yüksək temperatur, yağışın xarakterinin dəyişməsi, ekstremal hava şəraiti (quraqlıq və s.) kimi iqlim faktorlarının bitkiçilik və heyvandarlıq sahələrində məhsuldarlığın aşağı düşməsinə səbəb olduğu nəzərə alınmalı, bu dəyişikliklərə uyğunlaşdırılmış bitki sortlarının və heyvan cinslərinin tətbiqi genişləndirilməli və *"iqlim əsaslı ağıllı kənd təsərrüfatı"*nın inkişafı təşviq edilməlidir.
- ***Qlobal miqyasda mövcud olan ədalətsiz ticarət şərtləri inkişaf etməkdə olan, o cümlədən də zəif inkişaf etmiş ölkələrdə ərzaq məhsulları istehsalına mənfi təsir göstərən daha bir ciddi faktor kimi çıxış edir***. Belə ki, inkişaf etmiş ölkələr tərəfindən kənd təsərrüfatı və ərzaq məhsullarının böyük həcmdə subsidiyalaşdırılmış qiymətlərlə ixracı, digər ölkələrdən ixrac edilən analoji məhsulların qiymətini aşağı salır ki, bu da həmin ölkələrdə, xüsusilə kiçik istehsalçıların fəaliyyətinə dağıdıcı təsir edir.
- ***Kənd təsərrüfatı və ərzaq məhsulları qiymətlərinin qlobal səviyyədə müşahidə olunan qeyri-sabitliyi, xüsusilə inkişaf etməkdə olan, o cümlədən zəif inkişaf etmiş ölkələrdə əhalinin ərzağa əlyetərliyini çətinləşdirir, habelə istehsalçıların fəaliyyətinin səmərəliliyini azaldır***. Belə ki, FAO-nun hesabatına görə, 2000–2002-ci illər baza götürülməklə qlobal ərzaq qiymətləri indeksində 1980–1989-cu illərdə əsasən enmə, 1990–1997-ci illərdə əsasən qalxma, 1998–2003-cü illərdə əsasən enmə, 2004–2012-ci illərdə əsasən qalxma, 2013-cü ildən isə əsasən enmə trendi müşahidə edilmişdir. Buna görə də daxili bazarda kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətlərinin stabilliyinin təmin edilməsinə yönəlmiş effektiv siyasət tədbirləri həyata keçirə bilməyən ölkələrdə ərzaq təhlükəsizliyinin dayanıqlılığına təhlükə yaranır.
- ***İnkişaf etməkdə olan, o cümlədən də zəif inkişaf etmiş ölkələr kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının həcminin artırılması çağırışını reallaşdırmaq üçün kənd təsərrüfatına, bundan daha çox isə bu sahə ilə bağlı istiqamətlərə investisiya qoyuluşunun həcmini artırmalıdırlar***. FAO-nun hesablamalarına görə, istehsal həcmini lazımi səviyyədə artırmaq üçün bu

ölkələrdə kənd təsərrüfatına tələb olunan cəmi illik xalis investisiya qoyuluşu təqribən 83 milyard ABŞ dolları həcmində qiymətləndirilir. Bu investisiyaların 24 faizinin bitkiçiliyə, 16 faizinin heyvandarlığa, 60 faizinin isə kənd təsərrüfatı istehsalına xidmət edən bazar infrastrukturuna yönəldilməsi zəruri hesab edilir. Bunlarla yanaşı, daha funksional kənd təsərrüfatı və mükəmməl ərzaq təhlükəsizliyi sisteminin yaradılması üçün aqrar sahə üzrə tədqiqat, təhsil və məsləhət xidmətlərinə, suvarma sistemlərinin inkişafına, digər fiziki və sosial infrastruktur sahələrinə də zəruri dövlət investisiyaları həyata keçirilməlidir. Bu kimi ehtiyacların olmasına baxmayaraq inkişaf etməkdə olan, o cümlədən də zəif inkişaf etmiş ölkələr zəruri investisiya resurslarına malik deyildirlər, üstəlik də onların bu resursları əldə etmək baxımından əlverişli imkanları yoxdur.

- ***Qlobal səviyyədə innovativ istehsal və idarəetmə texnologiyalarının tətbiqinin geniş yayıldığı bir vaxtda aqrar sahə üzrə modernləşdirilmiş elm, təhsil və informasiya məsləhət xidmətləri sisteminin mövcudluğu bu sahədə rəqabətqabiliyyətliliyin təmin edilməsi üçün zəruri resurslardan biri kimi çıxış edir***. Lakin inkişaf etməkdə olan ölkələrdə ümumi innovasiya potensialı kifayət qədər yüksək olmadığı üçün, həmçinin bu sahələr islahatların aparılması baxımından daha “konservativ” olduğuna görə, burada köklü dəyişikliklərin edilməsi müəyyən zaman və ardıcıl fəaliyyət tələb edir.


3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində mövcud vəziyyət

Sahənin ümumi inkişaf trendləri

Kənd təsərrüfatı məhsullarının ümumi həcmi 1995–2015-ci illər ərzində faktiki qiymətlərlə 7,7 dəfə (real ifadədə 2,4 dəfə), 2005–2015-ci illər ərzində isə 3,1 dəfə (real ifadədə 38,4 faiz) artmışdır. O cümlədən bitkiçilik məhsulları istehsalında faktiki artım həmin dövrlərə müvafiq olaraq 6,6 və 2,8 dəfə (real artım müvafiq olaraq 2,3 dəfə və 25,4 faiz), heyvandarlıq məhsulları istehsalında müvafiq olaraq 9,3 və 3,4 dəfə (real artım isə müvafiq olaraq 2,5 dəfə və 53,8 faiz) olmuşdur (şəkil 1).

Şəkil 1. Kənd təsərrüfatı məhsullarının istehsal həcmi *(milyon manatla)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

FAO-nun metodologiyası ilə hesablanan və 2004–2006-cı illərin baza kimi götürüldüyü Ümumi İstehsal İndeksi Vahidi (“*Gross Production Index Number*”) göstəricilərində bütövlükdə kənd təsərrüfatı sahəsi üzrə göstərici 2013-cü ildə Azərbaycanda dünya üzrə orta göstəricidən yuxarı olmuşdur (cədvəl 1).

Cədvəl 1. Azərbaycan və dünya üzrə FAO-nun Ümumi İstehsal İndeksi Vahidi göstəriciləri (2013-cü il)

FAO-nun Ümumi İstehsal İndeksi Vahidi göstəriciləri	Dünya	Azərbaycan
Ümumi kənd təsərrüfatı istehsalı	121,9	136,9
Ərzaq məhsulları istehsalı	122,4	142,1
Heyvandarlıq	117,0	165,9
Bitkiçilik	124,7	118,9
Taxılçılıq	121,9	135,5

Mənbə: FAO-nun statistik bazası

Cədvəldən göründüyü kimi, Azərbaycanda bitkiçilik sahəsində müvafiq göstərici ümumi dünya göstəricisindən aşağı, heyvandarlıq sahəsində isə əksinə,

dünya üzrə göstəricidən əsaslı şəkildə yuxarı olmuşdur. Həmçinin, taxılçılıq sahəsi üzrə Azərbaycanın müvafiq göstəricisi dünya üzrə ümumi göstəricidən yuxarıdır.

Ölkədə heyvandarlığın bitkiçilik sahəsi ilə müqayisədə yüksək templə artımı, habelə nisbətən aşağı əlavə dəyərin yaradıldığı taxılçılıq sahələrinin ekstensiv metodlarla genişləndirilməsi müqabilində, yüksək əlavə dəyərin yaradıldığı digər məhsulların istehsalında baş verən geriləməyə görə ümumi kənd təsərrüfatı məhsulları istehsalının strukturunda bitkiçilik məhsulları istehsalının payı 1995-ci ildəki 57,5 faizdən 2015-ci ildə 48,9 faizə enmişdir.

Ötən dövr ərzində kənd təsərrüfatı məhsullarının emalı sənayesində, xüsusilə də qida məhsulları və içkilərin istehsalı hesabına ciddi artım baş vermişdir (cədvəl 2).

Cədvəl 2. Emal sənayesi məhsullarının istehsal həcmi *(milyon manatla)*


	1995	2000	2005	2010	2011	2012	2013	2014	2015
Qida məhsullarının istehsalı	172,5	657,1	1094,5	1924,6	2107,6	2574,8	2516,2	2596,7	2547,2
İçki istehsalı	5,0	24,1	72,5	170,2	169,0	175,5	207,7	232,1	194,7
Tütün məmulatlarının istehsalı	7,0	17,7	30,5	22,3	22,8	19,6	13,1	24,6	27,2
Toxuculuq sənayesi	148,2	24,6	34,8	29,4	52,3	57,7	51,2	48,7	30,7

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Belə ki, qida sənayesi məhsullarının istehsalı 2005–2015-ci illər ərzində 2,3 dəfə, içki istehsalının həcmi isə 2,7 dəfə artmışdır. Bununla belə, 2015-ci ildə tütün məmulatlarının istehsal həcmi 2005-ci ilə nəzərən 10,8 faiz, toxuculuq sənayesi məhsulları istehsalı isə 11,8 faiz azalmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalının ÜDM-də payı, neft sektorunun ümumi iqtisadi artımda təsirinin xüsusilə gücləndiyi 2000–2010-cu illər ərzində 16,1 faizdən 5,5 faizə enmişdir. 2010–2015-ci illər ərzində isə kənd təsərrüfatı məhsulları istehsalının ÜDM-də payı 5,5 faizdən 6,2 faizə yüksəlmişdir (şəkil 2).

Şəkil 2. Kənd təsərrüfatı məhsullarının istehsalının ÜDM-də payı *(faizlə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Beləliklə, qlobal trendə uyğun olaraq Azərbaycanda da kənd təsərrüfatı məhsulları istehsalının ÜDM-də payı elə də böyük deyildir. Bununla belə, kənd təsərrüfatı məhsulları istehsalının strukturunda yüksək əlavə dəyərin yaradıldığı

sənaye təyinatlı məhsulların istehsal həcminin artırılması, habelə emal sənayesi üzrə istehsal potensialının gücləndirilməsi hesabına bu sahələr ölkədə ÜDM-in artırılmasında əhəmiyyətli təsirə malik olacaqdır.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən və ölkədə bazar iqtisadiyyatına keçid prosesi başladıqdan sonra kənd təsərrüfatında köklü struktur dəyişiklikləri baş vermişdir. Bu dəyişikliklər aşağıdakılarla xarakterizə edilir (cədvəl 3, cədvəl 4, cədvəl 5, şəkil 3).

Cədvəl 3. Kənd təsərrüfatı bitkilərinin əkin sahələri

		Dənli və dənli paxlalı bitkilər		Texniki bitkilər		Kartof, tərəvəz və bostan bitkiləri		Yem bitkiləri	
İllər	Cəmi, min ha	Sahə, min ha	Xüsusi çəki, faizlə	Sahə, min ha	Xüsusi çəki, faizlə	Sahə, min ha	Xüsusi çəki, faizlə	Sahə, min ha	Xüsusi çəki, faizlə
1985	1371,3	494,0	36,0	318,3	23,2	70,2	5,1	488,8	35,6
1990	1462,5	583,4	39,9	282,1	19,3	74,7	5,1	522,3	35,7
1995	1207,9	609,4	50,5	227,0	18,8	49,4	4,1	322,1	26,7
2000	1041,5	648,2	62,2	118,2	11,3	136,1	13,1	139,0	13,3
2005	1327,9	802,3	60,4	132,0	9,9	179,7	13,5	213,9	16,1
2010	1583,9	968,0	61,1	52,6	3,3	178,8	11,3	384,5	24,3
2011	1608,2	967,3	60,1	66,9	4,2	179,7	11,2	394,3	24,5
2012	1647,1	1031,4	62,6	48,5	2,9	174,5	10,6	392,7	23,8
2013	1684,2	1074,1	63,8	42,2	2,5	171,5	10,2	396,4	23,5
2014	1613,8	1001,4	62,1	43,8	2,7	165,7	10,3	402,9	25,0
2015	1585,4	952,1	60,1	38,7	2,4	166,0	10,5	428,6	27,0
2015/1990*	108,4	163,2	-	13,7	-	222,2	-	82,1	-
2015/2005*	119,4	118,7	-	29,3	-	92,4	-	200,4	-
2015/2010*	100,1	98,4	-	73,6	-	92,8	-	111,5	-

*2015-ci il üzrə göstəricilərin müvafiq illərə nisbətən müqayisəsi (faizlə)

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

- 2000-ci ilə qədər ümumi əkin sahələrində azalma baş versə də, aqrar sahədə özəl sektorun inkişafı və ekstensiv istehsal üsulu hesabına 2000-ci ildən etibarən əkin sahələri ardıcıl olaraq genişləndirilmiş, artıq 2015-ci ildə ümumi əkin sahələri hətta 1990-cı illə müqayisədə 8,4 faiz çox olmuşdur.
- Azərbaycanda kənd təsərrüfatı istehsalının strukturu keçmiş Sovet İttifaqı miqyasında planlaşdırılan "Xalq Təsərrüfatı Kompleksi"nin tələbatına uyğun formalaşdırıldığı üçün dövlət müstəqilliyini əldə etdikdən və açıq iqtisadi sistemə keçid prosesi başladıqdan sonra iki mühüm faktor bitkiçiliyin strukturunda köklü dəyişikliyi şərtləndirmişdir: i) ölkənin ərzaq məhsulları bazarında mövcud tələbatın ən azı ilkin kənd təsərrüfatı məhsullarının daxili istehsalı hesabına ödənilməsi üçün əlverişli imkanların yaranması və ii) bunun müqabilində ənənəvi aqrar-sənaye inteqrasiyası sistemi aradan qalxdığına görə bazar şərtlərinin sənaye təyinatlı kənd təsərrüfatı məhsullarının istehsalı baxımından əlverişsiz olması. Nəticədə 1990–2015-ci illərdə ərzaq təyinatlı dənli və dənli paxlalı bitkilərin əkin sahələri 63 faiz artaraq ümumi əkin strukturundakı payı 40 faizdən 60 faizə, oxşar olaraq kartof, tərəvəz və bostan bitkilərinin əkin sahələri 2,2 dəfə artaraq ümumi əkin strukturundakı payı 5 faizdən 10 faizə yüksəlmişdir. Bunun müqabilində isə həmin dövrdə sənaye

təyinatlı texniki bitkilərin əkin sahələri 86 faiz azalaraq ümumi əkin strukturundakı payı 20 faizdən 2,4 faizə enmişdir.

- Yem bitkilərinin əkin sahələri də 1990–2000-ci illər ərzində ardıcıl olaraq azalsa da, 2000-ci ildən sonra heyvandarlığın ekstensiv inkişafı hesabına da olsa yem istehsalına maraq artmış, 2000–2015-ci illər ərzində müvafiq əkin sahələri 3,1 dəfə genişləndirilmişdir.


Cədvəl 4. Çoxillik bitkilərin əkin sahələri *(min hektarla)*

İllər	Meyvə və giləmeyvə bağları		Üzüm bağları		Çay plantasiyaları		Cəmi çoxillik bitkilər	
	Əkmələrin sahəsi	bar verən yaşda	Əkmələrin sahəsi	bar verən yaşda	Əkmələrin sahəsi	bar verən yaşda	Əkmələrin sahəsi	bar verən yaşda
1985	138,2	105,9	267,8	218,8	13,4	7,3	419,4	332,0
1990	136,0	113,5	181,4	156,1	13,3	7,9	330,7	277,5
1995	117,8	103,9	97,7	94,7	11,4	9,1	226,9	207,7
2000	83,1	76,7	14,2	13,9	5,4	5,4	102,7	96,0
2005	93,0	84,3	9,6	7,2	2,9	2,9	105,5	94,4
2010	127,7	102,5	15,4	11,2	0,6	0,6	143,7	114,3
2011	130,5	106,0	15,9	12,0	0,8	0,5	147,2	118,5
2012	133,5	108,8	16,3	12,4	0,9	0,5	150,7	121,7
2013	134,2	113,9	16,1	13,1	0,9	0,5	151,2	127,5
2014	138,5	117,2	15,9	13,5	1,0	0,5	155,4	131,2
2015	144,1	123,4	16,1	13,5	1,0	0,5	161,2	131,2
2015/1990	106,0	108,7	8,9	8,6	7,5	6,3	47,0	47,3
2015/2005	154,9	146,4	167,7	187,5	34,5	17,2	147,3	139,0
2015/2010	112,8	120,4	104,5	120,5	166,7	83,3	108,1	114,8

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

- Çoxillik bitkilərin əkini sahəsində müşahidə olunan trendlər də birillik bitkilərlə eynidir. Belə ki, məhsulu birbaşa istehlak bazarına çıxarıla bilən meyvə-giləmeyvə bağlarının sahəsi 2005-ci ildən sonra sürətlə genişləndirilmiş, artıq müvafiq sahələr 2015-ci ildə 1990-cı illə müqayisədə 6,0 faiz artmışdır. Bunun müqabilində sənaye təyinatlı üzüm və çay plantasiyalarının kəskin şəkildə azalması nəticəsində üzüm bağlarının 2015-ci ildəki sahəsi 1990-cı ildəki sahəsinin 8,9 faizi, çay sahələri isə müvafiq olaraq 7,5 faizi səviyyəsinə qədər azalmışdır. Üzüm plantasiyalarının yenidən bərpası 2005-ci ildən sonra, çay plantasiyalarının bərpası isə 2011-ci ildən sonra başlamışdır.
- Heyvandarlıq sahəsinin əsas etibarilə ekstensiv üsulla genişləndirilməsi nəticəsində həm iribuynuzlu, həm də xırdabuynuzlu heyvanların baş sayı 1995-ci ildən sonra, quşların sayı isə 2000-ci ildən sonra stabil olaraq artmışdır (şəkil 3).

Şəkil 3. Mal-qaranın və quşların sayı (1000 baş)



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

- Nəticədə 1990-cı illə müqayisədə 2015-ci ildə iribuynuzlu və xırdabuynuzlu heyvanların sayı, müvafiq olaraq, 47,9 faiz və 60,1 faiz artmışdır. Lakin quşların sayı 2000–2015-ci illər ərzində 1,9 dəfə artsa da, 1990-cı illə müqayisədə 5,1 faiz azalmışdır.

Cədvəl 5. Kənd təsərrüfatı məhsulları istehsalının dinamikası *(min tonla)*

İllər	1985	1990	1995	2000	2005	2010	2011	2012	2013	2014	2015	2015/1990
Dənli bitkilər cəmi	1297,9	1413,6	921,4	1540,2	2126,7	2000,5	2458,4	2802,2	2955,3	2383,3	2999,4	2,2 d.
Kartof	219,7	185,2	155,5	469,0	1083,1	953,7	938,5	968,5	992,8	819,3	839,8	4,5 d.
Tərəvəz	872,2	856,2	424,1	780,8	1127,3	1189,5	1214,8	1216,2	1236,3	1187,7	1275,3	148,9
Bostan məhsulları	48,6	67,5	41,9	261,0	363,8	433,6	478,0	428,0	429,8	440,9	484,5	7,1 d.
Meyvə	346,4	367,4	324,4	477,0	625,7	729,5	765,8	810,0	853,8	850,8	888,4	2,4 d.
Üzüm	1789,6	1196,4	308,7	76,9	79,7	129,5	137,0	151,0	148,5	147,7	157,1	13,1
Şəkər çuğunduru	-	-	28,1	46,7	36,6	251,9	252,9	173,8	187,9	173,3	184,3	-
Pambıq	787,8	542,9	274,1	91,5	196,6	38,2	66,4	57,0	45,2	41,0	35,2	6,5
Tütün	60,0	52,9	11,7	17,3	7,1	3,2	3,6	4,3	3,5	2,9	3,5	6,6
Dən üçün günəbaxan	-	0,6	0,7	3,7	16,1	15,5	19,6	19,7	17,7	19,8	18,4	30,7 d.
Çay yarpağı	31,7	30,7	9,41	1,08	0,73	0,54	0,53	0,57	0,57	0,47	0,58	1,9
Ət (kəsilmiş çəkidə)	168,0	175,5	109,4	153,6	198,0	244,9	254,9	276,0	286,9	291,2	298,6	170,1
Süd	951,0	970,4	826,5	1031,1	1251,8	1535,8	1597,5	1695,6	1796,7	1855,8	1924,5	198,3
Yumurta milyon ədəd	947,7	985,3	455,8	542,6	874,6	1178,6	1011,0	1226,7	1401,5	1562,7	1552,9	157,6
Yun (fiziki çəkidə)	11,2	11,2	9,0	10,9	13,1	15,6	16,0	16,2	16,5	16,8	17,0	151,8
Barama ton	5500	4900	1100	66,6	78,0	6,0	4,0	3,0	1,4	0,974	0,236	0,0

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

- Əkin sahələrinin strukturunun dəyişməsinə və heyvanların baş sayının artması trendinə uyğun olaraq, birbaşa istehlak bazarına yönələn ərzaqtəyinatlı həm bitkiçilik, həm də heyvandarlıq məhsullarının istehsal həcmi keçmiş Sovet İttifaqı dövrü ilə müqayisədə xeyli artmışdır. Bunun müqabilində, sənayetəyinatlı məhsullar olan pambıq, tütün, üzüm, çay və baramanın istehsal həcmi enmişdir. Burada yalnız bir müsbət məqamı vurğulamaq olar ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə şəkər çuğunduru və dən üçün günəbaxan kimi texniki bitkilərin təsərrüfatəhəmiyyətli səviyyədə istehsalına başlanılmışdır.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı məhsullarının emalı sənayesi üzrə də müşahidə olunan ümumi trend ilkin kənd təsərrüfatı məhsulları istehsalı sahəsində olduğu kimidir (cədvəl 6).

Cədvəl 6. Emal sənayesi məhsullarının istehsal dinamikası *(min tonla)*

Məhsulun adı	1995	2000	2005	2010	2011	2012	2013	2014	2015	2015/1995
Kolbasa	1,9	0,6	1,9	2,1	2,4	4	6	6,6	5	2,6 d.
Kərə yağı	0,8	12,8	14,2	20,9	21,1	21,8	21,9	23,4	23,9	29,9 d.
Pendir və kəsmik	2,3	29,8	33,5	43,3	44,3	45,1	47,3	48	48,5	21,1 d.
Un	407,8	294,6	1374,1	1320,2	1328,1	1381,3	1438	1476	1507	3,7 d.
Yağlılıq dərəcəsi 6-29 faiz olan qaymaq	1,1	1,6	1,6	4,2	4,4	4,5	4,6	4,7	5,1	4,6 d.
Bitki yağları	11,7	10,8	64,1	88,7	80	99,8	100,2	106,9	106,7	9,1 d.
Meyvə-tərəvəz konservləri	32,8	12,3	23,2	137,1	149,6	147,3	153,3	159,1	147,9	4,5 d.
Qənnadı məmulatları	32,9	23	42,9	43,5	45,7	46,9	47,7	50,1	55,9	169,9
Təbii çay	1,3	1,5	7,5	10,9	11	10,7	7,5	8	6,2	4,8 d.
Fermentləşdirilmiş tütün	13,5	7,8	2,6	2	2,6	2	2,1	2,4	1,7	12,6
Papiros və siqaretlər, mlrd. ədəd	1,9	2,4	5	2,2	2	1,8	1	2	1,9	100,0
Makaron məmulatı	4,9	0,4	3,5	13	10,7	10,9	7,2	9,3	9,2	187,8
Qarışıq yem	111,6	0,4	0,1	4,8	4,7	18,9	6,5	6,5	12,8	11,5
Şəkər	0	535,6	3,6	335,5	334,7	355,7	423,1	410,6	335,6	100
Alkoqolsuz içkilər, min dkl	126	4663,7	13361	19866	20978	25362	26658	28269	24885	197,5 d.
Araq, min dkl	130	450,4	484,3	884,9	820,6	696,7	844,9	668	770,7	5,9 d.
Üzüm şərabı, min dkl	573	623,2	400,5	1162,8	752,1	1063	835,5	1003	1035	180,6
Şampan şərabı, min dkl	135	150,4	61,8	27,9	19,5	26,8	16,3	9,2	4,5	3,3
Konyak, min dkl	86	386,1	17,5	81,4	112,7	87,4	132,5	134,2	3,8	4,4
Pivə, min dkl	223	710,8	2490,1	3771	3904,5	4757	5215	5149	4197	18,8 d.
Pambıq iplik	19,9	0,7	17,7	7,6	9,9	16,6	15,5	11,9	9,1	45,7
Pambıq mahlıcı	98,5	73,9	56	11,4	14,2	22,9	12,1	13,5	6,6	6,7
İpək xammalı, ton	0	0	58,4	51,8	8,5	2,1	0	17,9	7,9	100

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Belə ki, ərzaqtəyinatlı emal sənayesi məhsullarının əksəriyyətinin istehsal həcmində əsaslı şəkildə artımın olması müqabilində, pambıq və ipək xammalı məhsullarının, habelə qarışıq yem və tütün məhsullarının istehsalı kəskin şəkildə azalmışdır. Qida sənayesi məhsullarının əksəriyyətinin istehsal həcmi üzrə ötən 20 il ərzində müşahidə edilən sürətli artım dinamikası bu məhsulların istehsalının ümumilikdə rəqabətqabiliyyətli olmasını xarakterizə etməklə, müvafiq istehsal həcminin daxili bazar və ya ixrac bazarlarının tələbatı əsasında artırılması imkanlarının olmasını göstərir.

Beləliklə, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən və ölkədə bazar iqtisadiyyatına keçid prosesi başladıqdan sonra kənd təsərrüfatı məhsulları istehsalı sahəsində müşahidə olunan başlıca trend bu sahənin istehsal strukturunun köklü şəkildə ərzaqtəyinatlı kənd təsərrüfatı məhsulları istehsalı əsasında formalaşdırılması ilə xarakterizə olunur. Eyni zamanda, ötən dövr ərzində ərzaqtəyinatlı emal sənayesi məhsullarının istehsalında da ciddi artım baş vermişdir. Bununla belə, daxili bazarda həm istehlak tələbatının, həm də emal sənayesinin xammala olan tələbatının ödənilməsi məqsədilə bəzi məhsulların idxalının həcminin həmin məhsullar üzrə yerli istehsala nisbəti kifayət qədər yüksəkdir.

Ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi və qida təhlükəsizliyi

Ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində 2015-ci ildə əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi yüksəlmişdir (cədvəl 7).

Cədvəl 7. Ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi *(2015-ci il)*

Məhsullar	Özünütəminetmə səviyyəsi, faizlə
Mal əti	92,0
Qoyun əti	99,0
Quş əti	98,6
Yumurta	99,0
Süd və süd məhsulları	80,0
Taxıl	60,0
Tərəvəz	103,0
Kartof	90,0
Bostan məhsulları	100,0
Meyvə və giləmeyvə	120,0
Üzüm	98,0
Şəkər və şəkərdən hazırlanan məhsullar	170,0
Bitki yağları və marqarin	77,0
Kərə yağı	60,0

Qeyd: Şəkər və yağların istehsalında ciddi idxal komponenti mövcuddur.


Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Son 5 il ərzində əhalinin müvafiq ərzaq məhsulları istehlakında müsbət trendlər müşahidə olunur. Belə ki, bu dövr ərzində hər nəfərə düşən kartof istehlakı 21,1 faiz, tərəvəz və bostan məhsulları istehlakı 17,2 faiz, ət və ət məhsulları istehlakı 4,7 faiz, yumurta istehlakı 12,3 faiz, meyvə-giləmeyvə məhsulları istehlakı 13,9 faiz, bitki yağları və marqarin istehlakı isə 12,2 faiz artmışdır. Bunun müqabilində hər nəfərə düşən çörək və çörək məhsulları istehlakı 6,3 faiz, süd və süd məhsulları istehlakı 13,0 faiz azalmış, qənd və qənnadı məmulatlarının istehlakı isə 5,6 faiz azalmışdır. Çörək və çörək məhsulları istehlakının azalması, əhalinin qida rasionunun digər məhsullar hesabına yaxşılaşması ilə bağlıdır. Süd və süd məhsulları istehlakının azalması isə kərə yağından istifadənin bitki yağları və marqarin hesabına azalmasına görədir.[2]

Qlobal bazara inteqrasiya şəraitində daxili bazarda həm istehlak tələbatının, həm də emal sənayesinin kənd təsərrüfatı xammalına olan tələbatının artımı hesabına müxtəlif kənd təsərrüfatı və ərzaq məhsullarının idxalı 2015-ci ildə 2005-ci ilə nəzərən əsaslı şəkildə artsa da, 2014–2015-ci illər ərzində bu göstərici üzrə azalma trendi müşahidə olunur (şəkil 4).

[2] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Şəkil 4. Kənd təsərrüfatı və ərzaq məhsullarının idxal dinamikası *(milyon ABŞ dolları ilə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2005–2015-ci illər ərzində natural ifadədə idxal olunan iribuynuzlu heyvan əti 17 faiz, süd və qaymaq 21 faiz, kartof 3,9 dəfə, təzə tərəvəz 66 faiz, təzə meyvə 2,7 dəfə, buğda 50 faiz, bitki yağları 70 faiz, ət və balıq konservləri 40 faiz, xam şəkər və şəkər 92 faiz, şəkərdən hazırlanan qənnadı məmulatları 34 faiz artmışdır, lakin tütün 2,2 dəfə, quş əti və əlavə ət məhsulları 3,6 dəfə azalmışdır.

Şəkil 5. Yerli istehsal hesabına özünütəminetmə səviyyəsinin yüksəldilməsinə xüsusilə ehtiyac olan məhsullar



Rəsmi statistik məlumatlar və aparılan bazar təhlilləri göstərir ki, hazırda kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin bir sıra məhsullar üzrə daha da yüksəldilməsi, həm cari, həm də perspektiv tələbat baxımından aktualdır. Yerli istehsal hesabına özünütəminetmə səviyyəsinin yüksəldilməsinə xüsusilə ehtiyac olan məhsullar şəkil 5-də verilmişdir.

Ərzaq təhlükəsizliyinin mühüm tərkib elementlərindən biri olan qida təhlükəsizliyinə nəzarət sisteminin də köklü şəkildə inkişaf etdirilməsi əsas çağırışlardan biridir. Hazırda Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsullarının

keyfiyyətinə və təhlükəsizliyinə nəzarət səkkiz dövlət orqanı tərəfindən həyata keçirilir. Bu orqanlar arasında düzgün koordinasiyanın qurulması və mövcud problemlərin aradan qaldırılması institusional islahatları zəruri edir. Həmçinin, bu məhsulların istehsalı, idxalı, ixracı və satışı ilə bağlı bütün mərhələlərdə aidiyyəti dövlət orqanları tərəfindən müvafiq nəzarət tədbirləri riskəsaslı yanaşmaya deyil, ənənəvi total yoxlamalara əsaslanır. Bu yanaşma sahibkarların xərclərini və inzibati yükünü artırır, lakin bunun müqabilində qida təhlükəsizliyinin gücləndirilməsi və ya müvafiq məhsulların ixrac bazarlarının tələblərinə uyğunlaşdırılması baxımından faydası az olur.


Ölkədə qida zəncirinin (istehsal, emal və çatdırılma mərhələlərinin) bütün iştirakçılarının qida təhlükəsizliyi ilə bağlı məsuliyyəti öz üzərlərinə götürmələrini təmin edən preventiv yanaşmaya əsaslanan sistem yaradılmamışdır.

Kənd təsərrüfatının institusional strukturu

Ölkədə kənd təsərrüfatı məhsulları sahəsində istehsal potensialının daha da artırılması, o cümlədən məhsuldarlıq göstəricilərinin yüksəldilməsi baxımından aktual olan məsələlərdən biri də təsərrüfatların əksəriyyətinin kiçik ölçüdə olması, həmçinin onların institutlaşma səviyyəsinin aşağı olmasıdır.

Hər hektar sahədə aparılan əkin sahələri üzrə yanacaq və motor yağlarına görə dövlət yardımı almaq üçün Kənd Təsərrüfatı Nazirliyinə müraciət edən 372 min istehsalçının malik olduqları torpaq sahələrinin orta ölçüsü 3,4 hektar olsa da, istehsalçıların mütləq əksəriyyətinin malik olduğu əkin sahələri orta göstəricidən aşağıdır (şəkil 6).


Şəkil 6. İstehsalçıların malik olduqları torpaq sahələrinə görə bölgüsü *(faizlə)*



Mənbə: Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

Oxşar vəziyyət heyvandarlıq təsərrüfatlarında da müşahidə olunur. Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına əsasən, iribuynuzlu heyvandarlıq təsərrüfatlarında mövcud olan heyvanların bir təsərrüfata düşən orta sayı 7,7 baş olmaqla, təsərrüfatların təqribən 82 faizində 10 başa qədər iribuynuzlu heyvan vardır (şəkil 7).

Şəkil 7. İribuynuzlu heyvandarlıq təsərrüfatlarının heyvanların sayına görə bölgüsü *(faizlə)*



Mənbə: Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

Kiçik torpaq sahibliyi və kiçik təsərrüfatlar məsələsi hazırda ölkədə kənd təsərrüfatı sahəsinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə mane olan problemlər sırasında xüsusi təsirə malikdir. Kiçik təsərrüfatların təşkilatlanma səviyyələrinin çox aşağı olması, onların, istər resurslara olan tələbatlarının ödənilməsində, istərsə də bazara çıxış məsələsində çətinliklər yaradır. Kiçik təsərrüfatların üstünlük təşkil etməsi ümumilikdə kənd təsərrüfatı məhsulları istehsalında müasir texnologiyalardan və təkmilləşdirilmiş istehsal vasitələrindən istifadə səviyyəsinin aşağı olmasını şərtləndirir. Kiçik kənd təsərrüfatı məhsulları istehsalçıları arasında təşkilatlanmanın aşağı səviyyədə olması onların aqrar siyasətin formalaşmasında zəif iştirak etmələrinə, eləcə də dövlətin kənd təsərrüfatı sahəsində həyata keçirdiyi stimullaşdırma tədbirlərinin səmərəliliyinin azalmasına səbəb olur.

Kənd təsərrüfatı məhsullarının emalı sahəsində fəaliyyət göstərən istehsalçıların əksəriyyəti kiçik müəssisələr kateqoriyasına daxil olsalar da, iri müəssisələrin bazar gücü daha böyükdür. Bu fakt ölkənin müvafiq sahələrdə istehsal və ixrac potensialının gücləndirilməsi baxımından əhəmiyyətli olsa da, bazarda rəqabətin artırılması, əksəriyyəti kiçik təsərrüfatlardan ibarət olan kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxışı və ərzaq təhlükəsizliyinin dayanıqlılığı baxımından müəyyən problemlər yaradır. Buna görə də, xüsusilə kənd təsərrüfatı məhsulları istehsalçıları və onların birlikləri tərəfindən kiçik və ortahəcmli emal müəssisələri şəbəkəsinin yaradılması ilə bağlı müvafiq stimullaşdırma tədbirlərinin həyata keçirilməsi aktualdır.

Kənd təsərrüfatı kooperasiyasının formalarından biri kimi çıxış edən "müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalı" sisteminin də tətbiqi arzuolunan səviyyədə deyil. Bununla bağlı, yalnız bir neçə şirkət tərəfindən şəkər çuğunduru, pambıq, tütün, barama və çay istehsalı sahəsində kiçik miqyasda tətbiq olunan təcrübə mövcuddur. Son dövrlər pambıqçılıq, tütünçülük və baramaçılıq sahələrinin inkişafı istiqamətində görülən tədbirlər hesabına "müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalı" sisteminin tətbiqi tədricən genişlənməyə başlamışdır. Eləcə də kənd təsərrüfatı istehsalçılarının könüllü şəkildə müxtəlif sahəvi və regional assosiasiyalarda birləşməsi təcrübəsi də əslində mövcud deyildir. Bu istiqamətdə göstərilən müxtəlif təşəbbüslər hələlik lazımi nəticələr verməmişdir.

Qeyd edilənlərə əsasən, dünya təcrübəsində tətbiq edilən mütərəqqi vasitələrlə təsərrüfatların konsolidasiyası tədbirlərinin həyata keçirilməsi və kənd təsərrüfatı sahəsində kooperasiyanın müxtəlif formalarda inkişafı ölkəmiz üçün çox aktualdır.

Ümumilikdə ölkədə aqrar-sənaye inteqrasiyasının aşağı səviyyədə olması, təbii olaraq, regionlar üzrə ərazi klasterlərinin də zəif inkişafını şərtləndirmişdir. İstehsalın xarakterinə uyğun olaraq üzüm, pambıq, tütün və təbii çayın ilkin emalı müəssisələri həmin məhsulların istehsal edildiyi regionlarda yerləşsə də, bu cür ərazi klasterlərinin yaranmasına səbəb olmamışdır. Belə ki, bu müəssisələrdə yalnız ilkin emal prosesləri həyata keçirilir. İlkin emaldan keçən məhsul isə ya ixrac olunur, yaxud da istehlak bazarlarında yerləşən müəssisələrdə son məhsula çevrilir.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çərçivəsində kənd təsərrüfatı məhsullarının emalı sənayesinin şəbəkəsi əsaslı şəkildə genişlənmiş, müxtəlif sahələrdə müasir texnologiyalar əsasında fəaliyyət göstərən emal müəssisələri yaradılmışdır. İstehsalında kəskin geriləmənin baş verdiyi toxuculuq təyinatlı emal müəssisələri şəbəkəsinin köklü şəkildə inkişaf etdirilməsi üçün xüsusilə son dövrlərdə genişmiqyaslı tədbirlər həyata keçirilir.

Həmçinin, XXI əsrin əvvəllərindən başlayaraq aqroərzaq məhsulları istehsalı sistemində tətbiq edilən və ərazi klasteri yanaşmasına əsaslanan yeni biznes texnologiyalarından biri kimi çıxış edən aqroparkların ölkəmizdə yaradılmasına başlanılmışdır.

Aqrar istehsalçıların maliyyə resursları ilə təminatı və sığorta sistemi

Son illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə ayrılan kreditlərin həcmi davamlı şəkildə artmışdır. Belə ki, Mərkəzi Bankın məlumatlarına əsasən, bu sahəyə kredit qoyuluşu 2005-ci ildə 97,6 milyon manat olduğu halda, 2015-ci ildə bu göstərici 508,1 milyon manat təşkil etmişdir. Lakin həmin dövr ərzində bu sahənin iqtisadiyyata qoyulmuş kreditlərdəki payı 6,8 faizdən 2,3 faizə enmişdir.

Kənd təsərrüfatı istehsalının təbii iqlim şəraitindən asılılığının yüksək olması, kapitalın dövretmə sürətinin aşağı olması və s. amillər bu sahədə qənaət normasının aşağı olmasına səbəb olur. Bu da son nəticədə kənd təsərrüfatı məhsulları istehsalçılarının öz vəsaitləri hesabına investisiya qoymaq, eləcə də maliyyə bazarlarından müvafiq vəsaitlər təmin etmək imkanlarını məhdudlaşdırır. Buna görə də bu sahənin maliyyə təminatının yaxşılaşdırılmasında dövlətin rolu artır. 2005–2015-ci illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə ayrılmış güzəştli kreditlərin həcmi 18,1 dəfə artmışdır. 2006-cı ildən etibarən Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən də bu sahəyə güzəştli kreditlərin ayrılmasına başlanılmışdır. Bunlar onu göstərir ki, ötən illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə verilmiş kreditlərin ümumi həcminin artımı, əsasən, büdcə vəsaiti ilə verilən güzəştli kreditlər hesabına təmin edilmişdir. Bu fakt həm də onu göstərir ki, hazırda ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində fəaliyyət göstərən subyektlərin kommersiya şərtləri ilə maliyyə vəsaitləri cəlb etmək imkanları məhduddur. Bunlar da kənd təsərrüfatı istehsalının yuxarıda qeyd edilən özünəməxsus xüsusiyyətləri ilə yanaşı, əksəriyyəti kiçik həcmdə olan təsərrüfatların iqtisadi potensialının zəif olması, kənd yerlərində torpaq və əmlak bazarlarının kifayət qədər inkişaf etməməsinə görə kreditin alınması ilə bağlı girov təminatında mövcud problemlər, kənd təsərrüfatı sığortasının zəif inkişafı, o cümlədən də kənd təsərrüfatı kreditləri üzrə zəmanət mexanizminin olmaması və digər səbəblərlə bağlıdır.

Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının sığortalanmasına dövlət dəstəyi həyata keçirilir. Lakin müvafiq dövlət dəstəyi ilə həyata keçirilən sığorta hadisəsi kimi yalnız təbii fəlakətlərin məhdud siyahısı – yanğın, dolu, sel, daşqın və şaxta vurması müəyyən edilmişdir. Bu halda bir sıra sığorta hadisələrindən, xüsusilə dəmyə torpaqlarında quraqlıq kimi təbii fəlakətlərdən, xüsusi təhlükəli ziyanvericilərin

yayılmasından və hücumundan, yoluxucu xəstəliklərdən sığortalanma stimullaşdırılmır. Həmçinin, dövlət dəstəyi ilə sığortalanan obyektlərə isə yalnız buğda, arpa, qarğıdalı, dən üçün günəbaxan, kartof, şəkər çuğunduru, tərəvəz (göyərti istisna olmaqla), meyvə, sitrus və üzüm bağlarının məhsulları aiddir. Kənd təsərrüfatı heyvanları, ev quşları, dovşanlar, xəzdərili vəhşi heyvanlar, arı ailələri, habelə kənd təsərrüfatı təyinatlı binalar, tikililər, qurğular, avadanlıqlar, maşınlar, nəqliyyat vasitələri və digərləri ilə bağlı əmlak mənafeləri kimi sığorta obyektlərinin sığortalanmasının dövlət tərəfindən stimullaşdırılmasına zərurət vardır.

Təbii fəlakətlər, heyvan və bitki xəstəlikləri, iqlim məlumatları, habelə kənd təsərrüfatı istehsalında məhsuldarlıq göstəriciləri üzrə son 30–40 illik informasiya bazasının olmaması kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişaf etməsinə maneə törədən əsas elementlərdən biridir. Eyni zamanda, kənd təsərrüfatı sahəsində dünya təcrübəsində geniş tətbiq olunan müvafiq sığorta fondunun olmaması bu sahənin inkişafına öz mənfi təsirini göstərir.

İstehsal vasitələri və xidmətlərlə təminat

Torpaq ehtiyatları

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycanın 8,64 milyon hektar təşkil edən ümumi ərazisinin 55 faizi və ya 4,74 milyon hektarı kənd təsərrüfatı təyinatlı torpaqlardır. Kənd təsərrüfatı təyinatlı ərazilərin təqribən 1,8 milyon hektarı əkin torpaqlarıdır (bu sahədən 181,6 min hektarı işğal altındadır). Azərbaycan torpaq ehtiyatları məhdud olan ölkələr sırasına aiddir. Belə ki, ölkədə hər nəfərə düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi 0,46 hektar, o cümlədən əkin yeri 0,19 hektar təşkil edir. Otlaqların və biçənəklərin hər nəfərə düşən sahəsi isə daha azdır.

Kənd təsərrüfatı torpaqlarının, dağətəyi əraziləri və ölkənin cənub-şərq hissəsini çıxmaq şərti ilə, böyük hissəsi üçün suvarma suyu kənd təsərrüfatı istehsalında çox mühüm istehsal vasitəsidir. Bunun səbəbi iqlimin quraq və yarımquraq xüsusiyyətli olmasıdır və ölkədə ortaillik yağıntı 200–300 mm ətrafındadır. Yağıntının belə aşağı səviyyəsi kənd təsərrüfatı istehsalını suvarmadan asılı edir.

Hazırda ölkədə suvarılan, başqa sözlə suvarma şəbəkəsinə malik torpaq sahələri 1434,5 min hektardır. Həmçinin, suvarılan ərazilərin 49,3 min hektarı otlaq, çəmənlik və meşə əraziləridir. Beləliklə, suvarılan torpaq sahələrinin 1288,3 min hektarı əkin yerlərini əhatə edir ki, bu da əkin yerlərinin təqribən 71 faizinin suvarılan sahələr olduğunu göstərir. Azərbaycanda torpaq-iqlim şəraiti suvarılan torpaq sahəsini 3,0–3,5 milyon hektara qədər artırmağa imkan versə də, su ehtiyatlarının çatışmazlığı səbəbindən bunu həyata keçirmək mümkün olmur.

Su ehtiyatları və irriqasiya-meliorasiya sistemləri

Arid zonada yerləşən Azərbaycanın su ehtiyatları məhduddur. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin məlumatına görə, yerüstü su ehtiyatları 32,2 milyard m^3 təşkil edir və quraqlıq illərdə bu göstərici 22,6 milyard m^3-ə qədər azalır. Həmçinin, yerüstü su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından kənarda formalaşır. Yeraltı suların miqdarı isə 5,2 milyard m^3-dir. Mövcud su ehtiyatlarının təqribən 21 milyard m^3-i anbarlarda saxlanılır və bunun yalnız 12 milyard m^3-dən istifadə olunur. İstifadə olunan suyun təqribən 60–70 faizi kənd təsərrüfatının payına düşür. Normal yağıntı olan illərdə ölkə üzrə hesablanmış su çatışmazlığı 3,7 milyard m^3, kifayət qədər yağıntı olmayan illərdə isə 4,7–5 milyard m^3 olur.

Ölkənin suya ehtiyacını ödəmək üçün 135 su anbarı, o cümlədən su tutumu 100 milyon m^3-dən yuxarı olan 8 su anbarı, su tutumu 10–100 milyon m^3 olan 12 su anbarı, su tutumu 1–10 milyon m^3 olan 42 su anbarı, su tutumu 1 milyon m^3-dən aşağı olan 73 su anbarı istismar olunur. Ölkədə suvarma kanallarının ümumi uzunluğu 51755 km-dir.

Meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi məqsədilə dövlət büdcəsi vəsaitləri hesabına böyükmiqyaslı layihələr həyata keçirilmişdir. Belə ki, 2004–2015-ci illərdə əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 1492 ədəd subartezian quyusu qazılmışdır. "Samur–Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində ümumi sututumu 268 milyon m^3 olan Taxtakörpü su anbarı və ümumi uzunluğu 140 km olan magistral kanallar tikilərək istifadəyə verilmişdir. "Şəmkirçay çayı üzərində dəryaçanın tikintisi" layihəsi çərçivəsində ümumi sututumu 165 milyon m^3 olan Şəmkirçay su anbarı və ümumi uzunluğu 60,6 km olan magistral kanallar tikilib istifadəyə verilmişdir.

Meliorasiya-irriqasiya sisteminin inkişaf etdirilməsi tədbirləri hesabına 266 min hektar sahədə torpaqların su təminatı yaxşılaşdırılmış, 43 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilmişdir. Həmçinin, 218 min hektar sahədə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Hazırda istismar olunan suvarma kanallarının 81,5 faizi, kollektor-drenaj şəbəkələrinin 77 faizi və hidrotexniki qurğuların 72 faizi əvvəllər kolxoz, sovxoz və digər kənd təsərrüfatı müəssisələrinin balansında olmuş təsərrüfatdaxili obyektlərdir və onların texniki və fiziki vəziyyəti irihəcmli tədbirlərin görülməsini zəruri edir. Mövcud normativlərə görə suvarma və kollektor-drenaj şəbəkələri ən azı 3 ildən bir (ildə 30 faizdən artıq) lildən təmizlənməli, sistem üzərindəki qurğuların isə 25–30 faizi hər il əsaslı və cari təmir olunmalıdır. Lakin hazırda ildə suvarma kanallarının yalnız 20–21 faizi, kollektor-drenaj şəbəkələrinin 9–10 faizi, hidrotexniki qurğuların isə 5–6 faizi təmizlənərək təmir olunur.

Suvarma və kollektor-drenaj şəbəkələrinin 90 faizindən çoxu torpaqməcralı və açıqtipli olduğundan yüksək su itkisinə, minerallaşmış qrunt sularının əkin qatına qalxmasına və ətraf torpaqların şoranlaşmasına yol verilir. Bundan başqa, əkinçilikdə əsas suvarma üsulu kimi ənənəvi "səthi suvarma" və ya "selləmə suvarması" tətbiq edilir. "Damla suvarma" və "yağmurlama suvarma" kimi suya qənaət edən müasir suvarma üsullarının tətbiqi məhdud miqyasdadır.

Texnika ilə təminat

Son dövrlərdə əhəmiyyətli dövlət dəstəyi və həyata keçirilən sistemli tədbirlər hesabına kənd təsərrüfatı istehsalçılarının müvafiq texnika və avadanlıqlarla təminatının yaxşılaşdırılması istiqamətində köklü irəliləyişə nail olunmuşdur.

2005–2015-ci illər ərzində "Aqrolizinq" ASC tərəfindən 1869 ədəd taxılyığan kombayn, 7265 ədəd traktor və 14507 ədəd digər kənd təsərrüfatı texnikası alınmışdır. Qeyd olunan dövr ərzində ümumilikdə 18090 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 723 ədəd taxılyığan kombayn, 6305 ədəd traktor və 11062 ədəd digər kənd təsərrüfatı texnikası 10644 hüquqi və fiziki şəxsə lizinqə verilmiş və ya lizinq yolu ilə satılmışdır.

Bununla belə, texnika parkındakı yeni alınan maşın və avadanlıqların sayı artsa da, istismar müddəti başa çatan texnikaların yeniləri ilə əvəz edilməsinə ehtiyac vardır. Məsələn, 2015-ci ildə taxıl biçininə cəlb edilmiş 2660 ədəd taxılyığan kombaynın təxminən yarısı fiziki və mənəvi cəhətdən köhnəlmiş kombaynlardır. Eyni zamanda, istehsalın intensivləşməsi və əkin sahələrinin perspektiv struktur dəyişikliyi siyasətinin tərkib hissəsi olaraq da yeni texnikalara ehtiyac vardır. Məsələn, pambıq, kartof, tərəvəz, şəkər çuğunduru və digər sahələr üzrə istehsalın mexanikləşdirilməsi səviyyəsinin artırılması ehtiyaclarına uyğun olaraq, bu sahələr üzrə də texnika parkının

genişləndirilməsinə ehtiyac vardır. Ümumilikdə isə aqrotexniki xidmətlərin həyata keçirilməsi sahəsində rəqabətin və keyfiyyətin yüksəldilməsi məqsədilə özəl aqroservis xidməti göstərən biznes subyektləri şəbəkəsinin genişləndirilməsi də aktualdır.

Mineral gübrələrlə təminat

Son illər kənd təsərrüfatı məhsulları istehsalçılarının mineral gübrələrlə təminatının yaxşılaşdırılması məqsədilə xərclərin bir hissəsinin dövlət büdcəsi hesabına ödənilməsi müsbət nəticə vermişdir.

Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına əsasən 2005–2015-ci illər ərzində ölkəyə idxal edilən mineral gübrələrin həcmi təqribən 2 dəfə artmışdır. Eyni zamanda, 2008–2015-ci illərdə "Aqrolizinq" ASC tərəfindən fermerlərə güzəştli şərtlərlə satılan gübrənin ümumi həcmi 68,4 min tondan 124,6 min tona çatmışdır. Belə şərtlərlə alınmış gübrələrin verildiyi əkin sahəsi isə müvafiq olaraq, 296,3 min hektardan 727,2 min hektara, güzəştli şərtlərlə mineral gübrədən istifadə edən kənd təsərrüfatı məhsulları istehsalçılarının sayı isə müvafiq olaraq 40,2 min nəfərdən 89,9 min nəfərə qədər artmışdır.

Bununla belə, hazırda əkinlərə verilən mineral gübrələrin faktiki həcmi mövcud tələbatla müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır. Məsələn, 2015-ci ildə əkin sahələrinin mineral gübrəyə olan tələbatının həcmi 948,9 min ton olduğu halda, ölkəyə cəmi 152,8 min ton mineral gübrə idxal edilmişdir. Göründüyü kimi, 2015-ci ildə ölkəyə mineral gübrə idxalı mövcud tələbatın yalnız 16,1 faizini təşkil etmişdir. Ümumilikdə isə, FAO-nun statistikasına əsasən, Azərbaycan hər hektar əkinə verilən mineral gübrələrin həcmi göstəricisinin çox aşağı olduğu ölkələr qrupuna daxildir. Bu isə ölkədə bitkiçilik məhsulları istehsalında məhsuldarlığın aşağı səviyyəsini şərtləndirən amillərdən biridir.

Toxumla təminat

Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına əsasən, 2015-ci ildə 54 fiziki və hüquqi şəxs toxum istehsalçılarının reyestrinə daxil edilmiş və onlara müvafiq şəhadətnamə verilmişdir ki, onun da 31-i təkrar, 23-ü isə ilk dəfə qeydiyyata götürülənlərdir. Ölkə üzrə cəmi 354 özəl təsərrüfat toxum və ting istehsalı ilə məşğul olur. Bununla belə, ölkədə toxuma olan tələbatın böyük hissəsi idxal hesabına ödənilir. Məsələn, baxmayaraq ki, mövcud toxumçuluq təsərrüfatlarında toxum istehsalının əsas hissəsini taxıl toxumu təşkil edir, hazırda ölkə üzrə taxıl toxumuna olan tələbatın cəmi 40–50 faizi yerli istehsalçılar tərəfindən ödənilir. Bunun da 30–35 faizi sertifikatlı toxum, 10–15 faizi isə heç bir sertifikatı olmayan adi toxumlardır. Ümumiyyətlə, yerli toxum təsərrüfatlarının maddi-texniki bazalarının zəifliyi və bazar prinsiplərinə uyğun peşəkar idarəetmə təcrübəsinin olmaması, toxum satışı şəbəkəsinin zəif inkişafı, toxumun keyfiyyətinə nəzarət və sertifikatlaşma işinin kifayət qədər mükəmməl olmaması, rayonlaşdırılmamış və mənşəyi bəlli olmayan sortların nizamsız şəkildə idxalı və istifadəsi, Toxum İstehsalçıları Assosiasiyasının fəaliyyətinin arzuolunan səviyyədə olmaması, seleksiyaçıların müəllif hüquqlarının kifayət qədər qorunmaması və digər problemlər toxumçuluq sahəsinin inkişafına ciddi maneələrdir.

Damazlıq işi

Mal-qara sürüsünün tərkibində yüksək məhsuldarlıqlı cins heyvanların xüsusi çəkisinin artırılması mühüm vəzifələrdən biridir. Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına görə, 2012-ci ildə aparılan seçmə statistik müayinəyə əsasən inəklərin 46,5 faizi cins və ya təkmilləşdirilmiş cins, 53,5 faizi yerli inəklərdir. Qoyunların isə 52,7 faizi cins və ya təkmilləşdirilmiş cins, 47,3 faizi isə yerli qoyunlardır. Məlum olduğu

kimi, yerli cinslər həm süd istehsalı, həm də ət istehsalı baxımından aşağı məhsuldarlığa malikdir. Buna görə də, heyvandarlıq təsərrüfatlarında seleksiya-damazlıq işlərinin elmi əsaslarla aparılması və heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədilə dövlət büdcəsi vəsaiti hesabına xarici ölkələrdən yüksək məhsuldarlığa malik damazlıq heyvanların idxalı həyata keçirilir və heyvanların süni mayalandırılması işi getdikcə genişləndirilir. 2009–2015-ci illər ərzində "Aqrolizinq" ASC vasitəsilə ölkəyə 18252 baş iribuynuzlu və 5947 baş xırdabuynuzlu damazlıq heyvan gətirilmiş və kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə lizinqə verilmişdir. Ölkənin müxtəlif rayonlarında 356 nəfər süni mayalama mütəxəssisi tərəfindən heyvanların süni mayalandırılması tədbirləri həyata keçirilir, hər il təqribən 100 min baş qaramal süni mayalandırılır. Bu sahədə mütəxəssis hazırlığı və maddi-texniki bazanın gücləndirilməsi tədbirlərinin ardıcıl şəkildə davam etdirilməsi məqsədilə Respublika Süni Mayalanma Mərkəzi Fransadan və Almaniyadan cəlb olunmuş ekspertlərin iştirakı ilə köklü şəkildə modernləşdirilir. Yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və istehsalçıların da bu sahəyə marağının gücləndirilməsi məqsədilə süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə yüz manat həcmində subsidiya verilməsi müəyyən edilmişdir.

Görülən tədbirlərin davam etdirilməsi ilə yanaşı, heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasının digər bir vasitəsi kimi embrion köçürməsi metodundan da istifadə olunması üçün müvafiq infrastrukturun inkişaf etdirilməsinə ehtiyac vardır. Eyni zamanda, sənaye üsulu ilə quşçuluq məhsullarının istehsalı sahəsinin rəqabətqabiliyyətliliyinin artırılması baxımından bu sahədə damazlıq işinin gücləndirilməsi hələ də aktualdır.

Bütün bunlarla bərabər, ənənəvi damazlıq metodlarının tətbiqi ilə alınmış heyvan genetik resurslarının toplanması, öyrənilməsi, mühafizəsi və onlar üçün törəmə planlarının hazırlanması da damazlıq işində mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir.

Heyvandarlığın yem təminatı

Heyvandarlığın yem təminatı ümumilikdə dörd mənbə hesabına həyata keçirilir.

Birincisi, heyvanlar əsasən kəndətrafı örüş və otlaq sahələri hesabına yemləndirilir, yəni təbii yemləməyə üstünlük verilir. Otlaqların və örüşlərin heyvan sürüləri ilə normadan artıq yüklənməsi nəticəsində ot örtüyü xeyli seyrəkləşmiş, qış otlaqlarının quru ot məhsuldarlığı 3–4 sentnerə qədər azalmışdır və otlaq sahələrinin yüksək səviyyədə eroziyaya uğraması prosesləri müşahidə olunur.

İkincisi, çoxillik və birillik yem bitkilərinin əkin sahələrindən və biçənəklərdən biçilən, habelə taxıl məhsullarının yığımından alınan qaba yemlər təbii yemləmənin mümkün olmadığı dövrdə heyvanların yem tələbatını ödəyir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2005–2015-ci illərdə çoxillik və birillik yem bitkilərinin əkin sahələrindən və biçənəklərdən yığılmış ot istehsalının həcmi 36 faiz artaraq 4,7 milyon tondan yuxarı həcmdə olmuşdur. Bu dövr ərzində müvafiq yem bitkilərinin əkin sahəsinin 2 dəfə artması müqabilində məhsul istehsalının 36 faizlik artımı bu sahədə məhsuldarlıq göstəricilərinin aşağı səviyyədə olmasını xarakterizə edir.

Üçüncüsü, silos, senaj və yem çuğundurundan ibarət sulu-şirəli yemlər olduqca az həcmdə istehsal edilir. Belə ki, 2015-ci ildə ölkədə 29,3 min ton silos və yaşıl yem üçün qarğıdalı istehsal olunub ki, bu da 2005-ci illə müqayisədə 2 dəfədən çoxdur. Ölkədə hər il orta hesabla 2–3 min ton yem üçün kökümeyvəlilər istehsal olunur.

Dördüncüsü, heyvandarlıq təsərrüfatlarının qüvvəli yemə olan tələbatı müxtəlif mənbələr hesabına təmin edilir. İlk növbədə, təsərrüfatların özləri tərəfindən istehsal edilən müxtəlif taxıl məhsulları mexaniki qarışıq formada heyvanlara qüvvəli yem kimi

verilir. Bu baxımdan ölkədə istehsal edilən taxıl məhsulları heyvandarlığın yem bazasında mühüm əhəmiyyətə malikdir. Həmçinin, müxtəlif kənd təsərrüfatı məhsullarının emalı nəticəsində alınan əlavə məhsullar kimi kəpək, çiyid və s. də qüvvəli yem kimi istifadə olunur. Son dövrlər ölkədə sənaye üsulu ilə xüsusi reseptlər əsasında yem məhsulu istehsalında ixtisaslaşmış yeni sənaye müəssisələri də yaranmağa başlamışdır. Lakin bu məhsullara olan tələbatın böyük hissəsi idxal hesabına ödənilir. Belə ki, 2015-ci ildə 12,8 min ton qüvvəli yem istehsal olunsa da, 100 min tondan çox müvafiq məhsul idxal olunmuşdur. Bundan başqa, quşçuluq təsərrüfatlarında öz tələbatları üçün ildə təqribən 300 min ton qüvvəli yem istehsal olunur ki, bunun da əsas xammal təminatı idxal hesabına həyata keçirilir.

Baytarlıq və fitosanitar xidmətlərlə təminat

Kənd təsərrüfatı məhsulları istehsalçılarının risklərdən qorunması, heyvan və bitki xəstəliklərinin qarşısının alınması və aradan qaldırılması məqsədilə dövlət dəstəyi hesabına həyata keçirilən baytarlıq və fitosanitar xidmətləri sisteminin inkişafı istiqamətində genişəhatəli tədbirlər həyata keçirilir.

Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına məxsus mal-qaranın qarayara, dabaq, bruselyoz, quduzluq və digər yoluxucu xəstəliklərdən qorunması məqsədilə dövlət büdcəsinin vəsaiti hesabına vaksinləşdirmə tədbirləri həyata keçirilir. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin tabeliyində olan rayon baytarlıq idarələri və sahə baytarlıq məntəqələrində çalışan mütəxəssislər tərəfindən hər il orta hesabla 50 milyon baş kənd təsərrüfatı heyvanlarında və quşlarında xəstəliklərə qarşı dövlət vəsaiti hesabına profilaktiki və məcburi peyvəndləmələr aparılır.

Hazırda ölkənin şəhər və rayonlarında 60 nəfər özəl baytarlıq fəaliyyəti ilə, 440 nəfər baytarlıq mütəxəssisi isə baytarlıq preparatlarının alqı-satqısı ilə məşğul olur.

Bununla belə, ölkədə mövcud olan 3,8 milyon baş şərti mal-qaraya effektiv baytarlıq xidməti göstərmək üçün 4400 baytar həkim tələb olunduğu halda, Dövlət Baytarlıq Nəzarəti Xidmətinin bütün strukturlarında 2600-ə yaxın baytar mütəxəssisi çalışır ki, bu da tələbatın təxminən 60 faizini ödəyir. Həmçinin, baytarlıq təmayüllü elmi tədqiqat və diaqnostika mərkəzlərində baytarlıq mikrobiologiyası və virusologiyası üzrə elmi kadrlarla, bakterioloq və virusoloqlarla təminatın daha da gücləndirilməsinə ehtiyac vardır.

Hazırda baytarlıq sahəsində dövlət siyasətinin iki istiqamətdə təkmilləşdirilməsi tədbirləri davam etdirilir:

i) baytarlıq sahəsində dövlətin birbaşa vəzifəsi kimi, qida təhlükəsizliyinin təmin edilməsi və risklərin idarə edilməsi çərçivəsində, epizootik və zoonoz xəstəliklərin kökünün kəsilməsi və bu sahədə nəzarətin effektiv üsullarla gücləndirilməsi məsələlərinə fokuslanma;
ii) təsərrüfatlara müvafiq baytarlıq xidmətlərinin göstərilməsi işinin özəl bölməyə ötürülməsi, bu məqsədlə də özəl baytarlıq şəbəkəsinin genişləndirilməsi.

Kənd təsərrüfatında bitki zərərvericilərinə qarşı mübarizə tədbirləri (Mərakeş çəyirtkəsi, Amerika ağ kəpənəyi, Kolorada böcəyi, Kaliforniya yastıcası və s.), əsasən, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

Karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, oxşar olaraq heyvanların karantin xəstəliklərinin ləğvi, profilaktikası və qarşısının alınması ilə əlaqədar zərər çəkmiş hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın ödənilməsi ilə bağlı mövcud qanunvericilikdə nəzərdə tutulan müddəanın konkret icra və monitorinq mexanizminin yaradılmasına ehtiyac vardır.

Ümumilikdə isə ölkədə heyvan və bitki xəstəlikləri ilə bağlı risklərin idarə edilməsi işinin təkmilləşdirilməsi üçün Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OIE) “Quruda yaşayan heyvanların sanitar-baytarlıq Məcəlləsi”nə və Beynəlxalq Bitki

Mühafizəsi Konvensiyasının (IPPC) “Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartları”na uyğun olaraq heyvanların və bitkilərin sağlamlığının izlənilməsi və nəzarət üzrə effektiv sistemin yaradılması üçün kompleks fəaliyyət planının hazırlanmasına və tətbiqinə ehtiyac vardır.

Elm, təhsil, təlim və informasiya məsləhət xidmətləri

Ölkədə aqrar sahənin problemləri ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyasının 12 elmi tədqiqat institutu fəaliyyət göstərir. Həmçinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan ümumilikdə 4 elmi tədqiqat institutu qismən aqrar sahəyə aid olan problemlər üzrə fəaliyyət göstərir. Bununla belə, həmin tədqiqat institutlarının fəaliyyətinin müasir dövrün tələblərinə uygunlaşdırılması, bütövlükdə isə aqrar sahəni yeni texnologiyalarla təmin edən elmi tədqiqat sistemində dəyişikliklərin həyata keçirilməsi günün vacib tələbinə çevrilmişdir. Bu institutların idarəetmə üsulları və proqram prioritetləri bazar iqtisadiyyatının tələbləri ilə kifayət qədər uzlaşmır və müvafiq tədqiqat qurumlarının aparıcı mütəxəssislərinin əksəriyyətinin müasir aqrar texnologiyalar üzrə bilikləri arzuedilən səviyyədə deyildir. Həmçinin, bazar iqtisadiyyatının tələblərinə və beynəlxalq standartlara cavab verən elmi nəticələr əldə etmək üçün institutların müasir laboratoriya, cihaz və avadanlıqlar, fəaliyyət sahəsinə uyğun yüksəkeffektli kənd təsərrüfatı texnikası və digər müasir maddi-texniki vasitələrlə təmin olunmasına ehtiyac vardır.

2013-cü ildə aparılan əhalinin seçmə müayinəsi nəticəsində əldə edilən məlumatlara görə, kənd təsərrüfatı sektorunda çalışanların 2,2 faizi ali təhsilə, 0,4 faizi natamam ali təhsilə, 4,6 faizi orta ixtisas təhsilinə və 3,4 faizi texniki peşə təhsilinə malikdirlər. Bu da o deməkdir ki, hazırda aqrar sahədə çalışanların demək olar ki, 90 faizi hər hansı bir ixtisas və ya peşə üzrə təhsil almayan orta və ya ibtidai təhsilli insanlardır.

Təhsil Nazirliyinin məlumatlarına əsasən, hazırda Azərbaycan Respublikasının ali məktəblərində 30, orta ixtisas təhsili müəssisələrində 6, texniki peşə təhsili müəssisələrində 10 ixtisas üzrə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması və iqtisadiyyatı sahəsində mütəxəssis hazırlanır. Aqrar təhsil sisteminin tam modernləşdirilməsi məsələlərinə son illər ərzində xüsusi diqqət ayrılmışdır. Kənd təsərrüfatı sahəsində ölkənin kadr hazırlığı mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetinin bütün laboratoriyaları tamamilə yenilənmiş, müasir avadanlıqlarla təchiz edilmiş və yeni təcrübə bazaları yaradılmışdır. Bununla bərabər, universitetin təlim planları və proqramları Avropa və Türkiyə universitetləri ilə əməkdaşlıq çərçivəsində təkmilləşdirilir. Eyni zamanda, kənd təsərrüfatının müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadr hazırlığının daha da genişləndirilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi və ADA Universiteti arasında 2016-cı il 24 oktyabr tarixində Kənd təsərrüfatı sahəsində biznes idarəçiliyi üzrə beynəlxalq magistr proqramının həyata keçirilməsinə dair Anlaşma Memorandumu imzalanmış və bu çərçivədə 30 tələbə ADA Universitetində müvafiq ixtisas üzrə təhsilə başlamışdır.

Kənd təsərrüfatı istehsalçılarına müxtəlif istiqamətlərdə zəruri informasiya-məsləhət xidmətlərinin göstərilməsi işi məqbul səviyyədə deyildir və ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarını bazar informasiyası ilə təmin edən xidmətlər sahəsi inkişaf etməmişdir. Bu istiqamətdə, əsasən, donor təşkilatların dəstəyi ilə yerli QHT-lər tərəfindən həyata keçirilən layihələr çərçivəsində məhdud miqyasda müəyyən tədbirlər reallaşdırılmışdır ki, bunlar da sistemli və davamlı xarakter daşımır. Buna görə də aqraryönlü elmi tədqiqat institutlarının gücləndirilməsi və bu qurumların informasiya və məsləhət xidmətləri şəbəkəsinə çevrilməsi istiqamətində institusional islahatlar aparılmışdır. Belə ki, Azərbaycan Aqrar Elm Mərkəzi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi kimi yenidən təşkil olunmuş, həmçinin Kənd Təsərrüfatı

Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətində müvafiq struktur bölmə yaradılmışdır. Fermerlərin informasiya-məsləhət xidmətləri ilə təmin edilməsi məqsədilə Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən 2015-ci ildə Quba rayonunda Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin nəzdində regional "Fermer evi" pilot layihəsi həyata keçirilmişdir. Bu layihə çərçivəsində sözügedən Mərkəzdə müvafiq infrastruktur qurulmuş, fermerlərə yüksəksəviyyəli xidmət göstərilməsi üçün müasir informasiya-kommunikasiya texnologiyaları tətbiq edilmişdir.

Bununla belə, müasir tələblərə uyğun informasiya və məsləhət xidmətlərinin təşkili baxımından bu Mərkəzin potensialının gücləndirilməsi və bütün bölgələrdə dayanıqlı əsaslara malik informasiya-məsləhət xidmətləri şəbəkəsinin formalaşdırılması aktual vəzifələrdən biridir.

Ölkədə fermerlərin əksəriyyətinin peşə bilik və bacarıqlarının aşağı olması formal təhsil sistemi ilə yanaşı qeyri-formal təlim şəbəkəsinin də inkişaf etdirilməsini, başqa sözlə, qısamüddətli və vaxtaşırı təşkil olunmuş kurslarda kənd təsərrüfatı istehsalçılarının peşə bilik və bacarıqlarının artırılmasını zəruri edir.

Bu baxımdan, hazırda təsərrüfatlarda çalışanların texniki, idarəetmə və iqtisadi biliklərinin artırılması məqsədilə qısamüddətli təlimlər, təcrübə yayımı, məsləhətlər və s. kimi praktiki öyrətmə metodlarının genişləndirilməsinə ehtiyac vardır. Bu istiqamətdə özəl məsləhət xidmətlərinin yaradılması və inkişafının stimullaşdırılması üçün ilk dövrlər dövlətin də bu istiqamətdəki fəaliyyətinin gücləndirilməsi zəruridir.

Kənd təsərrüfatı və ərzaq məhsulları bazarı və ixracı

Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə bazar infrastrukturu

Ölkədə qida məhsullarının zəruri satış şəbəkəsi formalaşsa da, kənd təsərrüfatı məhsullarının ticarəti üzrə bazar strukturları və institutları hələ də lazımi səviyyədə inkişaf etməmişdir. Bazar kanalları dağınıq və bəsit olduğundan, qeyri-formal sektor burada üstünlük təşkil edir. Buna görə də əksəriyyəti kiçik təsərrüfatlardan ibarət olan kənd təsərrüfatı istehsalçılarının xüsusən də bitkiçilik məhsulları üzrə əlverişli şərtlərlə bazara çıxışında problemlər mövcuddur. Kənd təsərrüfatı məhsullarının sahədən satış qiyməti ilə son istehlak bazarındakı satış qiyməti arasında böyük fərq vardır. Bu problem, xüsusilə meyvə, tərəvəz və bostan məhsullarının topdan və pərakəndə satışı şəbəkəsinin kifayət qədər inkişaf etməməsindən qaynaqlanır.

Meyvə, tərəvəz və bostan məhsullarının ölkə üzrə topdansatışı təqribən 30 bazarda həyata keçirilir. Lakin ölkə üzrə topdansatışın böyük hissəsi Bakı şəhərində yerləşən 3 bazarda, onun da əsas hissəsi "Meyvəli" ticarət mərkəzində həyata keçirilir. Ümumilikdə isə, topdansatış bazarı kimi ixtisaslaşmış yeganə bazar "Meyvəli" ticarət mərkəzidir və ölkədə kənd təsərrüfatı məhsullarının topdansatış qiymətləri praktiki olaraq burada formalaşır. Topdansatış fəaliyyətinin həyata keçirildiyi digər bütün bazarların əsas təyinatı pərakəndə satışdır. Kənd təsərrüfatı məhsulları bazarının stabil inkişafı və istehsalçıların bazara çıxış imkanlarının yaxşılaşdırılması baxımından topdansatış bazarları şəbəkəsinin inkişaf etdirilməsi olduqca mühümdür. Məsələn, Kənd Təsərrüfatı Nazirliyinin 2003-cü ildə apardığı tədqiqata əsasən, meyvə, tərəvəz və bostan məhsullarının sahədən satış qiyməti ilə Bakı şəhərində son istehlakçılara satış qiyməti arasındakı fərq, məhsullardan asılı olaraq, 200–600 faiz aralığında olduğu halda, "Meyvəli" ticarət mərkəzi qurulduqdan sonra 2014-cü ildə aparılan hesablamalara əsasən, bu göstərici maksimum 200 faiz olmuşdur. Təkcə elə bu fakt ölkənin müxtəlif regionlarında meyvə, tərəvəz və bostan məhsullarının topdansatışı ilə məşğul olan və müasir tələblərə uyğun infrastruktura malik yeni bazar institutları şəbəkəsinin yaradılmasına böyük zərurət olduğunu göstərir.

Diri heyvanların və heyvan ətinin topdansatışı ölkənin 23 şəhər və rayonundakı 36 bazarda həyata keçirilir. 10-u Bakı şəhərində və 3-ü Sumqayıt şəhərində fəaliyyət

göstərən bu bazarlar ət kəsimi və satışı mərkəzləridir. Diri heyvanların ən böyük topdansatış bazarları isə İmişli, Ağcabədi, Bərdə, Göygöl, Salyan və Sabirabad rayonlarında yerləşir. Heyvandarlıq məhsullarının satışı sahəsində əsas problem müvafiq standartlara uyğun ət kəsimi və satışı infrastrukturunun kifayət qədər inkişaf etməməsidir.

Kənd təsərrüfatı məhsullarının satış infrastrukturunun təkmilləşdirilməsi tədbirləri çərçivəsində müvafiq tələblərə uyğun ət kəsimi və satışı mərkəzlərinin yaradılmasına başlanmışdır. Artıq Bakı şəhəri ərazisində bu cür 3 satış mərkəzinin təşkili üçün yerlər müəyyən olunmuş, onların tikilməsi üçün müvafiq layihələndirmə işləri aparılmışdır.

Kənd təsərrüfatı məhsullarının satış infrastrukturunun inkişaf etdirilməsi üçün ənənəvi "kolxoz bazarları"na keyfiyyət alternativi kimi "yaşıl market"lər şəbəkəsinin, müvafiq tələblərə uyğun ət kəsimi və satışı mərkəzlərinin yaradılması, habelə "dəyər zənciri" layihələri əsasında pilot "fermer mağazaları"nın yaradılması istiqamətində fəaliyyətin gücləndirilməsinə ehtiyac vardır. Ölkənin müxtəlif bölgələrində kənd təsərrüfatı məhsulları sahəsində ixtisaslaşmış topdansatış bazarlarının yaradılması xüsusilə aktualdır.

Hazırda ölkənin regionlarında müxtəlif kənd təsərrüfatı məhsullarının saxlanılması və ya tədarükü üzrə 212 anbar, o cümlədən 103 taxıl anbarı mövcuddur. Fəaliyyət göstərən anbarların ümumi tutumu 1250 min ton, o cümlədən taxıl anbarlarının ümumi tutumu 741 min ton, meyvə-tərəvəz məhsulları üçün quru və soyuducu anbarların ümumi tutumu isə 509 min tondur. Meyvə-tərəvəz məhsulları üçün fəaliyyət göstərən quru və soyuducu anbarların ümumi tutumunun ölkədə istehsal edilən meyvə-tərəvəz məhsullarının həcminə nisbəti təqribən 17 faiz təşkil edir. Həmçinin nəzərə alınmalıdır ki, bu anbarların bir çoxu saxlama xidmətləri göstərmir və onlar ya emal müəssisələrinin, ya da ticarət şəbəkələrinin nəzdindədir. Taxıl anbarlarının da böyük hissəsi dövlət taxıl ehtiyatlarının saxlanılması məqsədinə xidmət edir. Həmçinin bu anbarların regionlar üzrə bölgüsü də həmin regionların istehsal potensialına müvafiq deyildir. Buna görə də istehsalçılar öz məhsullarını daha çox yığım dövründə satmaq məcburiyyətində qalırlar ki, bu da mövsüm dövründə qiymətlərin aşağı olması ilə bağlı, satışın istehsalçılar üçün əlverişsizliyini şərtləndirən daha bir təsirli amildir.

Kənd təsərrüfatı məhsullarının daşınması xidmətləri sistemi aşağıdakılarla xarakterizə olunur:

- kiçik təsərrüfatlar və ticarətçilər kənd təsərrüfatı məhsullarının daşınması üçün, əsasən, öz şəxsi mülkiyyəti olan minik avtomobillərindən, kiçik və ortatutumlu yük avtomobillərindən, yaxud da ayrı-ayrı fiziki şəxslərin mülkiyyətində və ya istifadəsində olan kiçik və ortatutumlu yük avtomobillərindən istifadə edirlər;
- kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanılması və emalı ilə məşğul olan iri şirkətlərin müxtəliftutumlu nəqliyyat vasitələri, o cümlədən tezxarabolan məhsulların daşınması üçün xüsusi nəqliyyat vasitələri (avtorefrijeratorlar) vardır;
- yerli istehsalçılar kənd təsərrüfatı məhsullarının xüsusən də ixrac bazarlarına daşınması üçün istifadə olunan iritutumlu yük maşınlarına, o cümlədən də avtorefrijeratorlara olan ehtiyaclarını ödəmək üçün müvafiq nəqliyyat şirkətləri ilə, xüsusilə xarici şirkətlərlə əməkdaşlıq edirlər. İxrac bazarlarına məhsul daşınmasında dəmir yolu nəqliyyatı da mühüm paya malikdir. Hava və su nəqliyyatı ilə daşımaların payı çox cüzidir.


Hazırda kənd təsərrüfatı məhsullarının həm ölkə daxilində, həm də ixrac bazarlarına daşınması ilə bağlı bəzi maneələr mövcuddur. Belə ki, daşıma xidmətləri göstərənlər ucqar kəndlərdən, xüsusilə də yolları təmirsiz olan kəndlərdən nisbətən yüksək daşıma haqqı tələb edirlər. Bu fakt, son illər ərzində kənd yollarının təmir

olunması istiqamətində görülən genişmiqyaslı işlərə baxmayaraq, məsələnin hələ də bir sıra yerlərdə aktual olduğunu göstərir. Ümumilikdə isə kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı lazımi səviyyəyə çatmadığından, kənd təsərrüfatı məhsullarının daşınmasında müvafiq keyfiyyət tələbləri kifayət qədər nəzərə alınmır. İxracatçılarla aparılan müzakirələr göstərir ki, ixrac bazarlarına yük daşımalarının həyata keçirilməsi üçün ixtisaslaşmış yerli avtonəqliyyat parkı zəifdir və ixracatçılar xarici ölkələrin avtonəqliyyat parkından asılıdırlar ki, bu da daşımanın stabil və əlverişli şərtlərlə həyata keçirilməsində problemlər yaradır.

Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə daxili bazar

Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsullarının pərakəndə satış dövriyyəsinin həcmi 2015-ci ildə 12,9 milyard manat olmuşdur.

Şəkil 8. Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının 1990-cı ilə nəzərən real artım səviyyəsi *(faizlə)*




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

1990–1995-ci illər ərzində kiçilən bazarın həcmində sonrakı illərdə davamlı olaraq real artım baş vermiş və o, 2003-cü ildə 1990-cı ilin səviyyəsinə çatmışdır. Artıq 2015-ci ildə bazarın həcm göstəricisi 1990-cı ilə nəzərən 2,5 dəfə çox olmuşdur.

Meyvə-tərəvəz, ət-balıq məhsulları və onların emalından alınan məhsullar kənd təsərrüfatı və ərzaq məhsullarının pərakəndə satış dövriyyəsinin 42 faizini təşkil etməklə, böyük xüsusi çəkiyə malikdir. Digər məhsul qruplarının hər birinin bazar payı təqribən 8–9 faiz təşkil edir (şəkil 9).

Şəkil 9. Kənd təsərrüfatı və ərzaq məhsullarının strukturu




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı

Kənd təsərrüfatı və ərzaq məhsulları ixracının həcmi 2001–2015-ci illər ərzində 11,1 dəfə, 2005–2015-ci illər ərzində isə 2,2 dəfə artmışdır (şəkil 10).

Şəkil 10. Kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı, *(milyon ABŞ dolları ilə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

İlkin kənd təsərrüfatı məhsullarının ixracı müvafiq dövrlərdə 8,5 dəfə və 1,6 dəfə, emal olunmuş kənd təsərrüfatı məhsulları isə, müvafiq olaraq, 14,7 dəfə və 3,0 dəfə artmışdır. Malların ticarətinə dair BMT-nin məlumatlarına əsasən, 2001–2015-ci illər ərzində kənd təsərrüfatı və ərzaq məhsulları üzrə qlobal ixracda Azərbaycanın payı 0,014 faizdən 0,054 faizə yüksəlmişdir. Bununla belə, son iki ildə emal olunmuş kənd təsərrüfatı məhsullarının ixracının azalması hesabına ümumi ixracın da həcmində azalma baş vermişdir.

Azərbaycandan ixrac olunan kənd təsərrüfatı və ərzaq məhsullarının 44 faizini ilkin kənd təsərrüfatı, 56 faizini isə emal sənayesi məhsulları təşkil edir (cədvəl 8).

Cədvəl 8. 2001–2015-ci illərdə Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsulları ixracı *(min ABŞ dolları ilə)*


Məhsul	2001	2005	2010	2011	2012	2013	2014	2015	2015/ 2005
Meyvə	11982	146432	112484	152965	207986	173508	192165	220247	150,4
Tərəvəz	856	26224	42345	78307	55969	77264	98919	91681	3,5 d.
Meyvə-tərəvəz emal məhsulları	2123	16773	21518	21366	18694	21965	17143	10857	64,7
Heyvan və bitki mənşəli yağlar	2957	68418	188255	173757	221766	227884	190335	153335	2,2 d.
Şəkər və şəkər məhsulları	0	91	146452	199185	214911	243840	221379	212207	233,2d
Şokolad məhsulları	0	398	3157	7924	11942	16268	11868	7648	19,2 d.
Çay	3142	14097	32957	32211	37223	43906	30804	18959	134,5
Spirtli və spirtsiz içkilər	3403	9401	15142	15727	21041	30947	31875	25829	2,7 d.
Pambıq	15122	43974	15892	20612	22302	30230	14324	19308	43,9
Gön-dəri	1566	2134	11664	10774	13932	16978	23868	12128	5,7 d.
Tütün	11834	5395	5894	9307	7913	10757	12415	7431	137,8
Digər	19457	40375	27098	28676	37183	34999	36171	23000	57,0
Cəmi	72442,0	373712	622858	750811	870862	928546	881266	802634	2,2 d.

Mənbə: Dövlət Statistika Komitəsi

Bununla belə, ilkin kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyası çox məhduddur. Belə ki, bu məhsulların 90 faizi keçmiş Sovet İttifaqı ölkələrinə (Baltikyanı ölkələr istisna olmaqla), xüsusilə Rusiyaya ixrac olunur.

Əsas kənd təsərrüfatı məhsulları üzrə xarici ticarət balansı isə şəkil 11-də göstərildiyi kimidir.

Şəkil 11. Əsas kənd təsərrüfatı məhsulları üzrə xarici ticarət balansı *(milyon ABŞ dolları ilə)*



Mənbə: Birləşmiş Millətlər Təşkilatının malların satışı üzrə statistik məlumatlar bazası, 2015

Göründüyü kimi, əsasən meyvə və tərəvəz üzrə ticarət balansımız müsbət saldoya malikdir. Rusiya bazarı Azərbaycanda istehsal olunan kənd təsərrüfatı


məhsullarının əsas bazarıdır. Digər ölkələrin və Azərbaycanın bu bazara ixrac etdiyi əsas məhsulların təhlili əsasında ixrac üçün üç əsas məhsul müəyyən edilmişdir: faraş pomidor (xüsusilə istixanalarda ilboyu yetişdirilən pomidor), təzə xiyar (kornişon) və meyvələr (məsələn, fındıq, alma, nar, xurma, bostan məhsulları).

Azərbaycan bu məhsulların hər biri üçün rəqabət imkanlarına malikdir və qısa müddət ərzində onların istehsalını və məhsuldarlığını əhəmiyyətli dərəcədə artıra bilər.

Əgər Azərbaycan Rusiya bazarına ixracda mühüm paya sahib ola bilərsə, bu məhsulların hər birinin ixracı nəzərəçarpacaq dərəcədə arta bilər.

Qeyd edilənlərin yekunu olaraq, kənd təsərrüfatı və ərzaq məhsulları ixracında üstünlük təşkil edən sahələr aşağıdakı kimi qruplaşdırıla bilər (şəkil 12).

Şəkil 12. Kənd təsərrüfatı və ərzaq məhsulları ixracında üstünlük təşkil edən sahələr



Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə bazarın tənzimlənməsi

Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi sistemi istehsalçıların öz məhsullarını əlverişli şərtlərlə sataraq layiqli səviyyədə gəlir əldə etmələrinin təmin edilməsinə və beləliklə də istehsalın artırılması üçün davamlı stimul yaradılmasına nail olmağın mühüm vasitəsidir. Azərbaycanda kənd təsərrüfatı məhsulları bazarının sistemli şəkildə tənzimlənməsini həyata keçirmək üçün müvafiq mexanizmlərin yaradılmasına aqrar islahatların yeni mərhələsi çərçivəsində başlanılmışdır. Hazırda ölkədə kənd təsərrüfatı məhsulları bazarında qiymətlərin stabilləşdirilməsi istiqamətində yalnız iki alətdən və məhdud səviyyədə istifadə edilir. Birincisi, 2006-cı ildən etibarən Kənd Təsərrüfatı Nazirliyi yerli icra hakimiyyəti orqanları ilə birgə həftəsonlarında və bayram günlərində Bakı şəhərində kənd təsərrüfatı məhsulları yarmarkalarını təşkil edir. Bu yarmarkalar fermerlərin bazara çıxış imkanlarının yaxşılaşdırılmasında çox təsirli rol oynamasa da, qiymətlərin əhali üçün münasibliyi baxımından, əhəmiyyət kəsb edir. İkincisi, 2009-cu ildən fəaliyyət göstərən Dövlət Taxıl Fondu daxili bazarda taxıl məhsullarının qiymətlərində kəskin volatilliyin qarşısını almaq üçün, lazımi hallarda, aidiyyəti dövlət orqanları ilə

razılaşdırılmaqla, adekvat intervensiya tədbirləri həyata keçirir. Yəni bu alət də istehlak bazarında qiymətlərin stabilliyinin təmin edilməsinə xidmət edir.

"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 1944 nömrəli Sərəncamı kənd təsərrüfatı məhsulları bazarının effektiv tənzimlənməsi baxımından olduqca mühümdür. Belə ki, bu qurum istehsalçıların fəaliyyətlərinin zəmanətli əsasda həyata keçirilməsi və zərurət yarandıqca, bazarın geniş seqmentləri üzrə intervensiya tədbirlərinin görülməsi baxımından mühüm alət kimi çıxış edəcəkdir.

Hazırda "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC həm dövlət ehtiyacları, həm də bazarın stabilləşdirilməsi məqsədilə kənd təsərrüfatı və ərzaq məhsullarının tədarükünün həyata keçirilməsi üzrə müvafiq mexanizmlərin yaradılmasına başlamışdır.

Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə daxili bazarın idxal tənzimlənməsi

Daxili bazarın qeyri-tarif tənzimləmə metodları kimi antidempinq, kompensasiya və xüsusi rüsumlar, habelə kvotaların tətbiqi ilə bağlı mövcud qanunvericilikdə hüquqi əsaslar var. Lakin bu alətlərin çevik və effektiv tətbiqi üçün müvafiq institusional mexanizmlər yaradılmamışdır. Həmçinin, bu alətlərin tətbiqi üçün daxili bazarın öyrənilməsi, idxal olunan müvafiq məhsulların mənşə ölkələrində qiymətlərinin və bu məhsulların daxili istehsala təsirinin müəyyən edilməsi üçün mütəmadi araşdırmaların aparılması tələb olunur. Bunun üçün də adekvat institusional potensialın formalaşdırılmasına ehtiyac vardır. Digər qeyri–tarif tənzimləmə metodları kimi sanitar-fitosanitar, baytarlıq norma və standartları və texniki tələblər öz missiyalarına uyğun olaraq, yəni ətraf mühitin və əhalinin sağlamlığının qorunması məqsədləri üçün tətbiq edilir. Lakin bu norma, standart və tələblərin tətbiqi prosesində daxili bazarın qorunması ilə bağlı məqsədlər kifayət qədər nəzərə alınmır. Müvafiq norma, standart və tələblərin tətbiqi üzrə institusional mexanizmlər kifayət qədər formalaşdığından, bu vasitələrdən daxili bazarın qorunması məqsədləri üçün də istifadə oluna bilər.

Ətraf mühitin qorunması, təbii resursların mühafizəsi və təbii-iqlim amillərinin kənd təsərrüfatına təsirlərinin idarə olunması sistemi

Azərbaycan doqquz təbii iqlim tipinə malikdir və regionun ən mülayim qışı Azərbaycanda müşahidə edilir. Yay fəsli üçün orta hesabla 28–30°C arasında dəyişən temperatur, quru, isti və günəşli hava səciyyəvidir. Ölkədə ayın 300 saatının gün şüası (yayda) ilə xarakterizə olunduğu iqlim şəraiti mövcuddur. Bu da ölkədə çoxsahəli kənd təsərrüfatının inkişafına və il ərzində 3 dəfəyədək məhsul yetişdirməyə imkan verən əlverişli təbii iqlim şəraiti deməkdir.

Bütün bunlara baxmayaraq, ölkədə torpaq və su ehtiyatlarından səmərəli istifadə problemi hazırda aktualdır. Torpaqların istismarında aqrotexniki qaydalara riayət edilməməsi və torpaq istifadəçiləri tərəfindən torpaqların münbitliyinin bərpası ilə bağlı vaxtlı-vaxtında zəruri tədbirlərin həyata keçirilməməsi, mövcud meliorasiya-irriqasiya sistemlərinin hələ də müvafiq tələblərə uyğun olmaması, kənd təsərrüfatı torpaqlarından təyinatından kənar istifadə olunması və digər bu kimi problemlər ətraf mühitin və torpaq resurslarının keyfiyyətinin pisləşməsinə səbəb olur. Torpaqların dayanıqlı idarəetmə sisteminin tətbiq olunmaması bu problemləri daha da kəskinləşdirir. Qanunvericiliyə əsasən, torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi ilə bağlı müxtəlif orqanlar öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görməlidir. Lakin mövcud qaydalarda torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi ilə bağlı ayrı-ayrı qurumların vəzifələri, habelə bu vəzifələrin həyata keçirilməsi mexanizmləri ilə bağlı konkret müddəalar və təlimatlar yoxdur. Həmçinin,

müvafiq qurumların əsasnamələrində bununla bağlı bir-birini təkrarlayan funksiyalar təsbit olunmuşdur.

Su ehtiyatlarından səmərəli istifadə olunmasının mühüm şərtlərindən biri də suvarma sistemlərinin idarə edilməsi ilə bağlıdır. Mövcud qanunvericiliyə əsasən, meliorasiya və irriqasiya sistemləri dövlət mülkiyyətində, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə ola bilər. Bununla belə, hazırda bütün suvarma sistemləri dövlət mülkiyyətində və ya Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin balansındadır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC və eləcə də Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən beynəlxalq təşkilatlarla birgə həyata keçirilən layihələr çərçivəsində yerlərdə 585 sudan istifadəedənlər assosiasiyaları yaradılmışdır. Hazırda bu assosiasiyalar suvarma suyunun istehlakçılar arasında bölüşdürülməsi üzrə fəaliyyət göstərsələr də, suvarma sistemlərinin bu qurumların uzunmüddətli istifadəsinə verilməsi təcrübəsi hələ ki yoxdur. Suvarma suyu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən assosiasiyalara güzəştli qiymətlərlə satılır. Bu sahədə tətbiq edilən güzəşt mexanizminə yenidən baxılaraq, geniş əhatəli texniki-iqtisadi əsaslandırmaların hazırlanmasına və daha səmərəli dəstək formalarının tətbiq olunmasına ehtiyac vardır. Su ehtiyatları məhdud olan ölkə kimi, Azərbaycanda suya qənaət edən müasir suvarma üsullarının tətbiqinin genişləndirilməsini stimullaşdırmaq üçün dünya təcrübəsində tətbiq edilən müvafiq dəstək tədbirlərinin görülməsi də aktualdır. Hazırda müasir suvarma üsullarından istifadənin genişləndirilməsini stimullaşdırmaq üçün tətbiq edilən yeganə tədbir "Aqrolizinq" ASC-nin xətti ilə müvafiq suvarma avadanlıqlarının lizinq yolu ilə və dəyərinin 40 faizinin dövlət büdcəsi hesabına ödənilməsi şərti ilə satılmasıdır ki, yeni tətbiq edilən bu stimullaşdırma tədbirinin də miqyası kifayət qədər genişlənməmişdir.

Ətraf mühitin qorunmasında ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istrehsalının stimullaşdırılması da önəmli yer tutur. Bu sahənin tənzimlənməsi üçün müvafiq hüquqi baza yaradılsa da, sertifikatlaşdırma sistemi, statistika bazası mövcud deyil və bazar kanalları formalaşmamışdır.

Həmçinin, baş verə biləcək fəsadların qarşısının əvvəlcədən alınması üçün dolu yağmasından müdafiə və yağıntının kənd təsərrüfatı məqsədləri baxımından tənzimlənməsi formasında hava şəraitinə müdaxilə edilməsi zəruri amillərdən biridir. Dünya Meteorologiya Təşkilatının məlumatlarına əsasən, qlobal miqyasda kənd təsərrüfatı sahəsində dolu səbəbindən il ərzində yaranan itkilər 6 milyard ABŞ dolları həcmində, o cümlədən MDB ölkələrində 740 milyon ABŞ dolları dəyərində qiymətləndirilir. Keçmiş Sovet İttifaqı dövründə yaradılan doludan müdafiə sisteminin texniki infrastrukturu ötən əsrin 90-cı illərinin əvvəllərində, müharibə şəraiti ilə əlaqədar olaraq, hərbi hissələrə təhvil verilmişdir. Buna görə də ölkədə kənd təsərrüfatı məqsədləri baxımından hava şəraitinə müdaxilə edilməsi sisteminin müasir texnologiyalar əsasında yaradılmasına və inkişaf etdirilməsinə ehtiyac vardır.

Kənd təsərrüfatının tənzimlənməsi və dövlət dəstəyi

Dövlət dəstəyi sistemi

Ötən dövr ərzində kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət tərəfindən müvafiq dəstək sistemi formalaşdırılmış, bu sistemin təkmilləşdirilməsi və şəffaflığının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür (şəkil 13).

Şəkil 13. Kənd təsərrüfatı sahəsinə göstərilən dövlət dəstəyi tədbirləri

Ümumi sahə üzrə dövlət dəstəyi tədbirləri	Bitkiçilik sahəsi üzrə dövlət dəstəyi tədbirləri	Heyvandarlıq sahəsi üzrə dövlət dəstəyi tədbirləri
• Kənd təsərrüfatı vergilərdən azaddır; • istehsalçılara büdcədən güzəştli kreditlər verilir; • kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi üzrə idxal olunan əksər istehsal vasitələrinə gömrük güzəştləri tətbiq edilir; • "Aqrolizinq" ASC tərəfindən satılan kənd təsərrüfatı maşın, texnika və avadanlıqlarının dəyərinin 40 faizi büdcədən ödənilir və onlar lizinq yolu ilə satılır; • kənd təsərrüfatı əmlakının və müəyyən edilmiş sığorta hadisələrinin sığortalanması üzrə hesablanmış sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir.	• Kənd təsərrüfatı məhsullarının istehsalı üçün sərf edilən yanacaq və motor yağlarının dəyərinin 50 faizinin dövlət tərəfindən ödənilməsinin təmin edilməsi məqsədilə əkin sahələrinin hər hektarına (o cümlədən təkrar əkinlərə) görə 50 manat subsidiya verilir; • emal müəssisələrinə satılan pambığın hər kiloqramı üçün 0,1 manat, quru tütünün hər kiloqramı üçün 0,1 manat, yaş tütünün isə hər 10 kiloqramı üçün 0,05 manat subsidiya verilir; • kənd təsərrüfatı istehsalı ilə məşğul olanlara hər 1000 m^3 suvarma suyunun qiyməti 0,5 manat müəyyən edilmişdir; • "Aqrolizinq" ASC tərəfindən satılan müasir suvarma avadanlıqlarının dəyərinin 40 faizi büdcədən ödənilir; • gübrələrin, pestisidlərin və sənaye üsulu ilə istehsal edilmiş biohumusun dəyərinin 70 faizi dövlət büdcəsindən ödənilir; • toxum və ting istehsalına və satışına görə subsidiya verilir; • kənd təsərrüfatı bitkilərinin karantin tətbiq edilən və xüsusi təhlükəli zərərvericilərinə qarşı mübarizə tədbirləri dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.	• "Aqrolizinq" ASC tərəfindən idxal edilən cins malların dəyərinin 50 faizi büdcədən ödənilir və lizinq yolu ilə satılır; • süni mayalanma yolu ilə alınan hər baş buzova görə 100 manat subsidiya verilir; • süni mayalandırma xidməti üzrə infrastruktur dövlət tərəfindən təmin edilir; • bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında heyvanların xüsusi təhlükəli yoluxucu xəstəliklərinə (13 növ xəstəliyə) qarşı aparılan müalicə–profilaktika və diaqnostika tədbirləri dövlət tərəfindən təmin edilir.

Bu dəstək tədbirləri kənd təsərrüfatı məhsulları istehsalçılarının müvafiq istehsal vasitələri ilə təminatının gücləndirilməsi və onların gəlir əldə etmək imkanlarının yaxşılaşdırılması baxımından əhəmiyyətli olmuşdur. Belə ki, istehsalçıların müvafiq kənd təsərrüfatı texnikası və avadanlıqları ilə təminatında əvvəllər müşahidə olunan çatışmazlıqlar tamamilə aradan qaldırılmış, gübrədən istifadə səviyyəsi yüksəlmiş, məhsuldar cins heyvanlardan ibarət təsərrüfatlar genişləndirilmiş, ümumilikdə isə müvafiq dəstək tədbirləri istehsal xərclərinin azaldılmasına mühüm təsir göstərmişdir.

Sahibkarların dövlət büdcəsi vəsaitləri hesabına güzəştli kreditlərlə maliyyələşdirilməsi siyasətində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi prioritet sahə kimi müəyyən edilmiş, ayrılan güzəştli kreditlərin 60–65 faizi məhz bu sahələrin payına düşmüşdür. Kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq edilən vergi güzəştləri də istehsalçıların xərclərinin azaldılması, həmçinin yerli

məhsulların qiymətlərinin istehlakçılar üçün əlverişli olması baxımından mühümdür. Hazırda kənd təsərrüfatına dövlət dəstəyi tədbirlərinin bu sahənin inkişaf məqsədləri baxımından ünvanlılığının daha da artırılması və tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı islahatlara başlanılmışdır. O cümlədən, tətbiq edilən vergi güzəştləri siyasətinə həm də kənd təsərrüfatı məhsullarının istehsalçıları ilə emal müəssisələri və ticarət şəbəkələri arasında əlaqələrin inkişaf etdirilməsi məqsədi çərçivəsində baxmağa zərurət yaranmışdır. Mövcud tələbatları dəqiq qiymətləndirməklə, müvafiq dəstək tədbirlərinin miqyasının və əhatə dairəsinin genişləndirilməsi istiqamətlərinin müəyyən olunması da qarşıda duran vəzifələrdən biridir.

Kənd təsərrüfatında qeydiyyat, uçot və statistika sistemi

Hazırda kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin böyük əksəriyyəti rəsmi tələblərə əsaslanan təşkilati formaya uyğun şəkildə qeydiyyatdan keçməmişdir. Dövlət Statistika Komitəsinin və Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına əsasən, ölkədə təqribən 890 min kənd təsərrüfatı təyinatlı torpaq mülkiyyətçisinin olmasına, habelə yanacaq və motor yağlarına görə verilən dövlət yardımlarını almaq üçün müraciət edən təqribən 370 min kənd təsərrüfatı məhsulları istehsalçısının olmasına baxmayaraq, təqribən 1300 təsərrüfat hüquqi şəxs kimi, 1500 təsərrüfat isə fərdi sahibkar kimi qeydiyyatdan keçmişdir.

Ölkədə torpaq sahələrinin və heyvanların identifikasiyası sistemi də yaradılmamışdır. Torpaq sahələrinin identifikasiyası sisteminin yaradılmasına əsas maneələrdən biri torpaq sahələrinin mülkiyyətinə dair sənədlərdə olan məlumatlarla naturada olan məlumatlar arasında fərqlərin mövcud olmasıdır. Ən əsası isə, elektron kadastr sisteminin yaradılmaması torpaqların elektron uçotu sisteminin qurulmasında başlıca maneədir.

Bütün bu problemlər kənd təsərrüfatı sahəsi üzrə keyfiyyətli statistik informasiyanın əldə edilməsində çətinlik yaradır ki, bu da öz növbəsində, aqrar sahə üzrə müvafiq siyasət tədbirlərinin əsaslandırılması üçün real qiymətləndirmə aparılması imkanlarını məhdudlaşdırır.

Son dövrlər ölkədə kənd təsərrüfatı sahəsi üzrə müvafiq informasiyaların elektronlaşdırılması istiqamətində kompleks tədbirlər görülür. 2015-ci ildən etibarən Avropa İttifaqı (Aİ) ölkələrinin tətbiq etdiyi metodika əsasında “e-kənd təsərrüfatı” informasiya sisteminin qurulmasına başlanılmışdır. Aİ-nin “İnteqrasiya Olunmuş Nəzarət Sistemi”nin (IACS) prinsiplərinə əsaslanan “e-kənd təsərrüfatı” informasiya sistemi 7 altmoduldan, o cümlədən “Torpaq Sahələrinin İdentifikasiyası”, “Fermer Təsərrüfatlarının Reyestri” və “Subsidiyaya Ərizələrin Qeydiyyatı və Təhlili” modullarından ibarətdir. “E-kənd təsərrüfatı” informasiya sistemi çərçivəsində müvafiq məlumat bazalarının, o cümlədən aeroşəkillər və peyk təsvirləri əsasında əldə olunan ortofoto xəritələr üzrə elektron məlumat bazalarının yaradılması və idarə olunması üçün zəruri olan informasiya-kommunikasiya texnologiyaları infrastrukturu quraşdırılmışdır. Bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyinin müvafiq struktur bölmələrinin institusional potensialı formalaşdırılaraq, yaradılmış sistemin Xaçmaz, Quba və Göygöl rayonlarında pilot tətbiqinə başlanılmışdır.

Beynəlxalq məsləhətçilər qrupu cəlb edilməklə, “Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sistemi”nin yaradılması üçün texniki tapşırığın hazırlanmasına başlanılmışdır.

“E-kənd təsərrüfatı” informasiya sisteminin tətbiqi başa çatana qədər hər il subsidiya alan istehsalçılar və onların əkin sahələri ilə bağlı məlumatlar (subsidiya alan istehsalçının fəaliyyət göstərdiyi rayon və kənd, subsidiyaya təqdim olunan əkin sahələrinin ölçüsü və əkin növləri) əsasında elektron məlumat bazası yaradılmışdır. Qeyd etmək lazımdır ki, bu məlumatlar hər il yanacaq-motor yağlarına görə subsidiya

verilən 370 minə yaxın istehsalçını və təqribən 1,3 milyon hektar sahəni əhatə edir ki, bu da ölkə üzrə müvafiq əkin sahələrinin 80 faizdən yuxarı hissəsini təşkil edir. Eyni zamanda, heyvanların identifikasiyası sisteminin qurulması prosesinə hazırlıq çərçivəsində Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən ölkədə fəaliyyət göstərən bütün təsərrüfatlarda mövcud olan kənd təsərrüfatı heyvanları ilə bağlı məlumatlar toplanaraq, elektron məlumat bazası yaradılmışdır. Ölkə ərazisində qeydiyyata alınmış 66 min vahiddən çox kənd təsərrüfatı texnikası ilə bağlı Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin "Dövlət texniki nəzarət avtomatlaşdırılmış informasiya sistemi"ndə elektron məlumat bazası yaradılmışdır. "Aqrolizinq" ASC-nin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri çərçivəsində bu Cəmiyyət tərəfindən aparılan müvafiq əməliyyatların elektron-uçot sisteminə keçirilməsi başa çatdırılmış, o cümlədən güzəşt tətbiq edilən texnikalarla bağlı xüsusi proqram təminatı – "Lizinq əməliyyatlarının avtomatlaşdırılması sistemi" hazırlanaraq istifadəyə verilmiş və etibarlı məlumat bazası yaradılmışdır.

MDB ölkələri arasında ilk dəfə Azərbaycanda Aİ təcrübəsinə uyğun "Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi" (FTMMS) qurulmuşdur. Birbaşa kənd təsərrüfatı məhsulları istehsalçılarının müvafiq iqtisadi göstəricilərinin toplanmasını və təhlilini nəzərdə tutan bu monitorinq sistemi aqrar siyasətin nəticələrinin fermer təsərrüfatları səviyyəsində təhlili, istehsalçıların fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, aqrar siyasətin təkmilləşdirilməsi ehtiyaclarının sistemli şəkildə müəyyənləşdirilməsi və digər məsələlər baxımından mühüm informasiya mənbəyi kimi çıxış edir. Ölkənin hər bir rayonunu və kənd təsərrüfatının bütün sahələrini əhatə edən təqribən 4 min təsərrüfatın 2014-cü və 2015-ci il üzrə göstəriciləri toplanmış və elektron məlumat bazası yaradılmışdır.

Kənd Təsərrüfatı Nazirliyinin FAO ilə birgə həyata keçirdiyi layihə çərçivəsində Kənd təsərrüfatı məhsullarının qiymət informasiya portalı (www.azagro.net) yaradılmışdır. Məlumat bazasında 46 adda meyvə, tərəvəz və bostan məhsullarının 400 növü, həmçinin məhsulların iri, orta və xırda ölçülərinə görə hər növün çeşidləri üzrə topdan və pərakəndə satış qiymətləri gündəlik olaraq yenilənir. Hazırda bu informasiya portalının meyvə, tərəvəz və bostan məhsullarının sahədən satış qiymətləri, heyvandarlıq məhsullarının, taxıl məhsullarının, texniki bitkilərin və sənaye təyinatlı digər məhsulların müvafiq qiymət göstəriciləri əsasında təkmilləşdirilməsi aparılır.

Kənd təsərrüfatı sahəsində məşğulluq və kənd yerlərinin inkişafı

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, son 5 il ərzində ümumi məşğulluq səviyyəsinin 6,8 faiz artımı müqabilində emal sənayesində məşğul əhalinin sayındakı artım 9,3 faiz, kənd təsərrüfatında isə 2,5 faiz olmuşdur. Ötən dövr ərzində emal sənayesinin ümumi məşğulluqdakı payı orta hesabla 4,8–5,0 faiz olmaqla, təqribən eyni səviyyədə qaldığı halda, kənd təsərrüfatının ümumi məşğulluqdakı payında azalma dinamikası müşahidə olunmuşdur. Belə ki, 2000-ci ildə bu göstərici 39,1 faiz, 2015-ci ildə isə 36,4 faiz təşkil etmişdir. Kənd təsərrüfatı ümumi məşğulluqda hələ də ən böyük paya malik olan sektor kimi qalmaqdadır.

2015-ci ildə bu sahədə məşğul olanların hər nəfərinə düşən əlavə dəyərin illik məbləği 1993,2 manat, orta aylıq məbləği isə 166,1 manat olmuşdur. Kənd təsərrüfatı sahəsində çalışanların kiçikhəcmli əlavə dəyər yaratmaları bu sahədə məşğul əhalinin əmək ödənişlərinin artırılması imkanlarının məhdudluğunu və istehsalın intensiv amillər hesabına inkişaf etdirilməsinin zəruriliyini göstərir. Öz növbəsində bu fakt kənd yerlərində emal sənayesi və digər istehsal və xidmət sahələri hesabına qeyri-kənd təsərrüfatı məşğulluğunun artırılması zərurətini də ifadə edir.

2004-cü ildən etibarən ölkədə icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları hesabına ölkə əhalisinin 47 faizinin yaşadığı kənd yerlərinin sosial

infrastrukturu köklü şəkildə yaxşılaşdırılmış, kənd yerlərində yaşayan əhalinin rifah halı yüksəlmişdir.

2004–2015-ci illər ərzində regionlarda qazlaşdırma səviyyəsi 41,0 faizdən 78,2 faizə yüksəlmişdir. Nəqliyyat infrastrukturunun inkişafı tədbirləri çərçivəsində 3,1 min km magistral və 7,2 min km yerli əhəmiyyətli və kəndlərarası yollarda təmir-tikinti işləri aparılmış, həmçinin 81 faizi regionlarda olmaqla, 394 körpü və tunel tikilmiş və ya təmir olunmuş, 6 rayonda hava limanı tikilmiş və ya yenidən qurulmuşdur. Bu dövr ərzində regionlarda 6510 km içməli su xətti çəkilmiş və 3155 km kanalizasiya xətti tikilmişdir. Regionlarda fasiləsiz (24 saat) içməli su ilə təmin olunan əhalinin payı 9 faizdən 41 faizə yüksəlmişdir. 2004-cü ildə ölkədə ümumi gücü 2800 MVt olan 9 elektrik stansiyası fəaliyyət göstərirdisə, hazırda ümumi gücü 6300 MVt olan 34 elektrik stansiyası mövcuddur. Elektrik enerjisinin 80 faizi regionlarda istehsal edilir.

Müvafiq dövr ərzində regionlarda 2554 orta məktəb və 409 tibb müəssisəsi tikilmiş və ya əsaslı təmir olunmuş, habelə 33 Olimpiya İdman Kompleksi və 34 Gənclər Mərkəzi istifadəyə verilmişdir.

Regionların iqtisadi inkişaf proqramları çərçivəsində yaradılan yeni iş yerlərinin 71 faizi və ya 1,0 milyondan çoxu, habelə yaradılan yeni müəssisələrin 42 faizi və ya 29820-si regionların payına düşür. O cümlədən yeni istifadəyə verilən mehmanxana və mehmanxana tipli obyektlərin 68 faizi və ya 202-si regionlarda fəaliyyət göstərir.

Qeyd olunanlarla yanaşı, 2000-ci ildən etibarən Azərbaycan Hökumətinin Dünya Bankı ilə, eləcə də BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu (IFAD) ilə birgə maliyyələşdirməsi əsasında aidiyyəti dövlət orqanları tərəfindən icra olunan layihələr, habelə Aİ və beynəlxalq donor təşkilatların maliyyələşdirdiyi və vətəndaş cəmiyyəti təşkilatlarının icra etdiyi layihələr çərçivəsində kənd yerlərinin inkişafı ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu layihələr kənd yerlərində sosial infrastruktur (səhiyyə, təhsil, kənd yolları və s.) obyektlərinin və suvarma infrastrukturunun təmiri və tikintisi ilə yanaşı, kənd yerlərində yaşayan əhalinin gəlirlərinin artırılmasına dəstək məqsədilə kənd icmalarının ehtiyacları əsasında məsləhət xidmətləri, baytarlıq və bitki mühafizə tədbirləri, toxumla təminat, kiçik tədarük məntəqələrinin qurulması, nümunəvi təsərrüfat təcrübəsinin yaradılması, maliyyələşməyə dəstək və bu kimi digər istiqamətlərdəki fəaliyyəti əhatə etmişdir.

Qeyd edilənlərlə bərabər, ölkənin sosial-iqtisadi inkişafının müasir mərhələsində kənd yerlərinin inkişafı siyasətinin qabaqcıl dünya təcrübəsi əsasında təkmilləşdirilməsi aktualdır. İlk növbədə, ölkənin regionlarının sosial-iqtisadi inkişafı tədbirlərinin böyük miqyasda və sürətlə həyata keçirilməsini nəzərdə tutan, mövcud problemlərin birdəfəlik həll olunmasını hədəfləyən və buna görə də daha çox milli səviyyədə planlaşdırma metodologiyasına əsaslanan regionların inkişafı siyasətinin bundan sonra tədricən kənd yerlərinin inkişafı konsepsiyası ilə əvəzlənməsinə ehtiyac vardır. Bu baxımdan, kənd yerlərinin inkişafı üzrə planlaşdırma istiqamətində müvafiq institusional potensialın, o cümlədən kənd yerlərinin inkişafı üzrə ehtiyacları xarakterizə edən monitorinq göstəriciləri sisteminin və müvafiq informasiya bazasının yaradılması aktualdır. Buna uyğun olaraq, yerli özünüidarəetmə orqanlarının və kənd icmalarının kənd yerlərinin inkişafında iştirakının daha da gücləndirilməsini təmin edən institusional mexanizmlər yaradılmalıdır.

3.2. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
● Mövcud təbii resursların (torpaq, su, iqlim ehtiyatlarının) ölkədə kənd	● Mütərəqqi təsərrüfatçılıq metodlarının tətbiqi təcrübəsinin geniş yayılmaması, əksər məhsullar üzrə

təsərrüfatının inkişafı baxımından əlverişli olması; ● özəl mülkiyyətə əsaslanan təsərrüfatçılıq ənənələrinin və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan aqrar siyasətin formalaşması; ● müasir texnologiyalara əsaslanan yeni emal sənayesi müəssisələri şəbəkəsinin formalaşması; ● kənd təsərrüfatı və ərzaq məhsulları üzrə istehsalın artım dinamikasının dünya üzrə orta göstəricilərdən yüksək olması; ● dövlət müstəqilliyini əldə etdikdən sonra mühüm ərzaq məhsulları ilə ölkənin özünütəminetmə səviyyəsinin yüksəlməsi; ● kənd təsərrüfatı məhsulları üzrə ixracın həcmində yüksək artım dinamikasının mövcudluğu; ● kənd təsərrüfatı məhsulları istehsalçılarının müvafiq istehsal vasitələri ilə təminatına güclü dövlət dəstəyinin verilməsi və hazırda istehsal vasitələri ilə təminatın mövcud tələbata uyğun səviyyədə ödənilməsi; ● həm bitkiçilikdə, həm də heyvandarlıqda istehsalın intensiv üsullarla artırılması üçün dövlət dəstəyi mexanizmlərinin yaradılması; ● fəaliyyəti mütərəqqi təsərrüfatçılıq metodlarına əsaslanan aqrobiznes müəssisələrinin yaradılması və bu istiqamətdə təcrübənin tədricən genişləndirilməsi; ● beynəlxalq bazarlara yaxın olması (Azərbaycan Rusiya bazarı kimi geniş bir bazara yaxın yerləşir və Avropa və Yaxın Şərq bazarlarına da çıxış imkanları böyükdür); ● nisbətən yaxşı inkişaf etmiş kənd infrastrukturunun mövcudluğu.	istehsalın artımında ekstensiv amillərin rolunun böyük olması nəticəsində məhsuldarlıq göstəricilərinin aşağı olması; ● əkin sahələrinin suvarma suyu ilə təminatında problemlərin olması; ● bazar infrastrukturunun, o cümlədən satış və anbar infrastrukturunun kifayət qədər inkişaf etməməsi; ● məhsulların həm istehsalı, həm emalı, həm də ticarəti mərhələlərində yaradılan əlavə dəyərin yüksəldilməsi üçün mövcud imkanlardan zəif istifadə olunması; ● kiçik torpaq sahibliyinə əsaslanan ailə-kəndli təsərrüfatlarının üstünlük təşkil etməsi və bu təsərrüfatların bazaryönümlülüyünün aşağı səviyyədə olması; ● aqrar siyasətdə təklifyönümlülüyün (istehsal) tələbyönümlülükdən (bazar) daha üstün olması və ümumilikdə bu siyasətin “dəyər zənciri” yanaşması əsasında təkmilləşdirilməsinə ehtiyac olması; ● fermer tərəfdaşlığının və kənd təsərrüfatında kooperasiyanın, o cümlədən aqrar-sənaye inteqrasiyasının zəif olması; ● emal sənayesi müəssisələrinin fəaliyyətinin yerli xammal mənbələrinə əsaslanmasının kifayət qədər yüksək olmaması; ● istehsalçıların maliyyə resurslarına çıxışının və aqrar sığorta sisteminin zəif inkişaf etməsi; ● fermerlərin öz fəaliyyətini mütərəqqi üsullarla həyata keçirmələri üçün müvafiq sahələrdə bilik və bacarıqlarının aşağı olması; ● kənd təsərrüfatı məhsulları istehsalının ətraf mühitin mühafizəsi və təbii resurslardan dayanıqlı istifadə şərtləri kifayət qədər nəzərə alınmadan aparılması; ● kənd təsərrüfatı sahəsi üzrə informasiya və məsləhət xidmətləri sisteminin inkişaf etməməsi; ● kənd təsərrüfatı və ərzaq siyasətinin effektivliyinin daha da artırılması baxımından mövcud resurslarla bağlı təkmil informasiya bazasının

	yaradılması işinin (elektron kənd təsərrüfatının, torpaqların elektron kadastr sisteminin və heyvanların identifikasiyası sisteminin qurulmasının) başa çatmaması; ● strateji əhəmiyətli ərzaq məhsulu kimi buğda istehsalının rəqabətqabiliyyətliliyinin, xüsusilə mövcud təbii resursların məhdudluğu (taxılçılıq ölkələrindəki kimi geniş torpaq sahələrinin olmaması) səbəbindən aşağı səviyyədə olması; ● qida təhlükəsizliyi, kənd təsərrüfatı və ərzaq məhsulları üzrə keyfiyyətin idarəedilməsi sisteminin beynəlxalq standartların tələblərinə tam uyğunlaşdırılmaması; ● kənd təsərrüfatı problemləri üzrə həyata keçirilən elmi tədqiqat fəaliyyətlərinin praktika ilə əlaqələndirilməsinin zəif olması.
İmkanlar	**Təhlükələr**
● kənd təsərrüfatı və ərzaq məhsulları istehsalı və emalı sahəsinin inkişafının ölkənin ümumi sosial-iqtisadi inkişaf siyasətində prioritet istiqamətlərdən biri kimi müəyyən olunması; ● kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artırılmasını stimullaşdırmaq üçün müvafiq dövlət dəstəyinin olması; ● kənd təsərrüfatı və ərzaq məhsulları bazarı üzrə bazar infrastrukturunun inkişafı və effektiv bazar tənzimlənməsi sisteminin formalaşdırılması tədbirlərinə başlanılması; ● sərfəli ixrac bazarlarına coğrafi yaxınlığın və bu bazarlarda əhəmiyyətli mövqenin olması; ● ixrac bazarlarına çıxışın artırılması üçün genişəhatəli təşviq tədbirlərinin tətbiqinə başlanılması; ● əksər kənd təsərrüfatı məhsullarının istehsalı üzrə müqayisəli üstünlüklərin yüksək olması; ● ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsi imkanının olması; ● aşağı əməkhaqqı xərcləri və işçi qüvvəsinin kifayət qədər olması (bu	● mövcud təbii resurslar (torpaq və su ehtiyatları) ölkədə kənd təsərrüfatının inkişafı baxımından əlverişli olsa da, bu resursların dünya üzrə orta göstəricilərlə müqayisədə zəif olması; ● aqrar siyasətin ətraf mühitin mühafizəsi və təbii resurslardan dayanıqlı əsaslarda istifadə olunması prinsipləri ilə kifayət qədər əlaqələndirilməməsi; ● ixrac bazarlarının coğrafi diversifikasiyasının məhdud olması; ● əkinəyararlı torpaqların səhralaşması-deqradasiyası (suvarmanın düzgün aparılmaması və qlobal iqlim dəyişikliyi torpaqların səhralaşmasına -deqradasiyasına gətirib çıxarır); ● digər ölkələrin subsidiyalaşdırdığı və dempinq etdiyi məhsulların ölkəyə gətirilməsi (bu da öz növbəsində daxili bazarda haqsız rəqabət yaradır); ● potensial ÜTT üzvlüyündən sonra kənd təsərrüfatı sektoruna verilən daxili yardımların azalması (sarı zənbil).

amil məhsulun maya dəyərinin aşağı olmasına gətirib çıxarır); ● milli valyutanın devalvasiyası nəticəsində ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının dünya bazarında rəqabətədavamlılığının daha da artması (məhsul istehsalı xarici valyuta ilə ifadədə daha ucuz başa gəlir və nəticədə qiymət üstünlüyü yaranır); ● çoxfunksiyalı kənd təsərrüfatını inkişaf etdirmək imkanı (kənd təsərrüfatı ilə məşğul əhalinin kənd yerlərində iş tapmaq imkanlarının məhdud olduğunu nəzərə aldıqda, kənd turizminin inkişafı və enerji (bio, günəş, külək) istehsalının genişləndirilməsi kənd təsərrüfatı ilə məşğul olanların gəlirlərini artıra, bu da öz növbəsində fermerlərin maliyyə imkanlarını yaxşılaşdıra bilər).	

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair 2020-ci ilədək strateji baxış dayanıqlı inkişaf prinsiplərinə əsaslanan, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, iqtisadiyyatın şaxələndirilməsinə və kənd yerlərində sosial rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalı və emalı sektorunun formalaşdırılması üçün əlverişli mühit yaratmağı nəzərdə tutur.

Strateji baxışın şərhi

Strateji Yol Xəritəsinin reallaşdırılması hesabına müvafiq tənzimlənmə sisteminin təkmilləşdirilməsinə, o cümlədən dövlət yardımlarının effektivliyinin artırılmasına və bazarda rəqabətin daha da yaxşılaşdırılmasına nail olunmaqla, əlverişli biznes mühiti formalaşdırılacaqdır. Aidiyyəti tənzimləmə orqanlarının potensialının gücləndirilməsi, dövlət yardımlarının inkişaf məqsədlərinə uyğunlaşdırılması, qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi, məhsul istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin inkişaf etdirilməsi, maliyyə resurslarına çıxışın asanlaşdırılması, bazar infrastrukturunun təkmilləşdirilməsi və bazara çıxış imkanlarının yaxşılaşdırılması, informasiya-məsləhət xidmətlərinin inkişaf etdirilməsi və digər istiqamətlərdə kompleks işlər görüləcəkdir.

Nəticədə, təbii resurslardan səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı sahələrinin dəyər zənciri üzrə inkişaf etdirilməsi üçün şərait yaradılacaq, bununla da ölkədə ərzaq təhlükəsizliyinin dayanıqlılığı təmin olunacaq, qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunacaq və kənd təsərrüfatı sahəsində çalışanların gəlir əldəetmə imkanları yaxşılaşacaqdır.

Strateji Yol Xəritəsində prioritetlər üzrə qeyd edilmiş bəzi tədbirlərin əsas fazası 2020-ci ildən sonrakı dövrdə həyata keçiriləcəkdir.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və email üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış ənənəvi təsərrüfatçılıqdan bazaryönümlü əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin gücləndirilməsi hesabına rəqabətqabiliyyətli aqrobiznesi formalaşdırmağı nəzərdə tutur.

Uzunmüddətli baxışın şərhi

Strateji Yol Xəritəsinin həyata keçirilməsi nəticəsində əlverişli biznes mühitinin yaradılması sayəsində, bir tərəfdən, ailə əməyinin üstünlük təşkil etdiyi, daha çox şəxsi istehlak tələbatı üçün məhsul istehsal edən kiçik ailə-kəndli təsərrüfatlarının fəaliyyətinin bazaryönümlülüyünün gücləndirilməsi və konsolidasiyası, digər tərəfdən isə kommersiyaəsaslı iri aqrokomplekslərin yaradılması və emal sənayesi ilə kənd təsərrüfatı məhsulları istehsalı arasında səmərəli inteqrasiya əlaqələrinin gücləndirilməsi, habelə bazar infrastrukturunun inkişaf etdirilməsi hesabına müvafiq keyfiyyət tələblərinə uyğun istehsal potensialı artırılacaqdır.

Eyni zamanda, kənd təsərrüfatı istehsalında qabaqcıl texnologiyaların tətbiqi təcrübəsinin genişləndirilməsi, istehsalçıların bilik və bacarıqlarının artırılmasına imkan verən elm, təhsil və məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi nəticəsində məhsuldarlıq göstəricilərinin yüksəldilməsi təmin olunacaqdır.

Bütün bunların nəticəsi kimi, 2025-ci ilədək kənd təsərrüfatı məhsullarının qeyri-neft ixracındakı payı bu məhsulların istehsal həcminin və səmərəliliyinin artırılmasına tətbiq edilən məqsədyönlü yanaşma əsasında əhəmiyyətli dərəcədə artacaqdır.

2025-ci ilədək olan dövr üzrə üzrə uzunmüddətli baxış çərçivəsində müəyyən edilmiş məqsəd kənd təsərrüfatı sektorunun tam müasirləşdirilməsi və onun rəqabət qabiliyyətinin gücləndirilməsidir. Buraya məhsulların istehsal həcminin artırılması, yüksək dəyər yaradan bitkiçilik məhsullarının istehsalı və kənd təsərrüfatı məhsulları emalının dəyər zəncirinin seçilmiş sahələri üzrə artırılması daxildir. Növbəti on ildə Azərbaycanda xüsusi bitkiçilik məhsullarının, məsələn, meyvə, qoz–fındıq və tərəvəz məhsullarının istehsal həcminin artırılması və bununla da həmin məhsulların emalı sənayesində rəqabət qabiliyyətinin gücləndirilməsi diqqət mərkəzində saxlanılacaqdır. Azərbaycan yerli istehsalda əvvəllər daha çox paya sahib olmuş, dəyər yaradan sənaye məhsullarının (məsələn, pambıq, çay və tütün məhsullarının) istehsalında və ixracında rəqabət üstünlüyünə malik olacaqdır. Bundan başqa, belə məhsulların ixracı artırılacaq, onların idxalından asılılıq azaldılacaq və nəticədə daha çox gəlir əldə ediləcəkdir. Eyni zamanda, bitkiçilik məhsullarının istehsalının artırılması istiqamətində görülən tədbirlər çərçivəsində kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin dəyər zəncirində daha mühüm rol oynaması təmin ediləcəkdir. Prioritet təşkil edən bitkiçilik məhsulları əsas ticarət marşrutlarına və nəqliyyat qovşaqlarına yaxın yerləşən emal müəssisələri vasitəsilə daha yüksək dəyər yaradan məhsul kimi yerli və xarici bazarlara çıxarılacaqdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi rəqabətqabiliyyətli istehsalın həcminin artırılması yolu ilə gücləndiriləcəkdir. Belə artıma nail olmaq üçün əsas diqqət qabaqcıl aqrotexniki qaydaların və avtomatlaşdırmanın tətbiqinə əsaslanan intensiv təsərrüfatların yaradılmasına yönəldiləcəkdir. Bu zaman ölkədə hər bir bölgənin potensialı nəzərə alınacaq, o cümlədən qrup şəklində xüsusi istehsal sahələrinin (klasterlərin) və altsektorların yaradılması istiqamətində tədbirlər görüləcəkdir. Ölkədə tətbiq edilən ənənəvi istehsal metodlarına əlavə olaraq, nəzərdə tutulmuş əsas bitkiçilik məhsullarının orqanik təsərrüfat metodları əsasında yetişdirilməsi dövlətin tənzimləmə standartları əsasında təşviq ediləcəkdir. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində yaranan istehsalçıların dəyər zənciri boyunca yüksək dəyər gətirən sahələrdə fəal iştirakı təmin ediləcəkdir.

2016–2020-ci illər üçün nəzərdə tutulmuş prioritetlər çərçivəsində həyata keçiriləcək tədbirlər nəticəsində 2025-ci ilədək ölkənin aqrar–sənaye müəssisələri kənd təsərrüfatı sektorunun əsaslı şəkildə dəyişməsində (transformasiyasında) əsas aparıcı qüvvə olacaqdır. Bundan sonra sənaye sahələrinə yerli və xarici özəl investisiya axını olacaq, yüksək dəyər yaradan kənd təsərrüfatı məhsullarının rəqabət əsasında istehsalı və emalı həyata keçiriləcəkdir. 2025-ci ilədək kənd təsərrüfatı məhsullarının emalı sektorunda bu cür investisiyalar hesabına ən az bir neçə yerli aparıcı müəssisənin yaradılması nəzərdə tutulmuşdur. Bu aqrar–sənaye müəssisələri öz ixrac potensialını yüksəldərək ixrac bazarlarının sayını artıracaq (Avropa bazarı kimi Qərb bazarları da daxil olmaqla) və dünya ticarətində mühüm paya sahib olacaqdır. Həmin dövrdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində yerli şirkətlərlə yanaşı xarici şirkətlər də geniş fəaliyyət göstərəcəkdir. Azərbaycanda investisiya axınının əhəmiyyətli dərəcədə artmasına şəraitin yaradılması, eləcə də beynəlxalq bazar iştirakçılarının kompleks layihələr və aqropolislər vasitəsilə yerli bazara daxil olması nəzərdə tutulub. Bu məqsədə xidmət edən ilk aqropolis – Ələtdəki Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zona 2025-ci ilədək mühüm emal mərkəzi kimi tam fəaliyyət göstərəcəkdir.

Bu baxımdan dövlətin qarşısında duran mühüm məsələlərdən biri yuxarıda qeyd edilən sektorların əsaslı inkişafına nail olmaqdır. Bunun üçün maliyyə resurslarına çıxış imkanları artırılacaq, eləcə də istehsalın səmərəliliyinin təmin edilməsi və istehsal həcminin artırılması üçün yerli istehsalçıların fəaliyyətinə qeyri–maddi stimullar veriləcəkdir. Eləcə də, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində fəaliyyət göstərən müəssisələrin maliyyələşmə ilə bağlı üzləşdiyi çətinliklər nəzərə alınacaq, onların müxtəlif kredit məhsullarına çıxışı kredit zəmanət fondunun fəaliyyəti genişləndirilməklə asanlaşdırılacaqdır. 2025-ci ilədək dövlət mülkiyyətində olan boş torpaq sahələrinin özəl sektorun istifadəsinə verilməsi nəzərdən keçiriləcək və həmin torpaq sahələrindən istifadə edən müəssisələrə biznes məsləhət xidməti göstəriləcəkdir. Normativ hüquqi bazanın təkmilləşdirilməsi yolu ilə aqrar sənaye sektorlarının inkişaf etməsi nəticəsində aqrar sənayeyə daha çox xarici investisiya cəlb ediləcəkdir.

Sözügedən dövrdə rəqabətqabiliyyətli aqrar sənayenin yaradılması və istehsal həcminin artırılması istiqamətində həyata keçirilən islahatlara əlavə olaraq, ölkədə fəaliyyət göstərən təsərrüfatların orta ölçüsünün artırılması və onların “miqyas iqtisadiyyatın”dan faydalanması istiqamətində bir sıra islahatlar həyata keçiriləcəkdir. Müstəqillik əldə edildikdən sonra ölkədə həyata keçirilmiş torpaq islahatlarının davamı olaraq görülən bu tədbirlər nəticəsində nisbətən kiçik təsərrüfatların birləşərək yerli bazarlarda daha güclü iştirakçıya çevrilməsi təmin ediləcəkdir.

Aqrobiznes və sənaye sahələrində müəyyən edilmiş prioritetlər üzrə tədbirlərin həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı sektorunun əsaslı şəkildə dəyişdirilməsi (transformasiyası) rayonlardakı ailə təsərrüfatlarında da bu islahatın aparılmasına şərait yaradacaqdır. Bundan başqa, 2025-ci ilə qədər ölkədə kooperativlər və müqavilə fermerliyi sistemi yaradılacaqdır. Fermerlər biznes assosiasiyalarında, eləcə də sektor islahatlarının həyata keçirilməsində fəal rol oynayacaqdır. Ölkədə təsərrüfatların birləşdirilməsi və üç istiqamətdə (maliyyə resurslarına, istehsal vasitələrinə və bazarlara çıxış imkanlarının artırılması) müdaxilələrin həyata keçirilməsi daha çox dəyər yaradan məhsulların istehsalına, qabaqcıl aqrotexniki qaydaların tətbiqinə və bununla da təsərrüfat gəlirlərinin artmasına imkan verəcəkdir. Fermerlərin yüksəkkeyfiyyətli toxum və gübrə bazarına çıxışı asanlaşdırılacaq, onların investisiya yatırmaq potensialı daha da gücləndiriləcəkdir. Eyni zamanda, yerli bazarlar kiçik fermerlərə fasiləsiz olaraq xidmət edəcək və onların bu bazarlarda daha çox paya sahib olmasına şərait yaradılacaqdır.

Müvafiq proqramlar çərçivəsində beynəlxalq inkişaf fondlarının fəaliyyətinə şərait yaratmaqla ölkənin suvarma sisteminə investisiya qoyulacaq, su itkisinin azaldılması və beynəlxalq standartların tələblərinə uyğunluğun təmin edilməsi üçün mövcud suvarma sistemləri yenilənəcək və onların faydalı iş əmsalı artırılacaqdır. Bunun birbaşa nəticəsi olaraq, davamlı su təchizatı təmin ediləcək və kənd təsərrüfatı məhsullarının istehsalı artırılacaqdır. Ölkə sənayesi inkişaf etdikcə əsas bitkiçilik məhsullarının istehsal edildiyi bölgələrdə belə suvarma sistemləri genişləndiriləcəkdir.

2025-ci ilədək ölkədə elektron kənd təsərrüfatı sistemi fəaliyyət göstərəcək və bu sistem daha güclü qərarların verilməsinə və siyasətin hazırlanmasına şərait yaradacaqdır. Ölkənin bütün təsərrüfatları, onların yetişdirdiyi məhsullar və torpaq sahələri barədə məlumatları özündə əks etdirən geniş məlumat bazasının yaradılmasından sonra sektorlarla bağlı gələcək strategiyaların həyata keçirilməsi üçün müvafiq məlumatlar təhlil ediləcəkdir. Belə təhlillərin nəticələri əsasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorlarının əsaslı şəkildə dəyişdirilməsi üçün stimullaşdırıcı tədbirlər həyata keçiriləcəkdir.

Azərbaycanda kənd təsərrüfatı sənayesinin uzunmüddətli inkişafına davamlı dəstək üçün müvafiq mexanizmlərdən istifadə ediləcəkdir. Ölkədə yerli istehsalın keyfiyyət və kəmiyyətinin artırılması üçün fermerlərin tələb edilən səviyyədə

ixtisaslaşması məqsədilə güclü informasiya-məsləhət xidməti bazası yaradılacaqdır. İstehsalın həcminin və səmərəliliyinin artırılması üçün lazımi məlumat mübadiləsi və ekspert dəstəyi təmin ediləcəkdir. Azərbaycan kənd təsərrüfatı sahəsində araşdırmaların, innovasiyaların və maarifləndirmə tədbirlərinin həyata keçirildiyi əsas region ölkələrindən birinə çevriləcəkdir. Bundan başqa, beynəlxalq standartlara uyğun beynəlxalq akkreditasiyalı laboratoriyaların fəaliyyəti və qabaqcıl metodların tətbiqi əsasında ölkənin qida təhlükəsizliyi sistemi yenilənəcək və müasirləşdiriləcəkdir. Belə sistemin inkişafına yüksəkkeyfiyyətli toxum və cins mal–qara bazarının yaradılması da təkan verəcəkdir. 2025-ci ilədək dövlətin fəal dəstəyindən bir o qədər də asılı olmayan və özünü təmin edə bilən bazarın yaradılması üçün müvafiq standartlar tətbiq ediləcəkdir.

2025-ci ilədək ölkənin aqrar sənayesini inkişaf etdirməklə, əhalinin ərzaq təhlükəsizliyi təmin ediləcəkdir. Yerli istehsalı, ticarət dövriyyəsini və məhsulun saxlanılması imkanlarını artırmaqla, o cümlədən institusional və operativ idarəetmə sistemi (məsələn, informasiya və erkən xəbərdarlıq sistemi) yaratmaqla, ölkənin uzunmüddətli özünütəminetmə potensialı gücləndiriləcəkdir.

Kənd təsərrüfatı məhsullarının intensiv istehsalı resursların istifadəsində səmərəliliyin artırılması ekoloji dayanıqlılığın təmin edilməsinə şərait yaradacaqdır. Bununla belə, məhsuldarlığın artırılması nəticəsində ətraf mühitin çirklənməsi təhlükəsinin yaranmaması üçün nəzarət tədbirləri həyata keçiriləcəkdir. Həmçinin təsərrüfat fəaliyyətinin genişlənməsi nəticəsində su, torpaq və digər təbii resursların mənfi təsirə məruz qalmaması üçün müvafiq nəzarət mexanizmləri və standartları tətbiq ediləcəkdir. Meşə ehtiyatlarının yüksək səviyyədə idarə edilməsi də bu dövr üçün dövlətin gündəliyində duran əsas məsələlərdən biridir.

2025-ci ilədək Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində əsaslı dəyişikliklər edilməsi kənd yerlərində inkişafa şərait yaradacaqdır. Urbanizasiya meyillərinin nəzərə alındığı məqsədyönlü dövlət proqramları çərçivəsində aqrar sənaye sahələrində və digər əlaqəli sektorlarda məşğulluq səviyyəsi və gəlirlər artacaqdır. Aqrar siyasətin hazırlanması zamanı sosial parametrlərlə bağlı daha böyük nailiyyətlərin əldə edilməsi hədəflənəcəkdir.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə 2025-ci ildən sonrakı dövr üçün gələcəyə baxış yüksək texnoloji inkişafa əsaslanan, sənayeyönümlü, ətraf mühitə dair standartların tələblərinə uyğun və qlobal dəyər zənciri sisteminə səmərəli inteqrasiya olunmuş kənd təsərrüfatının formalaşdırılmasını nəzərdə tutur.

Hədəf baxışın şərhi

2025-ci ildən sonra ölkənin kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorlarında məhsuldarlığın artırılmasına şərait yaranacaq, emal müəssisələri kənd təsərrüfatı məhsullarının emal edilərək, yüksək dəyər yaradan məhsula çevrilməsində mühüm rol oynayacaqdır. Yerli və xarici bazar iştirakçıları yüksək məhsuldarlığa, səmərəliliyə və ekoloji dayanıqlılığa malik emal sənayesi müəssisələrinin (məsələn, üzüm, tütün, pambıq və s.) fəaliyyətini gücləndirməklə, bu sektorların inkişafına təkan verəcəklər. Quru meyvə-tərəvəz məhsullarının və şirəsinin, eləcə də ət məhsullarının istehsalı üçün müasir emal müəssisələri və soyuducu anbarlar şəbəkəsi yaradılacaqdır. Yüksək dəyər yaradan xüsusi bitkiçilik məhsullarının yetişdiriləcəyi rayonlar bu məhsulların istehsalı və emalı üzrə ixtisaslaşdırılacaq.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının artırılması nəinki ərzağa olan yerli tələbatı ödəyəcək, hətta region və dünya bazarlarına ixrac imkanlarını artıracaqdır. Azərbaycanın ərzaq məhsulları istehsalçıları öz məhsullarının

dünya bazarında yüksək keyfiyyətinə görə tanınmasını və bu məhsulların milli brendinin yaradılmasını təmin edəcəklər. Belə tanınmış şirkətlər ölkənin logistika infrastrukturunun inkişafı sayəsində Qafqaz regionunda əsas ixracatçı kimi fəaliyyət göstərəcək, hətta digər ölkələrə investisiya qoymaqla, biznes fəaliyyətini genişləndirə və regionda daha güclü mövqeyə sahib ola biləcəklər.

Azərbaycan hökuməti belə tədbirlərin həyata keçirilməsinə minimum səviyyədə müdaxilə edəcək və bununla da birbaşa icra edən tərəf kimi deyil, müəyyən stimullaşdırıcı tədbirlər həyata keçirməklə inkişafa şərait yaradan tərəf kimi çıxış edəcəkdir. Belə inkişafa şəraitin yaradılması üçün dövlət tərəfindən informasiya-məsləhət xidmətləri təmin ediləcək, elektron kənd təsərrüfatı sistemi yaradılacaq, normativ hüquqi bazaya müvafiq dəyişikliklər etməklə yüksək rəqabət mühiti yaradılacaq və aqrar sənayeyə investisiya axını artırılacaqdır.

2025-ci ildən sonra Azərbaycanda ərzaq təhlükəsizliyinin dayanıqlılığını təmin etmək üçün zəruri tədbirlər davam etdiriləcək və kənd təsərrüfatı sektoru kənd yerlərində inkişafa təkan verən əsas iqtisadi qüvvə rolunu oynayacaqdır. Bununla belə, ölkədə məhsulların qida tərkibinin (məsələn, zülal tərkibinin) artırılaraq müəyyən səviyyədə saxlanılması üçün düzgün və məqsədyönlü strategiya həyata keçiriləcəkdir.

2025-ci ildən sonrakı dövrdə prioritetlər üzrə tədbirlərin və layihələrin həyata keçirilməsi zamanı ekoloji dayanıqlılıq diqqət mərkəzində saxlanılacaq və zərurət yarandıqda, belə tədbirlərdə dəyişikliklər ediləcəkdir. Kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün həyata keçirilən müvafiq tədbirlərin ətraf mühitə hər hansı mənfi təsirinin olmamasına diqqət yetiriləcəkdir. Ölkə sənayesinin gələcək inkişafı üçün nəzərdə tutulmuş strategiyalar bu “yaşıl” yanaşma əsasında planlaşdırılacaq, iqlim dəyişikliyi nəzərə alınacaq və ətraf mühitə fayda verən istehsal və emal metodları tətbiq ediləcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda nəzərdə tutulan prioritetlərin həyata keçirilməsi nəticəsində 2020-ci ildə 2015-ci illə müqayisədə:

- Azərbaycanın real ÜDM-i 1235 milyon manat artacaqdır. Burada birbaşa təsirin təxminən 575 milyon manat, dolayı təsirin isə 660 milyon manat olacağı gözlənilir;
- ölkənin regionları üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi ilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda 20 min yeni iş yeri açılacaqdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda nəzərdə tutulan tədbirlər üzrə 2020-ci ilədək (2015-ci illə müqayisədə) aşağıdakı əsas hədəf indikatorları müəyyən edilmişdir:

- ət istehsalının 20 faiz, süd istehsalının 30 faiz artması;
- pambıq istehsalı, eləcə də emalı üzrə istehsal həcminin ən azı 4 dəfə artması;
- barama istehsalı, eləcə də emalı üzrə istehsal həcminin ən azı 1000 dəfə artması;
- 2020-ci ilə kimi hər regionda uyğun məhsulların dəyər zənciri üzrə ümumilikdə 25 kiçik və orta sahibkarlıq subyektinin yaranması;
- əlavə 665 milyon manat maliyyə vəsaitinə çıxış imkanının yaradılması;
- inzibati rayonlar və sektorlar üzrə ən azı 100 investisiya layihəsinin hazırlanması;
- istehsalçıların suvarma suyu ilə təminatının 20 faiz artması;
- istifadəsiz, lakin kənd təsərrüfatı üçün yararlı torpaqların əkin dövriyyəsinə qaytarılması hesabına ümumi əkin sahələrinin həcminin 5 faiz artması;
- kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən minneral gübrələrdən istifadənin 25 faiz artması;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının bitki mühafizəsi vasitələrindən istifadəsinin 25 faiz artması;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının sertifikatlı toxumlardan, eləcə də tinglərdən istifadə səviyyəsinin 90 faizə çatdırılması;
- kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika, maşın və avadanlıqlarla, eləcə də kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatının 20 faiz artması;
- bütün aqraryönümlü ixtisaslar üzrə ali təhsil müəssisələrində təhsilalanların sayının 20 faiz artması;
- özəl baytarlıq xidməti göstərənlərin sayının 30 faiz artması;
- paytaxtda və iri şəhərlərdə 5 “yaşıl market”in və 50 “fermer mağazası”nın qurulması;
- 2020-ci ilədək ölkədə kənd təsərrüfatı məhsullarının ixracı üzrə 200 fermerin ixtisaslaşması;
- suvarılan torpaqların 30 faizinin meliorativ vəziyyətinin yaxşılaşdırılması.

6. STRATEJİ MƏQSƏDLƏR

Strateji Yol Xəritəsinin ümumi məqsədi Azərbaycan Respublikasında kənd təsərrüfatı sektorunun yüksək rəqabət qabiliyyətinə və dayanıqlı inkişafına nail olmaqdır. Bunun üçün aşağıdakı strateji məqsədlər müəyyən olunmuşdur:

- rəqabət üstünlüyü olan kənd təsərrüfatı məhsullarının regional və sahəvi inkişafı, kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsal vasitələrinə, informasiya-məsləhət xidmətinə, daxili və xarici bazarlara çıxışının asanlaşdırılması, kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması, aqrobiznesin və kənd təsərrüfatı məhsulları emalının inkişafı, aqrar sahədə elm və təhsilin keyfiyyətinin yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektorunun formalaşdırılması;
- daxili bazarda idxalı əvəzləyən zəruri ərzaq məhsullarının xüsusi çəkisinin artırılması, ərzaq ehtiyatlarının yaradılması və qida təhlükəsizliyinin gücləndirilməsi;
- kənd yerlərində layiqli məşğulluq imkanlarının artırılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi, kənd yerlərində sosial rifahın yaxşılaşdırılmasının təmin edilməsi;
- ətraf mühitin mühafizəsi, torpaq və su resurslarının qorunması məqsədilə iqlim dəyişikliklərinə uyğunlaşan kənd təsərrüfatının inkişafı və su və torpaqdan istifadənin səmərəliliyinin yüksəldilməsi üçün qabaqcıl texnologiyaların tətbiqi yolu ilə aqrar sahədə davamlı irəliləyişin təmin edilməsi.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. Ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil etdiyi üçün növbəti illərdə də bu sahədə görülən işlər genişləndiriləcək, nəzərdə tutulan tədbirlər ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə daimi əsaslarla təmin edilməsinə istiqamətlənəcəkdir.

Ölkənin ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi, o cümlədən ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi ilə bağlı bu Strateji Yol Xəritəsində müəyyən edilmiş çoxsaylı prioritetlər çərçivəsində geniş əhatəli tədbirlər nəzərdə tutulmuşdur. Eyni zamanda, ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi istiqamətində də zəruri tədbirlər görüləcəkdir.

Tədbirlərə əsasən üç prioritet istiqamət üzrə tədbirlər həyata keçiriləcəkdir. İlk olaraq, ərzaq təhlükəsizliyi üzrə informasiya və monitorinq sisteminin formalaşdırılması məsələlərinə baxılacaqdır. Burada ölkədaxili və beynəlxalq təşkilatların ərzaq təhlükəsizliyi ilə bağlı məlumatlarının vahid məlumat bazasında sistemləşdirilməsi nəzərdə tutulur. Həmçinin, ərzaq məhsullarının istehsalı, idxalı, saxlanılması və ticarəti üzrə informasiya portalı yaradılacaqdır ki, bu da ərzaq təhlükəsizliyi ilə bağlı qərarların qəbul edilməsi prosesinin effektivliyini daha da artıracaqdır.

Ölkə əhalisinin ərzaqla təminatının daha da yaxşılaşdırılması məqsədilə, əhalinin bütün təbəqələrinin ərzağa əlyetərlik səviyyəsi mütəmadi monitorinq olunmaqla, əlyetərliyə təsir edən iqtisadi, fiziki və s. səbəblər təhlil ediləcəkdir.

İkinci prioritet çərçivəsində ərzaq təhlükəsizliyi sahəsində aparılan monitorinqlərin nəticəsi olaraq əhalinin bütün təbəqələrinin etibarlı ərzaq təminatına nail olunması üçün hər bir region və məhsul qrupu üzrə, xüsusilə də fövqəladə hallar nəzərə alınmaqla, mexanizmlərin formalaşdırılması ilə bağlı ehtiyaclar müəyyən olunacaq və bu istiqamətdə tədbirlər həyata keçiriləcəkdir.

Bu strateji hədəfin üçüncü prioriteti isə ölkədə qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsindən ibarətdir. Qida təhlükəsizliyi sahəsində müxtəlif dövlət orqanları tərəfindən paralel olaraq və total şəkildə həyata keçirilən nəzarət prosedurları sadələşdirilərək, effektiv və riskəsaslı yanaşma tətbiq olunacaq, dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və ərzaq təchizatı sisteminin iştirakçılarının özlərinin daha çox məsuliyyət daşıdığı, habelə ictimai nəzarət mexanizmlərinin gücləndirildiyi qida təhlükəsizliyi sisteminin qurulması istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

7.1.1. Prioritet 1.1. Ərzaq təhlükəsizliyinin dayanıqlılığı və əhalinin ərzağa əlyetərliyi ilə bağlı məlumat və monitorinq sisteminin qurulması

Əsaslandırma

Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə çevik və effektiv qərarlar real vəziyyətin obyektiv məlumatlar əsasında qiymətləndirilməsi, mövcud və gələcəkdə baş verə biləcək problemlərin aşkarlanması və aradan qaldırılması üçün qısa, orta və uzunmüddətli tədbirlərin müəyyənləşdirilməsi vasitəsilə verilir. Qeyd edilən problemlərin həlli istiqamətində tədbirlərin müəyyənləşdirilməsi və qərar qəbul

edilməsi prosesinin effektivliyinin artırılması üçün ərzaq təhlükəsizliyi üzrə etibarlı informasiya və monitorinq sistemi formalaşdırılmalıdır. Hazırda ölkədə ayrı–ayrı qurumlarda və təşkilatlarda ərzaq təhlükəsizliyi üzrə məlumat bazaları mövcud olsa da, ərzaq təhlükəsizliyi üzrə ixtisaslaşdırılmış informasiya və monitorinq sistemi hələ ki, mövcud deyildir. Belə ki, mövcud sistemlərdə ərzaq təhlükəsizliyi ilə bağlı məlumatlar vardır. Dövlət Statistika Komitəsində ərzaq məhsullarının istehsalı, satış qiyməti, istehlakı, ərzaq balansları və s. kimi məlumatlar mövcuddur. Ekologiya və Təbii Sərvətlər Nazirliyində və digər qurumlarda hava şəraiti və yağıntılarla, torpaq, su resurslarının vəziyyəti ilə bağlı məlumatlar toplanır. Lakin bütün bu məlumatların ərzaq təhlükəsizliyi baxımından uyğunlaşdırılmasına və vahid məlumat bazasında sistemləşdirilməsinə ehtiyac vardır. Qeyd edilən məlumatların sistemləşdirilməsi ərzaq təhlükəsizliyi ilə bağlı vəziyyətin kompleks monitorinqinə imkan verəcək və beləliklə də sahə ilə bağlı qəbul edilən qərarların effektivliyi daha da yüksələcəkdir.

Görüləcək tədbirlər

Tədbir 1.1.1: Ərzaq Təhlükəsizliyi Komissiyasının yaradılması imkanlarının dəyərləndirilməsi

Ərzaq təhlükəsizliyi sahəsində koordinasiya, monitorinq, qiymətləndirmənin aparılması, proqram və layihələrin hazırlanması, həyata keçirilməsi, fövqəladə hallarda çevik tədbirlərin müəyyənləşdirilməsi və s. işlərin effektivliyinin təmin edilməsi üçün Ərzaq Təhlükəsizliyi Komissiyasının yaradılması nəzərdən keçiriləcəkdir. Komissiya üzvləri Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, Fövqəladə Hallar Nazirliyi və digər aidiyyəti qurumların nümayəndələrindən ibarət ola bilər. Komissiya üzvlərinin ən azı rübdə bir dəfə görüşlər keçirməsi, ərzaq təhlükəsizliyi üzrə həm ölkə daxilində, həm də beynəlxalq miqyasda baş verən dəyişiklikləri müzakirə etməsi və zəruri hallarda qabaqlayıcı tədbirlər hazırlaması planlaşdırılır. Komissiya tərəfindən, ilk növbədə, ərzaq təhlükəsizliyi sahəsində islahatlarla bağlı bu Strateji Yol Xəritəsində müəyyən edilmiş tədbirlərə dair fəaliyyət planının hazırlanması gözlənilir.

Tədbir 1.1.2: Ölkədə ərzaq məhsulları ilə təchizatın dayanıqlılığı baxımından risklərin qiymətləndirilməsi məqsədilə mütəmadi monitorinqlərin aparılması

Müvafiq göstəricilər sisteminə və metodikaya əsasən üç istiqamətdə monitorinqlərin aparılması nəzərdə tutulur: i) ərzaq məhsulları bazarının seqmentləri üzrə müxtəlif təchizat mənbələrindən və təchizatçılardan asılılığın səviyyəsi; ii) baş verə biləcək fövqəladə hallar zamanı ərzaq təchizatının stabilliyi ilə bağlı risklər; iii) ərzaq ehtiyatları üzrə infrastrukturun yetərliliyi səviyyəsi.

Bunlarla yanaşı, ərzaq balanslarının tərtib olunması işinin təkmilləşdirilməsi, habelə əhalinin ərzaq məhsulları istehlakı və bazarın cari və perspektiv həcmi ilə bağlı məlumatların keyfiyyətinin daha da yaxşılaşdırılması üçün müvafiq tədbirlər görüləcəkdir.

Ümumiyyətlə, ərzaq təhlükəsizliyi üzrə monitorinq və informasiya sistemi digər müvafiq yerli və beynəlxalq məlumat sistemlərinə inteqrasiya ediləcək və bu sistemlərlə əlaqəli fəaliyyət göstərəcəkdir.

Tədbir 1.1.3: Rasional fizioloji normaların hazırlanaraq təsdiq olunması, bunun əsasında əhalinin ərzaq məhsulları üzrə cari və perspektiv tələbatının həcmi və ödənilməsi səviyyəsinin mütəmadi təhlili və qiymətləndirilməsi sisteminin qurulması

Dövlət ərzaq ehtiyatlarının formalaşdırılması üçün əhalinin yaş və cins qrupları və bəzi digər əlamətlər (məsələn, hamilə qadınlar üçün) nəzərə alınaraq, beynəlxalq normalara uyğun rasional fizioloji istehlak normaları işlənib hazırlanacaq və müəyyənləşdirilmiş normalara uyğun olaraq hər bir region – inzibati rayon üçün ərzaq məhsulları üzrə istehlak bazarının tələbatı müəyyənləşdiriləcəkdir.

Gələcəkdə ölkə əhalisinin ərzaq təhlükəsizliyinin davamlı təmin edilməsi üçün müəyyən edilmiş normalar və tələbat, əhali sayının artması, iqlim dəyişikliklərinin mümkün təsirləri nəzərə alınaraq ərzaq ehtiyatlarının çeşid və həcmləri üzrə yaxın, orta və uzunmüddətli proqnozlar hazırlanacaq, eyni zamanda ərzaq təhlükəsizliyi baxımından daha zəif əhali qrupları və regionlar müəyyənləşdiriləcəkdir.

Tədbir 1.1.4: Əhalinin müxtəlif təbəqələrinin ərzağa əlyetərliyi səviyyəsi və buna təsir edən amillərin qiymətləndirilməsi məqsədilə monitorinq sisteminin qurulması

Əhalinin müxtəlif təbəqələrinin ərzağa əlyetərliyinə fokuslanmış müayinələr keçirilməklə, ərzağa əlyetərliyə təsir edən müxtəlif faktorlar (qiymət dəyişmələri, təklifin həcmi, ehtiyatların mövcudluğu və s.) ətraflı təhlil olunacaqdır. Bununla da ərzaq məhsulları bazarına təsir edən müxtəlif tədbirlərin (subsidiya, vergi və ya gömrük tənzimlənməsi, bazar infrastrukturunun inkişafı, enerji daşıyıcılarının qiymətlərinin tənzimlənməsi və digər tədbirlərin) əhalinin müxtəlif təbəqələrinin ərzağa əlyetərliyinə təsiri mütəmadi olaraq qiymətləndiriləcək və adekvat tədbirlər görüləcəkdir.

Tədbir 1.1.5: Ərzaq məhsullarının istehsalı, idxalı, ehtiyatları və ticarət axınları üzrə vahid elektron informasiya portalının yaradılması

Ərzaq məhsulları bazarında məhsul axınlarının mütəmadi olaraq izlənilməsinə imkan verə biləcək informasiya portalının Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Vergilər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin və "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin müvafiq məlumat bazalarının inteqrasiyası təmin olunmaqla yaradılması imkanları nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu sahədə reallaşdırılan tədbirlər nəticəsində ərzaq təhlükəsizliyi üzrə vahid məlumat bazası formalaşdırılacaq və ərzaq təhlükəsizliyi ilə bağlı sistemləşdirilmiş məlumatlara çıxış təmin ediləcək, beynəlxalq normalara uyğun fizioloji istehlak normaları işlənib hazırlanacaq, ölkənin, həmçinin hər bir regionun və inzibati rayonun ərzaq məhsulları üzrə tələbatı dəqiqləşdiriləcək, ərzaq ehtiyatlarının çeşid və həcm göstəriciləri üzrə yaxın, orta və uzunmüddətli proqnozlar hazırlanacaqdır. Sistem bundan başqa, Azərbaycan üzrə ərzaq təminatının keyfiyyətinə nəzarət etməyə, sosial və qidalanma indeksini müəyyən etməyə imkanı verəcək və mümkün risklərin qarşısını almaq üçün müdaxilələrin vaxtında və uyğun şəkildə həyata keçirilməsinə şərait yaradacaqdır. Ərzaq təhlükəsizliyi sahəsində görülən işlər vahid mərkəzdən koordinasiya ediləcəkdir.

Tələb edilən investisiya

Sistemin qurulmasına ilkin olaraq təxminən 2 milyon manat məbləğində maliyyə vəsaiti tələb ediləcəkdir. Daha sonra sistemin daimi fəaliyyətinin təmin edilməsi üçün hər il təxminən 200 min manat məbləğində maliyyə vəsaitinin kifayət edəcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklər məlumatların əldə edilməsində yarana biləcək çətinliklər və məlumatlardan istifadə səviyyəsinin aşağı olması ilə bağlı ola bilər.


7.1.2. Prioritet 1.2. Əhalinin bütün təbəqələrinin etibarlı ərzaq təminatına nail olunması mexanizmlərinin formalaşdırılması

Əsaslandırma

Ölkənin ərzaq təhlükəsizliyinə nail olmaq üçün ərzağa əlyetərliyin təmin edilməsi ən mühüm məsələlərdən biridir. Bu zaman bazarda əhalinin istəklərinə uyğun növdə, həcmdə və keyfiyyətdə ərzaq məhsullarının mövcud olması və faktiki istehlak göstəricilərinin yüksəldilməsi təmin olunmalıdır.

Keçən on illik dövr ərzində adambaşına düşən illik ərzaq istehlakı artmışdır (şəkil 14). Qeyd etmək lazımdır ki, bu dövr ərzində çörək və çörək məhsulları istehlakında 12,3 faiz azalma müşahidə edilmişdir ki, bu da əhalinin öz qida rasionunda digər məhsullara üstünlük verdiyini göstərir.

Şəkil 14. 2006–2015-ci illər üzrə ev təsərrüfatlarında ərzaq məhsullarının adambaşına düşən istehlakı (ildə kiloqramla)




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Göründüyü kimi, ölkədə aparılan məqsədyönlü iqtisadi siyasətin nəticəsi olaraq, son on ildə bu sahədə əhəmiyyətli irəliləyişlər əldə edilmişdir və demək olar ki, bütün əsas ərzaq məhsulları üzrə istehlak göstəriciləri artmışdır. Yalnız süd və süd məhsulları istehlakı bu dövr ərzində 2,5 faiz azalmışdır ki, bu da son dövrlər yaranmış yeni istehlak vərdişlərinə görə kərə yağından istifadənin bitki yağları və marqarin hesabına azalması ilə əlaqədardır.

Ölkə əhalisinin ərzaqla təminatının yaxşılaşdırılması zamanı nəzərə alınmalı olan məqamlardan biri də əhalinin gəlirləri, istehlak xərcləri və istehlak xərclərində ərzaq xərclərinin xüsusi çəkisi ilə bağlı göstəricilərdir (şəkil 15). Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsi olaraq son on ildə bütün bu göstəricilər üzrə nəzərəçarpacaq artım müşahidə edilmişdir ki, bu da birbaşa əhalinin həyat şəraitinin yüksəlməsini göstərən bir göstəricidir.

Şəkil 15. 2006–2015-ci illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən gəlirlər, istehlak xərcləri və ərzaq məhsullarına çəkilən xərclər (manatla)



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Məlumatların təhlili göstərir ki, son on ildə ev təsərrüfatlarında adambaşına düşən aylıq gəlirlər və istehlak xərcləri təxminən 3,2 dəfə artaraq ortalama 240 manat ətrafında dəyişmişdir. Qeyd olunan dövrdə ərzaq məhsullarına çəkilən xərclər 2,4 dəfə artmışdır.

Maraqlı cəhət budur ki, ümumi istehlak xərclərinin strukturunda ərzaq məhsullarına çəkilən xərclərin xüsusi çəkisi son on ildə azalmağa meyilli olmuşdur. Əgər 2006-cı ildə ümumi istehlak xərclərinin strukturunda ərzaq məhsullarına çəkilən xərclərin xüsusi çəkisi 53,6 faiz təşkil edirdisə, 2015-ci ildə bu göstərici 13,1 faiz bəndi azalaraq 40,5 faiz təşkil etmişdir.

Göründüyü kimi, ümumi xərclərin tərkibində ərzaq məhsullarına çəkilən xərclərin xüsusi çəkisinin azalmasına baxmayaraq, bu göstərici hələ də kifayət qədər yüksək olaraq qalır. İqtisadi baxımdan inkişaf etmiş ölkələrdə bu göstərici 25 faiz ətrafında dəyişir ki, bu da Azərbaycan üzrə göstəricilərdən daha aşağıdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, bu sahədə vəziyyətin daha da yaxşılaşdırılması, əhalinin istehlak göstəricilərinin daha da yüksəldilməsi üçün fəaliyyət davam etdiriləcəkdir. Bu məqsədlə, əsasən yerli istehsal potensialından maksimum istifadə edərək tələbatın ödənilməsi və əhalinin gəlirlərinin artırılması istiqamətində kompleks tədbirlər həyata keçiriləcəkdir ki, bu da son nəticədə əhalinin bütün dövrlərdə keyfiyyətli, faraş və ucuz ərzaq məhsullarına çıxışına şərait yaratmış olacaqdır.

Həmçinin, ölkə əhalisinin sağlamlığının təmin edilməsində sağlam qidalanma da mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, əhalinin istehlak normalarına uyğun qidalanmasını təmin etmək üçün insanlara istehlak mədəniyyətinin aşılanması, qida rasionunda dəyişikliklərin edilməsi, sağlamlığın qorunması üçün daha az çörək və daha çox meyvə–tərəvəz və süd məhsullarından istifadə ilə bağlı təşviq tədbirlərinin həyata keçirilməsi vacib məqamlardandır.

Görüləcək tədbirlər

Tədbir 1.2.1: Ərzağa əlyetərliyin təmin edilməsi məqsədilə ərzaq ehtiyatlarının formalaşdırılması

1.1-ci prioritet çərçivəsində hazırlanmış ərzaq ehtiyatlarına tələbata uyğun olaraq ərzağa əlyetərliyin təmin edilməsi və ərzaq bolluğunun yaradılması üçün daxili bazarın yerli ərzaq məhsulları ilə təminatı imkanları araşdırılacaqdır. Bu məqsədlə, hesablanmış rasional istehlak normalarına uyğun olaraq, ərzaq mənşəli kənd təsərrüfatı məhsullarının istehsalı potensialı qiymətləndiriləcək, ölkənin mövcud və perspektiv tələbatı nəzərə alınmaqla, regional səviyyədə ərzaq ehtiyatlarının istehsalı

üçün əkin sahələrinin optimal strukturu müəyyənləşdiriləcək, tələbata uyğun məhsulun saxlanılması üçün infrastruktura, o cümlədən yeni elevatorlara və taxıl anbarlarına ehtiyaclar qiymətləndiriləcək, infrastrukturun təkmilləşdirilməsi üzrə təkliflər hazırlanacaqdır. Eyni zamanda, bütün istiqamətlərdə ehtiyaclar müəyyənləşdirilərək yekun hesabat hazırlanacaq və bu ehtiyacların qarşılanması digər strateji hədəflərdə nəzərə alınacaqdır. Müəyyənləşdirilmiş tələbata uyğun ərzaq məhsullarının istehsalı, saxlanılması, daşınması və bazara çıxarılması üzrə işlərin optimal təşkili və tənzimlənməsinin bu Strateji Yol Xəritəsinin 2-ci, 6-cı və 8-ci strateji hədəflərinin tədbirləri çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.

Tədbir 1.2.2: Əhalinin bütün qruplarının ərzaq təminatının yaxşılaşdırılması üçün mexanizmlərin müəyyənləşdirilməsi

Əhalinin bütün kateqoriyalarının istehlak normalarına uyğun qidalanmasını təmin etmək üçün daha həssas sosial qrupların müəyyənləşdirilməsi və həmin qrupların ərzaqla təminatının yaxşılaşdırılması məqsədilə aidiyyəti orqanlarla birlikdə məqsədli dövlət proqramlarının hazırlanması imkanları araşdırılacaq, xüsusi ərzaq bazarlarının təşkili və ərzaq bankının yaradılması nəzərdən keçiriləcəkdir.

Tədbir 1.2.3: Fövqəladə vəziyyət şəraitində əhalinin ərzaq məhsulları ilə təmin edilməsi imkanlarının genişləndirilməsi

Əhalinin ərzaq təhlükəsizliyinə təhdidlərdən biri də fövqəladə hallar (müharibə, zəlzələ, sel, daşqın və s.) zamanı baş verə biləcək arzuolunmaz situasiyalar ola bilər. Bu hallarda həmin ərazilərdəki əhalinin zərər çəkmiş təbəqələrinin operativ və vaxtlı–vaxtında ərzaq məhsulları ilə təmin edilməsi ilə bağlı işlək sistemin qurulması üçün xüsusi araşdırma aparılacaqdır. Bu araşdırma vasitəsilə, regionların risk dəyərləndirilməsinin aparılması, bunun nəticəsində daha riskli regionların müəyyənləşdirilməsi, həmin regionların tələbatına uyğun olaraq fövqəladə vəziyyətlər üçün xüsusi ərzaq ehtiyatlarının həcminin hesablanması və tələbata uyğun ərzaq məhsullarının saxlanılması üçün zəruri infrastrukturun qurulması məqsədilə ehtiyacların müəyyənləşdirilməsi nəzərdə tutulur. Aidiyyəti qurumlarla birlikdə müəyyənləşdirilmiş ehtiyaclara uyğun tədbirlər planının və həmin tədbirlərin icrası mexanizmlərinin hazırlanması imkanları araşdırılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Prioritet çərçivəsində yerinə yetiriləcək tədbirlər nəticəsində ölkənin mövcud və perspektiv tələbatı nəzərə alınmaqla, tələbata uyğun ərzaq ehtiyatları formalaşdırılacaq, ərzaq məhsullarına əlyetərlik səviyyəsi yüksələcək və əhalinin bütün sosial qruplarında istehlak normalarına uyğun qidalanma səviyyəsi təmin ediləcəkdir. Fövqəladə vəziyyət şəraitində ölkə əhalisinin zərər çəkmiş təbəqələrinin operativ şəkildə və vaxtlı-vaxtında ərzaq məhsulları ilə təmin edilməsi üçün zəruri mexanizm qurulacaqdır.

Tələb edilən investisiya

Bu prioritet çərçivəsində həyata keçiriləcək tədbirlər, əsasən, tədqiqatxarakterli olduğundan, tələb edilən investisiyanın ümumi həcmi təxminən 1 milyon manat ətrafında dəyişəcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklər iqlim dəyişikliklərinə görə həm ölkə daxilində, həm də qlobal miqyasda əsas ərzaq məhsulları istehsalının azalması ilə bağlı ola bilər.

7.1.3. Prioritet 1.3. Dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması

Əsaslandırma

Ərzaq təhlükəsizliyi sisteminin tərkib elementi kimi qida təhlükəsizliyi sisteminin də müasir tələblərə uyğunlaşdırılması mühüm məsələlərdən biridir. Belə ki, Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi sistemi beynəlxalq tələblərdən və qabaqcıl təcrübələrdən əhəmiyyətli dərəcədə fərqlənir və qida məhsullarının təhlükəsizliyini tam təmin edə bilmir. Qida təhlükəsizliyinin təminatı sisteminin Avropa İttifaqının və müvafiq beynəlxalq təşkilatların tələblərinə uyğunlaşdırılması və məhsulların təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsi zəruridir. Azərbaycan qida təhlükəsizliyi üzrə beynəlxalq standartları müəyyənləşdirən təşkilatların və konvensiyaların üzvüdür və bu standartların ölkədə tətbiqini genişləndirmək üçün imkanlar mövcuddur.

Ölkədə yeyinti məhsulları bir çox qurum tərəfindən sertifikatlaşdırılır. Belə ki, heyvan mənşəli yeyinti məhsullarına baytarlıq, bitki mənşəli məhsullara fitosanitar sertifikatı, bütün yeyinti məhsullarına isə gigiyenik və uyğunluq sertifikatları verilir. Uyğunluq sertifikatı Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən verilir və məhsulların həm baytarlıq (heyvan mənşəli olduqda), həm fitosanitar (bitki mənşəli olduqda), həm də gigiyenik standartların tələblərinə uyğun olduğu təsdiq edilir. Deməli, hazırda milli standartlaşdırma sistemi yeyinti məhsullarının sertifikatlaşdırılmasında iştirak edir.

Sertifikatlaşdırılmış məhsulların istehsalının standartların tələblərinə uyğunluğuna nəzarəti hazırda Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, bazarda məhsulların standartların tələblərinə uyğunluğuna nəzarəti isə İqtisadiyyat Nazirliyi həyata keçirir. Yeyinti məhsullarına istehsal səviyyəsində bir çox dövlət orqanı nəzarət edir. Belə ki, bitki və bitki məhsullarına Dövlət Fitosanitar Nəzarəti Xidməti, diri heyvanlara və heyvan məhsullarına Dövlət Baytarlıq Nəzarəti Xidməti nəzarət edir. İstehsala girən xammala və istehsal prosesinə Səhiyyə Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən nəzarət edilir. Məhsul bazara daxil olandan sonra isə ona əsasən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti nəzarət edir. Göründüyü kimi, burada bəzi hallarda təkrarlanmalar mövcuddur. Bundan əlavə, qida təhlükəsizliyinə dair standartlar, sanitar və fitosanitar norma və qaydaların əksəriyyəti Sovet İttifaqı dövründə hazırlanmışdır və beynəlxalq tələblərə uyğun olaraq təkmilləşdirilməsinə ehtiyac vardır.

Yeyinti məhsullarının təhlükəsizliyinə nəzarət, əsasən, sertifikatların mövcudluğuna nəzarətlə məhdudlaşır. Bu isə məhsulların təhlükəsizliyindən və risklərin idarə edilməsindən çox, sertifikatların mövcudluğuna nəzarəti təmin edir.

Göründüyü kimi, hazırda qida təhlükəsizliyi sistemində risklərin nəzərə alınması sahəsində işlərin daha da genişləndirilməsinə ehtiyac vardır. Risklərin qiymətləndirilməsi və idarə edilməsi üçün yeni və daha təkmil mexanizmlərin tətbiqi və qida təhlükəsizliyi vəziyyətini xarakterizə edən göstəricilər (pestisidlər, baytarlıq preparatları və ətraf mühit çirkləndiriciləri) üzrə monitorinqlərin intensivləşdirilməsi qida təhlükəsizliyi sisteminin daha effektiv fəaliyyətini təmin etməyə kömək edə bilər. Qida təhlükəsizliyi sistemində koordinasiya və strateji planlaşdırma işlərinin də intensivləşdirilməsi diqqət mərkəzində saxlanılacaqdır.

Əsas məqamlardan biri də ixrac-idxal əməliyyatları zamanı məhsulların təftiş edilməsi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlıdır. Xüsusilə də, məhsulların təftişi

prosedurlarının Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırılmasına ehtiyac vardır.

Görüləcək tədbirlər

Tədbir 1.3.1: Mövcud qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi

Qida təhlükəsizliyinin bütün mərhələlərini əhatə edən, bütün maraqlı tərəflərin iştirakçılığına və riskəsaslı yanaşmaya əsaslanan qida təhlükəsizliyi sisteminin yaradılması məqsədilə beynəlxalq ekspertlər də cəlb olunmaqla, mövcud qanunvericiliyin monitorinqi aparılaraq təkmilləşdirmə imkanları müəyyən olunacaqdır. Bunun əsasında müvafiq qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi üçün layihələr hazırlanacaqdır. Qida təhlükəsizliyi haqqında qanun layihəsi və bu qanun layihəsinə müvafiq olaraq dövlət proqramının hazırlanması nəzərdən keçiriləcəkdir.

Tədbir 1.3.2: Qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətində paralelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması

Qida təhlükəsizliyinə nəzarət sahəsində təkrarlanmaların aradan qaldırılması üçün qida təhlükəsizliyinə nəzarət üzrə funksiyaların effektiv bölünməsi və tənzimlənməsi mexanizmi müəyyənləşdiriləcəkdir. Mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla, qida təhlükəsizliyinə nəzarətin institusional mexanizmləri təkmilləşdiriləcək, çevik qida təhlükəsizliyi sisteminin qurulması üçün müxtəlif qurumların qida təhlükəsizliyi ilə bağlı səlahiyyətlərinin daha effektiv bölgüsü imkanları nəzərdən keçiriləcəkdir. Bu bölgü nəticəsində qida təhlükəsizliyi sahəsində idarəetmə sisteminin 2 hissəyə – qida təhlükəsizliyi üzrə risklərin qiymətləndirilməsinə məsul olan və risklərin idarə edilməsini həyata keçirən qurumlara bölünməsi planlaşdırılır. Qeyd olunan istiqamətdə vahid mərkəzdən koordinasiyanın və çevik idarəetmənin təmin edilməsi məqsədilə Qida Təhlükəsizliyi Agentliyinin yaradılması imkanları nəzərdən keçiriləcəkdir. Həmçinin, bu sistemdə qida zənciri boyunca iştirak edən bütün subyektlərin qida təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsuliyyəti öz üzərlərinə götürmələrini təmin edən mexanizmlərin və ümumi nəzarət sisteminin yaradılması imkanları dəyərləndiriləcəkdir.

Tədbir 1.3.3: Yeyinti məhsullarının istehsalı, emalı, saxlanılması, daşınması və ticarəti üzrə standartların beynəlxalq tələblərə uyğunlaşdırılması

Qida təhlükəsizliyinin təminatı sisteminin ÜTT-nin, Aİ-nin və müvafiq beynəlxalq təşkilatların tələblərinə uyğunlaşdırılması və məhsulların təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsi istiqamətində işlər intensivləşdiriləcəkdir. Ölkədə yeyinti məhsullarına dair norma və qaydaların qida təhlükəsizliyinə dair Kodeks Alimentarius, bitki məhsulları üzrə Beynəlxalq Bitki Mühafizəsi Konvensiyası, heyvan mənşəli məhsullar üzrə Beynəlxalq Epizootik Büronun tələblərinə uyğunlaşdırılması istiqamətində tədbirlər planı hazırlanacaq və plana uyğun standartların harmonizasiyası aparılacaqdır.

Tədbir 1.3.4: Qida təhlükəsizliyi sisteminə daxil olan laboratoriyalar şəbəkəsinin optimallaşdırılması, modernləşdirilməsi və akkreditasiyadan keçirilməsi və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi

Qida təhlükəsizliyi sisteminə daxil olan laboratoriyaların modernləşdirilməsi üzrə təkliflər hazırlanacaq, zəruri hallarda, yeni laboratoriyaların yaradılması və akkreditasiyadan keçirilməsi sistemləri təkmilləşdiriləcəkdir. Eyni zamanda, dövlətin

özəl laboratoriyalarla əməkdaşlığı üçün mexanizmlər hazırlanacaq və etalon laboratoriyaların yaradılması istiqamətində tədbirlər görüləcəkdir.

Akkreditasiyadan keçirilmiş laboratoriyalar şəbəkəsinin formalaşdırılması sertifikatlaşdırma prosedurlarının da optimallaşdırılmasına imkan verəcəkdir.

Tədbir 1.3.5: Qida təhlükəsizliyi sahəsinə ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi

Qida təhlükəsizliyi sahəsi üzrə qüvvədə olan normativ aktlar, habelə müvafiq standartlar barədə məlumatların bütün maraqlı tərəflər üçün əlçatan olmasını və bununla bağlı ictimai məlumatlılığın artırılmasını təmin edən tədbirlər həyata keçiriləcəkdir. Qida təhlükəsizliyinin təmin edilməsi baxımından ictimai nəzarətin xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, bu istiqamətdə müvafiq mexanizmlər təkmilləşdiriləcəkdir.

Tədbir 1.3.6: Sağlam qidalanmanın təşviq edilməsi

Ərzaq təhlükəsizliyi sistemində ən mühüm məqamlardan biri də əhalinin sağlam qidalanması ilə bağlıdır. Sağlam qidalanmanın təmin edilməsi üçün əhalinin qida rasionunun zənginləşdirilməsi istiqamətində təşviqat işləri aparılacaq, dəniz məhsulları və digər alternativ enerji və kalori mənbələrinin, tədricən daha az çörək və daha çox meyvə-tərəvəz və süd məhsulları istehlakının sağlamlığa əhəmiyyəti ilə bağlı televiziya və radio verilişləri, habelə reklam çarxları hazırlanacaq, eyni zamanda xüsusi qrupların sağlam qidalanmasının təmin edilməsi istiqamətində də işlər aparılacaqdır. Uşaqlar, hamilə qadınlar və süd verən analar ölkənin gələcəyi baxımından milli əhəmiyyət kəsb etdiyi üçün bu sahədə də qidalanma məsələlərinə xüsusi diqqət ayrılacaqdır. Uşaqların, hamilə qadınların və süd verən analaların sağlam qidalanmasını təmin etmək üçün xüsusi pilot layihələr (məsələn, məktəblilər üçün təzə süd, hamilə qadın və süd verən analar üçün faraş meyvə-tərəvəz və s.) həyata keçiriləcəkdir.

Gozlənilən nəticə və nəticə indikatorları

Tədbirlər nəticəsində qida təhlükəsizliyinə nəzarət sahəsində təkrarlanmalar aradan qaldırılacaq, qida təhlükəsizliyi üzrə koordinasiya gücləndiriləcək, dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və riskəsaslı yanaşmaya əsaslanan qida təhlükəsizliyi sistemi yaradılacaq, bitkilərin sağlamlığı və pestisidlərə nəzarət üzrə monitorinq və müşahidə prosesləri genişləndiriləcək, heyvanların sağlamlığı və xəstəliklərə nəzarət üzrə monitorinq və müşahidə prosesləri təkmilləşdiriləcək, yeyinti məhsullarına dair Kodeks Alimentariusun tələblərinə uyğunlaşma reallaşdırılacaqdır. Eyni zamanda, baytarlıq-sanitariya və sanitariya-epidemioloji tələblərə uyğun ət kəsimi və satışı mərkəzlərinin yaradılması təmin olunacaq, ərzaq məhsullarının təhlükəsizlik standartları beynəlxaq standartlara uyğunlaşdırılacaq və Azərbaycan ÜTT-yə üzv olarsa, beynəlxalq bazarlara çıxışla əlaqədar daha geniş imkanlar yaranacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində tələb edilən maliyyə resurslarının həcminin təxminən 5 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır. Məsrəflər, əsasən, qanunvericiliyin təkmilləşdirilməsi, institusional islahatlar və standartların inkişaf etdirilməsi, ictimai məlumatlılığın artırılması, sağlam qidalanmanın təşviqi və müxtəlif təyinatlı monitorinqlərin təşkili ilə bağlı xərclərdən ibarət olacaqdır. Laboratoriyaların təkmilləşdirilməsi və avadanlıqların yenilənməsi ilə bağlı investisiya qoyuluşu xərcləri

müvafiq tələblərə uyğun texniki-iqtisadi əsaslandırmalar aparılmaqla, ayrıca hesablanacaqdır.

Gözlənilən risklər

Qida təhlükəsizliyinə nəzarət sahəsində mövcud təşkilati-idarəetmə sistemində islahatlar, xüsusilə də bazar iştirakçılarının özlərinin məsuliyyət daşıması ilə bağlı mexanizmlərin tətbiqi ilə bağlı işlər ləng gedə bilər.

7.2. Strateji hədəf 2. Kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə artırılması

Azərbaycanın əksər kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı üzrə müqayisəli üstünlükləri yüksəkdir ki, bu da müvafiq məhsullar üzrə istehsal potensialının artırılması hesabına daxili bazarda bir sıra idxal məhsullarının əvəzlənməsinə və rəqabətqabiliyyətli məhsulların ixracının genişləndirilməsinə imkan verir. Bununla belə, istehsal potensialının gücləndirilməsi baxımından müvafiq tədbirlər, o cümlədən dövlət dəstəyi tədbirləri daha çox dəyər zəncirinin ilkin mərhələlərinə fokuslaşmışdır. Lakin bazarın inkişafı və əlverişli şərtlərlə bazara çıxış məsələləri də kifayət qədər strateji əhəmiyyətə malikdir və bu istiqamətdə əhəmiyyətli dəyişikliklərə, o cümlədən bazar infrastrukturunun təkmilləşdirilməsinə ciddi ehtiyac duyulur. Həmçinin istehsalçılar və emalçılar arasında qarşılıqlı faydalı əməkdaşlıq arzuolunan səviyyədə deyildir və bu da aqrobiznesin dəyər zəncirlərinin bütün həlqələri üzrə inkişafını məhdudlaşdırır.

Bu strateji hədəfə nail olmaq üçün beş prioritet istiqamət üzrə tədbirlər həyata keçiriləcəkdir.

Birinci prioritet çərçivəsində həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsinə nail olunmağa çalışılacaqdır.

İkinci prioritet üzrə idxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının artırılması istiqamətində təbirlər həyata keçiriləcək, təşviqat işləri gücləndiriləcəkdir.

Üçüncü prioritet kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması və kooperasiyanın inkişafına həsr edilmişdir və bu istiqamətdə kompleks tədbirlər planı həyata keçiriləcəkdir.

Dördüncü prioritet çərçivəsində kompleks layihələrin həyata keçirilməsi üçün dövlət–özəl tərəfdaşlığının inkişafı üçün imkanlar dəyərləndiriləcək və tədbirlər müəyyənləşdiriləcəkdir.

Bu strateji hədəfin sonuncu prioriteti üzrə aqrobiznesin inkişafına dəstək infrastrukturunun formalaşdırılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Qarşıdakı illərdə də bu strateji hədəf çərçivəsində aqrobiznesin inkişafı üçün əlverişli hüquqi, iqtisadi və informasiya mühitinin yaradılması istiqamətində fəaliyyətlər həyata keçiriləcəkdir.

7.2.1. Prioritet 2.1. Həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsi

Əsaslandırma

Azərbaycanın xalis ticarət balansına nəzər saldıqda, ölkədə bir neçə əsas məhsulun istehsalının artırılması üçün mühüm imkanların olduğunu görmək olar. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən,

Azərbaycan təzə meyvə və fındıq məhsullarının (2015-ci ildə 220,2 milyon ABŞ dolları) və tərəvəz məhsullarının (2015-ci ildə 91,7 milyon ABŞ dolları) ixracı üzrə kifayət qədər yüksək göstəricilərə malikdir.

Ölkədə, xüsusilə pomidor, kornişon, təzə meyvə (xurma, nar, alma, gilas, şaftalı), yaşıl çay yarpağı, günəbaxan yağı, şəkər və şəkər məhsulları və günəbaxan tumu kimi məhsulların ixracının artırılması üçün böyük imkanlar mövcuddur.

Azərbaycanda mühüm imkanların mövcud olduğu digər sahələrə üzüm şərabından spirtin alınması, fındıqçılıq, marqarin istehsalı, meyvə şirəsi istehsalı, yabanı meyvə və giləmeyvələrdən alınan məhsulların (çaytikanı yağı, soyuq sıxılmış qoz yağı, biyan kökü, zəfəran və s.) istehsalı, üzümçülük, pambıqçılıq, tütünçülük, ət və ət məhsullarının istehsalı, süd və süd məhsullarının istehsalı və baramaçılıq kimi sahələr aid edilir.

Malların ticarətinə dair BMT-nin məlumat bazasının məlumatları əsasında, Azərbaycanın regional və digər əsas bazarlara ixrac edə biləcəyi məhsulların geniş təhlili nəticəsində bir neçə mühüm məhsul müəyyən edilmişdir.

Bu təhlil Azərbaycandan, eləcə də regiondan idxal edilən məhsulların ümumi dövriyyəsi əsasında aparılmışdır. Regionun hər bir ölkəsinə məxsus olan idxal bazarının həcmi Azərbaycanda istehsalın artırılmasının vacibliyindən xəbər verir.

Rusiya bazarı bu baxımdan öz ölçüsünə və Azərbaycanda yetişdirilən bir sıra məhsulların idxalına görə çox mühüm ticarət potensialına malikdir. Rusiya bazarından başqa, yüksək potensiallı digər bazarlar sırasında MDB üzvü olan bəzi Orta Asiya ölkələrini, Aİ ölkələrini və Ukraynanı qeyd etmək olar.

Yaxın gələcəkdə iki qonşu ölkəyə kənd təsərrüfatı məhsulu ixracının artırılması üçün daha geniş imkanlar vardır: Rusiya bazarlarına daha çox məhsulun ixrac edilməsi və ticarət sanksiyalarının aradan qaldırılmasından sonra İranla ticarətin genişləndirilməsi.

Rusiya bazarı Azərbaycanda yetişdirilən bitkiçilik məhsullarının əsas bazarıdır. Digər ölkələrin və Azərbaycanın bu bazara ixrac etdiyi əsas məhsulların təhlili əsasında ixrac üçün aşağıdakı əsas məhsullar müəyyən edilmişdir:

Pomidor. Pomidor Rusiya bazarına ixrac edilən kənd təsərrüfatı məhsulları arasında ən böyük imkanlara malik olan məhsullardan biridir. 2011-ci ildən 2015-ci ilə kimi Rusiyanın pomidor idxalının ümumi həcmi orta hesabla ildə 4,5 faiz azalmışdır. Azərbaycan həmin dövrdə Rusiyaya pomidor ixracını ildə 16 faiz artırmışdır. 2015-ci ildə Rusiyaya təxminən 58 milyon ABŞ dolları dəyərində pomidor ixrac edilmişdir. Rusiyanın ümumi pomidor idxalının həcminin ildə 676 milyon ABŞ dolları olduğunu nəzərə alsaq, Azərbaycanın bu bazarda nisbətən kiçik paya sahib olduğunu görərik. Türkiyə hazırda Rusiya bazarının əsas pomidor ixracatçısı olub, 2015-ci ildə 346 milyon ABŞ dolları dəyərində (51 faizdən artıq) pomidor ixrac etmişdir. İstixanalarda ilboyu məhsul yetişdirmək imkanlarını da nəzərə alsaq, Azərbaycan ümumi istehsalı və məhsuldarlığı artıraraq bu bazarda daha böyük paya sahib ola bilər.

Xiyar və kornişon. 2011-ci ildən 2015-ci ilə kimi Rusiyanın xiyar və kornişon idxalı da sabit sürətlə ildə 12 faiz artmış, lakin 2015-ci ildə 44 faiz azalma olmuşdur. Azərbaycan bu baxımdan bazarda daha böyük paya sahib olmuş və həmin dövrdə Rusiyaya orta hesabla illik 10,7 milyon ABŞ dolları dəyərində xiyar və kornişon ixrac etmişdir. Bununla belə, 2015-ci ildə Rusiyanın ümumi xiyar idxalının 160 milyon ABŞ dolları olduğunu nəzərə aldıqda, Azərbaycanın ixrac etdiyi məhsulun (2015-ci ildə 6,6 milyon ABŞ dolları) həmin bazarda xüsusi çəkisinin aşağı olduğu görünür. Rusiya bazarına xiyar ixracında regionun əksər ölkələri rəqabət aparır və ölkənin idxal etdiyi xiyar məhsulunun yarıdan çoxu Türkiyədən və İrandan gətirilir. Azərbaycanla Rusiya arasında tarixən formalaşmış münasibətləri, coğrafi yaxınlığı və məhsuldarlığın yüksəldilməsi üçün potensial imkanların mövcudluğunu nəzərə alaraq, xiyar və kornişon ixracını daha da artırmaq olar.

Xurma. Ölkəyə xurma idxalı son illərdə sabit qalmışdır. 2014-cü ildə Rusiya bazarına ixrac edilən 227 milyon ABŞ dolları dəyərində məhsul üzrə Azərbaycanın payı 73 milyon ABŞ dolları (32 faiz) olmuş, 2015-ci ildə isə ixracın həcmi 74,6 milyon ABŞ dollarına qalxmışdır. Azərbaycan bu baxımdan Rusiyanın ən böyük ticarət ortağıdır, lakin bir hektarda orta hesabla 16 ton məhsul yetişdirildiyini nəzərə alsaq, ölkədə istehsalı və məhsuldarlığı artırmaqla, Rusiya bazarında daha böyük paya sahib olmaq imkanlarının olduğunu görərik.

Gilas. 2010-cu ildən 2015-ci ilə kimi Rusiyanın ümumi gilas idxalının 154 milyon ABŞ dollarından 71 milyon ABŞ dollarına düşməsinə baxmayaraq, bu məhsul Azərbaycanda hələ də mühüm ixrac potensialına malikdir. 2015-ci ildə Azərbaycandan Rusiyaya 19,6 milyon ABŞ dolları dəyərində məhsul ixrac edilmişdir. Azərbaycan Rusiya bazarı üçün bu məhsul üzrə Türkiyədən sonra ikinci ən böyük ixracatçıdır. 2015-ci ildə ölkədə hər hektardan 8 ton gilas götürülmüşdür ki, bu məhsuldarlıq dünya ölkələri üzrə orta göstəriciyə uyğun gəlir.

Alma. 2015-ci ildə Rusiyanın ümumi alma idxalının səviyyəsi 385 milyon ABŞ dolları olmuşdur. Bu göstərici əvvəlki illə müqayisədə aşağı olsa da, alma bazarı hələ də böyük bazarlardan biri olaraq qalır. Azərbaycan 2015-ci ildə 14,4 milyon ABŞ dolları dəyərində alma ixrac etmişdir və Rusiya bazarındakı payını artıra bilər.

Fındıq. Azərbaycan Rusiyanın 2015-ci il üzrə fındığa olan tələbatının (52 milyon ABŞ dolları) 35 faizini ödəmişdir və bu göstərici 2013-cü illə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir (2013-cü ildə cəmi 28 faiz). Azərbaycan hazırda Rusiya bazarındakı payını artırmaq üçün mühüm potensiala malikdir. Ölkədə bir hektardan 1,3 ton məhsul götürülür və qonşu ölkələrdən heç biri bu göstəricini üstələyə bilməmişdir. Bundan başqa, əksər hallarda fındıqla birlikdə emal edilən şokolad və kakao xammalı istehsal edən Avropa ölkələri, xüsusilə Fransa, Almaniya və İtaliya da fındıq məhsulunun ixracı üçün potensial bazar ola bilər.

Qeyd olunanlarla yanaşı, nar üzrə də ixrac imkanları kifayət qədər yüksəkdir və bu məhsulun da istehsal potensialının artırılması istiqamətində tədbirlər görüləcəkdir.

Üzümdən alınan spirt. Fransa Rusiyanın bu mal kateqoriyası üzrə ən böyük ixracatçısı olub, 2014-cü ildə bu bazarın ümumi tələbatının 50 faizə yaxınını ödəmişdir (114 milyon ABŞ dolları). Bununla belə, 2013-cü ildən 2015-ci ilə kimi Azərbaycandan Rusiyaya ixrac edilən bu məhsulun dövriyyəsi 60 faiz artmış və Azərbaycan həmin ildə 17,6 milyon ABŞ dolları ümumi ixrac dövriyyəsi ilə üçüncü yeri tutmuşdur. Ölkədə üzümçülük ənənəvi sahələrdən biridir və bu sahədə kifayət qədər yüksək potensial vardır.

Meyvə-tərəvəz şirələri. 2015-ci ildə Polşa Rusiyanın meyvə-tərəvəz şirələri üzrə idxal bazarında aparıcı rol oynayaraq, ümumi tələbatın 47 faizini ödəmişdir. Azərbaycan isə həmin ildə Rusiya bazarının ən böyük ixracatçılarından biri kimi, ümumi tələbatın 7 faizini ödəmişdir. Son illərdə Azərbaycandakı istehsal artımını nəzərə alsaq, ölkənin bu kateqoriya üzrə bazarda daha böyük paya sahib olmaq üçün mühüm potensiala malik olduğunu deyə bilərik. 2010-cu ildən 2014-cü ilə kimi tərəvəz şirəsinin ixracı 24 faiz, meyvə şirəsinin ixracı isə 12 faiz artmışdır.

Azərbaycan İrana tətbiq edilmiş beynəlxalq iqtisadi sanksiyaların ləğvindən sonra bu bazarı qısa müddət ərzində meyvə-tərəvəz şirələri ilə təmin edə bilər.

İranın əsas idxal məhsulları ilə Azərbaycanın əsas ixrac məhsulları arasındakı uyğunluğun təhlili əsasında üç əsas məhsul müəyyən edilmişdir:

Günəbaxan tumu. 2015-ci ildə İranın idxal etdiyi günəbaxan tumunun ümumi dəyəri 175 milyon ABŞ dolları olmuşdur. Azərbaycanda 2015-ci ildə bir hektardan 17,7 sentner məhsul götürülmüş, ümumi istehsal isə 18,4 min tona çatmışdır. Azərbaycanda bu məhsulun ümumi istehsalını nəzərə aldıqda belə nəticəyə gəlmək olur ki, ölkə İran bazarında müəyyən paya sahib ola bilər.

Şəkər xammalı. 2014-cü ilin rəqəmlərinə əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycan öz tələbatını tam ödəməklə 55 milyon ABŞ dolları ekvivalentində ixrac potensialı yarada bilər.

Günəbaxan yağı. 2014-cü ilin rəqəmlərinə əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycan İran bazarında bu məhsul üzrə müəyyən paya (45 milyon ABŞ dolları) sahib ola bilər. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda günəbaxan bitkisinin məhsuldarlığının daha yüksək olması İran bazarına daha çox günəbaxan yağı ixrac etməyə imkan verir.


Azərbaycanda yetişdirilən əsas məhsullarla İranın idxal etdiyi əsas məhsullar arasında üst-üstə düşən məhsullara meslin (buğda ilə çovdarın qarışığı), qarğıdalı və arpa da daxildir. Bununla belə, taxıl məhsullarını kommersiya məqsədləri üçün yetişdirən istehsalçıların sayca nisbətən az olması Azərbaycanda mənfi ticarət balansı yaradır. Ona görə də həmin məhsulların istehsalını artıraraq ölkənin İran bazarında əhəmiyyətli xüsusi çəkiyə malik olması üçün daha uzun müddət tələb olunur. Bundan başqa, Azərbaycan gələcəkdə ticarət balansında və həcmində baş verə biləcək dəyişikliklərdən asılı olaraq İran bazarına toyuq, üzüm, fındıq və xurma kimi məhsulların ixrac edilməsi imkanlarından yararlana bilər.

Qeyd olunanlarla yanaşı, nar, kartof, zəfəran, təbii bal, yun, gön-dəri də potensial ixrac məhsulları qrupuna daxil edilir. Məsələn, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə ölkədən 20,9 milyon ABŞ dolları məbləğində təzə və ya soyudulmuş kartof, 12,2 milyon ABŞ dolları məbləğində emal olunmamış gön (təbii xəzdən başqa) və aşılanmış dəri ixrac edilmişdir ki, bu da ölkəyə kifayət qədər yüksək həcmdə valyuta gətirilməsini təmin etmişdir. Gələcəkdə bu məhsulların istehsalının və ixracının daha da artırılması üçün dəstək mexanizmlərinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Eyni zamanda meyvə-tərəvəz məhsullarının emalı potensialının gücləndirilməsi məsələsi də aktualdır. Məhsul istehsalının dəyər zənciri üzrə dərinləşdirilməsi, nəticə etibarı ilə, yaranan əlavə dəyərin artmasına səbəb olur. Azərbaycanda istehsal olunan əsas məhsullardan bəziləri üzrə aparılan hesablamalar bunu sübut edir (şəkil 16).

Belə ki, məsələn, pomidor istehsalını dəyər zənciri üzrə inkişaf etdirməklə, ketçup istehsal edilməsi açıq sahədəki istehsaldan 386 faiz artıq əlavə dəyər əldə etməyə imkan verir. Kartofdan çips istehsalı açıq sahədəki istehsaldan 1278 faiz, xiyar istehsalında isə konservləşdirmə 500 faiz artıq əlavə dəyər əldə etməyə şərait yaradır.


Şəkil 16. Kənd təsərrüfatında dəyər zənciri üzrə son məhsulların istehsalı *(manat/k)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Göründüyü kimi, məhsul istehsalının dəyər zənciri üzrə dərinləşdirilməsi yaranan əlavə dəyərin bir neçə dəfə artmasını təmin edir. Bu baxımdan kənd təsərrüfatı məhsulları istehsalının təşkilinə region-məhsul-dəyər zənciri komponentlərini özündə birləşdirən üçölçülü məkan prizmasından yanaşılmalıdır (şəkil 17).

Şəkil 17. Region-məhsul-dəyər zənciri komponentlərini özündə birləşdirən mürəkkəb üçölçülü məkan



Qeyd olunanlarla yanaşı, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2015-ci ildə ölkədən 19,5 milyon ABŞ dolları həcmində pambıq və pambıqdan alınan məhsullar ixrac edilmişdir ki, bu da həmin məhsulun ixrac potensialının kifayət qədər yüksək olduğunu göstərir.

Eyni zamanda, tütün və barama istehsalının da müqayisəli üstünlükləri mövcuddur ki, bu da həmin məhsulların istehsalının artırılmasını aktuallaşdırır.

Ümumilikdə isə, pambıq, tütün və barama istehsalı və ixracı üzrə gələcək strategiyada aşağıdakılar nəzərdə tutulur:

- qısamüddətli dövr üçün istehsalın xammal şəklində ixrac məqsədilə artırılması;
- uzunmüddətli perspektivdə isə həmin məhsullardan alınan emal məhsullarının yerli istehsalını formalaşdırmaqla idxalın əvəzlənməsi və ixracın artırılması.

Qeyd olunanlara nail olmaq üçün hər üç məhsulun istehsalının stimullaşdırılması diqqətdə saxlanılacaq və hər bir istiqamət üzrə dövlət dəstəyinin forma və mexanizmləri müəyyənləşdiriləcəkdir.

Yuxarıda qeyd edilən məhsullar, əsasən Azərbaycanın kənd təsərrüfatında daha yüksək rəqabətqabiliyyətli məhsullardır və onların regionun digər bazarlarına da ixrac imkanları yüksək ola bilər. Strateji Yol Xəritəsinin altıncı hədəfində bu məhsulların daxili bazarlarda reallaşdırılması və ixracı üzrə mexanizmlər qeyd edilmişdir. Qarşıdan gələn illərdə həmçinin daha dərin diaqnostik təhlillər aparılaraq, qlobal və regional səviyyələrdə iqtisadi, sosial və geosiyasi mühitdə baş verən dəyişikliklər nəzərə alınmaqla, məhsulların dəyər zənciri üzrə istehsalının stimullaşdırılması üçün prioritet məhsul növləri ilə bağlı ayrıca proqramlar, plan və ya strategiyalar hazırlanacaqdır.

Görüləcək tədbirlər

Tədbir 2.1.1: İntensiv üsulla salınan meyvə bağlarının (xüsusilə nar, xurma, gilas, alma, habelə fındıq və digər qərzəkli meyvələr) və üzüm plantasiyalarının genişləndirilməsinin təşviqi

Bu tədbir çərçivəsində ölkənin meyvə (xüsusilə nar, xurma, gilas, alma, habelə fındıq və digər qərzəkli meyvələr) və üzüm istehsalı üzrə ixtisaslaşmış rayonları üzrə məhsul növlərinə görə istehsal sahələrinin genişləndirilməsi istiqamətində imkanlar qiymətləndiriləcək və inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Tədbir 2.1.2: Təzə kartof istehsalının artırılmasının dəstəklənməsi

Ölkədə kartof istehsalı ilə məşğul olan rayonlar üzrə geniş və hərtərəfli təhlillər aparılaraq, torpaq və iqlim şəraiti, bitkinin xüsusiyyətləri nəzərə alınmaqla, kartof istehsalı üçün ən əlverişli rayonlar müəyyənləşdiriləcək, həmin rayonlarda kartofun əkin sahələrinin genişləndirilməsi imkanları qiymətləndiriləcək və bu istiqamətdə inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Tədbir 2.1.3: Örtülü torpaqlarda, o cümlədən istixanalarda faraş tərəvəz istehsalının artırılmasının dəstəklənməsi

Tərəvəz istehsalı üzrə ixtisaslaşmış rayonlarda təhlillər aparılaraq, uyğun sahələrdə faraş tərəvəz istehsalının genişləndirilməsi imkanları qiymətləndiriləcək və istixanaların yaradılması məqsədilə ayrıca hesablamalar əsasında inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Tədbir 2.1.4: Regionlarda kiçik və ortaölçülü meyvə-tərəvəz emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin stimullaşdırılması

Bu məhsulların hər biri üzrə dəyər zəncirinin bütün həlqələrini əhatə edən diaqnostik təhlillər aparılacaq, təhlillərin nəticələrinə əsaslanmaqla regionlarda kiçik meyvə-tərəvəz məhsullarının emalı üzrə kiçik və orta müəssisələrin yaradılması

stimullaşdırılacaq, onların səmərəli fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılacaqdır.

Tədbir 2.1.5: Qurudulmuş və dondurulmuş meyvə-tərəvəz məhsulları istehsalının artırılmasının dəstəklənməsi

Qurudulmuş və dondurulmuş meyvə-tərəvəz məhsulları istehsalının artırılması üzrə inkişaf proqramları hazırlanacaq, müxtəlif dəstək mexanizmlərinin köməyi ilə bu sahələrin inkişafı stimullaşdırılacaqdır.

Tədbir 2.1.6: Pambıq, tütün və barama istehsalının artırılmasının təşviqi

Həm sosial, həm də iqtisadi cəhətdən əhəmiyyəti nəzərə alınaraq pambıq, tütün və barama istehsalına dövlət dəstəyinin forma və mexanizmləri müəyyənləşdiriləcək, məhsul istehsalının artırılması imkanları təhlil ediləcək, bu məhsulların istehsalı üçün daha uyğun rayonlar müəyyənləşdiriləcək və həmin rayonlar üzrə istehsalın genişləndirilməsi imkanları qiymətləndiriləcəkdir. Məhsul istehsalı rayonları müəyyənləşdirildikdən sonra müvafiq rayonlar üzrə məhsulların emal dərinliyinin artırılması üçün dəyərləndirmə aparılacaq, kompleks inkişaf planları hazırlanacaq və həyata keçiriləcəkdir.

Tədbir 2.1.7: İxracda ənənəvi olmayan və son dövrdə ixracına başlanılan məhsullar (cins heyvanlar, süd məhsulları, ət konservləri, arpa və s.), eləcə də ixrac potensiallı hesab edilən digər məhsullar (zəfəran, yun, gön-dəri, təbii bal, çaytikanı yağı, qoz yağı, biyan kökü və s.) üzrə ixrac imkanlarının dəyərləndirilməsi

Son dövrdə ixracına başlanılan məhsulların hər biri üzrə diaqnostik təhlillər aparılaraq, bu məhsullar üzrə ixracın genişləndirilməsinin müvəqqəti bir tendensiya və ya iqtisadi əsaslı bir trend olması dəqiqləşdiriləcəkdir. Bununla yanaşı, ixrac potensiallı digər kənd təsərrüfatı məhsulları üzrə istehsalın genişləndirilməsi imkanları araşdırılacaq və onların xarici bazarlarda rəqabətqabiliyyətliliyi üzrə diaqnostik təhlil aparılacaqdır. Təhlilin nəticələrindən asılı olaraq, müvafiq istiqamətlərdə ixrac potensialının artırılması stimullaşdırılacaq və inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Kənd təsərrüfatının ümumi rəqabətqabiliyyətliliyi yüksələcək, ixracyönümlü kənd təsərrüfatı məhsullarının və aqrar emal məhsullarının istehsalı genişlənəcəkdir. Bu prioritetin bir hissəsi olaraq, 2020-ci ildə Azərbaycanın real ÜDM-inin, 220 milyon manat birbaşa və 230 milyon manat dolayı olmaqla, ümumilikdə 450 milyon manat artacağı proqnozlaşdırılır. Bu hesablamalara 2.2-ci prioritetin təsiri də əlavə edilmişdir.

Tələb edilən investisiya

Bu prioritet çərçivəsində həyata keçiriləcək tədbirlərin hər biri üçün ayrıca layihə hazırlanaraq maliyyə resurslarına ehtiyaclar müəyyənləşdiriləcəkdir. İlkin qiymətləndirmələr nəticəsində, köməkçi prioritetlərin investisiya tələblərini də nəzərə almaqla, 440 milyon manat və ya daha yüksək məbləğdə investisiya tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

İqlim dəyişiklikləri və regiondakı geosiyasi vəziyyətin dəyişməsi tədbirlərin reallaşdırılmasına mənfi təsir göstərə bilər.

7.2.2. Prioritet 2.2. İdxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının artırılmasının təşviqi

Əsaslandırma

Bir sıra məhsulların idxalından asılılığın azaldılması hesabına idxal xərclərinin aşağı salınması və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi mühüm vəzifələrdən biri kimi müəyyən olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Rusiya Azərbaycanın idxal etdiyi əsas 10 məhsul üzrə aparıcı ixracatçı olub, Azərbaycanda bu məhsullara tələbatın demək olar ki, 37 faizini ödəyir. O cümlədən Azərbaycan siqaretin yarıdan çoxunu, bərk buğda və meslinin (buğda və çovdarın qarışığı) 50 faizindən çox hissəsini Rusiyadan idxal edir. Ölkənin idxal etdiyi 10 əsas məhsula olan tələbatının 7 faizini isə, əsasən, regionun digər ölkələri ödəyir və bu o deməkdir ki, Azərbaycan regionun digər ölkələri ilə oxşar iqlim şəraitinə və biznes mühitinə malik olduğu üçün həmin məhsulları istehsal edib onların idxalını əvəzləyə bilər.

2015-ci ildə Azərbaycan 122,1 milyon ABŞ dolları dəyərində bərk buğda, 174,7 milyon ABŞ dolları dəyərində yumşaq buğda və meslin, 31,2 milyon ABŞ dolları dəyərində qarğıdalı idxal etmişdir. Bu məhsulların istehsalında Azərbaycanın hazırkı rəqabət qabiliyyəti aşağıdır, çünki ölkədə bu məhsulların yetişdirildiyi təsərrüfatların sahəsi nisbətən kiçikdir və ən əsası, təsərrüfatlar tərəfindən aqrotexniki normaların tətbiqi lazımi səviyyədə deyildir.

2015-ci ildə Azərbaycana 287,2 milyon ABŞ dolları dəyərində siqaret idxal edilmişdir. Hazırda ölkədə tütünçülük lazımi səviyyədə inkişaf etməyib, lakin həm daxili bazarda, həm də regional bazarda tütün məhsullarının böyük həcmdə idxal dövriyyəsini (4,4 milyard ABŞ dolları) nəzərə aldıqda, bu ənənəvi məhsulun istehsalının əhəmiyyətli səviyyədə artırılması üçün böyük bazar potensialının olduğunu demək mümkündür.

2015-ci ildə Azərbaycana 70,3 milyon ABŞ dolları dəyərində emal olunmuş bitki yağı idxal edilmişdir, lakin ölkənin bu məhsul üzrə geniş ixrac dövriyyəsi vardır. 2015-ci ildə 55,9 milyon ABŞ dolları dəyərində bitki yağı ixrac edilmişdir ki, bunun da 54,5 faizi günəbaxan/saflor yağının payına düşür. Azərbaycan bitki yağlarının, xüsusilə günəbaxan/saflor yağının ixracında rəqabətqabiliyyətli olduğundan, bu məhsulların idxalından asılılığın azaldılması üçün mühüm imkanlar mövcuddur.

Azərbaycanda süd emalı müəssisələrinin sayının azlığı ilə yanaşı, sənaye tələbatı üçün təbii süd xammalı istehsalının həcmi də lazımi səviyyədə olmadığına görə, ölkəyə böyük miqdarda süd məhsulları idxal edilir. Mövcud emal müəssisələrinin əhatə dairəsini genişləndirməklə və fəaliyyətini gücləndirməklə, habelə təbii süd xammalı üzrə istehsal potensialını artırmaqla, keyfiyyətli və bazarın tələblərinə uyğun süd məhsullarının istehsalını yüksəltmək imkanları mövcuddur.

Təzə ət (mal, toyuq və qoyun əti) Azərbaycanda ən çox istehsal edilən heyvandarlıq məhsulları olmaqla, dəyər ifadəsində həcminə görə ikinci yerdədir. Bununla belə, bu məhsul yerli bazarın tələbatını ödəmir və onun ixracı aşağı səviyyədədir. Ölkədən, əsasən, emal edilmiş və konservləşdirilmiş ət məhsulu ixrac edilir. Azərbaycanda fəaliyyət göstərən emal müəssisələrinin müasir texnologiyalara və yüksək əmək məhsuldarlığına malik olduğunu nəzərə alsaq, onların əhatə dairəsini genişləndirməklə və fəaliyyətini gücləndirməklə, tələb olunan ət məhsullarının istehsalını əhəmiyyətli dərəcədə artırmaq olar.

Göründüyü kimi, Azərbaycanın idxal etdiyi kənd təsərrüfatı məhsullarının strukturunda emal edilmiş məhsulların payı daha böyükdür. Ölkədə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması bəzi məhsulların, məsələn, tütün,

süd və un məhsullarının idxalından asılılığı azalda və ticarət kəsirini nisbətən aradan qaldıra bilər.

Ümumilikdə isə aparılan təhlillər nəticəsində, idxalı əvəz etmək potensialı olan bir sıra kənd təsərrüfatı və emal sənayesi məhsulları müəyyənləşdirilmişdir və həmin məhsulları istiqamətlər üzrə aşağıdakı kimi qruplaşdırmaq olar:

- heyvandarlıq məhsulları: ət, süd, quş əti;
- dənli paxlalılar: buğda, qarğıdalı və s.;
- sənaye təyinatlı məhsullar: pambıq, tütün, şəkər çuğunduru, çay, dərman bitkiləri, barama, yun, gön-dəri.

Ortamüddətli perspektiv üçün idxalın əvəzlənməsi məqsədi ilə sənaye məhsulları üzrə emalın inkişaf etdirilməsi nəzərdə tutulur.

Beləliklə, prioritet üzrə qarşıda duran məqsədə nail olmaq üçün idxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı məhsullarının hər qrupu üzrə əsas məhsullar müəyyənləşdirilərək, onların istehsal və emal potensialının gücləndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Strateji Yol Xəritəsinin icrası çərçivəsində daha dərin diaqnostik təhlillər aparılaraq, qlobal və regional səviyyələrdə iqtisadi, sosial və geosiyasi mühitdə baş verən dəyişikliklər nəzərə alınacaq, məhsulların dəyər zənciri üzrə istehsal potensialının artırılması istiqamətində fəaliyyət daha da genişləndiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.2.1: İntensiv ferma modeli əsasında iri heyvandarlıq komplekslərinin yaradılmasının təşviqi

Ölkədə heyvandarlıq məhsulları istehsalının və beləliklə idxalın əvəz edilməsi imkanlarının artırılması üçün heyvandarlıqda istehsalın intensiv əsaslarla inkişaf etdirilməsi və məhsuldarlıq göstəricilərinin yüksəldilməsi məqsədilə qapalı şəraitdə fəaliyyət göstərən iri heyvandarlıq komplekslərinin təşkili təşviq ediləcək və maarifləndirici materialların yayımlanması təmin ediləcəkdir. Eyni zamanda, aqrofermaların yaradılması sahəsində stimullaşdırıcı tədbirlər həyata keçiriləcək, heyvandarlıq komplekslərinin yüksək məhsuldarlıqlı cins heyvanlarla təminatına "Aqrolizinq" ASC vasitəsilə dəstək göstəriləcək, həmçinin, heyvandarlıq sahəsində intensivləşmənin əsas amillərindən biri kimi süni mayalanmanın genişləndirilməsi sahəsində işlər davam etdiriləcəkdir.

Tədbir 2.2.2: Ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması ilə bağlı İmişli, Bərdə və Ağcabədi rayonlarında həyata keçirilən pilot layihənin təcrübəsinin digər regionlarda tətbiq edilməsi

Heyvandarlıq məhsulları üzrə idxaldan asılılıq səviyyəsinin azaldılması üçün ailə-kəndli təsərrüfatlarının potensialının artırılmasının mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması təcrübəsinin genişləndirilməsi dəstəklənəcəkdir. Bu məqsədlə, İmişli, Bərdə və Ağcabədi rayonlarında həyata keçirilən pilot layihənin təcrübəsinin digər regionlarda da tətbiq edilməsi nəzərdə tutulur.

Tədbir 2.2.3: Sənaye üsulu ilə quş əti istehsalının müxtəlif seqmentlərin tələbatları üzrə genişləndirilməsinin stimullaşdırılması

Bu tədbir çərçivəsində broyler təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi üçün əlavə dəstək mexanizmlərinin hazırlanması qiymətləndiriləcəkdir. Gecböyüyən quş əti istehsalı, habelə emal məqsədilə iriçəkili quş əti istehsalı kimi, əhalinin müxtəlif qruplarının və emal sənayesinin tələbatına fokuslanmış istehsalın təşviqi üçün inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Tədbir 2.2.4: Regionlarda kiçik və orta ölçülü ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi

Burada əsas məqsəd ailə-kəndli təsərrüfatlarının və digər kiçik təsərrüfatların istehsal potensialından tam istifadə etmək olduğu üçün, rayon səviyyəsində orta, kənd səviyyəsində isə kiçik ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin formalaşdırılması üçün müxtəlif dəstək mexanizmləri hazırlanacaqdır.

Tədbir 2.2.5: Arıçılıq, balıqçılıq, o cümlədən akvakultura sahəsində inkişafın dəstəklənməsi

Ailə-kəndli təsərrüfatlarının və digər kiçik təsərrüfatların istehsal potensialından tam istifadə etmək, kənd yerlərində məşğulluğu təmin etmək və əhalinin gəlirlərini artırmaq, eyni zamanda ölkənin arıçılıq və balıq məhsulları və digər su bioresursları ilə təminatında yerli istehsalın xüsusi çəkisini artırmaq üçün kənd yerlərində arıçılıq, balıqçılıq, o cümlədən akvakulturanın inkişafı stimullaşdırılacaq, bu istiqamətdə istehsal fəaliyyəti ilə məşğul olmaq istəyən təsərrüfatların dəstəklənməsi üzrə müxtəlif inkişaf planları hazırlanacaqdır.

Tədbir 2.2.6: Ərzaq təyinatlı yumşaq və bərk buğda, habelə digər dənli paxlalı bitkilər istehsalının həcminin artırılmasının dəstəklənməsi

Ərzaq təyinatlı yumşaq buğda və digər dənli paxlalıların istehsalının həcminin artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi çərçivəsində əsas diqqət taxılçılığın daha səmərəli olduğu rayonların müəyyənləşdirilməsi, istehsalın maksimum intensivləşdirilməsi və məhsuldarlığın yüksəldilməsi hesabına mövcud əkin sahələrini genişləndirmədən istehsalın həcminin artırılmasına yönələcəkdir. Müvafiq rayonlarda makaron istehsalı müəssisələrinin yaradılması imkanları araşdırılacaq və inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir. Həmçinin bazar infrastrukturunun inkişafı tədbirləri çərçivəsində əsas taxılçılıq bölgələrində kiçik və orta həcmli taxıl anbarlarının yaradılması nəzərdən keçiriləcəkdir.

Tədbir 2.2.7: Şəkər çuğunduru və şəkərli qənnadı məmulatlarının yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi

Bu tədbir çərçivəsində həm yerli xammal, həm də şəkərli qənnadı məmulatlarının istehsalının artırılması imkanları qiymətləndiriləcəkdir. Araşdırmalarda ölkənin əkinəyararlı torpaqları, istehsal strukturu, kənd təsərrüfatı istehsalı sahələri üzrə səmərəlilik və s. bu kimi göstəricilər təhlil edilərək şəkər çuğundurunun yerli istehsalının iqtisadi səmərəliliyi qiymətləndiriləcəkdir. Təhlilin nəticələrinə əsaslanaraq şəkərli qənnadı məmulatlarının istehsalının yerli xammal bazası hesabına təmin edilməsi ilə bağlı inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Tədbir 2.2.8: Bitki yağları istehsalında istifadə olunan xammalın (günəbaxan, qarğıdalı, zeytun və s.) yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi

İlk növbədə, bitki yağlarının istehsalında istifadə edilən yağlı bitkilərin yerli istehsalının artırılması üçün mövcud potensial araşdırılacaqdır. Günəbaxan, qarğıdalı, zeytun və digər məhsulların ölkə ərazisində istehsalının iqtisadi səmərəliliyi qiymətləndiriləcək və bu istiqamətdə təkliflər hazırlanacaq, xüsusilə də ölkənin quraq ərazilərində zeytun bağlarının salınması və sonradan zeytun yağının istehsalında istifadə edilməsi imkanları araşdırılacaqdır. Ümumi təhlillər vasitəsilə xammalın yerli istehsalı ilə idxalının iqtisadi cəhətdən səmərəliliyi müqayisə edilməklə, müvafiq inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Tədbir 2.2.9: Çay plantasiyalarının genişləndirilməsinin stimullaşdırılması

Tədbir çərçivəsində ölkə əhalisinin yerli çay məhsullarına tələbatının müəyyənləşdirilməsi sahəsində araşdırmalar aparılacaq, eyni zamanda, qiymət, keyfiyyət və digər göstəricilər üzrə yerli məhsulun analoji idxal məhsulları ilə müqayisəsi aparılacaqdır. Təhlillərin nəticələrinə əsaslanaraq, çay plantasiyalarının genişləndirilməsi üzrə optimal göstəricilər müəyyənləşdiriləcək və müvafiq inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Tədbir 2.2.10: Tütün məmulatlarının istehsalının artırılmasının stimullaşdırılması

Bu tədbir çərçivəsində həm yerli xammal, həm də tütün məmulatlarının istehsalının artırılması imkanları qiymətləndiriləcəkdir. Araşdırmalarda ölkənin regionları üzrə müxtəlif iqtisadi göstəricilər təhlil edilərək yerli tütün istehsalının iqtisadi səmərəliliyi qiymətləndiriləcək, təhlilin nəticələrinə əsaslanaraq, tütün məmulatlarının istehsalının yerli xammal bazası və ya xammalın idxalı hesabına təşkili imkanları müəyyənləşdiriləcək və bu istiqamətdə inkişaf planları hazırlanaraq həyata keçiriləcəkdir.

Tədbir 2.2.11: Pambıq, barama, yun, gön-dəri xammalı məhsullarının emalı sənayesinin inkişaf etdirilməsi

Tədbir üzrə verilmiş istiqamətlərə uyğun olaraq əsas məhsullara şamil edilən xüsusi alətlər və stimullar paketi hazırlanacaqdır. Bu paket bitkiçilik və heyvandarlıq məhsulları üzrə daha əlverişli regionların müəyyənləşdirilməsi əsasında dövlətin tətbiq etdiyi daha effektiv vasitələri və dəstək mexanizmlərini özündə birləşdirəcəkdir. Xüsusilə də, ailə-kəndli təsərrüfatlarının və digər kiçik təsərrüfatların istehsal potensialından tam istifadə etmək üçün, rayon səviyyəsində orta, kənd səviyyəsində isə kiçik yun və gön-dəri emalı müəssisələri şəbəkəsinin formalaşdırılması istiqamətində müxtəlif inkişaf proqramları hazırlanacaqdır.

Gozlənilən nəticə və nəticə indikatorları

Tədbirlər nəticəsində idxalın əvəzlənməsi üçün müəyyənləşdirilmiş potensial məhsullar üzrə istehsal göstəricilərinin aşağıdakı formada artması gözlənilir (bu göstəricilər bir sıra təbii, iqtisadi və s. amillərdən asılı olaraq dəyişə bilər):

- intensiv ferma modeli hesabına iribuynuzlu heyvanların baş sayının 10 faiz azaldılması, südün məhsuldarlığının 50 faiz yüksəldilməsi, ət istehsalının 20 faiz, süd istehsalının 30 faiz artırılması;
- ət və süd məhsullarının emalı sənayesində məhsul istehsalının 25 faiz artırılması;
- ərzaqlıq buğda istehsalının həcminin məhsuldarlıq və keyfiyyət göstəriciləri yüksəldilməklə artırılması;
- çay plantasiyalarının 2 dəfə genişləndirilməsi;
- tütün məmulatlarının idxalının 50 faiz azaldılması;
- pambıq istehsalı, eləcə də emalı sahəsində istehsal həcminin ən azı 4 dəfə artırılması;
- barama istehsalı, eləcə də emalı sahəsində istehsal həcminin ən azı 1000 dəfə artırılması.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

İqlim dəyişiklikləri və regiondakı geosiyasi vəziyyətin dəyişməsi tədbirlərin reallaşdırılmasına mənfi təsir göstərə bilər.

7.2.3. Prioritet 2.3. Kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması və kooperasiyanın inkişafı

Əsaslandırma

Azərbaycan Respublikasında kənd təsərrüfatının strukturunda xırda təsərrüfatlar dominantlıq edir və bu da rəqabətqabiliyyətliliyin yüksəldilməsinə mane olan problemlərdəndir. Ölkədə emal sənayesi müəssisələri ilə kənd təsərrüfatı istehsalçıları arasında məqbul səviyyədə qarşılıqlı əlaqələrin qurulmaması, emal sənayesinin kənd təsərrüfatı istehsalı ilə inteqrasiyasında müəyyən problemlərin olması da sahənin inkişafına mane olur. Bu mənada əsas problemlərdən biri aqrar-sənaye inteqrasiyasının dünya təcrübəsində uğurla tətbiq olunan mexanizmləri kimi kooperativlərin, müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalının və müxtəlif istehsalçı birlikləri və assosiasiyalarının ölkəmizdə lazımi səviyyədə yayılmamasıdır.

FAO, BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu (IFAD) və Dünya Ərzaq Proqramı (WFP) kimi təşkilatlar tərəfindən kənd təsərrüfatı kooperativlərinin aqrar sahənin inkişafındakı rolu yüksək qiymətləndirilir. 2012-ci ilin "Beynəlxalq kooperativlər ili" elan olunması ilə bağlı bu təşkilatların birgə hesabatında qeyd olunur ki, aqrar kooperativlərin kiçik kənd təsərrüfatı istehsalçılarının və xüsusi sosial qrup olan gənclər və qadınların fəaliyyətinə dəstək istiqamətində xüsusi rolu vardır. Onlar kooperativ üzvlərinə iqtisadi və mənəvi cəhətdən dəstək olaraq, iqtisadi və ekoloji mənfi təsirlərə dayanıqlı biznes modelləri vasitəsilə davamlı kənd məşğulluğu sistemi yaradırlar. Kooperativlər kiçik kənd təsərrüfatı məhsulları istehsalçılarına əhəmiyyətli dəstək verməklə, onların müxtəlif növ xidmətlərə, resurslara, texnologiyalara, kreditlərə və tədarük mərkəzlərinə çıxış imkanlarını artırırlar.

Beynəlxalq Kooperativlər Alyansı ilə əməkdaşlıq şəraitində Kooperativlər və Sosial Müəssisələr üzrə Avropa Tədqiqat İnstitutu tərəfindən hazırlanan "Dünya Kooperativ Monitoru" hesabatına əsasən dünya üzrə kooperativ təşkilatlarının 27 faizi kənd təsərrüfatı və qida məhsulları istehsalı sahələrində fəaliyyət göstərirlər. Müxtəlif ölkələrdə kənd təsərrüfatı və qida məhsulları istehsalı sahəsində fəaliyyət göstərən kooperativ təşkilatlarının illik dövriyyəsi təqribən 768 milyard ABŞ dolları həcmində qiymətləndirilir ki, bu da dünya üzrə kooperativ təşkilatlarının ümumi dövriyyəsinin təqribən 26 faizini təşkil edir. 2011–2013-cü illər ərzində kənd təsərrüfatı və qida məhsulları kooperativlərinin ümumi dövriyyəsi təqribən 25 faiz artmışdır ki, bu da həmin kooperativlərin fəaliyyətinin səmərəliliyini xarakterizə edən göstəricilərdən biridir. Beynəlxalq Kooperativlər Alyansının məlumatına görə, bütün dünya üzrə kənd yerlərində fəaliyyət göstərən kooperativlərin 60 faizini kənd təsərrüfatı məhsullarının istehsalı kooperativləri, 15 faizini kənd təsərrüfatı istehlak kooperativləri, 25 faizini isə qeyri-kənd təsərrüfatı kooperativləri təşkil edir.

Azərbaycanda kənd təsərrüfatı kooperasiyası sahəsində mövcud göstəricilər bu sahədə vəziyyətin qənaətbəxş səviyyədə olmadığını əyani göstərir. Belə ki, rəsmi

statistik məlumatlara əsasən ölkədə kooperativ formalı kənd təsərrüfatı müəssisələrinin sayı 2000-ci ildə 250 olduğu halda, 2015-ci ildə 64-ə enmişdir. Göründüyü kimi, sayları onsuz da az olan kənd təsərrüfatı kooperativlərinin fəaliyyəti daha da geriləmişdir. Eyni zamanda, az sayda kənd təsərrüfatı kooperativlərinin müvafiq fəaliyyət göstəriciləri də (istehsal, satış, işçi sayı) bazarda hiss olunmayacaq dərəcədə aşağı səviyyədədir.

Kənd təsərrüfatı kooperasiyasının formalarından biri kimi çıxış edən "müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalı" sisteminin də ölkəmizdə tətbiqi arzuolunan səviyyədə deyildir və yalnız bir neçə şirkət tərəfindən şəkər çuğunduru, pambıq, tütün, barama və çay istehsalı sahəsində kiçik miqyasda tətbiq olunan müsbət təcrübə mövcuddur. Son dövrlər ənənəvi sahələr olan pambıqçılıq, tütünçülük və baramaçılığın inkişafı istiqamətində görülən tədbirlər hesabına "müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalı" sisteminin tətbiqi tədricən genişlənməyə başlamışdır.

Kənd təsərrüfatı istehsalçılarının könüllü şəkildə müxtəlif sahəvi və regional assosiasiyalarda birləşmələri təcrübəsi isə demək olar ki, mövcud deyildir. Bu istiqamətdə göstərilən müxtəlif təşəbbüslər hələlik lazımi nəticələr verməmiş, hətta formal olaraq yaradılan təşkilatlar da öz missiyalarına uyğun praktiki fəaliyyət göstərmək səviyyəsində formalaşmamışlar.

Azərbaycanda dayanıqlı əsaslara malik kənd inkişafının və ərzaq təhlükəsizliyi sisteminin formalaşdırılması siyasəti çərçivəsində bütövlükdə kənd təsərrüfatı kooperasiyasının inkişafı, o cümlədən də kənd təsərrüfatı kooperativləri şəbəkəsinin yaradılması baxımından əlverişli biznes mühitinin yaradılması istiqamətində islahatların aparılması üçün müvafiq qərarlar qəbul olunmuşdur. Belə ki, "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanına əsasən "Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanun hazırlanaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 iyul tarixli 996 nömrəli Fərmanı ilə təsdiq edilmiş bu Qanunun icrası çərçivəsində ölkədə kənd təsərrüfatı kooperasiyasının inkişafı üçün əlverişli mühitin yaradılması məqsədilə kompleks tədbirləri özündə əhatə edən "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017–2020-ci illər üçün Dövlət Proqramı" hazırlanaraq həyata keçiriləcəkdir. Bu Dövlət Proqramı kənd təsərrüfatı kooperasiyasının inkişafı baxımından mövcud qanunvericiliyin təkmilləşdirilməsi, müvafiq stimullaşdırma mexanizmlərinin hazırlanması və tətbiqi, habelə bu sahədə ictimai məlumatlandırma tədbirlərinin həyata keçirilməsi məsələlərini əhatə edəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.3.1: Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi

Dünya təcrübəsinin öyrənilməsi əsasında kənd təsərrüfatı kooperativlərinin yaradılması və qeydiyyatı prosedurlarının sadələşdirilməsi, "müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalı" üzrə normativ hüquqi aktların təkmilləşdirilməsi və kənd təsərrüfatı məhsulları istehsalçılarının müxtəlif sahəvi və regional assosiasiyalarda birləşmələri prosedurlarının asanlaşdırılması üçün təkliflər hazırlanacaqdır.

Tədbir 2.3.2: Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlərin müəyyən olunması və tətbiqi imkanlarının araşdırılması

Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişafı üzrə dövlət dəstəyi mexanizmlərinin tətbiqini nəzərdə tutan təkliflər hazırlanacaqdır (məsələn, müqaviləyə

əsaslanan kənd təsərrüfatı istehsalının genişləndirilməsi üçün emal müəssisələrinin stimullaşdırılması (güzəştli kreditlər və s.), kənd təsərrüfatı kooperativlərinin inkişaf etdirilməsi ilə bağlı xüsusi qrant proqramlarının hazırlanması və həyata keçirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının sahəvi və regional assosiasiyalarının institusional potensialının gücləndirilməsi üçün qrant proqramlarının hazırlanması və həyata keçirilməsi, müxtəlif dövlət dəstəyi layihələrinin istehsalçı birlikləri vasitəsilə həyata keçirilməsi və s.).

Tədbir 2.3.3: Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi istiqamətində məlumatlandırma işlərinin aparılması və informasiya məsləhət xidmətlərinin göstərilməsi

Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişafı məqsədilə istehsalçıların məlumatlılığının artırılması istiqamətində müxtəlif tədbirlərin görülməsi məsələsi nəzərdən keçiriləcəkdir. Belə tədbirlər sırasında kənd təsərrüfatı kooperativlərinin növləri üzrə nümunəvi nizamnamələrin və qeydiyyat prosedurları ilə bağlı təlimatın hazırlanması və istehsalçılara təqdimatların keçirilməsi, kooperativlərin yaradılması ilə bağlı biznes planın hazırlanmasında istehsalçılara müvafiq dəstəyin göstərilməsi, "müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalı" ilə bağlı hüquqi və iqtisadi maarifləndirmə tədbirlərinin keçirilməsi, istehsalçıların müxtəlif sahəvi və regional assosiasiyalarda birləşmələrinin üstünlükləri barədə ictimai məlumatlandırma işlərinin aparılması və digər məsələlər nəzərdə tutulur.

Gozlənilən nəticə və nəticə indikatorları

Qeyd olunan tədbirlərin nəticəsi kimi kənd təsərrüfatı məhsulları istehsalçıları arasında təşkilatlanma və müxtəlif istiqamətlərdə əməkdaşlıq güclənəcək, iri təsərrüfatların yaradılması prosesi sürətlənəcək, kooperativlərin, assosiasiyaların, birliklərin yaradılması geniş vüsət alacaq, məhsul istehsalında bu tipli təsərrüfatların xüsusi çəkisi 30 faiz artacaqdır.

Bundan əlavə, bu prioritet çərçivəsində görüləcək tədbirlər 2020-ci ildə real ÜDM-də artım ilə əlaqədar 2.1-ci prioritetdə qeyd edilmiş təsirin əldə edilməsində dəstəkləyici rola malikdir.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Bu prioritet üzrə risk faktoru torpaq sahiblərinin əməkdaşlığa razılıq verməmələri ola bilər.

7.2.4. Prioritet 2.4. Kompleks layihələrin həyata keçirilməsi üçün dövlət-özəl tərəfdaşlığının inkişafı

Əsaslandırma

Azərbaycanda kənd təsərrüfatının sürətli inkişafını təmin etmək üçün dövlət və özəl tərəfdaşlığı əsasında maraqlı tərəflərin inteqrasiyası stimullaşdırılmalıdır. Bu baxımdan, kənd təsərrüfatı məhsullarının emalı sektoruna özəl investisiyaların cəlb edilməsi və emal müəssisələri ilə kənd təsərrüfatı istehsalı sahələrini özündə birləşdirən kompleks layihələrin həyata keçirilməsi emal sənayesi sahələrinin dəyər

zənciri boyunca əlaqəli şəkildə inkişaf etməsinə imkan yaratmaqla sürətli inkişafa təkan verə bilər.

Kompleks dövlət-özəl tərəfdaşlığının stimullaşdırılması, həmçinin ixrac məhsullarının istehsalının və emalının artırılmasına, idxaldan asılılığın aradan qaldırılmasına və ənənəvi istehsal sahələrinin bərpasına da xidmət etmiş olacaqdır.

Azərbaycanda kompleks dövlət-özəl tərəfdaşlığının yaradılması 3 dəstək mexanizmi (torpaq, infrastruktur və maliyyələşdirmə) əsasında stimullaşdırılacaqdır.


Torpaq. Bu prioritetin həyata keçirilməsi üçün yararlı torpaqların müəyyən edilməsi məqsədilə torpaq sahələri araşdırılacaq və əsas məhsulların istehsalı və emalı üçün nəzərdə tutulan dövlət torpaqlarının istifadəsi təmin ediləcəkdir. Azərbaycanda hazırda taxıl bitkilərinin yetişdirildiyi 50 iri təsərrüfat bu yanaşmanın tətbiqində mühüm rol oynayacaqdır. Lazımi səviyyədə istifadə edilməyən torpaq sahələrinin istifadəsi də bu prioritet çərçivəsində nəzərdən keçiriləcəkdir. Torpaq sahələrinin optimal həcmi müəyyənləşdiriləcək, eləcə də yerli fermerlərin məhsul tədarükündə payını müəyyənləşdirmək üçün fermerlərin istifadəsində olan torpağın ümumi sahəsi və orta məhsuldarlığı dəqiqləşdiriləcəkdir.

İnfrastruktur. İnkişaf etmiş infrastruktura malik olan, o cümlədən nəqliyyat şəbəkəsinə, suvarma və elektrik enerjisi təchizatı sistemlərinə çıxışı olan ərazilərdə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması üçün torpaq sahələrinin təmin edilməsi nəzərdə tutulur. İnfrastrukturu aşağı səviyyədə olan ərazilərdə isə belə müəssisələr üçün nəzərdə tutulan sistem və şəbəkələrin yaradılmasına investisiya qoyuluşu stimullaşdırılacaqdır.

Maliyyələşdirmə. Azərbaycanda ixrac potensiallı məhsulların istehsalının artırılmasına kapital qoymaq məqsədilə seçilmiş və prioritet təşkil edən sənaye sahələrində həyata keçirilən kompleks layihələrin maliyyələşdirilməsi nəzərdə tutulur. Belə sənaye sahələrinin müəyyən edilməsindən sonra maliyyə vəsaitinin ayrılması üçün hüquqi normativ baza və maliyyə strukturu yaradılacaq, seçim meyarları, potensial layihələr müəyyən ediləcək, o cümlədən investisiya təşviqi sənədi (maliyyə-iqtisadi əsaslandırma daxil olmaqla) hazırlanacaqdır.

Kənd təsərrüfatı üzrə dəyər zəncirinin formalaşdırılması. Kompleks yanaşmanın tətbiqi kənd təsərrüfatı məhsullarının istehsalı və emalının istənilən mərhələsində yaranmış çətinliklərin aradan qaldırılmasına və müsbət nəticələrin əldə edilməsinə şərait yaradacaqdır (şəkil 18).

Şəkil 18. Kompleks layihələrin dəyər zənciri üzrə inkişaf sxemi



1. Azərbaycanda nar, fındıq və pomidor üzrə dəyər zəncirinin təhlili

Mənbə: Anteja ECG (2014)

Emal və istehsal komponentlərindən birgə istifadə dəyər zəncirində nəinki xərcləri, həmçinin koordinasiya tədbirlərinə olan ehtiyacı azaldacaqdır. Yüksəkkeyfiyyətli istehsal vasitələrinin əldə edilməsi və qabaqcıl texnologiyaların tətbiqi üçün yalnız dövlət büdcəsinin vəsaitlərindən deyil, həmçinin özəl investisiyalardan istifadə edilməsi nəzərdə tutulur.

Görüləcək tədbirlər

Tədbir 2.4.1: Dövlət-özəl tərəfdaşlığının inkişafı üçün dəstək mexanizminin müəyyən edilməsi

İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlığının inkişafına şərait yaradan kompleks layihələr üçün dəstək paketinin müəyyən edilməsi məqsədilə birgə layihə həyata keçiriləcəkdir. Bu layihə çərçivəsində həmin paketə daxil ediləcək yararlı torpaq sahələrinin müəyyənləşdirilməsi üçün tədqiqat işləri aparılacaq və müxtəlif dövlət orqanlarının adına qeydiyyatda olan dövlət torpaqlarının reyestri nəzərdən keçiriləcək, eləcə də cari və planlaşdırılmış infrastruktur əsasında mövcud torpaq sahələrinin əhəmiyyəti müəyyən ediləcəkdir. Suvarma, yol və elektrik enerjisi şəbəkələrinə çıxışın təmin edilməsinə qoyulan yeni investisiyalar hesabına inkişaf potensialı əhəmiyyətli dərəcədə artırıla bilən rayonlar müəyyənləşdiriləcəkdir.

Tədbir 2.4.2: Maliyyə dəstəyinin növünün və səviyyəsinin müəyyən edilməsi

Kənd Təsərrüfatı Nazirliyi və İqtisadiyyat Nazirliyi tərəfindən əsas bitkiçilik məhsulları üçün müəyyən edilmiş ərazilərdə cari və potensial istehsal həcmi müvafiq araşdırmaların nəticələri əsasında təhlil ediləcək və emal üzrə dəyər zəncirində potensial qiymətləndiriləcəkdir. Bundan sonra dəstək paketinə daxil ediləcək

məhsullar və rayonlar 2.1-ci və 2.2-ci prioritetlərə uyğun olaraq müəyyən ediləcəkdir. Hər iki nazirlik həmin sahələrə investisiyanın cəlb edilməsi üçün lazım olan maliyyə dəstəyinin növünün və səviyyəsinin müəyyən edilməsi məqsədilə yerli və xarici investorlarla müsahibələr və sorğular aparacaqdır.

Tədbir 2.4.3: Dövlət-özəl investisiya fondunun yaradılması imkanlarının dəyərləndirilməsi

Dövlət-özəl investisiya fondunun yaradılması ilə bağlı təhlillər İqtisadiyyat Nazirliyi tərəfindən aparılacaqdır. Yaradılması məqsədəuyğun hesab edildikdə, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi ilə əməkdaşlıq çərçivəsində, investorlar üçün investisiya gəlirlərini aydın şəkildə hesablamaqla, o cümlədən müxtəlif növ investisiyaların (məsələn, infrastruktur, istehsal və emal) bölgüsünü təqdim etməklə və maliyyələşdirilməsi nəzərdə tutulan layihələrin seçilməsi üçün müvafiq meyarları tətbiq etməklə fondun strukturu, həcmi və fond vəsaitlərinin gələcək istifadəsinə nəzarət edən monitorinq mexanizminin yaradılması ilə bağlı təkliflər hazırlayacaqdır.

Tədbir 2.4.4: Dəstək paketi üzrə fəaliyyəti tənzimləyən normativ hüquqi bazanın yaradılması

Qeyd edilən üç tədbirin nəticələrinə əsaslanaraq dəstək paketi üzrə fəaliyyəti tənzimləyən normativ hüquqi bazanın yaradılması üçün İqtisadiyyat Nazirliyi tərəfindən təklif hazırlanacaqdır. Bu təklifdə dəstək paketi, eləcə də həyata keçirilən layihələrə əsasən həmin paketin benefisiarlarının seçilməsi üçün meyarlar müəyyən ediləcəkdir. Nazirlik həmçinin dövlət mülkiyyətində olan torpaq sahələrinin istifadəyə cəlb edilməsi üçün müvafiq normativ hüquqi bazanın yaradılması istiqamətində təkliflər hazırlayacaqdır. Bundan sonra, maliyyə dəstəyi paketinin bölüşdürülməsi və monitorinqi üçün İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və digər dövlət orqanlarının səyləri artırılacaqdır.

Tədbir 2.4.5: Dəyər zəncirləri üzrə investisiya təşviqi sənədinin hazırlanması

İqtisadiyyat Nazirliyi tərəfindən müxtəlif rayonlar və dəyər zəncirləri üzrə investisiya təşviqi sənədi hazırlanaraq dəstək paketi təşviq ediləcək və investisiya qoyuluşu artırılacaqdır. Yerli və beynəlxalq aqrar-sənaye və qida şirkətləri bu sənəd vasitəsilə investisiya qoyuluşuna dəvət ediləcəkdir.

Tədbir 2.4.6: Fəaliyyətin icra mərhələlərinin müəyyən edilməsi

İnvestisiyaların reallaşması və indikatorların əldə edilməsi üçün fəaliyyətin icra mərhələləri (məsələn, bitkiçilik məhsullarının və emal edilmiş məhsulların ümumi istehsalı, məhsul satışını həyata keçirən təsərrüfatların sayı və s.) İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən ediləcəkdir. İcra mərhələlərinin həyata keçirilməsinə mane olan halların aradan qaldırılmasında investorlara daimi dəstək veriləcək və indikatorlar barədə yenilənmiş məlumatlar dərc ediləcəkdir.

Gozlənilən nəticə və indikatorlar

2017-ci ilin birinci yarısında dövlət-özəl tərəfdaşlığı üçün nəzərdə tutulan dəstək paketinin təsdiqlənməsi və 2017-ci ilin ikinci yarısında investisiya təşviqi sənədinin hazırlanması və investorların müzakirələrə dəvət edilməsi gözlənilir. 2018-ci ilin birinci yarısında ilkin müzakirələrdən sonra fəaliyyətin icra mərhələlərinin və indikatorların müəyyən edilməsi nəzərdə tutulur. Müəyyənləşdirilmiş indikatorların əldə edilməsi üçün 2020-ci ilə kimi 15 genişmiqyaslı kompleks layihənin həyata keçirilməsinə şərait yaradılmalıdır. Bu layihələr üçün nəzərdə tutulan xammalın 40 faizi

həmin layihələr çərçivəsində yaradılmış yeni təsərrüfatlardan, qalan hissəsi isə yerli istehsalçılardan alınacaqdır.

2020-ci ildə bu prioritet üzrə görülən tədbirlərin real ÜDM-ə birbaşa təsirinin 70 milyon manat, dolayı təsirinin isə 60 milyon manat, ümumilikdə 130 milyon manat olacağı proqnozlaşdırılır. Kənd təsərrüfatı məhsullarının emalı və istehsalı bu təsirdə xüsusi çəkiyə malik olacaqdır. Bu prioritet üzrə tədbirlər görülməsi nəticəsində birbaşa və dolayı yolla 7250 iş yerinin açılacağı gözlənilir.

Tələb edilən investisiya

Bu prioritetin həyata keçirilməsi üçün tələb edilən investisiya məbləği 325 milyon manatdır.

Gözlənilən risklər

Bu prioritet üzrə potensial risklər layihələrin hazırlanmasında və həyata keçirilməsində gecikmə hallarının baş verməsi ola bilər.

7.2.5. Prioritet 2.5. Aqrobiznesin inkişafına dəstək infrastrukturunun formalaşdırılması

Əsaslandırma

Aqrobiznesin inkişafına dəstək infrastrukturu kənd təsərrüfatı məhsullarının istehsal sahələrinə və əsas ticarət marşrutlarına yaxın yerləşən, mərkəzləşmiş, genişmiqyaslı və ixracyönümlü aqroparkların, aqrobiznes inkubatorlarının və startapların yaradılmasına əsaslanır. Azərbaycanda bir neçə aqropark yaratmaqla fiziki və sosial infrastruktura dövlət tərəfindən ayrılan investisiyaların səmərəliliyini artırmaq, Azərbaycanın logistika qovşağında rəqabətədavamlılığını gücləndirmək, qida sənayesi və kənd təsərrüfatı məhsullarının istehsalı sektorlarına müxtəlif investorları cəlb etmək və s. bu kimi müxtəlif məqsədlərə nail olmaq mümkündür.

Azərbaycanda aqropark, aqrobiznes inkubatorları və startaplar yaratmaqla emal edilmiş və edilməmiş mövcud ixrac məhsullarının istehsalını artırmaq və emalını təşviq etmək, eləcə də ənənəvi bitkiçilik məhsullarının istehsalını və idxalı əvəz edən məhsulların istehsalını canlandırmaq olar. Belə aqroparklar, aqrobiznes inkubatorları və startaplar şəbəkəsi aqrar sahədə klaster yanaşmasını tətbiq etmək imkanlarını artırır.

Aqroparklar yerli və xarici investorları cəlb edən biznes mühitinin yaradılması üçün bir sıra məqsədyönlü tədbirlərin həyata keçirilməsinə şərait yaradır. Aqropark modeli kompleks müəssisələrlə müqayisədə daha yüksək səviyyədə mərkəzləşmiş və geniş miqyasda fəaliyyət göstərən emal mərkəzlərinin yaradılmasına xidmət edərək klaster (qruplaşdırma) yanaşması əsasında qurulur. Aqroparklar logistika infrastrukturuna yaxın yerləşməklə yerli və xarici bazarlara çıxış imkanlarını artırır, ixracın lazımi səviyyədə reallaşmasına və beynəlxalq investorların cəlb edilməsinə şərait yaradır.

Aqroparklar həmçinin, 2.1-ci və 2.2-ci prioritetlərdə müəyyən edilmiş ixrac məhsullarının və idxalı əvəz edən məhsulların istehsalının artırılmasına xidmət edəcəkdir. Bu kateqoriyalara aid edilən məhsulların istehsalını və emalını əsas ticarət mərkəzlərinə yaxın yerləşən zonalarda artırmaqla emal edilmiş məhsulların və xammalın idxalı azaldılacaq, emal edilmiş məhsulların yeni bazarlara ixracı stimullaşdırılacaqdır.

Qeyd edilənlərə əsasən aqroparkların yerinin müəyyən edilməsinin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, kənd təsərrüfatı məhsullarının istehsal

sahələrinə və əsas ticarət marşrutlarına əlverişli çıxışı olan dörd potensial məkan müəyyən edilmişdir.

Bakı, Ələt. Bakının nəqliyyat infrastrukturu beynəlxalq bazarla birbaşa əlaqəni təmin edir. Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının açılması və Bakı şəhərində azad ticarət zonasının yaradılması bu əlaqələri daha da gücləndirəcəkdir.

Quba-Xaçmaz. Azərbaycanın şimal-şərqində yerləşən və Xəzər dənizi boyunca uzanan Quba-Xaçmaz iqtisadi rayonu buradakı meyvə-tərəvəz istehsalı sahələrinə yaxın olan Rusiya bazarlarına çıxışı təmin edir.

Gəncə-Qazax. Azərbaycanın şimal-qərbində yerləşən Gəncə-Qazax iqtisadi rayonu üzüm, kartof və meyvə istehsalı sahələrinə yaxın olub, Avropa bazarlarına çıxışı əsasən dəmiryol vasitəsilə təmin edir.

Lənkəran. Lənkəran iqtisadi rayonu Azərbaycanın cənubunda yerləşir. Kartofçuluğun, tərəvəzçiliyin və meyvəçiliyin mərkəzləşdiyi bu bölgə İran bazarına yaxın yerləşir.

Bununla yanaşı, aqrar sahədə aqrobiznes startaplarının, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən aqrobiznes inkubatorlarının yaradılması vacib hesab edilərək bu istiqamətdə tədbirlər planı hazırlanacaq və həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.5.1: Aqropark (aqrar sənaye klasterləri də daxil olmaqla) şəbəkəsinin formalaşdırılmasının dəstəklənməsi

Aqropark və aqrar sənaye klasterləri şəbəkəsinin formalaşdırılması üçün işlər aşağıdakı mərhələlər üzrə aparılacaqdır:

- ***Aqroparkların planlaşdırılması***. Aqroparkların layihələndirilməsi işləri üçün, ilk növbədə, nəzərdə tutulan aqroparkın optimal yeri və sahəsi müəyyən ediləcək, bundan sonra təklif edilmiş müxtəlif dəyər zəncirləri üzrə istehsal və bazar imkanlarının təhlili əsasında sənaye sahələrinin məqsədi, daha sonra isə istehsal səviyyələri üzrə hədəfləri, müəssisələrin növü və fəaliyyət istiqamətləri (məsələn, istehsal, emal, saxlanma və dəstək xidmətləri) və nəhayət, həmin müəssisələr üçün dəstək xidmətləri üzrə dövlət (məsələn, elmi araşdırma işlərinin aparılması) və özəl sektorun iştirakının (məsələn, maliyyə xidmətlərinin göstərilməsi) əsas istiqamətləri müəyyənləşdiriləcəkdir. Həmçinin, aqroparkın fiziki yerləşmə planının hazırlanması üçün layihələndirmə-memarlıq şirkətlərinin xidmətlərindən istifadə ediləcəkdir.
- ***Aqropark şəbəkəsi üçün investisiya məbləğinin müəyyənləşdirilməsi***. Növbəti mərhələdə dövlət investisiyasına olan ehtiyac müəyyən ediləcək və həmin investisiyaların iqtisadiyyata göstərəcəyi mümkün təsirlər qiymətləndiriləcək, eləcə də aqroparklara investorların cəlb edilməsi üçün nəzərdə tutulan stimulların (o cümlədən vergidən azadolmaların) əhatə dairəsi, miqyası və xüsusiyyətləri müəyyən ediləcəkdir.
- ***Aqropark şəbəkəsi üçün investisiya təşviqi sənədinin hazırlanması.*** İnvestisiya təşviqi sənədi hazırlanacaq, dəyər zənciri üzrə mövcud imkanlar, o cümlədən aqroparkın yaxınlığında yerləşən qida müəssisələrinin yararlana biləcəyi üstünlüklər müəyyən ediləcəkdir. Bundan sonra prioritet təşkil edən sənaye sahələrində fəal iştirak edən şirkətlərin siyahısı hazırlanacaqdır. İnvestisiyanın təşviqi sənədi investorların bu siyahı əsasında dəvət edilməsinə, investisiyalar qoyulmasına və investorlarla əməkdaşlığın dərinləşdirilməsinə şərait yaradacaqdır.

- ***Aqropark şəbəkəsi üçün fəaliyyət planının hazırlanması.*** İnvestisiyaların reallaşması və indikatorların əldə edilməsi üçün fəaliyyətin icra mərhələləri müəyyənləşdiriləcəkdir. İcra mərhələlərinin həyata keçirilməsinə mane olan halların aradan qaldırılmasında investorlara köməklik ediləcək və indikatorlar barədə yenilənmiş məlumatlar dərc ediləcəkdir.

Tədbir 2.5.2: Sənaye məhəllələrinin yaradılmasının dəstəklənməsi

Aqroparkların effektiv fəaliyyətinin təmin edilməsi və səmərəliliyin yüksəldilməsi üçün aqroparklara bitişik, aqrar emala əsaslanan sənaye məhəllələrinin yaradılması da nəzərdə tutulur. Burada əsas məqsəd sənaye məhəllələrinin yaradılması zamanı əlavə infrastrukturun yaradılması xərclərinin minimuma endirilməsi və kənd təsərrüfatı ilə sənaye arasında daha dərin inteqrasiyanın təmin edilməsindən ibarətdir. Bununla əlaqədar olaraq, hər bir aqroparka (Bakı-Ələt, Gəncə-Qazax, Quba-Xaçmaz, Lənkəran) bitişik sənaye məhəllələrinin yaradılması ilə bağlı təkliflər planı hazırlanacaqdır. Sənaye məhəllələrinin yaradılması zamanı dövlət-özəl tərəfdaşlığına əsaslanan, birsahəli və ya eynitipli məhsullar istehsal edən əlaqəli kiçik müəssisələr şəbəkəsinə üstünlük veriləcəkdir. Bu, əsasən, hər bir regionun bir və ya bir neçə konkret kənd təsərrüfatı istehsal sahəsi üzrə ixtisaslaşması ilə bağlıdır. Beləliklə, sənaye məhəllələrinin yaradılması və inkişaf etdirilməsi ilə bağlı fəaliyyətin icra mərhələləri aqroparklara uyğun şəkildə müəyyən ediləcək və fəaliyyət planı hazırlanacaqdır.

Tədbir 2.5.3: Aqrobiznes inkubatorlarının yaradılmasının dəstəklənməsi

Aqrar sahədə startapların, kiçik və orta sahibkarların inkişafını təmin etmək üçün aqrobiznes inkubatorlarının yaradılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan ölkədə aqrobiznes inkubatorlarının yaradılması nəzərdən keçiriləcək, bu sahədə işlər mərhələli şəkildə aparılacaq və aşağıdakı mərhələləri özündə birləşdirəcəkdir:

Aqrobiznes məsləhət xidmətinin institusional cəhətdən gücləndirilməsi. İlk olaraq, aqrar sahədə biznes mühitinin ümumi təhlili aparılacaq və təhlilin nəticələrinə əsaslanaraq aqrobiznes inkubatorunun ölkə üçün ən uyğun modeli və dəyər zənciri müəyyənləşdiriləcəkdir. Ümumilikdə, ölkənin hər bir iqtisadi rayonu üzrə bir biznes inkubatoru olmaqla, 10 biznes inkubatorunun yaradılması planlaşdırılır. Biznes inkubatorlarının yaradılması, ilkin olaraq, aqroparkların yaradılacağı zonalar üzrə, yəni Abşeron, Lənkəran, Quba-Xaçmaz və Gəncə-Qazax iqtisadi rayonlarından başlana bilər. İnstitusionallaşma prosesinin öz-özlüyündə bir neçə mərhələni əhatə edəcəyi gözlənilir:

- iqtisadi rayonlar üzrə müqayisəli üstünlüyü olan məhsulların seçilməsi;
- aqrobiznes inkubatorunun fəaliyyətinin prioritet istiqamətlərini müəyyənləşdirən strateji planın hazırlanması;
- təlim materiallarının hazırlanması;
- təlimçilərə təlimlərin keçirilməsi.

Startapların, kiçik və orta sahibkarların biznes bacarıqlarının artırılması. Aqrobiznes inkubatorları fəaliyyət üçün tam hazır vəziyyətə gətirilməndən sonra region üzrə elan veriləcək və əvvəlcədən hazırlanmış meyarlar əsasında regionun xüsusiyyətlərinə uyğun dəyər zəncirindən asılı olaraq 50 rezident seçiləcəkdir. Məsələn, Quba-Xaçmaz regionu üçün rezidentlər alma və ya digər əsas meyvə və ya tərəvəz dəyər zənciri üzrə fəaliyyət göstərən istehsal vasitələri təchizatçıları, istehsalçılar, emalçılar, distribütorlar və treyderlərdən ibarət olacaqdır. Seçilmiş rezidentlərə təlimlərin keçilməsi və sonda hər bir rezidentin biznes plan hazırlaması nəzərdə tutulur. Daha sonra hazırlanmış biznes planlar əsasında ən uğurlu

rezidentlərin (məsələn, 25 rezident) seçilməsi və onlar üçün biznesin təşkili və idarə edilməsi üzrə daha dərin təlimlərin keçilməsi nəzərdə tutulur.

Startap kapitalının əldə edilməsinə və biznesin təşkilinə dəstək. Təlimləri uğurla tamamlamış və real biznes plan hazırlamış rezidentlərə sonradan qaytarılmaq şərtilə startap kapitalı təqdim ediləcək, daha sonra isə biznesin təşkili üzrə əməli dəstək davam etdiriləcəkdir.

Maliyyəyə çıxışın təmin edilməsi. Biznes inkubatorunun dəstəyi ilə biznesə başlayan və biznesi uğurla davam etdirən şəxslərə sonradan biznesin genişləndirilməsi məqsədilə maliyyə vasitələrinə çıxışın təmin edilməsi üçün dəstəyin davam etdirilməsi planlaşdırılır. Bu dəstək həmin şəxslərin güzəştli şərtlərlə kredit resurslarına çıxışına kömək göstərməkdən ibarət olacaqdır. Bu məqsədlə xüsusi mexanizmlərin hazırlanması imkanları dəyərləndiriləcəkdir. Xüsusilə də, biznes inkubatorunun rəyi və ya tövsiyəsi ilə bank və ya digər kredit təşkilatlarına müraciət edən şəxslərə kreditlərin verilməsi prosedurlarının sadələşdirilməsi və xüsusi güzəştli kreditlərin verilməsi kimi mexanizmlərin hazırlanması nəzərdə tutulur.

Biznes inkubatorlarının davamlı fəaliyyətinin təmin edilməsi. Biznes inkubatorlarının fəaliyyətinin davamlılığını təmin etmək üçün tədricən rezidentlərə verilən startap kapitalının qaytarılması zamanı müəyyən əlavə komisyonların hesablanması nəzərdə tutulur ki, bu da inkubatorlara ayrılan vəsaitlə yanaşı, əlavə kapitalın formalaşdırılmasına da imkan verəcəkdir.

Gözlənilən nəticə və indikatorlar

2017-ci ildə aqropark və biznes inkubatorları üçün idarəetmə strukturunun formalaşdırılması, 2018-ci ilin sonuna kimi yeni aqroparkın və biznes inkubatorunun yaradılması və fəaliyyətə başlaması üçün bütün zəruri tədbirlərin yekunlaşdırılması nəzərdə tutulur. 2020-ci ilə kimi Azərbaycanda bir aqroparkın real ÜDM-ə birbaşa təsirinin 135 milyon manat, dolayı təsirinin isə 220 milyon manat olmaqla, ümumilikdə 355 milyon manat olacağı proqnozlaşdırılır. Aqroparkın 2018-ci ilə kimi fəaliyyətə başlaması əsas indikator hesab edilir. Bu müəssisələrdə 7725 nəfər üçün birbaşa və dolayı məşğulluq imkanının yaranacağı proqnozlaşdırılır. Eyni zamanda, 2020-ci ilə kimi hər region üzrə uyğun məhsulların dəyər zənciri üzrə ümumilikdə 25 kiçik və orta sahibkarlıq subyektinin yaradılması nəzərdə tutulur.

Tələb edilən investisiya

Bu prioritetin həyata keçirilməsi üçün 350 milyon manat investisiya tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

Bu prioritet üzrə əsas risk faktoru aqroparkların, sənaye məhəllələrinin və biznes inkubatorlarının yaradılması üçün zəruri maliyyə vəsaitlərinin ayrılmasında gecikmə hallarının baş verməsi ola bilər.

7.3. Strateji hədəf 3. Maliyyəyə çıxışın asanlaşdırılması

Ölkədə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektoru formalaşdırmaq üçün istehsalçıların maliyyə resursları ilə təminatının yaxşılaşdırılması, bu sahədə risklərin qiymətləndirilməsi, habelə bu risklərin azaldılması və ya təsirinin yumşaldılması üzrə mexanizmlərin təkmilləşdirilməsi zəruridir.

Qeyd edilənləri nəzərə alaraq, bu strateji hədəfdə üç prioritet istiqamət seçilmişdir. Birinci prioritet aqrar sahədə maliyyələşmə mexanizminin

təkmilləşdirilməsi üçün görüləcək tədbirləri özündə əks etdirir. İkinci prioritet ölkədə aqrar sığortanın inkişaf etdirilməsi ilə bağlı tədbirləri əhatə edir. Sonuncu prioritet isə kənd təsərrüfatına yerli və eləcə də xarici investisiyaların cəlb edilməsini stimullaşdırmaq üçün nəzərdə tutulan tədbirlərlə əlaqədardır.

7.3.1. Prioritet 3.1. Kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi

Əsaslandırma

Son illər aqrar sahəyə verilən kreditlərin həcminin artmasına baxmayaraq, bu kreditlərin ümumi kredit portfelində, habelə ümumi iqtisadiyyatda payı azdır. Belə ki, Mərkəzi Bankın verdiyi məlumatlara əsasən, 2016-cı ilin ilk 9 ayı ərzində kənd təsərrüfatına və emal sahəsinə ayrılan kreditlərin həcmi 409,7 milyon manat olmuşdur. Bu da ümumi iqtisadiyyata qoyulmuş kreditlərin cəmi 2,4 faizini təşkil edir. Bunun da əsas səbəbi bu sahənin özünəməxsus xüsusiyyətlərinin olmasıdır. Belə ki, bu sahənin təbii-iqlim şəraitindən asılılığı, kapitalın dövretmə sürətinin aşağı olması, əksəriyyəti kiçik təsərrüfatlardan ibarət olan kənd təsərrüfatı məhsulları istehsalçıları üçün girov şərtlərinin əlverişsiz olması, bu sahə üzrə kredit risklərinin azaldılmasını təmin edən adekvat mexanizmlərin olmaması, habelə istehsalçıların maliyyə savadlılığının aşağı səviyyədə olması bu sahəyə verilən kreditlərin ümumi iqtisadiyyatda payının az olmasına gətirib çıxarmışdır.

Görüləcək tədbirlər

Tədbir 3.1.1: Kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi ilə birlikdə bütövlükdə kənd təsərrüfatı, eləcə də onun önəmli sahələri üzrə maliyyə resursları ilə təminat səviyyəsini araşdıracaq və ehtiyacları müəyyən edəcəkdir. Hər iki nazirlik tərəfindən bu məqsədlə tədqiqatlar aparılacaq və maliyyə resurslarına çıxış imkanlarının artırılması üçün uyğun hədəflər müəyyən ediləcəkdir.

Tədbir 3.1.2: Kredit zəmanət fondunun yaradılması imkanlarına baxılması

Kredit təşkilatları tərəfindən verilən kənd təsərrüfatı kreditləri ilə bağlı risklərin azaldılması məqsədilə risk bölgüsünə əsaslanan zəmanət fondunun yaradılması imkanları araşdırılacaqdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarına təsir göstərən xarici şoklara (məsələn, quraqlıq və ya ixrac bazarında sabitliyin pozulması) qarşı müxtəlif risk bölgüsü mexanizmləri müəyyən ediləcəkdir. Bu tədbirin icrası "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" çərçivəsində əlaqələndiriləcəkdir.

Tədbir 3.1.3: Kənd təsərrüfatında innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması

Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə, girovsuz və innovativ kreditlər üzrə normativ hüquqi bazanın yaradılması istiqamətində tədbirlər görüləcəkdir. Bu istiqamətdə işlərin görülməsi üçün girovsuz və innovativ kreditlər üzrə inkişaf etmiş ölkələrin təcrübəsi öyrəniləcək və təhlillər aparılacaqdır (məsələn, dəyər zənciri üzrə verilən kreditlər).

Tədbir 3.1.4: Kreditlər üçün girov bazasının genişləndirilməsi

Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən daşınar girovların idarə edilməsinə məsul olan mərkəzi qurumla əməkdaşlıq çərçivəsində, kənd təsərrüfatı əmlakının (məsələn, texnikanın) lazımi qaydada təsnifləşdirilərək məlumat bazasına yerləşdirilməsi təmin ediləcəkdir. Paralel olaraq anbarda saxlanılan məhsulların, eləcə də istehsal olunacaq məhsulların girov kimi qəbul edilməsi ilə bağlı beynəlxalq təcrübə araşdırılaraq müvafiq təkliflər hazırlanacaqdır.

Tədbir 3.1.5: Kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması

Regionlarda yerləşən Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzləri tərəfindən mütəmadi olaraq təlim və seminarlar keçiriləcəkdir. Bu təlim və seminarlarda kənd təsərrüfatı məhsulları istehsalçılarına maliyyə vəsaitlərinə çıxışla bağlı məlumatlar veriləcək, eləcə də onlara (ehtiyaclarına uyğun) maliyyə vəsaitlərindən səmərəli istifadə etmələri üçün zəruri biliklər aşılanacaqdır. Bununla yanaşı, maliyyə institutlarının da istehsalçıların maliyyə savadlılığının artırılmasında rolunu genişləndirmək üçün tədbirlər görüləcəkdir. Bu tədbir bu Strateji Yol Xəritəsinin 5.3-cü prioriteti çərçivəsində əlaqələndiriləcəkdir.

Tədbir 3.1.6: Aqrar sektora təsir edən risklərin idarə olunması üzrə mexanizmlərin hazırlanması

Aqrar sektorda risklərin qiymətləndirilməsi və bu risklərin azaldılması və ya təsirinin yumşaldılması üzrə mexanizmlərin müəyyən olunması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tədqiqat aparılacaqdır. Tədqiqatda əsas risklər, onların meydana çıxma tezliyi və dərəcəsi təhlil olunacaq, habelə bu risklərin milli səviyyədə və sektorun nəticələrinə təsiri ilə bağlı yekun nəticələr hazırlanacaqdır. Bu tədqiqat əsasında əldə olunmuş məlumatlarla bağlı elektron məlumat bazası yaradılacaqdır ki, bu da kredit təşkilatlarında kənd təsərrüfatı üzrə istənilən fəaliyyətin təhlili və kredit verilməsi ilə bağlı qərarların qəbulu ilə bağlı mühüm informasiya mənbəyi kimi çıxış edəcəkdir.

Tədbir 3.1.7: Kredit təşkilatlarının vəsaitlərinin kənd təsərrüfatı sektorunun kreditləşməsinə yönəldilməsinin stimullaşdırılması

Kredit təşkilatları tərəfindən kənd təsərrüfatı sahəsinə ayrılan kommersiya kreditlərinə görə faiz dərəcələrinin optimallaşdırılması yolu ilə istehsalçıların əlverişli şərtlərlə maliyyəyə çıxışının yaxşılaşdırılması və aqrar sektora əlavə vəsaitlərin cəlb edilməsi üzrə beynəlxalq təcrübə öyrəniləcək və təkliflər hazırlanacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Aqrar sahənin ümumilikdə maliyyələşmə mexanizmi təkmilləşdiriləcəkdir. Girovsuz və innovativ kreditlərdən istifadə üçün normativ hüquqi baza təkmilləşdiriləcəkdir. Daşınmaz girovdan başqa digər girov növləri ilə kreditləşmə mexanizmi formalaşacaqdır. Kənd təsərrüfatında mövcud olan qeyri-işlək kreditlərin həcmi azalacaqdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığı artacaq və onların əlverişli şərtlərlə maliyyəyə çıxışı təmin olunacaqdır. Bu prioritetdə qeyd edilən tədbirlərin nəticəsi kimi aşağıdakı nəticələrin əldə olunması gözlənilir:

- əlavə 665 milyon manat həcmində maliyyə vəsaitinə çıxış imkanı yaradılacaq;
- kredit zəmanət fondunun yaradılması nəzərdən keçiriləcəkdir.

Bu prioritetdə qeyd edilən tədbirlərin digər prioritetləri həyata keçirmək üçün dəstəkləyici rola malik olmaqla bərabər, 2020-ci ildə real ÜDM-ə 115 milyon manat

birbaşa və 95 milyon manat dolayı olmaqla, ümumilikdə 210 milyon manat təsir edəcəyi proqnozlaşdırılır.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Fermerlərda innovativ maliyyələşdirmə mexanizmləri ilə bağlı biliklərin azlığı bu sahəyə marağın yetərincə olmamasına səbəb ola bilər. Bu prioritet üzrə digər risk faktoru ölkədə fəaliyyət göstərən kredit təşkilatlarının aqrar sahəyə kredit verməkdə az maraqlı olması ola bilər.

7.3.2. Prioritet 3.2. Aqrar sığortanın inkişaf etdirilməsi

Əsaslandırma

Hazırda kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta xidmətlərindən istifadə səviyyəsi çox aşağıdır. Belə ki, Maliyyə Nazirliyinin məlumatlarına görə, 2015-ci ildə ölkədə əmlak sığortasına görə ödənilmiş cəmi haqlarda kənd təsərrüfatı bitkiləri və heyvanlarının sığortasının payı 1,3 faizə bərabər olmuşdur. Kənd təsərrüfatı bitkiləri və heyvanlarının sığortalanması da əsasən "Aqrolizinq" ASC (ölkəyə idxal olunan cins heyvanlara görə) və kənd təsərrüfatı istehsalı ilə məşğul olan bir neçə iri maliyyə-sənaye qrupları tərəfindən aparılmışdır. Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının sığortalanmasına dövlət dəstəyi həyata keçirilsə də, bu dəstək tədbirindən praktiki olaraq istifadə olunmur.

Bu faktlar bütövlükdə ölkədə aqrar sığorta sahəsinin inkişaf etdirilməsi, o cümlədən bu sahə üzrə dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi üçün geniş islahatların aparılmasının zəruri olduğunu göstərir.

Bu baxımdan kənd təsərrüfatı sahəsində sığorta sisteminin inkişafına maneə törədən əsas elementlərdən biri kimi təbii fəlakətlər, heyvan və bitki xəstəlikləri, iqlim məlumatları, habelə kənd təsərrüfatı istehsalında məhsuldarlıq göstəriciləri üzrə son 30–40 illik informasiya bazasının yaradılmasına ehtiyac vardır. Eyni zamanda, kənd təsərrüfatı sahəsində dünya təcrübəsində geniş tətbiq edilən müvafiq sığorta fondunun olmaması da bu sahənin inkişafına öz mənfi təsirini göstərir.

Görüləcək tədbirlər

Tədbir 3.2.1: Kənd təsərrüfatında sığorta sistemi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Maliyyə Bazarlarına Nəzarət Palatası və digər aidiyyəti orqanlarla birlikdə, aqrar sahədə sığorta sistemi ilə bağlı beynəlxalq təcrübəyə əsasən mövcud qanunvericilikdə təkmilləşdirmələrin aparılması üzrə təkliflər hazırlanacaqdır. Belə təkliflərə aqrar sahədə diferensial yanaşmalı sığorta sisteminin tətbiqi (regionlar və məhsullar üzrə), icbari sığortanın tətbiqi (bəzi məhsullar üzrə) və s. aid edilə bilər.

Tədbir 3.2.2: Kənd təsərrüfatı sahəsi üzrə sığorta fondunun yaradılması imkanlarının dəyərləndirilməsi

Maliyyə Bazarlarına Nəzarət Palatası və Kənd Təsərrüfatı Nazirliyi özəl sığorta şirkətlərinin də iştirakı ilə, aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi

məqsədilə sığorta fondunun yaradılması imkanlarını araşdıracaqdır. Bu sahədə beynəlxalq təcrübə öyrənilәcək və fondun istehsalçıların sığortalanmasına və ümumilikdə aqrar sahənin inkişafına potensial təsirləri təhlil edilməklə hesabatlar hazırlanacaqdır.

Tədbir 3.2.3: Sığorta Hadisələri Reyestrinin hazırlanması

Kənd Təsərrüfatı Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə, ölkədə kənd təsərrüfatı sahəsi üzrə sığorta risklərinin effektiv şəkildə qiymətləndirilməsi üçün iqlim məlumatları və təbii fəlakətlər, heyvan və bitki xəstəlikləri, habelə məhsuldarlıq göstəriciləri üzrə uzunmüddətli dövr üçün informasiya bazası yaradacaqdır.

Tədbir 3.2.4: Karantin rejiminin tətbiqi ilə bağlı kənd təsərrüfatı istehsalçılarına dəymiş maddi zərərin ödənilməsi mexanizminin yaradılması

Kənd Təsərrüfatı Nazirliyi Maliyyə Nazirliyi ilə birgə, bitkiçilikdə karantin rejiminin tətbiqi və ya zərərli orqanizmlərin ləğvi, oxşar olaraq heyvanların karantin xəstəliklərinin ləğvi, profilaktikası və qarşısının alınması ilə əlaqədar zərər çəkmiş kənd təsərrüfatı məhsulları istehsalçılarına dəymiş maddi zərərin ödənilməsi ilə bağlı icra mexanizmi hazırlayacaqdır.

Tədbir 3.2.5: Kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta savadlılığının artırılması

Regionlarda yerləşən Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzləri tərəfindən aqrar sığorta ilə bağlı maarifləndirmə və təbliğat işləri görüləcəkdir. Bununla yanaşı, istehsalçıların sığorta savadlılığının artırılmasında özəl sığorta şirkətlərinin rolunu artırmaq üçün tədbirlər görüləcəkdir. Bu tədbir 5.3-cü prioritet çərçivəsində əlaqələndiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Kənd təsərrüfatında sığorta sistemini tənzimləyən qanunvericilik bazası təkmilləşdiriləcəkdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının aqrar sığorta ilə bağlı ətraflı məlumatlılığı təmin olunacaqdır. Karantin rejiminin tətbiqi ilə bağlı kənd təsərrüfatı istehsalçılarına dəymiş maddi zərərin ödənilməsi mexanizmi yaranacaqdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta savadlılığı artacaqdır.

Bu prioritetdə qeyd edilən tədbirlərin nəticəsi kimi aşağıdakı nəticələrin əldə olunması gözlənilir:

- Sığorta Hadisələri Reyestri yaranacaq;
- Aqrar Sığorta Fondunun yaradılması nəzərdən keçiriləcək;
- aqrar sığortanın əhatə dairəsi genişlənəcək (belə ki, sığortalanan kənd təsərrüfatı məhsulları istehsalçılarının ümumi sayı ən azı 3 dəfə artacaq).

Bundan əlavə, bu prioritet çərçivəsində görüləcək tədbirlər 2.1-ci prioritetdə qeyd edilən 2020-ci ildə real ÜDM-ə təsiri əldə etmək üçün dəstəkləyici rola malikdir.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Bu prioritet üzrə risk faktoru Sığorta Hadisələri Reyestrinin hazırlanması üçün əvvəlki illərlə bağlı məlumatların olmaması ilə bağlı ola bilər.

7.3.3. Prioritet 3.3. Aqrar sahəyə investisiya qoyuluşlarının təşviq edilməsi

Əsaslandırma

Son illər ərzində ölkədə aqrar sahəyə qoyulan investisiyaların ümumi həcminin artmasına baxmayaraq, ümumilikdə bu sahəyə investisiya qoyuluşları iqtisadiyyatın digər sahələri ilə müqayisədə çox aşağıdır. Son on ildə iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların strukturuna nəzər saldıqda, kənd təsərrüfatına yönəldilmiş investisiyaların payının orta hesabla cəmi 3,05 faiz olduğunu görmək olar.[3] İqtisadiyyata qoyulan birbaşa xarici investisiyaların həcminin son illərdə bir neçə dəfə artmasına baxmayaraq, ölkədə aqrar sahəyə birbaşa xarici investisiya, demək olar ki, qoyulmur.

Görüləcək tədbirlər

Tədbir 3.3.1: Aqrar investisiya ehtiyaclarının qiymətləndirilməsi və investisiya layihələrinin hazırlanması

İqtisadiyyat Nazirliyi tərəfindən Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə aqrar sahənin inkişaf perspektivləri əsasında bu sahənin investisiya ehtiyacları və imkanları ətraflı şəkildə qiymətləndiriləcəkdir. Bu qiymətləndirmə əsasında investisiya layihələri və investisiya xəritələri (inzibati rayonlar və sahələr üzrə) hazırlanacaqdır. Aqrar sahədə investisiya imkanları ilə bağlı həm elektron, həm də çap materialları hazırlanacaq, ölkədaxili və beynəlxalq sərgilərdə, forumlarda, konfranslarda, yerli və xarici investorlarla ikitərəfli görüşlərdə təqdim ediləcəkdir. Beynəlxalq aləmdə tanınmış aqrar-sənaye, o cümlədən qida məhsulları istehsalçıları (transmilli korporasiyalar) ölkəyə investisiya yatırmağa dəvət olunacaqlar və zərurət olarsa, belə istehsalçıların ölkəyə investisiya qoyuluşlarına cəlb edilməsi üçün xüsusi strategiyalar və proqramlar hazırlanacaqdır.

Tədbir 3.3.2: Aqrar sahədə investisiya mühitinin yaxşılaşdırılması

İqtisadiyyat Nazirliyi tərəfindən Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə aqrar sahədə mövcud investisiya mühiti araşdırılacaq və təhlillər aparılacaqdır. Təhlillərin nəticəsi olaraq, aqrar sahədə investisiya mühitinin daha da əlverişli olması üçün görüləcək işlərlə bağlı təkliflər hazırlanacaqdır. Bu tədbir 6-cı strateji hədəf çərçivəsində əlaqələndiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Hər bir inzibati rayon üzrə investisiya xəritələri və layihələri hazırlanacaq və aqrar sahədə investisiya mühiti yaxşılaşacaqdır. Dünyanın tanınmış aqrar-sənaye, o cümlədən qida məhsulları istehsalçılarının ölkəyə investisiya qoymaları ilə ölkənin qlobal dəyər zəncirinə inteqrasiyasının gücləndirilməsi gözlənilir. Aqrar sahəyə cəlb edilən birbaşa xarici investisiyaların həcmi artacaqdır. Bu prioritetdə qeyd edilən tədbirlər sayəsində aşağıdakı nəticələrin əldə olunması gözlənilir:

- aqrar sahəyə cəlb edilən investisiyaların həcmi 2 dəfə artacaq;
- inzibati rayonlar və sahələr üzrə ən azı 100 investisiya layihəsi hazırlanacaqdır.

Bu prioritet çərçivəsində görüləcək tədbirlər 2.1-ci prioritetdə qeyd edilən 2020-ci ildə real ÜDM-ə təsiri əldə etmək üçün dəstəkləyici rola malikdir.

[3] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Bu prioritet üzrə risk faktoru investorların, xüsusilə də xarici investorların ölkədə kənd təsərrüfatı sahəsinə investisiya qoyuluşlarına maraq göstərməmələri ola bilər.

7.4. Strateji hədəf 4. Kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminatın yaxşılaşdırılması

Bu strateji hədəf yeddi prioritetdən ibarət olmaqla kənd təsərrüfatı istehsalçılarının istehsal vasitələrinə çıxışının asanlaşdırılması istiqamətində görüləcək tədbirləri əhatə edir.

Birinci prioritet ümumilikdə ölkədə torpaq bazarının inkişaf etdirilməsi ilə bağlı tədbirləri özündə əks etdirir. İkinci prioritet kənd təsərrüfatında digər əsas istehsal vasitəsi olan suvarma suyuna çıxışı asanlaşdıracaq tədbirləri əhatə edir. Üçüncü prioritet istehsalçıların müxtəlif növ istehsal texnikası, maşın və avadanlıqlarla təminatının yaxşılaşdırılması üçün görüləcək işləri ehtiva edir. Dördüncü prioritetdə toxum, eləcə də ting bazarının inkişaf etdirilməsi, bununla yanaşı yerli istehsal potensialının gücləndirilməsi istiqamətində görüləcək işlər nəzərə alınmışdır. Beşinci prioritet aqrar sahənin gübrə və bitki mühafizəsi vasitələrilə təminatının yaxşılaşdırılması istiqamətində görüləcək tədbirləri əhatə edir. Altıncı prioritet qarışıq və qüvvəli yem istehsalının inkişafı üçün nəzərdə tutulmuş tədbirləri, eləcə də ölkədə damazlıq işinin inkişafı üçün nəzərdə tutulan tədbirlər planını əks etdirir. Yeddinci prioritet isə baytarlıq və fitosanitar xidmətlərinin inkişaf etdirilməsi istiqamətində görüləcək tədbirləri əhatə edir.

7.4.1. Prioritet 4.1. Torpaq bazarının inkişaf etdirilməsi

Əsaslandırma

Torpaq kənd təsərrüfatı məhsulları istehsalında əsas istehsal vasitəsi olduğu üçün kənd təsərrüfatı məhsulu istehsalçılarının bu istehsal vasitəsinə çıxışının yaxşılaşdırılması və ümumilikdə torpaq resurslarından səmərəli istifadə olunması aqrar sahədə istehsalın stimullaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Ölkədə kiçik torpaq sahələrinə malik ailə təsərrüfatlarının üstünlük təşkil etməsi bu sahənin rəqabətqabiliyətliliyinə ciddi mane olan əsas faktorlardan biridir. Kənd təsərrüfatı təyinatlı torpaqlardan bir sıra hallarda öz təyinatı üzrə istifadə olunmaması isə bu istiqamətdə son dövrlərdə bir çox işlərin görülməsinə baxmayaraq mühüm bir problem olaraq qalır.

Görüləcək tədbirlər

Tədbir 4.1.1: Kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqı, icarə və istifadəyə verilməsi ilə bağlı prosedurların sadələşdirilməsi və bu sahədə şəffaflığın artırılması

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən, aidiyyəti dövlət orqanları ilə birlikdə, kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqısı, icarəyə və istifadəyə verilməsi prosedurları ətraflı təhlil ediləcək, bu prosedurların sadələşdirilməsi və bu sahədə şəffaflığın

artırılması istiqamətində görüləcək işlərlə bağlı təkliflər hazırlanacaqdır. Xüsusilə də, kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin bir ildən artıq olmayan müddətə icarəyə və istifadəyə verilməsi barədə müqavilələrin, habelə xüsusi mülkiyyətdə olan həmin torpaq sahələrinin iki ildən artıq olmayan müddətə icarəyə və istifadəyə verilməsinə dair etibarnamələrin yerli notariuslarda təsdiq edilməsi imkanlarına baxılacaqdır. Eyni zamanda, torpaqların alqı-satqısı, icarəsi və istifadəyə verilməsi ilə bağlı elektron qeydiyyat sisteminin tətbiqi imkanları araşdırılacaqdır.

Tədbir 4.1.2: Kənd təsərrüfatına yararlı torpaqların istifadəsiz saxlanılmasının qarşısını almaq üçün müvafiq mexanizmlərin tətbiqi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən, aidiyyəti qurumlarla birlikdə, istifadəsiz, habelə təyinatı üzrə istifadə olunmayan kənd təsərrüfatına yararlı torpaqların əkin dövriyyəsinə cəlb edilməsi istiqamətində müvafiq normativ hüquqi bazanın yaradılması ilə bağlı təkliflər hazırlanacaq və bu istiqamətdə qəbul edilmiş mövcud qanunların işlək vəziyyətdə olması təmin ediləcəkdir.

Tədbir 4.1.3: Torpaqların konsolidasiyası istiqamətində tədbirlər görülməsi

Kənd Təsərrüfatı Nazirliyi və aidiyyəti dövlət orqanları tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası üçün qabaqcıl dünya təcrübəsi öyrənilməklə müvafiq dövlət proqramı hazırlanacaqdır.

Gözlənilən nəticələr və nəticə indikatorları

Kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqısı, istifadəyə və icarəyə verilməsi asanlaşacaq, kənd təsərrüfatına yararlı olub istifadəsiz qalan torpaqlar yenidən əkin dövriyyəsinə cəlb ediləcəkdir. Torpaq sahələri konsolidasiya ediləcək və bununla da məhsul istehsalının səmərəliliyi artırılacaqdır. Eyni zamanda, kənd təsərrüfatına yararlı olub istifadəsiz qalan torpaq sahələrinin əkin dövriyyəsinə qaytarılması hesabına ümumi əkin sahələrinin həcmi 5 faiz artacaqdır.

Bundan əlavə, bu prioritet çərçivəsində görüləcək tədbirlər 2.1-ci prioritetdə qeyd edilən 2020-ci ildə real ÜDM-ə təsiri əldə etmək üçün dəstəkləyici rola malikdir.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Burada risk faktoru kimi təsərrüfatların torpaqların konsolidasiyasına az maraq göstərməsi ola bilər.

7.4.2. Prioritet 4.2. İstehsalçıların suvarma suyu ilə təminatının yaxşılaşdırılması

Əsaslandırma

Son illər ölkənin suvarma suyuna olan tələbatının yaxşılaşdırılması istiqamətində bir çox işlər görülməsinə baxmayaraq bu sahədə bir neçə istiqamətdə

problemlər hələ də mövcuddur. Ölkədə əkin sahələrinin böyük hissəsinin suvarılan sahələr olduğunu nəzərə aldıqda, kənd təsərrüfatı məhsulları istehsalçılarının suvarma suyu ilə təminatının yaxşılaşdırılmasının bu sahədə istehsalın, eləcə də məhsuldarlığın artırılmasına gətirib çıxaracağını qeyd etmək olar.

Görüləcək tədbirlər

Tədbir 4.2.1: Suvarma suyuna olan tələbatın öyrənilməsi

Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC ilə birlikdə kənd təsərrüfatı məhsulları istehsalçılarının suvarma suyuna olan tələbatının ödənilmə səviyyəsini müəyyən edəcək və bununla bağlı ehtiyaclara dair qiymətləndirmə aparacaqdır.

Tədbir 4.2.2: Suvarma suyu ilə təminatın yaxşılaşdırılması

Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə mövcud ehtiyacların və resursların qiymətləndirilməsi əsasında Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən kiçik sututarların yaradılması, artezian quyularının qazılması və suvarma kanallarının genişləndirilməsi ilə bağlı fəaliyyət planı hazırlanacaqdır.

Tədbir 4.2.3: Müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi

"Aqrolizinq" ASC xətti ilə lizinqə götürülən və lizinq yolu ilə satın alınan müasir suvarma sistemləri dəstinə və avadanlığına dövlət büdcəsinin vəsaiti hesabına güzəştin tətbiqi siyasəti davam etdirilməklə, istehsalçıların sudan qənaətlə istifadəyə imkan verən suvarma sistemlərini tətbiq etmələri stimullaşdırılacaqdır. Həmçinin, sudan qənaətlə istifadəyə imkan verən suvarma sistemlərinin tətbiqinin stimullaşdırılmasının digər metodları ilə bağlı dünya təcrübəsi araşdırılaraq müvafiq təkliflər hazırlanacaqdır.

Tədbir 4.2.4: Sudan istifadəedənlər assosiasiyalarının fəaliyyətinin genişləndirilməsi

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən beynəlxalq təcrübə öyrənilməklə, sudan istifadəedənlər assosiasiyalarının fəaliyyətlərinin genişləndirilməsi və təkmilləşdirilməsi üçün təkliflər hazırlanacaqdır. Bu assosiasiyalar vasitəsilə sudan istifadənin effektiv monitorinqi mexanizminin yaradılması dəyərləndiriləcəkdir.

Gözlənilən nəticələr və nəticə indikatorları

Kənd təsərrüfatı məhsulları istehsalçılarının suvarma suyu ilə təminatı 20 faiz artacaqdır.

Bundan əlavə, bu prioritet çərçivəsində görüləcək tədbirlər 2.1-ci prioritetdə qeyd edilən 2020-ci ildə real ÜDM-ə təsiri əldə etmək üçün dəstəkləyici rola malikdir.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Bu prioritet üzrə əsas risk faktoru maliyyə çətinliklərinin yaranması ola bilər.

7.4.3. Prioritet 4.3. Kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika, maşın və avadanlıqlarla təminatının yaxşılaşdırılması və aqroservis xidmətləri bazarının inkişaf etdirilməsi

Əsaslandırma

Kənd təsərrüfatı məhsulları istehsalçılarının müvafiq texnika və avadanlıqlarla təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən sistemli tədbirlər hesabına kənd təsərrüfatı texnikası parkı köklü şəkildə yenilənmiş və genişləndirilmişdir. Hazırda istehsalçıların müvafiq texnika və avadanlıqlarla təminatı və aqroservis bazarının inkişafı baxımından aktual olan bir neçə məsələ mövcuddur:

- istismar müddəti başa çatan texnikaların yeniləri ilə əvəz edilməsi məqsədilə dövlət dəstəyi tədbirinin davam etdirilməsinin texniki-iqtisadi qiymətləndirilməsi;
- istehsalın intensivləşməsi və əkin sahələrinin perspektiv struktur dəyişikliyinə uyğun olaraq əkinçiliyin bütün sahələri (pambıq, kartof, tərəvəz, şəkər çuğunduru və digər sahələr) üzrə texnika parkının fiziki və mənəvi cəhətdən yeniləndirilməsi və genişləndirilməsi imkanlarının araşdırılması;
- kiçik və orta təsərrüfat subyektlərinin spesifik ehtiyacları nəzərə alınmaqla maşın, texnika və avadanlıqlarla təminatın texniki-iqtisadi əsaslandırılmasının hazırlanması;
- aqrotexniki xidmətlərin həyata keçirilməsi sahəsində rəqabətin və keyfiyyətin yüksəldilməsi məqsədilə özəl aqroservis xidməti göstərən biznes subyektləri şəbəkəsinin genişləndirilməsi.

Görüləcək tədbirlər

Tədbir 4.3.1: Kənd təsərrüfatı texnikası parkının inkişaf etdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən ölkədə bitkiçilik və heyvandarlığın perspektiv struktur dəyişikliyi nəzərə alınmaqla, kənd təsərrüfatı texnikası parkının bitkiçilik və heyvandarlığın bütün sahələri üzrə genişləndirilməsi ehtiyacları qiymətləndiriləcəkdir. Bununla yanaşı, köhnəlmiş texnika və avadanlıqların təmiri, eləcə də yeniləri ilə əvəzlənməsi istiqamətində görülən işlərin davam etdirilməsi imkanları araşdırılacaqdır.

Tədbir 4.3.2: İnnovativ, eləcə də kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatın yaxşılaşdırılması

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı və ilkin emalı üzrə kiçik və orta təsərrüfat subyektlərinin itkilərinin azaldılması, eləcə də səmərəliliyin artırılması üçün onların kiçikhəcmli texnikaya, maşın və avadanlıqlara olan ehtiyaclarını öyrənmək məqsədilə sorğular və təhlillər aparılacaqdır. Bunun əsasında təsərrüfatların kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatının yaxşılaşdırılması üçün təkliflər hazırlanacaqdır. Təkliflər hazırlanarkən bu Strateji Yol Xəritəsində təsbit edilmiş prioritet məhsulların innovativ və kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatının yaxşılaşdırılması nəzərə alınacaqdır.

Tədbir 4.3.3: Aqroservis xidmətləri bazarının inkişaf etdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi ilə birlikdə aqroservis xidmətləri bazarının sahəvi və institusional strukturunu ətraflı təhlil edəcəkdir. Bundan sonra bu bazarda "Aqrolizinq" ASC-nin, eləcə də özəl sektorun rolunun artırılması üçün təkliflər hazırlanacaqdır.

Gözlənilən nəticələr və nəticə indikatorları

Kənd təsərrüfatı texnikası parkı inkişaf etdiriləcək və yenilənəcəkdir. Regionlarda kənd təsərrüfatı texnikalarının xidmət infrastrukturu formalaşacaqdır. İstehsalçıların innovativ, eləcə də kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatı yaxşılaşacaqdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika, maşın və avadanlıqlarla, eləcə də kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatı 20 faiz artacaq, innovativ texnika və avadanlıqlardan istifadə genişlənəcək, özəl aqroservis xidmətləri göstərən şirkətlərin payı 70 faizə çatacaqdır.

Bundan əlavə, bu prioritet çərçivəsində görüləcək tədbirlər 2.1-ci prioritetdə qeyd edilən 2020-ci ildə real ÜDM-ə təsiri əldə etmək üçün dəstəkləyici rola malikdir.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Rəqabət mühitində baş verə biləcək problemlər bazarların formalaşmasına mane ola bilər. Fermerlərin innovativ, kiçikhəcmli texnika, avadanlıq və maşınlardan istifadə etmək biliklərinin aşağı olması da risk faktorlarından biridir.

7.4.4. Prioritet 4.4. Toxum və ting bazarının inkişaf etdirilməsi və yerli istehsal potensialının gücləndirilməsi

Əsaslandırma

Azərbaycanda toxum və ting bazarı hazırda formalaşma mərhələsindədir və istehsalçıların keyfiyyətli toxum və tinglərlə təmin edilməsi ilə bu bazarın inkişaf etdirilməsi zərurəti vardır. Yüksək keyfiyyətli toxum və tinglərə qoyulan ilkin investisiya kiçik təsərrüfat subyektləri üçün çox baha başa gəldiyinə görə fermerlərin əksəriyyəti növbəti mövsümdə toxuma və tingə olan tələbatlarını ödəmək üçün onları öz təsərrüfatlarında yetişdirir. Bazarda təklifə gəldikdə isə fermerlərin əldə edə biləcəyi yüksək keyfiyyətli toxumların və tinglərin məhdud və sertifikatsız olduğunu qeyd etmək lazımdır. Hazırda ölkədə toxuma olan tələbatın böyük hissəsi idxal hesabına ödənilir və mövcud toxum istehsalçılarının əksəriyyəti əsasən taxıl toxumunun istehsalı ilə məşğul olurlar.

Görüləcək tədbirlər

Tədbir 4.4.1: Toxum və ting istehsalının təşviq edilməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən toxum və ting istehsalı ilə məşğul olan təsərrüfatı subyektlərinin potensialının gücləndirilməsi ilə bağlı ehtiyaclar qiymətləndiriləcək və bundan sonra belə təsərrüfatların fəaliyyətinin gücləndirilməsinə dəstək vermək üçün təkliflər, eləcə də fəaliyyət planı hazırlanacaqdır.

Tədbir 4.4.2: Toxum və ting istehsalında keyfiyyətə nəzarət sisteminin yaradılması və sertifikatlaşdırma mexanizminin təkmilləşdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən toxumçuluğun və tingçiliyin tənzimlənməsi ilə bağlı mövcud qaydaların beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində işlər görüləcəkdir. Toxum və tinglərin keyfiyyətinə nəzarət sisteminin və onların sertifikatlaşdırılması prosesinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Sertifikatlaşdırma və monitorinq sistemi üçün lazımi mərhələlərin müəyyən edildiyi

qaydalar hazırlanacaqdır. Toxum və ting bazarının tənzimlənməsi tədbirlərinin həyata keçirilməsində Toxum İstehsalçıları Assosiasiyasının mümkün iştirakı ilə bağlı mexanizmlər hazırlanacaqdır.

Tədbir 4.4.3: Elektron məlumat bazasının yaradılması

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən toxum və ting istehsalçıları, istehsal olunmuş və satışa çıxarılan sertifikatlaşdırılmış toxumlar və tinglər, habelə onların bioloji və iqtisadi göstəriciləri barədə ətraflı məlumatların təmin olunması üçün elektron məlumat bazasının yaradılması imkanları araşdırılacaqdır.

Tədbir 4.4.4: Toxumçuluq laboratoriyalarının fəaliyyətinin təkmilləşdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi mövcud toxumçuluq laboratoriyalarının müasir avadanlıqlarla təminatının başa çatdırılması imkanlarını araşdıracaqdır. Bundan əlavə, laboratoriyaların mütəxəssislərinə beynəlxalq mütəxəssislər tərəfindən təlimlər keçiləcək və bu laboratoriyaların akkreditasiyadan keçmələri üçün tədbirlər görüləcəkdir.

Gözlənilən nəticələr və nəticə indikatorları

Bu sahədə vahid sertifikatlaşdırma sistemi yaradılacaq, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün elektron məlumat bazası qurulacaq və keyfiyyətə nəzarət edən vahid sistem olacaqdır. Toxumçuluq laboratoriyaları akkreditasiyadan keçiriləcəkdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının sertifikatlı toxumlardan, eləcə də tinglərdən istifadə səviyyəsi 90 faizə çatdırılacaqdır.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Rəqabət mühitində təzahür edə biləcək problemlər bazarların formalaşmasına mane ola biləcək risk faktorudur.

7.4.5. Prioritet 4.5. Gübrə və bitki mühafizə vasitələri ilə təminatın yaxşılaşdırılması

Əsaslandırma

Hazırda əkinlərə verilən mineral gübrələrin faktiki həcmi mövcud tələbatla müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır. Məsələn, Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına əsasən, 2015-ci ilin əkinlərinə görə mineral gübrəyə olan tələbatın həcmi 948,9 min ton olduğu halda ölkəyə cəmi 152,8 min ton mineral gübrə idxal edilmişdir. Göründüyü kimi, 2015-ci ildə ölkəyə mineral gübrə idxalı mövcud tələbatın yalnız 16,1 faizini təşkil etmişdir. Ümumilikdə isə, FAO-nun son illər üzrə statistikasına əsasən, Azərbaycan hər hektar əkinə verilən mineral gübrələrin həcmi üzrə göstəricinin çox aşağı olduğu ölkələr qrupuna daxildir.

Gübrələrdən və bitki mühafizə vasitələrindən məhdud səviyyədə istifadə son nəticədə bitkiçilikdə məhsuldarlığın aşağı düşməsinə və itkilərin artmasına səbəb olur.

Görüləcək tədbirlər

Tədbir 4.5.1: Gübrəyə olan tələbatın müəyyən edilməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən regional səviyyədə torpağın keyfiyyətini müəyyən edən torpaq-aqrokimyəvi xəritələr hazırlanacaq və bu xəritələrin dövri qaydada yenilənməsi üçün tədbirlər görüləcəkdir. Bu da öz növbəsində gübrələrə olan tələbatın optimal səviyyəsini müəyyən etməyə yardım edəcəkdir. Eyni zamanda, bu informasiyaların elektron formasının yaradılması imkanları dəyərləndiriləcəkdir.

Tədbir 4.5.2: Gübrələrdən istifadənin təşviq edilməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təsərrüfatlar arasında gübrələrdən istifadə ilə bağlı sorğular aparılacaq və bunun əsasında gübrələrdən istifadənin təşviqi üçün prioritetlər müəyyən ediləcəkdir. Gübrələrdən istifadə və onun üstünlükləri barədə təsərrüfatların məlumatlandırılması üçün məsləhətçi dəstəyi (informasiya-məsləhət xidmətləri vasitəsilə) veriləcəkdir. Eyni zamanda, bioloji gübrələrdən (məsələn, biohumus) istifadənin genişləndirilməsi imkanları dəyərləndiriləcəkdir.

Tədbir 4.5.3: Bitki mühafizə vasitələri ilə təminatın yaxşılaşdırılması

Kənd Təsərrüfatı Nazirliyi istehsalçıların bitki mühafizə vasitələri ilə təminat səviyyəsini təhlil edərək, bu sahədə inkişaf prioritetlərini müəyyən edəcəkdir. Bununla yanaşı, dünya təcrübəsi öyrənilməklə, bitki mühafizəsində müxtəlif bioloji üsulların tətbiqi imkanları araşdırılacaqdır.

Tədbir 4.5.4: Gübrə və bitki mühafizə vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən gübrə və bitki mühafizə vasitələrinin keyfiyyətinə effektiv nəzarət mexanizmi yaradılacaq və bunun əsasında nəticələrə dair mütəmadi hesabatların hazırlanması təmin ediləcəkdir.

Tədbir 4.5.5: Gübrə istehsalında yerli istehsalın təşviq olunması

Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Nazirliyi ilə birgə, zərurət yarandıqda, gübrə (eyni zamanda biogübrə) istehsal edən zavodların yaradılmasında özəl sektora lazımi dəstəyin verilməsini nəzərdən keçirəcəkdir. Neft-qaz sektorunda mövcud olan potensial imkanlardan biri də gübrə zavodlarının tikilməsidir və kənd təsərrüfatı sektorunda görülən tədbirlər belə imkanlara uyğun olaraq koordinasiya ediləcəkdir. Bu sahə üzrə görüləcək işlər “Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi”nin 3-cü strateji hədəfində nəzərə alınmışdır.

Gözlənilən nəticələr və nəticə indikatorları

Kənd təsərrüfatında məhsul istehsalının artırılması üçün keyfiyyətli gübrə və bitki mühafizəsi vasitələrindən (o cümlədən bioloji gübrə və bitki mühafizəsi vasitələrindən) istifadə genişlənəcəkdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən mineral gübrələrdən istifadə 25 faiz, bitki mühafizəsi vasitələrindən istifadə 25 faiz, bioloji gübrələrdən istifadə 10 faiz, bioloji bitki mühafizəsi vasitələrindən istifadə 10 faiz artacaqdır.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Rəqabət mühitində təzahür edə biləcək problemlər bazarların formalaşmasına mane ola biləcək risk faktorudur.

7.4.6. Prioritet 4.6. Heyvandarlığın qarışıq qüvvəli yemlə təminatının yaxşılaşdırılması və damazlıq işinin inkişaf etdirilməsi

Əsaslandırma

Son illər ölkədə heyvandarlıq məhsulları istehsalı artmışdır, bu isə, öz növbəsində, heyvandarlığın qarışıq qüvvəli yemə olan tələbatı məsələsini gündəmə gətirir. Bu sahədə görülən bir sıra işlərə baxmayaraq heyvandarlığın qarışıq qüvvəli yemlə təminatının yaxşılaşdırılmasında problemlər mövcuddur.

Ölkədə intensiv ferma modelinin tətbiqinin genişləndirilməsi və heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədi ilə damazlıq işinin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin davam etdirilməsinə ehtiyac vardır.

Görüləcək tədbirlər

Tədbir 4.6.1: Qarışıq qüvvəli yem bazarının strukturunun öyrənilməsi və bu sahənin inkişaf etdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi ölkədə sənaye üsulu ilə hazırlanan qarışıq qüvvəli yem istehsalına olan cari və perspektiv bazar tələbatının həcmini qiymətləndirəcək, xammal təminatının yaxşılaşdırılması və digər məsələlər nəzərə alınmaqla bu sahənin inkişafı ilə bağlı təkliflər hazırlayacaqdır. Eyni zamanda, qabaqcıl təcrübədən istifadə olunmaqla yem ehtiyatlarının diversifikasiyası imkanları araşdırılacaq və ümumi yem ehtiyatlarının keyfiyyətinin yaxşılaşdırılması üçün müvafiq tədbirlər planı hazırlanacaqdır.

Tədbir 4.6.2: Süni mayalandırma və embrion köçürmə metodundan istifadənin genişləndirilməsi

Respublika Süni Mayalanma Mərkəzinin modernləşdirilməsi istiqamətində işlər davam etdiriləcək, Mərkəzin müxtəlif cinsli damazlıq törədici heyvanlar, laboratoriya avadanlıqları və digər xüsusi təyinatlı avadanlıq və texnikalarla təchiz edilməsi məsələləri diqqətdə saxlanılacaqdır. Bu sahədə institusional baza gücləndiriləcək, regional süni mayalanma mərkəzləri müvafiq avadanlıq və materiallarla təchiz olunacaq, peşəkar süni mayalanma mütəxəssislərinin hazırlanması işi davam etdiriləcək, süni mayalanma mütəxəssisləri müasir texnika və avadanlıqlarla təchiz olunacaqdır. Bununla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçıları arasında süni mayalanma və embrion köçürülməsi üsullarının üstünlükləri barədə təşviqat və maarifləndirmə işləri aparılacaqdır.

Tədbir 4.6.3: Damazlıq quşçuluğun inkişafının dəstəklənməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən İqtisadiyyat Nazirliyi ilə birlikdə ölkədə damazlıq quşçuluğun inkişafı, o cümlədən bu istiqamətdə stabil təchizatın təmin edilməsi ilə bağlı ehtiyaclar kompleks şəkildə təhlil ediləcək və müvafiq təkliflər hazırlanacaqdır.

Gözlənilən nəticələr və nəticə indikatorları

Heyvandarlığın inkişafı üçün qarışıq qüvvəli yem bazarı formalaşacaq və heyvanların cins tərkibi yaxşılaşacaqdır. Heyvandarlığın qüvvəli yemlərlə təminat səviyyəsi 20 faiz, heyvandarlıqda məhsuldar cinslərin sayı 25 faiz artacaqdır.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Rəqabət mühitində təzahür edə biləcək problemlər bazarların formalaşmasına mane ola biləcək risk faktorudur.

7.4.7. Prioritet 4.7. Kənd təsərrüfatı məhsulları istehsalçılarının baytarlıq və fitosanitar xidmətləri ilə təminatının yaxşılaşdırılması

Əsaslandırma

Ölkədə baytarlıq və fitosanitar xidmətləri sisteminin inkişaf etdirilməsi üçün görülən işlər çərçivəsində müvafiq standartların təkmilləşdirilməsinə başlanılmış, laboratoriyalar yenilənmiş, beynəlxalq təşkilatlarla birgə institusional potensialın gücləndirilməsi tədbirləri həyata keçirilmişdir. Bununla belə, istehsalçıların baytarlıq və fitosanitar xidmətləri ilə effektiv təminatı, bu sahədə potensialın beynəlxalq standartlara uyğunlaşdırılması, özəl baytarlıq və bitki mühafizəsi xidmətləri göstərən şəbəkənin inkişaf etdirilməsi və digər istiqamətlərdə islahatların sürətləndirilməsi zəruridir.

Görüləcək tədbirlər

Tədbir 4.7.1: Özəl baytarlıq şəbəkəsinin inkişaf etdirilməsi

Təsərrüfatlara müvafiq baytarlıq xidmətləri göstərilməsi (heyvanların müalicəsi, habelə yoluxucu xəstəliklərə qarşı peyvəndləmə aparılması) işinin özəl sektora ötürülməsi mexanizminin yaradılması və bu məqsədlə özəl baytarlıq şəbəkəsinin inkişaf etdirilməsi üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təkliflər hazırlanacaq və bunun əsasında müvafiq tədbirlər həyata keçiriləcəkdir.

Tədbir 4.7.2: Heyvanların sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin yaradılması

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən heyvan xəstəlikləri ilə bağlı risklərin idarə edilməsi işinin təkmilləşdirilməsi üçün Dünya Heyvan Sağlamlığı Təşkilatının standartlarına uyğun olaraq heyvanların sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin qurulması istiqamətində tədbirlər görüləcəkdir.

Tədbir 4.7.3: Bitkilərin sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin yaradılması

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bitki xəstəlikləri ilə bağlı risklərin idarə edilməsi işinin təkmilləşdirilməsi üçün Beynəlxalq Bitki Mühafizəsi Konvensiyasının Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartlarına uyğun olaraq bitkilərin sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin qurulması təmin ediləcəkdir.

Tədbir 4.7.4: Bitki mühafizəsi sahəsində inteqrir mübarizə tədbirləri sistemlərinin hazırlanması və tətbiq edilməsi

Bitkilərin mühafizəsi və bitki xəstəliklərinə qarşı bütün mübarizə üsullarını (aqrotexniki, mexaniki, fiziki, kimyəvi, karantin) özündə birləşdirən inteqrir mübarizə tədbirləri sistemləri hazırlanaraq tətbiq ediləcəkdir.

Tədbir 4.7.5: Baytarlıq və fitosanitar xidmətləri üzrə laboratoriyaların modernləşdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən baytarlıq və fitosanitar nəzarəti laboratoriyalarının, o cümlədən Respublika Karantin Ekspertiza və Respublika Toksikologiya və Keyfiyyətə Nəzarət mərkəzlərinin nəzdindəki laboratoriyaların modernləşdirilməsi işinin başa çatdırılması və bu laboratoriyaların fəaliyyətinin təkmilləşdirilməsi və akkreditasiyadan keçirilməsi ilə bağlı işlər davam etdiriləcəkdir.

Gözlənilən nəticələr və nəticə indikatorları

Heyvan və bitki xəstəlikləri üzrə risklərin idarə edilməsi sistemi beynəlxalq standartlara uyğunlaşdırılacaqdır. Baytarlıq və bitki mühafizə xidmətlərində özəl xidmət şəbəkəsi genişləndiriləcək, özəl baytarlıq xidməti göstərənlərin sayı 30 faiz artacaqdır.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Uzun illər ərzində formalaşmış institusional ənənələrin və prosedurların mövcudluğu bu sahədə islahatların aparılmasına mane ola bilər.

7.5. Strateji hədəf 5. Kənd təsərrüfatı sahəsində elm, təhsil və informasiya-məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi

Bu strateji hədəfə çatmaq üçün üç prioritet istiqamət seçilmişdir. Birinci prioritet kimi aqrar təhsilin keyfiyyətinin artırılması məsələsi nəzərə alınacaqdır. Bu məqsədlə, aqrar sahədə təhsilin cəlbediciliyini artıracaq layihələrin icrası, aqrar təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, beynəlxalq təcrübəyə əsaslanan kurikulumların hazırlanması istiqamətində işlər görüləcəkdir.

İkinci prioritet kimi kənd təsərrüfatında elmi-tədqiqatların aparılması və nəticələrinin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi məsələsi nəzərə alınacaqdır. Bu məqsədlə, elmi tədqiqat institutlarının maliyyələşmə mənbələrinin diversifikasiyası, aqrar sahə üzrə intellektual mülkiyyət hüquqları ilə bağlı qanunvericilik bazasının hazırlanması, elmi tədqiqat institutlarının maddi-texniki bazasının yaxşılaşdırılması və

eləcə də beynəlxalq elmi tədqiqat institutları ilə yerli elmi tədqiqat institutlarının əlaqələrinin dərinləşdirilməsi istiqamətində tədbirlər görüləcəkdir.

Sonuncu prioritet kimi, aqrar sahənin ehtiyaclarına cavab verən informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması və yeniliklərin istehsalçılara ötürülməsi məsələlərinə diqqət yetiriləcəkdir. Bu istiqamətdə, ilkin olaraq, aqrar sahədə informasiya-məsləhət xidmətlərini tənzimləyən qanun layihəsinin hazırlanması, bu sahədə fəaliyyət göstərən dövlət qurumlarının maddi-texniki bazasının yaxşılaşdırılması, elektron məsləhət xidmətinin yaradılması istiqamətində işlər yerinə yetiriləcəkdir.

7.5.1. Prioritet 5.1. Aqrar təhsildə keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidin təmin edilməsi

Əsaslandırma

Son illər aqrar təhsil sisteminin köklü şəkildə modernləşdirilməsi məsələsinə xüsusi diqqət ayrılması hesabına bu sahədə ilkin müsbət nəticələr əldə olunmuşdur. Buna baxmayaraq ölkədə aqrar təhsilə maraq hələ də istənilən səviyyədə deyildir. Belə ki, aqrar sahədə ixtisaslaşmış ali təhsil müəssisəsi olan Azərbaycan Dövlət Aqrar Universitetinin 2015–2016-cı tədris ilində qəbul planı ümumilikdə 1275 nəfər, o cümlədən kənd təsərrüfatı üzrə 480 nəfər olmuşdursa, 2016–2017-ci tədris ilində qəbul planı ümumilikdə 1320 nəfərə, kənd təsərrüfatı ixtisasları üzrə dövlət sifarişi 660 nəfərə çatmışdır. Eyni zamanda, 2015–2016-cı tədris ilində ümumilikdə universitetə 949 nəfər (və ya ümumi qəbul planının 74,4 faizi qədər) tələbə qəbul olunmuşdursa, 2016–2017-ci tədris ilində bu göstəricilər müvafiq olaraq 1169 (80,8 faiz) olmuşdur.

Təhsil Nazirliyinin məlumatlarına əsasən, 2015-ci ildə peşə təhsili müəssisələrinə 2670 nəfər qəbul edilmişdir.[4] Onların 56 faizdən çoxu kənd təsərrüfatı texnikası ilə bağlı peşə sahələrinə qəbul olunmuşdur. Bununla belə, son illər kənd təsərrüfatı və aqrobiznes üzrə təhsil almış məzunların sayında azalma müşahidə edilmişdir. Kənd təsərrüfatı məhsullarının emalı sahəsi üzrə 2015-ci ildə cəmi 40 tələbə təhsil almışdır. Ümumilikdə isə aqrar sahənin yüksəkixtisaslı kadrlara olan tələbatının ödənilməsi səviyyəsinin yüksəldilməsi hazırda aktual vəzifələrdən biridir.

Görüləcək tədbirlər

Tədbir 5.1.1: Aqrar sahədə ali təhsilin inkişaf etdirilməsi

Azərbaycan Dövlət Aqrar Universiteti tərəfindən təhsilin keyfiyyətini artırmaq üçün müasir tələblərə cavab verən kurikulumların işlənib hazırlanması davam etdiriləcəkdir. Bu kurikulumların hazırlanması eyni zamanda aqraryönümlü ixtisasların kənd təsərrüfatı sahəsində mövcud əmək bazarının tələblərinə uyğun formalaşdırılmasını təmin edəcəkdir. Bundan əlavə, aqrar sahədə təhsilin cəlbediciliyini artırmaq üçün maarifləndirmə-təbliğat proqramları həyata keçiriləcək və Universitet məzunların işlə təmin olunmasına kömək edəcəkdir (məsələn, əmək yarmarkalarının təşkil olunması və s.). İnkişaf etmiş ölkələrin təhsil müəssisələri ilə tələbə, eləcə də müəllim heyətinin mübadiləsi və "ikili diplom" proqramlarının ("double degree") tətbiqi imkanları öyrəniləcəkdir. Azərbaycan Dövlət Aqrar Universitetinin maddi-texniki bazasının təkmilləşdirilməsi ilə bağlı tədbirlər davam etdirilməklə yanaşı, Universitetin müəllimlərinin və tədqiqatçılarının elmin müasir yenilikləri ilə tanış olması, eləcə də biliklərinin daha da dərinləşdirilməsi üçün beynəlxalq konfranslarda, seminarlarda və müxtəlif ixtisasartırma kurslarında iştirakını təşviq edən xüsusi proqramlar hazırlanacaqdır. Bütün bunlarla yanaşı, Kənd Təsərrüfatı Nazirliyi Təhsil

[4] Toxuculuq sahəsində təhsil alan tələbələr istisna edilir.

Nazirliyi ilə birgə ölkənin digər universitetlərində aqrar sahədə təhsilin aparılması imkanlarını dəyərləndirəcək və müvafiq təkliflər hazırlayacaqdır.

Tədbir 5.1.2: Aqrar sahədə peşə təhsilinin inkişaf etdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi və Təhsil Nazirliyi aqrar sahədə peşə təhsili və təlimi proqramlarını əlaqələndirmək üçün işçi qrup yaradacaqdır. İşçi qrupa elm ictimaiyyətini, aqrar sektoru və özəl sektoru təmsil edən nümayəndələr daxil ediləcəkdir. İşçi qrupun əsas vəzifəsi aqrar sahədə peşə təhsili verən məktəblərin potensialının artırılması üçün yol xəritəsinin hazırlanmasından ibarət olacaqdır. İlk növbədə, təlimçilərin potensialının artırılması məqsədilə "təlimçilər üçün təlim" yanaşması tətbiq olunacaqdır. Bundan sonra, digər ölkələrin təcrübəsindən yararlanmaqla peşə təhsili müəssisələrinin kurikulumu aparılacaq təhlillər əsasında yenilənəcəkdir. Aqrar sahədə peşə təhsilinin beynəlxalq standartlara uyğunlaşdırılması və beynəlxalq akkreditasiyadan keçirilməsi üçün zəruri tədbirlər həyata keçiriləcəkdir. Həmçinin peşə məktəbləri ilə informasiya-məsləhət mərkəzləri arasında əməkdaşlığın yaradılması üçün mexanizm işlənib hazırlanacaqdır. Bu tədbirin icrası "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" ilə koordinasiya ediləcəkdir.

Tədbir 5.1.3: Aqrar təhsil müəssisələri ilə kənd təsərrüfatı məhsulları istehsalçıları və emalı müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində tədbirlərin işlənib hazırlanması

Aqrar profilli təhsil müəssisələri ilə kənd təsərrüfatı məhsulları istehsalçıları və emalı müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi üçün əhatəli tədbirlər görüləcəkdir. Belə əməkdaşlıq çərçivəsində regional aqrar elm mərkəzlərində və təsərrüfatlarda aparılan sorğular vasitəsilə gələcək məzunların sayı, eləcə də bilik və bacarıqlar üzrə tələblər müəyyən ediləcəkdir. Kənd təsərrüfatı məhsulları istehsalçıları ilə aparılan məsləhətləşmələr nəticəsində fokus sahələr (və ya peşələr) və müvafiq kurikulumların tələblərə uyğunluğu təmin ediləcək, həmçinin təhsilin praktikiliyinin gücləndirilməsi məqsədilə istehsalat təcrübələrinin keçirilməsi üçün əməkdaşlıq əlaqələri qurulacaqdır.

Gözlənilən nəticələr və nəticə indikatorları

Gənclər arasında aqrar sahədə ali təhsilə, eləcə də peşə təhsilinə maraq artacaqdır. Aqrar təhsil müəssisələrində çalışan müəllimlərin və tədqiqatçıların elmi-praktik səviyyəsi yüksələcək, eyni zamanda bu sahədə təhsilin praktikiliyi artacaqdır. Təhsil müəssisələrinin maddi-texniki bazası yaxşılaşacaq və mövcud kurikulumlar müasir tələblərə uyğun təkmilləşdiriləcəkdir. Aqraryönümlü peşələr üçün müasir dövrün tələblərinə uyğun yeni tədris modulları, o cümlədən ali məktəblər üçün yeni tədris materialları yazılacaq və nəşr ediləcəkdir. Bu prioritetdə qeyd edilən tədbirlərin nəticəsi kimi aşağıdakı göstəricilərə nail olunması gözlənilir:

- bütün aqraryönümlü ixtisaslar üzrə ali təhsil müəssisələrində təhsilalanların sayı 20 faiz artacaq;
- bütün aqraryönümlü peşələr üzrə təhsil alanların sayı 20 faiz artacaq;
- beynəlxalq konfranslarda, seminarlarda, ixtisasartırma kurslarında iştirak edən aqrar təhsil müəssisələrinin müəllim və tədqiqatçılarının sayı 30 faiz artacaqdır.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Əməkhaqqının aşağı olması aqrar sahə üzrə təhsil alan kadrların digər sektorlara axınına səbəb ola bilər. Büdcə gəlirlərinin azalması nəticəsində bu sahəyə dövlətin maliyyə dəstəyi azala bilər.

7.5.2. Prioritet 5.2. Kənd təsərrüfatında elmi tədqiqatların planlaşdırılması, aparılması və nəticələrin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi

Əsaslandırma

Ölkədə aqrar sahənin problemləri ilə məşğul olan bir neçə elmi tədqiqat institutu fəaliyyət göstərir. Bununla belə, bu tədqiqat institutlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, bütövlükdə isə aqrar sahəni yeni texnologiyalarla təmin edən, elmi tədqiqat sistemində qabaqcıl təcrübəyə əsaslanan dəyişikliklərin aparılması günün vacib tələbinə çevrilmişdir.

Görüləcək tədbirlər

Tədbir 5.2.1: Kənd təsərrüfatı sahəsində elmi tədqiqatların prioritetlərinin müəyyən olunması və nəticəyönümlülüyünün artırılması

Qabaqcıl təsərrüfatların, peşəkar təşkilatların, universitet nümayəndələrinin və müstəqil ekspertlərin iştirakı ilə Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin (AEİMM) yanında Koordinasiya Şurasının yaradılması nəzərdən keçiriləcəkdir. Bu Şuranın üzvləri ildə bir neçə dəfə toplaşaraq ölkədaxili və beynəlxalq trendləri nəzərə almaqla, kənd təsərrüfatında elmi tədqiqatların prioritet istiqamətlərini müəyyən edəcəklər.

Tədbir 5.2.2: Elmi tədqiqatların aparılmasının təşviqi mexanizminin işlənib hazırlanması

Kənd Təsərrüfatı Nazirliyi aqrar sahədə elmi tədqiqatların prioritet istiqamətlərdə aparılmasını dəstəkləmək məqsədilə stimullaşdırıcı mexanizmilər işləyib hazırlayacaqdır. Bu stimulaşdırma mexanizmlərinə həm maddi, həm də qeyri-maddi mexanizmlər aid olacaqdır. Maddi stimullaşdırma mexanizminin hazırlanmasında Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə əməkdaşlıq edərək qaydalar hazırlayacaqdır. Tədqiqatçıları təşviq etmək üçün onlar arasında müsabiqələr keçiriləcək və mükafatlar müəyyən ediləcəkdir.

Tədbir 5.2.3: Kənd təsərrüfatı profilli elmi tədqiqat institutlarının müasir laboratoriya, cihaz və avadanlıqlarla təminatının yaxşılaşdırılması

Kənd Təsərrüfatı Nazirliyi aqrar sahədə fəaliyyət göstərən elmi tədqiqat institutlarının müasir laboratoriya, cihaz və avadanlıqlara olan ehtiyacını müəyyən edəcəkdir. Bundan sonra elmi tədqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi üçün tədbirlər planı hazırlanacaqdır. Tədbirin icrası bu Strateji Yol Xəritəsinin 4.4.4-cü, 4.6.2-ci, 4.7.5-ci və 7.3.3-cü tədbirləri ilə koordinasiya ediləcəkdir.

Tədbir 5.2.4: Elmi tədqiqatların nəticələrinin informasiya-məsləhət xidmətləri vasitəsilə fermerlərə ötürülməsinin təmin edilməsi

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi elmi tədqiqatların nəticələrinin (texnologiyaların, yeni bitki sortları və heyvan cinslərinin,

idarəetmə mexanizminin) informasiya-məsləhət xidmətləri vasitəsilə fermerlərə ötürülməsi mexanizmini işləyib hazırlayacaq, bu da öz növbəsində elmi nailiyyətlərin və innovasiyaların aqrar sahədə tətbiqini stimullaşdıracaqdır.

Gözlənilən nəticələr və nəticə indikatorları

Elmi tədqiqatlar müasir dövrün tələblərinə uyğun şəkildə aparılacaqdır ki, bu da aqrar sahənin dayanıqlı inkişafının elmi təminatını gücləndirəcəkdir. Elmi tədqiqat müəssisələrinin maddi-texniki bazası yaxşılaşacaq, mövcud maddi-texniki potensialdan səmərəli istifadə təmin ediləcək, elmi yeniliklərin istehsalata tətbiqi işi sürətləndiriləcəkdir. Nəticədə aqrar sahədə aparılan fundamental və praktiki elmi tədqiqatların sayı 20 faiz, elmi tədqiqatların nəticəsi olaraq növbəti illərdə (2018-ci ildən etibarən) beynəlxalq jurnallarda çap olunan məqalələrin sayı isə 25 faiz artacaqdır.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Tədqiqatçıların işlədikləri elmi tədqiqatların beynəlxalq jurnallarda nəşri üçün müəyyən vaxt tələb oluna bilər. Ölkədə təsərrüfatların əksəriyyəti kiçik ailə təsərrüfatları olduğundan yeni elmi nailiyyətlərin mənimsənilməsi qabiliyyəti aşağı ola bilər.

7.5.3. Prioritet 5.3. Aqrar sahənin ehtiyaclarına cavab verən informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması

Əsaslandırma

Hazırda ölkədə fəaliyyət göstərən AEİMM və onun tabeliyində olan elmi tədqiqat institutları tərəfindən göstərilən informasiya-məsləhət xidmətlərinin əsas məqsədi regionlarda bilik və bacarıqların qazanılmasını və ötürülməsini təmin etməkdən ibarətdir. Ölkədə fəaliyyət göstərən təsərrüfatlara informasiya-məsləhət xidmətləri göstərilməsini təmin edən effektiv sistemin qurulmasına ehtiyac vardır. Aparılan müsahibələr və müşahidələr onu göstərir ki, fermerlərin aqrotexniki üsullarla bağlı bilikləri lazımi səviyyədə deyildir. Torpağın becərilməsi, əkilməsi, münbitləşdirilməsi, qorunması və suvarılması, eləcə də heyvanların saxlanması, yemlənməsi və onlara qulluq edilməsi sahəsində əldə edilmiş qabaqcıl təcrübəyə əsaslanan qaydalar geniş tətbiq edilmir. Fermerlər istehsalın iqtisadi səmərəliliyinin təmin edilməsi üçün lazım olan məlumatları əldə edə bilmirlər. Təsərrüfatlarda məhsuldarlıq lazımi səviyyədə olmadığı üçün daha yüksək dəyər yaradan məhsulların yetişdirilməsinə ehtiyac yaranır. Belə məhsulların yetişdirilməsi üçün iqtisadi baxımdan çətin qərarların verilməsi, eləcə də kənd təsərrüfatı məhsulları istehsalçılarının biliklərinin və bacarıqlarının artırılması tələb olunur.

Görüləcək tədbirlər

Tədbir 5.3.1: Aqrar sahədə informasiya-məsləhət xidmətlərini tənzimləyən mexanizmin hazırlanması

Kənd təsərrüfatında informasiya-məsləhət xidmətlərinin aparılması sahəsində işlək mexanizmin formalaşdırılması üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bu

sahədə qaydaların hazırlanması və müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində lazımi tədbirlər görüləcək və araşdırmalar aparılacaqdır.

Tədbir 5.3.2: AEİMM-in fəaliyyət mexanizminin təkmilləşdirilməsi

Kənd Təsərrüfatı Nazirliyi AEİMM-in öz səlahiyyətləri çərçivəsində tədbirlər görməsi üçün illik plan hazırlayacaq və bu qurum ilə təsərrüfatlar arasında qurulacaq qarşılıqlı münasibətlərin xüsusiyyətlərini müvafiq hədəflər əsasında müəyyən edəcəkdir. AEİMM nümunəvi təsərrüfatların yaradılması, qış məktəblərinin təşkili, sahədə təlimlərin keçirilməsi və digər bu kimi fəaliyyətlərin təşkili ilə informasiya və məsləhətlərin ötürülməsi imkanlarını dəyərləndirəcəkdir.

Tədbir 5.3.3: Ölkəni əhatə edən məsləhətçilər şəbəkəsinin yaradılması

Kənd Təsərrüfatı Nazirliyi AEİMM-in rəhbərliyi ilə müvafiq tədqiqat və təhsil qurumlarının, baytarlıq, fitosanitar və toxum nəzarəti təşkilatlarının, peşəkar birliklərin və məsləhət (konsaltinq) şirkətlərinin əməkdaşları, habelə sərbəst mütəxəssislər cəlb olunmaqla, məsləhətçilər şəbəkəsinin yaradılması imkanlarını qiymətləndirəcək və müvafiq hesabatlar hazırlayacaqdır. Məsləhətçilərin bilik və bacarıqlarını qiymətləndirmək üçün sertifikatlaşdırma sistemi qurulacaq, zərurət olduqda isə, potensial məsləhətçilərə təlimlər keçiriləcəkdir. Təlimlərin təşkilində təhsil müəssisələri ilə sıx əməkdaşlıq imkanları dəyərləndiriləcəkdir. İdarəetməni təkmilləşdirmək üçün məsləhətçilərin ölkə üzrə elektron məlumat bazası yaradılacaqdır. Nəzərdə tutulan tədbirin həyata keçirilməsində AEİMM ilə yeni yaradılan “Ailə Biznesinə Asan Dəstək” mərkəzləri (“ABAD” mərkəzləri) arasında əməkdaşlıq imkanları dəyərləndiriləcəkdir.

Tədbir 5.3.4: Elektron, media və çap informasiya məsləhət xidmətləri sisteminin yaradılması

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarının informasiya və məsləhət xidmətlərinə çıxışının asanlaşdırılması üçün elektron, media və çap informasiya-məsləhət xidmətləri sistemi yaradılacaqdır. Kənd təsərrüfatı məhsulları istehsalçıları yaradılacaq elektron informasiya-məsləhət portalına daxil olmaqla, hər bir kənd təsərrüfatı məhsulu üzrə həm istehsalın bütün mərhələlərini əhatə edən tədbirlər haqqında (məsələn, səmərəli əkin, becərmə və yemləmə qaydaları və s.), həm də bazar informasiyaları barəsində ətraflı məlumat ala biləcəklər. Bu da ümumilikdə istehsalın səmərəli planlaşdırılmasına müsbət təsir edəcəkdir. Bundan əlavə, istehsalçılarla sosial media, eləcə də telefon əlaqəsi vasitəsilə informasiya-məsləhət xidmətlərinin göstərilməsi imkanları araşdırılacaqdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarını maarifləndirmək üçün videoçarxlar və televiziya proqramları hazırlanacaq, yerli televiziya kanallarında və internetdə video paylaşma sistemlərində yerləşdiriləcəkdir. AEİMM fermerlər üçün "fermer radiosu" və (və ya) "fermer televiziyası"nın yaradılması barədə təkliflər hazırlayaraq müvafiq qurumlara təqdim edəcəkdir. Bundan əlavə, informasiya və məsləhət xarakterli posterlər, broşürlər və digər çap materialları hazırlanaraq nəşr ediləcək və kənd təsərrüfatı məhsulları istehsalçıları arasında paylanacaqdır.

Tədbir 5.3.5: İnformasiya-məsləhət mərkəzlərinin maliyyə dayanıqlılığının artırılması

Kənd Təsərrüfatı Nazirliyi AEİMM-in maliyyə dayanıqlılığının artırılması üçün proqramlar hazırlayacaq və həyata keçirəcəkdir. İri kənd təsərrüfatı məhsulları istehsalçılarına, eləcə də aqrar-sənaye müəssisələrinə informasiya və məsləhət xidmətləri göstərməklə, AEİMM-in gəlirlərinin artırılması imkanları dəyərləndiriləcəkdir.

Tədbir 5.3.6: İstehsal vasitələri təchizatçıları, emal müəssisələri və maliyyə institutları vasitəsilə istehsalçılara informasiya məsləhət xidmətlərinin göstərilməsi imkanlarının dəyərləndirilməsi

Kənd təsərrüfatı məhsulları istehsalçılarına informasiya-məsləhət xidmətləri göstərilməsində AEİMM ilə yanaşı, istehsal vasitələri təchizatçıları, emal müəssisələri və maliyyə institutları da fəal iştirak edə bilər. Kənd Təsərrüfatı Nazirliyi bu imkanlardan istifadəni dəyərləndirəcək və nəticələrə əsasən təkliflər hazırlayacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Ölkədə kənd təsərrüfatında işlək informasiya-məsləhət xidmətləri sistemi formalaşacaqdır ki, bu da kənd təsərrüfatı məhsulları istehsalçılarının məsləhət və informasiyaya çıxışını asanlaşdıracaqdır. İnformasiya-məsləhət xidmətləri təklif edən subyektlərin əhatə dairəsinin bütün bölgələri əhatə etməsi təmin olunacaqdır. İstehsalçılar üçün əlçatan olan elektron, media və çap informasiya-məsləhət xidmətləri sistemi qurulacaqdır.

Tələb edilən investisiya

Bu prioritetdə qeyd olunmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya digər bir sıra prioritetlərin investisiya tələbləri ilə birlikdə 2.1-ci prioritetdə qeyd edilmişdir.

Gözlənilən risklər

Kənd təsərrüfatı məhsulları istehsalçılarının (xüsusilə də kiçik fermer təsərrüfatlarının) elektron məsləhət xidmətlərindən istifadə imkanları məhdud ola bilər.

7.6. Strateji hədəf 6. Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazarlara çıxışının asanlaşdırılması

Məhsul yığımından sonrakı mərhələlərdə itkilərin azaldılması, məhsulların keyfiyyətinin yüksəldilməsi, ən əsası isə istehsalçıların bazara çıxış şərtlərinin yaxşılaşdırılması məqsədi ilə bazar infrastrukturunun təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Mövcud bazar infrastrukturu yerli istehsalçıların ticarət şəbəkələrinə əlverişli şərtlərlə daxil olmasına müəyyən maneələr yaradır və bəzən istehsalçılar yetişdirdikləri məhsulu ticarət vasitəçilərinin təklif etdikləri qiymət şərtləri ilə onlara satmağa məcbur olurlar. Bazar infrastrukturunun, xüsusilə də topdansatış və pərakəndə satış şəbəkələrinin kifayət qədər inkişaf etməməsi istehsalçı qiymətləri ilə bazar qiymətləri arasında fərqin 2–3 dəfə, bəzi hallarda isə daha çox olmasına gətirib çıxarır. İnkişaf etmiş ölkələrdə topdansatış bazarları ticarət, logistika, bazar məlumatlarının toplanması və yayılması, tələb və təklifə nəzarət funksiyalarının həyata keçirilməsi üçün zəruri vasitə rolunu yerinə yetirir və yüksək əlavə dəyərin yaradılmasında mühüm rol oynayır.

Kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının ixrac bazarlarına çıxış imkanlarının genişləndirilməsi üçün geniş əhatəli tədbirlərin görülməsi də bu Strateji Yol Xəritəsi çərçivəsində müəyyən edilmiş prioritet istiqamətlərdən biridir. İlk növbədə, ixrac imkanlarının genişləndirilməsi baxımından zəruri şərtlərdən biri məhz bazar infrastrukturunun inkişafı ilə bağlıdır ki, bu baxımdan ölkədə kənd təsərrüfatı və ərzaq məhsulları üzrə bazar infrastrukturunun inkişafı tədbirləri ixraca da stimullaşdırıcı təsir göstərəcəkdir. Eyni zamanda ənənəvi ixrac bazarlarına daha geniş miqyasda daxil olmaqla yanaşı, xüsusilə də yeni ixrac bazarlarına çıxış imkanlarının yaradılması istiqamətində kompleks dəstəkləyici tədbirlərə ehtiyac vardır.

Qeyd edilən məsələlərlə əlaqədar qarşıdakı illərdə üç prioritet istiqamət üzrə geniş tədbirlər həyata keçiriləcəkdir.

Birinci prioritet çərçivəsində kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

İkinci prioritet kənd təsərrüfatı məhsulları üzrə bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirləri əhatə edir.

Üçüncü prioritet çərçivəsində kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi istiqamətləri müəyyənləşdiriləcəkdir. Bu zaman kənd təsərrüfatı və ərzaq məhsulları üzrə ixrac bazarlarının coğrafiyasının genişləndirilməsi, rəqabət üstünlüyü olan məhsul istehsalçıları üçün ixracın təşviqi və dəstəklənməsi üzrə tədbirlər həyata keçiriləcəkdir.

7.6.1. Prioritet 6.1. Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi

Əsaslandırma

Hazırda ölkədə kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun bir neçə istiqamətdə inkişaf etdirilməsinə ehtiyac vardır. İlk növbədə, regionlarda kənd təsərrüfatı məhsullarının yeni topdansatış və logistika mərkəzləri yaradılmalıdır. Eyni zamanda paytaxtda və digər iri şəhərlərdə kənd təsərrüfatı məhsullarının müasir tələblərə uyğun pərakəndə satış şəbəkələri genişləndirilməlidir. Ölkənin bütün regionlarında, xüsusilə də paytaxtda yüksək baytarlıq-sanitariya tələblərinə uyğun yeni ət kəsimi məntəqələri qurulmalıdır.

Xüsusilə kiçik və orta istehsalçıların tələbatına uyğun olaraq regionlarda meyvə-tərəvəz və taxıl anbarları şəbəkəsinin inkişaf etdirilməsi daha aktual bir vəzifədir.

İstehsalçıların daxili və xarici bazarlara çıxışının yaxşılaşdırılması baxımından yükdaşıma xidmətlərinin inkişafına, o cümlədən istehsalçılar üçün əlverişli şərtlərin təmin edilməsi baxımından bu xidmətlərin tənzimlənməsi sisteminin təkmilləşdirilməsinə ehtiyac vardır.

Bu sahədə tədbirlərin əhatə dairəsi nəzərə alınmaqla, ilkin olaraq, texniki-iqtisadi qiymətləndirmə aparılacaq və qiymətləndirmənin nəticəsi müsbət olduqda, müvafiq islahatlar həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 6.1.1: Regionlarda meyvə, tərəvəz, kartof və bostan məhsulları üzrə topdansatış və logistika xidmətlərini həyata keçirən bazar infrastrukturu obyektlərinin qurulması

Dövlət-özəl tərəfdaşlığı əsasında və "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin aktiv iştirakı ilə regionlarda yeni topdansatış və logistika mərkəzləri qurulacaqdır. Bu regional mərkəzlər yerli istehsalçılar üçün bazara çıxış şərtlərini asanlaşdırmaqla yanaşı, ixrac bazarlarına böyük hissələrlə mal ixracının həyata keçirilməsi və Cəmiyyətin regionlarda tədarük fəaliyyətinin həyata keçirilməsi üçün mühüm bazar infrastrukturu rolunu oynayacaqdır.

Tədbir 6.1.2: Paytaxt və regionlarda müasir standartlara uyğun ət kəsimi məntəqələri şəbəkəsinin qurulmasının dəstəklənməsi

Dövlət-özəl tərəfdaşlığı əsasında özəl investorların təqdim etdiyi layihələrə aidiyyəti qurumlarla birlikdə güzəştli kreditlərin ayrılması imkanları araşdırılacaq və

müvafiq baytarlıq-sanitariya standartlarına uyğun ət kəsimi məntəqələrinin qurulması təşviq ediləcəkdir.

Tədbir 6.1.3: Meyvə, tərəvəz, kartof və bostan məhsullarının saxlanılması üçün kiçik və orta həcmli soyuducu anbarların yaradılmasının dəstəklənməsi

Kiçik və orta təsərrüfatların anbar infrastrukturu ilə təchizatının yaxşılaşdırılması üçün onların öz ehtiyaclarına uyğun, xüsusilə də yaratdıqları istehsalçı birlikləri (assosiasiyalar) çərçivəsində birgə istifadədə olmaqla, adekvat həcmdə soyuducu anbarlarla təchizatına dəstək veriləcəkdir.

Tədbir 6.1.4: Taxılçılıq regionlarında kiçik və orta həcmli taxıl anbarlarının yaradılmasının dəstəklənməsi

Emal müəssisələrinin və digər tədarükçülərin iştirakı, habelə kiçik və orta təsərrüfatların istehsalçı birlikləri (assosiasiyalar) çərçivəsində birgə istifadədə olmaqla, adekvat həcmdə taxıl anbarlarının təchizatına dəstək veriləcəkdir.

Tədbir 6.1.5: "Yaşıl market"lər və "fermer mağazası" şəbəkələrinin yaradılmasının dəstəklənməsi

Dövlət-özəl tərəfdaşlığı əsasında müasir standartlara uyğun "yaşıl marketlər" və "fermer mağazaları" şəbəkəsinin qurulması ilə bağlı sahibkarların təqdim etdiyi layihələrə güzəştli kreditlərin ayrılması imkanları araşdırılacaqdır.

Tədbir 6.1.6: Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satış qiymətləri üzrə elektron məlumat bazasının təkmilləşdirilməsi

Kənd Təsərrüfatı Nazirliyinin meyvə, tərəvəz, kartof və bostan məhsullarının topdan və pərakəndə satış qiymətləri üzrə elektron məlumat bazası heyvandarlıq məhsullarını, taxılçılıq məhsullarını, texniki bitkiləri, habelə emal müəssisələrinin tədarük qiymətlərini və məhsulların sahədən satış qiymətlərini əhatə etməklə təkmilləşdiriləcəkdir.

Tədbir 6.1.7: Yükdaşıma xidmətlərinin inkişaf etdirilməsi üçün ehtiyacların müəyyən olunması və tədbirlərin görülməsi

İstehsalçıların daxili və xarici bazarlara çıxışının yaxşılaşdırılması baxımından daşıma xidmətləri ilə təminatın inkişaf etdirilməsi, o cümlədən bu xidmətlər üzrə tariflər, texniki standartlar və s. üzrə tənzimləmənin təkmilləşdirilməsi üçün ehtiyaclar müəyyən olunaraq müvafiq tədbirlərə dair təkliflər hazırlanacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Tədbirlərin nəticəsi kimi kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün infrastruktur formalaşdırılacaqdır. Ölkənin bütün bölgələrinin tələbatına uyğun regional topdansatış və logistika mərkəzləri, əsas taxılçılıq regionlarında kiçik və orta tutumlu taxıl anbarları şəbəkəsi yaradıla bilər. Modern yükdaşıma sistemi qurulacaqdır ki, bu da daşınan yüklərin (o cümlədən tez xarab olan yüklərin və diri heyvanların) daha ahəngdar, vaxtında və təhlükəsiz şəkildə çatdırılmasını təmin edəcəkdir. Nəticədə, ət kəsiminin 90 faizi baytarlıq-sanitariya standartlarına uyğun məntəqələrdə aparılacaq, paytaxtda və iri şəhərlərdə 5 "yaşıl market" və 50 "fermer mağazası" qurulacaq, anbarların ümumi tutumunun ölkədə istehsal edilən meyvə-tərəvəz məhsullarının həcminə nisbəti 30 faizə çatacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində hər bir region üzrə anbar, soyuducu, qablaşdırma, logistika mərkəzlərinə ehtiyac müəyyənləşdirilərək, bu istiqamətlər üzrə tədbirlər planı hazırlanacaq və tələb edilən investisiyanın həcmi müəyyənləşdiriləcəkdir.

Gözlənilən risklər

Bu prioritet üzrə əsas risk faktoru istehsalçıların anbar, soyuducu, qablaşdırma və logistika mərkəzlərinin xidmətlərindən istifadəyə maraqlı olmamaları ola bilər.

7.6.2. Prioritet 6.2. Kənd təsərrüfatı məhsulları üzrə bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi

Əsaslandırma

Ölkədə kənd təsərrüfatı sahəsi üzrə dövlət tənzimlənməsi, o cümlədən dövlət dəstəyi tədbirləri ənənəvi olaraq daha çox dəyər zəncirinin ilkin mərhələlərinə fokuslanmışdır. Hazırda kənd təsərrüfatı məhsulları üzrə bazarın inkişafı və istehsalçıların əlverişli şərtlərlə bazara çıxış məsələlərinin effektiv şəkildə tənzimlənməsi bu sahənin dayanıqlı inkişafı baxımından mühüm strateji çağırışlardan biridir. Kənd təsərrüfatı məhsulları bazarında qiymətlərin əlverişsiz olduğu hallarda tədarük intervensiyalarının həyata keçirilməsi, daxili bazarın ədalətsiz ticarət şərtlərindən qorunmasına və digər bu kimi məsələlərlə bağlı institusional sistemin effektivliyinin daha da artırılmasına ehtiyac vardır.

Görüləcək tədbirlər

Tədbir 6.2.1. Kənd təsərrüfatı məhsullarının daxili bazardakı ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi

Kənd təsərrüfatı məhsullarının ticarəti üzrə uçot sisteminin hüquqi əsaslarına yenidən baxılacaq və yeni nəzarət vasitələri nəzərdən keçiriləcəkdir.

Tədbir 6.2.2: Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə tədarük sisteminin inkişaf etdirilməsi

Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə tədarük sisteminin inkişafının iki istiqamətdə həyata keçirilməsi nəzərdə tutulur. İlk növbədə, "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin əsas funksiyasına uyğun olaraq dövlət ehtiyacları üçün mərkəzləşdirilmiş tədarük sistemi qurulacaq, bu istiqamətdə fəaliyyətlərin qanunvericiliyə uyğun olaraq yerli istehsalçılarla əlaqələndirilmiş şəkildə olmaqla həyata keçirilməsi mexanizmləri yaradılacaqdır. Eyni zamanda, kənd təsərrüfatı və ərzaq məhsulları üzrə tədarük sisteminin inkişafı tədbirləri çərçivəsində bazar şərtlərinin istehsalçılar üçün əlverişsiz olduğu hallarda, tədarük intervensiyalarının təmin edilməsi mexanizmlərinin qurulması imkanları araşdırılacaqdır.

Tədbir 6.2.3: Bazar şərtlərinin əlverişsiz olduğu hallar üzrə intervensiya tədbirləri sisteminin qurulması

İstehsalçıların gəlirliliyinin və istehlakçıların ərzağa əlyetərliyinin təmin edilməsi maraqları baxımından kənd təsərrüfatı məhsullarının optimal qiymət səviyyəsinə nail olmaq məqsədi ilə bazara intervensiya tədbirlərinin həyata keçirilməsi sistemi qurulacaqdır. Bununla bağlı, dünya təcrübəsi əsasında müvafiq prosedurlar hazırlanacaq, intervensiya tədbirlərinin tətbiqi üçün qiymət və istehsal xərcləri ilə bağlı

informasiya sistemlərinin və intervensiya alətlərinin yaradılması imkanlarına baxılacaqdır.

Bunlarla yanaşı, əhalinin ərzaq məhsulları ilə təchizatının əlverişli şərtlərlə həyata keçirilməsi baxımından ehtiyac yarandıqda, müvafiq məhsulların idxalının müəyyən dövrlər üzrə stimullaşdırılmasına dair konkret meyarların və mexanizmlərin hazırlanaraq tətbiq olunması nəzərdən keçiriləcəkdir.

Tədbir 6.2.4: Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə daxili bazarın ədalətsiz ticarət hallarından qorunması məqsədi ilə idxalın effektiv tənzimlənməsi sisteminin yaradılması

Daxili bazarı idxalın arzuolunmaz təsirlərindən qorumaq üçün kənd təsərrüfatı məhsulları üzrə gömrük-tarif və qeyri-tarif tənzimlənməsi sistemi təkmilləşdiriləcək, kənd təsərrüfatı məhsulları üzrə idxala mövsümi tarif kvotalarının operativ şəkildə tətbiqi və tarif eskalasiyası siyasəti ilə bağlı aydın kriteriyalara malik prosedurların tətbiqi imkanları araşdırılacaqdır.

Eyni zamanda, zəruri hallarda, kənd təsərrüfatı məhsullarının idxalı keyfiyyət sisteminin tələblərinə uyğun olaraq tənzimlənəcək və zərurət yarandıqda, geni dəyişdirilmiş məhsullara tətbiq edilən nəzarət vasitələri nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Tədbirlərin nəticəsi kimi kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi sistemi təkmilləşdiriləcək, bütün kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxışı asanlaşacaq və kənd təsərrüfatı məhsullarının sahədən satış qiyməti ilə son istehlakçı bazarındakı qiyməti arasında olan fərq maksimum 50 faiz təşkil edəcəkdir.

Tələb edilən investisiya

Prioritet çərçivəsində hər bir region üzrə tədbirlər planı hazırlanacaq və tələb edilən investisiyanın həcmi müəyyənləşdiriləcəkdir.

Gözlənilən risklər

Bazarlara çıxışın təmin edilməsinə inhisarçılığa meyilli qüvvələr neqativ təsir göstərə bilər.

7.6.3. Prioritet 6.3. Kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi

Əsaslandırma

Bu prioritet çərçivəsində Azərbaycanın ixrac bazarının şaxələndirilməsi üçün konkret strategiyalar hazırlanacaqdır. Bu baxımdan BMT-nin malların ticarətinə dair məlumat bazasının məlumatları əsasında Azərbaycanın qısa və orta müddət ərzində ixrac edə biləcəyi ilkin əsas məhsullar üçün bazarlar müəyyən edilmiş və coğrafi məkan baxımından ən uyğun bazarların seçilməsi diqqət mərkəzində saxlanılmışdır.

Qısamüddətli dövr üçün ixrac bazarları seçilərkən iki qonşu ölkə üzrə imkanlar daha real və cəlbedicidir: Rusiya bazarlarına daha çox məhsulun ixrac edilməsi və ticarət sanksiyalarının aradan qaldırılmasından sonra İranla ticarətin genişləndirilməsi. Müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalını və məhsuldarlığını artırmaqla hər iki bazarda fəaliyyətin gücləndirilməsi üçün real imkanlar vardır. Həm Rusiya, həm İran bazarları üçün qısamüddətli ixrac potensialına malik olan məhsullar bu Strateji Yol Xəritəsinin ikinci hədəfində geniş şəkildə araşdırılaraq təyin edilmişdir.

İxrac strategiyasının ikinci hissəsi olaraq əsas diqqət ölkəyə yaxın olan hədəf bazarlarının və bu bazarlar üçün potensialı olan məhsulların müəyyənləşdirilməsinə yönəldilmişdir (şəkil 19).

Şəkil 19. Potensial ixrac bazarları və əsas ixrac məhsulları



1. *Seçilmiş Orta Asiya ölkələri: Qazaxıstan, Türkmənistan, Özbəkistan*
2. *Avstriya, Belçika, Danimarka, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İtaliya, Niderland, Polşa, Portuqaliya, İspaniya və Birləşmiş Krallıq*
3. *Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Küveyt, Qətər.*

Rusiya. BMT tərəfindən "heç bir mənbədə göstərilməyən" məhsul kateqoriyasına daxil edilmiş pomidor, xiyar və kornişon ixracının artırılması potensialı mövcuddur (Azərbaycandan və regionun digər ölkələrindən gələn məhsulun idxal dövriyyəsi 40 milyon ABŞ dollarından artıq olan məhsul kateqoriyası kimi təsnif edilib). Üzüm şərabından alınan spirt də yüksək potensiala malik olan məhsullar sırasındadır, lakin fındıq ləpəsi, təzə gilas və təzə şaftalı orta potensiala malik olan ixrac məhsulları kateqoriyasına aid edilir (25 milyon ABŞ dollarından artıq).

Orta Asiya ölkələri. Azərbaycan artıq bu region bazarına idxal edilən şəkər qamışından və şəkər çuğundurundan hazırlanmış şəkərin 75 faizini təmin edir. Gilas, günəbaxan yağı, marqarin də ölkəyə əlavə ixrac imkanları gətirən potensial məhsullardır. BMT tərəfindən "heç bir mənbədə göstərilməyən" məhsul kateqoriyasına daxil edilmiş şaftalı və digər meyvələr isə orta potensiala malik ixrac məhsullarıdır.

Aİ ölkələri. Aİ ölkələri kənd təsərrüfatı məhsulları üçün böyük ixrac bazarıdır. 2014-cü ildə Aİ ölkələrinin ümumi idxal həcmi 1,48 milyard ABŞ dolları olmuş (Azərbaycanın ixrac etdiyi əsas 20 məhsul da daxil olmaqla), Azərbaycan isə bundan cəmi 37 milyon ABŞ dolları qazanmışdır. Aİ bazarı öz ölçüsünə görə Azərbaycan üçün böyük ixrac bazarıdır. Bu bazara ixrac edilə biləcək əsas məhsullara fındıq ləpəsi, təzə gilas, günəbaxan yağı və meyvə-tərəvəz şirələri aid edilir. BMT tərəfindən "heç bir mənbədə göstərilməyən" məhsul kateqoriyasına daxil edilmiş meyvələr, şəkər

qamışından və şəkər çuğundurundan hazırlanmış şəkər isə orta ixrac potensialına malik məhsullar hesab edilir.

Ukrayna. 2015-ci ildə Ukrayna region ölkələrindən 14 milyon ABŞ dolları dəyərində pomidor idxal etmişdir, lakin bu idxalda Azərbaycanın payı yoxdur. Ona görə də bu məhsul Ukrayna bazarı üçün ən böyük ixrac imkanlarına malik məhsul hesab edilir. Qara çay (tutumu 3 kiloqramdan az olan paketlərdə) və üzüm şərabından alınan spirt isə bu bazar üçün orta ixrac potensialına malik olan məhsullar hesab edilir.

Əsas ixrac bazarlarının müəyyənləşdirilməsi ilə yanaşı bu bazarlara iqtisadi baxımdan daha səmərəli, beynəlxalq bazarlarda rəqabət qabiliyyəti daha yüksək məhsulların ixracının stimullaşdırılması vacib məsələ kimi qarşıda durur. Bununla əlaqədar olaraq, bu prioritetdə göstərilən məhsullarla yanaşı 2.1-ci prioritetdə müəyyənləşdirilmiş əsas ixracyönümlü məhsulların da ixracı stimullaşdırılacaqdır. Beləliklə, qeyd olunan istiqamətlərdə bazarlar üzrə daha dəqiq araşdırmalar aparılaraq, yerli xüsusiyyətlər nəzərə alınmaqla, ixrac strategiyaları hazırlanacaq və yerli istehsalçıların hədəf bazarlara çıxış imkanlarının artırılması istiqamətində konkret tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 6.3.1: İxrac bazarlarının coğrafiyasının genişləndirilməsinə və ənənəvi ixrac bazarlarındakı mövqelərin möhkəmləndirilməsinə dəstək verilməsi

Kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə hazırkı və potensial ixrac bazarlarında mütəmadi olaraq marketinq tədqiqatları aparılaraq, bunun əsasında təkliflər hazırlanacaq və istehsalçılar məlumatlandırılacaqdır.

Tədbir 6.3.2: "Made in Azerbaijan" brendinin təşviqi

Müəyyənləşdirilmiş bazarlarda milli marketinq kampaniyası həyata keçiriləcək və milli məhsulların brendi yaradılacaqdır. İlk növbədə, bu marketinq tədbirlərinin büdcəsi təşkil ediləcək və investisiya qoyuluşu iqtisadi baxımdan əsaslandırılacaqdır. Bundan sonra beynəlxalq marketinq şirkətlərinin xidmətlərindən istifadə etməklə, müxtəlif dəyər zəncirləri üzrə milli prioritetlərə əsaslanan strategiya və icra planı hazırlanacaqdır. Nəticə etibarı ilə, hədəf bazarlarında marketinq kampaniyaları həyata keçiriləcək, indikatorlar mütəmadi olaraq qeydə alınacaq və xərclərin səmərəliliyi ilkin nəticələr əsasında təmin ediləcəkdir.

Brendin yaradılması və reklam tədbirlərinin həyata keçirilməsi zamanı məhsulların bazarda daha qabarıq nəzərə çarpması üçün ölkənin atributlarından və özünəməxsus xüsusiyyətlərindən istifadə ediləcəkdir. Seçilmiş Azərbaycan məhsullarının brendinin yaradılması üçün müvafiq beynəlxalq bazarlarda milli marketinq tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulacaqdır. Seçilmiş məhsulların daxili və xarici istehlakının artırılması məqsədi ilə reklam-təşviq işlərinə rəhbərlik edən şura yaradılacaq, eyni zamanda əsas diqqət hədəf bazarlara yönəldiləcəkdir. Şura seçilmiş məhsullar üzrə hədəf regionlarını və ölkələri müəyyənləşdirəcək və məqsədyönlü reklam tədbirlərinə başlayacaqdır. Reklamlarda bu məhsulların təşviqi həyata keçiriləcəkdir. Onlayn xəbər bülletenlərində, qəzetlərdə və məlumat xarakterli internet saytlarında Azərbaycan məhsullarının özünəməxsus xüsusiyyətləri reklam ediləcəkdir. "Azərbaycan Hava Yolları" QSC uçuşlar zamanı sərnişinləri, o cümlədən əsas ticarət konfranslarında, beynəlxalq sərgilərdə və digər tədbirlərdə iştirak edən xarici nümayəndələri Azərbaycan məhsullarına qonaq edəcəkdir.

Bununla yanaşı, "Made in Azerbaijan" brendinin beynəlxalq aləmdə tanıdılması işlərinin daha effektiv təşkili məqsədilə ölkədə istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatları əks etdirən İnternet portalının yaradılması ilə bağlı

işlər davam etdiriləcəkdir. Malların istehsalçıları tərəfindən məlumatların həmin portalda yerləşdirilməsi üçün təbliğat-təşviqat tədbirləri həyata keçiriləcək və portal barədə məlumatın kütləvi informasiya vasitələri ilə yayılması təmin ediləcəkdir.

Tədbir 6.3.3: Potensial ixrac bazarları haqqında fermerlərin məlumatlandırılması

Aparılmış marketinq araşdırmalarının nəticələrinə əsasən müəyyənləşdirilmiş potensial ixrac bazarları haqqında fermerlər məlumatlandırılacaqlar. Bu məqsədlə regionlar üzrə fermerlər üçün təlim və seminarlar təşkil ediləcək, təşviqat işləri aparılacaq, hər bir bazar üzrə məlumat kitabçaları və informasiya bülletenləri çap edilərək fermerlərə paylanılacaqdır.

Tədbir 6.3.4: Potensial ixracatçı fermerlərin müəyyənləşdirilməsi

Məlumatlandırmaya və seminarların nəticələrinə əsasən ixrac bazarlarına uyğun məhsullar üzrə ixracameyilli, müvafiq bilik və bacarıqları, eləcə də potensial ixrac imkanları olan ixracatçı fermerlər (məsələn, 200 fermer) müəyyənləşdiriləcəkdir.

Tədbir 6.3.5: Sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi, beynəlxalq standartların təmin edilməsi

İxrac məhsullarının beynəlxalq bazarların tələblərinə uyğunlaşdırılması üçün sertifikatlaşdırma sistemi təkmilləşdiriləcək, həmçinin beynəlxalq sertifikatların alınmasında ixracatçı fermerlərə dəstək veriləcəkdir.

Tədbir 6.3.6: İxrac sənədlərinin əldə edilməsinə dəstək verilməsi

Əvvəlki tədbirlərin davamı olaraq fermerlərə ixrac mərhələsində də sənədlərin əldə edilməsinə dəstək mexanizmi hazırlanacaqdır. İxracla bağlı sənədləşmə məsələlərinin effektiv həlli üçün çevik sənədləşmə mexanizmi yaradılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Tədbirlər nəticəsində istehsalçılar ixracyönümlü məhsul istehsal etmək vərdişləri qazanacaqlar, kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyası genişləndiriləcək, kənd təsərrüfatı məhsulları üzrə ixracın həcmi artacaq, 2020-ci ildə real ÜDM-ə birbaşa təsirinin 35 milyon manat, dolayı təsirinin isə 55 milyon manat olmaqla, ümumilikdə 90 milyon manat olacağı proqnozlaşdırılır. Bu prioritet üzrə tədbirlərin görülməsi nəticəsində birbaşa və dolayı yolla 5060 iş yerinin açılacağı gözlənilir. 2020-ci ilədək ölkə üzrə kənd təsərrüfatı məhsulları ixracı üzrə 200 fermer ixtisaslaşacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində 40 milyon manat maliyyə vəsaitinin tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Həm ölkə daxilində, həm də hədəf regionlarda geosiyasi vəziyyətin kəskinləşməsi nəzərdə tutulan məqsədlərə nail olmağa mane ola biləcək risk amilidir.

7.7. Strateji hədəf 7. Ətraf mühitin qorunması, təbii resurslardan dayanıqlı istifadə və təbii amillərin kənd təsərrüfatına təsirlərinin idarə olunması

Kənd təsərrüfatı təbii amillərdən asılı olan sahədir. Hər il sel sularından,

doludan, quraqlıqdan, şaxtadan, təhlükəli ziyanvericilərin kütləvi yayılmasından və s. təbii hadisələrdən kənd təsərrüfatına xeyli ziyan dəyir. Eyni zamanda, kənd təsərrüfatında istehsal fəaliyyətlərinin qeyri-effektiv təşkili torpaq, su resurslarına və iqlimə ciddi şəkildə mənfi təsir göstərir. Məsələn, rəsmi statistik məlumatlara əsasən 2015-ci ildə Azərbaycanda istilik effekti yaradan qazların atılması göstəricisi energetika sektorundan kənar sənaye fəaliyyətləri üzrə 3,1 milyon ton CO_2 ekvivalentində olduğu halda, kənd təsərrüfatı sahəsi üzrə bu göstərici 7,2 milyon ton CO_2 ekvivalentində olmuşdur. Həmçinin kənd təsərrüfatı fəaliyyəti zamanı aqrotexniki qaydalara tam əməl olunmaması, kimyəvi maddələrdən normadan çox istifadə edilməsi, suvarma suyundan qənaətlə və səmərəli şəkildə istifadə edilməməsi, suvarma və kollektor-drenaj şəbəkələrinin bir hissəsinin qənaətbəxş vəziyyətdə olmaması və digər amillər nəticəsində kənd təsərrüfatı təyinatlı torpaqların yararsız hala düşməsi prosesi sürətlənmişdir. Səhralaşma, şoranlaşma, torpaq eroziyası, torpağın şuma yararlı qatının yox olması, otlaqların təbii ot örtüyünün nazikləşməsi, qış və yay otlaqlarından düzgün istifadə edilməməsi, zəruri tədbirlərin görülməməsi nəticəsində otlaq sahələrinin keyfiyyətinin aşağı düşməsi və bu kimi səbəblər ciddi narahatlıq doğurur.

Qarşıdakı illərdə bu sahədə tədbirlər, əsasən, dörd prioritet istiqamət üzrə həyata keçiriləcəkdir. İlk olaraq iqlim dəyişmələrinin və digər təbii amillərin kənd təsərrüfatına mənfi təsirinin azaldılması mexanizmləri işləniləcək və adekvat adaptasiya planı hazırlanacaqdır.

Aqrar sahədə ətraf mühiti mühafizə mexanizmlərinin təkmilləşdirilməsi prioriteti çərçivəsində kənd təsərrüfatı istehsalının ekoloji normalara uyğunluğu üzrə müasir tələblərə cavab verən indikatorlar hazırlanacaq, qiymətləndirmə aparılacaq, kənd təsərrüfatı sektorunda karbon qazı emissiyası azaldılacaq, tarlaqoruyucu meşə zolaqları salınacaq və digər müvafiq tədbirlər görüləcəkdir.

Kənd təsərrüfatı torpaqlarından və su ehtiyatlarından dayanıqlı istifadə mexanizmlərinin təkmilləşdirilməsi prioriteti çərçivəsində isə torpaqların təyinatının dəyişdirilməsi prosesinin ətraf mühitə təsirlərinin qiymətləndirilməsi mexanizmi yaradılacaq, otlaqların idarəedilməsi təkmilləşdiriləcək, suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılacaq, təkrar şoranlaşmanın qarşısı alınacaq və dayanıqlı inkişafa mane olan digər problemlər aradan qaldırılacaqdır.

Bu strateji hədəfin sonuncu prioriteti isə ölkədə ekoloji təmiz kənd təsərrüfatı istehsalının inkişafına xidmət edəcəkdir.

7.7.1. Prioritet 7.1. İqlim dəyişmələrinin və digər təbii amillərin kənd təsərrüfatına mənfi təsirinin azaldılması mexanizmlərinin işlənilməsi

Əsaslandırma

İqlim dəyişmələri Yer kürəsində orta illik temperaturun tədricən artması (2080-ci il üçün qlobal səviyyədə orta illik temperaturun 4^0 C artması gözlənilir[5]), atmosfer yağıntılarının ərazilər üzrə qeyri-bərabər paylanması, müxtəlif və qeyri-münasib dövrlərdə düşməsi, su və torpaq səthindən gedən fiziki buxarlanmanın 1,2–1,6 dəfə artması, kolluqların və meşələrin azalması, küləklərin səmtinin və intensivliyinin dəyişməsi, fırtına və qasırğaların artması, quraqlığın yaranması və digər əlamətlərlə xarakterizə olunur. İqlim dəyişmələrinin təsiri ilə yağıntıların azalması nəticəsində əkin və otarma dövrlərində kəskin rütubət çatışmazlığı müşahidə oluna bilər. Rəsmi statistikaya əsasən, Azərbaycanda bitkiçilik məhsullarının 80 faizdən çoxu suvarılan

[5] İqlim dəyişmələri, su və ərzaq təhlükəsizliyi üzrə hesabat, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, 2011

torpaqlarda istehsal olunur. Bu baxımdan, iqlim dəyişmələrinin təsiri ilə su resurslarının azalması kənd təsərrüfatını ciddi təzyiqlə üzləşdirə bilər.

İqlim dəyişmələrinin kənd təsərrüfatına vurduğu zərərin təsirinin azaldılması və kənd təsərrüfatının iqlim dəyişikliklərinə maksimum uyğunlaşdırılması üçün əkin və otlaq ərazilərində səmərəli idarəetmənin təşkili ilə bağlı fəaliyyətin gücləndirilməsi və qanunvericilik bazasının təkmilləşdirilməsi zəruridir. Bu məqsədlə, iqlim dəyişmələrinin təsirlərinin qiymətləndirilməsi ilə bağlı tədbirlər planı hazırlanacaq və "iqliməsaslı ağıllı kənd təsərrüfatı" təşviq ediləcəkdir. İqlim dəyişkənliyinin kənd təsərrüfatına mənfi təsirini azaltmaq üçün biotik və abiotik stress amillərinə davamlı məhsuldar bitki sortlarının yaradılması ilə bağlı fəaliyyət genişləndiriləcək, həmçinin kənd təsərrüfatının müasir aqrometeoroloji təminatı sistemi formalaşdırılacaqdır. Bu sistem, fermer təsərrüfatları, sığorta şirkətləri və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən elmi tədqiqat təşkilatları ilə əməkdaşlığa istiqamətləndiriləcəkdir. Bu prioritet çərçivəsində iqlim dəyişmələrinin və təbii amillərin kənd təsərrüfatına mənfi təsirinin azaldılması üçün müvafiq tədbirlər görüləcək, bununla da ölkədə aqrar sahənin dayanıqlı inkişafı baxımından "iqliməsaslı ağıllı kənd təsərrüfatı" prinsiplərinin tətbiqi stimullaşdırılacaqdır.

Görüləcək tədbirlər

Tədbir 7.1.1: İqlim dəyişmələrinin kənd təsərrüfatına təsirlərinin qiymətləndirilməsi və adekvat adaptasiya planının hazırlanması

İqlim dəyişmələrinin kənd təsərrüfatına təsirləri ölkənin regionları üzrə qiymətləndirilərək, həssaslıq dərəcəsi müəyyənləşdiriləcək və gözlənilən itkilərin minimuma endirilməsi üçün adekvat adaptasiya və təsirlərin azaldılması planı hazırlanacaqdır. Ölkədə iqlim dəyişikliklərinə daha çox məruz qalmış regionlar müəyyənləşdiriləcəkdir. İqlim dəyişmələri zamanı yarana biləcək zərərin ilkin məbləği hesablanacaq və zərərin aradan qaldırılması üçün ehtiyac olan investisiya həcmi müəyyənləşəcəkdir.

Tədbir 7.1.2: Aqrometeoroloji məlumat bazasının təkmilləşdirilməsi

Aqrometeoroloji məlumatların kənd təsərrüfatı sahəsində tətbiqinin genişləndirilməsi, bu məlumatların bülleten, icmal formasında müasir tələblərə uyğun tərtibatı, informasiya vasitələrində aqrometeoroloji şərh və icmalların yayımlanması, əkin və otlaqların müayinələri, torpağın aqrohidroloji xüsusiyyətlərinin tədqiqi üzrə ekspedisiyaların təşkili ilə bağlı fəaliyyət genişləndiriləcəkdir. Aqrometeoroloji proqnoz metodları inkişaf etdiriləcək, əkin sahələrində və otlaqlarda torpaqların rütubətliliyi, torpaq səthindən buxarlanma üzərində müşahidə işləri gücləndiriləcəkdir. Kənd təsərrüfatı ilə bağlı qurumlar üçün bu məlumatların əlçatanlığı təmin ediləcəkdir.

Tədbir 7.1.3: Kənd təsərrüfatı məqsədləri üçün hava şəraitinə müdaxilə və doludan müdafiə sisteminin yaradılması imkanlarına baxılması

Dünya təcrübəsində hava şəraitinə dolu yağmasına görə baş verə biləcək fəsadların qarşısının alınması və ya azaldılması, müvafiq ərazidə (ərazilərdə) kənd, meşə və kommunal təsərrüfatların maraqlarına uyğun olaraq yağıntıların çoxaldılması və ya azaldılması və s. səbəblərə görə müdaxilə edilir. Ölkənin ehtiyaclarını nəzərə alaraq, kənd təsərrüfatı məqsədləri üçün hava şəraitinə müdaxilə və doludan müdafiə sisteminin yaradılması istiqamətində iş aparılacaqdır.

Tədbir 7.1.4: Qanunvericilik bazasının təkmilləşdirilməsi və müvafiq qurumlar arasındakı koordinasiyanın gücləndirilməsi

Müvafiq tədbirlərin həyata keçirilməsi zamanı qarşıya çıxa biləcək problemləri də nəzərə alaraq, bu sahə ilə bağlı qanunvericilik bazası təkmilləşdiriləcəkdir. İqlim dəyişikliklərinin kənd təsərrüfatına təsirlərinin azaldılması tədbirləri də nəzərə alınmaqla, bu sahədəki müvafiq qurumlar arasındakı fəaliyyətləri koordinasiya edən işçi qrupun yaradılması imkanlarına baxılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Cari prioritet daxilindəki tədbirlər nəticəsində iqlim dəyişmələrinin təsirləri qiymətləndiriləcək, zərərin azaldılması üçün adekvat adaptasiya planı hazırlanacaq, "iqliməsaslı ağıllı kənd təsərrüfatı" təşviq ediləcək, aqrometeoroloji məlumat bazası yaradılacaq, biotik və abiotik amillərə davamlı bitki sortlarının becərilməsi istiqamətində fəaliyyət genişləndiriləcəkdir. Kənd təsərrüfatı məqsədləri üçün hava şəraitinə müdaxilə və doludan müdafiə sisteminin yaradılması imkanları qiymətləndiriləcəkdir.

Tələb edilən investisiya

Prioritet çərçivəsində tədbirlərin əhatə dairəsini nəzərə alaraq, təxminən 7 milyon manat həcmində vəsaitin tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə iqlim dəyişikliklərinin təsirlərinin qiymətləndirilməsi sahəsində yetərincə yüksəkixtisaslı kadrların olmaması, aqrometeoroloji məlumat bazasının, hava şəraitinə müdaxilə və doludan müdafiə sisteminin maliyyələşməsi üçün vəsaitin ayrılmaması daxildir.

7.7.2. Prioritet 7.2. Aqrar sahədə ətraf mühiti mühafizə mexanizmlərinin təkmilləşdirilməsi

Əsaslandırma

Ətraf mühiti mühafizə məsələləri də davamlı olaraq diqqət mərkəzində saxlanılmaqla, bitkiçilikdə və heyvandarlıqda karbon qazı emissiyasının azaldılması, aqrar emal sahəsində tullantısız istehsal texnologiyalarının tətbiqi, kənd təsərrüfatı istehsalının ətraf mühitə digər zərərli təsirinin minimuma endirilməsi ilə bağlı araşdırmalar aparılmalıdır. Kənd təsərrüfatı istehsalının ekoloji normalara uyğunluğunun təmin edilməsi, kənd təsərrüfatında zəhərli kimyəvi maddələrin tətbiqinin məhdudlaşdırılması ilə bağlı tənzimləyici tədbirlərin gec həyata keçirilməsinin ciddi ekoloji fəsadları ola bilər. Bu prioritet çərçivəsində tarlaqoruyucu meşə zolaqlarının salınması dəstəklənəcək, yaşıllıqların salınmasında iqtisadi səmərə verən bitki növlərindən istifadə (badam, püstə, nar, tut, əncir, ərik və s.) imkanları nəzərdən keçiriləcəkdir. Eyni zamanda, aqrobiomüxtəlifliyin qorunması üçün müvafiq tədbirlərin davam etdirilməsi, biomüxtəlifliyin qorunması və gen bankının yaradılması ilə bağlı təkliflərin hazırlanması nəzərdə tutulur. İstixanaların inkişafı və onların istilik təchizatında alternativ enerji mənbələrindən istifadə imkanlarının öyrənilməsinə də ehtiyac vardır.

Görüləcək tədbirlər

Tədbir 7.2.1: Kənd təsərrüfatı istehsalının ekoloji normalara uyğunluğu üzrə müasir tələblərə cavab verən indikatorların hazırlanması və qiymətləndirmənin aparılması

Kənd təsərrüfatı istehsalının ekoloji normalara uyğunluğunun kompleks şəkildə qiymətləndirilməsinin aparılması imkanları araşdırılacaqdır. Bu qiymətləndirmənin aparılması qərara alınarsa, aqrar sahədə tullantısız istehsal texnologiyalarının tətbiqinin təşviq olunması, kənd təsərrüfatında zəhərli kimyəvi maddələrin tətbiqinin məhdudlaşdırılması, pestisidlərin dövriyyəsinin bütün mərhələlərində onların keyfiyyətinə dövlət nəzarətinin gücləndirilməsi, ziyanvericilər və alaq otları ilə mübarizədə bioloji üsullardan istifadənin genişləndirilməsi və digər məsələlər üzrə ehtiyaclar müəyyən ediləcək və təkliflər hazırlanacaqdır.

Tədbir 7.2.2: Kənd təsərrüfatı sektorunda karbon qazı emissiyasının azaldılması

Bitkiçilikdə və heyvandarlıqda karbon qazı emissiyasının azaldılması tədbirləri hesabına təsərrüfatlarda formalaşan peyinlərdən yaranan metan qazının yığılması və bərpa olunan enerji kimi istifadəsinin təşviq olunması nəzərdən keçiriləcəkdir. Respublikada heyvandarlığın inkişafı ilə bağlı həyata keçiriləcək tədbirlər istixana effekti yaradan qazların emissiyasının azaldılması tədbirləri ilə uyğunlaşdırılacaqdır.

Tədbir 7.2.3: Tarlaqoruyucu meşə zolaqlarının salınması

Əkin sahələrinin kənarında mərtəbəli tarlaqoruyucu meşə zolaqlarının salınması dəstəklənəcək və 2025-ci ilə kimi tarlaqoruyucu meşə sahələrinin inkişafı ilə bağlı tədbirlər planı hazırlanacaqdır. Beynəlxalq donorları da cəlb etməklə tarlaqoruyucu, torpaqqoruyucu və suqoruyucu meşə və meşə zolaqlarının salınması sahəsində müvafiq işlər görüləcəkdir.

Tədbir 7.2.4: Ətraf mühitin qorunmasına iqtisadi yanaşmanın tətbiqi

Yaşıllıqların salınmasında iqtisadi səmərə verən bitki (zeytun, badam, püstə, nar, tut, əncir və s.) növlərindən istifadə dəstəklənəcəkdir. Dağlıq və dağətəyi rayonlarda eroziyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə mövcud terraslarda müxtəlif meyvə ağacları və çoxillik ot bitkiləri əkiləcəkdir. Kənd təsərrüfatına yararsız qeyri-meşə fondu torpaqlarında iqtisadi səmərə verən bitki növlərindən istifadə edilərək yaşıllıqlar salınacaq, həmçinin ekzogen geoloji proseslərin təsirinə məruz qalmış həssas ərazilərdə dəmyə əkinçiliyinin tətbiqi imkanları araşdırılacaqdır. Eyni zamanda, plastik torbaların kütləvi istifadəsinin bitkilərə, heyvanlara, torpaq və su resurslarına mənfi təsirinin qiymətləndirilməsi aparılacaq və bu sahədə çirklənmənin azaldılması üçün müvafiq tədbirlər planı hazırlanacaqdır.

Tədbir 7.2.5: Aqrobiomüxtəlifliyin qorunması

Aqrobiomüxtəlifliyin qorunması üçün müvafiq tədbirlər işlənib həyata keçiriləcəkdir. Biomüxtəlifliyin qorunması və gen bankının yaradılması sahəsində işlər gücləndiriləcəkdir. Ənənəvi damazlıq, biotexnologiya və molekulyar metodların tətbiqi ilə əldə edilmiş yerli bitki və heyvan genetik resurslarının toplanması, öyrənilməsi və mühafizəsi istiqamətində fəaliyyət dərinləşdiriləcəkdir.

Tədbir 7.2.6: Aqrar sahədə "yaşıl iqtisadiyyat"a keçid potensialının qiymətləndirilməsi və istixanaların istilik təchizatında alternativ enerji mənbələrindən istifadə edilməsi

Aqrar sahədə "yaşıl iqtisadiyyat"a keçid potensialının qiymətləndirilməsi aparılacaqdır. İstixanalarda üzvi maddələrdən hazırlanmış kompostlardan istifadəyə üstünlük verilməsi təşviq olunacaqdır. İstixanaların istilik təchizatında günəş

kollektorlarından, bioqazdan və termal su ehtiyatları potensialından istifadə olunması imkanları araşdırılacaq və tətbiqi imkanları nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin iqtisadi və maliyyə əsaslandırması müsbət olarsa, onun həyata keçirilməsi ilə kənd təsərrüfatı məhsulları istehsalının ekoloji normalara uyğunluğunun qiymətləndirilməsi aparılacaq, aqrar sahədə tullantısız istehsal texnologiyalarının tətbiqi genişlənəcək, kənd təsərrüfatı istehsalının ekoloji normalara uyğunluğu təmin ediləcək, kənd təsərrüfatında zəhərli kimyəvi maddələrin tətbiqi məhdudlaşdırılacaq, bitkiçilikdə və heyvandarlıqda karbon qazı emissiyası azaldılacaq, tarlaqoruyucu meşə zolaqları salınacaq, yaşıllıqların salınmasında iqtisadi səmərə verən bitki növlərindən istifadə ediləcək, ətraf mühiti plastik torbalarla çirkləndirmə halları azalacaq, aqrobiomüxtəlifliyin qorunması üçün tədbirlər planı hazırlanacaqdır. Ümumilikdə isə, kənd təsərrüfatında zəhərli kimyəvi maddələrin tətbiqi 30 faiz azalacaq, bitkiçilikdə və heyvandarlıqda karbon qazı emissiyası azalacaq, həm tarlaqoruyucu meşə zolaqları, həm də yaşıllıqların salınmasında iqtisadi səmərə verən bitki növlərindən istifadə 30 faiz artacaq, istixanaların istilik təchizatında alternativ mənbələrdən istifadə 20 faiz artacaqdır.

Tələb edilən investisiya

Nəzərdə tutulmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiyanın həcmi texniki-iqtisadi əsaslandırmaların nəticəsində müəyyən ediləcəkdir.

Gözlənilən risklər

Texniki-iqtisadi əsaslandırmanın nəticəsi bu prioritetin həyata keçməməsinə gətirib çıxara bilər. Əsaslandırma zamanı müsbət nəticə əldə olunarsa, prioritet çərçivəsində əsas risklərə istehsalçıların ekoloji normaları gözləməməklə daha çox gəlir əldə etmək istəkləri, kənd təsərrüfatında zəhərli kimyəvi maddələrin alternativlərini əldə etməkdə çətinlik, dövlət nəzarətini həyata keçirən qurumun fəaliyyətində yarana biləcək hər hansı bir boşluq, plastik torbalardan istifadə hallarının artması, istixana sahiblərinin alternativ mənbələrdən istifadəyə maraq göstərməməsi daxildir.

7.7.3. Prioritet 7.3. Kənd təsərrüfatı torpaqlarından və su ehtiyatlarından dayanıqlı istifadə mexanizmlərinin təkmilləşdirilməsi

Əsaslandırma

Kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin səmərəliliyinin yüksəldilməsi, şoranlaşmaya məruz qalan torpaqların əkin dövriyyəsinə qaytarılması, otlaq və biçənəklərin bitki örtüyünün qorunub saxlanılması və ot durumunun zənginləşdirilməsi ilə bağlı tədbirlərin intensivləşdirilməsi imkanları dəyərləndirilməli və müvafiq təkliflər irəli sürülməlidir. Torpaq resurslarının mütəmadi və hərtərəfli monitorinqi, əkin sahələrinin kimyəvi strukturu ilə bağlı mənzərəni əks etdirən təfsilatlı aqrokimyəvi torpaq xəritələrinin hazırlanması, əkinçiliyin inkişafı zamanı torpaqların deqradasiyasını azaldan texnologiya və metodların tətbiqinin stimullaşdırılması istiqamətində də fəaliyyətin genişləndirilməsinə ehtiyac duyulur. Şoranlaşmış, su altında qalmış, çirklənmiş torpaqların sağlamlaşdırılması üçün onların meliorasiyasının və rekultivasiyasının həyata keçirilməsi mühümdür.

Torpaq resursları ilə yanaşı, su ehtiyatlarından da dayanıqlı istifadəyə nail olmaq aktuallıq daşıyır. Şirin su ehtiyatlarına görə Azərbaycan inkişaf etmiş ölkələrdən

xeyli geridə qalır. Azərbaycanda quraqlıq illərdə hər adambaşına 1000 kubmetrdən az şirin su düşür.

Azərbaycanın əsas su arteriyası olan Kür və Araz çaylarının minerallaşma dərəcəsi artmış, ağır metallar və digər zəhərli maddələrlə çirklənmişdir. Antropogen təsirlər nəticəsində ölkə ərazisindəki çayların bəzilərinin axını kəskin dəyişmişdir. Çaylar bəzən yay aylarında quruyur və yaz-qış mövsümündə axını bərpa olunaraq daşqın yaradır. Keçən əsrin 50–80-ci illərində inşa edilmiş suvarma kanalları, kollektor-drenaj şəbəkələri və onların üzərində olan hidrotexniki qurğular fiziki və mənəvi aşınmaya məruz qalmışdır.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin məlumatlarına əsasən hazırda Azərbaycanda suvarmaya və kənd təsərrüfatının təchizatına 6430 milyon kub metr su sərf olunur.


2014-cü ildə su təchizatının üçdə biri istehlakçılara çatmadan daşınarkən itirilmişdir və bu itkilərin böyük bir hissəsi kənd təsərrüfatında istifadə olunacaq sulara aid olunur. Faktiki olaraq, kənd təsərrüfatı sektoruna ümumi təchiz olunan suların 89 faizini və itirilmiş suların da məhz dörddə üçünü aid etmək olar. İtkilərin əsas səbəbi müasir infrastrukturla müqayisədə səmərəliliyi daha az olan torpaq kanallarının (xüsusilə kənd yerlərində) çox olmasıdır.

Su istifadəsində səmərəliliyin artırılması üçün Azərbaycanda köhnə boru kəmərlərinin bərpasına (suyun daşınması zamanı böyük itkilərə səbəb olan boru kəmərlərinin) investisiyalar qoyulacaq; sızıntıları azaltmaq üçün torpaq kanalları iki-üç ildən bir təmizlənəcək; investisiyalar torpaq kanallarına yox, suvarma kanallarına yönəldiləcək və kənd yerlərində həddindən artıq suvarmanın qarşısını almaq üçün inkişaf planı hazırlanacaqdır.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin məlumatına görə son illərdə bu sahəyə əsaslı kapital qoyuluşu dəfələrlə artmış, sahənin maddi-texniki bazası xeyli gücləndirilmiş, minlərlə kilometr suvarma kanallarının və kollektor-drenaj şəbəkələrinin bərpası, yenidən qurulması və tikintisi həyata keçirilmiş, 266 min hektar sahədə suvarılan torpaqların su təminatı, 218 min hektar sahədə isə meliorativ vəziyyət yaxşılaşdırılmış, 43 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 1493 subartezian quyusu qazılmış, sel və daşqınlara qarşı Kür, Araz və dağ çaylarında 1000 kilometrdən artıq sahilbərkitmə və bəndlərin möhkəmləndirilməsi işləri həyata keçirilmişdir.

Qeyd edək ki, suvarılan kənd təsərrüfatına yararlı torpaqların müəyyən hissəsi şoranlaşmaya məruz qalmışdır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin 1 yanvar 2016-cı ilə olan məlumatına görə suvarılan torpaqların 16,8 faizi zəif, 8,4 faizi orta, 3,3 faizi güclü şorlaşmışdır.

Şəkil 20. Azərbaycanda suvarılan torpaqların şoranlaşma vəziyyəti *(hektarla)*



Mənbə: Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti

Hazırda respublikada suvarılan torpaqların 495166 hektarına meliorativ tədbir görülməsi tələb olunur. Buna görə də suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və təkrar şoranlaşmanın qarşısının alınması üzrə tədbirlərin həyata keçirilməsi imkanları araşdırılmalıdır.

Su resurslarından səmərəli istifadəni təmin etmək üçün kənd təsərrüfatı istehsalında mütərəqqi suvarma texnologiyalarının tətbiqi genişləndirilməlidir. Bu istiqamətdə kənd təsərrüfatında effektiv suvarma sistemləri və avadanlıqlarından istifadənin genişləndirilməsi (damcılı suvarma, su çiləmə və s.), irriqasiya, drenaj işinin gücləndirilməsi, su resurslarının monitorinqi, yeni suvarma kanallarının və su anbarlarının inşası, dağ çaylarında sel sularının effektiv idarə edilməsi, kənd yerlərinə və ətraf mühitə dağıdıcı təsirlərin minimuma endirilməsi, suvarma şəbəkəsinin təkmilləşdirilməsi, şoranlaşmaya məruz qalmış ərazilərdə drenaj sisteminin tətbiq edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün texniki-iqtisadi qiymətləndirmənin aparılması nəzərdə tutulur. Meliorativ tədbirlərin kənd təsərrüfatı üzrə yararlı əkin sahələrinin perspektiv inkişaf planları ilə uzlaşdırılması və quraq regionlarda yağıntı sularından istifadə ilə bağlı fəaliyyətin gücləndirilməsi nəzərdən keçiriləcəkdir.

Kənd təsərrüfatı torpaqlarından və su ehtiyatlarından dayanıqlı istifadə mexanizmlərinin təkmilləşdirilməsi prioritetinə nail olmaq üçün aşağıdakı tədbirlərin ilkin olaraq iqtisadi və maliyyə əsaslandırmaları aparılacaqdır və əsaslandırmaların nəticəsi müsbət olarsa, bir sıra tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

Görüləcək tədbirlər

Tədbir 7.3.1: Torpaqların təyinatının dəyişdirilməsi prosesinin ətraf mühitə təsirlərinin qiymətləndirilməsi mexanizminin yaradılması

Kənd təsərrüfatı istehsalında gedən struktur dəyişiklikləri nəticəsində torpaq sahələrinin təyinatının dəyişdirilməsinə də zərurət yaranmışdır. İntensiv ferma modelinin tətbiqinin genişləndirilməsi hesabına heyvanların ənənəvi sürü halında otarılmasına ehtiyac getdikcə azalacaq ki, bununla da minlərlə hektar otlaq sahəsinin əkin dövriyyəsinə cəlb olunması imkanı yaranacaqdır. Lakin torpaqların təyinatının

dəyişdirilməsinin ətraf mühitə və torpaqlardan dayanıqlı istifadəyə təsirləri də nəzərə alınmalıdır. Buna görə də torpaqların təyinatının dəyişdirilməsi prosedurlarının ətraf mühitə təsirlərinin qiymətləndirilməsi aparılmaqla, həyata keçirilməsi ilə bağlı hüquqi mexanizmlər yaradılacaqdır.

Tədbir 7.3.2: Torpaqdan səmərəli istifadənin təmini və torpaqların rekultivasiyası üzrə tədbirlərin həyata keçirilməsi

Kənd təsərrüfatı dövriyyəsindən çıxmış, keyfiyyəti pisləşmiş və ya münbitliyini itirmiş və istifadə olunmayan torpaqların əkin dövriyyəsinə cəlb edilməsi üzrə kompleks tədbirlər görüləcəkdir. İlk növbədə, meliorativ tədbirlərin hazırlanması və həyata keçirilməsi ilə bağlı işlər davam etdiriləcəkdir. Bu baxımdan xüsusilə Kür-Araz ovalığında torpaqların şoran və şorakətlilik dərəcəsinin müəyyənləşdirilməsi və onların yararlı hala salınması üçün proqram hazırlanaraq həyata keçiriləcəkdir. Həmçinin keyfiyyəti pisləşmiş və ya münbitliyini itirmiş ərazilərdə "torpaqsız istehsal" texnologiyalarına əsaslanan istixanaların qurulması imkanları ilə bağlı araşdırmalar aparılaraq, təkliflər irəli sürüləcəkdir. Bunlarla yanaşı, şoranlaşmış və ya duzlaşmış torpaqlarda xüsusi tədbirlərin (məsələn, gipsləşdirmə tədbirləri, xüsusi sort toxumlardan istifadə olunmaqla məhsul istehsalı) həyata keçirilməsi üçün layihələr hazırlanacaqdır.

Tədbir 7.3.3: Torpaqların aqrokimyəvi analizlərinin aparılması

Aqrokimya laboratoriyaları modernləşdirilərək, torpaqların aqrokimyəvi analizləri aparılacaqdır. Bununla da əkin sahələrinin kimyəvi strukturu ilə bağlı mənzərəni əks etdirən təfsilatlı aqrokimyəvi torpaq xəritələri hazırlanacaqdır. Nəticədə hər bir torpaq tipinin məhsulvermə qabiliyyətinə və bitkilərin tələbatına uyğun gübrələrdən istifadə təşviq olunacaqdır.

Tədbir 7.3.4: Otlaqların idarə edilməsinin təkmilləşdirilməsi

Otlaqların inventarlaşması həyata keçiriləcək, otlaqların ot örtüyünün zənginləşdirilməsi istiqamətində tədbirlər intensivləşdiriləcəkdir və bu tədbirlərin həyata keçirilməsində son texnologiya olan peyk şəkillərindən istifadə imkanları araşdırılacaqdır. Təbii yem sahələrinin istifadəçiləri tərəfindən otlaq və biçənəklərin hər bir hektarının tutumuna, tipinə, məhsuldarlığına, otlaq yeminin keyfiyyətinə və torpaq səthinin quruluşuna görə otlaq sahəsinin istifadəsinin çətinlik dərəcəsi nəzərə alınmaqla, hər hektar otlaq sahəsindən istifadə haqlarının fərdi olaraq qiymətləndirilməsi və otlaqların yaxşılaşdırılması üçün xüsusi fondların yaradılması istiqamətində iş aparılacaqdır. Otlaq və biçənəklərin bitki örtüyünün qorunub saxlanılmasını və ot durumunun zənginləşdirilməsini təmin etmək məqsədi ilə hər bir otlaq təsərrüfatı üçün sadələşdirilmiş sxemdə otlaq və biçənək dövriyyəsi tətbiq ediləcək, mədəni otlaqların yaradılması dəstəklənəcəkdir.

Tədbir 7.3.5: Suvarma suyunun istehlakçıya çatdırılması zamanı itkilərin azaldılması

Aidiyyəti qurumlar mütəmadi olaraq torpaq kanallarının təmizlənməsi üçün müvafiq işlər görəcəkdir. Suyun daşınması zamanı itkilərin azalması üçün su kanallarına investisiyalar ediləcəkdir. Kənd yerlərində həddindən artıq suvarılmanın qarşısının alınması üçün inkişaf və investisiya planı hazırlanacaqdır.

Tədbir 7.3.6: Suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və təkrar şoranlaşmanın qarşısının alınması

Bu məqsədlə mövcud suvarma və kollektor-drenaj şəbəkələrinin təmir-bərpası, yeni kollektor-drenaj şəbəkələrinin tikilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Şorlaşmış torpaqların duzlardan təmizlənməsi üzrə həyata keçirilən tədbirlərin effektivliyi artırılacaq, innovativ layihələr həyata keçiriləcəkdir.

Tədbir 7.3.7: Su resurslarının qiymətləndirilməsi və informasiya təminatı

Ölkənin su resurslarının qiymətləndirilməsi və düzgün idarə edilməsi üçün su resurslarının monitorinqi həyata keçiriləcəkdir. Sudan istifadə üzrə baş planın hazırlanması ilə bağlı iş aparılacaqdır. Tullantı sularının təkrar istifadəsi üzrə cari vəziyyət öyrəniləcək və bu təcrübənin genişləndirilməsi imkanları araşdırılacaqdır. Suvarma suyundan və suvarılan torpaqlardan səmərəli istifadə etmək məqsədi ilə kənd təsərrüfatı strukturlarının müəyyən edilmiş qaydada aqroiqlim və operativ hidrometeoroloji məlumatlarla təmin olunması təşkil ediləcəkdir.

Tədbir 7.3.8: Quraq regionlarda sudan istifadənin yaxşılaşdırılması

Bu məqsədlə yeni suvarma kanalları və su anbarları inşa ediləcək, quraq regionlarda yağıntı sularından istifadə imkanlarının maksimum reallaşdırılması sahəsində tədbirlər həyata keçiriləcəkdir. Çay axınlarını tənzimləmək və yağış sularını toplamaq üçün yeni su anbarları və sututarları yaradılacaqdır. Qeyri-ənənəvi sulardan (dəniz, kollektor-drenaj, sənaye və məişət-tullantı sularından) suvarmada, su təchizatında istifadə edilməsi üçün yeni texnika və texnologiyaların yaradılması və tətbiqi ilə bağlı fəaliyyət gücləndiriləcəkdir.

Tədbir 7.3.9: Dağ çaylarının idarə edilməsi

Dağ çaylarında sel sularının effektiv idarə edilməsi, kənd yerlərinə və ətraf mühitə dağıdıcı təsirlərin minimuma endirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Suvarılan əkin sahələrinin ilbəil artırılmasının vacibliyini nəzərə alaraq, sel və daşqın sularından səmərəli istifadə edilməsi məqsədi ilə əlavə sututarların (göllərin) yaradılması istiqamətində iş aparılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Texniki-iqtisadi əsaslandırmalar nəticəsində bu prioritetin həyata keçirilməsi məqsədəuyğun hesab edilərsə, suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılacaq, istifadəsiz qalan torpaqların müəyyən hissəsi əkin dövriyyəsinə qaytarılacaq, növbəli əkin sisteminin tətbiqi genişlənəcək, otlaq və biçənəklərin idarə edilməsi mexanizmi hazırlanacaq və otlaqların ot örtüyü zənginləşdiriləcək, torpaq resurslarının mütəmadi və hərtərəfli monitorinqi keçiriləcək, torpaq resursları üzrə çoxistiqamətli məlumat bazası yaradılacaq, əkin sahələrinin kimyəvi strukturu ilə bağlı mənzərəni əks etdirən təfsilatlı aqrokimyəvi torpaq xəritələri hazırlanacaq, əkinçiliyin inkişafı zamanı torpaqların deqradasiyasını azaldan texnologiya və metodlar tətbiq ediləcəkdir. Həmçinin əkin yerlərində effektiv suvarma sistemləri və avadanlıqlarından istifadə genişlənəcəkdir. Su resurslarının rüblük əsasda müntəzəm monitorinqi keçiriləcək, dağ çaylarında sel suları daha effektiv idarə ediləcək, kənd yerlərinə və ətraf mühitə dağıdıcı təsirlərin minimuma endirilməsi ilə bağlı tədbirlər intensivləşəcəkdir. Quraq regionlarda yağıntı sularından istifadə sahəsində tədbirlər həyata keçiriləcəkdir. Ümumilikdə isə, növbəli əkin sisteminin tətbiq edildiyi əkin sahəsi 15 faiz artacaq, otlaqların ot örtüyü 25 faiz zənginləşdiriləcək, suvarılan torpaqların 30 faizinin meliorativ vəziyyəti yaxşılaşdırılacaqdır.

Tələb edilən investisiya

Texniki-iqtisadi əsaslandırmalar nəticəsində prioritetin reallaşdırılması məqsədəuyğun hesab edilərsə, nəzərdə tutulmuş tədbirləri həyata keçirmək üçün tələb olunan investisiyanın həcmi müəyyən ediləcəkdir.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə fermerlərin növbəli əkin sisteminin tətbiqindən imtina etmələri, şoranlaşmaya qarşı görülən tədbirlərin intensivliyi üçün yetərincə maliyyə vəsaitinin olmaması, müvafiq laboratoriyaların yetərli olmaması və kadr çatışmazlığı daxildir.

7.7.4. Prioritet 7.4. Ekoloji təmiz kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi

Əsaslandırma

Beynəlxalq Ekoloji Kənd Təsərrüfatı Hərəkatı Federasiyasının (IFOAM) məlumatına görə dünyanın 172 ölkəsində 2,3 milyon fermer 43,7 milyon hektar ərazidə ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olur.

Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının əsası keçən əsrin 90-cı illərinin sonlarında qoyulmuşdur. 2008-ci il 13 iyun tarixində "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, normativ hüquqi və informasiya-məlumat bazası formalaşdırılmışdır. Ekoloji təmiz kənd təsərrüfatı istehsalı aqrar sahənin davamlı inkişaf üsulu olmaqla, bir sıra sosial, ekoloji və iqtisadi problemlərin səmərəli surətdə həll edilməsinə imkan yaradır. Qeyd edilən məsələlər də ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsinin prioritet seçilməsini şərtləndirir. Bu prioritet üzrə ekoloji təmiz kənd təsərrüfatı istehsalında fəaliyyətin koordinasiyası sisteminin formalaşdırılması, ekoloji təmiz kənd təsərrüfatının təşkili üzrə pilot layihələrin hazırlanması və həyata keçirilməsi ilə bağlı tədbirlər görüləcəkdir. Ekoloji təmiz kənd təsərrüfatı sisteminin inkişafına kömək edən sosial və iqtisadi həvəsləndirmə tədbirləri genişləndiriləcəkdir.

Bakı şəhərində və digər regional mərkəzlərdə ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalçıları üçün yarmarkaların təşkili və ekoloji təmiz kənd təsərrüfatının inkişafı üzrə dövlət proqramının hazırlanması ilə bağlı fəaliyyətlər göstəriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 7.4.1: Ekoloji təmiz kənd təsərrüfatı istehsalı ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi və dövlət proqramının hazırlanması imkanlarının dəyərləndirilməsi

Ekoloji təmiz kənd təsərrüfatının inkişafına nail olmaq üçün qanunverici bazanın təkmilləşdirilməsi və beynəlxalq qanunvericiliklə uyğunlaşdırılması məsələlərinə baxılacaqdır. Xüsusilə ekoloji təmiz kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırılması mexanizmlərinin yaradılması istiqamətində işlər görüləcəkdir. Ekoloji təmiz bitkiçilik və ya heyvandarlıq məhsulları istehsalının artırılması məqsədi ilə "ekoloji təmiz kənd təsərrüfatının inkişafı üzrə dövlət proqramı"nın layihəsi hazırlanacaqdır.

Tədbir 7.4.2: Ekoloji təmiz məhsul istehsalının təşviqi

Ekoloji təmiz kənd təsərrüfatı istehsalı sahəsində fermerlərin ixtisaslaşması və təhsili proqramları hazırlanacaqdır. Ekoloji təmiz kənd təsərrüfatı sahəsində mütəxəssislər hazırlanacaq, ali aqrar təhsil üzrə tədris proqramına təlimin bəzi dərinləşdirilmiş formaları daxil ediləcəkdir. Ekoloji təmiz kənd təsərrüfatı istehsalında elmi tədqiqatların nəticələrinin tətbiqinin qiymətləndirilməsi üzrə yerli və beynəlxalq elmi konfranslar təşkil olunacaq, ekoloji təmiz kənd təsərrüfatı istehsalı üzrə hazırlıq və təhsil kursları təşkil ediləcək, mütəxəssislər üçün daimi peşə hazırlığı mərkəzləri yaradılacaqdır. Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının becərilməsi texnologiyaları üzrə broşür və digər çap materialları nəşr olunacaqdır.

Tədbir 7.4.3: Ekoloji təmiz məhsul istehsal edən fermerlərin formalaşdırılması

Ekoloji təmiz kənd təsərrüfatı sahəsində ixtisaslaşmış fermer təsərrüfatlarının yaradılmasının dəstəklənməsi imkanları araşdırılacaqdır. Araşdırma nəticəsində tədbirin həyata keçirilməsi məqsədəuyğun hesab edilərsə, ilk növbədə kənd səviyyəsində ekoloji təmiz təsərrüfatçılığın fundamental bazisi hesab edilən üzvi gübrələrin sənaye üsulu ilə istehsalı və tətbiqi istiqamətində iş aparılacaqdır. Bitkilərin ekoloji təmiz kənd təsərrüfatı üsulu ilə becərildiyi sahələrin genişləndirilməsi üçün həvəsləndirmə tədbirləri görüləcəkdir. Ekoloji təmiz kənd təsərrüfatı istehsalının toxum və əkin materialları ilə təminatı gücləndiriləcəkdir. Ekoloji təmiz kənd təsərrüfatı üzrə pilot təsərrüfatların yaradılması ilə bağlı layihələr həyata keçiriləcəkdir.

Tədbir 7.4.4: Ekoloji təmiz kənd təsərrüfatı məhsulları bazarının inkişaf etdirilməsi

Ekoloji təmiz kənd təsərrüfatı məhsulları bazarının inkişafı dəstəklənəcəkdir. Bakı şəhərində və regional mərkəzlərdə ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalçıları üçün yarmarkalar təşkil olunacaqdır. Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının "pilot bazarları" və "pilot marketləri" yaradılacaq, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının məşhurlaşması və istehlakçılarda onlara marağın oyanması üzrə proqramlar işlənib hazırlanacaqdır. Əhalinin ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə tanış edilməsi üzrə iş dərinləşəcək, milli və beynəlxalq sərgilərdə ekoloji təmiz kənd təsərrüfatı istehsalı üzrə nailiyyətlər təbliğ olunacaq, ekoloji məhsulların ixracına dəstək veriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə ekoloji təmiz kənd təsərrüfatı istehsalında fəaliyyətin koordinasiyası sistemi formalaşdırılacaq, ekoloji təmiz kənd təsərrüfatının təşkili üzrə pilot layihələr həyata keçiriləcək, Bakı şəhərində və regional mərkəzlərdə ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalçıları üçün yarmarkalar təşkil olunacaq, ekoloji təmiz kənd təsərrüfatının inkişafı üzrə dövlət proqramının hazırlanması nəzərdən keçiriləcəkdir. Ümumilikdə isə, ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsal edən fermerlərin sayı 50 faiz, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsal həcmi isə 2 dəfə artacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində tədbirlərin əhatə dairəsini nəzərə alaraq, təxminən 15 milyon manat həcmində vəsaitin tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə fermerlərin ekoloji təmiz kənd təsərrüfatının inkişafına yetərincə maraq göstərməməsi, bu sahədə qaydaların hazırlanması prosesinin uzanması, yerli kadrların kifayət qədər olmaması və beynəlxalq standartlara uyğun işlək sertifikatlaşdırma prosesinin təşkil edilməməsi daxildir.

7.8. Strateji hədəf 8. Aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsi və biznes mühitinin təkmilləşdirilməsi

"Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanı aqrar sektorun inkişafının prioritet hədəflərinin yeni çağırışlar fonunda müəyyən edilməsi, aqrar sektorda institusional strukturun və idarəetmənin təkmilləşdirilməsi və innovativ dəyişikliklərə təkan verən keyfiyyətcə yeni mərhələyə keçid üçün əsas yaratmışdır. Aqrar islahatların müasir mərhələsində kənd təsərrüfatı üzrə dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi bu sahədə həyata keçirilən kompleks tədbirlərin davam etməsini şərtləndirir.

Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi siyasətinin inkişaf məqsədləri əsasında təkmilləşdirilməsi, yeni şəraitə və ÜTT tələblərinə uyğunlaşdırılması da önəmlidir. Bu strateji hədəfə nail olmaq üçün müəyyənləşdirilən beş prioritetdən birincisi əlverişli aqrobiznes mühitinin formalaşdırılması üçün tədbirlərin davam etdirilməsi ilə bağlıdır. Bu çərçivədə aqrar sahədə lisenziya, icazə və sertifikatların verilməsi təkmilləşdiriləcək, haqsız rəqabət meyillərinin qarşısı alınacaq və antiinhisar nəzarəti gücləndiriləcəkdir. Növbəti prioritet elektron kənd təsərrüfatının qurulması, qeydiyyat, uçot və statistika sisteminin təkmilləşdirilməsi məsələlərini əhatə edəcəkdir. Bu çərçivədə Torpaqların Elektron Kadastr Uçotu Sistemi yaradılacaq, "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sisteminin qurulması başa çatdırılacaq, subsidiyaların verilmə prosesinin bu sistem vasitəsi ilə idarə edilməsi təşkil olunacaq və digər müvafiq işlər görüləcəkdir.

Kənd təsərrüfatını tənzimləyən qurumların potensialının gücləndirilməsi prioritetinin reallaşdırılması Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyindəki qurumların strateji inkişaf planının hazırlanmasına, Nazirliyin rayon (şəhər) idarələrinin potensialının gücləndirilməsinə xidmət edəcəkdir.

Digər prioritet kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi siyasətinin inkişaf məqsədləri əsasında təkmilləşdirilməsini hədəfləyir. Bu strateji hədəfin sonuncu prioriteti isə aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi sisteminin qurulması məqsədi daşıyır. Bu prioritet çərçivəsində aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə hesabatlar hazırlanacaq, "Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi"nin fəaliyyəti təkmilləşdiriləcəkdir.

7.8.1. Prioritet 8.1. Əlverişli aqrobiznes mühitinin formalaşdırılması üçün tədbirlərin görülməsi

Əsaslandırma

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini genişləndirmək, habelə biznes və investisiya mühitinin əlverişliliyini və rəqabət qabiliyyətini daha da artırmaq üçün kompleks tədbirlər həyata keçirilir. Belə ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli Qanununa əsasən 2015-ci il 1 noyabr tarixindən sahibkarlıq sahəsində

aparılan bütün yoxlamalar 2 il müddətinə dayandırılmışdır (vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına böyük təhlükə yaradan hallar üzrə yoxlamalar istisna olmaqla). Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanına uyğun olaraq Dövlət Gömrük Komitəsi tərəfindən "Yaşıl dəhliz" və digər buraxılış sistemlərinin tətbiqi ilə əlaqədar müvafiq infrastruktur yaradılmışdır. 2016-cı il 1 avqust tarixindən etibarən sahibkarlar "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə etmək imkanı qazanmışlar. Azərbaycan Respublikası Prezidentinin "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamı ilə vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılmasının təmin edilməsi istiqamətində mühüm addım atılmışdır.

Əlverişli aqrobiznes mühitinin formalaşdırılması prioriteti çərçivəsində kənd təsərrüfatı və ərzaq məhsulları bazarında, tədarük prosesində haqsız rəqabət meyillərinin qarşısının alınması məqsədi ilə tədbirlərin gücləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün əlverişli ticarət mühitinin formalaşdırılması sahəsində işlərin genişləndirilməsinə ehtiyac hiss olunur.

Eyni zamanda, aqrar emal sahəsində antiinhisar nəzarətinin gücləndirilməsi, aqrar sahədə lisenziyalaşma və icazələrin verilməsi istiqamətində təkmilləşdirmə işinin davam etdirilməsi böyük əhəmiyyətə malikdir. Şübhəsiz ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 sentyabr tarixli 1047 nömrəli Fərmanı ilə yaradılan "ABAD" *(Ailə Biznesinə Asan Dəstək)* mərkəzləri bu prosesə böyük töhfə verəcəkdir. "ABAD" mərkəzləri istehsal olunan məhsulun sertifikatlaşdırılmasını "bir pəncərə" prinsipi əsasında, sadələşdirilmiş qaydada təşkil edəcəkdir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün vergi sistemində aqrar emal sahəsində investisiya mühitinin yaxşılaşdırılmasına xidmət edən dəyişikliklərin tətbiqi, aqrobiznes sektoru üçün birbaşa xarici investisiyaların təşviqi ilə bağlı fəaliyyətin dərinləşdirilməsi də bu prioritet çərçivəsində nəzərə alınacaq tədbirlər sırasındadır.

Görüləcək tədbirlər

Tədbir 8.1.1: Aqrar sahədə lisenziya, icazə və sertifikatların verilməsinin təkmilləşdirilməsi

Kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanılması, daşınması və ticarəti üzrə tənzimləməyə dair inzibati prosedurların təhlili və bu prosedurların daha da asanlaşdırılması ilə bağlı ehtiyaclara dair təkliflər hazırlanacaq, habelə müvafiq prosedurlarla bağlı məlumatların vahid elektron bazasının yaradılması imkanları araşdırılacaqdır. Aqrar sahədə lisenziyalaşma və icazələrin verilməsinin təkmilləşdirilməsi, sertifikatların verilməsinin sadələşdirilməsi sahəsində tədbirlər davam etdiriləcəkdir. "ABAD" mərkəzləri istehsal olunan məhsulun sertifikatlaşdırılmasını "bir pəncərə" prinsipi əsasında, sadələşdirilmiş qaydada təşkil edəcəkdir. Ailə təsərrüfatları, kiçik və orta sahibkarların yaradılan bu imkandan maksimum faydalanmaları üçün maarifləndirmə işi aparılacaqdır.

Tədbir 8.1.2: Haqsız rəqabət meyillərinin qarşısının alınması və antiinhisar nəzarətinin gücləndirilməsi

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində bazarda rəqabət mühitinin mütəmadi monitorinqi aparılacaq və hesabatlar hazırlanacaqdır. Aqrar sahədə antiinhisar nəzarəti gücləndiriləcəkdir.

Tədbir 8.1.3: Biznes subyektlərinin məhsul bazarına çıxışı və istehsal resurslarının əlyetərliyinin monitorinqinin aparılması və hesabatların hazırlanması

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən biznes subyektlərinin bazara çıxışı, eyni zamanda resurslara çıxışı məsələləri ilə bağlı monitorinqlər aparılaraq, hesabatlar hazırlanacaqdır.

Tədbir 8.1.4: Riskəsaslı yoxlama sisteminin qurulması

Beynəlxalq təcrübə araşdırılaraq insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yarada biləcək halların baş vermə risklərinin azaldılması, qarşısının alınması və qabaqlayıcı tədbirlər sisteminin həyata keçirilməsini təmin etmək üçün adıçəkilən hallar üzrə kompleks yoxlamaları özündə birləşdirən riskəsaslı yoxlama sisteminin qurulması imkanları nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə sahəni tənzimləyən qanunlar və qaydalar təkmilləşdiriləcək, kənd təsərrüfatı və ərzaq məhsulları bazarında, tədarük prosesində haqsız rəqabət meyillərinin qarşısı alınacaq, antiinhisar nəzarəti gücləndiriləcək, aqrar sahədə lisenziyaların, icazələrin, sertifikatların verilməsi "bir pəncərə" prinsipi əsasında təşkil ediləcək, yaradılan əlverişli mühit nəticəsində aqro-biznes sektorunda birbaşa xarici investisiyaların payı artacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində tədbirlərə dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulan vəsaitdən əlavə, təxminən 9 milyon manat həcmində investisiya tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə qanunların və qaydaların təkmilləşdirilməsi prosesinin ləngiməsi, haqsız rəqabət meyillərinin qarşısının alınmaması, xarici investorların iqtisadiyyatda baş verən digər səbəblərdən aqrar sahəyə maraq göstərməməsi daxildir.

7.8.2. Prioritet 8.2. Elektron kənd təsərrüfatının qurulması, qeydiyyat, uçot və statistika sisteminin təkmilləşdirilməsi

Əsaslandırma

Müasir dövrdə idarəetmədə şəffaflığın və səmərəliliyin artırılması baxımından "elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması önəmlidir. Hazırda ölkədə Avropa təcrübəsinə uyğun torpaq sahələrinin identifikasiyası sistemi, fermer təsərrüfatlarının reyestri, biznes təhlili və hesabatlar, sənədlərin idarə olunması, ərizələrin emalı, ödənişə icazə və risklərin təhlili modullarından ibarət "Subsidiya və siyasətə dair informasiya sistemi"nin tətbiqi üçün praktiki fəaliyyətlər həyata keçirilir. Belə ki, subsidiya siyasətinə cəlb edilən torpaq sahələrinin faktiki istifadə vəziyyətinə, əkin növünə və mədəni bitki örtüyünə görə identifikasiyası, coğrafi informasiya sistemləri texnologiyalarına əsaslanan "Torpaq Sahələrinin İdentifikasiyası", kənd təsərrüfatı məhsulları istehsalçılarının qeydiyyatını aparan "Fermer Təsərrüfatlarının Reyestri", subsidiya üçün ərizələrin qeydiyyatını və təhlilini aparan "Ərizələrin Emalı" modulları qurularaq sınağı aparılmışdır.

Respublikada Torpaqların Elektron Kadastr Uçotu Sisteminin yaradılması işinə başlanılmışdır. Bu sistemin yaradılması ilə pay torpaqlarının kadastr göstəriciləri və onların yerdəki faktiki kadastr göstəriciləri arasındakı uyğunsuzluqların aradan qaldırılması təmin olunacaqdır. Bu sistemlə torpaq ehtiyatlarının idarə edilməsinin dövlət mexanizmi təkmilləşəcək, dövlət nəzarəti daha effektiv həyata keçiriləcəkdir. Bu sistem ölkədə torpaq bazarının stimullaşdırılması, şəffaf fəaliyyəti, qeyri-kənd təsərrüfatı torpaqlarının kənd təsərrüfatına cəlb olunması məsələlərində informasiya bazası rolunu oynayacaqdır. Torpaq bazarının bu sistemlə tənzimlənməsi icarəyə götürülmüş, lakin istifadə olunmayan hektarlarla torpaqların aşkarlanmasına və istifadəyə verilməsinə şərait yaradacaqdır. Bu məqsədlə, qarşıdakı illərdə bu sahədə başlanan fəaliyyətin plana uyğun şəkildə başa çatdırılması vacibdir. Bu gün min hektarlarla əkin və örüş sahələrinin üzərində tikintilər olsa da, bu ərazilər köhnə uçot sənədlərinə istinad edilməklə əkin, örüş sahələri kimi balansa götürülür. Buna görə də qarşıdakı illərdə bu sahədə başlanan fəaliyyətin ilkin təməllərin hazır olduğu zaman başa çatdırılması məqsədəuyğundur.

Eyni zamanda, kənd təsərrüfatında problemlərin aşkara çıxarılması və həyata keçirilən tədbirlərin effektivliyinin təmin olunması üçün həm bitkiçilik, həm də heyvandarlıq sahələri üzrə dövlət nəzarəti sisteminin, uçot və statistika sistemlərinin təkmilləşdirilməsi, kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı ilə bağlı tədbirlərin həyata keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Qeyd edilənləri də nəzərə alaraq, bu prioritet çərçivəsində, kənd təsərrüfatı məhsulları istehsalçıları arasında ilkin uçotun təşviqi və uçotun təşkili üzrə təlimlərin keçirilməsi, mal-qaranın, quşların və əkin sahələrinin tam uçotunun aparılması və elektron məlumat bazasının yaradılması, yaylaqların uçotunun yenilənməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 8.2.1: Torpaqların Elektron Kadastr Uçotu Sisteminin qurulması

Ölkə ərazisində bütün torpaqların elektron kadastr uçotuna alınması, ərazilərin rəqəmsal xəritələrinin hazırlanması, avtomatlaşdırılmış torpaq kadastr informasiya sisteminin, mükəmməl torpaq bankının yaradılması planlaşdırılır. Torpaqların Elektron Kadastr Uçotu Sistemi müasir tələblərə uyğun Milli Məkan Məlumatları İnfrastrukturunun formalaşmasında mühüm rol oynayacaqdır. Sistem geo-məkan infrastrukturunun inkişafını, bu sahədə dövlət və biznes qurumlarının qarşılıqlı, səmərəli və şəffaf əlaqəsini təmin edəcəkdir. Torpaqların Elektron Kadastr Uçotu Sisteminin yaradılması məqsədi ilə böyük əraziləri özündə cəmləşdirən sahələrdə torpaqların tədqiqatı, örüş və biçənək sahələrinin tədqiqi işləri aparılır və rayonların rəqəmsal torpaq xəritələri tərtib edilir. Torpaqların Elektron Kadastr Uçotu Sisteminin yaradılması nəticəsində torpaqların sənədlərindəki göstəricilər ilə faktiki yerləşmə vəziyyətinə dair göstəricilər arasındakı uyğunsuzluqlar aradan qaldırılacaqdır. Deqradasiyaya uğramış torpaqların Coğrafi İnformasiya Sistemi (CİS) informasiya bazasının yaradılması istiqamətində iş aparılacaqdır.

Tədbir 8.2.2: "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sisteminin qurulmasının başa çatdırılması, subsidiyaların verilməsi prosesinin bu sistem vasitəsilə idarə edilməsi

Torpaqların Elektron Kadastr Uçotu Sistemi qurulduqdan sonra kənd təsərrüfatı təyinatlı torpaqların torpaq mülkiyyətçiləri üzrə olmaqla, elektron kadastr məlumat bazası "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sisteminə inteqrasiya olunacaq,

həmçinin ölkədə subsidiyaların verilməsi prosesinin bu sistem vasitəsilə idarə edilməsi təşkil ediləcəkdir.

Tədbir 8.2.3: "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemi vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat subyektləri kimi qeydiyyata alınması ilə bağlı hüquqi bazanın yaradılması imkanlarına baxılması

Kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən xidmətlərin asanlaşdırılması üçün "Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemi vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat subyektləri kimi qeydiyyata alınması ilə bağlı hüquqi bazanın yaradılması imkanlarına baxılacaqdır.

Tədbir 8.2.4: İstehsalçıların müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalında və fermer birliklərində iştirakı ilə bağlı statistik hesabatların hazırlanması

Bu Strateji Yol Xəritəsində kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması ilə bağlı 2.3-cü prioritet çərçivəsində həyata keçirilən tədbirlərin təsirini də qiymətləndirmək üçün istehsalçıların "müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalı"nda və fermer birliklərində iştirakı ilə bağlı statistik hesabatlar hazırlanacaqdır.

Tədbir 8.2.5: Həyətyanı sahələrdə yetişdirilən məhsullarla bağlı müayinələrin aparılması və statistik hesabatların hazırlanması

Həyətyanı sahələrdə yetişdirilən meyvə, üzüm, tərəvəz, bostan, kartof, yem bitkiləri və digər məhsullarla bağlı əkin sahələrinə, məhsul istehsalına və məhsuldarlığa dair məlumatlar üzrə müayinələr aparılacaq və statistik hesabatlar hazırlanacaqdır.

Tədbir 8.2.6: Meyvə bağları üzrə məlumatların ənənəvi, intensiv və superintensiv bağlar olmaqla qruplaşdırılması

Ölkədə meyvə bağlarının ümumi sahəsi barədə məlumatlar olsa da, bu məlumatlar qruplaşdırılmamışdır. Buna görə də meyvə bağları üzrə məlumatların ənənəvi, intensiv və superintensiv bağlar üzrə qruplaşdırılması həyata keçiriləcəkdir. Həmçinin üzüm bağlarının da süfrə üzümü və ya texniki üzüm istehsalı üzrə ixtisaslaşması ilə bağlı qruplaşdırma aparılaraq hesabat hazırlanacaqdır.

Tədbir 8.2.7: Heyvandarlıqla bağlı spesifik statistik məlumatların hazırlanması və müayinələrin aparılması

Bu tədbir çərçivəsində iri heyvandarlıq kompleksləri, damazlıq təsərrüfatları və kökəltmə ilə məşğul olan təsərrüfatlar və onların fəaliyyətləri haqqında statistik məlumatlar hazırlanacaqdır. Həmçinin heyvandarlığın cins tərkibinə dair müayinələr aparılacaq və hesabatlar hazırlanacaqdır.

Tədbir 8.2.8: Kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı

Heyvanların identifikasiyası sisteminin qurulması ilə bağlı fəaliyyət planı hazırlanaraq mərhələlər üzrə həyata keçirilməsi imkanlarına baxılacaqdır. Bu sistem heyvanların yerdəyişməsinə və onların xəstəliklərinə nəzarətin tam həyata keçirilməsinə imkan verə bilər. Kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı ilə bağlı beynəlxalq təcrübə öyrəniləcək və müvafiq tədbirlər həyata keçiriləcəkdir.

Tədbir 8.2.9: Baytarlıq və fitosanitar nəzarətinin həyata keçirilməsinə və xidmətlərin göstərilməsinə dair məlumatların təsərrüfatlar üzrə elektron bazasının yaradılması

Hazırda baytarlıq və fitosanitar nəzarətinin həyata keçirilməsinə və xidmətlərin göstərilməsinə dair məlumatların təsərrüfatlar üzrə elektron bazası mövcud deyildir. 2017-ci ildən etibarən baytarlıq və fitosanitar nəzarətinin həyata keçirilməsinə və xidmətlərin göstərilməsinə dair məlumatların təsərrüfatlar üzrə elektron bazası yaradılacaqdır.

Tədbir 8.2.10: Kənd təsərrüfatında ilkin uçotun təşviqi

Kənd təsərrüfatı istehsalçıları, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad olduğu üçün uçot aparmaqda maraqlı deyillər. Kənd təsərrüfatı məhsulları istehsalçıları arasında ilkin uçot təşviq ediləcək və uçotun təşkili üzrə məhsul istehsalçılarının bilikləri artırılacaq və onlar təlimlərə cəlb olunacaqlar.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə Torpaqların Elektron Kadastr Uçotu Sistemi qurulacaq, ölkəni tam əhatə edən "Elektron kənd təsərrüfatı" informasiya sistemi fəaliyyət göstərəcək, kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı aparılacaq, kənd təsərrüfatı məhsulları istehsalçıları arasında ilkin uçot aparanların sayı artacaq, mal-qaranın, quşların və əkin sahələrinin elektron məlumat bazası olacaqdır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının 10 faizində ilkin uçot təşkil olunacaqdır.

Tələb edilən investisiya

Prioritenin həyata keçirilməsi üzrə təməllər tam hazır olduqda, nəzərdə tutulmuş tədbirlərin icrası məqsədi ilə tələb olunan investisiyanın həcmi müəyyən ediləcəkdir.

Gözlənilən risklər

Bu prioritet üzrə əsas risk faktorlarına prioritetin həyata keçirilməsi üçün tələb olunan təməllərin istənilən səviyyədə olmaması, Torpaqların Elektron Kadastr Uçotu Sisteminin və "Elektron kənd təsərrüfatı" informasiya sisteminin maliyyələşdirilməsində baş verə biləcək problemlər, kadr çatışmazlığı və kənd təsərrüfatı məhsulları istehsalçılarının ilkin uçotu təşkil etməyə maraq göstərməməsi ilə bağlı problemlər daxildir.

7.8.3. Prioritet 8.3. Kənd təsərrüfatını tənzimləyən qurumların potensialının gücləndirilməsi

Əsaslandırma

Aqrar islahatların müasir mərhələsində kənd təsərrüfatı üzrə dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Son illər Kənd Təsərrüfatı Nazirliyinin institusional potensialının gücləndirilməsi məqsədi ilə aparılan struktur dəyişiklikləri, Nazirliyin rayon və şəhər idarələrinin yaradılması və s. məsələlər buna bariz nümunədir. Qarşıdakı illərdə bir sıra daha prioritet hesab edilən tədbirlər həyata keçirildikdən sonra bu sahədə başlanan fəaliyyətin davam etdirilməsi üçün dövlət tənzimləmə sisteminin təşkilati potensialının gücləndirilməsi və bu sahədə paralelliyin aradan qaldırılması, Kənd

Təsərrüfatı Nazirliyinin işçilərinin praktiki bacarıqlarının yüksəldilməsi üçün beynəlxalq əməkdaşlığın genişləndirilməsi və təlimlərin təşkili planlaşdırılır.

Görüləcək tədbirlər

Tədbir 8.3.1: Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyindəki qurumların strateji inkişaf planının hazırlanması

Kənd Təsərrüfatı Nazirliyinin qurumları üzrə 2020-ci ilədək strateji inkişaf planı hazırlanacaqdır. Bu plan həm də dövlət tənzimləmə sisteminin təşkilati potensialının gücləndirilməsinə xidmət edəcəkdir.

Tədbir 8.3.2: Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyində olan qurumların fəaliyyətinə dair illik hesabatların hazırlanması və ictimaiyyətə açıqlanması

Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyində olan qurumların fəaliyyətinə dair illik hesabatlar hazırlanacaq və ictimaiyyətə açıqlanacaqdır. Bu proses növbəti illərdə də davam edəcəkdir.

Tədbir 8.3.3: Kənd Təsərrüfatı Nazirliyinin aqrar sahə üzrə strateji təhlil, planlaşdırma və qiymətləndirmə fəaliyyətləri ilə bağlı potensialının gücləndirilməsi

Kənd Təsərrüfatı Nazirliyinin strateji təhlil, planlaşdırma və qiymətləndirmə üzrə potensialının gücləndirilməsi üçün beynəlxalq tərəfdaşlarla birgə müvafiq layihələr həyata keçiriləcəkdir.

Tədbir 8.3.4: Kənd Təsərrüfatı Nazirliyinin rayon (şəhər) idarələrinin potensialının gücləndirilməsi

Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələrinin yeni yaradıldığını nəzərə alaraq, onların institusional potensialının gücləndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Nazirliyin rayon və şəhər idarələrinin əməkdaşlarının bacarıqlarının, o cümlədən məlumat toplama, hesabatlılıq, müvafiq informasiyaların yayımı, kompüter proqramlarından istifadə və digər istiqamətlərdə bacarıqlarının yüksəldilməsi üçün təlimlər təşkil ediləcəkdir. Nazirliyin əməkdaşlarının xarici dil biliklərinin artırılması dəstəklənəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə dövlət tənzimləmə sisteminin təşkilati potensialı gücləndiriləcək, bu sahədə paralellik aradan qaldırılacaq, Kənd Təsərrüfatı Nazirliyinin beynəlxalq əməkdaşlığı genişləndiriləcək və əməkdaşlarının müasir kompüter proqramlarından istifadə bacarığı artacaqdır. Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşlarının 100 faizinin müasir kompüter proqramlarından istifadə bacarıqlarına yiyələnməsi təmin ediləcək, xarici dil biliklərinə malik əməkdaşların sayında 50 faiz artım olacaqdır.

Tələb edilən investisiya

Əlavə investisiya xərci tələb edilməyəcəkdir.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə dövlət qurumlarının strateji planlaşdırma sahəsində təcrübələrinin az olması, Kənd Təsərrüfatı Nazirliyinin rayon (şəhər) idarələrinin formalaşması prosesinin tam başa çatmaması, dövlət qulluqçularının treninq və seminarlarda iştiraka kifayət qədər maraq göstərməmələri daxildir.

7.8.4. Prioritet 8.4. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi siyasətinin inkişaf məqsədləri əsasında təkmilləşdirilməsi

Əsaslandırma

Qarşıdakı illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatı istehsalçılarına verilən dövlət yardımlarının müasir tələblərə uyğun olaraq regionlar və məhsullar üzrə diferensiallaşdırılması istiqamətində iş aparılması aktualdır. Xüsusilə bu sahədə fəaliyyətlərin əsasını təşkil edən normativ hüquqi aktlarla bağlı pərakəndəliyi aradan qaldırmaq üçün müvafiq qanun layihəsinin hazırlanması və qəbul edilməsi, diferensial subsidiya mexanizminin tam formalaşdırılması, xarici ölkələrdən cins heyvanların idxal edilərək damazlıq kənd təsərrüfatı müəssisələrinə verilməsinin dəstəklənməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının yüksək məhsuldarlığa malik toxum, ting və damazlıq heyvanlarla, həmçinin müasir texnika və avadanlıqlarla, aqrokimyəvi vasitələrlə təminatının gücləndirilməsi məqsədi ilə dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi məsələlərinin nəzərdən keçirilməsi əhəmiyyətli ola bilər.

Eyni zamanda, bu prioritet çərçivəsində suvarma suyunun kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli satışı mexanizminin təkmilləşdirilməsi və şəffaflaşdırılması, vergi və gömrük güzəştlərinin effektivliyinin artırılması, yüksək dağlıq ərazilərdə və qışlaqlarda fəaliyyət göstərən fermer təsərrüfatları üçün stimullaşdırıcı tədbirlər planının hazırlanması və həyata keçirilməsi, qoyunçuluqla məşğul olan fermer təsərrüfatları üçün həvəsləndirici tədbirlərin həyata keçirilməsi (yer üzrə icarə haqqından qismən azad olunmaqla torpağın vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin fermerlərlə birgə həyata keçirilməsi və s.), üzüm və çay plantasiyalarının salınmasının təşviq edilməsi və elit toxum istehsalının subsidiyalaşdırılmasının davam etdirilməsi ilə bağlı texniki-iqtisadi qiymətləndirmənin aparılması əhəmiyyətlidir.

Görüləcək tədbirlər

Tədbir 8.4.1: Subsidiyaların təkmilləşdirilməsinə dair qiymətləndirmələrin aparılması və təkliflərin hazırlanması

Kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən birbaşa subsidiyaların regionlar və sahələr üzrə diferensiasiyası, o cümlədən müxtəlif sahələr üzrə son məhsula görə, müəyyən subsidiyaların isə istehsalçıların birlikləri vasitəsilə verilməsi imkanlarına dair qiymətləndirmələr aparılacaq və təkliflər hazırlanacaqdır. Bu qiymətləndirmələrin nəticəsi olaraq, regional və sahəvi xüsusiyyətlər nəzərə alınmaqla, diferensial subsidiya mexanizminin formalaşdırılması ilə bağlı təkliflər hazırlanacaqdır.

Tədbir 8.4.2: Kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən vergi güzəştləri və müvafiq istehsal vasitələrinin idxalına görə tətbiq edilən gömrük rüsumları siyasətinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması

Kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən vergi güzəştlərinin, xüsusilə istehsalçıların emal müəssisələri və ticarət şəbəkələri ilə əməkdaşlığının yaxşılaşdırılmasına dəstək baxımından təkmilləşdirilməsi üçün müvafiq təkliflərin hazırlanması məsələsinə baxılacaq, həmçinin aqrar sahə üçün müvafiq istehsal vasitələrinin idxalına görə tətbiq edilən gömrük rüsumları siyasətinin qiymətləndirilməsi aparılacaq və onun təkmilləşdirilməsinə dair təklif və addımlar nəzərdən keçiriləcəkdir.

Tədbir 8.4.3: İstixanaların genişləndirilməsini stimullaşdırmaq üçün dövlət dəstəyi tədbirlərinə dair təkliflərin hazırlanması

Ölkə ərazisində fəaliyyət göstərən istixanaların böyük ixrac potensialının olduğunu nəzərə alaraq, onların genişləndirilməsini stimullaşdırmaq üçün müvafiq layihələr və dövlət dəstəyi tədbirlərinə dair texniki-iqtisadi əsaslandırma aparılacaqdır.

Tədbir 8.4.4: Kənd təsərrüfatı məhsulları istehsalçılarına suvarma suyunun güzəştli satışı ilə bağlı texniki-iqtisadi əsaslandırmaların aparılması

Kənd təsərrüfatı məhsulları istehsalçılarına suvarma suyu dəyərindən dəfələrlə ucuz qiymətə güzəştli şərtlərlə satılır. Hazırda suvarma suyunun kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli satışı mexanizminin təkmilləşdirilməsinə ehtiyac vardır. Onun üçün də kənd təsərrüfatı məhsulları istehsalçılarına suvarma suyunun güzəştli satışı ilə bağlı texniki-iqtisadi əsaslandırmalar aparılacaqdır.

Tədbir 8.4.5: Heyvandarlığın inkişafı üçün dövlət dəstəyinin verilməsi ilə bağlı təkliflərin hazırlanması

Xarici ölkələrdən cins heyvanların idxal edilərək, güzəştli şərtlərlə yerli istehsalçılara satılması prosesi, habelə süni mayalanma yolu ilə alınan hər baş buzova görə verilən subsidiya tədbirinin davam etdirilməsi imkanlarına baxılacaqdır. Yüksək dağlıq ərazilərdə və qışlaqlarda mövcud fermer təsərrüfatları üçün stimullaşdırıcı tədbirlər nəzərdən keçiriləcəkdir. Belə ki, qoyunçuluqla məşğul olan fermer təsərrüfatlarına xüsusi dövlət dəstəyinin verilməsi mexanizminin texniki-iqtisadi əsaslandırması aparılacaqdır. Bu ərazilərdə torpağın vəziyyətinin yaxşılaşdırılması tədbirləri fermerlərlə birgə həyata keçiriləcək, ekoloji tələblərə əməl edən fermerlərin yerə görə icarə haqqından qismən azad olunması ilə bağlı layihələr nəzərdən keçiriləcəkdir. Həmçinin, kökəltmə fəaliyyəti ilə məşğul olan təsərrüfatlara dövlət dəstəyinin verilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırmalar aparılaraq təkliflər hazırlanacaqdır.

Tədbir 8.4.6: Çoxillik əkmələrin genişləndirilməsinin stimullaşdırılması

Dövlət büdcəsi vəsaitləri hesabına verilən güzəştli kreditlərin güzəşt şərtlərinin meyvə, üzüm və çay sahələrinin xüsusiyyətlərinə uyğunlaşdırılması, həmçinin çoxillik əkmələrin genişləndirilməsini stimullaşdırmaq üçün digər dövlət dəstəyi tədbirlərinə dair təkliflərin hazırlanması nəzərdən keçiriləcəkdir. Çoxillik bağların salınmasını təşviq etmək məqsədi ilə xərclərin bir hissəsinin ödənilməsi və ya uzunmüddətli güzəştli kreditlərin verilməsi mexanizmi üzrə texniki-iqtisadi əsaslandırmalar aparılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Aidiyyəti orqanlarla danışıqlar və məsləhətləşmələr nəticəsində bu prioritet üzrə nəzərdə tutulmuş tədbirlər həyata keçirilərsə, subsidiyaların diferensiallaşdırılmasına dair qiymətləndirmələr aparılacaq, bitkiçilikdə son məhsula görə subsidiya verilən məhsulların siyahısı genişləndiriləcək, regional xüsusiyyətlər nəzərə alınaraq, diferensial subsidiya mexanizmi formalaşdırılacaq, yüksək dağlıq ərazilərdə fermer təsərrüfatları üçün stimullaşdırıcı tədbirlər planı hazırlanacaq, xarici ölkələrdən cins heyvanların idxal edilərək kənd təsərrüfatı müəssisələrinə verilməsi prosesi davam etdiriləcək, kənd təsərrüfatı məhsulları istehsalçılarının dəstək mexanizmi təkmilləşdiriləcək və şəffaflaşdırılacaq, çoxillik bitki bağlarının salınması təşviq olunacaqdır. Ümumilikdə isə, yeni salınan bağların və istixanaların sahəsində 50 faiz artım olacaqdır.

Tələb edilən investisiya

Aidiyyəti orqanlarla tədbirlərin reallaşdırılması üçün razılıq əldə olunarsa, nəzərdə tutulan tədbirləri həyata keçirmək üçün tələb olunan investisiya məbləği müəyyən ediləcəkdir.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə dövlət büdcəsində kəsirin yarandığı və ya Azərbaycanın ÜTT-yə üzv olacağı təqdirdə subsidiyaların dayandırılması daxildir.

7.8.5. Prioritet 8.5. Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi sisteminin qurulması

Əsaslandırma

Azərbaycanda fermer təsərrüfatlarının fəaliyyətinin səmərəliliyinin real təhlilini aparmaq üçün etibarlı və əlçatan informasiyanı təmin edən təsərrüfat və regional səviyyəli informasiya şəbəkələri tam formalaşmamışdır. Bu isə ölkədə kənd təsərrüfatının inkişafı üçün qərar qəbul edilməsinə, kənd təsərrüfatı torpaqlarının şoranlaşmasının məhsuldarlığa təsirinin öyrənilməsinə, bu sahə ilə bağlı hərtərəfli təhlillərin aparılmasına, aqrar sahəyə yönəldilmiş dövlət dəstəyinin monitorinqinə problem yaradır.

Bu problemlərin həlli üçün aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi sistemi qurulacaqdır. Bu məqsədə nail olmaq üçün hazırda Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərən “Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi”nin respublikanı tam əhatə etməsini təmin etmək zəruridir. Sistemin köməyi ilə ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarından toplanan məlumatlar əsasında müvafiq təhlillər aparmaq və müxtəlif səpkili icmallar hazırlamaq mümkündür. Bu məlumatlardan:

- aqrar sahə ilə bağlı qəbul edilən proqramların monitorinqində;
- təsərrüfat səviyyəsində səmərəliliyin təhlili və qiymətləndirilməsində;
- istehsalın rentabelliyinin və məhsuldarlığın yüksəldilməsi üçün təkliflərin hazırlanmasında;
- kənd təsərrüfatı siyasətinə dair icra olunmuş tədbirlərin səmərəliliyinin qiymətləndirilməsində;
- kənd təsərrüfatı ilə bağlı digər iqtisadi təhlillərin aparılmasında;

- kənd təsərrüfatına vergi güzəştlərinin və subsidiyaların təsiri ilə bağlı təhlillərin aparılmasında istifadə oluna bilər.

"Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi"nin kənd təsərrüfatı məhsulları istehsalçıları üçün bir sıra faydaları olacaqdır. Belə ki, sistemə cəlb edilən təsərrüfatlara ilkin uçotun təşkili sahəsində yardım göstəriləcək, onlar hər il müntəzəm olaraq təsərrüfatları barədə illik iqtisadi təhlillər əldə edəcəklər. Məhsul istehsalçılarının istəyinə müvafiq olaraq onlara respublika və regional səviyyədə iqtisadi təhlillərin nəticələri veriləcək ki, bu da onlara öz təsərrüfatlarının göstəricilərini ölkədəki digər təsərrüfatlarla müqayisə etmək imkanı verəcəkdir. Qeyd edilən bu məsələlərin reallaşdırılması üçün ölkəni tam əhatə edən "Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi"nin yaradılması nəzərdən keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 8.5.1: Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə göstəricilər sisteminin və metodikasının hazırlanması

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanları ilə birlikdə və beynəlxalq məsləhətçilər cəlb edilməklə, aqrar siyasətin nəticələrinin iqtisadi, sosial və ekoloji məsələlər nəzərə alınmaqla, qiymətləndirilməsi üçün göstəricilər sistemi hazırlanacaqdır. Bu göstəricilər sistemi üzrə məlumatların toplanılması, monitorinqlərin aparılması, dövrilik, məsul qurumlar və s. məsələlərlə bağlı prosedurlar müəyyən olunacaqdır.

Tədbir 8.5.2: Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə hesabatların hazırlanması

Müəyyən olunmuş göstəricilər və metodika əsasında aqrar siyasətin nəticələri üzrə monitorinq və qiymətləndirmə hesabatları hazırlanacaq və bu hesabatlar aqrar siyasətin daha da təkmilləşdirilməsi ehtiyaclarının müəyyən olunmasında və bu istiqamətdə müvafiq təkliflərin hazırlanmasında istifadə olunacaqdır.

Tədbir 8.5.3: "Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi"nin fəaliyyətinin təkmilləşdirilməsi

Aqrar siyasətin nəticələrinin qiymətləndirilməsi baxımından mühüm alət kimi, Kənd Təsərrüfatı Nazirliyinin ölkənin bütün rayonlarını (Naxçıvan Muxtar Respublikası istisna olmaqla) əhatə edən "Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi"nin fəaliyyəti davam etdiriləcək, bu sistemin fəaliyyətinin daha da təkmilləşdirilməsi (məsələn, Naxçıvan Muxtar Respublikasını da əhatə etməsi, aidiyyəti dövlət orqanlarına təqdim olunmaq üçün müvafiq hesabatların hazırlanması, Sistemin unikal məlumat bazası əsasında tədqiqatların aparılması və s.) istiqamətində tədbirlər görüləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə təsərrüfat səviyyəsində səmərəliliyin təhlili və qiymətləndirilməsi üçün real məlumat əldə olunacaq, kənd təsərrüfatı siyasətinə dair icra olunmuş tədbirlərin səmərəliliyinin qiymətləndirilməsinə imkan verən informasiyalar əlçatan olacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində tədbirlərin əhatə dairəsini nəzərə alaraq, təxminən 300 min manat həcmində vəsaitin tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə bu sistemin maliyyələşdirilməməsi, kadr çatışmazlığı və kənd təsərrüfatı məhsulları istehsalçılarının bu sorğulara maraq göstərməməsi daxildir.

7.9. Strateji hədəf 9. Kənd yerlərində məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi

Kənd təsərrüfatı iqtisadi fəaliyyət növü olmaqla bərabər, həm həyat tərzi, həm də xalqımızın uzun illərdən bəri yaşatdığı təsərrüfatçılıq ənənəsidir. Kənd təsərrüfatının birinci dərəcəli funksiyası ərzaq məhsulları və xammal istehsalı olsa da, bu sahənin ekoloji tarazlığın təmin edilməsi, kənd bölgələrində sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi və kənd həyat tərzinin qorunması kimi mühüm funksiyaları da vardır.

Kənd təsərrüfatının inkişafı ilə bağlı kompleks yanaşmanın nəzərdə tutulduğu bu Strateji Yol Xəritəsində kənd bölgələrinin inkişafı, kənd yerlərində əhalinin layiqli məşğulluğunun təmin edilməsi və həyat səviyyəsinin yaxşılaşdırılması məsələlərinin həlli də öz əksini tapmışdır.

Kənd yerlərində qeyri-kənd təsərrüfatı sahələrində məşğulluğun səviyyəsinin artırılması üçün xüsusən kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi vacibdir. Yeni yaradılan “ABAD” publik hüquqi şəxsi kənd yerlərinin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin edəcəkdir. “ABAD” publik hüquqi şəxsi ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləməklə yanaşı kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıracaq, əhalinin məşğulluğunun artırılmasında əlavə imkanlar yaradacaqdır.

Bu strateji hədəfə nail olmaq üçün üç prioritet müəyyənləşdirilmişdir. İlk olaraq, kənd yerlərinin sosial-iqtisadi inkişaf siyasəti üzrə potensialın gücləndirilməsi hədəflənir. Prioritet çərçivəsində kənd yerlərinin kompleks inkişafı üzrə pilot layihələr hazırlanaraq icra ediləcək, kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə statistik baza və monitorinq sistemi yaradılacaqdır. Yerli özünüidarəetmə orqanlarının kəndlərin inkişafı, orada əhalinin məşğulluğunun təmin edilməsi, kəndlərin və kənd arxitekturasının qorunması, mədəni irsin ötürülməsi, kənd həyatı ənənələrinin saxlanılması və ənənəvi həyat tərzinin qorunması və s. məsələlərdə rolunun artması istiqamətində fəaliyyət gücləndiriləcəkdir.

İkinci prioritet kənd yerlərində alternativ fəaliyyət sahələrinin inkişafının dəstəklənməsi ilə bağlıdır. Bu prioritet kənd turizminin, ekoturizmin və digər qeyri-kənd təsərrüfatı istehsal sahələrinin inkişafına xidmət edəcəkdir.

Sonuncu prioritet çərçivəsində isə yerli icmaların kəndin inkişafına dair təşəbbüsləri dəstəklənəcəkdir. Buna uyğun olaraq, kənd yerlərində icma səviyyəli gəlir gətirən sektorlar təşviq ediləcək, kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakı təmin olunacaqdır.

7.9.1. Prioritet 9.1. Kənd yerlərinin sosial-iqtisadi inkişaf siyasəti üzrə potensialının gücləndirilməsi

Əsaslandırma

Hazırda ölkədə kənd yerlərinin inkişafı tədbirləri əsas etibarilə milli səviyyədə planlaşdırma metodologiyasına əsaslanan regional inkişaf siyasəti çərçivəsində həyata keçirilir. Bu çərçivədə kənd yerləri də əhatə olunmaqla, regionlarda sosial və fiziki infrastruktur sahələrinin inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, ümumilikdə isə əhalinin rifahının yüksəldilməsi istiqamətində böyükmiqyaslı işlər görülmüş və əhəmiyyətli sosial-iqtisadi nəticələr əldə olunmuşdur.

Növbəti mərhələdə isə kənd yerlərinin inkişafı tədbirlərinin planlaşdırılmasında və kənd yerlərinin resurslarından səmərəli istifadə olunmasında kənd icmalarının və yerli özünüidarəetmə orqanlarının daha aktiv fəaliyyəti təmin ediləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 9.1.1: Kənd yerlərinin kompleks inkişafı üzrə pilot layihələrin hazırlanması və icrası

Hazırda Azərbaycan hökumətinin beynəlxalq təşkilatlarla birgə maliyyələşdirməsi əsasında İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən icra olunan "Kənd yerlərinin kompleks inkişafı" layihələri təcrübəsi əsasında, ölkənin bütün iqtisadi regionlarında olmaqla, pilot layihələr hazırlanaraq həyata keçiriləcəkdir. Bu layihələr pilot ərazilərdə sosial və fiziki infrastruktur sahələrinin inkişafı və kənd yerlərində yaşayan əhalinin gəlirlərinin artırılmasına dəstək tədbirlərini əlaqələndirilmiş şəkildə özündə əks etdirəcəkdir. Bunun üçün müvafiq hüquqi baza yaradılacaq, həmçinin pilot layihələrdən əldə olunacaq təcrübə əsasında kənd yerlərinin inkişafı siyasətinin təkmilləşdirilməsi üçün təkliflər hazırlanacaqdır.

Tədbir 9.1.2: Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə statistik bazanın və monitorinq sisteminin yaradılması

Kənd yerlərinin sosial-iqtisadi inkişafı siyasətinin təkmilləşdirilməsi tədbirləri çərçivəsində kənd yerləri üzrə sistemli və əhatəli informasiya bazası, monitorinq sistemi yaradılacaqdır. Bu informasiya bazası kənd yerlərində rifah səviyyəsi, məşğulluğun strukturu, sosial xidmətlər və infrastrukturla təminat və digər bu kimi məsələləri əhatə edəcəkdir. Bunun əsasında kəndlər üzrə qısa, orta və uzunmüddətli inkişaf planlarının hazırlanması fəaliyyətinə başlanacaq və bu prosesdə yerli icmaların, bələdiyyələrin və yerli icra hakimiyyəti orqanlarının aktiv iştirakı təmin olunacaqdır.

Tədbir 9.1.3: Kənd yerlərinin sosial-iqtisadi inkişafı ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi

Kəndlər üzrə qısa, orta və uzunmüddətli inkişaf planlarının hazırlanması, bu prosesdə yerli icmaların, bələdiyyələrin və yerli icra hakimiyyəti orqanlarının aktiv iştirakı, kənd yerlərinin inkişafı tədbirlərinin icrası mexanizmləri və digər bu kimi məsələlərlə bağlı hüquqi bazanın təkmilləşdirilməsi ehtiyacları müəyyən olunacaq və təkliflər hazırlanacaqdır.

Tədbir 9.1.4: Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə dövlət proqramının hazırlanması

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramının icrası 2018-ci ildə başa çatdıqdan sonra kənd yerlərinin sosial-iqtisadi inkişafı konsepsiyası əsasında yeni dövlət proqramı hazırlanacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində institusional potensial gücləndiriləcək, milli səviyyədə planlaşdırma ilə kəndin inkişafı tədbirləri əlaqələndiriləcək, həyata keçirilən pilot layihələr əsasında təcrübə əldə olunacaqdır. Ölkədə kənd yerlərinin inkişafı məsələləri üzrə məlumat bazası və monitorinq sistemi qurulacaq, kəndlər üzrə qısa, orta və uzunmüddətli inkişaf planları hazırlanacaq, kənd yerlərinin inkişafı üzrə həyata keçirilən pilot layihələrin sayı 50 faiz artacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində tədbirlərin icrası üçün investisiyalar aidiyyəti qurumlar tərəfindən hesablanacaqdır.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə tədbirlərin bir çoxunun dövlət büdcəsindən asılılığı və müvafiq institusional bacarıqların kifayət qədər olmaması daxildir.

7.9.2. Prioritet 9.2. Kənd yerlərində alternativ fəaliyyət sahələrinin inkişafının dəstəklənməsi

Əsaslandırma

Azərbaycan Respublikasında rəqabətqabiliyyətli kənd təsərrüfatı sektorunun formalaşdırılması əsas hədəflərdən biridir. Rəqabətqabiliyyətli kənd təsərrüfatı sektorunun formalaşması bu sahənin məşğulluqdakı payının azalmasına və orada çalışanların gəlirlərinin artırılmasına xidmət edəcəkdir. Hazırda kənd təsərrüfatı üzrə orta aylıq nominal əmək haqqı respublika üzrə orta aylıq nominal əmək haqqından 2 dəfə azdır. Qarşıdakı illərdə həyata keçiriləcək siyasətlə kənd təsərrüfatı üzrə orta aylıq nominal əmək haqqının respublika üzrə orta aylıq nominal əməkhaqqı səviyyəsinə yaxınlaşdırılması planlaşdırılır.

Eyni zamanda, rəqabətqabiliyyətli kənd təsərrüfatı sektorunun formalaşması nəticəsində bu sahədə işini itirən şəxslərin məşğulluq probleminin də həlli vacibdir. Bunun üçün kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədi ilə alternativ fəaliyyət sahələrinin inkişaf etdirilməsi, əhalinin qeyri-kənd təsərrüfatı sahələrində məşğulluğunun stimullaşdırılması mühüm əhəmiyyətə malikdir. Bu, kənd yerlərində yaşayanların gəlir əldə etmə imkanlarını yaxşılaşdıracaq, gəncləri kənd yerlərində qalmağa həvəsləndirəcəkdir.

Qarşıdakı illərdə kənd turizminin, müxtəlif istiqamətli xidmət sahələrinin inkişaf etdirilməsi, məşğulluqda meşə təsərrüfatının rolunun artırılması (*"non-timber forestry"*) ilə bağlı layihələrin həyata keçirilməsi imkanları öyrəniləcək, həmçinin peşə hazırlığı, qadınların məşğulluğunun artırılması ilə bağlı xüsusi proqramların qəbulu və kənd yerlərində startapların genişləndirilməsi ilə bağlı tədbirlər görüləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 9.2.1: Kənd turizminin və ekoturizmin inkişaf etdirilməsi

Kənd turizmi və ekoturizm inkişaf etdiriləcək, respublikanın turizmin inkişafı ilə bağlı həyata keçirdiyi siyasətə uyğun olaraq turizm potensialı olan kəndlərə yönəlik layihələr həyata keçiriləcəkdir. Bu barədə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə daha ətraflı bəhs edilmişdir.

Tədbir 9.2.2: Qeyri-kənd təsərrüfatı istehsal sahələrinin inkişaf etdirilməsi

Kənd yerlərində qeyri-kənd təsərrüfatı istehsal sahələri inkişaf etdiriləcəkdir. Bu məqsədlə güzəştli kreditlər veriləcək, kənd yerlərində startapların genişləndirilməsi dəstəklənəcəkdir. Tədbir 9.2.1-də qeyd edilənləri də nəzərə alaraq, turistlərin tələbatına müvafiq istehsal sahələrinin – xalçaçılıq, misgərlik, qalayçılıq, dulusçuluq və saxsı məmulatlarının, bağçılıq-bostançılıq alətlərinin, xalq musiqi alətlərinin, oyuncaqların, suvenirlərin, qamışdan və qarğıdan məişət əşyalarının düzəldilməsi, keramika məmulatlarının bədii işlənməsi, ağac materiallardan məişət alətlərinin hazırlanması, həsir toxuculuğu, bədii tikmə, milli geyimlərin hazırlanması və s. ənənəvi fəaliyyət sahələrinin inkişafı dəstəklənəcəkdir.

Tədbir 9.2.3: Kənd yerlərində xidmət sahələrinin inkişaf etdirilməsi

Kənd yerlərində müxtəlif istiqamətli xidmət sahələri inkişaf etdiriləcək, ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara biznes planların hazırlanmasında dəstək veriləcəkdir. Xidmət sahələri üçün kadr hazırlamaq məqsədilə peşə hazırlığı gücləndiriləcəkdir. Belə ki, kəndlərdə təmir-tikinti işlərinə və sənətkarlara ehtiyac duyulduğu üçün kənd sakinlərinin özləri tərəfindən bu tələbatın ödənilməsinə şərait yaradılacaqdır. 9.2.1-ci və 9.2.2-ci tədbirdə qeyd edilənlər nəzərə alınaraq, turizm üçün xidmət sahələrinin inkişafı istiqamətində layihələr həyata keçiriləcəkdir.

Tədbir 9.2.4: Kənd yerlərində qadınların və gənclərin məşğulluğunun artırılması

Kənd yerlərində qadınların peşə hazırlığı gücləndiriləcək və onların məşğulluğunun artırılması ilə bağlı xüsusi proqram hazırlanacaqdır. Xüsusən də qadınların kənd turizminə xidmət edən ənənəvi sahələrdə (xalçaçılıq, suvenirlərin hazırlanması və s.) məşğulluğuna diqqət yetiriləcəkdir. Gənclərin kənddəki məşğulluq probleminin həlli və onların kənd təsərrüfatı ilə bağlı innovativ layihələrdə aktiv iştirakının təmin edilməsi üçün tədbirlər həyata keçiriləcək, cəbhə xəttinə yaxın kəndlərdə yaşayan gənclər üçün xüsusi proqramlar hazırlanacaqdır.

Tədbir 9.2.5: Yeni ailə qurmuş gənclərin mənzillə təminatının yaxşılaşdırılması

Kənd yerlərinin yaşayış üçün cəlbediciliyini artırmaq üçün mənzil tikintisinin stimullaşdırılması, xüsusilə də kənd yerlərində gənc ailələrin və gənc mütəxəssislərin mənzilə əlçatanlığının artırılması üçün tədbirlər həyata keçiriləcəkdir. Dövlətin sosial ipoteka siyasətindən kənd yerlərində yaşayan gənc ailələrin daha çox faydalanması üçün tədbirlər görüləcəkdir. Cəbhə xəttinə yaxın kəndlərdə yaşayan gənc ailələrin mənzil probleminin həllinə xüsusi yanaşma tətbiq olunacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə kənd turizmi, aqro-ekoturizm inkişaf etdiriləcək və bu sahə üzrə turistlərin sayı artacaqdır. Kənd yerlərində yeni xidmət

sahələri açılacaq, startaplar genişləndiriləcəkdir. Kəndə turizm məqsədilə gedənlərin sayı 2 dəfə artacaq, kənd yerlərində qeyri-kənd təsərrüfatı istehsal sahələrinin və orada işləyənlərin sayı 30 faiz, kənd təsərrüfatından kənar sahələrdə çalışan qadınların sayı 20 faiz artacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində tədbirlərin həyata keçirilməsi üçün investisiyalar aidiyyəti qurumlar tərəfindən hesablanacaqdır.

Gözlənilən risklər

Respublikanın şəhər əhalisinin qonşu ölkələrin daha sərfəli turizm məkanlarına üstünlük verməsi, kənd yerlərində xidmətin səviyyəsinin aşağı olması, eləcə də kənd yerlərində startapların yaradılması ilə bağlı yetərincə təcrübənin olmaması əsas risklərdən sayılır.

7.9.3. Prioritet 9.3. Yerli icmaların kəndin inkişafına dair təşəbbüslərinin dəstəklənməsi

Əsaslandırma

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsi" çərçivəsində dağ kəndlərinin icmalarının müraciəti əsasında yol və ya su xətti çəkilişləri həyata keçirilmişdir. 10 ildən artıq müddətdə icra olunan Kənd İnvestisiya Layihəsi çərçivəsində 1800-ə yaxın sosial və iqtisadiyönümlü infrastruktur layihəsi icra olunmuşdur. Bu müddətdə kənd icmaları ilə iş sahəsində müəyyən təcrübə əldə edilmişdir.

Qarşıdakı illərdə inklüzivliyin təmin edilməsi məqsədilə yerli icmaların kəndin inkişafı ilə bağlı təşəbbüslərinin dəstəklənməsi, gənclərin fəallığının artırılması, həmçinin bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı öhdəliklərinin artırılması, onların kəndin sosial-iqtisadi inkişafı ilə bağlı təşəbbüslərinin dəstəklənməsi istiqamətində tədbirlər görüləcəkdir. Kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi, təhsil aldıqdan sonra gənclərin kəndə qayıdışının təşviqi ilə bağlı proqramlar həyata keçiriləcəkdir. Gənc fermerlərin formalaşdırılması və kənd icmalarının kəndin inkişafı ilə bağlı təşəbbüslərinin stimullaşdırılması üçün tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 9.3.1: Bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı öhdəliklərinin artırılması

Bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı təşəbbüsləri dəstəklənəcək, onların bu sahədə daha aktiv fəaliyyət göstərməsi ilə bağlı tədbirlər planı hazırlanacaqdır. Pilot kənd bələdiyyələrinin seçimi əsasında kəndin inkişaf modeli yaradılacaq və həmin modelin təbliği həyata keçiriləcəkdir.

Tədbir 9.3.2: Kənd yerlərində icmasəviyyəli gəlir gətirən sektorların təşviqi və dəstəklənməsi

Kənd yerlərində icmaların gücləndirilməsi üçün icmasəviyyəli gəlir gətirən sektorlar təşviq ediləcək və müvafiq qurumlar tərəfindən bu işə dəstək göstəriləcəkdir.

Tədbir 9.3.3: Kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi

Kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi ilə bağlı proqramlar həyata keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə bələdiyyələr kəndin sosial-iqtisadi inkişafında daha aktiv rol oynayacaq, yeni iş yerləri yaradılacaq, qadınların və gənclərin kəndin sosial-ictimai həyatında fəal iştirakını təmin edən proqramların sayı çoxalacaq, təhsil aldıqdan sonra kəndə qayıdan gənclərin sayı artacaqdır. Kənddə bələdiyyələrin açdığı iş yerlərinin sayı 30 faiz, kənddəki qadınların və gənclərin inkişafına yönəldilmiş proqramların sayı 3 dəfə artacaqdır.

Tələb edilən investisiya

Prioritet çərçivəsində tədbirlərin həyata keçirilməsi üçün tələb edilən investisiyalar aidiyyəti qurumlar tərəfindən hesablanacaqdır.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə tədbirlərin maliyyələşdirilməsi üçün yetərli vəsaitin olmaması, qadınların və gənclərin kəndin sosial-ictimai həyatı ilə bağlı proqramlara kifayət qədər maraq göstərməməsi, kənddə əməkhaqqının aşağı olması və kənd təsərrüfatından kənar sahələrdə məşğulluq imkanlarının az olması daxildir.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 1170 milyon manat investisiya tələb olunur. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin vəsaitləri
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- Azərbaycan İnvestisiya Şirkətinin vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- qiymətli kağızlar, o cümlədən səhm və istiqrazlar, törəmə maliyyə alətləri;
- yerli kreditlər və qrantlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitinin müəyyən edilmiş strateji hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflər ilə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin, tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimi və tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şəraiti yaradacaq, tələb olunduqda kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu ("delivery unit") müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkil olunmasının təmin edilməsinə və zəruri hallarda əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.
- İcraya rəhbərlik, eləcə də tələb olunan resurslara və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün strateji prioritetlər üzrə təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi

məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurla tətbiq olunması üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb olunması tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədi ilə, özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlar ilə işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.
- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlilini və qiymətləndirilməsini, həmçinin, işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar/Tövsiyə	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. Ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi					
1.1. Ərzaq təhlükəsizliyinin dayanıqlılığı və əhalinin ərzağa əlyetərliyi ilə bağlı məlumat və monitorinq sisteminin qurulması					
1.1.1.	Ərzaq Təhlükəsizliyi Komissiyasının yaradılması imkanlarının dəyərləndirilməsi	Nazirlər Kabineti	Aidiyyəti dövlət orqanları	• ərzaq təhlükəsizliyi üzrə vahid məlumat bazasının formalaşdırılması; • ərzaq təhlükəsizliyi ilə bağlı sistemləşdirilmiş məlumatlara çıxışın təmin edilməsi; • beynəlxalq normalara uyğun fizioloji istehlak normalarının işlənib hazırlanması; • hər bir regionun və inzibati rayonun ərzaq məhsulları üzrə tələbatının dəqiqləşdirilərək ərzaq ehtiyatlarının çeşid və həcm göstəriciləri üzrə yaxın, orta və uzunmüddətli proqnozların hazırlanması;	2017
1.1.2.	Ölkədə ərzaq məhsulları ilə təchizatın dayanıqlılığı baxımından risklərin qiymətləndirilməsi məqsədilə mütəmadi monitorinqlərin aparılması	Nazirlər Kabineti	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi, yerli icra hakimiyyəti orqanları		2017–2020
1.1.3.	Rasional fizioloji normaların hazırlanaraq təsdiq olunması, bunun əsasında əhalinin ərzaq məhsulları üzrə cari və perspektiv tələbatının həcmi və ödənilməsi səviyyəsinin mütəmadi təhlili və qiymətləndirilməsi sisteminin qurulması	Nazirlər Kabineti	Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, yerli icra hakimiyyəti orqanları		2018
1.1.4.	Əhalinin müxtəlif təbəqələrinin ərzağa əlyetərliyi səviyyəsi və buna təsir edən amillərin qiymətləndirilməsi məqsədilə monitorinq sisteminin qurulması	Dövlət Statistika Komitəsi	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi,		2018

			yerli icra hakimiyyəti orqanları	• ərzaq təhlükəsizliyi sahəsində görülən işlərin vahid mərkəzdən koordinasiya edilməsi.	
1.1.5.	Ərzaq məhsullarının istehsalı, idxalı, ehtiyatları və ticarət axınları üzrə vahid elektron informasiya portalının yaradılması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi, "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC, yerli icra hakimiyyəti orqanları		2017
1.2. Əhalinin bütün təbəqələrinin etibarlı ərzaq təminatına nail olunması mexanizmlərinin formalaşdırılması					
1.2.1.	Ərzağa əlyetərliyin təmin edilməsi məqsədilə ərzaq ehtiyatlarının formalaşdırılması	Fövqəladə Hallar Nazirliyi	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC, yerli icra hakimiyyəti orqanları	• ölkənin mövcud və perspektiv tələbatına uyğun ərzaq ehtiyatlarının formalaşdırılması; • əhalinin bütün sosial qruplarında istehlak normalarına uyğun qidalanma səviyyəsinin təmin edilməsi.	2017–2020
1.2.2.	Əhalinin bütün qruplarının ərzaq təminatının yaxşılaşdırılması üçün mexanizmlərin müəyyənləşdirilməsi	Nazirlər Kabiineti	İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC, yerli icra hakimiyyəti orqanları		2018
1.2.3.	Fövqəladə vəziyyət şəraitində əhalinin ərzaq məhsulları ilə təmin edilməsi imkanlarının genişləndirilməsi	Fövqəladə Hallar Nazirliyi	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi,		2017–2020

			“Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC, yerli icra hakimiyyəti orqanları		
1.3. Dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması					
1.3.1.	Mövcud qanunvericiliyin qabaqcıl beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları	• qida təhlükəsizliyinə nəzarət sahəsində təkrarlanmaların aradan qaldırılması; • qida təhlükəsizliyi üzrə koordinasiyanın gücləndirilməsi; • dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və riskəsaslı yanaşmaya əsaslanan qida təhlükəsizliyi sisteminin yaradılması; • bitkilərin sağlamlığı və pestisidlərə nəzarət üzrə monitorinq və müşahidə proseslərinin genişləndirilməsi; • heyvanların sağlamlığı və	2017-2018
1.3.2.	Qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətində paralelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2019
1.3.3.	Yeyinti məhsullarının istehsalı, emalı, saxlanılması, daşınması və ticarəti üzrə standartların beynəlxalq tələblərə uyğunlaşdırılması	Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2019–2020
1.3.4.	Qida təhlükəsizliyi sisteminə daxil olan laboratoriyalar şəbəkəsinin optimallaşdırılması, modernləşdirilməsi və akkreditasiyadan keçirilməsi və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
1.3.5.	Qida təhlükəsizliyi sahəsinə ictimai nəzarət	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi,		2019–2020

	mexanizmlərinin təkmilləşdirilməsi		QHT-lərə Dövlət Dəstəyi Şurası, yerli icra hakimiyyəti orqanları	xəstəliklərə nəzarət üzrə monitorinq və müşahidə proseslərinin təkmilləşdirilməsi; ● yeyinti məhsullarına dair Kodeks Alimentariusun tələblərinə uyğunlaşmanın reallaşdırılması; ● baytarlıq-sanitariya və sanitariya-epidemioloji tələblərə uyğun ət kəsimi və satışı mərkəzlərinin yaradılmasının təmin olunması; ● ərzaq məhsullarının təhlükəsizlik standartlarının beynəlxalq standartlara uyğunlaşdırılması; ● ÜTT-yə üzv olunarsa, beynəlxalq bazarlara çıxışla əlaqədar daha geniş imkanların yaranması.	
1.3.6.	Sağlam qidalanmanın təşviq edilməsi	Səhiyyə Nazirliyi	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2018–2020
Strateji hədəf 2. Kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə artırılması					

2.1. Həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə istehsal potensialının gücləndirilməsi					
2.1.1.	İntensiv üsulla salınan meyvə bağları (xüsusilə nar, xurma, gilas, alma, fındıq və digər qərzəkli meyvələr) və üzüm plantasiyalarının genişləndirilməsinin təşviqi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları	• 2020-ci ildə real ÜDM-in 220 milyon manat birbaşa və 230 milyon manat dolayı olmaqla, ümumilikdə 450 milyon manat artırılması.	2017–2020
2.1.2.	Təzə kartof istehsalının artırılmasının dəstəklənməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.1.3.	Örtülü torpaqlarda, o cümlədən istixanalarda faraş tərəvəz istehsalının artırılmasının dəstəklənməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.1.4.	Regionlarda kiçik və orta ölçülü meyvə-tərəvəz məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinın stimullaşdırılması	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.1.5.	Qurudulmuş və dondurulmuş meyvə-tərəvəz məhsulları istehsalının artırılmasının dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.1.6.	Pambıq, tütün və barama istehsalının artırılmasının təşviqi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.1.7.	İxracda ənənəvi olmayan və son dövrlər ixracına başlanılan məhsullar (cins heyvanlar, süd məhsulları, ət konservləri, arpa	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018

	və s.), eləcə də digər ixrac potensiallı hesab edilən məhsullar (zəfəran, yun, gön-dəri, təbii bal, çaytikanı yağı, qoz yağı, biyan kökü, zəfəran və s.) üzrə ixrac imkanlarının dəyərləndirilməsi				
2.2. İdxalı əvəz etmək potensialı olan kənd təsərrüfatı və emal sənayesi məhsulları istehsalının artırılmasının təşviqi					
2.2.1.	İntensiv ferma modeli əsasında iri heyvandarlıq komplekslərinin yaradılmasının təşviqi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● intensiv ferma modeli hesabına iribuynuzlu heyvanların baş sayının 10 faiz azaldılması, südün məhsuldarlığının 50 faiz yüksəldilməsi, ət istehsalının 20 faiz, süd istehsalının 30 faiz artırılması; ● ət və süd məhsullarının emalı sənayesində məhsul istehsalının 25 faiz artırılması; ● ərzaqlıq buğda istehsalının həcminin məhsuldarlıq və keyfiyyət göstəriciləri yüksəldilməklə artırılması;	2017–2018
2.2.2.	Ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması ilə bağlı İmişli, Bərdə və Ağcabədi rayonlarında həyata keçirilən pilot layihənin təcrübəsinin digər regionlarda tətbiq edilməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.2.3.	Sənaye üsulu ilə quş əti istehsalının müxtəlif seqmentlərin tələbatları üzrə genişləndirilməsinin stimullaşdırılması	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.2.4.	Regionlarda kiçik və orta ölçülü ət və süd məhsulları emalı müəssisələri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020

2.2.5.	Arıçılıq, balıqçılıq o cümlədən akvakultura sahəsində inkişafın dəstəklənməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları	• çay plantasiyalarının 2 dəfə genişləndirilməsi; • tütün məmulatlarının idxalının 50 faiz azaldılması; • pambıq istehsalı, eləcə də emalı sahəsində istehsal həcminin ən azı 4 dəfə artırılması; • barama istehsalı, eləcə də emalı sahəsində istehsal həcminin ən azı 1000 dəfə artırılması.	2017–2020
2.2.6.	Ərzaq təyinatlı yumşaq və bərk buğda və digər dənli paxlalı bitkilər istehsalının həcminin artırılmasının dəstəklənməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.2.7.	Şəkər çuğunduru və şəkərli-qənnadı məmulatlarının yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
2.2.8.	Bitki yağları istehsalında istifadə olunan xammalın (günəbaxan, qarğıdalı, zeytun və s.) yerli istehsalının artırılması imkanlarının qiymətləndirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
2.2.9.	Çay plantasiyalarının genişləndirilməsinin stimullaşdırılması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.2.10.	Tütün məmulatlarının istehsalının artırılmasının stimullaşdırılması	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.2.11.	Pambıq, barama, yun, gön-dəri xammalı məhsullarının emalı sənayesinin inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.3. Kənd təsərrüfatında fermer tərəfdaşlığının formalaşdırılması və kooperasiyanın inkişafı					
2.3.1	Kənd təsərrüfatı kooperasiyası haqqında qanunun qəbulu	Azərbaycan Respublikasının Milli Məclisi		• kənd təsərrüfatı məhsulları istehsalçıları	2016, icra edilib

	Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları	arasında təşkilatlanma və müxtəlif istiqamətlərdə əməkdaşlığın gücləndirilməsi; ● iri təsərrüfatların yaradılması prosesinin sürətlənməsi; ● kooperativlərin, assosiasiyaların, birliklərin yaradılması prosesinin sürətləndirilməsi; ● məhsul istehsalında bu tipli təsərrüfatların xüsusi çəkisinin 30 faiz artırılması.	2017
2.3.2.	Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi üçün stimullaşdırıcı tədbirlərin müəyyən olunması və tətbiqi imkanlarının araşdırılması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2018–2020
2.3.3.	Kənd təsərrüfatı sahəsində kooperasiyanın inkişaf etdirilməsi istiqamətində məlumatlandırma işlərinin aparılması və informasiya məsləhət xidmətlərinin göstərilməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyya Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
2.4. Kompleks layihələrin həyata keçirilməsi üçün dövlət-özəl tərəfdaşlığının inkişafı					
2.4.1.	Dövlət-özəl tərəfdaşlığının inkişafı üçün dəstək mexaniziminin müəyyən edilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● 2020-ci ildə real ÜDM-in 70 milyon manat birbaşa, 60 milyon manat dolayı olmaqla, ümumilikdə 130 milyon manat artırılması; ● birbaşa və dolayı yolla 7250 iş yerinin yaradılması.	2017–2018
2.4.2.	Maliyyə dəstəyinin növünün və səviyyəsinin müəyyən edilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatl Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
2.4.3.	Dövlət-özəl investisiya fondunun yaradılması imkanlarının dəyərləndirilməsi	İqtisadiyyat Nazirliyi	Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2018

2.4.4.	Dəstək paketi üzrə fəaliyyəti tənzimləyən normativ hüquqi bazanın yaradılması	İqtisadiyyat Nazirliyi	Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2019
2.4.5.	Dəyər zəncirləri üzrə investisiya təşviqi sənədinin hazırlanması	İqtisadiyyat Nazirliyi	Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2019
2.4.6.	Fəaliyyətin icra mərhələlərinin müəyyən edilməsi	İqtisadiyyat Nazirliyi	Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2020
2.5. Aqrobiznesin inkişafına dəstək infrastrukturunun formalaşdırılması					

2.5.1.	Aqropark (aqrar sənaye klasterləri də daxil edilməklə) şəbəkəsinin formalaşdırılmasının dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları	• 2017-ci ildə aqropark və biznes inkubatorları üçün idarəetmə strukturunun formalaşdırılması; • 2018-ci ilin sonunadək yeni aqroparkın və biznes inkubatorunun yaradılması və fəaliyyətə başlaması üçün zəruri bütün tədbirlərin yekunlaşdırılması; • 2020-ci ildə bir aqroparkın real ÜDM-ə 135 milyon manat birbaşa, 220 milyon manat dolayı olmaqla, ümumilikdə	2017–2020
2.5.2.	Sənaye məhəllələrinin yaradılmasının dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020

2.5.3.	Aqrobiznes inkubatorlarının yaradılmasının dəstəklənməsi	Kənd Təsərrüfatı Nazirliyi	Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları	355 milyon manat təsirinin təmin olunması; ● aqroparkın 2018-ci ilədək fəaliyyətə başlaması və bu müəssisələrdə 7725 nəfər üçün birbaşa və dolayı məşğulluq imkanlarının yaradılması; ● 2020-ci ilədək hər regionda uyğun məhsulların dəyər zənciri üzrə ümumilikdə 25 kiçik və orta sahibkarlıq subyektinin yaradılması.	2017–2020
Strateji hədəf 3. Maliyyəyə çıxışın asanlaşdırılması					
3.1. Kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi					
3.1.1.	Kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● əlavə 665 milyon manat həcmində maliyyə vəsaitlərinə çıxış imkanının yaradılması; ● kredit zəmanət fondunun	2017
3.1.2.	Kredit zəmanət fondunun yaradılması imkanlarına baxılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi,		2017–2018

			yerli icra hakimiyyəti orqanları	yaradılmasının nəzərdən keçirilməsi; ● 2020-ci ildə real ÜDM-ə 115 milyon manat birbaşa və 95 milyon manat dolayı olmaqla, ümumilikdə 210 milyon manat təsirin olması.	
3.1.3.	Kənd təsərrüfatında innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
3.1.4.	Kreditlər üçün girov bazasının genişləndirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
3.1.5.	Kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, yerli icra hakimiyyəti orqanları		2017–2020
3.1.6.	Aqrar sektora təsir edən risklərin idarəolunması üzrə mexanizmlərin hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
3.1.7.	Kredit təşkilatlarının vəsaitlərinin kənd təsərrüfatı sektorunun kreditləşməsinə yönəldilməsinin stimullaşdırılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
3.2. Aqrar sığortanın inkişaf etdirilməsi					
3.2.1.	Kənd təsərrüfatında sığorta sistemi ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● Sığorta Hadisələri Reyestrinin yaradılması;	2017

3.2.2.	Kənd təsərrüfatı sahəsi üzrə sığorta fondunun yaradılması imkanlarının dəyərləndirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	• Aqrar Sığorta Fondunun yaradılmasının nəzərdən keçirilməsi; • sığortalanan kənd təsərrüfatı məhsulları istehsalçılarının ümumi sayının ən azı 3 dəfə artırılması.	2018
3.2.3.	Sığorta Hadisələri Reyestrinin hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
3.2.4.	Karantin rejiminin tətbiqi ilə bağlı kənd təsərrüfatı istehsalçılarına dəymiş maddi zərərin ödənilməsi mexanizminin yaradılması	Kənd Təsərrüfatı Nazirliyi	Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017
3.2.5.	Kənd təsərrüfatı məhsulları istehsalçılarının sığorta savadlılığının artırılması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, yerli icra hakimiyyəti orqanları		2017–2020
3.3. Aqrar sahəyə investisiya qoyuluşlarının təşviq edilməsi					
3.3.1.	Aqrar investisiya ehtiyaclarının qiymətləndirilməsi və investisiya layihələrinin hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları	• aqrar sahəyə cəlb edilən investisiyaların həcminin 2 dəfə artırılması; • inzibati rayonlar və sahələr üzrə ən azı 100 investisiya layihəsinin hazırlanması.	2017–2018
3.3.2.	Aqrar sahədə investisiya mühitinin yaxşılaşdırılması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
Strateji hədəf 4. Kənd təsərrüfatı sahəsi üzrə istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminatın yaxşılaşdırılması					
4.1. Torpaq bazarının inkişaf etdirilməsi					

4.1.1.	Kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsi ilə bağlı prosedurların sadələşdirilməsi üçün “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanunun qəbulu	Azərbaycan Respublikasının Milli Məclisi		● istifadəsiz kənd təsərrüfatına yararlı torpaq sahələrinin əkin dövriyyəsinə qaytarılması hesabına ümumi əkin sahələrinin həcminin 5 faiz artırılması.	2016, icra edilib
	Kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqı, icarə və istifadəyə verilməsi ilə bağlı prosedurların sadələşdirilməsi və bu sahədə şəffaflığın artırılması	Əmlak Məsələləri üzrə Dövlət Komitəsi	Ədliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
4.1.2.	Kənd təsərrüfatına yararlı torpaqların istifadəsiz saxlanılmasının qarşısını almaq üçün müvafiq mexanizmlərin tətbiqi	Əmlak Məsələləri üzrə Dövlət Komitəsi	Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
4.1.3.	Torpaqların konsolidasiyası istiqamətində tədbirlərin görülməsi	Kənd Təsərrüfatı Nazirliyi	Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, Ekologiya və Təbii Sərvətlər, yerli icra hakimiyyəti orqanları		2017–2020
4.2. İstehsalçıların suvarma suyu ilə təminatının yaxşılaşdırılması					
4.2.1.	Suvarma suyuna olan tələbatın öyrənilməsi	Kənd Təsərrüfatı Nazirliyi	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC, yerli icra hakimiyyəti orqanları	● Kənd təsərrüfatı məhsulları istehsalçılarının suvarma suyu ilə	2017

4.2.2.	Suvarma suyu ilə təminatın yaxşılaşdırılması	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	təminatının 20 faiz artılması.	2017–2020
4.2.3.	Müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	"Aqrolizinq" ASC, yerli icra hakimiyyəti orqanları		2017–2020
4.2.4.	Sudan İstifadəedənlər Assosiasiyalarının fəaliyyətinin genişləndirilməsi	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
4.3. Kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika, maşın və avadanlıqlarla təminatının yaxşılaşdırılması və aqroservis xidmətləri bazarının inkişaf etdirilməsi					
4.3.1.	Kənd təsərrüfatı texnikası parkının inkişaf etdirilməsi	"Aqrolizinq" ASC	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● Kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika, maşın və avadanlıqlarla, eləcə də kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatının 20 faiz artırılması; ● innovativ texnika və avadanlıqlardan istifadənin genişləndirilməsilə, özəl aqroservis xidmətləri göstərən şirkətlərin payının 70 faizə çatdırılması.	2017–2020
4.3.2.	İnnovativ, eləcə də kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təminatın yaxşılaşdırılması	"Aqrolizinq" ASC	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
4.3.3.	Aqroservis xidmətləri bazarının inkişaf etdirilməsi	"Aqrolizinq" ASC	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
4.4. Toxum və ting bazarının inkişaf etdirilməsi və yerli istehsal potensialının gücləndirilməsi					

4.4.1.	Toxum və ting istehsalının təşviq edilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları	• vahid sertifikatlaşdırma sisteminin yaradılması; • toxumçuluq laboratoriyalarının akkreditasiyadan keçirilməsi; • kənd təsərrüfatı məhsulları istehsalçıları üçün elektron məlumat bazasının qurulması; • keyfiyyətə nəzarət edən vahid sistemin yaradılması; • kənd təsərrüfatı məhsulları istehsalçılarının sertifikatlı toxumlardan, eləcə də tinglərdən istifadə səviyyəsinin 90 faizə çatdırılması.	2017–2020
4.4.2.	Toxum və ting istehsalında keyfiyyətə nəzarət sisteminin yaradılması və sertifikatlaşdırma mexanizminin təkmilləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020
4.4.3.	Elektron məlumat bazasının yaradılması	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2018
4.4.4.	Toxumçuluq laboratoriyalarının fəaliyyətinin təkmilləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020
4.5. Gübrə və bitki mühafizə vasitələri ilə təminatın yaxşılaşdırılması					
4.5.1.	Gübrəyə olan tələbatın müəyyən edilməsi	“Aqrolizinq” ASC	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	• kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən mineral gübrələrdən istifadənin 25 faiz,	2017
4.5.2.	Gübrələrdən istifadənin təşviq edilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020

4.5.3.	Bitki mühafizə vasitələrilə təminatın yaxşılaşdırılması	“Aqrolizinq” ASC	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● bioloji gübrələrdən istifadənin 10 faiz artırılması; ● bitki mühafizəsi vasitələrindən istifadənin 25 faiz artırılması; ● bioloji bitki mühafizəsi vasitələrindən istifadənin 10 faiz artırılması.	2017–2020
4.5.4.	Gübrə və bitki mühafizə vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020
4.5.5.	Gübrə istehsalında yerli istehsalın təşviq olunması	İqtisadiyyat Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020
4.6. Heyvandarlığın qarışıq qüvvəli yem ilə təminatının yaxşılaşdırılması və damazlıq işinin inkişaf etdirilməsi					
4.6.1.	Qarışıq qüvvəli yem bazarının strukturunun öyrənilməsi və bu sahənin inkişaf etdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları	● Heyvandarlığın qüvvəli yemlərlə təminat səviyyəsinin 20 faiz artırılması; ● heyvandarlıqda məhsuldar cinslərin sayının 25 faiz artırılması.	2017–2020
4.6.2.	Süni mayalandırma və embrion köçürmə metodundan istifadənin genişləndirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020
4.6.3.	Damazlıq quşçuluğun inkişafının dəstəklənməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
4.7. Kənd təsərrüfatı məhsulları istehsalçılarının baytarlıq və fitosanitar xidmətləri ilə təminatının yaxşılaşdırılması					
4.7.1.	Özəl baytalıq şəbəkəsinin inkişaf etdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● heyvan və bitki xəstəlikləri üzrə risklərin idarə edilməsi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması; ● özəl baytarlıq xidməti göstərənlərin	2018–2019
4.7.2.	Heyvanların sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin yaradılması	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2018–2019
4.7.3.	Bitkilərin sağlamlığının izlənilməsi və nəzarəti üzrə effektiv sistemin yaradılması	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2018–2019
4.7.4.	Bitki mühafizəsi sahəsində inteqrir mübarizə tədbirləri	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2018–2019

	sistemlərinin hazırlanması və tətbiq edilməsi			sayının 30 faiz artırılması.	
4.7.5.	Baytarlıq və fitosanitar xidmətləri üzrə laboratoriyaların modernləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2018–2019
Strateji hədəf 5. Kənd təsərrüfatı sahəsində elm, təhsil və informasiya-məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi					
5.1. Aqrar təhsilin keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidinin təmin edilməsi					
5.1.1.	Aqrar sahədə ali təhsilin inkişaf etdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	Təhsil Nazirliyi	● Bütün aqraryönümlü ixtisaslar üzrə ali təhsil müəssisələrində təhsilalanların sayının 20 faiz artırılması; ● bütün aqraryönümlü peşələr üzrə təhsil alanların sayının 20 faiz artırılması; ● beynəlxalq konfranslarda, seminarlarda, ixtisasartırma kurslarında iştirak edən aqrar təhsil müəssisələrinin müəllim və tədqiqatçıların sayının 30 faiz artırılması.	2017–2020
5.1.2.	Aqrar sahədə peşə təhsilinin inkişaf etdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	Təhsil Nazirliyi		2017–2020
5.1.3.	Aqrar təhsil müəssisələri ilə kənd təsərrüfatı məhsulları istehsalçıları və emalı müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində tədbirlərin işlənib hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi	Təhsil Nazirliyi		2017–2020
5.2. Kənd təsərrüfatında elmi tədqiqatların planlaşdırılması, aparılması və nəticələrin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi					

5.2.1.	Kənd təsərrüfatı sahəsində elmi tədqiqatların prioritetlərinin müəyyən olunması və nəticəyönümlülüyünün artırılması	Kənd Təsərrüfatı Nazirliyi		● aqrar sahədə aparılan fundamental və praktiki elmi tədqiqatların sayının 20 faiz artırılması; ● elmi tədqiqatların nəticəsi olaraq növbəti illərdə (2018-ci ildən etibarən) beynəlxalq jurnallarda çap olunan məqalələrin sayının 25 faiz artırılması.	2017–2020
5.2.2.	Elmi tədqiqatların aparılmasının təşviqi mexanizminin işlənib hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi	Maliyyə Nazirliyi		2017–2020
5.2.3.	Kənd təsərrüfatı profilli elmi tədqiqat institutlarının müasir laboratoriya, cihaz və avadanlıqlarla təminatının yaxşılaşdırılması	Kənd Təsərrüfatı Nazirliyi			2017–2020
5.2.4.	Elmi tədqiqatların nəticələrinin informasiya-məsləhət xidmətləri vasitəsilə fermerlərə ötürülməsinin təmin edilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020
5.3. Aqrar sahənin ehtiyaclarına cavab verən informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması					
5.3.1.	Aqrar sahədə informasiya-məsləhət xidmətlərini tənzimləyən mexanizmin hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi		● ölkədə kənd təsərrüfatında işlək informasiya-məsləhət xidmətləri sisteminin formalaşdırılması; ● informasiya-məsləhət xidmətləri təklif edən subyektlərin əhatə dairəsinin bütün bölgələri əhatə	2017
5.3.2.	AEİMM-in fəaliyyət mexanizminin təkmilləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi			2017–2020
5.3.3.	Ölkəni əhatə edən məsləhətçilər şəbəkəsinin yaradılması	Kənd Təsərrüfatı Nazirliyi	"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC, yerli icra hakimiyyəti orqanları		2017–2020

5.3.4.	Elektron, media və çap informasiya məsləhət xidmətləri sisteminin yaradılması	Kənd Təsərrüfatı Nazirliyi	"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC	etməsinin təmin olunması; ● istehsalçılar üçün əlçatan olan elektron, media və çap informasiya-məsləhət xidmətləri sisteminin qurulması.	2017–2020
5.3.5.	İnformasiya-məsləhət mərkəzlərinin maliyyə dayanıqlılığının artırılması	Kənd Təsərrüfatı Nazirliyi	Maliyyə Nazirliyi		2017–2020
5.3.6.	İstehsal vasitələri təchizatçıları, emal müəssisələri və maliyyə institutları vasitəsilə istehsalçılara informasiya məsləhət xidmətlərinin göstərilməsi imkanlarının dəyərləndirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC, yerli icra hakimiyyəti orqanları		2017–2020
Strateji hədəf 6. Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişafı və istehsalçıların bazarlara çıxışının asanlaşdırılması					
6.1. Kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi					
6.1.1.	Regionlarda meyvə, tərəvəz, kartof və bostan məhsulları üzrə topdansatış və logistika xidmətlərini həyata keçirən bazar infrastrukturu obyektlərinin qurulması	"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● ət kəsiminin 90 faizinin baytarlıq-sanitariya standartlarına uyğun məntəqələrdə aparılması; ● paytaxtda və iri şəhərlərdə 5 "yaşıl market"in və 50 "fermer mağazası"nın qurulması; ● anbarların ümumi tutumunun ölkədə	2017–2020
6.1.2.	Paytaxt və regionlarda müasir standartlara uyğun ət kəsimi məntəqələri şəbəkəsinin qurulmasının dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
6.1.3.	Meyvə, tərəvəz, kartof və bostan məhsullarının saxlanılması üçün kiçik və orta	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC,		2017–2020

	həcmli soyuducu anbarların yaradılmasının dəstəklənməsi		yerli icra hakimiyyəti orqanları	istehsal edilən meyvə-tərəvəz məhsullarının həcminə nisbətinin 30 faizə çatdırılması.	
6.1.4.	Taxılçılıq regionlarında kiçik və orta həcmli taxıl anbarlarının yaradılmasının dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
6.1.5.	“Yaşıl market”lər və “fermer mağazası” şəbəkələrinin yaradılmasının dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
6.1.6.	Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satış qiymətləri üzrə elektron məlumat bazasının təkmilləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi			2017-2018
6.1.7.	Yükdaşıma xidmətlərinin inkişaf etdirilməsi üçün ehtiyacların müəyyən olunması və tədbirlərin görülməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, Nəqliyyat Nazirliyi, “Azərbaycan dəmir yolları” ASC, yerli icra hakimiyyəti orqanları		2017–2020
6.2. Kənd təsərrüfatı məhsulları üzrə bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi					
6.2.1.	Kənd təsərrüfatı məhsullarının daxili bazardakı ticarəti üzrə uçot göstəriciləri ilə bağlı tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi	Vergilər Nazirliyi	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi; ● bütün kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxışının asanlaşdırılması;	2017–2018
6.2.2.	“Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin yaradılması	Azərbaycan Respublikasının Prezidentinin Administrasiyası			2016, icra edilib
	Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə tədarük sisteminin inkişaf etdirilməsi	“Ərzaq məhsullarının	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi,		2017–2020

		tədarükü və təchizatı” ASC	yerli icra hakimiyyəti orqanları	• kənd təsərrüfatı məhsullarının sahədən satış qiyməti ilə son istehlakçı bazarındakı qiyməti arasındakı fərqin maksimum 50 faiz təşkil etməsi.	
6.2.3.	Bazar şərtlərinin əlverişsiz olduğu hallar üzrə intervensiya tədbirləri sisteminin qurulması	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC, yerli icra hakimiyyəti orqanları		2017–2020
6.2.4.	Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə daxili bazarın ədalətsiz ticarət hallarından qorunması məqsədi ilə idxalın effektiv tənzimlənməsi sisteminin yaradılması	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi		2017–2018
6.3. Kənd təsərrüfatı və emal sənayesi məhsulları üzrə ixracın təşviqi və dəstəklənməsi					
6.3.1.	İxrac bazarlarının coğrafiyasının genişləndirilməsinə və ənənəvi ixrac bazarlarındakı mövqelərin möhkəmləndirilməsinə dəstək verilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi	• 2020-ci ilədək ölkədə kənd təsərrüfatı məhsulları ixracı üzrə 200 fermerin ixtisaslaşması; • 2020-ci ildə real ÜDM-in 35 milyon manat birbaşa və 55 milyon manat dolayı olmaqla, ümumilikdə 90 milyon manat artırılması; • birbaşa və dolayı yolla 5060 iş yerinin açılması.	2017–2020
6.3.2.	“Made in Azerbaijan” brendinin təşviqi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi		2017–2020
6.3.3.	Potensial ixrac bazarları haqqında fermerlərin məlumatlandırılması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi		2017–2020
6.3.4.	Potensial ixracatçı fermerlərin müəyyənləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi		2017–2020
6.3.5.	Sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi, beynəlxalq standartların təmin edilməsi	Standartlaşdırma, Metrologiya və	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi		2018–2019

		Patent üzrə Dövlət Komitəsi			
6.3.6.	İxrac sənədlərinin əldə edilməsinə dəstək verilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi		2017–2020
Strateji hədəf 7. Ətraf mühitin qorunması, təbii resurslardan dayanıqlı istifadə və təbii amillərin kənd təsərrüfatına təsirlərinin idarə olunması					
7.1. İqlim dəyişmələrinin və təbii amillərin kənd təsərrüfatına mənfi təsirinin azaldılması mexanizmlərinin işlənməsi					
7.1.1.	İqlim dəyişmələrinin kənd təsərrüfatına təsirlərinin qiymətləndirilməsi və adekvat adaptasiya planının hazırlanması	Nazirlər Kabineti	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● iqlim dəyişmələrinin təsirlərinin qiymətləndirilməsi; ● zərərin azaldılması üçün adekvat adaptasiya planının hazırlanması; ● “iqlim əsaslı ağıllı kənd təsərrüfatı”nın təşviq edilməsi; ● aqrometeoroloji məlumat bazasının yaradılması, biotik və abiotik amillərə davamlı bitki sortlarının becərilməsi istiqamətində fəaliyyətin genişləndirilməsi; ● kənd təsərrüfatı məqsədləri üçün hava şəraitinə müdaxilə və doludan	2017–2018
7.1.2.	Aqrometeoroloji məlumat bazasının təkmilləşdirilməsi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi		2017–2018
7.1.3.	Kənd təsərrüfatı məqsədləri üçün hava şəraitinə müdaxilə və doludan müdafiə sisteminin yaradılması imkanlarına baxılması	Ekologiya və Təbii Sərvətlər Nazirliyi	Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
7.1.4.	Qanunvericilik bazasının təkmilləşdirilməsi və müvafiq qurumlar arasındakı koordinasiyanın gücləndirilməsi	Nazirlər Kabineti	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları		2017–2018

				müdafiə sisteminin yaradılması.	
7.2. Aqrar sahədə ətraf mühiti mühafizə mexanizmlərinin təkmilləşdirilməsi					
7.2.1.	Kənd təsərrüfatı istehsalının ekoloji normalara uyğunluğu üzrə müasir tələblərə cavab verən indikatorların hazırlanması və qiymətləndirmənin aparılması	Kənd Təsərrüfatı Nazirliyi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, AMEA, yerli icra hakimiyyəti orqanları	● kənd təsərrüfatında zəhərli kimyəvi maddələrin tətbiqinin 30 faiz azaldılması; ● bitkiçilikdə və heyvandarlıqda karbon qazı emissiyasının azaldılması; ● həm tarlaqoruyucu meşə zolaqları, həm də yaşıllıqların salınmasında iqtisadi səmərəverən bitki növlərindən istifadə səviyyəsinin 30 faiz artırılması; ● istixanaların istilik təchizatında alternativ mənbələrdən istifadə səviyyəsinin 20 faiz artırılması.	2017–2018
7.2.2.	Kənd təsərrüfatı sektorunda karbon qazı emissiyasının azaldılması	Ekologiya və Təbii Sərvətlər Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.2.3.	Tarlaqoruyucu meşə zolaqlarının salınması	Ekologiya və Təbii Sərvətlər Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.2.4.	Ətraf mühitin qorunmasına iqtisadi yanaşmanın tətbiqi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.2.5.	Aqrobiomüxtəlifliyin qorunması	Ekologiya və Təbii Sərvətlər Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, AMEA, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.2.6.	Aqrar sahədə “yaşıl iqtisadiyyat”a keçid potensialının qiymətləndirilməsi və istixanaların istilik təchizatında alternativ enerji mənbələrindən istifadə edilməsi	Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi	Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2018–2020
7.3. Kənd təsərrüfatı torpaqlarından və su ehtiyatlarından dayanıqlı istifadə mexanizmlərinin təkmilləşdirilməsi					

7.3.1.	Torpaqların təyinatının dəyişdirilməsi prosesinin ətraf mühitə təsirlərinin qiymətləndirilməsi mexanizminin yaradılması	Nazirlər Kabineti	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları	• növbəli əkin sisteminin tətbiq edildiyi əkin sahələrinin 15 faiz artırılması; • otlaqların ot örtüyünün 25 faiz zənginləşdirilməsi; • suvarılan torpaqların 30 faizinin meliorativ vəziyyətinin yaxşılaşdırılması.	2017–2018
7.3.2.	Torpaqdan səmərəli istifadənin təmini və torpaqların rekultivasiyası üzrə tədbirlərin həyata keçirilməsi	Nazirlər Kabineti	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: Bələdiyyələrə		2018–2020
7.3.3.	Torpaqların aqrokimya analizlərinin aparılması	Kənd Təsərrüfatı Nazirliyi	Əmlak Məsələləri Dövlət Komitəsi, AMEA, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.3.4.	Otlaqların idarəedilməsinin təkmilləşdirilməsi	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.3.5.	Suvarma suyunun istehlakçıya catdırılması zamanı itkilərin azaldılması	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC	Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi,		2017–2020

			yerli icra hakimiyyəti orqanları		
7.3.6.	Suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və təkrar şoranlaşmanın qarşısının alınması	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC	Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.3.7.	Su resurslarının qiymətləndirilməsi və informasiya təminatı	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC	Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
7.3.8.	Quraq regionlarda sudan istifadənin yaxşılaşdırılması	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.3.9.	Dağ çaylarının idarə edilməsi	Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
7.4. Ekoloji təmiz kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi					
7.4.1.	Ekoloji təmiz kənd təsərrüfatı istehsalı ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi və dövlət proqramının hazırlanması imkanlarının dəyərləndirilməsi	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, AMEA, yerli icra hakimiyyəti orqanları	● ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsal edən fermerlərin sayının 50 faiz artırılması; ● ekoloji təmiz kənd təsərrüfatı	2017–2018
7.4.2.	Ekoloji təmiz məhsul istehsalının təşviqi	Kənd Təsərrüfatı Nazirliyi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi,		2017–2020

			İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə	məhsullarının istehsal həcminin isə 2 dəfə artırılması.	
7.4.3.	Ekoloji təmiz məhsul istehsal edən fermerlərin formalaşdırılması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə		2017–2020
7.4.4.	Ekoloji təmiz kənd təsərrüfatı məhsulları bazarının inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə		2017–2020
Strateji hədəf 8. Aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsi və biznes mühitinin təkmilləşdirilməsi					
8.1. Əlverişli aqrobiznes mühitinin formalaşdırılması üçün tədbirlərin görülməsi					
8.1.1.	Aqrar sahədə lisenziya, icazə və sertifikatların verilməsinin təkmilləşdirilməsi	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, “ABAD” publik hüquqi şəxsi, yerli icra hakimiyyəti orqanları	● aqrar sahədə lisenziyaların, icazələrin, sertifikatların verilməsinin “bir pəncərə” prinsipi əsasında təşkili; ● sahəni tənzimləyən qanun və qaydaların təkmilləşdirilməsi.	2017–2018
8.1.2.	Haqsız rəqabət meyillərinin qarşısının alınması və antiinhisar nəzarətinin gücləndirilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
8.1.3.	Biznes subyektlərinin məhsul bazarına çıxısı və istehsal resurslarının əlyetərliyinin monitorinqinin aparılması və hesabatların hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020

8.1.4.	Riskəsaslı yoxlama sisteminin qurulması	İqtisadiyyat Nazirliyi	Ədliyyə Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
8.2. Elektron kənd təsərrüfatının qurulması, qeydiyyat, uçot və statistika sisteminin təkmilləşdirilməsi					
8.2.1.	Torpaqların Elektron Kadastr Uçotu Sisteminin qurulması	Əmlak Məsələləri Dövlət Komitəsi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● Torpaqların Elektron Kadastr Uçotu Sisteminin qurulması; ● ölkəni tam əhatə edən "Elektron kənd təsərrüfatı" informasiya sisteminin yaradılması; ● kənd təsərrüfatı məhsulları istehsalçılarının 10 faizində ilkin uçotun təşkili.	2017–2018
8.2.2.	"Elektron Kənd Təsərrüfatı" İnformasiya Sisteminin qurulmasının başa çatdırılması, subsidiyaların verilməsi prosesinin bu sistem vasitəsi ilə idarəedilməsi	Kənd Təsərrüfatı Nazirliyi			2017–2018
8.2.3.	"Elektron Kənd Təsərrüfatı" İnformasiya Sistemi vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarının təsərrüfat subyektləri kimi qeydiyyata alınması ilə bağlı hüquqi bazanın yaradılması imkanlarına baxılması	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017
8.2.4.	İstehsalçıların müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalında və fermer birliklərində iştirakı ilə bağlı statistik hesabatların hazırlanması	Dövlət Statistika Komitəsi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
8.2.5.	Həyətyanı sahələrdə yetişdirilən məhsullarla bağlı	Dövlət Statistika Komitəsi	Kənd Təsərrüfatı Nazirliyi,		2017–2018

	müayinələrin aparılması və statistik hesabatların hazırlanması		yerli icra hakimiyyəti orqanları		
8.2.6.	Meyvə bağları üzrə məlumatların ənənəvi, intensiv və superintensiv bağlar olmaqla qruplaşdırılması	Dövlət Statistika Komitəsi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
8.2.7.	Heyvandarlıqla bağlı spesifik statistik məlumatların hazırlanması və müayinələrin aparılması	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2018
8.2.8.	Kənd təsərrüfatı heyvanlarının identifikasiyası və qeydiyyatı	Kənd Təsərrüfatı Nazirliyi	Dövlət Statistika Komitəsi, yerli icra hakimiyyəti orqanları		2017–2018
8.2.9.	Baytarlıq və fitosanitar nəzarətin həyata keçirilməsinə və xidmətlərin göstərilməsinə dair məlumatların təsərrüfatlar üzrə elektron bazasının yaradılması	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020
8.2.10.	Kənd təsərrüfatında ilkin uçotun təşviqi	Kənd Təsərrüfatı Nazirliyi	Dövlət Statistika Komitəsi, yerli icra hakimiyyəti orqanları		2017–2018
8.3. Kənd təsərrüfatını tənzimləyən qurumların potensialının gücləndirilməsi					
8.3.1.	Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyindəki qurumların strateji inkişaf planının hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi		• Kənd Təsərrüfatı Nazirliyinin beynəlxalq əməkdaşlığının genişləndirilməsi; • Kənd Təsərrüfatı Nazirliyinin	2017
8.3.2.	Kənd Təsərrüfatı Nazirliyinin və tabeliyində olan qurumların fəaliyyətinə dair illik	Kənd Təsərrüfatı Nazirliyi			2017–2020

	hesabatların hazırlanması və ictimaiyyətə açıqlanması			əməkdaşlarının 100 faizinin müasir kompüter proqramlarından istifadə bacarıqlarına yiyələnməsi; ● Kənd Təsərrüfatı Nazirliyində xarici dil biliklərinə malik əməkdaşların sayının 50 faiz artırılması.	
8.3.3.	Kənd Təsərrüfatı Nazirliyinin aqrar sahə üzrə strateji təhlil, planlaşdırma və qiymətləndirmə fəaliyyətləri ilə bağlı potensialının gücləndirilməsi	Kənd Təsərrüfatı Nazirliyi			2017–2020
8.3.4.	Kənd Təsərrüfatı Nazirliyinin rayon (şəhər) idarələrinin potensialının gücləndirilməsi	Kənd Təsərrüfatı Nazirliyi	yerli icra hakimiyyəti orqanları		2017–2020
8.4. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi siyasətinin inkişaf məqsədləri əsasında təkmilləşdirilməsi					
8.4.1.	Subsidiyaların təkmilləşdirilməsinə dair qiymətləndirmələrin aparılması və təkliflərin hazırlanması	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları	● bitkiçilikdə son məhsula görə subsidiya verilən məhsulların siyahısının genişləndirilməsi; ● regional xüsusiyyətlər nəzərə alınaraq diferensial subsidiya mexanizminin formalaşdırılması; ● yüksək dağlıq ərazilərdə fermer təsərrüfatları üçün stimullaşdırıcı	2017–2018
8.4.2.	Kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən vergi güzəştləri və müvafiq istehsal vasitələrinin idxalına görə tətbiq edilən gömrük rüsumları siyasətinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi		2017–2018
8.4.3.	İstixanaların genişləndirilməsini stimullaşdırmaq üçün dövlət dəstəyi tədbirlərinə dair təkliflərin hazırlanması	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017

8.4.4.	Kənd təsərrüfatı məhsulları istehsalçılarına suvarma suyunun güzəştli satışı ilə bağlı texniki-iqtisadi əsaslandırmaların aparılması	Maliyyə Nazirliyi	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Meliorasiya və su təsərrüfatı ASC, yerli icra hakimiyyəti orqanları	tədbirlər planının hazırlanması; ● yeni salınan bağların və istixanaların sahəsinin 50 faiz artırılması.	2017
8.4.5.	Heyvandarlığın inkişafı üçün dövlət dəstəyinin verilməsi ilə bağlı təkliflərin hazırlanması	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2018
8.4.6.	Çoxillik əkmələrin genişləndirilməsinin stimullaşdırılması	Nazirlər Kabineti	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları		2017–2020
8.5. Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi sisteminin qurulması					
8.5.1.	Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə göstəricilər sisteminin və metodikasının hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi	Əmlak Məsələləri Dövlət Komitəsi	● kənd təsərrüfatı siyasətinə dair icra olunmuş tədbirlərin səmərəliliyinin qiymətləndirilməsinə imkan verən informasiyaların əlçatanlığının təmin edilməsi.	2017–2018
8.5.2.	Aqrar siyasətin nəticələrinin monitorinqi və qiymətləndirilməsi üzrə hesabatların hazırlanması	Kənd Təsərrüfatı Nazirliyi	Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları		2017–2020
8.5.3.	“Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi”nin fəaliyyətinin təkmilləşdirilməsi	Kənd Təsərrüfatı Nazirliyi			2017–2020
Strateji hədəf 9. Kənd yerlərində məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi					
9.1. Kənd yerlərinin sosial-iqtisadi inkişaf siyasəti üzrə potensialının gücləndirilməsi					
9.1.1.	Kənd yerlərinin kompleks inkişafı üzrə pilot layihələrin hazırlanması və icrası	İqtisadiyyat Nazirliyi	Aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları,	● ölkədə kənd yerlərinin inkişafı məsələləri üzrə	2017–2020

			Tövsiyə edilir: bələdiyyələrə	məlumat bazası və monitorinq sisteminin qurulması; ● kənd yerləri üzrə qısa, orta və uzunmüddətli inkişaf planlarının hazırlanması; ● kənd yerlərinin inkişafı üzrə həyata keçirilən pilot layihələrin sayının 50 faiz artırılması.	
9.1.2.	Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə statistik bazanın və monitorinq sisteminin yaradılması	İqtisadiyyat Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, yerli icra hakimiyyəti orqanları		2017–2018
9.1.3.	Kənd yerlərinin sosial-iqtisadi inkişafı ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsi	İqtisadiyyat Nazirliyi	Aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları		2017–2018
9.1.4.	Kənd yerlərinin sosial-iqtisadi inkişafı üzrə dövlət proqramının hazırlanması	İqtisadiyyat Nazirliyi	Aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları		2017
9.2. Kənd yerlərində alternativ fəaliyyət sahələrinin inkişafının dəstəklənməsi					
9.2.1.	Kənd turizminin və ekoturizmin inkişaf etdirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə	● Kəndə turizm məqsədilə gedənlərin sayının 2 dəfə artırılması; ● kənd yerlərində qeyri-kənd təsərrüfatı istehsal sahələrinin və orada işləyənlərin sayının 30 faiz artırılması; ● kənd təsərrüfatından kənar sahələrdə çalışan qadınların	2017–2020
9.2.2.	Qeyri-kənd təsərrüfatı istehsal sahələrinin inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə		2017–2020

9.2.3.	Kənd yerlərində xidmət sahələrinin inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi	yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə	sayının 20 faiz artırılması.	2017–2020
9.2.4.	Kənd yerlərində qadınların və gənclərin məşğulluğunun artırılması	İqtisadiyyat Nazirliyi	Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə		2017–2020
9.2.5.	Yeni ailə qurmuş gənclərin mənzillə təminatının yaxşılaşdırılması	Nazirlər Kabineti	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Azərbaycan İpoteka Fondu, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə		2020
9.3.Yerli icmaların kəndin inkişafına dair təşəbbüslərinin dəstəklənməsi					
9.3.1.	Bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı öhdəliklərinin artırılması	Ədliyyə Nazirliyi	İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları	• kənddə bələdiyyələrin açdığı iş yerlərinin sayının 30 faiz artırılması; • kənddəki qadınların və gənclərin	2017–2020
9.3.2.	Kənd yerlərində icma səviyyəli gəlir gətirən sektorların təşviqi və dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları,		2017–2020

			Tövsiyə edilir: bələdiyyələrə	inkişafına yönəldilmiş proqramların sayının 3 dəfə artırılması.	
9.3.3.	Kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi	yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə		2017–2020

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 290

2. QLOBAL TRENDLƏR 292

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 294

3.1. Kiçik və orta sahibkarlığın mövcud vəziyyəti 294

3.2. Kiçik və orta sahibkarlığın GZİT təhlili 297

4. STRATEJİ BAXIŞ 299

4.1. 2020-ci ilədək strateji baxış 299

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 299

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 301

5. HƏDƏF İNDİKATORLARI 303

6. STRATEJİ MƏQSƏDLƏR 303

7. STRATEJİ HƏDƏFLƏR 304

7.1. Strateji hədəf 1. KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması 304

7.1.1. Prioritet 1.1. Mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması 305

7.1.2. Prioritet 1.2. KOS üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi və qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi 308

7.1.3. Prioritet 1.3. Dövlət-özəl tərəfdaşlığının dərinləşdirilməsi 309

7.1.4. Prioritet 1.4. Rəqabət mühitinin təkmilləşdirilməsi 311

7.1.5. Prioritet 1.5. KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi və vergi islahatlarının davam etdirilməsi 313

7.1.6. Prioritet 1.6. KOS üzrə xüsusi sənaye zonalarının və klasterlərin yaradılması 316

7.1.7. Prioritet 1.7. Dövlət-özəl əməkdaşlığının genişləndirilməsi, KOS subyektlərini təmsil edən qurumların gücləndirilməsi 320

7.1.8. Prioritet 1.8. KOS subyektləri arasında mübahisələrin alternativ həlli imkanlarının təkmilləşdirilməsi.. 322

7.1.9. Prioritet 1.9. KOS subyektlərinin müəyyənləşdirilməsi meyarlarının bütün dəstək tədbirlərində tətbiq edilməsi, statistik məlumatların sistemləşdirilməsi 324

7.2. Strateji hədəf 2. KOS subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi 325

7.2.1. Prioritet 2.1. Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması 328

7.2.2. Prioritet 2.2. KOS subyektləri ilə bağlı kreditlərə zəmanət fondunun yaradılması 332

7.2.3. Prioritet 2.3. Əmlak məsələləri üzrə fəaliyyətin təkmilləşdirilməsi və maliyyə əlçatanlığının artırılması. 335

7.2.4. Prioritet 2.4. Azərbaycanda lizinq və alternativ maliyyə alətləri (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) bazarının inkişaf etdirilməsi ilə KOS subyektlərinin maliyyəyə çıxışının asanlaşdırılması ... 338

7.3. Strateji hədəf 3. KOS subyektlərinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması 340

7.3.1. Prioritet 3.1. KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi 342

7.3.2. Prioritet 3.2. Ayrı-ayrı sektorlar üzrə ixrac assosiasiyalarının yaradılması 345

7.4. Strateji hədəf 4. KOS subyektlərinin bilik və bacarıqlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi 346
7.4.1. Prioritet 4.1. Biznes inkubatorları və startap layihələrinin inkişaf etdirilməsi, model müəssisələrin yaradılması 347
7.4.2. Prioritet 4.2. KOS subyektlərinin təlim və tədris imkanlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi 351
7.4.3. Prioritet 4.3. Sahibkar düşüncə tərzinin təşviqi 355
7.4.4. Prioritet 4.4. Qadın sahibkarlığının inkişaf etdirilməsi 358
7.5. Strateji hədəf 5. İnnovasiyaların təşviqi, KOS subyektləri üçün araşdırma və inkişaf fəaliyyətlərinin genişləndirilməsi 360
7.5.1. Prioritet 5.1. Milli innovasiya sisteminin təkmilləşdirilməsi 361
7.5.2. Prioritet 5.2. Kiçik və orta sahibkarların fəaliyyətini stimullaşdıran innovasiya infrastrukturunun formalaşdırılması 363
8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 365
9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 366
10. TƏDBİRLƏR PLANI 368

1. QISA XÜLASƏ

Azərbaycanda kiçik və orta sahibkarlığın (bundan sonra – KOS) inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində KOS-un əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır.

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" (bundan sonra – Strateji Yol Xəritəsi) ölkə iqtisadiyyatında rəqabətqabiliyyətliliyin, inklüzivliyin və dayanıqlılığın təmin olunması istiqamətində bütün ölkə üzrə həyata keçirilən tədbirlərin bir hissəsi olaraq hazırlanmışdır. Bu tədbirlər ölkə iqtisadiyyatının on bir müxtəlif sektorunu, eləcə də hər bir sektor üzrə ümumi mövzuları əhatə edən Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə strateji yol xəritələrini özündə ehtiva edir. Milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə, ümumilikdə, 12 strateji yol xəritəsi Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamının icrası məqsədilə hazırlanmışdır.

Strateji Yol Xəritəsi KOS-da iqtisadi islahatların və inkişafın qısa, orta və uzunmüddətli perspektivdə əsas istiqamətlərini müəyyənləşdirir. Bu sənəd 2020-ci ilədək strateji baxışdan, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Strateji Yol Xəritəsində 2016-2020-ci illər üçün inkişaf strategiyası və tədbirlər planında yalnız müvafiq dövr üçün strateji məqsəd və hədəflər deyil, eyni zamanda, həmin illər ərzində qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün müəyyənləşdirilmiş prioritetlər və həmin prioritetlər çərçivəsində həyata keçiriləcək tədbirlər qeyd edilmiş və hər bir tədbirin adı, əsas və digər icraçıları, nəticə indikatorları və konkret icra müddəti əks olunmuşdur. Həmin prioritetlərin qısamüddətli dövrdə effektiv icrası orta və uzunmüddətli dövrdə həyata keçirilməsi nəzərdə tutulan növbəti addımların əsasını təşkil edəcək və bununla da icra prosesinin səmərəliliyi təmin ediləcəkdir. Strateji Yol Xəritəsinin icrası qeyri-hökumət təşkilatları, yerli və beynəlxalq özəl sektor tərəfdaşları ilə kommunikasiya və əməkdaşlıq şəraitində təmin ediləcəkdir.

Ölkədə KOS-un inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək istiqamətində aşağıdakılar strateji hədəf kimi müəyyənləşdirilmişdir:

- uzunmüddətli perspektivdə KOS-un Azərbaycanın ÜDM-inə təsirini artırmaq məqsədilə ölkədə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması;
- KOS subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması məqsədilə maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi;
- ölkənin valyuta ehtiyatlarının artırılması və ölkədə istehsal olunan malların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə KOS-un fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması;

- ixtisaslı işçi qüvvəsinin hazırlanmasına və KOS subyektlərinin bacarıqlarının inkişafına xüsusi diqqət ayırmaqla, regional bazarlarda keyfiyyətli məhsul və xidmətlər təklifinin artırılması;
- KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların təşviqi, bu sahə ilə bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi.

Əsas fəaliyyət Azərbaycanda KOS subyektlərinə münasibətdə qanunvericilik bazasının təkmilləşdirilərək maliyyə və vergi siyasətinin stimullaşdırıcı təsirinin gücləndirilməsi, maliyyə resurslarına əlçatanlığın artırılması, texniki və informasiya bazasının gücləndirilməsi və KOS subyektlərinin ərazi üzrə optimal yerləşdirilməsi, daxili bazarın qorunması, bazar infrastrukturlarının inkişaf etdirilməsi, zəruri sənədlərin alınmasında "bir pəncərə" prinsipinin tətbiq edilməsi, bu sahəni təmsil edən subyektlər arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi və s. kimi istiqamətlərə yönəldiləcəkdir.

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün təxminən 700 milyon manat investisiya tələb olunur ki, nəticədə 2020-ci ildə iqtisadiyyatda təxminən 1 milyard 260 milyon manat əlavə dəyərin və 34240 yeni iş yerinin yaradılması gözlənilir.

Cədvəl 1. Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələr

№	Prioritetin adı	Real ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(tam ştatlı işçilər, 2020)*	İnvestisiya *(milyon manatla)*
1.1.	Mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması	200	240	10
1.6.	KOS üzrə xüsusi sənaye zonalarının və klasterlərin yaradılması	475	23300	630
2.1.	Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması	450	900	–
3.1.	KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi	55	9800	3
3.2.	Ayrı-ayrı sektorlar üzrə ixrac assosiasiyalarının yaradılması	45	–	–
4.1.	Biznes inkubatorları və startap layihələrinin inkişaf etdirilməsi, model müəssisələrin yaradılması	35	–	50

Qeyd 1. Bu cədvəldə yalnız 2020-ci ildə real ÜDM-də 10 milyon manatdan çox artıma və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.


Qeyd 2. Bu rəqəmlər prioritetlərin təsirləri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli təhlillərin aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.

2. QLOBAL TRENDLƏR

Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində KOS subyektləri iqtisadi artımın və məşğulluğun təmin edilməsində aparıcı mövqeyə malikdirlər. Belə ki, Dünya Bankının məlumatlarına əsasən, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı payı müvafiq olaraq 50 və 60 faizdən yuxarıdır. Belə ki, dünyanın inkişaf etməkdə olan ölkələri də iqtisadi dayanıqlılığın gücləndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması və iqtisadi aktivliyinin təmin edilməsi üçün KOS-un inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirir. Nəticədə, rəqabətli bazar münasibətləri formalaşır ki, bu da bazarda tələb-təklif tarazlığının yaranmasına, qiymətlərin sabitləşməsinə, istehsal olunan mal və xidmətlərin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə, iqtisadi tənzimləmə alətlərinin effektiv tətbiqinə, iqtisadiyyatın dayanıqlılığına və xarici təsirlərin çevik absorbsiyasına şərait yaradır. Məhz bu səbəblərdən hazırkı qlobal kontekstdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr KOS vasitəsilə iqtisadiyyatlarının böhranlara çevik uyğunlaşmasına nail olmağa çalışır.

ABŞ və Avropa İttifaqı ölkələri kimi ölkələr KOS-un inkişafı hesabına əhəmiyyətli iqtisadi artıma nail olmuşdur. Belə ki, Avropa İttifaqına daxil olan ölkələrdə müəssisələrin 99 faizini kiçik və orta müəssisələr təşkil edir ki, bunların da məşğulluqda və ÜDM-də payı 60 faizdən çoxdur. 2014-2015-ci illərdə Avropa İttifaqı ölkələrində gəlir kimi əldə olunmuş hər bir avronun 58 senti KOS subyektlərinin payına düşmüşdür.[1]

Şəkil 1. KOS subyektlərinin ÜDM-ə və məşğulluğa təsiri *(faizlə)*




1. *İşçilərinin sayı 250 nəfərədək olan KOS subyektləri üzrə (Şimali Amerikada isə işçilərinin sayı 300 nəfərədək olan KOS subyektləri üzrə)*

Mənbə: Dünya Bankı

[1] Mənbə: Avropa Komissiyasının rəsmi internet saytı

İnkişaf etməkdə olan ölkələrdə ortahəcmli müəssisələr məşğulluğun əsas təminatçısı qismində çıxış edir (şəkil 2). KOS sahəsində qlobal trendlərdən biri də kiçik müəssisələrin dayanıqlılığını təmin etməklə onların orta müəssisələr səviyyəsinə çatdırılması cəhdləridir. Bununla da müəssisələrin dayanıqlılıq və beləliklə, rəqabətqabiliyyətlilik göstəricilərinin yaxşılaşdırılmasına nail olmaq hədəflənir.

Şəkil 2. Ortaölçülü sahibkarlıq subyektlərinin məşğulluğa təsiri[1]



1. 2005-2009-cu illər üzrə məlumatların orta göstəricisi əsasında hesablanmışdır

Mənbə: "Endavour" məlumat bazası (Argentina, Braziliya, Çili, Kolumbiya, Misir, İordaniya, Meksika, Cənubi Afrika, Türkiyə və Uruqvay şirkətləri üzrə məlumatlar əsasında hazırlanmışdır)

KOS sahəsində müşahidə olunan digər qlobal trendlər aşağıdakılardan ibarətdir:

- beynəlxalq təcrübəyə əsasən demək olar ki, KOS subyektləri üzrə risk faktorunun yüksək olması onların maliyyə resurslarına çıxış imkanlarını məhdudlaşdırır. Bunun nəticəsidir ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr KOS-un maliyyələşdirilməsi ilə əlaqədar olaraq zəmanət fondunun yaradılması, girovsuz maliyyələşmə mexanizmlərinin tətbiqi, risklərin sığortalanması və s. kimi xüsusi yanaşma tətbiq edirlər;
- dövlətlər KOS subyektlərinin qlobal dəyər zəncirlərinə qoşulmaqla, transmilli şirkətlərin istehsal etdikləri məhsulların ayrı-ayrı komponentlərinin təchizatçısı kimi fəaliyyət göstərməsinə dəstək məqsədilə müxtəlif təşəbbüslər həyata keçirirlər. Belə ki, transmilli şirkətlər öz məhsullarının komponentlərinin demək olar ki, əksər hissəsini dünyanın fərqli coğrafiyalarında yerləşən kiçik və orta müəssisələrə sifariş verməklə istehsal edirlər. Bununla da, KOS subyektləri qlobal dəyər zəncirində yüksək əlavə dəyər yaradan sektorların iştirakçısına çevrilirlər;
- KOS subyektlərinə göstərilən dəstəyin düzgün koordinasiyasının təmin edilməsi və əlverişli mühitin yaradılması məqsədilə dünyanın bir çox ölkələrində KOS subyektlərinə xidmət edən mərkəzləşdirilmiş qurum yaradılır;
- KOS subyektləri bazarlarda mövqelərinin qorunub saxlanılması və istehsal xərclərinin azaldılması məqsədilə horizontal və vertikal klasterlər yaradırlar. Belə ki, bu klasterlər vasitəsilə KOS subyektləri öz xərclərinin optimallaşdırılması hesabına miqyas effektinə nail olurlar.

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Kiçik və orta sahibkarlığın mövcud vəziyyəti

Ötən dövr ərzində Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 610 nömrəli və 2002-ci il 17 avqust tarixli 753 nömrəli fərmanları ilə müvafiq olaraq "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)" və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" qəbul edilərək icra edilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin müvafiq olaraq 2008-ci il 25 avqust tarixli 3004 nömrəli və 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli sərəncamları ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda, eləcə də 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda və 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi sahəsində tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Ölkədə məşğulluğun təmin edilməsi, qeyri-neft ixracının artırılması, biznes mühitinin inkişafı kimi strateji məsələlərdə sahibkarların rolunun yüksəldilməsinə, cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılmasına təkan vermək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 aprel tarixli 1988 nömrəli Sərəncamı ilə aprel ayının 25-i Azərbaycanda "Sahibkarlar Günü" kimi təsis edilmişdir.

Eyni zamanda, sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması, sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması, icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması üzrə işlərin davam etdirilməsi, sahibkarların hüquqlarının qorunması ilə bağlı Apellyasiya Şuralarının yaradılması, ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması, ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi, idxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılması, dövlət satınalmalarında təkmilləşdirmələrin aparılması, dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması və s. işlər həyata keçirilmişdir.

Azərbaycanda biznes mühiti daha da yaxşılaşdırılmış və ölkə Dünya Bankının "Doing Business 2017" hesabatında bəzi göstəriciləri üzrə (məsələn, biznesə başlama,

əmlakın qeydiyyatı) yüksək nəticə əldə etmişdir. Beynəlxalq təcrübəyə uyğun elektron hökumət portalının yaradılması ilə dövlət xidmətləri daha da genişləndirilmişdir. KOS üçün innovasiya çərçivəsi həm infrastruktur (məsələn, sənaye parkları, texnologiya parkları və biznes inkubatorları), həm də maliyyə dəstəyi (informasiya və kommunikasiya texnologiyaları (İKT) sektoru üçün xüsusi fondun yaradılması) vasitəsilə yaxşılaşdırılmışdır.

Həmçinin ölkədə KOS subyektlərinin inkişafına birbaşa təsir edəcək islahatların ünvanlılığının təmin olunması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 nömrəli "İri, orta və kiçik sahibkar meyarları"nın təsdiq edilməsi haqqında" qərarı ilə KOS subyektlərinin meyarları müəyyənləşdirilmişdir. Meyarlara uyğun olaraq 2015-ci il üzrə qeydiyyatdan keçmiş hüquqi və fiziki sahibkarlıq subyektlərinin 1 faizi iri, 2 faizi orta, 97 faizi isə kiçik sahibkarlardır.[2]

Cədvəl 2. İri, orta və kiçik sahibkar meyarları


Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası	İşçilərinin orta siyahı sayı	İllik gəliri
Kiçik sahibkar	25 nəfərədək	200 min manatadək
Orta sahibkar	25 nəfərdən 125 nəfərədək	200 min manatdan 1250 min manatadək
İri sahibkar	125 nəfər və ondan yuxarı	1250 min manat və ondan yuxarı

Mənbə: Azərbaycan Respublikasının Nazirlər Kabineti

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2015-ci ildə qeyri-neft sektorunda kiçik sahibkarlıq subyektlərinin payı əlavə dəyərdə 5,8 faiz, ümumi mənfəətdə 0,7 faiz, işçilərin illik orta sayında 6,5 faiz və əsas kapitala yönəldilmiş investisiyalarda 9,2 faiz təşkil etmişdir. Bu məlumatlar kiçik sahibkarlıq subyekti hesab olunan hüquqi və fiziki şəxsləri əhatə edir və 1 iyul 2016-cı il tarixinə ölkədə fəaliyyət göstərən müəssisələrin 83017 vahidi və ya 79,7 faizi (şəkil 3) bu müəssisələrin payına düşmüşdür. Həmçinin bu tarixə ölkə üzrə mövcud olan kiçik müəssisələrin əsas hissəsi ticarət (31,2 faiz), tikinti (12,1 faiz), kənd təsərrüfatı (10,7 faiz) və digər sahələrdə xidmətlərin göstərilməsi (13,5 faiz) üzrə fəaliyyət göstərmişdir.

[2] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

Şəkil 3. Kiçik müəssisələrin sayı *(2011-2016-cı illər üzrə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Bununla yanaşı, rəsmi statistik məlumatlara əsasən, 2016-cı il yanvarın 1-i vəziyyətinə ölkədə qeydiyyatdan keçən hüquqi şəxslərin 12 faizini kiçik müəssisələr təşkil etməsinə baxmayaraq, onların ÜDM-də payı 4 faiz, məşğulluqda 6,3 faiz, məhsul (xidmət) istehsalında isə 9,6 faiz olmuşdur.[3] Göründüyü kimi, ölkədə sahibkarlıq subyektlərinin 99,2 faizini təşkil edən fərdi sahibkarların və kiçik müəssisələrin ÜDM-də payı çox kiçikdir. Odur ki, Azərbaycan iqtisadiyyatında – ÜDM-də, məşğulluqda və ölkəyə olan xarici valyuta axınında KOS-un payı dəfələrlə artırıla bilər. Bu prizmadan yanaşaraq qeyd etmək olar ki, ölkənin gələcək inkişafında KOS-un payı son dərəcə böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda KOS-un və bütövlükdə, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və effektiv təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması atılmalı olan vacib addımlardandır.

Regionda və dünyada iqtisadi sahədə gedən proseslər KOS subyektlərinin sahibkarlıq subyektləri ilə kooperasiyasının dərinləşdirilməsini və dövlət dəstəyinin artırılmasını bir daha önə çəkir. Belə ki, iqtisadiyyatın şaxələndirilməsi məqsədilə KOS subyektlərinin potensialının tam gerçəkləşdirilməsi üçün bu sahədə bir sıra dəyişikliklərin edilməsi zərurəti vardır. Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində müəyyən qədər irəliləyişlər olsa da, hələ də bəzi təkmilləşdirmələr edilməlidir. Belə ki, özəl kredit bürosu, daşınar əmlakın yüklülüyü reyestri və təminatlı əqdlərin tənzimlənməsi kimi məsələlər üzrə qanunvericilik bazası təkmilləşdirilməlidir.

Sahibkarlıq, o cümlədən KOS siyasətinə dair vahid yanaşmanın, innovasiyaların, beynəlxalq standartların daha geniş tətbiqi, ixrac bazarlarının araşdırılmasında dövlət dəstəyinin artırılması, maliyyə, konsaltinq və digər dəstək mexanizmlərinin daha da genişləndirilməsi, dövlətin dəstək alətləri üçün monitorinq və qiymətləndirmə mexanizmlərinin yaradılması üçün prioritetlər müəyyənləşdirilməli və ölkədə sahibkarlığın inkişafı ciddi dəstəklənməlidir.

[3] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

İnnovasiya və beynəlmiləlləşdirməyə dəstək tədbirləri həyata keçirilsə də, bu sahədə fəaliyyət daha da dərinləşdirilməli, aydın strategiya və ya koordinasiya mexanizmləri yaradılmalıdır. Hazırda innovasiya ilə bağlı dövlət siyasəti telekommunikasiya və informasiya texnologiyaları sektoruna yönəldilmiş diqqəti daha da genişləndirməkdədir. Bundan əlavə, beynəlmiləlləşdirməyə yönəlmiş dəstək tədbirləri ixrac üçün maliyyə xidmətlərinin genişləndirilməsi, eləcə də qlobal dəyər zəncirindən KOS-un daha çox fayda əldə etməsi imkanının yaradılması məqsədilə daha da genişləndirilməlidir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda KOS-un inkişafı kifayət qədər ciddi məsələdir. Bunun üçün makroiqtisadi siyasətdən başlayaraq, Azərbaycan vətəndaşlarının, xüsusilə də sahibkarların və əlaqəli dövlət məmurlarının məsələyə baxış tərzinə qədər bir çox işləri özündə ehtiva edən və aydın hədəflərə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi tələb olunur. Buna görə də KOS-un inkişafına dəstək verən institusional dəyişikliklərin həyata keçirilməsi və onların inkişafı üçün əlverişli şəraitin yaradılması strateji əhəmiyyət kəsb edir.

3.2. Kiçik və orta sahibkarlığın GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
● sahibkarlıq sahəsində qanunvericilik bazasının olması; ● qlobal rəqabətqabiliyyətlilik üzrə əsas götürülən göstəricilərdə əhəmiyyətli irəliləyişə nail olunması; ● biznesə asan başlamaq üçün imkanların olması; ● “elektron hökumət”in əhatə dairəsinin daim genişlənməsi; ● son illərdə biznes mühitinin əlverişliliyi istiqamətində aparılan islahatlar üzrə irəliləyişlərə nail olunması (“bir pəncərə” prinsipi, “elektron hökumət” və s.); ● xarici ticarət üzrə qaydaların sadələşdirilməsi; ● əlverişli infrastrukturun olması; ● KOS-un inkişafına dövlət dəstəyinin olması; ● enerji daşıyıcılarının qiymətinin qonşu ölkələrə nisbətən daha ucuz olması.	● KOS subyektlərinə münasibətdə dövlətin məqsədli dəstəkləmə siyasətinin müxtəlif meyarlar əsasında tətbiq edilməsi; ● dövlət-özəl tərəfdaşlığının və bu sahədə əlaqələndirmənin istənilən səviyyədə olmaması; ● müxtəlifölçülü sahibkarlıq subyektləri arasında əlaqənin zəif olması; ● maliyyə resurslarına çıxışda çətinliklərin olması; ● maliyyə sektorunda təklif edilən məhsul və xidmətlərin kifayət qədər inkişaf etməməsi; ● dövlət tərəfindən sahibkarlığa göstərilən dəstək mexanizmlərinin təsirinin müəyyənləşdirilməsi üçün monitorinq və qiymətləndirmə sisteminin zəif olması; ● yüksəkixtisaslı mütəxəssislərin azlığı; ● biznes bacarıqlarının, xüsusilə də orta menecment səviyyəsində bacarıqların aşağı olması; ● dövlət və özəl sektor ilə peşə təhsili müəssisələri arasında qarşılıqlı əməkdaşlığın zəif olması; ● KOS üzrə əlaqələndirici ixtisaslaşmış dövlət təşkilatının olmaması;

	● dövlət satınalmalarında KOS subyektlərinin iştirakını dəstəkləyən xüsusi normaların olmaması; ● KOS subyektlərinə dəstək göstərən dövlət orqanlarının və xüsusi institutların sayının məhdud olması; ● biznes fəaliyyətinə xitam verilməsi qaydalarının çətinliyi; ● beynəlxalq ticarət sahəsində vərdişlərin az olması; ● araşdırma və innovasiya sahəsində fəaliyyət göstərən müəssisələrlə KOS subyektləri arasında əməkdaşlığın zəif olması; ● KOS subyektləri üçün məsləhət xidmətlərinin tam əlçatan olmaması; ● beynəlxalq və regional bazarlara çıxışda çətinliklərin olması.
İmkanlar	**Təhlükələr**
● maliyyə əlçatanlığı imkanlarının artırılması, özəl kredit büroları və daşınar əmlakın yüklülüyü reyestrinin yaradılması imkanının mövcud olması; ● qeyri-neft sektorunun inkişafında KOS subyektlərinin potensialından istifadə səviyyəsinin artırılması; ● dövlət satınalmalarına və infrastruktur layihələrinə KOS subyektlərinin də cəlb edilməsi; ● müxtəlif beynəlxalq proqramların imkanlarından istifadənin genişləndirilməsi ilə KOS subyektlərinə əlavə dəstəyin göstərilməsi; ● KOS subyektləri üçün məsləhət xidmətlərinin və zəruri sənədlərin vahid məkandan əldə edilməsi üzrə mərkəzlərin yaradılması; ● bazar tələblərinə cavab verən biznes və peşə təhsili imkanlarının artırılması; ● müxtəlif ixtisaslar üzrə “ömür boyu öyrənmək” prinsipinə əsaslanan təlim mərkəzlərinin yaradılması; ● istehsal sahələrinin şaxələndirilməsi və iqtisadiyyatın diversifikasiyası; ● potensial işçi qüvvəsinin olması.	● mümkün xarici iqtisadi amillərin (maliyyə böhranı, beynəlxalq bazarlarda tələbatın azalması və s.) təsiri; ● yerli KOS subyektlərinin beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin zəif olması; ● KOS subyektlərinin peşə təhsilinə lazımi əhəmiyyət verməməsi; ● xarici bazarlara çıxışı məhdudlaşdıran qaydaların ayrı-ayrı ölkələr tərəfindən tətbiq edilməsi; ● məşğulluğun təmin edilməsində çətinliklərin yaranması; ● yeni yaradılmış sənaye parklarında rezidentlər üçün təklif edilən vergi güzəştlərinin oranın rezidenti olmayan KOS subyektlərinin rəqabət qabiliyyətini aşağı salması.

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

Azərbaycanda KOS-un inkişafı üzrə 2020-ci ilədək strateji baxış biznes mühitinin daha da təkmilləşdirilməsi, KOS subyektlərinin maliyyə vəsaitlərinə və satış bazarlarına çıxışının asanlaşdırılması və biznes bilik və bacarıqlarının artırılması ilə rəqabətqabiliyyətliliyinin təmin olunmasına və iqtisadi inkişafdakı rolunun artırılmasına nail olmaqdır.

Strateji baxışın şərhi

2020-ci ilədək Azərbaycanda KOS-un inkişafı istiqamətində normativ-hüquqi baza daha da təkmilləşdiriləcək, institusional islahatlar davam etdirilərək, rəqabət mühitinin gücləndirilməsi və KOS agentliyinin yaradılması, bu sahədə fəaliyyət üçün zəruri intellektual və texniki resursların, eləcə də icazə sənədlərinin əldə edilməsi sisteminin bir az da asanlaşdırılması üzrə tədbirlər həyata keçiriləcəkdir. Nəzərdə tutulan tədbirlərin uğurlu icrası nəticəsində KOS-un ÜDM-də və məşğulluqda payının müvafiq olaraq 15 və 20 faizə, ölkənin qeyri-neft ixracındakı payının isə 10 faizə çatdırılması əsas hədəf kimi müəyyənləşdirilir.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

Azərbaycanın 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı KOS subyektlərinin rəqabət qabiliyyətinin daha da artırılmasına, gündəlik istehlak malları ilə təminatın əsasən KOS subyektləri vasitəsilə həyata keçirilməsinə, KOS subyektlərinin ÜDM və məşğulluqda payının əhəmiyyətli dərəcədə artırılmasına nail olmaqdır.

Uzunmüddətli baxışın şərhi

Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, maliyyə resurslarına və beynəlxalq bazarlara çıxış imkanlarının artırılması, eləcə də innovativ yanaşmanın bütün əlaqəli sahələrdə tətbiqi KOS subyektlərinin inkişafı üçün əlverişli şərait yaradacaqdır ki, bununla da Azərbaycanda KOS subyektlərinin qeyri-neft sektorundakı payı və yüksək gəlir gətirən sektorlarda məşğulluq imkanları artacaqdır.

2025-ci ilədək olan dövrdə KOS-un gücləndirilməsi sayəsində Azərbaycanın iqtisadi potensialı daha da artacaqdır ki, bunun da nəticəsində ölkədə rəqabət mühiti tam təmin olunacaq və beləliklə, Azərbaycan həm yerli, həm də xarici investorlar üçün dünyanın ən əlverişli ölkələrindən birinə çevriləcəkdir.

Mövcud təşəbbüslər əsasında kiçik və orta sahibkarların maliyyə mənbələrinə daha asan çıxışının təmin edilməsi üçün müvafiq fəaliyyət həyata keçiriləcəkdir. Vençur maliyyə formasında yerli investisiyalar stimullaşdırılacaq və birbaşa xarici investisiyaların (BXİ) KOS subyektlərinin fəaliyyət göstərdiyi sektorlara cəlb edilməsi üçün mexanizmlər təkmilləşdiriləcəkdir. Kredit zəmanət fondunun və özəl kredit bürolarının yaradılması nəticəsində yerli və xarici banklar tərəfindən KOS subyektləri üçün nəzərdə tutulan maliyyə xidmətlərinin və kredit resurslarının artırılmasına nail olunacaq, ən səmərəli maliyyə əlçatanlığı təcrübələrinin ölkədə tətbiqi təmin ediləcəkdir. Bu yolla Azərbaycanda özəl maliyyə institutları və investorlar tərəfindən maliyyələşdirilən yeni KOS subyektlərinin

yaradılması planlaşdırılır ki, bu da strateji planlara uyğun olaraq, dəyər zənciri üzrə yüksək gəlir gətirən sektorların inkişafına təkan verəcəkdir.

2025-ci ilədək olan dövr ərzində KOS subyektlərinin gücləndirilməsi ilə eyni vaxtda müəssisələr öz fəaliyyət sahələri üzrə yeni biznes assosiasiyaları təşkil edəcəklər. Biznes assosiasiyalarının inkişafı dövlət-özəl sektor dialoqunun genişləndirilməsinə imkan yaradacaqdır. Bu assosiasiyalar KOS subyektlərinə sektor üzrə 2025-ci ilədək və ondan sonrakı dövr üçün prioritetlərin reallaşdırılmasında kömək edəcəkdir. Assosiasiyalar KOS agentliyi ilə birlikdə müvafiq sektorlardakı müəssisələrin problemlərinin mütəmadi təhlilini həyata keçirəcək, onları müvafiq qurumlarda səsləndirəcək və həlli yollarını axtaracaqlar. Aparılacaq islahatlar ölkədə KOS-un möhkəmlənməsini təmin edəcək və Azərbaycanın qeyri-neft sektorunun inkişafına davamlı töhfə verəcəkdir. Azərbaycanda fəaliyyət göstərən və yeni yaradılacaq assosiasiyalar, aidiyyəti tərəflərlə birlikdə, keyfiyyət göstəricilərinin və həyata keçirilən əməliyyatların qabaqcıl beynəlxalq təcrübələrə uyğunlaşdırılması yolu ilə KOS-la bağlı idarəçilik bazasını və standartları təkmilləşdirəcək ki, bu da ölkəyə daha çox xarici investorun cəlb edilməsinə imkan verəcəkdir.

Azərbaycanda KOS-un inkişafına daha çox dəstək vermək məqsədilə mövcud sənaye zonaları ilə bağlı təşəbbüslərin icrası sürətləndiriləcək, müvafiq sektorlarda belə zonaların sayı və əhatə dairəsi genişləndiriləcəkdir. Maliyyə dəstəyinin artırılması, logistika infrastrukturunun yaxşılaşdırılması və kommunal xidmətlərə sərfəli çıxışın təmin edilməsi vasitəsilə startap şirkətlərin rəqabətədavamlı aparıcı biznes təşkilatlarına çevrilməsi təmin ediləcəkdir. Bu sadə stimulların və əlverişli həll yollarının daha çox sənaye zonalarında yayılması vasitəsilə Azərbaycanda KOS-un inkişafı sürətləndiriləcəkdir.

Bu inkişafın davamlılığını təmin etmək məqsədilə Azərbaycanda müəssisələr üçün qabaqcıl təcrübələrə əsaslanan keyfiyyətli biznes təlimləri təşkil ediləcək, peşə təhsili sisteminin KOS-un ehtiyaclarına uyğun qurulması, eləcə də biznes sektorunun elmi-texniki inkişafı təmin ediləcəkdir. Startaplara biznes ehtiyaclarına uyğun (idarəetmə təlimlərindən investorlara çıxış məqsədilə şəbəkələşmə təlimlərinə qədər) məsləhət xidmətlərinin göstərilməsi məqsədilə yeni biznes inkubatorları yaradılacaqdır. Bununla da, Azərbaycanın innovativ startapları peşəkar idarəetmə sayəsində daha yüksək səviyyəyə çatacaqlar. Eyni məqsəd üçün KOS biznes assosiasiyaları bu istiqamətdə görüləcək işləri yaxından monitorinq edərək, onların səmərəliliyini və müvafiq təşəbbüsləri, gətirəcəyi faydaları müəyyən edəcək, hər hansı maneə olarsa, belə maneələrin aradan qaldırılması üzrə tədbirlər planı işləyib hazırlayacaqdır.

Qeyd olunan innovasiya təşəbbüsləri universitetlər və texniki peşə təhsili müəssisələri üçün də təkrarlanacaqdır. Texniki peşə təhsili müəssisələrində gənc nəsil və artıq işə götürülmüş şəxslər üçün keçirilən təlimlər nəticəsində Azərbaycanda sahibkar düşüncə tərzinin inkişafı təmin ediləcəkdir. Sahibkarlıq konsepsiyası universitetlərin təhsil proqramlarına (kurikulumlarına) daxil edilməklə, Azərbaycanda sahibkarlıq ruhunun daha da gücləndirilməsinə şərait yaradılacaq, təhsil müəssisələrindən məzun olmuş istedadlı tələbələrin maraq göstərdikləri sektorlarda öz biznesini qurması stimullaşdırılacaqdır. KOS agentliyi müvafiq dövlət qurumları və təhsil müəssisələri ilə bu istiqamətdə sıx əməkdaşlıq quracaq və tətbiqi elmlərin inkişafına xüsusi diqqət yetirəcəkdir.

2025-ci ildə Azərbaycan əlverişli rəqabət mühitinə sahib olan, dövlət-özəl tərəfdaşlığının yeni mərhələsinə qədəm qoymuş, yüksəkixtisaslı kadr potensialı və daim inkişaf edən qeyri-neft sektoru olan bir dövlətə çevriləcəkdir. Bu kontekstdə KOS ölkənin iqtisadi inkişafının aparıcı qüvvəsinə çevriləcək və rəqabətədavamlı mal və xidmətlər

istehsal edən müəssisələr sayəsində əsas istehlak malları baxımından ölkənin idxaldan asılılığını minimuma endirəcəkdir.

Azərbaycanda 2025-ci ilədək olan dövr üzrə uzunmüddətli baxışın həyata keçirilməsi nəticəsində KOS-un ÜDM-də və məşğulluqda payının müvafiq olaraq 35 və 40 faizə, ölkənin qeyri-neft ixracında payının isə 25 faizə çatdırılması nəzərdə tutulur.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış Azərbaycanda ÜDM-in ən azı 60 faizinin KOS hesabına təmin edilməsinə, qlobal dəyər zəncirlərinə qoşulmuş yerli KOS şəbəkəsinin yaradılmasına nail olmaqdır.

Hədəf baxışın şərhi

KOS subyektlərinin sayının və dayanıqlılığının artması ilə onların qlobal dəyər zəncirlərində rolunun genişlənməsinə, intellektual dəyərlərin formalaşmasında iştirakına və daha çox gəlir əldə etməsinə nail olunacaqdır. KOS subyektlərinin enerjidən istifadəsinin səmərəliliyi yüksəldiləcək, daha çox alternativ və bərpaolunan enerji mənbələrindən istifadə stimullaşdırılacaqdır. Bütün sektorlarda inkişaf etmiş KOS şəbəkəsinin formalaşdırılması diqqətdə saxlanılacaq və uzunmüddətli perspektivdə KOS-un ÜDM-də payı 60 faizi ötəcəkdir.

İqtisadiyyatda rəqabət mühitinin daha da gücləndirilməsi iqtisadi effektivliyin əsas amilə çevrilməsinə şərait yaradacaqdır ki, bu da bəzi iş və xidmətlərin iri sahibkarlardan KOS subyektlərinə ötürülməsini labüd edəcəkdir. Nəticədə, KOS subyektlərinin fəaliyyət göstərdikləri sahələrin əhatə dairəsi və həcmi genişləndiriləcəkdir.

Şaxələndirmə məqsədlərinə müvafiq olaraq, bütün sektorlar üzrə KOS subyektlərində qadınların daha çox iştirakının təmin edilməsinə əlavə imkanlar yaradılacaqdır. Buraya, hər region daxilində ən yaxşı nümunə kimi, qadınların rəhbərlik etdiyi şirkətlərin bilavasitə stimullaşdırılması daxildir. Uğurlu qadın sahibkarlarla görüşlər və müsahibələr nəticəsində bununla bağlı məlumatlılıq səviyyəsi daha da artırılacaqdır. Bu yolla Azərbaycanın əsas işçi qüvvəsində qadınların iştirak səviyyəsinin artırılması hədəflənir.

Azərbaycanda 2025-ci ildən sonrakı dövr üçün daha geniş şaxələndirilmiş qeyri-neft iqtisadiyyatının formalaşdırılması üzrə tədbirlər davam etdiriləcək və dəyər zəncirinin yüksək dəyər yaradan həlqələrinin əhatə dairəsinin genişləndirilməsi sayəsində KOS subyektləri bu transformasiyanın əsas təkanverici qüvvəsi olacaqdır. Kiçik və orta sahibkarlar sadəcə xammal istehsalçıları olmayıb, eyni zamanda, intellektual potensiallarını yüksəltməklə və innovasiyalar istiqamətində daim axtarışlar aparmaqla, bu transformasiyanı yerli səviyyədə başa çatdırmaq üçün dəyər zəncirinin müxtəlif mərhələlərini əhatə edəcək və bu yolla əldə edilmiş dəyərin ölkə daxilində qalmasını təmin edəcəklər ki, bu da KOS-un daha sürətli inkişafına təkan verəcəkdir. Dəyər zəncirində olan boşluqlar aradan qaldırıldıqdan sonra Azərbaycanda müxtəlif sektorlar üzrə daha çox yerli məhsul istehsalı həyata keçiriləcəkdir ki, bu da əsas tələbat malları üzrə idxaldan asılılığı tamamilə aradan qaldıracaqdır. Həmin dövr ərzində KOS subyektlərinin alternativ və bərpaolunan enerji mənbələrinə çıxışının stimullaşdırılması və "yaşıl iqtisadiyyat"a keçidi ilə əlaqədar olaraq hüquqi çərçivə və maliyyələşdirmə təşəbbüsləri ilə bağlı tədbirlər həyata keçiriləcəkdir.

Dəyər zəncirinin müxtəlif mərhələlərində KOS-un fərqli sektorları əhatə etməsindən əlavə, bəzi KOS subyektləri “yerli flaqmanlar” səviyyəsinədək inkişaf edəcək, yəni böyük kommersiya təşkilatlarına çevriləcəkdir. Bu şirkətlər fəaliyyət göstərdikləri sektorda yerli tələbatı ödəməklə yanaşı, keyfiyyət və “nou-hau” sahəsində regional oyunçuya çevrilmək potensialına malik olacaqlar. KOS subyektləri öz əməliyyatlarının genişləndirilməsində birbaşa xarici investisiyaların cəlb edilməsi və həmin sektorlarda öz şirkətlərini yaratmaqda maraqlı olan yeni sahibkarlar üçün qabaqcıl təcrübələrin tətbiqi baxımından nümunə rolunu oynayacaqlar.

2025-ci ildən sonrakı perspektivdə xüsusi sektorlar üzrə yerli tələbat ödənildikdən sonra güclü yerli şirkətlər və çoxsaylı KOS subyektləri öz ticarət şəbəkəsini beynəlxalq bazarlarla, xüsusən də ətraf regionlardakı bazarlarla əlaqələndirərək, Azərbaycanın qeyri-neft ixracının əhəmiyyətli dərəcədə artımına müsbət təsir göstərəcəklər. Azərbaycanda, xüsusən də xarici ticarətdə KOS-un payının 40 faizə qaldırılması planlaşdırılır. Bununla yanaşı, 2025-ci ildən sonrakı dövrdə KOS-un ÜDM-də və məşğulluqda payının müvafiq olaraq 60 və 70 faizə çatdırılması hədəf götürülür.

Nəzərdə tutulan hədəflərin reallaşdırılması növbəti onillik ərzində Azərbaycanda biznes üçün daha əlverişli şəraitin yaradılması, KOS-un inkişafına ünvanlanmış müxtəlif proqram və layihələrin həyata keçirilməsi, aidiyyəti dövlət qurumlarının iştirakı və səyi, xüsusilə də zəruri proseslərin sadələşdirilməsi və şəffaflığının təmin edilməsi sayəsində mümkün olacaqdır.

5. HƏDƏF İNDİKATORLARI

KOS sahəsində prioritetlərin həyata keçirilməsi nəticəsində aşağıdakılar proqnozlaşdırılır:

- KOS-un ÜDM-də payının 15 faizə çatdırılması;
- KOS-un məşğulluqda payının 20 faizə qədər artırılması;
- KOS-un ölkənin qeyri-neft ixracında payının 10 faizə çatdırılması;
- 2020-ci ildə real ÜDM-in 1 milyard 260 milyon manat artması;
- 2020-ci ildə 34240 yeni iş yerinin yaradılması.

KOS-un inkişafı ilə bağlı nəzərdə tutulan tədbirlər üzrə aşağıdakı əsas icra göstəriciləri müəyyən edilmişdir:

- sənaye klasterləri daxilində istehsal olunan məhsullarda KOS subyektlərinin payının 40 faizə çatdırılması;
- KOS subyektləri arasında mübahisələrin məhkəməyəqədər həlli göstəricilərinin 2 dəfə yaxşılaşdırılması;
- KOS subyektlərinin bərpa (iflas vəziyyətindən) tempinin 4 faizə çatdırılması;
- daşınar əmlakın banklar tərəfindən təminat predmeti kimi qəbul edilməsi göstəricisinin 2 dəfə artırılması;
- lizinq əməliyyatlarının ÜDM-də payının 2 faizə çatdırılması;
- qeyri-neft ixracında 5 faizlik artım əldə olunması;
- 3-5 model müəssisənin yaradılması;
- 5 yeni biznes inkubatorunun yaradılması;
- il ərzində ən azı 25 startap layihəsinin başlanması;
- il ərzində ən azı 1000 kiçik və orta sahibkar üçün xüsusi təlimlərin təşkil edilməsi;
- 3 innovasiyayönümlü regional klasterin yaradılması.

6. STRATEJİ MƏQSƏDLƏR

KOS üzrə strateji məqsədlər aşağıdakılardan ibarətdir:

- KOS-un inkişafı üzrə daha əlverişli biznes mühitinin formalaşdırılması;
- KOS-un rəqabətqabiliyyətliliyinin və iqtisadiyyatdakı rolunun artırılması;
- ölkədə istehsal olunan iş və xidmətlərin bütün mümkün hissəsinin, xüsusilə intellektual hissəsinin KOS-un və nəticədə, innovasiyaların inkişafı yolu ilə yaradılmasına nail olunması;
- KOS-un məşğulluğun təmin edilməsindəki rolunun artırılması;
- əsas istehlak mallarının KOS subyektləri tərəfindən istehsalına nail olunması;
- KOS subyektlərinin ixrac etdikləri malların ölkənin ümumi ixracındakı payının artırılması.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması

Son illər Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafına nail olunması və rəqabətqabiliyyətliliyin təmin edilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir. İqtisadi islahatlar və iqtisadiyyatın qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin dəstəklənməsi, əlavə güzəşt və stimullaşdırma siyasətinin gerçəkləşdirilməsi nəticəsində bu sahədə ciddi irəliləyişlər əldə olunmuşdur.

Belə ki, 2004-cü ildən başlayaraq sahibkarlığın inkişafında yeni mərhələyə qədəm qoyulmuşdur. 2015-ci ildə özəl sektorun ÜDM-də və məşğulluqda payı müvafiq olaraq 81 və 75 faiz təşkil etmişdir. 2016-cı ilin 1 iyul tarixinə ölkədə qeydiyyatdan keçmiş sahibkarlıq subyektlərinin sayı 700 mini keçmişdir.[4]

Sahibkarlıq sahəsində yoxlamaların iki il müddətinə dayandırılması, yoxlamaların vahid reyestrinin tutulması və əvvəlcədən yoxlama subyektlərinin məlumatlandırılması KOS sahəsinə xüsusilə müsbət təsir göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında və mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması isə KOS subyektləri üçün bahalı olan və sonda istehsalın maya dəyərində öz əksini tapan izafi xərclərin, o cümlədən məhkəmə xərclərinin azaldılmasında böyük rol oynayacaqdır. Sərhəddə "bir pəncərə" sisteminin tətbiqi, Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın əsas məqsədi idxal-ixrac əməliyyatlarını sadələşdirməklə, KOS subyektlərinin xarici fəaliyyətdən asılı komponentlərinin yaxşılaşdırılmasına xidmət etməkdir.

Lakin iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi, KOS-a əsaslanan rəqabətqabiliyyətli istehsal potensialının artırılması növbəti dövrlərdə də əlavə tədbirlərin həyata keçirilməsini zəruri edir.

Bu səbəbdən biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində islahatları davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyən edilmişdir və bu hədəfə nail olmaq üçün dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin dəstəklənməsi vacibdir. Bu məqsədlə, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, sahibkarlığın dövlət tənzimlənməsində inzibati qayda və prosedurların təkmilləşdirilməsi, təşviq mexanizmlərinin tətbiqi və elektron hökumət xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi prioritet olaraq qalacaqdır. Ölkədə KOS-un inkişafı biznes və investisiya mühitinin yerli və xarici investorlar üçün əlverişliliyinin daha da artırılmasını, ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun daha da cəlbedici biznes və investisiya mühitinin formalaşdırılmasını zəruri edəcəkdir.

[4] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

7.1.1. Prioritet 1.1. Mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması

Əsaslandırma

KOS subyektlərinin miqyasının kiçik olması və bazardakı dəyişikliklərə həssas olması onlara daha çox dövlət dəstəyinin göstərilməsini zəruri edir. Belə ki, KOS subyektləri müəyyən məlumatların əldə edilməsində, eləcə də bir sıra biznes xidmətlərinə çıxışda çətinliklərlə üzləşirlər. Araşdırmalar göstərir ki, Azərbaycanda KOS subyektləri biznes məsləhət xidmətlərindən digərləri ilə müqayisədə çox az istifadə edirlər ki, bu da onların rəqabət qabiliyyətini və dayanıqlılığını zəiflədir. Bunun əsas səbəblərindən biri KOS subyektlərinin məsləhət xidmətlərinə az maraq göstərməsidir. Belə ki, bəzi KOS subyektləri qanunvericiliyin tələblərindən, biznes risklərindən, mövcud sektordakı vəziyyətdən xəbərsiz şəkildə fəaliyyətə başlayırlar ki, bu da bəzən onların uğursuzluqla üzləşmələrinə səbəb olur. KOS subyektlərinin məsləhət xidmətlərinə marağının az olmasının səbəblərindən biri onların bu barədə məlumatsızlığı, digəri isə biznes məsləhət xidmətlərinə çıxışın mürəkkəbliyidir.

Azərbaycanda hazırda müxtəlif dövlət orqanları öz səlahiyyətləri çərçivəsində KOS subyektlərinə müxtəlif xidmətlər (o cümlədən məsləhət xidməti, satış və digər istiqamətlər üzrə dəstək) göstərirlər. Bununla belə, beynəlxalq təcrübəyə əsasən, KOS subyektlərinə belə xidmətlərin vahid mərkəzdən göstərilməsi onların həmin xidmətlərdən daha səmərəli istifadəsinə və beləliklə, inkişafına daha yaxşı imkan yaradır. Bütün bunları, həmçinin KOS sahəsində siyasət və tənzimləmə fəaliyyətlərinin bir-birindən ayrılmasını təmin etmək məqsədilə mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması nəzərdən keçirilə bilər.

Görüləcək tədbirlər

Tədbir 1.1.1: Mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması

Azərbaycanda mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması nəzərdən keçiriləcək, agentliyin məqsəd və missiyası, eləcə də aparıcı prinsipləri müəyyənləşdiriləcəkdir.[5] İlkin mərhələdə agentliyin kollegial orqanı qurulacaq, özəl və dövlət sektorundan, yerli assosiasiyalardan və ali təhsil müəssisələrindən kollegial orqana nümayəndələr seçiləcəkdir. Agentliyin prioritetləri, qısa və uzunmüddətli hədəfləri müəyyən ediləcək, fəaliyyəti üçün zəruri maliyyələşdirmə mexanizmləri işlənib hazırlanacaq və lazımi resursların təmin edilməsi işinə baxılacaqdır.

Hökumət KOS agentliyinin fəaliyyətinin monitorinqini və qiymətləndirilməsini aparacaq, agentliyin kollegial orqanının üzvləri ilə birlikdə ilin əvvəlində illik hədəf planlar müəyyən edəcək və həmin hədəflərin icra vəziyyətinin monitorinqini həyata keçirəcəkdir. Əldə olunan nailiyyətlərin, cari fəaliyyətin və mövcud çətinliklərin müzakirəsi, eləcə də növbəti illər üçün yeni hədəflərin müəyyən edilməsi məqsədilə hökumət KOS agentliyinin kollegial orqanının və rəhbərliyinin iştirakı ilə illik iclaslar keçirəcəkdir.

Mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması barədə dövlət və özəl sektor nümayəndələrinə məlumat verilməsi, habelə onun rolunun və gətirəcəyi faydaların müzakirəsi məqsədilə özəl qurumlar, beynəlxalq təşkilatlar, təhsil müəssisələri və digər

[5] *Qeyd: KOS agentliyinin icraçı qismində müəyyən edildiyi tədbirlər KOS agentliyi yaradılacağı təqdirdə agentlik tərəfindən, əks halda, müvafiq qurumlar tərəfindən həyata keçiriləcəkdir.*

maraqlı tərəflərlə görüşlər keçiriləcəkdir. Rəsmi məktublar və dövlət KİV-ləri vasitəsilə KOS subyektləri KOS agentliyinin yaradılması və bu agentliyin fəaliyyətinin KOS-a gətirəcəyi faydalar barədə məlumatlandırılacaq, eləcə də agentlik və KOS subyektləri arasında əməkdaşlığın metod və mexanizmləri müzakirə ediləcəkdir. KOS agentliyinin internet saytı yaradılacaq və bu sayt vasitəsilə KOS subyektləri mövcud fəaliyyətlər, xəbərlər və imkanlar haqqında məlumatlandırılacaqlar.

Tədbir 1.1.2: KOS agentliyinin strukturunun formalaşdırılması

KOS agentliyi stimullaşdırıcı funksiyalara malik daimi şöbələrdən və təşəbbüslərin icrası üçün məsul bölmələrdən ibarət olacaqdır. Hər iki struktur vahid idarə heyətinə hesabat verəcəkdir. Agentliyin əlaqələndirmə sistemi dəstək şəbəkəsi olaraq nazirliklərdən, özəl sektordan, assosiasiyalardan, eləcə də təhsil qurumlarından ibarət olacaqdır.

Tədbir 1.1.3: KOS agentliyinin vəzifələrinin müəyyən edilməsi

Agentliyin idarə heyəti aidiyyəti dövlət orqanları ilə birlikdə bu Strateji Yol Xəritəsinin icrasına nəzarəti həyata keçirəcəkdir. Bunun üçün proqram, təşəbbüslər, əsas icra göstəriciləri və yaradılacaq işçi qruplar üçün prioritetlər müəyyən ediləcək, həmin işçi qrupların maliyyələşdirilməsi mexanizmi işlənib hazırlanacaq və zəruri resursların ayrılması məsələsinə baxılacaqdır. Agentlik nazirliklərə təkliflər hazırlayacaq və icra şəffaflığını təmin edəcək, eləcə də işçi qruplar və təminat bölmələri arasında əlaqələndirməni təşkil edəcəkdir.

Tədbir 1.1.4: KOS evinin yaradılması

KOS subyektlərinin müxtəlif biznes xidmətləri və sahibkarlıq fəaliyyəti ilə bağlı məlumatlara çıxış imkanlarını artırmaq məqsədilə KOS agentliyinin nəzdində KOS evinin yaradılması nəzərdən keçiriləcəkdir. KOS evində sahibkarlara müxtəlif biznes xidmətləri göstəriləcək və onlar üçün tələb olunan məlumatlara çıxış imkanları yaradılacaqdır.

KOS evində “bir pəncərə” prinsipi əsasında sahibkarlara xidmətlər göstərən mərkəz, məşğulluq xidmətləri, təlim mərkəzi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) nümayəndəliyi, beynəlxalq qurumların şöbələri, Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) nümayəndəliyi, kredit zəmanət fondu və digər əlaqəli qurumlar yerləşə bilər. Agentlikdə ərizələr, təlimlər və informasiya texnologiyalarının imkanları da daxil olmaqla, bütün xidmətlərin göstərilməsi üçün onlayn portal fəaliyyət göstərəcəkdir. Belə agentliklərin yaradıldığı digər qabaqcıl ölkələrin təcrübələrindən model kimi istifadə ediləcəkdir.

KOS evində məlumat mərkəzi fəaliyyət göstərəcək və sahibkarlar burada öz bizneslərı ilə bağlı müxtəlif məlumatları (məsələn, lisenziya və icazələrin alınması qaydaları, mövcud kredit imkanları, ölkədə fəaliyyət göstərən sənaye zonaları, sənaye klasterləri, onlar tərəfindən təmin edilən xidmətlər və s.) əldə edə biləcəklər. Eyni zamanda, KOS evində təlim-tədris xidmətləri göstəriləcək və KOS subyektləri bu xidmətləri ödənişsiz və ya güzəştli qiymətlərlə əldə edə biləcəklər. KOS evində mütəxəssis bankı yaradılacaq və müxtəlif ixtisaslı kadrlar haqqında məlumatlar bu bankda toplanacaqdır. Həm KOS subyektləri, həm də iş axtaran ixtisaslı mütəxəssislər bu məlumat bazasından ödənişsiz istifadə edəcəklər.

Biznes məsləhət xidmətləri KOS evində təmin edilməsi nəzərdə tutulan xidmətlər sırasında xüsusi yer tutacaqdır. Burada KOS subyektləri üçün biznes planların hazırlanması, bazar araşdırmalarının aparılması, hüquq məsləhətlərinin verilməsi, mühasibatlıq və s. kimi xidmətlər ödənişsiz və ya güzəştli qiymətlərlə təqdim ediləcəkdir. KOS evində, həmçinin müxtəlif seminarlar, görüşlər və "dəyirmi masa"lar təşkil ediləcəkdir.

Mərkəzləşdirilmiş KOS agentliyi ilə birlikdə, müxtəlif sektorlardan olan KOS subyektləri, eləcə də dövlət qurumları arasında müsahibə və sorğular keçiriləcək və təkmilləşdirilməsinə ehtiyac olan əsas xidmət sahələri müəyyən ediləcəkdir. KOS agentliyi ilə birlikdə, yuxarıda sadalanan meyarlar əsasında KOS üçün biznes mühitinin sadələşdirilməsi təşəbbüsləri prioritetləşdiriləcəkdir.

Tədbir 1.1.5: Vahid məlumat portalının yaradılması

KOS subyektlərinin müxtəlif xarakterli məlumat mənbələrinə çıxış imkanlarını artırmaq məqsədilə vahid onlayn məlumat portalı yaradılacaqdır. Bu portalda KOS subyektləri üçün vacib olan müxtəlif məlumatlar yerləşdiriləcək və beləliklə, sahibkarlar ölkədəki qanunvericilik bazasına, biznes biliklərinə, mütəxəssis bankına və digər məlumatlara çıxış imkanı əldə edəcəklər. Eyni zamanda, bu portalda distant təhsil proqramları, uğurlu biznes nümayəndələri ilə müsahibələr və digər faydalı məlumatlar öz əksini tapacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Yaradılması nəzərdə tutulan KOS agentliyi Azərbaycanda KOS fəaliyyətinin inkişafında uğur qazanmaq üçün aparıcı qüvvə rolunu oynayacaqdır. Yeni agentliyin məqsədi Azərbaycanda fəaliyyət göstərən KOS subyektlərinin sayını, eləcə də bu sahibkarlıq subyektlərinin ÜDM-də payını 2020-ci ilədək qoyulan hədəflərə uyğun artırmaqdan ibarət olacaqdır.

Bu prioritetin tərkib hissəsi olaraq, Azərbaycanın real ÜDM-inin 2020-ci ildə 140 milyon manat birbaşa, 60 milyon manat dolayı olmaqla, ümumilikdə, 200 milyon artacağı proqnozlaşdırılır. Prioritet çərçivəsində 2020-ci ildə 240 yeni iş yerinin yaradılacağı gözlənilir.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün 2020-ci ilədək təxminən 10 milyon manat investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- agentliyin fəaliyyətinin düzgün təşkil edilməməsi.

7.1.2. Prioritet 1.2. KOS üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi və qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi

Əsaslandırma

Hər bir dövlətin əsas məqsədlərindən biri mükəmməl qanunvericilik bazasının formalaşdırılmasına nail olmaqdır. Əks halda, həm dövlət, həm də özəl sektorda fəaliyyət göstərən müxtəlif qurumların fəaliyyətində, eləcə də dövlətin müəyyən etdiyi hədəflərə çatmaqda çətinliklərin yaranması labüddür.

Sahibkarlıq fəaliyyətinin davamlı inkişafı Azərbaycanda dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Son illərdə qanunvericilik bazasının, inzibati prosedurların və dövlət-sahibkar münasibətlərinin təkmilləşdirilməsi istiqamətində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi sahəsində tətbiq edilən qabaqcıl alətlərdən biri qanunvericiliyin təsirinin analizi sistemidir. Qüvvədə olan və ya təklif edilən normativ və qeyri-normativ-hüquqi aktların müsbət və mənfi cəhətlərinin qiymətləndirilməsinə daha əhatəli yanaşmanı təmin edən bu sistem mövcud problemlərin araşdırılmasında mühüm rol oynamaqla, hökumətin qərarlarının düzgün və məqsədəuyğun olub-olmamasını müəyyən edən, neqativ halların minimuma endirilməsində istifadə olunan bir vasitədir. Bu sistem qərarların təhlil olunmadan birbaşa qəbul edilməsinin qarşısını alır və müvafiq orqanları dolğun məlumatlarla təmin etməklə, qərarların qəbulu prosesində mümkün variantlar təklif edir. Qanunvericiliyin maraqlı tərəflərlə ictimai müzakirəsi, həmin tərəflərin mövqelərinin və onlara təsir effektlərinin öyrənilməsi analizin mühüm tərkib hissələrindən sayılır. Beləliklə, qanunvericiliyin təsiri analizi normativ-hüquqi aktların layihələrinin hazırlanması prosesinin tərkib hissəsi olmaqla rəsmi prosedurdur ki, bunun vasitəsilə normativ-hüquqi aktın qəbul edilməsinin təsirləri barədə özəl sektorun mövqeyi öyrəniləcəkdir. İctimai məsləhətləşmələrin düzgün təşkili yeni qanunvericiliyin səmərəli olmasına və mümkün təsirləri barədə daha geniş məlumatın əldə edilməsinə imkan yaradır. Odur ki, ölkəmizdə qanunvericiliyin təsiri analizinin tətbiqi zəruridir.

Görüləcək tədbirlər

Tədbir 1.2.1: Qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi

Həyata keçirilən islahatların KOS subyektlərinə təsirini qiymətləndirmək məqsədilə qanunvericiliyin təsiri analizi sisteminin tətbiqi nəzərdən keçiriləcəkdir. Bu sistem mövcud qanunvericiliyin ölkədə aparılan islahatlara təsirini ölçməyə və müvafiq təkmilləşdirmələr aparılmasına yardım edəcəkdir. Sistemin tətbiqi üzrə xarici ölkələrin təcrübəsi öyrəniləcək, Azərbaycanda KOS-un xüsusiyyətləri nəzərə alınmaqla, müvafiq tədbirlər həyata keçiriləcəkdir.

Tədbir 1.2.2: Qanunvericiliyin təsiri analizinin tətbiqinin səmərəliliyini artırmaq üçün institusional təsisatın yaradılması

Dünyada baş verən qlobal iqtisadi proseslər fonunda müxtəlif sahələr üzrə dövlət siyasətinin müəyyənləşdirilməsində, eləcə də ölkə və region səviyyəsində qərarların qəbulunda və hüquqi aktların layihələrinin hazırlanmasında ictimaiyyətlə məsləhətləşmələr aparılmasının zəruriliyini nəzərə alaraq, bu sahədə institusional təsisatın yaradılması imkanı araşdırılacaq və məqsədəuyğun hesab edildiyi təqdirdə,

qanunvericiliyin təsiri analizini həyata keçirən qurum yaradılacaqdır. Həmin qurumun işi hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı qiymətləndirmə aparmaqdan, qanun layihələrinin hazırlanmasında özəl sektorun iştirakını təmin etməkdən, rəy hazırlamaq və təkliflər verməkdən ibarət olacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Qanunvericiliyin təsiri analizinin tətbiqi ölkəmizdə qərar qəbuletmə mexanizmi üzrə yeni bir mərhələnin başlanğıcı olacaqdır. Bununla da, normativ-hüquqi aktların qəbul edilməsinin təsirləri daha dolğun öyrəniləcək, ictimai məsləhətləşmələr təşkil olunacaq, qanunvericiliyin mümkün səmərəsi və təsirləri barədə daha dolğun məlumatlar əldə ediləcəkdir.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əsaslı investisiya qoyuluşuna ehtiyac olmayacaqdır.

Gözlənilən risklər

- qanunvericiliyin KOS subyektlərinə təsirlərinin ölçülməsində çətinliklər yaranması;
- bütün maraqlı tərəflərin istəklərinin təmin olunmaması (maraqların toqquşması);
- qanunvericiliyin təkmilləşdirilməsində ictimai sektorun marağının az olması.

7.1.3. Prioritet 1.3. Dövlət-özəl tərəfdaşlığının dərinləşdirilməsi

Əsaslandırma

Beynəlxalq təcrübədə infrastruktur layihələrinin maliyyələşdirilməsində özəl sektorun iştirakının təmin edilməsi üçün dövlət-özəl tərəfdaşlığı təcrübəsindən geniş istifadə edilir. Belə ki, infrastruktur layihələrinin həyata keçirilməsinin irihəcmli investisiya tələb etməsi və dövlətlərin maliyyə resurslarının bunu qarşılamaq imkanının məhdud olması səbəbindən həmin layihələrin icrası zamanı özəl investisiyalara üstünlük verilir. Bu halda özəl sektor infrastruktur layihələrini maliyyələşdirir və belə layihələri uzunmüddətli dövrdə idarə etməklə, tədricən öz investisiyasını geri götürərək, infrastruktur obyektini dövlətə təhvil verir. Dünya Bankının məlumatlarına əsasən, 2015-ci ildə dünya üzrə infrastruktur layihələrinə dövlət-özəl tərəfdaşlığı mexanizmi ilə 52,3 milyard ABŞ dolları həcmində investisiya yatırılmışdır. Dünyada bu mexanizm vasitəsilə, hava limanlarının, dəmir yollarının, dəniz limanlarının, magistral yolların, elektrik, su, qaz kimi kommunal xidmətlər üzrə infrastruktur obyektlərinin, telekommunikasiya xətlərinin təmir və tikintisinin maliyyələşdirilməsi təmin edilir.

Azərbaycanda həyata keçirilən iqtisadi islahatların səmərəliliyinin artırılması özəl sektorla sıx əməkdaşlığın qurulmasını da zəruri edir ki, bu istiqamətdə diqqət tələb edən əsas məsələ dövlət-özəl tərəfdaşlığıdır.

Dövlət-özəl tərəfdaşlığının hüquqi əsasları baxımından “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanunu xüsusi əhəmiyyət kəsb edir. Tikinti və infrastruktur obyektləri ilə bağlı investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsinin hüquqi və iqtisadi əsaslarını müəyyən edən həmin Qanunda xüsusi “Tik-idarə et-təhvil ver”

modelinin tətbiqi nəzərdə tutulur ki, bu da tikinti və infrastruktur obyektləri ilə əlaqədar layihələrin investisiya xərclərinin (əldə ediləcək gəlir də daxil olmaqla) investora, onun istehsal etdiyi mal və xidmətlərin istehlakçıları və ya səlahiyyətli orqanlar tərəfindən, müqaviləyə uyğun olaraq, satınalma yolu ilə ödənilməsinə imkan yaradır. Qanunda əməkdaşlıq yardımının qaydası – investorun investisiya layihəsi üzrə çəkdiyi xərclərin istehlakçılar tərəfindən xidmət haqları formasında tam və ya qismən ödənilməsi mümkün olmadığı hallarda, onların ödədiyi xidmət haqları və investorun itkiləri nəzərə alınmaqla, tərəflərin razılığı ilə müəyyən edilən maddi yardımı səlahiyyətli orqanın ödəməsi qaydası da müəyyən edilmişdir.

Hazırda islahatların dərinləşdiyi bir dövrdə dövlət-özəl tərəfdaşlığının müxtəlif formalarından istifadə olunması dövlət büdcəsinin investisiyalarla bağlı yükünün azaldılmasına, sosial infrastruktur layihələrində özəl sektorun yaxından iştirakına şərait yarada bilər.

Görüləcək tədbirlər

Tədbir 1.3.1: Dövlət-özəl tərəfdaşlığı ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi

Dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi işləri davam etdiriləcəkdir. Bu normativ-hüquqi baza, ilk növbədə, dövlət-özəl tərəfdaşlığını rəsmiləşdirən müqavilədən, Azərbaycan Respublikasında dövlət-özəl tərəfdaşlığı üçün uyğun sahələrin siyahısının və başqa müvafiq formaların təsdiq edilməsindən, habelə digər tənzimləyici sənədlərin qəbulundan ibarət olacaqdır.

Tədbir 1.3.2: Dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı konsepsiyanın hazırlanması

Geniş təhlillər aparılmaqla, dövlət-özəl tərəfdaşlığı əsasında inkişaf etdiriləcək prioritet sahələri (kommunal, infrastruktur, nəqliyyat və s.) və onların maliyyələşdirilməsi şərtlərini özündə əks etdirən konsepsiya hazırlanacaq və təsdiq üçün aidiyyəti üzrə təqdim ediləcəkdir. Konsepsiyada KOS subyektlərinin icraçı kimi layihələrə cəlb edilməsi məsələsi də prioritetləşdiriləcəkdir.

Tədbir 1.3.3: "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun prioritetləşdirilməsi

Dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi məqsədilə "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi istiqamətində işlər daha da gücləndiriləcəkdir.

Tədbir 1.3.4: Dövlət satınalmalarında KOS subyektlərinin minimum iştirak payının müəyyənləşdirilməsi

Dövlət ehtiyacları üçün məhsul istehsalı və işlərin (xidmətlərin) görülməsi üzrə dövlət sifarişlərinin yerinə yetirilməsində KOS subyektlərinin daha geniş iştirakının təmin edilməsi ilə bağlı müvafiq tədbirlər görüləcəkdir. Dövlət satınalmalarında KOS subyektlərinin minimum iştirak payının müəyyənləşdirilməsi ilə bağlı təcrübələr

araşdırılacaq və müsbət təcrübələrə uyğun şəkildə qanunvericilikdə müvafiq dəyişikliklər ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi istiqamətində aparılan işlər nəticəsində bu sahədə qanunvericilik bazası təkmilləşdiriləcək və konsepsiya hazırlanacaqdır. Bununla yanaşı, dövlət-özəl tərəfdaşlığı layihələrinin tətbiq olunacağı prioritet sahələr müəyyənləşdiriləcək, bu sahələrdə peşəkar kadrların hazırlanması və iştirakının təmin edilməsi ilə bağlı tədbirlər görüləcəkdir. Bütün bunlar dövlət investisiyasına əsaslanan bir sıra layihələrin özəl investisiyalar hesabına maliyyələşməsini təmin edəcəkdir.

Əsas icra göstəriciləri:

- dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı konsepsiyanın hazırlanması;
- 2020-ci ilədək KOS subyektlərinin dövlət sifarişlərinin icrasında payının artırılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əsaslı investisiya qoyuluşuna ehtiyac olmayacaqdır.

Gözlənilən risklər

- bürokratik əngəllər səbəbindən dövlət sifarişlərinin icrasında KOS subyektlərinin iştirakının məhdud olması;
- dövlət-özəl tərəfdaşlığına KOS subyektlərinin az maraq göstərməsi.

7.1.4. Prioritet 1.4. Rəqabət mühitinin təkmilləşdirilməsi

Əsaslandırma

Rəqabət bazarda tələb və təklifə müvafiq olaraq qiymətlərin öz-özünü tənzimləməsinin və tələb həcmi ilə qiymət arasında tarazlıq əldə edilməsinin ən mühüm şərtlərindən biri kimi çıxış edir. Belə ki, bazarda sağlam rəqabət mühiti təmin edildiyi zaman hər hansı bazar subyekti tərəfindən məhsulun qiymətinin artırılması istehlakçıların alternativ variantlara üz tutmasına səbəb olur. Eyni məhsulu digər rəqib bazar subyektlərinin daha aşağı qiymətə təklif etməsi həmin bazar subyektini qiymətləri bazarın tələbinə uyğunlaşdıraraq aşağı salmağa məcbur edir ki, bu zaman rəqabət nəticəsində eynicinsli əmtəələrə ümumi qiymət formalaşır və qiymət əmələgəlməsinin bazar mexanizminin fəaliyyəti təmin edilir.

Rəqabət mühitinin mövcud olmasının əsas əlamətlərindən biri də iştirakçılarının sayının qeyri-məhdudluğu, onların bazara sərbəst daxil ola bilməsi və bazardan sərbəst çıxa bilməsi imkanıdır. Bu isə o deməkdir ki, hər bir şəxs istədiyi vaxt istədiyi qanuni fəaliyyət sahəsində sahibkarlıqla məşğul ola və ya onu dayandıra bilər.

Həmçinin iqtisadiyyatda durğunluğun aradan qaldırılması və iqtisadi inkişafın sürətləndirilməsi üçün bank sektorunun vasitəçiliyi ilə real sektorun maliyyə mənbələrinə çıxışının təmin edilməsi və biznes potensialının artırılması tələb olunur. Sağlam rəqabət mühitində məhsuldarlığın və keyfiyyətin artırılması, yeni texnologiya və innovasiyaların tətbiq edilməsi yolu ilə bazardakı yerini qorumağa çalışan sahibkarlıq subyektlərinin bank kreditlərinə davamlı şəkildə müraciət etməsi, həm də pul multiplikatoru səviyyəsini, yəni iqtisadiyyatın pul yaratmaq qabiliyyətini artırır.

Azərbaycan Respublikasında antiinhisar fəaliyyətinə nəzarət edən qurum Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətidir. Ölkəmizdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi iqtisadiyyatın tənzimlənməsi sahəsində dövlətin strateji vəzifələrindən biri kimi müəyyən edilmişdir. Rəqabət mühitinin daha da yaxşılaşdırılması məqsədilə qanunvericilik bazasının təkmilləşdirilməsi və institusional idarəetmə mexanizminin gücləndirilməsi zəruridir. Belə ki, hazırda ölkənin qarşısında duran əsas çağırışlardan biri iqtisadiyyatın ixracyönümlülüyünün təmin edilməsi və idxalın əvəzlənməsidir. Bunun üçün əsas hədəf yerli istehsalın rəqabət qabiliyyətinin artırılmasıdır. Rəqabət qabiliyyətinin artırılması yalnız səmərəli rəqabət mühitinin bazarda formalaşdırdığı rəqabət təzyiqi vasitəsilə mümkündür. Belə ki, bazar subyektləri arasında rəqabət təzyiqi məhsuldarlığın və iqtisadi səmərənin artmasına, texnologiya və innovasiyaların geniş tətbiqinə şərait yaradır. Yalnız tam rəqabət şəraitində iqtisadiyyata likvidlik dəstəyi verməklə, idxalın yerli istehsalla əvəzlənməsinə və ixracın təşviqinə nail olmaq mümkündür, çünki yalnız bu halda yerli məhsul və xidmətlərin rəqabətqabiliyyətliliyi təmin edilə bilər.

Görüləcək tədbirlər

Tədbir 1.4.1: Qanunvericiliyin təkmilləşdirilməsi

Beynəlxalq təcrübədə antiinhisar fəaliyyətinə nəzarət edən qurum rəqabət prinsipləri çərçivəsində qərarlar qəbul edir və hər bir iş üzrə qərarlar hər hansı kənar təlimatlar olmadan, tam müstəqil qəbul edilir. Bununla əlaqədar olaraq, qabaqcıl ölkələrin təcrübəsinə əsasən qanunvericilik aktlarının vahid Rəqabət Məcəlləsində birləşdirilərək qəbul edilməsi təşviq olunacaqdır.

Tədbir 1.4.2: İnstitusional islahatların aparılması

Rəqabət qanunvericiliyinin pozulması hallarının ilkin araşdırılması və aşkar edilmiş qanun pozuntuları ilə əlaqədar işlərə baxılaraq qərarların qəbul edilməsi iki fərqli fəaliyyət istiqaməti olduğundan, onların müvafiq ixtisaslaşması tələb olunur. Bu baxımdan, qabaqcıl xarici təcrübəyə uyğun olaraq, Azərbaycanda müstəqil fəaliyyət göstərən rəqabət orqanının yaradılması məsələsi araşdırılacaqdır. Sözügedən rəqabət orqanının maraq toqquşmasının və subyektiv halların qarşısının alınması məqsədilə bir-birindən asılı olmayan iki struktur bölmədən – araşdırma və analitik təhlil aparan bölmədən və müvafiq işlər üzrə qərar verən, daimi əsasda fəaliyyət göstərən, yüksək statusla təyin olunan və müvafiq səviyyədə hesabat verən bir neçə üzvdən ibarət şuradan (və ya komissiyadan) ibarət olması nəzərdən keçiriləcəkdir. Bunun nəticəsində rəqabət qanunvericiliyinin pozulması ilə əlaqədar işlərin araşdırılması və müvafiq qərarların qəbul edilməsi zamanı rəqabət orqanı tərəfindən qəbul edilən qərarların legitimliyi və etibarlılığı təmin olunacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin icrası nəticəsində rəqabət mühiti daha da təkmilləşəcək və azad rəqabət şəraitində qiymətlərin sabitliyi təmin olunacaq, məhsul müxtəlifliyi və iqtisadi səmərəlilik artacaqdır. Rəqabət sahəsində aparılan islahatlar sahibkarlıq subyektlərinin

99 faizini təşkil edən KOS subyektləri üçün daha əlverişli biznes mühiti formalaşdırılacaq, xarici investorların bazar risklərini xeyli azaldacaqdır.[6]

Əsas icra göstəricisi:

- rəqabət məcəlləsinin qəbul edilməsi.

Tələb edilən investisiya

Bu prioritetin icrası zamanı əsaslı investisiya qoyuluşu tələb edilmir.

Gözlənilən risklər

- bazarda kifayət qədər güclü mövqelərə malik böyük müəssisələrin sağlam rəqabət mühitinin formalaşmasına mane olması.

7.1.5. Prioritet 1.5. KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi və vergi islahatlarının davam etdirilməsi

Əsaslandırma

Azərbaycanda sahibkarların hüquqlarının və qanuni mənafelərinin qorunması və müxtəlif dövlət orqanları tərəfindən yoxlamaların sayının azaldılması məqsədilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanunu qəbul edilmişdir. Qanunda yoxlamaların qanuniliyi, məqsədi və prinsipləri, yoxlayıcı orqanların səlahiyyətləri, risk qiymətləndirilməsi sistemi, yoxlamaların qeydiyyatı kimi məsələlər öz əksini tapmışdır.

Qanunda, ilk dəfə olaraq, yoxlayıcı orqan tərəfindən sahibkarlara məsləhət xidmətlərinin göstərilməsi, yoxlamaların risk qiymətləndirilməsi prinsipi əsasında təyin edilməsi, yoxlamaların elektron uçotu və yoxlamalar həyata keçirilərkən yoxlama suallarının siyahısının tətbiqi nəzərdə tutulur. Qanuna əsasən, sahibkarlıq subyektlərində yoxlamalar risk qrupları üzrə bölgüyə uyğun olaraq həyata keçirilir. Risk metodologiyasına əsasən aşağıriskli qruplarda yoxlamaların sayı minimuma, yəni üç ildə bir dəfəyə endirilmişdir. Bundan əlavə, yoxlayıcı orqanlar yoxlama predmetini təşkil edəcək sualları əvvəlcədən onlayn resurslar vasitəsilə sahibkarlıq subyektinə çatdırmalıdırlar.

Eyni zamanda, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanunu qəbul edilmiş və Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 (iki) il müddətinə dayandırılmışdır.

Biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilmiş, sahibkarlığın inkişafı ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilmiş, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 761 nömrəli Fərmanına əsasən, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çoxpilləliyin təmin edilməsi, mərkəzi və yerli icra

[6] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana şikayət verilməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında, habelə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmışdır.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi, verginin stimullaşdırıcı təsirinin önə çəkilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi zəruridir. Bu istiqamətdə atılan mühüm addımlardan biri də "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 2257 nömrəli Sərəncamıdır. Həmin Sərəncamda vergi sahəsində 21 istiqamət üzrə islahatların aparılması nəzərdə tutulmuşdur ki, bu da vergi sisteminin ən yaxşı beynəlxalq təcrübələrə uyğunlaşdırılmasına gətirib çıxaracaqdır.

Son illərdə KOS subyektlərinin lisenziyalaşdırılması və icazələrin verilməsi istiqamətində ciddi addımlar atılmışdır. Belə ki, sahibkarlıq fəaliyyəti üçün tələb edilən lisenziyalar və icazələr üzrə tələblərin asanlaşdırılması, lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması, icazələrin verilməsi prosedurlarının sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın yaradılması, lisenziyaların və icazələrin əldə edilməsində "bir pəncərə" prinsipinin tətbiqi üzrə fundamental tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə həyata keçiriləcək növbəti addım ölkə xaricində verilmiş lisenziyaların Azərbaycan Respublikasında tanınması mexanizminin formalaşdırılması ilə bağlı olacaqdır.

Görüləcək tədbirlər

Tədbir 1.5.1: KOS sahəsində aparılan yoxlamalar üzrə monitorinq və qiymətləndirmə aparılması

KOS sahəsində aparılan yoxlamaların sayının azalması və KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması məqsədilə mütəmadi olaraq bu sahədə aparılan yoxlamaların monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Bununla yanaşı, yoxlamaların KOS subyektlərinin fəaliyyətinə təsirinin təhlili aparılmaqla, sahibkarlıq sahəsində yoxlamaların dayandırılması müddətinin artırılması imkanları nəzərdən keçiriləcək və müvafiq təkliflər hazırlanacaqdır.

Tədbir 1.5.2: Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması

KOS subyektlərində yoxlamaların təkmilləşdirilməsi üçün bir sıra əlavə tədbirlər görüləcək və qərarlar qəbul ediləcəkdir. İlk növbədə, KOS subyektlərində yoxlamaların, qanunda nəzərdə tutulduğu kimi, risk dərəcəsi əsasında aparılması prinsiplərinin tətbiqi genişləndiriləcək, yoxlamaların sayı optimallaşdırılacaqdır. Belə ki, KOS subyektlərinə göndərilən səyyar yoxlamaların sayı məhdudlaşdırılacaq və elektron yoxlama metodu tətbiq ediləcəkdir.

Tədbir 1.5.3: KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması məqsədilə vergi islahatları davam etdiriləcək və bu islahatlar zamanı əsas diqqət KOS subyektlərinə yönəldiləcəkdir. Vergilər Nazirliyi tərəfindən vergi dərəcələrinin optimal səviyyəsinin müəyyənləşdirilməsi və KOS-un dinamik inkişafı məqsədilə KOS nümayəndələri, biznes assosiasiyaları, ictimai təşkilatlar da cəlb edilməklə məsləhətləşmələr aparılacaqdır. Azərbaycanın vergi siyasətində əsas diqqət əməkhaqlarına, habelə KOS subyektlərinin öz dövriyyələrini leqallaşdırmağa təşviq edilməsinə yönəldiləcəkdir.

Tədbir 1.5.4: Lisenziyaların təkmilləşdirilməsi, beynəlxalq lisenziyaların tanınması mexanizminin formalaşdırılması

Son illərdə lisenziyalaşdırma ilə əlaqədar həyata keçirilmiş tədbirlərin davamı olaraq lisenziyaların elektron qaydada verilməsi stimullaşdırılacaq, ölkə xaricində verilmiş lisenziyaların Azərbaycanda tanınması, ekvivalentliyinin təmin edilməsi mexanizminin yaradılması nəzərdən keçiriləcəkdir. Bu tədbirin həyata keçirilməsi KOS subyektlərinin beynəlxalq bazarlara inteqrasiyasına mühüm şərait yaradacaqdır. Əlavə olaraq, xarici lisenziyaların Azərbaycanda tanınması xarici şirkətlərin Azərbaycanda nümayəndəlik, filial və şöbələrinin açılmasına birbaşa təsir göstərəcək və xarici investisiya qoyuluşlarını artıracaqdır.

Tədbir 1.5.5: KOS subyektlərinin müvafiq kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi

KOS subyektlərinin müvafiq qaz, su və elektrik təchizatı şəbəkələrinə qoşulması prosedurlarının sadələşdirilməsi, o cümlədən texniki şərtlərin verilməsi qaydalarının təkmilləşdirilməsi istiqamətində işlər davam etdiriləcək və bu prosesin tam elektronlaşdırılması üçün tədbirlər sürətləndiriləcəkdir.

Tədbir 1.5.6: KOS subyektləri üçün vahid sertifikatlaşdırma sisteminin yaradılması

KOS subyektlərinin istehsal etdikləri məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılması qaydalarının təkmilləşdirilməsi və sadələşdirilməsi davam etdiriləcəkdir. Bu sahədə fəaliyyət göstərən orqanların vahid sertifikatlaşdırma sistemində birləşdirilməsi KOS subyektləri üçün əlavə inzibati yükün əhəmiyyətli dərəcədə azalmasına şərait yaradacaqdır. Zəruri sertifikatların bütün məlumatları əks etdirən vahid sənəddə birləşdirilməsi və bunun üçün bir müraciətin olması imkanları nəzərdən keçiriləcəkdir.

<u>Gözlənilən nəticə və nəticə indikatorları</u>

Həyata keçiriləcək islahatlar nəticəsində KOS subyektlərində dövlət orqanlarının apardıqları yoxlamalar daha da optimallaşdırılacaq və KOS-un dinamik inkişafı üçün daha əlverişli şərait yaranacaqdır. Eyni zamanda, KOS subyektlərində aparılan səyyar vergi yoxlamalarının sayı məhdudlaşdırılacaq və elektron audit metodu tətbiq ediləcəkdir. Vergi islahatlarının davamlılığı KOS subyektlərinin rəqabət qabiliyyətini daha da artıracaq, xüsusilə yeni yaranan müəssisələrin dayanıqlılığına müsbət təsir göstərəcək, ölkədə

xarici şirkətlərin nümayəndəliklərinin açılmasını təşviq edəcək və iqtisadiyyatın qeyri-neft sektoruna investisiyalar cəlb edilməsi üçün daha əlverişli şərait yaranacaqdır. KOS subyektlərinin kommunal xidmətlərə rahat və tez qoşulmaları onların bu sahədə xərclərini azaldacaqdır.

Əsas icra göstəriciləri:

- dövlət orqanları tərəfindən yoxlamaların sayının məhdudlaşdırılması;
- KOS subyektləri üçün vergi yükünün optimallaşdırılması;
- elektron vergi auditinin təkmilləşdirilməsi və inkişafı;
- xarici lisenziyaların tanınması və ekvivalentliyinin təmin edilməsi mexanizminin yaradılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası əsaslı investisiya qoyuluşu tələb etməyəcəkdir.

Gözlənilən risklər

- yoxlamaların sayının və dərinliyinin KOS subyektlərinin inkişafına mənfi təsir etməsi;
- vergi siyasətinin KOS subyektlərinin maraqlarına uyğun aparılmaması;
- KOS subyektlərinin dövriyyənin və əməkhaqlarının leqallaşdırılmasına maraq göstərməməsi.

7.1.6. Prioritet 1.6. KOS üzrə xüsusi sənaye zonalarının və klasterlərin yaradılması


Əsaslandırma

Azərbaycanda KOS subyektləri bir sıra xidmətləri əldə etməkdə, eləcə də istehsal və digər müxtəlif məqsədlərlə məlumat almaqda müəyyən çətinliklərlə üzləşirlər. Belə xidmətlərə kommunal, logistika, laboratoriya və biznes xidmətlərini, sektorlar üzrə statistik məlumatların əldə edilməsini və s. misal göstərmək olar. Eyni zamanda, ixtisaslaşdırılmış zonaların az olması və ya uzaq məsafədə yerləşməsi səbəbindən sahibkarlar xidmətlərdən (məsələn, mühafizə xidməti, kommunal xidmətlər, logistika xidmətləri və s.) istifadə edərkən bir sıra izafi xərclərə məruz qalırlar ki, bu da onların məhsul və xidmətlərinin maya dəyərini artırır və rəqabət qabiliyyətinə mənfi təsir göstərir.

Azərbaycanda fəaliyyət göstərən KOS subyektləri infrastrukturun birgə idarə olunmasından və bir sıra xidmətlərin əldə edilməsindən daha yaxşı faydalana bilərlər. Xüsusi zonada qurulmuş kompleks logistik platforma əsasında göstəriləcək xidmətlərə misal kimi aşağıdakıları göstərmək olar:

- laboratoriya, test-sınaq xidmətləri, keyfiyyət sənədlərinin alınması, peşə təlimləri və s.;
- müəssisənin idarə olunması, mühafizə xidməti, kommunal xidmətlər, qəbul, kommutator və çağrı mərkəzi;
- telekommunikasiya, logistika, poçt və maliyyə xidmətləri, tranzit sistemləri, qonaqqarşılama təsərrüfatı və sanitariya qovşaqları kimi ümumi xidmətlər;
- işəgötürmədə kömək, biznes mərkəzi, kənardan cəlb olunmuş idarəçilik və biznes məsləhət xidmətlərinin göstərilməsi.

Şəkil 4. KOS subyektləri üçün xüsusi zonada göstərilən xidmətlər



Müxtəlif sektorları təmsil edən KOS subyektləri xüsusi zonaların yaratdığı imkanlardan daha yaxşı yararlana bilərlər. Məsələn, kimya sənayesi sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri çoxlu xərc tələb edən kanalizasiya və çirkab suları infrastrukturunun birgə idarə olunmasında iştirak edə bilərlər. Eynilə, istehsal ilə məşğul olan təsərrüfat subyektləri daha etibarlı elektrik enerjisi şəbəkəsindən istifadə etməklə, istehsalın səmərəliliyini artıra, laboratoriya və sınaq xidmətlərindən daha asan istifadə edə bilərlər. Yeyinti məhsullarının emalı ilə məşğul olan KOS subyektləri anbarların idarə olunması işini bölüşə bilərlər. Ümumilikdə, bütün sektorlar yüksəkkeyfiyyətli yollardan istifadə edə bilər və yük avtomobilləri parkına çıxış imkanları ilə təmin edilə bilərlər. KOS subyektləri qlobal dəyər zəncirlərinə inteqrasiyasını inkişaf etdirmək məqsədilə beynəlxalq şirkətlərlə və birbaşa xarici investisiya sahəsində çalışan institutlarla əlaqələrin yaradılması işində bu zonalardan istifadə edə bilərlər.

Son illərdə dövlət tərəfindən sənaye potensialının yüksəldilməsi, milli iqtisadiyyatın diversifikasiyası və innovasiyalaşdırılması, qeyri-neft sektoru sahələrinin inkişafının sürətləndirilməsi məqsədilə dünya təcrübəsinə və milli iqtisadi inkişaf ənənəsinə söykənən ardıcıl və davamlı iqtisadi siyasət həyata keçirilir. Son dövrlər yaradılmış sənaye parkları və məhəllələri klasterləşmə siyasətinin bünövrəsini təşkil edir. Belə ki, Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı artıq fəaliyyət göstərir, Mingəçevir və Pirallahı sənaye parklarının təşkili istiqamətində tədbirlər görülür. Eyni zamanda, Neftçala və Masallı sənaye məhəllələrinin yaradılması kiçik və orta sahibkarlığın klasterləşməsi baxımından xüsusilə qeyd edilməlidir. Ancaq qurulan sənaye parkları və məhəllələri sahibkarların könüllü klaster formalaşdırmasına əsasən deyil, dövlətin təşəbbüsünə söykənərək yaradılmışdır.

Azərbaycanda mövcud olan sənaye parkları və məhəlləri dövlət tərəfindən dövlət vəsaiti hesabına yaradılmışdır. Bununla əlaqədar olaraq, gələcəkdə xüsusi iqtisadi zonalar, sənaye parkları və məhəllələrinin infrastrukturunun özəl sektor tərəfindən özəl kapital hesabına yaradılması təşviq ediləcəkdir.

Klaster modelinin ölkə sənayesində tətbiqi təcrübəsi artıq mövcuddur. Bu klasterlər vertikal sənaye klasteri (məhsulların istehsalından başlayaraq son istehlakçıya qədər olan təchizat zəncirini özündə əks etdirən klaster) modeli əsasında formalaşmasına baxmayaraq, klasterlərə məxsus bütün keyfiyyətləri əhatə etmədiyindən, bu cür klasterlərin fəaliyyətinin effektivliyi qənaətbəxş səviyyədə deyildir. Lakin bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, gələcəkdə xüsusi iqtisadi zonaların, sənaye parklarının, sənaye məhəllələrinin və s. təkcə dövlət vəsaitləri ilə dövlət tərəfindən deyil, həm də özəl sektor tərəfindən yaradılması təşviq ediləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 1.6.1: KOS subyektləri arasında biznes tərəfdaşlığının inkişaf etdirilməsi

KOS subyektləri arasında biznes tərəfdaşlığının zəif inkişaf etdiyini nəzərə alaraq, onların qarşılıqlı əməkdaşlığının gücləndirilməsi və kollektiv faydalardan yararlanması üçün konkret addımlar atılacaqdır. İlk növbədə, KOS subyektləri arasında biznes tərəfdaşlığının inkişafı və təşviqi məqsədilə qanunvericilik bazasının təkmilləşdirilməsinə dair təkliflər hazırlanacaqdır. KOS subyektlərinin fərdi inkişafa daha çox meyilli olduğunu nəzərə alaraq, xüsusi maarifləndirmə işləri aparılacaq, seminar və təlimlər təşkil olunacaq, biznes tərəfdaşlığının praktiki üstünlükləri haqqında sahibkarlara məlumat veriləcəkdir.

Bununla yanaşı, biznes tərəfdaşlığı təşəbbüsləri, əsas etibarilə, mövcud və yeni yaradılacaq sənaye zonalarında və sənaye klasterlərində geniş tətbiq ediləcəkdir. Azərbaycanda biznes tərəfdaşlığının gücləndirilməsi KOS-un inkişafına müsbət təsir göstərəcək, KOS subyektlərinin rəqabət qabiliyyətini artıracaq və onların xarici bazarlara çıxış imkanları genişləndiriləcəkdir.

Tədbir 1.6.2: KOS subyektləri üçün özəl investisiyalara əsaslanan yeni özəl sənaye klasterlərinin yaradılması

Azərbaycanda KOS subyektlərinin rəqabətqabiliyyətliliyini artırmaq üçün yaradılacaq yeni sənaye klasterlərində KOS subyektlərinin əməkdaşlıq ehtiyaclarını və tələbatını öyrənmək məqsədilə xüsusi sorğular keçiriləcək və texniki-iqtisadi əsaslandırmalar aparılacaqdır. Araşdırmalar zamanı həm vertikal sənaye klasteri modeli, həm də horizontal sənaye klasteri modeli təhlil ediləcək, onların hər birinin ölkə üçün üstünlükləri və çatışmazlıqları müəyyən ediləcəkdir.

Sənaye klasteri mexanizminin effektivliyini artırmaq üçün regional iqtisadiyyatda rəqabət gücü nisbətən yüksək olan və dövlət dəstəyi ilə qısa müddətdə maksimum nəticənin əldə edilə biləcəyi sahələr müəyyənləşdiriləcəkdir.

Azərbaycanda KOS-un fəaliyyəti üçün yaradılmış zonaların gücləndirilməsinə yönəldilən bir sıra dəstək tədbirləri həyata keçiriləcəkdir. Belə tədbirlərə aşağıdakılar daxildir:

- sənaye müəssisələri ilə birgə işlənib hazırlanmış təhsil proqramları (kurikulumları) olan və müəyyən sənaye sahəsi və ya sahələri üzrə ixtisaslaşmış texniki peşə məktəbinin yaradılması (sənaye zonaları daxilində təşkil oluna bilər);
- universitet təlim və təcrübə mərkəzlərinin yaradılması (sənaye zonaları daxilində təşkil oluna bilər);
- zona daxilində model müəssisənin yaradılması;
- kredit zəmanət fondunun filialının açılması və s.

Tədbir 1.6.3: Sənaye klasterlərinin rezidentlərinə verilən güzəşt və imtiyazların təkmilləşdirilməsi

Gələcək illərdə KOS agentliyi mövcud sənaye klasterlərinin rezidentləri olan sahibkarlıq subyektləri üçün yeni imtiyazların tətbiqi üzrə araşdırmaların aparılmasına başlayacaqdır. Nəticədə, sahibkarlar üçün ən faydalı olan güzəşt və imtiyaz mexanizmləri yeni yaradılacaq klasterlərdə tətbiq ediləcəkdir. Bu fəaliyyətlər çərçivəsində aşağıdakı addımlar atılacaqdır:

- vergi güzəşti mexanizmlərinin tətbiqinin davam etdirilməsi, onların effektivliyinin qiymətləndirilməsi (hüquqi və fiziki şəxslərin mənfəət, gəlir, torpaq, əmlak vergiləri və idxal olunan avadanlıqlara görə ƏDV üzrə);
- KOS subyektləri üçün güzəştli kreditlərin ayrılması;
- investisiya layihələri ilə bağlı ikitərəfli investisiya sazişlərinin bağlanması, qeyri-diskriminativ siyasətlərin icra edilməsi və dövlətin birgə maliyyələşdirmə mexanizminin tətbiq edilməsi.

Gözlənilən nəticə və nəticə indikatorları

Qeyd olunan xidmətlərin keyfiyyətinin yüksəldilməsi KOS subyektlərinə bir çox məsələlərdə, məsələn mühəndislik xidmətləri üzrə bacarıqların inkişaf etdirilməsində, yeni və innovativ məhsulların işlənib hazırlanmasında və müxtəlif xidmətlərin (dəyər zəncirinin bütün mərhələlərində iştirak edilməklə) təklif olunması məqsədilə strateji birliklərin yaradılmasında kömək edəcəkdir. Qeyd olunan tədbirlər nəticəsində sektor daxilində, ümumilikdə, KOS subyektlərinin rəqabətədavamlılığı artacaq, məhsuldarlıq yüksələcəkdir.

Bu prioritetin icrası nəticəsində, Azərbaycanın real ÜDM-ində 2020-ci ildə 265 milyon manat birbaşa və 210 milyon manat dolayı artımın əldə olunacağı, ümumi artım məbləğinin 475 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır. Həmçinin 2020-ci ildə 23300 yeni iş yerinin yaranması proqnozlaşdırılır ki, bu da yaradılmış sənaye zonaları daxilində KOS subyektlərinin sayının artması hesabına təmin olunacaqdır.

Əsas icra göstəriciləri:

- yeni sənaye klasterlərinin yaradılması;
- Azərbaycanda KOS subyektləri arasında biznes tərəfdaşlığının gücləndirilməsi;
- sənaye klasterləri daxilində istehsal olunan məhsullarda KOS subyektlərinin payının 40 faizə çatdırılmasının təmin edilməsi, məhsul və işçi sayında artımın əldə olunması.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün Azərbaycanda qeyd olunan sənaye zonalarına 2020-ci ilədək 630 milyon manat investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılmışdır.

Gözlənilən risklər

- dövlət tərəfindən ayrılan vəsaitlərin qeyri-effektiv xərclənməsi;
- prioritet sahələrin və təklif olunan fəaliyyətlərin, eləcə də xidmətlərin ehtiyaclara uyğun olmayan formada müəyyənləşdirilməsi;
- KOS subyektlərinin biznes tərəfdaşlığına marağının az olması.

7.1.7. Prioritet 1.7. Dövlət-özəl əməkdaşlığının genişləndirilməsi, KOS subyektlərini təmsil edən qurumların gücləndirilməsi

Əsaslandırma

Ölkədə əlverişli biznes mühitinin yaradılması ilə bərabər, sahibkarlar arasında əlaqələrin qurulması, onların fəaliyyətinin asanlaşdırılması, böhran dövrlərində şəbəkələşmənin təşkil edilməsi, dövlət və özəl sektor arasında münasibətlərin tənzimlənməsi çox vacibdir. Dünyada biznes strukturlarının fəaliyyətinin dəstəklənməsi, özəl sektorla dövlət arasında münasibətlərin qurulması və özəl sektoru narahat edən məsələlərin dövlət qurumlarının diqqətinə çatdırılması, iş dünyasının təşkilatçılığı, bürokratik maneələrin aradan qaldırılması məqsədilə yaradılmış biznes assosiasiyaları, ticarət palataları və işəgötürənlər təşkilatları kimi müxtəlif qurumlar fəaliyyət göstərir.

Hazırda Azərbaycanda yuxarıda qeyd edilən qurumların hər 3 növü mövcuddur. Belə ki, Azərbaycanda həm Sənaye və Ticarət Palatası, həm biznes assosiasiyaları, həm də işəgötürənlər birliyi fəaliyyət göstərir. Ancaq onların hazırkı fəaliyyəti və fəaliyyətinin hüquqi əsası sahibkarlarla dövlət arasında möhkəm işlək körpü qurmaq üçün yetərli səviyyədə deyildir.

Azərbaycanda 90-dan artıq biznes assosiasiyası mövcuddur. Lakin hüquqi cəhətdən qeyri-hökumət təşkilatları kimi fəaliyyət göstərən biznes assosiasiyalarının da fəaliyyəti KOS subyektlərinin və ümumiyyətlə, sahibkarlığın inkişafına arzuolunan səviyyədə töhfə vermir. Belə ki, bu sahədə assosiasiyaların maliyyə dayanıqlılığı, QHT kimi qeydiyyatdan keçməsi, əksəriyyətinin öz üzvlərinin maraqlarının müdafiəsi və dövlət-özəl tərəfdaşlığı baxımından gözlənilən rolu həyata keçirə bilməməsi, sahibkarların assosiasiyalara inam səviyyəsinin aşağı olması kimi problemlər mövcuddur.

İşəgötürənlər birliyi öz üzvlərinin əmək və sosial-iqtisadi hüquq və mənafelərini təmsil edən qurumdur. Belə ki, bu birliklərin yaradılmasında əsas məqsəd yerləşdikləri ölkədə şəxslərin əmək fəaliyyətinin tənzimlənməsi, sosial statusunun mühafizəsi, o cümlədən istehsal və ya qeyri-istehsal sahələrində çalışan işçilərin, habelə pensiyaçıların və təhsil alan şəxslərin əmək, sosial və iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsidir. Lakin Azərbaycanda fəaliyyət göstərən işəgötürənlər birliklərinin KOS subyektləri ilə əməkdaşlıq səviyyəsi çox aşağıdır.

Dövlət-özəl tərəfdaşlığında dövlətin əsas məqsədi biznesin real vəziyyəti barədə dəqiq məlumat əldə etməkdirsə, özəl sektorun məqsədi dövlətin diqqətini daha çox mövcud problemlərə yönləndirməklə, qanunvericilik bazasının təkmilləşdirilməsi yolu ilə sahibkarlıq mühitinin yaxşılaşdırılmasına çalışmaqdır.

Görüləcək tədbirlər

Tədbir 1.7.1: Dövlət-özəl əməkdaşlığı üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsi

Azərbaycanda dövlət-özəl əməkdaşlığının gücləndirilməsi üçün, ilk növbədə, mövcud qanunvericilik bazası təhlil ediləcək və müvafiq təkmilləşdirmələr üzrə təkliflər irəli sürüləcəkdir. Bu islahatlar, əsasən, sahibkarları təmsil edən qurumların hüquqi statusu, onların maraqlarını ifadə imkanları, dövlətlə özəl sektor arasında konstruktiv dialoqun qurulması və digər əlaqəli məsələləri əhatə edəcəkdir.

Tədbir 1.7.2: Biznes assosiasiyalarının gücləndirilməsi

İlk növbədə, Azərbaycanda biznes assosiasiyalarının qanunvericilik bazası öyrəniləcək, onların hüquqi statusu bir daha nəzərdən keçiriləcək və müvafiq təkliflər hazırlanacaqdır. Bununla yanaşı, Azərbaycan üçün strateji əhəmiyyət daşıyan sahələr üzrə biznes assosiasiyalarının yaradılması təşviq ediləcəkdir. Assosiasiyaların yaradılması və onların maliyyə dayanıqlılığının təmin edilməsi mexanizmləri hazırlanacaq və sahibkarların bu assosiasiyaların faydasına inamını gücləndirmək üçün müvafiq tədbirlər görüləcəkdir.

Tədbir 1.7.3: Ticarət palatalarının fəaliyyətinin genişləndirilməsi

Hər bir regionda sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi və onlara dəstək xidmətlərinin göstərilməsi üçün ticarət palatalarının yaradılması imkanları nəzərdən keçiriləcəkdir. Ticarət palataları dövlətlə sahibkar arasında körpü rolunu oynayacaq və öz üzvlərinə beynəlxalq təcrübəyə uyğun olan xidmətlər göstərəcəkdir. Sahibkarların ticarət palatalarına inamını möhkəmləndirmək üçün müvafiq addımlar atılacaq, qabaqcıl ölkələrdə olduğu kimi, palatalara konsultativ statusun verilməsi məsələsi nəzərdən keçiriləcəkdir. Bu, hazırlanan qanun layihələri ilə bağlı palatalarla məsləhətləşmələrin aparılmasına və dövlət orqanları yanında ictimai şuralarda ticarət palatalarının üzvlərinin iştirakına şərait yaradacaqdır. Yaradılacaq palataların əsas məqsədi, ilk növbədə, sahibkarların onlara inamının artırılmasından, ölkədə KOS subyektlərinin qarşılaşdığı əngəllərin aradan qaldırılmasından ibarət olacaqdır. Əsas hədəf kimi palatalara üzv olacaq şirkətlərin ixrac imkanlarının artırılması, bazarda zəif mövqeyə sahib şirkətlər üçün yeni ideyaların verilməsi, maliyyə vəsaitlərinə əlçatanlığın təmin olunması istiqamətləri müəyyənləşdiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi nəticəsində dövlətlə özəl sektor arasında münasibətlərin tənzimlənməsi sahəsində daha təkmil addımlar atılacaq, Azərbaycanda dövlət-özəl tərəfdaşlığı yeni mərhələyə qədəm qoyacaqdır. Qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində Azərbaycanda dövlət-özəl əməkdaşlığının tam institusionallaşması təmin ediləcəkdir.

Əsas icra göstəriciləri:

- Azərbaycanda dövlət-özəl əməkdaşlığının gücləndirilməsi üçün müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- KOS subyektlərini təmsil edən qurumların sayının artırılması və onların iqtisadiyyata müsbət təsirinin gücləndirilməsi;
- ticarət palatalarının səlahiyyətlərinin və fəaliyyət dairəsinin genişləndirilməsi.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əsaslı investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

- Assosiasiyaların fəaliyyətlərinin qeyri-effektiv təşkili və KOS subyektlərinin maraqlarına cavab verməməsi.

7.1.8. Prioritet 1.8. KOS subyektləri arasında mübahisələrin alternativ həlli imkanlarının təkmilləşdirilməsi

Əsaslandırma

Məlum olduğu kimi, mübahisələrin məhkəmədənkənar həlli mexanizmlərindən biri də mediasiyadır. Azərbaycan Respublikasının qanunvericiliyində mediasiya institutunun inkişaf etdirilməsinin ümumi çərçivəsi təsbit olunmuş və mediasiyanın fəal tətbiqi və hüquq məkanına inteqrasiyası prosesi hələ müstəqilliyin ilk illərindən başlanmışdır. Bu gün Azərbaycanda mediasiyanın mübahisələrin həllinin məhkəmədənkənar metodu kimi qanunvericilik əsaslarının möhkəmləndirilməsinə, mediasiya institutunun hüquq sisteminə inteqrasiyasının intensivləşdirilməsinə zəmin vardır. Bununla belə, vətəndaşların yanaşmasında ənənəvi məhkəmə baxışı hələ də qalır və məhkəmə sisteminin müasir mənada hüquq təminatçısı rolu tam dərk edilmir.

Mübahisələrin həlli məqsədilə birbaşa məhkəməyə müraciət biznes üçün bir sıra neqativ nəticələrə səbəb ola bilər. Belə ki, bu halda mübahisə tərəfləri, bir qayda olaraq, işgüzar münasibətləri dayandırırlar. Bununla yanaşı, mübahisələrə məhkəmə qaydasında baxılması zamanı müdafiə prosesinə ixtisaslı hüquqşünasların cəlb edilməsi böyük maliyyə məsrəfləri hesabına başa gəlir ki, bu da əksər hallarda xüsusilə strukturunda ayrıca hüquq departamentləri olmayan KOS subyektləri üçün daha böyük çətinliklər yaradır.

Beynəlxalq təcrübədə isə klassik məhkəmə sistemini alternativ prosedurlar tamamlayır və bununla da hər iki yanaşma vətəndaşların hüquq və qanuni mənafelərinin hərtərəfli qorunmasına şərait yaradır. Alternativ mübahisələrin həlli metodu kimi danışıqlar, vasitəçinin iştirakı ilə danışıqlar, arbitraj və ya münsiflər məhkəməsi, vasitəçilik, ekspertin müstəqil rəyi, araşdırma, barışdırıcı icraat, özəl məhkəmə və s. kimi formalar müşahidə edilir. Belə ki, mübahisələrin həlli zamanı konkret hadisənin təfərrüatlarından asılı olaraq tərəflərin bilavasitə özlərinin iştirakı ilə danışıqlar aparılır, razılıq əldə olunmadıqda isə müstəqil və neytral vasitəçi, yəni mediasiya institutu cəlb olunur. Bir qayda olaraq, mediasiya zamanı münsiflər məhkəməsi formasına müraciət edilir.

Azərbaycanda qanunvericilikdə alternativ həll üsulları nəzərdə tutulmuşdur, lakin onlardan istifadə səviyyəsi aşağıdır. Əmək və Mülki Prosessual məcəllələrdə mülki mübahisələrin həllinin alternativ yollarına dair müddəalar yer almışdır. Həmçinin Azərbaycanda mübahisələrin məhkəməyəqədər həlli ilə bağlı bir sıra hüquqi mexanizmlər mövcuddur. Bütün bunlara baxmayaraq, Azərbaycan təcrübəsində mübahisələrin alternativ həlli üsullarından istifadə istənilən səviyyədə deyildir. Bunun üçün mübahisələrin alternativ həlli üsullarının tətbiqini təmin edən zəruri hüquqi mexanizmlər yaradılmalı, mübahisələrin alternativ həlli ilə bağlı təbliğat və təşviqat mexanizmləri formalaşdırılmalı, mübahisələrin həllinin alternativ üsullarının mahiyyəti və əhəmiyyəti haqqında sahibkarlıq subyektlərinin məlumatlılıq səviyyəsi artırılmalı, sahibkarlıq münasibətlərinin inkişafına mane olan hallar tamamilə aradan qaldırılmalıdır.

Görüləcək tədbirlər

Tədbir 1.8.1: Mediasiya haqqında qanun layihəsinin hazırlanması

Mübahisələrin məhkəməyəqədər həllinin alternativ üsullarının təkmilləşdirilməsi üçün mediasiya haqqında qanunun qəbulu nəzərdən keçiriləcəkdir. Qanunda mediasiyanın tətbiq dairəsi, məqsəd və prinsipləri, könüllülük və mediasiya tərəflərinin hüquq bərabərliyi və əməkdaşlığı, mediatorların müstəqilliyi və qərəzsizliyi, mediasiya proseduruna müdaxilənin yolverilməzliyi və s. məsələlər əhatə olunacaqdır.

Tədbir 1.8.2: Mediasiya Şurasının yaradılması

Mediatorların fəaliyyətinin təşkili və əlaqələndirilməsi məqsədilə müvafiq dövlət qurumlarının iştirakı ilə Mediasiya Şurasının yaradılması nəzərdən keçiriləcəkdir. Mediasiya Şurası müvafiq icra hakimiyyəti orqanının təşkil etdiyi müsabiqənin nəticələri əsasında təyin edilən üzvlərdən ibarət olacaqdır. Şura haqqında əsasnamə hazırlanacaq, şuranın səlahiyyətləri müəyyənləşdiriləcək və fəaliyyəti təmin ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Əsas icra göstəriciləri:

- KOS subyektlərində mübahisələrin məhkəməyəqədər həlli göstəricilərinin 2020-ci ilə qədər 2 dəfə yaxşılaşdırılması;
- mübahisələrin məhkəməyəqədər həllinin alternativ üsullarının təkmilləşdirilməsi üçün mediasiya haqqında qanunun qəbul edilməsi;
- Mediasiya Şurasının yaradılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası əsaslı investisiya qoyuluşu tələb etməyəcəkdir.

Gözlənilən risklər

- Mediasiya Şurasının fəaliyyətinin səmərəli qurulmaması;
- KOS subyektlərinin Mediasiya Şurasının fəaliyyəti barədə məlumatlarının olmaması.

7.1.9. Prioritet 1.9. KOS subyektlərinin müəyyənləşdirilməsi meyarlarının bütün dəstək tədbirlərində tətbiq edilməsi, statistik məlumatların sistemləşdirilməsi

Əsaslandırma

Azərbaycanda KOS-un inkişafına birbaşa təsir edəcək islahatların ünvanlılığının təmin olunması üçün "İri, orta və kiçik sahibkarlıq meyarları" müəyyənləşdirilmişdir. Meyarlar ortaölçülü müəssisələri tanıyır, qüvvədə olan vergi normalarına uyğunlaşdırılmış dövriyyə meyarlarından, eləcə də məşğulluq meyarlarından istifadə etməklə, həm daxili, həm də xarici uzlaşmanı artırır.

KOS subyektlərinin müxtəlif meyarlar əsasında təsnifləşdirilməsi və dövlət qurumlarında müxtəlif yanaşmalardan istifadə islahatların ünvanlılığının təmin olunmasına və bu sektor haqqında statistikanın keyfiyyətinə mənfi təsir edir.

Etibarlı və genişəhatəli statistik məlumatların olması iqtisadi vəziyyətin daha dərindən təhlili, daha etibarlı proqnozların verilməsi, inkişaf planları və proqramlarının tərtibi üzrə ən mühüm amillərdəndir.

Bu sahənin inkişafı üçün xüsusi ekspert qrupu yaradılmalı və mümkün qədər qısa müddətdə KOS ilə bağlı dövlət statistika sisteminin təkmilləşdirilməsinə dair tövsiyələr hazırlanmalıdır.

KOS subyektlərinə dövlət dəstəyinin ünvanlılığının təmin edilməsi və bu sahədə aparılan islahatların real sektora təsirinin öyrənilməsi üçün KOS-la bağlı statistik məlumat bazasının təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması vacib addımlardandır.

Görüləcək tədbirlər

Tədbir 1.9.1: KOS subyektlərinin müəyyənləşdirilməsi meyarlarının bütün dəstək tədbirlərində tətbiqi

KOS agentliyinin əsas məqsədlərindən biri KOS subyektləri üzrə məlumat və hesabatların vahid prinsiplər əsasında formalaşdırılması işinin koordinasiyasını təşkil etmək olacaqdır. Bu prinsiplər müvafiq dövlət qurumları tərəfindən hesabat və hesablamalarda vahid yanaşmanı, eləcə də KOS subyektlərinin iqtisadi göstəricilərinin hesablanmasının beynəlxalq standartlara uyğun aparılmasını təmin edəcəkdir. KOS subyektlərinin müəyyənləşdirilməsinin mövcud meyarları inkişaf templərinə uyğun daim diqqətdə saxlanılacaq və zərurət yarandıqca, bu meyarların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanacaqdır.

Tədbir 1.9.2: KOS üzrə statistik məlumatların standartlaşdırılması

KOS agentliyi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və digər aidiyyəti dövlət qurumları ilə birlikdə KOS üzrə statistikanın Nazirlər Kabinetinin müəyyən etdiyi son meyarlara uyğun aparılmasını təmin edəcəkdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi KOS subyektləri üzrə tələb olunan məlumatların cədvəlini hazırlayıb təsdiq edəcək və gələcəkdə bütün məlumatların bu standartlara uyğun hazırlanmasını təmin edəcəkdir. Bu işdə digər dövlətlərin təcrübəsindən və beynəlxalq təşkilatların köməyindən istifadə ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Qeyd olunan prioritetin icrası nəticəsində KOS subyektlərinə dəstək tədbirlərinin vahid prinsiplər əsasında aparılması nəticəsində bu sahənin inkişaf dinamikasının beynəlxalq standartlara uyğunluğu təmin ediləcəkdir. Nəticədə, KOS-un inkişafı ilə bağlı məlumatların dəqiqlik səviyyəsi artacaq, bu istiqamətdə fəaliyyətlərin səmərəliliyi təmin ediləcəkdir. KOS-un inkişafı, təbii olaraq, məşğulluq göstəricilərinin yaxşılaşmasında öz əksini tapacaqdır.

Əsas icra göstəriciləri:

- KOS subyektləri ilə bağlı dəstək tədbirlərinin vahid prinsiplər əsasında formalaşdırılmasının təmin edilməsi;
- statistik rəqəmlərin vahid prinsiplərə əsaslanaraq aparılması, məlumatların hesablanmasında dəqiqliyin artması;
- KOS üzrə siyasətin səmərəliliyinin artırılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əlavə investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

- KOS üzrə meyarların müxtəlif formada təsnifləşdirilməsi;
- statistik rəqəmlərin KOS-un real vəziyyətini tam əks etdirməməsi və belə məlumatların əlçatanlığının az olması.

7.2. Strateji hədəf 2. KOS subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi

Hazırda Azərbaycanda KOS subyektlərinə maliyyə xidmətləri göstərən bir sıra qurumlar mövcuddur. Bu qurumlara aşağıdakılar daxildir:

Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu (SKMF). SKMF sahibkarlara güzəştli kreditlərin, o cümlədən dövlət büdcəsindən əlverişli şərtlərlə kreditlərin ayrılmasını təmin edir. Say baxımından verilən kreditlərin 97 faizi kiçik kreditlərdir ki, bu da SKMF tərəfindən ayrılmış kreditlərin ümumi məbləğinin 9 faizini təşkil edir. Bu günə kimi SKMF hər birinə orta hesabla 47000 ABŞ dolları həcmində olmaqla, 12,5 min müəssisəyə kredit vermişdir. Bu kreditlərin böyük hissəsi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinə ayrılmışdır.[7]

"Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ). AİŞ yerli və xarici investisiyalarla yanaşı, əsaslı kapital qoyuluşları vasitəsilə neft və qaz sənayesi istisna olmaqla, digər sektorların inkişafına da dəstək verir. AİŞ səhm paketinin ən azı 1 milyon ABŞ dolları təşkil edən vençur kapitalının (sahibkarlıq kapitalı) şirkətlərə ayrılmasını təmin edir. AİŞ-in portfeli çoxşaxəlidir və özündə müxtəlif sahələri, məsələn ağır sənayeni, kənd təsərrüfatını, logistika sahəsini, səhm üzrə altfondları və yeyinti məhsullarının emalını birləşdirir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO). Təşviq və təlim fəaliyyətləri ilə yanaşı, AZPROMO KOS subyektlərinə beynəlxalq satış

[7] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

yarmarkalarında iştirak etmək üçün vəsaitlər ayırır. AZPROMO habelə qeyri-neft sektorundan olan KOS subyektlərinə maliyyə vəsaitləri əldə etməyə kömək edir.


Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti. Dövlət Xidmətinin illik 2 faiz dərəcəsi ilə verdiyi kreditlərdən istifadə etməklə, müvəkkil banklar 5 faizdən artıq əlavə faiz dərəcəsi tətbiq etmədən sahibkarlara və fermerlərə güzəştli şərtlərlə kreditlər ayırırlar. Bunun nəticəsində, həmin KOS subyektləri yerli valyutada illik faiz dərəcəsi 7 və ya daha aşağı olan kreditlər əldə edə bilirlər.

Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu. Bu Fond ümumi məbləği 300 min manata qədər olan qrantların ayrılması ilə yüksək texnologiyalar tətbiq edən startapların maliyyələşdirilməsini həyata keçirir.

Bununla belə, Azərbaycanda KOS subyektlərinin maliyyə resurslarına çıxışında müəyyən çətinliklər mövcuddur və daxili maliyyə mənbələrinin məhdudluğu KOS subyektlərinin xarici maliyyə bazarlarından asılılığını artırır. Lakin xarici maliyyə bazarlarından da maliyyə resurslarının cəlb edilməsi bir çox səbəblərdən yerli KOS subyektləri üçün asan olmur. Məlumatların azlığı, texniki problemlər, xarici resursların bahalığı KOS subyektlərinin daha çox daxili imkanlara üstünlük vermələrinə səbəb olur.

Azərbaycanda fiziki və hüquqi şəxslərin maliyyə bazarlarına çıxış imkanları digər ölkələrlə müqayisədə aşağıdır (şəkil 5).

Şəkil 5. Azərbaycanda maliyyə bazarlarına çıxış *(ÜDM-də payı, faizlə)*




1. London Fond Birjası və Alman Birjası (Birləşmiş Krallıq və Almaniya)
2. İstanbul Birjası
3. Afina Fond Birjası və Varşava Fond Birjası (Yunanıstan və Polşa)
4. Moskva Fond Birjası
5. Qazaxıstan Fond Birjası
6. Bakı Fond Birjası

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası, müvafiq ölkələrin fond birjaları

Maliyyə resurslarına çıxış KOS subyektlərində potensial artıma nail olmaq üçün əsas sürətləndirici amil hesab olunur. 2014-cü ildə aparılmış sorğunun nəticələrinə əsasən, Azərbaycanda fəaliyyət göstərən KOS subyektlərinin 51 faizi maliyyə resurslarına çıxış məsələsini biznesin inkişafında ən ciddi maneə kimi qeyd etmişdir.[8] Müqayisə üçün qeyd etmək olar ki, bu göstərici İrlandiyada və Niderlandda 12 faiz, Almaniyada və Avstriyada isə 6 faiz təşkil etmişdir.[9] Maliyyə resurslarına çıxış aşağı gəlir səviyyəsinə malik ölkələrdə daha aşağı səviyyədədir (şəkil 6).

Şəkil 6. Dünya üzrə maliyyə resurslarına çıxış göstəriciləri[1] *(faizlə)*



1. *Maliyyə resurslarına çıxışı və ya maliyyə xərclərini sahibkarlıq fəaliyyətində əsas maneə hesab edən KOS subyektlərinin orta göstəricisi (ümumi orta göstəricini hesablamaq üçün ölkələr gəlir qrupu daxilində bərabər qiymətləndirilmişdir)*

Mənbə: Dünya Bankı


Erkən inkişaf mərhələsində məlumatların toplanması və nağd pul vəsaitlərinin effektiv idarəolunması ilə əlaqədar bacarıqların aşağı səviyyədə olması, habelə peşəkar düşüncə tərzi və korporativ idarəetmənin zəif olması KOS subyektləri üçün xarakterik cəhətlərdəndir. Bu çatışmazlıqlar banklar tərəfindən risklərin düzgün qiymətləndirilməməsi ilə nəticələnir. Əlavə olaraq, artıq kredit əldə etmiş KOS subyektlərində qeyri-işlək kreditlərin nisbətinin yüksək səviyyədə olması və müflisləşmə ilə bağlı həll variantlarının azlığı bank sektorunun fəaliyyətinə mənfi təsir göstərir.

[8] Mənbə: Dünya Bankının "Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığı" hesabatı

[9] Mənbə: Avropa Mərkəzi Bankı, Avrozonada müəssisələrin maliyyə resurslarına çıxış imkanlarına dair sorğu

Nəticədə, banklar KOS subyektlərinin kreditləşməsində daha az maraqlı olurlar. Bu isə kredit müraciətlərinə müsbət cavab verilməsi səviyyəsinin daha aşağı, təminat tələblərinin isə daha yüksək olması ilə nəticələnir ki, bu da KOS subyektlərinin kredit üçün müraciət etməmələrinə, yaxud da kredit əldə edə bilməmələrinə səbəb olur. Buna görə də kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı prosesi zəifləyir və onlar yalnız öz mövcudluqlarını qoruyub saxlaya bilirlər. Bundan əlavə, digər xarici faktorlar, o cümlədən devalvasiya, enerji daşıyıcılarının qiymətləri və likvidlik çatışmazlığı bu problemlərin genişlənməsinə təsir göstərir.

Şəkil 7. Maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi potensialı



Maliyyə resurslarına çıxışla bağlı digər məsələlər "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə əhatə olunmuşdur.

7.2.1. Prioritet 2.1. Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması

Əsaslandırma

Azərbaycanda fəaliyyət göstərən banklar iri korporasiyalarla müqayisədə KOS subyektlərinə kredit ayırmağa daha az meyillidir. Bunun əsas səbəbi KOS subyektlərində risk profilinin daha yüksək, kreditlərin qaytarılması göstəricisinin daha aşağı olmasıdır. KOS subyektlərinə kreditlərin ayrılmasına belə yanaşma Azərbaycanda KOS-un, başqa sözlə, real iqtisadiyyatın əsas hissəsinin daha sürətlə inkişafına mane olur.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) üzvü olan yüksəkgəlirli ölkələrlə müqayisədə, Azərbaycanda təsərrüfat subyektlərinin müflisləşməsindən sonra kreditlərin ödənilməsi səviyyəsi aşağıdır. Hazırda ölkədə müflisləşmə vəziyyətində kreditlərin ödənilməsi səviyyəsi hər bir ABŞ dolları üçün 39,6 sent təşkil edir ki, bu da İƏİT üzvü olan yüksəkgəlirli ölkələrlə (hər bir ABŞ dolları üçün 73,0 sent) müqayisədə xeyli aşağıdır. Bu sahədə normativ-hüquqi bazanın gücləndirilməsi və islahatların həyata keçirilməsi vacibdir. 2015-ci ildə İƏİT tərəfindən keçirilmiş sorğuda iştirak etmiş 390 respondentin üçdə ikisi uğursuzluqdan sonra biznes fəaliyyətinin bərpasını çətin hesab etmiş, respondentlərin 42 faizi isə maliyyə resurslarının əldə edilməsini ən əhəmiyyətli çətinlik kimi göstərmişdir.

Müflisləşmə ilə bağlı normativ-hüquqi bazanın möhkəmliyi 16 ballıq şkala ilə ölçülür. İƏİT üzvü olan yüksəkgəlirli ölkələrdə 16 ballıq şkala üzrə orta göstərici 12,1 bal, Avropa və Mərkəzi Asiya ölkələrində 9,9 bal, Azərbaycanda isə 7,5 bal təşkil edir. Azərbaycanda normativ-hüquqi bazanın zəifliyi uzun sürən məhkəmə çəkişmələrinin yaranmasına səbəb olur, eləcə də bankların KOS subyektlərinə kredit ayırmağa daha az maraqlı olmalarına gətirib çıxarır.

Şəkil 8. Müflisləşmə göstəricilərinin müqayisəli təhlili



1. Buraya proseslərin başlanılması, debitorun aktivlərinin idarə olunması, yenidən təşkiletmə prosesləri və kreditorun iştirakı daxildir.
2. Avropa və Mərkəzi Asiya (Albaniya, Belarus, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Gürcüstan, Qazaxıstan, Kosovo, Qırğızıstan, Makedoniya, Moldova, Monteneqro, Özbəkistan, Polşa, Rumıniya, Rusiya, Serbiya, Sloveniya, Tacikistan, Türkiyə, Türkmənistan, Ukrayna)

Mənbə: Dünya Bankının "Doing Business 2017" hesabatı

Azərbaycan "Doing Business 2017" hesabatının "müəssisənin bağlanması" göstəricisi üzrə 86-cı pillədə qərarlaşmışdır. Bu göstəricinin yaxşılaşdırılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi, xüsusən yenidən təşkiledilmə, kreditorun iştirakı və aşağı ödəmə əmsalı ilə əlaqədar qanunvericilikdə uyğun təkmilləşdirmələrin aparılması vacibdir.

"Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının 1997-ci il 13 iyun tarixli 326-IQ nömrəli Qanununun beynəlxalq standartlara uyğunluq göstəricilərinin yaxşılaşdırılmasına zərurət yaranmışdır. Əsas problemlər yenidən təşkiledilmə prosedurları (Qanunda əsas diqqət mərkəzində ləğvetmə olduğundan, yenidən

təşkiledilmə prosedurları faktiki olaraq mövcud deyildir), eləcə də əmlak inzibatçısının funksiyaları (Qanun onların qeydiyyatını və ya lisenziyalaşdırılmasını tələb etmir) ilə əlaqədardır. Qanun müflisləşmə prosedurları başladıldıqdan sonra borcluya qarşı məhkəmə icraatları üçün avtomatik moratorium nəzərdə tutmur. Qanunda müstəsna hallarda mübahisənin məhkəmədənkənar həlli variantı təklif edilsə də, praktikada bu variantdan çox az istifadə edilir. Vəsatətin verilməsindən sonra maliyyələşdirmə üçün stimullar olmadığından, bu problem daha da kəskinləşir, müflisləşmə işlərinin əksəriyyətində kommersiya müəssisəsinin endirimlə və hissə-hissə satılması baş verir.

Eyni zamanda, Azərbaycanda ayrıca onlayn müflisləşmə və ya iflas reyestri mövcud deyildir. Biznesə yenidən başlamaq istəyən sahibkarlıq subyektlərinə ikinci fürsət verilməsi istiqamətində təkmilləşdirmələrin aparılması da zəruridir.

Görüləcək tədbirlər

Tədbir 2.1.1: KOS subyektlərinin müflisləşməsi məsələlərinə dair ixtisaslaşmış məhkəmələrin yaradılmasının nəzərdən keçirilməsi

Müflisləşmə hallarında kredit ödənişləri səviyyəsinin yaxşılaşdırılması məqsədilə Azərbaycanda hüquqi prosedurların və qurumların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

KOS subyektlərinin müflisləşməsi məsələlərinə məhkəmə baxışını sürətləndirmək məqsədilə ixtisaslaşmış məhkəmələrin yaradılması nəzərdən keçiriləcəkdir. Bu orqan KOS subyektləri, banklar və digər kreditorlar arasında iflas məsələlərini də həll edəcəkdir. Bu məqsədlər üçün müvafiq orqanlara KOS subyektlərinin fəaliyyət qabiliyyətini qiymətləndirmək, tərəflər arasında müzakirə və danışıqları təşkil etmək, borcların restrukturizasiyasında kömək etmək, fəaliyyət qabiliyyəti olmayan təsərrüfat subyektlərinin ləğvi və belə subyektlərə iddianın yönəldilməsi üzrə prosedurları sürətlə icra etmək hüquqları veriləcəkdir.

Bu ixtisaslaşmış qurumlar mövcud arbitraj məhkəmələrinin (təsərrüfat məsələləri üzrə məhkəmə) bir şöbəsi kimi təşkil oluna və müflisləşmə halları üzrə təcrübə qazanmış hakimlərdən ibarət ola bilər. Belə məhkəmələrin əsas fəaliyyəti, ilk növbədə, fəaliyyət qabiliyyətli təsərrüfat subyektləri üçün əvvəlcədən müəyyənləşdirilmiş bərpa və restrukturizasiya sxemləri təklif etməkdən ibarət olacaqdır. Problemin bu formada həllinə qərar verilməsinin səbəbi çoxsaylı məhkəmə işləri ilə məhkəmələrin yüklənməsinin qarşısını almaqdır. İxtisaslaşmış məhkəmələrdən, habelə fəaliyyət qabiliyyəti olmayan KOS subyektlərinin cəld və səmərəli ləğvini təmin etmək üçün sadə və qısa prosedurlardan istifadə ediləcəkdir. Həm debitorlar, həm də kreditorlar problemin həlli ilə bağlı ixtisaslaşmış məhkəmələrdə iddia qaldıra bilər və belə hallarda məhkəmələrin reabilitasiya prosesi və kredit ödənişinin restrukturizasiyası üzrə icraçı, müvəkkil şəxs və inzibatçı təyin etmək səlahiyyəti olacaqdır.

Tədbir 2.1.2: KOS subyektlərinin müflisləşmə məsələləri üzrə problemlərinin öyrənilməsi və həyata keçirilən fəaliyyətlərin monitorinqinin aparılması

Müvafiq qurumlar banklar, digər kredit təşkilatları və KOS subyektləri ilə əlaqələndirmə vasitəsilə, onların iflas vəziyyətində rastlaşdıqları əsas çətinliklərin nədən ibarət olduğunu müəyyən edəcəkdir. Bu istiqamətdə zəruri məlumatlar toplanacaq, banklar və digər kreditorlarla müsahibə və sorğuların aparılması, eləcə də hər bir sahə

üzrə müəyyən edilmiş şirkətlərin iştirakı yolu ilə əsas çətinliklər müəyyən ediləcəkdir. Qeyd olunan sektorda şirkətlərin sayına münasibətdə ən böyük müflisləşmə göstəricilərinə malik sahələr müəyyən ediləcək və problemlərin səbəbləri aydınlaşdırılacaqdır.

Tədbir 2.1.3: Müflisləşmə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi və iflas reyestrinin yaradılması

Azərbaycanda müflisləşmə prosedurları və ikinci fürsət sahəsində fəaliyyətin təkmilləşdirilməsi məqsədilə onlayn müflisləşmə və ya iflas reyestrinin yaradılması nəzərdən keçiriləcəkdir. Reyestrin yaradılması çərçivəsində yenidən təşkiledilmə prosedurları, eləcə də əmlak inzibatçısının funksiyaları daha da təkmilləşdiriləcəkdir. Bundan əlavə, əmlak inzibatçılarının peşəkar iş standartları, əxlaq qaydaları və ya intizamı haqqında qaydalar yaradılacaqdır. "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər hazırlanacaq, prosedurların beynəlxalq standartlara uyğunlaşdırılması üçün təkmilləşdirmələr aparılacaqdır. Bu təkmilləşdirmələr mübahisələrin məhkəmədənkənar həlli imkanlarını da əhatə edəcəkdir. Reyestrin yaradılması yenidən fəaliyyətə başlamaq istəyən sahibkarlıq subyektlərinə ikinci fürsət verilməsinə imkan yaradacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin icrası nəticəsində ölkədə KOS subyektlərinin problemlərinin ədalətli həlli daha yaxşı təmin ediləcəkdir. Həmçinin ilkin hesablamalara əsasən, Azərbaycanın 2020-ci ildə real ÜDM-inin 450 milyon manat artacağı, 900 yeni iş yerinin yaranacağı gözlənilir.

Əsas icra göstəriciləri:

- KOS subyektlərinin müflisləşməsi məsələləri üzrə ixtisaslaşmış məhkəmələrin yaradılması;
- onlayn müflisləşmə və ya iflas reyestrinin yaradılması ilə muflisləşmə prosesində fəaliyyətin yenidən bərpasına şəraitin yaradılması;
- KOS subyektlərinin bərpa (iflas vəziyyətindən) tempinin qabaqcıl beynəlxalq təcrübəyə müvafiq olaraq 4 faizə çatdırılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası hər hansı əsaslı sərmayə qoyuluşu tələb etməyəcəkdir. Bununla yanaşı, bu işlərin nəticəsində KOS subyektlərinin maliyyə resurslarına çıxış imkanları yaxşılaşdırılacaqdır.

Gözlənilən risklər

- KOS subyektlərinin müflisləşmə məsələləri üzrə ehtiyaclarının düzgün öyrənilməməsi və həyata keçirilən fəaliyyətlərin effektivliyinin aşağı olması.

7.2.2. Prioritet 2.2. KOS subyektləri ilə bağlı kreditlərə zəmanət fondunun yaradılması

Əsaslandırma

Yerli KOS subyektləri maliyyə vəsaitləri cəlb edərkən, əsasən, kredit təşkilatlarının imkanlarından istifadə etməyə meyillidirlər. Dünyada geniş yayılmış qiymətli kağızlar bazarı alətləri Azərbaycanda KOS subyektləri arasında yayılmamışdır.

Bununla yanaşı, KOS subyektlərinə qoyulan investisiyalar xeyli məhduddur. Dünya Bankının biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən illik "Doing Business" hesabatlarında da Azərbaycanda sahibkarların kreditə əlçatanlığı göstəricisinin son illər zəiflədiyi göstərilmişdir. Belə ki, 2017-ci il üzrə olan hesabatda Azərbaycan kreditin əldə edilməsinin asanlıq səviyyəsinə görə, 189 ölkə arasında 118-ci yerdə qərarlaşmışdır. Kreditlərin əldə edilməsi səviyyəsinə görə 2010-cu ildə Azərbaycan 183 ölkə arasında 15-ci yerdə idisə, sonrakı illərdə bu mövqe pisləşərək 2011-ci ildə 46-cı, 2012-ci ildə 48-ci, 2013-cü ildə 53-cü, 2014-cü ildə 99-cu, 2015-ci ildə 104-cü və 2016-cı ildə 118-ci pilləyə düşmüşdür.

Hazırda Azərbaycanda KOS subyektlərinin kredit müraciətlərinə imtina səviyyəsi yüksəkdir. Məsələn, 2016-cı ildə kənd təsərrüfatı sahəsində kredit müraciətlərinin dörddəbirinə imtina cavabı verilmişdir. Bundan başqa, mikrobiznes subyektlərinin kredit müraciətlərinin 36 faizinə banklar kredit verməkdən imtina etmişdir.[10]

Bankların kredit müraciətlərinə mənfi cavab verməsi göstəricilərinin belə yüksək olmasının səbəbləri müxtəlifdir, lakin buradan xüsusi bir mənzərənin yarandığını görmək olar.

Azərbaycandakı bankların KOS subyektlərinə kredit verməkdə maraqlı olmamasına əsas verən amillər sırasında aşağıdakıları qeyd etmək olar:


- KOS subyektləri iqtisadiyyatın çox kiçik hissəsini təşkil edir və bu sahədə inkişaf sürəti çox aşağıdır;
- KOS fəaliyyəti riskli sahədir və tələb olunan məlumatlar risklərin qiymətləndirilməsi üçün kifayət deyildir;
- KOS sahəsinə xidmət banklardan daha çox xərc tələb edir. Belə ki, KOS subyektlərində risk səviyyəsi yüksək olduğuna görə, korporativ hesablarda olduğu kimi, əhatəli sığorta mexanizminin tətbiqi tələb olunur. Bundan başqa, KOS subyektləri maliyyə xidmətlərindən onlayn kanallar vasitəsilə istifadəyə açıq deyillər, ona görə də banklar daha çox filiallar, şöbələr və çağrı mərkəzləri vasitəsilə xidmət göstərməli olurlar;
- mübahisələrin həlli mexanizmlərinin məhdudluğu və girov təminatının geri tələb olunması məsələləri hələ də problemli sahələrdir.

Yuxarıda qeyd olunan səbəblərdən bəziləri (xüsusilə də KOS-un iqtisadiyyatın kiçik hissəsini təşkil etməsi və az əhəmiyyət daşıması) əsaslı hesab olunmaya bilər. Bununla belə, KOS fəaliyyətinə investisiya qoyuluşunun riskli olması ilə bağlı müəyyən göstəricilər vardır. Azərbaycanda fəaliyyət göstərən bütün sahibkarlıq subyektlərində qeyri-işlək kreditlərin payı 2015-ci ildə və 2016-cı ilin ilk rübündə artmışdır. 2016-cı ilin birinci rübündə Azərbaycanın ümumi kredit portfelində qeyri-işlək kreditlərin payı 16,8 faiz təşkil etmişdir. Yerli valyuta ilə götürülmüş ümumi kredit portfelində qeyri-işlək kreditlərin

[10] Mənbə: Dünya Bankı

payı 11,3 faiz, xarici valyuta ilə götürülmüş ümumi kredit portfelində isə 22,4 faiz olmuşdur.

Şəkil 9. Qeyri-işlək kreditlərin (QİK) həcmi




1. Yüksək QİK-ə, əsasən, ABB səbəb olmuşdur.

2. "Aqrarkredit" QSC-yə ötürülmüş portfel istisna olmaqla

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası

Qeyri-işlək kreditlərin həcminin artmasına (o cümlədən milli valyutanın devalvasiyası kimi digər faktorlara) cavab olaraq, banklar vaxtı keçmiş kreditləri azaltmağa və öz portfellərində xarici valyuta ilə verilən kreditlərin payını artırmağa çalışırlar ki, bu da KOS subyektlərinin yerli valyuta ilə kreditlərə əlçatanlığını daha da çətinləşdirir.

Şəkil 10. Azərbaycanda bankların kredit portfeli



Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası

Kreditlər üzrə faiz dərəcələrinin yüksək olması da KOS subyektlərinin kredit resurslarına əlçatanlığını azaldan amillərdəndir.

Hazırda KOS subyektlərinə kreditlərin ayrılmasında əsas risklər etibarlı məlumat bazasının lazımi səviyyədə olmaması, həmçinin KOS subyektlərinin tələb olunan məlumatları təqdim etməkdə maraqlı olmamasıdır. Nəticədə, həmin KOS subyektləri üçün maliyyə resurslarının axtarılması üçün heç bir əlavə stimul yaranmır.

Maliyyə resurslarına çıxış imkanlarının effektiv və yüksək səviyyədə təmin edilməsi üçün Azərbaycanda KOS subyektləri ilə bağlı xüsusi qurumlar yaradıla bilər ki, onlardan biri də kredit zəmanət fondudur. Bundan başqa, gələcəkdə Azərbaycanda KOS üzrə reytinq agentliyinin yaradılmasına olan tələbat öyrəniləcək və belə bir qurumun yaradılması məqsədəuyğun olarsa, bu istiqamətdə müvafiq tədbirlər görüləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.2.1: Kredit zəmanət fondunun yaradılması

KOS üzrə kredit zəmanət fondunun yaradılması bu subyektlərin maliyyə risklərinin azalması ilə nəticələnə bilər. Bunun üçün yerli valyuta ilə kreditlərə zəmanətlərin verilməsi imkanları araşdırılacaqdır. Kredit zəmanət fondu KOS subyektlərinin ixrac məqsədləri üçün kredit ehtiyaclarını daha yaxşı ödəmək üçün əlavə imkanlar yaradacaqdır. Yerli bazara çıxış məqsədilə kreditlərə verilən zəmanətlər daha məhdud səviyyədə təmin ediləcək və bu zaman əsas diqqət orta sahibkarlıq subyektlərinə, daha sonra isə uzunmüddətli perspektivdə mikrosahibkarlıq subyektlərinə yönəldiləcəkdir. KOS subyektlərinə zəmanətlər daha çox yerli valyuta ilə ayrılan kreditlər üzrə veriləcəkdir. Kredit zəmanət fondu tərəfindən pilot layihə kimi, ilk növbədə, yüksək gəlir gətirmək potensialına malik sektorlara, məsələn maşınqayırma və kənd təsərrüfatı məhsullarının emalına yönəlmiş kreditlərə zəmanət verilə bilər. Ayrı-ayrı KOS subyektlərinin seçilməsi meyarları ilkin mərhələdə daha sərt şəkildə müəyyən ediləcəkdir. Belə ki, seçim zamanı əsas üstünlük qəbul olunan səviyyədə idarəçilik mexanizmləri olan, lazımi məlumatlarla tam təchiz olunmuş, qeydiyyatdan keçmiş, eləcə də strateji planı və kredit reyestrində yüksək reytinqi olan təsərrüfat subyektlərinə veriləcəkdir.

KOS agentliyi həyata keçirilməkdə olan təşəbbüslərin və fəaliyyət planlarının bütün maraqlı tərəflərlə əlaqələndirilməsini təmin edəcək və KOS subyektlərinin maliyyə vəsaitlərinə çıxışını təkmilləşdirəcəkdir. Agentlik Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, KOS subyektlərinin, bankların və digər maraqlı tərəflərin iştirakı ilə ildə iki dəfə iclaslar təşkil edəcək, mövcud çətinlikləri aradan qaldırmaq üçün hazırlanmış fəaliyyət planlarını müzakirə edəcəkdir. Bundan əlavə, KOS subyektlərinin maliyyə vasitələrinə çıxışında aparılan təkmilləşdirmələri davamlı şəkildə qiymətləndirəcək və kütləvi informasiya vasitələrilə ictimaiyyəti məlumatlandıracaqdır.

Tədbir 2.2.2: KOS subyektlərinin maliyyə savadlılığının artırılması

KOS subyektlərinin maliyyə savadlılığının artırılması istiqamətində araşdırmalar aparılacaq, sahibkarların ehtiyacları müəyyənləşdiriləcək və bu istiqamətdə mütəmadi tədbirlər görüləcəkdir. Tədbirlərə, həmçinin ödənişsiz və ya güzəştli qiymətlərlə xüsusi təlim proqramlarının təşkili və həmin təlimlərə yerli və beynəlxalq məsləhətçilərin cəlb olunması aiddir. Eyni zamanda, KOS agentliyi banklarla əməkdaşlıq edərək, bankların

KOS subyektlərinə qeyri-maliyyə xidmətləri (məsələn, marketinq, menecment, satış və s.) göstərilməsini təşviq edəcəkdir.

Tədbirlərin həyata keçirilməsi zamanı mövcud təlim və tədris imkanlarından istifadə olunacaq, yeni təlim mərkəzlərinin yaradılması təşviq ediləcək və bu mərkəzlərdə təlim və məşğələlərin səmərəli olması üçün ən qabaqcıl metodologiyalardan istifadə ediləcəkdir. Tədbirlərin səmərəliliyinin artırılması məqsədilə bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq təşkilatların təcrübəsindən və texniki dəstəyindən də istifadə ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin tərkib hissəsi olaraq, Azərbaycanda fəaliyyət göstərən KOS subyektlərinin ixrac fəaliyyəti daha rahatlıqla maliyyələşdiriləcək və son nəticə olaraq xarici bazarlara çıxış imkanları artacaqdır.

KOS subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi strateji hədəfinin tərkibində irəli sürülmüş bütün prioritetlər ümumi tədbirlər kompleksinin bir hissəsini təşkil edir. Bu səbəbdən bu təkliflərin təsiri ümumiləşdirilərək 2.1-ci prioritetdə göstərilmişdir.

KOS subyektlərinin maliyyə savadlılığının artırılması nəticəsində onların rəqabət qabiliyyəti yüksələcək, bu isə öz növbəsində maliyyə resurslarından düzgün istifadə səviyyəsinə müsbət təsir göstərəcəkdir.

Tələb edilən investisiya

Bu prioritetin yerinə yetirilməsi üçün əsaslı investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

- zəmanət şərtlərinin əlverişsizliyi səbəbindən KOS subyektlərinin marağının az olması;
- kredit zəmanət fondunun regionlarla az işləməsi.

7.2.3. Prioritet 2.3. Əmlak məsələləri üzrə fəaliyyətin təkmilləşdirilməsi və maliyyə əlçatanlığının artırılması

Əsaslandırma


Azərbaycanda daşınar əmlakın qeydiyyata alındığı vahid bir sistemin olmaması, xüsusilə KOS subyektlərinin daşınar əmlakı girov qoyaraq kredit almaq imkanlarını məhdudlaşdırır. Daşınar əmlakın yüklülüyünün reyestrinin yaradılması ilə yanaşı, bu sistemdə girovun üstünlük dərəcəsinin müəyyən edilməsinə də ehtiyac vardır. Dünya Bankının məlumatına görə, Azərbaycanda KOS subyektlərinin aktivlərinin cəmi 22 faizini torpaq və daşınmaz əmlak, 34 faizini debitor borclar, 44 faizini isə maşın və avadanlıqlar təşkil edir. Kreditorların qəbul etdiyi girovların isə 73 faizi torpaq və daşınmaz əmlak, cəmi 27 faizi isə daşınar əmlakdır. Azərbaycan bankları girov kimi daşınmaz əmlaka üstünlük verir ki, bu da sahibkarlar üçün ciddi məhdudiyyət yaradır və onların əksəriyyəti bankın maliyyələşmə tələblərinə cavab verə bilmirlər.

Əvvəlki bölmədə qeyd edildiyi kimi, KOS subyektlərinin əksəriyyəti daşınmaz əmlakın, məsələn, torpaq girovunun olmaması səbəbindən ənənəvi təminatlı kreditlər

üçün müraciət etməyə maraq göstərmir, yaxud müraciət edə bilmir. Qanunvericiliklə həm daşınar, həm də daşınmaz əmlak üzərində təminat hüququnun yaradılmasına icazə verilməsinə baxmayaraq, praktikada banklar nəqliyyat vasitələri və qiymətli kağızlar istisna olmaqla, çox nadir hallarda daşınar əmlakla təmin edilmiş kreditlər ayırırlar.

Azərbaycandakı KOS subyektləri arasında aparılmış sorğunun nəticələri göstərir ki, KOS subyektləri daha aşağı yüklülük tələbi olan və daha asan müraciət prosedurları tələb edən kreditlər üçün müraciət etməyə üstünlük verirlər. KOS subyektləri arasında kreditə müraciət etməmələrinin səbəbləri ilə bağlı aparılmış sorğularda əsasən iki amil – müraciət prosedurlarının mürəkkəbliyi və yüklülük tələblərinin yüksək olması qeyd edilmişdir.


Şəkil 11. KOS subyektlərinin kredit üçün müraciət etməmələrinin əsas səbəbləri *(faizlə)*



Mənbə: Dünya Bankının "Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığı" hesabatı

Təminat tələblərinin yüksək olması Azərbaycanda fəaliyyət göstərən KOS subyektləri üçün daha çox çətinlik yaradır, çünki əksər hallarda təminat predmeti sahibkarın şəxsi vəsaitləri formasında olur. Dünya Bankının eyni hesabatına əsasən, şəxsi vəsaitlər Azərbaycanda mövcud kreditlər üçün qoyulan təminat predmetinin 30,5 faizini təşkil edir. Bu o deməkdir ki, əslində biznes kreditləri biznes sahiblərinə verilmiş şəxsi kreditlərdir, bu isə bir çox biznes sahibləri üçün maneələrə səbəb olur.

Şəkil 12. Kreditlərin təminat predmetləri *(faizlə)*



Mənbə: Dünya Bankının "Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığı" hesabatı

Görüləcək tədbirlər

Tədbir 2.3.1: Daşınar əmlakın yüklülüyünə dair qanunvericiliyin təkmilləşdirilməsi

Daşınar əmlak üzərində yüklülüyün təyin edilməsi prinsiplərinə dair qanun layihəsinin hazırlanması nəzərdən keçiriləcəkdir. Eyni zamanda, mövcud qanunvericiliyə bununla bağlı dəyişiklik layihəsi hazırlanacaqdır.

Tədbir 2.3.2: Daşınar əmlakın yüklülüyünün reyestrinin yaradılması

KOS subyektlərinin maliyyə vəsaitlərinə əlçatanlığını yaxşılaşdırmaq və onların daşınar əmlakı girov qoyaraq kredit almaq imkanlarını artırmaq üçün daşınar əmlakın yüklülüyünün reyestrinin yaradılması məsələsi nəzərdən keçiriləcəkdir. Daşınar əmlakın yüklülüyünün reyestri maliyyə qurumlarını KOS subyektlərinin daşınmaz əmlakı ilə yanaşı, daşınar aktivləri barədə də mərkəzləşdirilmiş şəffaf məlumatlarla təmin edəcək və bununla da, banklar tərəfindən təminat predmeti kimi təqdim edilmiş əmlakın başqa bir yerdə yüklü olub-olmadığı haqda məlumat əldə ediləcəkdir. Reyestr habelə banklara təkrar satış bazarı olan daha yaxşı təminat predmetlərini seçmək imkanı verəcəkdir. Bundan başqa, reyestr banklara iflas vəziyyətində olan sahibkarlıq subyektinin qoyduğu təminat predmetini daha asanlıqla satmaq imkanı yaradacaqdır.

Tədbir 2.3.3: Daşınar və daşınmaz əmlakın satışı üzrə hərracların işinin təkmilləşdirilməsi

KOS subyektlərinin daşınar və daşınmaz əmlakının satışı prosedurlarının sadələşdirilməsi məqsədilə hərracların təşkili işi daha da gücləndiriləcək, maraqlı

tərəflərin belə hərraclar, orada satılacaq əmlak və digər məsələlərlə bağlı məlumatları qabaqcadan əldə etməsi və həmin məlumatların şəffaflığının təmin olunması sahəsində tədbirlər görüləcək, KOS subyektlərinin bu məlumatlara onlayn çıxışı təmin ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Təminat tələblərinin aşağı olması kredit müraciətlərinin artmasına və müraciətlərin müsbət qiymətləndirilməsində irəliləyişə gətirib çıxaracaqdır. Görülən tədbirlər nəticəsində daşınar əmlakın banklar tərəfindən təminat predmeti kimi qəbul edilməsi göstəricisi 2 dəfə artacaqdır.

Tam işə düşdükdən sonra bu reyestr daşınar əmlakdan təminat predmeti kimi istifadə edilməsinə bankların inamını daha da artıracaqdır.

Reyestrin yaradılması kreditləşmədə müəyyən artıma səbəb olmaqla yanaşı, Azərbaycanda bu sahədəki problemlərin həllində də əhəmiyyətli rol oynayacaqdır. KOS subyektlərinin əmlak üzərində hüquqlarının təsbiti bu sahəyə investisiya qoyuluşunu stimullaşdıracaq və maliyyə resurslarına çıxış üçün güclü zəmin yaradacaqdır.

Tələb edilən investisiya

Bu prioritetin yerinə yetirilməsi üçün əsaslı investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

- mərkəzləşdirilmiş reyestrdə daşınar və daşınmaz əmlak üzrə məlumatların əlçatanlığının və şəffaflığının təmin edilməməsi;
- KOS subyektlərinin, habelə maliyyə qurumlarının bu xidmətlərdən yararlana bilməməsi.

7.2.4. Prioritet 2.4. Azərbaycanda lizinq və alternativ maliyyə alətləri (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) bazarının inkişaf etdirilməsi ilə KOS subyektlərinin maliyyəyə çıxışının asanlaşdırılması

Əsaslandırma

İnkişaf etmiş ölkələrdə lizinq iqtisadiyyata investisiya qoyuluşu vasitələrindən biri kimi geniş tətbiq edilməkdədir. Həmin ölkələrdə iqtisadiyyata investisiya qoyuluşunun 25-30 faizi lizinq vasitəsilə həyata keçirilir və yeni növ məhsulların 80 faizə qədəri icarəyə götürülmüş avadanlıqlar vasitəsilə istehsal olunur. Lizinq bank krediti, icarə və investisiya elementlərini özündə birləşdirməklə, sahibkarlığın inkişafına dəstək verən əsas maliyyə alətlərindəndir. Ümumi investisiyalarda lizinqin payı təxminən 30 faiz, lizinq əməliyyatlarının ÜDM-də xüsusi çəkisi isə təxminən 2-6 faiz təşkil edir.[11]

Azərbaycanda lizinq üzrə qanunvericilik keçən əsrin 90-cı illərində qüvvəyə minsə də, 2003-cü ildən etibarən inkişaf etməyə başlamışdır. 2003-2008-ci illər ərzində lizinq şirkətlərinin portfelində hər il ən azı iki dəfə artım müşahidə edilmiş, lakin 2008-ci ildən bəzi güzəştlərin və imtiyazların dayandırılması ilə Azərbaycanın lizinq bazarında geriləmə müşahidə edilmişdir. Belə ki, 2008-ci ildə lizinq bazarının portfel həcmi 200 milyon ABŞ dollarına çatmış, 2010-2011-ci illərdə bu rəqəm 150 milyon ABŞ dollarına

[11] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycanın Sənaye Portalı

enmişdir. Azərbaycanın lizinq bazarının əsas problemi lizinq şirkətlərində maliyyə vəsaitinin çatışmazlığıdır. Lizinq şirkətlərinin fəaliyyətinin əhatə dairəsi, portfelləri və kapitallaşma dərəcəsinin aşağı səviyyədə olması xarici investorlar üçün bu sahənin cəlbediciliyini azaldır. Hazırda Azərbaycanda 30-dan çox şirkət lizinq üzrə ixtisaslaşmışdır və onların lizinq əməliyyatlarının həcmi təxminən 200 milyon manat təşkil edir ki, bu da ÜDM-in təxminən 0,5 faizi həcmindədir.[12]

Aparılmış təhlillər göstərir ki, yerli KOS subyektləri yeni texnika və avadanlıqların alınmasında və eləcə də köhnəlmiş texnika və avadanlıqların yenilənməsində müasir investisiya alətlərindən olan lizinqdən səmərəli vasitə kimi istifadə edə bilərlər. Milli iqtisadiyyatın müasir inkişaf mərhələsində texnikanın lizinqə verilməsi şərtlərinin asanlaşdırılması Azərbaycanda sənaye sahəsinin dövlət tərəfindən dəstəklənməsinin əsas formalarından biri kimi çıxış edə bilər. Azərbaycanın maliyyə bazarlarında bu maliyyə alətlərinin bəzi növlərindən istifadə olunsa da, onların sayının artırılması KOS subyektlərinin bu maliyyə alətləri vasitəsilə maliyyələşməsinə təkan verəcəkdir. Bununla əlaqədar olaraq, mövcud alternativ maliyyə alətlərindən istifadənin genişləndirilməsi, yeni növ alətlərin yaradılması və istifadəsi imkanlarının araşdırılması və onların tətbiqinin genişləndirilməsi zəruridir.

Görüləcək tədbirlər

Tədbir 2.4.1: Lizinq haqqında qanun layihəsinin hazırlanması

Azərbaycanda lizinqin inkişafı üçün, ilk növbədə, vahid qanunun hazırlanması nəzərdən keçiriləcəkdir. Yeni qanun lizinq şirkətlərinin operativ lizinq xidmətləri göstərməsinə şərait yaradacaqdır. Yeni qanun əsasında müvafiq normativ-hüquqi baza formalaşdırılacaq və lizinq şirkətlərinin fəaliyyəti üçün daha əlverişli şərait yaradılacaqdır.

Tədbir 2.4.2: Lizinq fəaliyyətinin tənzimlənməsi və güzəştlərin tətbiqi

Lizinq bazarının daha sürətlə inkişaf etməsi üçün güzəştlərin tətbiq olunması təmin ediləcək və yeni tənzimlənmə mexanizmləri müəyyənləşdiriləcəkdir. Bundan əlavə, ölkə üçün xüsusi əhəmiyyət kəsb edən sektorlarda lizinq üçün əlavə güzəştlərin tətbiqi nəzərdən keçiriləcəkdir. Bu güzəştlər KOS subyektləri tərəfindən alternativ maliyyələşmə mənbəyi kimi lizinq xidmətlərindən istifadənin stimullaşdırılmasına şərait yaradacaqdır.

Tədbir 2.4.3: KOS subyektlərinin maliyyələşməsində alternativ maliyyə alətlərindən (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) istifadənin genişləndirilməsi

Azərbaycanda maliyyə sisteminə uyğun olaraq, alternativ maliyyə alətlərindən istifadə imkanları, mexanizmləri və tətbiqi perspektivləri araşdırılacaqdır. Mövcud maliyyə alətlərindən istifadənin genişləndirilməsinə dair təkliflər hazırlanacaqdır. Əlavə olaraq, KOS subyektlərində forvard, fyuçers, opsion, svop, faktorinq kimi maliyyə alətlərindən alternativ və ucuz maliyyələşmə mənbəyi kimi istifadə stimullaşdırılacaqdır.

[12] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycanın Sənaye Portalı

Gözlənilən nəticə və nəticə indikatorları

Görüləcək tədbirlər nəticəsində yerli və xarici investorların lizinq bazarına və forvard, fyuçers, opsion, svop, faktorinq kimi alternativ maliyyə mənbələrinə marağı artacaq, yerli KOS subyektlərinin bu yolla maliyyələşmə imkanları genişlənəcəkdir. Lizinq bazarının inkişaf etdirilməsi 2020-ci ilədək Azərbaycanda lizinq əməliyyatlarının ÜDM-də payını 2 faizə, 2025-ci ilədək isə 4 faizə çatdırmaq imkanı verəcəkdir.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əsaslı investisiya tələb olunmur.

Gözlənilən risklər


- lizinq şirkətlərinin maliyyələşmə mənbələrinin məhdud olması;
- alternativ maliyyə mənbələri ilə əlaqədar təcrübənin az olması;
- alternativ maliyyə mənbələri barədə KOS subyektlərinin məlumatlılığının aşağı olması.

7.3. Strateji hədəf 3. KOS subyektlərinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması

Azərbaycanın qeyri-neft sektorunun ümumi ixracda payı çox kiçikdir və ixracın 13,8 faizini təşkil edir.[13] Qeyri-neft məhsullarını ixrac edən müəssisələrin əksəriyyəti iri müəssisələrdir ki, bu da KOS subyektlərinin ixracda payının cüzi olduğunu göstərir. İnkişaf etmiş ölkələrdə, eləcə də ixracatı qeyri-neft məhsullarına əsaslanan dövlətlərdə, kiçik və orta sahibkarlar ixracda əhəmiyyətli paya sahibdirlər. Eyni zamanda, KOS subyektləri idxalı əvəz edən malların istehsalında müstəsna rol oynayır. Yerli istehsalın KOS subyektləri arasında inkişafı ölkənin tədiyə balansının yaxşılaşdırılmasına, ölkədən valyuta axınının qarşısının alınmasına və idxaldan asılılığın azaldılmasına güclü təsir göstərir. Xarici bazarlara çıxış yalnız Azərbaycandan malların ixrac edilməsi baxımından deyil, eləcə də yerli istehsalın qabaqcıl texnologiyalara çıxışı və mütəxəssislərin cəlb edilməsi nöqteyi-nəzərindən də çox vacibdir. Hazırda AZPROMO KOS subyektlərinin müxtəlif vasitələrlə beynəlxalq bazarlara çıxışına kömək edən əsas təşkilatdır. AZPROMO qeyri-neft sektorunda fəaliyyət göstərən KOS subyektlərinin ixrac əməliyyatlarının artırılmasında müəyyən rol oynamışdır. Lakin statistik məlumatlara əsasən, KOS subyektlərinin ixracda payı hələ də çox kiçikdir. 2013-cü ildə ölkəmizdə kiçik müəssisələrin yalnız 2 faizi ixrac fəaliyyəti ilə məşğul olmuşdur. Müqayisə üçün qeyd edək ki, Türkiyədə bu göstərici 30,5 faiz olmuşdur. Orta sahibkarlıq subyektlərində bu göstərici 1 faiz təşkil etdiyi halda, Türkiyədə bu cür müəssisələrin payı 51,2 faiz olmuşdur (şəkil 13).

[13] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Şəkil 13. KOS subyektlərinin ixrac potensialı




1. Avropa və Mərkəzi Asiya (Albaniya, Belarus, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Gürcüstan, Qazaxıstan, Kosovo, Qırğızıstan, Makedoniya, Moldova, Monteneqro, Özbəkistan, Polşa, Rumıniya, Rusiya, Serbiya, Sloveniya, Tacikistan, Türkiyə, Türkmənistan, Ukrayna)

Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası, Dünya Bankı, Müəssisə Araşdırmaları

2014-cü ildə Azərbaycanda qeyri-neft ixracı ÜDM-in 2,1 faizini təşkil etmişdir. Ölkənin hazırkı qeyri-neft ixracının böyük hissəsi Türkiyənin, İranın və Rusiyanın payına düşür. Ölkənin şərq və cənub qonşularına ixracı hələlik az olsa da, böyük potensiala malikdir.

Şəkil 14. Azərbaycanın ixracının mövcud vəziyyəti



Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası

KOS subyektlərinin daxili bazarlara çıxış imkanlarının artırılması da vacib məsələlərdəndir. Qısamüddətli perspektivdə əsas məqsədlərdən biri KOS-un inkişafının dəstəklənməsi məqsədilə dövlət sektoru üzrə satınalmalardan effektiv istifadə edilməsi olacaqdır. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində qeyd olunduğu kimi, Azərbaycan KOS-un inkişafını təmin etmək üçün bir sıra müvafiq tədbirlər görəcəkdir. KOS qeyri-neft sektorunda artıma təkan vermək üçün əsas qüvvə olacaqdır. Azərbaycan iqtisadiyyatının gələcəyinin qurulmasında əsas hədəf iqtisadiyyatın şaxələndirilməsi yolu ilə ölkənin neft ixracından asılılığının azaldılmasından ibarət olacaqdır.

7.3.1. Prioritet 3.1. KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi

Əsaslandırma

Azərbaycanda KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatlarının sadələşdirilməsi, ixracyönümlü maliyyə imkanlarının artırılması və investisiyaların təşviqi istiqamətində davamlı islahatlar aparılmaqdadır. Beynəlxalq ticarət əməliyyatları ilə əlaqədar gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi, o cümlədən risk qiymətləndirilməsinin nəticələri əsasında avtomatlaşdırılmış elektron informasiya sisteminin imkanlarından istifadə etməklə, yarana biləcək təhlükənin səviyyəsinin əvvəlcədən müəyyən edilməsi, gömrük nəzarəti formalarının idxal-ixrac prosedurları üzrə tətbiqinin daha da optimallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı ilə "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları" təsdiq edilmişdir.

Əlavə olaraq, qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, bu sahədə əlverişli şəraitin daha da genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 mart tarixli 811 nömrəli Fərmanı ilə ixrac məhsullarına ixrac təşviqinin maliyyələşdirilməsi və geriödəmə dəstəklərinin verilməsi mexanizmi yaradılmışdır.

Göstərilənlərlə yanaşı, investorların Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş güzəştlərdən faydalanması məqsədilə "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq olunmuşdur.

Bu sahədə görülən tədbirlərə baxmayaraq, Azərbaycanda KOS subyektləri üçün ixracyönümlü maliyyə məhsullarının sayı məhdud olaraq qalmaqdadır. Ölkədə təklif olunan maliyyə məhsullarının təhlili göstərir ki, hazırda KOS subyektləri, əsasən, iki növ dəstək alətini əldə edə bilirlər. Bu alətlər ixracdan əvvəl və ya malın göndərilməsindən sonra təklif edilən kredit mexanizmlərini əhatə edir. Başqa ölkələrin təcrübələrində istifadə olunan digər ixracın maliyyələşdirilməsi məhsullarına aşağıdakıları misal göstərmək olar:

- xarici ölkələrdə satış sərgilərinin keçirilməsi üçün qrantlar – ixracatçı şirkətlərə xaricdə satış sərgilərində iştirak etməyə imkan verir;
- qısamüddətli ixrac krediti sığortası – kommersiya riskləri səbəbindən yaranmış itkilərin qarşılanmasını təmin edir;
- yerli və beynəlxalq faktorinq – bu maliyyə xidməti debitor borcların idarə edilməsi və bu borclar əsasında maliyyələşmə mexanizmlərini təklif edir;
- akkreditiv və bank qarantiyaları kimi sənədli əməliyyatlar – belə əməliyyatlar həm ixracatçıları, həm də idxalçıları bir sıra risklərdən qoruyan beynəlxalq maliyyə alətləridir.

Göründüyü kimi, Azərbaycanda bu gün bankların beynəlxalq ticarət əməliyyatlarının maliyyələşdirilməsi ilə bağlı təklif etdikləri maliyyə məhsullarının sayı çox məhduddur. Bəzi banklar ümumiyyətlə sənədli akkreditiv, beynəlxalq bank qarantiyaları, beynəlxalq faktorinq kimi xidmətləri təklif etmirlər. Nəticədə, KOS subyektləri tərəfindən beynəlxalq ticarət əməliyyatlarının, xüsusilə də ixrac əməliyyatlarının effektiv şəkildə həyata keçirilməsi üçün maliyyə çatışmazlığı yaranır.

Banklar beynəlxalq ticarətin maliyyələşdirilməsi üçün istifadə edilən xidmətlərin çeşidini və keyfiyyətini inkişaf etdirməklə, sahibkarların beynəlxalq əməliyyatlardan əldə etdikləri gəlirləri əhəmiyyətli dərəcədə artıra bilərlər.

Görüləcək tədbirlər

Tədbir 3.1.1: KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatlarının müvafiq maliyyə xidmətləri ilə təmin edilməsi

KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatları zamanı qarşılaşdıqları ən vacib problemlər müəyyən ediləcək, bu problemlərin həlli istiqamətində atılmalı olan addımlarla bağlı hesabatlar hazırlanacaq və bu məqsədlə, sözügedən sahədə müvəffəqiyyət qazanmış ölkələrin təcrübəsindən, eləcə də AZPROMO-nun məlumat bazasından istifadə ediləcəkdir.

Tədbir 3.1.2: KOS-un beynəlxalq standartlara və tələblərə uyğunlaşdırılmasına dəstək göstərilməsi

KOS subyektləri tərəfindən ixrac edilən məhsulların müvafiq standartlara və tələblərə uyğunluğunun artırılması üçün onlara əməli dəstək göstəriləcəkdir.

Bununla yanaşı, müxtəlif hökumətlərarası sazişlərin və tərəfdaşlıq müqavilələrinin yaratdığı imkanlar KOS subyektləri arasında daha geniş təbliğ ediləcək, onların mövcud fürsətlərdən daha yaxşı yararlanması təmin ediləcəkdir. Müvafiq dövlət qurumları, AZPROMO və KOS agentliyi bir sıra meyarlar – ölkə üçün strateji əhəmiyyəti, rəqabətədavamlılığı, gətirdiyi iqtisadi dəyəri və digər meyarlar əsasında pilot sahələri seçəcəkdir.

KOS subyektlərinin rəqabət qabiliyyətini artırmaq məqsədilə KOS subyektlərinə yeni texniki reqlamentlərin tətbiq edilməsi üçün keçid müddəti veriləcəkdir. Keçid müddəti ərzində istehsalçılar tədricən yeni tələbləri öz istehsal proseslərində tətbiq edəcəklər və həmin müddət ərzində mövcud standartlar da qüvvədə qalacaqdır. Könüllü tətbiq müddəti ərzində istehsalçılar mütəmadi olaraq maarifləndiriləcək, eləcə də ödənişsiz təlim və məsləhət xidmətləri əldə edəcəklər ki, bu da onlar tərəfindən yeni texniki reqlamentlərin tələblərinin başa düşülməsinə və tətbiq edilməsinə yardım edəcəkdir.

Yeni texniki reqlamentləri tətbiq edən istehsalçılara qrantların və güzəştli kreditlərin verilməsi nəzərdən keçiriləcəkdir. Bununla da, ölkədə daha təhlükəsiz və daha keyfiyyətli məhsulların istehsalı təşviq ediləcəkdir. Beynəlxalq standartlara uyğunlaşma ilə bağlı əlavə təfərrüatlar "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə əhatə olunmuşdur.

Tədbir 3.1.3: KOS subyektlərinə birbaşa xarici investisiyaların cəlb edilməsi ilə bağlı dəstək göstərilməsi

Azərbaycanda KOS subyektlərinə birbaşa xarici investisiyaların cəlb edilməsi məsələsinə xüsusi diqqət ayrılacaq, investisiyaların cəlbi üçün mexanizm və imkanlar araşdırılacaqdır. Bu məqsədlə KOS subyektlərinin potensial investisiya mənbələri və şirkətləri ilə birbaşa görüşlərinin ("*B2B*") təşkil olunması istiqamətində işlər aparılacaqdır. KOS subyektlərinin xarici investisiyaların və yeni texnologiyaların cəlb edilməsi sahəsindəki problemləri mütəmadi olaraq araşdırılacaq, onlara bazar araşdırmalarının aparılması, biznes planların hazırlanması və statistik məlumatlara çıxış sahəsində yardım göstəriləcəkdir. KOS subyektlərinə birbaşa xarici investisiyaların cəlb edilməsi ilə bağlı dəstək çərçivəsində bu sahədə fəaliyyət göstərən yerli və xarici təşkilatların təcrübəsindən və potensialından istifadə ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin icrası nəticəsində 2020-ci ildə real ÜDM-in 35 milyon manat birbaşa və 20 milyon manat dolayı olmaqla, ümumilikdə 55 milyon manat artacağı proqnozlaşdırılır. Həmçinin məşğulluq göstəricilərində 2020-ci ildə 9800 nəfərlik artımın olacağı gözlənilir.

Ümumiyyətlə, beynəlxalq ticarət, xüsusilə də ixracla bağlı təlimatların və maliyyə məhsullarının təmin edilməsi Azərbaycanın KOS subyektlərində əlavə ixrac imkanları yaradacaq və onların ixracdakı payının artmasına gətirib çıxaracaqdır. Bununla da, KOS subyektlərinin beynəlxalq bazarlara çıxışı daha yaxşı təmin olunacaqdır.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün 2020-ci ilədək ilkin mərhələdə 3 milyon manat həcmində investisiya qoyuluşu nəzərdə tutulur.

Gözlənilən risklər

- yerli bankların KOS subyektlərinə beynəlxalq ticarət və ixrac üçün vacib olan maliyyə məhsul və xidmətlərini təqdim edə bilməməsi;
- KOS subyektlərinin xarici bazarlarda rəqabətə davam gətirməməsi;
- KOS subyektlərinə xarici investorların marağının az olması;
- beynəlxalq ticarətlə bağlı maliyyə risklərinin düzgün idarə edilməməsi nəticəsində KOS subyektlərinin ödəniş qabiliyyətini itirməsi.

7.3.2. Prioritet 3.2. Ayrı-ayrı sektorlar üzrə ixrac assosiasiyalarının yaradılması

Əsaslandırma

KOS subyektlərinin xarici bazarlara çıxış üçün maliyyə, texniki və insan resursları, eləcə də bu sahədə bacarıqları iri şirkətlərə nisbətən daha məhdud olur. Bu çatışmazlığın aradan qaldırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Belə ki, xarici ölkələrə ixrac missiyalarının təşkili, xarici bazarların araşdırılması və marketinq fəaliyyəti, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasının təşviqi ilə əlaqədar mexanizmlər formalaşdırılmışdır. Hazırda Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması istiqamətində tədbirlər görülməkdədir.

Bu istiqamətdə ən effektiv vasitələrdən biri KOS subyektlərinin fəaliyyət göstərdikləri sektorlar üzrə assosiasiyalarda bir araya gələrək səylərinin və imkanlarının artırılması ola bilər. Bu məqsədlə, assosiasiyalar KOS subyektləri üçün faydalı və zəruri xidmətlər göstərilməsini təşkil edə, onların bu xidmətlərdən güzəştli və əlverişli şərtlərlə istifadə etməsini təşviq edə bilərlər. KOS subyektlərinin ixrac göstəricilərinin artırılması, eləcə də ixracın şaxələndirilməsi (ixracda daha çox qeyri-neft məhsullarının əhatə olunması) məqsədilə Azərbaycanda bir çox sənaye sahələrində kiçik və orta sahibkarlıq subyektlərinin ixracının təşviqinə ehtiyac olacaqdır. Bu təşəbbüsün icrası məqsədilə pilot sektorlar əsas götürülməklə, ayrı-ayrı sektorlar üzrə ixrac assosiasiyalarının formalaşdırılması zəruridir.

Görüləcək tədbirlər

Tədbir 3.2.1: İxrac assosiasiyalarının inkişaf etdirilməsi

İxrac assosiasiyalarının yaradılması üçün KOS subyektlərinin daha çox təmsil olunduğu sektorlar pilot kimi seçiləcəkdir. Müəyyən edilmiş sektorlarda potensial ixrac bazarları və KOS subyektlərinin həmin bazarlarda rəqabət imkanları təhlil ediləcək, KOS subyektlərinin ixrac potensialı qiymətləndiriləcəkdir.

KOS agentliyinin və AZPROMO-nun köməyilə Azərbaycanda pilot sektorlar üzrə ixrac assosiasiyaları formalaşdırılacaq və KOS subyektlərinin həmin assosiasiyalarda iştirakı stimullaşdırılacaqdır. İlkin diqqət daha yüksək ixrac payına malik olan orta sahibkarlıq subyektlərinə yönəldiləcəkdir. İştirakçı KOS subyektləri xarici bazarlarda daha yaxşı rəqabət aparmaq imkanlarından, bazar araşdırmalarından, eləcə də hədəf bazarlarda qanunvericilik məlumatlarından bəhrələnə biləcəklər.

Assosiasiyaların əsas fəaliyyəti ayrı-ayrı sektorların ehtiyaclarından asılı olaraq dəyişəcəkdir. Bu fəaliyyətə KOS subyektləri arasında bir sıra ixracyönümlü əməkdaşlıq, o cümlədən seminar, təlim və kursların təşkili yolu ilə biliklərin artırılması, beynəlxalq ticarətin təşviqi, satış və alış missiyaları, ixrac məhsullarının qeydiyyatı, reklam fəaliyyətləri və brendin yaradılması, yerli və beynəlxalq tədbir və sərgilərdə iştirak, marketlər və anbarlar, hədəf bazarlar və bu bazarlarda mövcud qanunvericilik haqqında bazar araşdırmaları, layihə əsasında tədqiqat və inkişaf dəstəyi, mərkəzləşdirilmiş məlumat bazasının idarə olunması və s. daxildir.

Davamlı maliyyə vəsaitlərinin ayrılmasını təmin etmək məqsədilə assosiasiyalar vasitəsilə satılan ixrac məhsullarının müəyyən faizinin xidmət haqqı kimi ödənilməsi

imkanları nəzərdən keçiriləcəkdir. Ayrı-ayrı təşviq layihələrini ixrac assosiasiyaları bilavasitə idarə edəcəklər.

Assosiasiyaların fəaliyyətini, mövcud çətinlikləri və müvafiq təkmilləşdirmə imkanlarını müzakirə etmək üçün ixrac assosiasiyalarının, KOS agentliyinin, AZPROMO-nun və digər müvafiq qurumların nümayəndələrinin iştirakı ilə illik iclaslar təşkil ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin nəticəsi olaraq, Azərbaycanın real ÜDM-ində 2020-ci ildə 45 milyon manat artım gözlənilir. Məşğulluq göstəricilərində isə hər hansı ciddi artım proqnozlaşdırılmır.

Əsas icra göstəricisi:

- qeyri-neft ixracında 5 faizlik artımın əldə olunması.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün hər hansı əsaslı investisiya qoyuluşu tələb edilmir.

Gözlənilən risklər

- ixracda KOS-un payının məhdud qalması;
- təklif olunan xidmətlərin KOS-un tələbatına uyğun olmaması;
- ixrac assosiasiyalarının imkanlarından sui-istifadə edilməsi.

7.4. Strateji hədəf 4. KOS subyektlərinin bilik və bacarıqlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi

Son illər sahibkarların maarifləndirilməsi, müasir biznes metodlarına yiyələnməsi, ümumilikdə, biznes fəaliyyətini həyata keçirmə potensialının gücləndirilməsi sahəsində bir çox tədbirlər görülmüşdür. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzdində fəaliyyət göstərən Biznes Tədris Mərkəzi tərəfindən sahibkarlar üçün müxtəlif səpkili təlim və seminarlar təşkil edilmiş, təlimlərin mövzuları diferensiallaşdırılaraq sahibkarların ehtiyaclarına uyğun qurulmuşdur. Ölkənin regionlarında fəaliyyət göstərən sahibkarların tədbirlərdə iştirak səviyyəsi mütəmadi artmış, təlimlərlə yanaşı, regionlarda və Bakıda çoxlu sayda maarifləndirici tədbirlər təşkil edilmişdir. Biznes Tədris Mərkəzinin respublikanın 7 şəhər və rayonunda (Gəncə, Qazax, Yevlax, Göyçay, Lənkəran, Şəki, Xaçmaz) nümayəndəlikləri yaradılmışdır.

Bununla yanaşı, Dənizkənarı Milli Parkda yerləşən Bakı Biznes Mərkəzi kiçik və orta sahibkarlar üçün sərgilər və konfranslarda iştirak, açılış və təqdimat mərasimlərinin və işgüzar görüşlərin keçirilməsi, xarici investorların iştirakı ilə beynəlxalq tədbirlərə qatılmaq imkanları yaratmışdır. Regionlarda fəaliyyət göstərən KOS subyektlərinin bacarıqlarının artırılması məqsədilə 2013-cü ildən Bakı Biznes Mərkəzinin nəzdində Quba-Xaçmaz Regional İnkişaf Mərkəzi fəaliyyət göstərir. Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində sahibkarların sərgilər və işgüzar görüşlər keçirməsi üçün müvafiq avadanlıqla təchiz edilmiş ofis və məkanlar vardır. Həmçinin gənc sahibkarların inkişaf etdirilməsi məqsədilə Regional Mərkəzdə biznes inkubator açılmışdır və gənc sahibkarların bilik və bacarıqlarının artırılması ilə bağlı dəstək proqramı icra olunmaqdadır.

Digər tərəfdən, AZPROMO kiçik və orta sahibkarların xarici investorlarla əlaqələndirilməsi, beynəlxalq sərgi və konfransların təşkili vasitəsilə KOS subyektlərinin potensialının artırılmasına xidmət göstərir. Ölkədə yaradılan sənaye və yüksək texnologiyalar parklarında və sənaye məhəllələrində də sahibkarların bacarıqlarının artırılması istiqamətində biznes inkubasiya və digər dəstəkverici tədbirlər nəzərdə tutulmuşdur.

Qeyd edilənlərlə yanaşı, Azərbaycanda KOS subyektlərinin bilik və bacarıqları müasir tələblərə cavab vermir və bu sahədə səylərin gücləndirilməsi zəruridir. Belə ki, ölkədə fəaliyyət göstərən KOS subyektləri, xüsusilə də regionlarda yerləşən KOS subyektləri ilə Bakıda fəaliyyət göstərən iri şirkətlər arasında təlim ehtiyacları və müasir biznes bacarıqları baxımından böyük fərq vardır. İnkişaf etmiş ölkələrdə müxtəlif dəstək tədbirləri nəticəsində KOS subyektləri ilə böyük şirkətlər arasında bu fərq daha az nəzərə çarpır. Beynəlxalq mühasibat uçotu standartlarının və korporativ idarəetmənin tətbiqi baxımından Azərbaycanda olan KOS subyektləri xarici tərəfdaşlarından geridə qalır. Müasir uçot və idarəetmə sistemi qurulmadan isə xarici maliyyə bazarlarına çıxış mümkün deyildir.

Vacib problemlərdən biri də sahibkarlıq anlayışı və ruhunun yüksək səviyyədə olmaması, xüsusilə də qadınlar arasında kiçik və orta sahibkarlığın az yayılmasıdır. Həmçinin Azərbaycanda startaplara dəstək mexanizmlərinin geniş yayılmaması innovativ təşəbbüslərin reallaşdırılmasını əngəlləyir.

7.4.1. Prioritet 4.1. Biznes inkubatorları və startap layihələrinin inkişaf etdirilməsi, model müəssisələrin yaradılması

Əsaslandırma

KOS-un inkişafında biznes inkubatorları əhəmiyyətli rol oynayır. Biznes inkubatorlarının işinin düzgün təşkil edilməsi xüsusilə gənclər arasında işsizliyin azalmasına, regionların inkişafına və innovasiyaların təşviqinə müsbət təsir göstərir. Həmçinin biznes inkubatorları daxilində startap layihələrinin icrasına əlverişli şərait formalaşır.

Biznes inkubatorları bütün dünyada yayılmışdır və ölkədən, həmçinin inkubatorun profilindən asılı olaraq sahibkarlara müxtəlif çeşiddə xidmətlər təqdim edirlər.

Azərbaycanda biznes inkubatorunun yaradılması istiqamətində mühüm addımlar atılmış, onlar müvafiq zəruri texniki infrastrukturla təmin edilmiş, paralel olaraq, təlim, məsləhət xidmətləri göstərən biznes inkubatorları yaradılmışdır. Lakin bu inkubatorların sayının artırılmasına və əhatə dairəsinin genişləndirilməsinə ehtiyac vardır.

Beynəlxalq təcrübəyə əsasən, biznes inkubatorlarının dəstək xidmətlərinə aşağıdakılar daxildir:

- məsləhət xidmətləri;
- təlim xidmətləri;
- mentorluq;
- vasitəçilik;
- təşkilati xidmətlər və s.

Bu xidmətlərin növləri və KOS subyektləri üçün vacibliyi inkubasiya dövrünün mərhələlərindən asılı olaraq dəyişir.

KOS-un inkişafına töhfə verə biləcək imkanlardan biri də model müəssisələrin yaradılmasıdır. Azərbaycanda model müəssisənin yaradılması KOS işçilərinin eksperimental (təcrübəəsaslı) təlim keçməsi üçün zəruri platforma rolunu oynaya bilər. Model müəssisələr, adətən, müəssisə daxilində qabaqcıl təcrübənin və bacarıqların tətbiq olunmasını nümayiş etdirir. Belə müəssisələrdə qənaətli istehsal təcrübələrindən istifadəyə xüsusi diqqət ayrılır. Yaradılacaq model müəssisədə geniş təlim kurikulumu, o cümlədən "hazırkı vəziyyətdən gələcək vəziyyətə" transformasiya prosesi təklif edilir. Bu müəssisələr qənaətli istehsal sisteminin bütün əsas elementlərini özündə əks etdirir və "görmə, eşitmə və icraetmə" konsepsiyası əsasında aktiv ixtisaslaşma mühiti təmin edir.

Beynəlxalq təcrübə göstərir ki, belə zavodlar, səciyyəvi təlim proqramlarının təşkil edilməsi ilə rüb ərzində 25 və daha çox şirkətə xidmət göstərə bilər. Proqram biznes sahiblərinin müəssisə ilə tanışlığından başlayır. Qrup üçün ilk mühazirələr, adətən, iki gün davam edir, bu müddətdə qruplara qənaətli iş təcrübələrinin nəzəri əsasları haqqında biliklər verilir və bu təcrübələrin əsas prinsipləri izah olunur (şəkil 15). Növbəti 3-5 gün müəssisədə eksperimental təlimlərin keçirilməsinə həsr olunur. Bu təlimlər müəssisədə sınaq (eksperiment) və nümayiş kimi komponentləri özündə əks etdirir. Birhəftəlik intensiv proqramdan sonra altı aya qədər dövrü əhatə edən transformasiya təlimi başlayır. Bu mərhələdə iştirakçılar eksperiment və təkmilləşdirmə aparmaq məqsədilə öz işlədikləri müəssisələrə geri qayıdırlar. Həmin müddətdə qənaətli iş təcrübələri üzrə məsləhətçi tərəfindən sahə səfərlərinin təşkil edilməsi yolu ilə iştirakçılara müvafiq kömək göstərilə bilər. Rəsmi proses bitdikdən sonra iştirakçılar qazandıqları uğurların davamlı olması üçün qənaətli iş təcrübələrini işlədikləri şirkətlərdə tətbiq edə bilərlər.

Şəkil 15. Birgünlük təlim proqramına dair nümunə

Praktiki tapşırıqlar daxil edilmişdir

Məqsəd

- Qənaətli istehsalın üstünlükləri ilə bağlı məlumatlandırma
- Qənaətli istehsal alətləri ilə tanışlıq
- Transformasiya yanaşması üzrə ilkin təsəvvürün yaradılması

İştirakçılar

- Aparıcı mütəxəssislər
- Menecerlər
- Dəyişiklik liderləri

Gündəlik

Saat	Mövzu	Məqsəd
08:30-09:00	Fabriklə tanışlıq	Gündəlik və fabriklə tanışlıq
09:00-09:45	Yüngül sənayeyə ilkin baxış	Qənaətli istehsalla bağlı baza biliklərinin formalaşdırılması
09:45-10:45	İş prosesi ilə tanışlıq üçün mərhələlərlə tanışlıq	İstehsalda tullantıların, dəyişkənliklərin, qeyri-elastikliyin müəyyənləşdirilməsi
10:45-11:00	Fasilə	
11:00-12:00	Mövcud dəyərin yaradılması prosesinin təsviri	İstehsalın cari hissə dəyərinə uyğun dizayn edilməsi
12:00-12:45	Standartlaşmış iş	Standartların gücü və onların müəyyənləşdirilməsi qaydasının öyrədilməsi
12:45-13:30	Nahar fasiləsi	
13:30-14:30	Növbəti hissə üçün tanışlıq	Təkmilləşmiş əməliyyatın müşahidəsi
14:30-15:30	Fəaliyyətin idarə edilməsi	Dayanıqlılığın və davamlı təkmilləşdirmənin öyrədilməsi
15:30-16:30	Qənaətli istehsal mədəniyyətinin formalaşdırılması	Lazımi mədəniyyətin yaradılmasına təsir modelinin öyrədilməsi
17:00	Nəticə	

Azərbaycanda mövcud qeyri-işlək zavodların və infrastrukturun hesabına bəzi avadanlıqların daha sürətlə və az xərc sərf etməklə əldə edilməsi üçün imkanlar vardır. Müxtəlif ölkələrdə yaradılmış uğurlu model müəssisələrin nümunəsindən istifadə etməklə, bu prioritetin reallaşdırılmasına nail olmaq olar.

Bundan əlavə, startapların dəstəklənməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, startaplara investisiya yatıran bir sıra qurum və fondlar yaradılmışdır. Buna misal olaraq, Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunu nümunə göstərmək olar. Bundan başqa, nazirlik "Startap Azərbaycan" layihəsini də həyata keçirir. Bu layihənin əsas məqsədi ölkədə İKT sektorunda investisiya mühitini yaxşılaşdırmaq, ən yaxşı internet və İKT layihələrini üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə yardım etməkdir.

Görüləcək tədbirlər

Tədbir 4.1.1: KOS subyektlərinin faydalanması üçün Azərbaycanda model müəssisənin yaradılması

Sənayeyönümlü KOS subyektlərinin istifadə edə bilməsi üçün pilot model müəssisənin yaradılması nəzərdən keçiriləcəkdir. Bu istiqamətdə model müəssisə ilə bağlı beynəlxalq təcrübə təhlil olunacaq, model müəssisə üçün seçiləcək sektor, müəssisənin böyüklüyü, yerləşəcəyi yer və işçi heyətinə aid məsələlər müəyyən ediləcəkdir. Keçmiş Sovet İttifaqı dövründən qalmış qeyri-işlək zavodlar qiymətləndiriləcək və model müəssisə üçün ən uyğun olanlar seçiləcəkdir (hər hansı münasib aktiv müəyyən edilmədikdə, yenisinin tikintisi nəzərdən keçiriləcəkdir). Bu layihənin reallaşdırılması üçün işçi qrup yaradılacaqdır. Model müəssisənin maliyyələşdirilməsi metodu (özəl şirkətlərdən və ya dövlətdən) ilə bağlı qərar verildikdən sonra, tender vasitəsilə model müəssisənin qurulması və işə salınmasını həyata keçirəcək təchizatçı müəyyənləşdiriləcəkdir. Bu müəssisə KOS subyektlərinin işçilərinin praktiki bacarıqlarının artırılması üçün platforma rolu oynayacaqdır.

Model müəssisənin yaradılması ilə bağlı məlumatlar seçilmiş pilot sektordakı şirkətlərə çatdırılacaq, belə müəssisənin üstünlükləri və faydaları haqqında həmin şirkətlərin məlumatlandırılması məqsədilə seminarlar təşkil ediləcək və bu seminarlarda qabaqcıl təcrübələr müzakirə ediləcəkdir.

Azərbaycanda KOS subyektlərinin ən yüksək sıxlığa malik olduğu sənaye zonasında model müəssisələrin yaradılması təmin ediləcəkdir. İlk model müəssisə pilot layihə kimi potensial olaraq, Bakı regionunda yerləşəcəkdir. İlkin məqsəd bir il ərzində ən azı 100 kiçik və orta sahibkarlıq subyektinə xidmət edə biləcək müəssisənin yaradılmasından, KOS subyektlərinə təlimlər keçəcək beynəlxalq mütəxəssislər cəlb etməklə, iştirakçı kimi seçilmiş həmin 100 şirkətin qənaətli istehsal bacarıqlarının təkmilləşdirilməsindən ibarət olacaqdır.

Müəssisənin qurulması ilkin planlaşdırmadan başlayaraq, ilk təlimin keçirilməsi üçün tələb olunan bütün zəruri avadanlıqların çatdırılması və quraşdırılması da daxil olmaqla, reallaşdırılacaqdır. Burada əsas tərəflər sənaye assosiasiyalarından, özəl qurumlardan, universitetlərdən və digər maraqlı subyektlərdən ibarət olacaqdır. Maliyyə vəsaiti büdcədən, sponsorlardan, KOS subyektlərinin qəbulu üçün ödənilən xidmət haqlarından təmin ediləcəkdir.

Model müəssisədən faydalanacaq KOS subyektləri ilə mütəmadi koordinasiya aparılacaq və onların rəyləri öyrəniləcəkdir. Şirkətlərlə ildə iki dəfə görüşlər keçiriləcək və model müəssisənin faydalı olub-olmaması barədə onların fikirləri, eləcə də bu istiqamətdə təkmilləşdirmə ilə bağlı təklifləri öyrəniləcəkdir. Maraqlı şirkətlərə model müəssisənin təcrübəsi əsasında qənaətli iş modellərinin tətbiqinin nəticələrinə dair rüblük hesabat təqdim etmələri üçün müraciət olunacaq və bu hesabat əsasında həmin nəticələr seçilmiş ölkələrin təcrübəsi ilə müqayisə edilərək, model müəssisənin effektivliyi qiymətləndiriləcəkdir.

Tədbir 4.1.2: Biznes inkubatorlarının inkişaf etdirilməsi

Azərbaycanda biznes inkubatorlarının gücləndirilməsi və yeni inkubatorların yaradılması işləri təhlil ediləcək və növbəti addımlar müəyyən olunacaqdır. Bu işdə KOS agentliyi və müvafiq dövlət qurumları yaxından iştirak edəcək və biznes inkubatorlarının yaradılması, onların fəaliyyətinin effektivliyi, inkişaf üçün əsas maneələrin təhlili və həlli yolları ilə bağlı xüsusi hesabatlar hazırlanıb təqdim olunacaqdır. Biznes inkubatorlarının maliyyə və güzəşt mexanizmlərinin formalaşdırılması və qanunvericilikdə müvafiq dəyişikliklərin həyata keçirilməsi üzrə imkanlar və potensial addımlar qiymətləndiriləcəkdir. Biznes inkubatorlarının maliyyələşdirilməsində dövlət büdcəsindən, donor təşkilatların ianələrindən, eləcə də yerli və xarici investorların vəsaitlərindən istifadə edilə bilər. Biznes inkubatorları ilə sənaye klasterləri, sənaye parkları və yüksək texnologiyalar parkları arasında səmərəli əməkdaşlıq qurulacaq, biznes inkubatorlarında uğurla fəaliyyət göstərən, inkişaf potensialı olan startaplara həmin sənaye zonalarının rezidenti olmaq imkanı yaradılacaqdır. Biznes inkubatorlarında iştirak edən və digər startapların və yeni biznes qurmaq istəyənlərin ilkin maliyyə resurslarına çıxışının təmin edilməsi üçün uyğun maliyyələşmə mexanizmlərinin işlənib hazırlanması nəzərdən keçiriləcəkdir.

Biznes inkubatorlarının idarəetmə mexanizminin təkmilləşdirilməsi üçün maraqlı tərəflər və məsləhətçilər cəlb ediləcəkdir. Biznes inkubatorlarında idarəetmə prosedurları və təlim modulları işlənib hazırlanacaq, idarəetmə şuraları təsis ediləcək, inkubatorların fəaliyyəti və KOS-un cəlb edilməsi sahəsində effektivlik və şəffaflıq təmin ediləcəkdir. Biznes inkubatorlarının iştirakçıları üçün xüsusi xidmətlər təklif ediləcək, ehtiyac olan sahələrdə təlimlər keçiriləcək, onların gəlirlərində iştirakçıların pay sahibi olmaları modelinə üstünlük veriləcəkdir. Eyni zamanda, sosialyönümlü biznes inkubatorlarının yaradılması ehtiyacları öyrəniləcək və belə inkubatorların yaradılması üçün təşəbbüslər həyata keçiriləcəkdir.

Tədbir 4.1.3: Startap layihələrinin dəstəklənməsi

Startap layihələri yerli KOS subyektləri üçün nümunə olmaqla yanaşı, biznesə başlamaq istəyən və ya yeni ideyalarını həyata keçirmək istəyən təşəbbüskarlar üçün platforma rolu oynaya bilər. Startap layihələrinin mövcud və yaradılacaq sənaye zonaları, sənaye klasterləri, biznes inkubatorları, müxtəlif dövlət qurumları, ali və orta ixtisas təhsili müəssisələri ilə sıx əməkdaşlığının təşkil edilməsi istiqamətində tədbirlər görüləcəkdir. Startap layihələrinin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi və maliyyələşməsində özəl sektorun, donor təşkilatların və müxtəlif maliyyə institutlarının iştirakının təmin edilməsi ilə bağlı addımlar müəyyənləşdiriləcəkdir. Startapların inkişafı məqsədilə müxtəlif layihələr nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

KOS subyektlərinin model müəssisələrin və biznes inkubatorlarının yaratdığı imkanlardan faydalanması onların rəqabət qabiliyyətini artıracaq, istehsalın səmərəliliyini yüksəldəcək və nəticədə, onların dayanıqlılığı daha yaxşı təmin ediləcəkdir.

Bu prioritetin tətbiqi nəticəsində 2020-ci ildə Azərbaycanın real ÜDM-ində 20 milyon manat birbaşa və 15 milyon manat dolayı olmaqla, ümumilikdə, 35 milyon manat artımın əldə olunacağı proqnozlaşdırılır. Bu prioritetin icrası məşğulluq göstəricisində ölçüləbilən, əhəmiyyətli dəyişikliyə səbəb olmayacaqdır.

Əsas icra göstəriciləri:

- 2020-ci ilədək ən azı 3–5 model müəssisənin yaradılması;
- 2020-ci ilədək il ərzində ən azı 5 yeni biznes inkubatorunun yaradılması;
- il ərzində ən azı 25 startap layihəsinin başlanılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün 2020-ci ilədək təxminən 50 milyon manat investisiya qoyuluşu tələb ediləcəyi proqnozlaşdırılır. Tədbirlərin icrası zamanı texniki-iqtisadi əsaslandırma aparılmaqla, investisiya tələbi dəqiqləşdiriləcəkdir.

Gözlənilən risklər

- biznes inkubatorlarının effektivliyinin aşağı olması;
- KOS subyektlərinin bu layihələrə maraq göstərməməsi.

7.4.2. Prioritet 4.2. KOS subyektlərinin təlim və tədris imkanlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi

Əsaslandırma


KOS subyektlərinin inkişafı lazımi istedad və bacarıqlara malik müvafiq işçi ehtiyatının yaradılmasından, eləcə də mövcud idarəetmə təcrübələrinin inkişaf etdirilməsindən birbaşa asılıdır. KOS subyektlərinin mövcud işçi qüvvəsinin maliyyə biliklərinin və biznesi idarəetmə bacarıqlarının artırılmasına ehtiyac vardır. Bu bilik və bacarıqlar strateji planlaşdırma, maliyyə hesabatlarının hazırlanması və digər əsas biznes fəaliyyətlərinin həyata keçirilməsi baxımından çox böyük önəm daşıyır. Bundan əlavə, KOS subyektlərinin təsisçiləri və sahibləri innovasiyaəsaslı artıma təkan verə bilmək üçün sahibkarlıq bacarıqlarını inkişaf etdirməlidirlər.

KOS-un effektiv inkişafını yüksəkixtisaslı kadrlar olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycanda biznes tədrisi və peşə təhsili sahəsində müəyyən çətinliklər vardır ki, bu da KOS subyektlərinin ixtisaslı kadrlarla təmin edilməsində bəzi problemlər yaradır. Hazırda KOS-un inkişafı və əhalinin məşğulluq səviyyəsinin artırılması baxımından peşə təhsili sahəsində islahatların davam etdirilməsinə ehtiyac vardır. Buna görə də görülən işləri sürətləndirmək və peşə təhsilinə diqqəti daha da artırmaq lazımdır. İxtisaslı kadr problemi orta menecment səviyyəsində özünü daha qabarıq şəkildə büruzə verir. Bu səbəbdən KOS subyektlərinin təlim və təhsil ehtiyaclarının düzgün müəyyən edilməsi, peşə təhsili və təlimi müəssisələrində əmək bazarının, o cümlədən KOS-un tələblərinə

cavab verən kadrların hazırlanması və insanlara sahibkarlıq ruhunun aşılanması müstəsna əhəmiyyət daşıyır.

Dünya Bankının apardığı təhlillər göstərir ki, Azərbaycanda müxtəlif sənaye sahələri üzrə fəaliyyət göstərən KOS subyektlərində biznesin idarə edilməsi və maliyyə hesabatlarının hazırlanması üzrə bir sıra bacarıqların təkmilləşdirilməsinə ehtiyac vardır.

Şəkil 16. KOS subyektlərində korporativ idarəetmə səviyyəsi



Mənbə: Dünya Bankının "Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığı" hesabatı


Sahibkarlıq bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün bir çox vasitələr vardır. Bu vasitələrdən biri universitetlər və KOS subyektləri arasında tərəfdaşlığın yaradılmasıdır. Bu varianta əsasən, universitetlərin texniki araşdırmaları KOS subyektləri tərəfindən təcrübədə tətbiq yolu ilə aparılır. Bilik və bacarıqların bu formada təşkili SKMF və yeni KOS agentliyindən maliyyə vəsaitlərinin ayrılması, eləcə də universitet professorlarının müvafiq KOS layihələrinə cəlb edilməsi vasitəsilə reallaşdırıla bilər. Başqa bir variant isə ali məktəb və kolleclərin kurikulumlarında sahibkarlıqla bağlı tədris olunan fənlərin sayının artırılması ola bilər. Hazırda Azərbaycanda KOS subyektlərinə təlimlər keçən çoxsaylı qurumlardan bəziləri aşağıdakılardır:

AZPROMO. AZPROMO sahibkarlar üçün müxtəlif biznes forumları, sərgilər və seminarlar təşkil edir.

Bakı Biznes Tədris Mərkəzi. Mərkəzin əsas məqsədi auditoriyada və onlayn təlim proqramları vasitəsilə, sahibkarlara və sahibkarlıqla məşğul olmaq istəyənlərə tədrisin həyata keçirilməsi, əhalinin xüsusi təbəqələrinə diqqət ayırmaqla, sahibkarlığın inkişaf etdirilməsidir.

İndiyədək keçirilən təlimlərdə, əsasən, kitablar, mühazirələr, simulyasiyalar və biznes oyunları əsas götürülmüşdür. Qabaqcıl təcrübə isə göstərir ki, bu təlimlər "işləməklə öyrənmək" – təcrübəyə əsaslanan yanaşma ilə birləşdirilməlidir. Bu halda digər metodlarla müqayisədə daha çox biliyə yiyələnmə təmin edilmiş olar.

Şəkil 17. KOS subyektlərinin təlim bacarıqları



1. *Kiçik və sadə informasiya elementlərinin 3 qrupda tədris edilməsi ilə konkret nümunələr əsasında müəyyən edilmiş göstəricilər*

Mənbə: Whitmore, Fəaliyyət üzrə Təlim, 2002, IBM və BK Poçt Araşdırması

KOS subyektlərinin qiymətli kağızlar bazarı (listinq) və xarici investorlar hesabına maliyyə vəsaitlərinə çıxışının asanlaşdırılması üçün bu müəssisələrdə Mühasibat Uçotunun Beynəlxalq Standartlarının tətbiqi aktual məsələlərdəndir. Belə ki, müəssisələrdə şəffaf və müasir uçot sisteminin mövcudluğu xarici investorların investisiya qərarlarına təsir edən başlıca amillərdəndir. Müəssisələrin fəaliyyətinin bütün sahələrində şəffaflığın təmin olunması müasir idarəetmə sisteminin əsas tərkib hissələrindən biridir və bunun üçün kompleks tədbirlər həyata keçirilməlidir.

Şəffaflığın digər mühüm aspekti korporativ idarəetmə standartlarının tətbiqi ilə bağlıdır. İnkişaf etmiş ölkələrdə müəssisələrdə korporativ idarəetmənin geniş yayılması bir çox bazar şoklarına həssaslığı azaldır, kapital bazarının inkişafını sürətləndirir.

Görüləcək tədbirlər

Tədbir 4.2.1: Kiçik və orta sahibkarların tədris və təlim ehtiyaclarının müəyyənləşdirilməsi və təlim materiallarının hazırlanması

KOS agentliyi tərəfindən KOS subyektlərinin rəqabətqabiliyyətliliyini artırmaq məqsədilə onların tədris və təlim ehtiyacları öyrəniləcəkdir. Kiçik və orta sahibkarların təlim proqramlarına daha aktiv qoşulmaları üçün xüsusi videoçarxlar və maarifləndirici vəsaitlər hazırlanacaqdır. Təlim ehtiyaclarının düzgün müəyyənləşdirilməsi üçün xüsusi sorğular keçiriləcək və KOS subyektlərinin bu sahədə problemləri daha dərindən öyrəniləcəkdir.

Həmçinin təhsil sisteminin KOS subyektlərinin ehtiyaclarına və müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə təkliflər hazırlanaraq təqdim ediləcək və təhsil

sistemi bazarın tələbinə uyğun qurulacaqdır. Bundan sonra, KOS agentliyi beynəlxalq təcrübələrdən yararlanmaqla təlim materialları hazırlayacaqdır.

Tədbir 4.2.2: Kiçik və orta sahibkarların əmək bazarı üzrə ehtiyaclarının öyrənilməsi və təkmilləşdirmələr aparılması

KOS subyektlərinin ixtisaslı kadr ehtiyaclarının daha yaxşı təmin edilməsinə kömək məqsədilə əmək bazarının yaratdığı imkanlar öyrəniləcək, boşluqların aradan qaldırılması üçün təkliflər paketi hazırlanacaq və müvafiq dövlət qurumları ilə birlikdə təkmilləşdiriləcəkdir. Kiçik və orta sahibkarlar üçün əmək qanunvericiliyi üzrə xüsusi təlimlər keçiriləcək, yaddaş kitabçaları hazırlanacaq və müvafiq qurumların internet resurslarında əks etdiriləcəkdir. Eyni zamanda, KOS agentliyi nəzdində ixtisaslı kadrlar haqqında məlumatları özündə əks etdirən xüsusi kadr bankı yaradılacaq və KOS subyektlərinin bu məlumatlardan faydalanması təmin ediləcəkdir.

Tədbir 4.2.3: KOS subyektləri ilə peşə təhsili müəssisələrinin işinin əlaqələndirilməsi

Azərbaycanda peşə təhsilinin keyfiyyətinin yaxşılaşdırılması və KOS-un sərişteli kadrlara olan ehtiyaclarının ödənilməsi üçün peşə-ixtisas təhsili sahəsində fəaliyyət göstərən müəssisələr və KOS subyektləri arasında əlaqə qurulacaqdır. İlk növbədə, Təhsil Nazirliyi və KOS agentliyi birgə əməkdaşlıq edərək, kadr hazırlığı baxımından vacib olan məqamları öyrənəcəklər. Eyni zamanda, peşə təhsilinin yeni səviyyəyə çatdırılması məqsədilə sənaye zonaları, sənaye klasterləri, model müəssisələr və biznes inkubatorları ilə sıx əməkdaşlıq ediləcək, bu əməkdaşlıq çərçivəsində peşə təhsili şagirdlərinin istehsalat təcrübələrinin təşkili ilə bağlı müvafiq tədbirlər görüləcəkdir.

Tədbir 4.2.4: KOS subyektləri üçün "ömür boyu öyrənmək" imkanlarının təmin edilməsi

Kiçik və orta sahibkarların bacarıqlarının artırılması üçün uyğun xidmətlər təklif edən mövcud qurumların fəaliyyəti koordinasiya ediləcək və gücləndiriləcəkdir. Qeyd olunduğu kimi, sahibkarlar üçün təlimlərin effektivliyi məqsədilə, nəzəri təlimlərlə yanaşı, sektorlar üzrə praktiki biliklər verən xüsusi təlimlərin keçirilməsi üçün də şərait yaradılacaq, bu təlimlərin effektivliyi və KOS subyektlərinin ehtiyacları diqqət mərkəzində olacaqdır. Mütəmadi qaydada fundamental təhsildən sonrakı təlimlərin sahibkarlar üçün faydaları müəyyənləşdiriləcək, lazımi təkmilləşdirmələr aparılacaqdır. Bu məqsədlə, mövcud tədris və təhsil müəssisələrinin imkanlarından geniş istifadə ediləcək, zərurət olarsa, yeni müəssisələr yaradılacaqdır.

Tədbir 4.2.5: Mühasibat Uçotunun Beynəlxalq Standartlarının KOS subyektləri tərəfindən tətbiqinin stimullaşdırılması

KOS subyektləri tərəfindən Mühasibat Uçotunun Beynəlxalq Standartlarının tətbiqi istiqamətində tədbirlər görüləcəkdir. İlk mərhələdə ortahəcmli müəssisələrdə bu standartların tətbiqi təşviq ediləcəkdir.

Tədbir 4.2.6: Korporativ idarəetmə standartlarının tətbiqinin gücləndirilməsi

Azərbaycanda korporativ idarəetmə standartlarının tətbiqinin gücləndirilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Bu tədbirlər KOS subyektlərinin bilik və bacarıqlarının artırılmasına və korporativ idarəetmənin tətbiqi ilə KOS subyektlərinin maliyyə vəsaitlərinə çıxış imkanlarının artırılmasına yönəldiləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

KOS subyektlərinin yüksəkixtisaslı və bacarıqlı kadrlarla təminatı onların rəqabət qabiliyyətini daha da yüksəldəcək, bilik və bacarıqlarının artırılmasında müstəsna rol oynayacaqdır. Bu prioritetin icrası məşğulluq və ÜDM göstəricilərində ölçüləbilən birbaşa təsirlərə səbəb olmayacaqdır.

Əsas icra göstəriciləri:

- 2020-ci ilədək, il ərzində ən azı 1000 kiçik və orta sahibkar üçün xüsusi təlimlərin təşkili;
- KOS subyektləri üçün xüsusi kadr bankının yaradılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası 2020-ci ilədək təxminən 5 milyon manat investisiya qoyuluşu tələb edəcəkdir.

Gözlənilən risklər

- təlim və tədris ehtiyaclarının düzgün müəyyənləşdirilməməsi;
- təklif olunan təlim və tədrisin keyfiyyətinin aşağı olması və ya tələblərə cavab verə bilməməsi.

7.4.3. Prioritet 4.3. Sahibkar düşüncə tərzinin təşviqi

Əsaslandırma

Hər bir ölkədə insanlarda sahibkarlıq ruhunun formalaşdırılması həmin ölkənin iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, yeni yaranan müəssisələrin əksəriyyətinin bazarda qalma müddətinin qısa olduğunu nəzərə alsaq, vətəndaşların sahibkarlıq təşəbbüslərinin nə dərəcədə əhəmiyyətli olduğu daha aydın görünər.


Biznes sahibi olmağa marağın artırılması üçün onun faydaları haqqında məlumatlılığın və özünəinamın daha da möhkəmləndirilməsinə, eləcə də KOS fəaliyyətinin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti haqqında biliklərin artırılmasına ehtiyac vardır. Sahibkarlıq ruhunun aşılanması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi Azərbaycanda “Sahibkarlar Günü” artıq ölkə səviyyəsində qeyd olunur. Bu istiqamətdə daha çox tədbirlər və proqramlar həyata keçirilə bilər, məsələn, ən sürətlə inkişaf edən 10 şirkət ölkə səviyyəsində fərqləndirilə bilər. Bu cür tədbirlərin keçirilməsi biznesə sahibolma hissinin gücləndirilməsinə və Azərbaycanda biznes sahibi olmaq üçün potensial imkanların mövcudluğu haqqında məlumatların yayılmasına gətirib çıxara bilər.

KOS subyektləri üçün müxtəlif həvəsləndirici proqramların təşkili təsirli vasitə ola bilər. Rəsmi dəstək proqramları sahibkar düşüncə tərzinin uzunmüddətli inkişafı baxımından da çox əhəmiyyətlidir. Məsələn, gənc sahibkarların dəstəklənməsi proqramı

çərçivəsində innovativ layihələr üzrə müsabiqələr hazırlana, biznes fəaliyyətinə başlamağa maraq göstərən gənclərə maliyyə ayrıla və ya belə gənclər arasında müvafiq təşviqat işləri aparıla bilər. Bu baxımdan biznes inkubatorlarının və sahibkarlar üçün əməkdaşlıq məkanlarının yaradılması da qiymətləndirilə bilər.

Müxtəlif ölkələrdəki göstəriciləri nəzərə alaraq qeyd etmək lazımdır ki, Azərbaycanda sahibkarlıq fəaliyyətinin əhəmiyyətli dərəcədə inkişafı üçün böyük potensial vardır. İnkişaf etmiş ölkələrdə biznesə sahib olan əhalinin xüsusi orta çəkisi Azərbaycandakı müvafiq göstərici ilə müqayisədə üç dəfədən də çox yüksəkdir.

Şəkil 18. Biznesə sahibolma göstəricisinin artım potensialı




1. *Avropa və Mərkəzi Asiya (Albaniya, Belarus, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Gürcüstan, Qazaxıstan, Kosovo, Qırğızıstan, Makedoniya, Moldova, Monteneqro, Özbəkistan, Polşa, Rumıniya, Rusiya, Serbiya, Sloveniya, Tacikistan, Türkiyə, Türkmənistan, Ukrayna)*

Mənbə: Dünya Bankı, Azərbaycanda sahibkarlığa imkan yaradılması hesabatı, 2011-ci il üzrə Dünya Qolap Sorğusu

Göründüyü kimi, Azərbaycan vətəndaşları arasında sahibkar düşüncə tərzinin inkişaf etdirilməsinə böyük zərurət vardır. Məsələn, Avropa və Mərkəzi Asiya respublikalarının orta göstəricisinə çata bilmək üçün Azərbaycanda sahibkar olmaq istəyən insanların xüsusi çəkisinin fiziki əməklə məşğul olan işçilər arasında üç dəfəyə qədər (aşağıdakı şəkildə mavi rəngdə verilmişdir), zehni əməklə məşğul olan işçilər arasında isə beş dəfəyə qədər artırılmasına (aşağıdakı şəkildə ağ rəngdə verilmişdir) ehtiyac vardır (şəkil 19).

Şəkil 19. Sahibkar düşüncə tərzinin genişləndirilməsi potensialı *(faizlə)*



1. Avropa və Mərkəzi Asiya (Albaniya, Belarus, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Gürcüstan, Qazaxıstan, Kosovo, Qırğızıstan, Makedoniya, Moldova, Monteneqro, Özbəkistan, Polşa, Rumıniya, Rusiya, Serbiya, Sloveniya, Tacikistan, Türkiyə, Türkmənistan, Ukrayna)

Mənbə: Dünya Bankı, Azərbaycanda sahibkarlığa imkan yaradılması hesabatı

Görüləcək tədbirlər

Tədbir 4.3.1: Sahibkar düşüncə tərzinin inkişaf etdirilməsi

Azərbaycanda sahibkarlıq biliklərinin və özünəinamın gücləndirilməsi üçün uzunmüddətli və davamlı tədbirlər həyata keçiriləcək və bununla da, KOS subyektlərində sahibkar düşüncə tərzinin təşviqi təmin ediləcəkdir.

Bu fəaliyyətləri həyata keçirmək üçün KOS agentliyi nəzdində müvafiq qrup formalaşdırılacaqdır. Bu qrup ölkədə sahibkar düşüncə tərzinin təşviqi üçün davamlı fəaliyyət göstərəcəkdir. Sahibkar düşüncə tərzinin təşviqi ilə bağlı fəaliyyətlərin həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti cəlb olunacaqdır. Özəl sektordan maliyyə vəsaitinin cəlb edilməsi üçün müvafiq işlər görüləcək və bəzi fəaliyyətlər, eləcə də sahibkarlıqla bağlı sosial layihələrə vəsaitlərin ayrılmasını maliyyələşdirən sponsorlar stimullaşdırılacaqdır.

KOS agentliyi sahibkarlıq dünyagörüşünü müxtəlif mexanizmlər vasitəsilə təşviq edəcəkdir. Bu mexanizmlərə aşağıdakıları misal göstərmək olar: sahibkarlığa dair teleşouların stimullaşdırılması və dəstəklənməsi, uğurlu sahibkarların və universitet tələbələrinin bir araya gətirilməsi üçün platformanın yaradılması, gənc sahibkarların və startap təşəbbüslərinin dəstəklənməsi.

İcra olunan tədbirlərin effektivliyi qiymətləndiriləcək və bu prioritetin uğurla icrası məqsədilə müvafiq tədbirlər görüləcəkdir. Hər il yaradılan startapların qeydiyyatı aparılacaq və əvvəlki illərlə müqayisə ediləcəkdir. Hər il ölkənin ümumi ÜDM-ində KOS-un töhfəsinin müqayisəli təhlili aparılacaqdır.

Tədbir 4.3.2: İlk peşə və orta ixtisas təhsili müəssisələrində sahibkarlığın əsaslarının tədrisinin təşkil edilməsi

Sahibkarlığın əsaslarına dair gənclərin biliklərinin artırılması məqsədilə peşə və orta ixtisas təhsili müəssisələrində sahibkarlığın əsaslarının tədrisi məsələsi müvafiq dövlət orqanları ilə birlikdə nəzərdən keçiriləcəkdir. Bu tədrisin əsas məqsədi ilk sahibkarlıq vərdişlərinin formalaşdırılması olacaqdır. Bu məqsədlə, xüsusi tədris proqramları hazırlanacaq, bu proqramlar müvafiq qurumlarla razılaşdırılacaq və tədris müəssisələrinin tələbələrinin istehsalat sahəsində çalışan KOS subyektlərinə və digər müvafiq təşkilatlara ekskursiyaları təşkil ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin ÜDM və məşğulluq göstəricilərinə təsiri 4.1-ci prioritetdə əhatə olunmuşdur.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əlavə investisiya qoyuluşu tələb edilməyəcəkdir. Bu prioritet ilə bağlı tələb olunan investisiya 4.1-ci prioritetdə öz əksini tapmışdır.

Gözlənilən risklər

- təklif olunan xidmətlərin keyfiyyətinin aşağı olması və ya tələblərə cavab verə bilməməsi;
- bəzi sahələrdə sahibkarlıq təşəbbüslərinə maneələrin olması.

7.4.4. Prioritet 4.4. Qadın sahibkarlığının inkişaf etdirilməsi

Əsaslandırma

Müasir iqtisadiyyatda qadın sahibkarlığı KOS-un daha dinamik hissəsini təşkil edir. Statistik məlumatlara görə, dünyada yeni biznes-strukturların 25 faizdən çoxunu qadınlar yaratmışdır. Fransa və Böyük Britaniyada bütün firmaların dörddəbirinə, Almaniyada üçdəbirinə qadınlar rəhbərlik edir. Yaponiyada bu rəqəm 23 faiz, ABŞ-da 38 faizdir.[14] Ümumi tendensiya inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə qadınların iqtisadi təşəbbüskarlığının artmaqda olduğunu göstərir.

Azərbaycanda da qadınların iqtisadi təşəbbüskarlığının artması, onların KOS-da geniş təmsilçiliyi sosial-iqtisadi inkişafın, o cümlədən məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin təəssüf ki, hələ də qadın sahibkarlığı arzuolunan səviyyədə inkişaf etməmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə ölkə əhalisinin 50,2 faizini qadınlar təşkil etmişdir. Ölkə üzrə iqtisadi fəal əhalinin ümumi sayında (4915,3 min nəfər) qadınların sayı 2404,5 min nəfər olmuşdur. Qadınların təmsilçilik göstəriciləri məşğul əhalinin sayında (4671,6 min nəfər) da aşağı səviyyədədir – belə ki, məşğul kişilərin sayı 2408,2 min, məşğul qadınların sayı isə 2263,4 min nəfər təşkil etmişdir. Təbii ki, bu göstərici işsizliyə də öz təsirini göstərməkdədir – 243,7 min

[14] Mənbə: Fransa, Böyük Britaniya, Yaponiya və ABŞ-ın rəsmi statistika orqanları

nəfər işsizin 141,1 min nəfərini qadınlar təşkil etmişdir. Rəsmi statistikaya əsasən, onlardan yalnız 11,1 min nəfəri işsiz statusu almışdır.

İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin 58,8 faizi kişilər, 41,2 faizi isə qadınlar olmuşdur. Qadınlar daha çox təhsil, səhiyyə və incəsənət sahələrində təmsil olunurlar. Təhsil sahəsində çalışanların 71,4 faizini, səhiyyə və sosial xidmətlər sahəsində çalışanların 76,6 faizini, istirahət, əyləncə və incəsənət sahəsində çalışanların 63,6 faizini qadınlar təşkil etmişdir.[15]

Qanunvericilikdə sahibkarlıq fəaliyyəti sahəsində qadınlar üçün hər hansı məhdudiyyət nəzərdə tutulmur, eyni zamanda, qadınlara münasibətdə xüsusi güzəşt və imtiyazlar da müəyyənləşdirilmir. Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatından tutmuş lisenziya və icazələrin verilməsi, vergi öhdəlikləri, yoxlamaların aparılması, pozulmuş hüquqların bərpası və s. kimi məsələlərədək heç bir cins fərqi və üstünlüyü müəyyənləşdirilmədən sahibkarlıq subyektləri öz hüquqlarını həyata keçirməkdə bərabər imkanlara malikdirlər.

Görüləcək tədbirlər

Tədbir 4.4.1: Qadın sahibkarlığının inkişafı üzrə stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması

Qadın sahibkarlar üçün kreditləşmə, vergiqoyma və digər güzəştləri nəzərdə tutan stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması nəzərdən keçiriləcəkdir. Bu mexanizmlər Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artıracaqdır. Mexanizmlər hazırlanan zaman, xüsusilə kənd yerlərində qadın məşğulluğu məsələsi diqqət mərkəzində olacaqdır. Kənd yerlərində qadın məşğulluğunun daha perspektivli istiqamətləri müəyyənləşdiriləcək və müvafiq tədbirlər görüləcəkdir.

Tədbir 4.4.2: Qadın sahibkarlığına informasiya dəstəyinin inkişaf etdirilməsi

Qadın sahibkarlara informasiya dəstəyi vermək üçün qadınların sahibkarlıqla bağlı zəruri olan məlumatlara əlçatanlığının təmin olunması məqsədilə müxtəlif tədbirlər həyata keçiriləcəkdir. KOS agentliyinin nəzdindəki məlumat portalında bununla bağlı xüsusi bölmə yaradılacaq və əlaqəli məlumatlar burada öz əksini tapacaqdır.

Tədbir 4.4.3: Qadın biznes inkubatorlarının yaradılması

Qadın sahibkarlığına dəstək məqsədilə xüsusi qadın biznes inkubatorlarının yaradılması nəzərdən keçiriləcəkdir. İnkubatorların yaradılması və inkişafı qadınların sahibkarlıq təşəbbüsünün dəstəklənməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması baxımından əhəmiyyətli olacaq, qadın sahibkarlığı sahəsinə investisiyaların cəlb olunması və maliyyələşmə üçün əlavə imkanlar yaradacaqdır.

Tədbir 4.4.4: Qadın sahibkarların assosiasiyalarının və peşə təşkilatlarının yaradılması

Qadın sahibkarlığının inkişafına töhfə vermək üçün qadın sahibkarlar assosiasiyalarının və peşə təşkilatlarının yaradılması təşviq ediləcəkdir. Bu qurumların

[15] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

fəaliyyət sahəsinə qadınlar üçün sahibkarlıq mühitinin yaxşılaşdırılması məsələləri ilə bağlı hökumətlə konstruktiv dialoq aparmaq, qadınların imkanlarını məhdudlaşdıran gender stereotiplərini aradan qaldırmaq üzrə addımlar, qadın sahibkarların bilik və bacarıqlarının artırılması istiqamətində geniş məlumatlandırma kampaniyalarının təşkili daxil ola bilər.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin icrası nəticəsində ölkədə qadınların sahibkarlıq fəaliyyəti üçün daha əlverişli mühit yaranacaq, kiçik və orta sahibkarlar arasında qadınların sayı daha da artacaqdır. Bu fəaliyyətlər həmçinin məşğulluq göstəricilərində də qadınların payının artmasına müsbət təsir göstərəcəkdir.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əlavə investisiya qoyuluşu tələb edilməyəcək, həyata keçirilən layihələrdə bu prioritetə diqqət ayrılacaqdır. Bu prioritet ilə bağlı tələb olunan investisiya 4.1-ci prioritetdə öz əksini tapmışdır.

Gözlənilən risklər

- qadınların sahibkarlıq fəaliyyətinə maraqlarının az olması;
- qadın sahibkarların assosiasiyalarının, eləcə də peşə təşkilatlarının fəaliyyətinin səmərəli olmaması.

7.5. Strateji hədəf 5. İnnovasiyaların təşviqi, KOS subyektləri üçün araşdırma və inkişaf fəaliyyətlərinin genişləndirilməsi

Beynəlxalq təcrübədə KOS subyektləri innovativ təşəbbüslərin meydana çıxmasında fəaldırlar. Bir çox hallarda, faktiki KOS statusunda olan startaplarda formalaşdırılan yeni məhsul və xidmətlər, innovativ yanaşmalar sonrakı mərhələlərdə iri şirkətlər və ya vençur fondlar tərəfindən dəstəklənərək, sənaye miqyasında istehsala yol açır. KOS subyektlərinin bu sahədə təbii üstünlükləri də vardır: KOS subyektlərinin sadə struktura malik olması çevikliyi və şəffaflığı, prosedurların az olması isə qərarvermə sürətini artırır və böyük şirkətlər daxilində tez-tez rast gəlinən bürokratik əngəlləri önləyir.

Azərbaycanda innovativ iqtisadiyyatın dəstəklənməsi üçün son illər xeyli işlər görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 noyabr tarixli 736 nömrəli Fərmanı ilə Bakı şəhəri, Pirallahı rayonunda Yüksək Texnologiyalar Parkı təsis edilmişdir. Yüksək Texnologiyalar Parkı ölkə ərazisində yaradılacaq parkların idarəedici təşkilatı statusunda çıxış edir. Bu formatda regionlarda innovativ fəaliyyətləri dəstəkləmək üçün ilk Yüksək Texnologiyalar Parkı Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 fevral tarixli 481 nömrəli Fərmanı ilə Mingəçevir şəhərində yaradılmışdır.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" Sərəncamı ilə innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması) üçün Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Yüksək Texnologiyalar Parkı təsis edilmişdir.

Ölkə ərazisində yaradılan yüksək texnologiyalar parkları zəruri infrastruktur, maddi-texniki baza və idarəetmə qurumları ilə təmin edilir, burada qeydiyyatdan keçən rezidentlər vergi və gömrük güzəştlərindən yararlanırlar.

Bununla yanaşı, ölkədə müasir innovasiya sisteminin qurulması qanunvericilik səviyyəsində öz əksini tam tapmamışdır və bu sahədə mərkəzləşmiş siyasət sənədi mövcud deyildir. Azərbaycanda KOS subyektləri innovativ təşəbbüslərdə passiv iştirak edirlər və ümumilikdə KOS səviyyəsində araşdırma və tədqiqatlara ayrılan maliyyə resursları aşağı səviyyədədir. İnnovativ infrastrukturun daha da gücləndirilməsi, kiçik və orta sahibkarlar arasında araşdırma fəaliyyətlərinin dəstəklənməsi, elm ilə özəl sektor arasında praktiki əlaqələrin genişləndirilməsi dövlətin əlaqələndirici və təşkilatçı qismində proseslərə daha fəal müdaxiləsini labüd edir.

7.5.1. Prioritet 5.1. Milli innovasiya sisteminin təkmilləşdirilməsi

Əsaslandırma

İqtisadiyyatın dinamik və davamlı inkişafının təmin edilməsində innovasiyaların mühüm əhəmiyyəti vardır. Qeyd olunan sahənin inkişaf etdirilməsi, ilk növbədə, əlverişli innovasiya mühitinin formalaşdırılmasından asılıdır. İnnovativ iqtisadiyyat prinsiplərinə əsasən, texniki və texnoloji bazanın davamlı olaraq yenilənməsi və dünya bazarlarına rəqabətqabiliyyətli yeni məhsul və xidmətlərin çıxarılmasında innovasiyalar başlıca rol oynayır.

Milli innovasiya sisteminin qurulmasında məqsəd, iqtisadiyyatın müxtəlif sektorları üzrə daha müasir və çevik fəaliyyətin təmin edilməsi, yüksəktəhsilli və ixtisaslı kadrların, elmi işçilərin hazırlanması, elmi-tədqiqat institutlarının müasir əsaslarla inkişaf etdirilməsi, ixtiraçıların fəallığının artırılması, onların müasir istehsal proseslərinə cəlb edilməsi, o cümlədən yenilikçi fikir və ya ixtiraların markalaşdırılmasıdır.

Beynəlxalq miqyasda milli innovasiya sistemləri iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin və ölkənin ixrac potensialının artırılmasına, iqtisadi fəallığın daha da sürətlənməsinə zəmin yaradır. Dünyanın ayrı-ayrı ölkələrində innovativ məhsullardan istifadə səviyyəsi və innovasiya potensialı milli innovasiya sisteminin formalaşma səviyyəsindən asılıdır.

Azərbaycan Respublikasında innovasiya fəaliyyəti haqqında ayrıca qanunvericilik bazası yoxdur, lakin innovasiya siyasətini stimullaşdıran və inkişafını təmin edən bir sıra qanunlar qəbul edilmişdir. Bu baxımdan “Patent haqqında”, “Elm haqqında”, “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarını qeyd etmək olar.

Azərbaycan Respublikası ərazisində innovasiya infrastrukturunun elementlərinə dövlət və özəl universitetlər nəzdində fəaliyyət göstərən texnoparklar, biznes inkubatorları, elmi-innovasiya mərkəzləri və yüksək texnologiyalar parkları daxildir.

Milli İnnovasiya Sisteminin fundamental əsaslarından biri də patentlərin tanınmasıdır. Azərbaycan Respublikasının patent üzrə bir sıra beynəlxalq konvensiyaların üzvü olmasına baxmayaraq, Azərbaycanda patentləşdirilmiş ixtiraların digər ölkələrdə tanınmasında müəyyən çətinliklər vardır.

İnnovasiyaların təşviqi və insan kapitalının inkişafı ilə bağlı konseptual məsələlər “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə ətraflı əks olunmuşdur.

Görüləcək tədbirlər

Tədbir 5.1.1: Qanunvericilik bazasının təkmilləşdirilməsi

Milli innovasiya siyasətini sistemli şəkildə qurmaq üçün, ilk növbədə, innovasiya fəaliyyəti haqqında qanunun hazırlanması nəzərdən keçiriləcəkdir. Bu çərçivədə Azərbaycan Respublikası ərazisində innovasiya infrastrukturunun əsas elementlərindən biri olan yüksək texnologiyalar parklarının yaradılması ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsinə də baxılacaqdır. Həmçinin innovasiyayönümlü layihələrin həyata keçirilməsi və maliyyələşdirilməsi üçün qanunvericilik bazası təkmilləşdirilməklə, dünya təcrübəsində geniş yayılmış vençur kapital mərkəzlərinin yaradılması praktikasından istifadə ediləcəkdir.

Tədbir 5.1.2: İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması

Stimullaşdırıcı mexanizmlər aşağıdakı məsələləri özündə ehtiva edəcəkdir:

- yüksək texnologiyalar parklarında və biznes inkubatorlarında innovasiya fəaliyyətinin stimullaşdırılması;
- həm dövlət qurumlarının nəzdində, həm də rezidentlər tərəfindən yaradılan yüksək texnologiyalar parklarında və biznes inkubatorlarında fəaliyyət göstərən şirkətlərə güzəştlərin tətbiq edilməsi;
- dövlət innovasiya siyasətini müəyyənləşdirən və icra edən əlaqələndirici qurumların fəaliyyətinin koordinasiyası;
- vençur kapitallaşması fəaliyyətinin aparılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi;
- innovasiyayönümlü startap layihələrinin maliyyələşdirilməsi üçün vençur fondların, eləcə də xarici investorların cəlb edilməsi üçün təşviqedici tədbirlərin həyata keçirilməsi.

Tədbir 5.1.3: İnnovasiyayönümlü regional klasterlərin yaradılması

İnnovasiyaların tətbiqi imkanlarının artırılması məqsədilə iqtisadi cəhətdən daha uğurlu olacaq regional klaster modelləri müəyyənləşdiriləcəkdir. Bundan sonra ən əlverişli modellər seçiləcək və innovasiya klasterlərinin ən uyğun regionlarda yaradılması üçün addımlar atılacaqdır. Klasterlər universitetlərin tərkibində fəaliyyət göstərən texnoparklar və ya elmi-tədqiqat institutları, habelə KOS subyektləri ilə yaxından əməkdaşlıq şəraitində yaradılacaqdır. Regional innovasiya klasteri nəzdində biznes inkubatorları yaradılacaq, bu inkubatorlarda ərazi üzrə hər hansı ixtiranın müəllifi olan şəxslər və ya innovasiyayönümlü startaplar müəyyənləşdiriləcək və onların maliyyələşdirilməsinə dəstək veriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Qeyd olunan tədbirlərin həyata keçirilməsi nəticəsində milli innovasiya siyasəti daha sistemli şəkildə aparılacaq, qanunvericilik bazası təkmilləşdiriləcəkdir. Azərbaycan Respublikasında innovasiyayönümlü regional klasterlərin yaradılması və inkişaf etdirilməsi gözlənilir.

Əsas icra göstəriciləri:

- milli innovasiya sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi;
- Azərbaycan Respublikasında ən azı 3 innovasiyayönümlü regional klasterin yaradılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əsaslı investisiya qoyuluşu tələb olunmur. Bu prioritet ilə bağlı tələb olunan investisiya 4.1-ci prioritetdə öz əksini tapmışdır.

Gözlənilən risklər

- İnnovasiyayönümlü regional klasterlərin KOS subyektləri üçün effektliyinin aşağı səviyyədə olması.

7.5.2. Prioritet 5.2. Kiçik və orta sahibkarların fəaliyyətini stimullaşdıran innovasiya infrastrukturunun formalaşdırılması

Əsaslandırma

Azərbaycanda milli innovasiya sisteminin təməli olan innovasiya infrastrukturu mühiti son illərdə nisbətən inkişaf etməkdədir. Lakin innovasiyaların infrastruktur elementləri digər qabaqcıl ölkələrlə müqayisədə məhduddur. Azərbaycan Respublikası ərazisində üç nəhəng texnologiya parkı mövcuddur ki, onlardan yalnız biri özəldir. Biznes inkubatorlarının sayı isə olduqca məhduddur. Yüksək texnologiyalar parkının fəaliyyət dairəsi digər innovasiya mərkəzləri kimi çoxşaxəli deyildir. Xüsusilə qeyd olunmalıdır ki, yüksək texnologiyalar parkları və inkubasiya mərkəzləri inkişaf etmiş ölkələrin təcrübəsində universitetlər tərəfindən yaradılır. Universitetlərin adıçəkilən innovasiya infrastrukturunu yaratmaqda məqsədi əlavə gəlirin əldə edilməsi və universitetin qlobal reytinqlərdə daha yüksək yer alması ilə bağlıdır. Digər tərəfdən, yüksək texnologiyalar parkları və biznes inkubasiya mərkəzləri tədqiqat və tərəqqinin daha da sürətlə inkişafını stimullaşdırır. KOS subyektlərinin əsas marağı universitetlərdə olan hazır ixtiraçıların və ya peşəkar tədqiqatçıların təkliflərindən yararlanmaq və sahibkarlıq fəaliyyətlərini daha da möhkəmləndirməkdir.

Görüləcək tədbirlər

Tədbir 5.2.1: KOS-un inkişafı üçün innovasiya infrastrukturunun təkmilləşdirilməsi

KOS-un və startapların inkişafı üçün innovasiya infrastrukturunun yaxşılaşdırılması vacib amildir. Yüksək texnologiyalar parklarının özəl sektor tərəfindən yaradılması üçün təşviqedici proqramlar hazırlanacaq, o cümlədən universitetlərin nəzdində texnopark və biznes inkubatorlarının yaradılmasının genişlənməsi üçün tədbirlər həyata keçiriləcəkdir. Beynəlxalq nümunələr öyrənilərək, yeni innovasiya mərkəzlərinin, texnologiya transfer mərkəzlərinin yaradılması, təşəbbüskar investorların ölkənin innovasiya infrastrukturunun formalaşdırılması istiqamətində fəaliyyəti dəstəklənəcəkdir.

Habelə KOS subyektlərinin innovasiya xarakterli biznes planlarının həyata keçirilməsi üçün texnopark və biznes inkubatorlarında xüsusi proqram hazırlanacaq, bu

fəaliyyətlərin maliyyələşdirilməsi üçün investisiya güzəştləri tətbiq ediləcəkdir. İnnovasiya mərkəzlərində (FabLabs, İLabs) potensial sahibkarlıq və ya startap fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər informasiya texnologiyaları avadanlığı ilə təmin ediləcək, onların hazır laboratoriya alətlərindən istifadə etməsinə şərait yaradılacaqdır.

Tədbir 5.2.2: Dövlət əhəmiyyətli və müstəqil elmi-tədqiqat (tədqiqat və inkişaf) mərkəzlərinin formalaşdırılması və elmi-istehsalat birliklərinin yaradılması

Azərbaycanda dövlət əhəmiyyətli elmi-tədqiqat institutları mövcud olsa da, innovasiya profilli institutlar, o cümlədən özəl institutlar mövcud deyildir. Bu səbəbdən qarşıdakı dövrdə innovasiya fəaliyyətini stimullaşdıran dövlət əhəmiyyətli və müstəqil elmi tədqiqat institutlarının yaradılması istiqamətində tədbirlər görüləcək, ixtiraların nümunəvi istehsalının aparılması üçün elmi-istehsalat birliklərinin yaradılması stimullaşdırılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi nəticəsində Azərbaycanda KOS-un inkişafı üçün innovasiya infrastrukturu daha da təkmilləşdiriləcək, bu istiqamətdə xüsusi proqramlar hazırlanacaq və bu fəaliyyətin maliyyələşdirilməsi üçün investisiya güzəştləri tətbiq ediləcəkdir.

Əsas icra göstəriciləri:

- innovasiyayönümlü infrastrukturun müstəqil rezidentlər tərəfindən yaradılması imkanı;
- innovasiya infrastrukturu elementlərinə güzəştlərin tətbiq olunması;
- dövlət əhəmiyyətli və müstəqil elmi-tədqiqat (tədqiqat və inkişaf) mərkəzlərinin formalaşdırılması və elmi-istehsalat birliklərinin yaradılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası məqsədilə 2020-ci ilədək təxminən 5 milyon manat investisiya qoyuluşunun tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

- müstəqil rezidentlərin innovasiyayönümlü zonalarda iştiraka maraq göstərməməsi;
- innovasiya infrastrukturlarından istifadəyə kiçik və orta sahibkarların maraqlarının az olması;
- müstəqil elmi-tədqiqat (tədqiqat və inkişaf) mərkəzlərinin yaradılması və elmi-istehsalat birliklərinin yaradılmasında yetərli elmi potensialın olmaması.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 2020-ci ilədək təxminən 700 milyon manat investisiya tələb olunacağı proqnozlaşdırılır. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri və qrantlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımları;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitinin müəyyən edilmiş prioritet hədəflər üçün ən səmərəli şəkildə istifadə olunmasını təmin etmək məqsədilə büdcələr nəticəyə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflər ilə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin, tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimi və tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şəraiti yaradacaq, tələb olunduqda kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu *("delivery unit")* müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkil olunmasının təmin edilməsinə və zəruri hallarda, əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədi ilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda, mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.

- İcraya rəhbərlik olunması, eləcə də tələb olunan resurslar və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün prioritetlər üzrə təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurla tətbiq olunması üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb olunması tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədilə özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlarla işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.
- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə, cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlili və qiymətləndirilməsini, həmçinin işçi qrupunun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBIRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması					
1.1. Mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması					
1.1.1.	Mərkəzləşdirilmiş KOS agentliyinin yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 200 milyon manat artması (birbaşa 140 milyon manat, dolayı 60 milyon manat); • 2020-ci ildə 240 yeni iş yerinin yaradılması.	2017
1.1.2.	KOS agentliyinin strukturunun formalaşdırılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi		2017
1.1.3.	KOS agentliyinin vəzifələrinin müəyyən edilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi		2017
1.1.4.	KOS evinin yaradılması	Nazirlər Kabineti	KOS agentliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi		2017-2018
1.1.5.	Vahid məlumat portalının yaradılması	İqtisadiyyat Nazirliyi	KOS agentliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2018

1.2. KOS üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi və qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi					
1.2.1.	Qanunvericiliyin təsiri analizinin tətbiq edilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi	• normativ hüquqi aktların qəbul edilməsinin təsirləri və mümkün səmərəsi barədə daha dolğun məlumatların əldə edilməsi.	2017-2018
1.2.2.	Qanunvericiliyin təsiri analizinin tətbiqinin səmərəliliyini artırmaq üçün institusional təsisatın yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi		2017-2020
1.3. Dövlət-özəl tərəfdaşlığının dərinləşdirilməsi					
1.3.1.	Dövlət-özəl tərəfdaşlığı ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi	İqtisadiyyat Nazirliyi	Ədliyyə Nazirliyi, “Azərbaycan Dəmir Yolları” QSC, “Azərenerji” ASC, “Azərsu” ASC, “Azərişıq” ASC	• dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı konsepsiyanın hazırlanması; • 2020-ci ilədək KOS subyektlərinin dövlət sifarişlərinin icrasında payının artırılması.	2017-2020
1.3.2.	Dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı konsepsiyanın hazırlanması	İqtisadiyyat Nazirliyi			2017
1.3.3.	Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsinə dair normativ-hüquqi bazanın hazırlanması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası			2016 İcra edilib
	“Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi		Əmlak Məsələləri Dövlət Komitəsi		2017-2020

	maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun prioritetləşdirilməsi	İqtisadiyyat Nazirliyi			
1.3.4.	Dövlət satınalmalarında KOS subyektlərinin minimum iştirak payının müəyyənləşdirilməsi	İqtisadiyyat Nazirliyi			2017
1.4. Rəqabət mühitinin təkmilləşdirilməsi					
1.4.1.	Qanunvericiliyin təkmilləşdirilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi	• rəqabət məcəlləsinin qəbul edilməsi.	2017-2020
1.4.2.	İnstitusional islahatların aparılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi		2017-2020
1.5. KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi və vergi islahatlarının davam etdirilməsi					
1.5.1.	KOS sahəsində aparılan yoxlamalar üzrə monitorinq və qiymətləndirmə aparılması	İqtisadiyyat Nazirliyi	Ədliyyə Nazirliyi	• dövlət orqanları tərəfindən yoxlamaların sayının məhdudlaşdırılması; • KOS subyektləri üçün vergi yükünün optimallaşdırılması; • elektron vergi auditinin	2017
1.5.2.	Yoxlamaların optimallaşdırılması və risk dərəcəsi əsasında aparılması	İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi	Ədliyyə Nazirliyi		2017-2020
1.5.3.	Vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin müəyyənləşdirilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Vergilər Nazirliyi	İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi		2016 İcra edilib

	KOS sahəsində stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi	Vergilər Nazirliyi	İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi	təkmilləşdirilməsi və inkişafı; • xarici lisenziyaların tanınması və ekvivalentliyinin təmin edilməsi mexanizminin yaradılması.	2017-2020
1.5.4.	Lisenziyaların təkmilləşdirilməsi, beynəlxalq lisenziyaların tanınması mexanizminin formalaşdırılması	İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi			2017-2018
1.5.5.	KOS subyektlərinin müvafiq kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi	İqtisadiyyat Nazirliyi	"Azərenerji" ASC, "Azərsu" ASC, "Azərişıq" ASC, SOCAR		2017-2018
1.5.6.	KOS subyektləri üçün vahid sertifikatlaşdırma sisteminin yaradılması	İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi		2017-2018
1.5.7.	Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası			2016 İcra edilib
1.5.8.	Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları		2016 İcra edilib

1.6. KOS üzrə xüsusi sənaye zonalarının və klasterlərin yaradılması					
1.6.1.	KOS subyektləri arasında biznes tərəfdaşlığının inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi		● 2020-ci ildə real ÜDM-in 475 milyon manat artması (birbaşa 265 milyon manat və dolayı 210 milyon manat); ● 2020-ci ildə 23300 yeni iş yerinin yaradılması; ● yeni sənaye klasterlərinin yaradılması; ● Azərbaycanda KOS subyektləri arasında biznes tərəfdaşlığının gücləndirilməsi; ● sənaye klasterləri daxilində istehsal olunan məhsullarda KOS subyektlərinin payının 40 faizə çatdırılmasının təmin edilməsi, məhsul və işçi sayında artımın əldə olunması.	2017-2018
1.6.2.	KOS subyektləri üçün özəl investisiyalara əsaslanan yeni özəl sənaye klasterlərinin yaradılması	İqtisadiyyat Nazirliyi			2017-2020
1.6.3.	Sənaye klasterlərinin rezidentlərinə verilən güzəşt və imtiyazların təkmilləşdirilməsi	İqtisadiyyat Nazirliyi	KOS agentliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi		2017-2020
1.6.4.	Yeni sənaye məhəllələrinin və parklarının yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi		2016 İcra edilib

1.7. Dövlət-özəl əməkdaşlığının genişləndirilməsi, KOS subyektlərini təmsil edən qurumların gücləndirilməsi					
1.7.1.	Dövlət-özəl əməkdaşlığı üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi	İqtisadiyyat Nazirliyi	Ədliyyə Nazirliyi	• Azərbaycanda dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi üçün müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi; • KOS subyektlərini təmsil edən qurumların sayının artırılması və onların iqtisadiyyata müsbət təsirinin gücləndirilməsi; • ticarət palatalarının səlahiyyətlərinin və fəaliyyət dairəsinin genişləndirilməsi.	2017-2020
1.7.2.	Biznes assosiasiyalarının gücləndirilməsi	İqtisadiyyat Nazirliyi	Ədliyyə Nazirliyi		2017-2018
1.7.3.	Ticarət palatalarının fəaliyyətinin genişləndirilməsi	İqtisadiyyat Nazirliyi			2017-2020
1.8. KOS subyektləri arasında mübahisələrin alternativ həlli imkanlarının təkmilləşdirilməsi					
1.8.1.	Mediasiya haqqında qanun layihəsinin hazırlanması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi	• KOS subyektlərinin mübahisələrinin məhkəməyəqədər həlli göstəricilərinin 2020-ci ilə qədər 2 dəfə yaxşılaşdırılması;	2017
1.8.2.	Mediasiya Şurasının yaradılması	Ədliyyə Nazirliyi			2017

				• mübahisələrin məhkəməyəqədər həllinin alternativ üsullarının təkmilləşdirilməsi üçün mediasiya haqqında qanunun qəbul edilməsi; • Mediasiya Şurasının yaradılması.	
1.9. KOS subyektlərinin müəyyənləşdirilməsi meyarlarının bütün dəstək tədbirlərində tətbiq edilməsi, statistik məlumatların sistemləşdirilməsi					
1.9.1.	KOS subyektlərinin müəyyənləşdirilməsi meyarlarının bütün dəstək tədbirlərində tətbiqi	İqtisadiyyat Nazirliyi	Vergilər Nazirliyi, KOS agentliyi	• KOS subyektləri ilə bağlı dəstək tədbirlərinin vahid prinsiplər əsasında formalaşdırılmasının təmin edilməsi; • KOS-un tərifinin vahid prinsiplər əsasında formalaşdırılmasının təmin edilməsi; • statistik rəqəmlərin vahid prinsiplərə əsaslanaraq aparılması, məlumatların hesablanmasında dəqiqliyin artması;	2017
1.9.2.	KOS üzrə statistik məlumatların standartlaşdırılması	İqtisadiyyat Nazirliyi	Dövlət Statistika Komitəsi, KOS agentliyi		2017

				• KOS üzrə siyasətin səmərəliliyinin artırılması.	
Strateji hədəf 2. KOS subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi					
2.1. Fəaliyyətə xitam verilməsi və müflisləşmə məsələlərinin həlli sahəsində islahatların aparılması					
2.1.1.	KOS subyektlərinin müflisləşməsi məsələlərinə dair ixtisaslaşmış məhkəmələrin yaradılmasının nəzərdən keçirilməsi	Ədliyyə Nazirliyi	İqtisadiyyat Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası	• 2020-ci ildə real ÜDM-in 450 milyon manat artması; • 2020-ci ildə 900 yeni iş yerinin yaradılması; • KOS subyektlərinin müflisləşməsi məsələləri üzrə ixtisaslaşmış məhkəmələrin yaradılması; • onlayn müflisləşmə və ya iflas reyestrinin yaradılması ilə muflisləşmə prosesində fəaliyyətin yenidən bərpasına şəraitin yaradılması;	2017-2020
2.1.2.	KOS subyektlərinin müflisləşmə məsələləri üzrə problemlərinin öyrənilməsi və həyata keçirilən fəaliyyətlərin monitorinqinin aparılması	İqtisadiyyat Nazirliyi	Maliyyə Bazarlarına Nəzarət Palatası		2017-2020
2.1.3.	Müflisləşmə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi və iflas reyestrinin yaradılması	İqtisadiyyat Nazirliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017

				• KOS subyektlərinin bərpa (iflas vəziyyətindən) tempinin qabaqcıl beynəlxalq təcrübəyə müvafiq olaraq 4 faizə çatdırılması.	
2.2. KOS subyektləri ilə bağlı kreditlərə zəmanət fondunun yaradılması					
2.2.1.	Kredit zəmanət fondunun yaradılması	Maliyyə Bazarlarına Nəzarət Palatası		• KOS subyektlərinin ixrac fəaliyyətinin maliyyələşdirilməsi prosesinin təkmilləşdirilməsi; • ixrac bazarlarına çıxış imkanlarının artması.	2017
2.2.2.	KOS subyektlərinin maliyyə savadlılığının artırılması	İqtisadiyyat Nazirliyi	Maliyyə Bazarlarına Nəzarət Palatası, Təhsil Nazirliyi, KOS agentliyi		2017-2020
2.3. Əmlak məsələləri üzrə fəaliyyətin təkmilləşdirilməsi və maliyyə əlçatanlığının artırılması					
2.3.1.	Daşınar əmlakın yüklülüyünə dair qanunvericiliyin təkmilləşdirilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Maliyyə Bazarlarına Nəzarət Palatası, Ədliyyə Nazirliyi	• daşınar əmlakın banklar tərəfindən təminat predmeti kimi qəbul edilməsi göstəricisinin 2 dəfə artırılması; • kreditləşmədə artıma nail olunması.	2017
2.3.2.	Daşınar əmlakın yüklülüyünün reyestrinin yaradılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi		2017-2018
2.3.3.	Daşınar və daşınmaz əmlakın satışı üzrə hərracların işinin təkmilləşdirilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi	Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2018

2.4. Azərbaycanda lizinq və alternativ maliyyə alətləri (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) bazarının inkişaf etdirilməsi ilə KOS subyektlərinin maliyyəyə çıxışının asanlaşdırılması					
2.4.1.	Lizinq haqqında qanun layihəsinin hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi	• yerli və xarici investorların lizinq bazarına marağının artması; • lizinq əməliyyatlarının ÜDM-də payının 2 faizə çatdırılması; • KOS-un alternativ maliyyələşmə imkanlarının genişlənməsi.	2017
2.4.2.	Lizinq fəaliyyətinin tənzimlənməsi və güzəştlərin tətbiqi	Maliyyə Bazarlarına Nəzarət Palatası	İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi		2017-2018
2.4.3.	KOS subyektlərinin maliyyələşməsində alternativ maliyyə alətlərindən (forvard, fyuçers, opsion, svop, faktorinq və s.) istifadənin genişləndirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi		2017-2020
Strateji hədəf 3. KOS subyektlərinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması					
3.1. KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi					
3.1.1.	KOS subyektlərinin beynəlxalq ticarət əməliyyatlarının müvafiq maliyyə xidmətləri ilə təmin edilməsi	İqtisadiyyat Nazirliyi	Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası	• 2020-ci ildə real ÜDM-in 55 milyon manat artması (birbaşa 35 milyon manat və dolayı 20 milyon manat); • 2020-ci ildə 9800 yeni iş yerinin yaradılması.	2017-2018
3.1.2.	KOS-un beynəlxalq standartlara və tələblərə uyğunlaşdırılmasına dəstək göstərilməsi	Nazirlər Kabineti	İqtisadiyyat Nazirliyi		2017-2018

3.1.3.	KOS subyektlərinə birbaşa xarici investisiyaların cəlb edilməsi ilə bağlı dəstək göstərilməsi	İqtisadiyyat Nazirliyi			2017-2020
3.1.4.	KOS-a ixracın təşviqi ilə əlaqədar mexanizmlərin müəyyənləşdirilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi		2016 İcra edilib
3.1.5.	KOS-un beynəlxalq ticarət əməliyyatlarının sadələşdirilməsi ilə əlaqədar tədbirlərin təşkili	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Dövlət Gömrük Komitəsi		2016 İcra edilib
3.1.6.	İnvestisiyaların təşviqi ilə əlaqədar güzəştlərdən istifadə mexanizminin formalaşdırılması	İqtisadiyyat Nazirliyi	Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi		2016 İcra edilib
3.2. Ayrı-ayrı sektorlar üzrə ixrac assosiasiyalarının yaradılması					
3.2.1.	İxrac assosiasiyalarının inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi		• 2020-ci ildə real ÜDM-in 45 milyon manat artması; • qeyri-neft ixracında 5 faizlik artımın əldə olunması.	2017-2020
3.2.2.	İxracın stimullaşdırılması və “Made in Azerbaijan” brendinin təbliği ilə əlaqədar tədbirlərin həyata keçirilməsi	İqtisadiyyat Nazirliyi			2016 İcra edilib
3.2.3.	Azərbaycanda istehsal olunan malların vahid məlumat portalının formalaşdırılması	İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi			2016 İcra edilib

Strateji hədəf 4. KOS subyektlərinin bilik və bacarıqlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi					
4.1. Biznes inkubatorları və startap layihələrinin inkişaf etdirilməsi, model müəssisələrin yaradılması					
4.1.1.	KOS subyektlərinin faydalanması üçün Azərbaycanda model müəssisənin yaradılması	İqtisadiyyat Nazirliyi		● 2020-ci ildə real ÜDM-in 35 milyon manat artması (birbaşa 20 milyon manat və dolayı 15 milyon manat); ● 2020-ci ilədək olan müddətdə ən azı 3-5 model müəssisənin yaradılması; ● 2020-ci ilədək, il ərzində ən azı 5 yeni biznes inkubatorunun yaradılması; ● il ərzində ən azı 25 startap layihəsinin başlanması.	2017-2018
4.1.2.	Biznes inkubatorlarının inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi	KOS agentliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Milli Elmlər Akademiyası		2017-2020
4.1.3.	Startap layihələrinin dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Təhsil Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2020
4.2. KOS subyektlərinin təlim və tədris imkanlarının artırılması, qabaqcıl təcrübələrin tətbiqinin sürətləndirilməsi					
4.2.1.	Kiçik və orta sahibkarların tədris və təlim ehtiyaclarının müəyyənləşdirilməsi və təlim materiallarının hazırlanması	İqtisadiyyat Nazirliyi	KOS agentliyi, Təhsil Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Əmək və Əhalinin	● KOS subyektlərinin yüksəkixtisaslı və bacarıqlı kadrlarla təminatı; ● 2020-ci ilədək,	2017

			Sosial Müdafiəsi Nazirliyi, Dövlət Gömrük Komitəsi	il ərzində ən azı 1000 kiçik və orta sahibkar üçün xüsusi təlimlərin təşkili; ● KOS subyektləri üçün xüsusi kadr bankının yaradılması.	
4.2.2.	Kiçik və orta sahibkarların əmək bazarı üzrə ehtiyaclarının öyrənilməsi və təkmilləşdirmələr aparılması	İqtisadiyyat Nazirliyi	KOS agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi		2017
4.2.3.	KOS subyektləri ilə peşə təhsili müəssisələrinin işinin əlaqələndirilməsi	Təhsil Nazirliyi	KOS agentliyi, Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
4.2.4.	KOS subyektləri üçün "ömür boyu öyrənmək" imkanlarının təmin edilməsi	İqtisadiyyat Nazirliyi	KOS agentliyi		2017-2020
4.2.5.	Mühasibat Uçotunun Beynəlxalq Standartlarının KOS subyektləri tərəfindən tətbiqinin stimullaşdırılması	Maliyyə Nazirliyi	İqtisadiyyat Nazirliyi		2017-2020
4.2.6.	Korporativ idarəetmə standartlarının tətbiqinin gücləndirilməsi	İqtisadiyyat Nazirliyi			2017-2020
4.3. Sahibkar düşüncə tərzinin təşviqi					
4.3.1.	Sahibkar düşüncə tərzinin inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi	KOS agentliyi	● bu prioritetin ÜDM və məşğulluq göstəricilərinə təsiri 4.1-ci prioritetdə əhatə olunmuşdur.	2017-2020
4.3.2.	İlk peşə və orta ixtisas təhsili müəssisələrində sahibkarlığın əsaslarının tədrisinin təşkil edilməsi	Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi	İqtisadiyyat Nazirliyi		2017-2020

4.4. Qadın sahibkarlığının inkişaf etdirilməsi					
4.4.1.	Qadın sahibkarlığının inkişafı üzrə stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması	İqtisadiyyat Nazirliyi	Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi	• ölkədə qadınların sahibkarlıq fəaliyyəti üçün daha əlverişli mühitin yaradılması; • kiçik və orta sahibkarlar arasında qadınların sayının daha da artması; • məşğulluq göstəricilərində qadınların payının artması.	2017
4.4.2.	Qadın sahibkarlığına informasiya dəstəyinin inkişaf etdirilməsi	İqtisadiyyat Nazirliyi	Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi		2017-2020
4.4.3.	Qadın biznesi-inkubatorlarının yaradılması	İqtisadiyyat Nazirliyi	Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi		2017-2020
4.4.4.	Qadın sahibkarların assosiasiyalarının və peşə təşkilatlarının yaradılması	İqtisadiyyat Nazirliyi	Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi		2017-2020
Strateji hədəf 5. İnnovasiyaların təşviqi, KOS subyektləri üçün araşdırma və inkişaf fəaliyyətlərinin genişləndirilməsi					
5.1. Milli innovasiya sisteminin təkmilləşdirilməsi					
5.1.1.	Qanunvericilik bazasının təkmilləşdirilməsi	İqtisadiyyat Nazirliyi	Ədliyyə Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	• 2020-ci ilədək milli innovasiya sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi; • Azərbaycan Respublikasında ən azı 3 innovasiyayönümlü regional klasterin yaradılması.	2017-2020
5.1.2.	İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması	İqtisadiyyat Nazirliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017
5.1.3.	İnnovasiyayönümlü regional klasterlərin yaradılması	İqtisadiyyat Nazirliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2020

5.2. Kiçik və orta sahibkarların fəaliyyətini stimullaşdıran innovasiya infrastrukturunun formalaşdırılması					
5.2.1.	KOS-un inkişafı üçün innovasiya infrastrukturunun təkmilləşdirilməsi	İqtisadiyyat Nazirliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	• innovasiyayönümlü infrastrukturun müstəqil rezidentlər tərəfindən yaradılması imkanı; • innovasiya infrastrukturu elementlərinə güzəştlərin tətbiq olunması; • dövlət əhəmiyyətli və müstəqil elmi-tədqiqat (tədqiqat və inkişaf) mərkəzlərinin formalaşdırılması və elmi-istehsalat birliklərinin yaradılması.	2017-2020
5.2.2.	Dövlət əhəmiyyətli və müstəqil elmi-tədqiqat (tədqiqat və inkişaf) mərkəzlərinin formalaşdırılması və elmi-istehsalat birliklərinin yaradılması	İqtisadiyyat Nazirliyi	Milli Elmlər Akademiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2020

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 385

2. QLOBAL TRENDLƏR 387

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 390

3.1. Ağır sənaye və maşınqayırma sektorunun mövcud vəziyyəti 390

3.2. Ağır sənaye və maşınqayırma sektorunun GZİT təhlili 395

4. STRATEJİ BAXIŞ 396

4.1. 2020-ci ilədək strateji baxış 396

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 396

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 397

5. HƏDƏF İNDİKATORLARI 398

6. STRATEJİ MƏQSƏDLƏR 398

7. STRATEJİ HƏDƏFLƏR 399

7.1. Strateji hədəf 1. Mövcud aktivlərin optimallaşdırılması 399

7.1.1. Prioritet 1.1. Sektorda məhsuldarlığın və səmərəliliyin artırılması 399

7.1.2. Prioritet 1.2. Enerjidən istifadədə optimal səmərəliliyə nail olunması 403

7.1.3. Prioritet 1.3. Aktivlərin və mövcud potensialın mərkəzi reyestrinin yaradılması 405

7.2. Strateji hədəf 2. Rəqabətədavamlı sektorun yaradılması 408

7.2.1. Prioritet 2.1. Regional tələbat baxımından dəyər zəncirlərində iştirakın təmin olunması 408

7.2.2. Prioritet 2.2. İdxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi 410

7.2.3. Prioritet 2.3. Dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi 415

7.2.4. Prioritet 2.4. Xidmət sektorunun inkişaf etdirilməsi 417

7.3. Strateji hədəf 3. Maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi 418

7.3.1. Prioritet 3.1. Alternativ maliyyələşmə mexanizmlərinin təşviqi və təcrübələrin ötürülməsi 418

7.3.2. Prioritet 3.2. Beynəlxalq standartlara və idarəçilik prosedurlarına uyğunlaşmanın təmin edilməsi 422

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 425

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 426

10. TƏDBİRLƏR PLANI 428

1. QISA XÜLASƏ

Əsas müddəaları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş sosial-iqtisadi siyasətin həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı son on ildə sürətlə inkişaf etmiş, iqtisadiyyatın diversifikasiyası neft amilindən asılılığı azaltmış, iqtisadi artımda qeyri-neft sektorunun payı yüksəlmişdir. 2008-ci ildən başlayaraq dünyada gedən iqtisadi proseslər yerli müəssisələrin rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri-neft iqtisadiyyatının dinamik inkişafını və insan kapitalından səmərəli istifadəni təmin etmək istiqamətində islahatların daha da dərinləşdirilməsini zəruri etmişdir.

Bununla əlaqədar, ölkə iqtisadiyyatının prioritet sektorlarının, beynəlxalq məsləhətçilər də cəlb olunmaqla, hərtərəfli təhlili nəticəsində sahəvi yanaşmanın tətbiqi və müvafiq sahələr üzrə spesifik təkliflərin hazırlanması üçün ardıcıl işlər görülmüşdür. "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" (bundan sonra – Strateji Yol Xəritəsi) Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icrası məqsədilə hazırlanmışdır.

Strateji Yol Xəritəsi hazırlanarkən Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı" ilə müəyyən edilmiş məqsəd və vəzifələr nəzərə alınmışdır.

Strateji Yol Xəritəsinin başlıca məqsədi mövcud resurslar nəzərə alınmaqla və ağır sənaye və maşınqayırma sektorunda müasir tənzimləmə və təşviq siyasəti tətbiq edilməklə qeyri-neft sənayesinin dinamik inkişafı vasitəsilə ölkə iqtisadiyyatının diversifikasiyasına, ağır sənaye və maşınqayırma sahəsində əlavə dəyərin və məşğulluğun artırılmasına, ətraf mühitin qorunmasına və nəticədə, dayanıqlı iqtisadi inkişafa nail olmaqdan, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasını təmin etməkdən ibarətdir.

Bu məqsədə çatmaq üçün milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri rəhbər tutulmaqla, 2016–2020-ci illər ərzində Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırma sahəsində aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

- mövcud aktivlərin optimallaşdırılması;
- rəqabətədavamlı sektorun yaradılması;
- maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

Mövcud aktivlərin optimallaşdırılması hədəfi çərçivəsində ağır sənaye və maşınqayırma sahəsində məhsuldarlığın və səmərəliliyin artırılması, enerji istehlakında optimal səmərəliliyin təmin edilməsi, aktivlərin və mövcud potensialın mərkəzləşdirilmiş reyestrinin yaradılması üzrə tədbirlər nəzərdə tutulur. Rəqabətədavamlı sektorun yaradılması hədəfi regional tələbat baxımından dəyər zəncirlərində iştirakın təmin olunması, idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi, dağ-mədən sənayesi və metallurgiya kompleksinin, habelə bu sahədə xidmət sektorunun inkişaf etdirilməsi

fəaliyyətlərini əhatə edir. Sonuncu uçüncü hədəf çərçivəsində isə alternativ maliyyələşmə vasitələrinin rolu açıqlanır, beynəlxalq standartlara və idarəçilik prosedurlarına uyğunlaşma ilə bağlı prioritetlər göstərilir.

2020-ci ilədək nəzərdə tutulan hədəflərə nail olunması nəticəsində Azərbaycanda real ÜDM-in 1 milyard 560 milyon manatadək artacağı, 7700 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Bu təsirin əldə olunması üçün dövlət-özəl resursları hesabına 2,9 milyard manat investisiya qoyuluşu tələb edilir.

Strateji Yol Xəritəsində dəqiq icra və monitorinq mexanizmləri verilmişdir. Strateji Yol Xəritəsinin Tədbirlər Planı tədbirlərin adı, əsas və digər icraçılar, nəticə indikatorları və konkret icra müddətləri göstərilməklə tərtib edilmişdir. Bununla yanaşı, Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər və gözlənilən nəticələr aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 1. Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələr

№	Prioritetin adı	Real ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(tam ştatlı işçilər, 2020)*	İnvestisiya *(milyon manatla)*
1.1.	Sektorda məhsuldarlığın və səmərəliliyin artırılması	250	-	20
1.3.	Aktivlərin və mövcud potensialın mərkəzi reyestrinin yaradılması	45	2000	280
2.1.	Regional tələbat baxımından dəyər zəncirlərində iştirakın təmin olunması	15	-	-
2.2.	İdxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi	145	5700	330
2.3.	Dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi	1000	-	2000
3.1.	Alternativ maliyyələşmə mexanizmlərinin təşviqi və təcrübələrin ötürülməsi	105	-	270

Qeyd 1. Bu cədvəldə yalnız 2020-ci ildə real ÜDM-də 10 milyon manatdan çox artma və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.

Qeyd 2. Bu rəqəmlər prioritetlərin təsirləri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli təhlillərin aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.

2. QLOBAL TRENDLƏR

Son illər dünya iqtisadiyyatında sənayenin rolu yenidən artmaqdadır. Bu artım həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrə şamil edilir. Ümumilikdə qeyd olunmalıdır ki, iqtisadi sektorlar arasında sənaye öz strukturunun mürəkkəbliyi ilə səciyyələnir. Müxtəlif beynəlxalq təsnifatlara əsasən, sənaye kompleksinə 300-dən artıq sahə və altsahə daxildir. Sənayenin dünya iqtisadiyyatında payı təqribən 30 faizdir və dünya üzrə enerji istehlakının 40 faizi bu sahənin payına düşür. BMT-nin Sənaye İnkişafı Təşkilatının hesablamaları sənaye emalında məşğul iqtisadi fəal əhalinin təxminən 12 faiz olduğunu göstərir. Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən, dünyada sənayedə işləyənlərin sayı son 15 ildə 200 milyon nəfərdən çox artmışdır.

Dünya sənayesi strukturunda əsas meyarlardan biri bölgünün istehsal vasitələri və son istehlak üzrə aparılmasıdır. Ağır sənaye və maşınqayırma, əsas etibarilə özündə istehsal vasitələrinin istehsalını birləşdirən sahələri əhatə edir. Son onilliklərdə həm ümumi sənayedə, həm də onun ağır sənaye və maşınqayırma sahəsində maraqlı meyillər müşahidə olunur. Belə ki, hazırda mədən sənayesinin ümumi sənayedə payı azalır, elmi-texniki yeniliklərin tətbiqi nəticəsində əlavə dəyər zəncirində elmtutumlu məhsulların rolu artır, coğrafi strukturda inkişafda olan ölkələrin əhəmiyyəti yüksəlir, inkişaf etmiş ölkələrdə isə daxili relokasiya və sırf yüksək texnologiyaların istehsalı üzrə ixtisaslaşma istiqamətində dəyişikliklər baş verir.

Ayrı-ayrı ölkələrin sənaye strukturunun diversifikasiyası müxtəlif amillərdən, o cümlədən keyfiyyətli əmək qüvvəsinin mövcudluğundan, daxili bazarın həcmindən, elmi-texniki yeniliklərin mənimsənilməsi səviyyəsindən birbaşa asılıdır. ABŞ, Çin, Yaponiya, Almaniya, Rusiya sənaye istehsalına görə ən böyük ölkələr sırasındadır. Bununla yanaşı, Asiya ölkələrinin dünya sənayesində mövqeləri son 20 ildə güclənməkdədir. Lakin sənaye strukturunun diversifikasiya səviyyəsinə baxdıqda, sənaye məhsullarının bütün diapazonunu mənimsəmiş ölkələr olaraq ABŞ, Yaponiya və Almaniyanın adları çəkilir. Qərbi Avropanın inkişaf etmiş digər ölkələri rəqabət qabiliyyətinin təmin edilməsi üçün daha dar ixtisaslaşmaya meyillidirlər.

Sənaye inqilabı dövründən ağır sənaye və maşınqayırma sənaye strukturunda dominant mövqeyə sahibdir. Son onilliklərdə bu təmayül daha da güclənmişdir, belə ki, elmi-texniki yeniliklərin böyük hissəsi məhz bu sahələrdə tətbiq olunur. Digər tərəfdən, mədən sənayesinin payının azalması ilə emal sektorunda maşınqayırma və kimya sənayelərinin rolu xüsusilə artmışdır. Ağır sənaye və maşınqayırma sahəsini səciyyələndirən amil bu sahədə texnoloji diapazonun (aşağı texnologiyalardan orta və yüksək texnologiyalara doğru) tam şəkildə təmsil olunmasıdır.

MDB regionuna gəldikdə, ağır sənaye və maşınqayırma sahəsinin bu ölkələrdə ənənəvi və tarixən formalaşmış strukturu mövcuddur. Burada qara və əlvan metallurgiya, kimya sənayesi, aerokosmik sənaye, hərbi sənaye, məişət cihazlarının istehsalı, elektrik, energetika və nəqliyyat avadanlıqlarının, kənd təsərrüfatı texnikasının istehsalı kimi sahələri qeyd etmək mümkündür. Eyni zamanda, elektronika və robot avadanlıqlarının istehsalı kimi elmtutumlu istiqamətlər üzrə dünya səviyyəsindən geridə qalan MDB ölkələrinin idxal strukturunda maşın və avadanlıq nomenklaturası böyük yer tutur.

Beləliklə, dünyada maşınqayırmanın əhəmiyyətinin davamlı şəkildə artması ilə əlaqədar olaraq, sözügedən sahə dünya emal sənayesində mərkəzi yer tutmaqdadır. Bu sektor daxilində elektronika və elektrik avadanlığı istehsalı ən sürətlə inkişaf edən sahə olmaqla, həmin avadanlıqlarda istehsal olunan məhsullar əlavə dəyər

yaradılmasına görə ön sıradadır. Həmçinin, nəqliyyat maşınqayırması, cihazqayırma və aerokosmik sənaye xüsusi əhəmiyyətə malikdir. Maşınqayırma iqtisadiyyatda multiplikasiya effekti yaratdığı üçün bu sahənin inkişafı digər qonşu sahələrin də həmahəng inkişafı ilə müşayiət olunur.

Sənaye sahələri arasında maşınqayırma ixtisaslı əmək tutumluluğu ilə də seçilir. Əmək resurslarının cəlb olunması baxımından cihazqayırma, elektrik avadanlıqlarının istehsalı, aerokosmik sənaye və nüvə sənayesi maşınqayırması kimi sahələr xüsusilə seçilir. Bu səbəbdən də, maşınqayırma mərkəzləri qurularkən ixtisaslı əmək qüvvəsinin, sənaye mədəniyyətinin, elmi tədqiqat mərkəzlərinin mövcudluğu diqqətlə araşdırılmalıdır. Beynəlxalq təcrübədə xammal bazasına yaxınlıq daha az əhəmiyyətlidir və yalnız ağır maşınqayırmanın bəzi altsahələrində bu meyar rəhbər tutulur. Eyni zamanda, xammal strukturunda qara metallurgiyanın həcminin azalması, əlvan metallurgiya və neft-kimya istehsalının isə artması trendi formalaşır.

Əsas məhsullara baxdıqda, müxtəlif dəzgahların istehsalı üzrə Yaponiya, Almaniya, ABŞ, İtaliya və Çin, avtomobil istehsalı üzrə isə ABŞ, Yaponiya, Almaniya, Fransa, İngiltərə və Cənubi Koreya əsas istehsalçılar sayılır. Kənd təsərrüfatı texnikası üzrə isə Rusiya, Yaponiya, Hindistan, ABŞ, Belarus kimi ölkələr ixtisaslaşmışdır. Məişət texnikası, o cümlədən televizor istehsalı daha çox Çin, Cənubi Koreya, ABŞ, Braziliya, Malayziya, Yaponiya, Sinqapur və Türkiyə kimi ölkələrdə cəmləşmişdir. Ən iri gəmiqayırma mərkəzləri Cənubi Koreya, Yaponiya, Almaniya, Braziliya, Tayvan və Çində yerləşir. Sahə üzrə əlavə dəyərin yüksək payı ilə seçilən elektronika və elektrik avadanlığı istehsalçıları isə ABŞ, Yaponiya, Almaniya, Çin, Cənubi Koreya, Tayvan, Niderland, Rusiya və İngiltərədə daha çox təmsil olunurlar. Aerokosmik sənaye elm və texnologiyaların yüksək inkişaf etdiyi ölkələrdə – ABŞ, Fransa, Almaniya, Rusiya, İngiltərə və Niderlandda cəmləşir.

Göründüyü kimi, mühüm məhsul növləri üzrə əsas istehsalçı ölkələr məhdud sayda olduğu halda, yuxarıda qeyd olunan ölkələr müxtəlif fəaliyyət qruplarında yer alır. Bununla yanaşı, gəmiqayırma sektorunda istehsalçıların nisbi diversifikasiyasını və inkişaf etməkdə olan ölkələrin payının artmasını xüsusilə qeyd etmək lazımdır.

Sahə üzrə tanınmış ekspert və analitiklərin rəyinə görə, ağır sənaye və maşınqayırma sektoru yeni sənaye inqilabı ərəfəsindədir. Almaniyada yeni mərhələyə "Sənaye 4.0" adı verilmişdir. Bu proses Yaponiyada hələ keçən əsrin 70-ci illərində yaranmış mexatronika fenomeninin məntiqi davamı hesab olunur. Hesablayıcı proqram təminatının, elektron qurğuların, kommunikasiya texnologiyalarının, fiziki avadanlıq və dəzgahların, həmçinin insan amilinin birgə sistem şəklində fəaliyyəti nəticəsində "ağıllı" zavod və fabriklər yaranır, "3D çap" *("3D printing"*) və modul texnologiyaları əsasında mürəkkəb məhsullar istehsal olunur. Son 15 ildə ABŞ, Almaniya, Çin, Yaponiya və Cənubi Koreyada bu istiqamətdə tədqiqatlara ayrılan vəsaitin həcmi artmaqdadır. İnkişaf etmiş ölkələrdə əlavə dəyər zəncirinin böyük hissəsi elmi tədqiqatlar və elmtutumlu məhsullar seqmentində cəmləşdiyi halda, inkişafda olan ölkələrdə ucuz enerji, təbii resurslar və əmək qüvvəsinin təsiri daha böyükdür.

Dünya təcrübəsində ağır sənaye və maşınqayırma sahəsinə dövlət dəstəyi tədbirləri tariflər, fiskal imtiyazlar və subsidiyalar vasitəsilə tənzimləyici qismində, kredit bazarlarına təsir göstərən münasib maliyyələşdirici qismində, birbaşa istehsalçı və ya təşviqedici qismində və strateji altsahələrdə dövlət satınalmaları vasitəsilə istehlakçı qismində özünü büruzə verir.

Dəstək tədbirlərinin başlıca məqsədi, bir qayda olaraq, sənaye müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi və satış bazarlarının, o cümlədən beynəlxalq satış bazarlarının təmin edilməsidir. İnvestisiyaların, beynəlxalq ticarətin təşviqi, insan

resurslarının inkişafı, infrastrukturun qurulması, xüsusi iqtisadi zonaların, sənaye parklarının və klasterlərinin yaradılması, sektoral yanaşmalar, müasir texnologiyaların transferi kimi spesifik dəstək tədbirləri əksər ölkələrdə yerli şəraitdən asılı olaraq bu və ya digər formada istifadə edilir. İxrac modelinə əsaslanan ölkələrdə metallurgiya, avtomobil istehsalı və maşınqayırmada ixtisaslaşma-kooperasiya əlaqələri mürəkkəbləşdikcə insan kapitalının təşviqi tədbirləri zərurətə çevrilir.

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Ağır sənaye və maşınqayırma sektorunun mövcud vəziyyəti

Tarixi ənənələr

Azərbaycan sənayesi və onun tərkib hissəsi olan ağır sənaye və maşınqayırma zəngin ənənələrə malikdir. Bakıda sənaye üsulu ilə neft istehsalına ilk dəfə 1848-ci ildə başlanmış, dünyanın ilk neftayırma zavodu 1859-cu ildə Azərbaycanda tikilmişdir. Dünyada ilk dəfə 1871-ci ildə neft istehsalında quyu nasosundan, 1877-ci ildə isə neft məhsullarının daşınması üçün tankerlərdən istifadə olunması, 1905-ci ildə neft hasilatında kompressorların tətbiqi, 1924-cü ildə neft quyularının qazma maşınları vasitəsilə qazılması və 1949-cu ildə dənizdə neft yataqlarından neftin hasil olunması məhz ölkəmizə aid tarixi hadisələrdir.

1911–1913-cü illərdə Bakıda 12 maşınqayırma zavodu, habelə çoxsaylı mexanika və metal emalı müəssisəsi fəaliyyət göstərirdi. İlkin mərhələdə xaricdən idxal olunan avadanlıq Nobel qardaşlarının, Rotşildin, Tağıyevin, Muxtarovun emalatxanalarında təmir edilirdi ki, bu emalatxanalar da gələcək maşınqayırma kompleksinin əsasını təşkil etdi. İkinci Dünya müharibəsi illərində keçmiş SSRİ-nin sənaye şəhərlərindən Bakıya köçürülən maşınqayırma zavodlarında silah və hərbi texnika üçün ehtiyat hissələr istehsal edilirdi. Bakının neftçıxarma və neft emalı müəssisələri SSRİ-nin hərbi ehtiyaclarının 70 faizini qarşılayırdı.[1] Həmçinin keçmiş Sovet İttifaqının neftçıxarma sənayesinin avadanlıq ehtiyacının böyük hissəsini Azərbaycan neft maşınqayırması müəssisələri təmin edirdi.

1926–1930-cu illərdə keçmiş SSRİ-də ilk dəfə olaraq buruq sularından yod alınması üsullarının işlənib hazırlanması nəticəsində Neftçala yod-brom (1931), Suraxanı (1931) və Ramana (1932) yod zavodları işə salınaraq, ölkədə yod-brom sənayesinin əsası qoyulmuşdur. 1945-ci ildən etibarən isə Sumqayıt ərazisində ardıcıl olaraq ağır sənaye müəssisələri-kimya, boru-prokat, sintetik kauçuk, alüminium, superfosfat zavodları istifadəyə verilmişdir. 1966-cı ildə istifadəyə verilən Kimya kombinatı həmin dövrdə Avropada ən iri neft-kimya müəssisəsi hesab olunurdu.

Azərbaycanda ötən əsrin son onilliklərində geniş vüsət alan sənayeləşmə siyasəti isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmişdir. Həmin illərdə ölkə sənayesinə investisiyalar artırılmış, böyük sənaye mərkəzləri istifadəyə verilmiş, sənaye kadrlarının yetişdirilməsi üçün ardıcıl tədbirlər görülmüşdür. Neft-mədən avadanlıqları, elektrik mühərrikləri, güc transformatorları, luminessent elektrik lampaları, elektrotermik və elektroqaynaq avadanlıqları, məişət texnikası, soyuducu, kondisioner, avtobus və yük maşınları, aşağı və yüksəkgərginlikli aparatlar, müxtəlif cihazlar istehsal edən müəssisələrin məhsulları 35 ölkəyə ixrac edilirdi.[2] Azərbaycanın dəniz neftçıxarma sənayesində böyük rol oynamış və sonralar "Əsrin müqaviləsi"nə əsasən həyata keçirilən bütün neft layihələrinə fəal cəlb olunmuş Heydər Əliyev adına Bakı Dərin Dəniz Özülləri Zavodu da məhz həmin dövrdə istismara verilmişdir.

1981-ci ildə Sumqayıtda müasir, iritonnajlı, tullantısız texnologiyaya əsaslanan və yüksək istehsal gücünə malik, neft kimyasının qiymətli məhsulları olan etilen və propilen istehsal edən EP-300 kompleksinin inşasına başlanıldı. Məhz EP-300 qurğusu sayəsində Etilen-Polietilen Zavodu hazırda dünya bazarında tələbatın böyük olduğu

[1] Mənbə: "SOCAR Plus" internet səhifəsi (www.socarplus.az)
[2] Mənbə: Azərbaycanın Sənaye Portalı (www.senaye.gov.az)

yüksəkkeyfiyyətli polietilen istehsal edir. Bu gün həmin qurğu respublikamızda kimya kompleksinin bütövlükdə inkişafı üçün əsas xammal tədarükçüsü rolunu oynayır.

1995-ci ildən ölkə sənayesi dirçəliş dövrünü yaşamağa başlamışdır. Bu illərdə düşünülmüş neft-qaz strategiyası nəticəsində 20-dən çox ölkənin 30-dan artıq şirkəti ilə Azərbaycanın neft və qaz yataqlarının birgə işlənməsinə dair 26 saziş imzalanmışdır. Qlobal əhəmiyyətinə görə Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri böyük önəm kəsb edir. Neft-qaz sahəsinə yönəldilən investisiyalar neft maşınqayırması sahəsi ilə yanaşı, sənayenin digər sahələrinin də canlanmasına şərait yaratmışdır.

Yeni sənaye siyasətinin çərçivəsi

2004-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sənayenin yeni inkişaf dövrü başlanmışdır. Bu dövrdə neft-qaz sektorundan əldə edilən gəlirlərin bir hissəsi sənayenin müxtəlif sahələrinin inkişafına yönəldilmiş, regionlarda sənaye strukturunun optimallaşdırılması üçün dövlət proqramları tərtib edilmiş, enerji təminatının həlli istiqamətində mühüm işlər görülmüş, ümumi infrastrukturun yaxşılaşdırılması, yeni istehsal obyektlərinin açılması üçün çoxsaylı layihələr icra edilmişdir. Sənayenin inkişafında ölkədə yaradılan əlverişli biznes mühitinin, həmçinin sahibkarlığın tənzimlənməsi sahəsində mühüm qərarların böyük rolu olmuşdur. Son illərdə sahibkarlığın inkişafı sahəsində görülən dövlət dəstəyi tədbirləri sayəsində 2015-ci ildə özəl sektorun ÜDM-də payı 81,2 faiz olmuşdur. Sahibkarlıq subyektlərinin sayı 677 mindən, o cümlədən hüquqi şəxslərin sayı isə 100 mindən çox olmuşdur.[3]

Görülən işlərin məntiqi davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 212 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında 2014-cü il "Sənaye ili" elan olunmuş, sənayenin inkişafı üzrə tədbirlər planı icra edilmişdir. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Düşünülmüş dövlət siyasətinin reallaşdırılması ölkənin dayanıqlı maliyyə resurslarının formalaşmasına və bununla da sənayenin bütün sahələrinin inkişafına şərait yaratmışdır. Son on ildə sənayenin həcmi iki dəfəyə yaxın artmışdır ki, bu da əsasən qeyri-neft sənayesi hesabına baş vermişdir. Belə ki, son illərdə qeyri-neft sənayesinin artım tempi davamlı olaraq ümumi sənayenin artım tempini üstələyir. Dünya iqtisadi böhranının davam etdiyi 2015-ci ildə qeyri-neft sənayesi 8,4 faizlik artım nümayiş etdirmişdir.[4] Qeyri-neft sənayesinə daxil olan metallurgiya və maşınqayırma sahələrində də son on ildə ciddi irəliləyiş müşahidə olunmuşdur. Belə ki, bu dövrdə maşınqayırma sənayesində məhsul istehsalı 15 dəfəyə yaxın artmış, sahənin qeyri-neft emal sənayesində payı 21,5 faizə çatmışdır.[5] Təkcə 2015-ci ildə maşınqayırma sənayesi sahələrinin istehsal etdikləri məhsul və xidmətlər iki dəfə çoxalmışdır. Bu artımda maşınqayırma kompleksinin vacib sahəsi hesab olunan maşın və avadanlıq quraşdırılması və təmirinin, habelə elektrik avadanlıqları istehsalının böyük rolu vardır.


Ötən illər ərzində sənaye strukturunda tədricən optimallaşdırma prosesləri getmiş, mədənçıxarma sektorunun payı azalmış, emal sektorunun payı isə artmışdır. 2015-ci ildə əsas kapitala yönəldilmiş vəsait 16 milyard manata çatmış, onun 53 faizi sənayeyə yatırılmışdır. Görülmüş tədbirlər nəticəsində sənayedə çalışan işçilərin sayı

[3] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
[4] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[5] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

187,1 min nəfəri ötmüş, sənayedə orta aylıq əməkhaqqı isə ölkə üzrə orta aylıq əməkhaqqını təxminən iki dəfə üstələyərək 809,3 manata çatmışdır.[6]

Azərbaycanın ağır sənaye və maşınqayırma sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri, əsasən, Bakı və Sumqayıt şəhərlərində və ətraf rayonlarda cəmləşmişdir (şəkil 1). Bununla yanaşı, ötən dövr ərzində ölkənin digər əraziləri də ağır sənaye və maşınqayırmanın müəyyən növləri üzrə ixtisaslaşmışdır.

Şəkil 1. Azərbaycanda ağır sənaye və maşınqayırma şirkətlərinin yerləşmə coğrafiyası və məşğulluq səviyyəsi



Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

Metallurgiya və maşınqayırma

Azərbaycan Respublikasında yerləşən və ehtiyatları təsdiq olunmuş dəmir filizi yataqları Daşkəsən rayonunun hüdudlarında təmərküzləşmişdir. Daşkəsən dəmir filizi qrupu yataqlarının sənaye ehtiyatı təqribən 250 milyon tondur. Bu yataqların bazasında layihə gücü ildə 3,0 milyon ton xam filiz olan Azərbaycan Dağ-Mədən Kombinatı fəaliyyət göstərirdi. Əvvəllər hazır məhsulun tərkibində dəmirin miqdarı 60,5 faiz olan konsentrat Rustavi Metallurgiya Zavoduna, "Gürcüstankömür" İstehsalat Birliyinə və Bakı Ağırlaşdırıcılar Zavoduna göndərilirdi.[7]

Son illər "Azərbaycan Polad İstehsalı Kompleksi" Qapalı Səhmdar Cəmiyyəti ilə birgə işləyən "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2198 nömrəli Sərəncamı ilə özəlləşdirməyə açıq elan edilmişdir. Özəlləşdirmə nəticəsində idarəetmə və istehsal proseslərinin təkmilləşdirilməsi və strateji investorların (o cümlədən xarici investorların) cəlb olunması gözlənilir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 aprel tarixli 2875 nömrəli Sərəncamı ilə səhmləri dövlətə məxsus olan "Azərbaycan Polad İstehsalı

[6] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[7] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

Kompleksi" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Sərəncamla dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edən polad istehsalı kompleksinin layihələndirilməsi, tikintisi və idarə olunması, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi nəzərdə tutulur.

Azərbaycan iqtisadiyyatında mühüm yer tutan ağır sənaye və maşınqayırma sektoru, 2015-ci ilin məlumatlarına əsasən, 1 milyard 160 milyon manatlıq istehsal həcminə malik 258-dən çox təsərrüfat subyektindən ibarətdir və burada 21,1 min işçi çalışır. Azərbaycanda neft maşınqayırması məhsullarının böyük hissəsi "Azneftkimyamaş" Açıq Səhmdar Cəmiyyətinin tərkibinə daxil olan müəssisələrdə istehsal olunur. Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin 22 mart 2001-ci il tarixli 649 nömrəli Sərəncamı ilə yaradılmışdır. Cəmiyyət 100-ə yaxın çeşiddə və 600-dən artıq növ və ölçüdə maşın və avadanlıqlar, alət və ehtiyat hissələri istehsal edir. Kompleksə 9 zavod və 4 elmi tədqiqat institutu daxildir.[8]

Yeni istehsalat obyektləri və perspektivlər

Sənayenin strukturunun və regional əhatəsinin diversifikasiyası baxımından ağır sənaye və maşınqayırma sahəsində yeni istehsalat obyektlərinin istismara verilməsi üçün son illərdə ciddi işlər görülmüşdür. Sumqayıt Texnologiyalar Parkının, Sumqayıt Alüminium Zavodunun, o cümlədən Gəncə Alüminium Yarımfabrikatı Zavodunun, Sumqayıt, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodlarının, Qaradağ Sement Zavodunun, Sumqayıt Karbamid Zavodunun, Gəncədə kənd təsərrüfatı texnikası və avtomobil zavodlarının, Naxçıvan Avtomobil Zavodunun, ATEF şirkətlər qrupunun İriqabaritli Transformatorlar Zavodunun, "Norm" Sement Zavodunun, Sumqayıt Plastik Emal Zavodunun, Mingəçevir Elektron Avadanlıqlar Zavodunun, polad boru, günəş panellər və metal konstruksiyalar müəssisələrinin qurulması ölkə iqtisadiyyatı üçün əhəmiyyətli hadisələrdir.

Sumqayıt Kimya Sənaye Parkında xarici və daxili infrastrukturun yaradılması, ofis, konsaltinq, laborator müayinə, biznes inkubasiya, treninq və peşə hazırlığı xidmətlərinin göstərilməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər zəruri infrastruktur obyektlərinin qurulması istiqamətində işlər davam etdirilmişdir. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən parkın ərazisində "Polimer" layihəsinin reallaşdırılması son 40 il ərzində öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ən iri layihə hesab olunur. Bundan əlavə, parkın ərazisində xüsusi təyinatlı iri diametrli qofralı polietilen boru, polad boru, mexaniki avadanlıqlar və hidrotexniki avadanlıqlar istehsalı, "Float" texnologiyası (isti vannada yayma) əsasında şüşə lövhələrin istehsalı, respublikada ilk dəfə bitki mühafizəsi vasitələri – pestisidlər istehsalı üzrə müəssisələr rezident statusunda fəaliyyətə başlamışdır.

Balaxanı Sənaye Parkında təkrar emal üzrə müəssisələr qeydiyyatdan keçmiş, Qaradağ Sənaye Parkında müasir gəmiqayırma kompleksi istifadəyə verilmişdir. Yüksək Texnologiyalar Parkına elmtutumlu və innovativ istehsalların cəlb olunması ilə bağlı işlər görülməkdədir. Neftçala Sənaye Məhəlləsində İran İslam Respublikasının "İran Khodro" şirkəti ilə birgə avtomobil istehsalı istiqamətində fəaliyyətə başlanılmışdır. Pirallahı Sənaye Parkında ölkə üçün yeni sayılan əczaçılıq sənayesi üzrə istehsal qurğularının tikilməsi planlaşdırılır. Mingəçevir Sənaye Parkında və Masallı Sənaye Məhəlləsində yüngül sənaye və digər sahələrdə çalışan yerli sahibkarlara lazımi şəraitin yaradılması, infrastrukturun qurulması üçün hazırlıq işləri görülür.

[8] Mənbə: Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

Bununla yanaşı, son illərdə güclü müdafiə sənayesinin qurulması üçün ölkənin maşınqayırma potensialından istifadə edilməklə, 50-ə yaxın yeni istehsal sahəsi yaradılmışdır.[9]

Azərbaycanda ağır sənaye və maşınqayırma sahəsinin gələcəkdə də inkişafı üçün münbit şərait mövcuddur. İxtisaslı kadr potensialı, yenilənən infrastruktur, işləyən institutlar və yaxşılaşan biznes mühiti sahənin gələcəyinin əsas təminatıdır. Ölkədə sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə 2016-cı ildə qəbul edimiş sənədlər və görülmüş tədbirlər sənaye sahəsinə investisiyaların cəlb olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, metallurgiya, maşınqayırma, kimya sənayesi sahələrinə investisiya yatıraraq yeni istehsal obyektləri quran fiziki və hüquqi şəxslər geniş vergi və gömrük güzəştlərindən faydalana bilərlər. Qeyd olunan tədbirlər ölkənin ağır sənaye və maşınqayırma sektorunun inkişafına əhəmiyyətli təsir edəcəkdir. Ağır sənaye və maşınqayırmanın dayanıqlı inkişafını təmin etmək üçün bundan sonra da metallurgiya və neft-kimya sahələri baza məhsullarının təchizatçıları olaraq diqqətdə saxlanılacaq, maşınqayırma kompleksində yeni, əlavə dəyəri yüksək olan məhsulların mənimsənilməsi və keyfiyyət standartlarının yaxşılaşdırılması məqsədilə tədbirlər görüləcəkdir.

[9] Mənbə: “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı”

3.2. Ağır sənaye və maşınqayırma sektorunun GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
• sənaye bazasının və ənənələrin mövcud olması; • işçi heyətin texniki bacarıqlarının olması; • mədən sənayesi və metallurgiya üçün xammal bazasının mövcud olması; • əməkhaqlarının orta rentabelliliyi təmin edən səviyyədə olması.	• aşağı texniki heyətin az olması; • əmək məhsuldarlığının yüksək olmaması; • maliyyə çatışmazlığı, avadanlıqların köhnə olması; • marketinq, satış, paylama xidmətlərinin aşağı səviyyədə olması; • müəssisələrdə müasir biznes modelinin qurulmaması; • məhsul keyfiyyətinin beynəlxalq standartlara uyğun olmaması; • innovativ fəaliyyətlərin az olması.
İmkanlar	**Təhlükələr**
• ağır sənaye və maşınqayırma sektoruna dövlət dəstəyinin olması; • gənclərin sayının çox olması; • böyük regional bazarlara yaxınlığın olması; • biznes fəaliyyəti üçün ümumi infrastrukturun mövcudluğu; • biznes fəaliyyəti üçün güzəştlərin mövcudluğu.	• xarici maliyyə bazarlarına çıxış ilə bağlı çətinliklərin olması; • ölkənin dünya sənayesində gedən proseslərdən və yeni tələblərdən geridə qalması; • ətraf mühitin qorunması ilə bağlı artan tələblərin olması; • idxal məhsulları ilə rəqabətin güclü olması; • idxal olunan xammaldan asılılıq və ölkədə mövcud olmayan xammala idxal rüsumlarının tətbiqi.

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

2020-ci ilədək ağır sənaye və maşınqayırma sektoruna strateji baxış aşağı və orta dəyər məhsulları seqmentində ağır sənaye və maşınqayırma müəssisələrinin daxili iri istehlakçıların ehtiyaclarının daha böyük hissəsini ödəmələrinə nail olmaq, regional bazarda Azərbaycan məhsullarının payını artırmaqdır.

Strateji baxışın şərhi

Bu Strateji Yol Xəritəsinin məqsədləri üçün aşağıdakı sahələr ağır sənaye və maşınqayırma sektorunda prioritet kimi götürüləcəkdir: mədənçıxarma (neft-qaz sektoru istisna olmaqla), metallurgiya, bəzi tikinti materialları (məsələn, sement) istehsalı, neft-qaz və kənd təsərrüfatı maşınqayırması kompleksi, elektrik avadanlıqlarının istehsalı, maşınqayırma sektorunda xidmət müəssisələrinin fəaliyyətinin inkişafı.

Strateji Yol Xəritəsinin icrası nəticəsində sənayenin strukturu təkmilləşdiriləcək, qeyri-neft sənayesi iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevriləcək, ağır sənaye və maşınqayırmanın sənayedə və məşğulluqda payı artacaq, ümumi iqtisadi potensial 2020-ci ildən sonrakı dövr üçün nəzərdə tutulmuş məqsədlərin reallaşdırılması üçün hazır vəziyyətə gətiriləcək, yəni mövcud resurslardan optimal istifadəyə və müəssisələrdə səmərəli istehsal metodlarının tətbiqinə başlanacaqdır. Müəssisələrin rəqabət qabiliyyətinə təsir edən amillər (məsələn, standartlar, texniki tənzimlənmə, kadr potensialı, innovasiyaların təşviqi, əqli mülkiyyət və s.) üzrə ciddi irəliləyiş əldə olunacaq, onlar ənənəvi məhsul bazarında yerli iri sifarişçilərin ehtiyaclarını qarşılayacaqdır.

Strateji Yol Xəritəsinin icrasının 2020-ci ildə real ÜDM-də 1 milyard 560 milyon manat artıma, sənayedə 7700 daimi yeni iş yerinin yaradılmasına səbəb olacağı proqnozlaşdırılır.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış aşağı və orta dəyər məhsulları seqmentinin əksər hissəsində dəyər zəncirinin yerli imkanlar hesabına formalaşdırılması, ölkə müəssisələrinin regional baxımdan tam rəqabətqabiliyyətli vəziyyətə gətirilməsi və Azərbaycan Respublikasının regionun ağır sənaye və maşınqayırma mərkəzinə çevrilməsidir.

Uzunmüddətli baxışın şərhi

Ortamüddətli perspektivdə ağır sənaye və maşınqayırma sənayesində nəzərdə tutulan tərəqqiyə nail olmaq üçün 2025-ci ilədək sənaye sahəsində aktivlərin və təbii resursların tam şəkildə istismarı təmin ediləcək, müəssisələrdə səmərəli iş təcrübəsinin tətbiqi tam həcmdə həyata keçiriləcəkdir. Dəyər zəncirinin bütün mərhələlərində məhsul istehsalında boşluqların aradan qaldırılması ölkənin təbii sərvətlərindən səmərəli istifadə üçün başlıca amil olacaqdır. Azərbaycanda fəaliyyət göstərən müəssisələr səmərəlilik nöqteyi-nəzərindən qonşu ölkələr üçün model müəssisə kimi çıxış edəcəkdir.

Səmərəli iş təcrübələrinin və bacarıqların tətbiqi sahəsində 2025-ci ilədək planlaşdırılan hədəflərə nail olmaqla, ölkədə ortamüddətli perspektivdə təlim mərkəzlərinin və peşə təhsili müəssisələrinin sənaye müəssisələri ilə əlaqələndirilmiş fəaliyyəti təmin ediləcəkdir.

İdxaldan asılılıq ciddi şəkildə azaldılacaq, dəyər zəncirinin aşağı və orta dəyər gətirən hissələrində tələbat yerli məhsullar hesabına ödəniləcəkdir. Eyni zamanda, 2025-ci ilə qədər dəyər zəncirinin daha yüksək gəlir gətirən hissələrində bəzi seçilmiş mallara tələbatın yerli məhsullar hesabına tam ödənilməsi məqsəd kimi müəyyən edilmişdir. Bu məqsədlə, yüksək dəyər məhsullarının fokus qrupları müəyyənləşdiriləcək və müvafiq istiqamətdə yerli istehsal gücləri yaradılacaqdır. Bundan başqa, regional tələbatın yüksək olduğu maşın və avadanlıq komponentlərinin istehsalına şərait yaradılacaqdır. Azərbaycan ağır sənaye və maşınqayırma sahəsinin dəyər zəncirində, xüsusilə də neft-qaz sektorunda iştirakını təmin etməklə regional istehsalçıya çevriləcəkdir. Yerli müəssisələr daxili və regional bazarda maliyyə baxımından gücləndikcə və təcrübə topladıqca, 2025-ci ildən sonrakı dövrdə həmin məhsulların digər regional bazarlara ixracı imkanlarını əldə edəcəklər. Müxtəlif stimullaşdırıcı mexanizmlər tətbiq edilməklə, 2025-ci ilə qədər investisiya üçün daha əlverişli mühitin yaradılmasına nail olunacaqdır. Əsas prioritet özəl sektorun sənayedə iştirakının artırılması olacaqdır.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış Azərbaycanın ağır sənaye və maşınqayırma müəssisələrinin qlobal dəyər zəncirinin tərkib hissəsinə çevrilərək yüksək dəyər məhsulları seqmentində məşhur brendlərin istehsalında iştirak etməsinə və Azərbaycandan qonşu ölkələrə texniki bilik, "nou-hau", səmərəli istehsal və idarəetmə metodları ixracına nail olmaqdır.

Hədəf baxışın şərhi

Uzunmüddətli perspektivdə Cənubi Qafqaz regionunda dəyər zəncirinin ən yüksək seqmentlərində çalışan şirkətlər Azərbaycanda fəaliyyət göstərəcəklər.

Bu məqsədə nail olmaq üçün xarici investisiyaların dəstəklənməsi ilə yanaşı, sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə zəruri maliyyə və texnologiya dəstəyinin göstərilməsi siyasəti davam etdiriləcəkdir. Qlobal dəyər zəncirində iştirak üçün ağır sənaye və maşınqayırma sektoruna investisiyaların stimullaşdırılmasının dörd istiqaməti müəyyənləşdiriləcəkdir: kapital və digər maliyyə stimulları veriləcək, sənaye şirkətlərinin nizamnamə kapitalına vençur investisiyalar cəlb ediləcək, yerli müəssisələr rəqabətli qiymətlərlə əsas materiallarla təmin ediləcək, müxtəlif vergi güzəştləri tətbiq ediləcəkdir.

Yüksək gəlir gətirən sahələrə investisiya qoyuluşu nəticəsində uzunmüddətli perspektivdə resurstutumlu əmtəə istehsalından innovativ yüksək texnologiyalar əsasında hazırlanan məhsul istehsalına keçid təmin olunacaqdır.

Yuxarıda qeyd edilən uzunmüddətli məqsədlərin dayanıqlılığı üçün yüksəkixtisaslı işçi qüvvəsinin hazırlanması təmin ediləcəkdir. Qonşu ölkələrə bilik və bacarıqlar ixrac ediləcək və Azərbaycan yüksəksəviyyəli peşə təhsili müəssisələrinə malik region ölkəsinə çevriləcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Ağır sənaye və maşınqayırma sektoru üzrə bu Strateji Yol Xəritəsində müəyyən edilmiş doqquz prioritetin həyata keçirilməsi nəticəsində:

- Azərbaycanın real ÜDM-i 2020-ci ildə 1 milyard 560 milyon manat artacaq;
- sənayedə 7700 daimi yeni iş yeri yaradılacaqdır.

Bu dövrdə dəyər zənciri boyu ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün ağır sənaye və maşınqayırma sahəsi iqtisadiyyatın təməl sütunlarından birinə çevriləcəkdir. 2020-ci ilədək bu məqsədlərə nail olmaq üçün nəzərdə tutulmuş ilkin aralıq hədəflər aşağıdakı kimi müəyyən edilmişdir:

- ağır sənaye sahəsində əmək məhsuldarlığının 20 faizədək artırılması;
- məhsul istehsalında zay məhsul istehsalının 17 faiz azaldılması;
- 2020-ci ilədək fəaliyyət göstərməyən ən azı 5 müəssisənin işə salınması və rəqabət qabiliyyəti zəif olan 10 müəssisənin istehsal yönümünün dəyişdirilməsinə nail olunması;
- yeni dəmir filizi çıxarma və polad emalı zavodunun tikilməsi;
- ağır sənaye üzrə yerli məhsulların keyfiyyətinin idxal edilən məhsulların keyfiyyətindən əsaslı şəkildə fərqlənmədiyi hallarda cari idxalın 20 faizinin yerli istehsal ilə əvəz edilməsi;
- kənd təsərrüfatı avadanlıqlarının istehsalı üçün idxal olunan hissələrin 65 faiz azaldılması;
- qazma avadanlıqlarının istehsalı üçün idxal olunan hissələrin ümumi bazardakı payının 45 faizə qədər azaldılması.

6. STRATEJİ MƏQSƏDLƏR

- Sənaye strukturunun təkmilləşdirilməsi, ağır sənaye və maşınqayırma sektorunun potensialının genişləndirilməsi;
- əhalinin iqtisadi rifah halının qeyri-neft sənaye sahələrində məşğulluğun artırılması hesabına gücləndirilməsi;
- mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi;
- maşınqayırma məhsullarının idxal payının azaldılması və ixrac edilən məhsulların həcminin artırılması ilə ölkənin tədiyə balansının yaxşılaşdırılması;
- ağır sənaye və maşınqayırmada, mövcud sahələrlə yanaşı, yeni və əlavə dəyəri daha yüksək olan istehsal istiqamətlərinin yaradılması;
- istehsal olunan məhsulların dəyər zəncirində yerli komponentlərin payının artırılması;
- ağır sənaye və maşınqayırma sahəsində yerli və xarici investisiyaların cəlb edilməsi, yeni maliyyələşmə mexanizmlərinin tətbiqi;
- beynəlxalq əməkdaşlığın gücləndirilməsi, beynəlxalq standart və prosedurların sənayedə daha geniş tətbiqi;
- qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi, yerli müəssisələrdə innovativ fəaliyyətin dəstəklənməsi.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. Mövcud aktivlərin optimallaşdırılması

Mövcud aktivlərin optimallaşdırılması məqsədilə aşağıdakı istiqamətlərə diqqət yönəldiləcəkdir: sektorun məhsuldarlığının və səmərəliliyinin artırılması; enerji istehlakında optimal səmərəliliyə nail olunması; aktivlərin və mövcud potensialın mərkəzləşdirilmiş reyestrinin yaradılması və bu reyestrdən maksimum istifadənin təmin edilməsi.

7.1.1. Prioritet 1.1. Sektorda məhsuldarlığın və səmərəliliyin artırılması


Əsaslandırma

Azərbaycanın mövcud ağır sənaye və maşınqayırma aktivlərinin məhsuldarlığının artırılması üçün geniş imkanlar vardır. Əksər dünya ölkələrinin ağır sənaye və maşınqayırma müəssisələri istehsal prosesində səmərəliliyi və digər əsas göstəriciləri yaxşılaşdırmaq məqsədilə az xərc tələb edən təcrübələrin tətbiqinə üstünlük verir. Qlobal təcrübə göstərir ki, minimum xərc tələb edən təcrübələrin tətbiqi məhsuldarlığa birbaşa təsir edərək 20 faiz artıma imkan verir.

Hazırda, aşağıdakı amillərə görə sənaye istehsalı digər oxşar ölkələrin (istər region daxilində, istərsə də regiondan kənarda) standartları ilə müqayisədə geridə qalır: sənayedə dövlətin mülkiyyət payının nisbətən yüksək olması, tələb olunan kreditlərə çıxış imkanlarının aşağı olması, yeni maşın və avadanlıqlardan, müasir texnologiyalardan daha geniş istifadəyə ehtiyacın olması.

Azərbaycanda ağır sənaye və maşınqayırma aktivləri üzərində dövlətin mülkiyyət payı digər ölkələrlə müqayisədə yüksəkdir (şəkil 2). Beynəlxalq təcrübəyə əsasən, dövlətin mülkiyyət payı yüksək olduqda, ixtisaslı kadrları artırmaq, yeni texnologiyalara investisiya yatırmaq, eləcə də idarəçilik və iş proseslərini təkmilləşdirmək üçün imkanlar məhdudlaşır, nəticə etibarilə istehsal olunan məhsul və xidmətlərin rəqabət qabiliyyəti aşağı düşür. Dövlət mülkiyyətində olan təsərrüfat subyektlərində məhsuldarlığın aşağı olması məhsulların rəqabətədavamlılığını əngəlləyir, təşkilati və kommersiya hədəflərinin reallaşdırılmasını çətinləşdirir və dəyər zəncirinin son mərhələsində (“daunstrim”) – son məhsulun hazırlanması və satış məqsədilə təqdim olunması mərhələsində təsərrüfat subyektlərinin xərclərinin artmasına səbəb olur. Bundan başqa, dövlət mülkiyyətində olan müəssisələrlə müqayisədə özəl təsərrüfat subyektlərində bürokratik işləmlər daha aşağı səviyyədə olduğundan, özəlləşdirmə şirkətlərə müasir dövrdə xüsusilə zəruri olan çeviklik və sürətlilik gətirir.


Şəkil 2. Azərbaycanda müəyyən sektorlarda dövlət mülkiyyətinin səviyyəsi *(faizlə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2014-cü ilə olan məlumatlar)

Dünya İqtisadi Forumunun 2015–2016-cı illər üzrə "Qlobal Rəqabətlilik Hesabatı"na əsasən, Azərbaycan biznes kreditlərinə çıxış imkanlarına görə 131 ölkə arasında 79-cu yerdə qərar tutmuşdur (şəkil 3). Azərbaycanda kredit və maliyyə mənbələrinə çıxışın asanlaşdırılması ağır sənaye və maşınqayırma müəssisələrində aşağıdakı vasitələrin tətbiqi ilə məhsuldarlığın artırılmasına səbəb ola bilər: xərcləri azaltmaq məqsədilə istehsalatda istifadə olunan texnologiya və infrastrukturun yeniləri ilə əvəzlənməsi, müvafiq ixtisas və bacarıqlara malik işçilərin işə götürülməsi, işdə qəbulu və inkişafının təmin edilməsi, daha yüksək əlavə dəyər gətirən məhsulların istehsalına investisiya qoyulması və marketinq bacarıqlarının əldə olunması, bazara çıxış, bacarıqların ötürülməsi, səylərin birləşdirilməsi.


Şəkil 3. Bir sıra dünya ölkələrinin biznes kreditlərinə çıxış imkanları üzrə reytinqi *(131 ölkə üzrə)*



Mənbə: Dünya İqtisadi Forumu, Qlobal Rəqabətlilik Hesabatı

Bundan əlavə, qeyd edilən hesabata görə, Azərbaycanda ümumi texnoloji hazırlıq səviyyəsi davamlı şəkildə artmaqdadır (şəkil 4). Bununla belə, gələcəkdə texnoloji bacarıqlar səviyyəsinin təmin edilməsi üçün xarici investisiyaların cəlb olunması və beynəlxalq bazarlarda ölkənin biznes imicinin formalaşdırılması istiqamətində tədbirlər gücləndirilməlidir.

Şəkil 4. Azərbaycanda şirkətlər tərəfindən texnologiyaların mənimsənilməsi səviyyəsi



Mənbə: Dünya İqtisadi Forumu, Qlobal Rəqabətlilik Hesabatı

Qənaətli metodlar haqqında məlumatlılıq və belə metodların tətbiqi Azərbaycanın ağır sənaye və maşınqayırma sektorunda məhsuldarlığın xeyli artmasına kömək edə bilər. Aparılmış təhlillər nəticəsində ağır sənaye və maşınqayırma sektorunda səmərəli metodların tətbiqinə dair məlumatlılıq səviyyəsinin genişləndirilməsi məqsədəmüvafiq hesab olunur. Qənaətli iş metodları şirkətləri təkmilləşdirmələr aparmaq üçün imkanlar axtarmağa həvəsləndirir. Məsələn, qabaqcıl ölkələrin təcrübəsində istehsal prosesində çatışmayan cəhətlərin sxemli təsviri və avadanlıqların yeniləri ilə əvəzlənməsi müddətinin mümkün qədər azaldılması üçün yeni texnologiyanın tətbiqi ("SMED" metodu) təhlilinin aparılması geniş yayılmışdır.

Eyni zamanda, müəssisələrdə mövcud iş təcrübəsinin təhlili istehsal prosesində şəffaflıq prinsipinin də daha geniş tətbiq olunmasını zəruri edir. Ümumiyyətlə, qeyd olunmalıdır ki, ölkə üzrə şirkətlər arasında əlaqələndirmənin də səviyyəsi artırılmalıdır.

Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, avadanlığın məhsuldarlığının, eləcə də itkilərin baş verdiyi sahələrin qiymətləndirilməsi, texniki qulluğa sərf olunan birbaşa

vaxtın izlənilməsi, habelə maşın və avadanlıqların qeyri-işlək vəziyyətdə qalma müddətinin azaldılması zəruridir.

Aparılmış ilkin təhlillər göstərir ki, qısa müddətdə Azərbaycanda sənayedə idarəçilik sistemlərinin, xüsusilə davamlı inkişaf və ixtisaslı kadrların cəlb edilməsi məsələlərinin təkmilləşdirilməsi üçün böyük potensial vardır.

Görüləcək tədbirlər

Tədbir 1.1.1: Qənaətli istehsal metodları üzrə təhlil aparılması

Beynəlxalq məsləhətçilər cəlb edilməklə qənaətli istehsal metodları təhlil ediləcək, ən yaxşı beynəlxalq nümunələrin öyrənilməsi üçün təlim səfərləri təşkil ediləcək, müvafiq xarici tərəfdaşlarla ikitərəfli işgüzar əlaqələr qurulacaq, aidiyyəti dövlət orqanlarının və pilot sənaye müəssisələrinin nümayəndələri ilə birgə qənaətli istehsal metodları üzrə müzakirələrin aparılması məqsədilə seminarlar keçiriləcək, mütəmadi qaydada analitik nəşrlər və təşviq sənədləri çap ediləcəkdir. Qənaətli istehsal metodlarının tətbiqini stimullaşdırmaq üçün mövcud normativ sənədlərə və qanunvericiliyə yenidən baxılacaqdır.

Tədbir 1.1.2: Özəl investisiya əsasında model müəssisənin (zavodun) yaradılmasının dəstəklənməsi

Qənaətli istehsal metodlarının əyani təbliği üçün beynəlxalq idarəetmə və keyfiyyətə nəzarət sistemlərini mənimsəməklə, seçilmiş pilot sahədə model müəssisənin yaradılması dəstəklənəcəkdir. Ağır sənaye və maşınqayırma sektorunda fəaliyyət göstərən müəssisələrin model müəssisəyə çıxışı, istehsal proseslərində əlaqələndirmə təmin ediləcəkdir. Müəssisə yaradılarkən beynəlxalq model müəssisə nümunələri rəhbər tutulacaq, müəssisənin hansı sektorda fəaliyyət göstərəcəyi dəqiqləşdiriləcəkdir. Müəssisə yaradıldıqdan və istismara verildikdən sonra aidiyyəti qurum tərəfindən davamlı monitorinq həyata keçiriləcəkdir.

Tədbir 1.1.3: Sənaye müəssisələrinin kadr təminatının yaxşılaşdırılması

Sənaye müəssisələrinin və aidiyyəti dövlət orqanlarının iştirakı ilə yerli bazarda ehtiyaclara uyğun təhsil proqramları (kurikulumlar), ixtisaslar üzrə peşə təhsili proqramları hazırlanacaqdır. Peşə təhsili müəssisələri və ixtisaslaşmış təlim mərkəzlərinin sənaye müəssisələrinin ehtiyaclarını tam təmin etmələri üçün maddi-texniki bazalarının təkmilləşdirilməsi və bazar subyektləri arasında əlaqələndirmənin yaxşılaşdırılması istiqamətində səylər davam etdiriləcək, beynəlxalq təcrübədə ikili peşə təhsili sistemi *("dual study")* kimi tanınan, xüsusilə Almaniyada geniş yayılmış təhsil-iş metodunun tətbiqi imkanlarına baxılacaqdır.

Tədbir 1.1.4: Elmi tədqiqat təşkilatları ilə müəssisələr arasında əlaqələrin gücləndirilməsi

Müəssisələrdə elmi-texniki tədqiqatları, araşdırmaları və innovativ fəaliyyəti dəstəkləmək üçün milli innovasiya sisteminin yaradılması və milli tədqiqatların praktiki tətbiqi istiqamətində işlər davam etdiriləcək, uğurları ilə seçilən müəssisələrə innovasiya qrantlarının verilməsi məsələsi nəzərdən keçiriləcəkdir.

Tədbir 1.1.5: Sahəvi assosiasiyaların yaradılmasının dəstəklənməsi və müntəzəm fəaliyyətinin təmin edilməsi

Ağır sənaye və maşınqayırmada müəssisələr arasında əlaqələndirmənin gücləndirilməsi, ortaq problemlərin daha səmərəli müəyyənləşdirilməsi və həlli yollarının

hazırlanması, resurslara qənaət, xarici bazarlarda qarşılıqlı yardım, birgə fəaliyyət və digər ümumi işlərin görülməsi üçün sahəvi assosiasiyaların yaradılması dəstəklənəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Qənaətli istehsal metodlarının tətbiqi ilə sənayedə optimal istehsal təcrübəsinin həyata keçirilməsi vüsət alacaq, əmək məhsuldarlığı əsas istehsalat göstəricilərindən birinə çevrilərək diqqət mərkəzində olacaqdır. Bu sahədə beynəlxalq əməkdaşlıq güclənəcək və ən yaxşı nümunələrdən istifadə ediləcəkdir.

Bu prioritetin tətbiqi nəticəsində 2020-ci ildə real ÜDM-in 250 milyon manat artacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- ağır sənaye və maşınqayırma sahəsində əmək məhsuldarlığının müvafiq sahələrdə 20 faizədək artırılması;
- məhsul istehsalında zay məhsul istehsalının 17 faiz azaldılması.

Tələb edilən investisiya

Prioritet çərçivəsində həyata keçiriləcək tədbirlər (məsələn, təlimlərin və xarici ölkələrə səfərlərin təşkili, beynəlxalq məsləhətçi şirkətlərin cəlb olunması) ilə bağlı investisiya tələbinin 20 milyon manat həcmində olacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

Prioritet çərçivəsində əsas risklərə müəssisələrin qeyd olunan tədbirlərin iş prosesində tətbiqinə lazımi səviyyədə istək göstərməməsi, təlim və konsaltinq xidmətləri üçün vəsait çatışmazlığı aiddir.

7.1.2. Prioritet 1.2. Enerjidən istifadədə optimal səmərəliliyə nail olunması

Əsaslandırma

Regionda ən rəqabətədavamlı enerji qiymətlərinin Azərbaycanda olması ağır sənaye və maşınqayırma sektoru üçün geniş imkanlar açır. Əlavə investisiya qoyuluşuna ehtiyac yaratmadan Azərbaycanın enerji sektorunun idarə edilməsi üçün ən uyğun metod pik saatlarda enerjinin düzgün idarə olunmasının və proqnozlaşdırılmasının təmin edilməsidir. Mövcud vəziyyətin təhlili göstərir ki, enerji istehsalının pik və qeyri-pik saatlar üzrə idarə edilməsi prosesi optimal səviyyədə deyildir.

2015-ci ildə Azərbaycanda sənaye sektorunda (enerji təchizatı birbaşa 35 və 110 kilovoltluq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kilovat-saatdan az olmayan kimya və alüminium sənayesi müəssisələrində, dağ-mədən filizi əsasında poladəritmə müəssisələrində) elektrik enerjisinin qiyməti bir kilovat-saat üçün 3,1 qəpik təşkil etmişdir. Digər region ölkələrində bu göstərici orta hesabla 2-3 dəfə yüksəkdir. Azərbaycanın ağır sənaye və maşınqayırma sektorunun elektrik enerjisindən intensiv istifadə olunan müəssisələrində enerji qiymətlərinin strukturu ilə bağlı bir sıra nəzərə alınmalı amillər vardır. Tariflər müəssisənin istehsal qabiliyyətinin bölüşdürülməsi əsasında müəyyən edildikdə, daha ədalətli qiymətlərin formalaşması mümkün olur. Çünki qiymət həmin müəssisənin işləməsi üçün tələb olunan ümumi istehsal gücü

əsasında müəyyən edilir. Qeyd edilməlidir ki, tariflərə yenidən baxılmasında məqsəd qiymətləri artırmaq deyil, enerji istehsalçısı və istehlakçılarının qeyri-pik saatlarda yaranan imkanlardan daha səmərəli istifadə etməsi, pik və qeyri-pik saatlar üzrə çevik və diferensiallaşdırılmış qiymətlərin tətbiqi imkanlarını araşdırmaqdır.

Bununla əlaqədar, zavodlarda pik saatlarda elektrik enerjisinin idarə olunması metodu tətbiq edilə bilər. Bu metoda əsasən, məsələn, zavodlar əlavə endirimlər qarşılığında istehsal dövrünü pik saatlardan qeyri-pik saatlara dəyişə bilərlər. İşin bu formada təşkili qarşılıqlı fayda gətirəcəkdir ki, bu da elektrik enerjisi infrastrukturuna sərf olunan maliyyə xərclərinin xeyli azaldılmasına imkan verəcəkdir.

Beynəlxalq təcrübədə sənaye müəssisələri ilə elektrik təchizatı müəssisələri arasında istehsal gücünün birgə planlaşdırılması xərclərin azaldılmasına imkan verir. Bundan başqa, istehsal gücünün birgə planlaşdırılması zamanı istehsal qabiliyyətinin bölüşdürülməsi prinsipi tətbiq edilir ki, bu da enerjidən istifadə tariflərində az artıma səbəb olur.

Görüləcək tədbirlər

Tədbir 1.2.1: Enerji balansının optimallaşdırılması, tələb və təklifin uzlaşdırılması

Enerji bazarının əsas istehsalçı və istehlakçıları ilə birgə müzakirələr nəticəsində bu sahədə proqnozlaşdırma və planlaşdırma fəaliyyəti beynəlxalq təcrübə əsasında təkmilləşdiriləcək, mövcud tarif siyasətinin potensial inkişaf istiqamətləri müəyyənləşdiriləcək, o cümlədən pik və qeyri-pik saatlar üzrə diferensial yanaşmaların tətbiqi imkanlarına baxılacaqdır. Bununla yanaşı, enerji bazarında istehsalçı və istehlakçı müəssisələr arasında əlaqələndirmənin gücləndirilməsi, istehsal-istehlak potensiallarının əvvəlcədən birgə planlaşdırılması üçün dəstəkverici tədbirlər görüləcəkdir. Bu məqsədlə enerji istehsalçısı və istehlakçısı olan müəssisələr arasında fəaliyyətin əlaqələndirilməsi təşkil ediləcəkdir.

Tədbir 1.2.2: Qeyri-pik saatlardan istifadənin stimullaşdırılması

Sənaye müəssisələrini istehsal prosesində qeyri-pik saatlarda enerji istehlakına yönəltmək üçün müxtəlif güzəşt və stimullar üzrə təkliflər hazırlanacaqdır.

Tədbir 1.2.3: Strateji müəssisələr üçün güzəştli tariflərin müəyyənləşdirilməsi

Ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edən müəssisələrin siyahısı müəyyənləşdiriləcək və bu müəssisələr üzrə güzəştli tarif təklifləri hazırlanacaqdır.

Tədbir 1.2.4: Enerji istehlakçılarının enerjidən səmərəli istifadəyə yönləndirilməsi

Sənaye müəssisələri arasında enerjiqənaətli istehsal metodları təbliğ ediləcək, ən yaxşı beynəlxalq nümunələri əks etdirən çap məhsulları hazırlanacaq, bazar iştirakçıları ilə bu mövzuda sektorlar üzrə mütəmadi görüşlər və təlimlər keçiriləcəkdir.

Tədbir 1.2.5: Ağır sənaye, xüsusilə metallurgiya müəssisələrinin enerji təminatının fərqli, aşağı tariflərlə təmin edilməsi

Ağır sənaye, xüsusilə metallurgiya müəssisələrinin enerji təminatının fərqli, aşağı tariflərlə təmin edilməsi istiqamətində müvafiq tədbirlər həyata keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritet üzrə nəzərdə tutulan tədbirlər sənaye müəssisələrinin enerji istehlakı davranışlarına müsbət təsir edəcək, səmərəli istehlak metodlarının yayılmasına şərait yaradacaqdır. Lakin tədbirin icrasının ilkin dövründə istehlak olunan ümumi enerji səviyyəsində ciddi dəyişiklik gözlənilmir.

Əsas icra göstəriciləri:

- yeni enerji balansının hazırlanması;
- strateji müəssisələrin siyahısının hazırlanması;
- pik və qeyri-pik saatlar üzrə enerji istehlakının bərabər formada paylanılması;
- enerji istehsalçısı və istehlakçısı olan müəssisələrdən ibarət əlaqələndirmə qrupunun yaradılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün böyük həcmli maliyyə vəsaiti tələb edilmir.

Gözlənilən risklər

Prioritet çərçivəsində başlıca risklərə beynəlxalq enerji bazarlarında əsas xammal qiymətlərinin dəyişkənliyi, səmərəli enerji istehlakı metodlarının tətbiqində mövcud olan texniki çətinliklər, istehsalçı və istehlakçı müəssisələr arasında əlaqələndirmənin aşağı səviyyədə olması daxildir.

7.1.3. Prioritet 1.3. Aktivlərin və mövcud potensialın mərkəzi reyestrinin yaradılması

Əsaslandırma

Azərbaycanın ağır sənaye və maşınqayırma sahəsində təsərrüfat fəaliyyətinə tam həcmdə cəlb olunmayan aktivlərdən (müəssisələrdən) və təbii resurslardan maksimum istifadəni şərtləndirən birinci amil mərkəzləşdirilmiş reyestrin yaradılmasıdır. Hazırda bəzi aktivlərlə bağlı məlumatlar mövcud olsa da, ümumi məlumat sistemi mövcud deyildir.


Ağır sənaye və maşınqayırma sektoruna aid müəssisələrin böyük hissəsi köhnəlmiş avadanlıqlar və istehsal proseslərinin vaxtında yenilənməməsi səbəbindən beynəlxalq standartlara cavab vermir. Bu müəssisələrdə texnologiya və materiallara investisiya qoyuluşunun məhdud səviyyədə olması onların idxal malları ilə rəqabət imkanlarını zəiflətmişdir. Beləliklə, müəssisələrin gücü, mövcud aktivləri, məhsul portfeli, istehsal həcmi və tətbiq etdikləri texnologiyalar barədə mövcud məlumatlar təkmilləşdirilməlidir. Mərkəzləşdirilmiş reyestrin əsas üstünlüyü ölkədə mövcud potensial və istifadə edilməyən imkanlar barədə aydın təsəvvür formalaşdırmaqla, iqtisadi tənzimləmə qərarlarının səmərəliliyinin artırılmasına və ölkə iqtisadiyyatının inkişaf planlarının müəyyənləşdirilməsi zamanı bütün amillərin nəzərə alınmasına şərait yaratmaqdan ibarətdir.

Beynəlxalq təcrübəyə əsasən, aktivlərin sistemləşdirilməsinə və sonrakı istifadəsinə dair qərarların qəbulu rəqabətqabiliyyətlilik və tələb olunan investisiya tutumu meyarları nəzərə alınmaqla aparılır (şəkil 5). Canlandırma fəaliyyəti, ilk növbədə, rəqabət qabiliyyəti yüksək olan və az investisiya tələb edən müəssisələrə şamil ediləcəkdir. Rəqabət qabiliyyəti aşağı olan və ciddi investisiya tələb edən aktivlərin isə təyinatının dəyişdirilməsi imkanları nəzərdən keçiriləcəkdir.

Potensial qiymətləndirmə sahələrinə resursların mövcudluğu, yerli istehlakın

həcmi, əmək xərcləri, enerjidən istifadə xərcləri, eləcə də digər ölkələr ilə müqayisədə hədəf bazarlarda tətbiq olunan tariflər və razılaşmalar (məsələn, azad ticarət zonaları və idxal proteksionizmi) daxildir. Bundan başqa, potensial meyarlara canlandırma tədbirinin nəticəvermə müddəti, yerli istehlakın həcmi və miqyası, eləcə də regiondakı ölkələrin idxal və iqtisadi artım səviyyəsi də daxildir.

Şəkil 5. İstifadə olunmayan aktivlərin rəqabətlilik, tələbat və investisiya tələbi baxımından qiymətləndirilməsi



Görüləcək tədbirlər

Tədbir 1.3.1: Sənayedə istifadə olunmayan aktivlərin və təbii resursların mərkəzi reyestrinin yaradılması

Müxtəlif dövlət qurumlarının məlumat bazalarının təhlili və inteqrasiyası, obyektlərə yerində baxış, sorğu və müsahibələr, çarpaz (qarşılıqlı) yoxlamalar nəticəsində tam gücü ilə istifadə olunmayan aktivlərin və təbii resursların mərkəzi elektron reyestri yaradılacaqdır. Cavabdeh orqan reyestrin saxlanılmasını və mütəmadi yenilənməsini təmin edəcəkdir.

Tədbir 1.3.2: Mərkəzi reyestrə daxil olan aktivlərin və təbii resursların qiymətləndirilməsi

Yetərli səviyyədə istifadə olunmayan aktivlər rəqabətqabiliyyətlilik və investisiya ehtiyacları üzrə təhlil ediləcəkdir. Bu zaman yerli bazarın həcmi, yerli xammalın mövcudluğu, hədəf malların yerli və regional qiymətləri, tarif və gömrük rüsumları diqqətə alınacaqdır. İlkin mərhələdə yerli bazarlarda və region ölkələrinin bazarlarında rəqabət imkanları yüksək qiymətləndirilən aktivlər müəyyənləşdiriləcək, sanasiya tədbirlərinə tələb olunan investisiya həcmləri hesablanacaq, həmçinin ölkənin təbii

resurslar bazası (neft-qaz sektoru istisna olmaqla) təhlil edilərək, qara və əlvan metallurgiya, ağır maşınqayırma sahələri üçün istehsalın xammal tələbatının yerli xammal hesabına təminatı sahəsində mövcud olan, lakin istifadə edilməyən imkanlar yenidən qiymətləndiriləcəkdir.

Tədbir 1.3.3: Canlandırma fəaliyyətinin həyata keçirilməsi

Potensial rəqabət qabiliyyəti yüksək hesab edilən aktivlər (müəssisələr) üzrə texniki-iqtisadi və maliyyə əsaslandırmaları aparılaraq sektora və ümumi iqtisadiyyata təsirlər hesablanacaq, müəssisələrin yenidən işə salınması üçün özəlləşdirmə, borcların restrukturizasiyası, yenidən təşkilolunma, strateji investorun cəlb edilməsi, dövlət-özəl tərəfdaşlığı, xarici kapitalla birgə müəssisələrin yaradılması, təcrübəli beynəlxalq operatorun idarəetməsinə verilməsi və s. kimi müxtəlif vasitələrdən istifadə olunacaqdır:.

Tədbir 1.3.4: Aktivlərin təyinatının dəyişdirilməsi

Potensial rəqabət qabiliyyəti aşağı, tələb olunan investisiya həcmləri isə yüksək qiymətləndirilən aktivlərin (müəssisələrin) təyinatının dəyişdirilməsi və sonrakı istifadəsinə, həmçinin aktivlərin təyinatının dəyişdirilməsi mexanizminin sadələşdirilməsi və daha çevik olması üçün mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair müvafiq təkliflər hazırlanacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Mərkəzi reyestrin yaradılmasının iqtisadiyyata əsas təsiri resurların tam istifadə olunması üçün şəraitin yaradılmasından ibarət olacaqdır. Aktivlərin canlandırılması və təyinatının dəyişdirilməsi fəaliyyətinin 2020-ci ildə real ÜDM-i 45 milyon manat artıracağı və 2000-dən artıq iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- mərkəzi reyestr və əlaqələndirilmiş məlumat bazalarının fəaliyyətə başlaması;
- fəaliyyət göstərməyən ən azı 5 müəssisənin 2020-ci ilədək yenidən işə salınması;
- rəqabət qabiliyyəti zəif olan 10 müəssisənin istehsal yönümünün dəyişdirilməsi.

Tələb edilən investisiya

Canlandırma və təyinatın dəyişdirilməsi məqsədilə 2020-ci ilədək 280 milyon manat investisiya vəsaitinin tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Müxtəlif dövlət orqanlarının məlumat bazalarının texniki vəziyyətinin aşağı olması və məlumatların dolğun olmaması, canlandırma və təyinatın dəyişdirilməsi üçün tələb edilən maliyyə vəsaitinin çatışmazlığı əsas risk faktorlarındandır.

7.2. Strateji hədəf 2. Rəqabətədavamlı sektorun yaradılması

Ağır sənaye və maşınqayırma sektorunda vertikal inteqrasiya yanaşmasının tətbiqi gəlirlərin artırılmasından idxaldan asılılığın azaldılmasına qədər bir çox iqtisadi faydalarla nəticələnəcəkdir. Həm yerli tələbatın ödənilməsi, həm də regional baxımdan potensialı olan mal və xidmətlərin istehsalı diqqətdə saxlanılacaqdır.

7.2.1. Prioritet 2.1. Regional tələbat baxımından dəyər zəncirlərində iştirakın təmin olunması

Əsaslandırma


Hazırda beynəlxalq təmayüllərlə müqayisədə, Azərbaycanın ağır sənaye və maşınqayırma sahəsində mövcud olan imkanlarının reallaşdırılması üçün daha intensiv tədbirlərin həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir. Nəzərə alınmalıdır ki, qabaqcıl ölkələr artıq yeni "Sənaye 4.0" mərhələsinə daxil olmuşlar. Bu sahəyə investisiya qoyuluşunun daha da artırılması, texnoloji avadanlıq və istehsal proseslərinin yenilənməsi, əmək məhsuldarlığının artırılması, həmçinin ümumi satışda innovativ məhsulların payının beynəlxalq göstəricilər səviyyəsinə qaldırılması aktualdır.

Azərbaycanın ağır sənaye və maşınqayırma sahəsi regional dəyər zəncirlərində qismən iştirak etdiyinə görə, regional bazarlara ixrac həcmi yüksək deyildir. Ölkənin ilk növbədə dəyər zəncirinin hansı seqmentlərinə inteqrasiya edilməsini müəyyənləşdirərkən bazarın cəlbediciliyi, rəqabətədavamlılıq və rentabellilik kimi amillər rəhbər tutulmalıdır. Digər tərəfdən, ölkə sənayesinin mövcud potensialı, qeyd olunan malları qısa zamanda istehsal edəbilmə imkanları nəzərə alınmalıdır.

Dəyər zəncirində iştirak üçün regional tələb həcmi və rəqabətqabiliyyətliliyi yüksək olan sektorlar üzərində mərkəzləşmə, beynəlxalq təcrübəyə əsasən, daha münasib strategiya hesab edilir. Əlavə dəyəri yüksək hesab edilən premium mallara ölkənin yerləşdiyi region nöqteyi-nəzərindən xüsusi növ polad, maşın və avtomobil, ehtiyat hissələr, yarımfabrikatlar, nəqliyyat avadanlıqları, kompressorlar, nasos, kran, klapan hissələri kimi malları aid etmək mümkündür. Bu məhsulların böyük həcmdə keyfiyyətli istehsalı üçün ölkə sənayesində mövcud potensial qiymətləndiriləcək və müvafiq tədbirlər nəzərdən keçiriləcəkdir

Azərbaycanda regional tələbin və rəqabətədavamlılıq səviyyəsinin yüksək olduğu sektorlar qlobal dəyər zəncirində regiona fokuslaşmaqla iştirak etmək imkanına malikdir. Rəqabətədavamlı məhsul istehsal etmək üçün diqqət, ilk növbədə, çox tələb olunan spesifik məhsulların (məsələn, xüsusi növ polad) və spesifik yarımfabrikatların (məsələn, maşınqayırma və avtomobil hissələrinin) dəyər zəncirində iştirakına yönəldilə bilər. Nəqliyyat maşınqayırması və digər ağır sənaye məhsullarına regionda (məsələn, Rusiyada, Türkiyədə, Gürcüstanda, Qazaxıstanda və s.) böyük tələbat vardır.

Şəkil 6: Regional tələbat yanaşmasına əsasən, qlobal tədqiqat və inkişafyönümlü məhsulların dəyər zəncirindəki iştirakı *(milyard ABŞ dolları ilə)*



1. *Ağır sənaye və maşınqayırma sektorları üzrə Türkiyə, Rusiya, Gürcüstan, Azərbaycan və Qazaxıstanın cəmi idxalı (2014)*
2. *Regionda ağır sənaye və maşınqayırma üzrə ümumi idxalın cəmi +80 faiz təşkil edən 100 məhsul*
3. *Bu barədə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə daha ətraflı bəhs edilmişdir.*

Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası

Əlbəttə ki, qlobal elmi tədqiqat məhsullarının dəyər zəncirində iştirak üçün də imkanlar vardır (şəkil 6). Burada əsas prioritet Azərbaycanın qlobal dəyər zəncirinə inteqrasiyasının təmin edilməsi və bu zaman əsas diqqətin yarımfabrikatların və hazır məhsulların, o cümlədən nəqliyyat vasitələri və onların ehtiyat hissələrinin istehsalına yönəldilməsidir. Eyni zamanda, region ölkələrinə ixrac məqsədləri üçün yerli istehsalın miqyası genişləndirilə bilər ki, buna da, ilk növbədə, güclü yerli təsərrüfat subyektlərinin formalaşdırılması vasitəsilə başlana bilər. Uzunmüddətli perspektivdə qlobal miqyaslı elmi tədqiqat məhsullarının istehsalı həyata keçirilə bilər.

Regiona fokuslaşmaqla qlobal dəyər zəncirində iştirak yüksək gəlirgətirmə potensialına malik məhsulların ixrac olunduğu bazarların davamlı şəkildə nəzərdən keçirilməsi və istehsal mərkəzləri yarada biləcək birbaşa xarici investisiyaların cəlb edilməsi yolu ilə təmin oluna bilər. Bu proses ağır sənaye və maşınqayırma sektorunda artıq qlobal dəyər zəncirinə inteqrasiya olunmuş şirkətlərin stimullaşdırılması yolu ilə dəstəklənə bilər (şəkil 6).

Görüləcək tədbirlər

Tədbir 2.1.1: Regional bazarlara ixrac perspektivi olan malların siyahısının hazırlanması və təhlillər aparılması

Daxili imkanların və regional bazarın təhlili nəticəsində, əsaslandırmada sözügedən mallar daxil olmaqla, ölkədə istehsal edilə biləcək, əlavə dəyər zəncirində

nisbətən yüksək yer tutan və regional rəqabət qabiliyyətinə malik malların ümumi siyahısı hazırlanacaqdır. Hazırlanmış siyahı üzrə Azərbaycanda rəqabətli şəkildə istehsal edilə biləcək məhsullar (məsələn, yerli xammal hesabına və yüksək texnologiya tələb etmədən istehsal oluna bilən məhsullar) müəyyənləşdiriləcəkdir. Bu növ məhsullara nümunə kimi boruları, klapanları, nasosları və kompressorları göstərmək olar. Bundan əlavə, regiondakı böyük topdansatış şirkətləri və onların şərtləri (məsələn, nəqliyyat, keyfiyyət tələbləri, qiymətlər və s.) nəzərə alınmaqla, məhsulların ölkə daxilində istehsalı potensialının daha yaxşı müəyyənləşdirilməsi təmin ediləcəkdir.

Növbəti mərhələdə texniki-iqtisadi və maliyyə əsaslandırmalarının aparılması nəticəsində ümumi siyahıdan istehsalı qısa zaman ərzində mümkün olan və nisbətən az investisiya tələb edən məhsul istiqamətləri seçiləcək, rentabellilik və investisiya ehtiyacları üzrə cədvəllər hazırlanacaqdır.

Tədbir 2.1.2: Seçilmiş sahələrə investisiyaların cəlb olunması

Seçilmiş yerli malların istehsalı üçün tələb olunan investisiya və maliyyələşmə vasitələrinin yerli və xarici investorlar tərəfindən təmin olunması müvafiq qurum tərəfindən əlaqələndiriləcək, investorlar üçün təklif ediləcək stimullaşdırıcı şərtlər və digər dövlət dəstəyi tədbirləri, o cümlədən güzəştli kredit və nizamnamə kapitalında iştirak variantları nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Qeyd olunan tədbirlərin icrası nəticəsində 2020-ci ildə real ÜDM-in 15 milyon manat artacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi:

- ağır sənaye üzrə yerli məhsulların keyfiyyətinin idxal edilən məhsulların keyfiyyətindən əsaslı şəkildə fərqlənmədiyi hallarda cari idxalın 20 faizinin yerli istehsal ilə əvəz edilməsi.

Tələb edilən investisiya

Bu tədbirlərin icrası üçün hər hansı investisiya qoyuluşu tələb olunmayacaqdır.

Gözlənilən risklər

Regional bazarlarda tələbatın dəyişməsi, seçilmiş mal qrupları üzrə regional qiymətlərdə dəyişikliklərin olması.

7.2.2. Prioritet 2.2. İdxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi


Əsaslandırma

Azərbaycanda yerli tələbata əsaslanan yanaşma işlənib hazırlanmaqla əsas diqqət yarımfabrikatların (aralıq məhsulların) və son istehlak məhsullarının istehsalına yönəldiləcəkdir. Statistik məlumatlara əsasən, 2014-cü ildə ağır sənaye və maşınqayırma məhsulları üzrə 4 milyard 300 milyon manat həcmində yerli tələbat idxal hesabına təmin edilmişdir. Daha ətraflı təhlil predmeti olacaq məhsullara aşağıdakıları misal göstərmək olar: qızıl, maşın hissələri, nasos və kompressorlar, borular üçün klapan və digər cihazlar, boru və borucuqlar, yayma məmulatları (prokatlar), elektrik maşın və avadanlıqları, onların hissələri (şəkil 7).

İdxalın yerli istehsalla əvəzlənməsi yerli rəqabətədavamlı şirkətlərə dəyər zəncirinə şaquli inteqrasiya üçün tələb olunan investisiya yatırımlarını həyata keçirə bilmələrindən ötrü kreditlərin verilməsi, məhsul portfelinin tərkibinin genişləndirilməsi, şaquli inteqrasiya məqsədilə seçilmiş sektorlara mütəxəssislərin cəlb edilməsinə maliyyə vəsaitinin ayrılması, yerli istehsala xarici birbaşa investisiyaların cəlb edilməsi yolu ilə təmin olunacaqdır.

Azərbaycanın dəyər zəncirində iştirakına dəstək ola biləcək digər tədbirlərə məhsullar və sektorlar üzrə hərtərəfli qiymətləndirmə aparılması, seçilmiş ilkin pilot sektorların və layihələrin müəyyən edilməsi, kreditlərin restrukturizasiyası və ya stimullaşdırılması məqsədilə maliyyə mexanizmlərinin təklif olunması, ixtisaslı kadrların cəlb edilməsi istiqamətində tədbirlər görülməsi (məsələn, iş vizası tələblərinin azaldılması) aid ola bilər.

Şəkil 7. Ağır sənaye və maşınqayırma sahəsində aralıq və son məhsulların istehsalı və idxalın yerli məhsulla əvəzlənməsi *(milyon manatla)*




1. *Azərbaycanda ağır sənaye və maşınqayırma idxalının 80 faizini təşkil edən məhsullar (ümumi idxal dəyəri təxminən 4,3 milyard manat olmaqla). Faktiki rəqəmlər ABŞ dolları ilə verilmiş və 2014-cü il üzrə Mərkəzi Bankın rəsmi mübadilə məzənnəsindən (1 ABŞ dolları = 0.78 manat) istifadə olunmuşdur*

Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası

2014-cü ildə Azərbaycan təxminən 800 milyon ABŞ dolları dəyərində sənaye maşın və avadanlıqları idxal etmişdir (şəkil 8). Neft-qaz və kənd təsərrüfatı kimi sahələrdə maşın və avadanlıqlara tələbatı ödəmək üçün ölkədə istehsal olunan məhsulların keyfiyyətinin artırılması, sənayedə yeni texnologiya və elmi tədqiqat araşdırmaları istiqamətində məqsədyönlü tədbirlər görüləcəkdir.

Şəkil 8. Azərbaycanda 2014-cü il üzrə idxal olunan maşın və avadanlıqların strukturu və həcmi *(milyon ABŞ dolları ilə)*



Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası

Azərbaycanda ağır sənaye və maşınqayırma müəssisələri idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi baxımından güclü imkanlara malikdir. Bu baxımdan "İcra hakimiyyəti orqanlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların fəaliyyətində satınalmaların səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 sentyabr tarixli 1046 nömrəli Fərmanı yerli maşınqayırma məhsullarına tələbatın artmasına ciddi təsir göstərəcəkdir.

Bununla belə, 2015-ci ildə ölkəyə idxal olunan bütün mal və məhsulların təqribən 57 faizi qara metallar və onlardan hazırlanan məmulatlar, maşın, mexanizm, elektrik aparatları, avadanlıqları və onların hissələri, nəqliyyat vasitələri və onların hissələri olmuşdur. [10] Həmçinin, neft maşınqayırması ilə əlaqədar avadanlıq, modul və komponentlərin əksər hissəsi idxal edilir.

Tikinti materialları, tikinti maşın və avadanlığı, mədən maşın və avadanlığı, sintetik materiallar və rezin emalı avadanlığı, nasos və kompressorlar, metal emalı avadanlığı, tekstil istehsalı avadanlığı, çap maşınları, yeyinti və qablaşdırma avadanlığı, ağac emalı avadanlığı, mal və material yükləmə avadanlığı ölkəyə idxal edilən maşın və avadanlıqların strukturunda üstünlük təşkil edir. Qeyd olunan qrupdan tikinti materialları, tikinti maşın və avadanlığı, mədən maşın və avadanlığı, nasos və kompressorlar, mal və material yükləmə avadanlığı və ya onların tərkib hissələrinin və komponentlərinin yerli istehsalla əvəz edilməsi ilkin mərhələdə daha perspektivli görünür.

Maşınqayırma məhsulları üzrə ölkənin idxal və ixrac strukturuna birgə baxdıqda isə əlavə olaraq buldozer, ekskavator və digər yol tikintisi maşın və avadanlıqları, kənd

[10] Mənbə: Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi


təsərrüfatı maşın və avadanlıqları, yeyinti sənayesi avadanlıqları, elektrik avadanlıqları, dəmir yolu lokomotiv və vaqonları idxalının ortamüddətli perspektivdə əvəz edilməsi mümkündür.

Avtomobil, traktor və yükdaşıyan maşınların yerli istehsalı əsasən yığımla məhdudlaşır. Perspektivdə isə yalnız maşın mühərriklərinin, transmissiya mexanizmlərinin idxalı saxlanıla, qalan hissələr isə yerli bazardan təchiz oluna bilər.

Ölkə iqtisadiyyatında əhəmiyyətli payını, eləcə də ağır sənaye və maşınqayırma məhsullarından asılılığını nəzərə alaraq, təhlil edilmiş mal kateqoriyaları üzrə dörd sektor – mədənçıxarma (ilk növbədə neft-qaz sektoru), kənd təsərrüfatı, dövlətin nəzarətində olan təbii inhisarlar və müdafiə sənayesi – 2020-ci ilədək olan dövrdə ağır sənaye və maşınqayırmada istehsalın lokomotivi qismində çıxış edə bilər.

Hazırda neft və qaz sənayesinin dəyər zəncirində xeyli ağır sənaye və maşınqayırma məhsulundan istifadə olunur (şəkil 9). Onlardan bəzilərinin, məsələn, buruq, nasos, kompressor, daşıma və emal üçün maşın və avadanlıqların Azərbaycanda istehsal olunmasına baxmayaraq, neft-qaz sektorunun dəyər zəncirinin bütün seqmentlərində yerli istehsalın iştirakının genişləndirilməsi üçün potensial mövcuddur. Elektrik maşın və avadanlıqları istehsalı sahəsində də oxşar vəziyyət mövcuddur. Ötürücü və paylama sisteminin təşkilində Azərbaycanın müəyyən maşın və avadanlıqları iştirak edir, lakin elektrik enerjisinin istehsalı və pərakəndə satış mərhələlərində də ölkənin milli maşın və avadanlıqla iştirak potensialı vardır.

Şəkil 9. Azərbaycanda maşınqayırma məhsullarından neft-qaz dəyər zəncirində istifadə potensialı



Bununla belə, ölkədə inkişaf etmiş neft-qaz sektoru kimi iri təchizatçının olmasına baxmayaraq, maşınqayırma sektorunun daha da inkişafı üçün potensial imkanlar mövcuddur. Ölkənin neft-qaz sahəsində fəaliyyət göstərən transmilli şirkətlərin yerli

maşınqayırma məhsullarının istehsalçıları ilə istehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara və bununla da təchizat tələblərinə uyğunluğunun təmin edilməsi məqsədilə birgə əməkdaşlıq səylərini və əlaqələndirməni həyata keçirməsi bu sahədə olan məsələlərin həllinə əhəmiyyətli dərəcədə kömək edə bilər. Yerli məhsulların imici və sifarişçilər arasında tanınması da yeni tələblər nəzərə alınmaqla həyata keçirilməlidir. Eyni zamanda, yerli müəssisələrin əksəriyyəti yüksək texnoloji həll tələb edən kompleks avadanlıq istehsalını da yetərli səviyyədə mənimsəməlidirlər.

Azərbaycanın kənd təsərrüfatında irəliləyişə nail olmaq üçün əsas vasitə ölkənin ixracında emal olunmamış məhsulların çəkisini azaltmaq və emal olunmuş məhsul ixracına keçməkdən ibarətdir. Digər tərəfdən, 2015-ci ildə Azərbaycanın kənd təsərrüfatı idxalının təxminən 54,5 faizini emal olunmuş məhsullar (süd, kərə yağı, heyvan və bitki mənşəli piylər və yağlar, şəkər, tütün və tütün məmulatları) təşkil etmişdir.[11] Bu göstəriciyə görə Azərbaycan bir sıra region ölkələrindən geri qalır. Ölkənin kənd təsərrüfatı və aqrar-sənaye seqmentində emal və dərin emal olunmuş məhsulların faizi artdıqca, yerli maşınqayırma sektoru üçün sahə müəssisələrindən yeni sifariş imkanları yaranacaqdır. Maşınqayırma sənayesi ilə qarşılıqlı bağlılıq həm məhsuldarlığın artırılması, həm də kənd təsərrüfatında emal olunmuş məhsulların istehsalına keçid istiqamətində irəliləmək baxımından çox əhəmiyyətlidir.

Görüləcək tədbirlər

Tədbir 2.2.1: İdxalı yerli istehsalla əvəzlənə bilən məhsulların müəyyən edilməsi

Ölkəyə daha çox idxal olunan ağır sənaye və maşınqayırma məhsullarının siyahısı tərtib olunaraq təhlil ediləcək və bu siyahı üzrə Azərbaycanda mənfəətli şəkildə istehsal oluna biləcək məhsullar müəyyən olunacaqdır. Müəyyən olunmuş məhsullar üzrə təhlillər aparılaraq, həmin sahəyə yerli və xarici investorların cəlb edilməsi ilə bağlı addımlar atılacaqdır.

Tədbir 2.2.2: Milli kontentin normativ bazasının gücləndirilməsi

Əsaslandırmada verilmiş mal qrupları nəzərə alınaraq, yerli maşınqayırma müəssisələrinin məhsullarından istifadə səviyyəsinin artırılması üçün mövcud qanunvericiliyə yenidən baxılacaq, satınalmalar haqqında qanunun yeni layihəsində milli kontentlə bağlı müddəalar daha təfsilatlı və dəqiq veriləcəkdir. Ölkədə mövcud olmayan və son məhsulun yaradılmasında vacib rol oynayan xammal növlərinə tətbiq edilən idxal rüsumlarına yenidən baxılacaqdır. Bəzi neft maşınqayırması məhsullarının təchizatında idxal payına kvotaların tətbiq olunması məsələsi araşdırılacaqdır.

Tədbir 2.2.3: Maşın və avadanlıq, qoşqu və yarımqoşqular, elektrik avadanlığı və digər nəqliyyat vasitələri istehsalı üzrə sahəvi işçi qrupların yaradılması və fəaliyyətinin təmin edilməsi

Təchizat ilə istehsal planları arasında əlaqələndirməni gücləndirmək, satınalan təşkilatlar üçün yerli müəssisələrin istehsal edə biləcəyi konkret mal və avadanlıqları müəyyənləşdirmək, məhsulların keyfiyyət standartlarını və müvafiq tənzimləyici reqlamentləri qarşılıqlı dəqiqləşdirmək və sahəvi araşdırmalar aparmaq məqsədilə mədənçıxarma, təbii inhisarlar, müdafiə sənayesi və kənd təsərrüfatında fəaliyyət göstərən iri sifarişçi təşkilatları, sənaye müəssisələrini və müvafiq dövlət orqanlarını

[11] Mənbə: Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi

əhatə edən işçi qruplar yaradılacaqdır. Azərbaycanda fəaliyyət göstərən iri transmilli şirkətlərin nümayəndələri işçi qrupların tərkibinə dəvət olunacaqlar. Bu tədbir üzrə müəyyən olunmuş əlaqələndirici dövlət orqanı işçi qrupların təşkil olunması, iclaslarının mütəmadi keçirilməsi, yekun qərarların icrası üçün lazımi tədbirlərin görülməsini təmin edəcəkdir. İşçi qruplara yardım məqsədilə beynəlxalq təcrübəyə malik mütəxəssislərin Azərbaycana dəvət olunması, şirkətlər üçün ekspertlər panelinin formalaşdırılması məsələlərinə baxılacaqdır.

Tədbir 2.2.4: Neft maşınqayırması sahəsində birgə istehsal sahələrinin yaradılması

Ölkəyə idxal olunan əsas neft maşınqayırması avadanlıqlarının istehsalçıları ilə danışıqlar aparılaraq, ölkədə istehsalı mövcud olmayan daha kompleks avadanlıqların istehsalı üzrə xarici investorlarla birgə müəssisələrin yaradılması üçün təkliflər veriləcək və bundan irəli gələrək növbəti addımlar planlaşdırılacaqdır.

Tədbir 2.2.5: Müdafiə sənayesi sahəsində birgə istehsal güclərinin yaradılması

Ölkəyə idxal olunan müdafiə sənayesi məhsullarının istehsalçıları ilə danışıqlar aparılaraq, ölkədə istehsalı mövcud olmayan məhsulların tam istehsal tsiklinin qurulması üzrə xarici investorlarla birgə müəssisələrin yaradılması üçün təkliflər veriləcək və bundan irəli gələn növbəti addımlar planlaşdırılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Qeyd edilən tədbirlərin tam həcmdə icrasının 2020-ci ildə real ÜDM-in 145 milyon manat artmasına və 5700 yeni iş yerinin açılmasına səbəb olacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- kənd təsərrüfatı avadanlıqlarının istehsalı üçün idxal olunan hissələrin 65 faiz azaldılması;
- qazma avadanlıqlarının istehsalı üçün idxal olunan hissələrin ümumi bazardakı payının 45 faizə qədər azaldılması;
- idxal olunmuş qara metal məhsullarının həcminin 20 faizinin yerli istehsalla əvəz edilməsi.

Tələb edilən investisiya

Prioritet çərçivəsində nəzərdə tutulan tədbirlərin əhatə dairəsini nəzərə alaraq, 2020-ci ilədək 330 milyon manat həcmində vəsaitin tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

İdxal edilən mal və avadanlıqların qiymətində gözlənilməz azalmaların olması, dempinq siyasəti, ölkədə fəaliyyət göstərən transmilli şirkətlərin yeni təchizat siyasətini dəstəkləməməsi əsas risk yaradan faktorlardandır.

7.2.3. Prioritet 2.3. Dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi

Əsaslandırma

Obyektiv səbəblərə görə Azərbaycanda mədənçıxarma sektorunun böyük hissəsini xam neft və təbii qazın hasilatı təşkil edir. Dağ-mədən sənayesində metal

filizlərinin hasilatı son illərdə stabil artmaqdadır. 2015-ci ildə müşahidə edilən pozitiv dinamika sahənin hələ istifadə olunmayan potensialının mövcudluğundan xəbər verir. Bununla belə, 2016-cı ilin əvvəllərindən metal filizlərinin hasilatında müəyyən durğunluq hiss edilməkdədir. Dünya iqtisadiyyatında baş verən proseslər, regional tələbatda qeyri-sabitlik ölkə iqtisadiyyatının inkişafına təsirsiz ötüşmür. Təxminən eyni təmayülü metallurgiya sənayesinə də aid etmək mümkündür.

Hazırda ölkənin metallurgiya və hazır məmulat istehsalı müəssisələrində əsasən çuqun və poladtökmə məhsulları–katankalar, polad borular, armatur, soyuq formalı profillər istehsal olunur. Neft-qaz boruları, xüsusi növ polad, hamar və uzun yayma məmulatlar (prokat) istehsalı əlavə dəyərin yaradılması baxımından cəlbedici görünür. Prokat istehsalı ilə bağlı tam istifadə olunmamış imkanların mövcudluğu aşkar edilmişdir. Bir sıra müəssisələrdə polad prokatı istehsalı qurğuları ilin əksər hissəsində istifadəsiz qalır. Bundan əlavə, alüminium, qızıl və qızıl məmulatı istehsalında potensialın kifayət qədər yüksək olduğu hesab olunur.

Görüləcək tədbirlər

Tədbir 2.3.1: Qara metallurgiya kompleksindən tam həcmdə istifadə edilməsi

Ölkənin təbii resurslar bazasından optimal istifadə edilməsi məqsədilə beynəlxalq dağ-mədən və metallurgiya şirkətləri ilə əməkdaşlıq intensivləşdiriləcək, Azərbaycan Polad İstehsalı Kompleksinə daxil olan "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin özəlləşdirilməsi başa çatdırılacaqdır. Dəmir konsentratı yuvarının istehsal həcmləri artırılacaqdır. Qara metallurgiyanın emal mərhələlərini əhatə edəcək müəssisələr şəbəkəsinin yaradılması təşviq ediləcəkdir: metallizləşdirilmiş dəmir istehsalı, elektrik poladəritmə, polad təbəqələr istehsalı və sair.

Tədbir 2.3.2: Əlvan metallurgiyanın inkişaf etdirilməsi

Yerli xammal bazasının hərtərəfli qiymətləndirilməsi nəticəsində ilkin mərhələdə yerli alunit və boksitlərdən, həmçinin neft sənayesinin (anod blokları) imkanlarından yararlanmaqla alüminiuma tələbatın yerli xammal və istehsal gücləri hesabına qarşılanması məsələsinə baxılacaqdır. Alüminiumdan son məhsul istehsal edəcək emal müəssisələrinin yenidən qurulması üçün tədbirlər görüləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Göstərilmiş tədbirlərin yerinə yetirilməsi 2020-ci ilədək ölkənin dağ-mədən və metallurgiya sektorunda yerli xammal potensialından tam istifadə olunmasına, polad və alüminiuma yerli tələbatın qarşılanmasına, həmçinin artan istehsal səbəbindən maşınqayırma sektoruna sifarişlərin çoxalmasına şərait yaradacaqdır. Bu prioritetin 2020-ci ildə real ÜDM-ə gözlənilən təsirinin 1 milyard manat olacağı proqnozlaşdırılır (təsirin dəqiqləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırmanın aparılması zəruridir). Əlvan metallurgiyanın ÜDM-ə təsirinin hesablanması təbii ehtiyatların həcminin və keyfiyyətinin, həmçinin alunitdən alüminium almaq üçün texnologiyanın qiymətləndirilməsi aparıldıqdan sonra həyata keçiriləcəkdir.

Əsas icra göstəriciləri:

- qara metallurgiyanın yerli xammal bazasından tam istifadənin təmin olunması;
- yeni dəmir filizi çıxarma və polad emalı zavodunun tikilməsi;
- maşınqayırma sektoruna sifarişlərin çoxalması.

Tələb edilən investisiya

Prioritetlər çərçivəsində tədbirlərin əhatə dairəsi nəzərə alınaraq, dəmir filizi kompleksinin və emal müəssisələrinin tikilməsi üçün 2020-ci ilədək 2 milyard manat həcmində vəsaitin tələb ediləcəyi proqnozlaşdırılır. Lakin müəyyən əlavə nəticələrin əldə edilməsi planları hesabına bu məbləğ arta bilər (investisiya tələbinin dəqiqləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırmanın aparılması zəruridir).

Gözlənilən risklər

Qara metallurgiyanın emal mərhələlərini əhatə edəcək müəssisələr şəbəkəsinin yaradılmaması və alüminiumdan son məhsul istehsal edəcək emal müəssisələrinin yenidən qurulmaması, həmçinin Azərbaycanda alunit ehtiyatlarının həcminin müəyyən edilməsi və alüminium istehsalı üçün səmərəli texnologiyanın mövcud olmaması əsas risk yaradan faktorlardandır.

7.2.4. Prioritet 2.4. Xidmət sektorunun inkişaf etdirilməsi

Əsaslandırma

Azərbaycanda ağır sənaye və maşınqayırma sektorunda kifayət qədər inkişaf etmiş xidmət müəssisələri fəaliyyət göstərir. Xidmət müəssisələri mədən sənayesində və maşınqayırma sahəsində maşın və avadanlıqların quraşdırılması və təmiri seqmentində cəmlənmişdir. Mədən sənayesində xidmətlər ümumi mədən sənayesinin istehsalat həcminin təqribən 10 faizini təşkil edir.[12] Burada cəmləşən müəssisələrin əksəriyyəti neft və qaz hasilatı ilə bağlı qazma xidməti göstərən müəssisələrdir. Dağ-mədən sənayesi və karxana işləri ilə əlaqədar yardımçı xidmətlər göstərən müəssisələrin iş həcmi aşağı səviyyədədir.

Digər tərəfdən, maşın və avadanlıqların quraşdırılması və təmiri müəssisələri maşınqayırma kompleksində əhəmiyyətli yer tutur. Belə ki, bu sahə emal sektorunda məhsul buraxılışına görə üçüncü yerdədir. Ağır sənaye və maşınqayırmada xidmət müəssisələrinin inkişaf etdirilməsi ölkənin gələcək hədəflərinə, daha innovativ fəaliyyətin təşviqinə və xidmətlərin ixracına başlanmasına imkan verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.4.1: Dağ-mədən sənayesində xidmətlərin təşviqi

Ölkənin dağ-mədən sektorunda iş zamanı yerli müəssisələr tərəfindən yardımçı xidmətlər göstərilməsinin artırılması məqsədilə bu sahədə yerli güclərin yaradılması və beynəlxalq mədən və metallurgiya şirkətləri ilə birgə layihələrin icrası zamanı yerli xidmətlərdən istifadə olunması təşviq ediləcəkdir.

Tədbir 2.4.2: Xidmətlərin ixracı imkanlarının genişləndirilməsinin təşviqi

Maşın və avadanlıqların quraşdırılması və təmiri sahəsində fəaliyyət göstərən müəssisələrin regional bazara yönəlməsi, region ölkələrinin ehtiyaclarının qarşılanmasında iştirakın artırılması, ölkənin tədricən regional quraşdırma və təmir mərkəzinə çevrilməsi ilə əlaqədar təkliflər hazırlanacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Qeyd olunan tədbirlərin icrası 2020-ci ildə ölkənin ağır sənaye və maşınqayırma sektorunda yeni və daha innovativ fəaliyyət növlərinin meydana çıxmasına şərait

[12] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

yaradacaqdır. Bu prioritetin 2020-ci ildə real ÜDM-ə təsiri 2-ci strateji hədəfə daxil olan digər prioritetlərin gözlənilən nəticələrində dolayı təsir kimi artıq öz əksini tapmışdır.

Əsas icra göstəricisi:

- dağ-mədən sektorunda yeni xidmət müəssisələrinin qeydiyyatdan keçməsi.

Tələb edilən investisiya

Xidmət sənayesinin inkişafı üçün digər prioritetlərdə əks olunanlardan əlavə investisiya tələb olunmur.

Gözlənilən risklər

Regional bazarlarda tələbin dəyişməsi, ölkədə fəaliyyət göstərən mədən və metallurgiya şirkətlərinin ölkədən kənarda fəaliyyət göstərən müəssisələrin xidmətlərindən istifadə siyasətini dəstəkləməsi.

7.3. Strateji hədəf 3. Maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi


Gələcək illərdə inkişafın əldə olunması üçün iki əsas şərtin yerinə yetirilməsi vacibdir: alternativ maliyyə vəsaitinin və bilik transferinin daha sistematik qaydada həyata keçirilməsi; beynəlxalq standartlar və idarəetmə prosedurları ilə uyğunluğun daha da artırılması.

7.3.1. Prioritet 3.1. Alternativ maliyyələşmə mexanizmlərinin təşviqi və təcrübələrin ötürülməsi

Əsaslandırma

Hazırda Azərbaycanda dövlət investisiyaları ümumi investisiya qoyuluşunun yarısından çoxunu təşkil edir. Aşağıda göstərilən ölkələrlə müqayisədə Azərbaycanda dövlət investisiyalarının payı kifayət qədər çoxdur (şəkil 10). Birbaşa xarici investisiyalar, dövlət-özəl tərəfdaşlığı dövlət sektorunun investisiyalarda payının azaldılmasında mühüm rol oynayır.

Şəkil 10. Digər ölkələrlə müqayisədə Azərbaycanda investisiya qoyuluşlarının mənbəyi




1. *Qeyd etmək lazımdır ki, əsaslı kapital qoyuluşunda əsas kapitala yönəldilməmiş birbaşa xarici investisiya axınları nəzərə alınmamışdır.*
2. *Dövlət-özəl investisiya bölgüsü 2014-cü il üzrə təsdiq edilmiş büdcə sənədinə uyğun olaraq, 30-70 faiz nisbətində qəbul edilir.*

Mənbə: Dünya Bankının İnkişaf Göstəriciləri

Birbaşa xarici investisiyaların (BXİ) cəlbi üzrə ölkədə BXİ üçün mövcud ekosistemin qiymətləndirilməsinin dörd əsas ölçüsü nəzərə alınmalıdır: iqtisadi əsaslar, BXİ üçün biznes mühitinin əlverişliliyi, normativ tənzimləmənin keyfiyyəti və qanunun aliliyi (şəkil 11).

Azərbaycan Milken İnstitutunun Qlobal İmkanlar İndeksində 2009-cu ildən əhəmiyyətli irəliləyişə nail olmuşdur. Belə ki, ölkə 2009-cu ildə 78-ci pillədən 2015-ci ildə 58-ci pilləyə qədər irəliləmişdir.

Şəkil 11. Azərbaycanda BXİ-nin cəlb edilməsi potensialının təkmilləşdirilməsi




Mənbə: Milken İnstitutu, Qlobal İmkanlar İndeksi

Hazırda Azərbaycanın ağır sənaye və maşınqayırma sektoruna BXİ qoyuluşu xüsusilə yerli investisiyaların səviyyəsi ilə müqayisədə məhduddur. 2014-cü ildə ÜDM-də BXİ-nin payı 25 faiz təşkil etmişdir. Müqayisə üçün qeyd etmək lazımdır ki, eyni göstərici Gürcüstanda 74 faiz, Qazaxıstanda 61 faiz, Türkmənistanda 55 faiz, Ukraynada isə 49 faiz olmuşdur. Azərbaycana BXİ qoyuluşunun 95 faizi neft və qaz sektoruna yönəldilmişdir.[13]

Strateji tərəfdaşlıq münasibətlərinin qurulmasının əhəmiyyəti yalnız maliyyə gəlirlərinin artması ilə məhdudlaşmır, eyni zamanda, zəruri idarəçilik bacarıqlarının və biznes biliklərinin əldə olunması, idarəetmə hədəflərinin uzunmüddətli dövr üçün təyin olunması, innovativ sənaye təcrübələrinin qazanılması və layihənin risklərinin strateji tərəfdaşla bölüşdürülməsini də əhatə edir. Strateji tərəfdaşlıq münasibətlərinin qurulması üçün investor şirkətdən sənaye sektorunda geniş təcrübə tələb olunur. Bununla belə, dövlət və özəl sektor arasında tərəfdaşlığın qurulmasında müvəffəqiyyət mövcud beynəlxalq standartların mənimsənilməsindən xeyli asılı olacaqdır (şəkil 12)

Şəkil 12. Azərbaycanda strateji tərəfdaşlıq və dövlət-özəl tərəfdaşlığı üzrə təkmilləşdirmə istiqamətləri



Mənbə: Avropa Yenidənqurma və İnkişaf Bankı

Həmçinin, alternativ maliyyələşmənin və bilik və bacarıqların cəlb olunmasında xarici investisiyaların qorunması, tənzimləyici qurumların şəffaflığı, logistika və ümumi infrastrukturun dövlət tərəfindən təmin edilməsi kimi amillər vacib rol oynayacaqdır.

"Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 sentyabr tarixli 2349 nömrəli Sərəncamı birbaşa xarici investisiyaların cəlb olunması, yerli

[13] Mənbə: BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı

istehsalçılar ilə xarici iş adamlarının əlaqələndirilməsi, həmçinin, mövcud məlumat bazalarının beynəlxalq tələblərə uyğunlaşdırılması və nəticə etibarilə, yerli istehsalın tanıdılmasının yeni səviyyəyə qaldırılması istiqamətində mühüm proqram sənədlərindən biri olacaqdır.

Görüləcək tədbirlər

Tədbir 3.1.1: İnvestisiya məlumat bankının yaradılması və mütəmadi təhlillər nəticəsində yenilənməsi

Mövcud investisiya mühiti və potensial imkanlar hərtərəfli təhlil edilərək, Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazası çərçivəsində alternativ maliyyələşməyə açıq sənaye layihələrindən ibarət platformanın hazırlanması nəzərdən keçiriləcəkdir. Bazaya daxil ediləcək layihələr, bu Strateji Yol Xəritəsinin daha əvvəlki prioritetlərində qeyd olunmuş aktivlər və təbii resursların reyestri, regional ixrac və idxalın əvəzlənməsi üzrə mal və məhsul siyahıları nəzərə alınmaqla, paralel şəkildə hazırlanacaqdır. Bazaya həmçinin digər sahələr, əlaqəli infrastruktur – logistika üzrə flaqman təşəbbüslər də daxil ediləcəkdir. Layihə tarixçəsində gözlənilən investisiya həcmi, təklif edilən investisiya sxemi (BXİ, dövlət-özəl tərəfdaşlığı və s.) və investisiya ilə əlaqədar digər ilkin tələblər qeyd olunacaqdır. Layihələrin beynəlxalq investor və donorlara təqdim edilməsi, davamlı tanıdılması və təşviqi istiqamətində ardıcıl tədbirlər görüləcəkdir.

Tədbir 3.1.2: İnvestisiya mühitinin yaxşılaşdırılması

İnvestisiya mühitinin yaxşılaşdırılması, biznes proseslərini tənzimləyən prosedurların sadələşdirilməsi, xarici investisiyalar üçün əngəl yaradan inzibati maneələrin aradan qaldırılması və təminat sisteminin təkmilləşdirilməsi, investisiyaların təşviqi istiqamətində tədbirlər davam etdiriləcək, beynəlxalq reytinqlər çərçivəsində əməkdaşlıq gücləndiriləcəkdir. Bununla əlaqədar olaraq, müəssisələrin əsas şəbəkələrə (qaz, su, elektrik enerjisi) qoşulması, tikintiyə icazə alınması, istehsal üçün torpaqların ayrılması kimi prosedurların sadələşdirilməsinə xüsusi diqqət yönəldiləcəkdir.

Tədbir 3.1.3: Yeni maliyyələşmə mexanizmlərinin tətbiq edilməsi

Beynəlxalq təcrübədə tətbiq olunan, Azərbaycanda isə hələ geniş yayılmamış yeni maliyyələşmə mexanizmlərinin, o cümlədən startapların, vençur fondların, "mələk investorlar"ın *("angel investor")*, etimad fondlarının *("trust fund")* innovasiyayönümlü maşınqayırmada tətbiqi istiqamətində təkliflər hazırlanacaqdır.

Tədbir 3.1.4: Sənaye müəssisələri üçün zəruri infrastrukturun təmin edilməsi

Ağır sənaye və maşınqayırma müəssisələrinin infrastruktur ehtiyaclarının operativ təmin edilməsi üçün dövlət tərəfindən ümumi infrastrukturun yaradılması işləri davam etdiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Prioritet çərçivəsində nəzərdə tutulmuş fəaliyyətin tam həcmdə icra edilməsinin 2020-ci ildə real ÜDM-in 105 milyon manat artımına səbəb olacağı və yeni iş yerlərinin açılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- investisiya məlumat bankının onlayn rejimdə fəaliyyətə başlaması;

- ölkə iqtisadiyyatına xarici investisiyaların yatırılması dinamikasında yüksəliş trendi;
- ilk özəl kapital fondlarının *(private equity fund)* yaradılması.

Tələb edilən investisiya

Maliyyə vəsaitlərinə çıxış imkanının artırılması hesabına 2020-ci ilədək sektor üzrə 270 milyon manat əlavə investisiya qoyuluşunun tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

Beynəlxalq maliyyə bazarlarında likvidlik çatışmazlığı, investorların öz vəsaitlərini inkişaf etməkdə olan ölkələrdən daha gəlirli hesab edilən bazarlara istiqamətləndirməsi əsas risk yaradan faktorlardandır.

7.3.2. Prioritet 3.2. Beynəlxalq standartlara və idarəçilik prosedurlarına uyğunlaşmanın təmin edilməsi

Əsaslandırma

Azərbaycanın ağır sənaye və maşınqayırma sektorunda mövcud standartların və idarəçilik prosedurlarının təkmilləşdirilməsinə ehtiyac duyulur. Hazırda ölkədə ümumilikdə 22 minə yaxın standart mövcuddur.[14] Mövcud yerli normativ hüquqi bazanı yerli, beynəlxalq və spesifik sənaye standartları kateqoriyalarına ayırmaq mümkündür. Standartları və onlara əməl olunmasını sadələşdirmək, eləcə də şəffaflığı artırmaq məqsədilə mövcud təşəbbüslərin daha da inkişaf etdirilməsi zəruridir.

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin rəhbərliyi altında bir sıra dövlət qurumları, o cümlədən Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti, Dövlət Metrologiya Xidməti, Dövlət Akkreditasiya Xidməti, Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu və Təcrübə-Sınaq Xidməti (AzTEST) ağır sənaye və maşınqayırma sektorunda standartların tətbiqini təmin edirlər. Sahə üzrə aparılan araşdırmalar göstərir ki, Azərbaycanın beynəlxalq standartlara uyğunlaşması vəziyyətinin daha da təkmilləşdirilməsi üçün geniş imkanlar mövcuddur.

Görüləcək işlər standartlar haqqında məlumatlılıq səviyyəsinin və şəffaflığın artırılması istiqamətində mövcud prosedurların təkmilləşdirilmələrini özündə ehtiva edəcəkdir. Belə ki, dövlət standartları ilə bağlı hazırda onlayn internet səhifəsi fəaliyyət göstərir, lakin səhifənin naviqasiya strukturunda (xəritəsində) və məzmununda təkmilləşdirmələrin aparılmasına ehtiyac vardır. Bundan əlavə, səhifədə mövcud 22 min standartdan yalnız 900-ü haqqında məlumat yerləşdirilmişdir.[15] Eyni zamanda, ölkənin metrologiya sisteminin inkişaf etdirilməsi üçün də müvafiq tədbirlər görülür. Əsas məqsəd milli metrologiya sistemini Avropa İttifaqının mövcud sisteminə və beynəlxalq standartlara, qabaqcıl təcrübəyə uyğun inkişaf etdirməklə, ölkənin dünya bazarlarına çıxışına dəstək verməkdir.

[14] Mənbə: Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu
[15] Mənbə: Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu

Görüləcək tədbirlər

Tədbir 3.2.1: Beynəlxalq standartlaşdırma sisteminə uyğunlaşmanın təmin edilməsi

Milli standart və prosedurların müasir beynəlxalq təcrübəyə uyğunluğunu artırmaq üçün bir sıra tədbirlər görüləcəkdir: sənaye sahəsində standartların sayı, məzmunu (texniki şərtləri) və əldəolunma prosedurları təkmilləşdiriləcək, "könüllülük" prinsipi təşviq ediləcək, məcburi sertifikatlaşdırmaya aid məhsulların siyahısı azaldılacaq və siyahıya hər il yenidən baxılacaq, texniki tənzimləmə, istehsal reqlamentlərinin, keyfiyyətə nəzarət sistemlərinin müasir tələblərə uyğunlaşdırılması üçün tədbirlər görüləcək, standartlaşdırma sahəsində akkreditə olunmuş hüquqi şəxslərin sayı artırılacaq, məcburi yoxlamaların sayı risklərin idarəedilməsi metodologiyasına əsasən azaldılacaq və bu sahədə şəffaflıq artırılacaqdır. Dövlət və özəl təlim mərkəzlərində standartlaşdırma prosesinin bütün seqmentləri üzrə bazar iştirakçıları üçün pulsuz təlimlərin təşkili dəstəklənəcəkdir.

Tədbir 3.2.2: Sənaye müəssisələrində müasir idarəetmə sisteminin qurulması

Sənaye müəssisələrində müasir idarəetmə sisteminin qurulması üçün səylər gücləndiriləcək, idarəetmə sistemləri standartlarının, korporativ idarəetmə standartlarının tətbiqi sahələr üzrə genişləndiriləcəkdir. Müəssisələrdə satış, marketinq, satışdan sonra qulluq və müştəri sorğularına operativ cavab departamentlərinin beynəlxalq təcrübəyə uyğun yenidən təşkil edilməsi işlərinin dəstəklənməsi istiqamətində təhlillər aparılacaqdır.

Tədbir 3.2.3: Şəffaflığın artırılması və onlayn resursların məzmununun gücləndirilməsi

Dövlət orqanlarının mövcud onlayn resursları və internet səhifələri təkmilləşdiriləcək, açıq istifadədə olan məlumat bazalarının məzmununun zənginləşdirilməsi, texniki mənimsəmə səviyyəsinin yaxşılaşdırılması, əhatə olunan mövzuların bazar iştirakçılarının praktiki istifadəsi yönümündə qurulması, standartlaşdırma üzrə onlayn xidmətlərin geniş tətbiqi istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

Tədbir 3.2.4: Sənaye müəssisələrində milli brendlərin yaradılmasının təşviq edilməsi

Keyfiyyət, müştəri məmnunluğu, müsbət emosional imic kimi meyarları nəzərdə tutan sənaye brendləri indeksinin hazırlanması və onun əsasında "ilin brendləri"nin müəyyən edilməsi, milli brendlərin xarici ölkələrdə tanıdılması üçün tədbirlər görüləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Beynəlxalq standartlara və idarəetmə sisteminə uyğunlaşma istiqamətində görülən tədbirlər ümumi iqtisadi səmərəliliyə müsbət təsir göstərməklə, sənaye müəssisələrinin beynəlxalq inteqrasiyasını və yeni bazarlara çıxışını asanlaşdıracaqdır.

Əsas icra göstəriciləri:

- məcburi sertifikatlaşdırma və yoxlamaların sayının azaldılması;

- sənaye müəssisələrinin beynəlxalq fəaliyyətinin, o cümlədən ixrac imkanlarının artması.

Tələb edilən investisiya

İnvestisiya tələbinin dəqiqləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırmanın aparılması zəruridir.

Gözlənilən risklər

Standartlaşdırma sahəsində liberallaşdırma, məcburi sertifikatlaşdırma və yoxlamaların sayının azaldılmasından sui-istifadə hallarının olması əsas risk yaradan faktorlardandır.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 2,9 milyard manat investisiya tələb olunur.

Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- Azərbaycan İnvestisiya Şirkətinin vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri və qrantlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımları;
- maliyyə bazarlarının alətləri;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitinin müəyyən edilmiş prioritet hədəflər üçün, ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədi ilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası və özəl sektorun, müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflərlə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin, tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimi və tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şəraiti yaradacaq, tələb olunduqda kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu *("delivery unit")* müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədi ilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkil olunmasının təmin edilməsinə və zəruri hallarda əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədi ilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda, mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.
- İcraya rəhbərlik olunması, eləcə də tələb olunan resurslara və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün prioritetlər üzrə

təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurla tətbiq olunması üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb olunması tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədi ilə, özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlarla işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.
- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti və beyin mərkəzləri səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 gün əvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlilini və qiymətləndirilməsini, həmçinin işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. Mövcud aktivlərin optimallaşdırılması					
1.1. Sektorda məhsuldarlığın və səmərəliliyin artırılması					
1.1.1.	Qənaətli istehsal metodları üzrə təhlil aparılması	İqtisadiyyat Nazirliyi	Tarif Şurası, Vergilər Nazirliyi, Energetika Nazirliyi, Nəqliyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azneftkimyamaş" ASC, APİK, "Daşkəsən Filizsaflaşdırma" ASC	• 2020-ci ildə real ÜDM-in 250 milyon manat artması; • ağır sənaye sahəsində əmək məhsuldarlığının müvafiq sahələrdə 20 faizədək artması; • məhsul istehsalında zay məhsul istehsalının 17 faiz azalması.	2017-2020
1.1.2.	Özəl investisiya əsasında model müəssisənin (zavodun) yaradılmasının dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi		2017
1.1.3.	Sənaye müəssisələrinin kadr təminatının yaxşılaşdırılması	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi		2017-2020
1.1.4.	Elmi tədqiqat təşkilatları ilə müəssisələr arasında əlaqələrin gücləndirilməsi	Azərbaycan Milli Elmlər Akademiyası	İqtisadiyyat Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2020

1.1.5.	Sahəvi assosiasiyaların yaradılmasının dəstəklənməsi və müntəzəm fəaliyyətinin təmin edilməsi	İqtisadiyyat Nazirliyi			2017-2018
1.2. Enerjidən istifadədə optimal səmərəliliyə nail olunması					
1.2.1.	Enerji balansının optimallaşdırılması, tələb və təklifin uzlaşdırılması	Tarif Şurası	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Neft Şirkəti, "Azərenerji" ASC, "Azərişıq" ASC	• yeni enerji balansının hazırlanması; • strateji müəssisələrin siyahısının hazırlanması; • pik və qeyri-pik saatlar üzrə enerji istehlakının bərabər formada paylanması; • enerji istehsalçısı və istehlakçı olan müəssisələrdən ibarət əlaqələndirmə qrupunun yaradılması.	2017-2020
1.2.2.	Qeyri-pik saatlardan istifadənin stimullaşdırılması	Tarif Şurası	Energetika Nazirliyi, Azərenerji ASC, İqtisadiyyat Nazirliyi		2017-2020
1.2.3.	Strateji müəssisələr üçün güzəştli tariflərin müəyyənləşdirilməsi	Tarif Şurası	İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi		2017-2020
1.2.4.	Enerji istehlakçılarının enerjidən səmərəli istifadəyə yönləndirilməsi	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, Tarif Şurası		2017-2020
1.2.5.	Ağır sənaye, xüsusilə metallurgiya müəssisələrinin enerji təminatının fərqli, aşağı tariflərlə təmin edilməsi	Tarif Şurası	İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi		2017-2020
1.3. Aktivlərin və mövcud potensialın mərkəzi reyestrinin yaradılması					
1.3.1.	Sənayedə istifadə olunmayan aktivlərin və təbii resursların mərkəzi reyestrinin yaradılması	Əmlak Məsələləri Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Vergilər	• 2020-ci ildə real ÜDM-in 45 milyon manat artması; • 2020-ci ildə 2000-dən artıq yeni iş	2017

			Nazirliyi	yerinin yaradılması; • mərkəzi reyestr və əlaqələndirilmiş məlumat bazalarının fəaliyyətə başlaması; • fəaliyyət göstərməyən ən azı 5 müəssisənin 2020-ci ilədək yenidən işə salınması; • rəqabət qabiliyyəti zəif olan 10 müəssisənin istehsal yönümünün dəyişdirilməsi.	
1.3.2.	Mərkəzi reyestrə daxil olan aktivlərin və təbii resursların qiymətləndirilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi		2018-2020
1.3.3.	Canlandırma fəaliyyətinin həyata keçirilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi	Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi		2018-2020
1.3.4.	Aktivlərin təyinatının dəyişdirilməsi	Nazirlər Kabineti	Əmlak Məsələləri Dövlət Komitəsi, Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2018-2020
Strateji hədəf 2. Rəqabətədavamlı sektorun yaradılması					
2.1. Regional tələbat baxımından dəyər zəncirlərində iştirakın təmin olunması					
2.1.1.	Regional bazarlara ixrac perspektivi olan malların siyahısının hazırlanması və təhlillər aparılması	İqtisadiyyat Nazirliyi	Dövlət Gömrük Komitəsi, AZPROMO	• 2020-ci ildə real ÜDM-in 15 milyon manat artması; • ağır sənaye üzrə yerli məhsulların keyfiyyətinin idxal edilən məhsullarının keyfiyyətindən	2017

2.1.2.	Seçilmiş sahələrə investisiyaların cəlb olunması	İqtisadiyyat Nazirliyi	AZPROMO	əsaslı şəkildə fərqlənmədiyi hallarda cari idxalın 20 faizinin yerli istehsal ilə əvəz edilməsi.	2017-2020
2.2. İdxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi					
2.2.1.	İdxalı yerli istehsalla əvəzlənə bilən məhsulların müəyyən edilməsi	İqtisadiyyat Nazirliyi		• 2020-ci ildə real ÜDM-in 145 milyon manat artması; • 2020-ci ildə 5700 yeni iş yerinin yaradılması; • kənd təsərrüfatı avadanlıqlarının istehsalı üçün idxal olunan hissələrin 65 faiz azalması; • qazma avadanlıqlarının istehsalı üçün idxal olunan hissələrin ümumi bazardakı payının 45 faizə qədər azalması; • idxal olunmuş qara metal məhsullarının həcminin 20 faizinin yerli istehsalla əvəz edilməsi.	2017
2.2.2.	Milli kontentin normativ bazasının gücləndirilməsi	İqtisadiyyat Nazirliyi	Ədliyyə Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi		2017-2020
2.2.3.	Maşın və avadanlıq, qoşqu və yarımqoşqular, elektrik avadanlığı və digər nəqliyyat vasitələri istehsalı üzrə sahəvi işçi qrupların yaradılması və fəaliyyətinin təmin edilməsi	İqtisadiyyat Nazirliyi			2017
2.2.4.	Neft maşınqayırması sahəsində birgə istehsal sahələrinin yaradılması	İqtisadiyyat Nazirliyi	Dövlət Neft Şirkəti		2017-2018
2.2.5.	Müdafiə sənayesi sahəsində birgə istehsal güclərinin yaradılması	Müdafiə Sənayesi Nazirliyi			2017-2018

2.3. Dağ-mədən sənayesi və metallurgiya kompleksinin inkişaf etdirilməsi					
2.3.1.	Qara metallurgiya kompleksindən tam həcmdə istifadə edilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 1 milyard manat artması; • qara metallurgiyanın yerli xammal bazasından tam istifadənin təmin olunması; • yeni dəmir filizi çıxarma və polad emalı zavodunun tikilməsi; • maşınqayırma sektoruna sifarişlərin çoxalması.	2017-2020
2.3.2.	Əlvan metallurgiyanın inkişaf etdirilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi		2017-2020
2.3.3.	Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilmiş “Daşkəsən Filizsaflaşdırma” Açıq Səhmdar Cəmiyyətinin özəlləşdirməyə açıq elan edilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi			2016 icra edilib
2.4. Xidmət sektorunun inkişaf etdirilməsi					
2.4.1.	Dağ-mədən sənayesində xidmətlərin təşviqi	İqtisadiyyat Nazirliyi	APİK	• dağ-mədən sektorunda yeni xidmət müəssisələrinin qeydiyyatdan keçməsi	2017-2020
2.4.2.	Xidmətlərin ixracı imkanlarının genişləndirilməsinin təşviqi	İqtisadiyyat Nazirliyi	Dövlət Gömrük Komitəsi		2017
Strateji hədəf 3. Maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi					
3.1. Alternativ maliyyələşmə mexanizmlərinin təşviqi və təcrübələrin ötürülməsi					
3.1.1.	İnvestisiya məlumat bankının yaradılması və mütəmadi təhlillər nəticəsində yenilənməsi	İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi	İqtisadiyyat Nazirliyi, AZPROMO	• 2020-ci ildə real ÜDM-in 105 milyon manat artması;	2017-2020

3.1.2.	İnvestisiya mühitinin yaxşılaşdırılması	İqtisadiyyat Nazirliyi	Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, "Azərenerji" ASC, Azəriqaz İB	• investisiya məlumat bankının onlayn rejimdə fəaliyyətə başlaması; • ölkə iqtisadiyyatına xarici investisiyaların yatırılması dinamikasında yüksəliş trendi; • ilk özəl kapital fondlarının *(private equity fund)* yaradılması.	2017-2020
3.1.3.	Yeni maliyyələşmə mexanizmlərinin tətbiq edilməsi	İqtisadiyyat Nazirliyi			2017-2020
3.1.4.	Sənaye müəssisələri üçün zəruri infrastrukturun təmin edilməsi	İqtisadiyyat Nazirliyi			2017-2020
3.2. Beynəlxalq standartlara və idarəçilik prosedurlarına uyğunlaşmanın təmin edilməsi					
3.2.1.	Beynəlxalq standartlaşdırma sisteminə uyğunlaşmanın təmin edilməsi	Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	İqtisadiyyat Nazirliyi	• məcburi sertifikatlaşdırma və yoxlamaların sayında azalma; • sənaye müəssisələrinin beynəlxalq fəaliyyətinin, o cümlədən ixrac imkanlarının artması.	2017
3.2.2.	Sənaye müəssisələrində müasir idarəetmə sisteminin qurulması	İqtisadiyyat Nazirliyi			2017-2018
3.2.3.	Şəffaflığın artırılması və onlayn resursların məzmununun gücləndirilməsi	Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi			2017-2020
3.2.4.	Sənaye müəssisələrində milli brendlərin yaradılmasının təşviq edilməsi	İqtisadiyyat Nazirliyi	Müəllif Hüquqları Agentliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi		2017-2020

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 437

2. QLOBAL TRENDLƏR 440

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 444

3.1. Turizm sektorunun mövcud v əziyyəti 444

3.2. Turizm sektorunun GZİT təhlili 452

4. STRATEJİ BAXIŞ 453

4.1. 2020-ci ilədək strateji baxış 453

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 453

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 455

5. HƏDƏF İNDİKATORLARI 457

6. STRATEJİ MƏQSƏDLƏR 457

7. STRATEJİ HƏDƏFLƏR 458

7.1. Strateji hədəf 1. Xarici turistləri daha çox cəlb etməklə Bakı şəhərinin turizm potensialının tam gerçəkləşdirilməsi 458

7.1.1. Prioritet 1.1. Milli Turizm Təbliğat Bürosunun yaradılması və ilk olaraq Bakı şəhərində fəaliyyətinin təmin olunması 458

7.1.2. Prioritet 1.2. Bakı şəhərindəki cəlbedici turizm məkanlarına dair məlumatların və turist xidmət paketlərinin yenilənməsi 461

7.1.3. Prioritet 1.3. Bakı ş əhəri üzrə təbliğat-təşviqat tədbirlərinin keçirilməsi 467

7.1.4. Prioritet 1.4. Bakı şəhərinin turizm infrastrukturunun, o cümlədən uyğun qiymətə mehmanxana və cəlbedici turizm məkanlarının inkişaf etdirilməsi 472

7.2. Strateji hədəf 2. Turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılması 477

7.2.1. Prioritet 2.1. Turizm Şurasının fəaliyyətinin təşkili 477

7.2.2. Prioritet 2.2. Turizm v ə rekreasiya zonalarının (TRZ) yaradılması 478

7.2.3. Prioritet 2.3. Yerli və xarici turistlər üçün turizmdə mövsümilik problemini regional səviyyədə aradan qaldıran turizm xidməti infrastrukturunun inkişaf etdirilməsi 480

7.2.4. Prioritet 2.4. Viza rəsmiləşdirilməsi proseslərinin və sərhəd keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi 482

7.2.5. Prioritet 2.5. Əsas t ələb bazarları ilə hava əlaqəsinin təkmilləşdirilməsi 486

7.3. Strateji hədəf 3. Yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi 491

7.3.1. Prioritet 3.1. Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması 491

7.3.2. Prioritet 3.2. Qış turizminin inkişafının d əstəklənməsi 494

7.3.3. Prioritet 3.3. M ədəni turizm marşrutlarının yaradılması 499

7.3.4. Prioritet 3.4. İşgüzar turizmin inkişafının dəstəklənməsi 502

7.3.5. Prioritet 3.5. Davamlı turizm potensialının gücləndirilməsi (ekoturizm, kənd turizmi və s.) 505

7.4. Strateji hədəf 4. Turistlərin məmnunluğunun artırılması məqsədilə milli turizm keyfiyyət sisteminin yaradılması 508

7.4.1. Prioritet 4.1. Turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşu 508

7.4.2. Prioritet 4.2. Turizm sahəsində standartlaşdırma və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi 512

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 513
9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 514
10. TƏDBİRLƏR PLANI 516

1. QISA XÜLASƏ

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına əsasən 8 əsas və 3 yardımçı olmaqla, 11 sektor üzrə Azərbaycan iqtisadiyyatının təfsilatlı inkişaf planlarının işlənilməsi məqsədi ilə işçi qrup yaradılaraq, 2020-ci ilədək iqtisadi inkişaf strategiyasının və tədbirlər planının, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışın və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışın hazırlanmasına dair müvafiq tapşırıqlar verilmişdir. Milli iqtisadiyyatın inkişaf strategiyasında prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi turizmin inkişafı istiqamətində görülən işlərin davamlılığına xidmət etməklə yanaşı, Azərbaycan Respublikasının cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaradacaq, eyni zamanda, qarşılıqlı əlaqələrdən və mövcud turizm potensialından səmərəli istifadə edilməklə turizm sektorunun iştirakçıları arasında əməkdaşlığın inkişafına və Azərbaycanda turizm xidmətləri üzrə keyfiyyətin yüksəldilməsinə gətirib çıxaracaqdır. Strateji Yol Xəritəsi nəzərdə tutulmuş müddətlər ərzində turizm sektorunun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması, müasir ideya və innovasiyalara əsaslanan yeni investisiya layihələrinin cəlb edilməsi və turizmin inkişafı ilə əlaqədar aidiyyəti orqanların qarşılıqlı koordinasiyası kimi tədbirləri özündə ehtiva edir.

Son illərin statistik göstəricilərinə görə, turizm Azərbaycanda daim inkişaf edən sektorlardan biri olmuşdur. Belə ki, son 5 ildə Azərbaycanda turizm sektorunda xidmət göstərən sahibkarlıq subyektlərinin və turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında müvafiq olaraq 4,5 və 8,5 faiz[1] ortaillik sabit artım müşahidə edilmişdir. Hazırda turizm sənayesinin ölkə üzrə ÜDM-də və məşğulluqda birbaşa payı müvafiq olaraq 4,5 və 3,3 faiz[2] təşkil edir. Bakı şəhəri beynəlxalq miqyasda tanınan turizm məkanları ilə biznes və istirahəti üstün tutan turistləri cəlb etmək baxımından daim turizm sektorunun inkişafının əsas təkanverici qüvvəsi olmuşdur. Çoxsaylı turizm altsektorlarının inkişafı isə, əlavə olaraq, regional turizmin inkişafına da təkan vermişdir. Təhlillər göstərir ki, qonşu ölkələrdən daha çox turist cəlb etməklə, həmçinin qlobal miqyasda daha çox tələbatın olduğu ölkələr üçün ixtisaslaşmış turizm məkanına çevrilməklə Azərbaycanın hər iki sahə üzrə üstünlüyü daha da artırıla bilər.

Mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcəkdir. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirmək, mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin maksimuma çatdırılmasını təmin etməkdir. Qeyd olunan məqsədlərə nail olmaq üçün hava əlaqəsinin və əlçatanlığın artırılması, çoxsaylı turizm növləri üzrə fiziki və sosial infrastrukturun və s. təkmilləşdirilməsi, yerli dəyərlərin beynəlxalq aləmdə uğurlu təbliği mühüm əhəmiyyət kəsb edir.

Birbaşa xarici investisiyaların dəstəyi ilə turizm sektorunda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri bu artımın əsas təkanverici qüvvəsi olacaqdır. İnkişaf prosesləri ekoloji dayanıqlılıq prinsiplərinə əsaslanaraq, Azərbaycanda kəndlərin və bütövlükdə, regionların inkişafının mühüm komponentinə çevriləcəkdir.

[1] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[2] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Bu sektor üzrə uzunmüddətli perspektivə nail olmaq məqsədilə 2020-ci ilədək olan dövr üçün ölkə üzrə turizm sektorunda dörd əsas hədəf müəyyənləşdirilmişdir. Birinci hədəf Bakının turizm potensialından tam istifadə etməkdir. Hazırda Bakı şəhəri daha yaxşı inkişaf etmiş infrastruktura malik olmaqla, çoxsaylı xarici turistlərin marağını cəlb etməkdədir. Bu istiqamətdə müəyyənləşdirilmiş dörd prioritet Azərbaycanın bu perspektivə nail olmasına imkan verəcəkdir. Potensialdan daha səmərəli istifadə məqsədilə xüsusi idarəetmə mexanizminin yaradılması, məlumatlılığın daha da artırılması, turist xidməti paketlərinin yenilənməsi, müxtəlif turizm fəaliyyət növlərinin səmərəli təbliği və turizm infrastrukturunun məqsədyönlü inkişafı nəzərdə tutulur. İkinci hədəf milli səviyyədə daha yaxşı idarəetmənin təşkili, turizm və rekreasiya zonalarının yaradılması, mövsümiliyin aradan qaldırılması üçün regional səviyyədə turizm infrastrukturunun inkişafı, hava əlaqələrinin yaxşılaşdırılması, viza prosedurlarının sadələşdirilməsi də daxil olmaqla, turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılmasıdır. Üçüncü hədəf regional turizm təşəbbüslərini həyata keçirməklə Azərbaycanda turizmi inkişaf etdirməkdir. Belə ki, daha yaxşı inteqrasiya olunmuş turizm sektoruna nail olmaq üçün sağlamlıq, qış və ekoturizm kimi turizm növlərinin inkişafına investisiya qoyuluşları həyata keçiriləcəkdir. Dördüncü hədəf turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşunu həyata keçirməkdən və turistlərin məmnunluğunu artırmaq üçün standartlaşdırma və sertifikatlaşdırma sistemini təkmilləşdirməkdən ibarətdir.

2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş hədəflərin reallaşması nəticəsində Azərbaycanda 2020-ci ildə real ÜDM-in birbaşa 293 milyon və dolayı 172 milyon manatadək artacağı, cəmi 35 min olmaqla bilavasitə turizm sektorunda 25 min iş yerinin yaradılacağı proqnozlaşdırılır. Təsirin gerçəkləşdirilməsi dövlət-özəl resursları hesabına 350 milyon manat həcmində investisiya qoyuluşunu tələb edir. Turizm sektorunda göstərilən əsas təşəbbüslər Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əlaqələndiriləcəkdir.

Cədvəl 1. Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə gözlənilən nəticələr

№	Prioritetin adı	ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(tam ştatlı işçilər, 2020)*	İnvestisiya məbləği *(milyon manatla)*
1.1.	Milli Turizm Təbliğat Bürosunun yaradılması və ilk olaraq Bakı şəhərində fəaliyyətinin təmin olunması	10	—	—
1.2.	Bakı şəhərindəki cəlbedici turizm məkanlarına dair məlumatların və turist xidmət paketlərinin yenilənməsi	50	8500	15
1.3.	Bakı şəhəri üzrə təbliğat-təşviqat tədbirlərinin keçirilməsi	230	16000	100

1.4.	Bakı şəhərinin turizm infrastrukturunun, o cümlədən uyğun qiymətə mehmanxana və cəlbedici turizm məkanlarının inkişaf etdirilməsi	70	6200	100
2.4.	Viza rəsmiləşdirilməsi proseslərinin və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi	30	—	—
2.5.	Əsas tələb bazarları ilə hava əlaqəsinin təkmilləşdirilməsi	30	—	—
3.1.	Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması	5	150	15
3.2.	Qış turizminin inkişafının dəstəklənməsi	20	300	15
3.3.	Mədəni turizm marşrutlarının yaradılması	20	3700	95
4.1.	Turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşu	—	150	10


Qeyd 1. Bu cədvəldə yalnız 2020-ci ildə real ÜDM-də 10 milyon manatdan çox artıma və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.

Qeyd 2. Bu rəqəmlər prioritetlərin təsirləri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli təhlillərin aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.

2. QLOBAL TRENDLƏR

Beynəlxalq təcrübədə ölkənin istehsal potensialının, əhalinin gəlirlilik səviyyəsinin və məşğulluğunun artımında və digər sektorların inkişafında turizm sektorunun əhəmiyyətli təsiri müşahidə olunmaqdadır. Belə ki, statistik göstəricilərə əsasən, 2015-ci ildə turizm sektorunun dünya ÜDM-ində ümumi payı 9,8 faiz, məşğulluğunda isə 9,5 faiz olmuşdur (şəkil 1).

Şəkil 1. Turizm sektorunun dünya ÜDM-ində və məşğulluğunda pay göstəriciləri




Mənbə: Dünya Səyahət və Turizm Şurası

Turizm sektoru iqtisadiyyatın sürətlə inkişaf edən sektoru olmaqla davamlı dəyişən demoqrafik göstəricilərə və müxtəlifləşən coğrafiyaya malikdir. Turizm sektoru iqtisadiyyatın həssas sektoru kimi qlobal iqtisadi böhranların təsirinə birbaşa məruz qalmasına baxmayaraq, 2009-cu ildən etibarən dördillik müddət ərzində böhranın təsirindən çıxaraq yenidən sürətli inkişafa başlamışdır (şəkil 2).

Bu trendin əsasını iki mühüm amil təşkil edir. Bir tərəfdən ABŞ, Yaponiya və Avropanın bir çox inkişaf etmiş ölkələrində müşahidə olunan iqtisadi canlanma nəticəsində həmin ölkələrdən gəlmə turistlərin və müvafiq olaraq onların gəlirlilik səviyyəsinin artması, eləcə də orta sinfin genişlənməsi, digər tərəfdən dövlətlərin turizmin inkişafına artan dəstəyi nəticəsində Asiya və Latın Amerikası ölkələrində də turizm sektorunun inkişafı, həmçinin aşağıbüdcəli hava nəqliyyatı xidmətlərinin mövcudluğu bu sektordakı artımın əsas təkanverici amilləri qismində çıxış edir.

Şəkil 2. Turizm sektorunun əlavə dəyər göstəriciləri *(milyard ABŞ dolları, 2011-ci ilin real qiymətləri ilə)*



1. *Okeaniya ölkələri də daxil olmaqla*

Mənbə: Dünya Səyahət və Turizm Şurası

Bu sektorun inkişafı Avropa və Şimali Amerikada mövcud olan ənənəvi turizm mərkəzləri ilə yanaşı, yeni turizm mərkəzlərinin də yaranmasına səbəb olmuşdur. Belə ki, 2015-ci ildə inkişaf etməkdə olan ölkələrdə yaradılmış turizm mərkəzləri inkişaf etmiş ölkələrlə müqayisədə çoxdur. BMT-nin Dünya Turizm Təşkilatının proqnozlarına əsasən, beynəlxalq turizm sənayesinin davamlı inkişafı nəticəsində xarici turistlərin sayı ildə orta hesabla 43 milyon nəfər artmaqla, 2030-cu ilədək 1,8 milyard nəfərə çatacaqdır. Yeni yaranmış turizm mərkəzlərində xarici turistlərin sayı ənənəvi turizm mərkəzləri ilə müqayisədə 2 dəfə çox olacaqdır.

Statistik təhlillərə əsaslanan proqnozlar turizmin iqtisadiyyatdakı çəkisinin əhəmiyyətli olduğunu deməyə əsas verir. Belə ki, bu sektor, eyni zamanda, sosial-iqtisadi inkişafın əsas təkanverici qüvvəsi kimi dünyanın bir çox ölkələrinin milli iqtisadi prioriteti hesab edilir. Ümumilikdə isə turizmin təsiri üç əsas kateqoriyaya bölünür.

Birincisi, hava nəqliyyatı, mehmanxanalar, avtomobil kirayəsi ilə məşğul olan şirkətlər kimi turizm altsektorlarının ÜDM-ə birbaşa təsirindən əlavə, digər sektorların da dolayı təsiri turizmin əhəmiyyətini daha da artırmaqdadır. Turizm sektorunun birbaşa və dolayı təsirlərindən başqa, xidmət, tikinti, habelə istehsal sektorlarını əhatə edən və onlar vasitəsilə ÜDM-i artıran induksiya edilmiş təsirləri *("induced impact")* də mövcuddur. Bundan əlavə, turizm sektoru inkişafda olan və keçid dövrünü yaşayan ölkələr üçün xarici valyuta daxilolmalarının da əsas təminatçısı qismində çıxış etməkdədir.

İkincisi, turizm sektorunun inkişafının məşğulluğa və regionların sosial-iqtisadi inkişafına təsiridir. Belə ki, bu sektorda istənilən inkişaf yalnız şəhərlərdə deyil, eyni zamanda, ekoturizm, kənd turizmi, çimərlik və dini turizm kimi çoxsaylı turizm növlərinin inkişafı vasitəsilə regionlarda və kənd yerlərində də məşğulluq imkanlarının yaradılmasına təkan verir.

Üçüncüsü, turizmin inkişafı ölkə üzrə güclü infrastrukturun yaradılması ilə müxtəlif regionların, o cümlədən kəndlərin infrastrukturunun inkişafına səbəb olur. Əlavə olaraq, uğurlu turizm strategiyası ölkənin imicinin beynəlxalq miqyasda yaxşılaşdırılmasına kömək etdiyindən turizm həm də ölkələr üçün marketinq aləti rolunu oynayır. Nəhayət, turizm sektoru ekoloji dayanıqlılıq, mədəni irs, yerli dəyərlərin mühafizəsi və inkişafı istiqamətində göstərilən səyləri də dəstəkləyir.

Ümumiyyətlə, hesab edilir ki, turizm sektorunda cəlbedici münasib təkliflər uyğun olaraq öz tələbatını yaratmaqdadır. Belə ki, hər bir turizm məkanı özünün təbii xüsusiyyətlərinə, mədəni irsinə və xidmət infrastrukturuna görə müqayisəli üstünlüyə malikdir. Məqsədyönlü tədbirlər bu aktivləri digər sektorlardan daha sürətlə turizm sektorunun rəqabət üstünlüyünə çevirə bilər. Bu cür səylər üç əsas amili əhatə edir: əsas vasitələrin təchiz edilməsini (məsələn, hava əlaqəsi, infrastruktur, təhlükəsizlik və s.), cəlbedici turizm təkliflərini (məsələn, nəzərdən keçirilən turizm növlərindən asılı olaraq, çimərlik istirahəti, əyləncə parkları və s.) və bunların uğurlu marketinqinin təşkilini. Bunların həyata keçirilməsi üçün ölkədə və ölkədən kənarda turizm imkanlarının geniş təbliği, beynəlxalq səviyyədə turoperatorlar ilə əməkdaşlıq və ölkənin imicinin dəstəklənməsi istiqamətində müxtəlif tədbirlərin təşkili mütləqdir.

Digər tərəfdən turizm sektorunun inkişafı üçün güclü koordinasiya tələb olunur. Bu kontekstdə, turizm sektoru ilə bağlı inkişaf strategiyasının müəyyən edilməsi, maraqlı tərəflərin koordinasiyası və müxtəlif turizm növlərinin inkişafının idarə edilməsi kimi məsələləri əhatə edən dövlət siyasəti turizm sektorunun rəqabətqabiliyyətliliyinin əsas təkanverici qüvvəsidir. Bunun nəticəsidir ki, əksər ölkələr turizm sektorunda inkişafı təmin etmək üçün turizmlə bağlı mövcud siyasətin koordinasiyasını qurmuş və turizmlə bağlı marketinq tədbirlərini həyata keçirmişlər.

Turizm sektorunun inkişafına nail olmaq üçün turizm növlərinə də xüsusi diqqət yetirməklə, tələb və təklifin məqsədyönlü şəkildə uzlaşmasını təmin etmək tələb olunur. Təklif nöqteyi-nəzərindən hər bir turizm növü üzrə rəqabətqabiliyyətli sahələrin araşdırılmasına və həmin sahələr üzrə rəqabətin təmin edilməsinə ehtiyac vardır. Tələb faktoru baxımından isə bazarlara yaxınlıq, viza rejimi və nəqliyyat əlaqələri, o cümlədən birbaşa uçuşların mövcudluğu ən əsas hərəkətverici mexanizmlərdir. Buna əlavə olaraq, sosial, demoqrafik və səyahətlə bağlı davranışların öyrənilməsi ən səmərəli proqramların qurulmasına kömək edə bilər.

Qlobal miqyasda işgüzar turizm və şəhər turizmi ölçüsünə görə ən böyük turizm növü olmaqla, kruiz, dini və idman turizm növlərini də əhatə edir. Daha kiçik turizm növlərinə isə tibbi turizm, ekoturizm və əyləncə parkları aiddir. ABŞ, Avropa İttifaqı ölkələri və ya Yaponiya kimi ənənəvi və kütləvi turizm ölkələrinin yaxınlığında yerləşən ölkə və şəhərlər davamlı artıma nail olmaq istiqamətində öz turizm təkliflərini yaxşılaşdırmaq məqsədilə turizm strategiyalarında işgüzar və şəhər turizmi kimi geniş yayılmış turizm növlərinə xüsusi diqqət yetirirlər. Bu sahəyə diqqət regional bazarlarda, xüsusilə Yaxın Şərq və Asiya kimi inkişafda olan ölkələrdə də artmaqdadır. Ölkələr, ümumiyyətlə, daha çox ixtisaslaşmış turizm təkliflərini artırmağa çalışırlar, belə ki, müvafiq turizm növlərinin və strategiyanın seçilməsi ölkənin mövcud müqayisəli üstünlüklərindən çox asılıdır. Məsələn, sağlamlıq turizmi bəzi ölkələr üçün uğurlu inkişaf sahəsi olsa da, başqa bir ölkədə səmərə verməyə bilər.

Ümumiyyətlə, turizm sənayesinin dəyişən dinamikasına müvafiq olaraq son illərdə turizm strategiyasının inkişafı sahəsində beş əsas istiqamət qlobal trend kimi müəyyənləşdirilmişdir.

Birincisi, ölkələr və turizm məkanları turizm brendinin hazırlanmasına və təbliğinə daha çox diqqət yetirirlər. Dünya miqyasında yeni biznes modelləri, sosial şəbəkə və güclü istehlakçı kütləsinin formalaşması qlobal bazarı nəzərəçarpacaq şəkildə dəyişmişdir. Turistlərin sayının artmasını nəzərə alaraq, fərqli maraq dairəsinə malik turistlərə xidmət məqsədilə turizm sektoru mümkün olan bütün seçimləri və növləri diversifikasiya etmişdir. Turizm məkanlarının geniş seçimini təmin etməklə yanaşı, bu amillər yeni bazar təmayüllərinə uyğunlaşmaq üçün mövcud struktur və marketinq strategiyalarının yenidən qiymətləndirilməsi zərurətini ortaya çıxarmışdır. Bu baxımdan, dövlət və özəl sektorun nümayəndələri eksklüziv və innovativ təklifləri artırmaqla ixtisaslaşmış turizmi, müxtəlif biznes modellərini və

məhsul brendlərini hədəfləyərək, turizm mərkəzlərini daha da təşviq etmək üçün təşəbbüslər həyata keçirməyə çalışırlar.

İkincisi, dünya ölkələrində mühüm amil kimi hava əlaqəsinin və əlçatanlığın gücləndirilməsinə xüsusi diqqət yetirir. Belə ki, qabaqcıl ölkə təcrübələrində iqtisadi səmərə üçün milli aviadaşıyıcıya sahib olmaqla yanaşı, həm də uyğun qiymətə aviabiletlərin təşkili məqsədilə müxtəlif istiqamətli tədbirlər görülür və bazarın genişləndirilməsi təmin edilir. Bundan əlavə, əksər ölkələr ciddi investisiya qoyuluşu həyata keçirmədən əlçatanlığın yaxşılaşdırılması məqsədilə viza proseslərini asanlaşdıracaq tədbirlər həyata keçirirlər.

Üçüncüsü, turizm məkanları üzrə flaqman layihələr sektor strategiyasının həyata keçirilməsi baxımından mühüm element hesab edilir. Flaqman layihələr sektor strategiyasını dəstəkləyən operativ, böyükmiqyaslı və nəzərəçarpan investisiya layihələridir və daha geniş islahatların həyata keçirilməsində həm güclü əlaqə vasitəsi, həm də marketinq aləti rolunu oynaya bilər. Nəhayət, bu cür layihələr coğrafi əhatə dairəsini kiçiltmək və islahatların mürəkkəbliyini azaltmaqla, bütövlükdə sektor üçün səmərəli təsir göstərə bilər.

Dördüncüsü, master planın inkişafı turizm sektorunun sürətli inkişafı üçün əsas alət kimi istifadə edilir. Qurumlar bu planların hazırlanmasına və icrasına məsuliyyət daşıyır və bu master plan proseslərin sadələşdirilərək investorlar üçün cəlbedici edilməsi ilə yanaşı, həm də inteqrasiya edilmiş brend strategiyasının tətbiqinə də şərait yaradır. Dövlət təşkilatları master planda bu inkişafın ayrılmaz tərkib hissəsi kimi nəzərdən keçirilir, nəqliyyat və ya ətraf mühitin mühafizəsi üzrə fəaliyyətlərinin genişləndirilməsi nümunəsində tələb edilən infrastrukturun məqsədyönlü planlaşdırılması işinə xidmət edirlər.

Beşincisi, inkişafda olan ölkələr turizmin inkişafı üçün birbaşa xarici investisiyalara daha çox üstünlük verir. Bu, əsasən, bəzi inkişaf prosesləri üzrə yüksək investisiya qoyuluşlarının tələb edildiyi, xüsusən də infrastruktura investisiya qoyuluşlarının zəruri olduğu hallarla daha çox bağlıdır. Bununla belə, dəyər zəncirində ən çox beynəlxalq şirkətlər iştirak etdiyinə görə, investisiyaya tələb zəruri olmadığı hallarda belə, beynəlxalq investorlarla əməkdaşlıq səmərəli ola bilər.

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Turizm sektorunun mövcud vəziyyəti

Turizm siyasətinin çərçivələri

Son illərdə turizm sektorunun inkişafı istiqamətində bir sıra məqsədyönlü tədbirlərin həyata keçirilməsi bu sektorun davamlı inkişafına səbəb olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 27 avqust tarixli 1029 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış və ölkəmizin beynəlxalq turizm bazarına inteqrasiyasının əsası qoyulmuşdur.

Bu siyasətin davamı olaraq Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 6 aprel tarixli 838 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilmişdir.

Azərbaycan Respublikasında turizm sektorunun daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılması zərurətini nəzərə alaraq, turizm ehtiyatlarından daha səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin, eləcə də xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 1320 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasında 2011-ci il "Turizm ili" elan edilmişdir.


Ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq standartlara cavab verən turizm xidmətlərinin formalaşdırılması bu sahənin qanunvericilik bazasının və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsini, mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsini, regionlarda turizm fəaliyyətinin stimullaşdırılmasını, yeni turizm marşrutlarının yaradılmasını, habelə rəqabətədavamlı qiymət təklifinin təmin edilməsini zəruri edir. Bu məqsədlə "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamında müvafiq dövlət qurumlarına bir sıra tapşırıqlar verilmişdir.

Azərbaycan iqtisadiyyatında turizmin rolu

Azərbaycan, Şərqlə Qərbin qovuşmasında yerləşən müasir infrastrukturu və qədim zəngin tarixi abidələri olan paytaxt Bakı şəhərindən başlamaqla, ecazkar təbiətə və milli parklara malik regionları ilə məşhurdur. Ancaq təsadüfi deyildir ki, Bakı şəhəri Azərbaycanın qlobal turizm sektorundakı payının böyük bir hissəsinə sahibdir. Turizm üzrə məşhur internet portallarının məlumatına görə, ölkəyə gələn xarici turistlərin üstünlük verdikləri turizm mərkəzlərinin 75 faizi[3] Bakıda yerləşir. Digər hissə isə gələcəkdə artımdan xəbər verən regional turizmin payına düşür.

[3] "Lonely Planet" və "Trip Advisor" internet səhifələrinin məlumatlarına əsasən

Şəkil 3. Turizm sektoruna dair ölkə üzrə əsas göstəricilər




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Son təhlillərin nəticəsi göstərir ki, Azərbaycanın turizm sektoru, bütövlükdə, yüksəliş dövrünü yaşayır. 2010-2015-ci illər ərzində Azərbaycanda turizm müəssisələrinin sayında ortalama ildə 4,5 faiz, turizm sahəsində məşğulluq səviyyəsində ildə 6 faiz, turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında isə 8,5 faiz artım müşahidə edilmişdir (şəkil 3)[4]. Dünya Səyahət və Turizm Şurasının məlumatlarına əsasən, Azərbaycanda turizm sektoru birbaşa ÜDM-in 2,8 faizini, məşğulluğun isə 2,6 faizini təşkil edir ki, bu da dünyada orta hesabla 3 faiz birbaşa ÜDM və 3,6 faiz birbaşa məşğulluq göstəricilərindən cüzi fərqlənir. Bu isə gələcək inkişaf potensialından xəbər verir (şəkil 4).

[4] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dünya Səyahət və Turizm Şurası və Dünya Bankı

Şəkil 4. Ölkə və regionlar üzrə turizm sektorunun ÜDM və məşğulluqdakı payı *(faizlə)*



Mənbə: Dünya Səyahət və Turizm Şurası

Qeyd olunanları nəzərə alaraq, turizm üzrə uğurlu layihələrin həyata keçirilməsi istiqamətində müvafiq infrastrukturun yaradılması, regionlarda yerli əhalinin gəlirlərinin artırılması ilə bağlı maarifləndirmə işlərinin aparılması, müxtəlif çeşidli turizm marşrutlarının hazırlanması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın müxtəlif turizm növləri üzrə potensialı

Dünya təcrübəsində yüksək gəlir əldə etmək potensialına malik olan turizm məhsulları və xidmətləri daim diqqət və istehlakçı istəklərinə uyğunlaşma tələb edir. Azərbaycan Respublikasında turizm məhsulunun inkişafı üçün özəl təşəbbüslərin dəstəklənməsi, yerli və regional səviyyədə əlverişli koordinasiyanın qurulması, bütün diqqətin istehlakçının tələbinə yönəldilməsi, məhsulun inkişafında regional və tematik hədəfin gücləndirilməsi, həmçinin maraqlı və cəlbedici məhsulların bir-biri ilə əlaqələndirilməsi vacib məqamlardandır. Ümumiyyətlə, Azərbaycanın bir çox turizm növləri üzrə potensialı vardır və həmin potensialın reallaşdırılması üçün dövlətin, eləcə də özəl sektorun davamlı dəstəyi vacib faktorlardandır.

Mədəni turizm

Mədəni turizm regionların mədəni irsini, əhalisinin həyat tərzini, tarixini, incəsənətini, memarlığını, dinini və s. əhatə edən turizm növü kimi müəyyən olunur. Mədəni turizm şəhərlərdə, həmçinin kənd yerlərində tarixi məkanlara, mədəniyyət obyektləri olan qoruqlara, abidələrə, muzeylərə, teatrlara, köhnə və yeni memarlıq nümunələrini, eləcə də yerli əhalinin həyat tərzini və milli dəyərlərini əks etdirən festivallara və bayramlara ziyarəti nəzərdə tutan turizm növüdür. Məlum olduğu kimi, mədəni turizm məqsədilə ölkəyə gələn şəxslər adi turistlərlə müqayisədə öz pullarının çox hissəsini xidmətlərə xərcləyirlər. Turizmin bu növü bütün dünyada artıq kifayət

qədər məşhurlaşmışdır. Ölkənin mədəni turizm potensialına Bakıda incəsənət qalereyaları, milli musiqi növü – muğam, yaxşı inkişaf etmiş dünya caz musiqisi, milli və xarici rəqslər, ləziz dada malik zəngin mətbəx, bütün fərqli dini və dünyəvi görüşlərə tolerant yanaşma nümunə kimi göstərilə bilər.

Tarixi marşrutlar da (məsələn, Böyük İpək Yolu, məşhur hərbi yürüşlər, tarixi döyüş yerləri və s.) mədəni turizmin bir hissəsi olmaqla müxtəlif əraziləri əhatə edir. Turistlərin zövqünə uyğun əlavə xüsusiyyətlərin nəzərə alındığı tarixi və mədəni xarakterli turizm marşrutları dünyada daha yaxşı qəbul olunur və bu səbəbdən Azərbaycan Respublikası üçün də potensial turizm məhsulu kimi qəbul edilə bilər.

Sağlamlıq turizmi

Azərbaycanda həm ənənəvi, həm də müasir müalicə imkanları mövcuddur. Ölkədə isti və mineral bulaqların sayı minlərlədir və bunlardan İstisu, Turşsu, Badamlı, Qalaaltı, Şıxburnu, Suraxanı suları ən tanınmış müalicəvi su mənbələrindəndir. Eləcə də Azərbaycanın ən mühüm kurort resurslarından biri Naftalan neftidir. Naftalan neftindən yel xəstəliyinin, damarlarda və hərəkət orqanlarında olan xəstəliklərin, həmçinin maddələr mübadiləsinin pozulması, dəri və ginekoloji xəstəliklərin müalicəsi zamanı istifadə olunur. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası nadir duz dağı ilə çox məşhurdur.

Dağ və qış turizmi

Dağ və qış turizm növləri Azərbaycanda perspektivli sahələrdəndir. Belə ki, Azərbaycan Respublikasının dağlıq ərazilərində turizmdən istifadə imkanları mövcuddur. Bu ərazilər əsasən təbiəti sevən, quşları və vəhşi heyvanları müşahidə etməyi, fiziki gərginliyi və həyəcanlı idman növlərini xoşlayan şəxslərin daxil olduğu xüsusi turist qruplarını cəlb edir. Ölkə ərazisində dağ və qış turizminin inkişafı istiqamətində atılmış məqsədyönlü addımlar nəticəsində dağların yamacları turizm məkanı kimi inkişaf etdirilmişdir. Belə ki, bu gün “Şahdağ” Turizm Mərkəzi QSC və “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi kimi istirahət zonaları məşhur istirahət mərkəzlərinə çevrilmişdir.

İdman turizmi

Ümumiyyətlə qeyd etmək lazımdır ki, idman Azərbaycanda ən sürətlə inkişaf edən sahələrdəndir. Son illərdə idman infrastrukturunun inkişafına böyükhəcmli maliyyə vəsaiti qoyulmuşdur. Belə ki, Bakı, Masallı, Şəki, Quba, Qazax, Gəncə, Naxçıvan, Bərdə, Lənkəran, Zaqatala, Şamaxı, Ağdam, Biləsuvar, Oğuz, Şəmkir, Kürdəmir, Sabirabad və digər şəhər və rayonlarda olimpiya kompleks və mərkəzlərinin istifadəyə verilməsi, həmçinin müxtəlif sahələr üzrə idman meydançalarının və təsisatlarının yaradılması ölkədə müvafiq idman növləri üzrə nüfuzlu idman yarışlarının (Avropa və dünya çempionatlarının) təşkilinə imkan verir. Buna misal olaraq, güləş, gimnastika, boks, voleybol və s. üzrə beynəlxalq yarışları qeyd etmək olar.

İşgüzar turizm

İşgüzar turizm ölkəmizdə ən geniş yayılmış turizm növlərindən biridir. Hazırda bu turizm növünün inkişafı məqsədilə daha çox ölkə ərazisində mövcud mehmanxanaların imkanlarından istifadə edilir. Lakin ölkənin müxtəlif şəhərlərində yerləşən konqres və mədəniyyət mərkəzləri bu cür tədbirlərin təşkili məqsədilə geniş istifadə edilə bilər.

Çimərlik turizmi

Azərbaycan Respublikasının Abşeron yarımadasından başlamaqla şimal (Xızı, Siyəzən, Şabran, Xaçmaz rayonları) və cənub zonası (Lənkəran, Astara rayonları) çimərlik turizmi potensialına malikdir və bu turizm sektorunun inkişafına nail olmaq üçün gələcəkdə çimərlik ərazilərində xidmət infrastrukturları (su hövzələri, hovuzlar və s.) müvafiq standartlara uyğunlaşdırılmalı və əlavə xidmətlərin təklifi artırılmalıdır (məsələn, əyləncə mərkəzləri, attraksionlar). Bunlarla yanaşı, ölkəmizdə bu turizm növü üzrə ən ciddi çatışmazlıq turizm mövsümünün qısa olmasıdır.

Ekoloji turizm

Azərbaycan zəngin flora və faunası ilə böyük ekoturizm potensialına malikdir. 11 iqlim tipindən 9-unun (yarımsəhra və quru çöl iqlimindən dağ tundra iqliminə kimi) müşahidə olunduğu Azərbaycan ərazisi 4100-dən çox müxtəlif bitki çeşidinin vətənidir. Azərbaycanda bitkilərin müxtəlifliyi təbiət tarixinin dərin izlərini daşıyır. Bu, eyni zamanda, bir neçə floristik bölgələrin cəmləşməsi və hazırkı təbii şəraitin fərqliliyi ilə bağlıdır. Eyni zamanda, Azərbaycan ərazisinin 10 faizi əsasən palıd, vələs, fıstıq, ağcaqayın və göyrüş ağaclarından ibarət dağ meşələri ilə örtülüdür. Bu imkanlardan istifadə edərək açıq təbiətə (dağlara, çaylara, meşələrə) turist gəzintiləri və ekskursiyalar təşkil oluna bilər.

Ov turizmi

Azərbaycanda müvafiq lisenziyası olan ovçulara bir çox meşə heyvanlarını və çöl quşlarını ovlamaq imkanı verilir. Ölkədə su-bataqlıq quşlarının daimi qışladığı yerlərə Ağcabədi, Astara, Cəlilabad (Qırmızı kənd ovçuluq təsərrüfatı istisna olmaqla), Beyləqan, İmişli (Sarısu və Bozqobu ovçuluq təsərrüfatları istisna olmaqla), Lənkəran (Havzava ovçuluq təsərrüfatı istisna olmaqla), Masallı, Biləsuvar (Mahmudçala və Zavvar ovçuluq təsərrüfatları istisna olmaqla), Ceyranbatan gölü və Abşeron yarımadasının başqa su anbarları, həmçinin Mingəçevir su anbarını aid etmək olar. Dağkeçisi və digər meşə heyvanları isə xüsusi icazə əsasında Quba, İsmayıllı və Şəki rayonu ərazilərindəki ovçuluq təsərrüfatlarında ovlana bilər.

Azərbaycan üçün əsas turizm bazarı imkanları

Azərbaycan dünyanın, demək olar ki, hər bir ölkəsindən turistlər qəbul edir. Ölkənin turizm prioritetləri mövcud olan imkanlardan maksimum istifadə etməklə beş əsas mənbədən formalaşır:

- Azərbaycan (yerli turistlərin tələbatı);
- Türkiyə, İran, Gürcüstan və Rusiya da daxil olmaqla qonşu ölkələr;
- Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, İraq, Oman, Qətər və Birləşmiş Ərəb Əmirlikləri də daxil olmaqla Fars körfəzi regionu ölkələri;
- Qazaxıstan, Ukrayna və Özbəkistan da daxil olmaqla Müstəqil Dövlətlər Birliyinə üzv ölkələr (MDB);
- Kanada, Çin, Avropa İttifaqı, Hindistan, Yaponiya, Cənubi Koreya və Amerika Birləşmiş Ştatları da daxil olmaqla kütləvi turizm ölkələri.


Azərbaycan

Azərbaycanda yerli turizm geniş yayılsa da, artım üçün ciddi imkanlar mövcuddur. Belə ki, 2015-ci ildə turizm məqsədilə ölkə daxilində 1,5-2 milyon Azərbaycan vətəndaşının səyahət etməsi[5] bu göstəricinin növbəti illərdə də artan templə davam edəcəyini deməyə əsas verir.

Qonşu ölkələr

Azərbaycanın turizm sektoruna xaricdən tələbat daha çox Gürcüstan, İran, Türkiyə və Rusiya kimi qonşu ölkələrdəndir və bu ölkələrin də hər birindən Azərbaycana 2015-ci ildə 100 min nəfərdən çox turist axını[6] olmuşdur. Coğrafi yaxınlıq, ümumi mədəni dəyərlər və Azərbaycan əsilli əhalisinin olması bu ölkələrdən yüksək turist axınına səbəb olan amillərdəndir. Eyni zamanda, bu göstərici Azərbaycana qohum ziyarətinə gələn etnik azərbaycanlıları da əhatə edir. Ümumiyyətlə, dörd region ölkəsindən olan turist səfərləri üzrə Azərbaycan, ən əsas turizm mərkəzlərindən biri olmaqla, Gürcüstan və Türkiyənin başlıca rəqiblərindəndir (şəkil 5). Bununla belə, Gürcüstandan Türkiyəyə gedən turistlərin sayı Gürcüstandan Azərbaycana gələn turistlərin sayından üç dəfə, İrandan Türkiyəyə gedən turistlərin sayı isə İrandan Azərbaycana gələn turistlərin sayından 10 dəfə çoxdur.

Şəkil 5. Əsas turizm tələb ölkələrinin turizm mərkəzi kimi Azərbaycana üstünlük verməsi üzrə göstəricilər *(2015-ci il)*



Mənbə: Euromonitor

2009-2015-ci illər ərzində bəzi qonşu ölkələrdən Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayında artım müşahidə edilmişdir. Belə ki, Türkiyədən gələn ziyarətçilərin sayında 8 faiz, Rusiyadan gələn ziyarətçilərin sayında 2 faiz və Gürcüstandan gələn ziyarətçilərin sayında 1 faiz illik sabit artım tempi müşahidə olunmuşdur.[7] Bununla belə, həmin illər ərzində İrandan Azərbaycana gələn

[5] Azərbaycanda yerli turistlərin sayı turizm məqsədilə ölkəyə gələn xarici ölkə vətəndaşlarının sayı ilə turizm məqsədilə yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayı arasındakı nisbətə müvafiq olaraq yuvarlaqlaşdırılmaqla hesablanmışdır.
[6] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[7] Mənbə: Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Dövlət Statistika Komitəsi

ziyarətçilərin illik sabit artım tempində 12 faiz azalma əlavə araşdırma mövzusudur. Eynilə Türkiyə kimi, Azərbaycan da Gürcüstan, İran və Rusiya kimi ölkələrdən gələn turist sayı üzrə artım tempinin yüksəldilməsini hədəf kimi müəyyənləşdirərək, həmin ölkələrdən Azərbaycanın turizm sektorunda mühüm əhəmiyyət kəsb edən mədəni və irsi baxımdan yaxın olan turistlərin cəlb edilməsində maraqlı ola bilər. Vizanın əldə edilməsinin asanlığı, güclü biznes və mədəni əlaqələri, Avropanın üçüncü ən böyük hava limanı olan İstanbul Atatürk Hava Limanı ilə Heydər Əliyev Beynəlxalq Hava Limanı arasında müntəzəm və nisbətən uyğun qiymətə uçuşların olmasına görə Azərbaycanda turizm sektorunun inkişafı nöqteyi-nəzərindən Türkiyə də xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, Rusiyada iki milyon, İranda on milyonlarla, Gürcüstanda isə yarım milyondan çox etnik azərbaycanlının yaşadığını nəzərə aldıqda, gələcək illərdə qonşu ölkələrdən daha çox turist cəlbetmə potensialının olduğunu görmək mümkündür.

Körfəz regionu və MDB ölkələri kimi kütləvi turizm mənbələri

Körfəz regionu, MDB üzvü olan Orta Asiya ölkələri və digər kütləvi turizm mənbələrinin hər birindən Azərbaycana 2014-cü ildə 20000 nəfərdən az turist gəlmişdir. Lakin bu cür tələb bazarlarından hər biri Azərbaycanda turizm sektorunun genişləndirilməsi baxımından unikal imkanlar təklif edir. Belə ki, kütləvi turizm ölkələri blokundan 2014-cü ildə xaricə ümumilikdə 450-500 milyon turist səfəri olmuş və bu cür ölkədən gedən turistlərin ümumi sayında illik 4,2 faiz artım müşahidə edilmişdir.[8] Beləliklə, bu bazarda böyük paya malik olmaq Azərbaycanın turizm sektoruna ciddi töhfə verə bilər.


Körfəz regionu ölkələrinin vətəndaşları üçün hava limanında viza rəsmiləşdirməsi təcrübəsinin tətbiqinə başlanıldıqdan sonra həmin ölkələrdən Azərbaycana gələn turistlərin sayında ciddi artım müşahidə edilmişdir. Məsələn, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayı 2014-cü ildə 821[9] nəfər olduğu halda, 2016-cı ilin doqquz ayında 38931[10] nəfərədək artmışdır. Bundan əlavə, İraqdan gələn turistlərin sayında son dövrlərdə müşahidə olunan artımı da qeyd etmək olar. Bu trend Qərbdə yerləşən bir çox inkişaf etmiş turizm məntəqələrinə nisbətən yaxın məsafədə yerləşən Azərbaycan üçün belə bazar potensialının olduğunu göstərir.

Bununla belə, bir sıra ümumi ənənələrə, tarixi və mədəni cəhətlərə malik olan regionların bir çox ölkələri üçün Azərbaycan ixtisaslaşmış turizmdə (ən çox tələbatın olduğu sahə) mərkəz rolunu oynaya bilər. MDB ölkələri də Azərbaycan üçün buna bənzər unikal imkanlar təklif edir. MDB ölkələri ilə Azərbaycanı bir çox ortaq tarixi-mədəni dəyərlərin birləşdirməsi, Azərbaycanın turizm təklifləri barədə həmin ölkə vətəndaşları daha yaxşı məlumatlandırıldığı təqdirdə, ölkəyə çoxlu sayda potensial turistlərin cəlb edilməsinə səbəb ola bilər.

Əsas əhali mərkəzləri[11] Azərbaycan üçün mühüm turizm tələbi məkanlarıdır. Belə ki, Heydər Əliyev Beynəlxalq Hava Limanından Körfəz regionuna, Asiya və Avropanın 26 əsas şəhərinə uçuş məsafəsi qısamüddətlidir (şəkil 6). Hazırda Bakı bu şəhərlərdən mümkün turist sayı, ümumilikdə, 60 milyona yaxın olan 13-ü ilə birbaşa hava əlaqəsinə malikdir. Hava yolu ilə bir saatdan az məsafədə yerləşən İranın Təbriz şəhəri də daxil olmaqla, digər 13 şəhərlə hava əlaqəsinin qurulması qısa uçuş məsafəsində yaşayan 30 milyon insanın da cəlb edilməsinə səbəb ola bilər.

[8] Bu məlumatlar Dünya Bankının məlumatlarının təhlilinə əsaslanır.
[9] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[10] Mənbə: Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi
[11] Burada "əsas əhali mərkəzləri" dedikdə, hər ölkə üzrə yalnız əsas şəhərlər nəzərə alınmaqla, əhalisi 1 milyondan çox olan şəhərlər və/və ya paytaxt şəhərlər nəzərdə tutulur.


Şəkil 6. Azərbaycanla qısamüddətli uçuş məsafəsində olan şəhərlər[1]



1. Heydər Əliyev Beynəlxalq Hava Limanından olan uçuşlar barədə 2016-cı ilin iyul ayına olan məlumat.

Bundan əlavə, İranda Təbriz və Ərdəbil, Rusiyada Mahaçqala, Gürcüstanda Tbilisi kimi dörd əsas metropolis şəhər Bakıdan avtomobillə təxminən yeddi saatlıq məsafədə yerləşir (şəkil 7). Bu dörd metropolis şəhərin əhalisi, ümumilikdə, 3,7 milyon nəfərdir və onlar Azərbaycan üçün potensial turistlər hesab edilə bilərlər.

Şəkil 7. Bakı şəhərindən avtomobillə 7 saatlıq məsafədə yerləşən şəhərlər



UNESCO təşkilatının məlumatlarına əsasən, əksər hallarda qısaməsafəli uçuşları üstün tutan turistlər hədəf kimi müəyyənləşdirilirlər. Bununla belə, uzaq

marşrutlar üzrə sağlamlıq səciyyəli təklifləri də irəli sürmək olar. Misal üçün, Azərbaycan uzaq məsafədən turistləri cəlb etmək üçün sağlamlıq turizmindən (məsələn, Duzdağdakı duz dağında astma xəstəliyinin müalicəsi) bəhrələnə bilər.

3.2. Turizm sektorunun GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
• Azərbaycan ərazisinin qədim tarixə, zəngin mədəni abidələrə, əlverişli coğrafi mövqeyə, cəlbedici təbiətə, folklora malik olması və müxtəlif dinlərin qovşağında yerləşməsi; • konfrans zalları, mehmanxanalar və digər müvafiq xidmət infrastrukturlarının olması; • turizmin inkişafına dövlət dəstəyinin olması; • coğrafi məkan baxımından uyğun mövqedə yerləşməsi – Asiya, Avropa və Yaxın Şərq regionuna yaxın olması; • irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsində təcrübənin olması; • qeyri-neft sektorunun inkişafında turizm sektorunun dövlət tərəfindən prioritet sektorlardan biri kimi müəyyən edilməsi.	• turizm sahəsində kadr hazırlığının keyfiyyət və kəmiyyət baxımından əmək bazarının tələblərinə tam cavab verməməsi; • ətraf mühitin mühafizəsi üzrə çatışmazlıqların olması; • turizm müəssisələrinin əsasən Bakı şəhərində təmərküzləşməsi; • ölkənin regionlarında turizm informasiya mərkəzlərinin az olması; • regionlara səyahətin əsasən avtomobil yolu ilə mümkünlüyü (dəmir və su yolu infrastrukturunun, eləcə də uçuşların yetərli olmaması); • regionlarda xarici dillərdə sərbəst danışanların sayının nisbətən az olması; • ölkə tanıtımının yetərincə təşkil olunmaması; • ölkəyə gələn xarici vətəndaşlara sərhəd-buraxılış məntəqələrində sürətli keçidin tam təmin edilməməsi; • turizm sektoru üzrə təhlillərin aparılması üçün statistik məlumat bazasının kifayət etməməsi; • ölkəyə gələn xarici turistlərin məmnunluq səviyyəsinin ölçülməsi məqsədilə mütəmadi şəkildə monitorinqlərin keçirilməməsi.
İmkanlar	**Təhlükələr**

• işçi heyətin peşəkarlığının artırılması; • yeni turizm xidmətlərinin yaradılması və inkişaf etdirilməsi; • xarici və yerli turistlər üçün səyahət imkanlarının daha da asanlaşdırılması; • ölkənin Naftalan nefti və Naxçıvan Muxtar Respublikasında yerləşən duz dağı kimi dəyərli sərvətlərə sahib olması; • dövlət-özəl tərəfdaşlığı vasitəsilə özəl sektorun turizm sektoruna dəstəyi.	• ölkənin geosiyasi mövqeyindən asılı olaraq yarana biləcək xarici təhlükələr.

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

2020-ci ilədək strateji baxış Bakının tamamilə əsas turizm məkanına çevrilməsinə, ölkə üzrə turizm potensialının reallaşdırılmasına, turizm sənayesinin inkişafı məqsədilə əlverişli mühitin və infrastrukturun formalaşdırılmasına, eləcə də turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaqdır.

Strateji baxışın şərhi

2020-ci ilədək dövrdə Bakı şəhərinin mövcud mədəni-tarixi abidələrinin və müasir infrastrukturunun daha səmərəli istifadəsi və bununla bağlı aparılacaq təbliğat-təşviqat tədbirlərinin daha məqsədyönlü təşkili məqsədilə şəhərin brendinq və marketinqinin idarə olunması mexanizminin təkmilləşdirilməsi, müxtəlif seqmentlərə daxil olan turist maraqlarının qarşılanması məqsədilə viza verilməsi prosedurlarının sadələşdirilməsi, sürətləndirilməsi, eləcə də hava əlaqəsinin təkmilləşdirilməsi kimi dəstək tədbirlərinin həyata keçirilməsi ilə ölkə üzrə əlverişli mühitin formalaşdırılması, regional turizmin inkişafı məqsədilə regionlarda müxtəlif turizm növlərinin inkişafı və bunun üçün lazımi şəraitin yaradılması, turistlərin məmnunluğunun artırılması və daha keyfiyyətli turizm sisteminin yaradılması üçün təhsil proqramlarına investisiya qoyuluşu və turizm sektorunda standartlaşdırma və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi həyata keçiriləcəkdir.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış Azərbaycanın həm region ölkələri arasında, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevrilməsinə nail olmaqdır.

Uzunmüddətli baxışın şərhi

2025-ci ilə qədər Azərbaycanda brendinq və marketinq tədbirlərinin həyata keçirilməsi, hava və quru yolları əlaqələrinin inkişafı, infrastrukturun yaxşılaşdırılması, turizm mərkəzlərinin və onların fəaliyyətinin, eləcə də sahibkarlıq

fəaliyyətinin genişləndirilməsi və turizm sahəsində peşə təhsili istiqamətində bu baxış üzrə əsas nailiyyətlər əldə edilmiş olacaqdır. Bu müddət ərzində turizm sahəsində prioritetlər arasında tarazlı inkişafın təmin olunması əsas məqsəddir. Tarazlı inkişaf yanaşması həm Bakının potensialının reallaşdırılmasına, həm də regionlar üzrə turizm sektoruna investisiya qoyuluşuna (bununla da şəhər, sağlamlıq, qış və ekoloji turizm kimi sahələrdən başqa, dini, kruiz və çimərlik turizmi də daxil olmaqla müxtəlif turizm növlərinin inkişafına) səbəb olacaqdır. Bu investisiyalar 2020-ci ilədək bu Strateji Yol Xəritəsində müəyyən edilmiş prioritetlərin həyata keçirilməsini, o cümlədən təsirləri 2025-ci ilədək uzunmüddətli dövrü əhatə edəcək təşəbbüslərin icrasını da ehtiva edəcəkdir.

Bu, Azərbaycanda beynəlxalq turizmi genişləndirməyə və ümumi daxili məhsulda turizm gəlirlərinin payını artırmağa şərait yaradacaqdır. Bu istiqamətdə məqsədlərə nail olmaq üçün prioritet olaraq müəyyən edilmiş regionlarda brendinq və marketinq tədbirlərini həyata keçirmək məqsədilə Milli Turizm Təbliğat Bürosunun nəzdində şəhər büroları təsis ediləcəkdir. Bürolar daha çox yerli və xarici turistlərin cəlb edilməsinə və onların Azərbaycana olan səfərlərinin tezliyinin artırılmasına kömək edəcəkdir.

Bu bürolar turistlər və səyahətlər haqqında məlumat bazasının yaradılmasını və idarə edilməsini də təmin edəcəkdir. 2025-ci ildən sonra bürolar Azərbaycana səfər edən turistlər ilə bağlı ümumi məsələlərin təhlil edilməsinə və brendinq tədbirlərinin məqsədəmüvafiq qaydada təşkilinə kömək edəcəkdir. 2020-ci ilədək müəyyən edilmiş prioritetlərdə nəzərdə tutulmuş qaydada Bakı üzrə həyata keçiriləcək məlumatlara əsaslanan *(“data-driven”)* marketinq fəaliyyətləri pilot xarakteri daşıyacaq və 2025-ci ilə qədər müddətdə daha da gücləndiriləcəkdir. Ümumi tələb xüsusiyyətlərini və turist seqmentlərini müəyyən etmək məqsədilə Milli Turizm Təbliğatı Bürosu hədəf ölkə qruplarında potensial turistlərlə və Azərbaycana səfər edən digər turistlərlə əlaqədar tədqiqatlar aparacaqdır. Artan turist maraqlarının təhlili həyata keçirilməklə, 2025-ci ilə qədər qarşıya qoyulan məqsədlərə nail olmaq məqsədilə yeni bazar iştirakçıları və turistlər üçün ən yaxşı turizm məkanlarından birinə çevrilməsi istiqamətində Bakının mövqeyi daha da yaxşılaşdırılacaqdır.

Daha çox birbaşa xarici investisiya cəlb etmək məqsədilə Azərbaycanda sadələşdirilmiş hüquqi və inzibati proseslər, həmçinin müvafiq tənzimləyici dəyişikliklər nəticəsində əlverişli mühit yaranacaqdır. Turizm assosiasiyaları ilə əməkdaşlıq çərçivəsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesi nəzərdən keçiriləcək və gələcək perspektivdə görünə bilən bütün maneələrin aradan qaldırılmasına səy göstəriləcəkdir.

Mədəni ornamentlərin və unikal əşyaların istehsalı və satışı həyata keçirilməklə, bu turizm məkanlarının daha yaxşı təbliğinə nail olunacaqdır. Əvvəlcə qonşu ölkələrdən başlamaqla, Naftalan neftindən istehsal edilmiş kosmetik vasitələrin Azərbaycandakı sağlamlıq mərkəzlərinə gələn turistlərə xatirə rəmzi kimi satışı və digər ölkələrə ixracı təmin olunacaqdır. Bununla yanaşı, Azərbaycanın xalça, çay və misgərlik məhsulları kimi digər nadir mədəni məhsulları da bu hədəf ölkələrə ixrac olunacaqdır. Bu, Azərbaycanın iqtisadiyyatı üçün əlavə gəlir mənbəyi olmaqla bərabər, bütövlükdə, Azərbaycan məhsullarının ölkədən kənarda tanınmasına da şərait yaradacaq və Azərbaycan turizminin nüfuzunu artıracaqdır.

2025-ci ilə qədər Azərbaycanın yerləşdiyi region daxilində ən hərəkətli hava limanlarından birinə malik olması məqsədi qarşıya qoyulacaqdır və bu çərçivədə prioritet kimi Avropanın iri şəhərlərini əhatə edən birbaşa uçuşların sayının 49-dan 100-ə çatdırılması hədəflənəcəkdir. Hədəf bazarlardan daha çox turistin cəlb edilməsi məqsədilə qış və yay turizm mövsümü ərzində çarter reyslərinin də sayının artırılması əsas götürüləcəkdir. Əsas diqqət aşağı büdcəli uçuşlar vasitəsilə sərnişin

daşımalarına yönəldilməklə, hava limanlarına da investisiya qoyuluşları təmin ediləcəkdir.

2025-ci ilə qədər Azərbaycanda mükəmməl turizm təcrübəsinə nail olmaq üçün qarşıya qoyulan uzunmüddətli təşəbbüslər istiqamətində regionlarda və Bakıda təkmilləşdirilmiş turizm infrastrukturunun qurulmasına nail olunacaqdır. Mövcud olan aşağı büdcəli yerləşdirmə vasitələrinin (məsələn, böyük mehmanxana şəbəkələrinin aşağı büdcəli brendlərinin, hostellərin) şaxələndirilməsi təmin ediləcək və bununla da mövcud obyektlərə tələbin artması ilə yanaşı, paralel olaraq yeni turizm obyektlərinin yaradılmasına şərait yaranacaqdır.

Turizm sektoru infrastruktur baxımından inkişaf etdikcə, yerli xidmətlərə daha çox diqqət yönəldiləcəkdir. Bəzi yerli kommersiya şirkətləri əsas biznes fəaliyyətindən əlavə, rekreasiya və əyləncə obyektləri kimi geniş turizm xidmətləri təklif edən turizm konqlomeratları kimi də formalaşacaqdır. Sektorda yerli iştirakın güclənməsi regional turizmin artımına ciddi təsir etməklə bərabər, həm də Azərbaycanda xidmətlərin keyfiyyətinə və rəqabətqabiliyyətliliyinə töhfə verəcəkdir. Bu da, öz növbəsində, ölkənin turizm agentliklərinin dünya standartları səviyyəsinə çatmasına, ölkədən kənarda, xüsusilə Qafqaz, Orta Şərq və Şərqi Avropa regionlarında tanınmasına səbəb olacaqdır.

2025-ci ilə qədər Azərbaycan artıq sağlamlıq, qış, mədəni və ekoturizm kimi bir çox ixtisaslaşmış turizm növləri üzrə kifayət qədər tanınmış olacaqdır. Bundan başqa, milli parkların, görməli və dini yerlərin dünya miqyasında tanınmasına, eləcə də Azərbaycanın xarici və yerli turistlər arasında tanınmış turizm mərkəzinə çevrilməsinə səy göstəriləcəkdir. Şimaldən qərbə doğru uzanan “Böyük İpək Yolu” və digər mədəni marşrutlar Azərbaycanın mədəni irsini əks etdirən tarixi kəndləri də əhatə etməklə məşhur ekoturizm mərkəzi olacaqdır.

Azərbaycan 2025-ci ilədək müxtəlif turizm tədbirlərinə ev sahibliyi edəcək, özünün yüksəkkeyfiyyətli qış idman kompleksləri, xüsusi sağlamlıq turizmi imkanları, unikal təbii gözəllikləri, parkları, dini və kənd turizmi sahəsində mədəni irsinə görə tanınacaqdır. Bir çox fərqli və etnik mədəniyyət komponentlərinin qorunub saxlanıldığı Azərbaycan kəndləri müasir dünyanın təsirindən kənarda qalmış ənənəvi irsi görməyə maraqlı olan turistlər üçün əsas cəlbedici məkan olacaqdır. Bununla yanaşı, Azərbaycanda potensial turizm bazasından istifadə etmək üçün dini məkanlar da təşviq ediləcəkdir.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdiyi 20 turizm məkanından birinə çevirmək və mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin maksimallaşdırılmasına nail olmaqdır.

Hədəf baxışın şərhi

Azərbaycanın məqsədyönlü brendinq tədbirlərinin həyata keçirilməsi, əlaqələrinin artırılması, infrastrukturunun yaxşılaşdırılması ilə bərabər, cəlbedici turizm məkanlarının müxtəlifliyinin və xidmət keyfiyyətinin artırılması ölkəni beynəlxalq turizm məqsədləri üçün cəlbedici turizm mərkəzinə çevirmək niyyətinin reallaşdırılmasına şərait yaradacaqdır. Bu yolla Azərbaycana dünyanın hər yerindən potensial turistlərin cəlb olunması təmin ediləcək və onlar üçün yaddaşlardan silinməyən unikal səyahət imkanları yaradılacaqdır.

Xüsusilə, 2025-ci ildən sonrakı dövr üçün perspektivin tərkib hissəsini, Azərbaycanın dünya turizm sektorunda ən çox üstünlük verilən 20 turizm məkanından biri olmaq niyyəti təşkil edir. Bu məqsədlə əsas tələbatın olduğu şəhər

və ölkələrdə, eləcə də məşhur onlayn platformalarda yüksəkhədəfli və yaxşı tənzimlənən marketinq tədbirlərinə başlanacaqdır. Bu cür tədbirlər fərqli mövzulara həsr olunacaq və kifayət qədər məlumattutumlu olacaqdır.

Bunlarla yanaşı, Avropa və Asiyanın qovuşma nöqtəsində yerləşən Azərbaycanın coğrafi potensialı onun dünyanın ən çox əlaqələrə malik ölkələrdən birinə çevrilməsinə şərait yarada bilər. Uzunmüddətli perspektivdə Azərbaycanın səyahətçilər üçün regional qovşağa *("hub")* çevrilməsi məqsədilə logistik infrastrukturun bu üstünlüyündən istifadə ediləcəkdir. Belə ki, liberallaşdırılmış və rəqabətli aviasiya sektoru sayəsində 8 milyondan artıq sərnişini qəbul edə və yola sala biləcək təbii uçuş zonasına çevirmək hədəfi müəyyən edilmişdir. Bu, Heydər Əliyev Beynəlxalq Hava Limanı vasitəsilə sərnişin nəqliyyatının hazırkı səviyyəsini təxminən dörd qat artırmaqla Bakını həm işgüzar, həm də istirahət məqsədilə gələn turistlər üçün tranzit dayanacaq məntəqəsinə çevirəcəkdir. Azərbaycandan keçməklə səyahət edən sərnişinlərin sayındakı bu artım ölkəyə gələn turistlərin sayında da təbii artım effekti yaradacaqdır. Bu tendensiya həm də yerli biznesin qlobal şirkətlərə daha çox açıqlığını təmin etdiyi üçün Azərbaycanın gələcəkdə digər sektorlar üzrə də şəbəkəyə çevrilməsini dəstəkləyəcəkdir (məsələn, sağlamlıq və təhsil).

Hava nəqliyyatı əlaqəsindən başqa, Azərbaycan uzunmüddətli perspektivdə ölkədə yüksəksürətli qatar və avtomobil yolu şəbəkəsinin də inkişaf etdirilməsinə başlanacaqdır. Xarici turistləri cəlb etmək məqsədilə qonşu ölkələrlə, məsələn, İranla dəmir yolu əlaqəsi gücləndiriləcək, turistlərin ölkə daxilində şəhərdaxili və şəhərlərarası rahat hərəkətinin təmin edilməsi üçün dəmir yolu və avtomobil yolu şəbəkəsi, eləcə də metro sistemi yaxşılaşdırılacaqdır. Beləliklə, ölkəyə gələn turistlərin yalnız öz ilkin təyinat məntəqəsində qalması deyil, fərqli şəhərlər və ya xüsusi nəzərdə tutulmuş səyahət marşrutları ilə hərəkəti təmin ediləcəkdir.

Ölkəyə gələn əlavə turist axınını nəzərə alaraq, fərqli turist seqmentlərindən olan tələbatı qarşılamaq məqsədilə Azərbaycanın yaşayış və xidmət infrastrukturu da gücləndiriləcəkdir. Bunun tərkib hissəsi kimi, Azərbaycan aşağı büdcəli hostellərdən, yataq və səhər yeməyi təklif edən yerləşdirmə vasitələrindən tutmuş lüks mehmanxana və istirahət komplekslərinədək geniş çeşiddə yerləşdirmə imkanlarına malik olacaqdır. Azərbaycanda turistlərə aşağı büdcəli yerləşdirmə vasitələri təklif etmək məqsədilə Turizm Şurasının təhlilləri və araşdırmaları ilə formalaşan turizm davranış xəritəsi əsasında mehmanxanaların yerləşdirilməsi təmin ediləcəkdir.

Xəzər dənizi də ölkənin turizm sektoruna təkan vermək potensialına malikdir. Bu istiqamətdə turistlər üçün cəlbediciliyi artırmaq məqsədilə çimərliklərə beynəlxalq təcrübədə olduğu kimi mavi bayraq nişanının verilməsi üzrə səylər genişləndirilərək, Xəzər dənizinin region daxilində ən çox üstünlük verilən yay turizm məkanına çevrilməsi ilə bağlı tədbirlər görüləcəkdir. Buraya Xəzər dənizinin təmizlənməsi və yaxınlıqdakı obyektlər üçün tənzimlənən tullantı emalı qurğularının yaradılması daxildir. Bundan əlavə, həm də qonşu ölkələrə gedən turistlər üçün müvəqqəti dayanacaq məkanı kimi birgünlük və ya daha uzunmüddətli səfərlərlə Xəzər dənizində kruiz turlarının təşkilində Bakının mühüm rol oynaması qarşıya məqsəd kimi qoyulacaqdır.

Təbii gözəlliklər üçün ənənəvi turizm konsepsiyası, mədəni irs və yay istirahət guşələrindən əlavə, Azərbaycanın istirahət və idman turizmi sahəsində də tanınması üçün əməli addımlar atılacaqdır. Belə ki, genişmiqyaslı tədbirlərin keçirilməsi nəticəsində təşkilatlanma imkanlarının artırılması daha çox musiqi festivallarına, beynəlxalq mədəniyyət tədbirlərinə və idman yarışlarına ev sahibliyi etməyə imkan yaradacaqdır. Bu tədbirlərə gələn turistlərin yüksəkkeyfiyyətli əyləncə məkanlarına cəlb olunmasını təmin etmək məqsədilə ticarət mərkəzləri, restoranlar, əyləncə parkları və mərkəzləri kimi müxtəlif endirimli alternativlər təklif ediləcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Turizm sektoru üzrə müəyyən edilmiş on altı prioritetin həyata keçirilməsi nəticəsində:

- Azərbaycanın real ÜDM-i 2020-ci ildə 465 milyon manat artacaq;
- Bakı və digər bölgələrdə prioritetlər həyata keçirilməklə, cəmi 35 min, bilavasitə turizm sektorunda isə 25 min iş yeri yaradılacaqdır.

Bu təsirə nail olmaq üçün 2020-ci ilədək altı aralıq hədəf indikatorları müəyyən edilmişdir:

- Bakıda mehmanxana və mehmanxana tipli müəssisələrdə xarici ölkə vətəndaşları üzrə gecələmələrin sayının 2015-ci il üzrə təxminən 0,8 milyon gecədən 2020-ci il üzrə ən azı 3,65 milyon gecəyədək artırılması;
- hər turistin orta qalma müddətinin 2 gündən 3 günədək artırılması;
- Bakıda mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayının 2015-ci ildə 0,5 milyon nəfərdən 2020-ci ildə 0,9 milyon nəfərədək, yerləşdirilməyən xarici vətəndaşların sayının isə 2015-ci ildə 0,8 milyon nəfərdən 2020-ci ildə 1,5 milyon nəfərədək artırılması;
- tədricən aşağı büdcəli gəlmə turizm göstəricisinin 265 minə çatdırılması;
- sağlamlıq obyektlərindən istifadə göstəricisinin hazırkı 40 faiz ilə müqayisədə 65 faizədək artırılması (Naftalandakı sağlamlıq obyektlərinin istifadəsi nəzərdə tutulur);
- “Böyük İpək Yolu” və digər mədəni turizm marşrutları üzərində yerləşən məntəqələrə 180 mindən artıq turistin cəlb olunması.

6. STRATEJİ MƏQSƏDLƏR

- Bakı şəhərinin turizm potensialından tam istifadə üzrə səmərəli idarəetmə sisteminin yaradılması, marketinq və brendinq səylərinin gücləndirilməsi, turizm məkanları barədə məlumatlılığın artırılması və turizm infrastrukturunun təkmilləşdirilməsi yolu ilə uzunmüddətli dövrdə Bakı şəhərinə getdikcə daha çox xarici turistlərin cəlb edilməsinə nail olmaq;
- ölkə üzrə əlverişli mühitin yaradılması üçün ölkəyə giriş-çıxışın sadələşdirilməsi, əlaqə vasitələrinin təkmilləşdirilməsi, turizm sektorunun ayrı-ayrı iştirakçıları arasında koordinasiyalı fəaliyyətin qurulması və turizm və rekreasiya zonalarının yaradılması kimi dəstəkverici mexanizmlərin tətbiqi ilə uzunmüddətli inkişafa nail olmaq;
- sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi turizm növlərini əsas götürərək, regional turizmi daha da inkişaf etdirməklə, Azərbaycanın turizm sektoru üzrə təkliflərini diversifikasiya etmək və uzunmüddətli dövrdə ölkəyə daha çox turistin cəlb edilməsinə nail olmaq;
- turizm sektorunda göstərilən xidmətlərin keyfiyyət və kəmiyyət göstəriciləri baxımından təkmilləşdirilməsi məqsədilə turizm keyfiyyət sisteminin yaradılması ilə turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. Xarici turistləri daha çox cəlb etməklə Bakı şəhərinin turizm potensialının tam gerçəkləşdirilməsi


Həm işgüzar məqsədlərlə, həm də istirahət məqsədilə gələn turistlər arasında beynəlxalq tanınmanın növbəti səviyyəsinə çatmaq və Bakı şəhərinin turizm potensialını artırmaq üçün Milli Turizm Təbliğat Bürosu yaradılacaqdır. Milli Turizm Təbliğat Bürosu Bakı şəhəri barədə mövcud məlumatları yeniləmək üçün Azərbaycan Respublikasının Turizm Şurası ilə, müvafiq dövlət qurumları və digər təşkilatlarla birgə işləyəcək, mühüm hədəf bazarlarda təşviqat tədbirlərini həyata keçirəcək, eyni zamanda, sahibkarlara həm aşağı büdcəli yerləşdirmə vasitələri üzrə seçimlərin çeşidinin genişləndirilməsinə, həm də şəhərin mərkəzində turizm mərkəzlərinin yaradılmasına dəstək verəcəkdir. Bu cür əlaqələndirilmiş və məqsədyönlü səylər nəticəsində Bakı şəhəri qısamüddətli uçuş məsafəsində yerləşən və 90 milyondan artıq əhalinin yaşadığı 26 şəhəri əhatə edən potensial turizm tələbat qrupundan əhəmiyyətli dərəcədə bazar payı əldə edə biləcəkdir.

7.1.1. Prioritet 1.1. Milli Turizm Təbliğat Bürosunun yaradılması və ilk olaraq Bakı şəhərində fəaliyyətinin təmin olunması

Əsaslandırma

Bakı şəhərinin turizm potensialı Azərbaycanın turizm sektorunun əhəmiyyətli hissəsini təşkil edir. Belə ki, 2015-ci il üzrə statistik göstəricilərə əsasən, ölkənin mövcud mehmanxana otaqlarının 43 faizi, yerləşdirilmiş turistlərin 64 faizi və bundan əldə edilən gəlirlərin 82 faizi Bakı şəhərinin payına düşür (şəkil 8).

Şəkil 8. Bakı şəhərinin Azərbaycanın turizm sektorundakı roluna dair bir sıra statistik göstəricilər



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Bununla belə, bu sektorda dəyər zənciri üzrə fəaliyyətlər qeyri-müəyyəndir. Belə ki, fərqli marşrutlar, müxtəlif təşkilatlar, nəqliyyat şirkətləri, yerləşdirmə vasitələri və vasitəçi qurumlar (tur operatorları, restoranlar, alış-veriş mərkəzləri və s.) koordinasiyasız fəaliyyət göstərir. Bu qurumlar arasında əlaqələndirmənin istənilən səviyyədə təmin edilməsi və Bakı şəhərinin turizm brendinin formalaşdırılması məqsədilə əlavə tədbirlərin görülməsinə ehtiyac vardır.

Görüləcək tədbirlər

Tədbir 1.1.1: Milli Turizm Təbliğat Bürosunun yaradılması

Bakı şəhərinin beynəlxalq imicinin formalaşdırılması, şəhər brendinin istifadəsi üzrə uzunmüddətli fəaliyyət planının hazırlanması, brenddən istifadə üzrə nəzarət tədbirlərinin görülməsi və fərqli səviyyələrdə təkrar brendinq seçimi və marketinq işlərinin əlaqələndirilməsi, turistlərin məmnunluğunun artırılması məqsədilə Milli Turizm Təbliğat Bürosunun (bundan sonra – Büro) yaradılması nəzərdən keçiriləcəkdir.[12] Bu tədbir nəticəsində gözlənilən səmərəlilik əldə edilərsə, bu təcrübə Azərbaycanın digər turizm regionlarına da şamil ediləcəkdir. Büro tərəfindən Bakı şəhərinin brend strategiyası ilə bağlı təkliflər hazırlanaraq təqdim ediləcəkdir. 2017-2020-ci illər üzrə Büronun bu strategiyada nəzərdə tutulmuş fəaliyyətlərini özündə əks etdirən fəaliyyət planı hazırlanacaqdır. Büronun büdcəsinin müəyyən bir qismi ilk dövrlərdə dövlət büdcəsi hesabına, digər hissəsi isə dövlət-özəl tərəfdaşlığı qurulduqdan sonra nizamnaməsində müəyyən edilmiş müxtəlif maliyyələşmə mənbələri hesabına təmin ediləcəkdir.

Tədbir 1.1.2: Büronun fəaliyyətinin təmin edilməsi istiqamətində zəruri təşkilati işlərin yerinə yetirilməsi

Büro fəaliyyətinin həyata keçirilməsi üçün bütün lazımi infrastrukturla təmin olunacaq və digər zəruri təşkilati işlər yerinə yetiriləcəkdir. Səmərəli fəaliyyətin təşkili məqsədilə xarici kommunikasiya vasitələri ilə əlaqələrin qurulması üçün Büro tərəfindən onlayn kommunikasiya platformaları yaradılacaqdır.

Tədbir 1.1.3: Büro tərəfindən müxtəlifyönümlü tədbirlərin keçirilməsi

Büro Bakı şəhərinin brendini formalaşdıracaq və onun beynəlxalq səviyyədə təbliği üzrə tədbirlər görəcək, eyni zamanda, müəyyən edilmiş monitorinq metodologiyasına müvafiq olaraq təyin edilmiş müxtəlif indikatorlar əsasında müşahidələr həyata keçirməklə brendin təşviqi işlərinə nəzarət edəcəkdir. Monitorinq sisteminin bir hissəsi kimi, Büro dəqiq məlumatların toplanmasını, etibarlı turizm statistikasının hazırlanmasını və turizm reyestrinin səmərəli fəaliyyətini təmin edəcəkdir. Monitorinq sisteminin nəticələri press-relizlər vasitəsilə elan olunacaq, davamlı şəkildə onlayn kommunikasiya platformaları vasitəsilə ictimaiyyətə açıqlanacaq və Bakı şəhərinə gələn turistlərin məmnunluq səviyyəsinin artırılması üçün bir sıra tədbirlər həyata keçiriləcəkdir. Belə ki, onlayn platforma və yaxud digər müvafiq vasitələrlə turistlərin irad və təklifləri qəbul ediləcək və nəzərdən keçiriləcək, nəticədə, zərurət yarandığı təqdirdə, müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara müraciət ediləcəkdir.

[12] Strateji Yol Xəritəsində Milli Turizm Təbliğat Bürosu tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Milli Turizm Təbliğat Bürosu yaradılacağı təqdirdə onun tərəfindən, əks halda isə müvafiq qurum tərəfindən həyata keçiriləcəkdir.

Tədbir 1.1.4: Bakı şəhəri üçün 2017-2020-ci illər üzrə marketinq və kommunikasiya planının hazırlanması

Büro nümayəndələrinin və digər maraqlı tərəflərin iştirakı ilə Bakı şəhərinin 2017-2020-ci illər üzrə marketinq və kommunikasiya planı hazırlanacaqdır. 1.3-cü prioritetdə müəyyən edilmiş hədəf qruplardan olan xarici turistlərin cəlb edilməsi üçün müvafiq marketinq tədbirlərinin həyata keçirilməsi kimi əsas strateji istiqamətlər müzakirələr əsasında müəyyənləşdiriləcəkdir. Zərurət yaranarsa, planın hazırlanmasına bu sahədə təcrübəyə malik beynəlxalq tərəfdaşlar da cəlb edilə bilər. Plan internet səhifəsi və press-relizlər vasitəsilə ictimaiyyətə açıqlanacaqdır.

Tədbir 1.1.5: Bütün əsas tədbirləri əlaqələndirmək üçün Bakı şəhəri üzrə turizm təqviminin yaradılması

İl ərzində Bakı şəhərində keçiriləcək mühüm tədbirlərin əlaqələndirilməsi, müddət baxımından uyğunluğun təmin edilməsi və turizm siyasətinin düzgün müəyyənləşdirilməsi məqsədilə, 2.3-cü prioritetə müvafiq olaraq, hər il Bakı şəhərinin turizm təqviminin hazırlanması nəzərdən keçiriləcək və zərurət yarandığı təqdirdə, bu istiqamətdə fəaliyyətin səmərəli təşkili məqsədilə aidiyyəti qurumlarla koordinasiya qurulacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Büronun təsis edilməsi, onun fəaliyyətinin koordinasiyası, icra və nəzarət mexanizminin tətbiqi Bakı şəhəri ilə əlaqədar bütün tədbirlərin həyata keçirilməsi üçün əsas hərəkətverici mexanizm olacaqdır.

Bu prioritetin tətbiqi nəticəsində 2020-ci ildə real ÜDM-in 5 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, ümumilikdə 10 milyon manat artacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi Bakıda mehmanxana və mehmanxana tipli müəssisələrdə xarici ölkə vətəndaşları üzrə gecələmələrin sayının 2015-ci il üzrə təxminən 0,8 milyon gecədən 2020-ci il üzrə ən azı 3,65 milyon gecəyədək artırılmasıdır.

Büronun təsis edilməsi Bakı şəhərində bütün turizm mərkəzlərinin koordinasiyasını və müvafiq qurumlar arasında ümumi əməkdaşlığı artıracaqdır.

Tələb edilən investisiya

Bu prioritet daha çox əlaqələndirmə xarakteri daşıdığına görə onun həyata keçirilməsi üçün böyükhəcmli investisiyanın cəlb edilməsinə ehtiyac duyulmur.

Gözlənilən risklər

Bu prioritet üzrə xüsusi risklərin olacağı gözlənilmir. Bununla belə, Büronun fəaliyyətinin aidiyyəti dövlət və özəl qurumlarla lazımi səviyyədə əlaqələndirilməməsi Büronun işinin bu Strateji Yol Xəritəsi əsasında hazırlanacaq 2017-2020-ci illər üzrə fəaliyyət planına müvafiq olaraq səmərəli təşkil edilməməsinə və resurslardan düzgün istifadədə çətinliklərin yaranmasına səbəb ola bilər.


7.1.2. Prioritet 1.2. Bakı şəhərindəki cəlbedici turizm məkanlarına dair məlumatların və turist xidmət paketlərinin yenilənməsi

Əsaslandırma


Xarici turistlər arasında məşhur olan bir neçə internet səhifəsində Bakı şəhərinin turizm məkanları və restoranları barədə məlumatlar yerləşdirilmişdir. Dünyanın ən çox istifadə edilən turizm internet səhifəsi olan "TripAdvisor"da Bakıda mövcud olan 175 məkan və 389 restoran barədə məlumatlar, eləcə də 2016-cı ilin may ayınadək Bakıya gələn turistlərə kömək məqsədilə istifadəçilər tərəfindən 7000-dən artıq şərh yerləşdirilmişdir.[13] Lakin bu göstərici regionun digər rəqib şəhərləri ilə müqayisədə nisbətən kiçik rəqəmdir. Belə ki, Tbilisi şəhəri haqqında yerləşdirilmiş şərh və məlumatlar Bakı ilə müqayisədə təxminən 50 faiz çoxdur (şəkil 9). Rusiyanın "Google" istifadəçiləri arasında "Baku travel" üzrə axtarış "Tbilisi travel" üzrə axtarışdan daha çox istifadə edilsə də, ingilis və türk dilli istifadəçilər üzrə müvafiq göstəricilərdə vəziyyət bir qədər fərqlidir.

Şəkil 9. İnternet səhifələrində axtarış üzrə nəticələr

"Tripadvisor.com" üzrə axtarışın nəticələri



Fərqli dillərdə "Google" üzrə axtarışın nəticələri



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Araşdırmalar göstərir ki, turistlər Bakı şəhərinin təklif etdiyi bütün imkanlardan hərtərəfli şəkildə bəhrələnə bilmirlər. Məsələn, 2014-cü ildə Bakıya gələn xarici turistlərin cəmi 45 faizi Bakının ən cəlbedici turizm məkanı olan Qız Qalasına baş çəkmişdir.[14] Bunun səbəbi kimi turistlər arasında Bakı şəhərinin turizm məkanları barədə məlumatlılığın kifayət qədər olmaması qeyd edilə bilər. Belə ki, Bakıda hazırda cəmi bir turizm məlumat mərkəzi vardır. İkinci turizm mərkəzinin 2016-cı ildə Dənizkənarı Milli Parkda, digər mərkəzin isə 2017-ci ildə İçərişəhərdə açılması planlaşdırılır. Bununla yanaşı, Bakıda fəaliyyət göstərən 200-dən çox özəl turizm

[13] 30 may 2016-cı il üzrə məlumatlara əsasən

[14] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təqdim etdiyi rəqəmlərə və Bakıda yerləşdirilmiş xarici vətəndaşların və Qız qalası ziyarətçilərinin sayına əsasən hesablanmışdır.

agentliyinin 90 faizi Azərbaycan rezidentlərinin xaricə səfərini təşkil etməklə məşğul olur.[15]

Bakı şəhərində mövcud olan turizm məkanları barədə turistlərin məlumatlılığının artırılması ilə yanaşı, tələb ölkələrindən olan turistlərin zövqlərinə uyğun olaraq, müxtəlif növ yeni turizm fəaliyyətlərinin də təşkil edilməsi vacibdir. Belə ki, bu istiqamətdə tədbirlərin həyata keçirilməsi üçün Novruz bayramı Azərbaycan üçün vacib turizm imkanıdır. Ümumiyyətlə, Bakı şəhərində hər il "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu və "Qala" qoruğu ərazisində Novruz bayramı festivalları keçirilməkdədir. Bu bayram regiondakı əksər xalqlar, xüsusən də iranlı turistlər üçün ən vacib bayramlardandır. Bir çox ölkələr bu bayramı ciddi şəkildə dəyərləndirərək, əsasən də İranlı turistlərin cəlb edilməsi məqsədilə xüsusi tədbir və proqramlar və bunların təbliğatı üçün xüsusi turist xidmət paketləri işləyib hazırlayırlar. Buna müvafiq olaraq, Novruz bayramı üzrə festivalla bağlı tədbirlərin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu və "Qala" qoruğu ilə yanaşı, şəhərin digər yerlərində də keçirilməsi nəticəsində çoxlu sayda turistlərin cəlb edilməsi mümkündür. Bu məqsədlə, Novruz bayramı ilə bağlı xüsusi turist xidmət paketləri hazırlana və bu bayramın qeyd edildiyi ölkələrdə geniş şəkildə təbliğ edilə bilər.

Özünəməxsus ənənəvi dəyərlərə malik olmaqla yanaşı, Bakı şəhərinin biznes turizmi üçün də əlverişli olmasına səbəb olan bir çox məkanları vardır. Belə ki, Bakıda konfrans və toplantı otaqları olan 15-dən artıq böyük və ortaölçülü məkanlar, həmçinin 30-dan çox lüks mehmanxana mövcuddur.[16] Şəhərin, həm də beynəlxalq biznes ictimaiyyətini və digər biznes seqmentlərini dəstəkləməyə imkan verən əlverişli infrastrukturu vardır. Eyni zamanda, 2013-cü ildə Mədəniyyət və Turizm Nazirliyinin nəzdində dövlət-özəl tərəfdaşlığı əsasında yaradılmış Azərbaycanın Konqreslər Bürosu belə biznes tədbirlərinin keçirilməsi üçün vahid pəncərədir.

2016-cı ildə Bakı ilk dəfə "Formula 1 Grand Prix" yarışmasına (bundan sonra – F1 yarışları) ev sahibliyi etdi. Bir sıra digər böyük beynəlxalq idman tədbirlərində olduğu kimi, F1 yarışlarında da ev sahibliyi edən ölkələr daha çox xarici turistlərin gəlməsinə, onların qalma müddətlərinin artırılmasına və həmin turistlərin iri mehmanxana və cəlbedici məkanlarda, habelə yerli biznes obyektlərində yüksək vəsait xərcləməsinə nail olmaq istiqamətində bir çox addımlar atır. Bunun nəticəsidir ki, 2011-ci ildə F1 yarışlarına ev sahibliyi etmiş şəhərlər 40-220 milyon ABŞ dolları arasında mənfəət əldə etmişdir.[17] 2011-ci ildə F1 yarışlarına ev sahibliyi etmiş Bəhreyn və Monako şəhərlərinin hər biri müvafiq olaraq 220 və 90 milyon ABŞ dolları məbləğində mənfəət əldə etmişdir. Bakı da bu beynəlxalq təcrübədən istifadə edərək F1 yarışları zamanı, yarışlardan bir qədər əvvəl və sonra müxtəlif tədbirlər təşkil etməklə mənfəətliliyi artıra bilər.

Bunlarla yanaşı, dünya təcrübəsi göstərir ki, bir çox şəhərlərdə keçirilən ticarət festivalları turistləri ruhlandıraraq, turizmdən əldə edilən gəlirlərin artmasına səbəb olur. Bu zaman şəhər mərkəzlərində yarış və şou tədbirləri təşkil edilir, bəzi hallarda böyük alıcı kütləsini cəlb etmək məqsədilə vergidən azad ticarət də təklif edilir. Məsələn, Kuala Lumpur və Dubayda eyni vaxtda həftələrlə və ya aylarla davam edən ticarət festivalları bu şəhərlərə olan turist axınını və həmin turistlər tərəfindən xərclənən vəsaitin məbləğini artırmışdır. Bunu nəzərə alaraq, Bakı şəhərində ticarət festivallarının təşkili nəzərdən keçiriləcəkdir.

Qeyd edilənlər əsasında iri onlayn turizm mediası vasitəsilə Bakı şəhəri və yaxın ərazilərin füsunkar turizm məkanlarının cəlbediciliyinin artırılması və turistlərin Bakıya gəldikdən sonra Bakı şəhərinin turizm məkanları barədə məlumatlılıq

[15] Azərbaycan sakinlərinə və xarici turistlərə satılan tur paketlərin sayına əsasən hesablanır.
[16] Beşulduzlu və butik mehmanxanalar də daxil olmaqla
[17] 2011-ci il F1 Qrupu üçün maliyyə məlumatlarının təqdim edildiyi ən son ildir.

səviyyələrinin yüksəldilməsi məqsədilə bir sıra məqsədyönlü tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 1.2.1: Bakı şəhəri ilə bağlı məlumatlılığın qənaətbəxş səviyyəyə çatdırılması məqsədilə onlayn məlumatların təmin edilməsi və turistlərin təkrar rastlaşdığı çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi

Büro, ilk növbədə, Bakı şəhərinə daha çox turist cəlb etmək üçün onlayn məlumat platforması yaradacaq və onu işçi heyət ilə təmin edəcəkdir. Turizmlə bağlı düzgün qərarların verilməsi məqsədilə məlumatların toplanması üçün onlayn alətlərdən istifadənin artmasını nəzərə alaraq, işçi heyət Bakı və əsas onlayn səyahət və məlumat platformaları (məsələn, "Trip Advisor", "Four Square", "Lonely Planet" və s.) ilə əlaqədar lazımi məlumatların (məsələn, şəkil, şərh, təlimatlar və s.) prioritet hesab olunan ingilis, rus, türk, ərəb, fars və digər dillərdə tərtib olunmasını təmin edəcəkdir. Bundan başqa, qrup onlayn platformalara nəzarət edəcək və turizm təkliflərinin (məsələn, restoran, mehmanxana, tarixi və mədəni görməli yerlər və s.) təminat səviyyəsini müəyyən etmək məqsədilə hər altı aydan bir qiymətləndirmənin aparılması üçün müxtəlif mexanizmlər yaradacaq və turistlərin tələbləri üzrə (məsələn, görməli yerlərdə nişanların olmaması və s.) müvafiq tədbirlər görəcəkdir.

Tədbir 1.2.2: Bakı şəhərinə gələn və oradan regionlara səfər edən turistlərin məlumatlılığının artırılması üçün bir sıra tədbirlərin görülməsi

Bakı və Qəbələdəki hava limanları prioritetləşdirilməklə orada yerləşən turizm məlumat ofislərinin fəaliyyət dairəsi genişləndiriləcək və sayı artırılacaqdır. Turizm məlumat ofisləri Büro ilə əməkdaşlıq çərçivəsində və onun vəsaitlərindən istifadə edərək turistlər üçün Bakı və ətraf ərazilərlə bağlı (4 saatlıq məsafə) ingilis, fars, ərəb, türk və rus dillərində olan broşür və məlumat materialları nəşr edəcək və avtobus dayanacaqları, metro stansiyaları və hava limanlarında bu materialların paylanmasını təmin edəcəkdir. Bu ofislərdə hazırda Azərbaycan dilində mövcud olan xəritə və ictimai nəqliyyata dair məlumat materialları da həmin dillərdə hazırlanaraq nəşr ediləcəkdir. Turistlərin Bakı şəhərinə səfərlərini öz istəklərinə uyğun planlaşdırmaları və şəhərdə təklif edilən bütün imkanlardan tam faydalanmaları üçün bu materiallar, həmçinin mehmanxanalara, ticarət mərkəzlərinə, mühüm turizm məkanlarına və digər yerlərə də təklif ediləcəkdir. Bundan əlavə, Bakı şəhərinin mühüm turizm sahələrinin cəlbediciliyini daha da artırmaq məqsədilə ölkə ərazisinə daxil olduqları zaman hava limanlarında və vağzallarda turistlərə muzeylərə aid həm vauçerlər, həm də endirimli biletlər təklif ediləcəkdir.

Tədbir 1.2.3: Bakı şəhərində yerləşən və ziyarətçilərinin sayı az olan məkanlar barədə məlumatlılığın artırılması

Büro turizm şirkətləri ilə əməkdaşlıq edərək, Bakı şəhərində yerləşən və ziyarətçilərinin sayı az olan, lakin turistlərin marağına səbəb ola biləcək turizm məkanlarına (məsələn, Bakıda "Nobel qardaşları" muzeyi, Tahir Salahovun ev muzeyi, numizmatika sərgisi və s.) daha çox ziyarətçi cəlb etmək məqsədilə həmin məkanlar üzrə turist marşrutlarının hazırlanmasını həyata keçirəcəkdir. Bu marşrutlar üzrə turistlərin məlumatlılıq səviyyəsini artırmaq məqsədilə 1.2.2-ci tədbirdə qeyd edilən broşür və məlumat materiallarında lazımi informasiyaların əks olunması təmin ediləcəkdir.

Tədbir 1.2.4: Büro tərəfindən müxtəlif dəstəkverici mexanizmlərin həyata keçirilməsi

Büro turizm agentlikləri üçün seminarlar keçirəcək, Bakıya daha çox xarici turistlərin gəlməsini təmin etmək üçün öz hədəf auditoriyalarını genişləndirmək məqsədilə onlara daha çox beynəlxalq tərəfdaşların cəlb edilməsi barədə təlimlər keçəcək və xarici ölkələrdə keçiriləcək turizm sərgilərində turoperatorların iştirakına dəstək verəcəkdir. Turizm agentlikləri həm də mühüm turizm yerləri, əsas küçələr, hava limanları, ictimai nəqliyyat dayanacaqları və əsas mehmanxanalarda reklam işlərini təkmilləşdirməyə təşviq ediləcəkdir.

Tədbir 1.2.5: Şəhər turu nəqliyyat vasitələrinin təklif etdiyi xidmətlərin təkmilləşdirilməsi

Bakı şəhərində şəhər gəzintisi təşkil edən şəhər turu nəqliyyat xidmətləri də vaxt, səmərəlilik və əhatə dairəsi baxımından təkmilləşdiriləcək və bu xidmətlər təcrübəli tur bələdçiləri, eləcə də rus və ingilis dillərində səsləndirilən audioyazılar da əlavə edilməklə zənginləşdiriləcəkdir. Bakının ətraf qəsəbələrindəki "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Qobustan" dövlət tarixi-bədii qoruğu və palçıq vulkanları kimi turizm məkanları da bu avtobusların əhatə dairəsinə daxil ediləcəkdir. Bakı şəhərinin turizm mərkəzləri ilə bağlı təkliflər barədə turistlərin məlumatlılığının artırılması məqsədilə hava limanları, mehmanxana və digər yerləşdirmə vasitələrində müvafiq məlumatlar yerləşdiriləcəkdir.

Tədbir 1.2.6: Bakı şəhərinin biznes potensialından tam faydalanmaq məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi

Mövcud infrastrukturun gətirə biləcəyi faydalardan geniş şəkildə istifadə etmək, Bakı şəhərinə olan işgüzar səfərlərin potensialından tam faydalanmaq, eləcə də 3.4-cü prioritetdə müəyyən edilmiş tədbirlərə əlavə olaraq Bakı şəhərində keçirilən iclas, beynəlxalq konfrans və tədbirlərin sayını artırmaq məqsədilə iki əlavə tədbir həyata keçiriləcəkdir:

1. Bakı şəhərinin mövcud unikal məkanlarından səmərəli istifadənin təşviqi: Dünyanın ən qədim dəniz neft platformasında, Bakının yaxınlığında yerləşən və onillərboyu təbii qazın alovlandığı "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda, qədim yeraltı təbii qaz məbədgahı olan "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda bir sıra tədbirlər keçiriləcəkdir. Bununla yanaşı, belə tədbirlərin turistlər üçün cəlbedici olan digər məkanlarda keçirilməsi nəzərdən keçirilə bilər.
2. İşgüzar məqsədlərlə Bakı şəhərinə səfər edən turistlərin ailələri ilə gəlmələri və keçiriləcək tədbirdən əvvəl və sonra uzun müddət qalmaları üçün turoperatorlar ilə əlaqəli şəkildə yeni və daha cəlbedici təkliflərin verilməsi: Büro öz işini işgüzar turizmə xidmət edən turoperatorlar ilə əlaqələndirərək Bakı şəhəri və ətraf ərazilərə turlar da daxil olmaqla, ailəvi turpaketlərin hazırlanmasını təşkil edəcəkdir. Büro həm də idman (məsələn, Şahdağdakı dağ-xizək istirahət kompleksinə birgünlük səfərlər və s.), çimərlik və gecə istirahətini (məsələn, xarici turistlər üçün gecə klubları və s.) təşviq edən əlavə təkliflərin irəli sürülməsini də stimullaşdıracaqdır.

Tədbir 1.2.7: Novruz bayramı paketlərinin hazırlanması və təbliği

1.3-cü prioritetə müvafiq olaraq hədəf ölkələr üçün turizm paketlərinin yaradılması həmin bazarlardan əlavə turistləri də cəlb etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə Büro işlərini xarici və yerli turoperatorlar ilə əlaqələndirərək Novruz bayramı ərəfəsində yerləşdirmə vasitələri və təyyarə biletlərini əhatə edən turist xidmət paketlərinin hazırlanmasını təşviq edəcəkdir. Bundan əlavə, Azərbaycanın, əsasən də Bakının Novruz bayramı ərəfəsində cəlbediciliyini artırmaq məqsədilə çərşənbə axşamlarında və bayram zamanı açıq hava altında festivallar, Azərbaycan və regiondakı qonşu ölkələrdən folklor musiqi ifaları və Novruz süfrələri ətrafında fəaliyyətlər təşkil ediləcək və həmin tədbirlərdə iştirak da bu paketlərə əlavə ediləcəkdir. Büro tərəfindən 1.1-ci prioritetə əsasən yaradılmış onlayn platformalar vasitəsilə bu paketlər haqqında xarici kommunikasiya vasitələrilə məlumatlandırılma təmin ediləcəkdir.

Tədbir 1.2.8: F1 yarışları zamanı müxtəlif tədbirlərin keçirilməsi

F1 Təşkilat Komitəsi və Büro xarici turistlərin ölkədə orta qalma müddətini artırmaq üçün F1 yarışları ilə birlikdə digər idman və turizm tədbirləri də təşkil edəcəkdir. Belə ki, velosiped turu, festivallar və regiondakı F1 yarışlarına ev sahibliyi etmiş başqa ölkələrin təcrübəsində olduğu kimi, motorlu idman növləri ilə bağlı tədbirlərin F1 yarışlarından əvvəl və sonrakı aralıq müddət ərzində təşkili nəzərdən keçiriləcəkdir. Bunlarla yanaşı, F1 yarışları zamanı müxtəlif miqyaslı festival və iri sərgilərin təşkili, F1 Təşkilat Komitəsi tərəfindən yarışlar zamanı yerli kulinariya və mədəniyyət festivallarının keçirilməsi məsələsi də dəyərləndiriləcəkdir. Büro tərəfindən 1.1-ci prioritetə əsasən yaradılmış onlayn platformalar vasitəsilə bu paketlər haqqında xarici kommunikasiya vasitələrilə məlumatlandırılma təmin ediləcəkdir.

Tədbir 1.2.9: Büro tərəfindən hazırlanacaq turist xidmət paketlərinin təşviqi

Büro Bakıda turist xidmət paketlərini təşviq edəcək, həmçinin Bakı şəhərinin turist avtobuslarından və bütün turizm məkanlarından (attraksionlardan) qısamüddətli (24-48 saat müddətində) istifadə üçün turist kartlarının hazırlanmasını təşkil edəcəkdir. Büro mövcud gündəlik və həftəlik turizm paketlərini zənginləşdirmək məqsədilə agentliklər, nəqliyyat firmaları, mehmanxanalar, mədəni fəaliyyətin, muzeylərin idarə edilməsini həyata keçirəcək və işgüzar turizm tədbirlərinin, təşkilat və potensial beynəlxalq tərəfdaşlar arasında mütəmadi aylıq “turizm paketi” tədbirlərinin və sərgilərin keçirilməsini təşkil edəcəkdir. Büro tərəfindən 1.1-ci prioritetə əsasən yaradılmış onlayn platforma vasitəsilə bu paketlər haqqında xarici kommunikasiya vasitələrilə məlumatlandırılma təmin ediləcəkdir.

Tədbir 1.2.10: Ticarət festivallarının keçirilməsi

Mədəniyyət və Turizm Nazirliyi dövlət və özəl sektorun nümayəndələri ilə əməkdaşlıq edərək 1.1-ci prioritetdə müəyyən edilmiş Bakı turizm tədbirləri təqviminə uyğun olaraq, ticarət festivalını təşkil edəcəkdir. Bu tədbirlərə pərakəndə ticarət, bədii tamaşalar, paradlar, Naftalan nefti və Naxçıvan Muxtar Respublikasının duz dağı ilə bağlı seminarların təşkili kimi digər turizm tədbirləri də daxil ediləcəkdir.

Festivalda sənətkarların hazırladığı mis məmulatlar kimi Azərbaycan məhsullarının təklifinə də xüsusi önəm veriləcəkdir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Bakıda ticarət festivalının təşkili məqsədilə müvafiq tədbirlər planı hazırlanacaqdır. Festivalın keçirilməsi üçün nazirlik dörd mərhələdən ibarət strateji

planın hazırlanması işinin koordinasiyasını həyata keçirəcəkdir. İlk mərhələdə 1.3-cü prioritetdə müəyyən edilmiş hədəf bazarlar üzrə müxtəlif meyarlar nəzərə alınmaqla (məsələn, İran, Rusiya, Gürcüstan) dövlət bayramlarına və tətil günlərinə uyğun olaraq ticarət festivalının vaxtı və müddəti təyin ediləcəkdir. İkinci mərhələdə nazirlik hədəf bazarlarda ən yaxşı 20 turizm agentliyi ilə görüşlər keçirəcək, mehmanxana və nəqliyyat xidmətlərini (qatar, avtobus və ya təyyarə), eləcə də görməli yerləri əhatə edən yüksək və aşağı qiymətə turizm xidmət paketlərini hazırlayacaqdır. Üçüncü mərhələdə isə nazirlik ticarət festivalında iştirak etmək üçün yerli istehsal zonalarını hazırlayacaq və festival müddəti ərzində ehtiyac olduğu halda regionlardan yerli istehsalçıları da festivalda iştiraka dəvət edəcəkdir. Dördüncü mərhələdə festival başa çatdıqdan sonra nazirlik iştirakçılar, turizm agentlikləri, mehmanxana və restoranlardan rəylər toplamaqla qiymətləndirmə aparacaq və növbəti ilin ticarət festivalına dair təkliflər irəli sürəcəkdir.

Tədbir 1.2.11: Yerli turoperatorların internet səhifəsində "özün hazırla" ("do it yourself") paketlərinin təklif edilməsi

Yerli turoperatorların internet səhifəsi vasitəsilə turistlərə uçuş, mehmanxana, avtomobil kirayəsi və turlar da daxil olmaqla, hərtərəfli səyahət seçimləri təklif edən "özün hazırla" paketlərinin hazırlanması imkanı təmin ediləcəkdir. Turistlər turoperatorların internet səhifələrinə daxil olaraq istədikləri uçuş istiqamətini, mehmanxananı və s. xidmətləri seçməklə, xüsusi turist xidmət paketini hazırlamış olacaqlar. Bu sistem hər bir turisti günlük turlara, avtomobil kirayəsinə, turizm məkanlarına və tədbir çərçivəsində keçirilən satışlara sövq edəcək ki, bu da gəlirlərin artmasına imkan verəcəkdir. Təklif ediləcək "özün hazırla" onlayn turizm xidmət paketləri yerli turizm agentlikləri ilə, uyğun qiymətə mehmanxanalardan tutmuş yüksək qiymətə mehmanxanalarla, avtomobil kirayəsi və satış xidmətləri ilə, eləcə də restoran, muzey və cəlbedici turizm məkanları ilə tərəfdaşlığı da əhatə edəcəkdir.

Büro bütün mövcud məlumatları və turizm xidmət paketlərini təşviq etmək üçün yerli turoperatorlar ilə birgə layihəyə başlayacaqdır. Bu layihə turoperatorların və Büronun internet səhifəsində Bakı şəhəri ilə əlaqədar təklifləri artıracaq və "özün hazırla" turist xidmət paketlərinin alınmasına şərait yaradacaqdır. İnternet səhifəsində, təyyarə biletləri də daxil olmaqla, ümumi kompleks paket sövdələşməsinə aid təkliflərlə birlikdə Bakı və ətraf ərazilər üçün ayrıca məlumat səhifəsi də olacaqdır. Bunun həyata keçirilməsi üçün Büro tərəfindən vahid sistem yaradılacaq və turoperatorların bu sistemə inteqrasiyası təmin olunacaqdır.

Tədbir 1.2.12: Hədəf ölkələr üçün Bakı şəhəri və Azərbaycanın digər məkanlarının özünəməxsus dəyərlərini özündə əks etdirən xüsusi turist xidmət paketlərinin hazırlanması

Büro Bakı şəhərinin və Azərbaycanın özünəməxsus dəyərləri ilə bağlı təklifləri nəzərdən keçirəcək və 1.3-cü prioritetdə müəyyən edilmiş hədəf ölkələrə aid xüsusi turist xidmət paketlərinin hazırlanmasını təşkil edəcəkdir. Bu cür layihələrdən biri Azərbaycandakı keçmiş alman kənd və yaşayış məkanlarına turların təşkili də daxil olmaqla, alman turistlər üçün potensial turizm paketlərinin yaradılmasından ibarət olacaqdır. Büro tərəfindən 1.1-ci prioritetdə müəyyən olunmuş onlayn platformalar vasitəsilə bu paketlər haqqında xarici kommunikasiya vasitələrinin məlumatlandırılması təmin ediləcəkdir.

Tədbir 1.2.13: Bakı şəhərindən hava yolu ilə digər regionlara bir və ya ikigünlük səyahət paketlərinin hazırlanması

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Bakı şəhərinə gələn turistlər üçün 2.5-ci prioritetdə sadalanmış kommersiya məqsədli hava limanlarının yerləşdiyi bölgələrə bir və ya ikigünlük turların təşkil edilməsinə şərait yaradılacaqdır. Belə ki, bu qurum aidiyyəti qurumlarla əməkdaşlıq şəraitində həmin hava limanlarına olan uçuşların vaxt baxımından səmərəliliyinin yüksəldilməsinə çalışacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin tətbiqinin 2020-ci ildə real ÜDM-in artımına birbaşa 30 milyon manat, dolayı şəkildə 20 milyon manat olmaqla, ümumilikdə, 50 milyon manat təsir edəcəyi, eləcə də 2020-ci ildə, ümumilikdə, 8500 olmaqla, bilavasitə turizm sektorunda 6100 yeni iş yerinin açılacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- Bakıda mehmanxanalarda və mehmanxanatipli müəssisələrdə yerləşdirilmiş xarici turistlərin sayının 2015-ci il üzrə hesablanmış 0,5 milyon nəfərdən 2020-ci ildə 0,9 milyon nəfərədək artması;
- hər turistin orta qalma müddətinin 2 gündən 3 günədək artması.

Ümumi daxili məhsulun, əsasən ölkədə daha uzun müddət qalan turistlərin istirahət və əlavə yerləşmə vasitələrinə xərclədikləri vəsaitdən yaranacağı ehtimal olunur. Gündəlik xərclərin real şərtlər üzrə hər bir şəxs üçün 195 manat qalacağı ehtimal olunur. Bakıya turistlərin gəlişindən yaranan əlavə təsir 1.3-cü prioritetdə nəzərə alınmışdır.

Bu prioritet üzrə nəzərdə tutulan tədbirlərin icrası nəticəsində, eləcə də səyahət agentliklərinin, turizm məlumat ofislərinin və Büronun media üzrə məsul şəxsləri sayəsində məşğulluğun artması gözlənilir. Bakının məşğulluq göstəricisində artımın iqtisadi təsirlərə mütənasib olaraq yaranan artımdakı payı bu prioritetdə, əlavə artım isə 1.3-cü və 1.4-cü prioritetlər çərçivəsində əldə olunur.

Tələb edilən investisiya

Bu nəticəyə nail olmaq üçün, yəni turistlərə göstərilən xidmətin keyfiyyətinin artırılması, turist xidmət paketlərinin hazırlanması və festivalların keçirilməsi məqsədilə 15 milyon manat birdəfəlik investisiya tələb edilir.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsində yaranacaq risklər, əsasən, maliyyə çatışmazlığı ilə bağlı ola bilər.


7.1.3. Prioritet 1.3. Bakı şəhəri üzrə təbliğat-təşviqat tədbirlərinin keçirilməsi

Əsaslandırma

Azərbaycandan kənarda ölkənin marketinqinin həyata keçirilməsi məqsədilə ayrılmış vəsaitlərin miqdarında artıma nail olmaq üçün kifayət qədər imkanlar vardır. Belə ki, Azərbaycanın mövcud marketinq büdcəsi “Euronews” və “CNN International” kimi beynəlxalq və biznesyönümlü kanallarda televiziya reklamına yönəldilir və bu, ümumilikdə marketinq büdcəsinin 58 faizini təşkil edir. Ümumiyyətlə, ölkə tərəfindən hər gələn turist üçün ortalama 3,50 ABŞ dolları olmaqla, ildə təxminən 7 milyon ABŞ

dolları məbləğində marketinq məqsədli vəsait sərf edilir ki, bu da region ölkələrinin orta göstəriciləri ilə eyni səviyyədədir (şəkil 10).[18]

Şəkil 10. Region və digər ölkələrdə marketinq xərcləri üzrə göstəricilər



Mənbə: Dünya Turizm Təşkilatı, milli turizm qurumlarının illik hesabatları

Bununla yanaşı, Bakı şəhərinin turizm potensialına xüsusi diqqət yetirməklə, eləcə də bu istiqamətdə müvafiq marketinq siyasəti həyata keçirməklə, turistlərin sayı və onların orta qalma müddəti artırıla bilər. Bununla əlaqədar olaraq, Büro ayrılmış maliyyə vəsaitindən istifadə edərək onlayn marketinq tədbirlərinin həyata keçirilməsi, televiziya reklamlarının yerləşdirilməsi, turizm sərgilərində iştirak və digər vasitələrlə hədəf kimi müəyyənləşdirilmiş şəhərlərdə Bakı şəhərinin təbliğat-təşviqat tədbirlərini həyata keçirəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 1.3.1: Əsas hədəf bazarların seçilməsi

Mövcud potensialdan maksimum faydalanmaqla müəyyən edilmiş prioritetlərin məqsədəmüvafiq şəkildə həyata keçirilməsi, o cümlədən Büro tərəfindən Bakı şəhərinin turizm potensialının tam reallaşdırılması və bu istiqamətdə təbliğat-təşviqat tədbirlərinin görülməsi üçün bu Strateji Yol Xəritəsinin mövcud vəziyyətin təhlili ilə bağlı hissəsində Azərbaycan üçün əsas bazar imkanları kimi müəyyənləşdirilmiş beş əsas hədəf bazar üzrə araşdırma aparılacaqdır. Daha sonra Bakı şəhərinin təbliğat-təşviqat tədbirləri istiqamətində bu prioritetin 1.3.2-ci tədbirində göstərilmiş qaydada prioritetlərin siyahısı hazırlanaraq tərtib ediləcək və ilk təbliğat-təşviqat tədbirləri Bakıya birbaşa uçuşların olduğu hədəf şəhərlərdən başlanacaqdır. Ayrı-ayrı ölkələrdən gələn turistlərin sayı müəyyən səviyyədən yuxarı olduqda, prioritet ölkələr siyahısına yeni ölkələrin də adları əlavə olunacaqdır. Belə təşviqat fəaliyyətləri həftəlik birbaşa uçuşlar başlanıldıqdan sonra qısamüddətli uçuş məsafəsində yerləşən digər hədəf ölkələri də əhatə edəcəkdir.

[18] Hər gələn turist üçün marketinq xərci Dünya Turizm Təşkilatı və milli turizm qurumlarının illik hesabatlarından götürülmüşdür.

Tədbir 1.3.2: Hədəf ölkə və şəhərlərin seçilməsi

İlk növbədə, qonşu ölkələr Bakı şəhərinin turizm potensialının təşviqi üçün əsas bazar olacaqdır. Təbliğat-təşviqat tədbirləri İstanbul, Moskva, Sankt-Peterburq və Frankfurt kimi Azərbaycandan birbaşa uçuşların olduğu şəhərlər prioritetləşdirilməklə, Gürcüstan, İran, Rusiya və Türkiyə kimi yüksək tələbatın olduğu ölkələrdə başlanılacaqdır. Bununla yanaşı, bazarların prioritetliyə əsasən təsnifatı zamanı turist axınlarının dinamikasına təsir göstərən bir sıra amillər nəzərə alınacaqdır. Aşağıda sadalanan əsas meyarların nəzərə alınması marketinqə yatırılan sərmayələrdən maksimum dərəcədə fayda əldə etmək imkanı yaradacaqdır.

1. *Ölkəyə qədər olan məsafə:* Ölkəyə qədər olan məsafə çox mühüm amil olmaqla yanaşı, marketinq fəaliyyətinin planlaşdırılması zamanı da nəzərə alınmalıdır. Prioritet bazarlar çox vaxt qonşu ölkələr olur, çünki bu, səyahət etmək üçün daha az vaxt və vəsait tələb edir. Uzaq ölkələrin vətəndaşları isə böyük məsafələr qət etməli və nəqliyyata daha çox vəsait xərcləməli olurlar ki, bu da bəzi hallarda səyahətdən imtinaya səbəb ola bilər.
2. *Xarici vətəndaşların ölkəyə giriş-çıxış prosedurları, o cümlədən viza rejiminin xüsusiyyətləri və ya onun mövcud olmaması:* Mürəkkəb viza prosedurları, eləcə də ciddi sərhəd-buraxılış rejimi müasir dünyada turizmin inkişafına təsir göstərən əsas maneələrdən biridir. Səfirliyə müraciət etmək zərurəti və çoxlu sayda sənədlərin toplanmasına sərf edilən zaman bir çox potensial turistlərə mane olmaqla yanaşı, turizm məkanının seçimində də böyük rol oynayır. Bununla əlaqədar olaraq, prioritet ölkələr kateqoriyasına, ilk növbədə, ya ölkəyə vizasız daxil ola bilən, ya da sadələşdirilmiş rejim üzrə viza ala bilən ölkələr daxil ediləcəkdir.
3. *Nəqliyyat əlaqələri:* Müvafiq ölkə ilə birbaşa hava əlaqəsinin olması bir çox turistlərin istiqamət seçimi zamanı nəzərə aldığı amildir. Ölkələr arasında aşağı büdcəli hava əlaqəsinin olması da böyük əhəmiyyət kəsb edir.
4. *Ölkənin iqtisadi rifahı:* Ölkədə varlı insanlar nə qədər çox olarsa, xaricə edilən səyahətlərin sayı və bu zaman xərclənən vəsaitlərin həcmi də çox olar.
5. *Əhalinin sayı:* Bu və ya digər ölkədə nə qədər çox sayda əhali yaşayırsa, həmin ölkədən xaricə səyahət edən turistlərin sayı bir o qədər çox olar. Belə ölkələrdə inkişafa qoyulan sərmayələr, bir qayda olaraq, böyük nəticələr verir.
6. *Məqsədli bazarda daxili siyasi vəziyyət:* Daxili və beynəlxalq vəziyyətin kəskin pisləşəcəyi təqdirdə, turizm məqsədilə xaricə səyahət etmək istəyənlərin sayı da kəskin azala bilər. Bu halda, marketinq planlarında müvafiq düzəlişlər olunmalıdır.
7. *Dil baryeri:* Bu amil də potensial istirahət məkanının seçiminə təsir göstərə bilər. Dil baryerinin olmaması Rusiya, Türkiyə və bu kimi digər ölkələrdən turistlərin Azərbaycana səfər etməsini asanlaşdırır.
8. *Ölkə əhalisinin turizm istəkləri, eləcə də təklif olunan məhsullara tələbat:* Marketinq fəaliyyətinin planlaşdırılması zamanı bu və ya digər ölkədə hansı turizm məhsullarına tələbatın olacağı nəzərə alınmalıdır. Məsələn, Yaxın Şərqdən olan turistlərə şəhər gəzintisi, alış-veriş və ovçuluq turları daha maraqlı gəldiyi halda, avropalı turistlər daha çox mədəni turizmə meyillidirlər. Mədəni və dini yaxınlıq da istiqamətin seçiminə təsir göstərə bilər.
9. *Statistik dinamika:* Ölkəyə gələnlər üzrə statistik göstəricilər marketinq planlarının tərtibi və prioritet bazarların müəyyənləşdirilməsi zamanı mühüm göstərici qismində çıxış edir. Bu və ya digər ölkələrdən gələnlərin statistikası davamlı artım nümayiş etdirirsə, həmin bazara xüsusi diqqət yetirmək lazımdır.

Tədbir 1.3.3: Təbliğat-təşviqat tədbirlərinin keçirilməsi üçün bazar araşdırmalarının aparılması

Məhdud büdcə şəraitində marketinq fəaliyyətinin səmərəli təşkili məqsədilə marketinq strategiyası diferensial yanaşma əsasında qurulacaqdır. 1.3.2-ci tədbirdə hədəf olaraq müəyyən edilmiş şəhər və ölkələrin həmin tədbirdə müəyyən olunmuş meyarlara uyğunluğuna müvafiq olaraq onlara maliyyə vəsaiti ayrılacaqdır. Bununla əlaqədar olaraq, potensial bazarlar prioritetlik prinsipi üzrə aşağıdakı qruplara bölünəcəkdir:

- *Birinci kateqoriyalı ölkələr.* Bu qrupa əsas, meyarlara cavab verən və turizm tələb ölkəsi qismində böyük potensiala malik olan ölkələr daxil olacaqdır. Bu qrup ölkələrlə əməkdaşlıq əvvəlcədən hazırlanmış plan üzrə və müəyyən edilmiş büdcə əsasında aparılmalıdır.
- *İkinci kateqoriyalı ölkələr.* Bu qrupa təsnifat meyarlarına qismən cavab verən ölkələr daxil olacaqdır. Bu qrup ölkələrlə əməkdaşlıq ilə bağlı əvvəlcədən hazırlanmış tədbirlər planı nəzərdə tutulmur. Turizm sərgilərində iştirak, turizm sənayesi nümayəndələri və jurnalistlər üçün tanışlıq səfərlərinin təşkili kimi birdəfəlik aksiyaların həyata keçirilməsi planlaşdırılır. Bu aksiyalar, həmçinin nümayəndəlik ofisləri vasitəsilə təşkil oluna və onlarla əməkdaşlıq "layihəəsaslı yanaşma" *("project based approach")* üzrə həyata keçirilə bilər.
- *Üçüncü kateqoriyalı ölkələr.* Bu qrupa təsnifat meyarlarının əksəriyyətinə cavab verməyən ölkələr daxil olacaqdır. Bu qrup ölkələrdə təbliğat-təşviqat tədbirlərinin əsas etibarilə elektron marketinq və beynəlxalq televiziya kanalları vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur.

Büro bazar tədqiqatları və brendinq proqramı üçün büdcəni müəyyən edərək təqdim edəcək, daha sonra marketinq tədbirlərinin strategiyasının hazırlanması üçün beynəlxalq bazar araşdırması aparacaq və brendinq üzrə ekspert şirkətlər arasından seçilmiş şirkət ilə işə başlayacaqdır. Görüləcək işlər Azərbaycanda və hədəf bazarlarda bazar tədqiqatlarının aparılmasını əhatə edəcəkdir. Bundan başqa, Bakının şəhər turizmini yaxşılaşdırmaq məqsədilə ən yaxşı cəhətləri, eləcə də müvafiq əraziləri müəyyən etmək üçün təhlillər aparılacaqdır. Bu bazar tədqiqatının əsasında Bakı şəhərinin brendi, loqosu, sloqanı və reklam videoları hazırlanacaqdır. Qeyd olunanlardan başqa, təkmilləşdirilməli olan sahələrə dair zəruri addımları və Büro üçün keçən ilin nəticələrinə dair məlumatları müəyyən etmək məqsədilə bazar araşdırması hər il təkrarlanacaqdır.

İmkanlardan maksimum istifadə etmək məqsədilə Bakı şəhərinin təbliğat-təşviqat tədbirləri hər bir ölkə və şəhər üçün xüsusi olaraq həyata keçiriləcəkdir. Bazar araşdırması zamanı təbliğat-təşviqat tədbirlərinin həm təklif (məsələn, rəqabətli mühit və Azərbaycanın rəqabət üstünlüyü və s.), həm də tələb (məsələn, regional yaxınlıq, sosial-demoqrafik profil və turist səyahət davranışı və s.) reallıqlarına uyğunlaşdırılması nəzərdə tutulur. Hər bir hədəf ölkə üzrə mövcud olan turist seçimlərinin başa düşülməsi, turizmə dair toplanan məlumatın həcminin və keyfiyyətinin artırılması və Bakının hər hədəf ölkə üzrə dəyərinin düzgün müəyyən edilməsi məqsədilə Büro turizm ekspertlərini işə cəlb edəcəkdir.

Tədbir 1.3.4: Marketinq və media şirkətlərini cəlb etməklə hədəf şəhərlərdə Bakı şəhərinin təbliğat-təşviqat tədbirlərinin keçirilməsi

Büro marketinq strategiyasına müvafiq olaraq hədəf ölkələrdə təbliğat-təşviqat tədbirlərinin planını həyata keçirəcəkdir. Büro bu məqsədlə marketinq və media

planlaşdırma şirkətlərini də təbliğat-təşviqat tədbirlərinin reallaşdırılmasına cəlb edəcəkdir. Burada birinci addım olaraq büdcə və xərc prinsipləri və qaydaları müəyyənləşdiriləcəkdir. Daha sonra bu təbliğat-təşviqat tədbirlərinin təşviqat planı 2017-ci ildən başlamaqla hədəf ölkə və şəhərlərdə keçiriləcəkdir. Büro marketinq tədbirlərinin hər bir aləti (məsələn, onlayn təbliğat, televiziya kanalları və s.) üçün əsas icra göstəricilərini müəyyən edəcək və onların hər birinin səmərəliliyinin ölçülməsi üçün ayrıca hesabatlar tərtib edəcəkdir. Marketinq alətləri üçün sərf edilən büdcə vəsaitləri əsas icra göstəriciləri əsasında yenilənəcəkdir.

Tədbir 1.3.5: Bazar kanallarının müəyyən edilməsi

Təbliğat-təşviqat tədbirlərinin dəstəklənməsi üçün daha fərqli marketinq kanalları tələb ediləcəkdir. Büro televiziya kanallarına, baner reklamlarına ("outdoor campaign"), beynəlxalq sərgilərə, hədəf bazarlarda təqdimatların keçirilməsinə, xarici jurnalistlər və turizm sənayesi nümayəndələri üçün tanışlıq səfərlərinin təşkilinə, hədəf bazarlarda rəqəmsal marketinq və sosial şəbəkə tədbirlərinə, həmçinin məşhur televiziya şoularına üstünlük verəcəkdir. Bu zaman hədəf bazarlar barədə bazar araşdırması əsasında əldə olunmuş məlumatlara əsasən tədbirlərin lokallaşdırılmasına xüsusi diqqət yetiriləcək, beynəlxalq marketinq agentliyi və müvafiq dövlət qurumunun nəzdində yaradılması nəzərdə tutulan onlayn marketinq komandası bu səylərə dəstək göstərəcəkdir.

Tədbir 1.3.6: Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində turizm nümayəndələrinin təyin olunması və onların fəaliyyətinin təşkili

Mədəniyyət və Turizm Nazirliyi müvafiq dövlət qurumları ilə birlikdə ölkənin turizm potensialının təşviqi, turizm məhsullarının dünya turizm bazarına çıxarılması, satışının təşkili və ölkəyə turist axınının artırılması məqsədilə hədəf ölkələrdə fəaliyyət göstərən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində turizm nümayəndələri təyin edərək, onların fəaliyyətini təmin edəcəkdir. Fəaliyyətin daha səmərəli və planlı şəkildə qurulması məqsədilə illik iş planı tərtib ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Hədəf ölkələrdən Bakıya gələn turist sayındakı potensial artım nəzərə alınmaqla, bu prioritetin 2020-ci ildə 150 milyon manat birbaşa, 80 milyon manat dolayı olmaqla, ümumilikdə real ÜDM-də 230 milyon manat artıma səbəb olacağı proqnozlaşdırılır. Bu təsirə ailə səfərləri üzrə turistlərin gəlişi daxil deyildir. Eyni zamanda, turistlərin sayındakı artımın 2020-ci ildə, ümumilikdə, 16000 olmaqla, bilavasitə turizm sektorunda 11500 yeni iş yerinin açılmasına səbəb olacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- mehmanxanalarda və mehmanxanatipli müəssisələrdə yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayı 2015-ci il üzrə müəyyən edilmiş 0,5 milyon nəfərdən 2020-ci ildə 0,9 milyon nəfərədək artacaq (bu 1.2-ci prioritetin də əsas icra göstəricisidir), mehmanxanalarda yerləşdirilməmiş xarici ölkə vətəndaşlarının sayı isə 2015-ci il üzrə müəyyən edilmiş 0,8 milyon nəfərdən 2020-ci il üzrə 1,5 milyon nəfərə qədər artacaqdır.

Burada nəzərə alınmamış, lakin mövcud olan digər bir əlavə təsir isə Bakının marketinq tədbirlərinin Azərbaycandakı qış kurort zonaları və ya sağlamlıq turizmi kimi regional turizmin inkişafına olan təsiridir.

Tələb edilən investisiya

Marketinq tədbirlərinin və turizm nümayəndəliklərinin yaradılması üçün 2020-ci ilədək 100 milyon manat investisiya tələb olunacağı gözlənilir.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsində yaranacaq risklər, əsasən, maliyyə çatışmazlığı ilə bağlı ola bilər.


7.1.4. Prioritet 1.4. Bakı şəhərinin turizm infrastrukturunun, o cümlədən uyğun qiymətə mehmanxana və cəlbedici turizm məkanlarının inkişaf etdirilməsi

Əsaslandırma

Bakı şəhəri hazırda dünyasəviyyəli işgüzar turizm mərkəzlərindən biridir. Bununla yanaşı, uyğun qiymətə (aşağı büdcəli) istirahəti üstün tutan turistlər də daxil olmaqla, bəzi turist qrupları üçün cəlbediciliyi artırmaq məqsədilə Bakı şəhərinin mərkəzində uyğun qiymətə mehmanxana və hostel tipli qonaq evləri kimi yerləşdirmə vasitələrinin tikilməsi zəruridir.

Statistik göstəricilərə əsasən, 2015-2016-cı illərdə milli valyutanın devalvasiyası nəticəsində Bakı şəhərində yerləşdirmə vasitələrinin qiymətlərində 30 faiz azalma müşahidə edilmişdir. Bununla əlaqədar olaraq, 2016-cı ilin ilk dörd ayı ərzində orta günlük mehmanxana qiymətlərinin ötən ilin müvafiq dövrü ilə müqayisədə 130 ABŞ dollarından 91 ABŞ dollarınadək azalması Bakı şəhərinə səfər etmək istəyən turistlərin marağının daha da artmasına səbəb olmuşdur (şəkil 11).

Şəkil 11. 2015-2016-cı illərdə müxtəlif şəhərlər üzrə orta gündəlik mehmanxana qiymətləri *(ABŞ dolları ilə)*[1]




1. *2015-ci və 2016-cı illərin birinci 4 ayı üzrə orta göstərici nəzərə alınmaqla*
2. *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ildə Bakıda mehmanxanalarda gündəlik orta qiymət 111 ABŞ dolları təşkil etmişdir. Bu təhlildə "STR Global"ın rəqəmlərindən istifadə edilmişdir və bu rəqəmlərdən istifadə etməkdə əsas məqsəd sənəddə adları çəkilən və eyni təsnifatdan olan digər ölkələrin məlumatları ilə uyğunluğun təmin edilməsidir.*

Mənbə: "STR Global"

Bununla belə, turistlərin Bakı şəhərində orta qalma müddəti Avropa şəhərləri ilə müqayisədə hələ də aşağıdır. Belə ki, statistik göstəricilərə əsasən, 2016-cı ilin ilk dörd ayı ərzində Bakı şəhərində yerləşən mehmanxanaların doluluq səviyyəsi 32 faiz olmuşdur ki, bu da Avropadakı mehmanxanaların orta göstəricisindən iki dəfə aşağıdır (şəkil 12). Doluluq səviyyəsinin aşağı olması qismən Bakıda yerləşdirmə vasitələrinin kütləvi turizmi deyil, daha çox işgüzar turizmi hədəfləməsi və buna müvafiq olaraq, 4 və 5 ulduzlu mehmanxanaların üstünlük təşkil etməsi ilə də izah edilə bilər.

Şəkil 12. Müxtəlif şəhərlər üzrə mehmanxanaların doluluq göstəriciləri



1. *Rəqəmlər mehmanxana nömrələrinin 2015-ci il üzrə qiymətləri əsasında hesablanmışdır.*

Mənbə: "STR Global", Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

"Booking.com"[19] internet saytına nəzər saldıqda məlum olur ki, Bakı şəhəri üzrə gündəlik qiyməti 50 ABŞ dolları və daha aşağı olan 49 seçim, 20 ABŞ dolları və daha aşağı olan 5 seçim imkanı mövcuddur, lakin regionun digər şəhəri olan Tbilisidə eyni qiymətlərə, müvafiq olaraq, 184 və 33 seçim vardır. Eyni qaydada, evlərini səyahətçilərə kirayəyə verən yerli sakinlər üçün onlayn platforma olan "Airbnb.com" saytında Bakı üzrə 50 ABŞ dolları və ya daha aşağı qiymətə 96 seçim təklif edildiyi halda, Tbilisidə eyni qiymətə 400 seçim mövcuddur.[20] Uyğun qiymətə seçimlərin az olması Bakıya gələcək kütləvi turist qruplarının çoxunu bundan çəkindirə bilər.

Bununla belə, beynəlxalq təcrübəyə əsasən turistlərin mehmanxana, restoran və muzeylərdən tutmuş ticarət mərkəzləri, xüsusi ziyarət yerləri və yerli bazarlaradək fərqli təcrübələr təklif edən məkanlara cəlb olunduğunu əsas götürməklə qeyd etmək olar ki, Bakı şəhərinin mərkəzində belə təkliflər üçün bir sıra yer mövcuddur. Buna nümunə kimi aşağıdakıları göstərmək olar: 15 kilometr məsafədə Xəzər dənizi boyunca uzanan Dənizkənarı Milli Park, yüz illər əvvələ gedib çıxan tarixi ilə məşhur olan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, Neftçilər prospekti boyunca tarixi binalarda yerləşən müxtəlif brend markalı mağazalar, Xəzər dənizində qayıqla üzmək imkanı təklif edən "Bakı Yaxt Klubu", həmçinin Bakı şəhərinin ətrafında "Qobustan" dövlət tarixi-bədii qoruğu, "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu və s. kimi turistlərin marağını cəlb edən yerlərə ekskursiyalar və s. Bakı şəhərində uyğun qiymətə yerləşdirmə vasitələri üzrə təklif olunan alternativləri artırmaqla Bakının görməli yerlərinə turist səfərlərinin çoxalmasına nail olmaq mümkündür.

Görüləcək tədbirlər

Tədbir 1.4.1: Sahibkarlığa Kömək Milli Fondunun turizm sektoruna ayıracağı maliyyə vəsaitinə dair tədbirlər planının hazırlanması

Daha geniş turizm bazarı üçün cəlbediciliyi artırmaq məqsədilə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin bir hissəsi turizm sektoruna yönəldilməklə, öz yaşayış məkanlarını kiçik mehmanxanalara çevirmək və ya müvafiq rayonlarda aşağı və orta səviyyəli mehmanxana inşa etmək arzusunda olan sahibkarlara dəstək verilməsi təmin ediləcəkdir.

Bu məqsədlə, hər ilin əvvəlində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən turizm sektoruna ayrılacaq maliyyə vəsaitinin miqdarı müəyyən olunacaqdır. Bu istiqamətdə İqtisadiyyat Nazirliyi tərəfindən Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə kompleks tədbirlərin həyata keçirilməsinə başlanılacaq və vəsaitlərin sərf edilməsi istiqamətlərinin, o cümlədən fəaliyyət və sahibkarlıq növlərinin siyahısının daha dəqiq müəyyənləşdirilməsi və gələcəkdə turizm sektorunun səmərəli fəaliyyətinin təşkili məqsədilə mehmanxana nümayəndəlikləri, turizm sektoruna aid kiçik və orta sahibkarlıq subyektlərinin nümayəndələri, beynəlxalq tərəfdaşlar və xarici investorlar, qeyri-hökumət təşkilatları, Büro, Sahibkarlığa Kömək Milli Fondu və digər aidiyyəti qurumlar arasında görüşlər və seminarlar təşkil ediləcəkdir. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən turizm sektoruna ayrılacaq vəsaitlərin bölgüsünün bir üsulu həmin tədbirlərdə vəsaitin uyğun qiymətə yerləşdirmə vasitələri (evlərin mini mehmanxanalara çevrilməsi də daxil olmaqla) və turizm fəaliyyətləri (məsələn, incəsənət, misgərlik məhsulları kimi məhsulların əllə hazırlanması) arasında bölüşdürülməsi üzrə illik limitin və hər bir benefisiarın alacağı məbləğin müəyyən edilməsi ola bilər. Bundan başqa, kredit alanların (o cümlədən alınan kreditə görə

[19] Turizm üçün yerləşdirmə vasitələrinin sifarişi üzrə məşhur internet səhifəsi

[20] "Airbnb.com" axtarış xidmətinin bir gecə, iki nəfər üçün özəl otağa əsaslanan məlumatı. Təqdim edilmiş bütün rəqəmlər 2016-cı ilin may ayına aiddir.

yaradılmış imkandan faydalananların) hədəf sayının illik olaraq müəyyən olunması, eyni zamanda, turizm sahəsinin inkişafına dair yerli sahibkarların təqdim etdiyi investisiya layihələrinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına maliyyələşdirilməsi imkanları qiymətləndiriləcək və məqsədəmüvafiq hesab edildiyi təqdirdə fəaliyyət planı hazırlanacaqdır.

Bütün bunlarla yanaşı, Büro tərəfindən gecələmə üçün fərqli səviyyəli qiymətlərdən ibarət təkliflər siyahısının genişləndirilməsi, mehmanxanaların mövcud potensialının istifadəsiz qalmasının qarşısının alınması məqsədilə birbaşa xarici investisiyaların cəlb edilməsi istiqamətində də dəqiq səylər göstəriləcəkdir.

Tədbir 1.4.2: 2017-2020-ci illərdə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitindən istifadə üzrə təşviqat planının hazırlanması

Sahibkarlığa Kömək Milli Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin və Büronun internet səhifəsində 2017-2020-ci illər üzrə turizm sektoruna yönəldiləcək vəsaitdən istifadə ilə bağlı təsdiq edilmiş təşviqat planı elan ediləcəkdir. Sahibkarlığa Kömək Milli Fondu və Büro bu istiqamətdə aparıcı televiziya kanallarında, qəzet və internet səhifələrində reklamların yerləşdirilməsi və digər marketinq tədbirlərini həyata keçirəcəkdir. Daha sonra Mədəniyyət və Turizm Nazirliyi turizm sektoruna yönəldilmiş vəsaitlər üzərində nəzarət tədbirləri üzrə fəaliyyəti həyata keçirəcək və ildə iki dəfə maliyyə vəsaitindən istifadə və onun təsirləri ilə bağlı məlumatları ictimaiyyətə açıqlayacaqdır.

Tədbir 1.4.3: Azərbaycanın özünəməxsus dəyərlərinin və məhsullarının, o cümlədən sənətkarlıq nümunələrinin təşviqi üçün Bakı şəhərində müxtəlif tədbirlərin keçirilməsi

Büro Bakı şəhərində Azərbaycanın özünəməxsus dəyərlərinin və məhsullarının təşviqini həyata keçirəcəkdir. Bu istiqamətdə Büro Bakı şəhərinin mövcud turizm potensialının daha da gücləndirilməsi məqsədilə İçərişəhər və Dənizkənarı Milli Park boyunca suvenir dükanlarının, əsas küçələr boyunca musiqi, rəqs və digər bədii fəaliyyətlərin təşkilinə, yerli rəqslər kimi əyləncə fəaliyyətləri təklif edən yerli restoranların artırılmasına, Xəzər dənizinə gündəlik yaxta turları kimi bir sıra xidmətlərin inkişafını dəstəkləyən layihələrin həyata keçirilməsinə dair tədbirlər planı hazırlayacaqdır. Əsas məhsul qruplarının və yerlərin müəyyən edilməsi məqsədilə Büro Bakı şəhərində və ya ətraf regionlarda sənətkarların və bələdiyyə nümayəndələrinin iştirakı ilə əlavə tədbirlər təşkil edəcək, bu cür məhsullara turistlərin marağının artırılması üçün həmin məhsulların 1.3-cü prioritetdə müəyyən edilmiş marketinq tədbirlərinə daxil edilməsi ilə bağlı tədbirlər görəcək və işlərin təkmilləşdirilməsi üzrə müxtəlif istiqamətli dəstək tədbirlərini nəzərdən keçirəcəkdir.

Tədbir 1.4.4: 2020-ci ildən sonra çimərlik turizminin təşviqi üzrə fəaliyyət planının hazırlanması

Turizm Şurası tərəfindən Büro və aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrup formalaşdırılacaq, Bakı şəhəri və ətraf ərazilərdə, eləcə də Xəzər dənizi sahili boyu ərazilərdə çimərlik turizminin inkişafı üzrə tədqiqatlar aparılacaqdır. Ehtiyac yaranarsa, xarici və yerli məsləhətçi şirkətlər də bu işə cəlb olunacaqdır. Tədqiqatın nəticəsinə müvafiq olaraq, investorların cəlb edilməsi, infrastrukturun formalaşdırılması və digər tədbirlərin həyata keçirilməsi üzrə fəaliyyət planı işlənib hazırlanacaqdır.

Tədbir 1.4.5: Bakı üçün iri flaqman layihələrin dəyərləndirilməsi

Büro Bakıda turizm məkanlarının sayını artırmaq məqsədilə bir neçə iri layihənin texniki-iqtisadi əsaslandırılmasını hazırlayacaq və potensial mənfəətlərin qiymətləndirilməsini həyata keçirəcəkdir. Bakıda iri turizm məkanlarının yaradılması, o cümlədən Bakı və Azərbaycan üzrə miniatür abidələr parkı kimi unikal təkliflərin işlənib hazırlanması təmin ediləcəkdir.

Tədbir 1.4.6: "Duty free" dükanları da daxil olmaqla məqsədli infrastrukturun formalaşdırılması

Mədəniyyət və Turizm Nazirliyi turist xidmət paketlərinin yenilənməsini nəzərdə tutan 1.2-ci prioritetin icrası istiqamətində bir sıra hədəflənmiş infrastruktur layihələrini həyata keçirə bilər. Rusiya ilə Azərbaycan sərhədində "duty free" ticarət mərkəzlərinin tikilməsi bu sahədə həyata keçirilməsi planlaşdırılan ilk layihə olaraq dəyərləndiriləcəkdir.

Tədbir 1.4.7: Məşhur brend mehmanxanaların Bakı şəhərində tikilməsinə şərait yaradılması

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən məşhur brend mehmanxanaların, o cümlədən xarici investorlar tərəfindən Bakı şəhəri və ətraf ərazilərdə mehmanxana tikintisinin ölkə iqtisadiyyatına olan təsirləri nəzərə alınmaqla, məşhur brend mehmanxanaların ölkəyə cəlb edilməsi istiqamətində fəaliyyət planı hazırlanacaqdır. Bu tədbirlər nəticəsində mehmanxanalar arasında rəqabət arta və bu da öz növbəsində qiymətlərin azalmasına və xidmət səviyyəsinin artımına səbəb ola bilər.

Tədbir 1.4.8: Universitet yataqxanalarının yay aylarında uyğun qiymətə yerləşdirmə vasitəsi olaraq turistlərə təklif edilməsi istiqamətində təkliflərin hazırlanması və təşviqi

Büro tərəfindən müvafiq dövlət qurumlarının razılığı əsasında yay tətili dövründə Bakıda yerləşən və müasir tələblərə cavab verən universitet yataqxanalarının uyğun qiymətə turist yerləşdirmə obyektləri kimi istifadəsinə dair təkliflər hazırlanacaq və aidiyyəti dövlət qurumları tərəfindən məqsədəuyğun hesab ediləcəyi təqdirdə, müvafiq tədbirlərin həyata keçirilməsinə və təşviqinə başlanılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Təşəbbüslərin 2020-ci ildə uyğun qiyməti üstün tutan turist səfərləri vasitəsilə birbaşa 45 milyon manat və dolayı 25 milyon manat olmaqla, ümumilikdə real ÜDM-də 70 milyon manat artım potensialına malik olacağı və 2020-ci ildə uyğun qiymətə olan yerləşdirmə otaqlarının ümumi otaqlarda payının hazırkı 30 faiz səviyyəsində qalacağı, eləcə də 2020-ci ildə ümumilikdə 6200 olmaqla, bilavasitə turizm sektorunda 4500 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi:

- 265 min turistin uyğun qiymətə yerləşdirmə vasitələrində yerləşdirilməsidir. Bu turistlərin yerləşmə və istirahət üzrə xərclərinin hazırda Azərbaycanda turistlər tərəfindən xərclənilən məbləğin 70 faizini təşkil edəcəyi proqnozlaşdırılır.

Tələb edilən investisiya

Yeni obyektlərin və potensial olaraq flaqman layihənin inşası üçün 100 milyon manat ümumi investisiya tələb olunacaqdır.

Gözlənilən risklər

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən vəsaitin ayrılması zamanı yarana biləcək çətinliklər və həmin vəsaitlərin aidiyyəti üzrə sərf edilməməsi bu prioritetin həyata keçirilməsində qarşıya çıxa biləcək ən böyük risklərdəndir.

7.2. Strateji hədəf 2. Turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılması

Beş əsas mexanizm Azərbaycanın qlobal və regional turizm bazarında daha böyük paya sahib olması üçün əlavə imkanlar yaradacaqdır. Bu mühüm təkanverici mexanizmlər Azərbaycanın turizm üzrə prioritetlərinin gerçəkləşdirilməsi baxımından əsas olacaqdır.

7.2.1. Prioritet 2.1. Turizm Şurasının fəaliyyətinin təşkili

Əsaslandırma

Bu Strateji Yol Xəritəsində müəyyən edilmiş tədbirlərin icrası bu sahədə maraqlı tərəflər arasında daha çevik əlaqələndirmənin mövcud olmasını zəruri edir. Hazırda prioritetlərin gerçəkləşdirilməsi məqsədilə islahatların aparılması müvafiq dövlət qurumlarının səlahiyyətindədir. Bundan əlavə, islahatların effektivliyini və operativliyini yüksəltmək üçün bu prosesdə özəl sektorun və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı da zəruridir.

Turizm sektorunda islahatlar aparan əksər ölkələrdə bu sahədə qəbul edilən xüsusi proqramların əlaqələndirilməsi və onların icrasının təmin edilməsi məqsədilə milli turizm agentlikləri yaradılmışdır. Milli turizm agentliklərinin qazandığı uğurlarla bağlı bir sıra ölkələri, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, İspaniya və Türkiyəni misal göstərmək olar. Azərbaycanda da 2001-ci ildən turizm sahəsində dövlət siyasəti Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən icra olunur. Bu mərhələdə turizm sahəsində siyasətin və islahatların uğurla həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Turizm Şurasının formalaşdırılması zərurəti yaranmışdır.

Buna müvafiq olaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamına əsasən, ölkədə turizm sahəsində mövcud vəziyyətin təhlil edilməsi, bu sahədə olan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Turizm Şurası (bundan sonra – Turizm Şurası) yaradılmışdır.

Görüləcək tədbirlər

Tədbir 2.1.1: Turizm Şurasının fəaliyyətinin təmin edilməsi

Turizm Şurası öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq olunması nəzərdə tutulan əsasnamə və tərkib əsasında təşkil edəcək və təsdiq ediləcək əsasnamədə Turizm Şurasının məqsədləri, funksiyaları, vəzifələri və katibliyi müəyyən ediləcəkdir.

Tədbir 2.1.2: Turizm sektorunun inkişafı istiqamətində düzgün koordinasiyanın qurulması məqsədilə işçi qrupların yaradılması

Turizm Şurası turizm sektorunun inkişafı istiqamətində müxtəlif dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qruplar yaradacaqdır. İşçi qrupların işinə, ehtiyac olduqda, yerli və xarici ekspertlər, özəl sektor və vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri də cəlb oluna bilər. Turizm sahəsində stimullaşdırıcı tədbirlərin, o cümlədən turizm investisiya layihələrinin dəstəklənməsi imkanlarının, vergi, gömrük güzəştləri və imtiyazlarının dəqiq müəyyən edilməsi üçün əlaqədar tərəflərin iştirakı ilə turizmin təşviqi üzrə işçi qruplar yaradılacaqdır.

Tədbir 2.1.3: Strateji Yol Xəritəsinin prioritetlərinin nəzərdən keçirilməsi və icrasına başlanılması üçün mövcud proqramlara zəruri dəyişikliklərin edilməsi məqsədilə təkliflərin verilməsi

Turizm Şurası bu Strateji Yol Xəritəsinin prioritet istiqamətlərini nəzərdən keçirəcək və onların icrasına başlamaq məqsədilə mövcud proqramlara zəruri dəyişikliklərin edilməsi ilə bağlı təkliflərini təqdim edəcəkdir. Şura tərəfindən qısamüddətli perspektivdə müvafiq tərəfdaşlar üçün icra prioritetləri müəyyən ediləcək, həmin prioritetlərin həyata keçirilməsi və iştirakçılar tərəfindən aşkarlanan çatışmazlıqların aradan qaldırılması istiqamətində tədbirlər görüləcəkdir.

Tədbir 2.1.4: Prioritetlərin həyata keçirilməsi üçün monitorinq sisteminin yaradılması

Turizm Şurası prioritetlərin icrası məqsədilə monitorinq sistemi yaradaraq, işlərin gedişatına dair müntəzəm məlumatları toplayacaq və mütəmadi şəkildə ictimaiyyətə açıqlayacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Turizm Şurasının yaradılması bu Strateji Yol Xəritəsinin prioritetlərinin həyata keçirilməsi sahəsində nəzərdə tutulan məqsədlərə nail olunmasında mühüm rol oynayacaqdır. Şura bütün digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynadığına görə real ÜDM və məşğulluqda birbaşa təsir yaratmayacaqdır.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əsaslı investisiya qoyuluşu tələb edilmir.

Gözlənilən risklər

Bu prioritet üzrə əsas risk faktoru prioritetlərin icrası ilə bağlı tələb edilən əlaqələndirmənin gözlənilən qədər səmərə verməməsi ola bilər.

7.2.2. Prioritet 2.2. Turizm və rekreasiya zonalarının (TRZ) yaradılması

Əsaslandırma

Bu Strateji Yol Xəritəsi iki əsas məqsəd üzərində qurulmuşdur: sektor üzrə əsas stimullaşdırıcı mexanizmlərə əlavə olaraq, ixtisaslaşmış turizm sahələri üzrə Bakı və regionların inkişaf etdirilməsi. Nəzərdə tutulan məqsədlərin əldə olunması və prioritetlərin uğurlu icrası sektorun inkişafına məqsədyönlü yanaşmadan asılıdır. Bundan əlavə, regionların sürətli inkişafına uyğun olaraq effektiv idarəetmənin formalaşdırılması və hər bir regionun coğrafi mövqeyi nəzərə alınmaqla xüsusi tədbirlərin həyata keçirilməsi zəruridir. Bu yanaşmalardan biri də turizm potensialı zəngin olan müvafiq ərazilərdə turizm və rekreasiya zonalarının (bundan sonra – TRZ) yaradılmasıdır.

TRZ-lərin yaradılması müvafiq ərazilərdə ətraf mühitin və mədəni irsin mühafizəsinə, bölgənin turizm potensialından kompleks və səmərəli istifadə olunmasına, investisiya üçün əlverişli şəraitin formalaşdırılmasına, regionlarda yeni iş yerlərinin açılmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə, məhsul çeşidinin artırılmasına, turizmə dair statistik məlumatların tam şəkildə toplanılmasına, idarəetmə, tənzimləmə və əlaqələndirmə tədbirlərinin daha səmərəli həyata keçirilməsinə, müasir standartlara cavab verən, müxtəlif çeşidli və yüksəkkeyfiyyətli infrastrukturun yaradılmasına imkan verir.

Beləliklə, turizmin inkişafı üçün əlverişli ərazilərdə TRZ-lərin yaradılması, idarəetmə strukturunun formalaşdırılması və mövcud TRZ-lərin inkişafı məqsədilə bir sıra tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.2.1: TRZ-lərin idarəetmə strukturunun yaradılması

Mədəniyyət və Turizm Nazirliyi TRZ-lərin idarə olunması məqsədilə müvafiq qaydalara uyğun idarəetmə strukturu yaradacaqdır. TRZ-lər üzrə idarəetmə strukturuna müvafiq dövlət qurumlarının, yerli bələdiyyələrin, hər bir zonaya daxil olan sahibkarlıq subyektlərinin nümayəndələri, eləcə də ərazidəki torpaq sahibləri daxil ediləcəkdir. İdarəetmə strukturuna daxil olan sahibkarlıq subyektlərinin seçimi zamanı turizm və rekreasiya zonalarında turizm fəaliyyətinə daha önəmli töhfəsi olan nümayəndələrə üstünlük veriləcəkdir.

Tədbir 2.2.2: TRZ-lərdə fəaliyyətin turizm klasterinə uyğun qurulması

Mədəniyyət və Turizm Nazirliyi TRZ-lərin ərazisində olan turizm potensialından daha səmərəli istifadəni təmin etmək üçün hər bir zona üzrə makro səviyyədə turizm klasterini müəyyən edən strateji planın hazırlanmasını təmin edəcəkdir. Turizm klasterinə uyğun olaraq zonaların baş və cari planları hazırlanacaq və turizmin inkişafında marağı olan tərəfdaşların təklifləri nəzərə alınacaqdır. TRZ-lərdə turizm klasterinə uyğun turizm xidməti infrastrukturunun yaradılması bu məkanda davamlı fəaliyyəti, səmərəli idarəetməni, keyfiyyətli xidməti və turistlər üçün cəlbediciliyi artıracaqdır.

Tədbir 2.2.3: TRZ-lərin inkişaf etdirilməsi

İdarəetmə strukturu 2.2.2-ci tədbirdə qeyd edilmiş baş və cari inkişaf planlarının işlənib hazırlanmasını təmin edəcəkdir. Bu planlar özündə davamlılıq prinsipinə uyğun turizm infrastrukturunun inkişafını, özəl sektor tərəfindən investisiya qoyuluşuna üstünlük verməklə maliyyə mənbələrinin müəyyən edilməsini və cəlb olunmasını, eləcə də marketinq və kommunikasiya ilə bağlı tədbirləri əhatəli şəkildə ehtiva edəcəkdir. Mədəniyyət və Turizm Nazirliyi müvafiq nəzarət mexanizmini formalaşdıraraq baş və cari inkişaf planlarının icrasına nəzarəti təmin edəcəkdir.

Tədbir 2.2.4: TRZ-lər üçün illik inkişaf planlarının işlənib hazırlanması və dərc edilməsi

İdarəetmə strukturu TRZ-lər üçün illik inkişaf planlarını işləyib hazırlayacaq və dərc edəcəkdir. Belə inkişaf planları turizm infrastrukturunun inkişafı üçün müfəssəl fəaliyyət planlarını özündə əks etdirəcək, eyni zamanda, özəl sektorun inkişafı və marketinq məqsədləri üzrə maliyyə vəsaitinin ayrılmasını nəzərdə tutacaqdır.

Tədbir 2.2.5: Yeni TRZ-lərin yaradılması ilə bağlı təhlillərin aparılması

Mədəniyyət və Turizm Nazirliyi Azərbaycanın qərb, şimal-qərb və cənub istiqamətlərində turizm potensialı zəngin olan ərazilərin TRZ kimi müəyyən edilməsi məqsədilə araşdırma aparacaqdır. Bu araşdırmalar nəticəsində zonanın strateji məqsədləri müəyyən ediləcək və regionlarda turizm növlərinin inkişafı ilə bağlı bu Strateji Yol Xəritəsində öz əksini tapmış məqsədlərə uyğun olaraq TRZ-lərin dəqiq coğrafi əhatə dairəsi və funksional istiqaməti təsvir olunacaqdır.

Tədbir 2.2.6: İllik inkişaf planlarının icrası üçün monitorinq mexanizminin yaradılması

Mədəniyyət və Turizm Nazirliyi illik inkişaf planlarının icrası üçün monitorinq mexanizmi yaradaraq, strateji məqsəd, hədəf və əsas icra göstəricilərinə nail olmaq istiqamətində lazımi yoxlama tədbirlərini həyata keçirəcəkdir.

Gözlənilən nəticələr və nəticə indikatorları

TRZ-lərin turizm klasterinə uyğun yaradılması bu Strateji Yol Xəritəsinin məqsədlərinə nail olmaq üçün əsas amildir və onların yaradılmasına, idarə edilməsinə, eləcə də inkişafına əsaslı investisiya qoyuluşları tələb olunur.

Bu strateji istiqamət üçün əsas mərhələ müvafiq dövlət qurumu tərəfindən TRZ-lərin yaradılması, onların cari inkişaf planlarının hazırlanması və nəzarət mexanizminin formalaşmasından ibarətdir. Nəzarət sisteminin tərkib hissəsi kimi müəyyən edilmiş əsas fəaliyyət göstəriciləri, həmçinin strateji istiqamətin özü üçün əsas fəaliyyət göstəriciləri kimi qəbul ediləcəkdir.

Tələb edilən investisiya

Şimal bölgəsində Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarında 4 min nəfərlik yataq yeri olan turizm mərkəzinin fəaliyyət planlarının hazırlanması, dizayn planlaması və layihənin idarə edilməsi üçün ilkin mərhələdə tələb olunan vəsait 1,8 milyon manat təşkil edir. Qərb, şimal-qərb və cənub regionlarında yeni turizm və rekreasiya zonalarının elan olunması məqsədilə ərazilərin müəyyən edilməsi, 1:25000 miqyasında topoqrafik xəritələrin, mülkiyyət məlumatları olan kadastr xəritələrinin, yer quruluşu xəritələrinin və zonaların iqtisadi əsaslandırılmasının, eləcə də makro inkişaf planının hazırlanması üçün 1 milyon manat vəsait tələb olunur.

Gözlənilən risklər

Bu prioritetlərin həyata keçirilməsi zamanı maliyyə çətinliklərinin olması əsas risk yaradan faktorlardandır.

7.2.3. Prioritet 2.3. Yerli və xarici turistlər üçün turizmdə mövsümilik problemini regional səviyyədə aradan qaldıran turizm xidməti infrastrukturunun inkişaf etdirilməsi

Əsaslandırma

Dövri olaraq ilin fəsillərinin dəyişməsinə görə turizm sektoru mövsümi təsirlərə məruz qalır və bununla əlaqədar olaraq turizm səfərləri yüksək, orta və aşağı mövsüm dövrlərinə ayrılır. Təbii iqlim faktorlarından əlavə, yüksək turizm mövsümləri, həmçinin milli və dini bayramlar, tətillər, kütləvi idman və digər tədbirlər zamanı da müşahidə olunur. İstər təbii iqlim, istərsə də digər amillərdən meydana gələn yüksək, orta və aşağı turizm mövsümlərində turizm sənayesi müəyyən çətinliklərlə (yüksək

mövsümdə qiymətlərin bahalaşması, turizm mərkəzlərinin həddən artıq yüklənməsi, aşağı mövsümlərdə isə gəlirlərin azalması, işsizlik və s.) üzləşir.

Hazırda xarici turistlər Azərbaycana daha çox yay və qış fəsillərində, Novruz bayramında və bəzi beynəlxalq tədbirlərin keçirildiyi dövrlərdə gəlirlər. Belə ki, Azərbaycanda ənənəvi yay turizm mövsümü, 2012-ci ildən isə həm də qış turizm mövsümü vardır. Daxili turizm də əsasən qeyd olunan dövrdə, həmçinin ölkədə rəsmi bayram günlərində və həftəsonu fəal olur. Halbuki, Azərbaycanın əksər turizm növləri üzrə turistləri bütün ilboyu cəlb etmək imkanları vardır. Bu məqsədlə turizm sektorunun səmərəliliyini və keyfiyyət göstəricilərini yüksəltmək üçün mövsümilik problemi həll olunmalıdır ki, bu da mövcud resurslardan daha optimal istifadə üçün çox zəruridir. Bir sözlə, turizm sahəsində mövsümilik probleminin həlli üçün müvafiq tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.3.1: İlk növbədə Bakı şəhərinin, daha sonra isə bütün ölkənin turizm təqviminin hazırlanması

Mədəniyyət və Turizm Nazirliyi Büro ilə birlikdə ilk öncə Bakının, sonra isə ölkənin vahid turizm təqviminin hazırlanmasını və bu təqvim vasitəsilə şəhərlərə turistlərin bütün mövsümlərdə daha planlı və koordinasiya olunmuş şəkildə gəlməsini təmin etməyə çalışacaqdır. Turizm təqvimi bütün ilboyu Bakıda turistlərin marağına səbəb ola biləcək yerli tədbirlərin və ölkəyə ən azı 20 xarici ölkədən turistlərin gəlməsini nəzərdə tutan beynəlxalq tədbirlərin keçirilməsini özündə əks etdirən sənəd olacaqdır. Bakı şəhərinin turizm təqvimi bütün aidiyyəti qurumlara göndəriləcək sorğulara verilən cavablar əsasında tərtib olunacaq, daha sonra yeni tədbirin keçirilməsi planlaşdırıldığı halda təqvimə əlavə edilməsi üçün müvafiq dövlət qurumuna dərhal məlumat veriləcəkdir. Hər il üçün turizm təqviminin tərtib olunmasına əvvəlki ilin ikinci yarısından başlanacaq və turizm təqvimi 1 yanvar tarixindən etibarən Azərbaycan Respublikasının dövlət mülkiyyətində olan internet resurslarının əsas səhifəsində, Büronun onlayn platformasında diqqəti cəlb edən hissədə yerləşdiriləcəkdir. Turizm təqvimi ən azı BMT-nin rəsmi dillərinə, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində isə əlavə olaraq həmin ölkələrin yerli dillərinə tərcümə olunub yayımlanacaqdır. Turizm təqviminin tərtib olunması və onunla bağlı bütün məsələlər müvafiq qaydalara əsasən həll olunacaq və Bakı şəhəri və regionlar üzrə təqvimin hazırlanması planı nəzərdən keçiriləcəkdir. Buna müvafiq olaraq, 2017-ci ildən Bakı şəhərinin, 2018-ci ildən isə bütün ölkənin turizm təqvimi hazırlana bilər.

Tədbir 2.3.2: Müxtəlif turizm növləri üzrə (sağlamlıq, ekoloji, işgüzar, kənd və s.) turistlərin aşağı turizm mövsümü dövründə gəlməsinin təşviqi

Aşağı turizm mövsümü dövründə 3.1-ci prioritetlə müəyyən edilmiş sağlamlıq turizmi imkanlarından daha çox istifadə olunacaq, 3.5-ci prioritetə müvafiq olaraq milli parklara aşağı turizm mövsümü vaxtı daha cəlbedici təkliflərlə girişin təmin edilməsi və həmin prioritetdə təklif edilən tədbirlərin və turların qeyri-mövsümi dövrdə marketinq tədbirlərinə daxil edilməsi, eləcə də kənd turizminə olan marağın kənd təsərrüfatı məhsullarının məhsul yığımı dövründə genişləndirilməsi həyata keçiriləcəkdir. 3.4-cü prioritetə əsasən, ölkədə gələcəkdə beynəlxalq tədbirlərin, ilk növbədə, Azərbaycan üçün qeyri-ənənəvi turizm mövsümlərində keçirilməsi və ölkədə keçirilən ənənəvi tədbirlərin, imkan daxilində, turizm baxımından daha az turistin gəldiyi dövrə çəkilməsi siyasətinin həyata keçirilməsi imkanları araşdırılacaq və təkliflər hazırlanacaqdır.

Tədbir 2.3.3: Azərbaycan Respublikasında turizmin təşviqi siyasətində mövsümiliyi azaldan tədbirlərin və layihələrin xüsusi olaraq dəstəklənməsinin təmin edilməsi

1.4-cü prioritetə əsasən turizm sektoruna ayrılacaq maliyyə vəsaitinin daha çox mövsümiliyi azaldan turizm layihələrinin maliyyələşdirilməsinə yönəldilməsinə üstünlük veriləcəkdir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən aşağı turizm mövsümü dövründə turizm sənayesi subyektləri üçün güzəştlərin tətbiqi imkanları araşdırılaraq müvafiq təkliflər hazırlanacaqdır.

Tədbir 2.3.4: Bakı şəhərinin marketinq tədbirlərində qeyri-mövsümiliyə üstünlük verilməsi

1.1-ci prioritetə əsasən Bakı şəhəri üçün 2017-2020-ci illər üzrə hazırlanacaq marketinq və kommunikasiya planında 1.3-cü prioritetə əsasən hədəf ölkələrdən olan xarici turistlərin Azərbaycana aşağı turizm mövsümü dövrlərində gəlişini dəstəkləyən təbliğat-təşviqat tədbirlərinə üstünlük veriləcəkdir.

Tədbir 2.3.5: Ov mövsümünün müvafiq tələblər gözlənilməklə aşağı turizm mövsümünə çəkilməsi

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ov mövsümünə aşağı turizm mövsümü dövründə icazələrin verilməsi üçün müvafiq araşdırmalar aparılacaq və ovlanması mümkün olan heyvanların siyahısı tərtib olunacaqdır. Turistləri cəlb etmək üçün bu heyvanların aşağı turizm mövsümü dövründə ovlanması təklif olunacaqdır.

Tədbir 2.3.6: TRZ-lərdə qeyri-mövsümi turizmin təşviqi

2.1-ci prioritetə müvafiq olaraq TRZ-lərin yaradılması, onların baş planlarının hazırlanması, turizm klasterlərinin yaradılması zamanı daha çox həmin ərazilərdə mövsümiliyi azaldacaq tədbirlərin keçirilməsinə üstünlük veriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritet Strateji Yol Xəritəsində nəzərdə tutulan digər prioritetlərin həyata keçirilməsi vasitəsilə nəzərdə tutulan məqsədlərə nail olunmasında mühüm rol oynayacaq, lakin ÜDM-ə və məşğulluğa birbaşa təsir etməyəcəkdir.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün böyük maliyyə vəsaiti tələb edilmir.

Gözlənilən risklər

Bu prioritet üzrə xüsusi risk faktoru mövcud deyildir.

7.2.4. Prioritet 2.4. Viza rəsmiləşdirilməsi proseslərinin və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi

Əsaslandırma

Milli təhlükəsizliyi təmin etmək məqsədilə Azərbaycan Respublikasının viza tələbləri region ölkələr ilə müqayisədə daha sərtdir (şəkil 13). Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) vətəndaşlarına Azərbaycan Respublikasının bütün beynəlxalq statuslu hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsinin təmin edilməsi

ölkə üçün müsbət nəticələr vermişdir. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2016-cı ilin iyul ayında BƏƏ-dən Azərbaycana səfər edən xarici vətəndaşların sayında on dəfədən çox artım müşahidə edilmişdir. Bu dəyişiklik ölkədə turizmi daha da inkişaf etdirmək üçün viza proseslərinin asanlaşdırılması baxımından vacib göstəricidir.

Şəkil 13. Azərbaycan və regionun bir neçə ölkəsi tərəfindən əsas turizm tələb ölkələrinə tətbiq olunan viza tələbləri

✓ *Sərhəddə viza tələbi və ya viza tələbinin olmaması* ✗ *Əvvəlcədən viza tələbi*

Azərbaycan üzrə əsas tələb ölkələri		Azərbaycan	Türkiyə	Gürcüstan
Qonşu ölkələr	Rusiya	✓	✓	✓
	Türkiyə			
	Gürcüstan			
	İran[1]	✗	✓	✓
Körfəz ölkələri	BƏƏ	✓	✓	✓
	Qatar			
	Səudiyyə Ərəbistanı			
	Bəhreyn			
	İraq	✗	✗	✗
Kütləvi turizm ölkələri	Aİ	✗	✓	✓
	BK			
	ABŞ			
	Kanada			
	Çin	✓	✓	✓
	Yaponiya	✓	✓	✓
MDB ölkələri	Qazaxıstan	✓	✓	✓
	Özbəkistan			
	Belarus			
	Ukrayna			
	Türkmənistan	✗	✓	✓

1. *Naxçıvan Muxtar Respublikası istisna olmaqla*

Əsas tələb ölkələrinin əksəriyyətindən Azərbaycana səfər üçün əvvəlcədən vizanın alınması tələb olunsa da, "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi" və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanı Azərbaycanda elektron vizanın verilməsi prosesinin yaxşılaşdırılmasına imkan vermişdir.

Quru yolu ilə sərhəd-buraxılış məntəqələrində xüsusən turizm mövsümündə, eləcə də bayram günlərində ölkəmizə turizm və digər məqsədlərlə səfər edən həm əcnəbi, həm də vətəndaşlığı olmayan şəxslərin çoxluq təşkil etməsi, həmçinin ölkə vətəndaşlarının bu dövrlərdə qonşu ölkələrə səfər etmələri və bəzi sərhəd-buraxılış məntəqələrində iş vaxtının qısa olması gözləmə hallarının yaranmasına, vaxt itkisinə, bu da, öz növbəsində, sıxlığın yaranmasına səbəb olur.

Azərbaycanda dövlət sərhəd-buraxılış məntəqələrində turistlərin keçidinin rahat və sürətli şəkildə təşkil edilməsi, quru və dəniz yolu ilə ölkəyə daxil olan

əcnəbilərə sərhəd-keçid məntəqələrində viza rəsmiləşdirilməsinin həyata keçirilməsi və s. məsələlərin tənzimlənməsinə ehtiyac vardır.

Bu dəyişikliklər ölkədə turizm sektorunu daha da inkişaf etdirmək və xarici turist səfərlərinin sayını artırmaq üçün viza proseslərinin və sərhəd-keçid prosedurlarının asanlaşdırılması baxımından vacib göstəricidir.

Beləliklə, milli təhlükəsizlik məsələləri nəzərə alınmaqla, ölkənin turizm sektoru üçün 1.3-cü prioritetdə hədəf olaraq müəyyənləşdirilmiş ölkələrdən gələn turistlərə qoyulan viza tələblərinin asanlaşdırılması, həmçinin elektron viza prosesinin daha da sadələşdirilməsi və sürətləndirilməsi, eləcə də sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi üzrə müvafiq addımların atılması üçün bir sıra tədbirlər görüləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.4.1: Beynəlxalq hava limanlarında, eləcə də bütün sərhəd-buraxılış məntəqələrində viza verilməsi mexanizminin asanlaşdırılmasının nəzərdən keçirilməsi

Mövcud şəraitə uyğun olaraq, ölkənin turizm potensialından maksimum səviyyədə bəhrələnmək məqsədilə, əsas və potensial turizm bazarları hesab olunan ölkələrdən gələn turistlərə vizaların verilməsini qiymətləndirmək üçün aidiyyəti dövlət qurumları birgə iş aparacaqdır. Bu cür qiymətləndirmə təhlükəsizlik məsələlərini də əhatə edəcəkdir. Bu məqsədlə Turizm Şurasının tərkibində işçi qrup yaradılacaq və həmin işçi qrup təhlükəsizlik maraqlarını nəzərə almaqla müəyyən hədəf ölkələrdən olan turistlər üçün viza verilməsi prosedurlarının yenilənməsi üzrə təkliflər verəcəkdir. Viza verilməsinin faydalarının, risklərinin və riskyumşaldıcı metodların müəyyən edilməsi üçün beynəlxalq təcrübə təhlil olunacaqdır. Eyni zamanda, Azərbaycana dayə-qulluqçuları ilə birgə səyahət edən ailələr (əsasən Yaxın Şərq ölkələrindən) üçün qeyri-millətlərdən olan həmin dayə-qulluqçulara tətbiq edilən viza proseslərinin sadələşdirilməsi imkanı nəzərdən keçiriləcəkdir. Bununla əlaqədar olaraq, əgər həmin şəxslərin işlədikləri ölkədə müvafiq iş icazəsi vardırsa, Azərbaycanda həmin işçilər üçün hava limanında viza verilməsi məsələsinə baxılacaqdır. Təhlillər nəticəsində əldə olunan tövsiyələrə uyğun olaraq, müvafiq dövlət orqanları ölkələrə aid zəruri dəyişiklikləri tətbiq edəcəkdir. Nəticələr Xarici İşlər Nazirliyinin internet səhifəsi, qəzetlər və digər kanallar vasitəsilə dərc olunacaq, rəsmi kütləvi informasiya vasitələrində aidiyyəti ölkələrə çatdırılacaqdır.

Tədbir 2.4.2: Ölkəyə daxil olan turistlərə xidmət məqsədilə viza ilə bağlı formaların doldurulması və ödəmənin həyata keçirilməsi üçün özünəxidmət köşklərinin istifadəyə verilməsi

Azərbaycanda hava limanında və digər sərhəd-buraxılış məntəqələrində vizaların verilməsində bir sıra yeniliklər tətbiq ediləcəkdir. Belə ki, viza alınması üzrə formaların birbaşa ölkəyə giriş məntəqələrindəki köşklərdə doldurulması imkanı saxlanılmaqla, aidiyyəti dövlət qurumları tərəfindən viza üzrə özünəxidmət köşklərinin quraşdırılması kimi innovativ metodların tətbiqi təmin ediləcəkdir. Bu istiqamətdə ödənişlər kredit kartı vasitəsilə də qəbul ediləcəkdir. Burada əsas məqsəd region ölkələrində olduğu kimi, Azərbaycanda da elektron vizanın verilməsi vaxtını iki iş gününə qədər azaltmaqdır.

Tədbir 2.4.3: Elektron vizanın verilməsi prosesinin təkmilləşdirilməsi

“ASAN Viza” sistemi Azərbaycana gələn turistlərə turizm agentliklərinin iştirakı olmadan birbaşa viza almağa şərait yaradacaqdır. Həmçinin aidiyyəti dövlət

qurumlarının birgə fəaliyyəti nəticəsində turist vizalarının verilməsi prosesi sadələşdiriləcəkdir. Belə ki, imzalı və möhürlü mehmanxana təsdiqinə, istirahət məqsədilə səfər edən turistlər üçün aidiyyəti dəvət məktubunun və bəyannamənin doldurulmasına qoyulan tələblərə yenidən baxılacaq, sənədlərin elektron versiyasının təqdim edilməsi və tam səhifəlik vizalar əvəzinə möhürlənmiş vizaların verilməsi prosedurlarının icrasına başlanılacaqdır.

Yaradılmış işçi qrup elektron viza sisteminin asanlığını və çevikliyini artırmaq üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə işləyəcəkdir.

Tədbir 2.4.4: Sərhəd-buraxılış məntəqələrində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi

Sərhəd-buraxılış məntəqələrində yaranmış sıxlığın öncədən müəyyənləşdirilməsi üçün dövlət sərhəd məntəqələrinə yaxın ərazilərdə və Bakı şəhərindən rayonlara gedən yol qovşaqlarında sərhəddə sıxlıq dərəcəsini nümayiş etdirən elektron məlumat lövhələrinin quraşdırılması, onların mütəmadi fəaliyyətinin təmin edilməsi və məlumatların müntəzəm yenilənməsi istiqamətində müvafiq işlər görüləcəkdir.

Gözləmə hallarının və bunun nəticəsində yaranan vaxt itkisinin minimuma endirilməsi, sıxlığın aradan qaldırılması, turist məmnunluğunun artırılması və turistlərin ölkəmizə axınının sürətləndirilməsi məqsədilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sərhəd-buraxılış məntəqələrindən əlavə sürətli keçidlə buraxılması məqsədilə müvafiq işlər görüləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Viza prosedurlarının sadələşdirilməsi nəticəsində turist sayının çoxalmasının 2020-ci ildə real ÜDM-in 20 milyon manat birbaşa və 10 milyon manat dolayı olmaqla, ümumilikdə, 30 milyon manat artmasına gətirib çıxaracağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi sadələşdirilmiş viza prosedurları nəticəsində gələn turistlərin sayında artımın yaranmasıdır (İranlı turistlərin artımına dair məlumat əvvəlki bəndlərdə nəzərə alındığı üçün burada qeyd olunmamışdır).

Bu prioritetin iş yerlərinin yaradılması baxımından yalnız dolayı təsirləri olacaqdır.

Qeyd etmək vacibdir ki, viza prosedurlarının sadələşdirilməsi hədəf ölkə qruplarından turist axınını artırmaqla yanaşı, digər prioritetlərin reallaşdırılması üçün də mühüm rol oynayacaqdır.

Tələb edilən investisiya

Bu tədbirlərin həyata keçirilməsinə hər hansı investisiya qoyuluşu tələb olunmayacaqdır.

Gözlənilən risklər

Bu prioritetin tətbiqi bir sıra siyasi və təhlükəsizlik riskləri daşıyır. Belə ki, bu prioritetin tətbiqi zamanı hər ölkə üzrə ayrı-ayrılıqda dəyərləndirmələr aparılmalı, bununla yanaşı, ölkəyə giriş-çıxış sistemlərinin tam təhlükəsizliyi təmin edilməlidir.

7.2.5. Prioritet 2.5. Əsas tələb bazarları ilə hava əlaqəsinin təkmilləşdirilməsi


Əsaslandırma

Dünya təcrübəsində qəbul edilmişdir ki, şəhərin hava yolu bağlantısı ilə buraya gələn turistlərin sayı arasında güclü korrelyasiya əlaqəsi mövcuddur. Belə ki, hava limanlarına beynəlxalq uçuşların artması, müvafiq olaraq, gələn turistlərin sayında da artıma səbəb olur.[21] Bu da onu göstərir ki, Azərbaycana olan birbaşa uçuşların sayının artması ölkəyə gələn turistlərin də sayının artmasına müsbət təsir edə bilər. Bu məqsədlə Azərbaycanın hava yolu nəqliyyatının liberallaşdırılması həm uyğun qiymətə hava daşıyıcıları, həm də milli hava yolları üçün cəlbedici mühit yaradaraq, Azərbaycana gələn turistlərin sayını və turizm sektorunun iqtisadi səmərəsini yüksəldəcəkdir. Digər ölkələrlə hava əlaqəsinin liberallaşdırılması səviyyəsi hər bir ölkə üzrə ayrı-ayrılıqda müəyyən ediləcəkdir.

Azərbaycana gələn xarici ölkə vətəndaşlarının hava nəqliyyatı vasitəsindən istifadə göstəricisinin 2010-cu illə müqayisədə 2015-ci ildə 33 faiz artması Azərbaycana gələn turistlərin əksəriyyətinin hava yollarından istifadəsinin bariz nümunəsidir.[22] Bununla yanaşı, Azərbaycandan daha çox Gürcüstan, İran, Rusiya və Türkiyə kimi qonşu ölkələrə hava uçuşu həyata keçirilir. Belə ki, bu ölkələrin Azərbaycana gediş-dönüş uçuşları Azərbaycanın 2015-ci ildəki ümumi uçuşlarının 74 faizini təşkil edir. Uçuşların sayının və birbaşa hava əlaqələrinin artırılması, o cümlədən həftəsonu səyahət edən turistlərin ehtiyacına uyğun uçuş qrafiklərinin tənzimlənməsi (cümə günü gündüz gediş və bazar günü günortadan sonra dönüş) vasitəsilə əlavə mənfəət əldə edilə bilər. Hazırda Bakı şəhərinin həftəsonu uçuş imkanları yalnız iki şəhər – İstanbul və Moskva üçün qənaətbəxşdir (cümə və bazar günləri üçdən çox uçuş imkanı).[23]

[21] Mənbə: Dünya Bankı
[22] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
[23] Mənbə: Expedia.com, skyscanner.com (30 may 2016-cı il tarixinə olan məlumatlar)

Şəkil 14. Azərbaycana gələn turistlərin nəqliyyat növləri üzrə göstəriciləri və ölkələr üzrə birbaşa uçuş olan şəhərlərin sayı




1. *2015-ci ilin ən azı 7 ayı ərzində aktiv olan uçuşlar nəzərdə tutulur.*

Mənbə: Diio Mi uçuşların məlumat bazası, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi


2015-ci ildə 28 mindən çox uçuşun həyata keçirildiyi, dünya səviyyəli infrastrukturu olan Heydər Əliyev Beynəlxalq Hava Limanı Azərbaycanın ən sıx iş qrafiki olan hava limanıdır. Bununla belə, Azərbaycan Bakı ilə yanaşı, həm də regionlarda beynəlxalq və yerli səviyyəli hava nəqliyyatı infrastrukturuna malikdir (şəkil 14). Azərbaycanın kommersiya məqsədli və beynəlxalq səviyyəli altı hava limanı vardır: Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ və Zaqatala. Bu hava limanlarında təyyarə uçuşlarının sayını artırmaq potensialı vardır (şəkil 15).

Şəkil 15. Azərbaycanda hava limanlarının xəritəsi və həyata keçirilən uçuşların sayı



Mənbə: Beynəlxalq Hava Limanları Şurası

Şəkil 16. Bakı və turizm üzrə rəqib şəhərlər üçün ikitərəfli biletin minimum qiyməti[1] *(ABŞ dolları/mil)*




1. Axtarış tarixindən sonra növbəti iki həftə müddətində orta hesabla 2-3 gecə qalmaq şərtilə hesablanmış ikitərəfli biletin qiyməti (ən aşağı birbaşa uçuş götürülmüşdür).

Mənbə: "Expedia.com", "skyscanner.com" (30 may 2016-cı il tarixinə olan məlumatlar)

Bununla belə, Azərbaycanda məhdud sayda hava nəqliyyatı şirkətləri xidmət göstərdiyi üçün təyyarə biletlərinin qiyməti yüksəkdir (şəkil 16). Dünya təcrübəsi göstərir ki, digər ölkələrdə hava yolları şirkətləri arasında rəqabətin mövcud olması qiymətlərin aşağı düşməsinə səbəb olmuş və səyahət üçün geniş imkanlar yaratmışdır.

Şəkil 17. Hava əlaqəsi vasitələri üzrə mühüm göstəricilər



1. 3 gecə səfəri üçün 2016-cı ilin avqust ayının birinci həftəsində ikitərəfli uçuşlar (1 nəfər üzrə)
2. Hər bir hava limanı istiqamət (məkan) hesab edilir.

Mənbə: Diio Mi uçuşların məlumat bazası

Demək olar ki, bütün istiqamətlərdə regiondakı digər turizm şəhərlərinə uçuşlarla müqayisədə qonşu ölkələrdən Bakı şəhərinə uçuş daha yüksək qiymətə başa gəlir (şəkil 17). Odur ki, hava yolları sahəsində liberallaşmanın olması labüddür.

Görüləcək tədbirlər

Tədbir 2.5.1: 1.1-ci prioritetdə müəyyən edilmiş Bakı şəhərinin 2017-2020-ci illər üzrə marketinq və kommunikasiya planına paralel olaraq liberal hava nəqliyyatı üzrə razılaşmaların əldə edilməsi məqsədilə işçi qrupun yaradılması

Gələn turistlərin sayını artırmaq üçün 1.3-cü prioritetdə müəyyən edilmiş hədəf ölkələrlə gediş-dönüş hava nəqliyyatı xidmətləri üzrə müxtəlif liberallaşdırma mexanizmləri təhlil ediləcək və bunun üçün prioritet ölkələr arasından turizm tələbatı yüksək olan ölkələr seçiləcəkdir. Bu istiqamətdə görüləcək işlərdə irəliləyişlərə nail olmaq üçün aidiyyəti qurumların iştirakı ilə Turizm Şurasının tərkibində yaradılacaq işçi qrup ölkə və regionların liberallaşdırılmış hava xidməti sazişinə daxil edilməsi məsələsinə dair təkliflərini verəcəkdir. Həmin təkliflər əsasında müvafiq sazişlərin bağlanılması nəzərdən keçiriləcək və ölkənin aviasiya qanunvericiliyinə zəruri hallarda Avropanın aviasiya qanunvericiliyinə müvafiq olaraq dəyişikliklər hazırlanacaqdır. Mədəniyyət və Turizm Nazirliyi, həmçinin gələn turist sayında əlavə artıma və uzunmüddətli mənfəətə nail olmaq üçün digər istiqamətlər üzrə də hava uçuşlarının açılmasının təşviq olunması üzrə marketinq dəstəyinin verilməsi və dövlət tərəfindən müxtəlif stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi istiqamətində təhlillər aparacaq və təkliflərlə çıxış edəcəkdir.

Tədbir 2.5.2: Azərbaycanda aviaşirkətlərin sayının artırılması məqsədilə uyğun qiymətə xidmətlər təklif edən şirkətlərin və milli aviaşirkətlərin formalaşdırılmasının dəstəklənməsi

Rəqabətin gücləndirilməsi və uçuşların sayının artırılması xüsusən qısaməsafəli məntəqələrə təyyarə biletlərinin qiymətini aşağı salacaq, aşağıbüdcəli *("lou-kost")* hava nəqliyyatı şirkətlərinin fəaliyyəti üçün əlverişli mühit formalaşdıracaqdır. Yaradılmış mühitdən, eləcə də müəyyən istiqamətlər üzrə dövlət tərəfindən təklif edilən müvəqqəti stimullaşdırıcı tədbirlərdən maksimum şəkildə yararlanmaq məqsədilə aşağıbüdcəli milli hava nəqliyyatı şirkətinin yaradılması nəzərdən keçiriləcəkdir. Belə ki, ölkədə fəaliyyət göstərən və "Azərbaycan Hava Yolları" QSC-nin tərkibində və ya ayrıca şirkət (paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxs) kimi təsis edilmiş aşağıbüdcəli hava nəqliyyatı şirkətinin yaradılması və həmin şirkətə hava limanından istifadə üzrə aşağı rüsumların tətbiqi, eyni zamanda, Azərbaycanı hava yolu şirkətləri üçün daha cəlbedici etmək məqsədilə sektorlar üzrə islahatların aparılması və stimullaşdırıcı mexanizmlərin tətbiqi də nəzərdən keçiriləcəkdir.

Standartlaşdırma əsasında daşınan əmlaka investisiya qoyuluşu xərclərini azaltmaq məqsədilə beynəlxalq Keyptaun Sazişinin imzalanması bu fəaliyyətin tərkib hissəsi kimi dəyərləndiriləcəkdir. Bundan əlavə, gömrük və vergi rejimi rəqabətin gücləndirilməsində əsas amil kimi qiymətləndiriləcəkdir.

Bu istiqamətdə tədbirlərin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə Dövlət Mülki Aviasiya Administrasiyası aviaşirkətlərin sayının artırılmasını hədəf kimi müəyyən edəcək, bu məqsədlə beynəlxalq tərəfdaşlar ilə birlikdə işçi görüşlər keçirəcək və həmin görüşlərdə region üzrə aşağıbüdcəli özəl və milli aviaşirkətlərin də iştirakını təmin edəcəkdir. Dövlət Mülki Aviasiya Administrasiyası, eyni zamanda, hava nəqliyyatı şirkətləri tərəfindən uçuşların sayının artırılmasına

mane olan amilləri müəyyən edəcək və aidiyyəti dövlət qurumları, eləcə də Turizm Şurası ilə birlikdə həmin çətinliklərin aradan qaldırılması ilə bağlı birgə fəaliyyət planı işləyib hazırlayacaqdır. Dövlət Mülki Aviasiya Administrasiyası yüksək mənfəət gətirmək potensialına malik olan, lakin başlanğıc dövr üçün marketinq dəstəyi və vergi güzəştlərinə ehtiyacı olan bəzi istiqamətlərin də açılmasını stimullaşdıracaqdır. Qurum, həmçinin sektor üzrə biznes mühitini və stimullaşdırma strukturunu dəyərləndirəcək, onların təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər görəcəkdir.

Tədbir 2.5.3: Bakı şəhərinə həftəsonu səfər edən səyahətçilərin gözləntilərinin daha yaxşı qarşılanması üçün uçuş cədvəllərinin (1.3-cü prioritetə müvafiq olaraq müəyyənləşdirilmiş hədəf ölkələrə və ölkələrdən) optimallaşdırılması

2.5.1-ci tədbirə müvafiq olaraq yaradılmış işçi qrup Büro ilə birlikdə hər rübdə bir dəfə görüş keçirərək 1.1-ci prioritetdə müəyyən edilmiş Bakı şəhərinin marketinq və kommunikasiya planı əsasında hədəf ölkələrdən turistlərin həftəsonu Bakıya daha rahat səfərinin təşkil edilməsi və gözləntilərinin daha yaxşı qarşılanması üçün mövcud uçuş cədvəllərinin optimallaşdırılmasını həyata keçirəcəkdir.

Tədbir 2.5.4: Azərbaycanın regional hava limanlarında göstərilən xidmətlərin cari səviyyəsinin müəyyən edilməsi, hava limanlarının genişləndirilməsi ehtiyaclarının dəyərləndirilməsi və 2020-2025-ci illər üzrə hava limanlarına investisiya qoyuluşu planlarının icrası ilə əlaqədar tədbirlərin görülməsi

İşçi qrup tərəfindən Azərbaycanın regionlarında olan hava limanlarının xidmət keyfiyyətinin mövcud səviyyəsinin müəyyən edilməsi və hava limanları şəbəkəsinin genişləndirilməsi istiqamətində zəruri ehtiyacların dəyərləndirilməsi üçün müvafiq araşdırma aparılacaqdır. Eyni zamanda, işçi qrup 2020-2025-ci illər üzrə hava limanlarına investisiya qoyuluşu planlarının turizm sektorunun inkişafı istiqamətinə uyğunluğu, eləcə də Zabrat hava limanının aşağıbüdcəli aviaşirkətlər tərəfindən istifadəsi üçün müvafiq texniki-iqtisadi əsaslandırmanı yerli və beynəlxalq tərəfdaşlarla və investorlarla birgə işləyib hazırlayacaqdır.

Tədbir 2.5.5: Əsas hava yolları, kurort şəbəkələri və ya səyahət şirkətləri ilə strateji tərəfdaşlığın qurulması üçün müxtəlif variantların nəzərdən keçirilməsi

Azərbaycanın nəqliyyat əlaqələrinin gücləndirilməsi və ölkə turizminin hədəf bazarlarda daha effektiv təşviqi istiqamətində dünyanın əsas turizm şirkətləri ilə birbaşa əməkdaşlıq layihələrinin icrası nəzərdən keçiriləcəkdir. Bu, Azərbaycanın əsas bazarlarla nəqliyyat bağlantısının yaxşılaşdırılması istiqamətində ölkənin təşəbbüslərinə dəstək olmaqla yanaşı, belə marşrutlardan istifadə səviyyəsinin artırılmasına imkan yaradan böyük sayda turist axınına da təkan verəcəkdir. Mədəniyyət və Turizm Nazirliyi əsas hava nəqliyyatı şirkətləri, kurort və istirahət şəbəkələri, o cümlədən yerli və xarici turizm şirkətləri ilə milli səviyyədə strateji tərəfdaşlığın qurulması məsələsini dəyərləndirəcək və bu istiqamətdə bu Strateji Yol Xəritəsində verilmiş fəaliyyətləri sürətləndirmək üçün ən əlverişli əməkdaşlıq modelləri, eləcə də potensial şirkətlərin imkanları qiymətləndiriləcəkdir. Belə əməkdaşlıq çərçivəsində müxtəlif vasitələrlə Azərbaycanda turizmməqsədli hava əlaqələrinin yaxşılaşdırılması və təbliği hədəf kimi müəyyən ediləcəkdir. Daha sonra dəyərləndirmə üzrə xüsusi meyarlar müəyyən ediləcək və potensial tərəfdaşlar üçün sektor üzrə qlobal səviyyədə nəzarət həyata keçiriləcəkdir. Bu meyarlar əsasında tərəfdaşlıq variantları qiymətləndiriləcək, həm orta, həm də uzunmüddətli

perspektivdə sektor üçün faydası aşkar olunduğu təqdirdə, onların icrası təmin ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Hava əlaqələrinin genişləndirilməsi ölkəyə turist axınının reallaşdırılması üçün əsas vasitədir. Bu prioritetin icrası üçün əsas icra göstəricisi sektordakı digər əsas göstəricilərə nail olunmasını şərtləndirir. Bu prioritetin 2020-ci ildə 20 milyon manat birbaşa və 10 milyon manat dolayı olmaqla, real ÜDM-in, ümumilikdə, 30 milyon manat artmasına səbəb olacağı proqnozlaşdırılır. Bundan əlavə, tranzit sərnişinlərin sayının artması da ÜDM-in artmasına səbəb olacaqdır (burada nəzərə alınmamışdır).

Tələb edilən investisiya

Bu prioritetin həyata keçirilməsi üçün böyükhəcmli investisiya vəsaiti tələb edilmir.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsi ilə bağlı əsas risk yaradan faktor aşağıbüdcəli nəqliyyat vasitələrinin kommersiya baxımından əlverişli olmamasıdır.

7.3. Strateji hədəf 3. Yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi


Bakıdan kənarda, Azərbaycanın nadir sağlamlıq turizm seçimlərindən tutmuş qış idman komplekslərinə, şimal–qərb dəhlizi boyunca mədəniyyət abidələrinə və mənzərəli yerlərədək təklif edəcəyi məkanlar və istifadə edəcəyi imkanlar çoxdur. Yerli və regional turistlər üçün cəlbediciliyi daha da artırmaq məqsədilə ölkəmizdə bu aktivlər də inkişaf etdiriləcəkdir. Bu, 2020-ci ilədək və ondan sonrakı dövrdə bəzi hallarda turizm infrastrukturuna investisiya qoyuluşlarını və daha yaxşı idarəetmə və əməliyyatları da əhatə edir.

7.3.1. Prioritet 3.1. Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması

Əsaslandırma

Dünya miqyasında sağlamlıq turizminə tələbat getdikcə artmaqdadır. Bu turizm növü məkanları müalicə ilə yanaşı, xüsusi qulluq və gözəllikyönümlü digər xidmətlər də təklif edir. Ümumiyyətlə, sağlamlıq üçün səyahət edən turistlər daha çox həftəsonları və digər vaxtlarda ölkə daxilində və ya xarici ölkələrdə xüsusi sağlamlıq kursları keçməyə və yaxud müxtəlif təbii üsullarla müalicələr almağa üstünlük verirlər.


Şəkil 18. Region ölkələri üzrə mövcud sağlamlıq turizmi imkanlarının xəritəsi[1]



1. Mehmanxana və kurort müəssisələri də daxil olmaqla, onlayn mənbələr əsasında təxmini hesablanmışdır.

Turistlərin sağlamlıq məqsədilə qəbul etdikləri Naftalan neft vannaları Rusiya, Qazaxıstan və digər MDB ölkələrindən olan turistlər üçün xüsusilə unikal sağlamlıq turizmi məkanıdır. Son illərdə sağlamlıq turizmi məkanlarının, o cümlədən təbii üsulla müalicə sanatoriyalarının yenilənməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. 2010-cu ildə Naftalan şəhərindəki və 2013-cü ildə Şabran rayonundakı bir neçə sanatoriyaların spa və sağlamlıq mərkəzi kimi yenidən bərpası buna misal ola bilər. Lakin Naftalanın bütün mövcud sağlamlıq kompleksləri spa, masaj və su əyləncə parkı infrastrukturu şəklində lüks funksiyalarla hələ də tam modernləşdirilməmişdir. Naftalanın və təbii müalicə ehtiyatlarının Avropa və digər region ölkələrindən olan turistlər üçün cəlbediciliyini artırmaq məqsədilə bu məhsullara beynəlxalq səviyyəli aidiyyəti sertifikatın alınmasına və Beynəlxalq SPA Assosiasiyaları ilə əməkdaşlığın qurulmasına ehtiyac vardır. Buna baxmayaraq, Naftalan nefti və digər müalicəvi əhəmiyyətli təbii ehtiyatlar Azərbaycanın sağlamlıq turizminin imkanlarından istifadə üçün çox əhəmiyyətli potensialdır (şəkil 19). Bununla əlaqədar olaraq, 2020-ci ilədək sağlamlıq turizmi üzrə Naftalan neftindən, eləcə də Duzdağın təbii ehtiyatlarından istifadə prioritetləşdiriləcəkdir.

Şəkil 19. Azərbaycanın əsas sağlamlıq məkanları



Naftalanda olan yerləşdirmə vasitələri	Otaq sayı	Lüks ²
Çinar Hotel & Spa Naftalan	170	✓
Sehrli Naftalan	120	
Naftalan Hotel By Rixos	95	✓
Naftalan İstirahət və Sağlamlıq Mərkəzi	81	
Qarabağ kurort və spa	41	✓
Möcüzəli Naftalan	41	
Şəfa vannaları	28	
Naftalan Sanatoriya Kurort Birliyi	26	
Naftalan Əlilləri Bərpa Mərkəzi	12	
Ağ bina	10	

1. *Kükürdlü su*
2. *Bura SPA, masaj, üzgüçülük hovuzu daxildir.*

Mənbə: Naftalanda mehmanxana sifarişi təklif olunan internet saytları

Görüləcək tədbirlər

Tədbir 3.1.1: Sağlamlıq turizmi üzrə 2017-2020-ci illəri əhatə edən fəaliyyət planının hazırlanması

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2017-2020-ci illər üzrə sağlamlıq turizminin inkişafına dair fəaliyyət planı hazırlanacaqdır. Bu plana, həmçinin 2020-ci ildən sonra sağlamlıq turizminin inkişafına təkan vermək məqsədilə Qəbələ, Şabran, Masallı, Lənkəran rayonları kimi, digər məkanların mövcud təbii ehtiyatlarından istifadə məqsədilə uzunmüddətli planlar da daxil ediləcəkdir.

Tədbir 3.1.2: Naftalan nefti əsasında mövcud və yeni sağlamlıq məhsullarının təşviqi

Naftalan nefti əsasında sağlamlıq məhsullarının hazırlanması üzrə müvafiq tədbirlər görüləcəkdir. Belə ki, Turizm Şurası tərəfindən Naftalan neftindən istifadə edilərək yaradılacaq yeni kosmetika məhsullarının (məsələn, pilinq kremləri, azot-qliserin və s.) növlərini müəyyən etmək üçün alimlərdən və digər aidiyyəti mütəxəssislərdən ibarət Naftalan neft-tədqiqat qrupu yaradılacaqdır. Bundan sonra, hazırda istehsal edilən məhsullar da daxil olmaqla, müxtəlif məhsul qruplarının yaradılması və onların aidiyyəti üzrə brendləşdirilməsi işində iştirak edən şirkətlərin təklifləri və fəaliyyəti dəstəklənəcəkdir. Beynəlxalq institutlardan Naftalan neftinin müalicəvi əhəmiyyətini təsdiqləyən sertifikatın alınması təmin ediləcəkdir. Həm yeni, həm də mövcud məhsulların istehsalının həyata keçirilməsinə və genişləndirilməsinə özəl sektorun da cəlb edilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müxtəlif təşviqat mexanizmləri ilə bağlı təkliflər hazırlanacaqdır. Mədəniyyət və Turizm Nazirliyi bu növ məhsulların Azərbaycandakı və beynəlxalq sağlamlıq mərkəzlərindəki turizm məkanları arasında paylanılmasının təmin edilməsi istiqamətində əməli addımlar atacaqdır. Belə ki, həm xarici, həm də yerli turistləri cəlb etmək məqsədilə müəyyən marketinq tədbirləri aparılmaqla, eləcə də Naftalan nefti

mənşəli gözəllik məhsullarının bir neçə pulsuz nümunələri təqdim edilməklə masaj və spa müalicəsi ilə maraqlanan xarici turistlərə Bakıdan Naftalana kimi subsidiyalı səfərlər təklif ediləcəkdir. Ölkənin turizm məkanları barədə məlumatlılıq səviyyəsini yüksəltmək məqsədilə bu növ məhsulların üzərində Azərbaycan mədəniyyətinə və xüsusi cəlbedici turizm məkanlarına dair kiçik təsvirlərin də əlavə olunması nəzərdə tutulur. Məhsulların Azərbaycandakı digər sağlamlıq komplekslərində də satışına dəstək verilməsinə və Naftalanda qısamüddətli (üç gün və ya daha az) sağlamlıq turlarının təklif edilməsinə şərait yaradılacaqdır. Eyni zamanda, Naftalan və Duzdağa aid investisiya, turizm tələbləri və kosmetika məhsulları ilə bağlı məlumatlar onlayn platformalarda mütəmadi şəkildə yenilənəcəkdir.

Tədbir 3.1.3: Qalaaltı, Naftalan və Duzdağdakı mövcud yerləşdirmə alternativlərində, sağlamlıq xidməti göstərən müəssisələrdə və turistlər üçün digər cəlbedici yerlərdə bərpa və yenidənqurma işlərinin aparılması

Qalaaltı, Naftalan və Duzdağda restoran, kafe və əyləncə xidmətləri kimi turistlər üçün cəlbedici yerlərdə və sağlamlıq mərkəzlərində, mövcud yerləşdirmə alternativlərində yeniliklər etmək üçün tədbirlər planının hazırlanması məqsədilə Turizm Şurası tərəfindən bütün aidiyyəti tərəflərlə görüşlər təşkil ediləcəkdir. Görüşlərin nəticəsinə uyğun olaraq yerli və xarici investisiya qoyuluşları üçün lazımi şərait yaradılacaqdır.

Tədbir 3.1.4: Bakı və Naftalan arasında sürətli və yüksəkkeyfiyyətli avtobus və qatar xidmətlərinə başlanılması

Sərnişinlərin etibarlılığının və rahatlığının təmin edilməsi məqsədilə Bakıdan Naftalanadək avtomobil, qatar və avtobus əlaqəsi gücləndiriləcəkdir. Belə ki, Bakı ilə Naftalan arasında sürətli və yüksəkkeyfiyyətli avtobus və qatar xidmətlərinə başlamaq üçün aidiyyəti dövlət müəssisələri arasında Turizm Şurası vasitəsilə əməkdaşlıq əlaqələri qurulacaqdır. Səyahət agentlikləri vasitəsilə müvafiq koordinasiya qurulmaqla nəqliyyat vasitələri üçün biletlərin mehmanxanalarda təklif edilən sağlamlıq müalicə paketləri (“beauty treatments”) ilə birlikdə satışı həyata keçiriləcəkdir. Büro tərəfindən müxtəlif növ broşürlər çap edilməklə, turizm informasiya mərkəzləri, yerli kanallar və turizm agentlikləri vasitəsilə həftəiçi və həftəsonu sağlamlıq turizminin və nəqliyyat alternativlərinin təqdimatı keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Naftalanın mövcud potensialının gücləndirilməsi ilə xarici və yerli turistlərin sayında artım təmin olunacaqdır ki, bununla da 2020-ci ildə real ÜDM-in 3 milyon manat birbaşa və 2 milyon manat dolayı olmaqla, ümumilikdə, 5 milyon manat artacağı və 150 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi potensialdan istifadə əmsalının 65 faizədək artırılması, bununla da cari 40 faizlik göstəricinin Avropa sağlamlıq xidmətlərinin səviyyəsinə çatdırılmasıdır (Naftalandakı turizm mərkəzlərindən istifadə göstəricisi nəzərdə tutulur). Naftalanın neft-kosmetika məhsullarının satışı nəticəsində yaranan potensial təsirlər burada müəyyən edilmiş təsirlərə əlavə kimi göstərilmişdir.

Tələb edilən investisiya

Bu prioritetin tətbiqi üçün təxminən 15 milyon manat həcmində birdəfəlik investisiya qoyuluşu tələb edilir.

Gözlənilən risklər


Bu prioritetin həyata keçirilməsində əsas risk faktoru maliyyə çatışmazlığı və təbliğat fəaliyyətlərinin məqsədəmüvafiq şəkildə həyata keçirilməməsi ola bilər. Eyni zamanda, Naftalan nefti və ondan hazırlanmış sağlamlıq məhsullarının lazımi qaydada sertifikatlaşdırılmaması, gələcəkdə bu prioritet üzrə cəlb edilməsi nəzərdə tutulmuş hədəf turist qruplarını bu turizm məhsulundan istifadə etməkdən çəkindirə bilər.

7.3.2. Prioritet 3.2. Qış turizminin inkişafının dəstəklənməsi

Əsaslandırma

Qış idman növləri Azərbaycan üçün nisbətən yeni bir tendensiya olmaqla bərabər çox geniş potensial vəd edir. Əsas qış turizm məkanlarından olan "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi (Qəbələ) və "Şahdağ" Turizm Mərkəzi QSC (Qusar) yerli və regional turistlər üçün xizəkçilik də daxil olmaqla, bir çox açıq hava idman növlərini təklif edir (şəkil 20).

Şəkil 20. Azərbaycana yaxın regionda əsas qış turizm mərkəzləri



Mənbə: skiresort.info, booking.com, hostels.com

Azərbaycan iki qış idman kompleksi yamaclarının uzunluğuna və qalxma kabinələrinin sayına görə il ərzində qış turizmi üzrə açıq hava idman növlərindən, o cümlədən xizəkçilikdən istifadəyə imkan verən günlərin sayı baxımından regionda mövcud digər alternativlərlə müqayisədə daha rəqabətqabiliyyətlidir (şəkil 21). Belə ki, "Şahdağ" Turizm Mərkəzi QSC (Qusar) 17 kilometrlik yamac və 9 ədəd qalxma kabinəsi təklifi ilə il ərzində təxminən 120 gün, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi (Qəbələ) isə 15 kilometrlik yamac, 5 ədəd qalxma kabinəsi təklifi ilə il ərzində təxminən 110 gün fəaliyyət göstərir.

Eləcə də turizm obyektlərinə çıxışın asanlığının qış turizminin inkişafına təkan verən əsas amillərdən biri olduğunu nəzərə aldıqda, ən yaxın hava limanından cəmi 25 km məsafədə yerləşən Qəbələ şəhərinin, qış çarter reysləri və uyğun qiymətə uçuşlardan istifadə edilməklə, region ölkələrindən olan və həftəsonu istirahət etmək istəyən turistlərin cəlb edilməsi üçün yaxşı seçim olduğu məlum olur.

Şəkil 21. Region ölkələrində qış turizm kurortlarının müqayisəli təhlili

Regionda ən çox inkişaf etmiş xizək kurortları

	Xizək kurortunun adı	Ümumi qiyməti[1]	Dağ-xizək enişi (km)	Liftlərin sayı	Fəaliyyət göstərdiyi günlərin sayı[2]	Yüksəklik (metrlə)
Azərbaycan	Şahdağ	3,1	17	9	120	1430–2520
	Tufandağ	yoxdur	15	5	110	1400–2470
Türkiyə	Palantökən	3,4	72	15	135	2200–3140
	Sarıkamış	2,9	14	4	130	2160–2630
Rusiya	Roza Xutor	3,6	72	20	126	940–2320
	Mt. Elbrus	3,1	23	6	180	2350–3840
İran	Dizin	2,9	18	18	150	2530–3500
Gürcüstan	Qudauri	3,4	57	7	141	1990–3280
	Qoderdzi	3,0	8	2	131	1720–2400


1. Qiymətlər xizək kurortları barədə saytlardan əldə edilmişdir.

2. 2015-2016-cı il mövsümündə açıq günlər və kurortların internet səhifələri nəzərdən keçirilməklə müəyyən edilmişdir.

Mənbə: skiresort.info

Lakin region ölkələrində qış turizm növü üzrə bir sıra rəqib məkanların olması Azərbaycanın bu turizm növü üzrə potensialından tam istifadəni çətinləşdirir. Azərbaycanın qış idman komplekslərinin yalnız 4 və 5 ulduzlu mehmanxanalardan ibarət olması onu deməyə əsas verir ki, region ölkələrində olan alternativlərlə müqayisədə həmin mehmanxanalar həm say, həm də qiymət baxımından tam rəqabətqabiliyyətli deyildir (şəkil 22). Belə ki, bazar payının potensial artımı nəzərə alınaraq, qış turizm növünə tələbatın artırılması məqsədilə ölkə ərazisində qış idman komplekslərinə dəstək göstərilməsi, aidiyyəti üzrə qış turizmi məhsullarının çeşidinin artırılmasına şərait yaradılması və onların inkişaf etdirilməsi prioritetləşdirilməlidir.

Şəkil 22. Region ölkələrində qış turizm mərkəzlərinin müqayisəli təhlili



1. *2 nəfərlik otağın qiyməti, yataq və səhər yeməyi daxil olmaqla (manatın dollara olan məzənnəsi 0,6, rublun dollara olan məzənnəsi 0,015, gürcü larisinin dollara olan məzənnəsi 0,45 götürülmüşdür)*
2. *Liftdən 5 dəfəyə qədər istifadə*

Mənbə: skiresort.info, booking.com, dağ-xizək kurortlarının internet səhifələri

Bu məqsədlə, Azərbaycanda nəqliyyat seçimlərinin yaxşılaşdırılması, mühüm bazarlardan bəhrələnməklə qış idman mədəniyyətinin formalaşdırılması və qış turizminin daha da gücləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 3.2.1: Nəqliyyat seçimlərinin yaxşılaşdırılması

Müvafiq dövlət qurumlarının, turoperatorların, yerli bələdiyyələrin və mehmanxanaların tərəfdaşlığı əsasında qış turizm mərkəzləri ilə potensial turistlərin yaşadığı regionlar arasında nəqliyyat əlaqəsi yaxşılaşdırılacaqdır. Bu məqsədlə, mövsüm zamanı qış turizm obyektlərinə quru yolu ilə səyahət edən turistlər üçün Bakıdan həmin obyektlərə kimi pulsuz və ya subsidiyalaşdırılmış gündəlik avtobusların təşkili, hava yolu ilə səyahəti üstün tutan turistlər üçün isə müxtəlif məntəqələrdən Qəbələ şəhərinə uçuşların say və müddət baxımından səmərəliliyinin artırılması nəzərdə tutulur. Bununla əlaqədar olaraq, potensial turistlərin yaşadığı ölkələrdən turist axınının təmin edilməsində səmərəliliyin yüksəldilməsi və fəaliyyətlərin əlaqələndirilməsi məqsədilə Turizm Şurasının aidiyyəti qurumlarla əməkdaşlığı çərçivəsində 1.1-ci prioritetlə müəyyənləşdirilmiş Bakı şəhərinin marketinq və kommunikasiya planına əsasən hədəf ölkələrdən Qəbələ şəhərinə birbaşa hava reyslərinin açılması məsələsi prioritetləşdiriləcəkdir.

Bu məqsədlə Qəbələyə yerli turistlərin də səyahət imkanlarının genişləndirilməsi nəzərdə tutulacaqdır. Belə ki, bir və ya ikigünlük xizəkdən istifadə kartlarına malik və yaxud turizm kompleksində yerləşən mehmanxanaların müştəriləri olan səyahətçilərin ödənişsiz və ya subsidiyalaşdırılmış nəqliyyat xidmətlərindən istifadə etməsi məsələsi nəqliyyat xidməti göstərən subyektlər, dağ-xizək turizm kompleksinin nümayəndələri və səyahət agentlikləri ilə koordinasiyalı şəkildə təmin ediləcəkdir.

Tədbir 3.2.2: Qış turizm mərkəzlərində iclas, beynəlxalq konfrans və digər işgüzar tədbirlərin keçirilməsi

Turizm Şurasının təşkilatçılığı ilə Azərbaycana biznes məqsədilə səfər edən turistlərin ölkədə qalma müddətinin artırılması üçün Büro, Azərbaycan Konqreslər Bürosu və dağ-xizək turizm kompleksinin nümayəndələri ilə birlikdə 3.4-cü prioritetə müvafiq olaraq iclaslara, beynəlxalq konfranslara və rəsmi tədbirlərə (bundan sonra – işgüzar tədbirlər) qış turizm xidmət paketlərinin də inteqrasiyası həyata keçiriləcəkdir.

Tədbir 3.2.3: Regiondan olan turistlərin Azərbaycana axınını artırmaq məqsədilə qış turizm komplekslərində müxtəlif mövsümlərdə böyük və cəlbedici festivalların keçirilməsi

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən region ölkələrindən olan turistlərin Azərbaycana axınının təşviqi məqsədilə qış turizm komplekslərində müxtəlif mövsümlərdə, o cümlədən Yeni il və ya digər dövlət bayramları və mədəni tədbirlər zamanı böyük festivalların keçirilməsi üçün fəaliyyət planı işlənib hazırlanacaqdır. Bu plana əsasən, həmin festivallar zamanı həm aşağı, həm də yuxarı qiymətə seçimlərin, eləcə də yerli kulinariyanın, sənətkarlıq və digər incəsənət məhsullarının satışı təmin ediləcək və keçiriləcək festivallar barədə ictimaiyyət əvvəlcədən tam şəkildə məlumatlandırılacaqdır. Bunun nəticəsi olaraq, təkliflərin sayını artırmaq məqsədilə müxtəlif növ tədbirlər görüləcək, o cümlədən qapalı-açıq əyləncə mərkəzlərinin, hovuzların, velosiped cığırlarının, fitnes mərkəzlərinin və digər fəaliyyətlərin inkişafı təşviq ediləcəkdir.

Tədbir 3.2.4: Qış turizmi ərazilərindəki dövlət mülkiyyətində olan mehmanxanaların mövcud vəziyyətini qiymətləndirmək üçün təhlillərin aparılması və yerləşdirmə imkanlarının təkmilləşdirilməsi

Mehmanxanalarda yerləşdirmə imkanlarının təkmilləşdirilməsi məqsədilə dağ-xizək turizm zonalarındakı dövlət mülkiyyətində olan mehmanxanaların mövcud vəziyyəti təhlil ediləcək, mövcud inzibati problemlərə dair məlumatlar və təkliflər toplanacaqdır.

Tədqiqatın nəticələri əsasında idarəçiliyin daha peşəkar üçüncü tərəflərə həvalə olunması və yaxud qısamüddətli perspektivdə hökumət tərəfindən peşəkar mehmanxana şəbəkələrindən rəhbər vəzifələrə kadrlar cəlb edilməklə dövlət mülkiyyətində olan mehmanxanaların mövcud idarəçiliyində çevikliyin təmin edilməsinə nail olunacaqdır. Bundan başqa, prosesin gedişatında, mümkün özəlləşdirmə imkanlarını müəyyənləşdirmək üçün araşdırma aparılacaqdır. Araşdırma nəticəsində Şahdağdakı dövlət mülkiyyətində olan mehmanxanalardan başlayaraq qış idman komplekslərinin özəlləşdirilməsi nəzərdən keçiriləcəkdir.

Mövcud qış turizm komplekslərindəki dövlət mülkiyyətində olan uyğun qiymətə yerləşdirmə vasitələrinin (məsələn, hostellər, iki və üçulduzlu yerləşdirmə vasitələri və s.) tikintisi də 1.4-cü prioritetə əsasən maliyyə vəsaiti hesabına həyata keçiriləcək, eyni zamanda, özəl sektor tərəfindən investisiya qoyuluşları da təşviq ediləcəkdir.

Tədbir 3.2.5: Seçilmiş məktəblərdə dağ-xizək təlimi proqramının işlənib hazırlanması və genişləndirilməsi

Qış turizm mərkəzlərinə yaxın yerləşən özəl və dövlət məktəblərindəki şagirdlər üçün dağ-xizək təlimi proqramlarının işlənib hazırlanması məqsədilə birgə iş aparılacaq və bu istiqamətdə əldə edilmiş təcrübə nəticəsində təlimə cəlb edilmiş məktəblərin sayı ildən-ilə artırılacaqdır. Həmin təlim proqramlarının iştirakçısı olan

şagirdlərin ailələrinə hökumət tərəfindən birhəftəlik ailəvi qış istirahəti üçün endirimli qiymətə turist xidmət paketlərinin verilməsi imkanları yaradılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Mövcud potensiala hər hansı əlavə etmədən, bu prioritetin 2020-ci ildə birbaşa 10 milyon manat və dolayı 10 milyon manat olmaqla, ümumilikdə, 20 milyon manat real ÜDM artımına gətirib çıxaracağı və ümumilikdə, 300 yeni iş yerinin yaradılmasına səbəb olacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi hər bir turist üçün qış turizm mehmanxanalarında gecələmə üzrə gəlir 195 manat həcmində (yerləşdirmə, dincəlmə və yemək üzrə xərclər də daxil olmaqla) saxlanılmaqla, hazırkı qış turizm mehmanxanalarında otaq satışını illik 50% artırmaqdır. Bu göstərici 2015-ci illə müqayisədə mehmanxanaların doluluq səviyyəsinin 3 dəfə artması deməkdir.

Tələb edilən investisiya

Qış festivallarının təşkili, eləcə də nəqliyyat və yerləşdirmə xidmətlərinin müasirləşdirilməsi üçün 15 milyon manat investisiya tələb olunacaqdır.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsi üçün tələb edilən maliyyə vəsaitinin yuxarıda qeyd edilmiş ilkin hesablamalardan daha yüksək olması əsas risk yaradan faktor ola bilər.

7.3.3. Prioritet 3.3. Mədəni turizm marşrutlarının yaradılması


Əsaslandırma

Azərbaycan Respublikasının mədəni və tarixi irsi çox zəngindir. Hazırda turistlər üçün əhəmiyyət kəsb edən tarixi-mədəni obyektlərin bərpası və onların ərazi turizm inkişaf planlarının hazırlanması və turizm nümayiş obyekti kimi istifadəsi həyata keçirilməkdədir.

Buna müvafiq olaraq, tarixi marşrutlar (məsələn, Böyük İpək Yolu, məşhur hərbi yürüşlər, tarixi döyüş yerləri və s.) mədəni turizmin bir hissəsi olmaqla, turizmə təsiri və potensialı baxımından hərtərəfli qiymətləndirilməlidir. Adından göründüyü kimi, həmin marşrutların əksəriyyəti müxtəlif əraziləri əhatə edir. Bununla yanaşı, turistlərin zövqünə uyğun əlavə xüsusiyyətlərin (məsələn, şərabçılıq marşrutları) nəzərə alındığı tarixi və mədəni xarakterli turizm marşrutları da yaxşı qəbul olunur və bunlar Azərbaycan Respublikası üçün potensial turizm məhsulu kimi prioritetləşdirilə bilər.

Bunun nəticəsində Azərbaycan ərazisinin şimal, şimal-qərb və qərb dəhlizi boyunca yerləşən zəngin tarixi-mədəni irsinin təşviqi, eləcə də yerli və regional səviyyədə mədəni turizm marşrutlarının yaradılması ilə qonşu ölkələrlə turizm sahəsində əməkdaşlıq üçün geniş imkanlara malik olacaq və bu da, öz növbəsində, bölgəyə turist axınının çoxalmasına, həmçinin turist gecələmələrinin sayının artmasına şərait yaradacaqdır.

Şəkil 23. Azərbaycan Respublikasının xəritəsi



1. *Buraya Bakı şəhərinə yaxın çimərlik əraziləri daxildir.*

Görüləcək tədbirlər

Tədbir 3.3.1: Azərbaycanın şimal, şimal-qərb və qərb dəhlizləri boyunca bütün mədəni-tarixi görməli yerləri üzrə gündəlik-həftəlik avtomobil və piyada marşrutlarının tərtib edilməsi

Keçmişdə Qafqaz bölgəsindən keçərək Avropa ilə Asiyanı birləşdirən qədim ticarət marşrutu şəbəkəsi olan məşhur Böyük İpək Yolunun oxşarı olaraq ölkənin əsas turizm məkanlarından keçəcək yeni "Böyük İpək Yolu" adlı mədəni turizm marşrutu turistlərin tələbinə uyğun yenidən layihələşdiriləcək və inkişaf etdiriləcəkdir.

Bu məqsədlə, Mədəniyyət və Turizm Nazirliyi digər aidiyyəti tərəflərlə (məsələn, rayonlardan olan bələdiyyələr və sahibkarlar) birlikdə işə başlayacaqdır. Eyni zamanda, mədəni marşrutlar üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatının da yaradılması məsələsi nəzərdən keçiriləcəkdir. "Böyük İpək Yolu" mədəni turizm marşrutu, eləcə də müxtəlif maraq seqmentlərinə aid olan turistlər üçün ölkənin cəlbediciliyini daha da artırmaq məqsədilə "Aleksandr Düma Qafqazda", "Azərbaycanda şərab yolu", "Azərbaycanda alman izləri", "Azərbaycanda polyak izləri", "Babaların tarixi zəfər və şəhadət yolu" və Naxçıvanda "Nuhun gəmisi" kimi mədəni turizm marşrutları beynəlxalq tələblərə uyğun olaraq yenidən tədqiq ediləcək, bu marşrutların pasportlaşdırılması həyata keçiriləcək və marşrutlar boyu müvafiq turizm göstəriş nişanlarının yerləşdirilməsi, həmçinin Azərbaycan, ingilis, ərəb və rus dillərində xəritələrin işlənib hazırlanması təmin ediləcəkdir. Azərbaycanın şimal, şimal-qərb və qərb dəhlizləri boyunca bütün mədəni, tarixi görməli yerləri, milli parkları müəyyən ediləcək, gündəlik-həftəlik (bir gündən beş-yeddi günədək) avtomobil və piyada marşrutlarının proqramları hazırlanacaqdır. Bu məlumatlar pasportlaşdırılmış mədəni marşrutları təşviq etmək üçün onlayn platformalar vasitəsilə ictimailəşdiriləcək, müxtəlif yerləşdirmə vasitələrini (Azərbaycana Səyahət internet səhifəsi vasitəsilə) və turizm əyləncə (nümayiş) obyektlərini də özündə əks etdirəcəkdir. Eyni zamanda, bunlarla bağlı məlumat 1.3-cü prioritetə əsasən müəyyən edilmiş hədəf ölkələrdə xarici və yerli turistlər üçün həyata keçiriləcək təbliğat-təşviqat tədbirlərinə daxil ediləcəkdir.

Tədbir 3.3.2: "Böyük İpək Yolu" və digər mədəni turizm marşrutları üzrə bələdçilik etmək üçün sertifikasiya proqramının işlənib hazırlanması

Mədəniyyət və Turizm Nazirliyi 4.1-ci prioritetə müvafiq olaraq mədəni marşrutlarda bələdçi işləmək üçün sertifikasiya proqramını da işləyib hazırlayacaqdır ki, bu zaman mədəni marşrutlar boyunca yerləşən regionların yerli sakinlərinin həmin təlimlərdə iştirakına üstünlük veriləcəkdir. Belə ki, gələn turistlərə yerli əhali tərəfindən region üzrə bələdçilik xidmətinin göstərilməsi, turistlərə evlərin və mənzillərin kirayə verilməsi üzrə təlimlərin keçirilməsi və müvafiq olaraq sertifikatların verilməsi təşkil ediləcək, mədəni marşrutlara dair məlumat verilməsi üzrə vahid metodiki vəsait və sertifikatlaşdırmanı təmin etmək üçün zəruri proqram hazırlanacaqdır.

Tədbir 3.3.3: Marşrut boyunca turizm infrastrukturunun inkişafını stimullaşdırmaq üçün 1.4-cü prioritetə müvafiq olaraq maliyyə vəsaitinin ayrılması və sahibkarlara məsləhətlərin verilməsi

Mədəni turizm marşrutlarının inkişafı üçün bu layihələrə cəlb olunan sahibkarlara təlimlər keçiləcək, onların stimullaşdırılması üçün müəyyən təkliflər veriləcəkdir. Eləcə də yerli və xarici turistlərin məmnunluğunu artırmaq üçün bu marşrutlar boyunca avtobus və qatarlarla nəqliyyat əlaqələrinin gücləndirilməsi ilə yanaşı, yerləşdirmə vasitələrinin və kampinq ərazilərinin, turist dayanacaqlarının inkişaf etdirilməsində özəl sektorun iştirakının stimullaşdırılması məqsədilə, 1.4-cü prioritetə əsasən, maliyyə vəsaitinin təmin edilməsi istiqamətində müvafiq tədbirlər görüləcəkdir.

Bu məqsədlə müvafiq dövlət qurumu marşrutlar boyunca turizm infrastrukturunun inkişafını stimullaşdırmaq üçün turizm sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlara maliyyə vəsaitinin ayrılmasını dəstəkləyəcəkdir (evlərin butik mehmanxanalara, restoranlara, suvenir mağazalarına çevrilməsi). Bu istiqamətdə, müəyyən kəndlər əsas yerləşdirmə vasitələri kimi müəyyən ediləcək və həmin ərazilərdə turizm informasiya mərkəzlərinin qurulması üzrə investisiya qoyuluşu prioritetləşdiriləcəkdir. Bələdçi və yerləşdirmə vasitələri üzrə xidmət göstərən subyektlər üçün sertifikatlaşdırma və təlim proqramı 1.4-cü prioritetə müvafiq olaraq maliyyələşdiriləcəkdir.

Tədbir 3.3.4: Yeni mədəni turizm marşrutlarının təşviqi

Mədəniyyət və Turizm Nazirliyi beynəlxalq bazarlarda keçirilən sərgilərdən və digər marketinq vasitələrindən istifadə edərək, hədəf ölkələrdə mədəni turizm marşrutlarının təşviqini həyata keçirəcəkdir. Birgə turizm xidmət paketlərinin hazırlanması üçün sərhədyanı ölkələrdən olan turizm agentliklərinə üstünlük veriləcəkdir.

<u>Gözlənilən nəticə və nəticə indikatorları</u>

Mədəni turizm marşrutlarının yaradılması və inkişafının 2020-ci ildə birbaşa 10 milyon manat və dolayı 10 milyon manat olmaqla, ümumilikdə, real ÜDM-in 20 milyon manat artımına, eləcə də 2020-ci ildə, ümumilikdə, 3700 olmaqla, bilavasitə turizm sektorunda 2700 yeni iş yerinin yaradılmasına səbəb olacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi qeyd edilən mədəni marşrutlar boyunca, ümumilikdə, 24 ədəd turizm nümayiş obyektinin, əlavə xidmət üçün turist dayanacaqlarının ("destination stop") yaradılması və burada "7 gecəlik", "5 gecəlik", "3 gecəlik", "1 gecəlik" və "gündəlik" paketlərin satışının təklif olunmasıdır. Bu tədbir nəticəsində

qeyd olunan marşrutlar üzrə yerləşəcək 24 ədəd turizm nümayiş obyektinə 180 min turistin cəlb olunması gözlənilir. Bu mədəni marşrutlar boyunca yerləşdirmə vasitələrinin orta qiymətinin, bu mədəni marşrutlardan istifadə zamanı gündəlik xərclərin Bakı şəhərində turizm xərcləri ilə müqayisədə 30 faizədək aşağı olması gözlənilir.

Tələb edilən investisiya

Bu prioritet çərçivəsində yerləşdirmə vasitələrinin, eləcə də mədəni turizmin və ekoturizmin inkişafı, həmçinin marşrutlar üzərində təbliğat qurğuları və turist dayanacaqlarının yenidən qurulması üçün birdəfəlik 95 milyon manat investisiya qoyuluşu tələb olunur.

Gözlənilən risklər

Bu prioritetdə adıçəkilən turizm marşrutlarının icra göstəricilərinin indiyədək yüksək olmaması və bundan sonra istifadəyə verilməsi üçün kifayət qədər yüksək maliyyə vəsaitinin və vaxtın tələb edilməsi layihənin gözlənilən nəticəni verməməsi riskini yaradır. Bu riskin qarşısını almaq üçün layihənin həyata keçirilməsini özəl sektordakı tərəfdaşlara həvalə etmək məqsədəmüvafiq hesab olunur.

7.3.4. Prioritet 3.4. İşgüzar turizmin inkişafının dəstəklənməsi

Əsaslandırma

Biznes məqsədilə ölkə xaricinə səyahətləri əhatə edən işgüzar turizm müasir dövrdə turist axınının əsas tərkib hissəsi hesab edilir. Bu perspektivli turizm növünə müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər arasında görüşlər, konqres və konfranslar, ticarət və ya elmi-texniki əməkdaşlıq məsələləri üzrə yığıncaqlar, təbliğat-təşviqat tədbirləri ilə bağlı səfərlər, habelə beynəlxalq sərgilərdə və yarmarkalarda iştirak kimi səyahət məqsədləri daxil edilir. Müxtəlif sahələr üzrə keçirilən toplantılar ölkədə bu sahələrin daha yaxşı inkişafına və yerli mütəxəssislərin zəngin təcrübə və bilik mübadiləsi aparmasına yardımçı olur.

İşgüzar turizmin digər əhəmiyyətli cəhəti isə ölkədə məşğul əhalinin sayının artmasına və ÜDM-də turizm sektorunun xüsusi çəkisinin yüksəldilməsinə müsbət təsir etməsidir. Bundan başqa, mövsümilik amilindən asılı olmayan işgüzar səfərlər ölkəmizin ilboyu turizm məkanı kimi inkişafına da təkan vermiş olur. Bütün bunları nəzərə alaraq, paytaxt Bakı şəhərində və regionlarda Görüşlər Sənayesi üçün mühüm sayılan layihələrin həyata keçirilməsi Azərbaycana işgüzar turizm məqsədilə səfər edən turistlərin sayının artmasına, həmçinin irimiqyaslı beynəlxalq toplantıların (məsələn, konfrans, forum və s.) ölkəmizdə keçirilməsi istiqamətində təşəbbüslərə müsbət təsir göstərəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 3.4.1: Yeni hədəf bazarların müəyyənləşdirilməsi və inkişaf etdirilməsi

Növbəti illərdə işgüzar turist sayına görə hazırda qabaqcıl sıralarda olan Avropa ölkələri, Hindistan, Çin, Cənubi Koreya, İndoneziya və Malayziya kimi ölkələrdən işgüzar tədbirlərin cəlb olunması üçün müvafiq bazar araşdırması aparılacaq, bu ölkələrdən işgüzar turistlərin cəlb olunmasının iqtisadi səmərəliliyi müəyyən ediləcək, satış və marketinq metodları işlənib hazırlanacaqdır.

Bunun üçün daxili resurslarla yanaşı, yuxarıda qeyd olunan hədəf bazarlara yaxından bələd olan araşdırma şirkətləri ilə əməkdaşlıq ediləcəkdir. Araşdırma

nəticəsində bu bazarların səmərəli olduğu müəyyən olunarsa, həmin bazarlarda alıcılarla təchizatçıları bir araya gətirəcək sərgilərdə iştirak imkanları qiymətləndiriləcəkdir. Adıçəkilən bazarların özünəməxsusluğu nəzərə alınaraq, yerli təchizatçılarla (məsələn, mehmanxana, turizm fəaliyyəti ilə məşğul olan şirkətlər və s.) məlumat və təcrübə mübadiləsi də həyata keçiriləcəkdir.

Tədbir 3.4.2: Rusiya Federasiyası və Yaxın Şərq bazarlarında mövqelərimizin möhkəmləndirilməsi

Rusiya Federasiyası və Yaxın Şərqin işgüzar turizm bazarlarından olan alıcıların daha böyük hissəsinin Azərbaycana cəlb edilməsi nəzərdə tutulur. Bazar araşdırması nəticəsində bu istiqamətlərdə daha əhəmiyyətli potensialın mövcudluğu məlum olarsa, Rusiya Federasiyasında və Birləşmiş Ərəb Əmirliklərində Azərbaycan Görüşlər Sənayesi üçün satış tədbirləri keçiriləcəkdir. Bu bazarlarda ölkəmizin işgüzar turizm potensialının tam qavranılmasını təmin etmək üçün satış və marketinq işləri müntəzəm şəkildə aparılacaqdır. Bu fəaliyyətə müvafiq qurumların yerli nümayəndəlikləri ilə daimi əməkdaşlıq da daxildir. Onlar vasitəsilə adıçəkilən bazarlarda xüsusi biznes görüşlərinin təşkili üzrə işlərin həyata keçirilməsi, yerli dildə təbliğat materiallarının və videoçarxların hazırlanması, həmçinin yerli bazar alıcılarını bir araya gətirən sərgilərdə iştirak da nəzərdə tutulur.

Tədbir 3.4.3: Görüşlər Sənayesi üzrə Fəxri Səfirlər Klubunun yaradılması

Dünyada bir çox assosiasiyalar öz tədbirlərini hər hansı bir ölkədə keçirmək üçün bir çox şərtlər irəli sürürlər. Bu şərtlərdən ən əhəmiyyətlisi konfransın keçiriləcəyi ölkənin həmin assosiasiyanın üzvü olmasıdır. Bir çox hallarda məhz həmin üzvlər belə konfransların öz ölkələrində keçirilməsi üçün təşkilat daxilində fəal təbliğat aparırlar. Bu təbliğatın fəal və səmərəli aparılması üçün ölkənin Görüşlər Sənayesinin təbliğinə, o cümlədən iri tədbirləri keçirməyə qadir olduğunu nümayiş etdirən bir çox təbliğat materiallarına və təlimlərə ehtiyac yaranır. Məhz bunun üçün Azərbaycanda irimiqyaslı toplantı və konfransların təşkilində bilavasitə əlaqələndirici rolunu oynaya biləcək elm adamları və cəmiyyətdə tanınmış simalar bir araya gətirilərək, ölkənin işgüzar turizm potensialının üzvü olduğu beynəlxalq təşkilatlarda səmərəli təbliği məqsədilə müvafiq materialların və vəsaitlərin hazırlanması istiqamətində işlər görüləcəkdir. Bu məqsədlə Fəxri Səfirlər Klubu yaradılacaq, Azərbaycanın görüşlər məkanı kimi təbliğatının yüksək səviyyədə aparılması məqsədilə Fəxri Səfirlər Klubunun üzvləri ilə mütəmadi görüşlər təşkil ediləcək və təlimlər keçiriləcəkdir.

Tədbir 3.4.4: Regionlarda Görüşlər Sənayesinin inkişafına dəstək verilməsi

Bazar araşdırması aparılmaqla paytaxt Bakı şəhərindən kənarda, xüsusilə də Qəbələ, Gəncə və Qusarda müxtəlif işgüzar tədbirlərin keçirilməsi məqsədilə həm onlayn resurslardan, həm də digər satış və marketinq resurslarından istifadə edilməklə aktiv təbliğat-təşviqat tədbirləri həyata keçiriləcəkdir.

Tədbir 3.4.5: Beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirak və təbliğat səfərlərinin təşkili

Azərbaycanı bütün dünyaya müasir və hərtərəfli görüş məkanı kimi tanıtmaq məqsədilə işgüzar turizm üzrə ixtisaslaşmış "IMEX Frankfurt" və "EBTM World" kimi beynəlxalq sərgilərdə iştirakın əhəmiyyəti qiymətləndiriləcək və məqsədəmüvafiq hesab edildiyi halda, xarici alıcılarla birbaşa təmas formatında görüş məkanlarının səmərəli təşviqi həyata keçiriləcəkdir. "Ace of Mice", "ATM Dubay", "Conventa" və "M&I Forums" kimi bir çox yüksəksəviyyəli tədbirlərdə ölkəmizin təbliğinin həyata keçirilməsi imkanları dəyərləndiriləcəkdir. Region ölkələri, xüsusilə Gürcüstan və Qazaxıstanın konqreslər büroları ilə birgə əməkdaşlıq imkanları da araşdırılacaqdır. Bundan başqa, beynəlxalq alıcılar və Görüşlər Sənayesi üzrə ixtisaslaşan media nümayəndələri üçün tanıtım səfərləri təşkil olunacaqdır.

Tədbir 3.4.6: İşgüzar turizm üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması

İşgüzar turizm və assosiasiya görüşləri sahəsində beynəlxalq təcrübədən yararlanmaq və fikir mübadiləsi aparmaq ölkəmizin bu sahələrdə rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından önəmli olduğu üçün belə təcrübə və fikir mübadiləsinə şərait yaradan beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi diqqət yetiriləcəkdir. Belə ki, Beynəlxalq Konqres və Konfranslar Assosiasiyası (ICCA), Peşəkar Konqres Təşkilatçılarının Beynəlxalq Assosiasiyası (IAPCO), Beynəlxalq Assosiasiyalar Birliyi (UIA) ilə sıx tərəfdaşlıq etməklə, onların satış və marketinq alətlərindən səmərəli istifadə olunacaqdır. Bu təşkilatların assosiasiyalarla sıx münasibətlərini nəzərə alaraq, onların mütəmadi qaydada keçirdikləri regional və beynəlxalq tədbirlərdə iştirakı da nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

İşgüzar turizmin dəstəklənməsi üzrə görüləcək tədbirlər nəticəsində 2016-cı illə müqayisədə 2020-ci ildə Azərbaycana iki dəfə çox işgüzar turistin gələcəyi nəzərdə tutulur. Bu, həm paytaxt Bakı şəhərində, həm də rayonlarda işgüzar turizm infrastrukturunun qurulmasına və turizm altsektorlarının inkişafına şərait yaradacaqdır. Eyni zamanda, işgüzar turizm birbaşa şirkət və təşkilatların maddi rifahının yaxşılaşmasına da müsbət təsir göstərəcəkdir.

Tələb edilən investisiya

Görüləcək tədbirlər üçün hər il 1 milyon manat olmaqla, ümumilikdə, 4 milyon manat vəsait tələb olunacaqdır.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsi zamanı yarana biləcək əsas risklər Bakı şəhəri ilə işgüzar turizm üçün hədəf kimi qəbul olunmuş bazarlar arasında birbaşa hava əlaqəsi marşrutlarının məhdud sayda olması və ya ümumiyyətlə olmaması, regionda işgüzar turizm üzrə rəqabətin yüksək olması və bu turizm növü ilə bağlı Bakı şəhərində təklif olunan məkanlar üzrə diversifikasiyaya ehtiyac yaranarsa, bunun yüksək investisiya vəsaiti tələb etməsidir.


7.3.5. Prioritet 3.5. Davamlı turizm potensialının gücləndirilməsi (ekoturizm, kənd turizmi və s.)

Əsaslandırma

Azərbaycan meşələr, dağlar, çaylar, bulaqlar, şəlalələr, dəniz, qoruqlar, milli parklar, eləcə də palçıq vulkanları və cəlbedici kənd əraziləri, özünəməxsus adət–ənənələri və kulinariyası kimi zəngin turizm resurslarına malikdir ki, bu da ölkəni turistlər üçün cəlbedici turizm məkanına çevirə bilər (şəkil 24). Xüsusən də ölkə ərazisində unikal təbii fenomen olan palçıq vulkanları dünyadakı palçıq vulkanlarının, demək olar ki, yarısını təşkil edir və Azərbaycan dünya üzrə bu cür cəlbedici məkanları olan cəmi 20 ölkədən biridir.

Şəkil 24. Azərbaycan Respublikasının xəritəsi və ölkə ərazisində yerləşən əsas turizm bölgələri


Tarixi abidələr	Şəhər və kəndlər	Milli parklar və təbiət gözəllikləri	
▪ Atəşgah	▪ Balakən	▪ Abşeron yarımadası[1]	▪ Nabran çimərliyi
▪ Naxçıvan məqbərəsi	▪ İsmayıllı	▪ Ağgöl	▪ Samur–Yalama
▪ Ordubad Qoruğu	▪ Qax	▪ Altıağac	▪ Şahdağ
▪ Qobustan	▪ Qəbələ	▪ Göygöl	▪ Şirvan
▪ Xan Sarayı	▪ Quba (o cümlədən Xınalıq)	▪ Hirkan	▪ Tufandağ
▪ Kiş məbədi	▪ Şəki	▪ Lökbatan palçıq vulkanları	▪ Zəngəzur
▪ Əshabi-Kəhf			
▪ Yanardağ			



1. *Buraya Bakı şəhərinin yaxınlığında yerləşən çimərlik əraziləri də daxildir.*

Bununla yanaşı, Azərbaycan ərazisində çoxlu sayda milli parklar da mövcuddur. Ölkəmizdə milli parkların ərazisinin qonşu Gürcüstanla müqayisədə çox böyük olmasına baxmayaraq, Gürcüstanın ekoloji turizmi müqayisə olunmayacaq dərəcədə çox turist cəlb edir (şəkil 25). Statistik göstəricilərə əsasən, 2015-ci ildə Gürcüstanın 0,9 milyon kvadratkilometrlik milli park ərazisinə 518000 ziyarətçi gəldiyi halda, Azərbaycanın 3,1 milyon kvadratkilometrlik milli parkları rəsmi olaraq cəmi 75 min[24] nəfərə yaxın ziyarətçi qəbul etmişdir. Bu fərq, əslində, Azərbaycan ilə Gürcüstan arasında turizm xidmət sektorunun infrastrukturunun bir-birindən fərqli səviyyəsi ilə də izah edilə bilər. Lakin Gürcüstanın milli parklarına səfər edən turistlərin sayı Azərbaycanın geniş milli park ərazisində də güclü potensialın olduğunu deməyə əsas verir. Belə ki, milli park ərazilərində, o cümlədən dağ, meşə və çaylarda turistlərin gəzintisi məqsədilə ekskursiyalar təşkil edilə bilər.

Şəkil 25. Azərbaycan və Gürcüstanda milli parkların ərazisinə və qəbul edilən turist sayına görə müqayisəli təhlil



1. *Rəsmi və idarə olunan təbii qoruq və parklar daxil olmaqla*
2. *Milli parklara yaxın olan (10 km-dən az məsafədə) yerləşdirmə vasitələri nəzərdən keçirilib (Azərbaycan üçün xizək kurortları istisna olmaqla)*

Mənbə: Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gürcüstanın Qorunan Ərazilər Dövlət Agentliyi

Bununla yanaşı, dünya turizm sənayesində kənd turizmi də müxtəlif turizm növləri arasında mühüm yer tutur. Belə ki, iri şəhərlərdən uzaqlaşıb sakit yaşıl guşədə istirahəti üstün tutan insanlar bu mühitin fiziki və psixoloji bərpaedici təsirlərindən faydalana bilərlər. Hazırda Azərbaycanın ayrı-ayrı regionlarında, o cümlədən kəndlərində turistlərə yerləşdirmə vasitələri və qidalanma növləri üzrə müxtəlif xidmətlər göstərilsə də, bu xidmətlər istənilən səviyyədə deyildir. Belə ki, kənd ərazilərində yaşayan ev sahiblərinə turizm vərdişlərinin aşılanması kənd ərazilərində məşğul olan əhalinin sayının artırılmasına, kənd turizmi sahəsində xidmət infrastrukturunun gücləndirilməsinə, kənd evlərində turizm xidməti səviyyəsinin

[24] Mənbə: Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

yaxşılaşdırılmasına, turizmin alternativ növlərinin və regionların iqtisadi inkişafına yardımçı olan amillərdəndir.

Kənd turizmini inkişaf etdirməklə fərdi sahibkarlıq vərdişlərinin aşılanmasına, kənd yerlərində kommunal xidmətlərin inkişafına, əhalinin, xüsusilə də qadınların məşğulluğunun artırılmasına nail olmaq mümkündür və bu məqsədlə davamlı turizm potensialından istifadə ilə bağlı bir sıra məqsədyönlü tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 3.5.1: Azərbaycanın ekoloji turizm potensialının araşdırılması və milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili

Mədəniyyət və Turizm Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Azərbaycanın ekoloji turizm imkanlarının tədqiqini həyata keçirəcək və bunun əsasında milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili ilə bağlı tədbirlər planı hazırlayacaqdır. Həmçinin 3.3-cü prioritetə müvafiq olaraq, milli parklarla günlük-həftəlik nəqliyyat əlaqələrinin eskizi hazırlanacaqdır.

Milli parklarda alternativ gündəlik-həftəlik gəzinti marşrutlarının yaradılması və bu marşrutlar üzrə əlverişli fəaliyyət cədvəlinin tərtibatı işi təşkil ediləcəkdir. Bu fəaliyyətə milli parklarda potensial turizm kampinq yerlərinin müəyyən edilməsi və işlənib hazırlanması üzrə də təkliflərin irəli sürülməsi daxildir. Təhlil nəticəsində məqsədəmüvafiq hesab edilərsə, bu kampinq yerlərinin işlədilməsi özəl operatorlara da həvalə oluna bilər. Nəhayət, milli parklar boyunca məlumatlandırıcı işarələrin yerləşdirilməsi və milli parkların Azərbaycan, ingilis, alman, fransız və rus dillərində xəritələrinin hazırlanması imkanları araşdırılacaqdır.

"Azərbaycanda ekoturizm" albomu hazırlanaraq nəşr olunacaq və onlayn platformalarda yerləşdiriləcək, eyni zamanda, ekoturizm üzrə internet portalının yaradılması məsələsi nəzərdən keçiriləcəkdir.

Tədbir 3.5.2: Azərbaycanda kənd turizminin inkişaf etdirilməsi

Mədəniyyət və Turizm Nazirliyi 3.3-cü prioritetə müvafiq olaraq kənd turizminin inkişafı üzrə tədbirlər planı hazırlayacaqdır. Həmin tədbirlər planına əsasən, həmçinin həmin kəndlərdə mövcud olan bir sıra ənənələrin təbliğatı (məsələn, çörəkbişirmə, xalçaçılıq və s.) məqsədilə qısamüddətli kurslar təşkil ediləcək, eləcə də ixtisaslaşmış kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi üzrə tədbirlər görüləcəkdir. Bunun üçün ehtiyac yaranarsa, bu prosesə yerli və xarici ekspertlərin cəlb olunması da nəzərdə tutula bilər. Turistlərin yerləşdirilməsi məqsədilə müvafiq kənd evləri də müəyyən ediləcək, həmin kənd evlərində təmir-bərpa işlərinin aparılması, kənd icmalarında turistlərin qəbulu və xidmətlərin təşkili ilə əlaqədar təlimlərin keçirilməsi, eləcə də həmin kəndlərin sakinlərinə vergi ödəmək vərdişlərinin aşılanması məqsədilə maarifləndirmə işinin aparılması üçün, 1.4-cü prioritetə müvafiq olaraq, dəstək tədbirləri görüləcəkdir. Kənd evlərində minimum tələblərin təmin olunması ilə əlaqədar 4.2-ci prioritetə müvafiq olaraq standart hazırlanacaqdır.

Tədbir 3.5.3: Şamaxı Safari Parkının yaradılması və təşviqi

Şamaxı Safari Parkının yaradılması ilə bağlı aidiyyəti qurumların iştirakı ilə müvafiq tədbirlər görüləcək və bu parkın gələcəkdə onlayn platformalar və digər vasitələrlə təşviqi həyata keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Layihədən, ilk növbədə, kənd evi sahibləri və turistlər faydalanacaqlar. Lakin layihənin reallaşdırılması ilə daha geniş auditoriya kütləsi, o cümlədən turistlərə birbaşa xidmət göstərən (məsələn, bələdçilik, nəqliyyat, ov və s.) digər kənd sakinləri, turistlərin ehtiyaclarını ödəmək üçün ərzaq və suvenir hazırlayan xidmət sahələri də fayda əldə edəcəkdir. Kənd sakinləri arasında mütəşəkkilliyin və sahibkarlıq vərdişlərinin artması ilə onların aktiv həyat tərzinə keçməsi və fəaliyyəti nəticəsində kəndlərdə infrastrukturun yaxşılaşdırılması, kənd sakinləri üçün daimi iş yerlərinin yaradılması, məşğulluğun artmasına nail olunacaq ki, bu da öz növbəsində, kəndlərdə maddi rifah səviyyəsinin yaxşılaşmasına, biznes vərdişlərinin formalaşmasına və insanların sosial vəziyyətinin yüksəlməsinə səbəb olacaqdır. Bununla bərabər, hər bir şəhər və rayon barədə yerli və xarici turistlərdə müsbət rəy formalaşdırılacaq. Bu prioritetin 2020-ci ildə real ÜDM-ə təsiri 3.3-cü prioritetin nəticələrində artıq əks olunmuşdur. Milli parklarda yerli əhalinin turizm fəaliyyətindən bəhrələnməsi təmin ediləcək, ətraf mühitin qorunmasına şərait yaradan yeni turizm məhsulları yaradılacaqdır.

Tələb edilən investisiya

Bu prioritet üzrə tələb edilən investisiya 3.3-cü prioritetin investisiya tələblərində əhatə olunmuşdur.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsi ciddi maliyyə vəsaiti tələb etdiyi üçün gələcəkdə yaranacaq hər hansı maliyyə çatışmazlığı prioritetin icrasında əsas risk faktoru ola bilər.

7.4. Strateji hədəf 4. Turistlərin məmnunluğunun artırılması məqsədilə milli turizm keyfiyyət sisteminin yaradılması


7.4.1. Prioritet 4.1. Turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşu

Əsaslandırma

Turizm sektorunda kadrlara olan tələb üzrə 2009-cu ildən başlayaraq, illik sabit artım tempi müşahidə edilir və bu tendensiyanın Strateji Yol Xəritəsində müəyyən edilmiş əsas prioritetlərin icrası zamanı gələcəkdə də artacağı ehtimal edilir (şəkil 26). Ümumiyyətlə, 2014-cü il üzrə statistik məlumatlara əsasən, birbaşa turizm sektorunda işləyən, ümumilikdə, təxminən 42 min[25] nəfərin cəmi 10 faizi formal turizm təhsilinə malikdir.

[25] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Şəkil 26. Turizm sektorunda çalışan işçilərin sayında faktiki və proqnozlaşdırılan artım tempi *(min nəfərlə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Belə ki, Azərbaycanda turizm ixtisasına yiyələnmiş məzunların sayı olduqca azdır. Gənclər arasında rəğbət qazanmasına baxmayaraq, hələ ki, işin mövsümi xarakterinə görə, tələbələr arasında turizm təhsilinə kifayət qədər üstünlük verilmir. Eyni zamanda, Azərbaycanda ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili məktəblərində turizm və otelçiliklə bağlı ixtisaslar üzrə praktik sərişтələrin aşılanması üçün mövcud olan maddi-texniki baza beynəlxalq standartlara uyğun deyildir və tələbələrə daha çox nəzəri biliklər tədris olunur.

Bu sektor üzrə yüksəksəviyyəli idarəçilərin yetişdirilməsini nəzərdə tutan turizm sektorunda biznesin idarə edilməsi üzrə magistr proqramı da (bundan sonra – turizm sektoru üzrə MBA proqramı) Azərbaycanda mövcud deyildir.

Təcrübəli işçilər daha yüksək əməkhaqqı imkanlarına görə Bakı şəhərində işləməyə cəhd göstərir və bu da digər regionlarda turizm müəssisələrinin təcrübəli və ixtisaslı kadrlarla təmin edilməsində çətinliklər yaradır. Bu baxımdan qonaqpərvərlik təlimi kurslarının *("hospitality training courses")* təsnifləşdirilməsinə və xüsusilə regionlarda mövcud, yaxud da potensial işçilərin təliminə diqqət yetirilməsi vacibdir.

Gələcəkdə turizm sektorunda artacaq tələbi nəzərə alaraq, ixtisaslı və təcrübəli məzunların sayının artırılması və peşəkar kadrların yetişdirilməsi məqsədilə turizm üzrə ixtisaslaşmış peşə təhsili müəssisələri şəbəkəsinin genişləndirilməsi, müvafiq peşə hazırlığı üzrə təlimlərin keçirilməsi və keyfiyyət sisteminin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçiriləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 4.1.1: Turizm sahəsində peşə təhsili və təlimi proqramlarının əlaqələndirilməsi üçün işçi qrupun yaradılması

Turizm Şurası aidiyyəti dövlət qurumlarının, turizm təhsili müəssisələrinin, özəl sektorun, vətəndaş cəmiyyətinin, Büronun iştirakı ilə turizm sahəsində peşə təhsili və təlimi proqramları ilə bağlı işlərin əlaqələndirilməsi məqsədilə işçi qrup yaradacaqdır.

Tədbir 4.1.2: İşçi qrup tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsi

İşçi qrup tərəfindən turizm sahəsində bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, yerli və xarici ölkələrdən dəvət olunmuş mütəxəssislər işə cəlb ediləcək və təlimçilərin potensialının artırılması məqsədilə "təlimçilər üçün təlim" yanaşması tətbiq ediləcəkdir. Bundan sonra digər ölkələrin təcrübəsindən yararlanmaqla, sektorda yeni və təcrübəli əməkdaşlar üçün təlim modulları müəyyən ediləcəkdir. 1.3-cü prioritetə əsasən, hədəf ölkələrin dillərinin öyrənilməsi üçün dil kurslarının təşkilinə xüsusi diqqət yönəldilməsi nəzərdə tutulmuşdur. Daha çox Qəbələ və Quba kimi turizm regionlarında iri mehmanxanalarla əməkdaşlıq etməklə, pulsuz və ya uyğun qiymətə dil, qonaqlama və yerli ixtisas kursları təşkil ediləcəkdir. Mövcud təhsil müəssisələrində turizm ixtisası üzrə illik kvota və turizm sahəsi üzrə peşə təhsili və təlimi müəssisələrində internatura proqramlarının, o cümlədən regiondakı mehmanxanalarda keçirilən yay təcrübə proqramlarının sayı artırılacaqdır.

Eyni zamanda, turizm sahəsində elmi tədqiqatların aparılmasına dəstək məqsədilə bir sıra tədbirlərin görülməsi planlaşdırılır.

Turizm sahəsində təhsil beynəlxalq standartlara uyğunlaşdırılacaq və müvafiq dövlət qurumları beynəlxalq akkreditasiya əldə etmək üçün tədbirlər həyata keçirəcəklər. Bundan sonra, peşə təhsili müəssisələri Azərbaycanda fəaliyyət göstərən yüksəksəviyyəli mehmanxana və restoranlarla bir araya gətirilməklə, məktəblər və özəl sektor arasında əməkdaşlıq gücləndiriləcəkdir. Turizm təhsili alan bütün tələbə və şagirdlərin bu müəssisələrdə icbari təcrübə keçmələri təmin olunacaq, həmçinin işçi qrup bunlarla bağlı digər lazımi tədbirlər də həyata keçirəcəkdir.

Tədbir 4.1.3: Azərbaycan Turizm və Menecment Universitetinin nəzdində yeni regional turizm peşə məktəblərinin yaradılması

TRZ-lərdə Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi ilə birlikdə Azərbaycan Turizm və Menecment Universitetinin (bundan sonra - ATMU) nəzdində 5 regional turizm peşə məktəbinin yaradılmasını nəzərdən keçirəcəkdir. Həmin məktəblərə öz təcrübə bazasını qurmaq üçün torpaq sahəsi ayrılacaq və həmin torpaq sahəsində dövlət-özəl tərəfdaşlığı modelinə əsaslanmaqla təcrübə üçün mehmanxana və restoranların yaradılması imkanları qiymətləndiriləcəkdir.

Belə ki, regional peşə məktəblərinin hər birində, eyni zamanda, təxminən 200 şagirdin təhsil alması, yaşaması və təcrübə keçməsi məqsədilə həmin məktəblərin yanında 100-150 yerlik yataqxananın, təcrübə mehmanxanasının və restoranın tikilməsi məsələsinə də baxılacaqdır.

Tədbir 4.1.4: Turizm sektoru üzrə peşə standartlarının və təhsil proqramlarının (kurikulumların) hazırlanması və turizm bələdçilərinin sertifikatlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi

Bu tədbirin icrası məqsədilə Mədəniyyət və Turizm Nazirliyi Təhsil Nazirliyi ilə əməkdaşlıq edəcəkdir (bu barədə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə daha ətraflı bəhs edilmişdir).

Turizm bələdçilərinin sertifikatlaşdırılması üzrə də müvafiq işlər görüləcəkdir. Mədəniyyət və Turizm Nazirliyi bununla bağlı Bakı şəhərində və turizm potensialı böyük olan rayonlarda turizm bələdçisi olmaq məqsədilə sertifikat əldə etmək istəyənlər üçün "Turizm bələdçisi" təlim kursları təşkil edəcək və turizm bələdçilərinin sertifikasiyasını həyata keçirəcəkdir. Təlim kurslarının təşkili prosesinə ATMU ilə birlikdə Beynəlxalq Turizm Bələdçiləri Federasiyasının da aktiv cəlb edilməsi məsələsi nəzərdən keçiriləcəkdir.

Tədbir 4.1.5: Digər sektor nümayəndələri üçün maarifləndirici seminarların təşkili

Turizm Şurası tərəfindən turistlərin məmnunluq səviyyəsinin artırılması və onlara daha yaxşı xidmətin göstərilməsi məqsədilə turizm sektoruna birbaşa və ya dolayı aidiyyəti olan dövlət qurumlarının nümayəndələri üçün maarifləndirici seminarların keçirilməsi işi əlaqələndiriləcəkdir.

Tədbir 4.1.6: Turizm üzrə MBA proqramının yaradılması üçün tədbirlərin görülməsi

İlk illərdə ATMU-da, daha sonra isə seçilmiş universitetlərdə turizm üzrə MBA proqramının yaradılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyi aidiyyəti dövlət qurumları ilə birgə iş aparacaqdır. Bu məqsədlə dünyanın turizm üzrə ən yaxşı MBA məktəbləri ilə tərəfdaşlıq əlaqələri qurulacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Turizm sahəsində peşə təhsilinin gücləndirilməsi bu sektorda aparılan islahatların tam gerçəkləşdirilməsi üçün əsas şərtlərdəndir. Bu prioritet sektora birbaşa təsir göstərməsə də, Azərbaycanın real ÜDM-in artmasına kömək edəcəkdir. Bu Strateji Yol Xəritəsinin uğurlu icrası həm təhsil sahəsində yeni iş yerlərinin yaradılmasına, həm də gənclər arasında turizm ixtisasına marağın artmasına səbəb olacaqdır. 2020-ci ildə 150-yə qədər yeni iş yeri yaradılması proqnozlaşdırılır ki, bu da əlavə tələmçilərin cəlb edilməsi nəticəsində baş verəcəkdir.

Tələb edilən investisiya

Turizm sahəsində fəaliyyət göstərən işçilərin 5 faizinin bələdçi sertifikatı əldə etməsi, 10 faizinin isə xarici dil kurslarında iştirakı nəzərdə tutularsa, bununla bağlı hazırlanacaq yeni proqramlara və təlimlərin keçirilməsinə, ümumilikdə, 10 milyon manat investisiya tələb ediləcəkdir. Həmin proqramların tamamlanması bu prioritet üçün hədəf rolunu oynayır. Eyni zamanda, peşə təhsilinə investisiya qoyuluşunun təsir edəcəyi digər prioritetlərin də əsas icra göstəriciləri bu təşəbbüsün hədəfləri sırasındadır.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsi ciddi maliyyə vəsaiti tələb etdiyi üçün gələcəkdə maliyyə çatışmazlığı, turizm sektorunun mövsümi xarakteri səbəbindən tələbələr arasında marağın az olması, kadr potensialının çatışmazlığı prioritetin icrasında əsas risk yaradan faktor ola bilər.

7.4.2. Prioritet 4.2. Turizm sahəsində standartlaşdırma və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi

Əsaslandırma

Azərbaycan Respublikasının "Turizm haqqında" 1999-cu il 4 iyun tarixli Qanununda turizm məhsulu – turistlərə göstərilən xidmətlər kompleksi (turistlərin yerləşdirilməsi, daşınması, qidalanması üzrə xidmətlər kompleksi, çimərlik, ekskursiya, həmçinin bələdçi (bələdçi-tərcüməçi) xidmətləri və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlər) kimi müəyyən edilmişdir.

Bununla yanaşı, turizm məhsulunun tərkibinə aid olan xidmətləri aşağıdakı kimi təsnif etmək olar:

- *yerləşdirmə xidməti* – bu xidməti göstərən müxtəlif yerləşdirmə vasitələrinə mehmanxanalar, qonaq evləri, istirahət mərkəzləri, kənd evləri və s. aiddir;
- *nəqliyyat xidməti* – buraya hava nəqliyyatı, avtomobil nəqliyyatı, dəmir yolu nəqliyyatı və qeyri-ənənəvi nəqliyyat xidmətləri aiddir;
- *qidalanma xidmətləri* – bu xidmətlər restoranlar, kafelər, barlar, yerləşmə vasitələrindəki müxtəlif iaşə obyektləri və digər bu kimi müəssisələr tərəfindən təqdim edilir;
- *çimərlik xidmətləri* – dövlət, bələdiyyə və özəl sahələrdə yerləşən, ekoloji, sanitar və təhlükəsizlik normalarına cavab verən su hövzələrinin sahil zolağında yerli və xarici turistlərə çimərlik xidmətlərinin göstərilməsini əhatə edir;
- *müxtəlif xidmətlər* – əyləncə, istirahət, idman, mağaza, transfer, bank və s. bu kimi xidmətlər nəzərdə tutulur.

Göründüyü kimi, turizm məhsulu müxtəlif xidmət sahələrindən formalaşaraq kompleks xarakter daşıyır ki, bu da müxtəlif sahələr üzrə keyfiyyətli xidmətin təmin olunmasını çətinləşdirir. Beynəlxalq təcrübəyə uyğun olaraq, turizm məhsullarının keyfiyyətinin yüksəldilməsi, təhlükəsizlik məsələlərinin təmin edilməsi, istehlakçı hüquqlarının qorunması məqsədilə bu sahədə milli və beynəlxalq sertifikatların tətbiqi nəzərdə tutulur.

Hazırda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 16 iyul tarixli 97 nömrəli Qərarı ilə təsdiq edilmiş "Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydası"na və "Mehmanxana və mehmanxana tipli obyektlərin təsnifatı, ulduz kateqoriyalarının müəyyənləşdirilməsi və qiymətləndirmədə meyarların tətbiq edilməsi barədə" AZS 745–2015 Dövlət standartına uyğun olaraq, ölkə ərazisində fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli obyektlərin sertifikatlaşdırılması həyata keçirilir.

Mehmanxana və mehmanxana tipli obyektlərin sertifikatlaşdırılmasından əlavə, yuxarıda qeyd olunan xidmətlərin sertifikatlaşdırılması xidmət səviyyəsinin yüksəldilməsinə, xidmət sahəsi üzrə dünya standartlarının ölkəmizə inteqrasiya olunmasına, keyfiyyətin təmin edilməsinə, bütövlükdə turizm sahəsinin inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Bununla belə, turizm sahəsi üzrə bəzi xidmətlərin sertifikatlaşdırılması ilə yanaşı, turizm bələdçiləri tərəfindən Azərbaycanın tarixinin, mədəniyyətinin və milli dəyərlərinin təhrif olunmadan düzgün təbliğini təmin etmək üçün əsas turist marşrutları haqqında məlumatlardan ibarət vahid metodiki vəsaitin hazırlanmasına və metodiki təlimat kimi təsdiqinə zərurət vardır. Belə ki, qidalanma və nəqliyyat xidməti üzrə sertifikatlaşdırmanın həyata keçirilməsi, turizm üzrə qabaqcıl ölkələrin təcrübəsindən yararlanaraq, keyfiyyət üzrə dövlət standartlarının yaradılması və tətbiqi, həmçinin turistlərin məlumatlandırılması üzrə metodiki təlimatların hazırlanması vacib hesab olunur.

Görüləcək tədbirlər

Tədbir 4.2.1: Qanunvericilikdə müvafiq əlavə və dəyişikliklərin edilməsi

Müvafiq turizm xidmətlərinin sertifikatlaşdırılması üçün qanunvericilikdə müvafiq əlavə və dəyişikliklərə dair təkliflər hazırlanacaqdır.

Tədbir 4.2.2: Yeni milli standartların və metodiki vəsaitlərin hazırlanması

Müvafiq dövlət qurumları ekspertləri cəlb edərək, beynəlxalq tələblərə uyğun mehmanxana, turoperator, qidalanma, müalicə və sağlamlıq, ekstremal, nəqliyyat, kənd turizmi, çimərlik turizmi və s. üzrə standartlar, eləcə də turistlərin məlumatlandırılması üçün müxtəlif dillərdə (ingilis, alman, fransız, rus və ərəb dillərində) vahid metodiki vəsait hazırlayacaqlar.

Tədbir 4.2.3: Mövcud standartların təkmilləşdirilməsi

Müvafiq dövlət qurumu ekspertləri cəlb edərək, mövcud mehmanxanaların təsnifatı və iaşə obyektləri üzrə dövlət standartlarını təkmilləşdirəcəkdir.

Gözlənilən nəticələr və nəticə indikatorları

Sertifikatlaşdırma turizm məhsullarının keyfiyyətinin yaxşılaşdırılmasına və istehlakçıların təhlükəsizliyinin təmin edilməsinə, eləcə də müştəri məmnuniyyətinin artmasına səbəb olacaqdır.

Tələb edilən investisiya

Bu prioritet üzrə ekspertlərin cəlb olunması və müvafiq standartların hazırlanması üçün birdəfəlik 100 min manat investisiya qoyuluşu tələb edilir.

Gözlənilən risklər

Bu prioritetin tətbiqi müəyyən bürokratik əngəllərin yaranmasına səbəb ola bilər. Bunun qarşısını almaq üçün müvafiq nəzarət mexanizmi formalaşdırılmalıdır.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 350 milyon manat investisiya tələb olunur. Dövlət Strategiyasında nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri və qrantlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitinin müəyyən edilmiş prioritet hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədilə büdcələr nəticəyə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitinin böyük

hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslərə digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyi təmin etməyə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflərlə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyət müzakirə ediləcək. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimini və tapşırıqların bölgüsünü məsul şəxs müəyyənləşdirəcək. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şərait yaradacaq, tələb olunduqda, kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icrasına nəzarət, yaranan problemlərin həlli və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu *("delivery unit")* müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında əlaqələndirmənin təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təmin edilməsinə və zəruri hallarda, əlavə resursların cəlb olunmasına nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olmaq məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.
- İcraya rəhbərlik, eləcə də tələb olunan resurslara və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün prioritetlər üzrə nəzərdə

tutulan tədbirlərə əsaslanan müfəssəl icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiqinə bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb ediləcəklər.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurlu tətbiqi üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb edilməsi tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədi ilə özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlarla işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.
- Strateji Yol Xəritəsinin hərtərəfli dəstəklənməsi üçün vətəndaş cəmiyyəti və beyin mərkəzləri səfərbər ediləcək və işə cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sair vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara uyğun tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumu nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlilini və qiymətləndirilməsini, həmçinin işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. Xarici turistləri daha çox cəlb etməklə Bakı şəhərinin turizm potensialının tam gerçəkləşdirilməsi					
1.1. Milli Turizm Təbliğat Bürosunun yaradılması və ilk olaraq Bakı şəhərində fəaliyyətinin təmin olunması					
1.1.1.	Milli Turizm Təbliğat Bürosunun yaradılması	Mədəniyyət və Turizm Nazirliyi		• 2020-ci ildə 5 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, ümumilikdə, 10 milyon manat əlavə dəyər yaranması; • Bakıda mehmanxana və mehmanxana tipli müəssisələrdə xarici ölkə vətəndaşları üzrə gecələmə sayının 2015-ci il üzrə təxminən 0,8 milyon gecədən 2020-ci il üzrə ən azı 3,65 milyon gecəyədək artırılması.	2017
1.1.2.	Büronun fəaliyyətinin təmin edilməsi istiqamətində zəruri təşkilati işlərin yerinə yetirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Bakı Şəhər İcra Hakimiyyəti, Əmlak Məsələləri Dövlət Komitəsi		2017
1.1.3.	Büro tərəfindən müxtəlifyönümlü tədbirlərin keçirilməsi	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi		2017–2020
1.1.4.	Bakı şəhəri üçün 2017-2020-ci illər üzrə marketinq və kommunikasiya planının hazırlanması	Milli Turizm Təbliğat Bürosu			2017
1.1.5.	Bütün əsas tədbirləri əlaqələndirmək üçün Bakı şəhəri üzrə turizm təqviminin yaradılması	Mədəniyyət və Turizm Nazirliyi	Milli Turizm Təbliğat Bürosu, Bakı Şəhər İcra Hakimiyyəti		2017
1.2. Bakı şəhərindəki cəlbedici turizm məkanlarına dair məlumatların və turist xidmət paketlərinin yenilənməsi					
1.2.1.	Bakı şəhəri ilə bağlı məlumatlılığın qənaətbəxş səviyyəyə çatdırılması məqsədilə onlayn məlumatların təmin edilməsi və turistlərin təkrar	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti	• 2020-ci ildə birbaşa 30 milyon manat və 20 milyon manat dolayı olmaqla, ümumilikdə, 50 milyon	2017-2020

	rastlaşdığı çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi			manat əlavə dəyər yaranması; • 2020-ci ildə ümumilikdə 8500 olmaqla bilavasitə turizm sektorunda 6100 yeni iş yerinin yaradılması; • Bakıda mehmanxanada və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayının 2015-ci il üzrə hesablanılmış 0,5 milyon nəfərdən 2020-ci ildə 0,9 milyon nəfərədək artırılması; • hər turistin orta qalma müddətinin 2 gündən 3 günədək artırılması.	
1.2.2.	Bakı şəhərinə gələn və oradan regionlara səfər edən turistlərin məlumatlılığının artırılması üçün bir sıra tədbirlərin görülməsi	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti		2017-2020
1.2.3.	Bakı şəhərində yerləşən və ziyarətçilərinin sayı az olan məkanlar barədə məlumatlılığın artırılması	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti		2017-2020
1.2.4.	Büro tərəfindən müxtəlif dəstəkverici mexanizmlərin həyata keçirilməsi	Milli Turizm Təbliğat Bürosu	Bakı Şəhər İcra Hakimiyyəti		2017-2020
1.2.5.	Şəhər turu nəqliyyat vasitələrinin təklif etdiyi xidmətlərin təkmilləşdirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Milli Turizm Təbliğat Bürosu, Bakı Şəhər İcra Hakimiyyəti		2017-2020
1.2.6.	Bakı şəhərinin biznes potensialından tam faydalanmaq məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Milli Turizm Təbliğat Bürosu, Bakı Şəhər İcra Hakimiyyəti, Dövlət Neft Şirkəti		2017-2020
1.2.7.	Novruz bayramı paketlərinin hazırlanması və təbliği	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Dövlət Mülki		2017-2020

			Aviasiya Administrasiyası		
1.2.8.	F1 yarışları zamanı müxtəlif tədbirlərin keçirilməsi	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Gənclər və İdman Nazirliyi		2017-2020
1.2.9.	Büro tərəfindən hazırlanacaq turist xidmət paketlərinin təşviqi	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Gənclər və İdman Nazirliyi		2017-2020
1.2.10.	Ticarət festivallarının keçirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Bakı Şəhər İcra Hakimiyyəti, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi		2017-2020
1.2.11.	Yerli turoperatorların internet səhifəsində “özün hazırla” (“do it yourself”) paketlərinin təklif edilməsi	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi		2017-2018
1.2.12.	Hədəf ölkələr üçün Bakı şəhəri və Azərbaycanın digər məkanlarının özünəməxsus dəyərlərini özündə əks etdirən xüsusi turist xidmət paketlərinin hazırlanması	Milli Turizm Təbliğat Bürosu			2017-2020
1.2.13.	Bakı şəhərindən hava yolu ilə digər regionlara bir və ya	Dövlət Mülki Aviasiya Administrasiyası	Mədəniyyət və Turizm Nazirliyi,		2017-2020

	ikigünlük səyahət paketlərinin hazırlanması		Milli Turizm Təbliğat Bürosu		
1.3. Bakı şəhəri üzrə təbliğat-təşviqat tədbirlərinin keçirilməsi					
1.3.1.	Əsas hədəf bazarların seçilməsi	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi	• 2020-ci ildə 150 milyon manat birbaşa və 80 milyon manat dolayı olmaqla, ümumilikdə, 230 milyon manat əlavə dəyər yaranması; • 2020-ci ildə, ümumilikdə, 16000 olmaqla bilavasitə turizm sektorunda11500 yeni iş yerinin yaradılması; • Bakıda mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayının 2015-ci il üzrə müəyyən edilmiş 0,5 milyon nəfərdən 2020-ci ildə 0,9 milyon nəfərədək artırılması; • mehmanxanada yerləşdirilməmiş xarici ölkə vətəndaşlarının sayının isə 2015-ci il üzrə müəyyən edilmiş 0,8 milyon nəfərdən 2020-ci il üzrə 1,5 milyon nəfərə qədər artırılması.	2017
1.3.2.	Hədəf ölkə və şəhərlərin seçilməsi	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi, Maliyyə Nazirliyi Bakı Şəhər İcra Hakimiyyəti		2017
1.3.3.	Təbliğat-təşviqat tədbirlərinin keçirilməsi üçün bazar araşdırmalarının aparılması	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi, Maliyyə Nazirliyi		2017-2020
1.3.4.	Marketinq və media şirkətlərini cəlb etməklə hədəf şəhərlərdə Bakı şəhərinin təbliğat-təşviqat tədbirlərinin keçirilməsi	Milli Turizm Təbliğat Bürosu			2017-2020
1.3.5.	Bazar kanallarının müəyyən edilməsi	Milli Turizm Təbliğat Bürosu	Maliyyə Nazirliyi		2017-2020
1.3.6.	Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində turizm nümayəndələrinin təyin olunması və onların fəaliyyətinin təşkili	Xarici İşlər Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, Maliyyə Nazirliyi		2017-2020
1.4. Bakı şəhərinin turizm infrastrukturunun, o cümlədən uyğun qiymətə mehmanxana və cəlbedici turizm məkanlarının inkişaf etdirilməsi					

1.4.1.	Sahibkarlığa Kömək Milli Fondunun turizm sektoruna ayıracağı maliyyə vəsaitinin miqdarının müəyyən olunması	İqtisadiyyat Nazirliyi	Maliyyə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi	• 2020-ci ildə 45 milyon manat birbaşa və 25 milyon manat dolayı olmaqla, ümumilikdə, 70 milyon manat əlavə dəyər yaranması; • 2020-ci ildə, ümumilikdə, 6200 olmaqla bilavasitə turizm sektorunda 4500 yeni iş yerinin yaradılması; • 2020-ci ildə uyğun qiymətə olan yerləşdirmə otaqlarının ümumi otaqlarda payının hazırkı 30 faiz səviyyəsində qalması; • 265 min turistin uyğun qiymətə yerləşdirmə vasitələrində yerləşdirilməsi.	2017-2020
1.4.2.	2017-2020-ci illərdə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitindən istifadə üzrə təşviqat planının hazırlanması	Mədəniyyət və Turizm Nazirliyi	İqtisadiyyat Nazirliyi		2017-2020
1.4.3.	Azərbaycanın özünəməxsus dəyərlərinin və məhsullarının, o cümlədən sənətkarlıq nümunələrinin təşviqi üçün Bakı şəhərində müxtəlif tədbirlərin keçirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Milli Turizm Təbliğat Bürosu, Bakı Şəhər İcra Hakimiyyəti, Bulvar İdarəsi, Dövlət Dəniz Administrasiyası, İçərişəhər Tarix-Memarlıq Qoruq İdarəsi		2017-2020
1.4.4.	2020-ci ildən sonra çimərlik turizminin təşviqi üzrə fəaliyyət planının hazırlanması	Mədəniyyət və Turizm Nazirliyi			2017-2020
1.4.5.	Bakı üçün iri flaqman layihələrin dəyərləndirilməsi	Milli Turizm Təbliğat Bürosu	Bakı Şəhər İcra Hakimiyyəti, Mədəniyyət və Turizm Nazirliyi		2018-2020
1.4.6.	‘‘Duty free” dükanları da daxil olmaqla məqsədli infrastrukturun formalaşdırılması	Dövlət Gömrük Komitəsi	Mədəniyyət və Turizm Nazirliyi, Vergilər Nazirliyi, Milli Turizm Təbliğat Bürosu		2018-2020

1.4.7.	Məşhur brend mehmanxanaların Bakı şəhərində tikilməsinə şərait yaradılması	Mədəniyyət və Turizm Nazirliyi	İqtisadiyyat Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti		2017-2020
1.4.8.	Universitet yataqxanalarının yay aylarında uyğun qiymətə yerləşdirmə vasitəsi olaraq turistlərə təklif edilməsi istiqamətində təkliflərin hazırlanması və təşviqi	Milli Turizm Təbliğat Bürosu	Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi		2018-2020
Strateji hədəf 2. Turizm sektorunun inkişafı üçün ölkə üzrə əlverişli mühitin formalaşdırılması					
2.1. Turizm Şurasının fəaliyyətinin təşkili					
2.1.1.	Turizm Şurasının yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası		• digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir. • turizm sahəsində reallaşdırılması nəzərdə tutulan tədbirlər daha səmərəli, çevik və məqsədyönlü şəkildə həyata keçiriləcəkdir.	2016
	Turizm Şurasının fəaliyyətinin təmin edilməsi	Mədəniyyət və Turizm Nazirliyi			2016
2.1.2.	Turizm sektorunun inkişafı istiqamətində düzgün koordinasiyanın qurulması məqsədilə işçi qrupların yaradılması	Mədəniyyət və Turizm Nazirliyi			2017
2.1.3.	Strateji Yol Xəritəsinin prioritetlərinin nəzərdən keçirilməsi və icrasına başlanılması üçün mövcud proqramlara zəruri dəyişikliklərin edilməsi məqsədilə təkliflərin verilməsi	Mədəniyyət və Turizm Nazirliyi			2017

2.1.4.	Prioritetlərin həyata keçirilməsi üçün müşahidə sisteminin yaradılması	Mədəniyyət və Turizm Nazirliyi			2017
2.2. Turizm və Rekreasiya Zonalarının (TRZ) yaradılması					
2.2.1.	TRZ-lərin idarəetmə strukturunun yaradılması	Mədəniyyət və Turizm Nazirliyi		• digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2016
2.2.2.	TRZ-lərdə fəaliyyətin turizm klasterinə uyğun qurulması	Mədəniyyət və Turizm Nazirliyi	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2018
2.2.3.	TRZ-lərin inkişaf etdirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
2.2.4.	TRZ-lər üçün illik inkişaf planlarının işlənib hazırlanması və dərc edilməsi	Mədəniyyət və Turizm Nazirliyi			2017
2.2.5.	Yeni TRZ-lərin yaradılması ilə bağlı təhlillərin aparılması	Mədəniyyət və Turizm Nazirliyi			2017-2018
2.2.6.	İllik inkişaf planlarının icrası üçün müşahidə mexanizminin yaradılması	Mədəniyyət və Turizm Nazirliyi			2017
2.3. Yerli və xarici turistlər üçün turizmdə mövsümilik problemini regional səviyyədə aradan qaldıran turizm xidməti infrastrukturunun inkişaf etdirilməsi					
2.3.1.	İlk növbədə, Bakı şəhərinin, daha sonra isə bütün ölkənin turizm təqviminin hazırlanması	Mədəniyyət və Turizm Nazirliyi	Milli Turizm Təbliğat Bürosu, Bakı Şəhər İcra Hakimiyyəti	• digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017-2020
2.3.2.	Müxtəlif turizm növləri üzrə (sağlamlıq, ekoloji, işgüzar, kənd və s.) turistlərin aşağı	Mədəniyyət və Turizm Nazirliyi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli		2017-2020

	mövsümi zamanlarda gəlməsinin təşviqi		Turizm Təbliğat Bürosu		
2.3.3.	Azərbaycan Respublikasında turizmin təşviq siyasətində mövsümiliyi azaldan tədbirlərin və layihələrin xüsusi olaraq dəstəklənməsinin təmin edilməsi	Mədəniyyət və Turizm Nazirliyi	İqtisadiyyat Nazirliyi		2017-2020
2.3.4.	Bakı şəhərinin marketinq tədbirlərində qeyri-mövsümiliyə üstünlük verilməsi	Milli Turizm Təbliğat Bürosu	Mədəniyyət və Turizm Nazirliyi		2017-2020
2.3.5.	Ov mövsümünün müvafiq tələblər gözlənilməklə aşağı turizm mövsümünə çəkilməsi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi		2017
2.3.6.	TRZ-lərdə qeyri-mövsümi turizmin təşviqi	Mədəniyyət və Turizm Nazirliyi			2017-2020
2.4. Viza rəsmiləşdirilməsi proseslərinin və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi					
2.4.1.	Beynəlxalq hava limanlarında, eləcə də bütün sərhəd-buraxılış məntəqələrində viza verilməsi mexanizminin asanlaşdırılmasının nəzərdən keçirilməsi	Xarici İşlər Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Miqrasiya Komitəsi, Dövlət Sərhəd Xidməti	• 2020-ci ildə 20 milyon manat birbaşa və 10 milyon manat dolayı olmaqla, ümumilikdə, 30 milyon manat əlavə dəyər yaranması; • sadələşdirilmiş viza prosedurları nəticəsində gələn turistlərin sayında artımın yaranması.	2017-2020
2.4.2.	Ölkəyə daxil olan turistlərə xidmət məqsədilə viza ilə bağlı formaların doldurması və ödəmənin həyata keçirilməsi üçün	Xarici İşlər Nazirliyi	Dövlət Mülki Aviasiya Administrasiyası, Dövlət Sərhəd Xidməti,		2017-2018

	özünəxidmət köşklərinin istifadəyə verilməsi		Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi		
2.4.3.	Elektron vizanın verilməsi prosesinin təkmilləşdirilməsi	Xarici İşlər Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi		2017
2.4.4.	Sərhəd-buraxılış məntəqələrində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi	Dövlət Sərhəd Xidməti	Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, "Azəravtoyol" ASC		2017
2.5. Əsas tələb bazarları ilə hava əlaqəsinin təkmilləşdirilməsi					
2.5.1.	1.1-ci prioritetdə müəyyən edilmiş Bakı şəhərinin 2017-2020-ci illər üzrə marketinq və kommunikasiya planına	Dövlət Mülki Aviasiya Administrasiyası	Mədəniyyət və Turizm Nazirliyi, "AZAL" QSC, Ədliyyə Nazirliyi,	• 2020-ci ildə 20 milyon manat birbaşa və 10 milyon manat dolayı	2016

	paralel olaraq liberal hava nəqliyyatı üzrə razılaşmaların əldə edilməsi məqsədilə işçi qrupun yaradılması		Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi	olmaqla, ümumilikdə, 30 milyon manat əlavə dəyər yaranması.	
2.5.2.	Azərbaycanda aviaşirkətlərin sayının artırılması məqsədilə uyğun qiymətə xidmətlər təklif edən şirkətlərin və milli aviaşirkətlərin formalaşdırılmasının dəstəklənməsi	Dövlət Mülki Aviasiya Administrasiyası	Mədəniyyət və Turizm Nazirliyi, "AZAL" QSC, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi		2017-2020
2.5.3.	Bakı şəhərinə həftəsonu səfər edən səyahətçilərin gözləntilərinin daha yaxşı qarşılanması üçün uçuş cədvəllərinin (1.3-cü prioritetə müvafiq olaraq müəyyənləşdirilmiş hədəf ölkələrə və ölkələrdən) optimallaşdırılması	Dövlət Mülki Aviasiya Administrasiyası	Mədəniyyət və Turizm Nazirliyi, "AZAL" QSC, Milli Turizm Təbliğat Bürosu		2017-2020
2.5.4.	Azərbaycanın regional hava limanlarında göstərilən xidmətlərin cari səviyyəsinin müəyyən edilməsi, hava limanlarının genişləndirilməsi ehtiyaclarının dəyərləndirilməsi və 2020-2025-ci illər üzrə hava limanlarına investisiya qoyuluşu planlarının icrası	Dövlət Mülki Aviasiya Administrasiyası	Mədəniyyət və Turizm Nazirliyi, "AZAL" QSC, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020

	ilə əlaqədar vəsaitlərin təmin edilməsi				
2.5.5.	Əsas hava yolları, kurort şəbəkələri və ya səyahət şirkətləri ilə strateji tərəfdaşlığın qurulması üçün müxtəlif variantların nəzərdən keçirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Dövlət Mülki Aviasiya Administrasiyası		2017-2020
Strateji hədəf 3. Yerli və regional turistlər üçün regional turizm növlərinin inkişaf etdirilməsi					
3.1. Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması					
3.1.1.	Sağlamlıq turizmi üzrə 2017-2020-ci illəri əhatə edən fəaliyyət planının hazırlanması	Mədəniyyət və Turizm Nazirliyi	Səhiyyə Nazirliyi, Müvafiq İcra Hakimiyyəti orqanları, Ekologiya və Təbii Sərvətlər Nazirliyi	• 2020-ci ildə 3 milyon manat birbaşa və 2 milyon manat dolayı olmaqla, ümumilikdə, 5 milyon manat əlavə dəyər yaranması; • 2020-ci ildə 150 yeni iş yerinin yaradılması; • potensialdan istifadə əmsalının 65 faizədək artırılması; • mövcud 40 faizlik göstəricinin Avropa sağlamlıq xidmətlərinin səviyyəsinə çatdırılması (Naftalandakı turizm mərkəzlərindən istifadə göstəricisi nəzərdə tutulur).	2017
3.1.2.	Naftalan nefti əsasında mövcud və yeni sağlamlıq məhsullarının təşviqi	Mədəniyyət və Turizm Nazirliyi	Naftalan şəhər İcra Hakimiyyəti, Səhiyyə Nazirliyi, Dövlət Neft Şirkəti, Milli Turizm Təbliğat Bürosu		2016-2019
3.1.3.	Qalaaltı, Naftalan və Duzdağdakı mövcud yerləşdirmə alternativlərində, sağlamlıq xidməti göstərən müəssisələrdə və turistlər üçün digər cəlbedici yerlərdə bərpa və yenidənqurma işlərinin aparılması	İqtisadiyyat Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, Turizm Şurası		2017-2020

3.1.4.	Bakı və Naftalan arasında sürətli və yüksəkkeyfiyyətli avtobus və qatar xidmətlərinə başlanılması	Nəqliyyat Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, "Azərbaycan Dəmir Yolları" QSC, Milli Turizm Təbliğat Bürosu		2017-2018
3.2. Qış turizminin inkişafının dəstəklənməsi					
3.2.1.	Nəqliyyat seçimlərinin yaxşılaşdırılması	Nəqliyyat Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Mülki Aviasiya Administrasiyası, "AZAL" QSC, Milli Turizm Təbliğat Bürosu	• 2020-ci ildə birbaşa 10 milyon manat və dolayı 10 milyon manat olmaqla, ümumilikdə, 20 milyon əlavə dəyər yaranması; • 2020-ci ildə 300 yeni iş yerinin yaradılması; • hər bir turist üçün qış turizmi mehmanxanalarında gecələmə üzrə gəlir 195 manat həcmində (yerləşmə, dincəlmə və yemək üzrə xərclər də daxil olmaqla) saxlanılmaqla, hazırkı qış turizm mehmanxanalarının otaq satışının illik 50 faiz artırılması *(bu göstərici 2015-ci illə müqayisədə mehmanxanaların doluluq səviyyəsinin 3 dəfə artması deməkdir).*	2017-2018
3.2.2.	Qış turizm mərkəzlərində iclas, beynəlxalq konfrans və digər işgüzar tədbirlərin keçirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	İqtisadiyyat Nazirliyi		2017-2020
3.2.3.	Regiondan olan turistlərin Azərbaycana axınını artırmaq məqsədilə qış turizm komplekslərində müxtəlif mövsümlərdə böyük və cəlbedici festivalların keçirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Maliyyə Nazirliyi, Milli Turizm Təbliğat Bürosu		2017-2020
3.2.4.	Qış turizmi ərazilərindəki dövlət mülkiyyətində olan mehmanxanaların mövcud vəziyyətini qiymətləndirmək üçün təhlillərin aparılması və	Mədəniyyət və Turizm Nazirliyi	Əmlak Məsələləri Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi		2017-2020

	yerləşdirmə imkanlarının təkmilləşdirilməsi				
3.2.5.	Seçilmiş məktəblərdə dağ-xizək təlimi proqramının işlənib hazırlanması və genişləndirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi		2017-2020
3.3. Mədəni turizm marşrutlarının yaradılması					
3.3.1.	Azərbaycanın şimal, şimal-qərb və qərb dəhlizləri boyunca bütün mədəni-tarixi görməli yerləri üzrə gündəlik-həftəlik avtomobil və piyada marşrutlarının tərtib edilməsi	Mədəniyyət və Turizm Nazirliyi		• 2020-ci ildə 10 milyon manat birbaşa və 10 milyon manat dolayı olmaqla, ümumilikdə, 20 milyon manat əlavə dəyər yaranması; • 2020-ci ildə, ümumilikdə, 3700 olmaqla bilavasitə turizm sektorunda 2700 yeni iş yerinin yaradılması; • sadalanmış mədəni marşrutlar boyunca, ümumilikdə, 24 ədəd turizm nümayiş obyektinin (destination stop), əlavə xidmət üçün turist dayanacaqlarının yaradılması və burada “7 gecəlik”, “5 gecəlik”, “3 gecəlik”, “1 gecəlik” və “gündəlik” paketlərin satışının həyata keçirilməsi; • 24 ədəd turizm nümayiş obyektinə 180 min turistin cəlb edilməsi.	2017-2018
3.3.2.	“Böyük İpək Yolu” və digər mədəni turizm marşrutları üzrə bələdçilik etmək üçün sertifikasiya proqramının işlənib hazırlanması	Mədəniyyət və Turizm Nazirliyi	Təhsil Nazirliyi		2017-2020
3.3.3.	Marşrutboyu turizm infrastrukturunun inkişafını stimullaşdırmaq üçün 1.4-cü prioritetə müvafiq olaraq maliyyə vəsaitinin ayrılması və sahibkarlara məsləhətlərin verilməsi	İqtisadiyyat Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, Nəqliyyat Nazirliyi		2017-2020
3.3.4.	Yeni mədəni turizm marşrutlarının təşviqi	Mədəniyyət və Turizm Nazirliyi	Xarici İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti		2017-2020

				• bu mədəni marşrutlar boyunca yerləşdirmə vasitələrinin orta qiymətinin, bu mədəni marşrutlardan istifadə edərkən gündəlik xərclərin Bakı şəhərində turizm xərcləri ilə müqayisədə 30 faizədək aşağı olması.	
3.4. İşgüzar turizmin inkişafının dəstəklənməsi					
3.4.1.	Yeni hədəf bazarların təyin edilməsi və inkişaf etdirilməsi	Mədəniyyət və Turizm Nazirliyi		• 2016-cı illə müqayisədə 2020-ci ildə iki dəfə çox işgüzar turistin gəlməsi.	2017-2020
3.4.2.	Rusiya Federasiyası və Yaxın Şərq bazarlarında mövqelərimizin möhkəmləndirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Xarici İşlər Nazirliyi		2017-2019
3.4.3.	Görüşlər Sənayesi üzrə Fəxri Səfirlər Klubunun yaradılması	Mədəniyyət və Turizm Nazirliyi			2017
3.4.4.	Regionlarda Görüşlər Sənayesinin inkişafına dəstək verilməsi	Mədəniyyət və Turizm Nazirliyi			2017-2020
3.4.5.	Beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirak və təbliğat səfərlərinin təşkili	Mədəniyyət və Turizm Nazirliyi			2017-2020
3.4.6.	İşgüzar turizm üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması	Mədəniyyət və Turizm Nazirliyi			2017-2020
3.5. Davamlı turizm potensialının gücləndirilməsi (ekoturizm, kənd turizmi və s.)					

3.5.1.	Azərbaycanın ekoloji turizm potensialının araşdırılması və milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili	Mədəniyyət və Turizm Nazirliyi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi	• bu prioritetin ÜDM-ə təsiri 3.3-cü prioritetin nəticələrində əks olunmuşdur.	2017-2020
3.5.2.	Azərbaycanda kənd turizminin inkişaf etdirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
3.5.3.	Şamaxı Safari Parkının yaradılması və təşviqi	Mədəniyyət və Turizm Nazirliyi			2017-2020
Strateji hədəf 4. Turistlərin məmnunluğunun artırılması məqsədilə milli turizm keyfiyyət sisteminin yaradılması					
4.1. Turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşu					
4.1.1.	Turizm sahəsində peşə təhsili və təlimi proqramlarının əlaqələndirilməsi üçün işçi qrupun yaradılması	Turizm Şurası	Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi	• 2020-ci ildə 150-yə qədər yeni iş yerinin yaradılması.	2017
4.1.2.	İşçi qrup tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsi	Turizm Şurası	Mədəniyyət və Turizm Nazirliyi		2017-2020
4.1.3.	Azərbaycan Turizm və Menecment Universitetinin nəzdində yeni regional turizm peşə məktəblərinin yaradılması	Mədəniyyət və Turizm Nazirliyi	Təhsil Nazirliyi		2017-2020
4.1.4.	Turizm sektoru üzrə peşə standartlarının və təhsil proqramlarının (kurikulumların) hazırlanması və turizm bələdçilərinin sertifikatlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Təhsil Nazirliyi		2017-2020

4.1.5.	Digər sektor nümayəndələri üçün maarifləndirici seminarların təşkili	Turizm Şurası	Mədəniyyət və Turizm Nazirliyi		2017-2020
4.1.6.	Turizm üzrə MBA proqramının yaradılması üçün tədbirlərin görülməsi	Mədəniyyət və Turizm Nazirliyi	Təhsil Nazirliyi		2017-2020
4.2. Turizm sahəsində standartlaşdırma və sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi					
4.2.1.	Qanunvericilikdə müvafiq əlavə və dəyişikliklərin edilməsi	Mədəniyyət və Turizm Nazirliyi	Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	• digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017-2018
4.2.2.	Yeni milli standartların və metodiki vəsaitlərin hazırlanması	Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	Mədəniyyət və Turizm Nazirliyi		2017-2020
4.2.3.	Mövcud standartların təkmilləşdirilməsi	Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	Mədəniyyət və Turizm Nazirliyi		2017-2020

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 534

2. QLOBAL TRENDLƏR 536

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 540

3.1. Logistika və ticarət sahəsində hazırkı vəziyyət 540

3.2. Logistika və ticarət sahəsinin GZİT təhlili 542

4. STRATEJİ BAXIŞ 544

4.1. 2020-ci ilədək strateji baxış 544

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 544

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 546

5. HƏDƏF İNDİKATORLARI 549

6. STRATEJİ MƏQSƏDLƏR 550

7. STRATEJİ HƏDƏFLƏR 551

7.1. Strateji hədəf 1. Azərbaycan üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması 551

7.1.1. Prioritet 1.1. Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağı kimi aparıcı mövqeyinin gücləndirilməsi 551

7.1.2. Prioritet 1.2. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu və Astara-Astara dəmir yolu layihələrinin tamamlanması 558

7.1.3. Prioritet 1.3. Logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi 565

7.2. Strateji hədəf 2. Tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi 572

7.2.1. Prioritet 2.1. Bakının regionaləhəmiyyətli ticarət qovşağına çevrilməsi 572

7.2.2. Prioritet 2.2. Ticarətyönümlü emal mərkəzinin yaradılması 576

7.2.3. Prioritet 2.3. Bakıda və ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzlərinin yaradılması 579

7.3. Strateji hədəf 3. Logistika və ticarət sahəsində məqsədlərin gerçəkləşdirilməsi üçün mühüm hərəkətverici mexanizmlərin tətbiqi 583

7.3.1. Prioritet 3.1. Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi 584

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 589

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 590

10. TƏDBİRLƏR PLANI 592

1. QISA XÜLASƏ

“Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi” (bundan sonra - Strateji Yol Xəritəsi) rəqabətli, şaxələndirilmiş, inklüziv və dayanıqlı iqtisadiyyatın qurulması təşəbbüslərinin tərkib hissəsi kimi hazırlanmışdır. Bu Strateji Yol Xəritəsi logistika və ticarət sahəsində iqtisadi inkişaf üzrə Azərbaycanın 2020-ci ilədək, 2025-ci ilədək və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətlərini müəyyən edir. Burada 2020-ci ilədək dövr üzrə inkişaf perspektivini özündə əks etdirən strateji məqsəd və hədəflərlə yanaşı, həmin məqsəd və hədəflərə nail olmaq üçün bir sıra prioritet və tədbirlər göstərilmiş, habelə əsas və digər icraçıların, icra müddətlərinin, nəticə indikatorlarının əks olunduğu təfsilatlı tədbirlər planı hazırlanmışdır.

Həyata keçirilən tədbirlər nəticəsində 2020-ci ildə Azərbaycan Respublikasında real ÜDM-in 605 milyon manat artacağı, eyni zamanda, ümumilikdə, 18900 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Nəzərdə tutulan tədbirlərin reallaşdırılması üçün dövlət və özəl mənbələrdən istifadə edilməklə, cəmi 3160 milyon manat investisiya qoyuluşunun tələb olunacağı gözlənilir.

Cədvəl 1. Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələr

№	Prioritetin adı	Real ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(tamştatlı işçilər, 2020)*	İnvestisiya *(milyon manatla)*
1.1.	Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağı kimi aparıcı mövqeyinin gücləndirilməsi	380	5500	-
1.2.	Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu və Astara-Astara dəmir yolu layihələrinin tamamlanması	-	6700	1200
1.3.	Logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi	-	-	1400
2.1.	Bakının regional əhəmiyyətli ticarət qovşağına çevrilməsi	145	2900	430
2.3.	Bakıda və ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzlərinin yaradılması	65	3800	130
3.1.	Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi	15	-	-

Qeyd 1. Bu cədvəldə yalnız 2020-ci ildə real ÜDM-də 10 milyon manatdan çox artıma və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.

Qeyd 2. Bu rəqəmlər prioritetlərin təsiri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli təhlillərin aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.


Strateji Yol Xəritəsində müəyyən edilmiş prioritetlərdə dövlət-özəl tərəfdaşlığı üzrə investisiya qoyuluşlarının zəruriliyi qeyd edilmiş və bu prioritetlərin təsirləri üzrə

müəyyən ilkin hesablamalar aparılmışdır. Buna baxmayaraq, hər bir tədbirin icrasından əvvəl hərtərəfli texniki-iqtisadi əsaslandırmalar aparılmalıdır. Eyni zamanda, prioritetlər üzrə tədbirlərdə icraçı qismində müəyyən edilmiş aidiyyəti qurumların fəaliyyəti əlaqələndirilməli və müvafiq zaman çərçivəsində davam etməlidir.

2. QLOBAL TRENDLƏR

Logistika və ticarət sürətlə qloballaşan dünyada iqtisadi artımın mühüm təkanverici qüvvəsinə çevrilməklə, əsas sektorlarda birbaşa xarici investisiya qoyuluşlarının həcmini artırmağa şərait yaradır. Hesablamalar göstərir ki, inkişaf etmiş nəqliyyat və logistika sistemi ÜDM-də 3 faizədək birbaşa artıma imkan verir (şəkil 1).

Şəkil 1. Logistika və ticarət sahəsinin ÜDM-dəki payının artırılması istiqamətləri



Mənbə: Müstəqil ekspertlərin hesablamaları

Ticarətdə hazırkı qlobal istiqamətlərə təkan verən üç mühüm trend mövcuddur və əlavə dəyər əldə etmək üçün bu trendlərə xüsusi diqqət yetirilməlidir.

Birincisi, makroiqtisadi amillər ölkələrarası ticarət həcminin artırılmasına müsbət təsir göstərir. Son iyirmi il ərzində açıq bazarlara və liberal ticarətə əsaslanan inkişaf başlıca iqtisadi artım modeli olmuşdur. Ümumdünya Ticarət Təşkilatının (ÜTT) dəstəklədiyi islahatlar çərçivəsində ticarəti asanlaşdıran qlobal sazişlər bu istiqamətləri daha da sürətləndirmişdir. Nəticə etibarilə, ticarət qlobal ÜDM-in artım tempindən daha sürətlə inkişaf edir. Dünya Bankının milli iqtisadiyyatlara dair məlumatlarından və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) milli iqtisadiyyatlar üzrə hesabatlarından da göründüyü kimi, məhsul və xidmət ixracının qlobal ÜDM-də xüsusi çəkisi 1995-ci ildəki 22 faiz (eləcə də 1975-ci ildəki 16,5 faiz) ilə müqayisədə 2015-ci ildə (iqtisadi böhran nəticəsində zəifləmədən sonra) 29,5 faizə yüksəlmişdir. Bu artıma təkan verən digər əsas amil inkişaf etməkdə olan bazarlarda orta təbəqənin güclənməsidir. “Ekonomist” jurnalının məlumatına görə, ailə üzrə illik gəliri 5000 ABŞ dollarından çox olan əhalinin ümumi sayı 2005-ci ildə 550 milyon olduğu halda, 2015-ci ildə bu göstərici 1450 milyona çatmışdır.


İkincisi, sektor və şirkət səviyyəsində olan amillər də istehsal seqmentlərinin coğrafi bölgüsünü yaxşılaşdırır. Ümumiyyətlə, şirkətləri beynəlxalq əməliyyatlarını genişləndirməyə stimullaşdıran iki amil mövcuddur. Belə ki, bir tərəfdən onlar yeni və inkişaf etməkdə olan bazarlardakı artım imkanlarından faydalanmaq üçün öz fəaliyyətlərini yeni coğrafi məkanlara keçirir, digər tərəfdən isə aşağıxərcli istehsal

imkanlarından faydalanmaq üçün istehsal əməliyyatlarını genişləndirirlər. Qlobal dəyər zəncirlərinin inkişaf etməsi və şaquli ixtisaslaşmanın dərinləşməsi bu meyilləri daha da gücləndirir. Diqqəti daha çox əsas sahələrə yönəltməklə, aralıq və ya hazır məhsulların kənardan tədarük edilməsi şirkətlər tərəfindən geniş tətbiq edilən təcrübəyə çevrilir.

Üçüncüsü, bəzi təkanverici mexanizmlərin inkişafı makro və mikrosəviyyəli amilləri dəstəkləyir. Şübhəsiz ki, informasiya və kommunikasiya texnologiyalarının (bundan sonra – İKT) inkişafı bu mənada əsas amillərdən biri hesab oluna bilər. Ölkələrarası ticarətin əhatə etdiyi xidmətlərin həcmində və miqyasında kəskin artım qlobal dəyər zəncirlərinin yaradılmasına təkan vermişdir. Digər mexanizm isə yuxarıda ÜTT-nin timsalında da qeyd edildiyi kimi, beynəlxalq ticarəti gücləndirən tənzimləyici və məsləhətverici qurumların sayının artmasıdır. Həmin qurumlar beynəlxalq ticarət fəaliyyəti üzrə qaydaları müəyyən edir və ikitərəfli sazişlər bağlanmasını stimullaşdırır ki, bu da, öz növbəsində, qlobal tarif və qeyri-tarif maneələrinin azalması ilə nəticələnir. Üçüncü dəstəkləyici mexanizm kimi nəqliyyat sistemlərinin texniki imkanlarının artırılmasını qeyd etmək olar. Əlavə tələbatın təmin edilməsi zərurəti nəticəsində mühüm irəliləyişlərin olması (məsələn, konteyner yük daşımalarında) ticarət həcmlərinin sürətlə artmasına gətirib çıxarmışdır. Nəhayət, ticarətin maliyyələşdirilməsi sahəsində inkişaf və yeni maliyyələşdirmə alətlərinin hazırlanması da ticarət həcmlərinin genişlənməsinə təkan vermişdir.

Bu üç amilin təsiri altında qlobal ticarət həcmlərinin artması dəniz daşımalarında da kəskin artıma səbəb olmuşdur. Malların ticarətinə dair BMT-nin məlumat bazasının məlumatlarına əsasən, regionlararası ticarət həcmi 1990-cı ildəki 1,8 trilyon ABŞ dollarından 2013-cü ildə 17,2 trilyon ABŞ dollarına yüksəlmişdir ki, bunun da 70 faizi dəniz daşımalarının payına düşür (şəkil 2). Bu artımın əsas təkanverici amili Asiyanın dəniz ticarətinə təkan verən Çin və Hindistan kimi ölkələrdə istehsal və istehlak həcmlərinin artması olmuşdur.

Şəkil 2. Dünya ölkələrində ticarət əlaqələrinin güclənməsi və dövriyyənin artması



Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası; Qlobal İnkişaf Göstəriciləri, Dünya Bankı; Beynəlxalq Valyuta Fondunun tədiyə balansları üzrə statistikası; Telecoğrafiya

Dəniz ticarəti imkanlarından faydalanmaq üçün bir sıra dünya ölkələrində liman qovşağının (*"hub"*) yaradılmasına investisiya qoyulur. Bir qayda olaraq, belə qovşaqların rəqabətqabiliyyətliliyini üç amil müəyyən edir:

Birincisi, qovşaqlar vasitəsilə liman işinin səmərəliliyi ən qabaqcıl təcrübələrə uyğunlaşdırılır. Eyni zamanda, əməliyyatların təkmilləşdirilməsi, qiymətqoymanın optimallaşdırılması və yeni informasiya texnologiyaları sistemlərinə investisiya qoyuluşu liman işinin səmərəliliyinin yüksəldilməsində vacib rol oynayır.

İkincisi, ölkənin uzaq bölgələri ilə əlaqənin təmin və inkişaf etdirilməsi mühüm amildir. Belə ki, adətən, qovşaqlarla ölkənin uzaq bölgələri arasında əlaqələr dəmir yollarına investisiya qoyuluşları, iritutumlu yük maşınları və liman ərazilərində sənaye klasterlərinin yaradılması yolu ilə qurulur. Marketinq və əməliyyatlar sahəsində "sinerji" effektinə (qüvvələrin birləşməsi effektinə) nail olmaq məqsədilə qonşu limanlarla tərəfdaşlığın qurulması nəticəsində bu cür əlaqələr daha da möhkəmləndirilir.

Üçüncüsü, limanda əlavə dəyər yaradan xidmətlərin olması ticarət sahəsində fəallığı artırır.

Dünyada bir sıra qlobal və regional liman qovşaqları qeyd olunan hər üç amilin inkişafına nail olmaqla, qabaqcıl təcrübə hesab edilən "bençmark"lara çevrilmişdir. Buna misal olaraq, Cəbəl Əli, Hamburq, Sinqapur, Antverpen, Rotterdam, Tanger Med və Monreal limanlarını qeyd etmək mümkündür. Adıçəkilən limanların bəzilərində, eləcə də bir sıra digər limanlarda uzaq bölgələrlə əlaqənin gücləndirilməsi və əlavə dəyər yaradan xidmətlərin təmin edilməsi məqsədilə azad ticarət zonası modeli tətbiq edilmişdir. Çünki azad ticarət zonalarında ixracyönümlü sənaye sahələrində fəaliyyət göstərən özəl şirkətlər və investorlar ünvanlı xidmət və stimullarla təmin edilir.

Beynəlxalq ticarətin sürətlə artması nəticəsində dəniz daşımaları ilə yanaşı, dəmir yolu daşımalarında da artım müşahidə edilmişdir. Belə artım fonunda dünya miqyasında dəmir yolu qovşaqlarının inkişafına iki əsas proses təsir etmişdir. Bir tərəfdən, intermodal daşımalar getdikcə həcmi artan daşıma növünə çevrilmiş və liman qovşaqlarının inkişafından sonra intermodal dəmir yolu daşımaları adi dəmir yolu yükdaşımalarını üstələmişdir. Məsələn, ümumilikdə dəmir yolu ilə daşımalarda illik 1,2 faiz artım tempi ilə müqayisədə Avropa İttifaqında intermodal dəmir yolu daşımalarının illik artım tempi XXI əsrin ilk onilliyində 2,6 faiz olmuşdur[1]. Dünya miqyasında ticarət axınlarında konteyner yük daşımalarının həcminin davamlı artımı, liman operatorlarının və yerli hökumətlərin dəmir yolu şəbəkələrinin limana çıxışını və terminal tutumlarını yaxşılaşdırmaq məqsədi daşıyan irihəcmli investisiya qoyuluşları bu prosesi daha da sürətləndirmişdir.

Bir çox dünya ölkələri dəniz, quru yolu, dəmir yolu daşımalarında logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaratmaqla, yuxarıda qeyd edilən iqtisadi faydaları əldə etməyə çalışırlar. Dünyanın ən qabaqcıl təcrübələrinə əsasən logistika mərkəzləri vasitəsilə əlavə dəyər yaradılmasının üç əsas uğur amili vardır:

Birincisi, dəyərin yaradılması üçün, seçilmiş təchizat zəncirlərində tarazlaşdırılmış inkişafın daha çox səmərə verməsi nəzərə alınmaqla, infrastruktur və xidmətlər bərabər şəkildə inkişaf etdirilməlidir. Belə ki, infrastruktura həddən çox diqqətin yetirilməsi ticarət üçün zəruri xidmətlərin təminatında çatışmazlıqların yaranmasına səbəb ola bilər ki, bu da artımı məhdudlaşdıra bilər. Digər tərəfdən, xidmətlərə həddən çox diqqət yetirilməsi infrastruktur çatışmazlığına yol açа bilər.

İkincisi, logistika mərkəzlərinə investisiya qoyuluşları üçün aydın strategiyanın və düşünülmüş planlaşdırmanın olması vacib amillərdir. Potensialın və gəlirliliyin düzgün hesablanmaması ilkin fəaliyyətə başlamaqda və fəaliyyətin sürətləndirilməsində problemlərə yol açа bilər. Yüksək potensiallı mərkəzlərin tikintisinin irihəcmli investisiya qoyuluşları tələb etdiyini nəzərə alaraq qeyd etmək olar ki, əvvəlcədən müvafiq risk qiymətləndirməsi aparılması zəruridir. Bu mənada, hərtərəfli düşünülmüş planlaşdırmanın və təfərrüatlı texniki-iqtisadi əsaslandırmanın əhəmiyyəti böyükdür.

[1] Mənbə: Beynəlxalq Nəqliyyat Forumu və müstəqil ekspertlərin hesablamaları

Üçüncüsü, bir qayda olaraq, logistika mərkəzlərinin tikintisi zamanı bütövlükdə təchizat zəncirinin optimallaşdırılmasını həyata keçirə biləcək mövqedə özəl sektor iştirakçısı mövcud olmur. Belə ki, şirkət səviyyəsində natamam planlaşdırma və optimallaşdırma logistika mərkəzlərinin qurulması mərhələsində səmərəsizliyə yol açа bilər. Həmçinin adətən, bütövlükdə, təchizat zəncirlərinə münasibətdə logistikanın düzgün optimallaşdırılmasını bilən və ya bunu etmək üçün lazımi bazar gücünə malik olan üçüncü tərəf kimi güclü logistika şirkətlərinin çatışmazlığı hiss olunur. Dövlətin nəzarəti ilə təchizat zənciri komponentlərinin, o cümlədən gömrük və birbaşa xarici investisiyalar bazasının olması logistika sisteminin yaradılmasına və inkişafına təsir edən amillərdəndir.

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Logistika və ticarət sahəsində hazırkı vəziyyət

Logistika və ticarət sahəsi bütün sektorların inkişafında bünövrə rolunu oynamaqla, əlavə dəyərin və yeni iş yerlərinin yaradılmasında və gəlirliliyin artırılmasında mühüm rol oynayır. Azərbaycanda keyfiyyət və kəmiyyət göstəricilərinin yüksəldilməsi perspektivi üzərində qurulan logistika və ticarət sahəsində regional və qlobal dəyər zəncirlərinə inteqrasiya, dünyanın ən qabaqcıl təcrübələrinə dair nümunələrə əsaslanan tranzit ticarətindən yüksək gəlir əldə etmək məqsədilə əlavə dəyər yaradan xidmətlər təmin olunacaqdır.

Azərbaycanın coğrafi mövqeyi ticarət həcmlərinin müntəzəm artırılmasına imkan verir. Ölkənin logistika aktivlərinin daim inkişaf etdirilməsi onun regional və beynəlxalq ticarətdə rolunun artmasına təkan verəcəkdir. Belə ki, həm Şərq-Qərb dəhlizi, həm də Şimal-Cənub dəhlizi üzərindəki əlverişli coğrafi mövqeyi sayəsində ölkəmiz həm tranzit ticarəti, həm də idxal-ixrac əməliyyatlarından pay əldə etmək imkanına malikdir. Yeni liman və dəmir yolları ilə bağlı bir sıra mühüm infrastruktur layihələri artıq yekunlaşmaq üzrədir. Bu aktivləri və üstünlükləri nəzərə alaraq, Azərbaycanın ərazisində intermodal və multimodal (müxtəlif nəqliyyat növlərinin ehtiva edilməsi) logistika infrastrukturunun yaradılması vasitəsilə ticarət həcminin artırılması, tranzit ticarətindən daha çox dəyərin əldə edilməsi və logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin artırılması məqsədilə bir sıra təşəbbüslər həyata keçiriləcəkdir.

Azərbaycanın ticarət-nəqliyyat aktivlərinin hazırkı vəziyyəti

Ümumi xidmət ixracında yükdaşıma xidmətlərinin payında Azərbaycanda son illərdə təxminən 10 faiz artım olduğu halda, oxşar ölkələrdə bu rəqəm 8-52 faiz arasında dəyişir.[2] Azərbaycan ərazisindən beynəlxalq daşımalar, əsasən dəmir yolu vasitəsilə həyata keçirilir. Bu daşımalarda idxal və ixrac əməliyyatlarının həcmi yüksək, yüklərin son təyinat məntəqəsinə çatdırılmazdan əvvəl aralıq məntəqəyə daşındığı tranzit yükdaşımaların həcmi isə nisbətən aşağıdır. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin məlumatına əsasən, 2015-ci ildə Azərbaycanda dəmir yolları ilə cəmi 17,1 milyon ton yük daşınmışdır ki, onun da 23,4 faizi (4 milyon ton) daxili yükdaşımanın, 32,2 faizi (5,5 milyon ton) idxal yüklərinin, 21,4 faizi (3,7 milyon ton) ixrac yüklərinin və 23 faizi (3,9 milyon ton) tranzit yüklərin payına düşmüşdür. Beləliklə, 2015-ci ildə Azərbaycanın ərazisindən dəmir yolu ilə daşınan yüklərin ümumi həcmində tranzit yüklərin payı 23 faiz olmuşdur. Müqayisə üçün qeyd etmək olar ki, həmin dövrdə Gürcüstanda dəmir yolları ilə daşınan yüklərin 71 faizini tranzit yüklər təşkil etmişdir.[3]

Bununla belə, Azərbaycan limanlarında tranzit yük daşıması üstünlük təşkil edir. Ölkədə 2015-ci ildə dəniz nəqliyyatı vasitəsilə aparılan idxal-ixrac əməliyyatları üzrə yük həcmi 0,5 milyon ton, tranzit yükdaşımaların həcmi isə 5,6 milyon ton olmuşdur ki, bu da tranzit yükdaşımaların ümumi həcminin 59 faizi deməkdir.[4] Daşınan yüklərin əksər hissəsini kömür, emal edilmiş neft məhsulları, koks, mineral məhsullar, kənd təsərrüfatı malları, xam neft şəklində maye yükləri təşkil etmişdir. Bununla yanaşı, həm dəmir yolları, həm də limanlarda konteyner daşımaları nisbətən məhduddur.

---

[2] Mənbə: Beynəlxalq Ticarət Mərkəzi, oxşar ölkələr qismində Qazaxıstan, İran, Rumıniya, Gürcüstan, Bolqarıstan, Rusiya və Türkiyə nəzərdə tutulmuşdur.

[3] Mənbə: Gürcüstan Dəmir Yollarının illik hesabatı

[4] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Mühüm regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək və əsas ticarət marşrutlarından bəhrələnmək məqsədilə ölkənin logistika sahəsindəki və ümumi ticarətdəki payını artırmaq, mütəşəkkil və səmərəli strategiya həyata keçirmək istiqamətində dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi, dövlət investisiyalarına üstünlük verilməsi və özəl investisiya qoyuluşlarına şərait yaradılması kimi hədəflər müəyyən edilir.

Nəzəri baxımdan, Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub dəhlizlərindən istifadə etməklə əldə edə biləcəyi əlavə ticarət həcmi quru və maye yük, konteyner daşımaları ilə birlikdə 230 milyon tondur.[5] Ən gəlirli marşrutların əksəriyyətinə, yuxarıda da təsvir edildiyi kimi, rəqabətin güclü olduğu Çinlə ticarət daxildir ki, Azərbaycanın da bu marşrutlarda iştirakı, ticarət həcminin artımı baxımından böyük imkanlar açа bilər.

Konteynerlər. Ümumilikdə, illik 110 milyon ton həcmində konteyner daşımalarının böyük hissəsi Çinlə Avropa arasındakı daşımaların payına düşür ki, bunun 52 milyon tonu Çindən Avropaya, 29 milyon tonu isə Avropadan Çinə daşınır. Eyni zamanda, Çindən, hər birinə 9 milyon ton olmaqla, Qara dəniz və Şimali Afrika regionlarına da yük göndərilir (konteyner, quru və maye yüklərin daşınması üzrə hesablamalarda Qara dəniz regionu dedikdə, Türkiyədən yalnız Orta Asiya və Çin istiqamətlərinə daşınmalar nəzərdə tutulur).[6]

Quru yük. Quru yük axınlarının əksəriyyəti Avropa və ya Qara dəniz regionundan Çinə göndərilir. Ümumiyyətlə, Çinə Avropadan 10 milyon ton, Qara dəniz regionundan isə 30 milyon ton quru yük axını vardır. Çindən Avropaya və Qara dəniz regionuna, ümumilikdə, 8 milyon ton, Rusiyadan İrana və Hindistana isə müvafiq olaraq 3 və 5 milyon ton həcmində quru yük göndərilir.[5]

Maye yük. Əksər maye yük axınları Orta Asiyadan başlamaqla, Avropaya (35 milyon ton) və Qara dəniz regionuna (6 milyon ton) göndərilir. Lakin əks marşrutlar üzrə bu göstərici o qədər də yüksək deyildir. Belə ki, Avropadan Orta Asiyaya cəmi 0,1 milyon ton, Qara dəniz regionuna isə 1 milyon ton yük göndərilir.[6]

Mövcud güclü cəhətlərə və imkanlara əsaslanaraq, Azərbaycanın 2025-ci ildən sonrakı dövrdə logistika və ticarət sahəsində hədəfi başqa ölkələrlə güclü əlaqələrə malik olmaqla səmərəli fəaliyyət göstərən logistika mərkəzləri vasitəsilə regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməkdir. Bu perspektivin reallaşdırılması kifayət qədər yüksək investisiya vəsaiti tələb edir. Belə ki, infrastrukturun yaxşılaşdırılması və tənzimləyici stimullar vasitəsilə 2025-ci ilədək Azərbaycanın logistika və ticarət sahəsinə investisiya qoyuluşları baxımından regionda ən cəlbedici bölgəyə çevrilməsi əsas məqsəddir. Bu perspektivin tərkib hissəsi kimi, Azərbaycanda beynəlxalq bazarlarla yaxşı əlaqəli olan logistika və ticarət mərkəzləri formalaşdırılacaqdır. Belə mərkəzlərdə əməliyyatların səmərəliliyinin təmin edilməsi üçün ən qabaqcıl rəqəmsal əməliyyat modelləri tətbiq ediləcək, keçid prosesinin sürətləndirilməsi məqsədilə bu sahədə həm özəl sektorun iştirakı daha da stimullaşdırılacaq, həm də birbaşa xarici investisiyalar təşviq ediləcəkdir.

Qeyd etmək lazımdır ki, Strateji Yol Xəritəsində verilmiş strateji məqsəd və prioritetlər beynəlxalq ticarəti əhatə edir. Ölkədə iqtisadi artımın sürətləndirilməsi və əhatə dairəsinin genişləndirilməsi baxımından yerli logistika infrastrukturu və xidmətləri də böyük əhəmiyyət kəsb edir. Yerli logistika sahəsinin təkmilləşdirilməsi məqsədilə, zərurət yaranarsa, digər dövlət proqramları vasitəsilə təşəbbüslərin icrası davam etdirilərək, yeni proqramlar həyata keçiriləcəkdir.

[5] Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası (2015-ci il üzrə məlumatlar)

[6] Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası (2015-ci il üzrə məlumatlar)

3.2. Logistika və ticarət sahəsinin GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
• ölkədə yeni liman kompleksinin tikintisi və qonşu ölkələrlə yeni dəmir yolu əlaqələrinin qurulması kimi bir sıra mühüm infrastruktur layihələrinin həyata keçirilməsi; • qanunvericiliyə müvafiq olaraq müxtəlif güzəşt mexanizmlərinin mövcud olması.	• logistika sahəsi üzrə ixtisaslı kadr potensialının az olması; • əmək məhsuldarlığının yüksək olmaması; • maliyyə çatışmazlığı, avadanlığın köhnə olması; • marketinq, satış və paylama xidmətlərinin qənaətbəxş səviyyədə olmaması; • müəssisələrdə müasir biznes modelinin qurulmaması; • innovativ fəaliyyətlərin azlığı; • Xəzər hövzəsində üzən gəmilərin potensial yükgötürmə imkanlarının aşağı olması, Xəzər dənizində küləkli günlərin çoxluğu və dənizin dərinliyinin az olması.
İmkanlar	**Təhlükələr**
• Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ərazisində azad iqtisadi zonanın və Heydər Əliyev Beynəlxalq Aeroportu ərazisində logistika qovşağının (*"hub"*) yaradılması hesabına tranzit yüklər üzrə əlavə dəyərin yaradılması imkanları; • ölkədə makroiqtisadi sabitliyin təmin olunması imkanları; • logistika və ticarət sahəsinin inkişafına dövlət dəstəyinin olması; • nəzərdə tutulmuş layihələrin dəstəklənməsinə xarici investorların cəlb edilməsi imkanlarının olması; • insan resursları, xüsusilə potensial gənc nəslin olması; • ölkənin coğrafi baxımdan əlverişli mövqedə yerləşməsi və regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək potensialı; • regionda və dünyada ticarət həcminin artması və rəqabətin yüksəlməsi; • böyük regional bazarlara yaxınlıq; • sahibkarlıq fəaliyyəti üçün ümumi infrastrukturun mövcudluğu və infrastrukturun təkmilləşdirilməsi sahəsində işlərin davam etdirilməsi;	• maliyyə bazarlarında durğunluğun olması; • neftin qiymətində kəskin azalma nəticəsində investisiya fəallığının zəifləməsi ehtimalı; • ətraf mühitin qorunması ilə bağlı tələblərin artması; • xarici investorlar üçün əsas amillərdən biri olan valyuta məzənnəsinin sabitliyi problemi; • infrastruktur layihələrinin tikilib başa çatdırılmasında ləngimələrin olması; • Avropanı Orta Asiya və Çinlə birləşdirən Şərq-Qərb dəhlizinə alternativ olan Transsibir, Transsibir-Qazaxıstan və dəniz daşımaları kimi marşrutlar, habelə İranla Türkmənistanın dəmiryol xətlərinin birləşdirilməsi ilə dəhlizdə güclü rəqabətin yaranması.

• İran üzərindən iqtisadi sanksiyaların götürülməsi ilə İranı Rusiya və İranı Avropa ilə birləşdirən Şimal-Cənub nəqliyyat dəhlizinin işə salınması, İran, Hindistan və Pakistan mallarının Azərbaycan üzərindən bu dəhliz vasitəsilə Avropaya daşınması imkanlarının yaradılması.	

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

2020-ci ilədək olan dövr üçün logistika və ticarət sahəsi üzrə Azərbaycanın strateji baxışı regional tranzit yüklərin cəlb edilməsi ilə yanaşı, həmin yüklər üzərində əlavə dəyərin yaradılmasına nail olmaqdır.

Strateji baxışın şərhi

Müəyyən edilmiş strateji hədəflərə əsasən, ölkənin güclü tərəflərindən və müvafiq imkanlarından istifadə edilməklə, aşağıdakı məsələləri əhatə edən yeddi prioritetin həyata keçirilməsi nəzərdə tutulur:

- uzunmüddətli perspektivdə Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi məqsədilə ölkə ərazisindən keçən tranzit dəhlizlərinin rəqabətqabiliyyətli vəziyyətə gətirilməsi ilə bağlı müvafiq səylərin gücləndirilməsi;
- Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonasının fəaliyyətinin təşkili və planlaşdırılan azad ticarət zonaları üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması;
- ticarət həcminin artırılması və Azərbaycan iqtisadiyyatının daha da şaxələndirilməsi üçün tranzit ticarətindən daha yüksək əlavə dəyərin əldə edilməsi.

2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş strateji məqsədlərə nail olunması nəticəsində Azərbaycanda 2020-ci ildə real ÜDM-in 400 milyon birbaşa və 205 milyon dolayı olmaqla, ümumilikdə 605 milyon manat artacağı və 10900 birbaşa və 8000 dolayı olmaqla, 18900 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Strateji Yol Xəritəsi çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icrası üçün təxminən 3160 milyon manat investisiya vəsaitinin tələb olunacağı proqnozlaşdırılır ki, bu da müvafiq texniki-iqtisadi əsaslandırmalar aparıldıqdan sonra dövlət-özəl maliyyələşdirmə mənbələri hesabına təmin ediləcəkdir.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

Azərbaycanın 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı logistika və ticarət infrastrukturunun əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və tənzimləyici stimullar sayəsində regionda bu sahə üzrə daha cəlbedici ölkə olmaq və mühüm qovşağa çevrilməkdir.

Uzunmüddətli baxışın şərhi

2025-ci ilədək olan dövr ərzində ölkənin regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi üçün regional miqyasda fəaliyyət göstərən şirkətlərin Azərbaycanda bazalarının yaradılması üzrə işlər görüləcək, investisiya qoyuluşlarının təşviqi məqsədilə biznes mühitinin əlverişliliyi təmin olunacaq və bu sahədə optimallaşdırılmış təklif və təşəbbüslər irəli sürüləcəkdir. Logistika və ticarət sahəsində güclü inkişafın təmin edilməsi yolu ilə Azərbaycan regional şirkətlər üçün logistika və ticarət mərkəzinə çevriləcəkdir. Eyni zamanda, logistika və ticarət sahəsində yüksək imkanlara malik müəssisələrin potensialı diqqətlə qiymətləndirilərək, özəl sektorun bu sahəyə cəlb olunması istiqamətində işlər davam etdiriləcəkdir.

2025-ci ilədək ölkə Ələt qəsəbəsində yaradılmış yeni Bakı Limanının ərazisi daxil olmaqla azad ticarət zonasının üstünlüklərindən faydalanan güclü logistika platformasına malik olacaqdır. Burada regional topdansatış ticarət zonasının yaradılmasında yerli və beynəlxalq ticarət tərəfdaşlarının təcrübələrindən istifadə ediləcəkdir. Qlobal dəyər zəncirindən daha çox pay əldə etmək məqsədilə Şimal-Cənub və Şərq-Qərb dəhlizləri ilə beynəlxalq ticarət həcmində artıma nail olmaq üçün

səy göstəriləcəkdir. Nəticədə, logistika və ticarət sahəsində səmərəli əməkdaşlığın genişləndirilməsi məqsədilə keçirilən sərgilərdə, o cümlədən satış- sərgilərdə yerli və xarici sahibkarlar arasında əlaqələrin qurulması üçün əlverişli mühit formalaşacaqdır. Nəzərdə tutulan bu cür ticarət səviyyəsinə nail olmaq məqsədilə görülən tədbirlər yalnız yeni Bakı Limanı ilə məhdudlaşmayacaq və ölkədə logistika və ticarət mərkəzləri və potensial azad ticarət zonaları genişləndirilərək digər bölgələri də əhatə edəcəkdir.

İlk növbədə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Heydər Əliyev Beynəlxalq Aeroportunda və ölkənin daxili ticarət şəbəkəsinə çevik inteqrasiyasını təmin etməkdən ötrü avtomobil və dəmir yolu əlaqələri gücləndiriləcəkdir. Rayonlararası əlaqənin yaxşılaşdırılması məqsədilə avtomobil yollarının tikintisi və təmiri əsas prioritet olacaq, yükdaşıma həcmi iqtisadi səmərəliliyi təmin edəcək səviyyəyə çatdıqdan sonra dəmir yolu əlaqələri də qurulacaqdır. Daha sonra qarşıya qoyulmuş məqsədlərin reallaşdırılması üçün sərhədboyu ərazilərdə (məsələn, Qırmızı körpü, Astara, Xaçmaz və s.) yeni logistika və ticarət mərkəzlərinin yaradılmasına başlanılacaqdır.

Buna müvafiq olaraq, regionda fəaliyyət göstərən xarici şirkətlərin Bakıda baş ofislərinin yaradılmasını təşviq etmək üçün məqsədyönlü tədbirlər görüləcək, biznes fəaliyyətinin asanlaşdırılması yolu ilə bu işlərin həyata keçirilməsinə nail olunacaqdır (bu barədə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə daha ətraflı bəhs edilmişdir). Azərbaycanın əlverişli coğrafi mövqeyi bu istiqamətdə müsbət dəyişikliklərin həyata keçirilməsinə təkan verəcəkdir. Burada dəstəkləyici amil kimi biznes mühitinin əlverişliliyini də qeyd etmək lazımdır. Bundan əlavə, kommunal xidmətlərə çıxışın olması, əlverişli biznes mühiti, idxal-ixrac əməliyyatlarının aparılması üzrə əlverişli şərtlərin olması və istedadlı kadrlar bazası beynəlxalq şirkətlərin bu logistika və ticarət mərkəzinə daha çox investisiya qoymasına şərait yaradacaqdır. Müvafiq sektorlarda rəqabətqabiliyyətliliyi getdikcə artan uğurlu yerli şirkətlər şəbəkəsinin formalaşdırılması məqsədilə yerli şirkətlər həmin regiona yönləndiriləcəkdir.

Bu logistika və ticarət mərkəzində, prioritet vəzifə kimi, 2025-ci ilədək olan dövrdə ilkin və aralıq ərzaq məhsullarının emalı, əczaçılıq, əmtəəlik plastik materiallar və gübrə istehsalı kimi sahələrdə Azərbaycanın üstünlüyü təmin ediləcək, eləcə də 2025-ci ildən sonrakı dövrə hazırlıq kimi ölkənin logistika və ticarət sahəsinin əhatə dairəsinin daha da genişləndirilməsi imkanları araşdırılacaqdır.

Texniki-iqtisadi əsaslandırmaların nəticəsinə əsasən, Bakıdan keçən ticarət həcmlərindən daha çox fayda əldə etmək məqsədilə Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni logistika qovşağının (*"hub"*) yaradılması nəzərdən keçiriləcəkdir.

2025-ci ilədək Azərbaycanın logistika və ticarət sahəsi, əsasən, özəl sektorun investisiyaları ilə inkişaf etdiriləcəkdir. Bu istiqamətdə dövlət müəssisələri prioritetləşdirilməklə, özəl sektorun iştirakının artırılması istiqamətində davamlı tədbirlər həyata keçiriləcəkdir. Prosesin daha səmərəli təşkili və ən uyğun yanaşmanın seçilməsi üçün dövlət-özəl tərəfdaşlığı və "Tik-idarə et-təhvil ver" kimi müxtəlif modellərin tətbiqi imkanları araşdırılacaq, əsas məqsəd dövlət müəssisələrinin daha mənfəətli müəssisələrə çevrilməsi olacaqdır.

Uzunmüddətli perspektivdə ölkənin əsas logistika şirkətlərinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı tədbirlər görüləcəkdir. Bu isə öz növbəsində, ölkədə yükdaşıma və nəqliyyat sahələrinin inkişafına şərait yaradacaq və son nəticədə, Azərbaycana əlavə birbaşa xarici investisiyaların cəlb olunmasına gətirib çıxaracaqdır. Bu məqsədlə, logistika şirkətlərinin müvafiq sektorlar üzrə beynəlxalq akkreditasiyadan keçməsi stimullaşdırılacaqdır. Nəticədə, Azərbaycanın logistika şirkətləri beynəlxalq bazarlarda etibarlı şirkətlər kimi iştirak edə biləcəklər.

Standartlaşdırma üzrə təşəbbüslər şirkətlər tərəfindən, müvafiq biznes assosiasiyaları və aidiyyəti dövlət qurumları ilə koordinasiyalı şəkildə, birbaşa idarə ediləcəkdir.

Standartlaşdırma sahəsində aparılan işlərlə yanaşı, ölkə daxilində ticarət mühitinin yaxşılaşdırılmasına da səy göstəriləcək, bu yolla logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi və xərclər baxımından rəqabətqabiliyyətliliyin təmin olunması məqsədilə fəaliyyətin optimallaşdırılmasına stimul yaranacaqdır.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

Uzunmüddətli perspektivdə Azərbaycanın hədəf baxışı digər ölkələrlə güclü əlaqələri olan logistika və ticarət mərkəzlərini səmərəli idarə edərək, regionda mühüm qovşağa çevrilməkdir.

Hədəf baxışın şərhi

Ələt qəsəbəsində azad ticarət zonasının fəaliyyətinin təşkili ilə bərabər müxtəlif regionlarda da logistika və ticarət mərkəzlərinin yaradılması prosesi davam etdiriləcək, ölkədə inkişaf etmiş logistika infrastrukturunun dayanıqlılığı təmin ediləcək, özəl sektorun iştirakı daha da stimullaşdırılacaq, bu sahəyə birbaşa xarici investisiyaların cəlbi genişləndiriləcəkdir. Fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə həmin logistika və ticarət mərkəzlərində rəqəmsal proqram təminatlarından istifadə etməklə, ən qabaqcıl əməliyyat modelləri tətbiq ediləcəkdir. Bu tədbirlər nəticəsində gələcəkdə Azərbaycanın logistika və ticarət sahəsində regionun lideri mövqeyinə yüksəlməsi təmin olunacaqdır.

2025-ci ildən sonrakı dövr üçün qarşıya qoyulmuş məqsədlər Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisində yerləşən logistika qovşağına və Ələt qəsəbəsindəki yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinə (bundan sonra – yeni Bakı Limanı kompleksi) daxil olan güclü logistika və ticarət mərkəzinə, eləcə də azad ticarət zonasına malik olmaqdır. Bu prosesin ilk mərhələsi başa çatdıqdan sonra növbəti illər ərzində həmin mərkəzin imkanları artırılacaq və o, tədricən regional əhəmiyyətli logistika və ticarət qovşağına çevriləcəkdir. Orada əsas nəqliyyat şirkətləri ilə yanaşı, qablaşdırma, saxlama və emal kimi əlavə logistik funksiyaları həyata keçirən mərkəz və şirkətlər də yerləşəcəkdir. Azad ticarət zonasının üstünlüklərindən istifadə edilməklə, ölkədə istehsal olunmuş və ya idxal edilmiş məhsulların həmin şirkətlər tərəfindən mərkəzlərin yaxınlığında emal edilməsinə və digər region ölkələrinə rahat şəkildə ixrac edilməsinə imkan yaranacaqdır. Həmin şirkətlər vergi güzəştləri əldə edəcək və gömrük rüsumlarından azad olunacaqlar ki, bu da şirkətlərin rəqabət qabiliyyətinin artırılmasına və istehsalyönümlü düşüncə tərzinin inkişafına təkan verəcəkdir.

Ələtdə bu cür əlverişli logistika mühitinin qurulması başqa sektorların inkişafına təkan verməklə, Azərbaycanın qeyri-neft ÜDM-in ciddi artımına şərait yaradacaqdır. 2025-ci ildən sonrakı dövrdə ölkənin inkişaf edən müəssisələrinin regionda yüksək dəyər yaradan rəqabətqabiliyyətli şirkətlərə çevrilməsi məqsədi müəyyən olunmuşdur ki, əlverişli logistika mühitinin yaranması bu prosesi daha da sürətləndirəcəkdir.

Bu mərkəz daxilində müxtəlif uğurlu müəssisələrin fəaliyyətinin, xüsusilə də əməktutumlu əmtəə (məsələn, tekstil) və innovativ yüksək texnologiya məhsullarının (məsələn, əczaçılıq və maşın avadanlıqları) istehsalının genişləndirilməsi planlaşdırılır. Aidiyyəti dövlət qurumları yerli və beynəlxalq təşkilat və assosiasiyalar da daxil olmaqla, müvafiq tərəfdaşlarla əməkdaşlıq şəraitində bu mərkəzdən istifadənin optimallaşdırılması istiqamətində əlavə imkanları müəyyən edəcəklər.

2025-ci ildən sonrakı dövr üçün qarşıya qoyulmuş vəzifələrin bir hissəsi kimi, ölkədə logistika şəbəkəsinin digər regionlarda da genişləndirilməsi davam etdiriləcəkdir. Həmin dövrə qədər Azərbaycanın sərhədləri boyunca logistika və ticarət mərkəzlərinin tikintisinin ikinci mərhələsi başa çatdırılacaq, logistika və ticarət

müəssisələrinin regionlarda fəaliyyətinin stimullaşdırılması diqqət mərkəzində saxlanılacaqdır. Bu cür əlavə logistika və ticarət mərkəzlərinin mövcudluğu qonşu ölkələrlə ticarət əlaqələri olan şirkətlər tərəfindən Azərbaycan ərazisindən beynəlxalq ticarət əməliyyatlarının həcmini daha da artırmağa imkan verəcəkdir.

Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksində və digər ərazilərdə yerləşən logistika və ticarət mərkəzləri vasitəsilə aparılan beynəlxalq ticarətin yerli bazarlara istiqamətləndirilməsi üzrə tədbirlər görüləcək və yerli bazarların böyüməsinə dəstək məqsədilə nəqliyyat, xidmət, təchizat və tədarük şirkətlərinin ümumi inkişafına dəstək veriləcəkdir. Logistika və ticarət mərkəzləri dövlətin gələcək prioritet istiqamətlərindən olduğuna görə, bu sahəyə diqqət artırılacaqdır. Azərbaycanın nəqliyyat (dəmir yolu, avtomobil yolları və s.) infrastrukturunun yaxşılaşdırılması ilə bu şirkətlər yerli logistika sahəsinin və digər sahələrin inkişafını stimullaşdıracaqlar.

Yerli nəqliyyat infrastrukturundan əlavə, Azərbaycanın həm daxili, həm də qonşu ölkələrlə nəqliyyat əlaqələri genişləndiriləcəkdir. Belə ki, Azərbaycanla İran arasında hazırda tikilməkdə olan dəmir yolu xəttinin istifadəyə verilməsi prioritet kimi götürülərək, yüksəksürətli qatarlarla dəmir yolu infrastrukturunun təkmilləşdirilməsi planlaşdırılır. Hava nəqliyyatında sərnişin və yükdaşıma sahəsində keyfiyyətin yüksəldilməsi və digər bölgələrdə hava limanlarının sayının artırılması nəzərdə tutulur. Zərurət yarandığı təqdirdə, yüksək dəyərə malik ixrac mallarının daşınması üçün hava yolu ilə yükdaşıma xidmətlərinin daha da genişlənməsinə şərait yaratmaq məqsədilə Bakıda hava limanının yükqəbuletmə imkanları genişləndiriləcək və ya əlavə yük hava terminallarının tikintisi layihəsi nəzərdən keçiriləcəkdir. Azərbaycanda infrastrukturun təkmilləşdirilməsi ilə bağlı bu cür fəaliyyətlər özəl sektor və xarici investisiyalar üçün geniş imkanlar açacaq və burada dövlət sektoru dəstəkləyici rol oynayacaqdır.

Ümumiyyətlə, Azərbaycanda logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi əsas məqsədlərdən biri kimi müəyyən edilmişdir. İnfrastrukturu dövlət mülkiyyətində saxlamaqla, idarəetmədə özəl sektorun payının yüksəldilməsi, bununla da ölkə iqtisadiyyatında logistika sahəsinin səmərəliliyinin və əlavə dəyərinin artırılması, təchizat zəncirində aparılan əməliyyatların təkmilləşdirilməsi planlaşdırılır.

Xəzər dənizi hövzəsi və Qafqaz regionunda logistika və ticarət mərkəzlərinin səmərəliliyini artırmaq istiqamətində tədbirlər görüləcəkdir. Müəssisələrin təchizat zənciri üzrə xərclərinin azaldılması, ticarət marşrutlarının optimallaşdırılması, nəqliyyatın səmərəliliyinin artırılması və saxlama xərclərinin minimallaşdırılması üçün stimullaşdırıcı tədbirlər görüləcəkdir. Uzunmüddətli perspektivdə bu təşəbbüslər həm Azərbaycan iqtisadiyyatında, həm də ticarət tərəfdaşları arasında rəqabətin artmasına gətirib çıxaracaqdır. Bu rəqabət sayəsində Azərbaycanın logistika şirkətləri öz fəaliyyətlərini qonşu ölkələrdə də genişləndirərək, regional gücə çevriləcəklər.

Logistika və ticarət sahəsində qarşıda duran məqsədlərə nail olmaq üçün uzunmüddətli perspektivdə logistika əməliyyatlarının idarə edilməsi sahəsində qabaqcıl texnoloji infrastruktur yaradılaraq istifadəyə veriləcəkdir. Xüsusi əmtəə növləri və nəqliyyat marşrutlarının xüsusiyyətlərinə dair müxtəlif mənbələrdən məlumatların toplanıb daxil ediləcəyi mərkəzi məlumat bazasına əsaslanan intellektual sistem vasitəsilə ölkədə yüklərlə bağlı müxtəlif əməliyyatlar səmərəli və mənfəətli şəkildə qiymətləndiriləcək, təhlil ediləcək və daha yaxşı idarə ediləcəkdir. Logistika sahəsində rəqəmsal əməliyyat modellərinin genişlənməsi həm də Azərbaycanda aşağıtonnajlı yük logistikasını, habelə istifadəçisi çox olan anbar və müştərək bölüşdürmə xidmətini daha da inkişaf etdirəcəkdir. Bu yolla logistika sahəsində müxtəlif tərəfdaşların öz anbar və nəqliyyat əməliyyatlarını optimallaşdırmasına birgə şərait yaradılacaqdır.

Azərbaycanda logistika sahəsinin davamlı inkişafı nəticəsində ətraf mühitin mühafizəsi dövlətin gündəliyində prioritetlərdən biri olaraq qalacaq və bu məsələyə

diqqət daha da artırılacaqdır. Logistika və ticarət mərkəzlərində fəaliyyət göstərən şirkətlərin ekoloji təmiz binalardan və istehsal metodlarından istifadəsi stimullaşdırılacaq, onların ətraf mühitə təsiri, eləcə də karbon tullantıları (hər daşınan məhsula düşən CO_2 (karbon-dioksid) emissiyaları) davamlı izlənəcək və əməliyyatların dayanıqlılığının yüksəldilməsi məqsədilə qlobal ətraf mühit agentliklərindən sertifikatların alınması prosesi davam etdiriləcəkdir. Bu istiqamətdə müəssisələr ətraf mühitə təsiri azaltmağa imkan verən aydın hədəflərə malik səmərəli təchizat zənciri üzrə idarəetmə təcrübələrini tətbiq edəcək və konkret strategiyalar həyata keçirəcəklər. Logistika və ticarət mərkəzlərində fəaliyyət göstərən şirkətlərin öz işini ekoloji tələblərə uyğun davam etdirmələrinə zəmin yaratmaq məqsədilə digər sektorlardakı assosiasiyalarla birlikdə standartlar nəzərdən keçiriləcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Şərq-Qərb dəhlizi üzrə 2015-ci ildə 150 milyon ton həcmində tranzit yük daşınmasına baxmayaraq, Azərbaycanın buradakı payı kiçikdir.[7] 2015-ci ildə Orta Asiya və Qara dəniz regionunda yük həcmi 9,9 milyon ton olmuşdursa, 2020-ci ildə bu rəqəmin 13,8 milyon tona çatacağı proqnozlaşdırılır. [8] Orta Asiyanın Avropa ilə cari ticarət dövriyyəsi 40 milyon tona yaxındır və 2020-ci ildə bu göstəricinin 56 milyon tondan artıq olacağı proqnozlaşdırılır. Bu dəhliz üzrə Azərbaycan ərazisindən 2015-ci ildə cəmi 9,5 milyon ton tranzit yük daşınmışdır.[9] Bundan əlavə, Şimal-Cənub dəhlizi boyunca Rusiya və İran arasında illik ticarət dövriyyəsi (əsasən Xəzər dənizi üzərindən) 4 milyon ton, İranla Qara dəniz hövzəsi ölkələri arasında 2,3 milyon tondur.[10] Tranzit yükdaşıma həcminin artırılması potensialı çox böyükdür və Azərbaycana 2020-ci ilə qədər cəlb olunacaq tranzit yüklərin həcminin artırılması proqnozlaşdırılır.

Qeyd olunan dəhlizlərin potensialından maksimum istifadənin təmin edilməsi, eyni zamanda, logistika sahəsində infrastrukturun və digər işlərin yenidən qurulması və ya optimallaşdırılması nəticəsində:

- 2020-ci ildə Azərbaycanın real ÜDM-i 400 milyon manat birbaşa və 205 milyon manat dolayı olmaqla, ümumilikdə, 605 milyon manat artacaq;
- bilavasitə bu sahədə 10900 olmaqla, ümumilikdə, 18900 yeni iş yeri yaradılacaqdır.

Buna nail olmaq üçün 2020-ci ilədək aşağıdakı aralıq hədəflər müəyyən edilmişdir:

- region üzrə tranzit ticarət həcmini artıraraq aşağıdakı göstəricilərə müvafiq pay əldə etmək:
  - Orta Asiya və Qara dəniz marşrutu üzrə 40 faiz;
  - Orta Asiya və Avropa marşrutu üzrə 25 faiz;
  - Çin və Avropa marşrutu üzrə 3 faiz;
  - Rusiya və İran marşrutu üzrə 40 faiz;
  - İran və Qara dəniz marşrutu üzrə 25 faiz.
- layihələrin icrası üzrə monitorinq sistemlərinin qurulması və layihələrin başa çatdırılması;
- logistika və liman xidmətləri də daxil olmaqla, azad ticarət zonasının fəaliyyətinin təşkili;
- Azərbaycanda 5 və ya 6 logistika və ticarət mərkəzinin yaradılması (bu mərkəzlərdən dördü 2020-ci ilədək tamamlanmalıdır). Logistika və ticarət mərkəzinin birbaşa təsiri regional logistika və ticarət qovşağının ümumi təsirinin 20 faizinə bərabər olmalıdır (1.2-ci prioritetə əsasən);
- hava yolları ilə əməliyyatlardan əldə edilən xalis gəlirin 5 faiz artırılması.

[7] Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası
[8] Mənbə: Malların ticarətinə dair BMT-nin məlumat bazası
[9] Mənbə: HIS, Malların ticarətinə dair BMT-nin məlumat bazası

6. STRATEJİ MƏQSƏDLƏR

- Qeyri-neft sektorunun inkişafı üzrə prioritet sahələrdən biri kimi logistika iqtisadiyyatın bütün digər sektorlarının bir-biri ilə əlaqələndirilməsində mühüm amil kimi çıxış edərək, bu sektorların irəliləməsində təkanverici qüvvə rolunu oynayır. Ümumi iqtisadi tərəqqi baxımından logistika sektorunun gücləndirilməsinin labüdlüyü və mövcud potensial nəzərə alınaraq, bu sahədə mühüm hədəflərə nail olmaq qarşıya məqsəd kimi qoyulmuşdur.
- Regionda əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək məqsədilə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə edilməklə, tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması, istehsal və investisiya mərkəzi, eyni zamanda, yeni biznes, məşğulluq və əlavə dəyər imkanları qiymətləndirilərək, ölkənin cəlbediciliyinin artırılması.
- Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində Azərbaycanın rəqabətqabiliyyətliliyini təmin etmək üçün idxal-ixrac əməliyyatlarına və tranzit yüklərin daşınmasına sərf olunan vaxt və xərclər optimallaşdırılmalı, sərhəd-keçid prosedurları sadələşdirilməli və bu sahədə digər vacib addımlar atılmalı, beynəlxalq dəhlizlərboyu yol infrastrukturu genişləndirilməli, yenidənqurma işləri və tikinti layihələri başa çatdırılmalı və beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. Azərbaycan üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması

Ticarət həcminin artırılması məqsədilə Azərbaycanda logistika və ticarət sahəsinin inkişafı istiqamətində bir sıra təşəbbüslərin həyata keçirilməsi, o cümlədən ölkənin regional əhəmiyyətli logistika və ticarət qovşağı kimi aparıcı rolunun təmin edilməsi, üç mühüm infrastruktur layihəsinin başa çatdırılması, logistika və ticarət fəaliyyətinin təkmilləşdirilməsi nəzərdə tutulur.

7.1.1. Prioritet 1.1. Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağı kimi aparıcı mövqeyinin gücləndirilməsi

Əsaslandırma

İki əsas ticarət marşrutu üzərindəki əlverişli mövqeyindən istifadə etməklə, Azərbaycanın mühüm regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək potensialı vardır ki, bu da regional logistika və ticarət gəlirlərində ölkənin payının artırılmasına imkan verəcəkdir.

Şəkil 3. Azərbaycanı əhatə edən 5 ticarət marşrutu üzrə iki əsas dəhliz



1. *İran və Qara dəniz ticarət marşrutuna Türkiyə daxil edilmir.*
2. *2014-cü il üzrə məlumatlardan istifadə edilmişdir.*


Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətdə mövcud olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.

Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası

Şərq-Qərb dəhlizi

Şərq-Qərb dəhlizi 2015-ci ildə yük dövriyyəsi 150 milyon tona bərabər olan əsas ticarət marşrutudur və hazırda bu yük dövriyyəsində Azərbaycanın payı kiçikdir.[10] Şərq-Qərb dəhlizi güclü artım vəd etsə də, Azərbaycan bu marşrutla yükdaşımalar sahəsində Transsibir, Transsibir-Qazaxıstan, Mərkəzi dəhliz və dəniz yolu ilə daşımalar kimi alternativ marşrutlardan güclü rəqabətlə üzləşir. İstənilən halda bu marşrut boyunca ticarətin həcmi böyükdür (şəkil 4). Belə ki, Orta Asiya və Qara dəniz regionunun bu dəhliz vasitəsilə ticarətinin həcmi 2015-ci ildə 9,9 milyon ton olmuşdur və 2020-ci ildə 13,8 milyon tonadək artacağı gözlənilir. 2015-ci ildə Şərq-Qərb dəhlizi boyu Orta Asiya ilə Avropa arasında ticarətin həcmi 38,8 milyon ton olmuşdur və 2020-ci ildə həmin həcmin 56,8 milyon tona çatacağı gözlənilir. Dəhlizboyu Çinlə Avropa arasındakı ticarətin həcmi isə 2015-ci ildə 102 milyon ton olmuşdur və 2020-ci ildə bu göstəricinin 118,7 milyon tona çatacağı proqnozlaşdırılır.

Şəkil 4. Şərq-Qərb dəhlizi üzrə Azərbaycanın rəqabətqabiliyyətliliyi



1. *2020-ci il üçün gözlənilən ticarət axını barədə məlumat verilməmişdir.*
2. *Bu marşrutlar növbəti səhifələrdə verilən xəritələrdə göstərilmişdir.*

Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətdə mövcud olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.

Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası


Şərq-Qərb dəhlizi boyunca Azərbaycan ərazisi Orta Asiyadan Qara dəniz regionuna məsafə baxımından ən qısa marşrutdur. Bakı ilə Tbilisi arasında qoşaxətli dəmir yolu əlaqəsinin, Orta Asiya ilə Azərbaycan arasında dəmir yolu qatarlarının bərə ilə daşınması xəttinin və boru kəmərlərinin mövcudluğu Azərbaycanın bu marşrutda əsas iştirakçı olması üçün bir çox üstünlüklər yaradır.

Azərbaycanın növbəti illərdə iqtisadiyyatında güclü artım olacağı gözlənilən və dənizə çıxışı olmayan Qərbi Çin üçün ticarət dəhlizi açan yeni Böyük İpək Yolunun üzərində yerləşməsi Şərq-Qərb dəhlizi boyunca Çinlə Avropa arasında ticarətdən daha çox faydalanaraq, üstünlük əldə etməsinə imkan yarada bilər. Bununla belə,

[10] Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası

rəqiblərin sayının çox olması bu marşrut üzrə mühüm iştirakçıya çevrilməyi çətinləşdirən əsas amildir. Belə ki, bir çox ölkələr Çinin Avropa ilə transkontinental ticarət həcmindən faydalanmaq məqsədilə investisiya qoyuluşu edirlər. Bu cür investisiyalara Asiya İnfrastruktur İnvestisiya Bankının yaradılması məqsədilə Çinin 20 ölkə ilə saziş bağlaması, Böyük İpək Yolunun fəal iştirakçısına çevrilmək üçün Türkmənistanın, Özbəkistanın, Tacikistanın, Qazaxıstanın və Qırğızıstanın investisiya qoyuluşları, İran-Türkmənistan-Qazaxıstan dəmir yolunun Çinlə birləşdirilməsi aiddir. Azərbaycandan keçən TRASEKA Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi Çinlə Avropa arasındakı beş əsas marşrut arasında ən az istifadə edilən marşrutdur (şəkil 5).


Şəkil 5. Azərbaycanın TRASEKA layihəsi çərçivəsində Çin və Avropa arasındakı ticarət marşrutunda yeri



Mənbə: RETRACK

Ticarətin dinamikası əmtəə növlərindən asılı olaraq əsaslı şəkildə dəyişir, belə ki, konteyner daşımaları maye, quru və ya digər qablaşdırılmamış yük ticarətindən daha cəlbedicidir (şəkil 6). Şərq-Qərb dəhlizi boyunca sistern vaqonlarla daşınan maye yük Orta Asiya ilə Qara dəniz regionu arasındakı yükdaşımaların ümumi həcminin 66,4 faizini, quru yüklər 19,2 faizini, konteyner daşımaları isə 14,4 faizini təşkil edir. Orta Asiya ilə Avropa arasında sistern vaqonlarla daşınan maye yüklər ümumi həcmin 90 faizini, quru yüklərin və konteyner daşımalarının hər biri isə 5 faizini təşkil edir. Çin-Avropa marşrutu konteyner daşımalarının 80 faiz göstərici ilə böyük paya sahib olduğu yeganə marşrutdur.

Şəkil 6. Şərq-Qərb dəhlizi üzrə yükdaşımaların bölgüsü



Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası

Şimal-Cənub dəhlizi

Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsində digər əsas imkan İranı Rusiya və Qara dəniz regionu ilə, Rusiyanı isə Hindistanla birləşdirən Şimal-Cənub dəhlizindən keçən tranzit potensialından faydalanmaqdır. İrana tətbiq edilən sanksiyaların aradan qaldırılması, İranın Hindistan və Avropa ilə nəqliyyat əlaqələrinin bərpası Azərbaycan üçün yeni perspektivlər vəd edir. Astara-Astara dəmir yolu layihəsinin başa çatdırılması Azərbaycana Rusiyanı İranla, həmçinin İranı Avropa ilə və Rusiyanı Hindistanla birləşdirən Şimal-Cənub dəhlizi boyunca öz potensialından tam fayda əldə etmək imkanı verəcəkdir.

Şərq-Qərb dəhlizi ilə müqayisədə, Şimal-Cənub dəhlizi ilə yükdaşımaların həcmi kiçik olsa da, Azərbaycan bu istiqamətdə əsas iştirakçılardandır. Şimal-Cənub dəhlizi boyunca Azərbaycan üçün əsas alternativlər Xəzər dənizi vasitəsilə dəniz daşımaları və qismən də, Türkmənistan və Qazaxıstandan keçməklə, dəmir yolu daşımalarıdır. 2015-ci ildə Şimal-Cənub dəhlizi boyunca Rusiya ilə İran arasında 4 milyon ton yük daşındığı halda, İranla Qara dəniz regionu arasında təxminən 2,3 milyon ton yük daşınmışdır.


Ticarət həcminin nisbətən az olmasına baxmayaraq, Şimal-Cənub dəhlizi ilə ticarət Azərbaycan üçün geniş imkanlar açır. Ticarət sanksiyalarının aradan qaldırılması nəticəsində İranla Hindistan, Rusiya və Avropa ölkələri arasındakı beynəlxalq ticarət həcminin xeyli artması gözlənilir. Hindistan, Rusiya və Avropa arasında ticarət həcmindən faydalanmaq məqsədilə İran donanma və liman infrastrukturuna genişhəcmli investisiya qoyuluşları edir. Bu investisiyalar, əsasən, 2016-cı ilin yanvar ayında 118 hava gəmisinin alınmasını, yüksəktutumlu su nəqliyyatı vasitələrinin sifarişinə dair davamlı danışıqların aparılmasını, Rusiyadan lizinq yolu ilə ən azı 500 yük dəmir yolu vaqonunun alınmasına dair müqavilənin imzalanmasını və İranın qabaqcıl şirkəti ilə Almaniyanın avtomobil istehsalçıları arasında müştərək müəssisələrin yaradılmasını əhatə edir.[11] İranın investisiyaları yalnız hava və dəniz sahəsini deyil, eyni zamanda, dəmir yollarını da əhatə etdiyinə görə, Şimal-Cənub dəhlizini kifayət qədər canlandıracaq və Azərbaycan da bu canlanmadan müəyyən fayda əldə edə biləcəkdir.

Şimal-Cənub dəhlizi boyunca daşınan yüklərin böyük hissəsini quru yüklər təşkil edir və Rusiya ilə İran arasında yükdaşımaların 82 faizi, İranla Qara dəniz

[11] Mənbə: İctimaiyyətə açıq olan nəşrlərin və mətbuatın araşdırılması və müstəqil ekspertlərin hesablamaları

regionu arasındakı ticarətin isə 85 faizi quru yüklərdən ibarətdir (şəkil 7). Konteyner yükdaşımaları Rusiya ilə İran arasındakı ticarət həcminin 16 faizini (2 faizi maye yük olmaqla) təşkil etdiyi halda, maye yüklərin daşınması İranla Qara dəniz regionu arasındakı daşımaların 13 faizini, konteyner daşımaları isə 2 faizini təşkil edir. Bu qeyri-tarazlıq göstərir ki, biristiqamətli daşımaların digər yarısı dəniz daşımalarının payına düşür.

Şəkil 7. Şimal-Cənub dəhlizi üzrə yükdaşımalar bölgüsü




Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası

TRASEKA marşrutu

Azərbaycan ərazisindən TRASEKA marşrutu ilə daşınan ümumi yük həcminin ortaillik artım tempi 2010-2014-cü illər arasında 3 faiz olmuş, tranzit yükdaşımaların həcmində isə 5 faiz azalma müşahidə edilmişdir (şəkil 8). Bu göstərir ki, ümumi artım Azərbaycanın öz yerli istehsal və istehlakı əsasında TRASEKA marşrutunu dəstəkləməsi nəticəsində baş verir. Tranzit yükdaşımaların həcminin azalmasının əsas səbəbləri mövcud nəqliyyat seçimlərinin etibarlılıq səviyyəsinin aşağı, gözlənilən məsrəflərin və vaxt sərfinin yüksək olması ilə əlaqədardır.

Şəkil 8. 2010-2014-cü illər ərzində Azərbaycan ərazisindən TRASEKA xətti ilə daşınan yüklərin azalması *(milyon tonla)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Şərq-Qərb dəhlizindəki alternativlərlə müqayisədə, TRASEKA marşrutu ilə daşınan yük həcminin nisbətən aşağı olmasını şərtləndirən başlıca amil yükgöndərənlərin bu marşrutla müqayisədə daha sürətli və ucuz alternativlərə üstünlük vermələridir. Lakin həm məsafə, həm də qovşaq indeksinin bütün aspektlərinə görə TRASEKA Orta Asiya ticarəti üçün alternativ marşrutlarla müqayisədə optimallaşma potensialına malikdir. Hazırda yükdaşıma həcminin aşağı olmasının əsas səbəbləri məsafəyə görə məsrəflər (o cümlədən vergi, tarif, gömrük rüsumu, təhlükəli yüklərə görə əlavə rüsumlar və s.), qovşaqlardakı vaxt sərfi (sərhəd, liman və dəmir yolu stansiyalarında gözləmə vaxtları da daxil olmaqla) və etibarlılıq səviyyəsi (yüklərin çatdırılma müddətinin və xərclərin proqnozlaşdırılması imkanının aşağı səviyyədə olması) ilə bağlıdır.

Bununla belə, idxala sərf edilən vaxt və xərclər baxımından Azərbaycan TRASEKA marşrutu üzərində yerləşən əksər ölkələrlə müqayisədə daha yaxşı göstəricilərə malikdir. 2010-2014-cü illər arasında Azərbaycan tərəfindən ixraca sərf olunan müddət 7 faiz azalmışdır.[12] Həmçinin Azərbaycan və İran 2010-2014-cü illər ərzində idxal əməliyyatlarına sərf olunan xərclərin azaldılmasına nail olmuşlar. Lakin bu sahədə aparılmış təkmilləşdirmələrə baxmayaraq, göstəriciləri yüksək olan Gürcüstan, Rumıniya, Rusiya və Türkiyə kimi ölkələrlə müqayisədə Azərbaycan hələ də təkmilləşdirmələr apara bilər.

Görüləcək tədbirlər

Tədbir 1.1.1: Beynəlxalq ticarətdə logistika sahəsi üzrə Azərbaycanın hədəflərinin müəyyən edilməsi

Birincisi, beynəlxalq ticarətin genişləndirilməsi məqsədilə logistika sahəsi üzrə hədəflər müəyyən ediləcəkdir. Bu hədəflər yüklərin marşrutu və növləri əsasında təsbit ediləcək və həmin hədəflərə çatmaq üçün zəruri addımlar müəyyənləşdiriləcəkdir. İlk növbədə, İqtisadiyyat Nazirliyindən və digər aidiyyəti qurumlardan müxtəlif iqtisadi fəaliyyət sektorları üzrə sektorial hədəflər və statistik proqnozlar üzrə məlumatlar toplanacaq və bunun əsasında idxal-ixrac əməliyyatlarının ümumi həcmi proqnozlaşdırılacaqdır.

İkincisi, bu Strateji Yol Xəritəsində verilmiş təhlillərdən istifadə edilməklə, növbəti 5-10 il ərzində region üzrə tranzit ticarət əməliyyatları ilə bağlı proqnozlar toplanacaq və təhlilin əhatə dairəsi daha da genişləndiriləcəkdir.

Üçüncüsü, “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin cari imkanları, resursları və təkmilləşdirmə planları barədə məlumatlar əldə ediləcəkdir.

Dördüncüsü, Azərbaycanın logistika və ticarət sahəsi üzrə xüsusi hədəfləri (bütün yüklər və marşrutlar üzrə ticarət həcmləri və s.) və əsas icra göstəriciləri (ixrac-idxal əməliyyatları üzrə xərclər, tranzit və gözləmə müddətləri və s.), xüsusilə vaxt və xərclər baxımından tranzit daşımalarda rəqabətqabiliyyətliliyin təmin edilməsi yolları müəyyən ediləcək və nəhayət, bu hədəflərə nail olmaq üçün boşluqların aradan qaldırılması məqsədilə maliyyə ehtiyaclarının təmin olunması və qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində digər zəruri addımlar atılacaqdır.

[12] Mənbə: Dünya Bankı

Tədbir 1.1.2: Logistika üzrə nəzarət mexanizminin və normativ-hüquqi bazanın təkmilləşdirilməsi

Güclü əlaqələndirmənin qurulması və müəyyən edilmiş hədəflər üzrə irəliləyişə nail olmaq məqsədilə monitorinq mexanizminin təkmilləşdirilməsi nəzərdən keçiriləcəkdir. Daha sonra aidiyyəti dövlət qurumları tərəfindən logistikaya dair mövcud normativ-hüquqi bazanın yenilənməsi, vergi strukturuna dəyişikliklərin edilməsi və stimulların müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlanacaq və aidiyyəti üzrə təqdim ediləcəkdir.

Tədbir 1.1.3: Hədəflərə çatmaq üçün görüləcək mütəmadi tədbirlər və nəticələr barədə məlumatların təmin edilməsi

Növbəti mərhələdə, müəyyən edilmiş əsas icra göstəricilərinə dair məlumatlar toplanaraq, digər dövlət qurumlarına ediləcək təkliflərlə bağlı işlərin gedişatı izlənəcəkdir. Daha sonra bu məlumatlar, o cümlədən məqsədlərin yerinə yetirilməsi rüblük əsasda aidiyyəti qurumların onlayn portallarında yerləşdiriləcəkdir. Hədəflərə nailolma səviyyəsinin təhlili, hədəf və strategiyalara nail olmaq məqsədilə zəruri təkmilləşdirmələrin aparılması istiqamətində mütəmadi tədbirlər görüləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Əsas ticarət marşrutlarına diqqət yetirmək və infrastruktura investisiya qoyuluşları etməklə, bu prioritetin icrası nəticəsində 2020-ci ildə real ÜDM-in 240 milyon manat birbaşa və 140 milyon manat dolayı olmaqla, ümumilikdə, 380 milyon manat artacağı və 5500 yeni iş yerinin açılacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi kimi regiondakı tranzit ticarət həcminin aşağıdakı qaydada artacağı gözlənilir:

- Orta Asiya və Qara dəniz marşrutu üzrə 40 faiz;
- Orta Asiya və Avropa marşrutu üzrə 25 faiz;
- Çin və Avropa marşrutu üzrə 3 faiz;
- Rusiya və İran marşrutu üzrə 40 faiz;
- İran və Qara dəniz marşrutu üzrə 25 faiz.

Birbaşa ÜDM-ə təsirin təhlilinə gəldikdə, Şərq-Qərb və Şimal-Cənub dəhlizləri boyunca ticarətin həcmində illik 7 faiz təbii artımın olacağı proqnozlaşdırılır.

Yükdaşımaların hər kateqoriyasında (konteyner, quru yük, qablaşdırılmamış yük və maye yük) Azərbaycanın iştirakı təmin ediləcəkdir. Regionda mövcud olan cari qiymətlər, o cümlədən limanda əməliyyat xərcləri tranzit yükdaşımaların qiymətinə əlavə ediləcəkdir.

Tələb edilən investisiya

Bu prioritet üçün tələb olunan investisiya vəsaitinin həcmi ölkənin regionda əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi üçün xüsusi əhəmiyyət kəsb edən 1.2-ci, 1.3-cü və 2.3-cü prioritetlər üzrə hesablanmışdır.

Gözlənilən risklər

- Şərq-Qərb dəhlizinə alternativ olan Transsibir, Transsibir-Qazaxıstan və dəniz daşımaları kimi marşrutlarla güclü rəqabət;
- Orta Asiya-Qara dəniz hövzəsi ölkələri arasında ticarət dövriyyəsindəki yük həcminin cəlb edilməsində Azərbaycan üçün İran və Rusiya ərazisindən keçən dəhlizlərin logistika xərcləri baxımından rəqabət üstünlüklərinin olması;

- Şimal-Cənub dəhlizi üzrə daşınan yük həcminin cəlb edilməsində Azərbaycanın risklərinin digər dəhlizlərə nisbətən az olması, əsasən, Xəzər dənizi üzərindən (İran-Rusiya) yükdaşımaların vaxt və xərc baxımından daha yüksək, həmçinin dəniz daşımaları zamanı hava şəraitinin dəyişkən olması ilə əlaqədardır. Bu dəhlizdə yük həcminin nisbətən az olması qoyulacaq investisiyanın effektivliyini aşağı sala bilər.

7.1.2. Prioritet 1.2. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu və Astara-Astara dəmir yolu layihələrinin tamamlanması

Əsaslandırma

Bu üç əsas infrastruktur layihəsinin başa çatdırılması Azərbaycanın beynəlxalq dəhlizlərə inteqrasiyasını gücləndirməklə, mükəmməl intermodal (quru, dəmir yolu və su nəqliyyat növlərinin bir araya gəlməsi) və multimodal əməliyyatlar aparılmasına şərait yaradacaqdır:

1) Ələt qəsəbəsində yeni Bakı Limanı kompleksi iqtisadiyyatın bütün sektorları üçün son dərəcə güclü təkanverici qüvvə rolu oynayan müasir və inteqrasiya edilmiş liman olacaqdır;

2) Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Şərq-Qərb dəhlizinin tərkib hissəsi kimi, yük və sərnişinlərin Azərbaycan ərazisindən Avropaya daşınması üçün yeni qapı rolu oynamaqla, Gürcüstanın Poti və Batumi limanlarından keçən dəhlizlərə alternativ ola bilər;


3) başa çatdırıldıqdan sonra Astara-Astara dəmir yolu marşrutu üzrə yüklərin daşınması Şimal-Cənub dəhlizi boyunca dəniz marşrutu ilə müqayisədə xərclər və vaxt baxımından daha üstün imkanlar təklif edəcəkdir.

Bundan əlavə, yerli avtomobil yolu infrastrukturuna investisiya qoyuluşları əsas layihələrin bir-biri ilə və yerli istehsalla inteqrasiyasını gücləndirəcək, həmçinin hər üç layihənin səmərəliliyini artıracaqdır.

Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksi layihəsinin potensialı

Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksi layihəsi regiondakı mükəmməl dəniz və hava limanı əlaqələri ilə Xəzər dənizində rəqabətli və çoxtəyinatlı liman rolu oynayacaqdır. Xəzər dənizi hövzəsində yerləşən çoxsaylı limanlar arasında bu yeni Bakı Limanı kompleksi ən böyük liman olacaq (şəkil 9) və tikintisi tamamlandıqdan sonra ümumi illik yükaşırma həcmi 25 milyon ton və 1 milyon TEU (20 futluq konteyner) təşkil edəcəkdir. Yeni Bakı Limanı kompleksi maye və quru yüklərin, qablaşdırılmamış digər yüklərin, avtomaşınlarla daşınan və konteyner yüklərinin aşırılmasını həyata keçirə biləcək, həmçinin həcmi 10 Kt, suya oturma qabiliyyəti 7 metr, uzunluğu isə 160 metr olan bərələrə xidmət göstərmək imkanına malik olacaqdır. Tam istismara verildikdə yeni Bakı Limanı kompleksi həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizlərinin təklif etdiyi imkanlardan istifadə etmək baxımından mühüm əhəmiyyətə malik olacaqdır (bu barədə 1.1-ci prioritetdə bəhs edilmişdir). Yeni Bakı Limanı həm də Azərbaycanda ilk azad ticarət zonasının tərkib hissəsi olacaqdır (bu barədə 2.1-ci prioritetdə bəhs edilmişdir).

Şəkil 9. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı Xəzər dənizində 12 böyük limandan biri kimi



1. Bərə və konteynerlə ticarəti nəzərdə tutan 2 məntəqədə tikilməkdə olan liman

Mənbə: "Azərbaycan Mərkəzi Avrasiyada regional qovşaq kimi" nəşri (2012-ci il), müvafiq ölkələrin dövlət qurumları tərəfindən açıqlanmış məlumatların və mətbuatın araşdırılmasına əsaslanır.

Yeni Bakı Limanı rəqabətqabiliyyətli liman qovşağı üçün tələb olunan hər üç əsas amili özündə birləşdirəcəkdir: səmərəlilik, əlverişli mövqe və əlavə dəyər yaradan xidmətlər.

Səmərəlilik. Hazırkı Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə müqayisədə Ələt qəsəbəsindəki yeni Bakı Limanı kompleksinin müasir informasiya texnologiyaları sistemləri və müvafiq avtomatlaşdırma vasitələri ilə təchizatı nəticəsində səmərəlilik artacaqdır.

Əlverişli mövqe. Yeni Bakı Limanı Rusiya, İran və Avropa ilə dəmir yolu xətlərinin kəsişməsində yerləşir, eləcə də əsas avtomobil magistrallarına birbaşa çıxışı vardır. Həmçinin hava yükdaşımaları üçün Heydər Əliyev Beynəlxalq Aeroportuna yaxındır. Eləcə də yeni Bakı Limanı kompleksinin coğrafi mövqeyi ölkənin hazırkı limanlarından daha əlverişlidir. Belə ki, Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı və mövcud Bakı Limanı yüklərin xərclər və vaxt baxımından daha səmərəli şərtlərlə Türkmənbaşı və Aktau limanlarına bərə, quru yük gəmiləri və Ro-Ro (təkərli texnika daşıyan gəmi) xətti ilə daşınmasına şərait yaradır.


Əlavə dəyər yaradan xidmətlər. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksində ümumi logistika xidmətlərinin və əlavə dəyər yaradan digər xidmətlərin də (qablaşdırma, yığılma, təkrar istehsal və s.) göstərilməsi, müxtəlif nəqliyyat növlərinin bir araya gətirildiyi qurğuların, açıq və qapalı saxlama meydançasının, quru və soyuq anbarların, konteyner meydançasının və "TIR" avtomobil parkının təklif edildiyi logistika mərkəzi kimi xidmətlərin təmin edilməsi hədəflənir. Azad ticarət zonasının fəaliyyətinin təşkili Azərbaycanın ticarət həcminə əlavə dəyər qatacaqdır (bu barədə 2.1-ci prioritetdə daha ətraflı bəhs olunmuşdur).

Yeni Bakı Limanı üç mərhələdə tamamlanacaqdır: birinci mərhələnin maliyyələşdirilməsinin böyük hissəsi dövlət büdcəsinin vəsaitinə əsaslanır. Bu mərhələ üzrə işlərin 60 faizi 2016-cı ilin iyul ayında tamamlanmışdır və bu mərhələnin

2017-ci ildə başa çatdırılaraq, limanın 10-11,5 milyonluq quru və ümumi yük, 40000-50000 TEU konteyner yükü tutumuna malik olması gözlənilir (şəkil 10).

Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksindəki logistika və ticarət mərkəzində, eləcə də azad ticarət zonasında yalnız yük həcminin artırılması deyil, eyni zamanda, xarici investorların cəlb edilməsi də nəzərdə tutulur. Yeni Bakı Limanı kompleksinin ikinci və üçüncü mərhələlərinin başa çatdırılması üçün dövlət-özəl tərəfdaşlığı modelindən istifadə ediləcəkdir (şəkil 10). Tamamlandıqdan sonra yeni Bakı Limanı 25 milyon ton ümumi yük, eləcə də 1 milyon TEU konteyner yükü aşırma gücünə malik olacaqdır. Yeni Bakı Limanı həm də Azərbaycanda konteynerlərlə yüklərin qəbul edilib yola salınması işində ciddi artıma təkan verəcəkdir. 2020-ci ilədək bu həcmin 150000 TEU olması gözlənilir ki, bu da Azərbaycanın konteyner logistika zəncirinin inkişafının xüsusi diqqət mərkəzində saxlanılmasını zəruri edir.

Şəkil 10. Yeni Bakı Limanı kompleksinin inkişaf planı




Mənbə: "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC

Bakı-Tbilisi-Qars dəmir yolu

Şərq-Qərb dəhlizinin əsas alternativi olan Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu Azərbaycan ərazisindən yükdaşımaların həcmini xeyli artıracaqdır. Gürcüstanın Poti və Batumi limanlarına alternativ kimi Bakı-Tbilisi-Qars dəmir yolu Aralıq dənizindəki limanlara və Avropa bazarlarına fasiləsiz çıxışı təmin edərək (şəkil 11), Şərq-Qərb dəhlizi boyunca əlaqəni yaxşılaşdıracaq və 1.1-ci prioritetdə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə şərait yaradacaqdır. Bakı-Tbilisi-Qars dəmir yolunun ilkin mərhələdə yükdaşıma gücü təxminən 6,5 milyon ton olacaq və son nəticədə bu göstərici 17 milyon tona çatdırılacaqdır. Dəmir yolunun Gürcüstan ərazisindən keçən hissəsinin bərpası və yeni 30 kilometrlik dəmir yolunun inşası məqsədilə Azərbaycan tərəfindən Gürcüstana 775 milyon ABŞ dolları məbləğində güzəştli kredit ayrılmışdır. Dəmir yolunun Türkiyə və Azərbaycan ərazisindən keçən hissələrinin tikintisi müvafiq olaraq həmin dövlətlər tərəfindən maliyyələşdirilir.

Şəkil 11. Bakı-Tbilisi-Qars dəmir yolu Aralıq dənizi sahillərinə və Avropaya açılacaq qapı kimi




Mənbə: Türkiyə Respublikası Dövlət Dəmir Yolları, Gürcüstan Dəmir Yolları, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və ekspertlər ilə görüşlər

Avropaya gedən mövcud alternativlərlə müqayisədə bu marşrut üzrə Bakıdan Aralıq dənizinə yüklərin daşınması müddətinin 10-20 faiz azalacağı təxmin edilir. Həmçinin Bakı-Mersin-Suda marşrutu üzrə irihəcmli qablaşdırılmamış quru yükün (məsələn, buğda) daşınması zamanı yeni Bakı Limanından istifadə xərclərinin 5-10 faiz aşağı olacağı gözlənilir. Bakı-Tbilisi-Qars dəmir yolu üzrə daşınacaq yüklərin tranzit müddətinin və daşınma xərclərinin daha da yaxşılaşdırılması potensialı ilə yanaşı, bu marşrut aşağıdakı üç amil sayəsində Azərbaycana daha böyük yük axınının cəlb edilməsi üçün vacib ilkin şərtləri təmin edəcəkdir: bu dəmir yolu Avropaya ixracın artırılması üçün əlavə imkan yaradacaq, alternativlərin olması çatdırılma risklərinin daha yaxşı idarə edilməsinə şərait yaradacaq və Türkiyədən Orta Asiya ölkələrinə ixrac üzrə əlavə marşrut çevikliyi təmin ediləcəkdir.

Astara-Astara dəmir yolunun dəniz marşrutuna nisbətən üstünlükləri

İranla Rusiya arasında ticarət əlaqələri, əsasən, dəniz və avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir. Astara-Astara dəmir yolu xəttinin istismara verilməsi xərc və vaxt baxımından Şimal-Cənub dəhlizinin rəqabətqabiliyyətliliyini artırmaqla, yüklərin yeni marşruta fasiləsiz çıxışını təmin edəcəkdir. Bununla bərabər, bu yeni dəmir yolu əlaqəsi İranla Rusiya arasındakı dəniz daşımalarının həcmini azaldacaq və yük avtomobillərinin dövlət sərhədlərindən keçidini nisbətən asanlaşdıracaqdır (şəkil 12).

Şəkil 12. Astara-Astara layihəsinin dəniz marşrutu ilə müqayisəsi




Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətdə mövcud olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.

Mənbə: İran Dəmir Yolları, Rusiya Dəmir Yolları və müstəqil ekspertlərin hesablamaları

Xəzər dənizinin dərinliyinin az olması, hava şəraiti səbəbindən Xəzər dənizi ilə yükdaşımalarda yaranan gecikmələr, Azərbaycanda yük avtomobillərində bir oxa düşən yük həddinin və tullantılar üzrə normaların digər ölkələrdən fərqli olması və s. problemlərin aradan qaldırılmasında dəmir yolu daşımaları mühüm rol oynayır. Qablaşdırılmamış quru yüklərin dəmir yolu ilə daşınması avtomobil nəqliyyatı ilə daşınma ilə müqayisədə üç dəfəyə qədər ucuz başa gəlir, dəniz daşımaları ilə müqayisədə isə həm vaxt, həm də xərc baxımından daha səmərəlidir (şəkil 12). Nəticə etibarilə, dəmir yolu ilə daşınma Rusiya və İran arasında ticarət baxımından ən üstün alternativdir və dəniz nəqliyyatı ilə daşınan yüklərin böyük bir hissəsi dəmir yolu ilə daşınmalara cəlb edilə bilər. Hazırda İrandan Rusiyaya yükdaşımalar, əsasən, dəniz yolu ilə, Rusiya-İran istiqamətində daşınmalar isə əsasən, quru yolu ilə həyata keçirilir (şəkil 13).

Şəkil 13. İran ilə Rusiya arasında yükdaşımalar *(2015-ci il üzrə, milyon tonla)*




Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətdə mövcud olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.

Mənbə: Rusiya Dövlət Statistika İdarəsi, İHS

Bundan əlavə, İranla Qara dəniz ölkələri arasındakı dəniz ticarətinin bir qismi də dəmir yolu üzrə yükdaşımalara cəlb edilə bilər. 2014-cü ildə İranın Ukrayna ilə ümumi ticarət dövriyyəsinin həcmi 756 milyon ABŞ dolları, Bolqarıstanla 155 milyon ABŞ dolları, Moldova və Rumıniya ilə birlikdə 120 milyon ABŞ dolları təşkil etmişdir. Bu ticarətin böyük hissəsi dəniz daşınmaları ilə həyata keçirilmiş, Ukrayna ilə ticarətdə müəyyən qədər quru nəqliyyatından, Bolqarıstan, Moldova və Rumıniya ilə ticarətdə isə çox məhdud şəkildə hava nəqliyyatından da istifadə olunmuşdur[13].

Hazırda İranla Qara dəniz regionu arasındakı ticarət əməliyyatlarını, əsasən, qablaşdırılmamış quru yüklərin daşınması təşkil edir və onların Astara-Astara dəmir yolu marşrutu ilə daşınması xərc baxımından səmərəli ola bilər (şəkil 14). 2014-cü ildə Qara dəniz regionundan İrana 2,2 milyon ton həcmində qarğıdalı, bitki yağı, arpa və digər dənli bitkilər, İrandan Qara dəniz regionuna isə, əsasən, gübrə ixrac edilmişdir.

Şəkil 14. İran ilə Qara dəniz regionu arasında quru yük ticarəti *(2014-cü il üzrə, milyon tonla)*



1. *Metal, ağac və avadanlıqlar*
2. *Şüşə məmulatları, kimyəvi maddələr və məhlullar*

Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətdə mövcud olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.

Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası

Astara-Astara dəmir yolu marşrutu üzrə planlaşdırılan daşınma həcmi ilkin mərhələdə 3 milyon tondur, lakin nəzərdə tutulmuş layihələrin (Astara-Astara dəmiryol xəttinin tikintisi, Astara-Rəşt dəmiryol xəttinin birləşdirilməsi, Astara-Yalama dəmiryol xəttinin təqribən 290 km hissəsinin təmiri və yenidən qurulması və bu xətt üzrə avtomatlaşdırma və siqnalizasiya sisteminin təkmilləşdirilməsi) başa çatdırılmasından sonra, eləcə də region ölkələrinin iqtisadi vəziyyətindən asılı olaraq 20 milyon tona qədər artırıla bilər.[14] Buna müvafiq olaraq, dəmir yolunun İran ərazisindən keçən hissəsinin tikintisinin sürətləndirilməsi məqsədilə müxtəlif imkanlar nəzərdən keçiriləcəkdir. Belə ki, dəmir yolu layihəsinin Rəşt-Astara hissəsinin tikintisinin maliyyələşdirilməsində Azərbaycan tərəfindən də səylərin göstərilməsi buna misal ola bilər.

[13] Mənbə: IHS və Malların ticarətinə dair BMT-nin məlumat bazası

[14] Mənbə: "Azərbaycan Dəmir Yolları" QSC

Görüləcək tədbirlər

Tədbir 1.2.1: Üç əsas layihənin icrasına nəzarət edilməsi və yaranacaq yeni problemlərin həllinə dəstək göstərilməsi

Yuxarıda qeyd edildiyi kimi, üç infrastruktur layihəsinin başa çatdırılması Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub dəhlizləri boyunca ticarətdən faydalanmaq imkanlarını kifayət qədər artıracaqdır. Aidiyyəti dövlət orqanlarının əməkdaşlığı çərçivəsində həm Azərbaycanda, həm də layihələr üzrə tərəfdaş ölkələrdə işlərin gedişatının izlənilməsi məqsədilə, bu üç əsas layihənin hər biri üçün xüsusi monitorinq sistemi yaradılacaqdır. Monitorinq sistemi, həmçinin layihələrin müxtəlif mərhələlərində maliyyə vəsaitinin təmin edilməsi və istifadəsinə nəzarəti əhatə edəcəkdir.

Tədbir 1.2.2: Bu sahədə özəl sektorun iştirakının qiymətləndirilməsi

Aidiyyəti qurumlar layihələrin yerli və beynəlxalq komponentlərinin maliyyələşdirilməsi məqsədilə zəruri maliyyə vəsaitinin təmin edilməsi ilə bağlı müvafiq tədbirləri nəzərdən keçirəcəklər. Layihələrin maliyyələşdirilməsi üzrə hər hansı dövlət vəsaitinin ayrılmasından əvvəl zəruri və əlavə maliyyə vəsaitlərinin özəl sektorun iştirakı ilə "Tik-idarə et-təhvil ver" kimi mexanizmlər vasitəsilə təmin edilməsi imkanları qiymətləndiriləcək və aidiyyəti qurumlar tərəfindən birgə təkliflər hazırlanacaqdır.

Tədbir 1.2.3: Üç əsas layihənin həyata keçirilməsi üzrə monitorinq sistemi qurmaqla, vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarətin həyata keçirilməsi

Monitorinq sistemi əsasında layihələrin mümkün qədər tez başa çatdırılması məqsədilə layihə üzrə aparılan işlərin gedişatı izlənəcək və qarşıya çıxan maneələrin aradan qaldırılması ilə bağlı tədbirlər görüləcəkdir. Buraya, həmçinin layihələr başa çatdırıldıqdan sonra əməliyyat göstəriciləri üzrə monitorinqin təmin edilməsi, fəaliyyət həcminin genişləndirilməsi müddətində yarana biləcək problemlərin aradan qaldırılması, marşrutlar vasitəsilə daşınacaq yüklərin prioritetliliyinin sistemli qaydada nəzərdən keçirilməsi, daşıma həcminin yeni marşrutlara yönəldilməsinə beynəlxalq logistika şirkətlərinin cəlb edilməsi və rəqabətliliyin artırılması ilə bağlı islahatlar aparmaqla, onların biznes fəaliyyətinin əlverişliliyi üçün zəruri şəraitin yaradılması da daxildir.

Tədbir 1.2.4: Əsas icra göstəricilərinin müəyyən edilməsi

Bu layihələr başa çatdırıldıqdan sonra aidiyyəti qurumlar tərəfindən marşurtlardan istifadəyə dair əsas icra göstəriciləri müəyyən edilməklə, əməliyyat göstəriciləri izlənilməcək və fəaliyyət həcminin genişləndirilməsi ilə bağlı yarana biləcək problemlərin aradan qaldırılması istiqamətində tədbirlər görüləcəkdir.

Tədbir 1.2.5: Sahə üzrə təhlillərin aparılması və həmin təhlillər əsasında yeni hədəflərin müəyyən edilməsi

Növbəti mərhələdə, aidiyyəti qurumlar tərəfindən sözügedən layihələrin təsir etdiyi marşrutlar üzrə tranzit yük axınları və yük axınlarının həcmindəki dəyişikliklər ilə bağlı müntəzəm təhlillər aparılacaq və sahə üzrə yeni hədəflərin müəyyən edilməsində bu təhlillərdən istifadə ediləcəkdir. Güclü tərəflərin və imkanların qiymətləndirilməsi "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin işinə kömək edəcəkdir. Hər iki təhlil əsasında yeni marşrutlar üzrə yükdaşımaların həcminin artırılmasının təşviqi məqsədilə beynəlxalq investorlar və logistika şirkətləri dəvət ediləcəklər.

Gözlənilən nəticə və nəticə indikatorları

Regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək üçün artıq planlaşdırılmış, qismən icra edilmiş və tamamlanması mühüm əhəmiyyət kəsb edən üç layihə mövcuddur. Bu layihələrə Ələtdə yerləşən yeni Bakı Limanı kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu və Astara-Astara dəmir yolu aiddir.

Layihələrin 2020-ci ildə real ÜDM-ə birbaşa və dolayı təsiri 1.1-ci prioritetdə hesablanmışdır. Bu layihələr Azərbaycanın regionda əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək planının əsasında durur. Bu layihələrin tamamlanması ilə 6700 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi layihələrin icrası üzrə monitorinq sistemlərinin qurulması və layihələrin başa çatdırılması olacaqdır.

Bu prioritetin ÜDM-ə və məşğulluğa təsiri və investisiya tələbləri hesablanarkən, illik ticarət həcmi yeni Bakı Limanı kompleksi üzrə 20 milyon ton, Bakı-Tbilisi-Qars dəmir yolu üzrə 10 milyon ton, Astara-Astara dəmir yolu üzrə 15 milyon ton götürülmüşdür. Dəmir yollarına qoyulan cəmi investisiya məbləğinin yalnız həmin dəmir yollarının Azərbaycandan keçən hissəsinə aid olan qismi nəzərdə tutulmuşdur.

Tələb edilən investisiya

Davam edən bu layihələr üçün 1 milyard 200 milyon manat investisiya vəsaitinin tələb ediləcəyi proqnozlaşdırılır və investisiya tələbinin dəqiqləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırmaların aparılması zəruridir.

Gözlənilən risklər

Qeyd edilən hər 3 layihənin başa çatdırılmasında baş verə biləcək ləngimələr dəhlizin etibarlılığını aşağı salmaqla, əlavə yüklərin cəlb olunmasının da qarşısını ala bilər. Eyni zamanda, Xəzər dənizi hövzəsi limanlarının regionda əhəmiyyətli ticarət və logistika qovşağına çevrilmək iddiaları da nəzərə alınmalıdır.

Xəzər dənizinin dərinliyinin az olması, buradakı gəmilərin yükgötürmə qabiliyyətinin (xüsusən konteyner gəmiləri) aşağı olması, hava şəraitinə görə gecikmə hallarının başvermə ehtimalı, avtomobillərdə bir oxa düşən yük normasının digər ölkələrlə müqayisədə fərqli olması və s. ilə bağlı olan maneələr əsas risk faktorları ola bilər.

7.1.3. Prioritet 1.3. Logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi

Əsaslandırma

İnfrastruktura investisiya qoyuluşları nəticəsində Azərbaycanın alternativ marşrutlarla müqayisədə rəqabətqabiliyyətliliyi artsa da, ölkənin logistika şəbəkəsinin potensialından tam istifadənin təmin olunması məqsədilə müxtəlif sahələr üzrə əksər əməliyyat göstəricilərinin yaxşılaşdırılmasına daim diqqət yetirilməsi tələb olunur. Bir sıra potensial çatışmazlıqları aradan qaldıraraq, eləcə də diqqəti xərclər və vaxt baxımından rəqabətqabiliyyətliliyin artırılmasına, habelə tranzit ticarətinin etibarlılığının gücləndirilməsinə yönəltməklə, ölkədə müxtəlif nəqliyyat növləri və vasitələrini əhatə edən logistika əməliyyatlarının yaxşılaşdırılması üzrə təşəbbüslər davam etdiriləcəkdir.

Limanda yüklərin aşırılmasına sərf olunan vaxtın azaldılması və gəmilərin yükgötürmə qabiliyyətinin artırılması


Yükgötürmə qabiliyyətinin artırılması ilə bağlı multimodal nəqliyyat əməliyyatlarında prioritet sahə kimi limanda yüklərin aşırılmasına sərf olunan vaxtın azaldılması və gəmi əməliyyatlarının təkmilləşdirilməsi nəzərdə tutulur. Şərq-Qərb

dəhlizi boyunca Potidən Çinə olan marşrutu nümunə kimi götürdükdə, Azərbaycanın əməliyyat göstəricilərinin ölkənin ticarət tərəfdaşlarının göstəricilərinə uyğun olduğunu görürük. Daşınan tranzit yüklərin Azərbaycanda qalma müddəti 106-118 saat [15] təşkil edir ki, bunun da dəmiryol vaqonları üzrə 6-8 saatı[16], konteynerlər üzrə isə 9-11 saatı[17] limanda yükləmə-boşaltma əməliyyatlarına sərf olunur.

Azərbaycanın liman infrastrukturundan əlavə, digər qonşu ölkələrin də limanlarının inkişafı ölkədə logistika sahəsi üzrə göstəricilərin yaxşılaşdırılmasına töhfə verə bilər. Buna görə də, ümumilikdə, əməliyyat göstəricilərinin yaxşılaşdırılması məqsədilə Azərbaycanla başqa ölkələr arasında əməkdaşlıq və əlaqələndirmə imkanları müəyyən ediləcəkdir. Məsələn, Poti limanında infrastrukturun yaxşılaşdırılması Azərbaycanın da logistika üzrə göstəricilərinin yaxşılaşdırılmasına şərait yaradacaqdır. Bundan əlavə, Aktau (Qazaxıstan) və Türkmənbaşı (Türkmənistan) limanlarında aparılan bəzi təkmilləşdirmələr Azərbaycan üçün də faydalı ola bilər. Buraya gömrük prosedurlarının təkmilləşdirilməsi, texnoloji nailiyyətlər hesabına liman imkanlarının genişləndirilməsi və infrastrukturun modernləşdirilməsi, eləcə də proqnozlaşdırma səviyyəsinin yüksəldilməsi və yüklərin aşırılması mərhələsində gözləmə vaxtının azaldılması daxildir. Hər iki limanda aşkaretmə və izləmə sistemlərinin təkmilləşdirilməsi və logistika xidmətlərinin keyfiyyət və kəmiyyət göstəricilərinin yüksəldilməsi də Azərbaycan üçün faydalı olacaqdır.

Azərbaycanda və ölkə xaricində liman əməliyyatları ilə yanaşı, gəmilərin yükgötürmə qabiliyyəti əsas çətinliklərdən biridir. Hazırda Azərbaycanın Xəzər dənizindəki ticarət donanmasında təxminən 363 min ton yük tutumuna malik 64 gəmi olsa da, konteynerdaşıma tutumu məhdud olduğu üçün (şəkil 15) konteyner daşıma ticarətini artırmaq məqsədilə mövcud tutumun artırılmasına ehtiyac vardır.

Şəkil 15. Gəmilərin mövcud konteyner tutumu



1. *40 futluq konteynerlər üçün*

Mənbə: "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

Hazırda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin nəqliyyat donanmasında tankerlər, universal quru yük gəmiləri, gəmi-bərələr və Ro-Ro tipli gəmilər mövcuddur. Nəqliyyat donanmasında olan bəzi gəmilər faydalı istismar

[15] Mənbə: RETRACK

[16] Mənbə: "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC

müddətini (25 il) artıq başa vurmuşdur və onların yeniləri ilə əvəz olunması tələb olunur. Belə ki, beynəlxalq səviyyədə tanınmış şirkətlər tərəfindən gəmilər icarəyə götürülərkən istismar müddəti 15 ilədək olan, texniki vəziyyəti mükəmməl olan, beynəlxalq dənizçilik konvensiyalarının bütün tələblərinə cavab verən gəmilərə üstünlük verilir və bu halda istismar müddətini artıq başa vurmuş gəmilər yükdaşımalara cəlb edilmirlər.

Regionda həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi, Ələt qəsəbəsindəki yeni Bakı Limanı kompleksinin inşası, azad ticarət zonasının fəaliyyətinin təşkili və digər irimiqyaslı strateji layihələrdən səmərəli istifadə Şərq-Qərb və Şimal-Cənub istiqamətində gəmiçiliyin fəaliyyəti ilə sıx əlaqəlidir. Bu səbəbdən yeni və güclü imkanlara malik donanmanın olması zəruridir və gəmiçilik donanmasında yeni tələblərə cavab verən tankerlərin, universal quru yük gəmilərinin, bərələrin, Ro-Ro tipli gəmilərin və konteynerdaşıyan gəmilərin olması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycandan keçən marşrutların rəqabətqabiliyyətliliyinin artırılmasında əsas məqsəd xərclərin, sərf olunan vaxtın və etibarlılığın optimallaşdırılmasından ibarətdir. Logistika sahəsində fəaliyyət göstəricilərinin yaxşılaşdırılmasının bir neçə yolu vardır: limanda yüklərin qəbul edilib yola salınmasına sərf olunan vaxtın azaldılması və gəminin yük tutumunun artırılması; dəmir yolu relsləri arasındakı məsafə fərqi ilə bağlı məsələnin həlli istiqamətində irəliləyişlərə nail olunması; yüklərin çəkisi ilə bağlı tənzimləyici tələblərin asanlaşdırılması; vergilərin, tariflərin və rüsumların uzlaşdırılması; xərclərin azaldılması; eləcə də xərclərin azaldılması üçün yük avtomobillərindən, qatarlardan və gəmilərdən daha çox istifadənin təmin edilməsi. Diqqət tələb edən bir neçə sahə məlum olsa da, Azərbaycanda bu məqsəd və vəzifələri həyata keçirmək üçün atılacaq dəqiq addımların müəyyən edilməsi məqsədilə geniş təhlillərin aparılmasına ehtiyac vardır.


Logistika sahəsində çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi baxımından, Azərbaycanın, maraqları gözlənilməklə, BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının "Quru limanları üzrə Hökumətlərarası Saziş"inə qoşulması məsələsi də nəzərdən keçirilə bilər.

Dəmir yolu relsləri arasındakı məsafə fərqi ilə bağlı təkmilləşdirmə

1.2-ci prioritetdə qeyd edilən yeni layihələr ölkələrarası əməliyyatların səmərəliliyinin yaxşılaşdırılması məqsədilə relslər arasındakı məsafə fərqi olan dəmir yollarından istifadə imkanlarını genişləndirəcəkdir. Buraya Türkiyə-Gürcüstan sərhədində Bakı-Tbilisi-Qars dəmir yolu üzərində və İran-Azərbaycan sərhədində Astara-Astara dəmir yolu üzərində qatarların təkərlərinin dəyişdirilməsi də aiddir (şəkil 16). Beynəlxalq araşdırmalar göstərir ki, vaqonların təkərlərinin dəyişdirilməsi üçün 35 saatadək[17] vaxt tələb olunur ki, bu da, bir qayda olaraq, növbədə dayanmağa, yükləməyə, boşaltmaya və ya gömrük rəsmiləşdirilməsinə sərf olunan vaxtdan daha çoxdur. İşin çevik icrasının təmin edilməsi məqsədilə Azərbaycanın cari dəmiryol layihələrində qatarların təkərlərinin dəyişdirilməsi məsələsinin qiymətləndirilməsi ilə bağlı müfəssəl texniki-iqtisadi əsaslandırmanın aparılmasına ehtiyac vardır.

[17] Mənbə: Dəmir Yolu Əməkdaşlıq Təşkilatı və Asiya İnkişaf Bankı

Şəkil 16. Yeni layihələrdə relslər arasındakı məsafə fərqinin daşınma əməliyyatlarının effektivliyinə təsiri




Mənbə: "The World Factbook"

Dəmir yolu ilə bağlı olan təşəbbüslər qovşaq prioritetindən bəhrələnmək və yükləmə vaxtına görə gecikmələrin qarşısını almaq üçün blok qatarlarına aid stimulların yaradılmasını əhatə edə bilər. Hazırda yeni dəmir yolu layihələrində relslər arasındakı məsafə fərqinin aradan qaldırılması ilə bağlı mənfəət-zərər təhlili aparılır və bu təhlillər nəticəsində daha mənfəətli və səmərəli həll yolu seçiləcəkdir.

Nəqliyyat vasitələrinin çəkisi ilə bağlı normativ tələblərin yüngülləşdirilməsi

Quru nəqliyyatı sahəsində hazırda Azərbaycanda TRASEKA marşrutu üzrə hərəkət edən yük maşınları üçün bir oxa düşən kütlə parametrlərinə dair ciddi tələblər qoyulur (şəkil 17). Bu isə yükdaşıma şirkətlərini Azərbaycan marşrutundan istifadə etməkdən çəkindirə bilər. Məsələn, Türkiyə-Gürcüstan-Rusiya-Qazaxıstan marşrutu üzrə yük maşınları 44 ton yük götürə bildiyi halda, Azərbaycanda yüklər üçün tətbiq edilən 38 ton məhdudiyyətinə görə maşınlar Türkiyə-Gürcüstan-Azərbaycan-Qazaxıstan marşrutu ilə 38 ton yük daşıya bilir.

Şəkil 17. Yük maşınlarında bir oxa düşən kütlə parametrlərinə dair tələblərin müqayisəsi *(tonla)*



1. *40 futluq konteynerlər üçün (əks halda 40 ton)*
2. *Avtoqatar üçün*
3. *Yükgötürmə üzrə məhdudiyyətlər*

Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətdə mövcud olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.


Mənbə: IRU, Michelin

Ölkə ərazisindən daha çox tranzit daşımaların həyata keçirilməsi məqsədilə bir oxa düşən kütlə parametrləri üzrə hədlərin artırılması və yüklərin daşınma xərclərinin azaldılması ilə bağlı təşəbbüslər nəzərdən keçiriləcəkdir.

Digər mümkün təkmilləşdirmələr

TRASEKA marşrutu ilə Azərbaycandan keçməklə yüklərin daşınması zamanı sərhəd-keçid məntəqələrində sərf edilən vaxt müddəti və tranzit xərci beynəlxalq yükdaşıma şirkətlərini bu marşrutdan istifadədən nisbətən çəkindirir (şəkil 18). Lakin hazırda ölkədə logistika sahəsindəki çatışmazlıqların davamlı olaraq aradan qaldırılması üçün səmərəli nəqliyyat əlaqələrinin asanlaşdırılması məqsədi daşıyan "yaşıl dəhliz" təcrübəsi tətbiq olunur.

Şəkil 18. TRASEKA və digər marşrutların müqayisəli təhlili



1. *Qovşaqlar sərhəd, liman, terminal və ya mərkəzləri ehtiva edir.*

Mənbə: TRASEKA, RETRACK, Dünya Bankı

Azərbaycan ilə TRASEKA marşrutu boyunca yerləşən digər ölkələr arasında əməkdaşlıq yolu ilə, TRASEKA marşrutu boyu dəmir yolları üzrə vaxt itkisinin və səfər xərclərinin minimuma endirilməsi, tranzit münasibətlərinin təkmilləşdirilməsi, o cümlədən müxtəlif birliklərin və ya komissiyaların yaradılması məsələsi nəzərdən keçirilə bilər. Məsələn, hazırda TRASEKA marşrutu boyunca yerləşən ölkələrin sərhədlərində avtomobil hissə və aksesuarlarının daşınması üçün 22 adda müxtəlif sənəd tələb olunur ki, bu sənədlərin də sayı Türkiyədə 13, Gürcüstan və Azərbaycanda isə 5-dir. Birliklər və ya komissiyalar yaradılacağı təqdirdə, tranzit mallar üçün tariflər sərhədlər üzrə standartlaşdırıla və ölkələr arasında idarəetmənin əlaqələndirilməsi yükü azaldıla bilər. Məsələn, hazırda gömrük rəsmiləşdirilməsi zamanı bir konteyner üzrə bir sənəd deyil, konteynerin içində olan məhsul növlərinin sayı qədər gömrük sənədi tələb edilir.

Ölkələrarası ticarətlə bağlı təşəbbüs və təkmilləşdirmələr həyata keçirilərkən, həmin ölkələrdə müvafiq sənədlərin məzmunu və sektorlar üzrə fərqliliyi prizmasından qiymətləndirmələr də aparılacaqdır. Bu zaman tələb olunan sənədlərin mürəkkəbliyi və hazırlanması üçün kifayət qədər çox vaxtın tələb edildiyi nəzərə alınmalıdır.

Görüləcək tədbirlər

Tədbir 1.3.1: Avtomobil nəqliyyatı infrastrukturu ilə bağlı əlavə tədbirlərin görülməsi

Avtomobillərin yükgötürmə çəkisi ilə bağlı normativ tələblərə dəyişiklik edilməsi zərurəti nəzərə alınaraq, Azərbaycanda avtomobil yollarının, körpü və tunellərin yükgötürmə imkanları qiymətləndiriləcək və prioritet marşrutlarda yük hədlərinin artırılması məqsədilə reabilitasiya layihələri nəzərdən keçiriləcəkdir.

Tədbir 1.3.2: Logistika və ticarət sahəsində xarici ekspertlərlə əməkdaşlıq edilməsi

Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası, öz Əsasnaməsinə müvafiq olaraq, logistika sahəsində həcm və dəyər artımı baxımından irəliləyişə nail olmaqda qarşıya çıxan əsas çatışmazlıqların müəyyən edilməsi məqsədilə xarici ekspertlərlə əməkdaşlıq edəcəkdir.

Tədbir 1.3.3: Çatışmazlıqların müəyyən edilməsi və həlli yollarının prioritetləşdirilməsi

İlk olaraq, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası aidiyyəti şirkət və dövlət qurumları ilə məsləhətləşərək xarici ekspertlər tərəfindən müəyyən edilmiş çatışmazlıqları qiymətləndirəcəkdir. İkincisi, həmin problemlər həll imkanlarının asanlığı, xərclərin azlığı və potensial təsirlər baxımından prioritetləşdiriləcəkdir. Üçüncüsü, müvafiq vaxt müddəti ərzində normativ-hüquqi baza, maliyyə təminatı mexanizmləri və ya əməliyyatlarla bağlı təkmilləşdirmə tədbirləri vasitəsilə aradan qaldırılmalı olan problemlər, eləcə də bu problemlərin həlli ilə bağlı müvafiq qurumların aidiyyəti üzrə öhdəlikləri müəyyən ediləcəkdir. Nəhayət, əməliyyatların təkmilləşdirilməsi təşəbbüsləri çərçivəsində, səmərəli hesab edildiyi hallarda, tərəfdaşlıq məqsədilə beynəlxalq özəl şirkətlər dəvət ediləcəkdir.

Tədbir 1.3.4: Azərbaycanda yükdaşıma və yükaşırma xidmətlərinin təkmilləşdirilməsi

Hazırda konteyner daşımaları üçün bərələrdən də istifadə olunması qiymətlərin yüksəlməsinə səbəb olur ki, bu da Azərbaycanın konteyner daşımaları sahəsində rəqabətqabiliyyətliliyinə mənfi təsir göstərir. Bu problemin aradan qaldırılması üsullarından biri 400-500 və daha çox konteyner daşıma imkanına malik olan konteyner gəmilərinə investisiya qoyuluşlarının həyata keçirilməsidir ki, bu, “miqyas effekti”nin yaradılması və qiymətlərin azaldılması baxımından mühüm addım ola bilər. Bu növ metodlar texniki-iqtisadi əsaslandırmalar aparılmaqla təhlil ediləcəkdir. Azərbaycan limanlarının yükaşırma imkanlarının və dəniz əməliyyatlarının yaxşılaşdırılmasına yönəlmiş təşəbbüslərə, o cümlədən yeni Bakı Limanında yüklərin aşırılmasına sərf olunan vaxtın azaldılmasına, Xəzər dənizindəki digər limanlarla əlaqələndirmənin təkmilləşdirilməsi məqsədilə yeni elektron sistemlərdən istifadəni nəzərdə tutan təşəbbüslərə xüsusi diqqət yetiriləcəkdir. Konteynerdaşıyan gəmilərə investisiya qoyuluşu konteyner gəmilərinin tutumunu da artıra bilər. Həmçinin istər Şərq-Qərb, istərsə də Şimal-Cənub istiqamətlərində Azərbaycan ərazisindən keçən yükdaşıma marşrutlarında maye yük, quru yük, konteyner, bərə və avtotexnika daşımalarında proqnozlaşdırılan bazar payının təmin edilməsi, həmçinin ölkə səviyyəsində strateji əhəmiyyətli layihələrin müvəffəqiyyətlə icrasının təmin edilməsi məqsədilə gəmiçilik donanmasının mərhələli şəkildə (2016-2025-ci illərdə) yenilənməsi üzrə planın hazırlanması, müvafiq maliyyə mənbələrinin müəyyən edilməsi həyata keçiriləcəkdir.

Tədbir 1.3.5: Dəmiryol vaqonlarının təkər cütlüklərinin dəyişdirilməsi əməliyyatlarında Azərbaycanla Gürcüstan arasında daha üst səviyyədə əməkdaşlığın təmin edilməsi

Qatarların təkər cütlüklərinin dəyişdirilməsi məsələsinin həlli üzrə müxtəlif texnoloji imkanlar mövcuddur və bu imkanlar investisiya tələblərinə, xidmətlərə görə çəkilən xərclərə, eləcə də xidmətlərin göstərilmə müddətinə görə bir-birindən fərqlənir. Bakı-Tbilisi-Qars dəmir yolu üzərində informasiya texnologiyaları sisteminin əlaqələndirilməsi, eləcə də Gürcüstanın və Türkiyənin Dövlət Dəmir Yolları ilə vaqon parkına investisiya qoyuluşları sayəsində Axalkalakidə vaqon təminatının yaxşılaşdırılması bu variantlardan biri ola bilər. Dəmiryol vaqonlarının təkər cütlüklərinin dəyişdirilməsi əməliyyatlarını həyata keçirmək üçün Azərbaycan ilə Gürcüstan tərəfi arasında daha üst səviyyədə əməkdaşlığın həyata keçirilməsi təmin ediləcəkdir.

Tədbir 1.3.6: Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə təhlillərin aparılması

Mövcud dəmir yolu infrastrukturu təhlil edilməklə, onun yaxşılaşdırılması istiqamətində mənfəət-zərər təhlilləri həyata keçiriləcəkdir. Bu zaman aşağıdakı hallardan hər biri üzrə ayrıca təhlillərin aparılması zəruridir:

- Şimal-Cənub dəhlizi - Yalama-Astara: relsin bərpası, siqnallama və elektrik təchizatı da daxil olmaqla, dəmiryol xəttinin 504-cü km hissəsinin bərpası;
- Şərq-Qərb dəhlizi - Ələt-Böyük Kəsik: elektrik təchizatı işləri, siqnallama və bərpa işlərinin başa çatdırılması;
- beynəlxalq standartlara uyğunluq və bütövlükdə, dəmiryol idarəetmə sisteminin avtomatlaşdırılması üçün bu sistemin institusional potensial baxımından yenidən qurulmasına investisiya qoyuluşu.

Tədbir 1.3.7: Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması

Tranzit yükdaşımaların, habelə ölkə iqtisadiyyatının artım tempi nəzərə alınmaqla, artan yükdaşıma həcminin qarşılanması məqsədilə dəmir yolu infrastrukturunun genişləndirilməsi (orta sürət həddinin artırılması, lokomotiv parkının yenilənməsi) məqsədilə müvafiq investisiyaların cəlb edilməsinə səy göstəriləcəkdir.

Dövlət büdcəsinin yükünün azaldılması məqsədilə dövlət-özəl tərəfdaşlıq modelinin dəmir yollarının müəyyən sahələrində (məsələn, orta sürət həddinin artırılması, lokomotiv parkının genişləndirilməsi və s.) tətbiqi nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin tətbiqinin 2020-ci ildə real ÜDM-ə birbaşa və dolayı təsiri 1.1-ci prioritetdə nəzərə alınmışdır. Bu prioritet qurulması nəzərdə tutulan regional əhəmiyyətli logistika və ticarət qovşağı ilə bağlı dəstəkləyici rola malikdir.

Tələb edilən investisiya

Bu prioritetin tətbiqi məqsədilə təqribən 1 milyard 400 milyon manat investisiya tələb ediləcəyi proqnozlaşdırılır və investisiya tələbinin dəqiqləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırmaların aparılması zəruridir.

Gözlənilən risklər

Xəzər dənizində üzən gəmilərin (xüsusilə bərə və Ro-Ro tipli gəmilərin) köhnəlməsi ilə əlaqədar olaraq, təmir və istismar xərclərinin çoxluğu, sərhəd-keçid məntəqələrindəki ləngimə halları, mövcud yük qatarlarının sürətinin aşağı olması tranzit yüklərin keçid müddətini artırmaqla, dəhlizin rəqabətqabiliyyətliliyini aşağı sala

bilər. Bundan əlavə, təhlükəli maddələrə və nəqliyyat vasitələrinin çəkisinə qoyulan normalarla əlaqədar vergi və rüsumların tətbiqində dəhliz boyunca yerləşən digər ölkələrlə müqayisədə mövcud fərqlər də risk faktorudur.

7.2. Strateji hədəf 2. Tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi

Coğrafi mövqeyinə görə rəqabət üstünlüyünə malik dünya ölkələrində logistika ticarətdən daha çox fayda əldə etməyin əsas hərəkətverici qüvvəsi hesab edilir. Bu yanaşmaya uyğun olaraq, Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksinin imkanlarından istifadə edilərək, Azərbaycanda azad ticarət zonası fəaliyyəti təşkil ediləcək, ticarətyönümlü emal və istehsal mərkəzləri (məsələn, qida emalı, əczaçılıq, neft-kimya sahəsi üzrə ümumi istifadə üçün təchizat bazası və s. prioritetləşdirilməklə) və ölkənin müxtəlif strateji ərazilərində logistika və ticarət mərkəzləri inşa ediləcəkdir.

7.2.1. Prioritet 2.1. Bakının regional əhəmiyyətli ticarət qovşağına çevrilməsi

Əsaslandırma

Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisi də daxil olmaqla azad ticarət zonasının fəaliyyətinin təşkili Bakının əsas regional ticarət marşrutlarına qoşulması və əlverişli biznes mühitinin təmin etdiyi imkanlar sayəsində regional əhəmiyyətli ticarət qovşağına çevrilməsinə imkan yarada bilər.


Yük axınlarının sadəcə ölkə ərazisindən keçməsi ilə deyil, həmçinin saxlama, qablaşdırma və ticarətlə bağlı digər xidmətlərin göstərilməsi sayəsində nəqliyyatdan əldə edilən əlavə dəyər formasında ölkə iqtisadiyyatına fayda verməsi üzrə təşəbbüslər davam etdiriləcəkdir. Bu prioritet həm də Azərbaycanı ölkə ərazisindən yük daşıyan şirkətlər üçün regional əhəmiyyətli qovşağa çevirmək məqsədi güdür. Bakının bu məqsədlərə nail olmaq potensialı olduqca yüksəkdir, belə ki, şəhərin yüksək standartlara cavab verən ofis binaları, cəlbedici və təhlükəsiz yaşayış mühiti, habelə qlobal arenada tanınması buna imkan verir.

Beynəlxalq təcrübə göstərir ki, müxtəlif idarəetmə modelləri xüsusi iqtisadi zonaların inkişafında uğurlu ola bilər, lakin bu modellərin əksəriyyəti, o cümlədən Mərakeş və Türkiyədəki xüsusi iqtisadi zonalar dövlət-özəl tərəfdaşlığına əsaslanır. Əksər xüsusi iqtisadi zonalar məşğulluğu yüksəltmək, ixracı artırmaq və birbaşa xarici investisiyaları cəlb etməklə, milli iqtisadiyyatın inkişafına ciddi töhfə verir. Məsələn, Asiya və Sakit okean ölkələrində xüsusi iqtisadi zonalar ölkə üzrə məşğulluğun 2,3 faizini və ixracın 41 faizini, Amerikada isə məşğulluğun 1,2 faizini və ixracın 39 faizini təmin edir.[18] Qeyd etmək vacibdir ki, bu cür zonalar heç də həmişə müvəffəqiyyətli olmur və daha uğurlu nəticə əldə etmək üçün düzgün yanaşmanın seçilməsi xüsusilə əhəmiyyətlidir.

Regionun digər ölkələri də xüsusi iqtisadi zonaların potensial faydalarından bəhrələnməyə səy göstərirlər. Hazırda Xəzər dənizi hövzəsində altı belə zona mövcuddur ki, onlardan üçünün ərazisi 1000 hektardan böyükdür (şəkil 19).

[18] Mənbə: Dünya Bankı

Şəkil 19. Xəzər dənizi ətrafında xüsusi iqtisadi zonalar



1. Bərə və konteynerlə ticarəti nəzərdə tutan 2 məntəqədə tikilməkdə olan liman

Mənbə: "Azərbaycan Mərkəzi Avrasiyada regional qovşaq kimi" nəşri (2012-ci il), müvafiq ölkələrin dövlət qurumları tərəfindən açıqlanmış məlumatların və mətbuatın araşdırılmasına əsaslanır.

Xəzər dənizi hövzəsində xüsusi iqtisadi zonalar, əsasən, tikinti, kimya və kənd təsərrüfatı məhsullarının emalına yönəldilmiş fəaliyyətlə məşğul olur. Bu zonaların prioritet fəaliyyət sahələrinə Həştərxanda (Rusiya) logistika xidmətləri, gəmiqayırma və gəmi təmiri, qida məhsullarının emalı texnologiyaları və polimer istehsalı; Aktauda (Qazaxıstan) kimya, plastik, rezin və metallurgiya məhsulları, tikinti və əczaçılıq məhsulları; Atırauda (Qazaxıstan) kimya və neft-kimya məhsulları, Önzəlidə (İran) tikinti və xidmətlər, yüksək texnologiyalar, fermer ləvazimatları və digər müxtəlif ləvazimatların istehsalı daxildir. Hər bir zonanın ölkənin digər əraziləri ilə əlaqəsi dəmir yolu və quru yolu ilə, yaxud bunların hər ikisi ilə təmin edilmişdir.

Sahibkarlıq fəaliyyəti üçün cəlbediciliyin artırılması məqsədilə zonaların hər birində özəl sektor iştirakçıları üçün bir sıra stimullaşdırıcı mexanizmlər, o cümlədən gəlir, əmlak, torpaq, yol vergisi və gömrük rüsumları ilə bağlı müxtəlif güzəştlər təklif olunur. Qazaxıstanın Aktau şəhərində xarici vətəndaşların işə qəbulu ilə bağlı hər hansı məhdudiyyətin qoyulmamasını və ya İranın Önzəli şəhərində xarici ölkə vətəndaşlarına viza tələbinin olmamasını məşğulluq sahəsində tətbiq edilən müxtəlif stimullaşdırıcı mexanizmlərə nümunə olaraq qeyd etmək olar.

Ələt qəsəbəsində azad ticarət zonasının yaradılması ilə əlavə dəyər yaradılması imkanlarının müəyyənləşdirilməsi

Tranzit ticarətindən daha yüksək fayda əldə etməyin mühüm elementi kimi, xüsusi idarəetmə mexanizmlərinin tətbiq edildiyi və özəl sektorun cəlb olunduğu azad ticarət zonasının fəaliyyətinin təşkili planlaşdırılır. Ələt qəsəbəsindəki yeni Bakı Limanının ərazisi də daxil olmaqla, fəaliyyətə başlaması planlaşdırılan azad ticarət zonası aşağıda verilmiş altı mühüm amilə əsaslanan təşəbbüslər sayəsində gerçəkləşdirilə bilər:

- milli strategiya – məşğulluq imkanlarının yaradılması, ÜDM-dəki payın və birbaşa xarici investisiyaların artırılması kimi məqsədlər üzrə kəmiyyət göstəricilərinin müəyyən edilməsi və əhəmiyyətinə görə prioritetləşdirilməsi;
- fokuslaşma – Azərbaycan üçün cəlbedici ola biləcək altsektorlardakı fəaliyyətlərin analitik təhlili və cəlbedici bazarların seçilməsi;
- yerləşmə və konfiqurasiya – azad ticarət zonası ilə Heydər Əliyev Beynəlxalq Aeroportu arasında yüklərin daşınması üçün yüksəksürətli qatarlara investisiya qoyuluşlarının nəzərdən keçirilməsi;

- normativ-hüquqi tələblər və stimullar - bütün şirkətlər üçün regionda olan digər xüsusi iqtisadi zonalarda təklif olunan stimullaşdırıcı mexanizmlərlə rəqabət imkanına malik ilkin maliyyə stimullarının müəyyənləşdirilməsi və hədəf sektorların rəqabətqabiliyyətliliyinin təmin edilməsi məqsədilə sektorlar üzrə spesifik stimullaşdırıcı mexanizmlərin tətbiqi;
- idarəetmə və biznes modeli - mövcud imkanlardan istifadə etməklə, həm dövlət, həm də özəl tərəfdaşları əhatə edən idarəetmə modelinin müəyyənləşdirilməsi;
- təşkilati işlər və proseslər - müxtəlif klasterlərin təşviqi ilə icarədarların cəlb edilməsinin prioritetləşdirilməsi və zona operatorunun digər dövlət orqanları ilə birgə işləməsinə imkan verəcək "bir pəncərə" sisteminin tətbiq edilməsi.

Bakının Ələt qəsəbəsində yerləşən azad ticarət zonasına region üçün çevik anbar və logistika xidmətlərinə əsaslanan ümumi topdansatış bazası, istehsalçılarla yerli topdansatış şirkətləri arasında görüşlərin təşkili üçün sərgilər, o cümlədən satış sərgiləri, hasilat sənayesi sektorlarının istehsal vasitələrinin saxlanılması üçün bufer anbar sahəsi daxil ola bilər. Regional ticarət zonası kimi Bakının üstün cəhətlərinə əsas regional ticarət marşrutları ilə əlaqəsinin olması və yeni Bakı Limanının səmərəli əməliyyatları daxildir. Azərbaycanda daha əlverişli biznes mühitinin yaradılması hədəf kimi müəyyənləşdirilmişdir və bu hədəfə azad ticarət zonasında idxal-ixrac və tranzit məqsədilə həm əlverişli mühitin, həm də fiziki məkanın təmin edilməsi daxildir.

Bakının Ələt qəsəbəsində yerləşən azad ticarət zonasının regional logistika və ticarət mərkəzinə çevrilməsi transmilli şirkətləri burada regional mərkəzlər yaratmağa təşviq edəcəkdir. İnşa ediləcək müasir təhlükəsiz ofis binaları və yaşayış kompleksləri, cəlbedici biznes mühiti zonanın iştirakçılarının məqsədlərinin reallaşdırılmasına imkan verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.1.1: Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasının hüquqi rejiminin hazırlanması

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC tərəfindən azad ticarət zonasının hüquqi rejiminin hazırlanması istiqamətində beynəlxalq məsləhətçi-idarəedici şirkətlərdən biri ilə müqavilə imzalanmışdır. Yeni hüquqi rejim çərçivəsində yeni Bakı Limanı kompleksi aidiyyəti dövlət qurumları ilə birlikdə müvafiq təkliflər hazırlayıb təqdim edəcəkdir. Özəl sektorun mümkün qədər fəal iştirakının təmin edilməsi məqsədilə azad ticarət zonasının idarəetmə mexanizmi müəyyənləşdiriləcəkdir. Eyni zamanda, regionda və dünyada azad ticarət zonalarının investorlar üçün təqdim etdiyi stimullaşdırıcı mexanizmlərə dair müqayisəli göstəricilər ("bençmark") araşdırılacaq, iqtisadi təhlillər əsasında bu stimullaşdırıcı mexanizmlərin tətbiqinin məqsədəuyğunluğu qiymətləndiriləcək və rəqabətqabiliyyətliliyin artırılması məqsədilə hazırkı stimullaşdırıcı mexanizmlər (o cümlədən, vergi güzəştləri) nəzərdən keçiriləcəkdir.

Tədbir 2.1.2: Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonası üçün hədəflərin və əsas icra göstəricilərinin müəyyənləşdirilməsi

Yeni Bakı Limanı kompleksi tərəfindən azad ticarət zonası üçün hədəf və əsas icra göstəriciləri və bunlara münasibətdə konkret icra müddətləri müəyyənləşdiriləcəkdir. Birincisi, yeni Bakı Limanı kompleksi tərəfindən azad ticarət zonasında potensial iqtisadi fəaliyyətlərlə bağlı təfərrüatlı təhlillər aparılacaqdır. İkincisi, İqtisadiyyat Nazirliyi tərəfindən digər prioritet iqtisadi sektorlar üçün nəzərdə tutulan planlar da bu təhlillərdə əhatə ediləcək və nəhayət, bu hədəflərin logistika sahəsinin hədəfləri ilə əlaqələndirilməsi təmin ediləcəkdir.

Tədbir 2.1.3: Yeni Bakı Limanı infrastrukturunda və yardımçı xidmətlərdə özəl sektorun iştirakının təmin edilməsi

Yeni Bakı Limanında infrastrukturun təkmilləşdirilməsi və tələb olunan yardımçı xidmətlər ilə bağlı ehtiyaclar müəyyən ediləcək və bu ehtiyacların "Tik-idarə et-təhvil ver" kimi mexanizmlər vasitəsilə özəl sektor tərəfindən maliyyələşdirilməsi imkanları nəzərdən keçiriləcəkdir.

Tədbir 2.1.4: Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasında qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün insan kapitalının qiymətləndirilməsi

Yeni Bakı Limanı kompleksi tərəfindən azad ticarət zonası üzrə qarşıya qoyulmuş məqsədlərə nail olmaq məqsədilə insan kapitalının inkişafı və tələb edilən keyfiyyət məsələləri qiymətləndiriləcəkdir. Daha sonra bu sahədə tələblərin qarşılanması ilə bağlı zəruri addımların atılması məqsədilə (məsələn, peşə təhsili proqramları) Təhsil Nazirliyi və aidiyyəti təhsil müəssisələri ilə əməkdaşlıq qurulacaqdır.

Tədbir 2.1.5: Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonası üzrə normativ-hüquqi bazaya dəyişikliklərin edilməsi ilə bağlı təkliflər paketinin işlənib hazırlanması və bu sahədə islahatların aparılması

Şirkətlərin azad ticarət zonasına investisiya qoyuluşlarını stimullaşdırmaq məqsədilə sahibkarlıq fəaliyyətinin asanlaşdırılmasına dair normativ-hüquqi bazaya dəyişikliklərin edilməsini nəzərdə tutan təkliflər paketi liman tərəfindən işlənib hazırlanaraq, aidiyyəti dövlət qurumlarına təqdim ediləcəkdir. İnvestisiyaların cəlb edilməsi ilə bağlı araşdırmaların aparılması məqsədilə beynəlxalq məsləhətçi şirkətlər cəlb olunacaq, biznesin əlverişliliyini artıran daha geniş islahatlardan bəhrələnməklə, araşdırmalar nəticəsində aşkar edilən maneələrin aradan qaldırılması üçün potensial islahat istiqamətləri müəyyən ediləcəkdir. Bundan əlavə, xarici ölkə vətəndaşlarının azad ticarət zonasında işləməsi üçün tələb edilən icazə və vizalarla bağlı normativ-hüquqi tələblərin sadələşdirilməsi istiqamətində təkliflər işlənib hazırlanacaqdır.

Tədbir 2.1.6: Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasına xarici və yerli şirkətlərin cəlb edilməsi, özəl investisiya qoyuluşlarının təşviqi üçün "bir pəncərə" sisteminin tətbiqi

Azad ticarət zonasında biznesin həyata keçirilməsini asanlaşdırmaq üçün dövlət tərəfindən vətəndaşlara göstərilən xidmətlərin bir mərkəzdən idarə olunması və əlaqələndirilməsi məqsədilə 2012-ci ildə yaradılmış "ASAN xidmət" mərkəzlərində olduğu kimi, bütün xidmətlərin göstərilməsi üçün "bir pəncərə" xidmət mərkəzləri yaradılacaqdır.

Tədbir 2.1.7: Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasına beynəlxalq şirkətlərin cəlb edilməsi üçün sərgilərin, o cümlədən satış sərgilərinin təşkil edilməsi

Yeni Bakı Limanı kompleksi tərəfindən əsas diqqət biznes münasibətlərinin gücləndirilməsi məqsədilə beynəlxalq şirkətlərin cəlbi üçün regional bazarlar üzərində cəmləşdirilməklə, azad ticarət zonalarında müxtəlif sahələr üzrə sərgilərin, o cümlədən satış sərgilərinin keçirilməsi planlaşdırılacaq və onların təşkili həyata keçiriləcək, həmçinin zəruri hallarda, bu işlərə beynəlxalq şirkətlər də cəlb ediləcəkdir. Bununla yanaşı, bu cür sərgilərin, o cümlədən satış sərgilərinin beynəlxalq miqyasda da təşkili və təbliği məqsədilə vəsaitlərin təmin olunması üçün yeni Bakı Limanı kompleksi tərəfindən təkliflər hazırlanacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Azad ticarət zonasının fəaliyyətə başlaması ilə Bakının regional əhəmiyyətli ticarət zonasına çevrilməsi nəticəsində 2020-ci ildə real ÜDM-in 110 milyon manat birbaşa və 35 milyon manat dolayı olmaqla, ümumilikdə, 145 milyon manat artacağı, 2900 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi

- logistika və liman xidmətləri də daxil olmaqla, azad ticarət zonasının fəaliyyətinin təşkili.

Real ÜDM-ə təsirin, məşğulluq göstəricilərinin və investisiya tələbinin hesablanması zamanı qlobal azad ticarət zonası modelləri hədəf kimi götürülmüşdür. Azad ticarət zonasının tam potensialı ilə işlək vəziyyətə çatdırılması 5 il müddətində təmin edilə bilər.

Tələb edilən investisiya

Logistika və ticarət mərkəzlərinə investisiya qoyuluşu istisna olmaqla, azad ticarət zonasının fəaliyyətinin təşkili üçün 430 milyon manat investisiya tələb ediləcəyi proqnozlaşdırılır və investisiya tələbinin dəqiqləşdirilməsi üçün texniki-iqtisadi əsaslandırmaların aparılması zəruridir (logistika və ticarət mərkəzləri üçün tələb olunan investisiya məbləği 2.3-cü prioritetdə nəzərə alınmışdır).

Gözlənilən risklər

Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan geriləmə, neft qiymətlərinin kəskin aşağı düşməsi azad ticarət zonasına yönəldiləcək investisiyalara mənfi təsir göstərə bilər. Bundan əlavə, qanunvericilik bazasının, viza və qeydiyyat tələblərinin və s. məsələlərin xarici investorlar üçün cəlbedici vəziyyətdə olmaması əsas risk yaradan faktorlardandır.

7.2.2. Prioritet 2.2. Ticarətyönümlü emal mərkəzinin yaradılması


Əsaslandırma

Azərbaycanda əlavə dəyər yaradan ticarətdən daha çox fayda əldə etmək məqsədilə emal sektorunun inkişaf etdirilməsi əsas hədəflərdən biridir. Ölət qəsəbəsində yeni Bakı Limanı kompleksi regional əhəmiyyətli ticarət qovşağı kimi formalaşdırıldıqdan sonra iki sənaye sahəsi - kənd təsərrüfatı məhsullarının emalı və neft-qaz məhsullarının emalı (əmtəəlik plastik məmulatlar və gübrələr) üzrə regional emal mərkəzlərinin yaradılmasına başlanacaqdır. Əməktutumlu ticarət məhsulları (məsələn, tekstil), informasiya və kommunikasiya texnologiyaları, eləcə də əczaçılıq və maşınqayırma sahələri üzrə əlavə emal mərkəzlərinin yaradılması imkanları da nəzərdən keçirilə bilər.

Kənd təsərrüfatı məhsullarının emalı mərkəzinin yaradılması

Orta Asiyadan Avropaya tərəvəz ixracının həcmi kənd təsərrüfatı məhsullarının emalı mərkəzinin yaradılması baxımından Azərbaycanın böyük imkanlara malik olduğunu göstərir. 2015-ci ildən 2020-ci ilədək olan dövr ərzində Orta Asiyadan Avropaya kənd təsərrüfatı məhsullarının ixracında 7 faiz ortaillik artım tempinin olacağı gözlənilir. Bu məhsullar arasında ən böyük artımın Avropaya emal edilməmiş halda ixrac edilən yağlı toxum və meyvələrin payına düşəcəyi ehtimal edilir (şəkil 20).

Şəkil 20. Orta Asiyadan Avropa ölkələrinə ixrac olunan məhsullar *(milyon tonla)*



1. *Tekstil malları, geyim, ofis avadanlığı, heyvan mənşəli məhsullar, şüşə, nəqliyyat avadanlığı və hissələri*

Mənbə: IHS

Azərbaycanın yerli istehsal sahələrində rəqabət üstünlüyünə malik olması, eləcə də meyvə şirələri və bitki yağları sahəsində mövcud ticarət axınları nəzərə alındıqda, ölkənin, əsasən, meyvə-tərəvəz məhsullarının emalı üzrə mərkəzə çevrilmək imkanlarına malik olduğunu görmək mümkündür. Bu baxımdan logistika imkanlarını daha da inkişaf etdirməklə, qablaşdırma və təkrar qablaşdırma üçün təkrar emala diqqət yetiriləcəkdir.

Neft-kimya məhsullarının emal mərkəzinin yaradılması

Azərbaycanda yüksək səviyyədə yerli istehsala malik ucuz xammalın və neft-qaz resurslarının mövcudluğu neft-kimya sənayesi (xüsusən də əmtəəlik plastik məmulatlar və gübrələr) üzrə emal mərkəzinin yaradılmasına imkan verir. Eləcə də idxalın azaldılması və ixracın artırılması üçün bir çox bazar imkanları mövcuddur. Bundan əlavə, neft-qaz xidmətləri sahəsində də bir çox fəaliyyət imkanları vardır.

Transmilli neft şirkətlərinin regionda neft-qaz emalı və digər məqsədlər üçün yeni Bakı Limanı kompleksində ümumi istifadəyə yönəldilmiş təchizat bazasının yaradılması imkanı olacaqdır.

Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi zamanı emal obyektlərinin potensial ehtiyaclarına uyğun olaraq, azad ticarət zonasında infrastruktura investisiya qoyuluşunun layihələndirilməsi və icrası, azad ticarət zonasına yerli və xarici emal şirkətlərinin cəlb olunması, emal mərkəzi yaradılacaq sektorların prioritetləşdirilməsi məqsədilə digər sektorlar üzrə strateji yol xəritələrinin koordinasiyasının təşkili tələb edilir.

Görüləcək tədbirlər

Tədbir 2.2.1: Ələt qəsəbəsində yerləşən azad ticarət zonasında müxtəlif sahələr üzrə klasterlərin inkişafı üçün sənaye və altsənaye sektorlarının potensialını qiymətləndirəcək işçi qrupun yaradılması

Yeni Bakı Limanı kompleksi tərəfindən aidiyyəti qurumlarla birlikdə azad ticarət zonasında klasterlərin inkişafı üçün potensial sənaye və altsənaye sektorlarının müəyyənləşdirilməsi üçün işçi qrup yaradılacaqdır. Daha sonra prioritet sənaye sahələrinin təsdiqlənməsi üçün yeni Bakı Limanı ilə strateji tərəfdaşlar arasında rüblük görüşlər keçirilməklə, digər sektorlara aid strateji yol xəritələrində müəyyən edilmiş təşəbbüslər əlaqələndiriləcəkdir. Nəhayət, infrastruktur və əlavə xidmətlərə olan ehtiyacların düzgün müəyyən olunması üçün bu klasterlər üzrə fəaliyyət planları hazırlanacaq və müvafiq hesablamalar aparılacaqdır.

Tədbir 2.2.2: Ələt qəsəbəsində yerləşən azad ticarət zonasının güclü tərəflərinin və imkanlarının təqdim edilməsi

İnvestorların cəlb edilməsi və onların prioritet sənaye sahələri barədə məlumatlılığının artırılması məqsədilə yeni Bakı Limanı kompleksi tərəfindən Ələt qəsəbəsində yerləşən azad ticarət zonasının güclü tərəflərinin və imkanlarının əks olunduğu təqdimat hazırlanacaqdır. Buraya dəyər zəncirləri, logistikanın inkişafı, yerli və beynəlxalq bazarlar, investisiya riskləri və müvafiq risklərin azaldılması tədbirləri üzrə planlara aid məlumatlar da daxil ediləcəkdir.

Tədbir 2.2.3: Ələt qəsəbəsində yerləşən azad ticarət zonasında emal klasterləri ilə bağlı investisiya planlarının işlənməsi

Klasterlər üzrə hesablamalar hazırlandıqdan sonra Bakı Limanı tərəfindən Ələt qəsəbəsindəki azad ticarət zonasının emal klasterləri ilə bağlı investisiya planları hazırlanacaq və potensial investorlara təqdim ediləcəkdir. Daha sonra yeni Bakı Limanı kompleksi tərəfindən yerli və beynəlxalq investorlar və emal şirkətləri Ələt qəsəbəsindəki azad ticarət zonasında prioritet sənaye sahələri üzrə obyektlər tikməyə dəvət ediləcəklər.

Tədbir 2.2.4: Ələt qəsəbəsində yerləşən azad ticarət zonasında investisiya qoyuluşlarına dair ilkin öhdəlikləri öz üzərinə götürəcək şirkətlərin təyin edilməsi və yeni investisiyaların cəlb edilməsi istiqamətində tədbirlərin görülməsi

Birincisi, yeni Bakı Limanı kompleksi tərəfindən Ələt qəsəbəsindəki azad ticarət zonasının inkişafının aparıcı qüvvəsi kimi investisiya qoyuluşlarına dair ilkin öhdəlikləri öz üzərinə götürəcək şirkətlər müəyyən ediləcəkdir. İnvestorların layihəyə etimadının daha da artırılması və emal klasterinə digər potensial investorların cəlb edilməsi məqsədilə yeni Bakı Limanı kompleksi bu öhdəliklərdən layihəyə investorların inamını göstərən yaxşı nümunə kimi istifadə edəcəkdir. İkincisi, yeni Bakı Limanı kompleksi həmin şirkətlərlə tərəfdaşlıq edərək, azad ticarət zonaları üzrə təklifləri təkmilləşdirəcəkdir. Üçüncüsü, bu şirkətlərlə eyni sahəyə investisiya qoyuluşu edən başqa şirkətlər də müəyyənləşdiriləcək və hədəf şirkətlər siyahısına daxil ediləcəkdir. Dördüncüsü, investisiya qoyuluşlarına dair yeni müzakirələr zamanı bu şirkətlər yaxşı nümunə ("bençmark") kimi təqdim ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Real ÜDM-ə birbaşa və dolayı təsir və məşğulluğa təsir müvafiq sektorlar üzrə strateji yol xəritələrində (qida emalı klasteri "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə, əmtəəlik plastmas məmulatlar və gübrələr isə "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə) göstərilmişdir.

Tələb edilən investisiya

Müxtəlif sənaye sahələrində emal mərkəzlərinin yaradılması üçün tələb olunan investisiyaların həcmi müvafiq sektorlar üzrə strateji yol xəritələrində - qida emalı mərkəzi "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə, plastik məmulatlar və gübrə emalı mərkəzi isə "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə nəzərə alınmışdır.

Gözlənilən risklər

Ticarətdən daha çox fayda əldə etmək məqsədilə emal sektorunun gücləndirilməsi qarşıya məqsəd kimi qoyulduğu üçün yeni yaradılacaq mərkəzlərdə həmin sahələr üzrə qonşu ölkələrin potensialının real şəkildə dəyərləndirilməməsi əsas risk faktoru ola bilər. Belə ki, qonşu ölkələrdən Azərbaycana idxal olunan məhsullarla tam rəqabətin təmin olunması məqsədilə rəqabətqabiliyyətli istehsal və emal mərkəzləri yaradılmalıdır.

7.2.3. Prioritet 2.3. Bakıda və ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzlərinin yaradılması

Əsaslandırma

Logistika və ticarət mərkəzləri Azərbaycan üçün ticarət fəaliyyətlərindən əlavə dəyər əldə edilməsində əsas vasitələrdən biri ola bilər. Logistika və ticarət mərkəzlərinin yaradılması üçün iki mühüm amil vardır:

1. Xüsusilə multimodal əməliyyatlar və yüksək dəyərli konteyner daşımalarında logistika xidmətlərinin təmin olunması ticarət həcminin artırılması baxımından mühüm faktordur.

2. Göstərilən xidmətlərin əhatə dairəsinin genişləndirilməsi Azərbaycanın ümumi ticarət həcmində payının artmasına dəstək verə bilər. Belə ki, tranzit ticarətinin həm həcm, həm də dəyər ifadəsində artımına nail olmaq məqsədilə ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzlərinin yaradılması istiqamətində tədbirlər görüləcəkdir.

Logistika və ticarət mərkəzlərinin üstünlüklərinin müəyyən edilməsi

2012-ci ildə dünya üzrə logistika sahəsinin ümumi dəyəri müxtəlif altsektorlar üzrə 2,3 trilyon ABŞ dolları məbləğində hesablanmışdır. Bu altsektorlar arasında 2012-ci ildə dünya miqyasında üçüncü tərəf logistika (*"3PL"*) xidmətlərinin dəyəri 219 milyard ABŞ dolları olmuşdur ki, bu da logistika sahəsi üzrə bazar dəyərinin təxminən 10 faizinə bərabər idi.[19] Azərbaycanın üçüncü tərəf logistika xidmətlərində iştirak səviyyəsi hazırda dünya göstəricilərindən aşağıdır və bu, ölkədə sözügedən sahənin gələcəkdə inkişaf etdirilməsi üçün prioritet altsektorlardan ola bilər. Ölkənin üçüncü tərəf logistika seqmentində iştirak payı yaradılması planlaşdırılan logistika və ticarət mərkəzləri vasitəsilə artırıla bilər.

Əlavə dəyər yaradan logistika xidmətlərinin daha da inkişaf etdirilməli olduğu sahələrə aşağıdakılar daxildir:

- yük sığortası, gömrük brokerliyi, akkreditiv, kuryer podratçılığı/brokerlik/daşıma ödənişi və gömrük rüsumunun geri qaytarılması mexanizmi vasitəsilə **maliyyə xidmətləri**;
- nəqliyyat ekspedisiyası, Beynəlxalq Kommersiya Şərtlərinin (*"Incoterms"*) idarə edilməsi, multimodal daşımalar, nəqliyyat şəbəkəsinin planlaşdırılması, yüklərin tranzit konsolidasiyası vasitəsilə **daşımalar**;


[19] Mənbə: "Transport Intelligence", "Armstrong and Associates", "American Trucking Association", IATA

- çarpaz yükləmə/bölgü, anbar qurğuları, vaxtında çatdırma/kanban sistemi, konteynerə yükləmə/komplektləşdirmə və qablaşdırma, yüngül sənaye/yığma və qablaşdırma, quraşdırma/çıxarma, maddi-texniki təchizatın/tədarükün idarə edilməsi, konsolidasiya/dekonsolidasiya vasitəsilə **anbara yerləşdirmə/bölüşdürmə**;
- ISO sertifikatlaşdırması, qidaların dərəcələr üzrə qiymətləndirilməsi, çağrı mərkəzləri, təhlükəsizliyin təmin olunması ilə bağlı proseslər və **digər xidmətlər**.

Konteyner daşımaları daha çox təkrar emala imkan versə də, konteyner ticarətinin həcmi artana qədər ən yüksək qısamüddətli dəyər daha çox biznesyönümlü xidmətlərdən əldə edilə bilər. Hazırda Azərbaycandan keçən yüklər, əsas etibarilə, quru və maye yük axınları şəklində olduğundan, qısamüddətli perspektivdə əsas diqqət maliyyə xidmətlərinə və multimodal daşımalara yönəldiləcəkdir. Ortamüddətli perspektivdə, yüklərin anbarda yerləşdirilməsinə və paylanmasına diqqətin yönəldilməsi ilə, logistika və ticarət mərkəzlərində ticarətin dəyəri və həcmi artırılacaqdır. Konteyner daşımalarının həcminin artması nəticəsində təkrar emal fəaliyyətinin həcmi də artacaq, əlavə dəyər imkanları genişləndiriləcəkdir.

Logistika və ticarət mərkəzlərində göstərilən xidmətlərin diferensiallaşdırılması üçün yük və məhsul axınının növü üzrə davamlı təhlillər aparılmalıdır. Belə ki, ölkə ərazisindən keçən ticarət axınları sistemli şəkildə təhlil ediləcək və logistika xidmətlərindən tam dəyər əldə etmək üçün logistika və ticarət mərkəzlərinin fəaliyyəti optimallaşdırılacaqdır. Məsələn, maye yüklər müxtəlif yük növlərini əhatə edir və onların hər biri hərtərəfli şəkildə qiymətləndirilməlidir (şəkil 21). Neft və qaz məhsullarının daşınması yüksək əlavə dəyər yaratmasa da, yeyinti yağlarından dəyər əldə etmək olar.

Şəkil 21. Azərbaycanın beynəlxalq ticarət üçün potensial logistika və ticarət mərkəzləri




Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətdə mövcud olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.

Mənbə: IHS, Malların ticarətinə dair BMT-nin məlumat bazası

Azərbaycanda logistika və ticarət mərkəzləri üçün üstünlük verilən ərazilərin müəyyənləşdirilməsi

Azərbaycanda logistika və ticarət mərkəzləri üçün mərhələli icra yanaşmasının nəzərdən keçirilə biləcəyi bir neçə potensial məkan mövcuddur (şəkil 20). Bakının Ələt qəsəbəsi burada yeni Bakı Limanı kompleksinin və azad ticarət zonasının olması səbəbindən prioritet hesab olunur və ölkədə ticarət həcmini artırmaq potensialına malikdir. İkinci mərhələ çərçivəsində sərhəd bölgələrində yerləşən inzibati rayonlarda logistika və ticarət mərkəzlərinin yaradılması nəzərdən keçirilə bilər. Buraya magistral avtomobil yolu üzərində yerləşən və Şərq-Qərb dəhlizinin tərkib hissəsi olan Qırmızı Körpü, İranla ticarət və Rusiya bazarlarına çıxış üçün Astara rayonu, eləcə də Şimal-Cənub dəhlizi üzərində yerləşməklə, Rusiya ilə birbaşa ticarət potensialına malik Xaçmaz rayonu daxildir. Logistika və ticarət mərkəzləri şəbəkəsi qurulduqdan sonra ölkədaxili daşınmalar məqsədilə Gəncə və ya Yevlaxda mərkəz planlaşdırıla bilər. Bu rayonların magistral dəhliz üzərində yerləşməsindən istifadə edilməklə, ətraf bölgələrin kənd təsərrüfatı və sənaye istehsalına dəstək verəcək logistika və ticarət mərkəzi kimi fəaliyyət potensialı araşdırılacaqdır. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasının Culfa və ya Sədərək rayonlarının da bu baxımdan uyğunluğu təhlil ediləcəkdir.

Şəkil 22. Azərbaycanda logistika və ticarət mərkəzləri üçün beş potensial məntəqə



Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətdə mövcud olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.

Bölgələrdə yaradılan yeni logistika və ticarət mərkəzlərinin inkişaf etdirilməsi Azərbaycanda regionların sosial-iqtisadi inkişafı proqramının da tərkib hissəsi ola bilər. Bu mərkəzlərin qurulması bölgələrdə yeni imkanlar yaratmaqla, kənd təsərrüfatının inkişafını, o cümlədən kənd təsərrüfatı məhsullarının bir mərkəzdə toplanmasını, əlavə dəyər qatılmasını və digər zonalarla əlaqələndirməni təmin

edəcəkdir ki, bu da nəticədə regionların bir-biri ilə əlaqəsini genişləndirməyə, urbanizasiya problemlərini aradan qaldırmağa kömək edəcəkdir.

Eyni zamanda, müəyyən olunmuş bölgələrdə istehlak üçün nəzərdə tutulan bütün növ məhsulların logistika-bölüşdürmə mərkəzlərinin yaradılması məqsədəuyğundur. Ən qabaqcıl proqram təminatı, logistika sahəsində peşəkar insan resursları, bir mərkəzdən idarəolunan məhsul qəbulu, depolama, çatdırılma və planlama sistemi ilə təmin olunmuş belə mərkəzlər ölkə sahibkarlarını ağır logistik xərclərdən (anbar-saxlama, bölüşdürmə, nəqliyyat və digər xərclərdən) azad edəcək, sahibkarların ticarətə və nəticədə, iqtisadi inkişafa daha çox əlavə dəyər qatmasına imkan verəcəkdir.

Ölkədaxili logistikanın inkişaf etdirilməsi

Bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi nəqliyyatın bütün növləri üzrə infrastrukturun və nəqliyyat vasitələrinin təkmilləşdirilməsini şərtləndirir. Magistral və respublika əhəmiyyətli avtomobil yollarının beynəlxalq standartlara uyğun tikilməsi, dəmir yollarının yenidən qurulması, sərnişindaşımada elektrik qatarlarının rolunun artırılması, nəqliyyatda təhlükəsizlik tələbləri üzrə dövlət standartlarının, əməyin mühafizəsi qaydalarının, ekoloji və yanğın təhlükəsizliyi, habelə ətraf mühitin mühafizəsi normalarının təkmilləşdirilməsi zəruridir. Bu sahədə görüləcək bu və digər tədbirlər ölkədaxili logistika sisteminin və logistikanın əsas tərkib hissəsi olan nəqliyyatın inkişaf etdirilməsinə və ümumiyyətlə, bölgələrdə bütün sahələrdə istehsal fəaliyyətinin sürətləndirilməsinə töhfə verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.3.1: Logistika və ticarət mərkəzlərinin yaradılması üçün təhlillərin aparılması və uyğun məkanların seçilməsi

Azərbaycanda logistika və ticarət mərkəzləri yaratmaq üçün, ilk növbədə, mümkün variantlar sırasından müvafiq yerlər təsdiq ediləcək və hərtərəfli texniki-iqtisadi əsaslandırmalar aparılacaqdır. Həmin əsaslandırmalar yük növünə əsasən cari və gələcək ticarət həcmlərini (digər mühüm layihələrə paralel olaraq) və göstərilməli olan xidmətləri də əhatə edəcəkdir. Daha sonra lazımi infrastruktur sahələrinə investisiya qoyuluşu və təminatlı kreditləşmə mənbələri müəyyən ediləcək, logistika və ticarət mərkəzlərini yaratmaq və istismar etmək üçün yerli və beynəlxalq investorlar cəlb ediləcək, dövlət sektorunun üzərinə düşən xərclərin azaldılmasından ötrü dövlət-özəl tərəfdaşlığı imkanları nəzərdən keçiriləcək, zəruri beynəlxalq ekspertiza cəlb ediləcək və nəhayət, logistika və ticarət mərkəzlərində maliyyə xidmətləri şəklində əlavə biznes xidmətlərinə yaranan zərurət müəyyənləşdirilərək, həmin xidmətlərin göstərilməsi üçün özəl sektoru təmsil edən şirkətlər işə cəlb ediləcəkdir.

Tədbir 2.3.2: Bölgələrdəki logistika və ticarət mərkəzləri üçün infrastruktur layihələrində özəl sektorun iştirakının təmin edilməsi

İşçi qrup infrastruktur üzrə investisiya tələblərini dəyərləndirəcək və dövlət büdcəsinin üzərinə düşən maliyyə yükünü azaltmaq məqsədilə “Tik-idarə et-təhvil ver” kimi mexanizmlər vasitəsilə özəl sektor tərəfindən qoyula biləcək investisiya həcmlərini müəyyən edəcəkdir.

Tədbir 2.3.3: Bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması və onların idarəolunma mexanizminin müəyyən edilməsi

Yeni Bakı Limanı əməkdaşlıq etdiyi beynəlxalq məsləhətçi-idarəçi şirkətlə birlikdə azad ticarət zonası üzrə hazırlanacaq hüquqi rejim çərçivəsində Azərbaycanın bölgələrində də logistika və ticarət mərkəzlərinin yaradılması və idarə edilməsi

mexanizminin müəyyənləşdirilməsini təmin edəcəkdir. Bu layihə çərçivəsində yaradılan işçi qrup logistika və ticarət mərkəzləri şəbəkəsinin qurulmasına nəzarət edəcəkdir. İşçi qrup logistika və ticarət mərkəzlərində göstərilməli olan xidmətlərin növlərini və potensial miqyasını müəyyən edəcəkdir.

Tədbir 2.3.4: Yaradılacaq logistika və ticarət mərkəzlərində əlavə dəyər yaradan xidmətlərin göstərilməsi üçün yerli və xarici şirkətlərin dəvət olunması

İşçi qrup logistika və ticarət mərkəzlərinin yaradılmasına yerli və xarici investorları cəlb edəcəkdir. Bundan əlavə, rəqabət çərçivəsində əlavə dəyər yaradan xidmətlərin təmin olunması məqsədilə logistika və ticarət mərkəzlərinə yerli və xarici şirkətlər dəvət ediləcəkdir.

Tədbir 2.3.5: Heydər Əliyev Beynəlxalq Aeroportu ərazisində logistika qovşağının ("hub") yaxın gələcəkdə açılmasının nəzərdən keçirilməsi

Heydər Əliyev Beynəlxalq Aeroportu ərazisində logistika qovşağının (*"hub"*) təşkili üzrə tədbirlər nəzərə alınmaqla, qovşağın yaradılması təhlil ediləcək və qiymətləndiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin 2020-ci ildə real ÜDM-i 40 milyon manat birbaşa və 25 milyon manat dolayı olmaqla, ümumilikdə, 65 milyon manat artıracağı proqnozlaşdırılır. Bu prioritetin icrası nəticəsində 3800 yeni iş yerinin yaradılacağı gözlənilir.

Əsas icra göstəricisi Azərbaycanda 5 və ya 6 logistika və ticarət mərkəzinin yaradılmasıdır (bu mərkəzlərdən dördünün yaradılması ilə bağlı işlər 2020-ci ilədək başa çatdırılmalıdır). Logistika və ticarət mərkəzinin birbaşa təsiri regional logistika və ticarət qovşağının ümumi təsirinin 20 faizinə bərabər olmalıdır (1.2-ci prioritet üzrə).

Prioritetin təsirləri hesablanarkən, Gəncədə və potensial olaraq Naxçıvanda 2025-ci ilədək başa çatdırılması nəzərdə tutulan logistika və ticarət mərkəzləri istisna olmaqla, 4 logistika və ticarət mərkəzinin 2020-ci ildən əvvəl istismara veriləcəyi nəzərdə tutulmuşdur.

Tələb edilən investisiya

4 logistika və ticarət mərkəzinin yaradılması üçün cəmi investisiya tələbinin təxminən 130 milyon manat olacağı proqnozlaşdırılır.

Bu mərkəzlərin tikintisi üçün əlavə işçi qüvvəsinin cəlb ediləcəyi və digər əlavə xərclərin olacağı gözlənilir və həmin xərclərin cəmi investisiya qoyuluşlarının təxminən yarısına bərabər olacağı ehtimal edilir.

Gözlənilən risklər

Potensial logistika və ticarət mərkəzlərinin yerləşmə yerinin düzgün müəyyənləşdirilməsi əsas risk faktorlarındandır.

7.3. Strateji hədəf 3. Logistika və ticarət sahəsində məqsədlərin gerçəkləşdirilməsi üçün mühüm hərəkətverici mexanizmlərin tətbiqi

Logistika sahəsində özəl sektorun iştirakının artırılması ticarətin səmərəliliyinin artmasına kömək edir ki, bu təcrübə də inkişaf etmiş dünya ölkələrində daha geniş vüsət almışdır. Dövlət-özəl tərəfdaşlığı və "Tik-idarə et-təhvil ver" kimi maliyyələşmə modeli vasitəsilə dövlət büdcəsinin mühüm layihələr üzrə xərclərinin azaldılmasının əhəmiyyəti öz təsdiqini tapmışdır. Azərbaycanda logistika aktivlərindən tam bəhrələnmək və fəaliyyət göstəricilərini yaxşılaşdırmaq məqsədilə dövlət sektorunun


özəl sektorla strateji tərəfdaşlıqda iştirak səviyyəsini artırmaq imkanları nəzərdən keçiriləcəkdir.

7.3.1. Prioritet 3.1. Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi

Əsaslandırma

Azərbaycanla müqayisə edilə bilən ölkələrin əksəriyyətində hava yolları, dəmir yolları və limanlar da daxil olmaqla logistika komponentləri üzrə liberallaşdırma fəaliyyətinə artıq başlanılmışdır (şəkil 23). Logistika sahəsinin özəlləşdirilməsi nəticəsində, bir qayda olaraq, gəlir marjasının artdığı, şəffaf və müstəqil idarəetmənin təmin olunduğu, xidmət səviyyəsinin yüksəldildiyi və sırf dövlətəsaslı müəssisə ilə müqayisədə gəlirliliyin artdığı təsbit olunmuşdur.

Şəkil 23. Azərbaycanla müqayisə edilə bilən ölkələrdə logistika komponentlərinin özəlləşdirilməsi




1. *"Samruk Kazyna" və BAE sistemləri arasında birgə müəssisə şəklində yaradılmışdır.*
2. *Özəlləşdirmə məqsədilə yenidən qurulmuşdur.*
3. *2013-cü ildə özəlləşdirmə məqsədilə yenidən qurulmuşdur.*

Mənbə: "Capital IQ"

Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə büdcə vəsaitlərindən əlavə, özəl investisiyaların da cəlb olunması dünya təcrübəsində geniş tətbiq olunur. Nəqliyyat və logistika sahəsində aparıcı ölkələrin təcrübəsində infrastruktura və idarəetməyə özəl investisiyaların cəlb edilməsi vasitəsilə proseslərin kommersiyalaşdırılması zaman keçdikcə zərurətə çevrilmişdir. İnkişaf etmiş hava,

dəniz və dəmir yolu nəqliyyatına sahib olan qabaqcıl dünya ölkələrində hava yolları başlanğıcdan özəl sektorun iştirakı ilə yaradılmışdır. Almaniya, Rusiya və digər ölkələrdə isə nəqliyyat sahəsində özəl sektorun payının artması hava yollarından başlayaraq, dövrün tələblərinə uyğun qaydada dəniz və ya dəmir yolu sahəsində davam etmişdir. Belə tendensiyalar logistika və nəqliyyat sektorunda bu və ya digər sahənin yalnız tam özəlləşdirilməsini deyil, məsələn, dəniz və dəmir yolu ilə yüklərin daşınmasında rəqabəti təşviq etmək baxımından özəl operatorların iştirakını da nəzərdə tutur (şəkil 24).

Şəkil 24. Müxtəlif ölkələrdə logistika infrastrukturunun özəlləşdirilməsi



1. *"Dəmir yolları haqqında Staggers Aktı"*
2. *Əksər dəniz limanları dairə və ya ştatlara məxsusdur, yeni limanların qurulması və ya genişləndirmələr dövlət-özəl tərəfdaşlığı əsasında həyata keçirilmişdir.*
3. *Vanino limanı*
4. *Yük vaqonları seqmenti*
5. *Türkiyə Dənizçilik Təşkilatının (TDİ) mülkiyyətində olan limanlar (11 liman) 30 il müddətinə əməliyyat hüquqlarının ötürülməsi yolu ilə özəlləşdirilmişdir.*
6. *Səhmlərin bir qismi satılmış və növbəti illərdə yenidən milliləşdirilmişdir.*
7. *Dəmir yolu ilə yükdaşıma işləri*
8. *Gürcüstan dövlətə məxsus "Gürcüstan Hava Yolları" şirkətinin özəlləşdirilməsini dayandırmış və 1999-cu ildə "Airzena Georgian Airlines" özəl hava yolları şirkətini flaqman aviaşirkət olaraq seçmişdir.*

Mənbə: İctimaiyyət üçün açıq mənbələr üzrə araşdırmalar və müstəqil ekspertlərin hesablamaları

Hava yollarında infrastrukturun təkmilləşdirilməsi

Azərbaycanın hava yollarında mülki aviasiyanın infrastrukturunun yenilənməsi ilə yanaşı, son tələblərə cavab verə biləcək müasir hava gəmilərinin təmin olunması bu sahənin inkişafında böyük rol oynaya bilər. Odur ki, yeni hava gəmilərinin alınması üzrə texniki-iqtisadi əsaslandırma aparılmalıdır. Bundan əlavə, ölkənin regionlarındakı yerli və beynəlxalq təyinatlı hava limanlarının təkmilləşdirilməsi və regionların inkişafı sayəsində yaranacaq tələblər nəzərə alınmaqla, yerli təyinatlı hava limanlarının tikintisi nəzərdən keçirilə bilər. Təkmilləşdirmə istiqamətində hava limanlarının infrastruktur və xidmət şəbəkəsinin keyfiyyətinin artırılması işlərini planlı şəkildə "Azərbaycan Hava Yolları" QSC-nin həyata keçirməsi məsələsinə baxıla bilər.

Beynəlxalq və yerli təyinatlı hava limanlarının inkişafının təmin edilməsi nəticəsində hava hərəkətinin idarə olunması sisteminin təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edə bilər.

Aviasiya sahəsində təhlükəsizlik məsələləri mühüm şərtlərdən biri olduğu üçün bu sahədə təhlükəsizlik tədbirlərinin beynəlxalq standartlara müvafiq olaraq daim təkmilləşdirilməsi ilə bağlı işlərin davam etdirilməsi vacibdir.

Bununla yanaşı, Azərbaycanın sərnişindaşıma üzrə tranzit imkanlarının genişləndirilməsi və ölkəyə turist axınının artırılması məqsədilə ölkədə aşağıbüdcəli (*"lou-kost"*) aviaşirkətin yaradılması məsələsi və bu zaman istifadə olunacaq təyyarə parkının müəyyən edilməsi istiqamətində təhlillər aparıla və müvafiq texniki-iqtisadi əsaslandırmalar hazırlana bilər. Eyni zamanda, bu işlərin nəticəsinə əsasən, növbəti addımlar üzrə qərarlar verilə və dövlət-özəl tərəfdaşlığı mexanizminin tətbiqi imkanları araşdırıla bilər. Qeyd olunan layihələr üzrə investisiya qoyuluşları texniki-iqtisadi əsaslandırmalar aparıldıqdan sonra müəyyənləşdirilə bilər.

Dəmir yolları sahəsində dövlət-özəl tərəfdaşlığı. Dövlət-özəl tərəfdaşlığı modelinin dəmir yollarının müəyyən sahələrində tətbiqinin nəzərdən keçirilməsi, o cümlədən dəmir yolları sahəsinin ən çox investisiya tələb edən sahələrindən olan yeni dəmiryol vaqonları və lokomotiv parkının genişləndirilməsi sahəsində dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi və özəl investisiyanın bu sahəyə cəlb edilməsi ilə dövlət büdcəsinin xərc yükünü azaltmaq mümkündür.

Əsas və qeyri-əsas aktivlərin restrukturizasiyası. Əsas dəmir yollarının restrukturizasiyası dəmir yolu şirkətindən əsas və qeyri-əsas aktivləri müəyyənləşdirməyi tələb edir. Adətən, əksər dəmir yolu şirkətlərinin aktiv bazasına şirkətin əsas biznesi üçün vacib olmayan və rəqabət üstünlüyü təmin etməyən aktivlər daxil edilir. Belə aktivlərdən bəziləri ehtiyat daşınmaz əmlak və ya təkrarlanan xidmət şirkətlərindən ibarət ola bilər. Bu aktivlərin ləğv edilməsi şirkətin strukturunun sadələşdirilməsinə, rəhbərliyin diqqətinin vacib mövzulara yönəldilməsinə və işlək kapitalın cəlbinə kömək edə bilər.

Coğrafi restrukturizasiya. Aktivlərin coğrafi restrukturizasiyası formasına görə, ümumi dəmir yolu şirkəti hər biri xüsusi coğrafi region və ya marşruta görə məsuliyyət daşıyan kiçik şirkətlər qrupuna ayrıla bilər. Coğrafi restrukturizasiya rəhbərliyin diqqətinin daha çox yerli sərnişinlərin ehtiyaclarına yönəldilməsinə imkan verir. Belə altbölgünün mühüm bir cəhəti yük və sərnişin daşımalarının ayrılıqda tam fəaliyyət göstərən şəbəkə şəklində olmasıdır. Nəticədə, yaranan hər yeni şirkət fərqli özəlləşdirmə şərtləri ilə ayrıca özəlləşdirilə bilər. Coğrafi restrukturizasiyaya misal olaraq, özəlləşdirmədən əvvəl altı sərnişin şirkətinə və bir yük şirkətinə bölgüsünün aparıldığı Yaponiya Milli Dəmir Yolları qeyd edilə bilər.

Biznes xəttinin restrukturizasiyası. Bu növ restrukturizasiya sərnişin və yük daşınması funksiyalarının bir-birindən ayrılması tələbi baxımından coğrafi restrukturizasiyaya oxşardır. Bu parametr üzrə əlavə restrukturizasiya dəmir yolu aktivlərinin daha çox ayrılmasına gətirib çıxarır. Bu cür bölgü dəmir yolları daha az sayda qatar istismar şirkətlərinə bölündüyü halda dəmir yolu problemlərinin həllində xüsusilə səmərəlidir.

Funksional restrukturizasiya. Belə restrukturizasiya növü dəmir yolu şirkətindən funksional formaların bölgüsünü aparmağı tələb edir. Daha geniş mənada dəmir yolları dörd əsas funksiyanın olmasını tələb edir: qatar əməliyyatları, relsə texniki xidmət, satış və marketinq funksiyaları.

Yuxarıda təsvir edilən restrukturizasiya metodu ilə bağlı ən böyük risklərdən biri belə restrukturizasiya nəticəsində şirkətlər arasındakı qarşılıqlı münasibət və əlaqələndirmənin dəqiq müəyyən edilə bilməməsidir ki, bu da dəmir yollarının keyfiyyət

və etibarlılığını azalda bilər. Dövlətin restrukturizasiya prosesi ərzində düşünülmüş yanaşması və əlaqələndirməsi restrukturizasiya proqramının uğuru üçün vacib amildir.

Restrukturizasiya işlərinin uğurla həyata keçirilməsi üçün dövlət-özəl tərəfdaşlıq modelinin tətbiqi məqsədəuyğun hesab edilə bilər.

Dəniz nəqliyyatı sahəsində özəl sektorun iştirakının təmin olunması

Region üçün əhəmiyyətli olması gözlənilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Ələt qəsəbəsindəki yeni Bakı Limanı kompleksi və azad ticarət zonası, digər strateji layihələrin yekunlaşması, Şərq-Qərb və Şimal-Cənub istiqamətində tranzit yükdaşımanın təşviqi Xəzər dənizində dəniz nəqliyyatı ilə daşınmaların həcmini xeyli artıracaqdır. Bu həcmlərin tələbinə cavab verən, ticari və texniki baxımdan rəqabətqabiliyyətli donanmanın olmasının labüdlüyünü nəzərə alaraq, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə yanaşı, Xəzər dənizində özəl gəmi operatorlarının mövcudluğu da məqsədəuyğundur. Bu özəl operatorların iştirakının təmin edilməsi tranzit yüklərin ölkə ərazisindən sürətli keçidinə böyük töhfə verməklə, dəhlizin əhəmiyyətini artırmış olacaqdır.

Görüləcək tədbirlər

Tədbir 3.1.1: Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi üçün proqramın hazırlanması

Azərbaycanda logistika sahəsində özəl sektorun iştirakının artırılması məqsədilə, aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində uzunmüddətli proqram işlənib hazırlanacaqdır. Həmin proqram çərçivəsində strateji məsələlər və dövlət büdcəsinə maliyyə təsirinin hərtərəfli təhlili həyata keçiriləcəkdir.

Tədbir 3.1.2: Hava yolları sahəsində görüləcək işlərdə özəl sektorun iştirakının qiymətləndirilməsi

Hava yollarında əməliyyatların qabaqcıl dünya ölkələrinin təcrübələri ilə müqayisəli qaydada qiymətləndirilməsi aparılacaqdır. Bu qiymətləndirmə nəticəsində özəl sektorun iştirak payının artırılmasının nəticələri üzrə məqsəd və hədəflər müəyyən ediləcəkdir. Gözlənilən nəticələrin əldə olunması üçün optimal model və struktur müəyyənləşdiriləcəkdir. Aidiyyəti qurumlar tərəfindən yerli və xarici investorlar tərəfdaşlıq qurmaq üçün dəvət ediləcəkdir.

Tədbir 3.1.3: Hava limanlarının infrastrukturunun təkmilləşdirilməsi

2020-ci ilədək olan dövrdə danışıqlar aparılmaqla, "Airbus" və "Embraer" tipli köhnəlmiş təyyarələrin yenilənməsi nəzərdən keçiriləcəkdir.

Aidiyyəti qurumlar beynəlxalq və yerli təyinatlı hava limanlarının infrastrukturunun təkmilləşdirilməsi üçün qısa və uzunmüddətli planlar hazırlayacaq, o cümlədən Heydər Əliyev Beynəlxalq Aeroportunda infrastruktur imkanlarının genişləndirilməsini həyata keçirəcəklər. Görüləcək tədbirlərdə regionların strateji inkişaf tələbləri də nəzərə alınacaqdır.

Tədbir 3.1.4: Aşağıbüdcəli aviaşirkətin yaradılması

2017-ci ilin sonuna qədər aşağıbüdcəli aviaşirkətin yaradılması üçün təyyarə parkının qurulması istiqamətində işlərin görülməsi və bu sahəyə xarici investorların cəlb olunması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdən keçiriləcəkdir.

Tədbir 3.1.5: Dəmir yolları sahəsində özəl sektorun iştirakının təmin edilməsi

Logistika və ticarət sahəsinin inkişafı üçün dəmir yollarında ən çox investisiya tələb edən sahələrə özəl investisiyaların cəlb olunması və ya birgə müəssisələrin yaradılması istiqamətində zəruri addımlar atılacaqdır.

Tədbir 3.1.6: Dəniz nəqliyyatı sahəsində özəl sektorun iştirakının təmin edilməsi

Xəzər dənizindən tranzit yüklərin sürətli keçidinə nail olmaq üçün özəl gəmi operatorlarının yükdaşımada iştirakının təmin olunması sahəsində zəruri tədbirlər görüləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Hava yolu ilə yükdaşımalar logistika sahəsi üçün çox əhəmiyyətli olduğuna görə hava yolu sahəsində özəl sektorun iştirak payının artırılması nəticəsində 2020-ci ildə real ÜDM-in birbaşa 10 milyon manat və dolayı 5 milyon manat olmaqla, ümumilikdə, 15 milyon manat artacağı proqnozlaşdırılır.

Əsas icra göstəricisi hava yolları ilə əməliyyatlardan əldə edilən xalis gəlirin 5 faiz artırılması olacaqdır.

Hava yolları sahəsində strateji tərəfdaşlığın yaradılması əməliyyatlardan əldə ediləcək xalis gəlirlərin artırılmasına imkan verəcək əsas vasitədir.

Mülki aviasiyanın təkmilləşdirilməsi və aşağıbüdcəli aviaşirkətin yaradılması ölkəyə turist axınının artmasına imkan yaradacaqdır.

Tələb edilən investisiya

Bu prioritet üçün tələb olunan investisiya texniki-iqtisadi əsaslandırma aparıldıqdan sonra müəyyən olunacaqdır. Qeyd edilən sahə üzrə investisiya tələbi yüksək olduğu üçün dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqi məqsədəuyğun hesab edilir.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsinin yüksək investisiya tələb edəcəyini nəzərə aldıqda qeyd etmək olar ki, hazırkı vəziyyətdə maliyyə bazarlarındakı volatillik və neft qiymətlərindəki kəskin azalma bu sahəyə xarici investisiyanın cəlb edilməsində çətinliklərin yaranmasına səbəb ola bilər.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 3 milyard 160 milyon manat investisiya tələb olunur. Dövlət Strategiyasında nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, qrantları, texniki və maliyyə yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitlərinin müəyyən edilmiş prioritet hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitlərinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflər ilə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimi və tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şərait yaradacaq, tələb olunduqda kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu (*"delivery unit"*) müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkil olunmasının təmin edilməsinə və zəruri hallarda əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.
- İcraya rəhbərlik olunması, eləcə də tələb olunan resurslar və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün prioritetlər üzrə təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurla tətbiq olunması üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb olunması tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədilə, özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, o cümlədən beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlarla işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.
- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti və beyin mərkəzləri səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə, cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 (on) gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlili və qiymətləndirilməsini, həmçinin işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 (on) gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10.TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. Azərbaycan üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması					
1.1. Azərbaycanın regional əhəmiyyətli logistika və ticarət qovşağı kimi aparıcı mövqeyinin gücləndirilməsi					
1.1.1.	Beynəlxalq ticarətdə logistika sahəsi üzrə Azərbaycanın hədəflərinin müəyyən edilməsi	Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərbaycan Hava Yolları" QSC	• 2020-ci ildə real ÜDM-in 240 milyon manat birbaşa və 140 milyon manat dolayı olmaqla, ümumilikdə, 380 milyon manat artması; • 5500 yeni iş yerinin yaradılması; • regional tranzit ticarət həcminin Orta Asiya və Qara dəniz marşrutu üzrə 40 faiz artması; • regional tranzit ticarət həcminin Orta Asiya və Avropa marşrutu üzrə 25 faiz artması; • regional tranzit ticarət həcminin Çin və Avropa marşrutu üzrə 3 faiz artması; • regional tranzit ticarət həcminin Rusiya və İran marşrutu üzrə 40 faiz artması;	2017
1.1.2.	Logistika üzrə nəzarət mexanizminin və normativ-hüquqi bazanın təkmilləşdirilməsi	Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC		2017
1.1.3.	Hədəflərə çatmaq üçün görüləcək mütəmadi tədbirlər və nəticələr barədə məlumatların təmin edilməsi	Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi	Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC		2018

				• regional tranzit ticarət həcminin İran və Qara dəniz marşrutu üzrə 25 faiz artması.	
1.2. Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu və Astara-Astara dəmir yolu layihələrinin tamamlanması					
1.2.1.	Üç əsas layihənin icrasına nəzarət edilməsi və yaranacaq yeni problemlərin həllinə dəstək göstərilməsi	Nazirlər Kabineti	Nəqliyyat Nazirliyi, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC	• Bu prioritetin 2020-ci ildə real ÜDM-ə birbaşa və dolayı təsiri 1.1-ci prioritetdə hesablanmışdır; • 6700 yeni iş yerinin yaradılması; • layihələrin icrası üzrə monitorinq sistemlərinin qurulması və layihələrin başa çatdırılması.	2017
1.2.2.	Bu sahədə özəl sektorun iştirakının qiymətləndirilməsi	İqtisadiyyat Nazirliyi	Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC		2017
1.2.3.	Üç əsas layihənin həyata keçirilməsi üzrə monitorinq sistemi qurmaqla, vəsaitlərin təyinatı üzrə istifadəsinə nəzarətin həyata keçirilməsi	Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi	Nəqliyyat Nazirliyi, Maliyyə Nazirliyi, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC		
1.2.4.	Əsas icra göstəricilərinin müəyyən edilməsi	Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi	Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC		2017

1.2.5.	Sahə üzrə təhlillərin aparılması və həmin təhlillər əsasında yeni hədəflərin müəyyən edilməsi	İqtisadiyyat Nazirliyi, Nəqliyyat Nazirliyi	Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC		2018
1.3. Logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi					
1.3.1.	Avtomobil nəqliyyatı infrastrukturu ilə bağlı əlavə tədbirlərin görülməsi	"Azəravtoyol" ASC	İqtisadiyyat Nazirliyi, Nəqliyyat Nazirliyi, Maliyyə Nazirliyi	• Bu prioritetin 2020-ci ildə real ÜDM-ə birbaşa və dolayı təsiri 1.1-ci prioritetdə hesablanmışdır.	2017-2020
1.3.2.	Logistika və ticarət sahəsində xarici ekspertlərlə əməkdaşlıq edilməsi	İqtisadiyyat Nazirliyi, Nəqliyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC		2017
1.3.3.	Çatışmazlıqların müəyyən edilməsi və həlli yollarının prioritetləşdirilməsi	İqtisadiyyat Nazirliyi, Nəqliyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC		2017
1.3.4.	Azərbaycanda yükdaşıma və yükaşırma xidmətlərinin təkmilləşdirilməsi	İqtisadiyyat Nazirliyi, Nəqliyyat Nazirliyi	"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC,		2017

			“Azərbaycan Dəmir Yolları” QSC		
1.3.5.	Dəmiryol vaqonlarının təkər cütlüklərinin dəyişdirilməsi əməliyyatlarında Azərbaycanla Gürcüstan arasında daha üst səviyyədə əməkdaşlığın təmin edilməsi	“Azərbaycan Dəmir Yolları” QSC	İqtisadiyyat Nazirliyi		2017
1.3.6.	Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə təhlillərin aparılması	“Azərbaycan Dəmir Yolları” QSC	İqtisadiyyat Nazirliyi		2017
1.3.7.	Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması	Nazirlər Kabineti	İqtisadiyyat Nazirliyi, “Azərbaycan Dəmir Yolları” QSC		
Strateji hədəf 2. Tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi					
2.1.	***Bakının regional əhəmiyyətli ticarət qovşağına çevrilməsi***				
2.1.1.	Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasının hüquqi rejiminin hazırlanması	“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC	İqtisadiyyat Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 110 milyon manat birbaşa və 35 milyon manat dolayı olmaqla, ümumilikdə 145 milyon manat artması; • 2900 yeni iş yerinin yaradılması; • logistika və liman xidmətləri də daxil olmaqla, azad ticarət zonasının fəaliyyətinin təşkili.	2017
2.1.2.	Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonası üçün hədəflərin və əsas icra göstəricilərinin müəyyənləşdirilməsi	“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC	İqtisadiyyat Nazirliyi		2017
2.1.3.	Yeni Bakı Limanı infrastrukturunda və yardımçı xidmətlərdə özəl sektorun iştirakının təmin edilməsi	“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC	İqtisadiyyat Nazirliyi		2017
2.1.4.	Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasında qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün insan kapitalının qiymətləndirilməsi	“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC			2017
2.1.5.	Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonası üzrə normativ-hüquqi bazaya	“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC	Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi		2017

	dəyişikliklərin edilməsi ilə bağlı təkliflər paketinin işlənib hazırlanması və bu sahədə islahatların aparılması				
2.1.6.	Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasına xarici və yerli şirkətlərin cəlb edilməsi, özəl investisiya qoyuluşlarının təşviqi üçün "bir pəncərə" sisteminin tətbiqi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti,		2017
2.1.7.	Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasına beynəlxalq şirkətlərin cəlb edilməsi üçün sərgilərin, o cümlədən satış sərgilərinin təşkil edilməsi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC	İqtisadiyyat Nazirliyi		2018
2.2.	***Ticarətyönümlü emal mərkəzinin yaradılması***				
2.2.1.	Ələt qəsəbəsində yerləşən azad ticarət zonasında müxtəlif sahələr üzrə klasterlərin inkişafı üçün sənaye və altsənaye sektorlarının potensialını qiymətləndirəcək işçi qrupun yaradılması	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC	İqtisadiyyat Nazirliyi	• Real ÜDM-ə birbaşa və dolayı təsir və məşğulluğa təsir müvafiq sektorlar üzrə strateji yol xəritələrində (qida emalı klasteri "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə, əmtəəlik plastmas məmulatlar və gübrələr isə "Azərbaycan	2017
2.2.2.	Ələt qəsəbəsində yerləşən azad ticarət zonasının güclü tərəflərinin və imkanlarının təqdim edilməsi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC	İqtisadiyyat Nazirliyi		2017
2.2.3.	Ələt qəsəbəsində yerləşən azad ticarət zonasında emal klasterləri ilə bağlı investisiya planlarının işlənməsi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC	İqtisadiyyat Nazirliyi		2017
2.2.4.	Ələt qəsəbəsində yerləşən azad ticarət zonasında investisiya qoyuluşlarına dair ilkin öhdəlikləri öz üzərinə götürəcək şirkətlərin təyin edilməsi və yeni investisiyaların cəlb edilməsi istiqamətində tədbirlərin görülməsi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC	İqtisadiyyat Nazirliyi		2018

				Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə) göstərilmişdir.	
2.3.	***Bakıda və ölkənin müxtəlif yerlərində logistika və ticarət mərkəzlərinin yaradılması***				
2.3.1.	Logistika və ticarət mərkəzlərinin yaradılması üçün təhlillərin aparılması və uyğun məkanların seçilməsi	İqtisadiyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Hava Yolları" QSC	• 2020-ci ildə real ÜDM-in 40 milyon manat birbaşa və 25 milyon manat dolayı olmaqla, ümumilikdə, 65 milyon manat artması; • 3800 yeni iş yerinin yaradılması; • Azərbaycanda 5 və ya 6 logistika və ticarət mərkəzinin yaradılması.	2017-2018
2.3.2.	Bölgələrdəki logistika və ticarət mərkəzləri üçün infrastruktur layihələrində özəl sektorun iştirakının təmin edilməsi	İqtisadiyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC		2018
2.3.3.	Bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması və onların idarəolunma mexanizminin müəyyən edilməsi	İqtisadiyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC		2017
2.3.4.	Yaradılacaq logistika və ticarət mərkəzlərində əlavə dəyər yaradan xidmətlərin göstərilməsi üçün yerli və xarici şirkətlərin dəvət olunması	İqtisadiyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC		2018
2.3.5.	Heydər Əliyev Beynəlxalq Hava Limanı ərazisində logistika qovşağının (*"hub"*) yaxın gələcəkdə açılmasının nəzərdən keçirilməsi	"Azərbaycan Hava Yolları" QSC	İqtisadiyyat Nazirliyi		2017-2018
Strateji hədəf 3. Logistika və ticarət sahəsində məqsədlərin gerçəkləşdirilməsi üçün mühüm hərəkətverici mexanizmlərin tətbiqi					
3.1.	***Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi***				

3.1.1.	Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi üçün proqramın hazırlanması	İqtisadiyyat Nazirliyi	"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərbaycan Hava Yolları" QSC	• 2020-ci ildə real ÜDM-in 10 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, ümumilikdə, 15 milyon manat artması; • hava yolları ilə əməliyyatlardan əldə edilən xalis gəlirin 5 faiz artırılması.	2017
3.1.2.	Hava yolları sahəsində görüləcək işlərdə özəl sektorun iştirakının qiymətləndirilməsi	Nazirlər Kabineti	"Azərbaycan Hava Yolları" QSC, İqtisadiyyat Nazirliyi		2017
3.1.3.	Hava limanlarının infrastrukturunun təkmilləşdirilməsi	"Azərbaycan Hava Yolları" QSC	İqtisadiyyat Nazirliyi		2017-2020
3.1.4.	Aşağıbüdcəli aviaşirkətin yaradılması	"Azərbaycan Hava Yolları" QSC	İqtisadiyyat Nazirliyi		2017-2020
3.1.5.	Dəmir yolları sahəsində özəl sektorun iştirakının təmin edilməsi	"Azərbaycan Dəmir Yolları" QSC	İqtisadiyyat Nazirliyi		2017-2018
3.1.6.	Dəniz nəqliyyatı sahəsində özəl sektorun iştirakının təmin edilməsi	"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC	İqtisadiyyat Nazirliyi		2017

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 601

2. QLOBAL TRENDLƏR 627

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 604

3.1. Uyğun qiymətə mənzil təminatı üzrə mövcud vəziyyət 604

3.2. Uyğun qiymətə mənzil təminatı üzrə GZİT təhlili 605

4. STRATEJİ BAXIŞ 606

4.1. 2020-ci ilədək strateji baxış 606

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 606

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 608

5. HƏDƏF İNDİKATORLARI 610

6. STRATEJİ MƏQSƏDLƏR 611

7. STRATEJİ HƏDƏFLƏR 612

7.1. Strateji hədəf 1. Uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi üçün Mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlərin verilməsi 612

7.1.1. Prioritet 1.1. Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun, vəzifələrinin və dəstək sahələrinin müəyyən edilməsi 612

7.1.2. Prioritet 1.2. Uyğun qiymətə mənzil təminatı ilə bağlı hədəflərin və dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi 615

7.2. Strateji hədəf 2. Uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin həyata keçirilməsi 618

7.2.1. Prioritet 2.1. Torpaq sahələrinin müəyyən edilməsi və mülkiyyət hüququnun “MİDA” MMC-yə ötürülməsi 618

7.2.2. Prioritet 2.2. Dövlət mənzil fondunun benefisiarlarının müəyyən edilməsi 621

7.2.3. Prioritet 2.3. Yerli və beynəlxalq özəl sektor iştirakçıları ilə əməkdaşlığın qurulması.. 624

7.2.4. Prioritet 2.4. İpoteka bazarının effektivliyinin təmin edilməsi 627

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 633

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 634

10. TƏDBİRLƏR PLANI 636

1. QISA XÜLASƏ

Azərbaycan əhalisinin mənzilə sahib olmaq imkanlarının artırılması iqtisadi inkişafın dəstəklənməsinə, əhalinin yaşayış səviyyəsinin daha da yüksəlməsinə, iqtisadi canlanmaya və yeni iş yerlərinin açılmasına səbəb olacaq, o cümlədən ipoteka bazarının daha da inkişafına şərait yaradacaqdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (bundan sonra – Mənzil İnşaatı Dövlət Agentliyi) yaradılması artan mənzil tələbatı fonunda tikinti sektorunu stimullaşdırmaq məqsədi daşıyır.

Mənzil İnşaatı Dövlət Agentliyi Azərbaycanda mənzil fondunun inkişafı məqsədilə uyğun qiymətə mənzil təminatı layihələri hazırlayacaq və mənzil bazarının səmərəli fəaliyyətinə şərait yaradan əsas mexanizmlərin (dövlət dəstəyi, layihə resurslarının birləşdirilməsi, özəl sektor tərəfdaşlarının iştirakı və ipoteka bazarının səmərəliliyinin təmin edilməsi) formalaşdırılması və həyata keçirilməsini təşkil edəcəkdir. Agentliyin tabeliyində olan "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – "MİDA" MMC) tikinti layihələrində sifarişçi qismində çıxış edərək, çoxmənzilli yaşayış binalarının tikintisi üçün ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsini təşkil və təmin etmək məqsədilə yaradılmışdır.

2020-ci ilədək strateji baxışda ölkədə mənzil ehtiyacının ödənilməsi və bu məqsədlə yaşayış binalarının və müvafiq sosial infrastrukturun (məktəb, xəstəxana və s.) tikilməsində Mənzil İnşaatı Dövlət Agentliyinin mövqeyinin gücləndirilməsi, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışda şəhərlərin əsaslı və planlı şəkildə yenidən qurulması, 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışda isə rayonlarda da uyğun qiymətə mənzil sektorunun davamlı inkişafı ilə bağlı çatışmazlıqların aradan qaldırılması nəzərdə tutulur. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri rəhbər tutulmaqla, 2020-ci ilədək olan dövr üçün Azərbaycan Respublikasının uyğun qiymətə mənzil təminatı sahəsində aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

- uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi;
- Mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlərin verilməsi;
- uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin həyata keçirilməsi.

Uyğun qiymətə mənzil təminatı üzrə strateji məqsədlərə nail olmaq üçün hər bir prioritet üzrə müxtəlif hədəf indikatorlarından ("MİDA" MMC tərəfindən təhvil verilmiş mənzillərin sayı, mənzillərin orta inşaat müddəti, alıcıların sayı və s.) istifadə edilməsi nəzərdə tutulur. Əsas strateji məqsədlərə Azərbaycan Respublikası vətəndaşlarının, xüsusilə də aşağıgəlirli ailələrin mənzil şəraitinin daha da yaxşılaşdırılması, tikinti sektorunda rəqabət mühitinin artırılması və sektorun inkişaf dinamikasının davamlılığının təmin edilməsi, eləcə də bu istiqamətdə dövlət siyasətinin icrasının təmin edilməsi daxildir.

2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş hədəflərin reallaşması nəticəsində Azərbaycanda 2020-ci ildə real ÜDM-in birbaşa 168 milyon və dolayı 81 milyon manatadək artacağı, tikinti sektorunda 10 minə yaxın yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Təsirin gerçəkləşdirilməsi dövlət–özəl resursları hesabına 900 milyon manat həcmində investisiya qoyuluşu tələb edir.

2. QLOBAL TRENDLƏR

Qeyd etmək lazımdır ki, “uyğun qiymət” anlayışı dünyanın müxtəlif ölkələrinin təcrübələrində fərqli şəkildə izah edilir. Lakin mənzilin alınması üçün çəkilən xərcin ailənin gəlirinin 40–50 faizindən çox olmaması əksər ölkələrdə qəbul olunmuş standartdır.* Aparılan hesablamalara görə, bu gün dünyanın inkişaf etməkdə olan, eləcə də inkişaf etmiş ölkələrində təxminən 330 milyon ailə uyğun qiymətə keyfiyyətli mənzil almaq problemi ilə üz-üzədir və bu göstərici getdikcə artmaqdadır.* Beynəlxalq təcrübədə mənzil xərclərinin azaldılması və əhalinin standartlara cavab verən mənzillərə ehtiyacının ödənilməsi üçün əsasən aşağıdakı dörd istiqamətə diqqət yetirilir:

- uyğun qiymətə mənzillərin tikintisi üçün əlverişli torpaq sahələrinin müəyyənləşdirilib ayrılması;
- mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin çəkilməsi ilə bağlı dövlət dəstəyi mexanizmlərinin tətbiq edilməsi;
- tikinti prosesində səmərəliliyin təmin edilməsi;
- maliyyələşdirmə mexanizmlərinin və benefisiarların seçilməsi.

Torpaq xərcləri mənzil xərcinin əhəmiyyətli hissəsini təşkil etdiyindən, həmçinin, mənzilin yerləşdiyi ərazi mənzilin keyfiyyətinə və sakinlərin yaşayış səviyyəsinə ən çox təsir edən faktorlardan olduğundan, münasib ərazidə uyğun qiymətə torpaqların əldə olunması və mənzil tikintisi üçün istifadə edilməsi mənzil tikintisi agentlikləri üçün müstəsna əhəmiyyət kəsb edir. Bu məsələnin həllinə müxtəlif yanaşmalar mövcuddur. Məsələn, Türkiyədə uyğun qiymətə mənzil təklif edən müvafiq qurum – TOKİ dövlətdən əldə etdiyi və ya əvəzləşdirdiyi torpaqlardan özəl podratçılarla birlikdə uyğun qiymətə mənzillərin inşası üçün istifadə edir. Bu zaman TOKİ həm ƏDV güzəştlərindən faydalanır, həm də torpaq vergisindən azad edilir.

Bundan əlavə, boş qalmış və ya təyinatı üzrə istifadə olunmayan torpaqların istifadəyə verilməsi məsələsinə də xüsusi diqqət ayrılmalıdır. Məsələn, Çin Xalq Respublikasında bir il ərzində təyinatı üzrə istifadə olunmayan torpaqlara dəyərinin 20 faizi qədər vergi tətbiq edilir, iki il ərzində istifadəsiz qalmış torpaqlar isə müsadirə edilə bilər. Oxşar tədbirlər Filippində və Braziliyada da tətbiq edilir. Hətta Nyu-York kimi əhalisinin sıx məskunlaşdığı şəhərdə də yaşayış üçün zonalaşdırılmış torpaqların 10 faizi istifadəsizdir və şəhər meriyası bu torpaqları aşağıgəlirli əhali qrupları üçün uyğun qiymətə mənzillərin tikilməsi məqsədilə istifadə etmək niyyətindədir. Sinqapur kimi məhdud əraziyə sahib bir ölkədə də torpaqların idarə olunması çox mühüm məsələdir. Hazırda dövlətə məxsus torpaqlar Sinqapur ərazisinin 90 faizini təşkil edir.* Ölkədəki qanunlar dövlətə torpaqları bazar dəyərindən daha aşağı qiymətə almağa imkan verir ki, bu torpaqlar da tikinti məqsədilə mənzil inşaatı ilə məşğul olan dövlət agentliyinə ötürülür.

“Torpaqların birləşdirilməsi” üsulunda qonşu ərazilərdə yerləşən torpaqlar birləşdirilərək orada mənzillər tikilir və yekunda torpaq sahibləri ilə, təqdim etdikləri torpağın həcminə müvafiq olaraq, əmlak əvəzləşdirilməsi aparılır. Bu üsul Yaponiyada, Cənubi Koreyada və Hindistanda istifadə olunur. Tikinti üçün torpaq sahələrinin müəyyənləşdirilməsi zamanı nəzərə alınmalı olan mühüm faktorlardan biri bu sahələrdəki infrastrukturun, xüsusilə də nəqliyyat xətlərinin keyfiyyətidir.

---

* Mənbə: MGI (www.globalhousingindicators.org)

Honq-Konqda son 40 il ərzində tikilmiş yeni yaşayış məskənlərinin şəhər mərkəzi ilə birləşdirilməsi üçün dəmiryol xətlərinin salınmasına xüsusi diqqət yetirilmişdir. ABŞ-ın Denver şəhərində uyğun qiymətə mənzil inşaatı ilə yeni nəqliyyat xətlərinin tikintisi paralel aparılır.

Əsasən inkişaf etmiş ölkələrdə tətbiq edilən enerjiyə qənaət tədbirləri vasitəsilə mənzil xərclərinin kifayət qədər azaldılması təmin olunur. ABŞ-da və Böyük Britaniyada mənzillərə tətbiq edilən tələblər sayəsində enerji xərclərində 20-30 faiz qənaətə nail olunmuşdur. Bundan əlavə, Böyük Britaniyada təmirlə bağlı ev sahiblərinə həvəsləndirmələr və yardımlar verilir.*

Bundan əlavə, tikinti prosesinin optimallaşdırılması yolu ilə xərclərdə ciddi azalmalara nail olmaq olar. Bu istiqamətdə təklif olunan ən vacib innovasiya tikinti prosesinin sənayeləşdirilməsidir. Bu zaman nəzərdə tutulan tikintinin mümkün qədər böyük hissəsinin tikinti sahəsindən kənarda və əvvəlcədən həyata keçirilməsi nəzərdə tutulur. Cənubi Afrika Respublikasında uyğun qiymətə mənzil layihəsində tikinti sahəsində əməliyyatların miqyası bu üsulla 25-30 faizə qədər azaldılmışdır. Beynəlxalq təcrübəyə əsasən, bu yolla xərcləri 30 faizədək, layihənin tamamlanma müddətini isə 50 faizədək azaltmaq mümkündür.*

Nəzəri cəhətdən, tikinti prosesində sənayeləşmə sürətini zəiflədən 2 əsas amil vardır: irihəcmli investisiyaya ehtiyac və irihəcmli tələbata ehtiyac. Bu ehtiyaclar kiçik tikinti şirkətləri tərəfindən qarşılana bilmir. Lakin mərkəzləşdirilmiş dövlət agentliyi hər iki tələbi qarşılaya bilər. Məsələn, mərkəzləşdirilmiş material tədarükçüsü yaratmaqla, Böyük Britaniyada xərclərə 30 faizə yaxın qənaət edilmişdir.*

Maliyyələşdirmə imkanlarının genişləndirilməsi də sağlam mənzil bazarının yaradılmasında başlıca amillərdəndir. Bir çox ölkələrdə potensial benefisiarların qarşılaşdığı başlıca çətinlik maliyyə çatışmazlığıdır. Hədəf sosial qrupların gəlir səviyyəsinin orta göstəricidən aşağı olması faktı da onlara təqdim olunan kreditlərin (yüksəkriskli kreditlərin) faizinin yüksək olması ilə nəticələnir. ABŞ-da, Hindistanda və bir sıra başqa ölkələrdə qeyd olunan risk premiumunun azaldılması üçün ipoteka kreditlərinin dövlət tərəfindən sığortalanması həyata keçirilir.

Bundan əlavə, benefisiarların mənzil xərclərinin azaldılmasının digər yolu ipoteka kreditləri təklif edən kredit təşkilatlarının maliyyə qaynaqlarına çıxış imkanlarının genişləndirilməsidir. Malayziyada milli ipoteka təşkilatı digər kredit təşkilatlarına tətbiq edilən bir sıra qaydalardan və məhdudiyyətlərdən azad edilmişdir. Nəticədə, bu təşkilat aşağı faizlə ipoteka krediti təklif edə bilir. ABŞ və Böyük Britaniyada mənzil xərclərinin azaldılması məqsədilə uyğun qiymətə mənzil tikintisi layihələrində iştirak edən şirkətlərə aşağıfaizli kreditlər və vergi güzəştləri tətbiq etməklə, mənzil qiymətlərinin daha da aşağı salınması hədəflənir.

Uyğun qiymətə mənzillərin satışından əlavə, Niderland Krallığı və ABŞ-da müəyyən meyarlara cavab verən şəxslər üçün kirayə mənzil imkanı da təklif olunur və onlara kirayə haqqının ödənilməsində dövlət tərəfindən yardım edilir. Türkiyədə isə benefisiarlar müəyyən edilmiş müddətdə kirayə haqqı ödədikdən sonra mənzilin sahibinə çevrilirlər.

* Mənbə: MGI (www.globalhousingindicators.org)

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Uyğun qiymətə mənzil təminatı üzrə mövcud vəziyyət

Hazırda Azərbaycanda mənzilə sahiblik faizi beynəlxalq standartlarla müqayisədə çox yüksək olsa da, yeni mənzil bazarında, xüsusilə də Mənzil İnşaatı Dövlət Agentliyinin hədəf qruplarının iştirakçısı olduğu seqmentlərdə tələb təklifi üstələyir. Azərbaycan əhalisinin mənzil sahibi olmaq imkanlarının artırılması iqtisadi inkişafa, əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə, iqtisadi canlanmaya və yeni iş yerlərinin yaradılmasına səbəb olacaq, o cümlədən ipoteka bazarının inkişafına şərait yaradacaqdır. Azərbaycanda Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması, mənzil təminatına artan tələbatı nəzərə alaraq, mənzil tikintisi sahəsində inkişafı stimullaşdırmaq məqsədi daşıyır.

Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində yaradılmış "MİDA" MMC öz fəaliyyətini sərəncamına verilmiş torpaq sahələrində və bağladığı mülki-hüquqi əqdlər əsasında əldə etdiyi torpaq sahələrində həyata keçirir və həmin torpaq sahələrində tikinti obyektlərinin inşa olunmasını sifariş edir. Əhalisi sıx və adambaşına düşən yaşayış sahəsi kiçik olan, habelə iş yeri mərkəzlərinin, nəqliyyat və müvafiq sosial infrastrukturun mövcudluğu və yüksək urbanizasiya səviyyəsi ilə səciyyələnən ərazilər uyğun qiymətə mənzil təminatında prioritet sahələr kimi müəyyən edilmişdir.

Uyğun qiymətə mənzil təminatı layihələrinin icraolunma ardıcıllığının müəyyən edilməsi zamanı əlavə meyar kimi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən müvafiq proqramlar çərçivəsində dövlət orqanları, təşkilatları və müəssisələrinin işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması, qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həlli, habelə əhalinin digər az və orta gəlirli sosial qruplarının payı nəzərə alınmalıdır. Uyğun qiymətə mənzillərin əlçatanlığının artırılması ölkə daxilində inkişafı gücləndirəcək və iqtisadi canlanma yaradacaqdır. Azərbaycanda uyğun qiymətə mənzil təminatından yararlanmaq imkanlarının artırılması və daşınmaz əmlak bazarının sabitliyi təmin ediləcəkdir. Nəticədə, yerli və xarici investorlar tərəfindən bu sahəyə daha inamla investisiya qoyuluşu təmin ediləcəkdir.

Mənzil İnşaatı Dövlət Agentliyi aşağıdakı istiqamətlər üzrə fəaliyyət göstərəcəkdir:

- təşkilatın işçi heyətinin və əsas imkanlarının formalaşdırılması;
- ilkin fəaliyyət mərhələsində aşağıriskli layihələrin müəyyən edilməsi;
- əhalinin sıx yerləşdiyi və tələbatın yüksək olduğu yerlərdə mənzil tikintisinin həyata keçirilməsi;
- mənzil təminatı ilə bağlı yeni siyasətin həyata keçirilməsi üçün hüquqi bazanın formalaşdırılması və səlahiyyətlərin Mənzil İnşaatı Dövlət Agentliyinə aydın şəkildə ötürülməsi;
- əsas strategiyanın müəyyən edilməsi və milli mənzil təminatı planının (dövlət proqramının) layihəsinin hazırlanması;
- gələcəkdə şəhərlərin əsaslı şəkildə yenidən qurulması və məhəllələrin abadlaşdırılması layihələrinin həyata keçirilməsi.

3.2. Uyğun qiymətə mənzil təminatı üzrə GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
• sosial layihə olması (ictimai dəstək); • ölkə ərazisini tam əhatə etməsi (regionların da layihəyə cəlb olunması); • inzibati resurslara çıxış imkanı (dövlət dəstəyi); • ictimai vəsaitlərdən səmərəli istifadə edilməsi (ipoteka proqramından fərqli olaraq mənfəət normasına sərf edilməməsi); • bu sahədə analoji təcrübənin olması (qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üzrə layihələrin icrası); • rəqabət mühitinin dərinləşməsi (daşınmaz əmlak bazarında yeni iştirakçının – "MİDA" MMC-nin yaranması); • bu sahənin davamlılığı (əhalinin artım sürəti).	• qanunvericilik bazasının tam formalaşmaması; • icra strukturunun yeni qurum olması (Mənzil İnşaatı Dövlət Agentliyi, "MİDA" MMC); • investisiyaların cəlb edilməsi imkanlarının məhdudluğu (əsas strategiya uyğun qiymətə mənzil təminatı olduğundan mənfəət normasının az olması); • ilk dövrlərdə müqayisəli təkliflərin məhdud olması (potensial tələblərin mərhələli şəkildə ödənilməsi).
İmkanlar	**Təhlükələr**
• dövlət mülkiyyətindən yararlanma və xüsusi mülkiyyətin cəlb edilmə imkanının olması (Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyətləri orqanları və bələdiyyələr tərəfindən torpaq təminatı); • maliyyə dayanıqlılığı (dövlət büdcəsi, Azərbaycan Respublikasının Dövlət Neft Fondu, "Azərbaycan İpoteka Fondu" ASC); • çoxlu sayda təcrübəli yerli və xarici tikinti şirkətlərinin olması; • layihə dəyərinin optimallaşdırılması imkanı (rəqabətli mühit); • orta və uzunmüddətli dövr üzrə əhalinin ödəmə qabiliyyətinin artım proqnozu (2017-ci ildə 45,75 milyard manat, 2018-ci ildə 47,76 milyard manat, 2019-cu ildə 49,89 milyard manat); • mənzil tələbatının yüksək səviyyədə qalması.	• özəl sektorda tələbin azalması; • özəl sektorda təşəbbüskarlığın zəifləməsi.

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

Uyğun qiymətə mənzil təminatı sahəsində 2020-ci ilədək strateji baxış ölkədə mənzil ehtiyacının azaldılması və bu məqsədlə yaşayış binalarının və müvafiq sosial infrastrukturun tikintisində Mənzil İnşaatı Dövlət Agentliyinin mövqeyinin gücləndirilməsindən ibarətdir.

Strateji baxışın şərhi

Azərbaycanda vətəndaşların uyğun qiymətə mənzil təminatı sahəsində 2020-ci ilədək geniş strateji hədəflər müəyyən edilmişdir (daha ətraflı məlumat növbəti fəsildə verilir). Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsində (bundan sonra – Strateji Yol Xəritəsi) müəyyən edilmiş hədəflərə nail olmaq üçün bu sənədin üçüncü fəslində təsvir edilmiş mövcud vəziyyət nəzərə alınmaqla, 6 prioritet üzrə tədbirlər görüləcək, müvafiq imkanlardan və üstünlüklərdən tam istifadə ediləcəkdir. 2020-ci ilədək strateji baxışda 2025-ci il üzrə uzunmüddətli baxışın aşağıdakı komponentləri prioritet təşkil edəcəkdir:

- təxirəsalınmaz mənzil ehtiyaclarının qarşılanması üçün "MİDA" MMC tərəfindən uyğun qiymətə mənzil təminatı layihələrinin hazırlanması və həyata keçirilməsinin təşkili;
- uyğun qiymətə mənzillərin, həmçinin müvafiq sosial infrastrukturun, ictimai binaların (inzibati, qeyri-yaşayış və s.) tikintisində "MİDA" MMC-nin mövqeyinin daha da gücləndirilməsi üçün müvafiq normativ hüquqi baza yaratmaqla, Mənzil İnşaatı Dövlət Agentliyinə dəstək verilməsi və maliyyə vəsaitlərinin cəlb edilməsi.

6 prioritet üzrə tədbirlərin icra edilməsi nəticəsində Azərbaycanda 2020-ci ildə real ÜDM-in 250 milyon manat artacağı və bu sektorda 6000 əlavə iş yerinin yaradılacağı proqnozlaşdırılır.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışda şəhərlərin əsaslı və planlı şəkildə yenidən qurulması və urbanizasiyanın inkişafı nəzərdə tutulmuşdur.

Uzunmüddətli baxışın şərhi

Azərbaycan əhalisi "MİDA" MMC vasitəsilə keyfiyyət standartlarına cavab verən mənzillərlə təmin ediləcək və urbanizasiyanın inkişafı dəstəklənəcəkdir.

Ölkənin hər bir rayonunda əhalinin mənzil ehtiyacının ödənilməsinə hərtərəfli nəzarət ediləcək, mövcud tələbat mütəmadi araşdırmalar aparılmaqla hazırlanması nəzərdə tutulan qısa və uzunmüddətli mənzil təminatı planı (dövlət proqramı) əsasında qarşılanacaq, eləcə də şəhərlərin əsaslı və planlı şəkildə yenidən qurulması təmin ediləcəkdir. Mənzilə ehtiyacı olan ailələrin mənzillə təmin edilməsini, qanunsuz tikililərin köçürülməsi və bu cür tikililərin yaranmasına qarşı tədbirləri nəzərdə tutan plan əsasında şəhərlərin inkişaf etdirilməsi, eləcə də tikinti sektorunun fəaliyyətinin yerli və xarici investorlar tərəfindən dəstəklənməsi məqsədilə ardıcıl və sistemli tədbirlər planı işlənərək həyata keçiriləcəkdir.

Ölkənin regionlarının inkişaf etdirilməsi üçün uyğun qiymətə mənzil təminatı həyata keçirilməli və əsas diqqət mənzil təminatına ciddi ehtiyac duyan ailələrə

yönəldilməlidir. Burada əsas məqsəd uyğun qiymətə mənzil təminatında yaranmış çatışmazlıqları "MİDA" MMC-nin görəcəyi tədbirlər sayəsində 2025-ci ilədək aradan qaldırmaqdan ibarətdir. Uyğun qiymətə mənzil təminatı layihələri və hər il tikilən mənzillər aşağı və ortagəlirli gənc ailələrin və müəyyən edilmiş sosial qrupların mənzil ehtiyaclarının ödənilməsinə xidmət edəcəkdir.

Bu dövrdə nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi, eləcə də Mənzil İnşaatı Dövlət Agentliyinə müvafiq səlahiyyətlərin verilməsi üçün lazımi hüquqi baza yaradılacaqdır. Hüquqi və maliyyə tədbirlərinə əlavə olaraq tikinti şirkətlərinə və alıcılara maliyyə dəstəyinin verilməsi, uyğun qiymətə mənzil təminatı layihələri üçün dövlət mülkiyyətində olan torpaq sahələrinin ayrılması kimi təşəbbüslərə dəstək mexanizmləri hazırlanacaqdır.

Dövlət və yerli idarəetmə orqanları "MİDA" MMC-nin hazırladığı uyğun qiymətə mənzil təminatı layihələri üçün şəhər (rayon) mərkəzlərində və şəhər (rayon) mərkəzlərindən kənarda torpaq sahələri ayıracaqlar. Müvafiq torpaq sahələrinin müəyyən edilməsi və onların mülkiyyət hüququnun "MİDA" MMC-yə ötürülməsi xərclərin azalmasına və layihələrin birləşdirilməsinə şərait yaradacaqdır. "MİDA" MMC bundan sonra ərazi üzrə bazar qiymətinə uyğun həyata keçirdiyi layihələrdən əldə etdiyi gəlirlərlə orta bazar qiymətindən aşağı layihələri maliyyələşdirəcəkdir.

Mənzil İnşaatı Dövlət Agentliyi uyğun qiymətə mənzil təminatı layihələrinin hazırlanmasında əsas diqqəti aşağı və ortatəminatlı ailələrin mənzil ehtiyaclarının aradan qaldırılmasına yönəldəcəkdir. "MİDA" MMC benefisiarları uyğun qiymətə mənzillə təmin edəcək və ya həmin mənzilləri dövlət sifarişi əsasında müəyyənləşdirilən vətəndaşlara təqdim edəcəkdir. "MİDA" MMC bu fəaliyyət istiqaməti üzrə yüksək gəlirin əldə edilməsinə deyil, əhalinin sosial rifahının və mənzil təminatının yaxşılaşdırılmasına səy göstərəcəkdir.

Bununla belə, "MİDA" MMC-nin davamlı fəaliyyət göstərməsi üçün premium məhəllələrdə yüksəkgəlirli mənzil-tikinti layihələrinin həyata keçirilməsinə də diqqət yetiriləcəkdir. Belə ki, Cəmiyyət boş torpaq sahələrini müəyyən edəcək və uyğun məhəllələrdə elit yaşayış komplekslərinə olan tələbatı qiymətləndirəcəkdir. Bununla da "MİDA" MMC bazar qiymətinə olan layihələrdən əldə etdiyi gəlir payından ərazi üzrə orta bazar qiymətindən aşağı qiymətə olan mənzil təminatı layihələrini subsidiyalaşdıraraq, öz davamlı fəaliyyətini təmin edəcəkdir.

Torpaq sahələrinin seçilməsi prosesi Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən "MİDA" MMC-nin təklifləri əsasında aparılacaqdır. "MİDA" MMC-nin bu məqsədlər üçün mövcud olan kadastr və s. məlumatlara çıxış imkanı təmin ediləcək və digər orqanlarla səmərəli əməkdaşlıq qurulacaqdır. Bu tədbirlər 2025-ci ildən sonrakı dövr üçün nəzərdə tutulan gələcək mənzil təminatı layihələrində torpaq sahələrinin müəyyən edilməsinə şərait yaradacaqdır. Eyni zamanda, bu tədbirlər qeydiyyat orqanlarının həyata keçirdiyi fəaliyyətlə yanaşı, torpaqlar üzərində hüquqların təsdiqlənməklə dövlət reyestrinə daxil edilməsinə, respublikanın ümumi torpaq kadastrının təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Müvafiq dövlət qurumlarının iştirakı ilə Mənzil İnşaatı Dövlət Agentliyi və "MİDA" MMC uyğun qiymətə mənzillərin bölüşdürülməsi və benefisiarların seçilməsi üçün şəffaf sistem yaradacaq, eləcə də hər bir layihənin xüsusiyyətinə uyğun benefisiarların müəyyən edilməsi üçün müvafiq meyarlar hazırlayaraq ictimaiyyətə açıqlayacaqlar. Benefisiarlar ehtiyacdan və dövlətin siyasətindən asılı olaraq ehtiyac, ünvanlı qrup və dövlət sifarişi əsasında müəyyən ediləcəklər.

Azərbaycanda layihələrin inkişafı əlverişli tədbirlərlə və Mənzil İnşaatı Dövlət Agentliyi vasitəsilə sürətləndiriləcəkdir. Ölkədə mənzillərin tikintisi üçün uyğun icra modellərindən (məsələn, yerli və xarici özəl tikinti şirkətlərinin cəlb edilməsi üçün dövlət-özəl tərəfdaşlığı və ya dövlət sektorunun icra modeli) istifadə ediləcəkdir. Özəl

tikinti şirkətləri tenderlərin keçirilməsi və şirkətlərin seçilməsi meyarları əsasında (məsələn, təşkilati bacarıq, tərəfdaşlığın potensialı və keyfiyyəti, maliyyə sabitliyi, daşınmaz əmlakın tikintisi sahəsində əldə edilmiş təcrübə və mənzil tikintisinə tətbiq edilən yanaşma) layihələrdə iştirak hüququ qazanacaqlar. "MİDA" MMC uyğun qiymətə mənzil təminatı planı əsasında yerli və beynəlxalq tikinti şirkətləri ilə əlaqə yaradacaq və layihənin tələblərinə uyğun model seçəcəkdir.

Xarici investorları (o cümlədən beynəlxalq təşkilatları) mənzil təminatı layihələrinə cəlb etməklə, tikinti sektoruna xarici investisiyaların yatırılmasına və qabaqcıl beynəlxalq təcrübənin mənimsənilməsinə şərait yaradılacaq, bununla da tikinti sektoru inkişaf edəcək və "MİDA" MMC-nin layihələrində iştirak edən yerli tikinti şirkətlərinin sayı artacaqdır.

Uyğun qiymətə mənzil təminatı layihələri vasitəsilə tikinti sektorunun inkişafı bu sektorda məşğulluq səviyyəsini artıracaq, həmçinin tikinti materiallarının istehsalı və ticarəti də inkişaf etdiriləcəkdir.

Bu sektorda əsas hərəkətverici qüvvə olan Azərbaycan hökuməti seçilmiş benefisiarlara mülkiyyət hüququnun verilməsinə kömək edəcək və ipoteka bazarının sağlam inkişafını təmin edəcəkdir. Hüquqi bazanın və əmlakın qeydiyyatı sisteminin gücləndirilməsi, əmlak hüquqlarının qeydiyyatına dair qanunvericilikdə mövcud olan mexanizmlərlə bağlı hüquqi boşluqların aradan qaldırılması (məsələn, əmlak hüquqlarının qabaqcadan qeydiyyatı), kredit standartlarının və məlumat infrastrukturunun müəyyən edilməsi, habelə ipoteka istiqrazlarının reytinqinin yüksəldilməsi ipoteka bazarının inkişafına səbəb olacaqdır. "Azərbaycan İpoteka Fondu" ASC (bundan sonra – "AİF" ASC), "MİDA" MMC və maliyyə sektorunda fəaliyyət göstərən müvafiq qurumlar tələb edilən dəyişikliklərin layihəsinin hazırlanmasında əməkdaşlıq edəcəklər.

Uyğun qiymətə mənzil təminatı layihəsinin benefisiarlarının ipoteka kreditlərindən istifadəsinə dövlət dəstəyinin və koordinasiyasının təmin edilməsi üçün "AİF" ASC və "MİDA" MMC arasında sıx əməkdaşlıq qurulacaqdır. Uyğun qiymətə mənzil təminatı üçün nəzərdə tutulan ipoteka krediti məhsulları həmin mənzillərin qiymətini, ipoteka kreditinin maksimum məbləğini və ilkin ödənişin minimum məbləğini özündə əks etdirəcəkdir. İpoteka kreditlərinin verilməsi üçün nəzərdə tutulan inzibati proseslər sistemin səmərəliliyinin təmin edilməsi üçün yenilənəcəkdir.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış rayonlarda da uyğun qiymətə mənzil təminatının davamlı inkişafını, həmçinin, qanunsuz tikililərin abadlaşdırılması üçün tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Hədəf baxışın şərhi

2025-ci ildən sonrakı dövrdə uyğun qiymətə mənzil təminatı sahəsinin davamlı inkişaf etməsi üçün Mənzil İnşaatı Dövlət Agentliyinin Əmlak Məsələləri Dövlət Komitəsinin (bundan sonra – ƏMDK) reyestr xidmətindən maneəsiz istifadəsi təmin ediləcəkdir. Azərbaycanda mövcud olan bütün torpaq sahələri barədə geniş məlumatı özündə əks etdirən mərkəzi məlumat bazasından istifadə imkanı "MİDA" MMC-nin öz layihələrini daha məqsədyönlü və aydın tərzdə hazırlamasına kömək edəcəkdir.

Beləliklə, Mənzil İnşaatı Dövlət Agentliyi ƏMDK-nın reyestr xidmətindən istifadə etməklə aşağı, orta və yüksəkgəlirli layihələrdə mənzil tikintisi üçün nəzərdə tutulan potensial torpaq sahələrini daha asan müəyyən edə biləcək və şəhər ərazisində yerləşən torpaq resurslarından daha səmərəli istifadə edəcəkdir.

Mənzil İnşaatı Dövlət Agentliyi 2025-ci ildən sonrakı dövrdə təşkilati strukturunu, imkanlarını və resurslarını yeniləyərək, şəhərlərin əsaslı şəkildə yenidən qurulması və qanunsuz tikililərin yerləşdiyi ərazilərin abadlaşdırılması üçün rayonlar üzrə planlaşdırma tədbirləri həyata keçirəcək, ictimai və hökumət binaları tikəcəkdir.

Rayonlar üzrə planlaşdırma tədbirləri lazımi səviyyədə planlaşdırılmayan məhəllələrin əsaslı surətdə yenidən qurulmasını təmin edəcəkdir. Belə tədbirlərə mənzil təminatı və şəhərsalmanın daha yaxşı planlaşdırılması (məsələn, nəqliyyat qovşaqlarına yaxınlığın təmin edilməsi) daxildir.

Mənzil İnşaatı Dövlət Agentliyi bu tədbirlər çərçivəsində əhalinin məskunlaşdığı hər bir rayon üzrə mənzil ehtiyaclarını təhlil edəcək və təhlil zamanı urbanizasiya cərəyanının bir hissəsi olan mümkün genişmiqyaslı əhali axınını nəzərə alacaqdır. Mənzil İnşaatı Dövlət Agentliyi ətraf ərazilərdə mümkün tikinti zonalarını müəyyən edəcək, tikinti şirkətləri ilə binaların, o cümlədən ətraf ərazilərdə yerləşən tikililərin layihələndirilməsi və xərcləri ilə bağlı danışıqlar aparacaqdır.

2025-ci ilədək və ondan sonrakı dövrdə aşağı və ortatəminatlı gənc ailələr mənzillə təmin ediləcək, Mənzil İnşaatı Dövlət Agentliyinin dəstəyi ilə mövcud mənzil fonduna, mənzillərin yaşına və keyfiyyətinə nəzarət ediləcək və müvafiq yeni layihələrin işlənərək hazırlanması təmin ediləcəkdir.

Rayonlar üzrə planlaşdırmanın həyata keçirilməsi, özbaşına tikililərin abadlaşdırılması, yeni rayonların salınması və mövcud mənzil fondunun yenilənməsi üçün şəhərlərin əsaslı şəkildə yenidən qurulması planı hazırlanacaq və həmin plan "MİDA" MMC vasitəsilə həyata keçiriləcəkdir. Belə yenidənqurma planına qanunsuz tikililərin yerləşdiyi məhəllələr, o cümlədən keçmiş Sovet İttifaqı dövründən qalmış yaşayış binaları daxil ediləcəkdir.

Şəhərlərin əsaslı şəkildə yenidən qurulması zamanı aşağıdakı əsas istiqamətlərə diqqət yetiriləcəkdir:

- mövcud kommunal xidmət sistemlərindən istifadə imkanlarının artırılması;
- psixoloji rahatlığın təmin edilməsi.

Mənzil İnşaatı Dövlət Agentliyi böyük yenidənqurma layihələrinə əlavə olaraq, tələb edilən ictimai binaların, məsələn məktəblərin, xəstəxanaların, nəzarət məntəqələrinin, stadionların və s. tikintisini rayonların layihələndirilməsi çərçivəsində həyata keçirəcəkdir. Mənzil İnşaatı Dövlət Agentliyi dövlət sifarişi əsasında lazımi yaşayış, inzibati və s. binaların tikintisinə və bu istiqamətdə müqavilələrin bağlanmasına nəzarət etmək imkanlarını artıracaqdır.

Uyğun qiymətə mənzil təminatı sahəsində həyata keçirilən genişmiqyaslı fəaliyyət nəticəsində tikinti sektoru 2025-ci ildən sonrakı dövrdə daha da inkişaf edəcəkdir. "MİDA" MMC-nin tender yolu ilə özəl sektor iştirakçılarını cəlb etməsi yerli tikinti şirkətlərinin daha da inkişaf etməsinə səbəb olacaqdır. Uyğun qiymətə mənzil təminatı layihələrində təcrübə qazanmış yerli tikinti şirkətləri arasında "çempionlar", yəni aparıcı şirkətlər müəyyən ediləcək və həmin şirkətlər mənzil-tikinti xidmətlərini qonşu ölkələrdə də həyata keçirə biləcəklər.

"MİDA" MMC yerli işçi qüvvəsinin, tikinti materiallarının, mühəndislik xidmətlərinin və digər xidmətlərin istifadəsi baxımından tikinti şirkətlərinin tender yolu ilə müəyyən edilməsi üçün bütün lazımi tədbirləri görəcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Uyğun qiymətə mənzil təminatı üzrə strateji məqsədlərə nail olunmasının səmərəliliyini müəyyən etmək üçün hər bir prioritet üzrə müxtəlif hədəf indikatorlarından istifadə edilməsi nəzərdə tutulur. Belə ki, Strateji Yol Xəritəsində nəzərdə tutulmuş məqsədlərə nail olmaq nəticəsində:

- 2020-ci ildə Azərbaycanın real ÜDM-inin 168 milyon birbaşa və 81 milyon dolayı olmaqla, ümumilikdə 249 milyon manat artacağı;
- tikinti sektorunda 10000 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Bu sahədə müəyyən edilmiş prioritetlər üzrə hədəf indikatorları aşağıdakılardır:

- Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun, vəzifələrinin və dəstək sahələrinin müəyyən edilməsi, uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi səviyyəsi;
- effektiv təşkilati strukturun yaradılması, eləcə də inkişaf planının hazırlanması, Mənzil İnşaatı Dövlət Agentliyinin öz Əsasnaməsində nəzərdə tutulmuş vəzifələrin icrasını təminetmə imkanları;
- "MİDA" MMC tərəfindən həyata keçirilən xidmətlərin böyük hissəsinin "Elektron hökumət" portalı vasitəsilə yerinə yetirilməsi;
- "MİDA" MMC tərəfindən təhvil verilən mənzillərin sayı;
- mənzillərin orta inşaat müddəti;
- alıcıların sayı;
- istifadəsiz torpaq sahələrinin 5 faizinin bu Strateji Yol Xəritəsinin icrası zamanı dövriyyəyə cəlb edilməsi;
- dövlət mülkiyyətində olan boş torpaq sahələrinin mənzil tikintisinə cəlb edilməsi nəticəsində layihələrin icra xərclərinin 10 faiz azaldılması;
- dövlət mənzil fondu benefisiarlarının hədəf sosial qruplardan seçilməsi səviyyəsi və təsnif edilmiş sosial qruplar üzrə benefisiarların sayı;
- seçilmiş sosial qrupa daxil olan ailələrin 10 faizinin növbəti 10 ildə mənzillə təmin olunması;
- urbanizasiya probleminin azalması;
- bu günədək mənzillə təmin edilməmiş qaçqın və ya məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşması;
- ölkənin tikinti sektoruna xarici investisiyaların cəlb edilməsi;
- qabaqcıl beynəlxalq təcrübənin tətbiqi prosesinin sürətlənməsi;
- rəqabət mühitinin tam təmin edilməsi sayəsində layihələrin xərclərinə 10 faizdən artıq qənaət imkanı;
- tenderdə iştirak edən yerli və xarici tikinti şirkətlərinin sayı;
- dövlət vəsaitindən səmərəli istifadə məqsədilə güzəştli ipoteka üçün ayrılan büdcə vəsaitlərinin "MİDA" MMC-nin uyğun qiymətə mənzil təminatı layihələrinə cəlb edilməsi nisbətinin müəyyən edilməsi və indikator kimi istifadə olunması;
- ipoteka məqsədilə ayrılan vəsaitlərin aztəminatlı vətəndaşlar tərəfindən istifadəsi nisbətinin müəyyən edilməsi və indikator kimi istifadə olunması;
- "MİDA" MMC-nin benefisiarlara satdığı mənzillər üçün "AİF" ASC-nin verdiyi kreditlərin ümumi sayı;
- "AİF" ASC və "MİDA" MMC tərəfindən seçim meyarlarının uzlaşdırılmasının birgə nəzərdən keçirilməsi .

6. STRATEJİ MƏQSƏDLƏR

Strateji Yol Xəritəsində aşağıdakı əsas strateji məqsədlər müəyyən edilmişdir:

- Azərbaycan Respublikası vətəndaşlarının yaşayış sahəsinə olan ehtiyacının ödənilməsi, xüsusilə azgəlirli ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması;
- əhalinin sosial müdafiəsinin gücləndirilməsi;
- urbanizasiya prosesinə nəzarət imkanlarının genişləndirilməsi;
- tikinti sektorunda rəqabət mühitinin gücləndirilməsi;
- tikinti sektorunda inkişaf dinamikasının sürətləndirilməsi;
- dövlət vəsaitindən səmərəli istifadənin təmin edilməsi;
- ekoloji cəhətdən təmiz və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli yaşayış massivlərinin tikilməsi;
- şəhərsalma və tikinti sahəsində dövlət idarəetməsinin təkmilləşdirilməsi.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. Uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi üçün Mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlərin verilməsi

Qabaqcıl dünya təcrübəsinə əsaslanan milli mənzil təminatı qurumunun rəhbərliyi altında müasir standartlara cavab verən mənzil təminatı sisteminin qurulması ölkəyə iqtisadi və sosial baxımdan fayda gətirəcəkdir.

Azərbaycanda bu sahədə fəaliyyət göstərən dövlət qurumuna lazımi səlahiyyətlərin verilməsi uyğun qiymətə mənzil təminatının inkişafı üçün mühümdür. Bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi yaradılmışdır. Mənzil İnşaatı Dövlət Agentliyi ölkədə qabaqcıl təcrübələri tətbiq etmək, maraqlı tərəfləri əlaqələndirmək və uyğun qiymətə mənzil təminatı sektoruna effektiv nəzarət etmək imkanlarına malikdir.

Eyni zamanda, həmin Fərmanla çoxmənzilli binaların tikintisini həyata keçirmək, eləcə də çoxmənzilli yaşayış binalarının tikintisi üçün ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsini təşkil və təmin etmək məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti ("MİDA" MMC) yaradılmışdır. "MİDA" MMC-nin fəaliyyətinin əsas məqsədi sərəncamına verilmiş, bağladığı mülki hüquqi əqdlər və fəaliyyəti əsasında əldə etdiyi torpaq sahələrindən, habelə digər əmlakdan səmərəli istifadə etməklə, vətəndaşların yaşayış sahələrinə olan ehtiyacını güzəştli qaydada ödəməkdən və mənzil-məişət şəraitini yaxşılaşdırmaqdan ötrü müasir memarlıq üslubunda, ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli binaların tikilməsini təmin etməkdir.

Uyğun qiymətə mənzil təminatı proqramının nəzərdə tutulmuş qaydada həyata keçirilməsinə nail olmaq məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlər verilməli, o cümlədən uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin işə salınması təşkil edilməlidir. Bu hədəflərə çatmaq üçün zəruri həcmdə əlverişli torpaq bazasının təmin edilməsi, uyğun qiymətə mənzillərin potensial alıcılarının müəyyən edilməsi, dövlət dəstəyi mexanizmlərinin tətbiqi, yerli və beynəlxalq özəl sektor iştirakçıları ilə əməkdaşlığın qurulması və digər prioritetlərin effektiv icrası olduqca mühümdür.

7.1.1. Prioritet 1.1. Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun, vəzifələrinin və dəstək sahələrinin müəyyən edilməsi

Əsaslandırma


Mənzil İnşaatı Dövlət Agentliyi inkişaf mərhələsində olduğu üçün onunla bağlı bir çox detallar (təşkilati strukturu, vəzifələri, hüquqi infrastrukturu və s.) qabaqcıl təcrübələr əsasında müəyyən edilməlidir.

Uyğun qiymətə mənzil təminatının həyata keçirilməsi üçün dövlət qurumunun yaradılması dünyada geniş yayılmış təcrübədir. Dünya ölkələrində fəaliyyət göstərən mənzil təminatı təşkilatları əksər hallarda dövlət mülkiyyətində olan torpaq

sahələrindən istifadə etməklə, rayonlar üzrə mənzil təminatının planlaşdırılması, layihələrin icrasında özəl sektorla əməkdaşlıq qurulması, dövlət və özəl sektordan maliyyələşmənin təmin edilməsi kimi vəzifələri yerinə yetirir. Məsələn, Türkiyədə mənzil təminatı sektorunda "çətir" təşkilatı kimi fəaliyyət göstərən TOKİ yaradılmışdır və onun əsas fəaliyyət sahələrinə az və ortatəminatlı ailələr üçün mənzil təminatı layihələrinin işlənib hazırlanması və şəhərlərin əsaslı şəkildə yenidən qurulması daxildir. Braziliyada iqtisadi artımın sürətləndirilməsi layihəsi çərçivəsində "*Minha Casa Minha Vida*" ("Mənim evim, mənim həyatım") adlı analoji dövlət proqramı yaradılmışdır. Dövlət bankları bu proqram çərçivəsində seçilmiş ailələrə ipoteka kreditləri verirlər. Mərakeşdə isə Mənzil Təminatı Nazirliyi dövlət mülkiyyətində olan torpaq sahələrində imkansız ailələr üçün vergidən azad evlərin tikintisini həyata keçirir.

Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunda, ilk növbədə, əsas bölmələr müəyyən edilə və Agentliyin fəaliyyət sahəsi genişləndikcə yeni struktur bölmələr (məsələn, daşınmaz əmlak, sosial xidmətlər, şəhərsalma və icra/layihə bölmələri) əlavə edilə bilər (şəkil 1). Beynəlxalq təcrübədə mənzil təminatının inkişafına davamlı diqqət yetirilməsi üçün mənzil təminatı qurumu tabeliyində olduğu yuxarı dövlət orqanına hesabat verir. Mənzil İnşaatı Dövlət Agentliyi bu təcrübədən istifadə edə bilər.

Şəkil 1. Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun əsas bölmələrdən ibarət ilkin forması



Mənzil İnşaatı Dövlət Agentliyi və tabeliyində fəaliyyət göstərən "MİDA" MMC üçün effektiv təşkilati struktur yaradılacaq, mənzil təminatı üzrə dəyər zəncirinin bütün səviyyələrində maraqlı tərəflərin koordinasiyası həyata keçiriləcək, effektiv və optimal dəyər gətirən proseslər tətbiq ediləcəkdir.

Görüləcək tədbirlər

Tədbir 1.1.1. Qanunvericilik bazasının nəzərdən keçirilməsi və müvafiq səlahiyyətlərin Mənzil İnşaatı Dövlət Agentliyinə ötürülməsi, qanunvericilikdə aparılmalı dəyişikliklərin layihəsinin maraqlı tərəflərə təqdim edilməsi

İlk növbədə, mənzil təminatı üzrə dəyər zəncirinin bütün səviyyələrində Mənzil İnşaatı Dövlət Agentliyi vasitəsilə müvafiq tərəfdaşlarla əlaqələndirmənin aparılması üçün tələblər müəyyən ediləcəkdir. Növbəti addım isə Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən xərclərin optimallaşdırılmasını təmin etməklə, mənzil təminatının uğurla

həyata keçirilməsinə imkan yaradacaq effektiv və tez nəticə verən proseslərin təşkilindən ibarət olacaqdır. Bundan sonra, Agentliyə verilmiş səlahiyyətlər əsasında dövlətin uyğun qiymətə mənzil təminatı siyasətinin səmərəli həyata keçirilməsi təmin ediləcəkdir. Əldə olunan nəticələrdən tələb edilən hüquqi dəyişikliklərin layihəsinin hazırlanmasında istifadə ediləcəkdir.

Mövcud qanunvericilikdə torpaq sahələrinin "MİDA" MMC-nin sərəncamına verilməsi və tikinti ərazisinədək mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin çəkilməsinin dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi barədə müddəaların müəyyən edilməsinə baxmayaraq, bu kimi işlərin (həmçinin tikinti ərazisində mövcud olan mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin köçürülməsi və s.) maliyyələşmə mexanizmləri qeyd edilməmişdir. Sosial layihələrin maliyyələşdirilməsi dövlətin əsas məqsədlərindən olduğu üçün həmin vəsaitlərin Mənzil İnşaatı Dövlət Agentliyi vasitəsilə ayrılması və bu müddəaların qanunvericilikdə əks olunması işlərin sürətləndirilməsi ilə nəticələnəcəkdir.

Mənzil İnşaatı Dövlət Agentliyi qanunvericiliyə edilən dəyişikliklərin layihəsini müvafiq icra hakimiyyəti orqanının təsdiqi əsasında müvafiq tərəfdaşlara (məsələn, tikinti işlərinin aparılmasına, infrastrukturla bağlı icazələrin verilməsinə və sosial siyasətin həyata keçirilməsinə cəlb edilmiş nazirliklərə və digər dövlət orqanlarına, eləcə də bələdiyyələrə) təqdim edərək, onların rəy və təkliflərini öyrənəcəkdir. Bu cür dəyişikliklər təsdiqləndikdən sonra dərc ediləcəkdir.

Tədbir 1.1.2. Mənzil İnşaatı Dövlət Agentliyi üçün effektiv təşkilati inkişaf planının hazırlanması

Mənzil İnşaatı Dövlət Agentliyi öz təşkilati strukturunu və təşkilati inkişaf planının layihəsini hazırlayacaqdır (bu barədə 1.2-ci prioritetdə daha ətraflı məlumat verilir). Bu planda Agentliyin vəzifələri, əsas səmərəlilik göstəriciləri və müvafiq stimullar öz əksini tapacaq, zonalaşdırma və planlaşdırma, strateji planlaşdırma, tikintiyə nəzarət, iqtisadi təhlil, hüquqi məsləhət xidməti, insan resursları və s. daxil olmaqla, Agentliyin ilkin mərhələdə yaradacağı mühüm şöbələr əhəmiyyətlilik dərəcəsinə görə sıralanacaq, kadr potensialının inkişafı üçün büdcə tərtib olunacaq, şöbə rəhbərləri və işçilər üçün vəzifə təlimatlarının hazırlanması və iş bölgüsü prosesinə başlanılacaqdır.

Tədbir 1.1.3. Mənzil İnşaatı Dövlət Agentliyi üçün büdcənin hazırlanması, təsdiqlənməsi və dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi üzrə tədbirlərin həyata keçirilməsi

Orta və uzunmüddətli dövr üçün büdcə ayırmalarının təmin edilməsi, o cümlədən Mənzil İnşaatı Dövlət Agentliyinin büdcəsinin hazırlanması Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birgə həyata keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun, vəzifələrinin və dəstək sahələrinin müəyyən edilməsi uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi baxımından olduqca əhəmiyyətlidir. Effektiv təşkilati strukturun yaradılması, eləcə də inkişaf planının hazırlanması Agentliyin öz Əsasnaməsində nəzərdə tutulmuş vəzifələrin icrasına kömək edəcəkdir. Bu prioritetin icrası nəticəsində 200-dən artıq yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun, vəzifələrinin və dəstək sahələrinin müəyyən edilməsi, uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi səviyyəsi;
- effektiv təşkilati strukturun yaradılması, eləcə də inkişaf planının hazırlanması, Mənzil İnşaatı Dövlət Agentliyinin öz Əsasnaməsində nəzərdə tutulmuş vəzifələrin icrasını təminetmə imkanları;
- "MİDA" MMC tərəfindən həyata keçirilən xidmətlərin böyük hissəsinin "Elektron hökumət" portalı vasitəsilə yerinə yetirilməsi.

Tələb edilən investisiya

Kənar məsləhətçilərin cəlb olunması, müvafiq elektron sistemlərin qurulması və s. istiqamətlər üzrə müvafiq işlərin aparılmasına əlavə investisiya vəsaiti texniki-iqtisadi əsaslandırma aparılmaqla hesablanacaqdır.

Gözlənilən risklər

Əsası yeni qoyulmuş bir qurum kimi, Mənzil İnşaatı Dövlət Agentliyinin infrastruktur və idarəetmə imkanlarının, eləcə də institusional potensialının tam formalaşmaması onun səlahiyyətlərinin icrası ilə bağlı bir sıra çətinliklər yarada bilər. Beynəlxalq təcrübə göstərir ki, uyğun qiymətə mənzil layihələrinin icrasının ilkin mərhələsində bu cür qurumlara həddindən artıq səlahiyyətlərin verilməsi sui-istifadə halları ilə nəticələnə bilər. Bundan əlavə, "MİDA" MMC-nin layihələri əsasında inşa edilmiş mənzillərin ümumi şəhərsalma planı ilə uzlaşması böyük əhəmiyyət daşıyır, belə ki, "ikili planlama" şəhərin memarlıq planının pozulması ilə nəticələnə bilər.

7.1.2. Prioritet 1.2. Uyğun qiymətə mənzil təminatı ilə bağlı hədəflərin və dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi

Əsaslandırma

Azərbaycanda hər sakinə düşən orta yaşayış sahəsi son 15 ildə tədricən 9.3 kvadrat metrdən 12 kvadrat metrə kimi artmışdır (cədvəl 1). Bundan başqa, son 10 ildə bir-birilə əlaqəli üç göstərici – xüsusi mülkiyyətə sahiblik payı, urbanizasiya və hər sakinə düşən yaşayış sahəsi üzrə göstəricilər, demək olar ki, sabit qalmışdır.

Cədvəl 1: Son 10 ildə xüsusi mülkiyyətə sahiblik payı, urbanizasiya və hər sakinə düşən yaşayış sahəsi barədə məlumat

İllər	2000	2006	2012	2013	2014	2015	2016
Ümumi sahə, milyon m² ilə	112,4	139	162,2	164,1	166,4	168,9	171,3
Dövlət əmlakı	11%	7%	6%	6%	6%	6%	5.5%
Qeyri-dövlət əmlakı	89%	93%	94%	94%	94%	94%	94.5%
Şəhər və kənd yerlərində mənzil təminatının qarşılıqlı nisbəti, faizlə	50%	52%	53%	53%	53%	53%	53%
Hər sakinə düşən orta yaşayış sahəsi, m^2 ilə	9,3	11	11,9	11,9	12	12	12

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Bəzi rayonlarda əhalinin artım sürəti digərləri ilə müqayisədə daha yüksəkdir. 2009–2015-ci illərdə Azərbaycanın bir sıra rayonlarının, o cümlədən Bakı şəhərinin, Mərkəzi Aran, Dağlıq Şirvan, Şəki-Zaqatala, Quba-Xaçmaz və Yuxarı Qarabağ rayonlarının əhalisi artaraq yaşayış sahəsi üzrə artımı üstələmişdir. Bakı və Abşeron yarımadasında əhalinin real artım tempi istehsal işçilərinin kənd yerlərindən şəhərlərə axını səbəbindən hətta rəsmi göstəriciləri də üstələyir.

Aparılan hesablamalara görə, Azərbaycanda gənc ailələrin ehtiyaclarına uyğun olaraq hər il təxminən 30 min yeni mənzil satılır. Mənzilə sahibliyin yüksək faizini, yeni satışların nəzərə çarpmayan artımını, mənzil bazarının kiçilməsini və qabaqcıl təcrübələrə dair nümunələri nəzərə aldıqda qeyd etmək olar ki, Mənzil İnşaatı Dövlət Agentliyinin ilkin məqsədi daşınmaz əmlak bazarının hər il 10 faizini təşkil edən uyğun qiymətə (güzəştli) yeni mənzillərin (təxminən 3 min mənzil) satılmasından ibarət olacaqdır. Bu artım uyğun qiymətə mənzillərin sayının lazımi səviyyədə və mənzil bazarında tarazlığı pozmadan artmasına səbəb olacaqdır. Agentliyin mənzil təminatı ilə bağlı hədəfləri real mənzil bazarının göstəriciləri əsasında hər il yenilənəcək və belə hədəfləri müəyyən edərkən eyni təşəbbüsləri həyata keçirən digər ölkələrdə müəyyən edilmiş əsas faktlar nəzərə alınacaqdır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2015-ci ildə 16237 mənzil istifadəyə verilmişdir. Bu o deməkdir ki, illik tələbat 30 min mənzil olduğu halda 10 mindən artıq mənzilə olan tələbat ödənilməmişdir. Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən təşəbbüslər müəyyən edilərkən bu fakt nəzərə alınacaqdır.

Azərbaycanın mənzil təminatı siyasəti vətəndaşların həyat səviyyəsinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində dövlətin göstərdiyi təşəbbüslərə, tələbə (gəlir səviyyəsi və mənzil istifadəsi) və təklifə (cari və proqnozlaşdırılan mənzil fondu) əsasən işlənib hazırlanacaqdır. Təklif – növünə, ölçüsünə, yerinə və qiymətinə görə bölünmüş cari və proqnozlaşdırılan mənzil fonduna, məşğulluq mərkəzlərinin ərazi üzrə paylanmasına, eləcə də müəyyən gəlir səviyyəsi olan əhali qrupunun gündəlik gediş-gəlişinə əsasən müəyyən ediləcəkdir. Tələb – ailə gəlirlərinin bölgüsünə və layihələrə, hər bir ailənin gəlirinə uyğun torpaq və yaşayış sahəsinə, mənzil xərcinin ailənin gəlirindəki payına və sosial cəhətdən qəbul edilən əsas keyfiyyət göstəricilərinə əsasən müəyyən ediləcəkdir.

Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən yaxın gələcəkdə bu amillər nəzərə alınaraq, ilkin investisiyaların cəlb olunması istiqamətində tədbirlər görüləcək, mənzil bazarının davamlı inkişafı üçün qarşıya uzunmüddətli məqsədlər qoyulacaq və bölgələrdə yaşayış mənzillərinin tikintisi ilə bağlı hədəflər müəyyən ediləcəkdir.

Azərbaycanın hazırkı daşınmaz əmlak bazarı uyğun qiymətə mənzil təminatı ilə bağlı hədəflərin müəyyən edilməsinə şərait yaradır. Belə hədəflərə az və orta gəlirli ailələr üçün yaşayış mənzillərinin tikintisi, şəhərsalma, tikinti sektoru və şəhər ərazilərində ümumi yenidənqurma işlərinin həyata keçirilməsi daxildir.

Görüləcək tədbirlər

Tədbir 1.2.1. "AİF" ASC və Mənzil İnşaatı Dövlət Agentliyinin birgə əməkdaşlığı ilə mənzil tikintisi proqnozunun və dövlət proqramının layihəsinin hazırlanması

Mənzil İnşaatı Dövlət Agentliyi və "AİF"ASC kənardan cəlb edilmiş məsləhətçi şirkətlər (o cümlədən beynəlxalq təşkilatlar) vasitəsilə yerli əhalinin gözlənilən artımı və buna uyğun mənzil ehtiyaclarını, mənzil bazarının hazırkı və gözlənilən illik inkişaf səviyyəsini, eləcə də uyğun qiymətə mənzilə olan ehtiyac baxımından hər şəhər üzrə urbanizasiya səviyyəsini və əhalinin sayını müəyyən edərək, bu barədə hesabat

hazırlayacaqdır. Bu hesabatda, həmçinin, mənzil bazarı və mövcud torpaq sahələri qiymətləndiriləcək, hazırkı və gözlənilən makroiqtisadi amillər əsasında təchizat potensialı müəyyən ediləcəkdir. Məsləhətçi şirkətlər, həmçinin, sosial siyasətə və aşağıgəlirli təbəqə üçün mənzil təminatına olan təsirləri, şəhərsalmanı, şəhərlərin əsaslı şəkildə yenidən qurulmasını, tikinti sektorunun inkişaf səviyyəsini və büdcə məhdudiyyətlərini nəzərə alaraq, dövlətin sosial mənzil təminatı ilə bağlı mümkün təşəbbüsləri barədə öz təkliflərini hazırlayacaqlar. Seçilmiş məsləhətçi şirkətlər bundan sonra mənzil bazarının sağlam inkişafını və qabaqcıl təcrübələri nəzərə alaraq, "MİDA" MMC tərəfindən illik mənzil təminatının həyata keçirilməsi üçün qarşıya qoyulan hədəflərlə bağlı təklif hazırlayacaqlar. Həmin təklifdə bu məsələlər prioritet təşkil edəcəkdir: 2016–2018-ci illərdə əsas diqqəti Bakı və rayon mərkəzlərinə yönəltməklə, urbanizasiyanın və mənzil təminatına tələbatın yüksək olduğu ərazilərdə mənzil tikintisinin həyata keçirilməsi, 2018–2025-ci illər üçün nəzərdə tutulan ölkədaxili mənzil təminatı planının və 2025-ci ildən sonra rayonlarda əsaslı şəkildə yenidənqurma işlərinin aparılması və qanunsuz tikililərin olduğu ərazilərin abadlaşdırılması üçün nəzərdə tutulan daha genişmiqyaslı layihələrin diqqət mərkəzində saxlanılması.

Tədbir 1.2.2. İctimai müzakirələrin aparılması

Müvafiq tərəfdaşların rəhbərlərinin iştirakı ilə araşdırmanın nəticələrinin ictimai müzakirəyə çıxarılması təmin ediləcəkdir. İctimai müzakirə zamanı hesabatda verilmiş əsas faktlar və təkliflər təhlil ediləcək, tərəfdaşların uyğun təşəbbüsləri müəyyən ediləcək, eləcə də Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən işləniləcək plan və büdcə əsasında müvafiq dövlət proqramının layihəsi hazırlanaraq təqdim ediləcəkdir.

Tədbir 1.2.3. Uyğun qiymətə mənzil təminatı üçün dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi və təsdiqi, eləcə də normativ hüquqi bazanın təkmilləşdirilməsi

Mənzil İnşaatı Dövlət Agentliyinin inkişaf strategiyası dövlət tərəfindən üç əlverişli mexanizmlə gücləndiriləcəkdir. Belə mexanizmlərə mənzil-tikinti şirkətlərinə və alıcılara maliyyə dəstəyinin verilməsi və dövlət mülkiyyətində olan torpaq sahələrinin istifadəsi daxil ediləcəkdir.

Bundan başqa, 5 il ərzində müəyyən sayda mənzil tikintisini öz üzərinə götürən (məsələn, 500-dən çox mənzil) mənzil-tikinti şirkətlərinə, eləcə də uyğun qiymətə mənzil alan şəxslərə "AİF" ASC və Sahibkarlığa Kömək Milli Fondu kimi yerli qurumlar və bir sıra beynəlxalq təşkilatlar vasitəsilə maliyyə və kredit dəstəyi veriləcəkdir (2.4-cü prioritet çərçivəsində, ipoteka krediti ilə maliyyələşdirmə üzrə hazırlanmış strategiyaya uyğun olaraq).

"MİDA" MMC uyğun qiymətə mənzil təminatının həyata keçirilməsi üçün dövlət mülkiyyətində olan torpaq sahələri ilə təmin ediləcək və ya uyğun qiymətə mənzil təminatı layihələrinin maliyyələşdirilməsi məqsədilə (layihələrin birləşdirilməsi yolu ilə) belə torpaq sahələrindən istifadə edəcəkdir.

Uyğun qiymətə mənzillərin tikinti xərclərinin optimallaşdırılması məqsədilə vergi azadolmaları və güzəştlərinin tətbiqi imkanları araşdırılacaq, bununla da həmin mənzillərin satış qiymətlərinin daha da azaldılması hədəflənəcəkdir.

Dövlət dəstəyi mexanizmləri üzrə təkliflər, habelə onların həyata keçirilməsi üçün hüquqi normativ bazaya müvafiq dəyişikliklərlə bağlı təkliflər hazırlanacaqdır. Bundan əlavə, qəbul edilmiş dəyişikliklər və müəyyən edilmiş dəstək mexanizmləri barədə məlumatlar hazırlanaraq mətbuat və internet səhifələri vasitəsilə ictimaiyyətə çatdırılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Aparılan hesablamalara əsasən, Azərbaycanda uyğun qiymətə mənzil təminatının həyata keçirilməsi nəticəsində 2020-ci ildə real ÜDM-in birbaşa 159 milyon və dolayı olaraq 81 milyon manat olmaqla, ümumilikdə 240 milyon manat artacağı gözlənilir. Tikinti sektorunda təxminən 10000 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- "MİDA" MMC tərəfindən təhvil verilən mənzillərin sayı;
- mənzillərin orta inşaat müddəti;
- alıcıların sayı.

Tələb edilən investisiya

Aparılan hesablamalara görə, 2020-ci ilin sonunadək uyğun qiymətə mənzil təminatı layihələri üçün tələb edilən investisiyanın məbləğinin 900 milyon manata yaxın olacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

Uyğun qiymətə mənzil təminatı layihələrinin reallaşdırılması məqsədilə ayrılan büdcə vəsaitlərinin kifayət qədər olmaması əsas risklərdən biri hesab edilir. Belə ki, büdcə planlamasının tikinti sektorunda və ya əsas materiallar bazarında gedən dəyişikliklər nəzərə alınmadan aparılması layihələrin icrası zamanı maliyyə çatışmazlığı problemi yarada bilər.

Bölgələrdə mənzil tikintisinin həcminin baş verməkdə olan demoqrafik dəyişikliklər nəzərə alınmadan planlanması mənzillərə olan tələblə təklif arasında uyğunsuzluğa gətirib çıxara bilər. Əhalinin təbii artım sürəti və ölkədaxili miqrasiya demoqrafik dəyişikliklərin ölçülməsi zamanı nəzərə alınmalı olan əsas faktorlardandır. Bölgələrdə potensial və mövcud təsərrüfat artımı, yeni iş yerlərinin açılması ölkədaxili miqrasiyaya təsir edən başlıca faktorlardır. Bu baxımdan mənzil tikintisində əhəmiyyətli artım iri şəhərlərdə gözlənilən təsərrüfat artımı ilə uzlaşdırılmalıdır.

7.2. Strateji hədəf 2. Uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin həyata keçirilməsi

Mənzil İnşaatı Dövlət Agentliyi Azərbaycanda uyğun qiymətə mənzil təminatı bazarının inkişaf etdirilməsi üçün bu Strateji Yol Xəritəsi əsasında fəaliyyət göstərəcəkdir. Dövlət təşəbbüslərinin həyata keçirilməsi üçün nəzərdə tutulan mexanizmlərə torpaq sahələrinə təminatın verilməsi, tikinti işlərinin qiymət baxımından əlverişliliyinin təmin edilməsi, benefisiarların müəyyən edilməsi, tərəfdaşlıqların qurulması və ipoteka kreditlərinə çıxış imkanlarının artırılması daxil ediləcəkdir.

7.2.1. Prioritet 2.1. Torpaq sahələrinin müəyyən edilməsi və mülkiyyət hüququnun "MİDA" MMC-yə ötürülməsi

Əsaslandırma

Uyğun qiymətə mənzil təminatı layihələrinin uğurunu şərtləndirən əsas faktorlardan biri torpaq sahələrinin əldə edilməsi ilə bağlıdır. Belə ki, mənzilləri uyğun qiymətə təqdim etmək baxımından torpağın əldə edilməsi ilə əlaqədar xərclərin

optimallaşdırılması, həmçinin yerləşdiyi məkanın əlverişliliyi – iş yeri mərkəzlərinin, nəqliyyat və sosial infrastrukturun mövcudluğu xüsusi əhəmiyyət daşıyır.

Mənzil İnşaatı Dövlət Agentliyi dövlət mülkiyyətində olan boş torpaq sahələrini uyğun qiymətə mənzil tikintisi layihələrində istifadəyə cəlb etməklə, xərclərin azaldılmasına nail olacaqdır. Seçilmiş torpaq sahələrinin mülkiyyət hüququnun "MİDA" MMC-yə ötürülməsi layihələrin birləşdirilməsi yolu ilə xərclərin optimallaşdırılmasına imkan yaradacaqdır.

Uyğun qiymətə mənzil təminatı üçün nəzərdə tutulan torpaq sahələri üç əsas vasitə ilə təmin edilə bilər:

- öz rayonunda uyğun qiymətə mənzil təkliflərini artırmaq marağında olan icra orqanlarının "MİDA" MMC-ni əlverişli torpaq sahəsi ilə təmin etməsi;
- xüsusi və bələdiyyə mülkiyyətində olan torpaqların dövlət vəsaiti hesabına alınaraq "MİDA" MMC-nin sərəncamına ötürülməsi;
- 1.1-ci prioritetdə qeyd edildiyi kimi, dövlət mülkiyyətində olan torpaq sahələrindən uyğun qiymətə mənzil təminatı üçün istifadə edilməsi.

"MİDA" MMC gələcəkdə yerli icra və özünüidarə orqanları ilə əməkdaşlıq edərək məhəllələrin abadlaşdırılması üçün nəzərdə tutulan yaşayış ərazilərində uyğun qiymətə mənzil tikintisi həyata keçirəcəkdir.

Başqa ölkələrin təcrübəsi uyğun qiymətə mənzil təminatı üçün torpaq sahələrinin əldə edilməsi prosesinə aydınlıq gətirə bilər. Məsələn, Türkiyədə bələdiyyələr uyğun qiymətə mənzil təminatı agentliklərini müvafiq torpaq sahələri ilə təmin etmişdir. TOKİ belə torpaq sahələrindən birbaşa istifadə edərək əhalisi 40 mindən artıq olan şəhərlərdə, portfeli doldurduqdan sonra isə əhalisi 40 mindən az olan şəhərlərdə mənzil təminatı layihələri həyata keçirmişdir.


Dövlət mülkiyyətində olan torpaqlardan istifadəyə gəldikdə, dövlət belə torpaq sahələrini mənzil-tikinti layihələri üçün saxlayır və ya mənzil təminatı agentliyinə həmin torpaq sahələrində mənzil tikmək səlahiyyəti verilir. Çin dövləti öz mülkiyyətində olan torpaq sahələrində ev tikmək hüququnu 70 illik icarə əsasında satmaqla, bu məqsədi həyata keçirmişdir. Türkiyədə isə TOKİ-yə dövlət mülkiyyətində olan boş torpaq sahələrini seçmək səlahiyyəti verilmişdir.

"MİDA" MMC dövlət mülkiyyətində olan boş torpaq sahələrindən istifadə edərək, xərcləri azalda və uyğun qiymətə mənzil təminatı layihələrini həyata keçirə bilər. Azərbaycanın Bakı və Gəncə kimi şəhərlərində dövlət müəssisələrinin sahib olduğu və dövlət mülkiyyətində olan torpaq sahələri mənzil-tikinti layihələrinin həyata keçirilməsi üçün potensial sahələrdir. Şəhər mərkəzlərindən kənarda yerləşən dövlət torpaqları, iş yeri mərkəzləri və nəqliyyat infrastrukturu qovşaqlarına yaxınlıq nəzərə alınmaqla, rayonlar üzrə mənzil-tikinti layihələrinin həyata keçirilməsi üçün məqsədəuyğundur.

Azərbaycanda dövlət mülkiyyətində olan boş torpaq sahələrindən istifadə etməklə uyğun qiymətə mənzil təminatı layihələri çərçivəsində həyata keçirilən mənzil tikintisinin xərclərinə qənaət etmək mümkün olacaqdır. Bu model digər ölkələrdə müsbət nəticə vermişdir. Türkiyədə mənzilin orta bazar qiyməti bir kvadrat metr üçün 620 ABŞ dollarıdır, lakin uyğun qiymətə mənzil təminatı layihəsi çərçivəsində tikilmiş mənzillərin qiyməti daha aşağı, yəni bir kvadrat metr üçün təxminən 420 ABŞ dollarıdır. Qiymətin ucuz olmasının səbəbi torpaq və tikinti xərclərinin aşağı olmasıdır (şəkil 2).*

* Tikinti xərclərinə qənaət barədə ətraflı məlumat prioritetlə bağlı növbəti hissədə verilmişdir.

Şəkil 2. Uyğun qiymətə mənzil təminatı layihələrində xərclərin azaldılmasına dair nümunə *(ABŞ dolları/m^2)*



1. *Torpaq sahəsinin xərci əks mühəndislik hesablamaları əsasında "satış qiyməti – tikinti xərci – marja" fərqi ilə hesablanmışdır.*

Mənbə: TOKİ

Görüləcək tədbirlər

Tədbir 2.1.1. Uyğun qiymətə mənzil təminatı layihələri üçün ölkə miqyasında araşdırmaların aparılması və zəruri torpaq sahələrinin müəyyən edilməsi

Şəhər daxilində (tələbatın yüksək olduğu rayonlarda) və şəhər mərkəzindən kənarda yerləşən, dövlət mülkiyyətində olan boş torpaq sahələrinin, bələdiyyə və şəxsi mülkiyyətdə olan torpaq sahələrinin, eləcə də gələcəkdə (2025-ci ildən sonra) şəhərlərin əsaslı şəkildə yenidən qurulması, özbaşına tikililərin köçürülməsi və abadlaşdırılması (məsələn, keçmiş Sovet İttifaqı dövründən qalmış və qeydiyyatda olmayan məhəllələrin) nəzərdə tutulan potensial rayonların müəyyən edilməsi üçün Mənzil İnşaatı Dövlət Agentliyinin, yerli icra hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının dəstəyi ilə uyğun qiymətə mənzil təminatı layihələri üzrə ölkə miqyasında araşdırmalar aparılacaqdır.

Tədbir 2.1.2. Seçilmiş torpaq sahələri üzərində mülkiyyət hüququnun uyğun qiymətə mənzil təminatı layihələrinin həyata keçirilməsi üçün "MİDA" MMC-yə ötürülməsi

Azərbaycan Respublikasının Nazirlər Kabineti mənzil təminatı layihələrinin həyata keçirilməsi üçün seçilmiş torpaq sahələrinin mülkiyyət hüququnun "MİDA" MMC-yə ötürülməsi ilə bağlı zəruri tədbirlər görəcəkdir (müxtəlif torpaq sahələrində həyata keçirilən layihələrin birləşdirilməsinə imkan yaradaraq).

Tədbir 2.1.3. Əlverişli torpaq sahələrinin istifadəyə cəlb edilməsi üçün təşəbbüslərin həyata keçirilməsi və sağlam mənzil bazarının yaradılması

Dövlət, bələdiyyə və şəxsi mülkiyyətdə olan torpaq sahələrinin mənzil təminatı üçün istifadəyə cəlb edilməsini asanlaşdırmaq məqsədilə irəli sürülən aşağıdakı 4 əsas təşəbbüsdən ilk ikisi prioritet təşkil edəcəkdir:

- mülkiyyət hüququnu təsdiq edən mövcud sənədlərin yoxlanılması;
- zonaların təsnif edilməsi;
- mülkiyyət hüququnu təsdiqləyən mübahisəsiz sənədlərin rəsmiləşdirilməsi;
- Coğrafi İnformasiya Sisteminin (CİS) yaradılması.

Qeyd edilən təşəbbüslərin həyata keçirilməsi torpaq sahələrinin mənzil təminatına cəlb edilməsini asanlaşdıracaq və sağlam mənzil bazarı yaradılacaqdır. Belə təşəbbüslərə mövcud sənədlərin yoxlanılması (torpaq sahələrinin müəyyən edilməsi və torpaq reyestrinə daxil edilməsi), zonalaşdırma tələblərinin və xidmət haqlarının tətbiq edilməsinə verilən vahid səlahiyyət çərçivəsində zonaların təsnif edilməsi, mülkiyyət hüququnu təsdiqləyən mübahisəsiz sənədlərin sahibliyin yekun sübutu kimi rəsmiləşdirilməsi və bütün torpaq sahələri, o cümlədən onların yeri, sahəsi, təyinatı, qiyməti və onların üzərində hüquqlarla bağlı bütün məlumatları özündə əks etdirən müvafiq Coğrafi İnformasiya Sisteminin yaradılması daxil ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bəhs edilən tədbirlərin effektiv icrası nəticəsində, uyğun qiymətə mənzil təminatı üçün nəzərdə tutulan torpaq sahələrinin istifadəsi asanlaşacaqdır. Dövlət mülkiyyətində olan boş torpaq sahələrinin mənzil tikintisinə cəlb edilməsi sayəsində Mənzil İnşaatı Dövlət Agentliyi xərcləri azaldacaq və nəzərdə tutulan layihələrin effektiv icrasına nail olacaqdır.

Əsas icra göstəriciləri:

- istifadəsiz torpaq sahələrinin 5 faizinin bu Strateji Yol Xəritəsinin icrası zamanı dövriyyəyə cəlb edilməsi;
- dövlət mülkiyyətində olan boş torpaq sahələrinin mənzil tikintisinə cəlb edilməsi nəticəsində layihələrin icra xərclərinin 10 faiz azaldılması.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün əlavə investisiya xərci nəzərdə tutulmamışdır.

Gözlənilən risklər

İnkişaf etməkdə olan ölkələrdə uyğun qiymətə mənzil təminatı layihələrinin icrası zamanı torpaqların sənədləşdirilməsi və mülkiyyət hüququ ilə bağlı mövcud çətinlikləri nəzərə alaraq, torpağın əldə edilməsi və ərazinin inkişafı ilə bağlı riskləri dövlət öz üzərinə götürə bilər. Digər tərəfdən, tikinti prosesləri ilə əlaqədar risklərin aradan qaldırılmasında özəl sektorla tərəfdaşlıq daha səmərəli ola bilər.

7.2.2. Prioritet 2.2. Dövlət mənzil fondunun benefisiarlarının müəyyən edilməsi

Əsaslandırma

Dövlət vəsaitlərindən maksimum səmərəli və faydalı istifadə etmək üçün Mənzil İnşaatı Dövlət Agentliyi uyğun qiymətə mənzil təminatı təşəbbüsünün hədəf sosial qruplarını müəyyənləşdirməlidir. Bu zaman hər bir qrupa tətbiq ediləcək

güzəştlər və hər bir qrupun kateqoriyalaşma meyarları aydın şəkildə müəyyən edilməlidir. Benefisiarların müəyyən edilməsi prosesində əsas hədəflər əhalinin mənzil sahibliyi payının artırılması və iqtisadi cəhətdən həssas əhalinin mənzilin alınmasına çəkilən xərclərinin azaldılması yolu ilə onların dövlət tərəfindən qorunması olmalıdır.

Benefisiar qrupların müəyyənləşdirilməsindən sonra ən vacib addım hədəf sosial qrup üzrə meyarlara cavab verən ailələrin yoxlanılması və dövlət qeydiyyatına alınmasıdır. Bu zaman həm dövlət vəsaitlərinin israfının, həm də meyarlara cavab verən ailələrin layihədən kənarda qalması hallarının qarşısını almaq üçün benefisiarların yoxlanılması prosedurunun dəqiqliyinin və ədalətliliyinin təmin edilməsi müstəsna əhəmiyyət kəsb edir. Mənzil bölgüsü şərtləri şəffaf olmalı və ictimaiyyətə aydın şəkildə çatdırılmalıdır.

Görüləcək tədbirlər

Tədbir 2.2.1. Seçilmiş kateqoriyalara uyğun benefisiarların müəyyən edilməsi

Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən uyğun qiymətə mənzil təminatı üçün iki əhali qrupu hədəf olaraq müəyyən ediləcəkdir: seçilmiş kateqoriyalara aid edilən şəxslər və dövlət sifarişi əsasında müəyyənləşdirilən şəxslər.

Seçilmiş kateqoriyalara aid edilən şəxslər. Uyğun qiymətə mənzil təminatı üçün nəzərdə tutulmuş bu qrupa müəyyən edilmiş meyarlara uyğun şəxslər daxil ediləcəkdir. Həmin şəxslər mənzillərin qiymətini öz vəsaitləri hesabına və ya güzəştli ipoteka krediti ("AİF" ASC-nin vəsaiti hesabına) vasitəsilə ödəyəcəklər.

Dövlət sifarişi əsasında. Müvafiq dövlət orqanı, təşkilatı və müəssisəsi qanunvericiliklə müəyyən olunmuş qaydada uyğun qiymətə mənzillərin ayrılması barədə sifarişləri, Mənzil İnşaatı Dövlət Agentliyi ilə razılaşdırmaqla, "MİDA" MMC tərəfindən inşa ediləcək binalarda yerləşdirəcəkdir. Həmin benefisiarlara verilən mənzillərin ödənişini, əsasən, dövlət həyata keçirəcəkdir.

Benefisiarların müəyyən olunması zamanı rayon və kəndlərdə yaşayışın cəlbediciliyinin artırılması perspektivi də nəzərə alınacaqdır. Bu istiqamətdə atılacaq addımlardan biri yuxarıda göstərilmiş kateqoriyalara kənd yerlərində yaşayan yeni ailə qurmuş gənclər üçün şərtlərin daxil edilməsi ola bilər.

Mənzil bölgüsü

Dünya ölkələrində mənzil bölgüsü müxtəlif, o cümlədən püşkatma, "erkən gələnə erkən xidmət" prinsipi, ehtiyaca əsaslanan bölgü, Agentliyin seçiminə əsaslanan bölgü və bazaryönümlü seçim modellərindən istifadə edilməklə həyata keçirilir. Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən təhlil aparılaraq, bu modellərdən hansının ölkədə uyğun qiymətə mənzil təminatı mexanizminə daha çox uyğun gəldiyinə qərar veriləcək və buna əsasən, mənzil bölgüsü həyata keçiriləcəkdir. Hazırda mənzil bölgüsünün elektron sistem vasitəsilə "erkən gələnə erkən xidmət" prinsipi əsasında həyata keçirilməsi planlaşdırılır.

Əhalisi sıx (200 yüz min nəfərdən artıq) və adambaşına düşən yaşayış sahəsi kiçik (adambaşına 12 kvadrat metr və ya daha az) olan ərazilər uyğun qiymətə mənzil təminatında prioritet sahələr kimi müəyyən edilmişdir. Bu meyarlara və ya onlardan birinə Abşeron rayonu, Bakı, Gəncə və Sumqayıt şəhərləri daha çox uyğun gəlir (cədvəl 2). Bundan başqa, uyğun qiymətə mənzil təminatı layihələrinin əhəmiyyət dərəcəsinin müəyyən edilməsi üçün əlavə meyarlardan istifadə ediləcək, o cümlədən ölkədaxili miqrasiya səviyyəsi, qaçqın və məcburi köçkünlərin sayı və minimum əməkhaqqı alan işçi qüvvəsinin payı kimi meyarlar nəzərə alınacaqdır.

Cədvəl 2. Bölgələr üzrə əhalinin sayı, sıxlığı, adambaşına düşən yaşayış sahəsi və orta aylıq əməkhaqqı məbləğləri barədə məlumat

Əhalisi sıx olan rayon və şəhərlər	Əhalinin sayı (min nəfər) 2015-ci il	Adambaşına düşən yaşayış sahəsi (m^2) 2015-ci il	Orta aylıq əməkhaqqı (2015-ci il)
Bakı	2 225,8	11,6	666,8
Abşeron	168,7	14,5	336,0
Sumqayıt	336,2	9,3	378,5
Gəncə	330,1	11,8	321,0
Şəmkir	72,7	16,5	292,1
Şəki	67,3	11,8	255,6
Lənkəran	87,2	14,2	267,2
Masallı	49,7	9,3	284,3
Xaçmaz	66,6	13,1	312,3
Yevlax	68,0	12,1	266,0
Şamaxı	47,6	15,7	272,8
Naxçıvan	80,9	20,8	424,6

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

"MİDA" MMC tərəfindən güzəştlə satışa çıxarılan mənzilləri əldə etmək hüququ olan benefisiarlar "AİF" ASC-nin güzəştli ipoteka kreditini almaq hüququna malik olan kateqoriyalarla uyğunlaşdırılacaqdır. Bu da aşağıgəlirli əhalinin mənzillərlə güzəştli şərtlərlə təmin edilməsi üzrə vahid dövlət siyasətinin həyata keçirilməsinə şərait yaradacaqdır.

Tədbir 2.2.2. İnfrastrukturun yaradılması, benefisiarlarla bağlı meyarların ictimaiyyətə çatdırılması, müraciətlərin qəbulu, mənzillərin bölüşdürülməsi, nəzarət və illik hesabatın təqdim edilməsi

"MİDA" MMC ərizələrin qeydə alınması, mənzil bölgüsünün idarə edilməsi və benefisiarlarla bağlı meyarların ictimaiyyətə elan edilməsi üçün infrastruktur (məsələn, internet səhifəsi, elektron sistem) yaradacaqdır. Mənzil İnşaatı Dövlət Agentliyi, həmçinin, uyğun ərizələrin təqdim edilməsini və mənzillərin bölüşdürülməsini inkişaf planı əsasında ildə iki dəfə planlaşdıracaq və həmin prosesi planlı şəkildə həyata keçirəcəkdir. "MİDA" MMC bundan sonra benefisiarların və mənzil bölgüsünün monitorinqini həyata keçirəcək və illik hesabat təqdim edəcəkdir.

Tədbir 2.2.3. Mənzil üçün dövlət dəstəyi alan benefisiarların müəyyən edilməsi prosesinin koordinasiya edilməsi

Dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən müvafiq proqramlar çərçivəsində, həmçinin dövlət orqanları, təşkilatları və müəssisələrinin işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması, qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həlli məqsədilə binaların (mənzillərin) tikintisini "MİDA" MMC dövlət sifarişi əsasında həyata keçirəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Qabaqcıl beynəlxalq təcrübənin tətbiqi sayəsində dövlət mənzil fondunun benefisiarları müəyyənləşdiriləcəkdir. Mənzil İnşaatı Dövlət Agentliyinin benefisiarların seçilməsi ilə bağlı əlavə meyarlar tətbiq etməsi mənzillərin elektron sistem vasitəsilə seçilməsini asanlaşdıracaq və mənzilə ehtiyacı olan şəxslərin uyğun qiymətə mənzil əldə etməsini təmin edəcəkdir.

Əsas icra göstəriciləri:

- dövlət mənzil fondu benefisiarlarının hədəf sosial qruplardan seçilməsi səviyyəsi və təsnif edilmiş sosial qruplar üzrə benefisiarların sayı;
- seçilmiş sosial qrupa daxil olan ailələrin 10 faizinin növbəti 10 ildə mənzillə təmin olunması;
- urbanizasiya probleminin azalması;
- bu günədək mənzillə təmin edilməmiş qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması.

Tələb edilən investisiya

Bu prioritet üçün tələb olunan investisiyanın həcmi 1.2-ci prioritet üzrə investisiya tələbində nəzərə alınmışdır.

Gözlənilən risklər

Benefisiarların müəyyənləşdirilməsi zamanı onların hədəf sosial qruplardan seçilməsi olduqca əhəmiyyətlidir. Bu baxımdan potensial risklər meyarların düzgün şəkildə tətbiq edilməməsi və ya mənzil fondundan faydalanmaq məqsədilə alıcılar tərəfindən saxta sənədlərin təqdim edilməsi ola bilər. Qeyd edilən halların qarşısını almaq üçün, Mənzil İnşaatı Dövlət Agentliyi digər dövlət qurumları ilə sıx əməkdaşlıq çərçivəsində benefisiarların müəyyən edilməsi prosesinə elektron sistem vasitəsilə ciddi şəkildə nəzarət etməli və elektron imza vasitələrindən istifadə etməlidir.

7.2.3. Prioritet 2.3. Yerli və beynəlxalq özəl sektor iştirakçıları ilə əməkdaşlığın qurulması

Əsaslandırma


Layihələrin həyata keçirilməsində effektivliyə və səmərəliliyə nail olmaq üçün ölkədə tikinti sektorunda fəaliyyət göstərən şirkətlərin təcrübəsindən yararlanmaq müstəsna əhəmiyyət kəsb edir. Özəl sektor iştirakçıları ilə tərəfdaşlıq həm mənzil inşaatının vaxtında və keyfiyyətli şəkildə aparılmasını, həm də tikinti sektorunda dövlət investisiyasının artması ilə bu sektorun inkişafını təmin edəcəkdir.

"MİDA" MMC özəl tikinti şirkətlərini torpaq, infrastruktur və digər bir sıra güzəştlərlə təmin edərək onların bu sektorda iştirakını stimullaşdıracaqdır. Digər tərəfdən, özəl podratçılar öz resurslarını və təcrübələrini "MİDA" MMC-nin səlahiyyətinə verə və mənzil inşaatı ilə əlaqədar risklərin bir hissəsini öz üzərlərinə götürə bilərlər. Layihələrin özəl podratçılar arasında bölüşdürülməsində tenderlərdən istifadə olunması da benefisiarlara mümkün ən yüksək keyfiyyətin təqdim olunmasına gətirib çıxaracaqdır.

"MİDA" MMC mənzillərin tikintisində tərəfdaş kimi yerli və beynəlxalq tikinti şirkətlərinin xidmətlərindən müqavilə şərtlərinə uyğun olaraq yararlanacaqdır. Son illərdə tikinti işlərinin həcmi uyğun qiymətə mənzil təminatı layihələrinə namizəd olan yerli tikinti şirkətlərinin imkanlarına paralel olaraq artır (şəkil 3). 2005-ci ildə tikinti

işlərinin həcmi 1,6 milyard manat təşkil etmişdir. 2015-ci ildə isə bu rəqəm artaraq 7,3 milyard manat olmuş və bunun 60 faizi yerli özəl podratçıların payına düşmüşdür.

Şəkil 3. Tikinti işlərinin həcmi və yerli tikinti şirkətlərinin imkanları barədə məlumat



1.Ümumi iş həcminin 51 faizi

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

"MİDA" MMC özəl podratçılardan əlavə, uyğun qiymətə mənzil təminatı sahəsində təcrübəsi olan, güclü təşkilati bacarığa və sabit maliyyə durumuna malik beynəlxalq mənzil-tikinti şirkətlərinin xidmətlərindən də yararlanacaqdır. Bu məqsədlə, yüksəkixtisaslı və xüsusən də əvvəlki illərdə Azərbaycanda fəaliyyət göstərərək təcrübə qazanmış beynəlxalq mənzil-tikinti şirkətləri ilə əməkdaşlığın qurulması nəzərdə tutulur.

Görüləcək tədbirlər

Tədbir 2.3.1. Müxtəlif icra modellərinin seçilməsi prinsipinin müəyyən edilməsi

Azərbaycanda uyğun qiymətə mənzil təminatının həyata keçirilməsi zamanı əsas diqqət iki icra modelinə yönəldiləcəkdir: dövlət-özəl tərəfdaşlığı və dövlət sektorunun icra modeli.

Dövlət-özəl tərəfdaşlığı. Yerli icra hakimiyyəti və yerli özünüidarə orqanları boş torpaq sahələrinin seçilməsi və logistik xidmətlərin göstərilməsində iştirak edəcəklər. "MİDA" MMC tərəfindən özəl tikinti şirkətləri dövlət mülkiyyətində olan torpaq sahələrində yaşayış binalarının tikilməsinə cəlb ediləcəkdir. Bu əməkdaşlıq müxtəlif kommersiya əsasları ilə həyata keçirilə bilər. Bundan sonra hazır mənzillər (əməkdaşlıq şərtlərinə uyğun olaraq "MİDA" MMC-nin payına düşən mənzillər) benefisiarlara birbaşa qaydada "MİDA" MMC-nin şərtləri çərçivəsində satılacaq və ya dövlət tərəfindən alıcılara, yaxud icarədarlara paylanacaqdır.

Dövlət sektorunun icra modeli. "MİDA" MMC mülkiyyətindəki torpaq sahələrində yaşayış binalarının tikilməsinə özəl podratçıları cəlb edir və eyni zamanda əsas tikinti şirkəti və torpaq sahibi olaraq qalır. Mənzil İnşaatı Dövlət

Agentliyi idarəetmədə güclü rol oynayaraq hazır mənzilləri vətəndaşlara satır və ya kirayə verir. Dövlət orqanları prosesə daha çox nəzarət edərək, özəl xidmət bazarının maliyyə imkanlarından və ya onun təyin etdiyi müddətdən asılı olmayaraq, genişmiqyaslı mənzil təminatı sənayesinin yaradılmasına yol açır.

Dövlət-özəl tərəfdaşlığı modelində "MİDA" MMC-nin mülkiyyət hüququ bölüşdürülür. Bu model, əsasən, ərazi üzrə orta bazar qiymətindən yuxarı layihələrə tətbiq edilir. İkinci modeldə isə "MİDA" MMC sifarişçi kimi çıxış edir və mülkiyyət hüququnu özündə saxlayır. Bu model isə daha çox aşağı gəlirli layihələrə tətbiq edilir.

Tədbir 2.3.2. Özəl tikinti-investisiya şirkətinin seçilməsi üçün uyğun meyarların müəyyən edilməsi

"MİDA" MMC özəl tikinti-investisiya şirkətinin seçilməsi üçün müvafiq meyarlar müəyyən edəcəkdir. İcra modelinə əsaslanan həmin meyarlarda təşkilati bacarıq, tərəfdaşlığın potensialı və keyfiyyəti (hüquqi status, tərəfdaşlar, təchizatçı ilə əldə edilmiş razılıqlar və s.), maliyyə sabitliyi (maliyyə sənədləri, bank hesabatları və s.), daşınmaz əmlakın tikintisi sahəsində əldə edilmiş uğurlu təcrübə (başa çatmış və davam edən layihələrlə bağlı dəlillər və təcrübə) və mənzil tikintisinə tətbiq edilən yanaşma (layihələndirmə, xərclər, texniki xidmət və s.) nəzərə alınacaqdır.

Təşkilati bacarıq. Təşkilati meyarlar iki sahəni əhatə edəcəkdir – bacarıq və imkanlar və tərəfdaşlığın gücü və keyfiyyəti. Bacarıq və imkanlar təşkilatın peşəkarlığı, təcrübəsi, təşkilati strukturu, mühüm vəzifələrin icrasında ekspert biliyi və bacarıqları, eləcə də layihənin icrası üçün nəzərdə tutulan uyğun resurslar və imkanlar əsasında müəyyən ediləcəkdir. Tərəfdaşlığın gücü və keyfiyyəti isə tender iddiaçısının hüquqi statusuna, tərəflər arasında bağlanmış və onların risk və öhdəliklərini aydın təsbit edən rəsmi razılaşmalara, iştirak edən tender iddiaçılarına qarşı qaldırılmış və ya qaldırılması gözlənilən məhkəmə işinin vəziyyətinə, tikinti şirkətinin digər təchizatçılarının, podratçılarının, subpodratçılarının və tərəfdaş firmalarının keyfiyyətinə və təklif edilmiş layihəyə uyğun gələn əsas təchizatçılarla qurulmuş müddətli əlaqələrə əsasən qiymətləndiriləcəkdir.

Maliyyə sabitliyi. Maliyyə sabitliyi ən azı üç illik audit rəyi üzrə maliyyə hesabatlarına, o cümlədən aktivlərin xalis dəyəri, borc-kapital nisbəti və likvidlik barədə məlumatlara, eləcə də maliyyə vəziyyətinin güclü olduğunu sübut edən (kredit xətləri vasitəsilə) sənədlərə əsasən qiymətləndiriləcəkdir.

Daşınmaz əmlakın tikintisi sahəsində əldə edilmiş uğurlu təcrübə. "MİDA" MMC mümkün tərəfdaşların Azərbaycanda və regionda yaşayış üçün nəzərdə tutulan daşınmaz əmlak tikintisi sahəsindəki təcrübəsini, yaşayış binalarının tikintisi layihələrinin hazırlanması sahəsindəki təcrübəsini, eləcə də onların iş cədvəllərini, büdcəni idarə etmək, mənzilləri bazara çıxarmaq və satmaq bacarığını sübut edən müştəri rəylərini nəzərə alacaqdır.

Mənzil tikintisinə tətbiq edilən yanaşma. Belə yanaşmanın qiymətləndirilməsində mənzil təminatı tələblərinin, uğur gətirən əsas amillərin (layihələndirmə, xərclər, texniki xidmət və s.) və yerli bazar tələbatının (texniki şərtlər, xüsusiyyətlər) nə dərəcədə başa düşülməsi, eləcə də mənzillərin tikintisinə və bazara çıxarılmasına şirkət tərəfindən tətbiq edilən yanaşmanın izahı nəzərə alınacaqdır.

Tədbir 2.3.3. Yerli investorlarla əlaqənin yaradılması, inkişaf planlarının onlara izah edilməsi və potensial beynəlxalq investorların əməkdaşlığa dəvət edilməsi

"MİDA" MMC yerli investorlarla əlaqə yaradacaq, öz planlarını onlara izah edəcək və potensial xarici investorları (regionda fəaliyyət göstərən, xüsusən də Azərbaycanda əvvəlki iş təcrübəsinə malik olan yüksəkixtisaslı tikinti şirkətlərini) əməkdaşlığa dəvət edəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Yerli və beynəlxalq özəl sektor iştirakçıları ilə əməkdaşlığın qurulması sayəsində uyğun qiymətə mənzil təminatına dövlət-özəl tərəfdaşlığı modeli tətbiq edilə biləcəkdir. İcra tərəfdaşlarının seçilməsi meyarlarının nəzərdə tutulmuş qaydada tətbiqi nəticəsində güclü təşkilati strukturu, davamlı maliyyə sabitliyi, daşınmaz əmlak tikintisi sahəsində uğurlu təcrübəsi, eləcə də mənzil tikintisinə tətbiq etdiyi yanaşması (xərclərin optimallaşdırılması, dizayn və s.) ilə seçilən özəl sektor iştirakçıları Mənzil İnşaatı Dövlət Agentliyinin tərtib etdiyi layihələrə cəlb olunacaqlar.

Əsas icra göstəriciləri:

- ölkənin tikinti sektoruna xarici investisiyaların cəlb edilməsi;
- tenderlərin keçirilməsində şəffaflığın tam təmin edilməsi;
- qabaqcıl beynəlxalq təcrübənin tətbiqi prosesinin sürətlənməsi;
- rəqabət mühitinin tam təmin edilməsi sayəsində layihələrin xərclərinə 10 faizdən artıq qənaət imkanı;
- alıcıların sayı;
- tenderdə iştirak edən yerli və xarici tikinti şirkətlərinin sayı.

Tələb edilən investisiya

Bu prioritetin icrası ilə bağlı əlavə investisiya xərci nəzərdə tutulmamışdır.

Gözlənilən risklər

Tenderlərin keçirilməsi zamanı şəffaflığın təmin edilməsi uyğun qiymətə mənzil təminatı proqramlarının qabaqcıl beynəlxalq təcrübəyə əsaslanmasını şərtləndirən əsas amillərdən biridir. Bu baxımdan, mövcud layihələrin reallaşdırılması məqsədilə özəl sektor tərəfdaşlarının seçilməsi prosesinin elektron qaydada təşkil edilməsi daha məqsədəuyğun ola bilər.


Mənzillərin inşası ilə əlaqədar qabaqcadan müəyyənləşdirilmiş keyfiyyət standartlarına riayət edilməsi olduqca vacibdir. Belə ki, xüsusilə xərclərin optimallaşdırılması zamanı və tikinti normaları müəyyən edilərkən, keyfiyyət standartlarının pozulması hallarının baş verməməsinə diqqət yetirilməlidir.

7.2.4. Prioritet 2.4. İpoteka bazarının effektivliyinin təmin edilməsi

Əsaslandırma

İpoteka kreditləri mənzillərdən istifadə imkanlarının artırılması üçün tətbiq edilən ümumi metoddur. Azərbaycan vətəndaşlarına 2007-ci ildən etibarən təxminən 18 min ipoteka krediti verilmişdir (şəkil 4). Kredit alan şəxslərin əksəriyyəti evli və Bakı sakinidir. İpoteka bazarının effektivliyinin təmin edilməsi və "MİDA" MMC-nin alıcıları üçün ipoteka şərtlərinin yumşaldılması məqsədilə "AİF" ASC ilə əlaqələndirmənin və əməkdaşlığın səviyyəsi gücləndirilməlidir.

Şəkil 4. 2007–2015-ci illər üzrə verilmiş ipoteka kreditləri barədə məlumat




1. Məlumatların mövcud olmaması səbəbindən 2008-ci ilə aid olan göstərici 2007–2009-cu illərin orta göstəricisi kimi verilmişdir.

Mənbə: "AİF" ASC

İpoteka krediti alan şəxslərin gəlirlərini bölüşdürdükdə belə nəticəyə gəlmək olar ki, belə kreditləri alan ortagəlirli sakinlərin sayı azdır. Faktiki olaraq, ipoteka krediti alan şəxslərin 8 faizinin aylıq məvacibi 500 manatdan aşağıdır. İpoteka krediti alanlar arasında ən böyük qrup isə aylıq məvacibi 1100 manatdan yuxarı olanlardır.

Bakı şəhərində verilmiş ipoteka kreditinin maksimum məbləği 50 min manatdır. Digər rayonlarda isə bu rəqəm 27 min manat təşkil etmişdir (şəkil 5).

Şəkil 5. Ortagəlirli vətəndaşın ala biləcəyi ipoteka vəsaitinin maksimum məbləği barədə məlumat




1. Hər şəhər üzrə işçilərin sayının və orta əməkhaqqının orta qiyməti

Qeyd: Gəlir səviyyəsinə və maksimum aylıq ödəniş qabiliyyətinə uyğun olaraq hər bir vətəndaşın 54 min manata qədər kredit götürmək imkanının olmasına baxmayaraq, müəyyən olunmuş maksimum ipoteka məbləğinə görə hər bir vətəndaş maksimum 50 min manata qədər ipoteka krediti götürə bilir.

Mənbə: "AİF" ASC

Azərbaycanda ödənilməyən ipoteka kreditinin qeyri-neft sektoru üzrə ÜDM-də xüsusi çəkisi və əhalinin ipoteka kreditindən istifadə səviyyəsi digər ölkələrlə müqayisədə aşağıdır (şəkil 6). Ona görə də ölkədə ailələrin müxtəlif gəlir səviyyələrinə uyğun kredit təklif edən ipoteka bazarının inkişaf etdirilməsi üçün böyük imkanlar mövcuddur.

Şəkil 6. İpoteka bazarının inkişaf potensialı *(2014-cü il üzrə, faizlə)*




1. *15 yaşdan yuxarı əhali arasında payı*

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan bankları, Dünya Bankının Qlobal Maliyyə İndeksi

Mövcud ipoteka bazarında güzəştli (aşağıfaizli) ipoteka kreditləri "AİF" ASC-nin təklif etdiyi digər ipoteka kreditləri ilə müqayisədə daha çox alınır (şəkil 7). 2011–2015-ci illər ərzində bu kreditlərin ortaillik artım tempinin 50 faizdən yüksək olması uyğun qiymətə mənzil təminatı üçün nəzərdə tutulan ipoteka kreditlərinə tələbatın yüksək olmasından xəbər verir. Yuxarıda qeyd olunan dövrdə ipoteka kreditlərinin 82 faizi təkrar bazardan alınan mənzillərə yönəldilmişdir. Güzəştli ipoteka kreditlərinin qabaqcadan qeydiyyat sənədi vasitəsilə "MİDA" MMC-nin sifarişi əsasında inşa edilən mənzillərin alınmasına yönəldilməsi ipoteka bazarının və tikinti sektorunun inkişafına təkan verəcəkdir.

Şəkil 7. "AİF" ASC tərəfindən ayrılmış ipoteka kreditləri barədə məlumat



1. *"AİF" ASC-nin ödəniş müddəti başa çatmamış ipoteka kreditlərinin orta göstəricisi*

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, "AİF" ASC

Hazırda adi ipoteka kreditləri üçün 8, güzəştli ipoteka kreditləri üçün isə 4 faiz dərəcəsi tətbiq edilir. Güzəştli ipoteka kreditlərinin 78 faizi hərbi qulluqçulara verilmişdir.*

Qabaqcıl dünya təcrübəsi göstərir ki, Azərbaycanda mənzil təminatı üçün nəzərdə tutulan maliyyə sektoru üç mərhələdə inkişaf etdirilə bilər: əlverişli mühitin inkişafı, əsas bazarın fəaliyyətə başlaması və ipoteka kreditlərinin kapital bazarları vasitəsilə maliyyələşdirilməsi.

Əlverişli mühitin formalaşdırılması. Maliyyə bazarlarının maneəsiz fəaliyyət göstərməsində iqtisadi sabitlik və güclü normativ hüquqi baza vacib rol oynayır. Azərbaycan hökuməti bu baxımdan ən əlverişli hüquqi bazanın, təsisat sisteminin, əmlak bazarının, bank sektorunun və mənzil təminatı siyasətinin yaradılmasına xüsusi əhəmiyyət verir. Bu məqsədlərə nail olunmasında yaşayış sahəsinin (fərdi evlərin, mənzillərin) qiymətləndirilməsi üçün statistik məlumat bazasının yaradılması, qiymətləndirmə prosesinin standartlaşdırılması, daşınmaz əmlak girovunun likvidləşdirilməsi üçün hüquqi bazanın gücləndirilməsi, eləcə də kadastr sisteminin mərkəzləşdirilməsi və elektronlaşdırılması kimi tədbirlər mühüm əhəmiyyət daşıyır.

Əsas bazarın fəaliyyətə başlaması. Azərbaycanda fəaliyyət göstərən bankların ipoteka məhsulları vasitəsilə birbaşa kredit təklif edə bilməsi ipoteka bazarının inkişafına şərait yaradacaqdır. Azərbaycan hökuməti bu məqsədlə qabaqcıl təcrübə əsasında kredit standartlarının hazırlanmasına, əsas maliyyə məhsullarının və xidmətlərinin təmin edilməsinə, sığorta xidmətlərinin göstərilməsinə, eləcə də "AİF" ASC vasitəsilə uzunmüddətli kapitala çıxışın təmin edilməsinə dəstək verir. Bir sıra tədbirlərin görülməsi, o cümlədən banklar üçün kredit standartlarının

* Mənbə: "AİF" ASC

müəyyən edilməsi və məlumatların daha asan emal edilməsi üçün elektron torpaq reyestrindən istifadə bu məqsədə çatmağa kömək edə bilər.

İpoteka kreditlərinin kapital bazarları vasitəsilə maliyyələşdirilməsi. İnkişaf etmiş bazar potensialının tam reallaşması üçün kreditləri istiqrazlara çevirən (ipoteka istiqrazları) və sekyuritizasiyaları reallaşdıran likvidlik mexanizmi yaradılmalıdır. Azərbaycan hökuməti bu baxımdan qabaqcıl hüquqi, hesablama və vergi bazasının, habelə infrastrukturun yaradılmasına xüsusi əhəmiyyət verir. Bu məqsədə çatmaqda müəyyən tədbirlər, o cümlədən sekyuritizasiyaların inkişaf etdirilməsi, daha çox investorun cəlb edilməsi üçün "AİF" ASC tərəfindən təqdim edilən cari alətlərin yenilənməsi və ipoteka istiqrazlarına irihəcmli investisiyalar yatıran pensiya fondlarının və sığorta şirkətlərinin inkişafının dəstəklənməsi kömək edə bilər.

Görüləcək tədbirlər

Tədbir 2.4.1. İpoteka bazarının inkişafı istiqamətində tədbirlər görülməsi üçün tələb olunan ilkin şərtlərin və qanunvericiliyə ediləcək dəyişikliklərin müəyyənləşdirilməsi, təsdiq üçün təqdim edilməsi və dəyişikliklərin dərc edilməsi

"AİF" ASC müvafiq tərəfdaşların nümayəndələrindən (Mənzil İnşaatı Dövlət Agentliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Mərkəzi Bank, Əmlak Məsələləri Dövlət Komitəsi, özəl banklar və digər müvafiq tərəflər) ibarət işçi qrupla birlikdə araşdırma aparılaraq ipoteka bazarının inkişafı üçün normativ hüquqi baza üzrə müvafiq dəyişikliklərlə bağlı təkliflər hazırlanacaqdır. Həmin təkliflərə daşınmaz əmlak girovunun likvidləşdirilməsi üçün hüquqi bazanın və qeydiyyat sisteminin gücləndirilməsi, mənzillərin daha yaxşı qiymətləndirilməsi üçün ipoteka və mənzil bazarının statistik məlumat bazasının yaradılması, kadastr sisteminin mərkəzləşdirilməsi və elektronlaşdırılması (bu layihə hazırda ƏMDK tərəfindən həyata keçirilməkdədir), kredit standartlarının müəyyən edilməsi, məlumatların idarə edilməsi üçün infrastrukturun yaradılması, ipoteka istiqrazlarının reytinqinin yüksəldilməsi və pensiya fondlarının inkişafına dəstək göstərilməsi daxil ediləcəkdir.

Tədbir 2.4.2. "AİF" ASC ilə Mənzil İnşaatı Dövlət Agentliyi arasında əməkdaşlığın və tərəfdaşlığın yaradılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi

Mənzil İnşaatı Dövlət Agentliyi ilə "AİF" ASC arasında qurulmuş əməkdaşlığın və tərəfdaşlığın hüquqi bazası təkmilləşdiriləcəkdir.

Tədbir 2.4.3. İpoteka kreditinin verilməsi qaydalarına "MİDA" MMC-nin benefisiarlarının seçilməsi ilə bağlı meyarların daxil edilməsi

"MİDA" MMC və "AİF" ASC Azərbaycanın ipoteka bazarının inkişafı məqsədilə vətəndaşların üç istiqamət üzrə (daşınmaz əmlakın dəyəri, faiz dərəcələri və inzibati proses) seçilməsi meyarlarını genişləndirmək imkanlarını birgə nəzərdən keçirəcəklər.

İpoteka kreditinin maksimum məbləği və daşınmaz əmlakın dəyəri. **"**MİDA" MMC uyğun qiymətə mənzil təminatının məqsədlərinə uyğun olaraq, borcalanın seçilməsi üçün müəyyən edilmiş meyarlar və uyğun qiymətə mənzilin tikintisinə çəkilən xərcin faktiki dəyəri əsasında ipoteka kreditinin maksimum məbləğini və minimum ilkin ödəniş məbləğini müəyyən edəcəkdir.

Faiz dərəcələri. "AİF" ASC **"**MİDA" MMC tərəfindən satışa çıxarılan mənzillərin ipoteka krediti ilə alınması üzrə güzəştli faiz dərəcələri tətbiq edəcəkdir.

İnzibati proses. "MİDA" MMC müraciət müddətinin qısaldılması və sənədləşdirmə xərclərinin azaldılması üçün xüsusi qaydalar işləyib hazırlayacaqdır.

Mənzil İnşaatı Dövlət Agentliyi və "AİF" ASC ipoteka krediti alacaq şəxslərin seçilməsi meyarlarının "MİDA" MMC-nin benefisiarlarla bağlı meyarlarına və mənzillərin qiymətlərinə əsasən müəyyən edilməsi və uyğunlaşdırılması məqsədilə işçi qrup yaradacaqlar. Bu işçi qrup həmin müəssisələr arasında, xüsusilə ipoteka kreditinin maksimum məbləği, uyğun qiymətə mənzillər üçün minimum ilkin ödəniş məbləği, uyğun qiymətə mənzillər üçün ayrılmış kreditlərin faiz dərəcələri, ipoteka kreditinin verilməsi üçün tətbiq edilən inzibati proseslər və "MİDA" MMC-nin tikilməkdə olan binalarının maliyyələşdirilməsi kimi aspektlərlə bağlı vahid araşdırmanın aparılmasını və uyğunluğun təmin edilməsini həyata keçirəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Effektiv ipoteka bazarının yaradılması, demək olar ki, "MİDA" MMC tərəfindən həyata keçirilən layihələrdə iştirak edən bütün benefisiarların ipoteka krediti sistemindən istifadə etməsinə şərait yaradacaqdır. Bunun 2020-ci ildə real ÜDM-ə təsirin təxminən 9 milyon manat olacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- dövlət vəsaitindən səmərəli istifadə məqsədilə, güzəştli ipoteka üçün ayrılan büdcə vəsaitlərinin "MİDA" MMC-nin uyğun qiymətə mənzil təminatı layihələrinə cəlb edilməsi nisbətinin müəyyən edilməsi və indikator kimi istifadə olunması;
- ipoteka məqsədilə ayrılan vəsaitlərin aztəminatlı vətəndaşlar tərəfindən istifadəsi nisbətinin müəyyən edilməsi və indikator kimi istifadə olunması;
- "MİDA" MMC-nin benefisiarlara satdığı mənzillər üçün "AİF" ASC-nin verdiyi kreditlərin ümumi sayı;
- ipoteka kreditinin orta verilmə müddəti;
- "AİF" ASC və "MİDA" MMC tərəfindən seçim meyarlarının uzlaşdırılmasının birgə nəzərdən keçirilməsi.

Tələb edilən investisiya

Bu prioritet üzrə tələb olunan investisiyanın həcmi 1.2-ci prioritet üzrə investisiya tələbində nəzərə alınmışdır.

Gözlənilən risklər

"MİDA" MMC-nin benefisiarlarının iqtisadi vəziyyətini nəzərə alaraq qeyd etmək lazımdır ki, onların ödəmə qabiliyyəti ümumi əhalinin ödəmə qabiliyyətindən aşağı ola bilər. Buna görə də "AİF" ASC tərəfindən ipoteka kreditlərinin verilməsi zamanı bu amil nəzərə alınmalıdır. Həmçinin, "AİF" ASC və "MİDA" MMC seçim meyarlarının uzlaşdırılmasını birgə nəzərdən keçirməlidirlər.

İpoteka kreditlərinin ipoteka istiqrazları kimi kapital bazarları alətləri vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulmuşdur. Lakin ölkədə kapital bazarının ilkin inkişaf mərhələsində olmasını nəzərə aldıqda, bu alətlərdən istifadə zamanı bazar iştirakçıları bir sıra qeyri-müəyyənliklərlə qarşılaşa bilərlər.

Müasir dövrdə bir sıra ölkələrdə daşınmaz əmlak bazarında üzə çıxmış problemlərin fonunda, əvvəl də qeyd olunduğu kimi, verilən ipoteka kreditlərinin riskli olmasını nəzərə alaraq, bu alətlərdən istifadə səlahiyyətli dövlət qurumunun birbaşa nəzarəti altında həyata keçirilməlidir.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 900 milyon manat investisiya tələb olunur. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun və digər dövlət kredit və investisiya təşkilatlarının vəsaitləri;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri;
- qiymətli kağızlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, qrantları, texniki yardımı;
- “AİF” ASC-nin vəsaitləri;
- vətəndaşların ödədikləri vəsaitlər;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitlərinin müəyyən edilmiş prioritet hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflərlə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin, tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın təşəbbüsü ilə, ildə 2 (iki) dəfədən az olmamaq şərtilə onun rəhbərliyi altında keçiriləcəkdir. İclaslarda görülmüş işlər və nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupda tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şərait yaradacaq, tələb olunduqda kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu (*"delivery unit"*) müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə qurumlar və proseslər arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkilinin təmin edilməsinə və zəruri hallarda, əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda, mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.
- İcraya rəhbərlik olunması, eləcə də tələb olunan resurslara və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün işçi qruplar tərəfindən

bütün prioritetlər üzrə təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əlaqədar qurumları cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də zərurət yarandığı təqdirdə qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurla tətbiq olunması üçün bütün maraqlı tərəflərin cəlb edilməsi tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədilə, özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, o cümlədən beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlarla işləmək üçün əsas icraçı tərəfindən məşvərətçi şuralar və işçi komitələr yaradıla bilər.
- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcək və koordinasiya qurumuna təqdim olunacaqdır. İşçi qrupların iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun iclasından ən azı 10 gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlili və qiymətləndirilməsini, həmçinin, işçi qrupun iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində monitorinqin nəticələrini və tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinqin nəticələrinin və tövsiyələrin işçi qrupun fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar/Tövsiyə	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. Uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi üçün Mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlərin verilməsi					
1.1. Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun, vəzifələrinin və dəstək sahələrinin müəyyən edilməsi					
1.1.1.	Qanunvericilik bazasının nəzərdən keçirilməsi və müvafiq səlahiyyətlərin Mənzil İnşaatı Dövlət Agentliyinə ötürülməsi, qanunvericilikdə aparılmalı dəyişikliklərin layihəsinin maraqlı tərəflərə təqdim edilməsi	Nazirlər Kabineti	İqtisadiyyat Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi Mənzil İnşaatı Dövlət Agentliyi, "MİDA" MMC, "Azəriqaz" İB, "Azərsu" ASC, "Azərişıq" ASC, "Azərenerji" ASC, "Azəravtoyol" ASC,	• Mənzil İnşaatı Dövlət Agentliyinin təşkilati strukturunun, vəzifələrinin və dəstək sahələrinin müəyyən edilməsi; • uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi səviyyəsi; • effektiv təşkilati strukturun yaradılması, eləcə də inkişaf planının hazırlanması, Mənzil İnşaatı Dövlət Agentliyinin öz Əsasnaməsində nəzərdə tutulmuş vəzifələrinin icrasını təmin etmə imkanları; • "MİDA" MMC tərəfindən	2017-2018
1.1.2.	Mənzil İnşaatı Dövlət Agentliyi üçün effektiv təşkilati inkişaf planının hazırlanması	Mənzil İnşaatı Dövlət Agentliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2018

1.1.3.	Mənzil İnşaatı Dövlət Agentliyi üçün büdcənin hazırlanması, təsdiqlənməsi və dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi üzrə tədbirlərin həyata keçirilməsi	Nazirlər Kabineti	İqtisadiyyat Nazirliyi , Maliyyə Nazirliyi, Mənzil İnşaatı Dövlət Agentliyi, “AİF“ ASC, “MİDA” MMC	həyata keçirilən xidmətlərin böyük hissəsinin “Elektron hökumət” portalı vasitəsilə yerinə yetirilməsi.	2017
1.1.4.	Mənzil İnşaatı Dövlət Agentliyinin və “MİDA” MMC-nin yaradılması və Cəmiyyətin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi qaydasının hazırlanması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Mənzil İnşaatı Dövlət Agentliyi		2016 icra edilib

1.2. Uyğun qiymətə mənzil təminatı ilə bağlı hədəflərin və dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi					
1.2.1.	"AİF" ASC və Mənzil İnşaatı Dövlət Agentliyinin birgə əməkdaşlığı ilə mənzil tikintisi proqnozunun və dövlət proqramının layihəsinin hazırlanması	Nazirlər Kabineti	Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Qaçqın və Məcburi Köçkünlər üzrə Dövlət Komitəsi, Mənzil İnşaatı Dövlət Agentliyi, "AİF" ASC	• 2020-ci ildə real ÜDM-in 159 milyon manat birbaşa və 81 milyon manat dolayı olmaqla, ümumilikdə 240 milyon manat artması; • 2020-ci ildə tikinti sektorunda təxminən 10000 yeni iş yerinin yaradılması; • "MİDA" MMC tərəfindən təhvil verilən mənzillərin sayı; • mənzillərin orta inşaat müddəti; • alıcıların sayı.	2017-2018
1.2.2.	İctimai müzakirələrin aparılması	Mənzil İnşaatı Dövlət Agentliyi	*Tövsiyə edilir:* Yerli və beynəlxalq ekspertlərin iştirakı		2018
1.2.3.	Uyğun qiymətə mənzil təminatı üçün dövlət dəstəyi mexanizmlərinin müəyyən edilməsi və təsdiqi, eləcə də normativ hüquqi bazanın təkmilləşdirilməsi	Mənzil İnşaatı Dövlət Agentliyi	İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, "AİF" ASC		2017

Strateji hədəf 2. Uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin həyata keçirilməsi					
2.1. Torpaq sahələrinin müəyyən edilməsi və mülkiyyət hüququnun "MİDA" MMC-yə ötürülməsi					
2.1.1.	Uyğun qiymətə mənzil təminatı layihələri üçün ölkə miqyasında araşdırmaların aparılması və zəruri torpaq sahələrinin müəyyən edilməsi	Mənzil İnşaatı Dövlət Agentliyi	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları	• İstifadəsiz torpaq sahələrinin 5 faizinin bu Strateji Yol Xəritəsinin icrası zamanı dövriyyəyə cəlb edilməsi; • dövlət mülkiyyətində olan boş torpaq sahələrinin mənzil tikintisinə cəlb edilməsi nəticəsində layihələrin icra xərclərinin 10 faiz azaldılması.	2017-2018
2.1.2.	Seçilmiş torpaq sahələri üzərində mülkiyyət hüququnun uyğun qiymətə mənzil təminatı layihələrinin həyata keçirilməsi üçün "MİDA" MMC-yə ötürülməsi	Nazirlər Kabineti	Mənzil İnşaatı Dövlət Agentliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti		2017-2018
2.1.3.	Əlverişli torpaq sahələrinin istifadəyə cəlb edilməsi üçün təşəbbüslərin həyata keçirilməsi və sağlam mənzil bazarının yaradılması	Nazirlər Kabineti	Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Mənzil İnşaatı Dövlət Agentliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti		2017-2020

2.2. Dövlət mənzil fondunun benefisiarlarının müəyyən edilməsi					
2.2.1.	Seçilmiş kateqoriyalara uyğun benefisiarların müəyyən edilməsi	Mənzil İnşaatı Dövlət Agentliyi	"AİF" ASC, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	• Dövlət mənzil fondu benefisiarlarının hədəf sosial qruplardan seçilməsi səviyyəsi və təsnif edilmiş sosial qruplar üzrə benefisiarların sayı; • seçilmiş sosial qrupa daxil olan ailələrin 10 faizinin növbəti 10 ildə mənzillə təmin olunması; • urbanizasiya probleminin azalması; • bu günədək mənzillə təmin edilməmiş qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması.	2017-2018
2.2.2.	İnfrastrukturun yaradılması, benefisiarlarla bağlı meyarların ictimaiyyətə çatdırılması, müraciətlərin qəbulu, mənzillərin bölüşdürülməsi, nəzarət və illik hesabatın təqdim edilməsi	Mənzil İnşaatı Dövlət Agentliyi	Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Ədliyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət İmtahan Mərkəzi "MİDA" MMC		2017
2.2.3.	Mənzil üçün dövlət dəstəyi alan benefisiarların müəyyən edilməsi prosesinin koordinasiya edilməsi	Mənzil İnşaatı Dövlət Agentliyi	"MİDA" MMC		hər ilin üçün qabaqcadan
2.3. Yerli və beynəlxalq özəl sektor iştirakçıları ilə əməkdaşlığın qurulması					
2.3.1.	Müxtəlif icra modellərinin seçilməsi prinsipinin müəyyən edilməsi	Mənzil İnşaatı Dövlət Agentliyi	Maliyyə Nazirliyi	• Ölkənin tikinti sektoruna xarici investisiyaların cəlb edilməsi; • tenderlərin keçirilməsində	2017-2018
2.3.2.	Özəl tikinti-investisiya şirkətinin seçilməsi üçün uyğun meyarların müəyyən edilməsi	İqtisadiyyat Nazirliyi	Mənzil İnşaatı Dövlət Agentliyi, Maliyyə Nazirliyi		2017

2.3.3.	Yerli investorlarla əlaqənin yaradılması, inkişaf planlarının onlara izah edilməsi və potensial beynəlxalq investorların əməkdaşlığa dəvət edilməsi	Azərbaycan İnvestisiya Şirkəti	Mənzil İnşaatı Dövlət Agentliyi, "MİDA" MMC, İqtisadiyyat Nazirliyi	şəffaflığın tam təmin edilməsi; • qabaqcıl beynəlxalq təcrübənin tətbiqi prosesinin sürətlənməsi; • rəqabət mühitinin tam təmin edilməsi sayəsində layihələrin xərclərinə 10 faizdən artıq qənaət imkanı; • alıcıların sayı; • tenderdə iştirak edən yerli və xarici tikinti şirkətlərinin sayı.	2017-2018
2.4. İpoteka bazarının effektivliyinin təmin edilməsi					
2.4.1.	İpoteka bazarının inkişafı istiqamətində tədbirlər görülməsi üçün tələb olunan ilkin şərtlərin və qanunvericiliyə ediləcək dəyişikliklərin müəyyənləşdirilməsi, təsdiq üçün təqdim edilməsi və dəyişikliklərin dərc edilməsi	"AİF"ASC	Mənzil İnşaatı Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 9 milyon manat artması; • dövlət vəsaitindən səmərəli istifadə məqsədilə güzəştli ipoteka üçün ayrılan büdcə vəsaitlərinin "MİDA" MMC-nin uyğun qiymətə mənzil təminatı layihələrinə cəlb edilməsi nisbətinin müəyyən edilməsi və	2017
2.4.2.	"AİF" ASC ilə Mənzil İnşaatı Dövlət Agentliyi arasında əməkdaşlığın və tərəfdaşlığın yaradılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi	Mənzil İnşaatı Dövlət Agentliyi	Ədliyyə Nazirliyi, "AİF"ASC		2017

2.4.3.	İpoteka kreditinin verilməsi qaydalarına “MİDA” MMC-nin benefisiarlarının seçilməsi ilə bağlı meyarların daxil edilməsi	Mənzil İnşaatı Dövlət Agentliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, “AİF” ASC	indikator kimi istifadə olunması; • ipoteka məqsədilə ayrılan vəsaitlərin aztəminatlı vətəndaşlar tərəfindən istifadəsi nisbətinin müəyyən edilməsi və indikator kimi istifadə olunması; • “MİDA” MMC-nin benefisiarlara satdığı mənzillər üçün “AİF” ASC-nin verdiyi kreditlərin ümumi sayı; • “AİF” ASC və “MİDA” MMC tərəfindən seçim meyarlarının uzlaşdırılmasının birgə nəzərdən keçirilməsi.	2017

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 645

2. QLOBAL TRENDLƏR 647

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 650

3.1. Peşə təhsili və təlimi sektorunun mövcud vəziyyəti 650

3.2. Peşə təhsili və təlimi sektorunun GZİT təhlili 652

4. STRATEJİ BAXIŞ 653

4.1. 2020-ci ilədək strateji baxış 653

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 654

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 656

5. HƏDƏF İNDİKATORLARI 658

6. STRATEJİ MƏQSƏDLƏR 658

7. STRATEJİ HƏDƏFLƏR 659

7.1. Strateji hədəf 1. İşəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası 659

7.1.1. Prioritet 1.1. İşəgötürənlərlə tərəfdaşlığın qurulması 659

7.1.2. Prioritet 1.2. Peşə təhsili sisteminə ixtisaslı yeni mütəxəssislərin cəlb edilməsi 665

7.2. Strateji hədəf 2. Nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin yaradılması 667

7.2.1. Prioritet 2.1. Peşə təhsili sisteminin gələcək inkişafını təmin etmək üçün əlavə dövlət, özəl və beynəlxalq maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi 668

7.2.2. Prioritet 2.2. Fəaliyyətin nəticələrinə əsaslanan həvəsləndirmə mexanizmlərinin tətbiqi 671

7.3. Strateji hədəf 3. Məqsədli peşə inkişafı proqramlarının yaradılması 672

7.3.1. Prioritet 3.1. Yaşlılar üçün peşə təliminin və ixtisasartırmanın təmin edilməsi 672

7.4. Strateji hədəf 4. Sektorlar üzrə spesifik proqramların yaradılması 674

7.4.1. Prioritet 4.1. Kiçik və orta sahibkarlıq subyektləri üçün model müəssisələrin yaradılması və sahibkar düşüncə tərzinin təşviqi istiqamətində peşə təhsili və təlimi müəssisələrinin fəaliyyətinin təşkili 676

7.4.2. Prioritet 4.2. Sektorlar üzrə tələblərin qarşılanmasına dəstək verilməsi 677

7.5. Strateji hədəf 5. Peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi 679

7.5.1. Prioritet 5.1. İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması 679

7.5.2. Prioritet 5.2. Məlumatların şəffaf monitorinqinin və vahid bazasının təmin edilməsi 681

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 684

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 685

10. TƏDBİRLƏR PLANI 687

1. QISA XÜLASƏ

Azərbaycan Respublikası Prezidentinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına əsasən İşçi qrup yaradılaraq, 8 əsas və 3 yardımçı olmaqla, 11 sektor üzrə Azərbaycan iqtisadiyyatının 2020-ci ilədək iqtisadi inkişaf strategiyasının və tədbirlər planının, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışın və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışın hazırlanması barədə müvafiq tapşırıqlar verilmiş və həmin tapşırıqların icra edilməsi məqsədilə “Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi” (bundan sonra – Strateji Yol Xəritəsi) sənədi hazırlanmışdır.

Bu sənəd peşə təhsili və təlimi sahəsində dünyada mövcud meyillər nəzərə alınmaqla, ölkədə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi məqsədilə çeviklik və inteqrasiya prinsipləri əsasında hazırlanmışdır.

Sənəddə peşə təhsili və təlimi sektoru üzrə 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyən edilmişdir. 2020-ci ilədək olan dövr üzrə strateji baxışa nail olmaq üçün strateji hədəflər və prioritetlər, o cümlədən icra müddətləri göstərilməklə müvafiq tədbirlər, əsas və digər icraçılar, gözlənilən təsirlər, icra mexanizmləri təfsilatlı şəkildə hazırlanmışdır. Qısamüddətli dövrdə prioritetlərin diqqətlə seçilərək icra edilməsi orta və uzunmüddətli dövr ərzində görüləcək işlər üçün zəmin hazırlayacaqdır. Bundan əlavə, Strateji Yol Xəritəsi yerli və beynəlxalq səviyyədə özəl sektor nümayəndələri üçün məlumat və əməkdaşlıq vasitəsi olacaqdır.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri rəhbər tutulmaqla, 2020-ci ilədək olan dövr ərzində Azərbaycan Respublikasının peşə təhsili və təlimi sistemində aşağıdakı strateji hədəflər müəyyən edilmişdir:

- işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası;
- nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin yaradılması;
- məqsədli peşə inkişafı proqramlarının yaradılması;
- sektorlar üzrə spesifik proqramların yaradılması;
- peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi.

Peşə təhsili və təlimi sektorunda müəyyən edilmiş prioritetlərin real ÜDM-ə təsirinin təxminən 6 milyon manat olacağına baxmayaraq, bu prioritetlər digər sektorların prioritetləri çərçivəsində 1 milyard manat məbləğində dolayı təsirin meydana çıxmasına səbəb olacaqdır. Belə ki, peşə təhsili və təlimi sektoru iqtisadiyyatın digər sektorları ilə qarşılıqlı əlaqədə olmaqla, həmin sektorların potensialının tam reallaşdırılmasında mühüm rol oynayır və bu sektora qoyulan investisiyalar nəticədə iqtisadiyyata multiplikativ təsir göstərir.

Strateji Yol Xəritəsi çərçivəsində peşə təhsili və təlimi ilə bağlı prioritetlər üzrə əldə olunacaq nəticələr və tələb olunan investisiyalar aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 1. Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələr

№	Prioritetin adı	**Real ÜDM-ə təsiri** *(milyon manatla, 2020)*	**Məşğulluq** *(tam ştatlı işçilər, 2020)*	**İnvestisiya** *(milyon manatla)*
1.1.	İşəgötürənlərlə tərəfdaşlığın qurulması	1	–	165
1.2.	Peşə təhsili sisteminə ixtisaslı yeni mütəxəssislərin cəlb edilməsi	2	195	–
2.1.	Peşə təhsili sisteminin gələcək inkişafını təmin etmək üçün əlavə dövlət, özəl və beynəlxalq maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi	2	–	23
3.1.	Yaşlılar üçün peşə təliminin və ixtisasartırmanın təmin edilməsi	1	177	–

Qeyd 1. Bu cədvəldə yalnız 10 milyon manatdan çox investisiya tələb edən və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.

Qeyd 2. Bu rəqəmlər prioritetlərin təsirləri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli təhlillərin aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.

2. QLOBAL TRENDLƏR


Peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malikdir. Yerli və beynəlxalq qurumlar və ölkələrin iqtisadi inkişaf istiqamətlərini müəyyənləşdirən məsul şəxslər iqtisadiyyatın inkişafı və sosial bərabərliyin təmin edilməsinə nail olmaq üçün müasir peşə təhsili sisteminin bərqərar olmasına xüsusi önəm verirlər.

Dörd mühüm qlobal trend iqtisadi məhsuldarlığın amili kimi peşə təhsili və təliminin əhəmiyyətini artırır: qloballaşma, qlobal iqtisadi mühit, məhsuldarlıq tələbləri və məşğulluq üçün təhsilə diqqətin artması.

Qloballaşma ölkələr arasındakı əlaqələri genişləndirir və bunun nəticəsi olaraq təhsil sistemlərinin fəaliyyət və effektivliyinin müqayisəsinə maraq artır. Bundan əlavə, regional və qlobal dəyər zəncirində ölkələr arasında rəqabətin artması yüksəkixtisaslı işçi qüvvəsinə tələbat yaradır. Qlobal innovasiya iqtisadiyyatı şəraitində belə işçi qüvvəsi olan ölkələr üstünlüyə malik olur.

İkincisi, qlobal iqtisadi mühit fundamental iqtisadi bacarıqlara diqqəti artırmışdır. Bir sıra ölkələrdə qlobal iqtisadi qeyri-müəyyənliyin təsiri nəticəsində biznesə etimad zəifləmiş, iş yerlərinin sayı azalmışdır. İşsizlik səviyyəsinin yüksək olmasına baxmayaraq istedadlı işçi qüvvəsinin çatışmazlığı təhsil sistemi ilə əmək bazarının tələbləri arasındakı uyğunsuzluğun nəticəsi kimi qiymətləndirilir. Xüsusən də, cari qlobal mühitdə gənclər arasında işsizlik səviyyəsinin yuxarı olması iqtisadi inkişafı ləngidən və sosial sabitliyi pozan mühüm problemlərdən biridir (şəkil 1).

Şəkil 1. 15-24 yaşlı gənclər arasında işsizlik səviyyəsi *(faizlə, 2010-cu il üzrə)*



1. *Bundan başqa, işlə təmin olunmasına baxmayaraq 152 milyon gənc yoxsulluq şəraitində yaşayır (adambaşına düşən gündəlik gəlir 1,25 ABŞ dollarından aşağı olmaqla).*

Mənbə: Beynəlxalq Əmək Təşkilatı, Qlobal Məşğulluq Trendləri

Dünyada iqtisadi qeyri-müəyyənlik və yeni bazarlara çıxış imkanı uğrunda artan rəqabət məhsuldarlıq tələblərinin artmasına səbəb olmuşdur. Buna müvafiq olaraq,

dünya ölkələri bazarların, şirkətlərin və fərdlərin əmək məhsuldarlığının artırılmasına getdikcə daha çox diqqət yetirirlər. Burada texnologiya katalizator rolunu oynayaraq, təhsil müəssisələrini əmək bazarının tələblərinə cavab verməyə imkan verən vasitələrlə təmin edir. İnformasiya texnologiyaları "öyrətməklə öyrənmək" modelində məhsuldarlığın artırılmasını asanlaşdırır.

Dördüncüsü, getdikcə artan ixtisaslı kadr çatışmazlığı problemini həll etmək, tələbələrin və işəgötürənlərin ehtiyaclarını təmin etmək məqsədilə təhsilə maraq daha da artmaqdadır. İxtisaslı kadr çatışmazlığının getdikcə artması, əsasən, təhsil və əmək bazarı arasında kəmiyyət, keyfiyyət və gözləntilər baxımından uyğunsuzluqlarla əlaqədardır. Kəmiyyət baxımından uyğunsuzluqlar müxtəlif ixtisas dərəcələri (ilk, orta və ya ali ixtisas) və sahələr (tibb, texnologiya və s.) üzrə əmək bazarında bəzən tələb olunandan çox, bəzən isə tələb olunandan az sayda kadrların hazırlanması nəticəsində yaranır. Keyfiyyət uyğunsuzluqları məzunların işəgötürənlərin iş səriştələri və işə hazırlıq səviyyəsi ilə bağlı tələblərinə uyğun olmaması nəticəsində baş verir. Həmçinin ixtisasın təmin etdiyi gələcək imkanlar və karyera uğurunu təmin edəcək digər vasitələrlə bağlı yanlış ilkin təsəvvürlər təhsil və əmək bazarı arasında gözləntilər baxımından uyğunsuzluğa səbəb olur.

Sərişteli işçi qüvvəsinə olan tələbatı ödəmək üçün bir çox dünya ölkələri peşə təhsilinin inkişafı və işsizliyin azaldılması istiqamətində müvafiq hüquqi və iqtisadi islahatlar həyata keçirirlər. Peşə təhsili sahəsində həyata keçirilən islahatlar sabahın işçi qüvvəsinin kiçik və orta sahibkarlığın üstünlük təşkil etdiyi dəyişən və rəqabətli əmək bazarının tələblərinə uyğun səviyyədə hazırlanması məqsədi daşıyır.

Qlobal trendə görə, təhsilini ali məktəbdə davam etdirmək istəyən şagirdlər orta məktəbi peşə-ixtisas təhsili sənədi ilə bitirməyə üstünlük verirlər. Bu halda onlar orta məktəb attestatı ilə yanaşı, əlavə bir peşəyə də yiyələnmiş olurlar və arzu etdikləri sahəni daha dərindən mənimsəyirlər.

Beynəlxalq sertifikata malik peşə təhsili məzunlarına tələbat həm beynəlxalq, həm də yerli səviyyədə yüksək olaraq qalır. Bu zaman mütəxəssislərin xaricdə işləmək imkanları əhəmiyyətli dərəcədə artır. Peşə təhsili elektron dərsliklər və simulyatorlardan istifadə olunmaqla daha praktiki istiqamət alır.

Dövlət-özəl tərəfdaşlığı çərçivəsində infrastruktur və digər xərclərin optimallaşdırılması və vəsaitlərdən istifadənin səmərəliliyinin artırılması peşə təhsilində yeni əməkdaşlıq imkanları yaradır. Dəyişən əmək bazarının tələblərinə çevik uyğunlaşan müvafiq peşə təhsili proqramları ilə işəgötürənlərin təlim tələblərinin vaxtında qarşılanması və kadrların yenidən hazırlanması müasir peşə təhsili müəssisələrini səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Qeyd edilənlərlə yanaşı, müasir peşə təhsilində əsas trendlərdən biri də peşə təhsili məzunlarına sahibkarlıq bacarıqlarının aşılanması, bununla da onların öz yeni iş yerlərini yaratmağa həvəsləndirilməsidir.

Əmək bazarının tələblərinə uyğun kadr hazırlayan peşə təhsili sisteminin yaradılması inkişaf etməkdə olan ölkələrdə daha böyük əhəmiyyət kəsb edir. Belə ki, bu ölkələrin TIMSS (Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramı) üzrə göstəriciləri getdikcə aşağı düşür. Bundan əlavə, bu cür ölkələrdə sistemin fəaliyyətində keyfiyyətə nəzarətin və qiymətləndirmənin lazımi səviyyədə olmaması təhsilin keyfiyyətinə mənfi təsir edən amil kimi çıxış edir.

Peşə təhsili və təliminin ümumi iqtisadi inkişafdakı əhəmiyyətini nəzərə alaraq, bir çox dünya ölkələri bu sahənin inkişafı üzrə proqramlar hazırlayır və həyata keçirir. İstehsalat təcrübələri ilk və orta peşə təhsili məzunları üçün təhsildən məşğulluğa keçidi

təmin edən ən effektiv alətlərdən biri kimi öz təsdiqini tapmışdır və real sektorla bu cür əməkdaşlıq real iqtisadi təsir yaradan mühüm bir vasitədir.

Beynəlxalq təcrübə göstərir ki, peşə təhsili və təliminin dəyər zəncirində müdaxilələrin effektivliyini təmin edən bir sıra aparıcı uğur faktorları vardır. Birincisi, uğurlu müdaxilələrdə məlumatların toplanılması və yayılması daha yaxşı həyata keçirilir və maraqlı tərəflərin məlumatlandırılması, şəffaflığın təmin edilməsi və fəaliyyətə nəzarət edilməsi üçün daha geniş imkanlar yaradır. Digər tərəfdən, daha transformativ həll yolu müəyyən bir sahə üzrə çalışan çoxsaylı təminatçı və maraqlı tərəflərin cəlb edilməsindən ibarətdir. Konsensusa əsaslanan, xərclərin bölüşdürülməsini, risklərin azaldılmasını təmin edən bu cür sektorlar üzrə əməkdaşlıqlar stimullaşdırılır.

Peşə təhsilinin cəlbediciliyini artırmaq üçün dünya ölkələrində həm şagirdlər, həm də işəgötürənlər stimullaşdırılmaqla, sistemin məhsuldarlığının artırılması təmin edilir. Bundan əlavə, marketinq kampaniyaları vasitəsilə peşə təhsilinin ictimai imicinin yaxşılaşdırılmasına getdikcə daha çox diqqət yetirilir.

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Peşə təhsili və təlimi sektorunun mövcud vəziyyəti

Tarixi ənənələr

Azərbaycanda peşə təhsili və təlimi sistemi milli təhsil sisteminin tərkib hissəsi kimi zəngin tarixə malikdir. 1879-cu ildə Naxçıvanda xarratlıq və çilingərlik üzrə sənətkarlar hazırlayan peşə məktəbləri, 1883-cü ildə Şəkidə ipəkçilik məktəbi, 1884-cü ildə Gəncədə, 1887-ci ildə isə Bakıda sənət məktəbləri yaradılmış, 1914-cü ilə qədər isə sənət məktəblərinin sayı 10-a çatmışdır.

Sovet İttifaqı dövründə Azərbaycanda peşə məktəblərinin şəbəkəsi genişləndirilmiş, maddi-texniki bazası möhkəmləndirilmişdir. 1980-ci illərdə ölkədə 300 peşə üzrə 100 mindən artıq şagirdin təhsil aldığı 185 peşə tədris müəssisəsinin fəaliyyət göstərməsi, müxtəlif peşə istiqamətləri üzrə hazırlanan ixtisaslı fəhlə kadrlarının istehsalata göndərilməsi bu sahənin inkişafının bariz göstəricisi idi.

1980-ci illərin sonları 1990-cı illərin əvvəllərində ölkənin sosial-iqtisadi həyatında baş verən hadisələr bu sahənin inkişafına mənfi təsir göstərmiş, peşə təhsili müəssisələrinin maddi-texniki bazası sıradan çıxmağa başlamış və peşə təhsili sistemi tamamilə dağılmaq təhlükəsi ilə üzləşmişdir.

Yeni peşə təhsili siyasətinin çərçivələri

1990-cı illərin ortalarından başlayaraq peşə təhsilinə diqqət artırılmış, onun təkmilləşdirilməsi istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 23 avqust tarixli 116 nömrəli "Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsili sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında" qərarına uyğun olaraq, maddi-texniki bazası zəif olan və müasir tələblərə cavab verməyən peşə məktəbləri birləşdirilmiş və ya ləğv edilmiş, texniki peşə təhsili müəssisələrinə peşə məktəbi və peşə liseyi statusu verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 2282 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər)" çərçivəsində bir sıra tədbirlər həyata keçirilmiş və nəticədə, peşə təhsili müəssisələrinə qəbul səviyyəsi yüksəlmişdir. Son illərdə ölkə iqtisadiyyatının diversifikasiyası, qeyri-neft sektorunun davamlı inkişafının təmin olunması istiqamətində aparılan məqsədyönlü islahatlar ölkədə əlavə dəyər yaradan sektorların inkişafını təmin etməklə yanaşı, əmək bazarında rəqabətqabiliyyətli ixtisaslı kadr potensialına tələbatı artırmaqla, bu tələbatın ödənilməsinə imkan verən çevik və bazaryönümlü peşə təhsili sisteminin qurulmasını zəruri edir.

Azərbaycanda peşə təhsilinin inkişafının təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlərin tərkib hissəsi kimi, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” 2016-cı il 20 aprel tarixli 869 nömrəli Fərmanına müvafiq olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmışdır. Bu Fərmanla Agentliyin Əsasnaməsi təsdiq edilmiş və burada onun fəaliyyət istiqamətləri, vəzifələri, hüquqları və fəaliyyətinin təşkili ilə bağlı məsələlər müəyyən olunmuşdur. Agentlik Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsili sahəsində dövlət siyasətinin həyata keçirilməsi və əlaqələndirilməsini, o cümlədən Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ilk peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətinin təşkil edilməsini həyata keçirir. Agentliyin təsis edilməsi peşə təhsilinin inkişaf etdirilməsi və

müasir dövrün standartlarına uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın peşə təhsili sistemi ilk peşə-ixtisas təhsili müəssisələrindən (peşə məktəbləri, peşə liseyləri və peşə təhsil mərkəzlərindən) ibarətdir. Hazırda ölkənin peşə təhsili sistemində ümumilikdə 118, o cümlədən 116 dövlət (onlardan 109-u Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələridir) və 2 özəl təhsil müəssisəsi mövcuddur. Onlardan 6-sı Dağlıq Qarabağ və ətraf ərazilərdə fəaliyyət göstərmiş və hazırda fəaliyyəti dayandırılmış peşə məktəbləridir. Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən dövlət peşə təhsili müəssisələrində 154 ixtisas üzrə 24 minə yaxın şagird təhsil alır. Peşə təhsili müəssisələrində təhsil, əsasən dövlət hesabına və qismən ödənişli əsaslarla həyata keçirilir.[1]

Həyata keçirilmiş tədbirlərə baxmayaraq, təhsil sisteminin prioritet sahələrindən biri olan peşə təhsili və təlimi sistemində müəyyən problemlər mövcuddur. Belə ki, inkişaf etmiş ölkələrdə orta təhsil pilləsi məzunlarının 40-60 faizi[2] məhz peşə-ixtisas təhsili müəssisələrinə qəbul olunduğu halda, Azərbaycanda bu rəqəmin 11 faizdən aşağı olması[3] əhalinin bu təhsil istiqamətinə marağının az olduğunu göstərir.

Ölkəmizdə mövcud peşə təhsili və təlimi sistemi aşağıdakı xarakterik problemlərlə səciyyələnir:

- ilk peşə-ixtisas təhsili üzrə normativ hüquqi bazanın yenilənmiş və çevik olmaması;
- maddi-texniki və tədris bazasının fiziki və mənəvi cəhətdən köhnələrək sıradan çıxması;
- peşə-ixtisas təhsili sistemində istifadə olunan təhsil proqramlarının, dərslik və dərs vəsaitlərinin müasir tələblərə cavab verməməsi;
- peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi və monitorinqi üçün mütərəqqi mexanizmin olmaması;
- peşə-ixtisas təhsili sistemində mövcud idarəetmənin bazar iqtisadiyyatı prinsipləri ilə tam uzlaşmaması və onun dövlət büdcəsindən maliyyələşdirilməsi mexanizminin kifayət qədər səmərəli olmaması;
- işəgötürən təşkilatların peşə təhsili müəssisələrinin maliyyələşdirilməsində iştirak etməməsi və bunun üçün müvafiq qanunverici bazanın mövcud olmaması;
- peşə-ixtisas təhsili sistemində çalışan kadrların hazırlıq səviyyəsinin və əməkhaqlarının qənaətbəxş olmaması;
- müxtəlif mülkiyyət formalarına əsaslanan və peşə hazırlığı üzrə fəaliyyət göstərən qurumlar arasında əlaqənin zəif olması;
- ümumtəhsil müəssisələrində peşəyönümü işinin zəif aparılması;
- məzunların əmək bazarının tələblərinə cavab verməməsi;
- eyni peşə istiqamətləri üzrə paralel kadr hazırlığı həyata keçirən ilk peşə-ixtisas təhsili müəssisələrinin mövcudluğu;
- təhsil müəssisələrinin böyük əksəriyyətinin başqa təyinatlar üzrə istifadə edilməsi.

Peşə təhsili və təlimi sistemində bir sıra problemlərin mövcud olmasına baxmayaraq, ölkə səviyyəsində aparılan məqsədyönlü islahatlar çərçivəsində bütövlükdə ölkə iqtisadiyyatında müşahidə olunan müsbət meyillər peşə təhsili sistemi

[1] Mənbə: Azərbaycan Respublikasının Təhsil Nazirliyi
[2] Mənbə: Eurostat
[3] Mənbə: Azərbaycan Respublikasının Təhsil Nazirliyi

qarşısında yeni tələblər qoyur. İqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sənayesi sahələri ilə yanaşı, qeyri-neft sektorunun yüksək əlavə dəyər yaradan sahələrinin inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər əmək bazarında rəqabətqabiliyyətli və ixtisaslı kadrlara tələbatı artırır. Bu baxımdan peşə təhsili və təlimi sistemi əmək bazarının bu cür artan və dinamik dəyişən tələbatını ödəyən qabaqlayıcı kadr hazırlığını təmin etməlidir.

3.2. Peşə təhsili və təlimi sektorunun GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
• "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın olması; • Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması; • peşə təhsili müəssisələrinin balansında torpaq sahələrinin və digər aktivlərin mövcud olması; • yüzlərlə peşə üzrə peşə standartlarının olması; • Azərbaycanda bir çox istiqamətlər üzrə peşə ənənələrinin olması.	• infrastruktur, avadanlıq və maddi-texniki bazanın köhnəlməsi; • təhsil proqramları, dərslik və dərs vəsaitlərinin köhnəlməsi; • müəllim-pedaqoji heyətin və kadrların hazırlıq səviyyəsinin qənaətbəxş olmaması; • peşə təhsili müəssisələrində idarəedici heyətin zəif olması; • peşə təhsili müəssisələrinin maliyyə təminatının zəif olması; • peşəyönümü işinin qənaətbəxş səviyyədə aparılmaması; • peşə təhsilinin imicinin aşağı olması; • stimullaşdırıcı əməkhaqqı sisteminin olmaması; • peşə təhsilinin əmək bazarının tələblərinə cavab verə bilməməsi; • işəgötürənlərlə əlaqələrin zəif olması; • özəl sektorun təhsilə cəlb olunmaması.
İmkanlar	**Təhlükələr**
• peşə təhsili sahəsində islahatların aparılmasına dövlətin maraq və dəstəyi; • peşə təhsilinin Strateji Yol Xəritəsində prioritet sektor kimi müəyyənləşdirilməsi; • beynəlxalq təşkilatların və maliyyə qurumlarının peşə təhsili sahəsinə marağı; • dövlət-özəl tərəfdaşlığı vasitəsilə özəl sektorun peşə təhsili sisteminə dəstəyi; • əmək bazarında ixtisaslı və rəqabətqabiliyyətli kadrlara tələbatın olması; • qeyri-neft sektorunun inkişafına və iqtisadiyyatın şaxələnməsinə	• qlobal maliyyə-iqtisadi böhranın ölkə iqtisadiyyatına təsiri; • işə qəbul vaxtı peşə və ya ixtisası təsdiq edən sənədin tələb edilməməsi; • ölkədə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin kifayət qədər olmaması; • işəgötürənlərin təhsil müəssisələri ilə əməkdaşlıqda maraqlı olmaması; • peşə təhsili sahəsində hüquqi bazanın zəif olması və bürokratik işləmlərin mövcudluğu; • insanların peşə təhsilinə mənfi münasibətinin dəyişməməsi; • kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında xüsusi çəkisinin istənilən səviyyədə olmaması;

istiqamətlənən dövlət siyasətinin aparılması.	• əksər peşə təhsili müəssisələrində qaçqın və məcburi köçkünlərin məskunlaşması.

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

Peşə təhsili və təlimi sektorunda 2020-ci ilədək strateji baxış ölkədə əmək bazarının tələblərinə cavab verən mühəndis-pedaqoji heyətə, yenilənmiş təhsil proqramlarına (kurikulumlara) və peşə standartlarına malik pilot və optimallaşdırılmış peşə təhsili müəssisələrindən ibarət peşə təhsili və təlimi sisteminin formalaşdırılmasıdır.

Strateji baxışın şərhi

Ölkənin mövcud potensialından tam istifadə etməklə hazırkı sənəddə müəyyən edilən strateji hədəflər və prioritetlər həyata keçiriləcəkdir. Bu məqsədlə Strateji Yol Xəritəsində strateji baxış konsepsiyasının komponentləri prioritet olaraq müəyyən edilmişdir.

2020-ci ilədək strateji baxış Azərbaycanda peşə təhsili haqqında qanun layihəsinin hazırlanmasını və qəbulunu nəzərdə tutur. Ölkədə peşə təhsili müəssisələrinin müvafiq qaydada optimallaşdırılması həyata keçiriləcəkdir. Bu, maddi-texniki bazası zəif olan və yüksəkixtisaslı kadrlar hazırlamaq imkanları məhdud olan peşə təhsili müəssisələrinin fəaliyyətinin dayandırılması, müvəqqəti dondurulması və ya onların birləşdirilməsi yolu ilə maddi-texniki bazasının təkmilləşdirilməsi, həmçinin beynəlxalq təcrübəni öyrənməklə müasir standartlara cavab verən tam təchizatlı yeni peşə təhsili müəssisələrinin qurulması vasitəsilə həyata keçirilə bilər. Bundan əlavə, peşə təhsili müəssisələrinin ixtisaslaşması prosesi həyata keçiriləcək, 2025-ci ilədək və ondan sonrakı dövrdə inkişaf etmiş peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin yaradılması istiqamətində mövcud müəssisələrin gücləndirilməsi üçün işəgötürənlərdən və digər tərəflərdən əlavə maliyyə və qeyri-maliyyə yardımlarının cəlb edilməsi mexanizmləri hazırlanacaqdır.

Bundan əlavə, 2020-ci ilə qədər peşə təhsili və təlimi sistemində özəl sektorun iştirakı stimullaşdırılacaq, özəl sektorla peşə təhsili və təlimi müəssisələri arasında dövlət-özəl tərəfdaşlığına əsaslanan mexanizm işlənib hazırlanacaq və bu birgə əməkdaşlıq mexanizmi müəyyən meyarlar əsasında seçilmiş pilot peşə təhsili müəssisələrində həyata keçiriləcəkdir. Bu cür əməkdaşlıq özəl sektorun maddi-texniki bazasından və mütəxəssislərindən istifadə etməklə peşə təhsili müəssisələrinə dəstək verilməsi, o cümlədən işəgötürənlərin tələblərinə uyğun qurulmuş təhsil proqramları (kurikulumlar) vasitəsilə peşə təhsili və təlimi müəssisələrində nəticələrə əsaslanan keyfiyyətli təhsilə rəvac verəcək və məzunların əmək bazarına inteqrasiyasını və məhsuldarlıq səviyyəsini yüksəldəcəkdir.

Kadr hazırlığı prosesinin müasirləşdirilməsi üçün peşə təhsili və təlimi müəssisələrində mühəndis-pedaqoji heyətin hazırlığı prosesi təkmilləşdiriləcəkdir. Bu məqsədlə, təhsil müəssisələrində çalışan mühəndis-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsi aparılacaq, onların lazımi bilik və bacarıqları əldə etməsi üçün müvafiq layihələr həyata keçiriləcəkdir. İxtisasartırma və yenidənhazırlanma təlimləri vasitəsilə mühəndis-pedaqoji heyətin bilik və bacarıqları əmək bazarının tələblərinə uyğunlaşdırılacaqdır.

Formal (dövlət təhsil sənədinin verilməsi ilə başa çatan) təhsillə yanaşı, informal (özünütəhsil yolu ilə biliklərə yiyələnmə) və qeyri-formal (müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan) üsullarla əldə edilmiş səriştələrin (kompetensiyaların) tanınması metodikası hazırlanacaqdır. Bu cür səriştələrin tanınması həyata keçirildikdən sonrakı dövrdə işə qəbul zamanı peşə və ya ixtisası təsdiq edən sənədin icbariliyi ilə bağlı müvafiq normativ hüquqi baza formalaşacaqdır.

Yuxarıda qeyd edilən hədəflərin həyata keçirilməsi nəticəsində ölkədə peşə-ixtisas təhsilinin imici müsbət istiqamətə meyillənəcək, orta məktəb məzunlarının bu təhsil sahəsinə marağı artacaqdır. Peşə təhsilinin inklüzivliyi və hamı üçün əlçatanlığı, həmçinin sosial cəhətdən həssas əhali qruplarının peşə təhsilinə cəlb edilməsi təmin ediləcəkdir. Peşə təhsili müəssisələrinin məzunları əmək bazarında rəqabətqabiliyyətli və ixtisaslı işçi qüvvəsi ilə bağlı getdikcə artan tələbatı daha yaxşı ödəyəcəklər. Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların müxtəlif peşələrə yiyələnərək əmək bazarına çıxmasına şərait yaratmaqla onların sosial inteqrasiyası dəstəklənəcəkdir.

Ümumilikdə, peşə təhsili və təlimi üzrə prioritetlərin təsiri burada müəyyən edilən birbaşa və dolayı təsirlərdən daha böyükdür və bunu peşə təhsili müəssisələrinin məzunlarının çalışacağı digər sektorlarda görmək mümkün olacaqdır. Belə ki, peşə təhsili və təlimi sahəsindəki prioritetlərin əsas məqsədi digər mühüm sektorlarda tətbiq olunan prioritetlərin dəstəklənməsi üçün kifayət qədər səriştəli işçi qüvvəsinin təmin edilməsidir. Peşə təhsili və təlimi sektorunda tətbiq olunan prioritetlərin real ÜDM-ə təsirinin təxminən 6 milyon manat olacağına baxmayaraq, burada müəyyən olunan prioritetlər digər sektorların təşəbbüsləri çərçivəsində 1 milyard manat məbləğində dolayı təsirin meydana çıxmasına səbəb olacaqdır. Göründüyü kimi, peşə təhsili sektoru digər sektorlar ilə qarşılıqlı təsirə malikdir və həmin sektorların potensialının tam reallaşdırılmasında mühüm rol oynayır.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

Azərbaycanda peşə təhsili və təlimi sektoru üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış əmək bazarının tələblərinə cavab verən peşə standartları və təhsil proqramları (kurikulumlar) əsasında ixtisaslı işçi qüvvəsi hazırlayan, hər bir sektor üzrə işəgötürənlərlə sıx əməkdaşlıq əlaqələrinin qurulduğu, funksional peşə təhsili və təlimi müəssisələrinə malik peşə təhsili sisteminin formalaşdırılmasıdır.

Uzunmüddətli baxışın şərhi

2020-ci ilədək strateji baxış çərçivəsində görülən işlər nəticəsində yaradılmış pilot peşə təhsili müəssisələrinin təcrübəsinə əsaslanmaqla, 2025-ci ilədək Azərbaycanda işəgötürənlərlə geniş əməkdaşlıq çərçivəsində müasir standartlara cavab verən yeni peşə təhsili müəssisələri tikiləcək və mövcud peşə təhsili müəssisələrinin maddi-texniki bazası tam təkmilləşdiriləcəkdir.

Bu dövrdə Azərbaycanda “Milli Kvalifikasiyalar Çərçivəsi”nin təsdiq edilməsi və mərhələlərlə tətbiq edilməsi nəzərdə tutulur. Peşə təhsili müəssisələrinin məzunlarının uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində təhsilini davam etdirmələri üçün güzəştlər tətbiq ediləcək, yüksək nəticələr göstərən peşə təhsili məzunlarının ali təhsil müəssisələrinə qəbul imtahanlarından keçmədən birbaşa qəbul edilmələri üzrə müvafiq mexanizm hazırlanacaqdır. Pilot olaraq bir neçə ixtisas üzrə informal (özünütəhsil yolu ilə biliklərə yiyələnmə) və qeyri-formal (müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan)

üsullarla əldə edilmiş səriştələrin (kompetensiyaların) tanınması həyata keçiriləcəkdir. Əməyin təhlükəsizliyinə riayət olunmasına yüksək zərurət olan, xüsusi sərişdə tələb edən bir neçə ixtisas üzrə işə qəbul zamanı icbari şəkildə peşə təhsili sənədinin tələb edilməsi nəzərdən keçiriləcəkdir.

İqtisadiyyatın müxtəlif sektorlarından olan əsas işəgötürənlərlə sıx əməkdaşlıq əlaqələrinin qurulması nəticəsində peşə təhsili müəssisələrinin keyfiyyət və kəmiyyət göstəriciləri əsaslı surətdə yaxşılaşacaqdır. İşəgötürənlərin peşə təhsili sisteminə tam inteqrasiyası peşə təhsili müəssisələrinə müxtəlif sektorlar üzrə real təcrübədən faydalanmağa, həmçinin daha çox maliyyə resursları cəlb etməyə imkan verəcəkdir. İşəgötürənlər isə peşə təhsili üzrə kadr hazırlığının öz ehtiyaclarına uyğunlaşdırılmasına nail olacaqlar.

2025-ci ilədək bütün peşə təhsili və təlimi müəssisələrində tədris prosesinin iqtisadi sektorların tələblərinə uyğun hazırlanmış təhsil proqramları (kurikulumlar) əsasında qurulması və bu təhsil proqramlarının (kurikulumların) işəgötürənlərin rəyləri əsasında daim yenilənməsi peşə təhsili sisteminin dinamik dəyişən əmək bazarının tələblərinə çevik reaksiyasına imkan verəcək, əmək bazarını rəqabətqabiliyyətli və keyfiyyətli kadrlarla təmin edəcəkdir.

İşəgötürənlərlə sistemli əməkdaşlıqların qurulması dövlət büdcəsindən minimum vəsaitlər cəlb etməklə peşə təhsili müəssisələrində avadanlıqların yenilənməsinə və müasirləşdirilməsinə imkan verəcəkdir. Usta yanında şagirdlik və işləyərək öyrənmə tədris prosesinin əsas komponentinə çevriləcəkdir. Dərs vəsaitləri yeni təhsil proqramına uyğun hazırlanacaq və yeni texnologiyaların tətbiqini əks etdirəcəkdir.

Azərbaycanın peşə təhsili müəssisələri onlayn təhsil infrastrukturuna tam inteqrasiya olunacaqdır. Tələbələr tədris materiallarına çıxış əldə edəcək, onlayn seminarlarda iştirak etmək və elektron laboratoriyalarda müxtəlif istehsal metodologiyaları üzrə eksperiment aparmaq imkanı qazanacaqlar. Peşə təhsili müəssisələri mobil tətbiqetmə və digər proqram təminatı növləri ilə təchiz ediləcəkdir. İşəgötürənlər bu sistemlərə inteqrasiya ediləcək və tələbələr çoxsaylı alternativlər arasından onlar üçün ən münasib iş təkliflərini rahatlıqla axtara biləcəklər.

2025-ci ilədək olan dövr üçün strateji baxış eyni zamanda sahibkarlıq və maliyyə savadlılığı, eləcə də texnoloji inkişaf məsələlərinin peşə təhsilində ön plana çəkilməsini ehtiva edir. Bu, tələbələrin biznes qurmaq üçün ilkin maliyyə bilik və bacarıqlarına malik olmalarına imkan verəcəkdir. Formal təhsil prosesində tələbələrdə sahibkar düşüncə tərzini inkişaf etdirməklə yanaşı, peşə təhsili müəssisələri həm də şəxsi inkişafyönümlü qeyri-formal təhsil kursları təşkil edəcəkdir. Bununla, uzunmüddətli perspektivdə ölkə iqtisadiyyatına müsbət töhfə verəcək innovasiya və sahibkar düşüncə tərzi inkişaf etdiriləcəkdir.

2025-ci ilədək peşə təhsili sahəsində görülən tədbirlər bu sektorun yeni imicinin formalaşdırılmasına imkan verəcəkdir. Belə ki, peşə təhsilinin infrastrukturunun və məzmununun yenilənməsi nəticəsində peşə təhsili müəssisələri ilə bağlı mənfi təsəvvürlərin aradan qalxması onların layiqli karyera imkanları təmin edən etibarlı təhsil müəssisələri kimi tanınmasını təmin edəcəkdir. Ümumtəhsil məktəblərinin şagirdləri peşə təhsili müəssisələrinin təhsil imkanları barədə daha çox məlumatlı olacaq, təhsil və ixtisas istiqaməti ilə bağlı seçim etməzdən öncə həmin müəssisələrlə əlaqə saxlamaq imkanına malik olacaqlar. Bundan əlavə, peşə təhsili müəssisələrində təmin olunan xüsusi karyera məsləhət xidmətləri tələbələrin öz bacarıqlarını işəgötürənlərin tələblərinə uyğunlaşdırmasına imkan verəcəkdir. Azərbaycanın peşə təhsili müəssisələri ilə beynəlxalq tərəfdaşlar arasında qurulan əməkdaşlıqlar təhsilin keyfiyyətinin yüksəldilməsini təmin edəcəkdir.

2025-ci ilədək olan dövrdə peşə təhsili müəssisələrinə qəbul səviyyəsi yüksələcəkdir. İşəgötürənlərlə peşə təhsili müəssisələri arasında tərəfdaşlığın nəticəsi kimi, hər il müəyyən sayda tələbə tərəfdaş müəssisədə işlə təmin ediləcək və bu da, öz növbəsində, həmin təhsil müəssisələrinə tələbə qəbulunu stimullaşdıracaqdır. Bundan əlavə, peşə təhsili müəssisələrinin məzunları haqqında təkmil məlumat bazası yaradılacaqdır.

Azərbaycanda peşə təhsili müəssisələrinə diferensial maliyyələşdirmə mexanizminin tətbiq edilməsi yüksək icra göstəricilərinə malik peşə təhsili müəssisələrinin maddi-texniki bazasının müasir standartlara tam uyğunlaşdırılmasına imkan verəcəkdir. Bununla yanaşı, 2025-ci ilədək peşə təhsili üzrə dövlət maraqlarını dəstəkləyən siyasət və qaydalar çərçivəsi hazırlanacaq və burada özəl tərəfdaşların daha çox iştirakı stimullaşdırılacaqdır.

2025-ci ilədək nəzərdə tutulan tədbirlərin dayanıqlılığını təmin etmək üçün peşə təhsili müəssisələrinin fəaliyyətinə nəzarət mexanizmi təkmilləşdiriləcəkdir. Hər bir peşə sahəsi üzrə məzunların biliklərinin, o cümlədən texniki bacarıqlarının yoxlanılması üçün mərkəzləşdirilmiş qaydada imtahanların keçirilməsi məzunların eyni standartlar əsasında obyektiv qaydada qiymətləndirilməsinə imkan verə bilər. Bu imtahanın nəticələrinin işəgötürənlər tərəfindən məzunların əmək bacarıqlarının göstəricisi kimi qəbul edilməsi onların məşğulluq imkanlarını artıra bilər.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

Peşə təhsili və təlimi sistemi üzrə 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış potensial istedadlı gəncləri aşkarlayaraq cəlb edən, prioritet sektorları innovativ və yüksək əmək məhsuldarlığına malik işçi qüvvəsi ilə təmin edən və beynəlxalq səviyyədə tanınan rəqabətqabiliyyətli sistemin qurulmasıdır.

Hədəf baxışın şərhi

2025-ci ildən sonrakı dövrdə Azərbaycanda informal (özünütəhsil yolu ilə biliklərə yiyələnmə) və qeyri-formal (müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan) üsullarla əldə edilmiş səriştələrin (kompetensiyaların) tanınması ölkə üzrə geniş miqyasda tətbiq ediləcək və peşə təhsili müəssisələrində tədris olunan bütün ixtisaslar üzrə işə qəbul zamanı icbari qaydada peşə ixtisasını təsdiq edən sənədin tələb edilməsi nəzərdən keçiriləcəkdir. Bu dövrdə ümumtəhsil müəssisələrində peşəyönümü işi effektiv şəkildə qurulacaqdır. İbtidai məktəblərdə təhsil məsləhətçiləri məqsədyönlü müşahidələr vasitəsilə erkən yaşlardan namizəd tələbələrin özlərinə uyğun olan düzgün peşə təhsili müəssisələrini və proqramlarını seçmələrini təmin edəcəklər. Şagirdlərin peşə təhsili ixtisasları ilə praktiki qaydada tanışlığını təmin etmək üçün müxtəlif tədbir və müsabiqələr təşkil ediləcəkdir. Tələbələrin sənətkarlıq və texniki peşə sahələri üzrə bacarıqları erkən yaşlardan başlayaraq qiymətləndiriləcək, tədris materialları və sistemi rəqəmsallaşdırılacaqdır.

Azərbaycanın peşə təhsili müəssisələrində beynəlxalq sertifikatların verilməsi ilə yekunlaşan tədris prosesi həyata keçiriləcəkdir. Buna nail olmaq üçün peşə təhsili məktəblərində yüksək səviyyədə təlim və tədris standartları və vasitələri hazırlanacaqdır. Beynəlxalq sertifikatların verilməsi peşə təhsili müəssisələrinin idarəetmə sistemində qabaqcıl dünya təcrübələrinin tətbiq olunmasını təmin edəcəkdir. Azərbaycanın peşə təhsili müəssisələri ilə digər ölkələrin peşə təhsili müəssisələri arasında beynəlxalq tərəfdaşlıqlar qurulacaqdır. Təhsilin keyfiyyətinin yüksəldilməsi və məşğulluq imkanlarının artırılması nəticəsində peşə təhsili müəssisələrinə qəbul

səviyyəsi yüksələcəkdir. Peşə təhsili müəssisələri arasında artan rəqabət rəqabətə tab gətirməyən müəssisələrin sistemdən sıxışdırılıb çıxarılmasına, standartlara cavab verən müəssisələrin say və keyfiyyətinin daha optimal səviyyəyə çatmasına imkan yaradacaqdır.

2025-ci ildən sonrakı dövrdə artıq işəgötürənlərin peşə təhsili sisteminə təhsil proqramının (kurikulumun) hazırlanmasından başlamış maliyyələşdirilməyə qədər hərtərəfli şəkildə inteqrasiya olunması təmin ediləcəkdir. Bəzi peşə təhsili müəssisələri işəgötürənlərin daha spesifik ehtiyaclarını təmin edəcək, tamamilə və ya əsas etibarilə özəl şirkətlər tərəfindən maliyyələşdiriləcəkdir. Bu işəgötürənlər öz işçilərini təhsilini tam maliyyələşdirdikləri tələbələr arasından seçəcək və peşə təhsili dərslərinin onların müəssisələrində keçilməsinə şərait yaradacaqlar, istedadlı tələbələri müəyyən edərək onlar üçün xüsusi təqaüdlər ayıracaqlar. İşəgötürənlərlə peşə təhsili müəssisələri arasındakı əlaqələrin bu səviyyədə inkişafı Azərbaycanda peşə təhsili məzunlarının gələcək karyerasında müəyyənlik yaradacaqdır.

Yaşlılar üçün ixtisasartırma kursları aidiyyəti dövlət orqanları tərəfindən işsizliyin azaldılması məqsədilə təşkil edilən kurslara inteqrasiya ediləcəkdir. Bu tədbirlər nəticəsində səhər və axşam qruplarının sayı artacaq və peşə təhsili müəssisələrindən istifadə səviyyəsi daha da yüksələcəkdir.

Bu dövrə qədər ölkənin hədəf baxışı peşə təhsili müəssisələrini sahibkarlıq təşəbbüslərinə və yaradıcı ideyalara dəstək mərkəzinə çevirməkdən ibarətdir. Sahibkarlıq fəaliyyətinə başlayan məzunlar fərqli ideyalarını peşə təhsili müəssisələrinin laboratoriyalarında sınaqdan keçirə biləcəklər. Bu müəssisələr sənaye sahələri ilə qarşılıqlı əlaqələrindən istifadə edərək, təhsilalanların uğurlu ideyalarının maliyyələşdirilməsinə və reallaşdırılmasına kömək edəcəklər. Sahibkarlıq ideyalarının davamlı inkişafı və sənaye mərkəzləri ilə sıx qarşılıqlı əlaqələr peşə təhsili müəssisələrinə daha təcrübəli və bilikli müəllim heyətinin cəlb olunmasına və formalaşmasına təkan verəcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Peşə təhsili və təlimi sektorunda həyata keçiriləcək prioritetlərin 2020-ci ildə real ÜDM-ə birbaşa təsirinin təxminən 6 milyon manat, digər sektorların prioritetləri çərçivəsində dolayı təsirinin isə 1 milyard manat həcmində olacağı proqnozlaşdırılır.

Peşə təhsili və təlimi sistemində nəzərdə tutulan tədbirlər üzrə 2020-ci ilədək aşağıdakı hədəf indikatorları müəyyən edilmişdir:

- işəgötürənlərlə tərəfdaşlıq əlaqələri çərçivəsində müxtəlif istiqamətli 10 pilot peşə təhsili müəssisəsinin təşkil edilməsi;
- ümumtəhsil müəssisələrinin məzunlarının peşə təhsili müəssisələrinə qəbul səviyyəsinin 25 faizə qaldırılması;
- pilot peşə təhsili müəssisələrinin məzunlarının məşğulluq səviyyəsinin 6 ay ərzində 50 faizə çatdırılması;
- pilot peşə təhsili müəssisələrində təhsilalanların sayının 50 faiz artması;
- peşə təhsilinə cəlb edilmiş həssas əhali qruplarından olan uşaqların sayının peşə təhsili üzrə təhsilalanların ümumi sayında payının 5 faizdən çox olması;
- 264 nəfər mütəxəssisin və 176 nəfər ezam olunmuş ştatdankənar müəllimin peşə təhsilinə cəlb olunması nəticəsində ümumilikdə 195, bilavasitə peşə təhsili sektorunda isə 176 yeni iş yerinin yaradılması;
- pilot peşə təhsili müəssisələrinin müəllim-pedaqoji heyətinin əməkhaqlarının iki dəfəyədək artırılması;
- yaşlılar üçün kursların iştirakçılarının sayının illik artım tempinin 17 faizə çatdırılması.

6. STRATEJİ MƏQSƏDLƏR

Peşə təhsili və təlimi sektoru üzrə strateji məqsədlər aşağıdakılardan ibarətdir:

- peşə-ixtisas təhsilinin təkmilləşdirilmiş normativ hüquqi, iqtisadi və informasiya bazasının təmin edilməsi;
- peşə-ixtisas təhsilinin yeni pozitiv imicinin formalaşdırılması;
- peşə-ixtisas təhsili müəssisələrinin təkmilləşdirilmiş dövlət-özəl tərəfdaşlığına əsaslanan idarəetmə strukturunun yaradılması;
- rasionallaşdırılmış və sayı optimallaşdırılmış dövlət peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin qurulması;
- peşə təhsili sisteminin özəl sektor üçün cəlbediciliyinin artırılması;
- müasir infrastruktur, maddi-texniki və tədris bazasına malik peşə-ixtisas təhsili müəssisələrinin formalaşdırılması;
- yeni iqtisadi model əsasında peşə-ixtisas təhsili sisteminin maliyyələşdirilməsinə nail olunması;
- peşə-ixtisas təhsili müəssisələrində müasir tələblərə uyğun yenilənmiş təhsil proqramlarının təmin olunması;
- peşə-ixtisas təhsili sistemində əmək bazarının tələblərinə cavab verə bilən mühəndis-pedaqoji kadrların hazırlanması;
- peşə-ixtisas təhsili müəssisələri məzunlarının işlə təminatının yüksəldilməsi;
- təhsilin növbəti pilləsi kimi peşə təhsilinin prioritet sahələr sırasına daxil olması.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. İşəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası

Azərbaycanda peşə təhsili sisteminin müasir səviyyəyə çatdırılması üçün işəgötürənlərlə əməkdaşlıq əsas şərtlərdən biridir. İşəgötürənlərin əsas tərəf kimi peşə təhsili sisteminə cəlb edilməsi, kadr hazırlığının işəgötürənlərin tələblərinə uyğun aparılması və təhsildə dövlət-özəl tərəfdaşlığı sisteminin həyata keçirilməsi zəruridir. Bu məqsədlə, işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Bu strateji hədəf iqtisadiyyatın müxtəlif sektorlarında fəaliyyət göstərən özəl və dövlət sektorunu təmsil edən işəgötürənlər və işəgötürən birlikləri ilə peşə təhsili müəssisələri arasında müxtəlif səviyyələrdə tərəfdaşlığın qurulmasını və bu tərəfdaşlıq çərçivəsində həyata keçiriləcək digər müvafiq tədbirləri ehtiva edir.

7.1.1. Prioritet 1.1. İşəgötürənlərlə tərəfdaşlığın qurulması

Əsaslandırma

İşəgötürənlərlə peşə təhsili müəssisələri arasında əməkdaşlıq təhsil və təlimin real sektor ilə əlaqələndirilməsi, məzunların məşğulluğunun təmin edilməsi kimi bir çox faydalar vəd edir. Ölkədə iqtisadiyyatın şaxələndirilməsi, neft və qaz gəlirlərindən asılılığın azaldılması məqsədilə hazırlanan strategiyada insan kapitalı ən mühüm amillərdən biri kimi müəyyən edilir və peşə təhsili sistemi ixtisaslı və səriştəli kadrların hazırlanmasını təmin etməklə bu prosesə mühüm töhfə verə bilər.

Məlum olduğu kimi, Azərbaycanın mövcud peşə təhsili sistemi keçmiş Sovet İttifaqı dövründən miras qalmışdır. Bu təhsil sistemində peşə təhsili müəssisələri ilə sənaye-ticarət müəssisələri arasında birbaşa əlaqə mövcud idi. Belə ki, peşə təhsili müəssisələri bir çox hallarda konkret bir müəssisə ilə bağlı olur və həmin müəssisə istehsal təcrübələri və gələcək məşğulluq imkanlarını təmin edən baza müəssisəsi rolunu oynayırdı. Ötən əsrin 90-cı illərinin əvvəllərində iri müəssisələrin öz ənənəvi bazarlarını itirməsi, ölkədə sosial-iqtisadi problemlərin yaranması və bir sıra digər səbəblərdən peşə təhsili müəssisələrinin baza müəssisələri ilə əlaqələri qırılmış, bu isə, öz növbəsində, peşə təhsili müəssisələrinin məzunlarının iş tapmaqda çətinliklərlə üzləşməsi və peşə təhsili sisteminin iqtisadiyyata qatqısının zəifləməsi ilə nəticələnmişdir. Digər tərəfdən, peşə təhsili sistemi ilə biznes sektorları arasındakı əlaqələrin zəifliyi, işgüzar və sistemli xarakter daşımaması nəticəsində peşə təhsili məzunlarının məşğulluq imkanlarının məhdudluğu bu sahənin cəlbediciliyini azaldan səbəblərdəndir.

Qeyd edilən məsələlər peşə təhsili müəssisələri ilə işəgötürənlər – özəl və dövlət mülkiyyətində olan şirkətlər arasında tərəfdaşlıq əlaqələrinin qurulmasını zərurətə çevirmişdir. Dövlət və özəl sektoru təmsil edən işəgötürənlərlə peşə təhsili müəssisələri arasında əməkdaşlıq istiqamətində bir sıra tədbirlər həyata keçirilsə də, əməkdaşlıq imkanları bir çox sahələrdə hələ də məhduddur. Bu cür əməkdaşlıq əlaqələrinin genişləndirilməsi işəgötürənlərə təhsilin məzmunu və kadr hazırlığını öz ehtiyaclarına uyğunlaşdırmaq, peşə təhsili müəssisələrinə isə əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrlar hazırlamaq imkanı verməklə, hər iki tərəf üçün qarşılıqlı fayda kəsb edə bilər (şəkil 2).

Şəkil 2. Qabaqcıl dünya ölkələrinin təcrübəsində işəgötürənlərin peşə təhsili sistemində iştirak elementləri


İşəgötürənlərin peşə təhsili sistemində iştirakı	Azərbaycan	Avstraliya	Birləşmiş Krallıq	Almaniya
▪ Lazımi proqramların hazırlanmasında əməkdaşlıq		✓	✓	✓
▪ Özəl təlim şirkətlərinin seçilməsi				✓
▪ Öz ehtiyaclarına uyğun olaraq, xüsusi kvalifikasiya standartlarının müəyyən edilməsi		✓	✓	✓
▪ Öz işçi arsenalı vasitəsilə təhsil proqramının (kurikulumun) hazırlanması	✓	✓	✓	✓
▪ İstehsalat təcrübəsi imkanının təmin edilməsi		✓	✓	✓
▪ Peşə təhsili müəssisələrinin yeni və işlənmiş avadanlıqlar da daxil olmaqla, resurslarla təmin edilməsi	✓			
▪ Şagirdlərlə işçilər arasında əməkdaşlıq yolu ilə davamlı istehsalat təlimlərinin təşkili		✓	✓	✓
▪ Şagirdlərin bilikləri mənimsəmə və inkişaf səviyyəsinin vaxtaşırı monitorinqi		✓	✓	✓
▪ Bazarın və şirkətin gələcək ehtiyacları üzrə xüsusi tövsiyələr və proqnozlar verməklə, peşə təhsili müəssisələrinə tələbələrin qəbul sayı ilə bağlı istiqamət verilməsi	✓	✓	✓	✓

Peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında tərəfdaşlıq aşağı, orta və yuxarı tərəfdaşlıq səviyyəsində qurula bilər (şəkil 3).

Şəkil 3. Peşə təhsili üzrə dövlət-özəl tərəfdaşlığının səviyyələri

		Aşağı tərəfdaşlıq səviyyəsi	Orta tərəfdaşlıq səviyyəsi	Yüksək tərəfdaşlıq səviyyəsi
Avadanlıqlarla bağlı dəstək	▪ Müasir avadanlıqların təmin edilməsi		✓	✓
Tədris proqramı ilə əlaqədar dəstək	▪ Bazarın tələblərinə əsaslanan kurikulumun təmin edilməsi və tədris proqramının hazırlanmasına dəstək verilməsi		✓	✓
Təlimçi dəstəyi	▪ Müəllim və təlimçilərin təkmilləşdirilməsi ▪ şirkət işçilərinin əlavə təlimçi qismində dərslərə cəlb edilməsi	✓	✓	✓
İdarəçilik dəstəyi	▪ Bir məktəb üzrə mülkiyyət hüququnun öz üzərinə götürülməsi və hərtərəfli idarəçiliyin təmin edilməsi			✓
İstehsalat təlimi imkanları	▪ İş təlimləri üçün şərait yaradılması		✓	✓
Məzunların işə götürülməsi	▪ Kursu bitirən təcrübəçilərin işə götürülməsinə təminat verilməsi			✓

Şəkil 4. Tərəfdaşlıq səviyyəsinə uyğun olaraq işəgötürənlər üçün stimullaşdırıcı tədbirlər



Dünya təcrübəsində tərəfdaşlığın səviyyəsindən asılı olaraq, işəgötürənlərin stimullaşdırılması ilə bağlı tədbirlər də müəyyən edilir (şəkil 4). Bu cür əməkdaşlığın ilk stimulu özəl və dövlət sektorundan olan işəgötürənlər üçün, ilk növbədə, ixtisaslı kadr bazasının təmin olunmasıdır. Qısa və uzunmüddətli perspektivdə əlavə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi özəl sektorun peşə təhsili ilə tərəfdaşlığa daha çox maraq göstərməsinə imkan yarada bilər. Bu cür tədbirlərə maliyyə, hüquqi və digər sahələr üzrə stimul və güzəştlərin verilməsi daxil ola bilər.

Görüləcək tədbirlər

Tədbir 1.1.1. Əmək bazarında strateji məşğulluq sahələrinin müəyyən edilməsi və kadr tələbatının proqnozlaşdırılması

İlk növbədə, ölkə daxilində strateji məşğulluq sahələri və işəgötürənlər müəyyən ediləcəkdir. Bu məqsədlə, müvafiq dövlət qurumları iqtisadiyyatın prioritet sahələrində əmək bazarının tələbatının ayrı-ayrı regionlar üzrə formalaşdırılması istiqamətində təhlillər aparacaq və müvafiq ixtisaslar üzrə sifarişlərin müəyyənləşdirilməsi məqsədilə işəgötürənlər arasında sorğular keçirəcəkdir. Həmçinin "İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı" əmək bazarının mövcud və proqnozlaşdırılan tələblərinə uyğunlaşdırılmaqla yenilənəcəkdir.

Tədbir 1.1.2. Peşə təhsili və təlimi müəssisələrinin mövcud vəziyyətinin hərtərəfli araşdırılması və optimallaşdırılması ilə bağlı tədbirlər planının hazırlanması

Təhsil Nazirliyi ölkədə fəaliyyət göstərən dövlət ilk peşə-ixtisas təhsili müəssisələrinin mövcud vəziyyətini araşdıracaq, onların infrastruktur, maddi-texniki baza, müəllim-pedaqoji heyətin potensialını qiymətləndirəcək və əldə olunan nəticələrə istinad edərək, həmin təhsil müəssisələrinin rasionallaşdırılması və optimallaşdırılması, məqsədəmüvafiq olduğu hallarda bəzi peşə təhsili müəssisələrinin fəaliyyətinin

dayandırılması və ya müvəqqəti dondurulması, eləcə də yeni tikiləcək ilk peşə-ixtisas təhsili müəssisələrinin müəyyənləşdirilməsi istiqamətində müvafiq tədbirlər planı hazırlayacaq və həyata keçirilməsi üzrə lazımi təkliflər verəcəkdir.

Tədbir 1.1.3. İri sənaye mərkəzlərində və regionlarda optimallaşdırma prosesinin həyata keçirilməsi

Peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması 1.1.2-ci tədbir çərçivəsində hazırlanacaq tədbirlər planına əsasən peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə həyata keçiriləcəkdir. Optimallaşdırma prosesi, ilk növbədə, iri sənaye mərkəzləri olan Bakı və Gəncə şəhərlərində yerləşən, paralel kadr hazırlığını həyata keçirən təhsil müəssisələrinin birləşdirilməsi ilə başlayacaq, daha sonra analoji qaydada regionlarda yerləşən peşə təhsili müəssisələrinin bir qisminin optimallaşdırılması, o cümlədən perspektivsiz təhsil müəssisələrinin fəaliyyətinin dayandırılması və ya gələcəkdə ərazisində yeni peşə təhsili müəssisələrinin tikilə biləcəyi müəssisələrin fəaliyyətinin müvəqqəti dondurulması da daxil olmaqla, müvafiq tədbirlərin həyata keçirilməsi ilə başa çatacaqdır.

Tədbir 1.1.4. Pilot peşə təhsili müəssisələrinin qurulması

1.1.1-ci və 1.1.2-ci tədbirlər çərçivəsində aparılan sorğu və araşdırmalar yolu ilə əldə edilən məlumatlara əsasən, Təhsil Nazirliyi bazarda tələbatın yüksək olduğu prioritet sahələr üzrə ixtisaslı yeni kadrları hazırlaya biləcək pilot peşə təhsili müəssisələrini seçəcəkdir. Seçilmiş pilot peşə təhsili müəssisələrinin müasir standartlara cavab verməsi və tələbata uyğun fəaliyyət göstərməsi üçün müvafiq hallarda onların əsaslı təmiri və ya yeni peşə təhsili müəssisələrinin tikintisi həyata keçiriləcəkdir. Pilot peşə təhsili müəssisələrinin infrastrukturunun qurulması zamanı əlilliyi olan və sağlamlıq imkanları məhdud olan şagirdlərin sərbəst hərəkət imkanlarının təmin edilməsi ilə bağlı zəruri tədbirlər görüləcəkdir. Həmçinin, seçilmiş pilot peşə təhsili müəssisələrində yaşayan qaçqın və məcburi köçkünlərin müvafiq dövlət qurumu tərəfindən digər yaşayış yerlərinə köçürülməsi ilə bağlı müvafiq tədbirlər həyata keçiriləcəkdir. Peşə təhsili sisteminə özəl sektorun daha çox cəlb olunmasına imkan verən stimullaşdırıcı tədbirlərlə bağlı təkliflər işlənib hazırlanacaqdır. Özəl sektor tərəfindən özəl peşə təhsili müəssisələrinin yaradılması və ya özəl sektorun dövlət peşə təhsili müəssisələrində idarəçiliyə cəlb edilməsi ilə bağlı təşəbbüslərin stimullaşdırılması üzrə də təkliflər veriləcəkdir.

Tədbir 1.1.5. Pilot peşə təhsili müəssisələrində işəgötürənlərlə tərəfdaşlıq mexanizminin qurulması, peşə standartları və kurikulumların işlənilməsi

İşəgötürənlərlə qarşılıqlı faydalı əməkdaşlıq mexanizmlərinin icrasına 1.1.4-cü tədbir çərçivəsində seçilmiş pilot peşə təhsili müəssisələrindən başlanacaqdır. Bu məqsədlə Təhsil Nazirliyi tərəfdaş işəgötürənlərin maraq və öhdəliklərini, eləcə də onların həvəsləndirilməsi və əməkdaşlığın stimullaşdırılması üzrə mexanizmləri təsbit edərək həyata keçirmək üçün mövcud normativ hüquqi bazada müvafiq dəyişikliklərin edilməsi istiqamətində təkliflər təqdim edəcəkdir.

Qabaqcıl dünya ölkələrində tətbiq olunan təcrübə nəzərə alınmaqla, dövlət-özəl tərəfdaşlığına əsaslanan mexanizm çərçivəsində işəgötürənlərin maraq və öhdəlikləri, eləcə də bu öhdəliklərin həcmi müəyyən ediləcəkdir. Tərəfdaşlıq işəgötürənlərin maraq

və öhdəliklərinin həcminə müvafiq olaraq aşağı, orta və ya yuxarı tərəfdaşlıq səviyyəsində müəyyənləşdiriləcəkdir.

Daha sonra Təhsil Nazirliyi dövlət və qeyri-dövlət sektorunu təmsil edən işəgötürənlər və işəgötürən birlikləri ilə əlaqələr quraraq, onlarla peşə təhsili müəssisələri arasında tərəfdaşlıq prosesinə şərait yaradacaqdır. Tərəfdaşlıq çərçivəsində işəgötürənlər seçilmiş pilot peşə təhsili müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsində və ya yenilənməsində iştirak üçün həvəsləndiriləcəklər. Öyrədilən bilik və bacarıqların əmək bazarının tələblərinə uyğunluğunu təmin etmək üçün işəgötürənlər müvafiq dövlət qurumları tərəfindən müvafiq peşə standartlarının hazırlanması, bu standartlara əsasən müvafiq təhsil proqramlarının (kurikulumların) yaradılması, eləcə də şagirdlərin biliyinin qiymətləndirilməsi işinə və buraxılış imtahanlarına cəlb olunacaqlar. Təhsil proqramlarına (kurikulumlara) ediləcək düzəlişlərdə tərəfdaş işəgötürənlərin müvafiq tələb və tövsiyələri nəzərə alınacaqdır. Peşə təhsili alan şagirdlərin istehsalat təcrübəsinin, usta yanında şagirdlik imkanlarının, eləcə də peşə təhsili məzunlarının məşğulluq imkanlarının artmasına təkan vermək üçün Təhsil Nazirliyi işəgötürənlərlə müntəzəm olaraq qarşılıqlı əlaqələndirilmiş fəaliyyəti həyata keçirəcəkdir. Tərəfdaş müəssisələr ilə peşə təhsili müəssisələri və onların şagirdləri arasında hər üç tərəfin maraq və öhdəliklərini müəyyən edən "usta yanında şagirdlik müqavilələri"nin bağlanması məsələsi nəzərdən keçiriləcəkdir. Həmçinin, pilot peşə təhsili müəssisələrinin tərəfdaş müəssisələrdə istehsalat təcrübəsi keçən şagirdləri üçün hami müəllimlərin (mentorların) ayrılması stimullaşdırılacaqdır.

Bununla yanaşı, gələcəkdə ölkəyə gətirilən yeni texnologiya və avadanlığın səmərəli istifadəsini və onlardan istifadə edən kadrların peşəkarlığının və bacarıqlarının adekvat səviyyədə olmasını təmin etmək üçün bu avadanlıqların və ya onların təlim prototiplərinin və ya simulyatorlarının ilk əvvəl peşə təhsili müəssisələrinə verilməsi, bu mümkün olmadıqda isə həmin müəssisələrin ərazisində peşə təhsili müəssisələrinin müəllim-pedaqoji heyətinin təlimlər keçməsi mexanizmi işlənib hazırlanacaqdır. Həmçinin işəgötürən təşkilatların nümayəndələri cəlb edilməklə, şəffaf və səmərəli məktəb idarəetmə modeli hazırlanacaqdır.

Tədbir 1.1.6. Pilot peşə təhsili müəssisələri haqqında ictimai məlumatlılığın təmin edilməsi və qəbulun aparılması

Peşə təhsili müəssisələri ilə işəgötürənlər arasındakı tərəfdaşlıq barədə kütləvi informasiya vasitələri ilə ictimaiyyətə məlumat veriləcəkdir. Təhsil Nazirliyi pilot layihələr çərçivəsində peşə təhsili müəssisələrinə şagird qəbulu və ixtisaslar, məzunların tərəfdaş təşkilatlarda işədüzəlmə imkanları və s. haqqında zəruri məlumatları cəmiyyətə çatdırmaq üçün əlavə olaraq sosial mediadan və digər müvafiq vasitələrdən istifadə edəcəkdir. Bu, öz növbəsində, peşəyönümü işinin aparılmasına da töhfə verəcəkdir. Yuxarıda qeyd edilən məlumatlar müvafiq qaydada təmin edildikdən sonra pilot məktəblərə qəbul həyata keçiriləcəkdir. Bu zaman mövcud normativ hüquqi bazaya müvafiq dəyişikliklər etməklə, bazarın tələblərinə və şagirdlərin ixtisas seçiminə uyğun olaraq tədris qruplarının optimal həcmi müəyyənləşdiriləcəkdir. Bu halda, şəffaflığı təmin etmək məqsədilə seçilmiş peşə təhsili müəssisələrinə qəbul "ASAN peşə" layihəsi çərçivəsində "ASAN xidmət" mərkəzlərində aparılacaqdır.

Tədbir 1.1.7. Tərəfdaşlıq proqramları üzrə monitorinq və nəzarətin təşkili

Pilot peşə təhsili müəssisələrində tədrisin keyfiyyət və gedişatının tərəfdaşlıq proqramı üzrə müəyyən olunmuş ilkin tələblərə uyğunluğunu müəyyən etmək üçün xüsusi monitorinq sistemi tərtib edilərək həyata keçiriləcəkdir. Müntəzəm qaydada

həyata keçirilən monitorinq nəticəsində müəyyən edilmiş hər hansı çatışmazlıqlarla bağlı Təhsil Nazirliyi lazımi tədbirlər görəcəkdir.

Tədbir 1.1.8. Tərəfdaşlıq proqramlarının səmərəliliyi ilə bağlı məlumatların ictimaiyyətə açıqlanması

Təhsil Nazirliyi işəgötürənlərlə tərəfdaşlıq proqramlarının gedişatı və səmərəliliyi ilə bağlı məlumatların ictimaiyyətə açıqlanmasını təmin edəcəkdir. Bu məqsədlə sözügedən proqramların səmərəliliyi araşdırılacaq və bu araşdırmalarla bağlı hesabatlar dərc olunacaqdır. Araşdırmalar zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində nəzərdə tutulan tədbirlər növbəti illər üzrə tədbirlər planına daxil ediləcəkdir.

Tədbir 1.1.9. Pilot peşə təhsili müəssisələrində tətbiq olunan peşə standartlarının və təhsil proqramlarının (kurikulumların) digər peşə təhsili müəssisələrində tətbiqi

Pilot layihələr çərçivəsində əldə edilmiş uğurlu təcrübədən bütün peşə təhsili və təlimi sisteminin faydalanmasını təmin etmək üçün Təhsil Nazirliyi layihə çərçivəsində istifadə olunan təhsil proqramlarının (kurikulumların) qiymətləndirilməsini həyata keçirəcək və məqsədəmüvafiq hallarda onların digər peşə təhsili müəssisələrində tətbiqini təmin edəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

İşəgötürənlərlə pilot peşə təhsili müəssisələri arasında əməkdaşlıq nəticəsində bazarın tələblərinə uyğun peşə standartları və təhsil proqramları (kurikulumlar) hazırlanacaq, məzunların məşğulluq səviyyəsi artacaq və gələcəkdə keyfiyyətli kadr hazırlığının təmin olunması üçün bu təcrübənin digər peşə təhsili müəssisələrində tətbiqinə zəmin yaranacaqdır. Bundan əlavə, peşə təhsilinin müsbət imici yaranacaq və peşə təhsilini seçənlərin sayı artacaqdır.

Peşə təhsili məzunlarının əmək məhsuldarlığının və məşğulluq imkanlarının artması nəticəsində bu prioritetin real ÜDM-ə 1 milyon manat həcmində dolayı təsir göstərəcəyi proqnozlaşdırılır.

2020-ci ilədək işəgötürənlərlə tərəfdaşlıq əlaqələri çərçivəsində müxtəlif istiqamətli 10 pilot peşə təhsili müəssisəsinin təşkili və pilot peşə təhsili müəssisələrinin məzunlarının məşğulluq səviyyəsinin 6 ay ərzində 50 faizə çatdırılması nəzərdə tutulur. Məşğulluq imkanlarının artması pilot peşə təhsili müəssisələrində təhsilalanların sayının 50 faiz artmasına imkan verəcəkdir. Peşə təhsilinə cəlb edilmiş həssas əhali qruplarından olan uşaqların sayının peşə təhsili üzrə təhsilalanların ümumi sayında payının 5 faizdən çox olması təmin ediləcəkdir.

Tələb edilən investisiya

Seçilmiş pilot peşə təhsili müəssisələrinin yenidən qurulmasına (tikinti, əsaslı təmir və maddi-texniki təchizat) 165 milyon manat, tərtib ediləcək yeni kurikulumlar (tədris vəsaiti, kitablar, onlayn dərsliklər daxil olmaqla) üçün isə 150 min manat maliyyə vəsaitinin tələb ediləcəyi proqnozlaşdırılır.

Gözlənilən risklər

- işəgötürənlərin əmək bazarında tələbatın və müvafiq ixtisaslar üzrə sifarişlərin müəyyən edilməsi üçün əməkdaşlıqda maraqlı olmaması;


- pilot layihələr üçün infrastrukturu və maddi-texniki bazası qənaətbəxş səviyyədə olan peşə təhsili müəssisələrinin olmaması;
- işəgötürənlərlə əməkdaşlığın həvəsləndirilməsi və stimullaşdırılması üzrə mexanizmləri həyata keçirəcək müvafiq normativ hüquqi bazanın qəbul edilməməsi;
- peşə təhsili müəssisələrinin optimallaşdırılması və pilot peşə təhsili müəssisələrinin qurulması üçün maliyyə resurslarının kifayət qədər olmaması;
- seçilmiş pilot peşə təhsili müəssisələrində yaşayan qaçqın və məcburi köçkünlərin müvafiq qaydada digər yaşayış yerlərinə köçürülməməsi.

7.1.2. Prioritet 1.2. Peşə təhsili sisteminə ixtisaslı yeni mütəxəssislərin cəlb edilməsi

Əsaslandırma

Peşə təhsili sisteminin spesifik cəhətlərindən biri bu təhsil müəssisələrində çalışan müəllim-pedaqoji heyətin həm pedaqoji biliyinin, həm də ixtisas üzrə praktiki sərişdələrinin olmasının vacibliyidir. Bu tələb həmin sahədə peşəkar müəllimlərlə təminatı çətinləşdirir. Peşə təhsili sahəsində usta-pedaqoji heyətin yetişdirilməsi üçün müvafiq ali təhsil bazasının olmaması da əsas problemlərdən biri kimi qeyd edilməlidir. Peşə təhsili müəllimlərinin əksəriyyətinin yaş həddinin 50-dən yuxarı olması (şəkil 5) növbəti 5-15 il müddətində bu sistemdəki müəllim-pedaqoji heyətin yeni kadrlarla əvəz olunmasını labüd edir.[4]

Şəkil 5. Peşə təhsili müəssisələrinin usta-pedaqoji heyətinin yaş hədləri *(nəfərlə)*



Mənbə: Azərbaycan Respublikasının Təhsil Nazirliyi

Digər tərəfdən, peşə təhsili müəllimlərinin cari əməkhaqqı səviyyəsi tam məşğulluq işi axtaran şəxslər üçün cəlbedici deyildir. Belə ki, peşə təhsili məktəblərinin

[4] Mənbə: Azərbaycan Respublikasının Təhsil Nazirliyi

müəllimləri üçün ortaaylıq əməkhaqqı 203 manat[5] təşkil edir ki, bu da Azərbaycanda ortaaylıq əməkhaqqı səviyyəsindən (444 manat)[6] aşağıdır. Qeyd edilən səbəblər peşə təhsili sahəsinə səriştəli kadrların cəlb edilməsini mürəkkəbləşdirir. Buna görə də əmək bazarında səriştəli kadr hazırlığının təmin olunması və yüksək standartlara cavab verən peşə təhsilinin aparılması işəgötürənlərin təhsil və təlim prosesinə cəlb olunmasını şərtləndirir. Belə olduğu halda, həm məzunların bilik və bacarığı əmək bazarında tələb olunan səviyyədə və keyfiyyətdə olur, həm də müəssisələrin səriştəli müəllimlərə olan ehtiyacı qarşılanır. Əlavə olaraq, qarşılıqlı əməkdaşlıq yolu ilə müəllimlərin təlimi, ixtisasının artırılması və əlavə təhsili üçün şərait yaradılır, onların biliklərinin qiymətləndirilməsi və yeni texnologiyalardan istifadə imkanları artırılır. Həmçinin, sənayedən gələn müəllimlər vasitəsilə şagirdlərin əldə etdiyi bilik və bacarıqlar ən son texnoloji yeniliklərə və müvafiq sahə üzrə aparıcı məlumatlara əsaslanır.

Görüləcək tədbirlər

Tədbir 1.2.1. Peşə təhsili müəssisələrinin mövcud müəllim-pedaqoji heyətinin diaqnostik qiymətləndirilməsi, onların bilik və bacarıqlarının artırılması

1.1.2-ci tədbir çərçivəsində peşə təhsili müəssisələrinin mövcud müəllim-pedaqoji heyətinin potensialını və peşəkarlıq səviyyəsini müəyyənləşdirmək məqsədilə Təhsil Nazirliyi diaqnostik qiymətləndirmə həyata keçirəcəkdir. Bu qiymətləndirmə nəticəsində müəllim heyətinin bilik və bacarıqlarının peşə təhsili proqramı (kurikulum) üzrə tələb edilən fənlərin tələblərinə tam uyğun gəlmədiyi müəyyən edilərsə, həmin işçilər üçün ixtisasartırma və yenidənhazırlama təlimlərinin təşkili imkanı nəzərdən keçiriləcəkdir.

Tədbir 1.2.2. Yeni müəllim heyətinin peşə təhsili və təlimi prosesinə cəlb edilməsi ilə bağlı tədbirlərin müəyyənləşdirilməsi

Təhsil Nazirliyi pilot peşə təhsili və təlimi müəssisələrinə 1.1.1-ci tədbir çərçivəsində aparılan sorğular əsasında müəyyən edilmiş prioritet ixtisaslar üzrə yüksək peşəkarlığa malik istehsalat təlimi ustalarının və pedaqoji heyətin cəlb olunması üçün zəruri tədbirlər həyata keçirəcəkdir. Bu məqsədlə, həmin pedaqoji heyətin seçilməsi üçün müəyyən şərt və meyarlar hazırlanacaq, eyni zamanda, istehsalat təcrübəsinə malik peşəkar mütəxəssislərin təhsil və təlim prosesinə cəlb edilməsinin məqsədəmüvafiq olduğu ixtisas sahələri və həmin ixtisas sahələri üzrə fəaliyyəti həyata keçirən işəgötürənlər müəyyənləşdiriləcəkdir. Daha sonra həm işəgötürənlər, həm də onların tədris prosesinə cəlb ediləcək mütəxəssisləri üçün müvafiq həvəsləndirici və stimullaşdırıcı tədbirlər müəyyən ediləcəkdir. Təhsil Nazirliyi işəgötürənlərin müvafiq işçilərinin müəllim kimi təhsil prosesinə (yarımştat və ya ezamiyyət proqramları yolu ilə bir il müddətində təlimçi qismində) cəlb edilməsi üçün aidiyyəti üzrə müraciət edəcəkdir.

Tədbir 1.2.3. İstehsalat təcrübəsinə malik yeni pedaqoji kadrların seçilməsi və müvafiq təlimlərin təşkili

Təhsil Nazirliyinin müraciəti əsasında tərəfdaş işəgötürənlərdən dəvət olunan və peşə təhsili müəssisələrində dərs demək istəyi olan müəllimlərin siyahısı tərtib ediləcəkdir. Yeni müəllimlərin işə qəbulu 1.2.2-ci tədbirdə müəyyən olunmuş şərt və meyarlara əsasən müraciət edənlərin qiymətləndirilməsi yolu ilə həyata keçiriləcəkdir. Seçim prosesi yekunlaşdırıldıqdan sonra gələcək müəllimlərin pedaqoji proseslə tanışlığını və dərs prosesinə hazırlığını təmin etmək üçün onların müvafiq təlimlərdə

[5] Mənbə: Azərbaycan Respublikasının Təhsil Nazirliyi
[6] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

iştirakı təmin ediləcəkdir. Bu məqsədlə həmin müəllimlər üçün pedaqoji axşam kurslarının təşkili imkanı nəzərdən keçirilə bilər. Təhsil Nazirliyi pedaqoji təlimlərin keçirilməsi, həmçinin bu təlimlərin müvafiq dövrlərdə yenidən təşkili ilə bağlı imkanları müəyyən edəcək və zəruri tədbirlər həyata keçirəcəkdir.

Tədbir 1.2.4. Yeni pedaqoji heyətin fəaliyyətinin monitorinqinin aparılması

Tədris prosesinin müvafiq keyfiyyət standartlarına cavab verməsini təmin etmək üçün işəgötürən təşkilatlardan cəlb edilmiş müəllim-pedaqoji heyətin fəaliyyəti Təhsil Nazirliyi tərəfindən qiymətləndiriləcəkdir. Qiymətləndirmə Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilən meyarlar əsasında və dövri qaydada həyata keçiriləcəkdir. Qiymətləndirmənin nəticələrinə əsasən müəllimlərə müvafiq təklif və tövsiyələr veriləcəkdir. O cümlədən müəllim-pedaqoji heyətin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə şagirdlər arasında rəy sorğuları keçiriləcək və bu sorğuların nəticələrinə əsasən Təhsil Nazirliyi dərslərin məzmununda və strukturunda müvafiq dəyişikliklər edəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Peşə təhsili prosesinə sərişteli və istehsalat təcrübəsinə malik yeni kadrlar cəlb olunacaqdır.

Bu prioritet 7.1.1 saylı prioritetin icrası üçün yardımçı vasitədir və real ÜDM-ə 2 milyon manat həcmində birbaşa və dolayı təsirə malik olacağı proqnozlaşdırılır. Bu təsirin hesablanması zamanı təhsil prosesinə cəlb olunmuş istehsalat təcrübəsinə malik yeni müəllim heyəti üçün saatda 15 manat hesabı ilə ödəniş edilməsi nəzərdə tutulmuşdur. Bu prioritet çərçivəsində 2020-ci ilədək işəgötürənlərin 264 mütəxəssisinin və ezam olunmuş 176 ştatdankənar müəllimin peşə təhsilinə cəlb olunması nəzərdə tutulur. Nəticədə, ezam edilmiş müəllimlərin sayına uyğun olaraq, ümumilikdə 195, bilavasitə peşə təhsili sektorunda isə 176 yeni iş yerinin yaradılması proqnozlaşdırılır.

Tələb edilən investisiya

Bu təsirlərə nail olmaq məqsədilə yeni cəlb edilmiş ştatdankənar müəllimlər üçün təlimlərin təşkilinə 100 min manat və işəgötürənlərin iştirakı ilə diaqnostik qiymətləndirmənin keçirilməsinə 150 min manat həcmində investisiya qoyuluşu tələb olunur.

Gözlənilən risklər

- peşə təhsili sistemində mühəndis-pedaqoji heyətin əməkhaqqı səviyyəsinin aşağı olması və bu səbəbdən yeni müəllimlərin cəlb edilməsinin çətinliyi;
- işəgötürənlərin öz işçilərini müəllim kimi tədris prosesinə cəlb etməkdən imtina etməsi.

7.2. Strateji hədəf 2. Nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin yaradılması

Azərbaycanda peşə təhsili sisteminin uğurlu gələcəyinin təmin edilməsində maliyyələşdirmənin artırılması böyük əhəmiyyətə malikdir. Mövcud peşə təhsili sisteminin təkmilləşdirilməsi Azərbaycan iqtisadiyyatının inkişafına öz töhfəsini verəcəkdir. Bu hədəfə nail olmaq üçün dövlət, özəl və beynəlxalq maliyyələşdirmə

mənbələri müəyyən ediləcək, maliyyə vəsaitlərindən səmərəli istifadə məqsədilə peşə təhsili müəssisələri və müəllim-pedaqoji heyət üçün fəaliyyət göstəricilərinə əsaslanan həvəsləndirmə mexanizmi tətbiq ediləcək və nəticələrə əsaslanan güclü maliyyələşdirmə sistemi formalaşacaqdır.

7.2.1. Prioritet 2.1. Peşə təhsili sisteminin gələcək inkişafını təmin etmək üçün əlavə dövlət, özəl və beynəlxalq maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi

Əsaslandırma

Azərbaycanda peşə təhsili və təlimi sistemində icrası nəzərdə tutulan proqramların uğurunu təmin etmək üçün maliyyələşdirmə sisteminin müasir standartlara uyğunlaşdırılması vacibdir. Peşə təhsili sistemində təhsilin keyfiyyəti birbaşa maliyyələşdirmə səviyyəsindən asılıdır ki, bu da təlim və tədris prosesinin ayrılmaz hissəsi olan müəllim-pedaqoji heyətinin maddi həvəsləndirilməsi, istifadə olunan maddi-texniki bazanın, infrastruktur və avadanlıqların müasir tələblərə uyğunluğunun təmin edilməsi və digər aidiyyəti məsələlərin çevik həllində əsas şərtlərdən biridir. Digər tərəfdən, peşə təhsili sisteminin maliyyələşdirilməsində şəffaflığın və səmərəliliyin təmin edilməsi, həmçinin mütərəqqi maliyyə idarəetmə modelinin yaradılması da vacib məsələlərdən biridir.

Hazırda Azərbaycanda peşə təhsili və təlimi sisteminin maliyyələşdirilməsi əsasən dövlət büdcəsi hesabına (96 faiz) həyata keçirilir.[7] Peşə təhsili müəssisələrinin büdcədənkənar mənbələrdən daxil olan vəsaitlərinin aidiyyəti üzrə istifadəsi ilə bağlı normativ hüquqi tənzimləmə mexanizminin inkişaf etdirilməsi digər tərəfdən bu gəlirlərin artırılması üçün stimul yarada bilər.

Peşə təhsili və təlimi sistemində əsaslı dəyişikliklərə təkan verəcək və inkişafı stimullaşdıracaq vasitələrdən biri kimi beynəlxalq praktikada geniş istifadə olunan dövlət-özəl tərəfdaşlığı prinsipləri əsasında maliyyələşmənin özəl sektor tərəfindən, eləcə də beynəlxalq donor və maliyyə təşkilatlarının dəstəyi ilə təmin edilməsi müəyyənləşdirilmişdir. Bu, həmçinin peşə təhsili sisteminin maliyyələşdirilməsində büdcənin yükünün azaldılmasına, peşə təhsili müəssisələrinin biznes prinsipləri əsasında fəaliyyətinin təşkilinə, yüksək keyfiyyət və şəffaflığın təmin edilməsinə rəvac verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 2.1.1. Peşə təhsili müəssisələrində istehsal olunan məhsul və xidmətlərin satışı ilə əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi və seçilmiş pilot peşə təhsili müəssisələrinin istehsal imkanları üzrə qiymətləndirmənin həyata keçirilməsi

Peşə təhsili müəssisələrinin büdcədənkənar maliyyə vəsaiti cəlb etmək imkanlarının artırılması məqsədilə peşə təhsili müəssisələrində istehsal edilən məhsul və xidmətlərin satışı ilə əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçiriləcəkdir. Təhsil Nazirliyi 1.1.4-cü tədbir çərçivəsində seçilmiş pilot peşə təhsili müəssisələrində maliyyə vəziyyətinin təhlil edilməsi, əldə edilən büdcədənkənar gəlirlərin artırılması imkanları, dövlət maliyyələşməsinin səmərəli istifadəsi ilə bağlı qiymətləndirmə aparacaqdır.

[7] Mənbə: Azərbaycan Respublikasının Təhsil Nazirliyi

Qiymətləndirmə zamanı pilot peşə təhsili və təlimi müəssisələrində həm tələbələrin təcrübə keçməsi, həm də təhsil müəssisələrində büdcədənkənar gəlirlərin artırılması üçün istehsal və xidmət istiqamətlərinin müəyyənləşdirilməsi, həmin müəssisələrə aid torpaq, avadanlıq və maddi-texniki bazanın inventarlaşdırılması, eləcə də təhsil müəssisələrinin mövcud infrastrukturundan istehsal və xidmətlər göstərilməsi üçün səmərəli istifadə istiqamətində aparılan təhlil əsasında mənfəət və zərər analizi hesabatı hazırlanacaqdır.

Tədbir 2.1.2. Peşə təhsili müəssisələrində istehsalı nəzərdə tutulan məhsul və xidmət sahələrinin, həmin məhsul və xidmətlər üzrə minimum standartların müəyyən edilməsi

Təhsil Nazirliyi 2.1.1-ci tədbir çərçivəsində həyata keçiriləcək qiymətləndirmə nəticəsində əldə olunan məlumatlara, o cümlədən bazarın tələblərinə əsasən peşə təhsili müəssisələri ilə birlikdə həmin müəssisələrdə istehsal edilməsi nəzərdə tutulan məhsulları və xidmət sahələrini müəyyən edəcəkdir. Bundan əlavə, Təhsil Nazirliyi tərəfindən həmin məhsul və xidmətlər üzrə minimum standartlar müəyyən ediləcəkdir. Daha sonra, müvafiq məhsul və xidmət istehsalını təmin etmək üçün zəruri infrastrukturun yaradılması məqsədilə 1.1.4-cü tədbir çərçivəsində seçilmiş pilot peşə təhsili müəssisələrində maddi-texniki bazanın təmin edilməsi və istismara hazırlıqla bağlı işlər yerinə yetiriləcəkdir.

Tədbir 2.1.3. Büdcədənkənar vəsaitlərin idarə olunması və monitorinqi sisteminin hazırlanması

Təhsil Nazirliyi aidiyyəti qurumlarla birlikdə peşə təhsili şagirdlərinin praktiki təlim keçməsi və büdcədənkənar gəlirlərin artırılması məqsədilə hazır olan pilot peşə təhsili məktəblərində məhsul və xidmətlər istehsalının yüksək keyfiyyətinin təmin edilməsi, istehsal olunan məhsul və xidmətlərin satışından əldə edilən gəlirlərin idarə olunması üçün şəffaf idarəetmə mexanizmi, maliyyə nəticələrinin dövri auditi və monitorinqi sistemini işləyib hazırlayacaq və tətbiq edəcəkdir. Bu zaman məhsul və xidmətlər istehsalını həyata keçirən peşə təhsili müəssisələrinin vahid mərkəzləşdirilmiş satınalma sisteminə inteqrasiyası həmin müəssisələr üzrə satınalma xərclərinin azaldılmasına imkan verəcəkdir. Gəlir və xərclərin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasını və peşə təhsili müəssisələri arasında ədalətli bölgüsünü təmin etmək üçün Təhsil Nazirliyi yanında peşə təhsilinin inkişafı fondunun təsis edilməsi məsələsi nəzərdən keçiriləcəkdir.

Tədbir 2.1.4. Peşə təhsili müəssisələrində istehsal edilən məhsul və xidmətlərin satışının təşkili

Peşə təhsili müəssisələrində istehsal edilən məhsul və xidmətlərin müvafiq qaydada satışı təşkil ediləcəkdir. Bu məhsul və xidmətlərin satışını təşviq etmək məqsədilə onların ilk müştərisi kimi Təhsil Nazirliyi, daha sonra isə mərhələlərlə digər dövlət müəssisə və təşkilatları çıxış edəcəklər. Təhsil Nazirliyi öz satınalma sistemlərini yeniləməklə, peşə təhsili müəssisələrinin istehsal imkanlarını bu sistemdə əks etdirəcəkdir. Bundan əlavə, pilot peşə təhsili müəssisələrinin istehsal etdiyi məhsul və xidmətlərin əmtəə nişanı (brendi) yaradılacaq və həmin məhsulların özəl şirkətlərə və geniş alıcı kütləsinə çatdırılması üçün hər il satış-sərgilərin keçirilməsi və bununla da büdcədənkənar gəlirlərin daha da artırılması istiqamətində müvafiq tədbirlər görüləcəkdir.

Tədbir 2.1.5. Peşə təhsili müəssisələrində satış məqsədli istehsal fəaliyyətinin qiymətləndirilməsi

Pilot peşə təhsili müəssisələrində məhsul və xidmətlərin istehsalı və satışı üzrə fəaliyyət müvafiq dövlət qurumu tərəfindən hər il qiymətləndiriləcəkdir. Qiymətləndirmənin nəticələrinə uyğun olaraq, Təhsil Nazirliyi proqrama lazımi düzəliş və dəyişikliklər edəcək və proqramın pilot peşə təhsili müəssisələrindən əlavə, digər peşə təhsili müəssisələrində də tətbiq edilməsi imkanını nəzərdən keçirəcəkdir.

Tədbir 2.1.6. Alternativ maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi

Təhsil Nazirliyi peşə təhsili müəssisələrinin müəyyən edilmiş hədəflərə çatması üçün tələb olunan büdcə layihəsini hazırlayacaq və peşə təhsili müəssisələrinin işəgötürənlərin və beynəlxalq təşkilatların iştirakı ilə alternativ qaydada maliyyələşdirilməsi ilə bağlı qabaqcıl beynəlxalq təcrübələri müəyyən edəcəkdir. Bu zaman Təhsil Nazirliyi tərəfindən peşə təhsili müəssisələrinin qeyri-dövlət vəsaiti hesabına maliyyələşdirilməsi üçün xüsusi imtiyazların verilməsini və ya digər stimullaşdırıcı və həvəsləndirici mexanizmlərin tətbiqini nəzərdə tutan normativ hüquqi sənəd hazırlanacaq və təsdiq üçün təqdim ediləcəkdir. Peşə təhsili müəssisələrinin işəgötürənlər tərəfindən maliyyələşdirilmə imkanlarının öyrənilməsi 1-ci strateji hədəfdə göstərilən mexanizmlər əsasında həyata keçiriləcəkdir. Əlavə olaraq, peşə təhsili müəssisələrinin idarəetmə və müəllim-pedaqoji heyəti üçün təlimlərin təşkili və təhsil proqramlarının (kurikulumların) hazırlanması kimi bir sıra spesifik sahələrin maliyyələşdirilməsinə Avropa Birliyi, Dünya Bankı, UNESCO və digər bu kimi beynəlxalq təşkilatların cəlb edilməsi imkanları araşdırılacaq və həmin qurumların proqramda iştirakı təmin ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin real ÜDM-i 2 milyon manat artıracağı proqnozlaşdırılır. Bu təsir müəyyən edilən tədbirlərin icrası nəticəsində pilot peşə təhsili müəssisələrində istehsal edilən məhsul və xidmətlərin satışı yolu ilə əldə edilmiş əlavə maliyyə vəsaitlərini ehtiva edir.

Əsas icra göstəriciləri:

- peşə təhsili müəssisələrinin ən azı 65 faizinin proqramda iştirakı və məktəblərin orta hesabla hər bir tələbə üzrə, əlavə olaraq, 105 manat illik gəlir gətirməsinin təmin edilməsi;
- hər tələbə üçün ayrılan vəsaitin məbləğinin peşə məktəblərində 20 faiz artması.

Tələb edilən investisiya

Bu prioritetin tam reallaşdırılması, o cümlədən peşə təhsili müəssisələrinə aid torpaq, avadanlıq və maddi-texniki bazanın inventarlaşdırılması, təhsil müəssisələrinin mövcud infrastrukturundan istehsal və xidmətlər göstərilməsi üçün səmərəli istifadə istiqamətində aparılan təhlil əsasında mənfəət və zərər analizinin həyata keçirilməsi, müvafiq məhsul və xidmət istehsalını təmin etmək üçün zəruri infrastrukturun yaradılması, vahid mərkəzləşdirilmiş satınalma sisteminə inteqrasiya, peşə təhsilinin inkişafı fondunun yaradılması, peşə təhsili müəssisələrində istehsal olunan məhsulların və xidmətlərin satışı üçün ticarət nişanının (brendin) yaradılması, satış sərgilərinin təşkili və alternativ qaydada maliyyələşdirilmə ilə bağlı qabaqcıl beynəlxalq təcrübələrin müəyyən edilməsi üçün beynəlxalq ekspertlərin cəlb edilməsi və səfərlərin təşkili üçün

peşə təhsili sisteminə əlavə 23 milyon manat həcmində vəsait tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- büdcədənkənar maliyyə vəsaitlərinin cəlb edilməsi üçün müvafiq normativ hüquqi bazanın qəbul edilməməsi;
- peşə təhsili müəssisələrində istehsalat üçün infrastrukturun yaradılmaması;
- istehsal ediləcək məhsulların satışında çətinliklərin olması;
- büdcədənkənar vəsaitlərin idarə edilməsində şəffaflığın və səmərəliliyin təmin edilməməsi;
- peşə təhsili sisteminə əlavə maliyyə vəsaitlərinin cəlb edilməməsi.

7.2.2. Prioritet 2.2. Fəaliyyətin nəticələrinə əsaslanan həvəsləndirmə mexanizmlərinin tətbiqi

Əsaslandırma

Hazırda peşə təhsilini seçən şagirdlərin böyük əksəriyyəti peşə təhsili və təlimi sisteminin təklif etdiyi müvafiq imkanlardan faydalanırlar. Belə ki, dövlət hesabına təhsil alan peşə təhsili müəssisələrinin şagirdləri 38 manat məbləğində təqaüdlə təmin edilirlər. Bu amil, digər meyarlar nəzərə alınmazsa, peşə təhsili sisteminin müəyyən şagirdlər üçün cəlbediciliyini təmin edir. Lakin bu təqaüd nəticələrə əsaslanmır və təqaüdün verilməsi üçün yalnız şagirdin qeydiyyatdan keçməsi kifayət edir. Həmçinin, maliyyə vəsaitlərinin bölüşdürülməsi zamanı peşə təhsili müəssisələrinin və bu müəssisələrdə təhsil və təlim alan şagirdlərin icra göstəriciləri nəzərə alınmır. Buna görə də dövlət büdcəsi hesabına təqaüdlərin verilməsinin peşə təhsili sisteminin inkişafına təsirinin artırılması məqsədilə nəticələrə əsaslanan təqaüd sisteminin qurulması əsas məsələlərdən biridir.

Peşə təhsili müəssisələrinin fəaliyyəti əsas fəaliyyət göstəriciləri nəzərə alınmadan qiymətləndirilir və hər birinə dövlət büdcəsindən əvvəlcədən nəzərdə tutulmuş müəyyən miqdarda vəsait ayrılır. Belə qiymətləndirmə peşə təhsili müəssisələri arasında rəqabətin yaranmamasına və peşə təhsilinin ümumi keyfiyyətinin aşağı olmasına gətirib çıxarır. Beləliklə, effektiv fəaliyyət göstərən təhsil müəssisələrinin digərlərindən fərqləndirilməsi mümkün olmur. Bunun başlıca səbəblərindən biri peşə təhsili sistemində əsas fəaliyyət göstəriciləri üzrə maliyyələşməni mümkün edən normativ hüquqi bazanın mövcud olmamasıdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, peşə təhsili sisteminin dövlət büdcəsindən maliyyələşdirilməsi mexanizmində islahatların həyata keçirilməsi labüddür. Burada müasir tələblərə uyğun olaraq, əsas fəaliyyət göstəricilərinə istinad edən diferensial maliyyələşmə sisteminin yaradılması, dövlət büdcəsinin vəsaitlərindən səmərəli istifadə edilməsi, yüksək göstəricilərə malik peşə təhsili müəssisələrinin ünvanlı maliyyələşməsi mexanizminin işlənib hazırlanması, eləcə də bu tədbirlərin həyata keçirilməsini mümkün edən təkmilləşdirilmiş normativ hüquqi bazanın qəbulu həlli vacib olan məsələlərdir.

Görüləcək tədbirlər

Tədbir 2.2.1. Peşə təhsili müəssisələri üzrə əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi

Təhsil Nazirliyi peşə təhsili müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi üçün peşə təhsili müəssisələrinin ixtisaslaşma sahələrini nəzərə almaqla, müvafiq əsas fəaliyyət göstəricilərini (məzunların məşğulluq səviyyəsi, attestasiya qiymətləri, müəllim-pedaqoji heyətin hazırlıq səviyyəsi və s. üzrə) işləyib hazırlayacaqdır. Bu göstəricilər tələbələrin və peşə təhsili müəssisələrinin ümumi maraqları və rəyləri nəzərə alınmaqla, birgə müzakirələr əsasında hazırlanacaq və qəbul olunacaqdır. Göstəricilər müəyyən edildikdən sonra peşə təhsili müəssisələri bu göstəricilər barədə məlumatlandırılacaqdır.

Tədbir 2.2.2. Nəticələrə əsaslanan maliyyələşmə sisteminin yaradılması

Nəticələrə əsaslanan maliyyələşmə sisteminin həyata keçirilməsi üçün normativ hüquqi bazada maliyyələşdirmə və təqaüd mexanizmində dəyişikliklərin edilməsi ilə bağlı təkliflər müvafiq dövlət qurumunun aidiyyəti tərəflərlə məsləhətləşmələri yolu ilə hazırlanacaqdır. Normativ hüquqi bazaya müvafiq dəyişikliklər edildikdən sonra peşə təhsili müəssisələrinin maliyyələşdirilməsi nəticələrə əsaslanan maliyyələşmə sistemi üzrə həyata keçiriləcəkdir. Bu maliyyələşmə sistemi iki hissədən – baza komponenti və icra göstəricilərinə əsaslanan ödəniş komponentindən ibarət olacaqdır. Baza komponenti hər bir peşə təhsili müəssisəsinə vaxt, material və digər əsas məsrəflər üzrə ödənişlərin həyata keçirilməsini nəzərdə tutur. İcra göstəricilərinə əsaslanan ödəniş komponenti 2.2.1-ci tədbir çərçivəsində müəyyən olunan əsas fəaliyyət göstəriciləri yüksək olan peşə təhsili müəssisələrinə keyfiyyət göstəricilərinin daha da artırılmasını təmin etmək məqsədilə 2.1.3-cü tədbir çərçivəsində yaradılacaq peşə təhsilinin inkişafı fondunda toplanan maliyyə vəsaitləri hesabına, həmçinin dövlət tərəfindən əlavə maliyyə dəstəyi vasitəsilə təmin ediləcəkdir. Bu maliyyə vəsaitləri yüksək fəaliyyət göstəricilərinə malik müəllim-pedaqoji heyətin əməkhaqlarının, şagirdlərin təqaüdlərinin və digər zəruri xərclərin qarşılanmasına sərf olunacaqdır.

Tədbir 2.2.3. Nəticələrə əsaslanan maliyyələşmə sisteminin davamlı monitorinqinin təşkili

Əsas fəaliyyət göstəriciləri üzrə məlumatların məqsədəuyğun şəkildə toplanmasını və təhlilini təmin etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən məlumat bazasının yaradılmasına başlanacaqdır. Paralel olaraq, peşə təhsili müəssisələrindən toplanmış məlumatların dəqiqliyini yoxlamaq üçün xüsusi yoxlama proseduru müəyyən ediləcəkdir. Toplanmış məlumatlara əsasən, Təhsil Nazirliyi peşə təhsili müəssisələrinin reytinqlərini müəyyən etmək üçün müvafiq mexanizm işləyib hazırlayacaq və bu mexanizm reytinqi aşağı olan peşə təhsili müəssisələrini müəyyən etməklə, onlar üçün müvafiq dəstək mexanizmləri hazırlamağa imkan verəcəkdir. Maliyyələşmə əsas fəaliyyət göstəriciləri əsasında peşə təhsili müəssisələrinin reytinqlərinə uyğun həyata keçiriləcəkdir. Təhsil Nazirliyi nəticələrə əsaslanan maliyyələşdirmə sisteminin davamlı monitorinqini həyata keçirəcəkdir. Nəhayət, Təhsil Nazirliyi bu tədbir çərçivəsində görülmüş işlərin nəticələrinə dair məlumatların ictimaiyyətə açıqlanması ilə bağlı müvafiq tədbirlər görəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Fəaliyyət göstəricilərinə əsaslanan stimullaşdırma mexanizmlərinin həyata keçirilməsi təhsilin keyfiyyətinin və nəticə etibarilə, peşə təhsili məzunlarının əmək məhsuldarlığının artırılması üçün mühüm yardımçı amil rolunu oynayacaqdır. Bu cür stimullaşdırma mexanizmləri prioritetlərin mühüm yardımçı amili olduğuna görə real ÜDM-ə və ya məşğulluğa birbaşa təsiri gözlənilmir. Yeni mexanizmlərin tətbiqi

nəticəsində pilot peşə təhsili müəssisələrinin müəllim-pedaqoji heyətinin əməkhaqlarının iki dəfəyədək artırılması proqnozlaşdırılır.

Tələb edilən investisiya

Bu prioritet üçün əhəmiyyətli həcmdə investisiya tələb olunmayacaqdır.

Gözlənilən risklər

- nəticələrə əsaslanan maliyyələşmə sisteminin həyata keçirilməsi üçün normativ hüquqi bazada maliyyələşdirmə və təqaüd mexanizmində dəyişikliklər edilməsi ilə bağlı təkliflərin qəbul edilməməsi;
- peşə təhsili müəssisələrinin qiymətləndirilməsi üçün məlumatlarda dəqiqliyin və şəffaflığın olmaması.

7.3. Strateji hədəf 3. Məqsədli peşə inkişafı proqramlarının yaradılması

7.3.1. Prioritet 3.1. Yaşlılar üçün peşə təliminin və ixtisasartırmanın təmin edilməsi

Əsaslandırma


Yaşlıların (yetkinlik yaşını keçmiş, müstəqil həyat yaşayan, həyat təcrübəsi və bir çox hallarda peşəsi olan şəxslər) təhsili ömürboyu təhsil sisteminin tərkib hissəsi olmaqla, əhalinin cəmiyyətdə və iqtisadiyyatda baş verən dinamik dəyişikliklərə adekvat və çevik uyğunlaşmasını təmin edən təhsil prosesidir.

Müasir dövrdə elm və texnologiyaların sürətli inkişafı biliklərin xeyli hissəsinin qısa müddətdə aktuallığını itirməsi və bununla da tədris olunan bir çox peşələrin məzmununun köhnəlməsi ilə nəticələnir. Məlumdur ki, işsizlik probleminin səbəbi təkcə iş yerlərinin olmaması deyil, eyni zamanda, işsiz və iş axtaran şəxslərin peşə-ixtisas təhsilinin və əmək vərdişlərinin müasir əmək bazarının tələblərinə cavab verməməsidir.

Hazırda Azərbaycanda işsizlərin peşə təlimi və yeni bacarıqlara yiyələnərək əmək bazarına daxil olması sistemli xarakter daşımır. İşaxtaranlar adətən əldə etdikləri ixtisaslar üzrə öz potensiallarını əmək bazarında tam reallaşdıra bilmədiyindən işlə təmin olunmaqda bir sıra çətinliklərlə üzləşirlər. Bu hal, öz növbəsində, əmək bazarında prioritet ixtisaslar üzrə sərişteli işçi qüvvəsinin az olması ilə nəticələnir. Digər tərəfdən isə işləyən əhalinin peşə bilik və bacarıqlarının müasir standartlara uyğun gəlməməsi əmək məhsuldarlığının aşağı olmasına, bazara keyfiyyətli məhsul, iş və xidmətlərin çıxarılmamasına səbəb olur ki, bu da sonda milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini aşağı salır.

Müasir dövrdə əhali üçün sahibkarlıq fəaliyyətinin inkişafı, müasir informasiya texnologiyalarının tətbiqi istiqamətində bacarıqların artırılmasına yönəldilmiş təlimlərin keçirilməsi zəruridir. Eyni zamanda, qloballaşma və dünya iqtisadiyyatına inteqrasiya ölkə əhalisi qarşısında yeni tələblər qoyur. Bu, ilk növbədə, əhalinin təhsilinin beynəlxalq standartlara cavab verməsi, onların demokratik dəyərləri düzgün başa düşüb gündəlik həyatda istifadə etməsi və öz rəqabətqabiliyyətliliyini davamlı qorumaq məqsədilə "ömürboyu öyrənmək" konsepsiyasına riayət etməsi ilə müşayiət olunmalıdır.

Şəkil 6. Peşə təhsili müəssisələrinin hazırkı fəaliyyət müddəti və əlavə potensialı



Hazırda Azərbaycanın peşə təhsili müəssisələri əsasən yarım gün fəaliyyət göstərir və günün qalan hissəsində müəssisələrin təlim-tədris bazasının potensialından tam istifadə olunmur (şəkil 6). İşaxtaranların və digər şəxslərin yeni bacarıqlar əldə etməsi üçün peşə təhsili müəssisələrinin bazasında yaşlıların təhsili, yenidən hazırlıq və ixtisasartırma kurslarının təşkili mühüm əhəmiyyət kəsb edir. Bu, ölkədə işsizlik səviyyəsinin azaldılmasına, əmək bazarında işçi qüvvəsinin peşəkarlığının və sərişteşinin yüksəldilməsinə, eləcə də əhalinin özünüinkişaf imkanlarının artırılmasına imkan verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 3.1.1. Peşə təhsili müəssisələrində yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili ilə bağlı müvafiq qanunvericilik bazasının yaradılması

Yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili ilə bağlı normativ hüquqi bazaya zəruri dəyişikliklər barədə müvafiq dövlət qurumları məsləhətləşmələr apararaq, peşə təhsili sahəsini sistemli şəkildə tənzimləyəcək liberal və demokratik qanunvericilik bazasının yaradılması istiqamətində müvafiq təkliflər hazırlayacaqlar.

Tədbir 3.1.2. Yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili ilə bağlı aidiyyəti tərəflərlə müzakirələrin aparılması

Təhsil Nazirliyi müvafiq dövlət qurumları və işəgötürənlər ilə birlikdə yaşlıların təhsili və ixtisasartırma kurslarına tələbatın olduğu prioritet sahələr üzrə kursların təşkili imkanlarını, müəssisə və təşkilatların kadr hazırlığına investisiya qoyuluşunu stimullaşdıracaq mexanizmləri, yoxsul və aztəminatlı insanların həmin kurslarda iştirakı ilə bağlı xərclərinin dövlət tərəfindən təmin edilməsi imkanlarını müəyyən edəcək, eləcə də həmin kurslar üçün təhsil proqramlarının (kurikulumların) tərtibini, müvafiq müəllim-pedaqoji heyətin seçilməsini və lazım olduğu təqdirdə, onlar üçün əlavə təlimlərin təşkilini həyata keçirəcəkdir.

Tədbir 3.1.3. Yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili mexanizminin hazırlanması

Təhsil Nazirliyi aparılan araşdırmalar və müzakirələr nəticəsində əldə olunan məlumatlar və normativ hüquqi bazada edilən dəyişikliklər əsasında peşə təhsili müəssisələrində yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili üzrə mexanizm

hazırlayacaqdır. Bu mexanizm çərçivəsində işsizlərin əmək bazarında tələb olunan sahələr üzrə yeni bacarıqları əldə etməsi üçün modul tipli çevik kurslar, işləyənlərin sərişləsinin artırılması və özünüinkişaf imkanlarının yüksəldilməsi üçün ixtisasartırma kursları, eləcə də əhalinin istənilən təbəqəsi üçün müəyyən sahələr üzrə təlim kursları (kompüter, dil, tikiş, toxuculuq, çilingər, qaynaqçı və s.) təşkil ediləcəkdir. Müvafiq dövlət qurumları qeyd edilən kursların təhsil proqramlarını (kurikulumları) özəl sektorla əməkdaşlıq yolu ilə hazırlayacaqlar. Yaşlıların təhsili üzrə resurs mərkəzləri (peşəyönümü, məlumat, maarifləndirmə, təbliğat və s. funksiyaların icrası üçün) də yaradılacaqdır.

Tədbir 3.1.4. Kurslarda keyfiyyətin monitorinqinin təşkili

Təhsil Nazirliyi tədris edilən kursların monitorinqi, keyfiyyətinin artırılması və davamlılığının təmin edilməsi məqsədilə məlumatların toplanması, təhsil prosesi üzrə mövcud vəziyyətin sistemli şəkildə qiymətləndirilməsi üçün informasiya bazası yaradacaq və statistikanın təkmilləşdirilməsini həyata keçirəcəkdir. Əlavə olaraq, Təhsil Nazirliyi gələcəkdə analoji kursların digər peşə təhsili müəssisələrində bütün ölkə ərazisində təşkili üzrə işlər görəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin real ÜDM-i 1 milyon manat həcmində artıracağı proqnozlaşdırılır. Bu təsir yaşlılar və dövlət təşkilatları tərəfindən ixtisasartırma kurslarına sərf ediləcək məbləği əks etdirir və adambaşına təxminən 400 manat məbləğində iştirak haqqının ödəniləcəyi gözlənilir. Yaşlılar üçün kursların iştirakçılarının sayı 2020-ci ilədək 17 faiz artım tempinə malik olacaqdır. Bu prioritetin icrası nəticəsində bütövlükdə 177, bilavasitə peşə təhsili sektorunda isə 140 yeni iş yerinin yaradılacağı gözlənilir.

Tələb edilən investisiya

Yaşlıların təhsili üçün kurslarda istifadə olunması məqsədilə tərtib ediləcək yeni kurikulumlar (tədris vəsaiti, kitablar, onlayn dərsliklər daxil olmaqla) üçün 300 min manat həcmində vəsait tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- yaşlıların təhsili üzrə mexanizmin icrası üçün qurumlararası əməkdaşlığın zəif olması;
- yaşlıların kurslara maraq göstərməməsi;
- müvafiq maliyyələşmənin həyata keçirilməməsi;
- keyfiyyətin monitorinqi məqsədilə əldə edilən məlumatların dəqiq və şəffaf olmaması.

7.4. Strateji hədəf 4. Sektorlar üzrə spesifik proqramların yaradılması

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətləri" çərçivəsində əksər sektorlar üzrə müəyyən prioritetlərin icrası işçi qüvvəsinin hazırlıq səviyyəsinin təhsil təşəbbüsləri vasitəsilə artırılmasını zəruri edir. Müvafiq hallarda, peşə təhsili sistemi müxtəlif sektorlar üzrə prioritetlərin, o cümlədən kiçik və orta sahibkarlıq subyektləri üçün model müəssisənin yaradılması, kənd təsərrüfatı sektorunun universitet, peşə təhsili, məlumat-məsləhət xidmətləri səviyyəsində təhsil imkanları vasitəsilə inkişaf etdirilməsi, maliyyə xidmətləri sektorunda daha keyfiyyətli xidmətin təmin olunması üçün Bank Akademiyasının fəaliyyətinin

genişləndirilməsi, ixtisaslı turizm məzunlarının sayının artırılması, biznes müəssisələrində kompüter savadlılığının artırılması və s. prioritetlərin icrasında tərəfdaş rolunu oynaya bilər.

7.4.1. Prioritet 4.1. Kiçik və orta sahibkarlıq subyektləri üçün model müəssisələrin yaradılması və sahibkar düşüncə tərzinin təşviqi istiqamətində peşə təhsili və təlimi müəssisələrinin fəaliyyətinin təşkili

Əsaslandırma

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nə əsasən, ölkənin kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin ixtisaslı, bacarıqlı və daim təkmilləşən kadr ehtiyatlarına olan ehtiyaclarının ödənilməsinə kömək məqsədilə əsasən iki istiqamətdə (model müəssisənin yaradılması və sahibkar düşüncə tərzinin təşviqi) fəaliyyətin təşkili nəzərdə tutulmuşdur. Bu fəaliyyət istiqamətlərinin reallaşdırılması peşə təhsili sistemində də müvafiq tədbirlərin görülməsini zəruri edir.

Model müəssisələrdə əsasən real zaman rejimində "işləməklə öyrənmək" və ya təcrübəyə əsaslanan təlimlər üstünlük təşkil edir ki, burada nəzəri biliklər daha çox praktiki məşğələlərlə tamamlanır. KOS-ların yüksək ixtisaslı kadrlarla təmin edilməsinə dəstək məqsədilə peşə təhsili müəssisələri ilə model müəssisələr arasında əməkdaşlıq çərçivəsində müvafiq ixtisaslar üzrə təhsil ehtiyaclarının düzgün müəyyən edilməsi, bu ehtiyacları qarşılayan eksperimental tədris və təcrübəyə əsaslanan təhsil proqramlarının (kurikulumların) hazırlanması, eləcə də ixtisaslı kadrların yetişdirilməsi üçün şagirdlərin müvafiq ixtisaslar üzrə təcrübə-təlim keçməsi və qiymətləndirilməsi zəruridir.

Gənc yaşlarından şagirdlərdə sahibkarlıq bilik və bacarıqlarının aşılanması, biznesyönümlü qeyri-standart düşüncə tərzinin və fərqli yanaşmanın formalaşmasına istiqamətlənən təhsil metodlarından istifadə və yaşlıların bacarıqlarının inkişaf etdirilməsi sahibkarlıq fəaliyyətinin təşviq edilməsinə münbit şərait yaradır. Bu mənada, sahibkarlıq düşüncə tərzinin təşviqi məqsədilə təhsil zəncirinin bir pilləsi olan peşə təhsili sistemində "sahibkarlıq modulu"nu bütün təhsil proqramlarının (kurikulumların) tərkib hissəsinə daxil etməklə, təhsilini başa vuran şagirdlərin məşğulluq imkanlarının artırılmasına, habelə onların öz işini qurmaq və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün zəruri bacarıqlara yiyələnməsinə nail olmaq mümkündür.

Görüləcək tədbirlər

Tədbir 4.1.1. Peşə təhsili müəssisələri ilə model müəssisələr arasında əməkdaşlığın qurulması

Peşə təhsili sistemi sənaye zonalarında yaradılacaq model müəssisələrdə iqtisadiyyatın müvafiq sektorları üzrə istiqamətin və ona uyğun ixtisasların seçilməsində, bu istiqamətlər üzrə təhsil və təlim ehtiyaclarının öyrənilməsində, bu ehtiyacları qarşılayan müvafiq tədris proqramlarının yaradılmasında, tədris proqramları əsasında keçiriləcək təlimlərdə istifadə ediləcək maddi-texniki bazanın və avadanlığın müəyyən edilməsində fəal iştirak edəcəkdir. Bununla yanaşı, peşə təhsili müəssisələri ilə model müəssisələr arasında əməkdaşlıq çərçivəsində əmək bazarının yüksəkixtisaslı kadrlara olan tələbinin təmin edilməsi üçün peşə təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan şagirdlərin həm istehsalat təlimi və təcrübələrinin təşkili, həm də bilik və bacarıqlarının qiymətləndirilməsi üçün model müəssisələrin imkanlarından geniş istifadə

ediləcəkdir. Model müəssisədə istehsalat təcrübəsi keçmiş peşə təhsili məzunlarına KOS subyektlərində işlə təminatda üstünlük veriləcəkdir.

Tədbir 4.1.2. Peşə təhsili sistemində sahibkar düşüncə tərzinin təşviqi

Peşə təhsili sistemində təhsilalanların sahibkarlıq düşüncə tərzinin formalaşması, onlara müasir qeyri-standart yanaşma və sahibkarlıq bacarıqlarının aşılanması, öz işini qurmaq istəyən məzunlara bu istiqamətdə həm nəzəri məlumatların, həm də praktiki bacarıqların verilməsi məqsədilə müvafiq səriştələr əsasında KOS subyektləri ilə birlikdə təlim və təhsil proqramları (kurikulumlar) tərtib ediləcəkdir. Praktiki məşğələlərdə uğurlu iş adamları ilə görüşlər təşkil edilməklə, sahibkarlıq fəaliyyəti təşviq olunacaqdır. Sahibkarlıq modulu üzrə təhsilverən müəllim heyətinin yenidən hazırlanması, eləcə də təhsilalanların sahibkarlıq üzrə bilik və səriştələrinin KOS subyektləri nümayəndələrinin iştirakı ilə birgə qiymətləndirilməsi həyata keçiriləcəkdir.

KOS subyektləri üçün model müəssisələrin yaradılması "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" sənədində 4.2-ci prioritetdə daha ətraflı müzakirə edilmişdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Burada model müəssisələr tərəfindən əməliyyat xərclərinin səviyyəsinin saxlanılması məqsədilə şirkətlərdən alınacaq məbləğ ÜDM-ə təsir edən əlavə amil kimi nəzərdən keçirilir. Real ÜDM-ə və şirkətlərə digər təsirlər barədə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" sənədində bəhs edilir.

Tələb edilən investisiya

Sahibkarlıq modulu üzrə təhsil verən müəllim heyətinin yenidən hazırlanması və təlimlərin təşkili üçün 50 min manat həcmində əlavə vəsait tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- model müəssisələrin fəaliyyətinin təşkilində peşə təhsili müəssisələri ilə birgə fəaliyyətin həyata keçirilməməsi;
- şagirdlərin model müəssisələrdə təcrübə və təlim keçməsi və qiymətləndirilməsi üçün lazımi imkanların yaradılmaması;
- iş adamlarının peşə təhsili müəssisələrində sahibkarlıq proqramının tədrisində iştirak etməyə maraqlı olmaması.

7.4.2. Prioritet 4.2. Sektorlar üzrə tələblərin qarşılanmasına dəstək verilməsi

Əsaslandırma

Peşə təhsili və təlimi müəssisələri prioritet sektorlar (kənd təsərrüfatı, maliyyə xidmətləri, turizm, telekommunikasiya, kommunal xidmətlər, ağır sənaye və maşınqayırma) üzrə ixtisaslı kadr hazırlığı istiqamətində müvafiq tədbirlər həyata keçirməlidir. Seçilmiş istiqamətlər üzrə tədbirlərin icrası müvafiq normativ hüquqi baza, infrastruktur, mütərəqqi tədris kurikulumları və ixtisaslı mühəndis-pedaqoji heyətin əlaqələndirilmiş birgə fəaliyyətini tələb edir. Qeyd olunan şərtlər çərçivəsində müasir pilot peşə təhsili müəssisələrinin yaradılması ölkə iqtisadiyyatının prioritet sahələri üzrə əmək bazarının tələblərinə cavab verən peşəkar kadrların hazırlanmasını tələb edir. Bu

peşə təhsili müəssisələrinin fəaliyyəti birbaşa olaraq iqtisadiyyatın prioritet elan edilmiş sahələrində fəaliyyət göstərən müəssisələrin ixtisaslı kadrlara olan tələblərinin qarşılanmasına istiqamətlənəcəkdir. İqtisadiyyatda gələcək inkişafın stimullaşdırılması üçün ixtisaslı işçilərin böyük əhəmiyyət kəsb edəcəyini nəzərə alıb, mövcud peşə təhsili müəssisələri ilə seçilmiş sektorlar arasında davamlı əlaqələrin gücləndirilməsi istiqamətində işlərin aparılması zəruridir.

Görüləcək tədbirlər

Tədbir 4.2.1. Sektorlar üzrə ümumi tələblərin qarşılanmasına dəstək verilməsi

Peşə təhsili sistemi müvafiq sektorların tələblərinə uyğun yüksək ixtisaslı kadr hazırlığını həyata keçirəcəkdir. Həmin sektorlar üzrə ölkədə və dünyada mövcud inkişaf meyilləri nəzərə alınmaqla, müvafiq dövlət qurumları tərəfindən yeni tələb olunan ixtisaslar üzrə peşə standartları hazırlanacaq, həmin ixtisaslar "İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"na daxil ediləcək və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində əmək bazarının tələblərinə uyğun modullar üzrə yeni tədris proqramları (kurikulumlar) hazırlanacaqdır. Hər bir sektorda çalışan yüksək ixtisaslı mütəxəssislərin peşə təhsili müəssisələrində yarımştat işə cəlb edilməsi və təhsilalanların sektorlar üzrə müəyyən olunan müəssisələrdə istehsalat təcrübələrinin təşkili təmin ediləcəkdir.

Tədbir 4.2.2. Sektorlar üzrə spesifik tələblərin qarşılanmasına dəstək verilməsi

Kənd təsərrüfatı sektoru üzrə: Aqrar sahədə peşə təhsilinin təşviqi ilə bağlı uğurlu fermerlərin iştirakı ilə görüşlər keçiriləcək, qabaqcıl və nümunəvi kənd təsərrüfatı müəssisələrinə sahə səfərləri təşkil ediləcəkdir.

Turizm sektoru üzrə: Ölkəyə gələn turistlərin dil-ünsiyyət tələbləri nəzərə alınmaqla, turizm və rekreasiya zonalarında yerləşən peşə təhsili müəssisələrində müvafiq xarici dil və turizm peşə kurslarının təşkili və digər zəruri tədbirlər həyata keçiriləcəkdir.

Telekommunikasiya sektoru üzrə: İnformasiya və telekommunikasiya texnologiyalarının sürətli inkişafını və bu sektorla bağlı biliklərin bütün sahələrdə geniş tətbiqinin zəruriliyini nəzərə alaraq, beynəlxalq standartlara uyğun kadr hazırlığını həyata keçirən peşə təhsili müəssisələrinin bazasında fəaliyyət göstərən "IT STEP ACADEMY"-də beynəlxalq sertifikatların (Microsoft, Cisco, Autodesk və s.) verilməsi ilə müşayiət olunan tədris prosesi təşkil ediləcəkdir.

Sənaye və maşınqayırma sektoru üzrə: Peşə təhsili müəssisələri mövcud iri sənaye və maşınqayırma müəssisələri ilə birlikdə tələb olunan ixtisaslar üzrə ikili peşə təhsili sisteminin *("dual study")* mexanizmini işləyib hazırlayacaq və tətbiq edəcəkdir.

Yuxarıda qeyd edilmiş tədbirlərdən əlavə, peşə təhsili müəssisələrinin digər sahələrdəki rolundan müvafiq sektorlar üzrə strateji yol xəritələrində bəhs edilmişdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin Azərbaycanın real ÜDM-nə xüsusi birbaşa təsiri olmasa da, digər sektorlar vasitəsilə 1 milyard manat həcmində əlavə artıma imkan yaradacağı proqnozlaşdırılır. Bundan əlavə, peşə təhsili sahəsində yüksək səviyyəli tədbirlər nəticəsində başqa sektorların ehtiyaclarını dəstəkləməklə, universitet və peşə təhsili müəssisələrinin məzunlarının bacarıqları yarımixtisaslıdan ixtisaslı işçi qüvvəsinədək artırıla biləcəkdir. Bu prioritetin həyata keçirilməsi işçi qüvvəsinin məhsuldarlığının artımı

ilə nəticələnərək, Azərbaycanda işləyən firmaların daha yüksək səmərəliliyinə və rəqabətliliyinə təkan verəcəkdir.

Tələb edilən investisiya

Yeni kurikulumların (tədris vəsaiti, kitablar, onlayn dərsliklər daxil olmaqla) tərtibi üçün 1,5 milyon manat həcmində investisiya tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- seçilmiş sahələr üzrə fəaliyyət göstərən müəssisələrin peşə təhsili müəssisələri ilə əməkdaşlığını stimullaşdıran müvafiq normativ hüquqi bazanın qəbul edilməməsi;
- müəssisələr tərəfindən peşə təhsili şagirdlərinin istehsalat təcrübəsinə qəbul edilməməsi;
- seçilmiş sahələr üzrə peşə standartlarının müəyyən edilməməsi;
- tədris proqramlarının (kurikulumların) hazırlanması üçün müəssisələr tərəfindən lazımi dəstəyin göstərilməməsi;
- məzunların işlə təmin edilməməsi.

7.5. Strateji hədəf 5. Peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi

Peşə təhsilinin inkişafı ölkənin ixtisaslı kadrlara olan tələbatının ödənilməsi istiqamətində mühüm addımlardan biri kimi səciyyələnir. Bu istiqamətdə peşə təhsilinin sürətli inkişafına stimul yaradacaq əsas cəhətlər kimi peşə təhsili üzrə məlumat bazasının yaradılması, həmçinin informal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması və bundan sonra işə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin icbari olaraq tələb edilməsi böyük əhəmiyyət kəsb edir. İşəgötürənlərin peşə ixtisasını təsdiq edən sənəd tələb etməmələri, informal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizminin icra edilməməsi ölkədə peşə təhsilinin inkişafını ləngidir. Bu hal həm yüksək keyfiyyət təmin etməsi gözlənilən iri şirkətlərdə, həm də muzdlu işçi qüvvəsindən istifadə edən kiçik və orta sahibkarlarda müşahidə olunur. Keyfiyyəti təsdiq edən əsas göstəricilərdən biri kimi peşə ixtisasını təsdiq edən sənədin tələb edilməsi, ümumilikdə, peşə təhsilinə olan münasibəti müsbət yönə dəyişəcək əsas islahatlardan biridir. Bundan əlavə, hazırda Azərbaycanın peşə təhsili sistemi ilə bağlı toplanmış və geniş şəkildə mövcud olan məlumatlar azdır. Bu məlumatlar çoxsaylı platformalarda yayılmışdır və potensial tələbələr təhsil təminatçıları arasında seçim etməyə kömək edəcək məlumatları əldə etmək üçün müxtəlif mənbələrdə axtarış aparmaq məcburiyyətində qalırlar. Həmçinin qeyd etmək lazımdır ki, bir çox ölkələrdə yalnız ictimaiyyətin məlumatlandırılması üçün deyil, həm də məzunların tələbat olan peşələrdə işə cəlb olunması üçün müxtəlif səviyyələrdə məlumat şəffaflığı təmin edilir.

7.5.1. Prioritet 5.1. İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması

Əsaslandırma

İnsanlar ömürboyu formal təhsildən kənar müəyyən bacarıqlar (xarici dil bilikləri, İKT, idman dərəcələri, dayəlik, usta yanında şagirdlik və s.) və səriştələr əldə edirlər. İş yerində əmək prosesində təlimlər, könüllü fəaliyyət və s. vasitəsilə bir sıra mühüm səriştə və bacarıqların əldə edilməsi informal və qeyri-formal təhsil kimi tanınır və

dünyada təhsilin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilir. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda təhsilin üç forması (formal, informal, qeyri-formal) qeyd olunmuşdur. Formal təhsil – dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil forması, informal təhsil – özünütəhsil yolu ilə biliklərə yiyələnmənin forması, qeyri-formal təhsil – müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan təhsil forması kimi müəyyən edilmişdir. İnkişaf etmiş Avropa və dünya ölkələrində geniş tətbiq olunan informal və qeyri-formal yolla əldə olunan səriştələrin və bacarıqların tanınması mexanizminin hamı üçün əlçatan və rahat olmasına imkan yaradılmışdır. İnsan kapitalının əhəmiyyətinin artdığı və rəqabətin yüksək olduğu müasir dövrdə fərdlər, cəmiyyət və iqtisadiyyatın inkişafı üçün bu bacarıqların və səriştələrin tanınması çox böyük əhəmiyyət kəsb edir. Ölkəmizdə bacarıqların bu yolla tanınması və bundan sonra işə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin tələb edilməsi ilə qarşıya qoyulan məqsədə nail oluna bilər. Hal-hazırda işə qəbul zamanı peşənin mürəkkəbliyindən asılı olaraq ümumi orta, orta-ixtisas və ya ali təhsili təsdiq edən sənəd tələb edildiyi halda, peşə ixtisasını təsdiq edən sənəd işə qəbul zamanı tələb edilmir. Bu, bazarda fəal əməklə məşğul olan əhalinin böyük bir hissəsinin heç bir ixtisasının olmaması ilə nəticələnmişdir. Ümumtəhsil məktəblərini bitirən və digər təhsil pillələrinə istiqamətlənməyən məzunların heç bir sahədə ixtisaslaşma əldə etməməsi isə ölkə iqtisadiyyatında rəqabətqabiliyyətli istehsalın yaradılmasına əngəllər törədir. Peşə ixtisas sənədinin tələb edilməsi, öz növbəsində, bütün sahələrdə əməyin təhlükəsizliyində, əmək məhsuldarlığının yüksəlməsində və rəqabətqabiliyyətli məhsul istehsalında, iş və xidmətlərin göstərilməsində müsbət nəticə verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 5.1.1. İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizminin hazırlanması

Təhsil Nazirliyi informal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizmi ilə bağlı normativ hüquqi sənəd qəbul edəcəkdir. Bu mexanizmə görə peşə təhsili müəssisələrinin bazasında səriştələrin tanınması mümkün olan ixtisaslar müəyyənləşdiriləcəkdir.

Tədbir 5.1.2. İşə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin tələb edilməsinin hüquqi bazasının formalaşdırılması

İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması həyata keçirildikdən sonra əmək bazarına daxil olmaq istəyən şəxslərin peşə ixtisasını təsdiq edən sənədin icbariliyi ilə bağlı normativ hüquqi sənədin qəbul edilməsi nəzərdən keçiriləcəkdir. Gələcəkdə işə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin tələb olunacağı ixtisaslar müəyyənləşdiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi nəticəsində ölkədə əmək bazarına daxil olan ixtisaslı kadrların sayı xeyli artacaqdır.

Tələb edilən investisiya

Bu prioritet üzrə əlavə investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

Sərişтələrin tanınması və işə qəbul zamanı peşə ixtisas təhsili sənədinin icbariliyi ilə bağlı müvafiq normativ hüquqi sənədin qəbul edilməməsi əsas risk yaradan faktor ola bilər.

7.5.2. Prioritet 5.2. Məlumatların şəffaf monitorinqinin və vahid bazasının təmin edilməsi

Əsaslandırma

Hazırda Azərbaycanda peşə təhsili və təlimi sistemi və bu sistemin fəaliyyəti, tədris edilən peşə ixtisasları, icra göstəricilərinə əsaslanan qiymətləndirmə nəticələri, peşə seçimi və karyera imkanlarına dair digər aidiyyəti məlumatlarla bağlı mərkəzləşdirilmiş və səhih məlumat bazası mövcud deyildir. Sistemsiz şəkildə toplanmış məhdud həcmli məlumatlar isə çoxsaylı məlumat platformaları arasında yayılmaqla, potensial tələbələrə müvafiq peşə təhsili və təlimi müəssisəsinin seçilməsində müxtəlif mənbələrdə axtarış aparmaq məcburiyyəti yaradır, seçim prosesinin səmərəliliyini əhəmiyyətli dərəcədə aşağı salır. İxtisaslar üzrə məlumatlar, əldə olunacaq bacarıqların təsviri, işəgötürənlər, məzunların işlə təminat imkanları, ixtisaslar üzrə əməkhaqqı və s. barədə məlumatların olmaması şagirdlər, valideynlər, işəgötürənlər və təhsil müəssisələri tərəfindən müəyyən qərarların verilməsində çətinliklər yaradır (şəkil 7).

Şəkil 7. Peşə təhsili ilə bağlı məlumat infrastrukturu

Kateqoriya	Təsviri	Məlumat mövcuddurmu?
Təcrübəçi	Qeydiyyat səviyyəsi (Proqram və müəssisə üzrə)	✓
	Təhsildən imtina edənlərin sayı (Proqram və müəssisə üzrə)	✗
	Məzunların sayı (Proqram və müəssisə üzrə)	✓
	Proqram üzrə iş təlimləri	✓
	Hər bir tələbə üzrə xərclər	✓
Məzunların izlənilməsi və yerləşdirilməsi	İşəgötürənlər və ya sektorlar üzrə yerləşmə	✓
	Hər bir məzun üzrə xərclər	✓
	Məzunların profili və əlaqə məlumatları	✗
	Məzunların məşğulluğunun izlənmə səviyyəsi	✗
	12 aydan sonra işə götürülənlərin faizi	✗
	İş tapmaq üçün sərf olunan orta zaman müddəti	✗
	Universitet məzunları ilə peşə təhsili məzunlarının əməkhaqlarında fərq	✗
	Orta əməkhaqqı səviyyəsindən yüksək əməkhaqqı alan məzunların faizi	✗
Müəssisənin infrastrukturu və heyəti	Müəssisənin infrastrukturunun statusu	✓
	Müəllimlərin kvalifikasiyaları və idarəetmə şurasının profili	✗
Bilik və bacarıqlar üzrə tələblər	İşəgötürənlərin məmnunluğu	✗
	Peşə təhsili orqanları və müəssisələrinin sənaye ilə əlaqələri	✓
	Tərəfdaşlığın dəyişdirilməsi	✓
	İşəgötürən və sektor tərəfindən spesifik tələblər	✓
Əməletmənin monitorinqi	Əməletmə vəziyyəti, məsələn tələbə və müəllimlərin davamiyyəti	✗
	Keyfiyyətə təminat	✗

Peşə təhsili və təlimi sisteminin fəaliyyətinə dair müasir informasiya-kommunikasiya texnika və texnologiyalarından geniş istifadə edilməsi, mütəmadi müzakirə və məsləhətləşmələrin təşkili, bu sahədə olan yeniliklərin kütləvi informasiya

vasitələri, internet və sosial şəbəkə yolu ilə ictimaiyyətə və geniş istifadəçi auditoriyasına çatdırılması bir tərəfdən ictimaiyyətdə peşə təhsili sahəsində olan təsəvvürlərin müsbət istiqamətdə dəyişməsinə zəmin yarada, digər tərəfdən isə iş və karyera imkanlarının inteqrasiyası vasitəsilə peşə təhsili məzunlarının əmək bazarına çıxış imkanlarına təkan verə bilər.

Peşə təhsili sisteminin bütün iştirakçılarının eyni məlumat bazasında toplanması, müvafiq məlumatların və bu məlumatlar üzrə aparılmış analitik təhlillərin həmin bazada cəmləşməsi mühümdür. Bundan əlavə, toplanmış məlumatların dəqiqliyini, şəffaflığını və tutarlılığını təmin etmək üçün vahid koordinasiya mərkəzinin yaradılması, yığılacaq statistik məlumatların xarakterinə, həcminə və dərc ediləcək məlumatların məzmununun müəyyən edilməsinə bu koordinasiya mərkəzi tərəfindən nəzarətin təmin edilməsi zəruridir.

Görüləcək tədbirlər

Tədbir 5.2.1. Mövcud məlumat infrastrukturunun təhlili

Təhsil Nazirliyi peşə təhsili müəssisələrində mövcud məlumat infrastrukturunu təhlil edib müvafiq normativ hüquqi bazanın yaradılması üçün zəruri tədbirlər görəcəkdir.

Tədbir 5.2.2. Məlumat bazasının yaradılması

Təhsil Nazirliyi peşə təhsili sistemində təhsilin keyfiyyətinin yüksəldilməsi və əmək bazarının ehtiyaclarının daha yaxşı qarşılanması üçün məlumatların toplanması, emalı və təhlili məqsədilə müvafiq təşkilatların təqdim etdiyi məlumat və hesabatlar əsasında məlumat bazası yaradacaqdır. Eyni zamanda, bu məlumat bazasının ümumi təhsil məlumat infrastrukturuna inteqrasiyası təmin ediləcəkdir.

Tədbir 5.2.3. Peşə təhsili sistemi üzrə məlumatları əks etdirən internet səhifəsinin yaradılması

Növbəti mərhələdə Təhsil Nazirliyi peşə təhsili müəssisələrinin məzunları üçün iş imkanlarını əks etdirən və məlumatların ictimaiyyətə çatdırılmasını, şəffaflıq və asan istifadəni təmin edən internet səhifəsi yaradacaqdır. Sərişdə və bacarıqların qiymətləndirilməsi istisna olmaqla, bütün sənədləşmə prosedurları elektron qaydada internet səhifəsi vasitəsilə həyata keçiriləcəkdir. Bu səhifənin ictimaiyyət tərəfindən geniş şəkildə istifadəsinin asanlaşdırılması üçün Təhsil Nazirliyi açıqlanacaq məlumat növlərinə və bu məlumatların təfsilatlarına dair qərar verəcək, məlumatların səhifədə dərcedilmə vaxtını müəyyən edəcəkdir. Təhsil Nazirliyi peşə təhsili müəssisələrinin təqdim etdiyi məlumatların dəqiqliyini təmin etmək üçün audit və yoxlama mexanizmlərinə dair qərar verəcək və əmək bazarında baş verən dəyişiklikləri başa düşmək üçün aidiyyəti qurumların təqdim etdiyi məlumatlar əsasında müntəzəm təhlillər aparacaqdır. Bu təhlillərin nəticələrinə əsasən, işçi qüvvəsinə olan tələbatdakı dəyişikliklərin ictimaiyyətə açıqlanması həmin sahələr üzrə təhsilalanların sayını stimullaşdıra bilər.

Tədbir 5.2.4. İnternet səhifəsi ilə bağlı ictimai məlumatlılığın təmin edilməsi

Təhsil Nazirliyi daha sonra internet səhifəsi barədə ictimai məlumatlılığın artırılması məqsədilə müvafiq tədbirlər həyata keçirəcəkdir. İnternet səhifəsinə dair məlumatlar video, televiziya proqramları və işəgötürənlərlə müsahibələr vasitəsilə ictimaiyyətə çatdırılacaqdır. Tərtibatda müvafiq təkmilləşdirmə işlərinin görülməsi, eləcə də məlumatların yenilənməsi üçün səhifəyə davamlı şəkildə nəzarət ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin real ÜDM-ə birbaşa təsiri olmasa da, digər prioritetlər üzrə müsbət nəticələrin əldə edilməsində mühüm yardımçı vasitə rolunu oynayacaqdır. Bu prioritet çərçivəsində təxminən 10 yeni iş yerinin yaradılması proqnozlaşdırılır.

Tələb edilən investisiya

Bu prioritet üzrə peşə təhsili müəssisələrində lazımi informasiya texnologiyaları infrastrukturunun qurulmasına və internet səhifəsinin yaradılmasına 700 min manat həcmində investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- müvafiq dövlət qurumlarının və işəgötürənlərin məlumatları dəqiq və vaxtında təqdim etməməsi;
- məlumat bazası ilə bağlı fəaliyyətin əlaqələndirilməsi və icrasında digər dövlət qurumlarının və işəgötürənlərin maraqlı olmaması;
- peşə təhsili müəssisələri üçün əlavə inzibati yükün yaranması;
- təhlillərin və qiymətləndirmənin nəticələrinə uyğun tədbirlərin həyata keçirilməməsi.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 190 milyon 950 min manat investisiya tələb olunur. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri və qrantlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımları;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitinin müəyyən edilmiş strateji hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflərlə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin, tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimi və tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şəraiti yaradacaq, tələb olunduqda kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu *(“delivery unit”)* müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkil olunmasının təmin edilməsinə və zəruri hallarda, əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda, mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.
- İcraya rəhbərlik olunması, eləcə də tələb olunan resurslara və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün prioritetlər üzrə

təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurla tətbiq olunması üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb olunması tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədilə, özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlarla işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.
- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti və beyin mərkəzləri səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlilini və qiymətləndirilməsini, həmçinin, işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar / Tövsiyə	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. İşəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası					
1.1. İşəgötürənlərlə tərəfdaşlığın qurulması					
1.1.1.	Əmək bazarında strateji məşğulluq sahələrinin müəyyən edilməsi və kadr tələbatının proqnozlaşdırılması	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası	• 2020-ci ildə real ÜDM-in 1 milyon manat artması; • 10 müxtəlif istiqamətli pilot peşə təhsili müəssisəsinin təşkili;	2017–2018
1.1.2.	Peşə təhsili və təlimi müəssisələrinin mövcud vəziyyətinin hərtərəfli araşdırılması və optimallaşdırılması ilə bağlı tədbirlər planının hazırlanması	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Turizm Nazirliyi, Naxçıvan Təhsil Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, “Azərişıq” ASC	• pilot peşə təhsili müəssisələrinin məzunlarının məşğulluq səviyyəsinin 6 ay ərzində 50 faizə çatdırılması; • pilot peşə təhsili müəssisələrində təhsilalanların sayının 50 faiz artması; • peşə təhsilinə cəlb	2017
1.1.3.	İri sənaye mərkəzlərində və regionlarda optimallaşdırma prosesinin həyata keçirilməsi	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi		2018
1.1.4.	Pilot peşə təhsili müəssisələrinin qurulması	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,		2017–2018

			Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	edilmiş həssas əhali qruplarından olan uşaqların sayının peşə təhsili üzrə təhsilalanların ümumi sayında payının 5 faizdən çox olması.	
1.1.5.	Pilot peşə təhsili müəssisələrində işəgötürənlərlə tərəfdaşlıq mexanizminin qurulması, peşə standartları və kurikulumların işlənilməsi	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2017–2020
1.1.6.	Pilot peşə təhsili müəssisələri haqqında ictimai məlumatlılığın təmin edilməsi və qəbulun aparılması	Təhsil Nazirliyi	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi		2018–2020
1.1.7.	Tərəfdaşlıq proqramları üzrə monitorinq və nəzarətin təşkili	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2017–2020

1.1.8.	Tərəfdaşlıq proqramlarının səmərəliliyi ilə bağlı məlumatların ictimaiyyətə açıqlanması	Təhsil Nazirliyi	Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi		2018–2020
1.1.9.	Pilot peşə təhsili müəssisələrində tətbiq olunan peşə standartlarının və təhsil proqramlarının (kurikulumların) digər peşə təhsili müəssisələrində tətbiqi	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2020
1.2.	***Peşə təhsili sisteminə ixtisaslı yeni mütəxəssislərin cəlb edilməsi***				
1.2.1.	Peşə təhsili müəssisələrinin mövcud müəllim-pedaqoji heyətinin diaqnostik qiymətləndirilməsi, onların bilik və bacarıqlarının artırılması	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası	• 2020-ci ildə real ÜDM-in 2 milyon manat artması; • 264 nəfər mütəxəssisin və 176 nəfər ezam olunmuş ştatdankənar müəllimin peşə təhsilinə cəlb olunması nəticəsində ümumilikdə 195, bilavasitə peşə təhsili sektorunda isə 176 yeni iş yerinin yaradılması.	2017–2019
1.2.2.	Yeni müəllim heyətinin peşə təhsili və təlimi prosesinə cəlb edilməsi ilə bağlı tədbirlərin müəyyənləşdirilməsi	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2017–2019
1.2.3.	İstehsalat təcrübəsinə malik	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial		2018–2020

	yeni pedaqoji kadrların seçilməsi və müvafiq təlimlərin təşkili		Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		
1.2.4.	Yeni pedaqoji heyətin fəaliyyətinin monitorinqinin aparılması	Təhsil Nazirliyi	*Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2018–2020
1.3. Peşə təhsili sistemində idarəetmənin təkmilləşdirilməsi					
1.3.1	Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası			2016 icra edilib
Strateji hədəf 2. Nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin yaradılması					
2.1. Peşə təhsili sisteminin gələcək inkişafını təmin etmək üçün əlavə dövlət, özəl və beynəlxalq maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi					
2.1.1.	Peşə təhsili müəssisələrində istehsal olunan məhsul və xidmətlərin satışı ilə əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi və seçilmiş pilot peşə təhsili	Təhsil Nazirliyi	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 2 milyon manat artması; • hər tələbə üçün ayrılan vəsaitin	2018–2020

	müəssisələrinin istehsal imkanları üzrə qiymətləndirmənin həyata keçirilməsi			məbləğinin təhsil müəssisələrində 20 faiz artması; • peşə təhsili müəssisələrinin ən azı 65 faizinin proqramda iştirakı; • məktəblərin orta hesabla hər bir tələbə üzrə əlavə olaraq 105 manat illik gəlir gətirməsinin təmin edilməsi.	
2.1.2.	Peşə təhsili müəssisələrində istehsalı nəzərdə tutulan məhsul və xidmət sahələrinin, həmin məhsul və xidmətlər üzrə minimum standartların müəyyən edilməsi	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi		2018–2020
2.1.3.	Büdcədənkənar vəsaitlərin idarə olunması və monitorinqi sisteminin hazırlanması	Təhsil Nazirliyi	Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2018–2020
2.1.4.	Peşə təhsili müəssisələrində istehsal edilən məhsul və xidmətlərin satışının təşkili	Təhsil Nazirliyi	*Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2018–2020
2.1.5.	Peşə təhsili müəssisələrində satış məqsədli istehsal fəaliyyətinin	İqtisadiyyat Nazirliyi	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. *Tövsiyə edilir:*		2019–2020

	qiymətləndirilməsi		Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		
2.1.6.	Alternativ maliyyələşdirmə mənbələrinin müəyyən edilməsi	Təhsil Nazirliyi	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2018–2020
2.2. Fəaliyyətin nəticələrinə əsaslanan həvəsləndirmə mexanizmlərinin tətbiqi					
2.2.1.	Peşə təhsili müəssisələri üzrə əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi	Təhsil Nazirliyi		• real ÜDM-ə birbaşa təsiri gözlənilmir; • pilot peşə təhsili müəssisələrinin müəllim-pedaqoji heyətinin əməkhaqlarının iki dəfəyədək artırılması.	2017–2019
2.2.2.	Nəticələrə əsaslanan maliyyələşmə sisteminin yaradılması	Nazirlər Kabineti	Maliyyə Nazirliyi Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2018–2020
2.2.3.	Nəticələrə əsaslanan maliyyələşmə sisteminin davamlı monitorinqinin təşkili	Təhsil Nazirliyi	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2018–2020
Strateji hədəf 3. Məqsədli peşə inkişafı proqramlarının yaradılması					

3.1. Yaşlılar üçün peşə təliminin və ixtisasartırmanın təmin edilməsi					
3.1.1.	Peşə təhsili müəssisələrində yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili ilə bağlı müvafiq qanunvericilik bazasının yaradılması	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 1 milyon manat həcmində artması; • yaşlılar üçün kursların iştirakçılarının sayının illik artım tempinin 17 faizə çatdırılması; • ümumilikdə 177, bilavasitə peşə təhsili sektorunda isə 140 yeni iş yerinin yaradılması.	2017
3.1.2.	Yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili ilə bağlı aidiyyəti tərəflərlə müzakirələrin aparılması	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2017–2019
3.1.3.	Yaşlıların təhsili və ixtisasartırma kurslarının təşkili mexanizminin hazırlanması	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi		2017–2019
3.1.4.	Kurslarda keyfiyyətin monitorinqinin təşkili	Təhsil Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi		2018–2020
Strateji hədəf 4. Sektorlar üzrə spesifik proqramların yaradılması					
4.1. Kiçik və orta sahibkarlıq subyektləri üçün model müəssisələrin yaradılması və sahibkar düşüncə tərzinin təşviqi istiqamətində peşə təhsili və təlimi müəssisələrinin fəaliyyətinin təşkili					
4.1.1.	Peşə təhsili müəssisələri ilə model müəssisələr arasında əməkdaşlığın qurulması	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar	Bu prioritetin təsirləri müvafiq sektor üzrə Strateji Yol Xəritəsində qeyd edilmişdir.	2018–2020

			(İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		
4.1.2.	Peşə təhsili sistemində sahibkar düşüncə tərzinin təşviqi	Təhsil Nazirliyi	*Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2017–2020
4.2. Sektorlar üzrə tələblərin qarşılanmasına dəstək verilməsi					
4.2.1.	Sektorlar üzrə ümumi tələblərin qarşılanmasına dəstək verilməsi	Təhsil Nazirliyi	*Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası	Bu prioritetin təsirləri müvafiq sektorlar üzrə strateji yol xəritələrində qeyd edilmişdir.	2017–2020
4.2.2.	Sektorlar üzrə spesifik tələblərin qarşılanmasına dəstək verilməsi	Təhsil Nazirliyi	Kənd Təsərrüfatı Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2017–2020
Strateji hədəf 5. Peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi					

5.1. İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması					
5.1.1	İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizminin hazırlanması	Nazirlər Kabineti	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası	• ölkədə əmək bazarına daxil olan ixtisaslı kadrların sayının artması.	2017–2018
5.1.2	İşə qəbul zamanı peşə ixtisasını təsdiq edən sənədin tələb edilməsinin hüquqi bazasının formalaşdırılması	Nazirlər Kabineti	Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		2019–2020
5.2. Məlumatların şəffaf monitorinqinin və vahid bazasının təmin edilməsi					
5.2.1.	Mövcud məlumat infrastrukturunun təhlili	Təhsil Nazirliyi	Dövlət Statistika Komitəsi	• Real ÜDM-ə birbaşa təsiri gözlənilmir; • təxminən 10 yeni iş yerinin yaradılması.	2017–2018
5.2.2.	Məlumat bazasının yaradılması	Təhsil Nazirliyi	Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və		2017–2018

			Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi. *Tövsiyə edilir:* Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası		
5.2.3.	Peşə təhsili sistemi üzrə məlumatları əks etdirən internet səhifəsinin yaradılması	Təhsil Nazirliyi	Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi		2018
5.2.4.	İnternet səhifəsi ilə bağlı ictimai məlumatlılığın təmin edilməsi	Təhsil Nazirliyi	Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi		2018–2020

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 700

2. QLOBAL TRENDLƏR 703

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 704

3.1. Maliyyə xidmətləri sektorunun mövcud vəziyyəti 704

3.2. Maliyyə xidmətləri sektorunun GZİT təhlili 707

4. STRATEJİ BAXIŞ 708

4.1. 2020-ci ilədək strateji baxış 708

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 708

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 709

5. HƏDƏF İNDİKATORLARI 711

6. STRATEJİ MƏQSƏDLƏR 711

7. STRATEJİ HƏDƏFLƏR 712

7.1. Strateji hədəf 1. Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması 712

7.1.1. Prioritet 1.1. Bank sisteminin kapitallaşması və likvidliyinin təmin edilməsi 712

7.1.2. Prioritet 1.2. Qeyri-işlək aktivlərin restrukturizasiya planının hazırlanması 717

7.1.3. Prioritet 1.3. Sığorta bazarının inkişafı 718

7.1.4. Prioritet 1.4. Maliyyə inklüzivliyinin gücləndirilməsi 721

7.2. Strateji hədəf 2. Maliyyə bazarlarının inkişafı 723

7.2.1. Prioritet 2.1. Emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması 724

7.2.2. Prioritet 2.2. İnvestorların maliyyə bazarlarına çıxış imkanlarının artırılması 726

7.2.3. Prioritet 2.3. Banklararası pul bazarında aktivliyin artırılması 728

7.3. Strateji hədəf 3. İnfrastrukturun gücləndirilməsi 729

7.3.1. Prioritet 3.1. Kredit məlumatlarının mübadiləsi sisteminin təkmilləşdirilməsi 729

7.3.2. Prioritet 3.2. Hüquqi çərçivəyə yenidən baxılması, məhkəmə qərarlarının qəbulu və icrası proseslərinin sürətləndirilməsi 731

7.4. Strateji hədəf 4. Tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi 732

7.4.1. Prioritet 4.1. Banklarda daha sağlam risk idarəetməsinin təmin edilməsi 733

7.4.2. Prioritet 4.2. Maliyyə xidmətləri sektorunda konsolidasiya edilmiş riskəsaslı nəzarət modelinin tətbiqi 735

7.4.3. Prioritet 4.3. Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi 737

7.4.4. Prioritet 4.4. Maliyyə xidmətləri sektorunun hesabatlılığında şəffaflığın artırılması 738

7.4.5. Prioritet 4.5. Sığorta fəaliyyətini tənzimləmə və ona nəzarət mexanizminin gücləndirilməsi 739

7.5. Strateji hədəf 5. Maliyyə bazarı iştirakçılarının bilik və bacarıqlarının artırılması 740

7.5.1. Prioritet 5.1. Maliyyə sektorunda çalışan mütəxəssislərin bilik və bacarıqlarının təkmilləşdirilməsi 741
7.5.2. Prioritet 5.2. İstehlakçıların maliyyə savadlılığının artırılması və hüquqlarının müdafiəsinin gücləndirilməsi 742
8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 744
9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 745
10. TƏDBİRLƏR PLANI 747


1. QISA XÜLASƏ

Azərbaycan Respublikası Prezidentinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icra edilməsi məqsədilə “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi” (bundan sonra – Strateji Yol Xəritəsi) hazırlanmışdır.

Bu Strateji Yol Xəritəsi qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır. Sənəd maliyyə xidmətləri sektorunun çevikliyi, rəqabətqabiliyyətliliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi prinsipləri əsasında hazırlanmışdır.

Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Strateji Yol Xəritəsində müəyyən edilmiş məqsədlərə çatmaq üçün 2020-ci ilədək 5 strateji hədəf və 16 prioritet hazırlanmışdır.

Şəkil 1. Strateji Yol Xəritəsinin reallaşdırılması üçün müəyyən edilən strateji hədəflər



Strateji hədəf 1. Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması

2015-ci ildən etibarən xarici iqtisadi şoklar və milli valyutanın devalvasiyası şəraitində maliyyə sisteminin risk həssaslığı artmış və maliyyə göstəriciləri pisləşmişdir. Artan risklər fonunda bəzi maliyyə institutlarının dayanıqlı və uzunmüddətli hədəflərə fokuslanmış biznes modeli və strategiyasının olmaması, habelə bəsit risk idarəetməsi maliyyə sisteminin yeni iqtisadi konyunktura və bazar şərtlərinə uyğunlaşmasını çətinləşdirmiş və maliyyə vasitəçiliyini məhdudlaşdırmışdır. Yeni çağırışların həlli istiqamətində bankların restrukturizasiyası və kapitallaşması, aktivlərin sağlamlaşdırılması, sığorta bazarının inkişafı, maliyyə inklüzivliyinin gücləndirilməsi istiqamətində tədbirləri əks etdirən strateji hədəflər müəyyən edilmişdir.

Strateji hədəf 2. Maliyyə bazarlarının inkişafı

Maliyyə bazarlarında investor və emitentlərin aktivliyi məhduddur. Potensial investorların və emitentlərin kapital bazarı və maliyyə alətləri haqqında məlumatlarının az olması, informasiya asimmetriyası və ənənəvi təksahiblik düşüncə tərzi kimi amillər qiymətli kağızlar bazarının inkişafını məhdudlaşdırır, iqtisadiyyatda maliyyə resurslarının qeyri-səmərəli bölüşdürülməsinə səbəb olur. Məhdudlaşdırıcı amillərin aradan qaldırılması məqsədilə kapital və pul bazarının inkişafı, bazar iştirakçıları üçün əlverişli mühitin yaradılması istiqamətində strateji hədəflər müəyyən edilmişdir.

Strateji hədəf 3. İnfrastrukturun gücləndirilməsi

Kreditorların hüquqlarının müdafiəsi və öhdəliklərin yerinə yetirilməsi üzrə məhkəmə sistemi və icra mexanizmləri, habelə kredit məlumatlarının mübadiləsi infrastrukturu maliyyə sisteminin yeni çağırışlara effektiv uyğunlaşmasını dəstəkləmir. İnfrastrukturun təkmilləşdirilməsi məqsədilə kredit məlumatlarının mübadiləsi sisteminin inkişafı, kreditorların hüquqlarının müdafiəsi üzrə işlək mexanizmlərin yaradılması, məhkəmə qərarlarının standartlaşdırılması və icra intizamının yaxşılaşdırılmasına yönəlmiş strateji hədəflər müəyyən edilmişdir.

Strateji hədəf 4. Tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi

Mövcud iqtisadi mühitdə maliyyə institutlarının risklərə həssaslığının artması və yeni risk zonalarının yaranması sektorda risklərin idarə edilməsi təcrübələrinin təkmilləşdirilməsini zəruri etmişdir. Maliyyə institutlarında sağlam risk idarəetməsi proseslərini və rəqəmsal transformasiyanı təşviq edən yeni tənzimləmə və nəzarət arxitekturasının formalaşdırılması üzrə strateji hədəflər müəyyən edilmişdir.

Strateji hədəf 5. Maliyyə savadlılığının yüksəldilməsi

Maliyyə sistemində çalışanların bilik və bacarıqlarının keyfiyyətcə yeni müstəviyə qalxması, habelə maliyyə xidmətləri istehlakçılarının maliyyə savadlılığının artırılması sağlam, etibarlı, dayanıqlı və effektiv maliyyə sisteminin formalaşdırılmasını dəstəkləyə bilər. Buna nail olmaq məqsədilə maliyyə sistemi mütəxəssislərinin ixtisaslaşmasının dərinləşməsi və maliyyə savadlılığının artırılmasına yönəlmiş strateji hədəflər müəyyən edilmişdir.

Cədvəl 1. Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələr

№	Prioritetin adı	Real ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(tam ştatlı işçilər, 2020)*	İnvestisiya məbləği *(milyon manatla)*
1.1.	Bank sisteminin kapitallaşması və likvidliyinin təmin edilməsi	130	-	-
1.3.	Sığorta bazarının inkişafı	125	1600	-
2.1.	Emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması	125	-	10
3.1.	Kredit məlumatlarının mübadiləsi sisteminin təkmilləşdirilməsi	-	-	5
4.1.	Banklarda daha sağlam risk idarəetməsinin təmin edilməsi	235	-	-
4.3.	Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi	135	-	100

Qeyd 1. Bu cədvəldə yalnız 2020-ci ildə real ÜDM-də 10 milyon manatdan çox artıma və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.

Qeyd 2. Bu rəqəmlər prioritetlərin təsiri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli təhlillərin aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 115 milyon manat investisiya tələb olunur ki, nəticədə 2020-ci ildə iqtisadiyyatda təxminən 750 milyon manat əlavə dəyərin yaranması gözlənilir. Bütövlükdə, müəyyən edilmiş kompleks tədbirlərin effektiv realizasiyası bütün müştəri qruplarını genişçeşidli maliyyə xidmətləri ilə təmin edən dayanıqlı, sağlam və tarazlaşmış maliyyə sisteminin formalaşdırılmasına zəmin yaradacaqdır.

2. QLOBAL TRENDLƏR

Dünya iqtisadiyyatının transformasiyası və informasiya texnologiyalarının sürətli inkişafı kimi amillər qlobal maliyyə sistemində yeni meyillərin yaranmasını şərtləndirmişdir. Bu yeni meyillər əsasən prudensial tənzimləmə və nəzarətin güclənməsi, maliyyə xidmətlərinin rəqəmsallaşması, alternativ bankçılığın genişlənməsi, əhalinin davranış modellərinin dəyişməsi, yeni bilik və bacarıqlara tələblərin artması və maliyyə institutlarının əməliyyat modellərinin dəyişməsi istiqamətində müşahidə olunmuşdur.

Prudensial tənzimləmə və nəzarət yanaşmasının dəyişməsi

Dünya iqtisadiyyatında gedən son proseslər maliyyə sektorunun dinamik iqtisadi artım üçün vacibliyini bir daha təsdiq etmiş, prudensial tənzimləmə və nəzarət baxışını dəyişmişdir. Tənzimləmə və nəzarət sektorun bir tərəfdən sabitliyini və sistem risklərinin azaldılmasını, digər tərəfdən isə dinamik və səmərəli inkişafını dəstəkləməlidir. Bu məqsədlə 2008-ci ildən etibarən tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi üzrə qlobal təşəbbüslər intensivləşmiş, nəzarət alətlərinin çeşidi genişlənmiş, habelə makroprudensial tənzimləmənin əhəmiyyəti artmışdır.

Bank sektorunun riskləri absorbsiyaetmə potensialının gücləndirilməsi istiqamətində irəli sürülən təşəbbüslərin mərkəzi komponenti Bazel III tənzimləmə çərçivəsidir. Bazel III kapitala dair tələbləri sərtləşdirmiş və likvidlik risklərinin idarə edilməsi üzrə yeni alətlər müəyyən etmişdir. Eyni zamanda, sistem risklərinin idarə edilməsi və təsirlərinin yumşaldılması məqsədilə kontrtsiklik kapital buferinin yaradılması və sistem əhəmiyyətli banklar üçün diferensial tənzimləmə tələbləri müəyyən olunmuşdur.

Maliyyə institutlarının sağlamlaşdırılması prosesində dövlət vəsaitlərindən istifadənin minimuma endirilməsi məqsədilə maliyyə institutlarının sağlamlaşdırılması və restrukturizasiyası çərçivəsi formalaşdırılmış, daha effektiv alətlərin tətbiqinə başlanılmışdır.

Maliyyə sektoruna nəzarətin təşkilində konsolidasiya olunmuş və riskəsaslı yanaşma prinsiplərinin daha geniş tətbiqi müşahidə olunur. Bu zaman nəzarət orqanları tərəfindən maliyyə institutlarının biznes modelləri və strategiyaları daha dərindən qiymətləndirilir və preventiv qaydada nəzarət tədbirləri həyata keçirilir. Bankların ödəmə qabiliyyətini itirməsinə görə bank rəhbərlərinin və səhmdarlarının şəxsi məsuliyyəti üzrə hüquqi çərçivənin formalaşdırılmasına başlanılmışdır.

Maliyyə xidmətlərinin rəqəmsallaşmasının və informasiya tutumluluğunun artması

Texnoloji imkanların genişlənməsi maliyyə institutlarının müştərilərlə münasibətlərini yeni keyfiyyət müstəvisinə yüksəltmiş, ənənəvi biznes modellərinin modernləşdirilməsi üçün əlavə stimullar yaratmış və yeni bazarların formalaşmasına təkan vermişdir. İnternet və mobil rabitədən istifadənin genişlənməsi ənənəvi maliyyə xidmətlərinin alternativ kanallarla və yeni bazar iştirakçıları tərəfindən daha aşağı xərc və yüksək sürətlə təklif edilməsi imkanlarını artırmışdır. Böyük istifadəçi auditoriyasına malik sosial şəbəkələr maliyyə xidmətləri istehlakçılarına banka müraciət etmədən birbaşa maliyyələşmə imkanı yaradan platformalar təqdim edir.

Proseslərin avtomatlaşdırılması, müştəriyönümlü olması və risklərin ölçülməsi üzrə tələblərin artması ilə əlaqədar müştəri haqqında getdikcə daha geniş məlumatlar toplayan kredit bürolarının yaranması və bu bürolara dövlət və maliyyə institutlarından əlavə, qeyri-ənənəvi – rabitə, kommunal, topdan və pərakəndə ticarətlə məşğul olan şirkətlərin inteqrasiyası müşahidə olunur.

Alternativ bankçılıq kanallarının genişlənməsi

Banklar üzərində tənzimləmə mexanizminin daha da sərtləşməsi onların maliyyə bazarlarının digər iştirakçıları ilə müqayisədə rəqabətqabiliyyətliliyini azaldır və alternativ bankçılığın cəlbediciliyini artırır. Tənzimləmə yükü daha az olan maliyyə institutları ənənəvi olaraq bankçılığa xas olan sahələrdə fəaliyyətini aktivləşdirərək yeni imkanlar və təhdidlər yaradırlar.

Əhalinin davranış modellərinin dəyişməsi

Maliyyə institutlarına qarşı fərqli gözləntiləri və kommunikasiya üsulları olan, real vaxt rejimində (onlayn) və sosial şəbəkələrə bağlı, ənənəvi müştəri loyallığı nümayiş etdirməyən yeni gənc müştəri seqmentləri meydana gəlir. Orta yaşlı müştəri və təqaüdçülərin də tələbləri və davranışları dəyişir. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrdə orta və yüksəkgəlirli təbəqənin artması maliyyə institutları üçün potensial biznes imkanları yaradır.

Yeni bilik və bacarıqlara tələblərin artması

Tənzimləyici qurumların risklərin idarə olunmasına dair tələblərinin sərtləşməsi risk analitiklərinin və bu sahədə çalışan digər mütəxəssislərin peşəkar keyfiyyətlərinə dair tələbləri artırmışdır. Mövcud vəziyyət yeni mütəxəssislərin cəlb edilməsini və mövcud mütəxəssislərin peşəkarlığının artırılmasını zəruri edir. Eyni zamanda, maliyyə xidmətləri istehlakçılarının rasional davranışı və məsuliyyətli borclanması üçün maliyyə savadlılığının yüksəldilməsi istiqamətində təşəbbüslər artmışdır.

Maliyyə institutlarının əməliyyat modelinin dəyişməsi

Tənzimləmə yükünün artması maliyyə institutlarının ənənəvi əməliyyat strukturuna təzyiqləri artırmış və genişçeşidli, müxtəlif müştəri qruplarına xidmət göstərən universal bankçılıq modelinin saxlanılması imkanlarını məhdudlaşdırmışdır. Nəticədə, maliyyə institutlarının müştəri və məhsul seqmentləri üzrə ixtisaslaşması zərurəti yaranmışdır.

İnkişaf etməkdə olan ölkələrdə sığorta bazarının yüksək inkişaf potensialı

Qlobal miqyasda sığorta bazarının artacağı və buna həm həyat, həm də qeyri-həyat sığortasının töhfə verəcəyi gözlənilir. İnkişaf etməkdə olan ölkələrdə sığorta penetrasiyası (sığorta haqlarının ÜDM-ə nisbəti) səviyyəsinin aşağı, ÜDM-in artım tempinin yüksək olması bu ölkələrdə sığorta bazarının artım tempinin daha yüksək olmasına imkan verəcəkdir. İnkişaf etməkdə olan bazarlarda xüsusən də həyat sığortasının ikirəqəmli inkişaf tempinə malik olması gözlənilir.

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Maliyyə xidmətləri sektorunun mövcud vəziyyəti

2004-2014-cü illərdə neft gəlirlərinin artması fonunda qeyri-neft sektorunda həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan qlobal miqyasda sürətli iqtisadi artım tempinə malik ölkələr sırasına daxil olmuşdur. Müşahidə olunan iqtisadi artım iqtisadiyyatın digər sektorları ilə bərabər maliyyə sisteminə də müsbət töhfə vermişdir.

Ötən dövr ərzində effektiv maliyyə sisteminin formalaşması və institusional inkişafı istiqamətində davamlı islahatlar aparılmış, maliyyə sisteminin quruculuq işləri həyata keçirilmişdir. Maliyyə bazarlarının tənzimlənməsi üzrə normativ hüquqi baza hazırlanmış və onun beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində işlər aparılmışdır. Maliyyə bazarlarının müxtəlif seqmentlərində müasir əməliyyat sistemlərinin tətbiqinə başlanılmışdır.

Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) məlumatına əsasən, dövr ərzində bank kreditləşməsinin ortaillik artım tempi təxminən 30 faiz olmuşdur. Sektorun rentabelliyinin artması və məcmu kapitala dair tələblərin sərtləşdirilməsi daxili və xarici kapital qoyuluşlarının artmasını, kapital buferinin əhəmiyyətli dərəcədə böyüməsini şərtləndirmişdir. AMB-nin məlumatına əsasən, 2014-cü ilin sonuna məcmu kapital 4,3 milyard manat olmaqla, ÜDM-in 7,3 faizini təşkil etmişdir.

Dünya bazarında neft qiymətlərinin 2014-cü ilin ikinci yarısından başlayaraq ucuzlaşması Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməmişdir. Neft gəlirlərinin azalması nəticəsində ölkəyə daxil olan xarici valyuta axınları azalmış və xarici valyutaya inersiyon tələbin valyuta təklifini üstələməsi manatın məzənnəsinə olan təzyiqi yüksəltmişdir. Valyuta bazarında vəziyyətin tarazlaşdırılması, tədiyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlılığının təmin edilməsi üçün 2015-ci ildə iki devalvasiya həyata keçirilmişdir. Birinci devalvasiyadan sonra depozit və kredit portfelinin dollarlaşması baş verdiyi halda, ikinci devalvasiyadan sonra maliyyə vəsaitlərinin bank sistemindən kənarlaşması müşahidə olunmuşdur. Ümumi iqtisadi artımın zəifləməsi fonunda bank sektorunda uzun müddət müşahidə olunan aktivlik azalmışdır.

Borcalanların ödəmə qabiliyyətinin zəifləməsi kredit risklərinin artmasını şərtləndirmişdir. Mövcud risklərin idarə edilməsi, o cümlədən borcalanların borc yükünün azaldılması məqsədilə banklar kreditlərin restrukturizasiyasına başlamışdır. Görülmüş tədbirlərin müəyyən müsbət nəticələri olsa da, makroiqtisadi qeyri-müəyyənliklərin davam etməsi bankların kredit riskləri üzrə ehtiyatlanma xərclərini yüksəltmişdir. Nəticədə, iqtisadi artım dövründə yaradılmış kapital yastığının bir hissəsi itirilmiş, məcmu kapitalın adekvatlıq əmsalı müəyyən olunmuş minimum normativlərə yaxınlaşmış və AMB-nin məlumatına əsasən, 2015-ci ildə ötən illə müqayisədə 4,2 faiz bəndi azalaraq 14,7 faiz təşkil etmişdir.

Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) məlumatına əsasən, maliyyə sisteminin digər seqmenti olan sığorta bazarında 2010-2015-ci illərdə ortaillik artım tempi 20 faiz təşkil etmişdir. 2015-ci ildə Azərbaycanda sığorta haqlarının həcmi artaraq 444 milyon manat olmuşdur. Bununla belə, sığorta haqlarının ÜDM-də xüsusi çəkisi cəmi 0,8 faizdir. Bank sektorundan yüksəkasılılıq sığorta şirkətlərinin başlıca riski hesab olunur.

İcbari sığorta qanunvericiliyinin əhatə dairəsinin genişləndirilməsi sığorta sektorunda tələb yaradan əsas faktor kimi çıxış etmişdir. 2011-ci ildən başlayaraq dövlət tərəfindən görülən tədbirlər həyat və qeyri-həyat sığortasının sürətli inkişafında mühüm rol oynamışdır. Qeyri-həyat sığortasına münasibətdə əsas diqqət icbari sığorta proqramlarının, o cümlədən nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin

icbari sığortası və daşınmaz əmlakın sığortasının yenidən müəyyən edilməsi və tətbiqinə yönəldilmişdir. Məcburi fərdi qəza sığortası alətlərinin genişlənməsi isə həyat sığortası seqmentinin inkişafına dəstək vermişdir.

Kredit risklərinin operativ və dolğun qiymətləndirilməsini, eləcə də iqtisadi subyektlərin maliyyə intizamının gücləndirilməsini təşviq etmək məqsədilə kredit məlumatlarının mübadiləsi sisteminin ilkin elementləri formalaşdırılmışdır.

Maliyyə bazarları infrastrukturunun inkişaf etdirilməsi məqsədilə dövr ərzində əhəmiyyətli işlər görülmüş, eyni zamanda "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı qəbul edilmişdir. Dövlət Proqramı çərçivəsində maliyyə bazarlarının canlandırılması istiqamətində işlərə başlanılmışdır. Dövlət Proqramının 2011-2014-cü illəri əhatə edən ilkin mərhələsində qiymətli kağızlar bazarının infrastrukturunun müasirləşdirilməsi, bu məqsədlə normativ hüquqi bazanın təkmilləşdirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, habelə qiymətli kağızlar bazarında insan kapitalının inkişafı üçün zəruri imkanlar yaradılmışdır. Bununla belə, ölkədə fəaliyyət göstərən açıq səhmdar cəmiyyətlərinin korporativ idarəetmə standartlarının zəif inkişaf etməsi, şəffaflığın aşağı olması kapitalın qiymətli kağızlar bazarı vasitəsilə cəlb edilməsini məhdudlaşdırmışdır. 2015-ci ilin sonuna səhm və borc qiymətli kağızlar bazarında əməliyyatların həcmi müvafiq olaraq 657 milyon manat və 3550 milyon manat təşkil etmişdir (şəkil 8). Borc qiymətli kağızlar bazarında əməliyyatların əhəmiyyətli hissəsi korporativ qiymətli kağızlarla aparılmışdır.

Maliyyə xidmətləri istehlakçılarının hüquqlarının effektiv müdafiəsi mexanizmlərinin formalaşdırılması və əhalinin maarifləndirilməsi istiqamətində işlər görülmüş, maliyyə savadlılığının artırılması məqsədilə müasir intellektual vasitələrdən istifadə edilmişdir.

Ölkədə yoxsulluq səviyyəsinin azalmasına, qeyri-neft sektoru üzrə investisiya qoyuluşlarının diversifikasiyasına baxmayaraq maliyyə inklüzivliyinin səviyyəsi aşağı olaraq qalmaqdadır.

Bütövlükdə, Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına əsasən, 2015-ci ilin sonuna ölkədə 43 bank, 27 sığorta təşkilatı, 48 bank olmayan kredit təşkilatı, 109 kredit ittifaqı və 5 investisiya şirkəti fəaliyyət göstərmişdir. Kredit təşkilatları maliyyə sistemində dominant mövqeyə malikdir. Bankların və bank olmayan kredit təşkilatlarının maliyyə sisteminin cəmi aktivlərində payı 2015-ci ildə müvafiq olaraq 88 faiz və 9,7 faiz, sığorta şirkətlərinin cəmi aktivlərdə payı isə 2,3 faiz təşkil etmişdir.

3.2. Maliyyə xidmətləri sektorunun GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
• Maliyyə bazarlarının tənzimlənməsi və nəzarəti üzrə vahid requlyatorun olması; • maliyyə bazarı və institutlarının formalaşması; • əsas maliyyə infrastrukturu elementlərinin yaranması; • risklərin idarə edilməsi üzrə baza elementlərin mövcud olması; • qiymətli kağızlar bazarlarında müasir platforma.	• Bank sisteminin kapital mövqeyinin kövrək olması; • bankların kredit risklərinin yüksək olması; • qeyri-işlək aktivlərin tənzimlənməsi və satışı üzrə hüquqi mexanizmlərin olmaması; • banklarda bazar risklərinin idarə edilməsi üçün hedcinq alətlərinin olmaması; • bankların sağlamlaşdırılması və restrukturizasiyası üzrə effektiv alətlərin olmaması; • maliyyə xidmətləri sektorunda korporativ idarəetmənin zəif olması; • kreditorların hüquqlarının işlək müdafiəsi mexanizmlərinin olmaması, girov münasibətlərinin təşkilati-hüquqi mexanizmlərindəki zəifliklər; • maliyyə xidmətlərinin əlçatanlığının zəif olması; • qeyri-bank maliyyə seqmentinin zəif inkişafı; • maliyyə savadlılığının aşağı olması.
İmkanlar	**Təhlükələr**
• Maliyyə sektorunda islahatların hökumətin prioritetləri arasında olması; • əmanətlərin tam sığortalanması; • strateji valyuta ehtiyatlarının həcminin yüksək olması; • inkişaf etmiş telekommunikasiya infrastrukturunun və geniş xidmət şəbəkəsinin olması.	• Neft qiymətlərində volatilliyin davam etməsi; • işgüzar aktivliyin bərpa olunmaması; • aktivlərin keyfiyyətinin pisləşməsi; • bankların restrukturizasiya proqramının tamamlanmaması; • bankların məruz qaldığı risklərin bütövlükdə maliyyə bazarlarında volatilliyə səbəb olması; • ticarət tərəfdaşlarında iqtisadi fəallığın zəifləməsi.

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

2020-ci ilədək Azərbaycanın maliyyə sektorunun inkişafı üzrə strateji baxış daxili və xarici şoklara qarşı dayanıqlı, risk idarəetməsi proseslərinə dərindən fokuslanmış, effektiv tənzimləmə və güclü infrastruktur elementləri ilə əhatə olunmuş, inkişaf potensiallı maliyyə sistemi formalaşdırmaqdır.

Strateji baxışın şərhi

Ötən dövr ərzində maliyyə sistemi üzrə ilkin quruculuq işlərinin başa çatması, sistemin inkişafı istiqamətində aparılmış islahatlar, yaranmış kadr potensialı maliyyə sisteminin yeni inkişaf mərhələsinə keçidinə zəmin yaratmışdır.

2020-ci ilədək olan dövrdə maliyyə institutları, xüsusən də banklar sağlamlaşdırılacaq, maliyyə institutlarının likvidlik və kapitallaşma problemləri həll ediləcək, qeyri-işlək aktivlərin restrukturizasiyası üzrə tədbirlər həyata keçiriləcəkdir. Emitentlərin və investorların qiymətli kağızlar bazarında iştirakı üçün zəruri şərait yaradılacaq, infrastruktur genişləndiriləcək və təşviqedici tədbirlər müəyyənləşdiriləcəkdir. Maliyyə institutlarının effektiv fəaliyyəti üçün kredit büroları kimi yeni infrastruktur elementləri yaradılacaq, hüquqi çərçivə təkmilləşdiriləcəkdir. Maliyyə sistemi daha mütərəqqi risklərin idarə edilməsi proseslərinə istiqamətləndiriləcək, maliyyə xidmətlərində və hesabatlılıqda şəffaflıq artırılacaq, müştəriyönümlü xidmətlər və rəqəmsallaşmanı dəstəkləyən nəzarət mexanizmi formalaşdırılacaqdır. Eyni zamanda, maliyyə xidmətləri sahəsində təhsil səviyyəsi, istehlakçıların maliyyə savadlılığı və hüquqlarının qorunması mexanizmi təkmilləşdiriləcəkdir.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

Maliyyə xidmətləri üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış səmərəli tənzimləmə və qanunvericilik çərçivəsi ilə dəstəklənən, bütün müştəri qruplarını genişçeşidli maliyyə xidmətləri ilə təmin edən dayanıqlı, sağlam və tarazlaşmış maliyyə sistemi formalaşdırmaqdır.

Uzunmüddətli baxışın şərhi

2016-2020-ci illərdə likvidlik və kapitallaşma problemlərinin həll edilməsi, hüquqi və tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi 2025-ci ilədək olan dövrdə maliyyə sisteminin inkişafı üzrə yeni hədəfləri müəyyənləşdirməyə şərait yaradacaqdır. Bu dövrdə sağlam banklara, tam funksional maliyyə bazarlarına, Bazel III standartlarına uyğunlaşdırılmış risk idarəetməsinə, daha səmərəli və rəqəmsallaşdırılmış proseslərə və yüksəkkeyfiyyətli işçi heyətə malik olan maliyyə sisteminin qurulması nəzərdə tutulur.

2025-ci ilədək maliyyə xidmətləri sektoru güclü və diversifikasiya olunmuş maliyyə institutlarından təşkil olunacaq, davamlı artım və mənfəətlilik nümayiş etdirəcəkdir. Eyni zamanda, bank sektorunda konsolidasiya prosesinin sürətlənməsi, bankların maliyyə nəticələri arasında fərqlərin azalması müşahidə ediləcəkdir. Nəticədə banklar böyüyəcək, xidmət portfeli diversifikasiya olunacaq və bank olmayan yeni maliyyə institutları yaranacaqdır. Bank olmayan yeni maliyyə institutlarının təqdim edəcəyi əlavə kredit məhsulları istehlak kreditlərinə alternativ çıxış imkanları yaradacaq və sektorda rəqabəti gücləndirəcəkdir. Korporativ müştərilər üçün də yeni kredit növləri təklif ediləcəkdir.

2025-ci ilədək Azərbaycanda səhm və istiqraz bazarları artıq səmərəli fəaliyyət mərhələsinə çatacaqdır. Ölkədə fəaliyyət göstərən iri şirkətlərin əhəmiyyətli hissəsi listinqə daxil olacaq, yerli və xarici investorlar bu şirkətlərin emissiya etdiyi qiymətli kağızların böyük hissəsi ilə aktiv ticarət əməliyyatları aparacaqdır. Şəffaflığın artması və texniki infrastrukturun təkmilləşməsi nəticəsində əməliyyatların aparılması asanlaşacaqdır. Şəffaf mühit investorlara riskləri və gözlənilən gəlirləri daha yaxşı qiymətləndirmək və əsaslandırılmış qərarlar vermək imkanı yaradacaqdır. Bu da səhm və istiqraz bazarlarında müxtəlifprofilli yerli və xarici investorların ticarət aparması ilə nəticələnəcəkdir.

Eyni zamanda, kredit bürosu infrastrukturun təkmilləşdirilməsini və maliyyə institutlarının kredit məlumatları sisteminə daha sıx inteqrasiyasını təmin etmək məqsədilə informasiya texnologiyaları sahəsində yeniliklərdən istifadə edəcəkdir. Bu da kredit təşkilatlarının sorğularının daha çevik və az xərclə cavablandırılmasına imkan yaradacaqdır.

2025-ci ilədək bank sektoru Bazel III standartlarının tələblərinə tam uyğunlaşacaqdır. Kredit risklərini qiymətləndirmə mexanizmlərinin, skorinq modellərinin, korporativ idarəetmə strukturunun və risklərin idarə edilməsi proseslərinin beynəlxalq standartlara uyğunlaşdırılması maliyyə institutlarında risklərin idarə edilməsi bacarıqlarını artıracaqdır. Bazel III standartlarına uyğunlaşma və yüksəkkeyfiyyətli məlumatlar təklif edən kredit bürosunun mövcud olması maliyyə institutlarına qeyri-işlək və gecikdirilmiş kreditlər üzrə potensial itkiləri qabaqcadan qiymətləndirməyə, anderraytinq və monitorinq sistemlərini təkmilləşdirməyə imkan verəcəkdir. Nəticədə, sağlam kredit portfelinin həcmi xeyli artacaq və qeyri-işlək kreditlərin (QİK) xüsusi çəkisi azalacaqdır.

Maliyyə institutları səmərəliliyin artırılmasını və rəqəmsallaşmanı 2025-ci ilədək olan dövrdə də davam etdirəcəklər. Bu dövrdə tənzimləmədə dəyişikliklər və texnoloji inkişaf nəticəsində banklar proses və əməliyyatlarını daha çox rəqəmsallaşdıracaqlar. Yüksək nəticə əldə edilməsi, sərf olunan vaxtın və əməyin optimallaşdırılması məqsədilə bir sıra funksiyalar vahid struktur bölmədə cəmləşəcək və bank əməliyyatlarının 90 faizindən çoxu alternativ xidmət kanalları vasitəsilə aparılacaqdır. Filiallar əlavə dəyər yaratmaqla, yeni və daha dərin müştəri münasibətləri quracaqlar.

2025-ci il və ondan sonrakı dövr üzrə nəzərdə tutulmuş hədəflərə nail olmaq üçün ali təhsil müəssisələri, özəl təlim mərkəzləri, tənzimləyici qurumlar və bazar iştirakçıları vasitəsilə yüksək bilik və bacarıqlara malik mütəxəssislər yetişdiriləcəkdir. Bu mütəxəssislərin fəaliyyəti qiymətləndiriləcək və müvafiq təlim-tədris mərkəzlərinin proqramlarında lazımi dəyişikliklər ediləcəkdir. Təlim-tədris proqramlarında iştirak edənlərin sayının artması nəticəsində maliyyə sistemində bilik və bacarıqlar xeyli yüksələcəkdir. Eyni zamanda, müxtəlif sertifikatlaşdırma proqramları vasitəsilə sektor üçün ənənəvi və təkrarlanan əməliyyatların standartlaşması stimullaşdırılacaqdır. Bu təlim-tədris mərkəzləri maliyyə sektorunda rəqəmsallaşma ilə bağlı son meyilləri nəzərə almaqla, iştirakçıların texnoloji biliklərinin artırılmasını təmin edəcəkdir.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

2025-ci ildən sonrakı dövrlə bağlı müəyyən edilmiş hədəf baxış xarici investorlar üçün cəlbedici və regional səviyyədə rəqabətqabiliyyətli maliyyə sektoru formalaşdırmaqdır.

Hədəf baxışın şərhi

2025-ci ildən sonrakı dövr üçün hədəf baxışda müəyyən edilmiş məqsədlərə çatmaq üçün yüksək əməliyyat effektivliyinə malik və mənfəətlə fəaliyyət göstərən və əməliyyatları əsasən rəqəmsallaşmış bank sistemi formalaşdırılacaq, investisiya məhsulları daxil olmaqla, daha innovativ müştərini nəzərdə tutan bank məhsulları təklif

ediləcəkdir. Bunun nəticəsində Azərbaycan maliyyə sektorunun inkişaf etdirilməsi üzrə qabaqcıl nümunə kimi beynəlxalq səviyyədə tanınacaq, həmçinin xarici investorları cəlb edəcəkdir.

Bank əməliyyatları, məhsulları və risk idarəetməsi üzrə sektoral inkişafı təmin etmək üçün 2025-ci ilədək olan dövrdə başlanmış prioritetlərin davamı olaraq, 2025-ci ildən sonrakı dövrdə bank sektorunun rəqəmsallaşdırılması tamamlanacaqdır. Yüksək rəqabət mühitində müştərilərin əksəriyyəti öz əməliyyatlarını mobil rabitə və internet vasitəsilə həyata keçirəcəkdir. Satış və xidmət prosesləri tamamilə rəqəmsallaşdırılaraq, mobil rabitə və internet vasitəsilə müştərilərə əlçatan olacaqdır. Bu dövrdə rəqəmsal bank xidmətlərinin geniş yayılması, onların sosial şəbəkə və real vaxt rejimində (onlayn) ticarət kimi bir sıra digər platformalara inteqrasiyası nəzərdə tutulur. Bu inteqrasiya, həmçinin rəqəmsal ödəniş sistemləri və mobil tətbiqlərin geniş istifadəsi ilə dəstəklənəcəkdir. Bundan əlavə, rəqəmsallaşma geniş məlumat bazası vasitəsilə bankdaxili əməliyyatları da optimallaşdıracaqdır. Banklar məlumat bazalarının yaradılmasına investisiya edərək müştəri barədə daha dolğun məlumatlara malik olacaqlar ki, bu məlumatlar da hədəflənmiş marketinq siyasəti qurmağa, həmçinin kredit risklərini və uzunmüddətli defolt ehtimalını daha dəqiq qiymətləndirməyə imkan verəcəkdir.

Fərdi və korporativ müştərilərə təklif edilən məhsul çeşidi genişləndiriləcəkdir. Pərakəndə bankçılıq ənənəvi müddətli depozit modelindən daha mürəkkəb məhsul və peşəkar portfel idarəetməsinə transformasiya olunacaqdır. Bununla bərabər, ipoteka kreditləri, Avropa ölkələrində olduğu kimi, davamlı artacaq və kredit portfelinin əhəmiyyətli hissəsini təşkil edəcəkdir. Korporativ müştərilərə, xüsusilə mikro, kiçik və orta sahibkarlara daha təkmil məhsullar, o cümlədən mürəkkəb kreditlər təklif ediləcəkdir. Kreditə müraciət, kredit riskinin qiymətləndirilməsi və anderraytinqin rəqəmsallaşması hesabına kreditlərin verilməsi prosesi sadələşəcəkdir. Beləliklə, banklar korporativ müştərilərin artan tələbatını çevik və effektiv qaydada qarşılayacaqlar.

Maliyyə bazarlarında şəffaflığın artması və sektorun tam formalaşması nəticəsində uzunmüddətli perspektivdə maliyyə xidmətləri sektoruna daha çox xarici investor cəlb ediləcəkdir. Maliyyə sektoruna xarici investisiyaları, əsasən, xarici banklar yatıracaqdır. Maliyyə sektoru və ölkə iqtisadiyyatı xarici bankların investisiyaları ilə yanaşı, qlobal “nou-hau”, xüsusən də məlumatların emalı, təkmil risk idarəetməsi və məhsul çeşidi sahəsində qabaqcıl təcrübələrdən faydalanacaqdır.

Əlverişli coğrafi mövqeyini nəzərə alaraq, 2025-ci ildən sonrakı dövrdə Azərbaycanı regionun maliyyə mərkəzinə çevirəcək strategiyanın mümkünlüyü qiymətləndirilə bilər. Bu istiqamətdə qonşu ölkələrlə valyuta əməliyyatlarının həcminin artırılması üçün texniki infrastruktur və tənzimləmə çərçivəsinin inkişafı perspektivlərinə baxılacaqdır (əgər uğurlu olarsa, bu təcrübə anderraytinq və regional istiqraz buraxılışlarının satışına da şamil oluna bilər).

2025-ci ilədək bankların xidmət səviyyəsi qabaqcıl beynəlxalq standartlara tam uyğunlaşacaqdır. Beləliklə, maliyyə xidmətləri sektoru regional miqyasda daha rəqabətqabiliyyətli səviyyəyə yüksələcək və qonşu maliyyə bazarları üçün qabaqcıl nümunəyə çevriləcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Maliyyə xidmətləri sektorunda prioritetlərin həyata keçirilməsi nəticəsində:

- 2020-ci ildə real ÜDM-in 750 milyon manat dəyərində artacağı;
- maliyyə xidmətləri sektorunda 1600 iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Maliyyə xidmətlərinin inkişafı ilə bağlı nəzərdə tutulan tədbirlər üzrə 2020-ci il üçün aşağıdakı əsas hədəf indikatorları müəyyən edilmişdir:

- bank sektorunun gəlirliliyinin 2015-ci ilə nəzərən 7 faiz artması;
- 2020-ci ilədək fond birjasında listinqə mühüm sektorlardan əlavə 5 şirkətin çıxması;
- maliyyə dərinliyinin (kreditlərin qeyri-neft ÜDM-ə nisbətinin) 60 faiz təşkil etməsi;
- qeyri-işlək kredit əmsalının 8 faizədək azaldılması;
- sığorta penetrasiyasının (sığorta haqlarının qeyri-neft ÜDM-ə nisbətinin) 1,4 faizə çatması.

6. STRATEJİ MƏQSƏDLƏR

- Maliyyə sisteminin daxili və xarici şoklara qarşı dayanıqlılığını artırmaq;
- risk idarəetməsi proseslərinin keyfiyyətini artırmaq və tənzimləmə çərçivəsini təkmilləşdirmək;
- maliyyə sisteminin infrastrukturunu gücləndirmək;
- maliyyə sisteminin inkişaf potensialını artırmaq.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması

Azərbaycanın bank sistemi ənənəvi bank məhsullarının geniş çeşidini təklif edən pərakəndə və korporativ banklardan ibarətdir. Korporativ banklar, əsasən, dövlət təşkilatlarına və iri özəl müəssisələrə, pərakəndə banklar isə geniş əhali seqmentinə xidmət edir. Mikro, kiçik və orta sahibkarlıq müəssisələrinin maliyyələşməsi üzrə ixtisaslaşmış institutların sayı məhduddur.

Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına əsasən, 2005-2014-cü illərdə bank sisteminin aktivlərinin həcmi və gəlirliliyi illik təxminən 30 faiz olmaqla, yüksək artım tempi nümayiş etdirmişdir. Bununla belə, 2015-ci ildən etibarən xarici iqtisadi şoklar və milli valyutanın devalvasiyası sektorun risk həssaslığını artırmış və maliyyə göstəricilərinin pisləşməsinə səbəb olmuşdur. Ayrı-ayrı bankların xarici şoklara qarşı dayanıqlılığı qeyri-bərabər olmuşdur. Sağlam risk idarəetməsi prinsiplərini tətbiq edən və yüksək kapital buferinə malik banklar daha yüksək dayanıqlılıq nümayiş etdirmişdir. Bir sıra bankların maliyyə dayanıqlılığının pozulması yalnız ölkə və dünya iqtisadiyyatında baş verən proseslərdən qaynaqlanmamışdır. Son 10-15 il ərzində bəzi bankların dayanıqlı və uzunmüddətli hədəflərə fokuslanmış biznes modelinin və strategiyasının olmaması, dayanıqsız artım modelləri və bəsit risk idarəetməsindən yaranan zəifliklər bank sistemindəki problemlərin əsas katalizatorlarındandır. Bu institusional boşluqlar səbəbindən banklar yeni iqtisadi konyunktura və bazar şərtlərinə uyğunlaşmaqda, biznes modellərini çevik transformasiya etməkdə və yeni gəlir mənbələrini müəyyənləşdirməkdə çətinlik çəkmişlər.

7.1.1. Prioritet 1.1. Bank sisteminin kapitallaşması və likvidliyinin təmin edilməsi


Əsaslandırma

Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına əsasən 2015-ci ildə bank sektorunun mənfəətliliyi mənfi zonada olmuş, kapital adekvatlığı əmsalı 20 faiz azalmış, sağlam və risklərə həssas banklar arasında təzad daha da artmışdır. Bank sisteminin uzunmüddətli funksionallığına potensial təhlükə yaradan yeni problemlər yaranmışdır (iqtisadiyyatın dollarlaşması, maliyyə institutlarının kapital mövqelərinə təzyiq, iqtisadi artım tempinin aşağı düşməsi və kredit portfelinin keyfiyyətinin pisləşməsi).

Birinci devalvasiyadan sonra depozit və kredit portfelinin dollarlaşması milli valyutaya inamın azalmasını göstərdiyi halda, ikinci devalvasiyadan sonra maliyyə vəsaitlərinin bank sistemindən kənarlaşması sektorun sağlamlığına dair narahatlığı əks etdirir (şəkil 2). Belə vəziyyətdə "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli Qanununun qəbul edilməsi əhalinin bank sektoruna olan inamının yüksəldilməsinə xidmət etmişdir. Belə ki, yeni Qanuna əsasən, Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər, məbləğindən asılı olmayaraq, 3 il müddətinə tam sığortalanmışdır. Eyni zamanda, əmanətlərin cəlbediciliyini artırmaq üçün 2016-cı il fevral ayının 1-dən etibarən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirləri 3 il müddətində vergidən azad edilmişdir. Bundan başqa, maliyyə sektorunun dayanıqlılığını təmin etmək və bu sahədə nəzarət mexanizmlərini təkmilləşdirmək məqsədilə Azərbaycan

Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 760 nömrəli Fərmanı ilə Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılmışdır.

Şəkil 2. Depozitlərin və kreditlərin həcmi




1. 2016-cı ilin fevral ayına olan göstəricilər

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

2015-ci ilin sonuna əvvəlki illə müqayisədə kreditlərdə dollarlaşma 27 faizdən 50 faizə, depozitlərdə isə 50 faizdən 80 faizə yüksəlmişdir (şəkil 3).


Şəkil 3. Depozit və kreditlərin dollarlaşması



Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

İl ərzində baş vermiş neqativ proseslər bankların kapital mövqeyinə təzyiqləri artırmışdır. Dinamik iqtisadi artım dövründə banklar üçün minimum kapital tələbinin beş dəfə artırılaraq 50 milyon manata çatdırılması müəyyən maliyyə yastığı formalaşdırsa da, baş vermiş daxili və xarici şokların neytrallaşdırılması üçün yetərli olmamışdır. 2014-cü ildə sektor üzrə xalis mənfəət 381 milyon manat olduğu halda, banklar 2015-ci ili 351 milyon manat məbləğində zərərlə başa vurmuşdur. Bank sektorunda məcmu kapitalın adekvatlıq əmsalı 18,9 faizdən 14,7 faizədək azalmışdır (şəkil 4).

Şəkil 4. Məcmu kapital və məqsədli ehtiyatlar




1. Sektor üzrə kredit çəkili orta MKAƏ-dən (məcmu kapitalın adekvatlıq əmsalı) istifadə olunmuşdur

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası

Bank sisteminin aktivlərinin artım tempinin zəifləməsi potensial borcalanların kredit tələbinin və bankların kredit təklifinin azalması ilə əlaqədar olmuşdur.

Milli valyutanın ucuzlaşması borcalanların xarici valyutada kreditləri üzrə ödəmə qabiliyyətinə təsir etmiş və bankların kredit portfelinin keyfiyyətinin pisləşməsinə səbəb olmuşdur. 2015-ci ildə ümumi portfeldə qeyri-işlək və restrukturizasiya olunmuş kreditlərin xüsusi çəkisi əvvəlki ilə nəzərən, müvafiq olaraq, 30 faiz və 130 faiz yüksəlmiş, habelə xüsusi ehtiyatların ümumi portfeldə payı 40 faiz artmışdır (şəkil 5).

Şəkil 5. Devalvasiyadan sonra portfelin geri ödəniş qabiliyyəti




1. *Adi və məqsədli ehtiyatlar*
2. *Azərbaycan Beynəlxalq Bankı (ABB) istisna olmaqla*

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

2015-ci ildən etibarən bankların ümumi mənfəətlilik və maliyyə dayanıqlılığı göstəriciləri pisləşmiş, dayanıqlı və dayanıqsız bankların göstəriciləri arasındakı fərq dərinləşmişdir (şəkil 6).

Şəkil 6. 2015-ci ildə sağlam və zəif banklar arasında fərq



1. *Bəzi banklar qrafikdə dəqiq göstərilməmişdir*

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

Görüləcək tədbirlər

Tədbir 1.1.1: Bank sektorunun hərtərəfli diaqnostikasının aparılması

MBNP bankların maliyyə dayanıqlılığını hərtərəfli qiymətləndirəcəkdir. Hər bir bankın likvidlik, kapital və valyuta mövqeyi, aktivlərinin keyfiyyətinin diaqnostikası aparılacaq, habelə ümumi bank sektorunun likvidlik mövqeyi və kreditləşmə imkanları müəyyənləşdiriləcəkdir. Qiymətləndirmə əsasında hər bir bankın klasteri (sistem əhəmiyyətli banklar, dayanıqlı banklar, qismən dayanıqlı banklar və dayanıqlı olmayan banklar) müəyyən ediləcəkdir (bu sahədə fəaliyyətin icrasına artıq başlanılmışdır və gələcəkdə dərinləşdirilmiş qiymətləndirmələr aparılacaqdır).

Tədbir 1.1.2: Problemli bankların kapitallaşdırılması üzrə tədbirlər planının hazırlanması

MBNP hər bir bank üzrə tədbirlər planı müəyyənləşdirəcəkdir. Plan müəyyən edilərkən potensial kapital mənbələri, qeyri-işlək aktivlərin sağlamlaşdırılması, bankların konsolidasiyası və s. imkanlar təhlil ediləcəkdir. Tədbirlər planında bank və onun səhmdarlarının, dövlət təşkilatlarının və digər əlaqəli tərəflərin vəzifələri müəyyən ediləcəkdir (tədbirin icrasına başlanılmışdır).

Tədbir 1.1.3: Planın icrası və monitorinqin aparılması

MBNP hər bir bank üzrə tədbirlər planının icrasına və nəzərdə tutulan işlərin vaxtında yerinə yetirilməsinə nəzarət məqsədilə monitorinq sistemi müəyyən edəcəkdir.

Tədbir 1.1.4: Problemli bankların restrukturizasiyası üzrə institusional və hüquqi mexanizmlərin yaradılması

MBNP aidiyyəti qurumlarla birlikdə problemli bankların minimum itkilərlə sağlamlaşdırılması və yaxud sistemdən kənarlaşdırılması üzrə kompleks institusional və hüquqi mexanizmlərə dair təkliflər hazırlayacaqdır. Bu məqsədlə "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli Qanununda ediləcək dəyişikliklərin layihəsi hazırlanacaq və aidiyyəti qaydada təqdim olunacaqdır.

Tədbir 1.1.5: Kapital dayanıqlılığı bərpa olunmayan bankların restrukturizasiyası

MBNP digər aidiyyəti dövlət qurumları ilə əlaqələndirilmiş şəkildə kapital dayanıqlılığı bərpa olunmayan bankların restrukturizasiyasını (bankın satılması, aktivlərin və öhdəliklərin tam və ya qismən ötürülməsi, körpü bankın yaradılması və s. vasitələrlə) həyata keçirəcəkdir.

Tədbir 1.1.6: Əmanətlərin sığortalanması mexanizminin təkmilləşdirilməsi

Əmanətlərin sığortalanması sisteminin qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi üzrə işlər davam etdiriləcəkdir. Əmanətlərin Sığortalanması Fondunun kapitallaşdırılması üçün müxtəlif maliyyə mexanizmləri nəzərdən keçiriləcək, habelə diferensial təqvim haqlarının tətbiqi istiqamətində işlər görüləcəkdir.

Tədbir 1.1.7: Likvidliyin verilməsi alətlərinin genişləndirilməsi

MBNP, Mərkəzi Bank, Maliyyə Nazirliyi və digər aidiyyəti dövlət qurumları banklara kapital və uzunmüddətli likvidlik dəstəyinin göstərilməsi məqsədilə yeni alətlərin yaradılması istiqamətində tədbirlər həyata keçirəcəklər.

Gözlənilən nəticə və nəticə indikatorları

Kapitallaşma və likvidliklə bağlı nəzərdə tutulan strateji hədəflərə nail olmaq üçün tədbirlərin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bu prioritetin həyata keçirilməsi bank sektorunun xalis gəlirlərinin artmasını şərtləndirəcəkdir ki, bununla da 2020-ci ildə real ÜDM-in 115 milyon manat birbaşa, 15 milyon manat dolayı olmaqla, ümumilikdə 130 milyon manat artacağı proqnozlaşdırılır. Məşğulluğa ölçülə bilən birbaşa təsir müəyyən edilməmişdir.

Bank sektorunun gəlirliliyinin 2015-ci ilə nəzərən 7 faiz artması əsas hədəf indikatoru kimi müəyyənləşdirilmişdir.

Tələb olunan investisiya

Bank sistemində kapitallaşma və likvidlik problemlərini həll etmək məqsədilə müəyyən həcmdə maliyyə resursları ayrılmalıdır. Lakin bu vəsaitlərin məbləği daha çox problemlərin həlli məqsədilə qəbul edilmiş metodologiyadan asılıdır və bu, prioritet çərçivəsində müəyyənləşdirilmiş vəzifələrdən biridir. Belə ki, hazırkı mərhələdə bununla əlaqədar investisiya və maliyyələşmə həcmi müəyyən edilməmişdir və Yol Xəritəsində müəyyən edilmiş tədbirlərin bir hissəsi kimi təfsilatlı şəkildə araşdırılacaqdır.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə problemli bankların restrukturizasiya tədbirlərinin tamamlanmaması, səhmdarların banklara əlavə kapital yerləşdirmək marağının, yaxud imkanlarının aşağı olması, bankların restrukturizasiyası üzrə institusional və hüquqi mexanizmlərin formalaşdırılmasında gecikmələrin, makroiqtisadi mühitdə neqativ meyillərin davam etməsi nəticəsində problemli bankların sayının artması kimi amillər aid oluna bilər.

7.1.2. Prioritet 1.2. Qeyri-işlək aktivlərin restrukturizasiya planının hazırlanması

Əsaslandırma

Milli valyutanın devalvasiyasından sonra banklarda qeyri-işlək aktiv portfelinin həcmi artmışdır. Restrukturizasiya olunmuş kreditlərin dinamikası bankların kredit portfelinin keyfiyyətinin pisləşməsi tendensiyasının davam edəcəyini, qeyri-işlək kreditlərin həcminin artacağını göstərir.

Kredit risklərinin ötürülməsi alətlərindən istifadə edilməməsi risklərin bankların balanslarında qalması ilə nəticələnir. Qeyri-işlək aktivlərlə iş prosedurlarını düzgün təşkil etməyən banklar böyük itkilərlə üzləşir. Beynəlxalq təcrübədə qeyri-işlək aktivlərin ixtisaslaşmış institutlara ötürülməsi aktivin bazar dəyərinin tam itirilmədən bərpasını təmin edir. Mövcud problemin həlli üçün qeyri–işlək aktivlərin restrukturizasiyasına ehtiyac vardır.

Görüləcək tədbirlər

Tədbir 1.2.1: Qeyri-işlək aktivlərin idarə edilməsi üzrə hüquqi mexanizmlərin yaradılması

MBNP, aidiyyəti qurumlarla birgə, qeyri-işlək aktivlərin idarə edilməsi bazarının formalaşdırılması üçün qanunvericilik bazasının yaradılması üzrə tədbirlər həyata keçirəcəkdir. Qanunvericilik bazası yaradıldıqdan sonra aktivlərin idarə edilməsi institutlarının tənzimləmə çərçivəsi müəyyən ediləcəkdir. MBNP, Maliyyə Nazirliyi və digər aidiyyəti dövlət qurumları qeyri-işlək aktivlərin satışını stimullaşdırmaq üçün yeni

mexanizmlərin, xüsusilə vergi güzəştlərinin tətbiqi imkanlarını qiymətləndirəcək və müvafiq tədbirləri həyata keçirəcəklər.

Tədbir 1.2.2: Restrukturizasiya planına daxil ediləcək qeyri-işlək aktivlər üzrə meyarların müəyyən edilməsi

MBNP restrukturizasiya planına daxil ediləcək qeyri-işlək aktivlər üçün meyarları müəyyən edəcəkdir. MBNP restrukturizasiyanın iqtisadi faydasını müəyyən etmək üçün qeyri-işlək aktiv portfelinin, habelə müxtəlif restrukturizasiya metodlarının gəlir-xərc təhlilini aparacaqdır. Restrukturizasiyanın hər bir bank üzrə fərdi qaydada aparılması, QİK-lərin mərkəzləşdirilmiş restrukturizasiya institutunda cəmləşməsi və s. yanaşmalar nəzərdən keçiriləcəkdir.

Tədbir 1.2.3: Restrukturizasiya strategiyasının müəyyən edilməsi

MBNP restrukturizasiya proqramının faydasını artırmaq üçün prosesin sürətli həyata keçirilməsini, həmçinin portfellə iş üzrə strategiyaların araşdırılmasını, müəyyənləşdirilməsini və seçimini təmin edəcəkdir.

Tədbir 1.2.4: Restrukturizasiya proqramının icrası və monitorinqinin aparılması

Strategiyalar əsasında MBNP tərəfindən yol xəritəsinin hazırlanması, monitorinq sisteminin formalaşdırılması və restrukturizasiya proqramının icrasına başlanılması təmin ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

MBNP tərəfindən qeyri-işlək aktivlər üçün restrukturizasiya planının aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq şəraitində hazırlanması dinamik və sağlam maliyyə xidmətləri sektorunun formalaşdırılması üçün əsas amildir. Bu prioritetin 2020-ci ildə real ÜDM-ə və məşğulluğa ölçülə bilən birbaşa təsiri gözlənilmir. Bu prioritetin gözlənilən dolayı təsiri 1.1 saylı prioritetdə nəzərə alınmışdır.

Tələb olunan investisiya

Restrukturizasiya planı 1.1-ci prioritet ilə müəyyənləşdirilmiş problemləri həll edəcəkdir. Beləliklə, bu prioritet üçün tələb olunan investisiya məbləği ardıcıl qaydada nəzərdən keçirilməlidir.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə bankların qeyri-işlək aktivlərinin səviyyəsinin daha da artması, maliyyə hesabatlarında qeyri-işlək aktivlərin tam həcmdə tanınmaması, bankların qeyri-işlək aktivləri diskontlaşdırılmış qiymətlə satmaqda maraqlı olmaması, özəl investorların qeyri-işlək kreditlərin idarə edilməsinə marağının formalaşmaması, qeyri-işlək aktivlərin idarə edilməsi üzrə stimullaşdırıcı mexanizmlərin yetərli olmaması, restrukturizasiya planının həyata keçirilməsi üçün maliyyə mənbələrinin müəyyən edilməməsi kimi amillər aid edilə bilər.

7.1.3.Prioritet 1.3. Sığorta bazarının inkişafı

Əsaslandırma

Sığorta bazarının inkişafı qeyri-müəyyənliklərdən və risklərdən qorunmağa kömək etməklə, eləcə də daxili yığımın toplanması üçün investisiya kanalı təmin etməklə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına töhfə verir. Azərbaycanın sığorta bazarı son illərdə ümumi iqtisadi inkişaf fonunda stabil artım nümayiş etdirsə də, onun

maliyyə sektoruna və iqtisadiyyata təsiri minimum səviyyədədir. Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına əsasən 2015-ci ilin sonuna sığorta sektorunun maliyyə dərinliyini ifadə edən sığorta haqlarının ÜDM-ə nisbəti cəmi 0,8 faiz təşkil etmişdir.

Sığorta haqlarının ÜDM-ə nisbətinin aşağı olmasının səbəblərindən biri sığorta şirkətlərinin müəyyən sektorlar və həmin sektorlar ilə bağlı risklər haqqında tam məlumatlı olmamasıdır. Bu isə sığorta şirkətlərinin həmin qruplar üçün müxtəlif məhsul təklifləri hazırlamağa maraqlı olmamasına gətirib çıxarır. Məsələn, kənd təsərrüfatı üzrə sığorta ən mürəkkəb və çətin sığorta seqmenti olmaqla, risklərlə bağlı xüsusi biliklərin olmasını tələb edir.

Eyni zamanda, əksər sığorta şirkətləri yüksək riskləri olan və ya investisiya qoyuluşu aşağı səviyyədə olan müəyyən iqtisadi qrupların və ya sektorların sığorta tələblərini qarşılamaq üçün məhsulların hazırlanmasına çox da maraqlı deyillər. Məsələn, sığorta şirkətləri müflisləşmə səviyyəsi daha yüksək olduğu üçün kiçik və orta sahibkarlıq subyektləri və aşağı gəlirə malik fərdi təsərrüfatlara münasibətdə ümumi risklərdən yayınmağa çalışırlar. Xüsusən də aşağı gəlirə malik fərdi təsərrüfatlar, kiçik və orta sahibkarlıq subyektləri üçün sığorta məhsullarına maliyyə əlçatanlığının zəif olması bu qruplarda sığortalanma səviyyəsinin aşağı olmasının başqa bir səbəbi kimi qeyd edilə bilər. Bu mənada, mikrosığorta və müştərək sığortanı nümunə kimi göstərmək olar.

Sığorta bazarının genişlənməsi, əhalinin sığorta təminatı almayan hissəsinin sığorta məhsulları ilə əhatə olunması, maliyyə xidmətlərinə çıxışın artırılması və iqtisadiyyatın şaxələndirilməsinin dəstəklənməsi məqsədilə yeni sığorta məhsullarının yaradılmasına ehtiyac vardır.

Kənd təsərrüfatı sığortası. Maliyyə resurslarına çıxış imkanlarının artırılmasının effektiv vasitələrindən biri kənd təsərrüfatı sahəsinə xas olan risklərin sığorta alətləri vasitəsilə azaldılmasıdır. Kənd təsərrüfatı sığortası bir tərəfdən hava şəraiti və qiymətlərin dəyişkənliyi səbəbindən fermerlərin məhsuldarlıq və mənfəətliliklə bağlı risklərini azaldır, digər tərəfdən isə kredit öhdəliklərinə xidmət imkanlarını artırmaqla sektorun kreditləşməsi potensialını yüksəldir.

Kənd təsərrüfatı risklərinin sığortası ən mürəkkəb sahələrdən biri olub sektor üzrə xüsusi bilik tələb edir. Bu səbəbdən sığorta şirkətləri bu seqmenti yüksək riskli fəaliyyət sahəsi olaraq dəyərləndirir və risk götürməkdən çəkinirlər. Bu sahə üzrə statistik və analitik məlumatların aşağı səviyyədə olması sektorun kreditləşməsini çətinləşdirir.

Azərbaycanın sığorta bazarının xüsusiyyətlərinə, kənd təsərrüfatı şəraitinə və dövlət siyasətinə uyğun olan kənd təsərrüfatı sığortası modelinin seçilməsi və tətbiqi mühüm əhəmiyyətə malikdir. Kənd təsərrüfatı sığortası mexanizmi kifayət qədər böyük institut olduğundan, onun formalaşdırılması və yaradılması zamanı dövlətin kənd təsərrüfatı ilə bağlı strateji siyasəti, kənd təsərrüfatı infrastrukturunun əhəmiyyəti və s. amillər diqqətdə saxlanılmalıdır.

Mikrosığorta. Mikrosığorta bazarının inkişafı aşağı gəlirli ev təsərrüfatlarına daha az sığorta haqqı müqabilində sığortalanma imkanı yaradır. Qanunvericilikdə mikrosığorta mexanizminə dair müddəa nəzərdə tutulmamışdır və bu sığorta növü inkişaf etməmişdir.

Hərtərəfli normativ hüquqi çərçivə mikrosığorta bazarının inkişafı üçün vacib amildir. Bu zaman effektiv nəzarətin həyata keçirilməsi ilə yanaşı, mikrosığorta təklifinin formalaşdırılması və xidmətin effektiv şəkildə ev təsərrüfatlarına çatdırılması təşviq olunmalıdır.

Müştərək sığorta. Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri mövcud qanunvericiliyə əsasən “ənənəvi”, yəni kommersiya əsaslı sığorta fəaliyyətini həyata keçirsə də, qeyri-kommersiya əsaslı müştərək sığorta məhsulu təklif etmirlər. Ənənəvi

sığorta riskin ötürülməsinə, əməkdaşlıq sığortası isə risklərin bölüşdürülməsinə əsaslanan sığorta münasibətləri sistemidir. Azərbaycanda qeyri-kommersiya əsaslı əməkdaşlıq sığortasının formalaşdırılmasına ehtiyac vardır.

İcbari tibbi sığorta. Azərbaycanda bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə tətbiq olunan icbari tibbi sığortanın reallaşdırılması üçün təşəbbüs göstərilir. İcbari tibbi sığortanın tətbiqi və idarəetmə sisteminin formalaşdırılması məqsədilə bir sıra normativ aktlar qəbul olunmuş, həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılmışdır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanı ilə Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Çoxşaxəli proses olan icbari tibbi sığortanın təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edən, subyektlər arasındakı münasibətləri tənzimləyən "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu 1999-cu il 28 oktyabr tarixindən qüvvədədir. 1999-cu ildən etibarən ötən müddət ərzində inkişaf etmiş ölkələrdə tətbiq olunan icbari tibbi sığorta modelləri təkmilləşdirilmiş, yeni yanaşmalar və konsepsiyalar ortaya qoyulmuşdur. Hazırda beynəlxalq təcrübədə özünü doğrultmuş icbari tibbi sığorta sistemlərində bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan maliyyələşmə, sığorta haqlarının fondlarda cəmlənməsi və idarə olunması kimi uğurlu mexanizmlər tətbiq olunmaqdadır. Bu əsasda Azərbaycanın icbari tibbi sığorta modelinin qabaqcıl təcrübəyə malik ölkələrin modelinə uyğunlaşdırılması, həmçinin seçilmiş model əsasında "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi həyata keçirilə bilər.

Görüləcək tədbirlər

Tədbir 1.3.1: Müvafiq işçi qrupların yaradılması

MBNP sığorta sahəsi üzrə aidiyyəti qurumların iştirakı ilə işçi qruplar yaradacaqdır.

Tədbir 1.3.2: Cari vəziyyətin diaqnostikasının aparılması

İşçi qruplar tərəfindən cari vəziyyətin diaqnostikası aparılaraq, qabaqcıl beynəlxalq təcrübə araşdırılmaqla, hər bir sığorta sahəsi üzrə hüquqi, tənzimləyici və institusional çərçivənin formalaşdırılması istiqamətində görüləcək işlər və hər bir sığorta sahəsi üçün əməliyyat modeli müəyyənləşdiriləcəkdir.

Tədbir 1.3.3: Məlumat sisteminin yaradılması

Sığorta sistemində məlumatların toplanması, məlumat sistemləri və mübadilə prosesləri maliyyə xidmətləri sektorunda bu sahə üzrə müvafiq təşəbbüslər kontekstində nəzərdən keçiriləcəkdir. Məsələn, müxtəlif risk amilləri nəzərə alınmaqla, kənd təsərrüfatı sığortası məhsulları üzrə qiymətlərin təyin olunması üçün məlumat sisteminin yaradılması nəzərdən keçiriləcəkdir.

Tədbir 1.3.4: Tədbirlər planının hazırlanması və icrasına başlanılması

Hər bir sığorta sahəsinin inkişafı üzrə tədbirlər planı hazırlanacaq və icrasına başlanılacaqdır. İşçi qrup müəyyən edilmiş təşəbbüslərə uyğun olaraq sektorun inkişaf səviyyəsini müntəzəm şəkildə qiymətləndirəcəkdir. Bundan əlavə, sığorta sektorunda əlavə sahələrə diqqət yetirilməsi imkanlarını, eləcə də sığorta siyasətindəki zəruri dəyişiklikləri davamlı şəkildə qiymətləndirəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Yeni sığorta xidmətlərinin yaradılması maliyyə vasitəçiliyinin dərinləşməsinə və inklüzivliyin artmasına təkan verəcəkdir. Kənd təsərrüfatı sektorunda risklərin sığortalanması maliyyə resurslarına çıxış imkanlarını genişləndirəcək və sektorun artımını dəstəkləyəcəkdir. Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına əsasən, 2015-ci ildə sığorta penetrasiyası 444 milyon manat təşkil etmişdir.

Bu prioritet üzrə aşağıdakı hədəf indikatorları müəyyənləşdirilmişdir:

- Sığorta penetrasiyasının (sığorta haqlarının qeyri-neft ÜDM-ə nisbətinin) 1,4 faizə çatması.

Prioritetin 2020-ci ildə real ÜDM-ə təsirinin, 85 milyon manat birbaşa və 40 milyon manat dolayı olmaqla, ümumilikdə 125 milyon manat olacağı gözlənilir. ÜDM-ə müsbət töhfə sığorta sektorunun gəlirlərinin artması və nəticədə penetrasiya səviyyəsinin yüksəlməsi ilə izah olunur. Bu prioritetin həyata keçirilməsi nəticəsində 1600 yeni iş yerinin yaradılması gözlənilir.

Tələb olunan investisiya

Hazırkı mərhələdə sığorta sektorunun inkişaf etdirilməsi üçün əlavə əsaslı investisiya qoyuluşu tələb olunmur. Belə ki, ilkin olaraq mövcud resurslardan daha səmərəli istifadənin təmin edilməsi nəzərdə tutulur. Sığorta bazarının inkişafı üçün əlavə investisiya tələbi hazırlanacaq fəaliyyət planları əsasında müəyyən ediləcəkdir.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə yeni sığorta məhsullarının hazırlanması və tətbiqi prosesi ilə bağlı əlaqədar tərəflərin fəaliyyətinin zəif əlaqələndirilməsi, maliyyə resurslarının mənbələrinin müəyyən edilməməsi, yeni sığorta növlərinə tələbin formalaşdırılmasında çətinliklərin yaranması, sığorta şirkətlərinin yüksək risk səbəbindən yeni müştəri seqmentlərinə xidmət etməkdə maraqlı olmaması kimi amillər aid edilə bilər.

7.1.4. Prioritet 1.4. Maliyyə inklüzivliyinin gücləndirilməsi

Əsaslandırma

Postneft iqtisadiyyatına keçid və qeyri-neft iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində mühüm işlərdən biri effektiv maliyyə inklüzivliyi sisteminin formalaşdırılmasıdır. Ölkədə maliyyə inklüzivliyinin artımına nail olunması iqtisadi fəaliyyətin dəstəklənməsinə, sahibkarlığın inkişafına, məşğulluğun yaxşılaşdırılmasına, ev təsərrüfatlarının istehlak imkanlarının artırılmasına və gəlir bərabərsizliyinin aradan qaldırılmasına əlavə dəstək verə bilər. Bundan əlavə, mikro, kiçik və orta sahibkarlığın (MKOS) maliyyə xidmətlərinə çıxışının yaxşılaşması ayrı-ayrı şirkətlərdə və bütövlükdə ölkədə məhsuldarlığın artmasına, məşğulluq imkanlarının genişlənməsinə və resursların daha məhsuldar bölgüsünə kömək edə bilər.

Dünya Bankının kiçik və orta sahibkarlar arasında 2014-cü ildə apardığı sorğunun nəticələrinə görə, yüksək faiz dərəcələri və mürəkkəb prosedurlar maliyyə inklüzivliyinin əsas elementlərindən biri olan kreditə çıxış imkanlarını məhdudlaşdıran başlıca amillərdəndir. Bundan əlavə, MKOS-ların əsas maliyyələşmə mənbəyi olan bank kreditləri üzrə yüksək təminat tələbinin olması maliyyə vəsaitlərinə çıxış imkanlarını məhdudlaşdırır.

Maliyyə inklüzivliyinə xidmət edən mikromaliyyə xidmətləri banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən göstərilir. Bu xidmətlər şəhər və kənd yerlərində mikro, kiçik müəssisə və ev təsərrüfatlarına yönəlməklə, ticarət, xidmət, sənaye və kənd təsərrüfatı sektorları kimi seqmentləri əhatə edir.

Maliyyə inklüzivliyinin artırılmasına xidmət edən nağdsız əməliyyatların genişləndirilməsi imkanları mövcuddur. Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına əsasən, 2015-ci ilin dekabr ayında təxminən 5,7 milyon bank kartı üzrə 1250 milyon manat həcmində əməliyyat həyata keçirilsə də bunun 72 faizi (906 milyon manat həcmində 5,3 milyon əməliyyat) ölkə daxilində ATM-dən nağd pul çəkilişi formasında baş vermişdir.

Bir sıra ölkələrdə mobil operatorlar və banklar arasında tərəfdaşlıq modeli uğurlu olmuş, banklar mobil rabitə platformasından istifadə etməklə, daha geniş müştəri kütləsinə keyfiyyətli və innovativ maliyyə xidmətləri göstərməyə başlamışlar. Azərbaycanda, xüsusilə də Bakı şəhərində mobil rabitə bazarında güclü rəqabətin olması bu bazarın inkişafını dəstəkləyir ki, bu da maliyyə xidmətlərinin daha təkmil rəqəmsal müstəvidə həyata keçirilməsini təmin edə bilər (bankların rəqəmsal transformasiyasına dair təfsilatlı tədbirlər bu Strateji Yol Xəritəsində 4.3-cü prioritetdə verilmişdir).

Son illərdə sığorta sektorunun maliyyə dərinliyinin artmasına baxmayaraq, Asiya İnkişaf Bankının maliyyə inklüzivliyi üzrə sorğusunun nəticələrinə görə, müştərilərin 58 faizi sığorta xidmətləri barədə məlumatlı deyil və bu müştərilərin təxminən yarısının (49 faiz) sığorta şirkətlərinə inamı aşağıdır. Bu hal sığorta fəaliyyətini məhdudlaşdırmaqla, bir çox müştəriləri, kiçik və orta sahibkarlıq subyektlərini yüksək riskə məruz qoyur. Proseslərin sadələşdirilməsi və aşağı xərcli mikrosığorta məhsullarının tətbiqi istehlakçıların, kiçik və orta sahibkarlıq subyektlərinin risklərini idarə etmək imkanlarını artıra bilər (sığorta bazarının inkişafına dair təfsilatlı tədbirlər bu Strateji Yol Xəritəsinin 1.3-cü prioritetində verilmişdir).

Dünyanın əksər ölkələrində lizinq iqtisadiyyata investisiya qoyuluşu üsullarından birinə çevrilmişdir. Azərbaycanın bank və sığorta sektoru ilə müqayisədə lizinq bazarı zəif inkişaf etmişdir. Lizinq vasitəsilə yeni texnika və avadanlıqların alınması və eləcə də köhnəlmiş texnika və avadanlıqların yenilənməsi sahibkarlığın inkişafına dəstək verə bilər (lizinq bazarının inkişaf etdirilməsinə dair təfsilatlı tədbirlər "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir).

Bütövlükdə, mövcud bir sıra müsbət meyillərə baxmayaraq, Azərbaycanda maliyyə inklüzivliyinin dərinləşməsi imkanları genişdir.

Görüləcək tədbirlər

Tədbir 1.4.1: Maliyyə xidmətlərinin çatdırılması kanallarının inkişaf etdirilməsi

Maliyyə xidmətlərinin çatdırılması kanallarının genişləndirilməsi təşviq ediləcək, agent bankçılıq perspektivləri araşdırılacaqdır. Elektron ödənişlər üzrə qanunvericilik çərçivəsi gücləndiriləcəkdir. Mikromaliyyə institutlarının ödəniş sistemlərinə inteqrasiyası istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

Tədbir 1.4.2: Maliyyə inklüzivliyinə xidmət edən maliyyə institutları üçün əlverişli tənzimləmə və dinamik nəzarət çərçivəsinin yaradılması

Mikromaliyyə xidmətləri göstərən institutların fəaliyyətinə riskəsaslı tənzimləmə və nəzarət çərçivəsi tətbiq ediləcəkdir. Sağlam kreditləşmə və məsuliyyətli borclanma prinsiplərinin maliyyə xidməti göstərən bütün institutlarda tətbiqi təmin olunacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Göstərilən tədbirlərin realizasiyası vasitəsilə ölkədə maliyyə inklüzivliyinin dərinləşdirilməsi, xüsusilə regionlarda və kənd yerlərində maliyyə xidmətləri ilə təminatın yaxşılaşdırılması, müştərilərə hərtərəfli və keyfiyyətli maliyyə xidmətlərinin göstərilməsi, regional iqtisadi inkişafa və məşğulluğa dəstək verilməsi hədəflənir.

Tələb olunan investisiya

Aparılacaq texniki-iqtisadi əsaslandırmanın nəticəsində müəyyən ediləcəkdir.


Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə yeni maliyyə xidmətlərinin əhali arasında tələb yarada bilməməsi, maliyyə savadlılığının hədəflənmiş səviyyəyə çatmaması və maliyyə vasitəçilərinin institusional potensialının adekvat olmaması kimi amillər müəyyən edilə bilər.

7.2. Strateji hədəf 2. Maliyyə bazarlarının inkişafı

Azərbaycanda fiziki və hüquqi şəxslərin maliyyə bazarlarına çıxışı digər ölkələrlə müqayisədə aşağıdır (şəkil 7). Qiymətli kağızlar bazarında əməliyyatlar həyata keçirilsə də, ticarət həcmləri kiçikdir (şəkil 8).

Şəkil 7. Azərbaycanda maliyyə bazarlarına çıxış *(ÜDM-də payı, faizlə)*




1. *London Fond Birjası və Alman Birjası (BK və Almaniya)* 2. *İstanbul Birjası*
3. *Afina Fond Birjası və Varşava Fond Birjası (Yunanıstan və Polşa)*
4. *Moskva Fond Birjası* 5. *Qazaxıstan Fond Birjası* 6. *Bakı Fond Birjası*

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası, Fond Birjaları

"2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı çərçivəsində həyata keçirilmiş tədbirlər sayəsində müəyyən irəliləyişə nail olunsa da, bu sahədə təkmilləşdirmə işlərinin davam etdirilməsi vacibdir. Belə ki, potensial investorların kapital bazarı və maliyyə alətləri haqqında məlumatlarının az olması, korporativ rəhbərliyin qiymətli kağızları qeydiyyata almaq

üçün şəffaf hesabatlılığa həvəs göstərməməsi və təksahiblik düşüncə tərzi kimi amillər qiymətli kağızlar bazarının inkişafına mənfi təsir göstərir.

Şəkil 8. Səhm və istiqraz bazarlarında əməliyyatların həcmi



1. Qeyri-mütəşəkkil bazar (alternativ bazar sövdələşmələri nəzərə alınmışdır)

Mənbə: Maliyyə Bazarlarına Nəzarət Palatası, Bakı Fond Birjası

7.2.1. Prioritet 2.1. Emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması

Əsaslandırma

Azərbaycanda şirkətlərin listinqə marağının artırılması maliyyə bazarlarının inkişafını sürətləndirə bilər. Belə ki, müvafiq dövlət qurumları üç istiqamət üzrə (təşviqedici tədbirlər, listinq prosesi, sahiblik düşüncəsi) tənzimləməni və qanunvericiliyi təkmilləşdirməklə listinqdə olan şirkətlərin sayını artıra bilərlər.

Mövcud qanunvericilik və tənzimləmə şirkətlərin listinqə çıxması üçün əlavə stimullar yaratmır, listinqdə olan və olmayan şirkətləri fərqləndirmir. Şirkətlərin listinqə daxil olmasını təşviq etmək məqsədilə müvəqqəti maliyyə və qeyri-maliyyə güzəştlərinin verilməsi nəzərdən keçirilə bilər.

"Kapital bazarının müasirləşdirilməsi" layihəsi çərçivəsində listinq tələblərinin yenilənməsi nəticəsində qeydiyyat prosesinin müddəti üç-dörd həftədən bir-iki həftəyə qədər azaldılmışdır. Bununla belə, qeydiyyat prosedurları daha da təkmilləşdirilməklə, bu müddət bir qədər də qısaldıla bilər.

Şirkətlərin fond birjasında listinqə çıxmasının təşviqi baxımından tam sahiblik hüquqlarının saxlanılması ilə bağlı ənənəvi düşüncə tərzinin dəyişdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Mövcud qanunvericilik tam sahiblik hüququnu dəstəkləyir, o cümlədən mövcud səhmdarlara üstünlük hüququ verməklə minoritar səhmdarların hüquqlarının qorunmasını məhdudlaşdırır. Korporativ idarəetmə, mühasibatlıq və

maliyyə nəzarətinin gücləndirilməsi, xarici və minoritar səhmdarların hüquqlarının bərabər səviyyədə qorunması istiqamətində tədbirlər nəzərdən keçirilə bilər. Bundan əlavə, mövcud səhmdarların üstünlük hüquqları (təkrar səhm buraxılışı zamanı səhmlərin açıq bazara buraxılmasından öncə mövcud səhmdarlara təklif edilməsi) aradan qaldırıla bilər.

Şirkətlərin emissiya etdiyi qiymətli kağızların dəyərini təyin etmək üçün istinad gəlirlilik səviyyəsinin müəyyən edilməsinə ehtiyac vardır. Beynəlxalq maliyyə bazarlarında istinad gəlirlilik kimi dövlət istiqrazlarının gəlirlilik əyrisindən istifadə edilir. Gəlirlilik əyrisinin formalaşdırılması üçün dövlət istiqrazlarının geniş müddət spektri üzrə (məsələn, 3 aylıq, 6 aylıq, 1 illik, 2 illik, 5 illik, 10 illik və 30 illik) müntəzəm emissiyası və təkrar bazarı olmalıdır.

Şirkətlərin, xüsusilə də bank sektorunun öz aktivlərini səmərəli idarə etməsi və likvid vəsaitlərə çıxış əldə etməsi üçün aktivlərdən gələn pul axınları ilə təmin edilmiş qiymətli kağızlar buraxmasına ehtiyacı vardır. Lakin bu tipdə qiymətli kağızların emissiyasını həyata keçirmək üçün qanunvericiliyin təkmilləşdirilməsi tələb olunur.

Görüləcək tədbirlər

Tədbir 2.1.1: Listinqə çıxışı məhdudlaşdıran amillərin təhlili

MBNP qanunvericilik və tənzimləmə çərçivəsini təhlil edəcək, listinqin stimullaşdırılması və listinq qaydalarının təkmilləşdirilməsi, həmçinin tam sahiblik düşüncə tərzinin dəyişdirilməsi üzrə müvafiq tədbirlər müəyyən edəcəkdir.

Tədbir 2.1.2: Stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi

MBNP şirkətləri listinqə cəlb etmək üçün beynəlxalq təcrübəni öyrənəcəkdir. Dövlət qurumları tərəfindən listinqdə olan şirkətlərə təklif edilə biləcək təşəbbüslər toplusu müəyyənləşdiriləcəkdir.

Tədbir 2.1.3: Yeni listinq prosedurlarının müəyyənləşdirilməsi

MBNP listinq prosesindəki maneələri və sadələşmə istiqamətlərini müəyyən etmək üçün dövlət və özəl sektorun nümayəndələri ilə müzakirələr təşkil edəcəkdir. Cari prosesdə olan bütün maneələri nəzərə alaraq, MBNP yeni listinq prosedurları tərtib edərək, aidiyyəti tərəflərlə razılaşdıracaqdır.

Tədbir 2.1.4: Sahiblik düşüncə tərzinin dəyişdirilməsi

MBNP sahiblik düşüncə tərzi ilə bağlı mövcud problemləri müəyyən etmək üçün təhlillər aparacaq, alternativ həll yollarının tapılması məqsədilə qabaqcıl beynəlxalq təcrübəni araşdıracaqdır.

Tədbir 2.1.5: Yol xəritəsinin hazırlanması və icrası

Təşviqedici tədbirləri, listinq proseslərini və sahiblik düşüncə tərzini təhlil etdikdən sonra MBNP müvafiq tədbirləri, məsul qurumları və icra müddətlərini özündə əks etdirən yol xəritəsini hazırlayacaq və onun icrasına başlayacaqdır.

Tədbir 2.1.6: Gəlirlilik əyrisinin formalaşdırılması

Maliyyə Nazirliyi, MBNP və Mərkəzi Bank dövlət qiymətli kağızları üzrə gəlirlilik əyrisinin formalaşdırılması üçün müvafiq tədbirlər planı hazırlayıb icra edəcəklər.

Tədbir 2.1.7: Sekyuritizasiya prosesinin təşviqi

MBNP sekyuritizasiya üzrə normativ hüquqi bazanın hazırlanması nəzərdə tutulur.

Gözlənilən nəticə və nəticə indikatorları

Tənzimləmə və qanunvericilik sahəsində təkmilləşmələr hesabına listinqdə olan şirkətlərin sayının artırılması maliyyə bazarlarını inkişaf etdirəcəkdir. Tədbirlərin 2020-ci ildə real ÜDM-ə təsirinin 110 milyon manat birbaşa və 15 milyon manat dolayı olmaqla, ümumilikdə 125 milyon manat olacağı proqnozlaşdırılır. ÜDM-ə müsbət töhfə maliyyələşmə xərclərinin azalması, əməliyyatların və gəlirlərin artması hesabına emitentlərin əməliyyat mənfəətliliyinin (EBİTDA) yüksəlməsi ilə izah olunur. Məşğulluğa hər hansı ciddi təsir gözlənilmir.

Fond birjasında listinqə mühüm sektorlardan daha 5 şirkətin çıxması əsas icra göstəricisi kimi müəyyən edilə bilər.

Tələb olunan investisiya

Fond birjasının texnologiya və informasiya infrastrukturunun təkmilləşdirilməsi üçün 10 milyon manat investisiya tələb olunur.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə şirkətlərin fəaliyyəti və maliyyə vəziyyətinə dair şəffaflığın aşağı olması, şirkətləri listinqə cəlb etmək üçün stimullaşdırıcı tədbirlərin yetərli olmaması, iqtisadi mühitin şirkətlərin listinqi üçün əlverişli olmaması, sahiblik düşüncə tərzinin dəyişdirilməsi ilə bağlı tədbirlərin uzun müddət tələb etməsi kimi amillər aid edilə bilər.

7.2.2. Prioritet 2.2. İnvestorların maliyyə bazarlarına çıxış imkanlarının artırılması

Əsaslandırma

Emitent və vasitəçilər üçün əlverişli mühitin yaradılması ilə yanaşı, investorların bazara çıxış imkanlarının artırılması məqsədilə özəl sektorun nümayəndələri ilə əməkdaşlıq çərçivəsində stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi, infrastrukturun təkmilləşdirilməsi, şəffaflığın artırılması və likvidliyin təmin edilməsi üzrə təşəbbüslər xüsusi əhəmiyyət kəsb edir.

Hazırda qiymətli kağızlar bazarında komisyon haqları aşağı olsa da (maliyyə alətinin növündən asılı olaraq 1-4 bazis bəndi), investorların, xüsusilə də institusional investorların qiymətli kağızlar bazarında iştirakını stimullaşdıran amillər azdır.

İnvestorların qiymətli kağızlar bazarında iştirakını təmin edən vacib amillərdən biri bazar infrastrukturudur. Hazırda Azərbaycanın qiymətli kağızlar bazarında əməliyyatın həyata keçirilməsi üçün xarici investorlardan vəsaitlərinin Milli Depozit Mərkəzində yerləşdirilməsinin tələb olunması yerli bazarın cəlbediciliyini azaldır. Milli Depozit Mərkəzi ilə qlobal kastodianlar arasında əlaqənin qurulması xarici investorların yerli maliyyə bazarlarında iştirakına imkan yarada bilər. Eyni zamanda, qlobal kastodianlarla əlaqələrin qurulması yerli maliyyə bazarlarında xarici qiymətli kağızların girov kimi istifadəsinə şərait yaradar ki, bu da yerli bazarlarda təminat çeşidini genişləndirərək bazarın likvidliyini yüksəldə bilər.

Şəffaflığın təmin edilməsi investorların bazarda iştirakını şərtləndirən mühüm amildir. Listinq səviyyəsinə görə, əsas bazar seqmentində beynəlxalq mühasibatlıq standartları tətbiq edilsə də, digər seqmentlərdə tələblər daha yumşaqdır.

Bazar likvidliyinin aşağı olması investorların qiymətli kağızlar bazarına marağını azaldır. Belə ki, tənzimlənən təkrar bazarda aparılan əməliyyatlar ümumi əməliyyat həcminin cəmi 2 faizini təşkil edir (şəkil 8). Səhmlərin dəyərinin müəyyənləşdirilməsi məhduddur ki, bu da investisiyaların real dəyərinin təsbit edilməsini çətinləşdirir.

Görüləcək tədbirlər

Tədbir 2.2.1: Maliyyə bazarlarına çıxış imkanlarının təhlili

MBNP qabaqcıl beynəlxalq təcrübəni araşdıracaq və bazar iştirakçıları ilə müzakirələr təşkil edəcəkdir. Bunun əsasında stimullar, infrastruktur, şəffaflıq və likvidlik üzrə təkmilləşmə istiqamətləri müəyyən olunacaqdır.

Tədbir 2.2.2: Fərdi və institusional investorlar üçün stimulların diferensiallaşdırılması

MBNP institusional və fərdi investorlar üçün təşviqedici tədbirləri, habelə investisiya müddətindən asılı olaraq stimulların diferensiasiyasını nəzərdən keçirəcəkdir.

Tədbir 2.2.3: Xarici investorların yerli maliyyə bazarına çıxış imkanlarının artırılması

Milli Depozit Mərkəzi qlobal kastodianlarla əlaqələr quracaq, klirinq və hesablaşmaların sürətləndirilməsi məqsədilə müvafiq işlər görəcəkdir.

Tədbir 2.2.4: Şəffaflığın artırılması üzrə təşəbbüslərin müəyyənləşdirilməsi

MBNP müvafiq beynəlxalq təcrübəni nəzərdən keçirəcək, məlumatların effektiv şəkildə ictimaiyyətə çatdırılması mexanizmini müəyyən edəcək, nəzarət potensialını artıracaq və insayder ticarəti (daxili ticarət) üzrə tənzimləməni sərtləşdirəcəkdir.

Tədbir 2.2.5: Müəyyən edilmiş tədbirlərin icrası

MBNP müəyyən edilmiş tədbirlərlə bağlı məsuliyyətləri və icra müddətlərini müəyyən edəcək, müvafiq icra prosesinin koordinasiyası və nəzarətini həyata keçirəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

İnvestorların maliyyə bazarlarına çıxış imkanlarının artırılması (o cümlədən stimullar, infrastruktur, şəffaflıq və likvidlik) maliyyə bazarlarını inkişaf etdirən əsas amillərdəndir. Bu prioritetin 2020-ci ildə real ÜDM-ə və məşğulluğa ölçülə bilən birbaşa təsiri müəyyən edilməmişdir. Prioritetin dolayı təsiri isə 2.1-ci prioritet üzrə hesablanmışdır.

Tələb olunan investisiya

Bu prioritet üçün əsaslı investisiya tələbi müəyyənləşdirilməmişdir. Stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi və platformaların yaradılması üçün müəyyən həcmdə resurs tələb oluna bilər. Xüsusi təşəbbüslər üçün tələb olunan məbləğin həcmi tədbirlərin tərkib hissəsi kimi təxmini müəyyən olunacaqdır.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə qiymətli kağızları emissiya edən şirkətlərin fəaliyyəti və maliyyə vəziyyəti ilə bağlı şəffaflığın aşağı olması, institusional və fərdi investorlar üçün təşviqedici tədbirlərin yetərli olmaması, ilkin və təkrar bazarlarda likvidliyin təmin edilməməsi, xarici investorların qiymətli kağızlara marağının aşağı olması kimi amillər aid edilə bilər.

7.2.3. Prioritet 2.3. Banklararası pul bazarında aktivliyin artırılması

Əsaslandırma

Banklararası pul bazarının iki seqmenti mövcuddur: vahid ticarət platformasına əsaslanan mütəşəkkil bazar və sövdələşmələrin telefon vasitəsilə aparıldığı qeyri-mütəşəkkil bazar. Maliyyə bazarlarında şəffaflıq və likvidliyin təmin olunması baxımından mütəşəkkil banklararası pul bazarının inkişafı vacibdir.

Mütəşəkkil banklararası pul bazarında artım meyilləri müşahidə edilsə də, burada aparılan əməliyyatların həcmi kiçikdir və banklararası pul bazarının məhdud hissəsini təşkil edir. AMB tərəfindən mütəşəkkil banklararası pul bazarının formalaşdırılması və inkişafı istiqamətində bir sıra tədbirlər görülmüşdür. Belə ki, AMB-nin təşəbbüsü ilə təminatlı pul bazarı seqmenti yaradılmışdır. Buna baxmayaraq banklar arasında inamsızlıq, təminat çeşidlərinin məhdud olması, bazar vasitəçilərinin olmaması kimi amillər bazarın aktivliyini məhdudlaşdırır.

Bank sistemində restrukturizasiya və sağlamlaşdırma proseslərinin başa çatmaması banklar arasında inamsızlığı artırır. Birinci və dördüncü strateji hədəflərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi inamsızlıq probleminin aradan qaldırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bununla yanaşı, təminat kimi istifadə edilə bilən qiymətli kağızların həcminin və çeşidinin məhdud olması bazarın inkişafına mənfi təsir edir. Dərin və likvid qiymətli kağızlar bazarının inkişafına dair tədbirlər 2.1-ci və 2.2-ci prioritetlərdə verilmişdir.

Banklararası bazarda likvidliyin təmin olunması üçün digər vacib bir element bazar vasitəçiləri olan marketmeyker institutudur. Marketmeyker kimi seçilmiş banklar ilkin bazar hərraclarına müstəsna giriş və imtiyazlar müqabilində banklararası bazarda əməliyyatlar aparmaq, ilkin bazar hərraclarında alış-satış qiymətini müəyyənləşdirmək, təkrar bazarın likvidliyini təmin etmək, fəaliyyəti barədə məlumatları açıqlamaq və s. kimi öhdəliklər daşıyırlar.

Görüləcək tədbirlər

Tədbir 2.3.1: Banklararası pul bazarının təşviqi

MBNP və AMB banklararası pul bazarının inkişafı üzrə fəaliyyətlərini əlaqələndirəcəklər. Banklararası əməliyyatların vahid ticarət platformasında aparılması üzrə təşviqedici tədbirlər müəyyən ediləcəkdir.

Tədbir 2.3.2: Təminat çeşidinin artırılması

AMB açıq bazar əməliyyatlarında təminat kimi qəbul edilə bilən qiymətli kağızların spektrinin daha da genişləndirilməsi imkanlarını nəzərdən keçirəcək və tədbirlər müəyyən edəcəkdir.

Tədbir 2.3.3: Marketmeyker institutunun yaradılması

AMB MBNP ilə birlikdə, marketmeyker institutunun tətbiqi imkanlarını qiymətləndirəcəkdir. Marketmeyker institutunun yaradılması məqsədəuyğun hesab edilərsə, AMB marketmeykerlərin seçim meyarlarını (aktivlərin həcmi, sistem əhəmiyyətliliyi, təcrübəli heyət, müasir texnologiyaya çıxış, maliyyə dayanıqlılığı və s.), tələb və imtiyazlarını MBNP ilə birlikdə müəyyən edəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Banklararası pul bazarında əməliyyatların həcmi artacaqdır ki, bu da maliyyə bazarlarının likvidliyinə, maliyyə institutlarının likvidlik idarəetməsinə və səmərəliliyinə müsbət təsir edəcəkdir. Təkmil banklararası pul bazarı, eyni zamanda, pul siyasətinin

hədəflərinə açıq bazar əməliyyatları vasitəsilə çatmağa imkan yaradacaqdır. Bu prioritetin 2020-ci ildə real ÜDM-ə və məşğulluğa birbaşa təsiri gözlənilmir.

Tələb olunan investisiya

Bu prioritetin həyata keçirilməsi üçün əlavə investisiyaların tələb olunacağı gözlənilmir.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə qabaqcıl bankların təminat mexanizminin formalaşdırılmasında maraqlı olmaması, risklərin yüksək olması səbəbindən marketmeyker institutunun tam təşəkkül tapmaması kimi amillər aid edilə bilər.

7.3. Strateji hədəf 3. İnfrastrukturun gücləndirilməsi

Azərbaycanda maliyyə infrastrukturunun ilkin quruculuq işləri tamamlanmışdır. Maliyyə infrastrukturu elementləri olan ödəniş sistemləri[1], kredit reyestri və maliyyə münasibətlərini tənzimləyən normativ hüquqi baza yaradılmışdır. Bununla belə, kredit məlumatlarının mübadiləsi sistemi və mövcud normativ hüquqi baza daha da təkmilləşdirilməlidir.

7.3.1. Prioritet 3.1. Kredit məlumatlarının mübadiləsi sisteminin təkmilləşdirilməsi

Əsaslandırma

Maliyyə institutları tərəfindən kredit riskini operativ, dolğun və səmərəli qiymətləndirmək, kreditor və borcalanların maraq və hüquqlarının qorunmasını, habelə iqtisadi subyektlərin maliyyə intizamının gücləndirilməsini təşviq etmək məqsədilə 2005-ci ildən ölkədə Mərkəzləşdirilmiş Kredit Reyestri (MKR) fəaliyyət göstərir. MKR-in 2013-cü ildən "ASAN xidmət"ə qoşulması iqtisadi subyektlərin göstərilən xidmətlərə çıxış imkanlarının və operativliyinin artırılmasına təkan vermişdir.

Bununla belə, MKR-də məlumat mübadiləsi ölkədə fəaliyyət göstərən banklar, bank olmayan kredit təşkilatları və potensial borcalanlarla məhdudlaşır. MKR-də borcalanlar və zaminlər haqqında ətraflı məlumat (kreditin növü, məbləği, ödəniş tarixçəsi, təminatın növü və dəyəri) toplansa da, borcalanlar üzrə skorinq qiymətləndirilməsi aparılmır. Beynəlxalq təcrübədə skorinq xidmətləri özəl kredit büroları tərəfindən təklif edilir. Bundan əlavə, özəl kredit büroları istehlakçı davranışı (kommunal, rabitə və digər xidmətlər üzrə ödənişlər əsasında), fırıldaqçılığın məhdudlaşdırılması, kreditlər üzrə qərarvermə alətləri, müştəri perspektivləri və marketinq araşdırmaları, habelə korporativ müştərilərlə davranış (borclanma ilə əlaqəli olmayan əməliyyatlar da daxil olmaqla) reytinqi kimi əlavə xidmətlər təklif edə bilirlər.

Skorinqdən əlavə, kredit risklərinin idarə olunması üçün istifadə olunan daha qabaqcıl alətlərdən biri şirkətlərə verilən kredit reytinqidir. Kredit reytinqlərindən qiymətli kağızların emitentləri, investisiya strategiyasının müəyyənləşdirilməsi zamanı fərdi və institusional investorlar, habelə tənzimləmə və nəzarət məqsədilə aidiyyəti qurumlar faydalanırlar. Belə ki, fərdi reytinq əsasında kredit riskinin qiymətləndirilməsi kapital və ehtiyatlanma tələblərinin daha dəqiq müəyyən olunmasına imkan verir. Bu da ayrı-ayrı maliyyə institutlarının və bank sektorunun maliyyə dayanıqlılığının və rəqabət qabiliyyətinin artırılmasına, resursların daha səmərəli istifadəsinə zəmin yaradır. Milli reytinq agentliklərinin olmaması ilə əlaqədar bu xidmətlər yalnız

[1]Ödəniş sistemləri barədə ətraflı məlumat "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir.

beynəlxalq reytinq agentlikləri tərəfindən göstərilir. Nəticədə, az sayda iri şirkət qeyd edilmiş xidmətlərə çıxış əldə edir.

Bütövlükdə, kredit məlumatlarının mübadiləsi sisteminin təkmilləşdirilməsinə ehtiyac vardır.

Görüləcək tədbirlər

Tədbir 3.1.1: Özəl kredit bürolarının yaradılmasının təşviqi

Kredit büroları haqqında qanun və tənzimləyici sənədlər qəbul ediləcək, özəl kredit bürolarının yaradılmasını dəstəkləyən digər tədbirlər müəyyən olunacaqdır (tədbirin icrasına başlanılmışdır).

Tədbir 3.1.2: MKR ilə özəl kredit büroları arasında məlumat mübadiləsinin təşkili

MBNP özəl kredit büroları ilə MKR arasında məlumat mübadiləsi mexanizmini və texniki tələbləri müəyyən edəcəkdir.

Tədbir 3.1.3: Milli reytinq agentliklərinin yaradılması imkanlarının qiymətləndirilməsi

MBNP qabaqcıl beynəlxalq təcrübələri nəzərə almaqla milli reytinq agentliklərinin yaradılması imkanlarını qiymətləndirəcəkdir. Müvafiq qərara uyğun tədbirlər planı hazırlanacaq və icrasına başlanacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi nəticəsində borcalanlar barədə daha geniş məlumat bazası yaradılacaqdır. Bu prioritetin 2020-ci ildə real ÜDM-ə və məşğulluğa ölçülə bilən birbaşa təsiri gözlənilmir.

Tələb olunan investisiya

Kredit bürolarının funksionallığının artırılması və informasiya texnologiyaları sisteminin təkmilləşdirilməsi üçün 5 milyon manat həcmində investisiya tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə bankların özəl kredit bürosunun yaradılmasına investisiya yatırmaq istəyinin, yaxud potensialının aşağı olması, yaradılacaq kredit bürosunun xidmətlərinin gözləntiləri qarşılamaması, məlumat təhlükəsizliyinin adekvat səviyyədə təmin edilməməsi kimi amillər aid edilə bilər.

7.3.2. Prioritet 3.2. Hüquqi çərçivəyə yenidən baxılması, məhkəmə qərarlarının qəbulu və icrası proseslərinin sürətləndirilməsi

Əsaslandırma

Qeyri-işlək aktivlərin həcminin azaldılmasının ən mühüm vasitələrindən biri kreditorların hüquqlarının müdafiəsi və öhdəliklərin yerinə yetirilməsi üzrə işlək məhkəmə sistemi və icra mexanizminin olmasıdır. Mövcud qanunvericiliyin bəzi hallarda qeyri-müəyyən olması, habelə məhkəmə qərarlarının qəbulunun və həmin qərarların icrasının gecikdirilməsi mövcud məhkəmə təcrübəsinin daha da təkmilləşdirilməsinin zəruri olduğunu göstərir.

Bank əməliyyatları üzrə qanunvericilikdə qeyri-müəyyənliklər mövcuddur. Məhkəmə qərarlarının icrası üsullarının təfərrüatlı olmaması fərqli şərhlərə şərait yaradır ki, bu da müvafiq qərarların icra olunmasını çətinləşdirir. Məhkəmələr borcun ödənilməsi üsullarını müəyyən etməkdə çətinlik çəkir (məsələn, əməkhaqqı, vəsaitin aktivlərdən tutulması və s.). Bu hal, xüsusilə də mürəkkəb məhkəmə işlərində müşahidə olunur. Bundan əlavə, ləğvetmə prosesi və təminatın rəsmiləşdirilməsi üzrə qanunvericiliyin qeyri-müəyyən olması öhdəliklərin icra müddətinin uzanmasına səbəb olur. Ləğvetmə prosesində son tarix, qiymətləndirmə ilə bağlı məsuliyyət bölgüsü və prosedurlar, prioritetlərin təsnifləşdirilməsi, aktivlərin satışı və s. məsələlərin qanunvericilikdə dəqiq müəyyən olunmaması məhkəmə qərarlarının icrasını ləngidir və ziddiyyətlər yaradır.

Məhkəmə prosesləri müxtəlif etirazlar vasitəsilə asanlıqla uzadıla bilər. Borcalan satışa çıxarılan aktivlərin qiymətləndirilməsi ilə razı olmadığı təqdirdə əmlakın satılması üzrə hərrac dəfələrlə təxirə salına bilər. Bundan əlavə, məhkəmə işlərinin çox olması və son tarixlərin dəqiq müəyyən edilməməsi səbəbindən maliyyə məsələləri üzrə məhkəmə qərarlarının icrası gec həyata keçirilir. Bu şəraitdə məhkəmə icraçıları müəyyən işləri prioritetləşdirirlər ki, bu da digər işlərin icrasının qeyri-müəyyən müddətə uzadılmasına səbəb olur.

Bütövlükdə, kreditorların hüquqlarının müdafiəsi mexanizmlərinin qənaətbəxş səviyyədə olmaması və məhkəmə qərarlarının icrasında intizamın nisbətən aşağı olması riskləri daha da artırmaqla, maliyyə institutlarının xərclərini yüksəldir. Tələbin təminata yönəldilməsi prosedurlarının uzun olması və bu prosesin nisbətən yüksək xərclər hesabına başa gəlməsi maliyyə vasitəçiliyini məhdudlaşdırır. Bu isə maliyyə məsələləri üzrə məhkəmə-hüquq infrastrukturunda bu vaxta qədər aparılan islahatların davam etdirilməsi və icra prosesinin təkmilləşdirilməsi, eləcə də qanunvericilik aktlarına yenidən baxılması istiqamətləri üzrə kompleks tədbirlərin həyata keçirilməsini zəruri edir.

Görüləcək tədbirlər

Tədbir 3.2.1: Məhkəmə qərarlarının icrasının diaqnostikası və təkmilləşdirmə istiqamətlərinin müəyyən edilməsi

Azərbaycanda maliyyə mübahisələrində icra prosesi ilə bağlı mövcud vəziyyətin hərtərəfli diaqnostikası məqsədilə MBNP Ədliyyə Nazirliyi və maliyyə institutları ilə birlikdə səlahiyyətli işçi qrup yaradacaqdır. Diaqnostika icra prosesini mürəkkəbləşdirən və ləngidən halları müəyyənləşdirəcək, məhkəmə qərarlarının qəbulu və icrası, girovun rəsmiləşdirilməsi və təminata tutmanın yönəldilməsi, girovları ləğvetmə, qiymətləndirmə və reallaşdırma üzrə hərracların təşkilini və apellyasiya proseslərini əhatə edəcəkdir. Bu zaman girov predmetinə tələbin məhkəmədənkənar qaydada yönəldilməsinin hüquqi əsaslarının yaradılması, girovların satışı üzrə

hərracların xidmət haqqının real xərc prinsipi əsasında müəyyən edilməsi və girovların satışının alternativ üsullarla həyata keçirilməsi imkanları qiymətləndiriləcək və müvafiq tədbirlər həyata keçiriləcəkdir.

Tədbir 3.2.2: Kompleks həll yollarının müəyyənləşdirilməsi

İşçi qrup qeyd olunan istiqamətləri icra prosesinin keyfiyyətinə və müddətinə təsiri baxımından prioritetləşdirəcəkdir. Sonrakı mərhələdə isə Azərbaycandakı proseslər qabaqcıl beynəlxalq təcrübə ilə müqayisə edilərək kompleks həll yolları müəyyən ediləcək, qanunvericiliyə dəyişikliklər hazırlanacaqdır.

Tədbir 3.2.3: Tədbirlər planının hazırlanması və tətbiqinə başlanılması

İşçi qrup müvafiq tədbirlər planı hazırlayacaqdır. Təsdiq edilmiş tədbirlər planının müvafiq qurumlar tərəfindən tətbiqinə başlanılacaqdır.

Tədbir 3.2.4: Tədbirlər planının monitorinqi

Sistemin təkmilləşdirilməsi məqsədilə görülmüş tədbirlərin nəticəsi üzrə monitorinq və qiymətləndirilmə aparılacaqdır. Zərurət yarandığı halda əlavə tədbirlər müəyyən ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Məhkəmə qərarlarının standartlaşdırılması və icra prosesinin sürətləndirilməsi məqsədilə maliyyə xidmətlərinin hüquqi çərçivəsinin nəzərdən keçirilməsi üçün işçi qrupun yaradılması maliyyə sektorunda şəffaflıq və səmərəliliyin yüksəldilməsinin təkanverici amilidir. Bu prioritet maliyyə sektoruna geniş təsir etməklə yanaşı, hüquqi çərçivənin yaxşılaşdırılmasına da xidmət edəcəkdir. Prioritetin ÜDM-ə və məşğulluğa birbaşa ölçülə bilən təsiri gözlənilmir.

Tələb olunan investisiya

Prioritetdə əsas etibarilə tənzimləmə və qanunvericilik ilə bağlı dəyişikliklər müəyyənləşdirildiyi üçün bu mərhələdə hər hansı əsaslı investisiya tələbi nəzərdə tutulmur. Bir sıra proseslər üzrə islahatların icrası üçün maliyyə resursları tələb oluna bilər, lakin bu tələb sonrakı mərhələdə tədbirlərin icrası zamanı müəyyən ediləcək və məhdud həcmdə olacaqdır.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə ayrı-ayrı əlaqədar qurumların məsələyə fərqli mövqedən yanaşması, normativ hüquqi aktlara əlavə və dəyişikliklərin vaxtında hazırlanıb təqdim edilməməsi, maliyyə xidmətlərindən yaranan məsələlər üzrə hakimlərin zəruri biliklərinin hər zaman yetərli səviyyədə olmaması kimi amillər aid edilə bilər.

7.4. Strateji hədəf 4. Tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi


MBNP beynəlxalq təcrübədə qəbul edilmiş qabaqcıl tənzimləmə prinsiplərinin əsasında başlıca risk növləri üzrə kapital tələblərini, habelə riskəsaslı nəzarət mexanizmlərini müəyyən etməklə banklarda daha sağlam risk idarəetməsinə nail ola bilər. Eyni zamanda, maliyyə sektorunda şəffaflığın artırılmasının və maliyyəyə çıxış imkanlarının texnoloji vasitələr hesabına genişləndirilməsinin təşviqi maliyyə dərinliyinin artmasını təmin edə bilər.

7.4.1. Prioritet 4.1. Banklarda daha sağlam risk idarəetməsinin təmin edilməsi

Banklarda risklərin idarə edilməsinə dair tənzimləyici tələblərin dövri olaraq sərtləşdirilməsi sektorda risk idarəetməsi ənənələrinin formalaşmasına şərait yaratmışdır. Bununla belə, mövcud iqtisadi şəraitdə bankların risklərə həssaslığının artması və yeni risk zonalarının yaranması risklərin idarə edilməsi ilə bağlı təcrübələrin təkmilləşdirilməsini zəruri edir. Banklarda risklərin idarə edilməsinin təkmilləşdirilməsi üçün mövcud prudensial tələblərin mərhələli şəkildə Bazel Komitəsinin müəyyən etdiyi tənzimləmə prinsiplərinə uyğunlaşdırılması, habelə korporativ idarəetmə ənənələrinin təkmilləşdirilməsi məsələsi aktuallaşır.

Bankların risk profilində əsas yeri kredit riskləri təşkil edir. 2011-ci ildən 2015-ci ilədək QİK əmsalı ən yüksək həddinə çatmışdır (şəkil 9). Belə ki, 2015-ci ildə cəmi portfel üzrə QİK əmsalı 13,9 faiz təşkil etdiyi halda, Türkiyədə müvafiq göstərici 2,8 faiz olmuşdur. 2016-cı ilin birinci rübündə Azərbaycanda cəmi portfel üzrə QİK əmsalı 16,8 faizə çatmışdır.

Şəkil 9. Qeyri-işlək kreditlərin həcmi




1. *Yüksək QİK-ə əsasən ABB səbəb olmuşdur*
2. *"Aqrarkredit" QSC-yə ötürülmüş portfel istisna olmaqla*

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, Maliyyə Bazarlarına Nəzarət Palatası

Bundan əlavə, son dövrlərdə restrukturizasiya olunmuş portfelin həcmində baş vermiş artım Azərbaycanda kredit risk idarəetməsinə yeni yanaşmanın tətbiqini zəruri edir. Belə ki, 2015-ci ildə restrukturizasiya olunmuş kreditlərin ümumi həcmi əvvəlki ilə nəzərən 6 faiz bəndi artmış, xarici valyuta portfelində bu artım daha yüksək olmuşdur (şəkil 10).

Şəkil 10. Restrukturizasiya olunmuş kreditlərin cəmi kreditlərdə payı *(faizlə)*



1. *ABB-nin göstəriciləri təhlillərdə nəzərə alınmamışdır*

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı

Bütövlükdə, satış, risk idarəetməsi və anderraytinq prosedurları arasında koordinasiyanın zəif olması kredit risklərinin artmasını şərtləndirən amillərdəndir. Qabaqcıl təcrübələrdə isə satış, anderraytinq və qərarvermə arasında tarazlaşdırılmış səlahiyyət bölgüsü müəyyən edilir.

Mütərəqqi təcrübədə risklərin azaldılması üçün istifadə olunan əsas yanaşma iri korporativ şirkətlər üzrə müştəriəsaslı, kiçik və orta sahibkarlıq (KOS) seqmenti üzrə isə standartlaşdırılmış strategiyanın tətbiq edilməsidir. Azərbaycanda müştərilərin bütün seqmentləri üzrə tədbirlər müştəriəsaslıdır, KOS və mikro seqmentlər üçün standartlaşdırma adətən aparılmır.

Kredit risklərinin monitorinqi prosedurları təkmilləşdirilməlidir. Belə ki, banklar risklərin təsnifləşdirilməsini, bir qayda olaraq, mexaniki və dövri qaydada aparırlar. Risklərin aşkarlanması üçün avtomatlaşdırılmış sistemlərdən geniş istifadə edilmir. Qabaqcıl təcrübələrdə risklərin aşkarlanması avtomatlaşmış şəkildə "erkən xəbərdarlıq sistemləri"nə əsaslanmaqla aparılır.

Bazar risklərinin, xüsusən məzənnə risklərinin idarə edilməsi üçün hedcinq alətlərinin məhdud olması bankların risklərə həssaslığını yüksəltmişdir. Nəticədə, öhdəliklərin aktivlərlə müqayisədə daha sürətlə dollarlaşması 2015-ci ildə baş vermiş devalvasiyalar zamanı sektorun böyük zərərlə üzləşməsinə səbəb olmuşdur. Bu isə bazar risklərinə görə əlavə kapital buferinin tələb edilməsini aktuallaşdırır.

Görüləcək tədbirlər

Tədbir 4.1.1: Bank sektorunda risk idarəetməsinin diaqnostikası

MBNP banklarda risklərin idarə edilməsinin təkmilləşdirilməsi üçün cari vəziyyətin diaqnostikasını aparacaq və Bazel II/III prinsipləri ilə müqayisə edəcəkdir. Diaqnostika əsasında, MBNP təkmilləşdirmə istiqamətlərini müəyyən edərək prioritetləşdirəcək və istinad ediləcək müvafiq təcrübələri dəqiqləşdirəcəkdir. Eyni zamanda, korporativ idarəetmənin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

Tədbir 4.1.2: Yol xəritəsinin hazırlanması

Növbəti mərhələdə MBNP bank sektoru üçün Bazel II standartının 2-ci sütununun tam tətbiqi üçün aydın müddət qrafikini və dəqiq son tarixləri müəyyən edəcək, bu istiqamətdə zəruri qaydalar və metodologiyalar hazırlayacaqdır. Eyni zamanda, bazar və əməliyyat risklərinə dair prudensial tənzimləmə mexanizmi formalaşdırılacaq, həmçinin bazar risklərinin kapital ilə əhatə olunması qaydası müəyyən ediləcəkdir. Bank nümayəndələri üçün təqdimatlar keçiriləcəkdir.

Tədbir 4.1.3: Sistem əhəmiyyətli bankların tənzimləmə mexanizminin müəyyən edilməsi

Bazel standartlarına keçid çərçivəsində sistem əhəmiyyətli banklar üçün diferensial tənzimləmə mexanizminin tətbiqi ilə bağlı prudensial tələblərə dəyişikliklər nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Banklarda sağlam risk idarəetmə təcrübələrinin tətbiq edilməsinin 2020-ci ildə real ÜDM-ə təsiri 205 milyon manat birbaşa və 30 milyon manat dolayı olmaqla, ümumilikdə 235 milyon manat həcmində qiymətləndirilir. Məşğulluq üzrə əhəmiyyətli dəyişikliklər gözlənilmir.

Prioritet üzrə aşağıdakı hədəf indikatorlar müəyyənləşdirilmişdir:

- maliyyə dərinliyinin (cari kreditlərin qeyri-neft ÜDM-ə nisbəti) 60 faiz təşkil etməsi;
- QİK əmsalının mövcud 14 faizdən 8 faizədək endirilməsi.

Tələb olunan investisiya

Bu prioritetin həyata keçirilməsi üçün əhəmiyyətli investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə bankların yeni prudensial tələblərin tətbiqinə hazır olmaması, yeni tələblərə uyğunlaşmaq üçün tələb olunan investisiya qoyuluşunu təmin etmək potensialının aşağı olması, yeni prudensial çərçivənin qısamüddətli dövr üçün bankların mənfəətliliyinə və kapital mövqeyinə neqativ təsir etməsi kimi amillər aid edilə bilər.

7.4.2. Prioritet 4.2. Maliyyə xidmətləri sektorunda konsolidasiya edilmiş riskəsaslı nəzarət modelinin tətbiqi

Maliyyə bazarlarına nəzarət üzrə mövcud çərçivə nəzarət subyektlərinin fərdi qaydada təhlilinin həyata keçirilməsinə imkan versə də, konsolidasiyaəsaslı təhlillərin aparılması üçün müəyyən məhdudiyyətlər yaradır. Konsolidasiya edilmiş prudensial nəzarət və hesabatlılıq sisteminin olmaması bankların törəmə təsisatları da daxil olmaqla, ümumi risk profilinin qiymətləndirilməsi zamanı çətinliklərin yaranmasına səbəb ola bilər.

Konsolidasiyaəsaslı nəzarətin tətbiqinin məhdud olması maliyyə institutlarına təsir edə biləcək kənar amillərin risk profilinin qiymətləndirilməsinə daxil edilməməsinə və sistem risklərinin yaranmasına səbəb olur. Beynəlxalq təcrübədə bu risklərin idarə edilməsi üçün törəmə təşkilatları olan maliyyə institutlarından fərdi prudensial hesabatlarla yanaşı, konsolidasiya edilmiş dövri prudensial hesabatlar da tələb edilir və effektiv nəzarət həyata keçirilir.

Mövcud yanaşmaya görə, nəzarət rejiminin müəyyən edilməsində bankların risk profili və sistem əhəmiyyətliliyi qismən nəzərə alınır. Nəticədə, risklərin qabaqlayıcı rejimdə aşkarlanması məhdudlaşır. Qabaqcıl təcrübələrdə analoji problemin həlli üçün riskəsaslı bank nəzarəti modeli tətbiq edilir və bu çərçivədə funksionaləsaslı nəzarət yanaşması bankəsaslı yanaşma ilə əvəz olunur. Bu model bankın risk profili barədə daha dərin qiymətləndirmələrin aparılmasını və mütəmadi yenilənməsini təmin edir. Bankların risk profili və sistem əhəmiyyətliliyi isə nəzarət rejiminin müəyyən edilməsində əsas faktor kimi çıxış etməklə, resursların daha effektiv fəaliyyətini təmin edir.

Riskəsaslı nəzarət modeli, eyni zamanda, sistem əhəmiyyətli banklara nəzarətin daha effektiv şəkildə təşkil edilməsini təmin edəcəkdir.

Qabaqcıl təcrübələrdə riskəsaslı nəzarət yanaşması banklarla yanaşı, maliyyə sisteminin digər iştirakçıları üzrə də tətbiq edilir. Sığorta sektorunda nəzarətin riskəsaslı yanaşmaya uyğun aparılması sağlam maliyyə sisteminin formalaşdırılması baxımından faydalı ola bilər.

Nəzarət arsenalının riskəsaslı model ilə genişləndirilməsi isə öz növbəsində maliyyə bazarlarında risklərin daha dəqiq qiymətləndirilməsini, proqnozlaşdırılmasını və idarə edilməsini təmin edəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 4.2.1: Konsolidasiya edilmiş prudensial nəzarət mexanizminin araşdırılması

Banklar üzrə konsolidasiya edilmiş prudensial nəzarət mexanizminin əhatəliliyinin və tələb olunacaq hesabatların dərinliyinin müəyyən edilməsi məqsədilə MBNP beynəlxalq təcrübənin araşdırılmasını həyata keçirəcəkdir.

Tədbir 4.2.2: Prudensial nəzarətin konsolidasiyaəsaslı təşkil edilməsi

Araşdırmalar nəticəsində bu tədbirlərin Azərbaycan üçün uyğunluğu təsdiq olunarsa, konsolidasiya edilmiş prudensial nəzarət mexanizminin yaradılması üçün yol xəritəsi hazırlanacaq və tədbirlərin icrasına başlanılacaqdır.

Tədbir 4.2.3: Konsolidasiya edilmiş riskəsaslı nəzarət yanaşmasının araşdırılması

Bank və sığorta sektoru üzrə konsolidasiya edilmiş riskəsaslı nəzarət modelinin tətbiq edilməsi yolları araşdırılacaq, qabaqcıl beynəlxalq təcrübələr öyrəniləcək və uyğun model müəyyənləşdiriləcəkdir.

Tədbir 4.2.4: Konsolidasiya edilmiş riskəsaslı nəzarətə keçidin təmin edilməsi

Riskəsaslı nəzarətin həyata keçirilməsi üzrə daxili prosedurlar hazırlanacaq, hesabatvermə formaları və biznes prosesləri müəyyən ediləcəkdir. Yeni modelə keçid məqsədilə nəzarətçilər və maliyyə institutlarının nümayəndələri üçün müvafiq təlimlər təşkil olunacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin ÜDM və məşğulluğa birbaşa ölçülə bilən təsiri gözlənilmir.

Tələb olunan investisiya

Bu prioritetin həyata keçirilməsi üçün əhəmiyyətli investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə riskəsaslı nəzarətin tətbiqi üçün ilkin şərtlərdən olan banklarda daxili nəzarət və daxili audit işinin tələb olunan standartlara müvafiq təşkil edilməməsi, risklərin qiymətləndirilməsi zamanı keyfiyyət meyarlarının düzgün qiymətləndirilməməsi, konsolidasiya edilmiş və riskəsaslı nəzarətin tətbiqi metodikasının düzgün müəyyən edilməməsi kimi amillər aid edilə bilər.

7.4.3. Prioritet 4.3. Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi

Son bir neçə onillikdə qlobal miqyasda bankçılığa dair müştəri gözləntiləri əhəmiyyətli dərəcədə dəyişmişdir. Yeni gözləntilər əsasən fərdiləşmiş və sadə xidmətlərə yönəlmişdir ki, bu da bankların əməliyyat modellərinin effektivlik baxımından transformasiyasına səbəb olmuşdur. Ölkədə bankçılığın davamlı inkişafının təmin edilməsi və müştərilərə yüksəkkeyfiyyətli xidmətlərin göstərilməsi məqsədilə rəqəmsallaşdırma və səmərəliliyin yüksəldilməsinə dəstəyin verilməsi xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq təcrübədə bankların standart məhsul yanaşmasından fərdiləşmiş məhsul yanaşmasına keçidi müşahidə edilmişdir. Köhnə sistemdə standart məhsullar (kredit, depozit, sadə əməliyyatlar və ödənişlər) təklif olunduğu halda, yeni sistem ödəniş şərtləri, faiz dərəcələri, nağd əməliyyatlar və s. üzrə yaranmış sonsuz müştəri tələblərinə uyğunlaşdırılır. Bunun nəticəsində bank müştərilərinin rahatlıq, sürət və fərdiləşdirilmiş xidmətlərlə bağlı gözləntiləri dəyişmişdir. Əməliyyatların mobil telefonlar vasitəsilə aparıla bilməsi və sorğuların dərhal cavablandırılmasına dair istehlakçı istəkləri bu dəyişikliklərə nümunə ola bilər.

Müştəriyönümlü dəyişikliklər bankların rəqəmsallaşma istiqamətində transformasiyasını təşviq edir. Bankın tam rəqəmsallaşdırmaya nail olması üçün standart əməliyyatlar və sadə məhsullar alternativ xidmət kanallarına ötürülür. Alternativ xidmət kanallarının effektiv fəaliyyəti üçün İT arxitekturası və infrastrukturu dəyişdirilir.

Azərbaycanın bank sistemində bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilmişdir. Əksər banklar standartlaşdırma və mərkəzləşdirmə mərhələsində, bəzi banklar isə rəqəmsallaşdırma prosesinin erkən mərhələsindədir. Rəqəmsallaşdırmaya tam keçid sektorda əməliyyat risklərinin azalmasını təmin edə bilər.

Görüləcək tədbirlər

Tədbir 4.3.1: Banklarda rəqəmsallaşma ilə bağlı cari vəziyyətin qiymətləndirilməsi

MBNP mövcud proses və qaydaların təhlilinin aparılması üçün məsul işçi qrup yaradacaqdır. Qrup görüşlər, müsahibələr və sorğular vasitəsilə bankların rəqəmsallaşmaya hazırlığını qiymətləndirəcək, habelə rəqəmsallaşma ilə bağlı qlobal təcrübələri öyrənəcəkdir.

Tədbir 4.3.2: Tənzimləmə mexanizmində zəruri dəyişikliklərin müəyyən edilməsi

İşçi qrup kağızəsaslı əməliyyatlara və onlar üzərində nəzarət tədbirlərinə, nağdsız əməliyyatlar üzrə məhdudiyyətlərə və izafi hesabatlılıq kimi məsələlərə fokuslanmaqla, tənzimləmə mexanizmində zəruri dəyişiklikləri müəyyən edəcəkdir.

Tədbirlər bank əməliyyatlarının səmərəliliyinə və rəqəmsallaşdırılmasına təsiri əsasında prioritetləşdiriləcəkdir.

Tədbir 4.3.3: Müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi

MBNP qaydalara dəyişiklikləri həyata keçirəcək və yeni qaydaların tətbiqinə nəzarət edərək, banklarda rəqəmsallaşdırma proseslərinin sürətlənməsini dəstəkləyəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Tənzimləmə mexanizminin nəzərdən keçirilməsi və müvafiq dəyişikliklərin edilməsi hesabına rəqəmsallaşma sektorda effektivliyin artırılmasına səbəb olacaqdır. Bu da 2020-ci ildə real ÜDM-ə, 120 milyon manat birbaşa və 15 milyon manat dolayı olmaqla, 135 milyon manat həcmində töhfə verəcəkdir. Tədbirlər əsasən effektivliyin artırılmasına yönəldiyindən məşğulluğa əhəmiyyətli təsiri gözlənilmir.

Prioritet üzrə hədəf indikatorları aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- bütün pərakəndə satış banklarının rəqəmsal sistemə keçid təşəbbüslərində iştirakının təmin edilməsi;
- rəqəmsal transformasiya nəticəsində 2020-ci ildə pərakəndə satış banklarının konsolidasiya edilmiş gəlirliliyinin əlavə olaraq 20 faizədək yaxşılaşdırılması.

ÜDM-ə təsir əlavə satışlar, xidmət keyfiyyətinin artırılması və yeni səmərəli fəaliyyət istiqamətlərinin təmin edilməsi nəticəsində xalis gəlir marjasının yüksəlməsi hesabına təmin ediləcəkdir.

Tələb olunan investisiya

2020-ci ilədək bankların potensialının və sisteminin inkişafı üçün ümumilikdə 100 milyon manat məbləğində əsaslı kapital qoyuluşu tələb olunur.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə bankların rəqəmsallaşma prosesinə lazımi səviyyədə prioritetlik verməməsi və zəruri investisiya qoyuluşlarını təmin etməkdə maraqlı olmaması, rəqəmsallaşmanı həyata keçirmək üçün daxili kadr potensialının adekvat səviyyədə olmaması və yeni əməliyyat risklərinin yaranması kimi amillər aid edilə bilər.

7.4.4. Prioritet 4.4. Maliyyə xidmətləri sektorunun hesabatlılığında şəffaflığın artırılması

Maliyyə xidmətləri sektorunun hesabatlılığında şəffaflığın artırılması imkanları mövcuddur. Sektor üzrə açıqlanan məlumatların əhatəlilik səviyyəsi və keyfiyyəti qənaətbəxş səviyyədə deyildir. Məlumatların açıqlanması üzrə şəffaflığın artırılması daha dəqiq və məlumat-əsaslı qərarların verilməsi imkanı yaratmaqla, bütün bazar iştirakçılarının maraqlarına xidmət edir.

Görüləcək tədbirlər

Tədbir 4.4.1: Hesabatlılıq və məlumatların açıqlanması üzrə cari vəziyyətin diaqnostikası

MBNP qabaqcıl beynəlxalq təcrübəni araşdırmaqla, hesabatlılıq və məlumatların açıqlanması sahəsində mövcud boşluqları müəyyən edəcəkdir. Araşdırmalar hesabatvermə formalarının əhatəliliyi ilə yanaşı, ictimaiyyətə açıqlanan məlumatlar, qlobal hesabatvermə meyarları və ümumi sektor göstəricilərinin açıqlanması kimi məsələləri əhatə edəcəkdir.

Tədbir 4.4.2: Yeni hesabatvermə formalarının hazırlanması

Diaqnostikanın nəticələri əsasında MBNP təkmilləşdirilməsi zəruri olan müvafiq istiqamətləri müəyyən edəcəkdir. Standartlaşdırılmış hesabatvermə formalarını və müvafiq təlimatları hazırlayacaqdır.

Tədbir 4.4.3: Məlumatların açıqlanması mexanizmlərinin müəyyən edilməsi

MBNP məlumatların toplanılması və açıqlanması prosedurlarının müəyyən edilməsi, o cümlədən açıqlanacaq məlumatların tərkibi, açıqlanma tarixi, tezliyi və platformasının müəyyən edilməsi üçün işçi qrup yaradacaqdır. Təkliflər əsasında MBNP tədbirlər planı hazırlayaraq onun icrasına başlayacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Məlumatların toplanması və açıqlanması proseslərində standartlaşdırmanın tətbiqi maliyyə sektorunda şəffaflığın yüksəldilməsi üçün vacib amildir. Bu prioritetin ÜDM-ə və məşğulluğa birbaşa təsiri gözlənilmir. Tədbirlər, əsasən, məlumatların əlçatanlığının və keyfiyyətinin artırılmasına təsir göstərəcəkdir.

Tələb olunan investisiya

Bu prioritetin həyata keçirilməsi üçün əhəmiyyətli investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə maliyyə institutlarının həssas məlumatları açıqlamaqda maraqlı olmaması, yaxud açıqlanan məlumatların bazar iştirakçıları tərəfindən düzgün şərh edilməməsi və nəticədə şirkətlərin maliyyə dayanıqlılığı üçün arzuolunmaz risklərin yaranması, maliyyə institutlarının daxili informasiya sistemlərinin açıqlanması tələb olunan məlumatları tam generasiya etməməsi kimi amillər aid edilə bilər.

7.4.5. Prioritet 4.5. Sığorta fəaliyyətini tənzimləmə və ona nəzarət mexanizminin gücləndirilməsi

Əsaslandırma

Sığorta sektoru üzrə mövcud tənzimləmə və nəzarət mexanizmi risklərin düzgün qiymətləndirilməsi və preventiv nəzarət tədbirlərinin həyata keçirilməsi imkanlarını məhdudlaşdırır. Sığorta bazarı iştirakçılarının müstəqil risk idarəetməsi, uyğunluq və aktuari nəzarəti funksiyalarının mövcud olmasına dair tənzimləyici tələblər müəyyən edilməmişdir. Nəticədə, sığorta sektorunda effektiv idarəetmə və daxili nəzarət sisteminin formalaşdırılması üçün çətinliklər yaranır.

Sığorta bazarı iştirakçılarının fəaliyyətinə nəzarət mexanizmi sektorun fəaliyyətinin proaktiv və riskəsaslı prinsiplər əsasında qiymətləndirilməsinə deyil, əsasən qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılmasına yönəlmişdir. Sığorta bazarı iştirakçılarına dair kapital tələbləri bazar iştirakçılarının risk profilinə uyğunlaşdırılmamışdır. Bu isə bazar iştirakçılarının xarici şoklara qarşı həssaslığının yüksək olmasını şərtləndirir. Qabaqcıl beynəlxalq təcrübələrdə tənzimləmə “Solvency II” standartları əsasında müəyyən olunur ki, burada ehtiyatların yaradılması və kapitalın hesablanması riskəsaslı yanaşmalar əsasında həyata keçirilir. Mütərəqqi təcrübəyə əsasən “Solvency II” standartlarına keçid müəyyən bir dövr ərzində baş verir.

Sığorta sektorunda prudensial hesabatlılıq sisteminin inkişaf etdirilməsi imkanları mövcuddur. Şirkətlər tərəfindən təqdim olunan rüblük hesabatlar risklərin vaxtında müəyyən edilməsini və qabaqlayıcı tədbirlərin görülməsini məhdudlaşdırır. Hesabatların əhatə dairəsinin və dərinliyinin inkişafı da zəruridir.

MBNP sığorta sistemi üzrə nəzarət və tənzimləmə mexanizmini ənənəvi modeldən riskəsaslı modelə transformasiya etməklə, ayrı-ayrı bazar iştirakçılarının və ümumilikdə sektorun dayanıqlılığının artırılmasına nail ola bilər.

Görüləcək tədbirlər

Tədbir 4.5.1: Sığorta sektoru üzrə tənzimləmə və nəzarət mexanizminin diaqnostikasının aparılması

MBNP sığorta nəzarəti və tənzimlənməsi üzrə hüquqi, tənzimləyici və metodoloji mexanizmin qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, diaqnostikasını aparacaq, təkmilləşmə istiqamətlərini müəyyən edəcəkdir.

Tədbir 4.5.2: Yeni mexanizmin tətbiqi üzrə tədbirlər planının hazırlanması

Diaqnostikanın nəticələri əsasında tənzimləmə və nəzarət mexanizminin yenilənməsinə dair tədbirlər planı müəyyən ediləcəkdir. Tədbirlər planında sığorta bazarı iştirakçılarında idarəetmə və daxili nəzarət sistemlərinin təkmilləşdirilməsi, riskəsaslı kapital tələblərinin tətbiqi, sığorta risklərinin qiymətləndirilməsi üzrə nəzarət reytinqi modeli, prudensial hesabatlılıq sisteminin təkmilləşdirilməsi kimi məsələlər nəzərə alınacaqdır.

Tədbir 4.5.3: Tədbirlər planının icrası

Tədbirlər planının icrası üzrə məsul işçi qrup yaradılmaqla, tədbirlərin icrasına başlanılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin ÜDM-ə və məşğulluğa ölçülə bilən təsiri gözlənilmir.

Tələb olunan investisiya

Sığorta fəaliyyətinin tənzimlənməsi və nəzarət çərçivəsinin qurulmasında mövcud resurslardan istifadə ediləcəyi üçün əlavə investisiya tələb olunmur.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə bir sıra sığorta təşkilatlarının yeni prudensial tələblərin tətbiqinə hazır olmaması, yeni tələblərə uyğunlaşmaq üçün tələb olunan investisiya qoyuluşunu təmin etmək potensialının aşağı olması, tənzimləyici tələblərin qısamüddətli dövrdə sığorta şirkətlərinin mənfəətliliyinə və kapital mövqeyinə mənfi təsiri kimi amillər aid edilə bilər.

7.5. Strateji hədəf 5. Maliyyə bazarı iştirakçılarının bilik və bacarıqlarının artırılması

Maliyyə bazarı iştirakçılarının potensialının artırılması Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biridir. Maliyyə sektorunun mütəxəssisləri və maliyyə xidmətləri istehlakçılarının zəruri bilik və bacarıqları məhduddur. Bilik və bacarıqların artırılması maliyyə sisteminin dinamik inkişafına, uzunmüddətli dayanıqlılığının təmin edilməsinə təkan verə bilər.

7.5.1. Prioritet 5.1. Maliyyə sektorunda çalışan mütəxəssislərin bilik və bacarıqlarının təkmilləşdirilməsi

Əsaslandırma

Azərbaycanda maliyyə sahəsi üzrə ixtisaslaşan ali təhsil müəssisələri və müxtəlif təlim mərkəzləri mövcuddur. Bu təhsil müəssisələri maliyyə sektorunda çalışan mütəxəssislərin baza biliklərini formalaşdırır. Bununla yanaşı, tənzimləyici qurumlar və bazar iştirakçıları mütəxəssislərin bilik və bacarıqlarının daim inkişaf etdirilməsini təşviq edir. Belə ki, mövcud qanunvericiliyə görə maliyyə institutlarının inzibatçılarının və məsul əməkdaşlarının MBNP-də attestasiyadan keçməsi tələb olunur. Aidiyyəti qurumlar və özəl təlim mərkəzləri maliyyə sektorunun mütəxəssisləri üçün təlimlər, "dəyirmi masa"lar, normativ aktlarla bağlı təqdimat və müzakirələr təşkil edirlər.

Bununla belə, maliyyə sektoru üzrə insan resurslarının bilik və bacarıqlarının daha da artırılması, maliyyə təhsilinin mövcud vəziyyətə və sektorun spesifik tələblərinə uyğunlaşdırılması zəruridir.

Görüləcək tədbirlər

Tədbir 5.1.1: Potensialın artırılması üzrə tədbirlərin əlaqələndirilməsi

MBNP və AMB fəaliyyətlərini əlaqələndirməklə, maliyyə sektoru mütəxəssislərinin bilik və bacarıqlarının artırılması üçün aidiyyəti istiqamətlər üzrə təlimlər və sertifikatlaşdırma proqramları təşkil edəcəklər.

Tədbir 5.1.2: Ali təhsil proqramının təkmilləşdirilməsi

MBNP, AMB və Təhsil Nazirliyi ali təhsil müəssisələri ilə birlikdə maliyyə sahəsində ali təhsil və peşə təhsilli proqramlarının sektorun ehtiyaclarına uyğunluğunu qiymətləndirəcək, təhsil proqramlarının təkmilləşdirilməsi istiqamətində zəruri işlər aparacaqlar.

Gözlənilən nəticə və nəticə indikatorları

Sektorda çalışanların bilik və bacarıqlarının təkmilləşdirilməsi digər prioritetlər üçün mühüm əhəmiyyət kəsb edir. Prioritet ÜDM-ə və məşğulluğa birbaşa ölçülə bilən təsir göstərməsə də, Azərbaycanda maliyyə xidmətləri sektorunun inkişafına xidmət edən bütün təşəbbüsləri dəstəkləyir.

Tələb olunan investisiya

Prioritet üçün böyük məbləğdə investisiya nəzərdə tutulmur.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə həyata keçirilən təlim proqramlarının keyfiyyətinin gözləntilərə uyğun olmaması, bazar iştirakçıları tərəfindən təlimlərə lazımi prioritetliyin verilməməsi və zəruri investisiya qoyuluşlarının edilməsinə marağın aşağı olması kimi amillər aid edilə bilər.

7.5.2. Prioritet 5.2. İstehlakçıların maliyyə savadlılığının artırılması və hüquqlarının müdafiəsinin gücləndirilməsi

Əsaslandırma

Azərbaycanda maliyyə xidmətləri istehlakçılarının hüquqlarının təmin edilməsi və maliyyə savadlılığının artırılması ilə bağlı bir sıra işlər görülmüşdür. Bu istiqamət üzrə institusional islahatlar aparılmış, istehlakçıların hüquqlarının effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasında və əhalinin maarifləndirilməsində irəliləyişlərə nail olunmuşdur. Bununla belə, maliyyə xidmətləri sektorunun inkişafı, maliyyə vasitəçiliyinin dərinləşməsi, maliyyə sektoru və istehlakçılar arasında qarşılıqlı əlaqələrin genişlənməsi maliyyə xidmətləri istehlakçılarının maraqlarının qorunmasını və maliyyə savadlılığının artırılmasını zəruri edir.

İstehlakçıların hüquqlarının müdafiəsinin əsas məqsədləri aşağıdakılardır:

- maliyyə məhsulları üzrə dəqiq və aydın məlumatların təqdim edilməsi və müqayisəliliyin artırılması;
- aidiyyəti qurumların fəaliyyətini əlaqələndirməklə bank sisteminin səmərəliliyinin artırılması və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi;
- istehlakçıların maliyyə məlumatlılığının, savadının və bacarıqlarının artırılması vasitəsilə əhalinin maliyyə xidmətlərindən istifadəsinin stimullaşdırılması;
- ədalətli bazar prinsiplərinin tətbiqi və rəqabətin gücləndirilməsi;
- proaktiv nəzarət vasitəsilə istehlakçıların potensial maliyyə itkilərinin qarşısının alınması.

Azərbaycanda istehlakçıların hüquqlarının müdafiəsi üzrə yuxarıda qeyd olunmuş istiqamətlərdə bir sıra tədbirlər görülmüşdür. Məsuliyyətli kreditləşmə üzrə tələblər tətbiq edilmiş, o cümlədən kredit üçün müraciət prosesi və kreditin şərtləri barədə məlumatların müştərilərə təqdim olunması tələbi müəyyən edilmişdir. Bununla yanaşı, banklardan borcalanın kredit üzrə bütün xərclərini əhatə edən faktiki illik faiz dərəcəsini (FİFD) açıqlamaq tələb olunur. Eyni zamanda, müştərilərin şikayət etmək hüquqları müəyyən edilmiş və şikayətlərə baxılması standartları tətbiq edilmişdir. Tələblərə əsasən banklar daimi əsasda maliyyə hesabatlarını ictimaiyyətə açıqlamalıdırlar.

AMB, beynəlxalq maliyyə institutları və özəl sektor əhali və sahibkarların maliyyə savadlılığının artırılması sahəsində tədbirlər həyata keçirmişdir. Maliyyə savadlılığı üzrə resursların səfərbər edilməsi, görülən işlərin səmərəliliyinin artırılması məqsədilə aidiyyəti qurumların işlərinin koordinasiyasına ehtiyac vardır.

Görüləcək tədbirlər

Tədbir 5.2.1: Maliyyə savadlılığının artırılması istiqamətlərinin müəyyənləşdirilməsi

Bazar iştirakçıları arasında keçiriləcək sorğuların nəticələrini və maraqlı tərəflərin təkliflərini nəzərə almaqla, MBNP və AMB maliyyə savadlılığının artırılması istiqamətində görüləcək işləri və prioritet sahələri müəyyən edəcəklər. Prioritetləşdirmə zamanı problemlərin istehlakçılar üçün əhəmiyyətliliyi və xərc amilləri nəzərə alınacaqdır.

Tədbir 5.2.2: Tədbirlərin müəyyənləşdirilməsi

Müvafiq qurumlar maliyyə savadlılığının artırılması üzrə qabaqcıl beynəlxalq təcrübəni araşdıracaq və onların Azərbaycanda tətbiqi üçün müvafiq tədbirlər müəyyənləşdirəcəklər. Qiymətləndirmə zamanı tədbirlərin xərc, mümkün təsir və tətbiqinin mürəkkəblik dərəcəsi kimi amillər nəzərə alınacaqdır.

Tədbir 5.2.3: Pilot layihələrin həyata keçirilməsi

Müvafiq qurumlar müəyyən təşəbbüsləri seçəcək və pilot layihə həyata keçirəcəklər. Pilot layihənin həyata keçirilməsi zamanı nəticə və qarşıya çıxan problemlərin qiymətləndirilməsi üçün davamlı olaraq rəylər toplanacaq və bu əsasda tədbirlər bir daha nəzərdən keçiriləcəkdir.

Tədbir 5.2.4: Tədbirlərin icrası və monitorinqi

Müvafiq qurumlar bütün təşəbbüsləri həyata keçirəcək və prosesi mütəmadi olaraq monitorinq edəcəklər. Nəticələrin qiymətləndirilməsi üçün dövri sorğular və hədəf qruplarla müsahibələr təşkil ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

İstehlakçıların maliyyə savadlılığının artırılması və hüquqlarının müdafiəsinin gücləndirilməsi daha səmərəli və inkişaf etmiş maliyyə xidmətləri bazarının formalaşmasına töhfə verəcəkdir. Bu prioritetin ÜDM-ə və məşğulluğa ölçülə bilən təsiri gözlənilmir.

Tələb olunan investisiya

Maliyyə savadlılığının artırılması ilə əlaqədar təşəbbüs və proqramlar üçün müəyyən büdcə tələb olunur. Lakin ümumilikdə, bu strateji təşəbbüslər investisiya formasında böyük vəsait tələb etmir.

Gözlənilən risklər

Prioritet çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olmaqda əsas risklərə maliyyə savadlılığının artırılması üzrə tədbirlərin əlaqələndirilmiş şəkildə davamlı həyata keçirilməməsi və nəticələrin gözləntilərə müvafiq olmaması kimi amillər aid edilə bilər.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 115 milyon manat investisiya tələb olunur. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- Mərkəzi Bankın vəsaitləri;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun və digər dövlət kredit və investisiya təşkilatlarının vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- qiymətli kağızlar bazarı;
- ölkə bank sisteminin kreditləri;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, qrantları, texniki yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitlərinin müəyyən edilmiş prioritet hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədi ilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitlərinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflər ilə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.

- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimi və tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şəraiti yaradacaq, tələb olunduqda kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.

- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu (“delivery unit”) müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədi ilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkil olunmasının təmin edilməsinə və zəruri hallarda, əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda, mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.

- İcraya rəhbərlik olunması, eləcə də tələb olunan resurslar və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün prioritetlər üzrə təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurla tətbiq olunması üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb olunması tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədilə, özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlar ilə işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.

- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti və beyin mərkəzləri səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sairə vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlili və qiymətləndirilməsini, həmçinin işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçılar	Digər icraçılar	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması					
1.1. Bank sisteminin kapitallaşması və likvidliyinin təmin edilməsi					
1.1.1.	Bank sektorunun hərtərəfli diaqnostikasının aparılması	Maliyyə Bazarlarına Nəzarət Palatası		• bank sektorunun gəlirliliyinin 2015-ci ilə nəzərən 7 faiz artması; • 2020-ci ildə real ÜDM-in 130 milyon manat artması (birbaşa 115 milyon manat, dolayı 15 milyon manat).	2017-2020
1.1.2.	Problemli bankların kapitallaşdırılması üzrə tədbirlər planının hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Maliyyə Nazirliyi, Mərkəzi Bank, Əmanətlərin Sığortalanması Fondu		2017
1.1.3.	Planın icrası və monitorinqin aparılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Maliyyə Nazirliyi, Mərkəzi Bank, Əmanətlərin Sığortalanması Fondu		2017
1.1.4.	Problemli bankların restrukturizasiyası üzrə institusional və hüquqi mexanizmlərin yaradılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi		2017
1.1.5.	Kapital dayanıqlılığı bərpa olunmayan bankların restrukturizasiyası	Maliyyə Bazarlarına Nəzarət Palatası	Maliyyə Nazirliyi, Mərkəzi Bank, Əmanətlərin Sığortalanması Fondu		2017-2018
1.1.6.	Əmanətlərin sığortalanması mexanizminin təkmilləşdirilməsi	Maliyyə Bazarlarına	Maliyyə Nazirliyi, Mərkəzi Bank,		2017-2019

		Nəzarət Palatası	Əmanətlərin Sığortalanması Fondu		
1.1.7.	Likvidliyin verilməsi alətlərinin genişləndirilməsi	Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası, Maliyyə Nazirliyi		2017-2019
1.2. Qeyri-işlək aktivlərin restrukturizasiya planının hazırlanması					
1.2.1.	Qeyri-işlək aktivlərin idarə edilməsi üzrə hüquqi mexanizmlərin yaradılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bank	• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir; • bu prioritetin ÜDM-ə dolayı təsiri 1.1-ci prioritetin nəticələrində əks olunmuşdur.	2017-2018
1.2.2.	Restrukturizasiya planına daxil ediləcək qeyri-işlək aktivlər üzrə meyarların müəyyən edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Maliyyə Nazirliyi, Mərkəzi Bank		2017-2018
1.2.3.	Restrukturizasiya strategiyasının müəyyən edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2018
1.2.4.	Restrukturizasiya proqramının icrası və monitorinqinin aparılması	Maliyyə Bazarlarına Nəzarət Palatası			2018-2020
1.3. Sığorta bazarının inkişafı					
1.3.1.	Müvafiq işçi qrupların yaradılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi	• sığorta penetrasiyasının (sığorta haqlarının qeyri-neft ÜDM-ə nisbəti) 1,4 faizə çatması;	2017

1.3.2.	Cari vəziyyətin diaqnostikası	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi	• 2020-ci ildə real ÜDM-ə 125 milyon manat həcmində təsirin olması (birbaşa 85 milyon manat, dolayı 40 milyon manat); • 1600 yeni iş yerinin yaradılması.	2017
1.3.3.	Məlumat sisteminin yaradılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2019
1.3.4.	Tədbirlər planının hazırlanması və icrasına başlanılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
1.4. Maliyyə inklüzivliyinin gücləndirilməsi					
1.4.1.	Maliyyə xidmətlərinin çatdırılması kanallarının inkişaf etdirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası		• maliyyə xidmətləri ilə təminatın yaxşılaşdırılması.	2018-2019
1.4.2.	Maliyyə inklüzivliyinə xidmət edən maliyyə institutları üçün əlverişli tənzimləmə və dinamik nəzarət çərçivəsinin yaradılması	Maliyyə Bazarlarına Nəzarət Palatası			2019-2020
Strateji hədəf 2. Maliyyə bazarlarının inkişafı					
2.1. Emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması					
2.1.1.	Listinqə çıxışı məhdudlaşdıran amillərin təhlili	Maliyyə Bazarlarına Nəzarət Palatası		• Fond birjasında listinqə mühüm sektorlardan əlavə 5 şirkətin çıxması;	2017

2.1.2.	Stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi	• 2020-ci ildə real ÜDM-ə 125 milyon manat həcmində təsirin olması (birbaşa 110 milyon manat, dolayı 15 milyon manat).	2017-2018
2.1.3.	Yeni listinq prosedurlarının müəyyənləşdirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2018
2.1.4.	Sahiblik düşüncə tərzinin dəyişdirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2019
2.1.5.	Yol xəritəsinin hazırlanması və icrası	Maliyyə Bazarlarına Nəzarət Palatası			2018-2020
2.1.6.	Gəlirlilik əyrisinin formalaşdırılması	Maliyyə Nazirliyi, Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası		2017-2018
2.1.7.	Sekyuritizasiya prosesinin təşviqi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Ədliyyə Nazirliyi		2017-2020
2.2. İnvestorların maliyyə bazarlarına çıxış imkanlarının artırılması					
2.2.1.	Maliyyə bazarlarına çıxış imkanlarının təhlili	Maliyyə Bazarlarına Nəzarət Palatası		• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir;	2017
2.2.2.	Fərdi və institusional investorlar üçün stimulların diferensiallaşdırılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Vergilər Nazirliyi		2017-2018

2.2.3.	Xarici investorların yerli maliyyə bazarına çıxış imkanlarının artırılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Mərkəzi Bank, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	• bu prioritetin ÜDM-ə dolayı təsiri 2.1-ci prioritetin nəticələrində əks olunmuşdur.	2017-2018
2.2.4.	Şəffaflığın artırılması üzrə təşəbbüslərin müəyyənləşdirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2018
2.2.5.	Müəyyən edilmiş tədbirlərin icrası	Maliyyə Bazarlarına Nəzarət Palatası			2018-2020
2.3. Banklararası pul bazarında aktivliyin artırılması					
2.3.1.	Banklararası pul bazarının təşviqi	Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası	• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir; • banklararası pul bazarında əməliyyatların həcminin artması.	2017
2.3.2.	Təminat çeşidinin artırılması	Mərkəzi Bank			2017-2018
2.3.3.	Marketmeyker institutunun yaradılması	Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası		2017-2018
Strateji hədəf 3. İnfrastrukturun gücləndirilməsi					
3.1. Kredit məlumatlarının mübadiləsi sisteminin təkmilləşdirilməsi					
3.1.1.	Özəl kredit bürolarının yaradılmasının təşviqi	Maliyyə Bazarlarına Nəzarət Palatası		• borcalanlar barədə daha geniş məlumat bazasının yaradılması; • bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu	2017
3.1.2.	MKR və özəl kredit büroları arasında məlumat mübadiləsinin təşkili	Maliyyə Bazarlarına			2017-2018

		Nəzarət Palatası		oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	
3.1.3.	Milli reytinq agentliklərinin yaradılması imkanlarının qiymətləndirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2018-2019
3.2. Hüquqi çərçivəyə yenidən baxılması, məhkəmə qərarları və icrası proseslərinin sürətləndirilməsi					
3.2.1.	Məhkəmə qərarlarının icrasının diaqnostikası və təkmilləşdirmə istiqamətlərinin müəyyən edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Ədliyyə Nazirliyi, maliyyə sektorunun nümayəndələri	• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017
3.2.2.	Kompleks həll yollarının müəyyənləşdirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Ədliyyə Nazirliyi, maliyyə sektorunun nümayəndələri		2017
3.2.3.	Tədbirlər planının hazırlanması və tətbiqinə başlanılması	Maliyyə Bazarlarına Nəzarət Palatası	Ədliyyə Nazirliyi, maliyyə sektorunun nümayəndələri		2017-2018
3.2.4.	Tədbirlər planının monitorinqi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2018-2020
Strateji hədəf 4. Tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi					
4.1. Bankların daha sağlam risk idarəetməsinin təmin edilməsi					
4.1.1.	Bank sektorunda risk idarəetməsinin diaqnostikası	Maliyyə Bazarlarına Nəzarət Palatası		• qeyri-işlək kredit əmsalının 8 faizədək azaldılması;	2017

4.1.2.	Yol xəritəsinin hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası		• maliyyə dərinliyinin 60 faiz təşkil etməsi; • 2020-ci ildə real ÜDM-ə 235 milyon manat təsirin olması (205 milyon manat birbaşa və 30 milyon manat dolayı).	2017-2020
4.1.3.	Sistem əhəmiyyətli bankların tənzimləmə mexanizminin müəyyən edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2019
4.2. Maliyyə xidmətləri sektorunda konsolidasiya edilmiş riskəsaslı nəzarət modelinin tətbiqi					
4.2.1.	Konsolidasiya edilmiş prudensial nəzarət mexanizminin araşdırılması	Maliyyə Bazarlarına Nəzarət Palatası		• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017
4.2.2.	Prudensial nəzarətin konsolidasiyaəsaslı təşkil edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2019
4.2.3.	Konsolidasiya edilmiş riskəsaslı nəzarət yanaşmasının araşdırılması	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017
4.2.4.	Konsolidasiya edilmiş riskəsaslı nəzarətə keçidin təmin edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2020
4.3. Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi					
4.3.1.	Banklarda rəqəmsallaşma ilə bağlı cari vəziyyətin qiymətləndirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası		• bütün pərakəndə satış banklarının rəqəmsal sistemə keçid təşəbbüslərində iştirakının təmin edilməsi;	2017

4.3.2.	Tənzimləmə çərçivəsində zəruri dəyişikliklərin müəyyən edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası		• pərakəndə satış banklarının konsolidasiya edilmiş gəlirliliyinin rəqəmsallaşma hesabına 2020-ci ildə əlavə olaraq 20 faiz artımı; • 2020-ci ildə real ÜDM-ə 135 milyon manat təsirin olması (120 milyon manat birbaşa və 15 milyon manat dolayı).	2018
4.3.3.	Müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2018-2020
4.4. Maliyyə xidmətləri sektorunda hesabatlılığın şəffaflığının artırılması					
4.4.1.	Hesabatlılıq və məlumatların açıqlanması üzrə cari vəziyyətin diaqnostikası	Maliyyə Bazarlarına Nəzarət Palatası		• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017
4.4.2.	Yeni hesabatvermə formalarının hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2018
4.4.3.	Məlumatların açıqlanması mexanizmlərinin müəyyən edilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası			2018-2019
4.5. Sığorta fəaliyyətini tənzimləmə və ona nəzarət mexanizminin gücləndirilməsi					
4.5.1.	Sığorta sektoru üzrə tənzimləmə və nəzarət mexanizminin diaqnostikasının aparılması	Maliyyə Bazarlarına Nəzarət Palatası		• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və	2017

4.5.2.	Yeni mexanizmlərin tətbiqi üzrə tədbirlər planının hazırlanması	Maliyyə Bazarlarına Nəzarət Palatası		məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017
4.5.3.	Tədbirlər planının icrası	Maliyyə Bazarlarına Nəzarət Palatası			2017-2020
Strateji hədəf 5. Maliyyə bazarı iştirakçılarının bilik və bacarıqlarının artırılması					
5.1. Maliyyə sektorunda çalışan mütəxəssislərin bilik və bacarıqlarının təkmilləşdirilməsi					
5.1.1.	Potensialın artırılması üzrə tədbirlərin əlaqələndirilməsi	Maliyyə Bazarlarına Nəzarət Palatası	Mərkəzi Bank	• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017-2020
5.1.2.	Ali təhsil proqramının təkmilləşdirilməsi	Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası, Təhsil Nazirliyi		2018-2020
5.2. İstehlakçıların maliyyə savadlılığının artırılması və hüquqlarının müdafiəsinin gücləndirilməsi					
5.2.1.	Maliyyə savadlılığının artırılması istiqamətlərinin müəyyənləşdirilməsi	Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası	• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017
5.2.2.	Tədbirlərin müəyyənləşdirilməsi	Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası		2017-2018
5.2.3.	Pilot layihələrin həyata keçirilməsi	Mərkəzi Bank	Maliyyə Bazarlarına		2018-2019

			Nəzarət Palatası		
5.2.4.	Tədbirlərin icrası və monitorinqi	Mərkəzi Bank	Maliyyə Bazarlarına Nəzarət Palatası		2019-2020

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 759

2. QLOBAL TRENDLƏR 762

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 767

3.1. Telekommunikasiya və informasiya texnologiyaları üzrə mövcud vəziyyət 767

3.2. Telekommunikasiya və informasiya texnologiyaları üzrə GZİT təhlili 771

4. STRATEJİ BAXIŞ 772

4.1. 2020-ci ilədək strateji baxış 772

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 772

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 774

5. HƏDƏF İNDİKATORLARI 776

6. STRATEJİ MƏQSƏDLƏR 777

7. STRATEJİ HƏDƏFLƏR 778

7.1. Strateji hədəf 1. İdarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi 778

7.1.1. Prioritet 1.1. Müstəqil tənzimləyici qurumun yaradılması 778

7.1.2. Prioritet 1.2. Telekommunikasiya bazarının liberallaşdırılması 781

7.1.3. Prioritet 1.3. Mobil infrastruktura investisiya qoyuluşlarının artırılması 786

7.2. Strateji hədəf 2. Sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması 789

7.2.1. Prioritet 2.1. Rəqəmsal ödənişlərin genişləndirilməsi 789

7.2.2. Prioritet 2.2. Sahibkarlıq subyektlərinin texnologiyaəsaslı əməliyyatlarının genişləndirilməsi 792

7.2.3. Prioritet 2.3. Biznesin iştirakı ilə texnoloji tədrisin yenilənməsi 795

7.2.4. Prioritet 2.4. Dövlət qurumlarının elektron xidmətlərinin təkmilləşdirilməsi 798

7.2.5. Prioritet 2.5. İKT sahəsində bilik və bacarıqların artırılması, təhsil sistemində İKT-dən istifadə 801

7.3. Strateji hədəf 3. Hökumətin və sosial mühitin rəqəmsallaşdırılması 803

7.3.1. Prioritet 3.1. Dövlət təşkilatlarında informasiya sistemlərinin təkmilləşdirilməsi 804

7.3.2. Prioritet 3.2. İnteqrasiya edilmiş fasiləsiz elektron səhiyyə infrastrukturunun yaradılması 805

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ 809

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 810

10. TƏDBİRLƏR PLANI 812

1. QISA XÜLASƏ

Azərbaycan Respublikası Prezidentinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icra edilməsi məqsədilə “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi” (bundan sonra - Strateji Yol Xəritəsi) hazırlanmışdır.

Strateji Yol Xəritəsi ölkədə informasiya-kommunikasiya texnologiyalarının (bundan sonra - İKT) inkişaf potensialının artırılması, iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun təkmilləşdirilməsi, İKT xidmətlərinə olan tələbin daxili mənbələr hesabına effektiv qarşılanması və dövlət sektorunun fəaliyyətində İKT-nin tətbiqi ilə səmərəliliyin daha da artırılması məqsədilə telekommunikasiya sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır.

Strateji Yol Xəritəsinin hazırlanması zamanı qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan telekommunikasiyanın inkişafının dəstəklənməsi, innovasiyayönümlü və biliyə əsaslanan iqtisadiyyatın qurulması, beynəlxalq və yerli bazarlara yüksəkkeyfiyyətli və rəqabətədavamlı informasiya texnologiyaları məhsullarının çıxarılması, yüksək texnologiyalara əsaslanan yeni investisiya layihələrinin cəlb edilməsi və bu sahədə fəaliyyət göstərən subyektlər arasında effektiv koordinasiyanın qurulması kimi prioritet istiqamətlər nəzərə alınmışdır.

Sənəd telekommunikasiya sektorunun rəqabətqabiliyyətliliyi, innovativliyi, investisiya cəlbediciliyi və effektiv dövlət idarəetməsini dəstəkləməsi prinsipləri əsasında hazırlanmışdır.

Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Strateji Yol Xəritəsində 2020-ci ilədək müəyyən edilmiş məqsədlərə çatmaq üçün 3 strateji hədəf və 10 prioritet müəyyən edilmişdir.

Strateji Yol Xəritəsində innovasiyaların tətbiqinin genişləndirilməsi üçün səmərəli mexanizmlərin yaradılması və inkişaf etdirilməsi nəzərdə tutulur. Azərbaycanın ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası, sosial və iqtisadi fəaliyyətin yeni formalarının təşəkkül tapması, informasiya və bilik bazarının yaradılması, iqtisadiyyatın müxtəlif sahələrində səmərəliliyin artırılması, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi və ümumilikdə, İKT-nin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Hazırkı güclü tərəf və imkanlarla Azərbaycanın 2025-ci ilədək telekommunikasiya sektorunun perspektivinə baxışı ölkənin telekommunikasiya və informasiya texnologiyaları infrastrukturunu gücləndirmək, bu sahədə göstərilən xidmətləri genişləndirmək və bütün tərəfləri bu xidmətlərdən istifadəyə təşviq etməkdən ibarətdir. Bu baxışın davamı kimi 2025-ci ildən sonrakı dövrdə gündəlik həyatda istifadə olunan xidmətlərin geniş tətbiqi nəticəsində regionun aparıcı texnologiyaəsaslı ölkəsinə çevrilmək əsas prioritetlərdən biridir. Bu məqsədlə, ölkədə, ilk növbədə, geniş əhatə dairəsinə malik yüksəksürətli genişzolaqlı infrastrukturun inkişaf etdirilməsi planlaşdırılır. Bu məqsədə nail olmaq üçün 2020-ci ilədək aşağıda göstərilən üç strateji hədəfə çatmaq planlaşdırılır:

- idarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi;
- sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması;
- hökumətin və sosial mühitin rəqəmsallaşdırılması.

Eyni zamanda, rabitə əlaqələrinin inkişaf etdirilməsi, dayanıqlı telekommunikasiya infrastrukturunun formalaşdırılması, internetdən istifadənin genişləndirilməsi və özəl sektorun iştirakına təkan verilməsi məqsədilə normativ-hüquqi baza təkmilləşdiriləcəkdir. Bu məqsədlə, şəffaf və səmərəli milli tezlik bölgüsünün aparılması, milli tezlik spektrinin effektiv idarə edilməsi, bazar subyektləri arasında münasibətlərin səmərəli təşkil olunması və rəqabət mühitinin daha da artırılması, telekommunikasiya sektoruna investisiya qoyuluşlarının stimullaşdırılması, xidmət keyfiyyətinə nəzarət edilməsi və istehlakçıların maraqlarının qorunması kimi məsələləri tənzimləyəcək tənzimləyici qurumun yaradılması məsələsinə baxılacaqdır.

Tənzimləyici orqan ən uyğun fiber-optik şəbəkənin tətbiqi modelini müəyyən edərək beynəlxalq çıxışı gücləndirmək üçün şlüzləri rəqabətə açmağı hədəfləyən aydın və ortamüddətli tənzimləyici tədbirlər planının işlənib hazırlanmasını nəzərdən keçirəcəklər. Ölkə üzrə daha səmərəli əhatə dairəsi və yüksəkkeyfiyyətli xidmətlərə nail olmaq məqsədilə tənzimləyici orqan yeni genişzolaqlı ötürücü şəbəkə texnologiyalarına spektrlərin (tezliklərin) ayrılmasına nəzarət edəcəkdir.

Azərbaycan üzrə genişzolaqlı infrastrukturun əhatə dairəsinin genişləndirilməsi ilə bağlı yeni tələblər nəzərdən keçiriləcəkdir. Daxili bazar qiymətləndiriləcək və başqa ölkələrin təcrübələri təhlil ediləcəkdir.

Ölkənin tranzit informasiya məkanına çevrilməsi və Azərbaycan Respublikasının ərazisindən keçməklə Şərqlə Qərb arasında informasiya axınının təmin edilməsi məqsədilə "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihəsinin həyata keçirilməsi istiqamətində tədbirlər davam etdiriləcəkdir.

2020-ci ilədək olan dövr üçün strateji hədəfə nail olunması nəticəsində Azərbaycanda real ÜDM-in 235 milyon manat artacağı və 1450 yeni iş yerinin yaranacağı proqnozlaşdırılır. Bu təsirin reallaşdırılması üçün Azərbaycana potensial olaraq 585 milyon manat investisiya qoyuluşu tələb olunur ki, bu da dövlət-özəl tərəfdaşlığı hesabına təmin ediləcəkdir.

Cədvəl 1. Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələr

№	Prioritetin adı	Real ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(tamştatlı işçilər, 2020)*	İnvestisiya *(milyon manatla)*
1.1.	Müstəqil tənzimləyici qurumun yaradılması	–	100	–
1.2.	Telekommunikasiya bazarının liberallaşdırılması	30	650	125
1.3.	Mobil infrastruktura investisiya qoyuluşlarının artırılması	30	700	60

2.1.	Rəqəmsal ödənişlərin genişləndirilməsi	55	–	15
2.4.	Dövlət qurumlarının elektron xidmətlərinin təkmilləşdirilməsi	120	–	95
3.1.	Dövlət təşkilatlarında informasiya sistemlərinin təkmilləşdirilməsi	–	–	290

Qeyd 1. Bu cədvəldə yalnız 2020-ci ildə real ÜDM-də 10 milyon manatdan çox artıma və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.


Qeyd 2. Bu rəqəmlər pioritetlərin təsiri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli təhlillərin aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.

2. QLOBAL TRENDLƏR

İnformasiya-kommunikasiya texnologiyaları (bundan sonra – İKT) yüksək göstəricilərə malik inkişaf etmiş iqtisadiyyatın mühüm tərkib hissəsidir. İKT sektoruna telekommunikasiya sənayesi də daxil olmaqla, genişçeşidli istehsal və xidmət sektorları daxildir. Biznes subyektləri və istehlakçılar arasında kommunikasiya və məlumat mübadiləsinə şərait yaratmaqla, İKT cəmiyyətin, dövlətin və iqtisadiyyatın inkişafında dəstəkləyici rola malik olur.

İKT-nin geniş miqyasda tətbiqi yeni iş yerlərinin yaradılmasına və məhsuldarlığın artmasına ciddi təsir göstərir. Xüsusən də inkişaf etməkdə olan ölkələrdə İKT-nin tətbiqi ÜDM-də artıma təkan verən mühüm amilə çevrilmişdir (şəkil 1). İKT yeni iş yerlərinin yaradılmasında multiplikativ təsirə malikdir. Beynəlxalq təcrübə göstərir ki, İKT-də yaradılan hər bir yeni iş yeri iqtisadiyyatın digər sektorlarında 2-4 yeni iş yerinin yaranmasına təkan verir. Bu sektorda yaranan yeni iş yerləri üzrə əməkhaqqı orta əməkhaqqı səviyyəsindən yüksək olur.[1] Qeyd etmək lazımdır ki, İKT-nin tətbiq edildiyi sənaye sahələrində məhsuldarlıqda nəzərəçarpacaq artım müşahidə edilir və ən qabaqcıl texnologiyalardan istifadə edən KOS subyektləri daha sürətlə inkişaf edir.

Şəkil 1. İKT-nin tətbiqində artımın ÜDM-ə təsiri



Mənbə: Dünya Bankının "İnformasiya və kommunikasiya sektorunun inkişafa təsiri - 2009-cu il" hesabatı; Raul Katzın "İKT-nin inkişafa təsiri: Latın Amerikası ölkələrinin iqtisadi problemlərin həllinə baxışı"

İKT sektoru iqtisadi təsirlə yanaşı, mühüm sosial təsirə də malikdir. Belə ki, İKT-nin tətbiqi yoxsulluq, səhiyyə, təhsil və ekologiya sahəsindəki bir sıra problemləri həll etməyə kömək edə bilər. Müxtəlif sektorlarda İKT-nin nailiyyətlərindən innovativ həllər kimi istifadə edilməsi xüsusi sosial əhəmiyyətə malikdir. Məsələn, səhiyyə sistemində fərqli sahələrdə İKT-nin nailiyyətlərindən istifadə edilir. Belə ki, elektron səhiyyə sistemi tibbi xidmətlərin göstərilməsi və idarəedilməsi ilə bağlı yeni və daha səmərəli yanaşmalar təklif edir ki, bu da, öz növbəsində, həm xidmətlərdən istifadə edən pasiyentlərin sayının artırılmasına, həm də xidmətlərin keyfiyyətinin yüksəldilməsinə

[1] Mənbə: "Information Economy Report 2010", "Nasscom 2009-2010", "Eurostat"

imkan verir. Təhsil sistemində “Kütləvi açıq onlayn kurslar” (“*massive open online courses” – MOOC*) kimi elektron təhsil alətləri geniş əhali kütləsinin aşağı qiymətlərlə keyfiyyətli təhsilə əlçatanlığını artırır. Bundan əlavə, İKT “smart” şəbəkələr vasitəsilə karbon qazı (CO_2) emissiyalarını azaltmağa imkan verməklə, ətraf mühitin qorunmasına kömək edə bilər.

Dövlətlər İKT-nin imkanlarından bir çox sahələrdə istifadə edə bilərlər. Bu baxımdan, yeni gəlir mənbələri yaratmaq, xidmətlərin səmərəliliyini, vətəndaşların təhlükəsizliyini və sosial rifahını yaxşılaşdırmaq məqsədilə bir sıra dövlətlər tərəfindən müxtəlif təşəbbüslər göstərilmişdir. Məsələn, effektiv elektron nəzarət mexanizmlərindən istifadə kölgə iqtisadiyyatını və vergidən yayınma hallarını azaltmağa imkan verə bilər. Onlayn xidmətlər əməliyyatların səmərəliliyini və sürətini artıra, sadə əməliyyatlarda insan amilinin aradan qaldırılması isə korrupsiya hallarının azaldılmasına imkan verə bilər. Effektiv monitorinq sisteminin qurulması yolu ilə nəqliyyatda təhlükəsizliyin artırılması və cinayət hallarının azaldılması kimi fəaliyyətlər vasitəsilə milli təhlükəsizlik səviyyəsi yüksəldilə bilər. İKT sahəsindəki təşəbbüslər həm də sosial və maliyyə inklüvizliyinin artmasına səbəb olur.

İKT sektorunun mühüm tərkib hissəsi olan telekommunikasiya infrastrukturu və texnologiyası biznes fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, telekommunikasiya sənayesi mobil cihazlar vasitəsilə aparılan əməliyyatlar, həmçinin elektron ödənişlər və digər elektron əməliyyatlar üçün platforma təklif edir. Eyni zamanda, telekommunikasiya infrastrukturu və sənayesi yeni biznes modelləri vasitəsilə təsərrüfat fəaliyyəti göstəricilərini də yüksəltməyə imkan verir. İKT sənayesinin daim yeniləndiyi və innovasiyaların tətbiq edildiyi nəzərə alınmaqla, bu sektorun öz faydalarını daha da artırması üçün böyük potensialının mövcud olduğunu qeyd etmək olar.

İKT sektorunda innovasiyalara aşağıdakı üç trend daxildir: məlumatların çoxluğu, onlardan istifadənin daha da asanlaşması və emal imkanlarının artması “International Data Corporation”ın (IDC) məlumatına görə, 2011-ci ildə elektron vasitələrlə ötürülən, qəbul və təkrar emal edilən məlumatın ümumi həcmi 1,6 trilyon giqabaytdan (GB) çox olmuşdur. “Əşyaların interneti”, böyükhəcmli verilənlər və geniş əhatə dairəsinə malik sosial şəbəkələr məlumat bolluğunu daha da artırmağa imkan verir. İstifadəçilərlə qarşılıqlı əlaqə səviyyəsinin artması, innovativ “form-faktorlar”ın tətbiqi və “istehlakçıyönümlü” İT sistemi məlumatlardan istifadəni daha da asanlaşdırır. “Bulud” hesablama və “maşınla öyrənmə” sahəsində irəliləyişlər məlumatların emalı imkanlarını artırır.

Telekommunikasiya sektoru fərqli rollara malik dörd əsas iştirakçıdan ibarətdir: xidmət təminatçıları (provayderlər), istehlakçılar, operatorlar və dövlət. Telekommunikasiya sənayesi İKT sektorunun arxitekturasının mühüm tərkib hissəsi olduğuna görə, kommunikasiya texnologiyalarında baş verən innovasiya və trendlər bu sektorun dinamikasına və əsas iştirakçılarına da təsir edir.


Əsas amillərdən biri kommunikasiya texnologiyalarının tətbiqini genişləndirən (məsələn, məhsul və xidmətlərin əlçatanlıq səviyyəsini artıran) dəstəkləyici vasitələrdir. Ötən on il ərzində internetdən istifadədə, eləcə də mobil cihazlar vasitəsilə internetə çıxış səviyyəsində sürətli artım baş vermişdir. Gələcəkdə də bu trendin davam edəcəyi gözlənilir.

Şirkətlərarası qarşılıqlı münasibətlər kontekstində internetə qoşulma imkanını gücləndirən xidmət növləri daha çox qəbul edilir. Belə əlavə dəyər yaradan xidmətlərə maşınlararası kommunikasiya, “bulud” xidmətləri, müəssisə mobilliyi, vahid kommunikasiya platformaları və digər xidmətlər daxildir. Rəqəmsal innovasiyalar şirkət və istehlakçılar arasındakı münasibətlər kontekstində satınalma tərzlərini və üstünlük verilən xidmət növlərini daim dəyişir. Belə ki, çoxfunksiyalı xidmətlər geniş yayılmış və ənənəvi mobil xidmətləri əvəz etməyə başlamışdır. Məsələn, İP-telefoniya

("VoIP") rabitə xidmətindən istifadəyə marağın artması ənənəvi məlumat və SMS xidmətləri üzrə istehlakçıların tələblərini və nəticədə, bu sahənin gəlirlərini aşağı salmağa başlamışdır.

Bu trendlər telekommunikasiya sektorunun iştirakçılarına da bilavasitə təsir edir və gəlirlərin azalması nəticəsində telekommunikasiya operatorlarının sabit gəlirləri qlobal səviyyədə aşağı düşür. Sabit gəlirlərə gəldikdə isə bu gəlirlər səsli xidmət gəlirlərini üstələmişdir və bu trendin davam edəcəyi gözlənilir. 2009-cu ildən bəri qlobal istehlakçıların sabit xətdən istifadə səviyyəsi aşağı düşmüşdür. Digər tərəfdən, sabit genişzolaqlı ötürücü şəbəkəsindəki gəlirlər, əsasən, fiber-optik rabitə əlaqəsində artım nəticəsində yüksəlməkdə davam etmişdir (şəkil 2). Fiber-optik rabitə əlaqəsində ötən beş il ərzində 20,1 faiz sabit artım müşahidə olunmuşdur.[2] Zəif artım tempinə (7,9 faiz) malik olmasına baxmayaraq, 2011-2015-ci illərdə kabel rabitəsində mütləq ifadədə 15 milyard ABŞ dolları artım olmuş, DSL xidməti üzrə 2011-ci ildən bəri gəlirlərdə təxminən 3,5% azalma müşahidə edilmişdir (şəkil 2).

Şəkil 2. Sabit genişzolaqlı şəbəkələrdən əldə edilən gəlirlərin müqayisəsi



1. *Buraya sabit simsiz, WiMAX, peyk və digər bağlantılar daxildir.*


Mənbə: "Analysys Mason" analitik institutu

Yuxarıda qeyd edilmiş qlobal trendlər və telekommunikasiya sektorunun dəyişən dinamikası mobil və sabit şəbəkə operatorlarına çətinliklər törətdiyinə görə,

[2] Mənbə: "Analysys Mason" analitik institutu

telekom operatorları bu bazarlardakı çətinlikləri aradan qaldırmağa imkan verən həllərə diqqəti artırmışlar. Bu məqsədlə, onlar məlumatlardan əldə edilən gəlirlərin monetarizasiyasına, xidmət ekosisteminə daxil olmağa və konvergensiya yolu ilə "miqyas effekti"nə nail olmağa xüsusi önəm verirlər. Azalan səsli xidmət gəlirlərini və məlumatların əmtəələşməsini əvəz etmək üçün (şəkil 3) telekom operatorları məlumat trendinin monetarizasiyasını hədəfləyirlər. Eyni zamanda, onlar müştərilərin marağını daha da artırmaq məqsədilə öz tətbiqlərini və məlumatların rezerv saxlanılması xidmətlərini işləyib hazırlayıblar. Bununla yanaşı, həm "miqyas effekti"nin əldə edilməsi təşəbbüsləri, həm də sabit və mobil inteqrasiya edilmiş şəbəkələrə müştərilərin artan marağı operatorları dünya miqyasında konvergensiya məqsədli investisiya cəlb etməyə stimullaşdırmışdır.

Şəkil 3. Mobil məlumat trafikinin və ondan əldə edilən gəlirlərin dinamikası



Mənbə: Ericsson Traffic Exploration, "Analysys Mason", Ovum

Gündəlik həyat fəaliyyətimizdə informasiyanın artan həcmini nəzərə alaraq, böyükhəcmli məlumatların idarə olunması və onların faydalı istifadəsi üçün yeni metodlarla yanaşı, texnoloji həll variantlarının tapılmasına da ehtiyac yaranır. Bütün bunlar, məlumatların yalnız həcm baxımından deyil, çeşid baxımından da (məsələn, audio və video) artması fonunda böyük əhəmiyyət kəsb edir.

Daha təkmil analiz böyükhəcmli məlumatların real vaxt rejimində təhlilinə və emalına imkan verir və bu, məlumatların işlənməsi prosesini keçmiş hadisələrin təhlilinə əsaslanan hazırkı modeldən fərqləndirərək irəliyə doğru atılmış əhəmiyyətli addım hesab olunur. Gələcəkdə proqnozlara əsaslanan analiz daha böyük əhəmiyyət kəsb etməyə başlayacaqdır ki, bu da dövlət və özəl sektorlarda qərarların daha doğru və gələcəyə istiqamətlənmiş şəkildə qəbul olunmasına şərait yaradacaqdır. Bütün bunlar proqnoza əsaslanan qabaqlayıcı tədbirlərin görülməsi üçün daha çox imkanlar yaradacaqdır.

Telekommunikasiya sektorunun əsas iştirakçılarından biri kimi dövlətlər müxtəlif iştirak səviyyəsinə malik olmaqla, kommunikasiya texnologiyalarının inkişafında, texnologiyaların uğurla tətbiqi məqsədilə mühüm dəstəkləyici amillərin təmin edilməsində böyük rol oynayır. Bu amillərə telekommunikasiya sənayesinin

inkişafına təkan verən infrastruktur, istedad və bacarıqlar, məhsul və xidmətlər üzrə tədbirlər daxildir. Dövlətlər birbaşa səhmlərə investisiya etməklə, yaxud dolayı şəkildə özəl müəssisələr üçün stimullaşdırma mexanizmləri tətbiq etməklə, infrastrukturun inkişafına şərait yaradan müxtəlif maliyyələşmə alətlərindən istifadə edirlər. İnfrastrukturun inkişafına dəstək məqsədilə dövlətlər əsas diqqəti sabit genişzolaqlı şəbəkəyə çıxışın yaxşılaşdırılmasına və mobil şəbəkənin əhatə dairəsinin genişləndirilməsinə yönəldirlər. Genişzolaqlı şəbəkənin sosial faydalarının təmin edilməsi ölkələrin strategiyalarının vacib amilinə çevrilmişdir və bu infrastruktur daima genişləndirilir. Bu məqsədlə, genişzolaqlı şəbəkənin tətbiqi üzrə fərqli alternativlər qəbul edilir. Bu alternativlərə infrastrukturəsaslı rəqabət, dövlət tərəfindən maliyyələşdirilən operatorun təyin edilməsi və milli fiber-optik rabitə şirkəti ilə birgə müəssisənin yaradılması daxildir. Bu mənada dövlətlər genişzolaqlı şəbəkə üçün spektrin paylanması və əhatə dairəsinə dair öhdəliklər vasitəsilə 4G texnologiyasının tətbiqini genişləndirmişlər. Bundan əlavə, elektron ödənişləri və biznes fəaliyyəti üçün xüsusi əhəmiyyət kəsb edən əməliyyat bazasını yaxşılaşdırmaq məqsədilə telekommunikasiya infrastrukturunun və texnologiyasının təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Telekommunikasiya və informasiya texnologiyaları üzrə mövcud vəziyyət

Azərbaycanda informasiya və telekommunikasiyanın (bundan sonra – İKT) inkişafı istiqamətində görülmüş tədbirlər bir sıra perspektiv irəliləyişlərə yol açmışdır. Belə ki, Azərbaycanda ilk telekommunikasiya peyki orbitə çıxarılmış, yüksəksürətli genişzolaqlı şəbəkə xidmətlərindən istifadə səviyyəsi iki dəfədən çox artırılmış və genişzolaqlı şəbəkələr üzrə göstərilən xidmətlərin qiyməti 2009-cu ildən 2012-ci ilədək 8,7 dəfə azalmışdır.[3] Bu proseslərin nəticəsi kimi, Azərbaycan İKT üzrə gələcək perspektivə görə Dünya Bankının sıralamasında dünya ölkələri arasında ilk onluqda qərarlaşmışdır.[4] Göstərilən perspektivə nail olmaq üçün Azərbaycanda İKT üzrə bir sıra sahələrdə, xüsusən də telekommunikasiya sektorunda təkmilləşdirmə imkanları vardır. Bundan əlavə, İKT-dən ölkədə biznes və dövlət xidmətlərinin məhsuldarlığının və səmərəliliyinin artırılması məqsədilə də istifadə edilə bilər.

Azərbaycanda telekommunikasiya üzrə mövcud tənzimləmə çərçivəsi

Azərbaycanda telekommunikasiya üzrə tənzimləmə çərçivəsi bazarın həm İKT təminatçıları (provayderlər), həm də istehlakçılar və şirkətlər nöqteyi-nəzərindən özünəməxsus çətinlikləri nəzərə alınmaqla, yenidən işlənə bilər.


İKT təminatçıları baxımından əsas prioritet bazar iştirakçıları arasında sağlam rəqabət mühitinin yaradılmasıdır. Hazırda sabit genişzolaqlı şəbəkənin böyük hissəsi az sayda şirkətlərdə cəmləşmişdir. Bu bazar iştirakçıları öz bazar paylarını 2012-ci ildə 49 faizdən 2015-ci ildə 66 faizədək artırmışdır. Həmçinin ölkədə beynəlxalq şlüzlərin 80-90 faizi ilə əlaqə üçün lisenziyalara sadəcə iki provayder nəzarət edir.[5] Dövlət mülkiyyətində olan bir bazar iştirakçısı "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) və FTT-X *("fiber to the X point")* layihələri üzrə tədbirlər görməyi planlaşdırır.

İstehlakçı və şirkətlər nöqteyi-nəzərindən genişzolaqlı şəbəkənin sürəti, çıxış imkanları və əhatə dairəsi İKT arxitekturasının inkişafında prioritet imkanlardır. "Akamai" şirkətinin "State of the Internet" beynəlxalq hesabatına əsasən, 2015-ci ildə Azərbaycanda bir istifadəçinin beynəlxalq şəbəkəyə orta qoşulma sürəti 3,6 Mbit/saniyə təşkil etmişdir ki, bu da dünya üzrə orta göstəricidən (5,6 Mbit/saniyə) aşağıdır (şəkil 4). LTE standartlı əhatə dairəsi, əsasən, Bakı şəhəri və Abşeron rayonunu əhatə edir. Bundan əlavə, LTE şəbəkələri üçün cəmi 1800 MHs tezlik spektri ayrılmışdır ki, bu da kənd yerlərində əhatəni məhdudlaşdırır. Bu baxımdan, həm iştirakçı lisenziyalarının verilməsi, həm də tezlik spektrinin daha səmərəli bölgüsü məsələsinə baxıla bilər.

Hazırda ölkədə 39 telekommunikasiya xidmətləri göstərən müəssisə (48 provayder) fəaliyyət göstərir. Ölkədə sabit genişzolaqlı internetə qoşulmaların 49 faizi mis telefon xətləri vasitəsilə təmin edilir.

[3] Mənbə: Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
[4] Mənbə: Dünya İqtisadi Forumu
[5] Mənbə: "TeleGeography"

Şəkil 4. 2015-ci ildə[1] digər ölkələrlə müqayisədə Azərbaycanda bir istifadəçinin beynəlxalq şəbəkəyə orta qoşulma sürəti *(Mbit/saniyə)*



1. 2015-ci ilin 4-cü rübü üzrə məlumatlara əsasən
Mənbə: "TeleGeography", "Akamai" şirkəti


Azərbaycanda sabit genişzolaqlı şəbəkənin mövcud vəziyyəti

Azərbaycanda sabit genişzolaqlı şəbəkədən istifadə səviyyəsi 55 faiz[6] təşkil edir ki, bu da region ölkələri ilə müqayisədə yüksəkdir və qismən Bakı ətrafında qurulmuş səmərəli telekommunikasiya infrastrukturu ilə bağlıdır. Bununla belə, hər bir istifadəçinin orta qoşulma sürəti aşağı səviyyədədir və bu, X-DSL texnologiyasına əsaslanan nisbətən köhnə şəbəkə ilə əlaqədardır.

Sabit genişzolaqlı şəbəkədən istifadə ölkənin regionları üzrə fərqlənir. Belə ki, Bakıda ev təsərrüfatlarının 74 faizi sabit genişzolaqlı şəbəkəyə malik olduğu halda, regionlarda bu göstərici 34 faizi təşkil edir (şəkil 5).

[6] Mənbə: Dünya İqtisadi Forumu

Şəkil 5. Azərbaycanda 2015-ci il üzrə sabit genişzolaqlı şəbəkənin ev təsərrüfatları tərəfindən istifadə səviyyəsi *(faizlə)*




1. *Abşeron rayonu və Naxçıvan Muxtar Respublikası istisna olmaqla*

Mənbə: Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

Azərbaycanda beynəlxalq internet əlaqəsi üzrə mövcud vəziyyət

Genişzolaqlı şəbəkələrin beynəlxalq şlüzlərə qoşulması üçün ölkədə beynəlxalq rabitə əlaqələrinin inkişaf perspektivləri mövcuddur. Digər ölkələrlə müqayisədə Azərbaycanda internet istifadəçilərinin beynəlxalq internet şəbəkəsinə çıxış trafiki aşağıdakı şəkildə göstərilmişdir (şəkil 6). Azərbaycan 2014-cü ildə TASİM layihəsi çərçivəsində 1-ci səviyyə *(tier-1)* rabitə əlaqəsinə çıxış əldə etmişdir.

Şəkil 6. Azərbaycanda region ölkələri ilə müqayisədə internet şəbəkəsinə çıxışın sürəti



1. *Almaniya, Birləşmiş Krallıq, Fransa*
2. *Çexiya, Polşa, Rumıniya*

Mənbə: Dünya İqtisadi Forumu

Bununla belə, yerli sabit genişzolaqlı şəbəkə bazarında olduğu kimi, Azərbaycanın beynəlxalq rabitə əlaqələrində də rəqabətin artırılması imkanları mövcuddur. Hazırda Azərbaycanda beynəlxalq şlüzə çıxışa iki bazar iştirakçısı nəzarət edir:

- "Delta Telekom LTD" MMM – 90 faiz (500 Gbit/s);
- "Azərtelekom" MMC – 10 faiz (50 Gbit/s).

Hər iki operatorun məlumatına əsasən, beynəlxalq magistral internet kanallarının və internet mərkəzlərinin alternativliyi mövcuddur.

2015-ci ildə əhalinin 100 nəfərinə düşən internet istifadəçilərinin sayı 77 nəfər, internetə çıxışı olan ev təsərrüfatlarının xüsusi çəkisi isə 76,7 faiz olmuşdur.[7]

Mobil telekommunikasiya şəbəkəsinin mövcud vəziyyəti

Hazırda respublikada dörd mobil operator fəaliyyət göstərir ki, onlardan 3-ü tərəfindən 2G, 3G və 4G texnologiyalarının tətbiqi ilə mobil rabitə xidmətləri göstərilir. Azərbaycanda 3G texnologiyasının tətbiqinə 2009-cu ildən, 4G texnologiyasının tətbiqinə isə 2012-ci ildən başlanılmışdır.

Mobil operatorlar tərəfindən əhalinin xüsusilə sıx olduğu şəhərlərdə əhatə dairəsi tələblərinə diqqət yetirilir. Buna görə də cari genişzolaqlı şəbəkənin tətbiqi ölkənin qalan hissəsi ilə müqayisədə əhali sıxlığının əhəmiyyətli dərəcədə çox olduğu Bakı şəhərində daha yüksəkdir. Burada operatorlar az xərc çəkməklə, daha çox müştəriyə səmərəli xidmət göstərə və gəlir əldə edə bilirlər.

Digər ölkələrlə müqayisədə Azərbaycan daha yaxşı spektr idarəetmə siyasəti aparmaqla, ölkə ərazisində 4G-nin tətbiqinə nail ola bilər. Belə siyasi yanaşmalar, əsasən, iki parametrə yönəlir: spektr təminatının yaxşılaşdırılması və şəbəkə tətbiqi üçün əhatə dairəsi tələblərinin müəyyən edilməsi.

İnformasiya cəmiyyətinin mövcud vəziyyəti

Hazırda genişzolaqlı internetə çıxışı olmayan bəzi yaşayış məntəqələri mövcuddur. Eyni zamanda, ayrı-ayrı dövlət strukturlarında vahid texniki həllərdən istifadə ilə bağlı, o cümlədən sistemlərin funksional uyğunsuzluğundan irəli gələn problemlər yaranmışdır. Qeyd olunmalıdır ki, bu problemlər iqtisadiyyatın məhsuldarlığına və informasiya cəmiyyətinin inkişafına öz mənfi təsirini göstərir.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da əhali arasında "rəqəmsal fərqlilik" mövcuddur. Rəqəmsal savadlılıq Azərbaycanın gələcəyi üçün əsas göstərici hesab olunur ki, bu da iqtisadiyyatda əlavə dəyərin yaradılmasına imkan verir.

Bəzi təşkilatların, o cümlədən dövlət orqanlarının kağız daşıyıcılar əsasında yazışmalara üstünlük verməsi sənədlərin rəqəmsal formada imzalanmasında müəyyən çətinlik yaratmaqla yanaşı, faydalı iş potensialının formalaşmasına da mənfi təsir göstərir. Resursların məhdud olduğu nəzərə alınaraq, dövlət idarəetməsində islahatlar zamanı İKT imkanlarının konsolidasiyası və standartlaşdırılması vasitəsilə funksiyaların səmərəli mərkəzləşdirilməsinə diqqət yetirilməlidir.

[7] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

3.2. Telekommunikasiya və informasiya texnologiyaları üzrə GZİT təhlili

Güclü tərəflər	Zəif tərəflər
● telekommunikasiya qurğularının və avadanlıqlarının yerləşdirilməsi üçün qeyri-yaşayış sahələrinin, fiber-optik kabellərin çəkilişi üçün telefon kanalizasiya qurğularının, enerji təchizatının və s. baza infrastrukturun mövcudluğu; ● Bakı və digər böyük şəhərlərdə kabel televiziyaları və digər internet provayderləri tərəfindən evlərədək çəkilmiş fiber-optik kabel infrastrukturunun mövcudluğu; ● dövlət orqanlarının, həmçinin böyük biznes qurumlarının ofislərinə kimi fiber-optik kabel ilə təmin edilən genişzolaqlı xidmətlərin və qurumdaxili müasir korporativ şəbəkələrin mövcudluğu; ● Şərq-Qərb beynəlxalq tranzit trafikinin daşınması üçün coğrafi məkanın əlverişli olması.	● İKT sahəsində fəaliyyət göstərən özəl provayderlərə telekommunikasiya operatorları tərəfindən ümumi istifadəli rabitə şəbəkələri resurslarından istifadə üçün tariflərin yüksək müəyyən edilməsi; ● genişzolaqlı internet xidmətlərinin, əsasən, köhnə mis rabitə xətləri ilə təşkili və xidmət keyfiyyətinin aşağı olması. Bir istifadəçinin orta internet sürətinin dünya üzrə orta göstəricilərdən təqribən iki dəfə az olması; ● istifadə olunan avadanlıqlar üzrə proqram təminatlarının istehsalçı şirkətin xüsusi mülkiyyətində olmasının şəbəkə təhlükəsizliyi məsələlərində asılılıq yaratması; ● fiziki və mənəvi cəhətdən köhnəlmiş rabitə avadanlığının mövcudluğu; ● tezlik resurslarından tam səmərəli istifadə olunmaması; ● yetərli İKT savadlılığının olmaması.
İmkanlar	**Təhlükələr**
● telekommunikasiya məhsullarının potensial istifadəçisi ola biləcək yaş diapazonuna aid cavan əhalinin çoxluğu; ● böyük regional bazarlara yaxınlıq, o cümlədən qlobal bazarlara meyillilik; ● İKT sahəsi üzrə zəruri normativ-hüquqi bazanın mövcudluğu.	● xarici maliyyə bazarlarına çıxışda güclü rəqabətin olması; ● müasir texnologiya şəraitində şəbəkə təhlükəsizliyi və informasiyanın qorunması üzrə getdikcə artan çətinliklər.

4. STRATEJİ BAXIŞ

4.1. 2020-ci ilədək strateji baxış

İKT sektoru üzrə 2020-ci ilədək strateji baxış ölkədə fiber-optik və LTE texnologiyaları ilə genişzolaqlı xidmətlərin əhatə dairəsinin 70 faizə qədər genişləndirilməsinə və dövlət idarəçiliyinin, iqtisadi və sosial proseslərin (elektron hökumət, e-ticarət, e-bankçılıq, e-səhiyyə, e-təhsil və s.) rəqəmsallaşdırılmasına nail olmaqdır.

Strateji baxışın şərhi

İKT sahəsində islahatlar ölkənin maliyyə, sosial, iqtisadi və mədəni inkişafı əsasında yeni iş yerlərinin yaradılmasını, özəl sektorun inkişaf etdirilməsini, o cümlədən dövlət büdcəsi gəlirlərinin artırılmasını və xərclərin səmərəli idarə edilməsini nəzərdə tutur.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

İnformasiya və kommunikasiya texnologiyaları sektorunda 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış bu sektorda innovasiyayönümlü islahatları davam etdirmək, müasir xidmətlərin çeşidini və həcmini artırmaq, sürətli genişzolaqlı şəbəkənin əhatə dairəsini genişləndirmək, telekommunikasiya sektorunda mühüm beynəlxalq tələblərə cavab verən standartların tətbiqini təmin etmək yolu ilə ölkənin inkişafına, cəmiyyətin texniki savadlılıq səviyyəsinin yüksəldilməsinə və rəqəmsal iqtisadiyyatın formalaşmasına nail olmaqdır.

Uzunmüddətli baxışın şərhi

Bu hədəfin tərkib hissəsi kimi, Azərbaycanda 2025-ci ilədək güclü infrastrukturun qurulması ilə bağlı mexanizmlərin tətbiqi dəstəklənəcəkdir. Fiber-optik şəbəkə infrastrukturunun artıq ölkə miqyasında tətbiq edildiyi Azərbaycanda daha geniş əhali kütləsinin sürətli genişzolaqlı şəbəkəyə çıxışının təmin edilməsi ilə bağlı tədbirlər davam etdiriləcəkdir. Həm ümumi infrastruktur səviyyəsində, həm də "son mil" səviyyəsində fiber-optik şəbəkəyə investisiya qoyuluşları davamlı şəkildə artırılacaqdır. Bu yolla ölkə əhalisinin sıx məskunlaşdığı bölgələrdə mənzilədək optika formatlı (FTT-X) genişzolaqlı xidmətlərin təminatı, eləcə də qəsəbələrdə və əhalinin məskunlaşma sıxlığının az olduğu bölgələrdə xidmətlərin əhatə dairəsi genişlənəcəkdir.

Sabit genişzolaqlı şəbəkəyə çıxışda olduğu kimi, əhalinin mobil genişzolaqlı şəbəkəyə çıxışı da asanlaşacaq, həm şəhər mərkəzlərində, həm də uzaq bölgələrdə sürətli mobil xidmətlərə çıxış təmin ediləcəkdir. Simsiz rabitə şirkətlərinə mobil genişzolaqlı şəbəkə texnologiyaları üçün daha iri əhatə dairəsinə malik aşağızolaqlı spektrin (məsələn, 700 və 800 MHs tezlikli zolaqlar) ayrılması nəzərdən keçiriləcəkdir. Bu zaman spektrin məhdud resurs olmasını nəzərə alaraq, simsiz rabitə şirkətlərinin mövcud spektrdən daha səmərəli istifadəsi təmin ediləcəkdir. Lisenziya şərtləri çərçivəsində bu cür simsiz rabitə şirkətlərinin, başqa operatorlara məxsus tezlik spektrlərinə müdaxilə hallarına yol vermədən, mövcud spektrlərdən istifadəsinin optimallaşdırılması ilə bağlı mexanizmlər stimullaşdırılacaqdır. Hökumətin texnologiyasız spektr bölgüsü də şirkətlərin bu təşəbbüslərini asanlaşdıracaqdır.

Yerli səviyyədə keyfiyyətin və əhatə dairəsinin genişləndirilməsi baxımından infrastrukturla bağlı görülən təkmilləşdirmə tədbirlərindən əlavə, Azərbaycan 2025-ci ilədək daha güclü beynəlxalq rabitə əlaqəsinə - daha çox beynəlxalq rabitə operatorunun nəzarətində olan daha geniş beynəlxalq şlüzə malik olacaqdır. Bu yolla

qoşulmada kəsinti riski olmadan ölkənin beynəlxalq rabitə əlaqəsinin keyfiyyəti və dayanıqlılığı təmin edilmiş olacaqdır.

Azərbaycanda İKT infrastrukturu üzrə təklif edilən texnoloji xidmətlərin miqyasının 2025-ci ilədək genişləndirilməsi planlaşdırılır. Bu məqsədlə, "ASAN xidmət" mərkəzlərinin elektron imza potensialından istifadə etməklə, bu xidmətin digər sahələrə tətbiqi təmin ediləcəkdir.

Maliyyə xidmətləri sahəsində qanunvericilik və normativ tələblərin qabaqcıl beynəlxalq təcrübələrə uyğunlaşdırılması ilə bağlı tədbirlər görüləcək, nəticədə elektron ödəniş sistemləri və mobil bankçılığın inkişafı daha da sürətlənəcək, bu xidmətlərdən daha geniş istifadəyə şərait yaranacaqdır. Qeyd olunanlara bank sektorunun inkişafını dəstəkləyəcək sürətli və təmassız ödəniş infrastrukturunun davamlı inkişaf etdirilməsi də daxildir.

Göstərilənlərlə yanaşı, 2025-ci ilədək olan dövrdə Azərbaycanda sənəd dövriyyəsi və inzibati proseslərin böyük bir qismi (məsələn, dövlət sənədləri, dövlət xidmətlərinin göstərilməsi) elektron qaydada həyata keçiriləcək və nəticədə bu cür əməliyyatların avtomatlaşdırılması və səmərəliliyi təmin edilməklə, ölkədə əlverişli biznes mühiti daha da yaxşılaşacaqdır.

Təklif edilən texnoloji xidmətlərin səviyyəsinin ümumən yüksəldilməsi ilə yanaşı, elektron səhiyyə xidmətlərinə diqqət artırılacaq, bu xidmətlərin həm əhatə dairəsi, həm də tətbiqi genişləndiriləcəkdir. Bu sahədə fəaliyyətlər dəyər zəncirinin bütün iştirakçılarını əhatə etməklə, əməliyyatların keyfiyyətini və sürətini yaxşılaşdıracaqdır. Lazımsız və təkrar müayinə və müalicə hallarını aradan qaldırmaq məqsədilə pasiyentlərin xəstəlik vərəqələrinin hazırlanması və bu vərəqələrin tibb müəssisələri arasında mübadiləsi təmin ediləcəkdir. Bu cür texnologiyaəsaslı səhiyyə infrastrukturunun yaradılması nəticəsində Azərbaycanın rəqəmsallaşdırılmış səhiyyə xidmətləri sürətlə qabaqcıl regional təcrübəyə çevriləcəkdir.

Nəzərdə tutulan bu texnologiyaəsaslı inkişaf prosesində Azərbaycanda sektorlar üzrə standartlar təkmilləşdiriləcək və dövlətin daha çox əlaqələndirici funksiyası saxlanılmaqla, telekommunikasiya sənayesinə böyük həcmdə investisiyaların cəlb edilməsinə şərait yaradılacaqdır. Bu dövrə qədər ölkənin telekommunikasiya sektorunda rəqabət mühiti, ictimai iştirakçılıq səviyyəsi daha da artırılacaq və bu məqsədlər təkmilləşdirilmiş normativ-hüquqi baza ilə dəstəklənəcəkdir. Əsas sektorlara məlumat xidmətlərinin inteqrasiyasının artırılması və optimallaşdırılmış əməliyyatlar üçün əlverişli mühitin yaradılması həm yerli, həm də xarici investorların Azərbaycana marağını artıracaqdır.

Azərbaycanda bu inkişaf prosesinin 2025-ci ildən sonrakı dövrdə də davam etdirilməsi planlaşdırılır. Uzunmüddətli perspektivdə rəqəmsal iqtisadiyyatla bağlı hədəf baxışın icrasını təmin etmək məqsədilə innovasiyayönümlü texnoloji savadlılıq səviyyəsi yüksəldiləcək, peşə təhsili müəssisələrində və universitetlərdə istedadlı tələbələrin hazırlanmasına xüsusi diqqət yetiriləcəkdir. Texnoloji savadlılığın artırılması və innovativ düşüncə tərzinin inkişaf etdirilməsi məqsədilə universitetlərin və müvafiq peşə məktəblərinin tədris proqramlarına proqramlaşdırmaya dair dərslər daxil ediləcəkdir.

İnformasiya cəmiyyətinin yaranması əlavə innovasiyalı hədəflər müəyyən edəcəkdir. Startapların və innovasiyalı müəssisələrin inkişafını stimullaşdırmaq məqsədilə klasterlərin və yüksək texnologiyalar parklarının yaradılması nəzərdən keçiriləcəkdir. Bu işdə dövlətin və digər maraqlı tərəflərin müvafiq investisiya qoyuluşları əsas dəstəkverici qüvvə rolunu oynayacaqdır. Belə parklara və innovasiya mərkəzlərinə innovasiyaya təkan verən startapları daha çox cəlb etmək üçün onların daha geniş əhatə dairəsində (bölgələrdə) tətbiqi reallaşdırılacaqdır. Bu yanaşma həmin parklarda olan müəssisələrin Azərbaycanın rəqəmsal iqtisadiyyata keçidi üçün əsas hərəkətverici qüvvə olmasına şərait yaradacaqdır. Həmçinin müvafiq planların

tətbiqi vasitəsilə informasiya cəmiyyəti elektron xidmətlərdən daha çox istifadəyə stimullaşdırılacaq və təlimatlandırılacaqdır. Beləliklə, texnoloji savadlılıq, yüksək texnologiya vasitələrinin tətbiqində artım və keyfiyyətli genişzolaqlı şəbəkəyə çıxış nəticəsində ümumi biznes mühitinin inkişafına nail olunacaqdır.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

İnformasiya və kommunikasiya sektoru üzrə 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış uzunmüddətli perspektivdə İKT sahəsində regionda lider ölkəyə çevrilmək, güclü potensialı olan İKT sənayesi, cəmiyyətin artan tələbatını təmin edən telekommunikasiya infrastrukturu yaratmaq, sabit və mobil genişzolaqlı şəbəkə vasitələrinin əhatə dairəsini 95 faizə çatdırmaq, təhsil sistemində texnologiyayönümlü strukturlaşmanın, o cümlədən rəqəmsal iqtisadiyyatın daha da inkişafına şərait yaratmaq, ölkədə bank, maliyyə, təhsil, tibb və s. sosial sahələrdə artıma təkan vermək və elektron xidmətlərin daha geniş tətbiqinə nail olmaqdır.

Hədəf baxışın şərhi

Bu məqsədə nail olmaq üçün ölkədə güclü əhatə dairəsi və yüksək sürəti olan keyfiyyətli genişzolaqlı şəbəkə infrastrukturunun qurulması hədəflənir. Həmin infrastrukturun əsasında ölkənin təhsil sistemində texnologiyayönümlü proqram vasitəsilə innovativ davranışların inkişafı təmin ediləcəkdir. Texnologiya savadlılığı yüksək olan məzunlar və investisiya axınları Azərbaycanda maliyyə, səhiyyə və təhsil kimi mühüm xidmət sektorlarında təkmilləşmə və inkişafa təkan verən güclü elektron xidmətlərin təminatçısı olacaqdır.

Uzunmüddətli perspektivdə ölkədə keyfiyyətli genişzolaqlı şəbəkəyə çıxış imkanı verən güclü telekommunikasiya infrastrukturunun yaradılması, xüsusən də sabit və mobil genişzolaqlı şəbəkə texnologiyaları vasitəsilə genişzolaqlı şəbəkənin əhatə dairəsinin 95 faizə çatdırılması hədəflənir. Həm fiber-optik şəbəkənin əhatə dairəsinin genişləndirilməsi məqsədilə infrastrukturun daha da təkmilləşdirilməsi, həm də simsiz şəbəkənin əhatə dairəsi üçün tezlik spektrindən səmərəli istifadənin təmin edilməsi bu hədəfə çatmağa imkan verəcəkdir. Məlumat trafikindən istifadə səviyyəsinin getdikcə artmasını nəzərə alaraq, bu artımın zəruri potensial əsasında və sürətlə təmin edilməsi məqsədilə investisiya qoyuluşları müvafiq qaydada planlaşdırılacaqdır.

Həm sabit, həm də simsiz genişzolaqlı şəbəkənin əhatə dairəsi ilə bağlı texnoloji infrastrukturun qurulması digər ölkələrdə istehsal edilən məhsullardan asılılığı və idxalı azaldacaqdır. Bununla yanaşı, qlobal miqyasda sürətlə yeni texnologiyaların yarandığını nəzərə alaraq, avadanlığın davamlı şəkildə yenilənməsi və təkmilləşdirilməsi tələb olunacaq ki, bu da, öz növbəsində, yeni idxal meyilləri yarada bilər. Odur ki, uzunmüddətli perspektivdə ölkədən valyuta axınını azaltmaq məqsədilə əsas texnologiya məhsullarının yerli istehsalının artırılması planlaşdırılır. Həmçinin bu cür sektorların inkişafını təmin etmək məqsədilə infrastruktur üzrə milli kontentlə bağlı tələblər müəyyən ediləcəkdir. Görüləcək tədbirlər nəticəsində şəbəkənin təkmilləşdirilməsi üzrə xərclərin azaldılması və ölkə iqtisadiyyatında yaradılan əlavə dəyərin artırılması hədəflənir ki, bu həm də informasiya təhlükəsizliyi səbəbindən bir sıra həssas avadanlığın ölkə daxilində yerli istehsalının prioritetləşdirilməsi məqsədi daşıyır.

2025-ci ildən sonrakı dövrdə Azərbaycanda qabaqcıl rəqəmsal tətbiqetmə proqramlarının gündəlik həyata inteqrasiyası genişlənəcəkdir. Artıq əksər dövlət sənədlərinin və proseslərinin rəqəmsallaşdırıldığı bir dövrdə, uzunmüddətli perspektivdə ölkədə kağızsız sənədləşməyə keçid təşviq ediləcəkdir. Bu hədəf baxış əməliyyatların kağızsız aparıldığı və elektron xidmətlərin geniş yayıldığı rəqəmsal bankçılıq sistemini nəzərdə tutur. Azərbaycanda banklar, rəqəmsal ödəniş sistemləri,

mobil pul kisəsi, onlayn alış-veriş platformaları və hətta sosial şəbəkələr də daxil olmaqla, müxtəlif maraqlı tərəflərin qarşılıqlı əlaqədə olduğu tam rəqəmsal bankçılıq təcrübəsinin yaradılması planlaşdırılır. Güclü bank və kommunikasiya infrastrukturu bu dövrdə pərakəndə satışdan xidmətlərə qədər müxtəlif sahələrdə elektron ticarət imkanını gücləndirəcəkdir. Həmçinin bu dövrə qədər qurulmuş e-səhiyyə xidmətləri əsasında ölkənin səhiyyə sektorunda bütün proseslər rəqəmsallaşdırılacaq, pasiyentlərin xəstəlik vərəqələri üzrə məlumat bazası genişləndiriləcəkdir.

Bu dövrdə ölkədə daxili əməliyyatlarda tədricən daha güclü rəqəmsal həllərdən istifadəyə keçid təmin ediləcək və bu məqsədlə həm dövlət, həm də özəl sektorda aparılan əməliyyatların optimallaşdırılması ilə bağlı böyükhəcmli verilənlər formatında rəqəmsallaşdırma təmayülündən əsas vasitə kimi istifadə ediləcəkdir. Şirkətlər müştərilərin tələblərinin daha yaxşı öyrənilməsi məqsədilə bu konsepsiyaya investisiya qoyacaq və nəticələrdən məqsədli marketinq fəaliyyətində istifadə edəcəklər. Həmçinin bu müəssisələr məlumatların saxlanılması və emalı məqsədilə "bulud" hesablama texnologiyalarından istifadə edəcəkdir. Simsiz rabitə operatorları öz müştəriləri üçün "bulud" hesablama texnologiyalarına əsaslanan həllər təklif edəcəklər.

Bu kontekstdə "maşınla öyrənmə" və maşınlararası kommunikasiya (*"M2M"*) cəmiyyətin həyatında mühüm elementə çevriləcəkdir. Göstərilən sistemlər inkişaf etdikcə və "Əşyaların interneti" (*"IoT"*) konsepsiyası təkmilləşdikcə, Azərbaycanda bu texnologiyalar daha geniş tətbiq ediləcəkdir. Bu texnologiyalardan həm keyfiyyətli rəqəmsal xidmətlər üçün bazis konsepsiyası, həm də müxtəlif resurslardan əldə edilən məlumat mənbələri kimi istifadə ediləcəkdir. Misal üçün, uzunmüddətli perspektivdə Azərbaycanda bütün kommunal xidmət sayğaclarının rəqəmsal sayğaclarla əvəz edilməsi planlaşdırılır ki, bu da həm istehlaka nəzarət və kommunal haqların ödənilməsi sahəsində, həm də əldə edilmiş məlumatların təhlili yolu ilə paylanmada təkmilləşdirmələrin aparılmasına imkan verəcəkdir. Nəzərdə tutulan bu irəliləyişlər Azərbaycan üzrə "ağıllı" şəhər konsepsiyasına daxil ediləcəkdir. Dövlət xidmətləri üzrə real vaxt rejimində məlumatlara çıxış xidmətlərin keyfiyyətini artırmaqla, vətəndaşlar və dövlət qurumları üçün əlverişli mühit formalaşdıracaqdır.

Bu dövrdə təhsil müəssisələrinin innovasiyayönümlü məzunları potensial innovasiyayönümlü biznes subyektləri kimi ölkəyə böyük fayda verəcəklər. Bu cür istedadlı sahibkarlar yüksək texnologiyalar parklarında təmin edilmiş düzgün stimullar və ümumi innovativ davranışlar vasitəsilə uğurlu rəqəmsal startaplar yaradacaq, yerli və xarici investisiyaları cəlb edəcəklər.

5. HƏDƏF İNDİKATORLARI

Strateji Yol Xəritəsində nəzərdə tutulan prioritetlərin həyata keçirilməsi nəticəsində:

- 2020-ci ildə real ÜDM-in 235 milyon manat artacağı;
- telekommunikasiya sektorunda 1450 iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlər üzrə aşağıdakı aralıq indikatorlar müəyyən edilmişdir:

- LTE və başqa simsiz texnologiyalar üzrə genişzolaqlı xidmətlərin əhatə dairəsinin, hər il 10 faiz genişləndirilmək yolu ilə 2020-ci ildə 70 faizə, 2025-ci ildə 85 faizə, 2025-ci ildən sonra isə 100 faizə çatdırılması;
- mobil rabitə əlaqələri üzrə adambaşına düşən xərclərin istehlak səbətindəki payının cari 0,37 faizdən 1,41 faizədək artırılması;
- mobil abunəçi sayının 2020-ci ilədək minimum hazırkı səviyyədə qorunub saxlanılması;
- hazırda mis xətlər vasitəsilə təklif edilən genişzolaqlı internet xidmətlərini fiber-optik texnologiyalara (FTT-X standartlarına) əsaslanan xidmətlərlə əvəz etməklə, genişzolaqlı şəbəkənin əhatə dairəsinin 2020-ci ildə 70 faizə, 2025-ci ildə isə 95 faizə çatdırılması və növbəti dövrlərdə daha da genişləndirilməsi;
- beynəlxalq şlüzlərə qoşulan operatorların sayının 2020-ci il üçün cari 2 operatordan ən azı 3 operatora qədər artırılması və 2020-ci ildən sonra bu prosesin davam etdirilməsi;
- Azərbaycanda sabit genişzolaqlı şəbəkədə bir istifadəçinin internetdən istifadə sürətinin cari 3,6 Mbit/s orta sürətdən 2020-ci ildə 20 Mbit/s-ə, 2025-ci ildə 50 Mbit/s-ə, 2025-ci ildən sonra isə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması;
- “elektron hökumət”in inkişafının qabaqcıl ölkələr səviyyəsinə çatdırılması;
- internet və mobil bank sistemlərində elektron imzanın əhatə dairəsinin 2016-cı ildəki 20 faizdən 2020-ci ildə 80-100 faiz səviyyəsinə çatdırılması;
- nağdsız əməliyyatların xüsusi çəkisinin 2016-cı ildəki 8 faizdən 2020-ci ilədək 30 faizə, 2020-2025-ci illərdə 50 faizə, 2025-ci ildən sonra isə 80 faizə çatdırılması;
- istehlak xərclərində POS-terminallar vasitəsilə aparılan nağdsız əməliyyatların payının hazırkı təxmini 1 faizdən 8-9 faizədək artması;
- POS-terminallar vasitəsilə həyata keçirilən əməliyyatların məbləğinin 400 milyon manatdan 2,7 milyard manatadək artırılması;
- informasiya texnologiyaları üzrə ali təhsil almış məzunların təhsili başa vurduqdan sonra növbəti bir il ərzindəki məşğulluq səviyyəsinin hazırkı 43 faizdən 2020-ci il üzrə 60 faizə çatdırılması;
- dövlət təşkilatlarında informasiya sistemlərinin təkmilləşdirilməsi nəticəsində 2020-ci ildə dövlət büdcəsi xərclərinə 55 milyon manat qənaət edilməsi;
- inteqrasiya edilmiş fasiləsiz elektron səhiyyə infrastrukturunun yaradılması nəticəsində 2020-ci ildə dövlət büdcəsi xərclərinə 60 milyon manat, səhiyyə xərclərinə 7 faiz qənaət edilməsi.

6. STRATEJİ MƏQSƏDLƏR

Strateji Yol Xəritəsinin əsas məqsədi ölkəmizdə dövlət sektorunun səmərəli fəaliyyət göstərməsi, əhalinin sosial-iqtisadi həyat səviyyəsinin yüksəldilməsi, səhiyyənin, təhsilin, maliyyənin, ümumiyyətlə, iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun inkişafı və təkmilləşdirilməsi, ölkənin İKT sənayesinin potensialının artırılmasıdır. Bundan əlavə, strateji məqsədlərə aşağıdakılar da daxildir:

- İKT sahəsinin strukturunun və normativ-hüquqi bazasının təkmilləşdirilməsi yolu ilə dövlət tənzimləməsinin təkmilləşdirilməsi;
- İKT-nin tətbiqi üçün genişzolaqlı internet xidmətləri infrastrukturunun əhatə dairəsinin genişləndirilməsi;
- cəmiyyətin İKT xidmətlərinə tələbatının təmin edilməsi;
- real sektorda və bütövlükdə, cəmiyyətdə İKT-dən istifadənin genişləndirilməsi;
- İKT sahəsində rəqabətqabiliyyətli, ixracyönümlü və innovativ iqtisadi potensialın gücləndirilməsi;
- "elektron hökumət"in əhatə dairəsinin genişləndirilməsi, elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması, onların avtomatlaşdırılmış interaktiv xidmətlər şəklində həyata keçirilməsi;
- dövlət idarəçiliyinin bütün səviyyələrində və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqinin genişləndirilməsi;
- iqtisadiyyatın müxtəlif sahələri, həmçinin şəhər və kənd yaşayış məntəqələri arasında İKT-dən istifadədə rəqəmsal fərqliliyin azaldılması;
- yüksəkixtisaslı İKT mütəxəssislərinə artan tələbatın təmin edilməsi;
- milli mədəni irsin qorunması, təhsil, səhiyyə, mədəniyyət sahələri üzrə geniş istifadə üçün təyin edilmiş elektron resursların inkişaf etdirilməsi;
- informasiya təhlükəsizliyi üzrə ümummilli hazırlıq və maarifləndirmə səviyyəsinin artırılması;
- ÜDM-in tərkibində İKT-nin xüsusi çəkisinin artırılması;
- İKT sahəsində yerli proqram vasitələrinin və texnoloji avadanlığın istehsalının təşkili və inkişaf etdirilməsi;
- regionlarda, kəndlərdə, ucqar yaşayış məntəqələrində tələblərə uyğun FTT-X və ya LTE mobil genişzolaqlı internet xidmətlərinin təmin edilməsi;
- liberal bazar prinsipləri əsasında ədalətli rəqabət mühitinin yaradılması, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinin və prosedurlarının müəyyənləşdirilməsi və tətbiqi;
- dövlət idarəçiliyində və sosial mühitdə rəqəmsal texnologiyaların istifadəsinin genişləndirilməsi;
- İKT-nin köməyi ilə qərarların qəbul edilməsində cəmiyyət üzvlərinin daha fəal iştirakının təmin edilməsi.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. İdarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi

Növbəti illərdə rabitə əlaqəsinin gücləndirilməsi və keyfiyyətinin artırılması məqsədilə Azərbaycanda müxtəlif imkanlar araşdırılaraq, aşağıdakı üç tədbir həyata keçiriləcəkdir:

- dövlət və özəl sektor tərəfindən investisiya yatırımları üçün əlverişli və şəffaf tənzimləmə mühitinin yaradılması;
- sürətli genişzolaqlı şəbəkənin əhatə dairəsinin və göstərilən xidmətlərin keyfiyyətinin artırılması;
- mobil şəbəkələrdə sürətli genişzolaqlı şəbəkə üzrə əhatə dairəsinin genişləndirilməsi.

7.1.1. Prioritet 1.1. Müstəqil tənzimləyici qurumun yaradılması

Əsaslandırma

Son illər ərzində Azərbaycanda telekommunikasiya sektorunun inkişafı istiqamətində bir çox müsbət nəticələr əldə edilmişdir. Bu inkişafın davamlılığının təmin edilməsi üçün həmin sektorun qlobal iqtisadiyyatda meydana gələn yeni çağırışlara uyğunlaşdırılması istiqamətində islahatların aparılması, telekommunikasiya bazarının liberallaşdırılması, tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi və sağlam rəqabət mühitinin formalaşdırılması zəruri amillərdir.

Hazırda ölkədə telekommunikasiya sektorunda tənzimləyici funksiyasını həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir (bundan sonra – RYTN). Bununla yanaşı, RYTN tabeliyində olan təşkilatlar vasitəsilə bu sektorda dolayısı ilə iştirakçı kimi də çıxış edir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, müstəqil tənzimləyici qurum vasitəsilə telekommunikasiya bazarının tənzimlənməsi bazarın inkişafına və daha çox investisiya qoyulmasına zəmin yaradır. Beynəlxalq təcrübədə telekommunikasiya sektoru üzrə tənzimləyici qurum, əsasən, aşağıdakı mühüm funksiyaları həyata keçirir:

- **telekommunikasiya bazarının formalaşdırılması və inkişafının təmin edilməsi:** tənzimləyici qurum bazarda tələb olunan iştirakçıların sayının müəyyən edilməsi üzrə qiymətləndirmələr aparır, bazar subyektlərinə lisenziyaların verilməsi, milli tezlik spektrinin şəffaf bölgüsü, bazar iştirakçılarına nömrə resurslarının ayrılması və operatorlar arasında nömrə daşınması kimi məsələləri tənzimləyir. Eyni zamanda, bazar faktorları və tərəflərin mənafeləri nəzərə alınmaqla, rüsum və qiymətlərin (tariflərin) tənzimlənməsini, habelə sektor daxilində iştirakçıların fəaliyyəti ilə bağlı digər zəruri tənzimləmələri də həmin qurum həyata keçirir;
- **İKT üzrə strateji məqsədlərə nail olunması:** tənzimləyici qurum məhdud resurs hesab edilən milli tezlik spektrinin effektiv idarə edilməsini, xidmət keyfiyyətinə nəzarəti, istehlakçıların maraqlarının qorunmasını, keyfiyyət standartlarının və əhatə dairəsinə dair optimal tələblərin müəyyənləşdirilməsini və telekommunikasiya sektoruna investisiya qoyuluşlarının stimullaşdırılmasını təmin edir.

Beynəlxalq Telekommunikasiya İttifaqının hesabatına əsasən, sürətlə inkişaf edən və daim yenilənən telekommunikasiya sektorunda effektiv tənzimləməni həyata

keçirmək məqsədilə dünyada, əsasən, son 20 ildə yaradılmış 190 tənzimləyici qurum fəaliyyət göstərir. Bu qurumlar fəaliyyət göstərdikləri ölkələrin inkişaf strategiyalarından asılı olaraq, müxtəlif tənzimləmə tədbirlərini həyata keçirirlər. Onlar telekommunikasiya siyasəti ilə bağlı qərar qəbul etmirlər və bazarın inkişafı ilə bağlı sağlam rəqabətə təkan verməklə, telekommunikasiya sektoru üzrə strateji məqsədlərə nail olmaq istiqamətində fəaliyyət göstərirlər.

Beynəlxalq təcrübədə tənzimləyici qurumun müstəqil şəkildə və yaxud müvafiq mərkəzi icra hakimiyyəti orqanının tabeliyində fəaliyyətini nəzərdə tutan iki müxtəlif model tətbiq edilir (şəkil 7).

Şəkil 7. Dünya ölkələrinin İKT sahəsində tənzimləyici qurumları barədə məlumat



Mənbə: Beynəlxalq Telekommunikasiya İttifaqı

Bazar subyektləri arasında münasibətlərin effektiv tənzimlənməsi üçün müstəqil tənzimləyici qurumun yaradılması və müstəqil fəaliyyətinin təmin edilməsi aktual məsələ kimi gündəmə gəlir. Beynəlxalq təcrübədə tənzimləyicinin funksiyalarının artırılması və bu funksiyaların siyasi qərarvermə funksiyasından ayrılması yolu ilə bu sahədə qarşıya çıxa biləcək aşağıda sadalanan problemlərin uğurlu şəkildə həll edildiyi müşahidə edilir:

- tənzimləyici qurum müvafiq mərkəzi icra hakimiyyəti orqanının tabeliyində fəaliyyət göstərdiyi halda, verilmiş qərarlar həmin mərkəzi icra hakimiyyəti orqanın qərarları ilə ziddiyyət təşkil edə və bu səbəbdən ləğv edilə bilər;
- tənzimləyici qurumun rəqabət mühitinin təmin edilməsi ilə bağlı qərarları müvafiq mərkəzi icra hakimiyyəti orqanının tabeliyində fəaliyyət göstərən digər təşkilatların maraqları ilə uzlaşmaya və belə ziddiyyətlər nəticəsində qərarların verilməsində subyektivliyə yol verilə bilər;

- tənzimləyici qurumun hüquqi statusunun kifayət qədər yüksək olmaması onun qərarlarının icra müddətlərində gecikmələrə və icra keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər. Bununla yanaşı, tezlik bölgüsü və digər oxşar məsələlərə dair tənzimləyicinin qərarlarının yuxarı orqan tərəfindən təsdiqlənməsi tələb edilir ki, bu da qərarvermə prosesində ləngimələrə gətirib çıxarır. Həmçinin tənzimləyicinin aşağı hüquqi statusa malik olması nəticəsində onun qərarlarını mərkəzi icra hakimiyyəti orqanları "təklif və ya məsləhət" kimi xarakterizə edirlər.

Tənzimləyici qurumun müstəqil fəaliyyətini təmin etmək məqsədilə "bençmark" hesab edilən ölkələrdə aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- **Təşkilati bölgü:** Müstəqil tənzimləyici qurumun yaradılmasını və rəhbərinin təyin edilməsini dövlət başçısı həyata keçirir.
- **Qərarvermə səlahiyyəti:** Tənzimləyici qurum qərarları mövcud qanunvericiliyə uyğun kollegial qaydada qəbul edir və bu qərarlar yalnız məhkəmə tərəfindən ləğv edilə bilər. Tənzimləyici telekommunikasiya siyasətini həyata keçirən orqan qarşısında hesabat vermir.
- **Daxili idarəetmə:** Tənzimləyici quruma ona ayrılmış maliyyə vəsaitlərinin xərclənməsi, işçilərin işə götürülməsi və işdən azad edilməsi, habelə onlar arasında vəzifə bölgüsünün aparılması səlahiyyətləri verilir.

Görüləcək tədbirlər

Tədbir 1.1.1: Telekommunikasiya sahəsində aparılacaq islahatlar çərçivəsində görüləcək tədbirlərin müəyyən edilməsi üçün işçi qrupun yaradılması

Telekommunikasiya sahəsində aparılacaq islahatlar çərçivəsində həyata keçirilməli olan tədbirlər və bu tədbirlər üzrə fəaliyyət planının müəyyən edilməsi məqsədilə işçi qrup yaradılacaqdır. Qrup, ilk öncə, telekommunikasiya sektorunda uğurlu nəticələr əldə etmiş ölkələrin təcrübələrini öyrənəcək, onların Azərbaycanda tətbiqi imkanları və telekommunikasiyanın inkişafı ilə bağlı bütün digər aspektlər daxil olmaqla, genişəhatəli araşdırma və təhlillər aparacaqdır.

Aparılmış araşdırma və təhlillərin nəticəsi olaraq, 2017-ci ildə qrup Azərbaycanda telekommunikasiya sektorunun inkişafı ilə bağlı çərçivə planını və tənzimləmə funksiyalarını müstəqil tənzimləyici qurumun həyata keçirməsi üçün müvafiq qurumun yaradılmasına dair məsələləri əhatə edən üçillik keçid planı hazırlayacaqdır. Üçillik keçid dövrü ərzində tənzimləyici qurumun vəzifə və funksiyalarını RYTN icra edəcəkdir.

Tədbir 1.1.2: Tənzimləyici qurumun fəaliyyəti üzrə normativ-hüquqi aktların hazırlanması və təsdiq edilməsi

İşçi qrup beynəlxalq təcrübədə mövcud olan tənzimləyici qurumların fəaliyyəti üzrə təcrübələri öyrənməklə, tənzimləyici qurumun fəaliyyət istiqamətlərini, onun hüquq və vəzifələrini, səlahiyyətlərini və məsuliyyətini müəyyən edən normativ-hüquqi aktların layihələrini hazırlayacaq və təsdiq olunması üçün təqdim edəcəkdir.

Bu normativ-hüquqi aktlarda, eyni zamanda, tənzimləyici qurumun maliyyələşmə mənbələrinə, yüksəkixtisaslı kadrların işə götürülmə şərtlərinə, qərarvermə mexanizmlərinə və digər zəruri məsələlərə dair müddəalar nəzərdə tutulacaqdır.

Tədbir 1.1.3: Tənzimləyici qurumun yaradılması və fəaliyyəti

İşçi qrup tərəfindən üçillik keçid planı əsasında müstəqil tənzimləyici qurumun yaradılması və onun fəaliyyətinin təmin edilməsi üzrə zəruri tədbirlər görüləcəkdir.

Tənzimləyici qurum tərəfindən fəaliyyətində səmərəliliyin təmin edilməsi və funksiyaların şəffaf həyata keçirilməsi məqsədilə elektron xidmətlər tətbiq olunacaq və bazar iştirakçılarının bu xidmətlərdən istifadəsi təşviq ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Tənzimləmə, kommersiya və qanunvericilik funksiyalarının bir-birindən ayrılmasında əsas məqsəd telekommunikasiya sahəsində rəqabətin artırılmasından ibarətdir. Prioritetin icrası bu sektorda göstəriləcək xidmətlərin həcminin və bazara daxil olacaq yeni operator və provayderlər vasitəsilə iş yerlərinin sayının, habelə ÜDM-də İKT sektorunun xüsusi çəkisinin artmasına gətirib çıxaracaqdır.

Sağlam rəqabət mühitinin daha da yaxşılaşdırılması nəticəsində telekommunikasiya özəl investorlar üçün daha cəlbedici sektora çevriləcək və özəl investisiyaların həcmi artacaqdır ki, bununla da dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitlərin həcmi optimallaşacaqdır.

Bu prioritetin həyata keçirilməsi nəticəsində 2020-ci ildə 100 yeni iş yerinin yaranacağı proqnozlaşdırılır.

Tələb edilən investisiya

Bu prioritetin həyata keçirilməsi üçün əhəmiyyətli investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

- zəruri qərarların qəbulunun gecikdirilməsi, normativ-hüquqi aktlara əlavə və dəyişikliklərin vaxtında hazırlanıb təqdim edilməməsi;
- investisiya qoyuluşları üzrə yüksək bazar cəlbediciliyinin təmin edilə bilməməsi və investorlar üçün təşviqedici tədbirlərin yetərli olmaması;
- dövlət resurslarından qeyri-səmərəli şəkildə istifadə olunması.

7.1.2. Prioritet 1.2. Telekommunikasiya bazarının liberallaşdırılması


Əsaslandırma

Azərbaycanda sabit genişzolaqlı şəbəkənin cari statusu

Fiber-optik əlaqə tam inkişaf etmiş genişzolaqlı şəbəkənin ən mühüm elementlərindən biridir. Digər tərəfdən, yeni infrastrukturun yaradılması və ya mövcud şəbəkələrin gücləndirilməsi əhəmiyyətli məbləğdə kapital tələb edən fəaliyyətdir və bu, dövlət orqanlarından ciddi tənzimləmə və stimullaşdırma tələb edir.

Əksər dünya ölkələrində olduğu kimi, Azərbaycanda da fiber-optik şəbəkədən istifadə sürətlə artmaqdadır. Bununla yanaşı, sabit genişzolaqlı şəbəkədə abunəçilərin sayında artım, əsasən, asimmetrik rəqəmsal abunəçi xətti (X-DSL) texnologiyalarında müşahidə edilir. Belə ki, 2012-2015-ci illərdə X-DSL abunəçilərinin sayında artım 56 faiz təşkil etdiyi halda, FTT-X abunəçilərinin sayında həmin dövr ərzində artım cəmi 31 faiz təşkil etmişdir (şəkil 8). X-DSL texnologiyasından istifadənin fiber-optik rabitə texnologiyalarına (FTT-X) nisbətən daha sürətlə artması trendi müqayisə üçün götürülmüş digər bençmark ölkələrində müşahidə olunmur.

Şəkil 8. Azərbaycan və digər ölkələrdə FTT-X və X-DSL abunəçilərinin sayında artım




1. *Rumıniya və Çexiya Respublikası*
2. *Kabel, WiMax və digər texnologiyalar*

Mənbə: "TeleGeography"

Hazırda Azərbaycanda sabit şəbəkədə genişzolaqlı xidmətlərin 50 faizdən çoxu azsaylı bazar subyektləri tərəfindən təqdim edilir. Genişzolaqlı şəbəkə bazarının liberallaşdırılması ölkədə rabitə əlaqəsinin gücləndirilməsi istiqamətində əsas təkanverici amillərindən biri ola bilər. Beynəlxalq təcrübədə dünya ölkələri bazarlarda rəqabət mühiti yaratmaqla, iştirakçıların paylarının effektiv tənzimlənməsi istiqamətində tədbirlər həyata keçirirlər. Buna görə də Azərbaycanın telekommunikasiya bazarında müşahidə edilən meyillər bu trendə orta və uzunmüddətli perspektivdə uyğunlaşdırılmalıdır. Region ölkələrində sabit genişzolaqlı xidmət üzrə yüksək xüsusi çəkiyə malik bazar iştirakçılarının bazar payları 2010-2015-ci illərdə azaldığı halda, Azərbaycanda belə iştirakçılar öz abunəçi bazasını genişləndirməklə, bu göstəricini 2010-cu ildəki 40 faizdən 2015-ci ildə 66 faizədək artırmışlar (şəkil 9).

Şəkil 9. Region ölkələri ilə müqayisədə yüksək xüsusi çəkiyə malik iştirakçıların bazardakı payı barədə məlumat



1. Birləşmiş Krallıq, Almaniya, Fransa
2. Çexiya Respublikası, Polşa, Rumıniya

Mənbə: "TeleGeography"

Azərbaycanın beynəlxalq telekommunikasiya əlaqələrinin cari statusu

Beynəlxalq təcrübəyə əsasən, bazarın liberallaşdırılması xidmətlərin qiymətlərinin optimallaşmasına, investisiya qoyuluşlarının həcminin və xidmətlərin keyfiyyətinin yüksəlməsinə səbəb olur. Bazar iştirakçıları arasında liberallığın artırılması, rəqabət mühitinin təkmilləşdirilməsi beynəlxalq zənglərin orta qiymətlərinin 48 faiz, genişzolaqlı şəbəkə qiymətlərinin isə 32 faiz aşağı salınmasına imkan verə bilər.

Beynəlxalq təcrübədə liberallaşdırma həyata keçirildikdən sonra beynəlxalq zənglərin həcminin 32-104 faiz aralığında artdığı, qiymətlərin isə 30-90 faiz aralığında azaldığı müşahidə edilmişdir. Bununla yanaşı, müəyyən edilmişdir ki, beynəlxalq şlüzlər üzərində yüksək xüsusi çəkiyə malik iştirakçıların üstün mövqeyə malik olduğu ölkələrdə qanunsuz daxil olan trafik ümumi beynəlxalq trafikdə 30-60 faiz aralığında paya malikdir və bu da, öz növbəsində, vergidən yayınmalarla müşayiət olunur.[8]

Görüləcək tədbirlər

Strateji Yol Xəritəsində göstərilən məqsədlərə çatmaq üçün konkret layihə hazırlanacaq və həmin layihənin həyata keçirilməsi üçün tələb edilən investisiyanın həcmi müəyyənləşdiriləcəkdir. Layihənin icrası məqsədilə digər stimullaşdırıcı tədbirlərlə yanaşı, yerli və xarici investorların cəlb edilməsi üçün daha əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində də tədbirlər görüləcəkdir.

[8] Mənbə: Beynəlxalq Telekommunikasiya İttifaqı, "TeleGeography", "Point Topic", "Groupe Special Mobile Association (GSMA)"

Tədbir 1.2.1: Xarici investorların cəlb edilməsi və RYTN-in tabeliyində olan telekommunikasiya qurumlarının özəlləşdirilməsinin nəzərdən keçirilməsi

RYTN-in nəzdində fəaliyyət göstərən "Aztelekom" MMC, Bakı Telefon Rabitəsi İstehsalat Birliyi və "AzİnTelecom" MMC kimi təşkilatların özəlləşdirilməsi, habelə nazirliyin digər müəssisələrdəki dövlətə məxsus paylarının təqdim edilməsi nəzərdən keçirilə bilər.

Özəlləşdirmə və dövlətə məxsus payların təqdim edilməsi tədbirləri çərçivəsində, habelə müstəqil tənzimləyici qurum yaradılanadək RYTN-in tənzimləyici qurum kimi daha effektiv fəaliyyət göstərməsi məqsədilə bu sahələrə özəl investisiyaların cəlb edilməsi imkanları dərin və ətraflı şəkildə təhlil ediləcəkdir.

Tədbir 1.2.2: Genişzolaqlı infrastrukturun əhatə dairəsinin artırılması üzrə yanaşmanın seçilməsi

Tənzimləyici qurum fiber-optik şəbəkənin genişləndirilməsi üzrə inkişaf planını digər aidiyyəti dövlət orqanları (təşkilatları) ilə koordinasiyalı şəkildə işləyib hazırlayacaq və bu planın həyata keçirilməsinə nəzarət edəcəkdir. İnkişaf planının hazırlanması zamanı infrastruktur investisiyalarının həyata keçirilmə formalarının müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edəcəkdir. Bu məqsədlə aşağıdakı üsullar nəzərdən keçiriləcəkdir.

- **Mövcud şəbəkəyə nəzarət edən bazar iştirakçısı vasitəsilə subsidiyalaşdırma/stimullaşdırma:** Bu yanaşmada genişzolaqlı şəbəkə infrastrukturunun qurulması mövcud şəbəkəyə nəzarət edən bazar iştirakçısı vasitəsilə stimullaşdırılır. Belə ki, yüksək xərc tələb edən, lakin aşağıgəlirli ərazilərdə infrastrukturun qurulması məqsədilə dövlət tərəfindən həmin iştirakçıya maliyyə stimulları verilməklə, investisiya qoyuluşu stimullaşdırıla bilər. Hazırda internet xidməti təminatçılarının şəbəkəyə topdan çıxış imkanları vardır. Bu yanaşmanın tətbiqi dövlət tərəfindən mövcud şəbəkəyə nəzarət edən bazar iştirakçısı üzərində şəbəkənin əhatə dairəsi və xidmət səviyyəsi üzrə aydın müəyyən edilmiş əsas icra göstəriciləri (ƏİG-lər) vasitəsilə nəzarətin təmin edilməsini, eləcə də bazarda şəbəkəyə topdan çıxış imkanlarının düzgün və şəffaf qaydada tənzimlənməsini tələb edir.
- **Simsiz rabitə operatorları vasitəsilə subsidiyalaşdırma/stimullaşdırma:** Yuxarıda qeyd edilən modellə müəyyən oxşar cəhətlərə malik olsa da, bu modeldə genişzolaqlı şəbəkə infrastrukturunun qurulması ilə bağlı dövlət tərəfindən subsidiyalaşdırma yalnız mövcud şəbəkəyə nəzarət edən bazar iştirakçısı vasitəsilə deyil, simsiz rabitə operatorlarının müştərək müəssisəsinin yaradılması yolu ilə təmin edilə bilər.
- **İnfrastrukturəsaslı rəqabət:** Bu model telekommunikasiya operatorlarının genişzolaqlı şəbəkənin qurulması sahəsində bir-biri ilə rəqabət aparmasını nəzərdə tutur. Tənzimləyici qurum seçmə qaydada bazarın liberallaşdırılması və ya investisiyaların cəlbi məqsədilə normativ tələblərin yumşaldılması kimi alətlərlə investisiya qoyuluşunu daha da stimullaşdıra bilər. İnvestisiya qoyuluşunun azaldığı dövrlərdə isə tənzimləyici qurum infrastruktura investisiya qoyuluşlarını stimullaşdıran vasitələri (məsələn, yüksək xərc tələb edən ərazilər üzrə subsidiyaların verilməsi), eləcə də investisiyaların təşviqi və qorunması məqsədi daşıyan tənzimləmə alətlərini (məsələn, normativ tələblərin yumşaldılması) müəyyən etməklə, rəqabətli mühitin yaradılmasına təkan verə bilər.

Tədbir 1.2.3: Beynəlxalq şlüzlərə qoşulmanın təmin edilməsi və tələbata uyğun beynəlxalq kanalların sürətinin artırılması

Telekommunikasiya bazarının inkişafı istiqamətində atılacaq növbəti addım beynəlxalq şlüzlərin rəqabət üçün açılmasından ibarət olacaqdır. Bu tədbirin həyata keçirilməsi provayderlərə vasitəçilərin iştirakı olmadan beynəlxalq xətləri lisenziyalaşdırmağa imkan verəcəkdir. Tənzimləyici qurum birbaşa və dolayı çıxış üçün lisenziyaların verilməsi mexanizmini işləyib hazırlayacaqdır. Bazarda beynəlxalq şlüzlərə qoşulan ən azı üç milli provayderin iştirakı üçün əlverişli şəraitin yaradılması, mövcud və yeni təşkil olunan magistral kanalların alternativliyi təmin ediləcəkdir. Mövcud və yeni yaranan beynəlxalq operatorların beynəlxalq şlüzə qoşulmasında baş verə biləcək təbii, texniki, iqtisadi və siyasi risklər nəzərə alınaraq, bir mərkəzdən asılılığı azaltmaq üçün tədbirlər nəzərdən keçiriləcəkdir.

Tədbir 1.2.4: Genişzolaqlı şəbəkənin tətbiqinin artırılması üçün digər üsulların nəzərdən keçirilməsi

Tənzimləyici qurum bu prioritetin məqsədlərinə nail olmaq üçün mümkün olan digər üsulları da nəzərdən keçirəcəkdir. Bunlara beynəlxalq təcrübədə geniş rast gəlinən FTT-X layihəsinin həyata keçirilməsi, simsiz mobil şəbəkə şirkətləri ilə tərəfdaşlıq, layihələrin idarə edilməsi üzrə struktur islahatları, yüksəkgəlirli sahələr üzrə infrastrukturun yaradılmasına investisiyaların cəlb edilməsinin prioritetləşdirilməsi və s. aid ola bilər.

Tədbir 1.2.5: Tranzit trafik xəttinin yaradılması

Tranzit trafikin həcminin artırılması və beynəlxalq şlüzlərə çıxışın səmərəliliyinin yüksəldilməsi üçün “Trans-Avrasiya Super İnformasiya Magistralı” (TASİM) layihəsi üzrə fiber-optik internet xəttinin Xəzər dənizinə düşən hissəsinin çəkilməsi istiqamətində texniki-iqtisadi əsaslandırma həyata keçiriləcək və təhlilin nəticələrindən asılı olaraq müvafiq addımlar atılacaqdır.

Tədbir 1.2.6: Sabit şəbəkədə istismardan çıxarılmış mis xammaldan istifadə edilməsi

Rekonstruksiya nəticəsində istismardan çıxarılmış kabellərdə olan mis xammalın realizasiyası üsulları təhlil ediləcəkdir. Xammal satışı nəticəsində əldə olunan vəsaitin telekommunikasiya sektoru və ya dövlət siyasətinə uyğun olaraq, digər prioritet sahələrə yönəldilməsi istiqamətində təhlillər aparılacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Özəlləşmə nəticəsində sağlam rəqabət mühitinin formalaşması dövlət büdcəsinə daxilolmaların artmasına səbəb olacaqdır. Genişzolaqlı xətlər vasitəsilə keyfiyyətli multimedia xidmətlərinin (internet, TV, telefon, videokonfrans və s.) təklifi imkanları genişlənəcəkdir.

Artan sabit genişzolaqlı telekommunikasiya infrastrukturunun 2020-ci ildə real ÜDM-ə 25 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, ümumilikdə, 30 milyon manat təsirinin olacağı və prioritetin icrası nəticəsində 650 yeni iş yerinin yaranacağı proqnozlaşdırılır.[9]

[9] Qeyd: ÜDM-ə təsirin əhali və biznes subyektləri arasında sabit genişzolaqlı şəbəkə xidmətlərinin abunəçi sayının artması nəticəsində formalaşacağı pronozlaşdırılır.

Əsas icra göstəriciləri:

- hazırda mis xətlər vasitəsilə təklif edilən genişzolaqlı internet xidmətlərini fiber-optik texnologiyalara (FTT-X standartları) əsaslanan xidmətlərlə əvəz etməklə, genişzolaqlı şəbəkənin əhatə dairəsinin 2020-ci ildə 70 faizə, 2025-ci ildə isə 95 faizə çatdırılması və növbəti dövrlərdə daha da genişləndirilməsi;
- beynəlxalq şlüzlərə qoşulan operatorların sayının 2020-ci il üçün cari 2 operatordan ən azı 3 operatora qədər artırılması və 2020-ci ildən sonra bu prosesin davam etdirilməsi;
- Azərbaycanda sabit genişzolaqlı şəbəkədə bir istifadəçinin internetdən orta istifadə sürətinin cari 3,6 Mbit/s-dən 2020-ci ildə 20 Mbit/s-ə, 2025-ci ildə 50 Mbit/s-ə, 2025-ci ildən sonra isə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması;
- 2020-ci ilədək əhali arasında sabit genişzolaqlı xidmətlərin əhatə dairəsinin cari 55 faizdən[10] 70 faizədək artırılması;
- istehlakçıların sabit genişzolaqlı şəbəkə xidmətlərindən istifadə üzrə xərclərinin istehlak səbətindəki xüsusi çəkisinin hazırkı səviyyədə qalması.

Tələb edilən investisiya

Fiber-optik genişzolaqlı şəbəkənin modernləşdirilməsi üçün 2020-ci ilədək 125 milyon manat həcmində investisiya tələb olunacağı proqnozlaşdırılır. Bazarda azad rəqabət mühitinin formalaşdırılması və yüksək xüsusi çəkiyə malik iştirakçıların üstün mövqeyinin aradan qaldırılması nəticəsində özəl sektorun bu sahədə güclənməsi investisiya qoyuluşlarının əsas hissəsinin sahibkarlar tərəfindən həyata keçirilməsinə zəmin yaradacaq, bununla da dövlət büdcəsindən infrastruktur layihələrinə ayırmalar azalacaqdır.

Gözlənilən risklər

- dövlət orqanları tərəfindən zəruri qərarların qəbulunun gecikdirilməsi və normativ-hüquqi aktlara dəyişikliklərin vaxtında hazırlanıb təqdim edilməməsi;
- investisiya qoyuluşları üçün yüksək bazar cəlbediciliyinin təmin oluna bilməməsi və investorlar üçün təşviqedici tədbirlərin yetərli olmaması.

7.1.3. Prioritet 1.3. Mobil infrastruktura investisiya qoyuluşlarının artırılması

Əsaslandırma


LTE standartlı mobil və simsiz texnologiyalar şəhər və şəhərdənkənar ərazilərdə genişzolaqlı xidmətlərin əhatə dairəsini genişləndirir, istənilən məkandan internetə daha sürətli qoşulmaq imkanı verir. Mobil və simsiz texnologiyalar üçün standart tezlik spektrləri ayrıldıqdan sonra internetlə əhatəolunma səviyyəsini və internet sürətini artırmaq məqsədilə mobil operatorların yeni şəbəkələrin qurulmasına və tezlik spektrində texniki siyasətin effektiv təşkilinə əlavə investisiya cəlb etmələrinə zərurət yaranır.

Milli spektr tezliklərinin bölüşdürülməsi zamanı daha aşağı investisiya qoyuluşları ilə nisbətən böyük əraziləri əhatə edə bilmək üçün əsas diqqət aşağıtezlikli spektrin tətbiqinə yönəldilməlidir.

[10] Mənbə: “TeleGeography”, “Akamai” şirkəti

İnfrastrukturun yaradılması üçün tələb edilən investisiyaların həcmi tezlikdən asılı olaraq dəyişir. Mütəxəssislərin hesablamalarına görə, yüksəktezlikli LTE ilə müqayisədə aşağı tezliklərin yaradılması 10 dəfəyədək daha az investisiya tələb edir. Şəhərdənkənar ərazilərdə (kəndlərdə) 700 MHs tezlikli infrastruktur yaratmaqla, həmin ərazilərdə internetə çıxışın əhatəlilik səviyyəsi ilə şəhər zonalarındakı analoji göstərici arasındakı fərqi azaltmaq mümkündür (şəkil 10).

Şəkil 10. 700 MHs tezliyin şəhər əraziləri ilə yanaşı, kənd yerlərində də tətbiqi vasitəsilə coğrafi fərqi azaltmaq imkanı



Mənbə: "NSN APT700" müzakirə sənədi

Fiber-optik şəbəkənin yaradılması üçün kənd yerlərində tələb olunan vaxtın və kapital xərclərinin yüksək olması nəzərə alınmaqla, sabit genişzolaqlı şəbəkə infrastrukturunun yaradılması əvəzinə, alternativ variant kimi mobil genişzolaqlı şəbəkəyə (LTE) daha çox üstünlük verilə bilər.

Bu baxımdan, tənzimləyici qurum və aidiyyəti dövlət orqanları tərəfindən fiber-optik şəbəkənin və müvafiq ərazilərdə mobil genişzolaqlı şəbəkənin yaradılması ilə bağlı tələb olunan xərclər müqayisəli şəkildə təhlil ediləcəkdir.

Əsas prioritet kimi fiber-optik şəbəkənin inkişaf etdirilməsi hədəf götürülsə də, aparılacaq təhlillər nəticəsində bəzi ərazilərdə mobil genişzolaqlı şəbəkənin tətbiqinin daha cəlbedici olduğu müəyyən edildikdə, həmin ərazilərdə LTE şəbəkəsinin yaradılması təşviq ediləcəkdir. Tənzimləyici qurum tərəfindən mobil genişzolaqlı şəbəkə üzrə minimal əhatə dairəsini nəzərdə tutan tələblər müəyyən edilə bilər.

Beynəlxalq təcrübədə spektr tezliklərini bir neçə səviyyə üzrə bölüşdürmüş və operatorlar qarşısında əhatə dairəsinə dair tələblər müəyyən etmiş ölkələrdə dördüncü nəsil simsiz mobil texnologiya (4G) şəbəkəsindən istifadə səviyyəsinin daha yüksək olduğu müşahidə edilir.

Operatorlar qarşısında yuxarıda göstərilən tələblər müəyyən edilərkən, əsas diqqətin regionlara yönəldilməsi məqsədəuyğundur. Hazırda Bakı şəhərində ev təsərrüfatlarının 74 faizi sabit genişzolaqlı şəbəkəyə malikdir ki, bu göstərici ölkənin digər regionları ilə müqayisədə 40 faiz bəndi çoxdur.[11]

Telekommunikasiya şirkətləri əhalinin sıx yerləşdiyi zonalarda nisbətən kiçik coğrafi ərazini əhatə edərək daha az xərc çəkməklə, yüksək gəlir əldə bildikləri üçün

[11] Mənbə: Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

onlar, adətən, əhalinin sıx məskunlaşmadığı ərazilərə yatırım etməyə maraqlı olmurlar.

Bundan əlavə, məhdud sərvət olan milli spektr tezlikləri dövlət üçün birdəfəlik gəlir vasitəsi kimi də çıxış edir. Tezliklərin operatorlar arasında bölüşdürülməsi zamanı ədalətli qiymətlərin müəyyən edilməsi məqsədilə tənzimləyici qurumlar adətən bu bölgünü müxtəlif növ hərraclar vasitəsilə həyata keçirirlər. Əhatə dairəsi ilə bağlı yüksək, lakin icrası mümkün olan real tələblər müəyyən etməklə, operatorların spektr tezliklərinə olan maraqlarını, onlar arasındakı rəqabəti və hərraclarda formalaşan qiymətləri daha da artırmaq mümkündür.

Görüləcək tədbirlər

Tədbir 1.3.1: LTE bölgüsünün effektiv həyata keçirilməsi üçün müvafiq qaydaların hazırlanması və prosedurların müəyyən edilməsi

Tənzimləyici qurum ölkə ərazisinin yüksəksürətli internetlə təmin edilməsi ilə bağlı fəaliyyət planı hazırlayacaqdır. Bu zaman sabit fiber-optik şəbəkənin LTE ilə müqayisədə daha çox effekt verə biləcəyi bölgələrin (xüsusilə kənd yerləri) müəyyən edilməsi üçün təhlillər aparılaraq, ayrı-ayrı bölgələrin sabit genişzolaqlı şəbəkə, yaxud mobil genişzolaqlı şəbəkə ilə əhatə olunmasına dair qərarlar qəbul ediləcəkdir.

Növbəti addım olaraq, müvafiq sahədə fəaliyyət göstərmək üçün tələb edilən sənədlərin siyahısı və lisenziyaların verilməsi prosedurları nəzərdən keçiriləcəkdir.

Bununla yanaşı, tənzimləyici qurum LTE-nin əhatə dairəsinin genişləndirilməsi məqsədilə şəffaf və səmərəli milli tezlik bölgüsünün tənzimlənməsi üçün hüquqi əsasları formalaşdıracaq və bu zaman 700 MHs və 800 MHs-lik tezliklərin bölgüsünə xüsusi diqqət yetirəcəkdir.

Son olaraq, beynəlxalq təcrübə və Azərbaycanda mövcud potensial nəzərə alınmaqla, operatorlar qarşısında ölkə ərazisinin əhatə olunması ilə bağlı qoyulacaq tələblər müəyyənləşdiriləcəkdir.

Tədbir 1.3.2: LTE-nin tətbiqi üçün mülki tezlik spektrinin mobil operatorlar arasında şəffaf və səmərəli bölgüsünün təmin edilməsi

Tənzimləyici qurum tezliklərin bölgüsü üzrə hərracların keçirilmə qaydalarını müəyyən edəcək və bu barədə operatorlara məlumat verəcəkdir. Daha sonra LTE üzrə tezliklərin bölüşdürülməsinə başlanılacaqdır. Bu proseslər çərçivəsində zərurət yaranacağı təqdirdə tənzimləyici qurum tərəfindən bazar iştirakçılarına əlavə stimullar təklif ediləcəkdir. LTE-nin tətbiqi uğurla həyata keçirildiyi təqdirdə bu sahəyə zəruri investisiya qoyuluşlarını təmin etmək məqsədilə tənzimləyici qurum operatorlar üçün əhatə dairəsinə və investisiyaların həcminə dair xüsusi tələblər müəyyən edə bilər. Bununla yanaşı, mobil rabitə xidmətləri üzrə tariflərin optimallaşdırılması imkanları da nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

2020-ci ilədək genişzolaqlı mobil şəbəkənin əhatə dairəsi genişlənəcək və göstərilən xidmətlərin keyfiyyəti yüksələcəkdir. Mobil genişzolaqlı xidmətlərin həcminin artması nəticəsində yüksələn gəlirlər ÜDM-in artmasına və yeni iş yerlərinin yaranmasına zəmin yaradacaqdır. Mobil genişzolaqlı şəbəkənin əhatə dairəsinin genişlənməsi nəticəsində 2020-ci ildə real ÜDM-in 25 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, ümumilikdə, 30 milyon manat artacağı və bu prioritetin icrası nəticəsində 700 yeni iş yerinin yaranacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- LTE və başqa simsiz texnologiyalar üzrə genişzolaqlı xidmətlərin əhatə dairəsinin hər il 10 faiz genişləndirilməsi yolu ilə, 2020-ci ildə 70 faizə, 2025-ci ildə 85 faizə, 2025-ci ildən sonra isə 100 faizə çatdırılması;
- mobil rabitə əlaqələri üzrə adambaşına düşən xərclərin istehlak səbətindəki payının cari 0,37 faizdən[12] 1,41 faizədək artırılması;
- mobil abunəçi sayının 2020-ci ilədək minimum hazırkı səviyyədə qorunub saxlanılması.

Tələb edilən investisiya

Məqsədə nail olmaq üçün 4G texnologiyasının tətbiqi üzrə ilkin investisiya tələbinin təmin edilməsi məqsədilə 2020-ci ilədək 60 milyon manat həcmində investisiya tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- tezlik resurslarının hərraclar vasitəsilə bölgüsündə ləngimələr;
- mobil operatorlar tərəfindən onlara ayrılmış tezlik resurslarından səmərəli istifadə edilməməsi;
- LTE üçün nəzərdə tutulan tezliklərin dövlət strukturları tərəfindən istifadə edilməsi.

7.2. Strateji hədəf 2. Sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması

İnformasiya texnologiyalarının (bundan sonra − İT) inkişafı nəticəsində iqtisadiyyatda meydana gələn müasir çağırışlar, ümumilikdə, iqtisadi fəaliyyətin bütün subyektlərindən adekvat reaksiya tələb edir. Bu səbəbdən sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılmasında İT xüsusi əhəmiyyətə malikdir. Rəqəmsal ödəmələr, elektron idarəetmə sistemləri və s. bu kimi İT-yə əsaslanan modellərin tətbiqi sahibkarların fəaliyyətində şəffaflığı artırmaqla yanaşı, onların inzibati xərclərə qənaət etməsi və öz fəaliyyətlərinə effektiv nəzarət edə bilməsi üçün daha münbit şərait yaradır. Bu baxımdan, ölkədə İKT infrastrukturunun təkmilləşdirilməsi və genişləndirilməsi rəqəmsal iqtisadiyyata daha çevik keçidi şərtləndirəcəkdir.

7.2.1. Prioritet 2.1. Rəqəmsal ödənişlərin genişləndirilməsi

Əsaslandırma

Rəqəmsal iqtisadiyyatın formalaşdırılması və davamlı inkişafına nail olmaq üçün bu sahədə müasir tələblərə cavab verən effektiv tənzimləmə mexanizminin yaradılması zəruri amildir. Eyni zamanda, elektron xidmətlərin göstərilməsi və genişəhatəli nağdsız əməliyyatların aparılması üçün elektron ödəniş infrastrukturu kifayət edəcək səviyyəyə çatdırılmalı, ödənişlərin iştirakçısı olan subyektlərin milli ödəniş sisteminin infrastrukturuna inteqrasiyası artırılmalı və rəqəmsal iqtisadiyyata çevik adaptasiya təmin edilməlidir.

Rəqəmsal iqtisadiyyatda biznes fəaliyyətinin bütün mərhələlərinin elektron mühitə inteqrasiya edilməsi şəffaflığa və monitorinqə şərait yaratmaqla bu sahədə vergi nəzarətinin güclənməsinə, "kölgə" iqtisadiyyatının qarşısının alınmasına və

[12] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

büdcə daxilolmalarının artmasına, habelə bank sektorunda likvidliyin yüksəlməsinə səbəb olur.

Beynəlxalq təcrübədə geniş istehlakçı kütləsinin elektron ödəniş sisteminə keçidini təmin etmək məqsədilə stimullaşdırıcı tədbirlərlə yanaşı, nağd ödənişlər üzrə yuxarı həddi müəyyən edilməklə onların məhdudlaşdırılması, vergi, rüsum və yığımların ödənilməsi zamanı hesablaşmaların yalnız nağdsız qaydada həyata keçirilməsi kimi müxtəlif üsullardan istifadə edilir.

Azərbaycanda mövcud ödəniş infrastrukturunun elektron ödəniş subyektləri üçün bir sıra xidmətlər təklif etməsinə baxmayaraq, hazırda bu xidmətlərdən istifadə imkanları arzuolunan səviyyədə deyildir. Belə ki, ölkədə aparılan kart əməliyyatlarının cəmi 8 faizi[13] (bankomatlardan nağd pulun çıxarılması istisna olmaqla, digər kart əməliyyatları) nağdsız qaydada həyata keçirilir. Müqayisə üçün Türkiyə Respublikasında bu göstərici 51 faiz[14] təşkil edir ki, bu nəticənin əldə olunmasında stimullaşdırıcı və məhdudlaşdırıcı tədbirlərlə yanaşı, bankların dövlət və özəl sektoru təmsil edən təşkilatlarla uğurlu əməkdaşlığı da xüsusi rol oynamışdır.

Görüləcək tədbirlər

Tədbir 2.1.1: Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə işçi qrupun yaradılması

Bu prioritet çərçivəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası, RYTN, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, ölkədə fəaliyyət göstərən mobil operatorlar və ödəniş sistemlərinin fəaliyyətində iştirak edən digər subyektlərdən ibarət işçi qrup yaradılacaqdır. İşçi qrup öz fəaliyyəti çərçivəsində rəqəmsal ödəniş sistemlərinin tətbiqi üzrə beynəlxalq təcrübəni və onun Azərbaycanda tətbiqi perspektivlərini araşdıracaq və müvafiq təkliflər hazırlayacaqdır.

Bununla yanaşı, işçi qrup rəqəmsal iqtisadiyyata keçidlə bağlı zəruri infrastrukturun formalaşdırılmasına və effektiv tənzimləmə metodlarının tətbiqinə üstünlük verməklə, ödəniş sistemlərinin texniki inkişafı ilə yanaşı, həm də ictimaiyyətin rəqəmsal əməliyyatlar barədə məlumatlılıq səviyyəsinin artırılması istiqamətində də tədbirlər həyata keçirəcəkdir. Tədbirlər rəqəmsal iqtisadiyyata keçidə və rəqəmsal ödəniş sistemlərinin inkişafına təsirlərinə uyğun olaraq prioritetləşdiriləcəkdir.

İşçi qrupda təmsil olunan tərəflər, öz səlahiyyətlərinə uyğun olaraq, işçi qrupun fəaliyyətini təmin etmək üçün zəruri şərait yaradacaq, tələb olunduqda kənar ekspertlərin dəstəyindən yararlanmaq üçün müvafiq addımlar atacaqdır.

Tədbir 2.1.2: İşçi qrup tərəfindən təkliflərin verilməsi

İşçi qrup apardığı araşdırmaların nəticələrinə əsaslanaraq, rəqəmsal ödənişlərlə bağlı qanunvericilikdə müvafiq dəyişikliklər edilməsi üçün təkliflər irəli sürəcəkdir. Bu dəyişikliklərin əsas məqsədi rəqəmsal ödəniş sisteminin inkişafı üçün münbit şərait yaradılmasından ibarət olacaqdır. İşçi qrup tərəfindən irəli sürüləcək təkliflər, əsasən, aşağıdakı istiqamətləri əhatə edəcəkdir:

- pul köçürmələri üzrə tənzimləmə və hüquqi çərçivənin yenilənməsi (məsələn, mobil operatorlara rəqəmsal ödəniş fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi);

[13] Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı
[14] Mənbə: Türkiyə Respublikası Banklararası Kart Mərkəzi

- elektron interfeyslərin milli ödəniş infrastrukturu ilə inteqrasiyası (məsələn, milli ödəniş sistemi və bank hesabları arasında inteqrasiyanı artırmaqla, avtomatlaşdırılmış kommunal xərc ödənişlərinin genişləndirilməsi);
- köçürmələr zamanı məlumatların yoxlanılması üçün banklararası məlumat mübadiləsi sisteminin daha səmərəli və effektiv fəaliyyəti;
- banklar tərəfindən onlayn və mobil xidmətlərin funksionallığının artırılması üçün stimulların yaradılması (məsələn, dövlət tərəfindən bəzi xidmətlərin ödənişsiz təklif edilməsi, onlayn xidmətlər üçün digər maliyyə stimulları);
- onlayn ödəniş təminatçıları üçün hüquqi bazanın təkmilləşdirilməsi;
- mobil və onlayn ödənişlərin dəstəklənməsi və onların təhlükəsizliyinin təmin olunması üçün ödəniş sistemlərində elektron imzanın, o cümlədən mobil imzanın istifadəsinin genişləndirilməsi.

Tədbir 2.1.3: Rəqəmsal ödənişlərin daha geniş tətbiqi üçün maarifləndirmə, təbliğat və təşviqat işinin aparılması

İşçi qrup biznes qurumları və əhali tərəfindən rəqəmsal ödənişlərin geniş istifadəsi üçün əlavə stimullaşdırma proqramlarının və təşviqedici tədbirlərin həyata keçirilməsi məqsədilə atılacaq addımları müəyyən edəcək və bu istiqamətdə qərarlar qəbul edərkən aşağıdakıları nəzərdən keçirəcəkdir:

- mediadan istifadə etməklə, rəqəmsal ödənişlərin üstün cəhətləri barədə maarifləndirmənin gücləndirilməsi (məsələn, vətəndaşların nağd pul vəsaitlərini üzərlərində daşımaları ilə bağlı risklər və əməliyyatların qeydiyyata alınmasının faydaları barədə reklamlar) - bu tədbirin həyata keçirilməsi zamanı işçi qrup reklam təşkilatları ilə birlikdə təhlillər aparmaqla, ictimai maarifləndirmə kampaniyalarının optimal formalarını müəyyənləşdirəcək və müvafiq qərarlar qəbul edəcəkdir;
- banklar tərəfindən "xüsusi təkliflər - fərqli qiymətlər" formatında qiymət diferensiasiyasının həyata keçirilməsini təşviq etməklə, əhalinin rəqəmsal ödənişlərə marağının artırılması;
- sahibkarlıq subyektlərinin rəqəmsal ödənişləri geniş tətbiq etmələri üçün stimulların və məhdudlaşdırmaların tətbiqi (məsələn, rəqəmsal ödənişlər zamanı tutulan komisyon haqları üzrə limitlərin tətbiqi və ya bonuslar şəklində stimulların verilməsi, habelə nağd əməliyyatlar üzrə maksimal hədlərin müəyyənləşdirilməsi);

Gözlənilən nəticə və nəticə indikatorları

Rəqəmsal ödənişlərin geniş tətbiqi ölkədə "kölgə" iqtisadiyyatının həcmini əhəmiyyətli dərəcədə azaltmaqla, ödəmələrin uçotunun aparılmasına, iqtisadiyyatda yaranan əlavə dəyərin tam şəkildə rəsmiləşdirilməsinə və vergi daxilolmalarının artmasına zəmin yaradacaqdır. Bu prioritetin həyata keçirilməsi ticarət əməliyyatları və hesablaşmalarda, ümumiyyətlə, maliyyə sistemində şəffaflığın daha da artırılmasını şərtləndirəcək ki, bununla da 2020-ci ildə real ÜDM-in 40 milyon manat birbaşa, 15 milyon manat dolayı olmaqla, ümumilikdə, 55 milyon manat artacağı proqnozlaşdırılır.[15]

Əsas icra göstəriciləri:

- internet və mobil bank sistemlərində elektron imzanın əhatə dairəsinin 2016-cı ildəki 20 faizdən 2020-ci ildə 80-100 faiz aralığı səviyyəsinə çatdırılması;

[15] Qeyd: ÜDM-ə təsirlər hesablanarkən bençmark olaraq inkişafda olan ölkələrdə nağdsız ödənişlərin artmasının ÜDM-ə təsirləri götürülmüşdür.

- POS-terminallar vasitəsilə həyata keçirilən əməliyyatların məbləğinin 400 milyon manatdan 2,7 milyard manatadək artması;
- nağdsız qaydada həyata keçirilən kart əməliyyatlarının xüsusi çəkisinin 2016-cı ildəki 8 faizdən 2020-ci ilədək 30 faizə, 2020-2025-ci illərdə 50 faizə, 2025-ci ildən sonra isə 80 faizə çatdırılması;
- istehlak xərclərində POS-terminallar vasitəsilə aparılan nağdsız əməliyyatların payının hazırkı təxmini 1 faizdən[16] 8-9 faizədək artması.

Tələb edilən investisiya

Bu prioritetin tətbiqi üçün 2020-ci ilədək 15 milyon manat investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsində yaranacaq risklər yuxarıda qeyd olunan tədbirlərin zəruri keyfiyyətdə həyata keçirilməməsi ilə bağlı ola bilər.

7.2.2. *Prioritet 2.2. Sahibkarlıq subyektlərinin texnologiyaəsaslı əməliyyatlarının genişləndirilməsi*

Əsaslandırma

İqtisadiyyatın bütün sektorlarında innovativ texnologiyalardan səmərəli istifadə məhsulun maya dəyərini və digər xərcləri optimallaşdırmağa, keyfiyyəti yüksəltməyə, təsərrüfat əməliyyatlarına müasir nəzarət (kənar və daxili) mexanizmlərini tətbiq etməyə və bununla da, biznes subyektlərinin, ümumilikdə isə ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmağa imkan verir.

İlkin mərhələdə sahibkarların yüksək texnologiyalara əlçatanlılığının genişləndirilməsi nəticəsində onların təsərrüfat fəaliyyətində məhsuldarlığın artması və daha rəqabətqabiliyyətli məhsulla yeni bazarlara çıxışı elektron alətlərdən istifadənin genişləndirilməsi istiqamətində əlavə özəl investisiyaların yatırılmasına stimullaşdırıcı təsir göstərəcəkdir. Təsərrüfat fəaliyyətində texnologiyaəsaslı əməliyyatların təkmilləşdirilməsi sahibkarlar tərəfindən bu sahəyə qoyulacaq investisiyaların həcmi ilə birbaşa bağlıdır.

Biznes fəaliyyətində texnologiyaların tətbiqi ilə bağlı cari vəziyyət


Biznes subyektləri tərəfindən proqram təminatı və İT xidmətləri üçün xərclənən vəsaitin həcminin digər ölkələrlə müqayisədə aşağı olması nəticəsində şirkət səviyyəsində texnologiyaların tətbiqi səviyyəsinə görə Azərbaycan "Qlobal Rəqabətlilik İndeksi 2015-2016" hesabatında 140 ölkə arasında 62-ci yerdə qərarlaşmışdır.[17]

Özəl biznes sahələrində və seqmentlərində, xüsusən də ağır sənaye və maşınqayırma sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq (KOS) subyektləri tərəfindən rəqəmsal texnologiyaların tətbiqi səviyyəsinin yüksəldilməsi üçün böyük potensial mövcuddur. İri şirkətlərin 80-90 faizinin internetə çıxışının olmasına və orada çalışan işçilərin 60-80 faizinin internetdən istifadə etməsinə baxmayaraq, KOS subyektlərində bu göstəricilər aşağı səviyyədədir (şəkil 11).

[16] Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları

[17] Mənbə: Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik İndeksi 2015-2016"

Şəkil 11. Biznesdə texnologiyaların tətbiqi səviyyəsi *(2015-ci il üzrə)*



1. *İstehsal, su təchizatı, ticarət, yaşayış, daşınmaz əmlak, əyləncə, digər fəaliyyətlər*
2. *Təhsil, dövlət idarəçiliyi*
3. *Maliyyə xidmətləri, informasiya və kommunikasiya*

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dünya Bankının "Azərbaycanda İT sektoru və İT bacarıqları" hesabatı

Proqram təminatlı rəqəmsal texnologiyaların KOS subyektlərinə az nüfuz etməsinə və bu texnologiyaların onlar üçün əlçatan olmamasına səbəb bu barədə məlumatlılığın aşağı səviyyədə olmasıdır. KOS subyektləri öz bizneslərinə ən uyğun elektron alətləri seçmək üçün lazımi biliklərə malik deyildirlər.

Bundan əlavə, KOS subyektlərinin işçilərinin böyük əksəriyyətinin texnoloji bacarıq və məlumatlılıq səviyyələrinin aşağı olması işəgötürənlər tərəfindən sahibkarlıq fəaliyyətində yeni metodların tətbiqinə maneələr yaradır. Əksər işçilər texnologiyanı qəbul etmək istiqamətində iş vərdişlərini və tərzlərini dəyişməyə müqavimət göstərirlər.

Bəzi sahələrdə böyük şirkətlərin rəhbər işçiləri arasında da İT bacarıqlarının səviyyəsinin aşağı olduğu müşahidə olunur və bu sahədə təhsil səviyyəsi müəssisələrin istehsalat tələbləri ilə tam uzlaşmır.

Yerli şirkətlər arasında rəqabət qabiliyyətinin yüksəldilməsi üçün proqramların qəbul olunması

Bir çox ölkələrdə yerli şirkətlərdə texnologiyaların tətbiqinin dəstəklənməsi üçün uğurlu proqramlardan istifadə olunmuşdur.

Bu məqsədlə, Azərbaycanda artıq milli səviyyədə innovasiyaların dəstəklənməsi və biznes sahələrinin inkişaf etdirilməsi üçün texnologiya parklarının fəaliyyətinə başlanılmışdır (məsələn, Bakı və Mingəçevir şəhərlərində yüksək texnologiyalar parkları və Bakı şəhərində innovasiya evi). Qeyd edilən tədbirlərin innovasiyaların tətbiqinə, əlavə dəyər yaradılmasına və insan kapitalının keyfiyyətinin yaxşılaşdırılmasına nəzərəçarpacaq təsirləri gözlənilir. Digər ölkələrin uğurlu təcrübələri nəzərə alınmaqla, belə təşəbbüslərin dəstəklənməsi (məsələn, son texnologiyaların tətbiqində sahibkarlıq subyektlərinə dəstək verəcək keçid proqramlarından istifadə) ilə bağlı işlər davam etdirilməli, bu sahəyə özəl sektor da cəlb edilməlidir.

Görüləcək tədbirlər

Tədbir 2.2.1: Biznes fəaliyyətində texnologiyanın daha geniş tətbiqi imkanlarını araşdırmaq məqsədilə işçi qrupun yaradılması

Biznes fəaliyyətində texnologiyanın daha geniş tətbiqi imkanlarını araşdırmaq məqsədilə işçi qrup yaradılacaqdır. Bu qrupun tərkibinə RYTN, yaradılması nəzərdə tutulan KOS agentliyi[18], ticarət assosiasiyaları və zərurət yaranacağı təqdirdə, digər özəl təşkilatların nümayəndələri daxil olacaqdır. Qrupun iş planı, idarəetmə və əməliyyat modeli, fəaliyyətinin maliyyələşdirilməsi və büdcəsinin idarə edilməsi mexanizmi müəyyən ediləcəkdir. Azərbaycanda fəaliyyət göstərən müəssisələrin rəqəmsal mühitə çevik və effektiv keçidini təmin etmək üçün "rəqəmsal keçid planı"nın hazırlanması və yerli rəqəmsal infrastrukturun inkişaf etdirilməsi işçi qrupun əsas fəaliyyət istiqamətlərini təşkil edəcəkdir.

Bununla yanaşı, Azərbaycanda rəqəmsal texnologiyanı biznes fəaliyyətində uğurla tətbiq etmiş biznes subyektlərinin təcrübələrinin digər sahibkarlarla bölüşdürülməsi və bilik mübadiləsinə şərait yaradılması işçi qrupun fəaliyyət istiqamətlərinə daxil olacaqdır.

İşçi qrup tərəfindən irəli sürülmüş planların və tədbirlərin tələb olunan səviyyədə həyata keçirilməsinə nəzarət etmək məqsədilə müvafiq indikatorlar hazırlanacaq və işçi qrupun fəaliyyətinə effektiv nəzarət üsulları tətbiq ediləcəkdir.

Tədbir 2.2.2: Biznes subyektlərinin rəqəmsal mühitə keçidinin stimullaşdırılması

Biznes subyektlərinin, xüsusilə də KOS subyektlərinin, rəqəmsal mühitə keçidi üzrə tədbirlərin tərkib hissəsi kimi, onların "B2B" *("business to business")* xidmət platformalarından daha çox istifadə etməsinin stimullaşdırılması böyük əhəmiyyət kəsb edəcəkdir.

İşçi qrup fəaliyyət sahələri üzrə rəqəmsal texnologiyanın tətbiqi zərurətini müəyyən etmək məqsədilə müxtəlif profilli müəssisələrdə müsahibələr və tədqiqatlar aparacaq və bu ehtiyacları qarşılayacaq həll yollarını (üsullarını) müəyyən edəcəkdir. Bu üsulların müəyyənləşdirilməsi zamanı biznes subyektləri tərəfindən rəqəmsal texnologiyaların tətbiqinin səmərəliliyi, məqsədəuyğunluğu, sərfəliliyi və mümkünlüyü kimi meyarlar əsas götürüləcəkdir.

Aparılmış araşdırma və təhlillərin nəticələri əsas götürülməklə, işçi qrup biznes subyektləri üçün "rəqəmsal keçid planı" hazırlayacaqdır. "Rəqəmsal keçid planı" özündə şirkətlər tərəfindən tətbiqinin stimullaşdırılması nəzərdə tutulan texnologiyaların növlərini və bu stimulların formalarını əks etdirəcəkdir.

İşçi qrup "rəqəmsal keçid planı"nın icrası çərçivəsində KOS subyektlərində rəqəmsal texnologiyaların tətbiqinin faydaları haqqında məlumatlılığı artırmaq məqsədilə seminarlar təşkil edəcəkdir.

Bundan əlavə, işçi qrup yüksək texnologiyalar parkları ilə sıx əməkdaşlıq edərək, onların təcrübələrinin digər sahibkarlıq subyektlərində də tətbiqi imkanlarını dəyərləndirəcəkdir. Qrup KOS subyektləri tərəfindən rəqəmsal texnologiyaların tətbiqi forma və metodlarını, eyni zamanda, KOS subyektlərinin bu sistemlərdən faydalanma səviyyəsini izləyəcək və daim diqqət mərkəzində saxlayacaqdır.

[18] Strateji Yol Xəritəsində KOS agentliyi tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, KOS agentliyi yaradılacağı təqdirdə onun tərəfindən, əks-halda isə müvafiq qurum tərəfindən həyata keçiriləcəkdir (KOS agentliyi barədə daha ətraflı məlumat "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir).

Tədbir 2.2.3: Yerli infrastrukturun inkişafının dəstəklənməsi

İşçi qrup rəqəmsal iqtisadiyyata keçidlə bağlı zəruri infrastrukturun formalaşdırılması və inkişafı üçün müvafiq dəstək mexanizmlərini müəyyən edəcəkdir. Bu növ dəstək mexanizmlərinə özəl sektora infrastruktur və proqram təminatının hazırlanması üçün müəyyən stimulların verilməsi, milli "bulud" hesablama *("cloud computing")* sisteminin işlənib hazırlanması və ya əsas proqram təminatı resurslarının lokallaşdırılması, həmin proqram təminatlarından istifadənin təşviq olunması, İKT-dən geniş miqyasda istifadə olunmasının sürətləndirilməsi və İT mütəxəssislərinin işə götürülməsinin stimullaşdırılması aid olacaqdır. Dəstək mexanizmləri hazırlanan zaman yüksək texnologiyalar parkları ilə sıx əməkdaşlıq ediləcək, onların infrastruktur modelindən, o cümlədən Azərbaycanda bu istiqamətdə artıq əldə edilmiş uğurlu təcrübələrdən istifadə olunacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin icrası nəticəsində sahibkarlıq subyektləri tərəfindən rəqəmsal texnologiyanın və telekommunikasiya xidmətlərinin geniş tətbiqi biznes əməliyyatlarının səmərəlilik və məhsuldarlığının artırılmasına zəmin yaradan əsas amillərdən biri olacaqdır. Bu prioritet KOS subyektlərinin rəqəmsallaşma səviyyəsini yüksəltməklə, onların rəqabət qabiliyyətinin artmasına xidmət edəcəkdir.

Bu prioritet üzrə ÜDM-ə və məşğulluğa birbaşa təsir gözlənilmir.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün ciddi investisiya qoyuluşu tələb olunmur. Prioritet çərçivəsində həyata keçiriləcək bəzi proqramlar üçün investisiya tələb olunduğu halda, bu investisiyalar ayrıca qiymətləndiriləcəkdir.

Gözlənilən risklər

Bu prioritetin icrasında yarana biləcək risklər əsasən yuxarıda qeyd olunan zəruri tədbirlərin vaxtında və nəzərdə tutulan keyfiyyətdə aparılmaması, həmçinin zəruri kadr çatışmazlığı ilə bağlı ola bilər.

7.2.3. Prioritet 2.3. Biznesin iştirakı ilə texnoloji tədrisin yenilənməsi

Əsaslandırma

İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində qlobal biznes fəaliyyətində texnoloji mühit davamlı olaraq dəyişməkdədir. Bu səbəbdən İKT sahəsində təhsilin daim yenilənən və təkmilləşən əmək bazarının tələblərinə uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda hər il ortalama 27 ali təhsil müəssisəsində İKT ixtisası üzrə təhsil alan 2680 tələbə təhsilini başa vuraraq məzun olur.[19] İT üzrə ali təhsil almış məzunların təhsili başa vurduqdan sonra növbəti bir il ərzindəki məşğulluq səviyyəsinin 43 faiz təşkil etməsi[20] bu sahədə tədris proqramlarının təkmilləşdirilməsini

[19] Mənbə: Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

[20] Mənbə: Dünya Bankının "Azərbaycanda İT sektoru və İT bacarıqları" hesabatı

və onların baş verən dəyişikliklərə çevik adaptasiya imkanlarının formalaşdırılmasını zəruri edir.

Hazırda Azərbaycanda peşə təhsili səviyyəsində tədris proqramları beş ildən bir nəzərdən keçirilərək yenilənir. Biznes subyektlərinin tədris-planlaşdırma işlərində fəal iştirakı təmin edilmədiyi üçün əksər hallarda bu proqramlar ən son yanaşma və texnologiyalara, habelə müasir biznes mühitinin və əmək resursları bazarının tələblərinə cavab vermir (məsələn, əsasən Paskal proqramlaşdırmasının tədrisi).

Göstərilənlər nəzərə alınaraq, peşə təhsili müəssisələrinin tədris proqramlarının müasir biznes ehtiyaclarına uyğunlaşdırılmasını təmin etməklə, bu sahədə nəzərəçarpacaq irəliləyişə nail olmaq mümkündür.

Biznesin təhsil prosesində iştirakının bir çox tədris proqramlarında tətbiq edilən uğurlu yanaşma olduğunu nəzərə alaraq, qabaqcıl təhsil müəssisələri tədris və təlim proqramları üzrə sahibkarlıq subyektləri ilə sıx əməkdaşlıq etməyə maraq göstərirlər. Belə əməkdaşlıq cari əmək resursları bazarının tələb etdiyi spesifik bilik və bacarıqların hərtərəfli tədris edilməsinə zəmin yaradır. Təhsil müəssisələri iş yerlərində təlimlərin keçirilməsini və ya praktiki təlim üçün tədris müəssisələrində iş yeri mühitinin yaradılmasını təmin edirlər.

Azərbaycanda sahibkarlıq subyektlərinin tədris proqramları və onların faydaları barədə məlumatlılıq səviyyəsini artıraraq, minimal xərclərlə bilavasitə iş yerlərində səmərəli tədris təşkil etmək mümkündür.

Peşə bilik və bacarıqlarının inkişafı ilə paralel sahibkarlıq subyektlərinin informasiya texnologiyaları sahəsində savadlılığının artırılması ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin möhkəmləndirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması kimi mühüm strateji hədəflərə nail olunmasına müsbət töhfələr verə bilər.

Görüləcək tədbirlə

Tədbir 2.3.1: "Texnoloji Təhsil Qrupu"nun yaradılması

Ölkədə texnologiya üzrə təhsil səviyyəsinin artırılması, təhsil standartlarının təkmilləşdirilməsi, o cümlədən müəssisələrin bu sahədə kadrlara olan ehtiyaclarının daha yaxşı ödənilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədilə "Texnoloji Təhsil Qrupu" (bundan sonra – TTQ) yaradılacaqdır. Təhsil Nazirliyi digər aidiyyəti qurumlarla birlikdə TTQ-nin fəaliyyət planını hazırlayacaq və fəaliyyət parametrlərinin ölçülməsi üçün müvafiq göstəriciləri və izləmə mexanizmlərini müəyyən edəcəkdir. Bununla yanaşı, TTQ-nin tərkibi, vəzifələri, funksiyaları və maliyyələşmə mexanizmləri müəyyənləşdiriləcəkdir.

Tədbir 2.3.2: Texnologiyaların tədrisində çatışmazlıqların araşdırılması və müvafiq təkliflərin irəli sürülməsi

Təşkilati, maliyyə və kadrlarla komplektləşmə məsələləri həll edildikdən sonra TTQ texnologiyaların tətbiqində və istifadəsində özəl sektorun sərişətəlilik səviyyəsi və bu sahədə çatışmazlıqlarla bağlı zəruri araşdırmalar aparacaqdır. Araşdırma. ilk növbədə, rəqabətədavamlı işçi qüvvəsinin formalaşdırılması məqsədilə əmək bazarında informasiya texnologiyaları mütəxəssislərinə mövcud olan tələbatın müəyyən edilməsinə istiqamətlənəcəkdir. Bu məqsədlə KOS və iri sahibkarlıq subyektlərinin əmək resursları təhlil olunacaq, işçilərin biliklərinin qiymətləndirilməsi üçün tədbirlər (sorğular, müsahibələr və s.) həyata keçiriləcəkdir.

Növbəti addım ilkin araşdırmanın nəticələrinə əsaslanmaqla, ayrı-ayrı sahələrdə ixtisaslı işçi qüvvəsi çatışmazlığının səbəblərinin təhlilindən ibarət olacaqdır. Paralel olaraq, TTQ təhsil müəssisələri ilə koordinasiyalı şəkildə tədris

infrastrukturunu, tədris heyətinin peşəkarlığını və kurikulumların məqsədəuyğunluğunu dəyərləndirərək, bu sahədə mövcud olan problemlərin səbəblərini araşdıracaqdır.

Bu tədbirlərin son mərhələsi olaraq, TTQ mövcud təhsil standartlarında və informasiya texnologiyaları üzrə təhsil çərçivəsində tədris olunan mövzuların siyahısında dəyişikliklərin edilməsinə dair təkliflər verəcəkdir.

Tədbir 2.3.3: İKT sektorunun rəqabətədavamlılığını təmin edən məhsulların istehsalı və xidmətlərin göstərilməsi üzrə kadr hazırlığının gücləndirilməsi

Rəqəmsal texnologiyaların tədrisində müəyyən edilən çatışmazlıqların aradan qaldırılması və onların biznes mühitinin tələblərinə uyğunlaşdırılması məqsədilə TTQ tərəfindən ekspertlərin iştirakı ilə təhsil proqramlarına dəyişikliklər edilməsinə və yeni kurikulumların hazırlanmasına dair təkliflər irəli sürüləcəkdir. Növbəti addım olaraq, seçilmiş tədris mərkəzləri, peşə təhsili müəssisələri, kolleclər və ya universitetlərdə texnologiya biliklərinə malik olan peşəkar təlimçilərin iştirakı ilə pilot proqramlar həyata keçiriləcəkdir. Bu proqramların effektivliyinə tələbələrin rəylərinin öyrənilməsi yolu ilə davamlı olaraq nəzarət ediləcəkdir.

TTQ tərəfindən həyata keçiriləcək növbəti tədbir təhsil müəssisələrində kadrların ixtisaslılığının təmin edilməsindən ibarət olacaqdır. Bu məqsədlə, İKT ixtisasları üzrə tədris kafedralarının texniki bazasının gücləndirilməsi, elektron tədris resurslarının inkişaf etdirilməsi, tələbə və müəllimlərin dünyanın aparıcı elm və təhsil resurslarına çıxışının təmin olunması istiqamətində zəruri tədbirlər görüləcək, beynəlxalq sertifikata malik İT mütəxəssislərinin hazırlanmasına dəstək veriləcəkdir. Eyni zamanda, Azərbaycandakı ali təhsil müəssisələrində İKT sahəsində fəaliyyət göstərən tanınmış xarici və yerli ali təhsil müəssisələrinin tədris-təcrübə laboratoriyalarının yaradılması, tələbələrin sahə üzrə aparıcı şirkət və müəssisələrdə təcrübə keçməsi imkanlarının genişləndirilməsi, habelə İKT-nin prioritet istiqamətləri üzrə aparıcı xarici təhsil müəssisələrində kadrların hazırlanması işlərinin davam etdirilməsi məqsədilə zəruri tədbirlər həyata keçiriləcəkdir.

Tədbir 2.3.4: Biznes subyektlərinin texnologiya savadlılığının artırılması

TTQ KOS subyektlərinin texnologiya biliklərinin təkmilləşdirilməsi məqsədilə yaradılması nəzərdə tutulan KOS agentliyi ilə sıx əməkdaşlıq edəcəkdir. Bu məqsədlə, KOS subyektləri üçün tələb olunan zəruri tədris istiqamətləri müəyyən edilməklə, qısa və uzunmüddətli tədris proqramlarının tərtib edilməsi və bu proqramların peşəkar təlimçilər vasitəsilə tədris edilməsi üçün təhsil müəssisələri ilə birlikdə tədbirlər görüləcəkdir. Tələb olunan zəruri tədris istiqamətləri müəyyənləşdirilərkən elektron bankçılıq, hesablama texnologiyasının və elektron mühasibatlığın tətbiqi, elektron hökumət xidmətlərindən effektiv istifadə və s. kimi biznes fəaliyyətinin əsasını təşkil edən mövzular diqqət mərkəzində saxlanılacaqdır.

Bundan əlavə, TTQ KOS agentliyi ilə birlikdə nisbətən iri biznes subyektləri üçün minimal elektron biznes standartlarını hazırlayacaq (məsələn, internet səhifəsi, maliyyə uçotunda texnologiya tətbiqi) və bu standartların icrasını digər müvafiq qurumlarla əlaqələndirəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

İnformasiya texnologiyaları üzrə ali təhsil almış məzunların təhsili başa vurduqdan sonra növbəti bir il ərzindəki məşğulluq səviyyəsinin hazırkı 43 faizdən 2020-ci il üzrə 60 faizə çatdırılması və gənclər arasında məşğulluq səviyyəsinin yüksəldilməsi hədəf kimi müəyyən edilmişdir. İnformasiya texnologiyaları sahəsində təhsilin keyfiyyətinin artırılması digər prioritetlər üçün ilkin əsas olsa da, bu prioritet çərçivəsində tədbirlərin ÜDM və məşğulluğa birbaşa təsiri gözlənilmir.

Tələb edilən investisiya

Təlim proqramlarının və kurslarının formalaşdırılması və inkişafı üçün, əsasən, əməliyyat xərcləri tələb olunur və ümumilikdə, bu prioritetin icrası üçün əsaslı investisiya qoyuluşu tələb edilmir.

Gözlənilən risklər

Bu prioritetin icrasında yarana biləcək risklər, əsasən, yuxarıda qeyd olunan zəruri tədbirlərin vaxtında və nəzərdə tutulan keyfiyyətdə aparılmaması, tələb edilən koordinasiyanın gözlənilən səviyyədə təşkil edilməməsi, həmçinin zəruri kadr çatışmazlığı ilə bağlı ola bilər.

7.2.4. Prioritet 2.4. Dövlət qurumlarının elektron xidmətlərinin təkmilləşdirilməsi

Əsaslandırma

Azərbaycan Respublikasında dövlət qurumlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, ictimai iştirakın genişləndirilməsi dövlət idarəçiliyinin inkişafının əsas istiqamətlərindəndir. Bu məqsədlə, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin elektronlaşdırılması, "elektron hökumət"in qurulması xüsusi əhəmiyyət kəsb edir.

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanı "elektron hökumət"in formalaşdırılması və elektron xidmətlərin inkişaf etdirilməsi prosesinin sürətlənməsinə xidmət etmişdir.

2012-ci ildə dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "Elektron hökumət" portalı yaradılmış, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanı ilə "Elektron hökumət" portalı haqqında Əsasnamə" təsdiq edilmiş və RYTN "elektron hökumət" portalının operatoru müəyyən olunmuşdur.

RYTN-in məlumatına əsasən, hazırda 88 dövlət qurumu, o cümlədən 41 dövlət orqanı, 415 elektron xidmət "elektron hökumət" portalına inteqrasiya edilmiş və portal üzərindən bu xidmətlərə dair müraciətlərin sayı 33 milyonu, elektron xidmət istifadəçilərinin sayı isə 1,37 milyonu ötmüşdür.

Dövlət qurumları tərəfindən göstərilən xidmətlərin elektronlaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin də müxtəlif hüquq və vəzifələri müəyyənləşdirilmişdir. Bunlara elektron xidmətlərin göstərilməsi üzrə texniki normaların, standartların və tələblərin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq, dövlət orqanlarının malik olduqları informasiya sistemləri ilə tanış olmaq, göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı aidiyyəti orqanlarla birgə tədbirlər görmək, dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmələr aparmaq və nəticəsi barədə arayışlar, hesabatlar hazırlamaq,

elektron xidmətlərin göstərilməsi üzrə dövlət orqanlarına metodiki və əməli kömək göstərmək və s. məsələlər aiddir.

Qeyd etmək lazımdır ki, "ASAN xidmət" mərkəzlərində vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin çox yüksək olması növbəti illərdə bu mərkəzlərdə fiziki xidmətlər sahəsində iş yükünü dəfələrlə artıracaqdır. Bu səbəbdən "ASAN xidmət" mərkəzlərində göstərilən dövlət xidmətlərinin də elektronlaşdırılması istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

Eyni zamanda, iş həcminin optimallaşdırılması məqsədilə əhalinin "Elektron hökumət" portalı vasitəsilə göstərilən elektron xidmətlərdən istifadəsini artırmaq məqsədilə "ASAN xidmət" mərkəzlərində "ASAN ictimai özünəxidmət kabinetləri" yaradıla və vətəndaşların sərbəst şəkildə elektron xidmətlərdən istifadəsi üçün müvafiq kompüter avadanlığının quraşdırılması təmin edilə bilər.

Bu təşəbbüs, mobil xidmətlər də daxil olmaqla, bütün elektron xidmətləri əhatə edən "ASAN ictimai özünəxidmət kabinetləri"nin açılmasını nəzərdə tutur. Xidmətin elektron variantı mövcud olduğu halda, "ASAN xidmət" mərkəzlərində fiziki olaraq həmin xidmətin yerinə yetirilməsinə ehtiyac qalmır, vətəndaşlar sadəcə özünəxidmət kabinetinədək müşayiət edilərək, peşəkar məsləhətçilər vasitəsilə mövcud elektron xidmətlərlə tanış edilir. Növbəti dəfə vətəndaşın "ASAN xidmət" mərkəzinə getmək, yaxud öz şəxsi kompüterindən və ya telefonundan istifadə etmək arasında seçim imkanı yaranır. Bu cür xidmət "ASAN xidmət" mərkəzlərinin təmsilçilərinin iş yükünü kifayət qədər yüngülləşdirər, habelə vətəndaşların məlumatlılıq səviyyəsinin artırılmasına və kompüter vərdişlərinin inkişafına öz töhfəsini verə bilər.

Görüləcək tədbirlər

Tədbir 2.4.1: Dövlət sektoru daxilində, eləcə də dövlət sektoru ilə əlaqələr zamanı yazışmaların tamamilə elektronlaşdırılması və kağız daşıyıcılardan istifadənin aradan qaldırılması

Kağız daşıyıcılarda sənədləşmə tələbinin tədricən ləğv edilməsi ilə bağlı atıla biləcək addımlar təhlil ediləcəkdir. Eyni zamanda, bu dövrdə dövlət və özəl sektor arasında əlaqələrdə internet üzərindən elektron alətlər vasitəsilə göndərilə və ya onlayn doldurula bilən ərizələr, formalar, blanklar, e-qaimələr və hesabatların istifadəsi təşviq ediləcəkdir.

Tədbir 2.4.2: Dövlət orqanlarının informasiya sistemlərinin yaradılması üçün vahid prinsiplərin və standartların işlənib hazırlanması

Dövlət orqanlarının informasiya sistemlərinin ümumi prinsiplər əsasında fəaliyyət göstərməsinin potensial faydaları və çatışmayan cəhətləri təhlil edilərək, müvafiq plan hazırlanacaq, ümumi prinsiplər tətbiq ediləcək və müxtəlif dövlət informasiya sistemlərinin funksional uyğunluğuna nəzarət gücləndiriləcəkdir.

Tədbir 2.4.3: Dövlət xidmətlərinin həyata keçirilməsinin keyfiyyət standartlarının hazırlanması

"Elektron hökumət" portalındakı xidmətlərə "ASAN xidmət" standartlarının tətbiqi nəzərdən keçiriləcəkdir. Dövlət xidmətlərinin göstərilməsinin təsirləri və rentabelliliyin artırılması istiqamətində addımlar təhlil ediləcək, onların inkişaf etdirilməsi zamanı səmərəlilik məsələsinə xüsusi diqqət ayrılması təmin olunacaqdır. Dövlət xidmətlərinin göstərilməsinin qiymətləndirilməsi üçün metodologiyanın hazırlanması nəzərdən keçiriləcək və hazırlanacağı təqdirdə bu metodologiyada xidmətlərin həm müştərilərin, həm də dövlət qurumlarının iş prosesi üçün yaratdığı inzibati yük nəzərə alınacaqdır.

Tədbir 2.4.4: eGov2.0 versiyasında mobil hökumət (mGov) konsepsiyasının hazırlanması

"Elektron hökumət"in növbəti inkişaf mərhələsi olan "mobil hökumət" konsepsiyası hazırlanacaqdır.

Tədbir 2.4.5: "Hökumət bulud"un (G-cloud) yaradılması

"Hökumət bulud"un yaradılması vasitəsilə dövlət orqanlarının informasiya sistemlərinin istismarı, infrastrukturun qurulması və standartların formalaşdırılması üzrə tədbirlər əlaqələndiriləcəkdir.

Tədbir 2.4.6: Elektron imzanın, o cümlədən "Asan İmza"nın beynəlxalq səviyyədə qarşılıqlı tanınmasının təmin olunması

"Asan İmza"nın (mobil imza) digər ölkələrin müvafiq qurumları tərəfindən tanınması istiqamətində tədbirlər görüləcəkdir.

RYTN yuxarıda sadalanan tədbirlərin icrası məqsədilə aşağıdakıların icrasını təmin edəcəkdir:

- "Elektron hökumət" portalının fəaliyyətinin təkmilləşdirilməsi;
- elektron xidmətlərin istifadəsi zamanı məlumatların mühafizəsi üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi;
- "Hökumət bulud"un (G-cloud) yaradılması ilə dövlət idarəçiliyində xərclərin azaldılması və əlaqəliliyin (koordinasiyanın) yüksəldilməsi;
- "Elektron hökumət" sisteminin növbəti eGov2.0 versiyasında mobil hökumət (mGov) konsepsiyası da nəzərə alınmaqla, standart arxitekturasının işlənib hazırlanması.

Gözlənilən nəticə və nəticə indikatorları

Dövlət qurumları müxtəlif sektorlar arasında funksional uyğunluğu daha da inkişaf etdirəcək və bununla da ayrı-ayrı informasiya sistemlərinin vahid sistem kimi fəaliyyətini təmin edəcəkdir.

Dövlət orqanlarının elektron xidmətlərinin təkmilləşdirilməsinin 2020-ci ildə real ÜDM-ə 100 milyon manat birbaşa, 20 milyon manat dolayı olmaqla, ümumilikdə, 120 milyon manat təsirinin olacağı proqnozlaşdırılır. Bu prioritetin icrasının məşğulluğa və yeni iş yerlərinin yaradılmasına ciddi təsiri gözlənilmir.

Əsas icra göstəricisi:

- "elektron hökumət"in inkişafının qabaqcıl ölkələr səviyyəsinə çatdırılması.

Tələb edilən investisiya

Bu prioritetin həyata keçirilməsi üçün 2020-ci ilədək 95 milyon manat investisiya tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- bu prioritet çərçivəsində nəzərdə tutulan tədbirlərin ayrı-ayrı dövlət qurumları (orqanları) tərəfindən vaxtında başa çatdırılmaması;
- bu sahədə nəzərdə tutulan tədbirlərin icrası üçün tələb olunan maliyyə vəsaitlərinin ayrılmaması.

7.2.5. Prioritet 2.5. İKT sahəsində bilik və bacarıqların artırılması, təhsil sistemində İKT-dən istifadə

Əsaslandırma

İKT bacarıqlarının inkişafı və təhsil sistemində İKT-dən istifadə insanların həyat keyfiyyətini və iqtisadiyyatın məhsuldarlığını yüksəltməklə, qlobal miqyasda Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin daha da artmasına zəmin yaradır.

Təhsil sistemində İKT-dən səmərəli istifadənin təmin edilməsi üçün təhsil informasiya sisteminin formalaşdırılması müsbət nəticələr verəcəkdir. Ümumilikdə, təhsil informasiya sistemi dedikdə, əlaqəli, qarşılıqlı istifadə edilə bilən və təhsil müəssisələrində tədrisin səmərəli təşkili ilə onların daha effektiv idarə edilməsinin dəstəklənməsinə kömək edən komponentlərin məcmusu başa düşülür. Sistemin məqsədi təhsil müəssisələri arasındakı rabitə əlaqəsinin asanlaşdırılmasından, elektron hökumət üçün uyğunluğun təmin edilməsindən, sənədləşmələr zamanı kağız daşıyıcılardan mümkün qədər imtina edilərək, informasiya mübadiləsinin avtomatlaşdırılmasından ibarətdir. Bununla yanaşı, təhsil informasiya sistemi vasitəsilə təhsil müəssisələrinə qəbul, tədris materiallarının mövcudluğu və idarəedilməsi üzrə prosedurlar da daha keyfiyyətlə idarə olunur.

Azərbaycanda təhsil informasiya sisteminin tətbiqi ilə müxtəlif tərəflər arasında fəaliyyətlərin daha mükəmməl əlaqələndirilməsi mümkün olacaqdır.

Görüləcək tədbirlər

Tədbir 2.5.1: Daha yüksək İKT bilik və bacarıqlarının təmin edilməsi üçün rəqəmsal təhsilin inkişafı üzrə islahatların aparılması

Rəqəmsal təhsilin daha da inkişaf etdirilməsi üçün təhsilin bütün səviyyələrində tətbiq olunan tədris proqramlarının yüksəkkeyfiyyətli elektron material (elektron kitablar, elektron seminarlar, açıq tədris materialları və s.) və müvafiq metodlar (distant təhsil, vebəsaslı imtahanlar və s.) əsasında təkmilləşdirilməsi nəzərdən keçiriləcəkdir. Müəllim və tələbələrin rəqəmsal tədris materiallarına və müxtəlif rəqəmsal avadanlıqlara əlçatanlığı təmin olunacaqdır. Bu məqsədlər üçün digər məsul dövlət qurumları ilə birlikdə rəqəmsal təhsil konsepsiyası hazırlanacaqdır.

Sosial rifahın yüksəldilməsi məqsədilə informasiya cəmiyyəti ilə bağlı bilik və bacarıqların mənimsənilməsinə, fərdlərin bu sahədə rəqabət qabiliyyətinin yüksəldilməsinə şərait yaradılması vacib amillərdəndir. Bu məqsədlə, tədrisin bütün səviyyələrində İKT bacarıqları üzrə tələblər müəyyən ediləcək, müvafiq təcrübələr və peşə standartları inkişaf etdiriləcəkdir. Məşğulluqda İKT mütəxəssislərinin payının artırılması, onların təhsil almaq imkanlarının genişləndirilməsi və İKT tədrisinin keyfiyyətinin yüksəldilməsi üçün internatura proqramlarının təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcəkdir. Bu zaman İKT vasitəsilə internet üzərindən onlayn təlimlər vasitəsilə şəxsi inkişaf *(“ağıllı istehlak”)* və məlumatlılıq səviyyəsinin artırılmasına xüsusi diqqət ayrılacaqdır.

Bundan əlavə, onlayn davranışlara dair qabaqcıl təcrübələr, o cümlədən müəlliflik hüququnun qorunmasına dair mövzular haqqında məlumatlılıq səviyyəsinin artırılması, zəif və ya aktuallığını itirmiş biliklərə malik fərdlərin (məsələn, işini itirmiş və ya işini itirmək təhlükəsi ilə üz-üzə qalan insanların yenidənhazırlanma təlimlərinə cəlb olunması) təkmilləşdirilmiş İKT bilik və bacarıqlarına yiyələnməsinə dəstək verilməsini özündə ehtiva edən tədbirlər diqqət mərkəzində saxlanılacaqdır.

Tədbir 2.5.2: "Elektron məktəb" sisteminin tətbiqi və inkişaf etdirilməsi

Təhsil informasiya sistemi çərçivəsində bütün məktəblərdə "Elektron məktəb" sisteminin tətbiqi məqsədilə müvafiq dövlət qurumları ilə birlikdə fəaliyyət planı, bu fəaliyyətin vahid mərkəzdən əlaqələndirilməsi və vahid məlumat bazasının yaradılması imkanları nəzərdən keçiriləcəkdir.

Tədbir 2.5.3: Təkmilləşdirmə kurslarının təşkil edilməsi

Təhsil sahəsində texnoloji dəstəyi təmin etmək məqsədilə təhsil müəssisələrinin aparıcı şəxsləri təhsil texnologiyaları haqqında davamlı məlumatlandırılacaq, təhsil texnoloqlarının inkişafı üçün tədbirlər dəstəklənəcək və bu fəaliyyətlər çərçivəsində təkmilləşdirmə kursları təşkil ediləcəkdir.

Tədbir 2.5.4: Bilik və bacarıqların qiymətləndirilməsi

Tələbələrin İKT bacarıqlarının qiymətləndirilməsi mexanizmləri (məsələn, imtahanlar, müsabiqə xarakterli tədqiqatlarda iştirak və s.) müəyyən ediləcək və qiymətləndirmə nəticələri inkişaf fəaliyyətlərinin planlaşdırılmasında əsas amil kimi nəzərə alınacaqdır.

Təhsil fəaliyyətində istifadə olunan informasiya sistemləri zəruri məlumatların əldə edilməsi imkanlarını təmin etməklə, düzgün qiymətləndirmələrin aparılması və ədalətli qərarların qəbul olunmasında xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, təhsil sistemi ilə bağlı məlumatlara dair mövcud resurslar dövlət siyasətinə və istifadəçilərin real informasiya ehtiyaclarına uyğun olaraq daha da inkişaf etdiriləcək, təhsil sistemində məlumat bazalarından məqsədəuyğun istifadə üçün imkanlar təmin ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi ilə tədris proqramları yüksəkkeyfiyyətli rəqəmsal material və müvafiq metodlar əsasında təkmilləşdiriləcək, fərdi rəqabət qabiliyyəti və sosial rifahın yüksəldilməsi üçün informasiya texnologiyaları üzrə bilik və bacarıqların inkişaf etdirilməsi, məşğulluqda İKT mütəxəssislərinin payının artırılması təmin olunacaqdır.

Təhsil sahəsində İKT bilik və bacarıqlarının artırılması digər prioritetlər üçün ilkin əsas olsa da, onun ÜDM-ə və məşğulluğa ölçülə bilən birbaşa təsirləri müəyyənləşdirilməmişdir.

Tələb edilən investisiya

Tələb edilən investisiya və onun mənbələri texniki-iqtisadi əsaslandırma aparılmaqla müəyyən ediləcəkdir.

Gözlənilən risklər

Bu prioritet üzrə xüsusi risklərin olacağı gözlənilmir. Bununla belə, təhsil informasiya sisteminin tətbiqi zamanı məsul tərəflərin fəaliyyətinin lazımi səviyyədə əlaqələndirilməməsi rəqəmsal təhsillə bağlı islahatların vaxtında aparılmamasına və resurslardan düzgün istifadə edilməməsinə səbəb ola bilər.

7.3. Strateji hədəf 3. Hökumətin və sosial mühitin rəqəmsallaşdırılması

İKT biznes və ticarət əməliyyatlarının bir sıra aspektlərini dəyişmək potensialına malik olduğundan hökumət bu funksiyaların tənzimlənməsi, həmin xidmətlərin dəstəklənməsi və səmərəliliyinin yüksəldilməsi üçün İKT-nin gücündən istifadə etməklə, əlavə mənfəət əldə edə bilər. Dövlət xidmətlərinin bu üsulla rəqəmsallaşdırılması texnologiyalardan istifadə və vahid informasiya sisteminə tam inteqrasiya edilmiş səhiyyə infrastrukturunun yaradılması səylərinə dəstək vermiş olacaqdır.

7.3.1. Prioritet 3.1. Dövlət təşkilatlarında informasiya sistemlərinin təkmilləşdirilməsi

Əsaslandırma

İnformasiya sistemlərinin tətbiqi vasitəsilə idarəetmənin aşağıda sadalanan bir sıra üstünlükləri mövcuddur:

- məlumatların vaxtında müəyyən edilməsi, onların müqayisəsi və istifadəsi zamanı vaxta qənaət;
- sorğular əsasında tələb olunan məlumatların daha operativ və yüksək keyfiyyətlə təmin olunması;
- inzibati və maliyyə resurslarına qənaət.

Dövlət orqanlarının informasiya təminatını gücləndirmək və əməliyyat xərclərini azaltmaq məqsədilə RYTN tərəfindən İKT infrastrukturunun təkmilləşdirilməsi üzrə rəqəmsal sistemə keçidin dəstəklənməsi böyük əhəmiyyət kəsb edir. "Elektron hökumət" portalının fəaliyyətə başlaması və bu sahədə həyata keçirilmiş digər məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan BMT-nin "Elektron hökumət qiymətləndirilməsi" hesabatında 2012-ci ildə qərarlaşdığı 96-cı yerdən 2016-cı ildə 193 ölkə arasında 47-ci yerə yüksəlmişdir.[21]

Bu mövqenin qorunub saxlanılması və daha yüksək nailiyyətlərin əldə edilməsi məqsədilə görülmüş işlərin davamı olaraq "elektron hökumət" infrastrukturunun daha da təkmilləşdirilməsi, dövlət orqanları, biznes subyektləri və əhali tərəfindən "elektron hökumət" portalından və elektron imza (o cümlədən "Asan İmza") sistemindən istifadənin genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi önəmlidir.

Görüləcək tədbirlər

Tədbir 3.1.1: Dövlət İT sistemlərinin modernləşdirilməsi

Nazirlər Kabineti, RYTN və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi aşağıdakı tədbirlərin həyata keçirilməsi üçün birgə səy göstərəcəkdir:

- ölkədə informasiya sisteminin gücləndirilməsi və əməliyyat xərclərinin aşağı salınması üçün 2.2.2-ci tədbirdə nəzərdə tutulan "rəqəmsal keçid planı" çərçivəsində "rəqəmsal keçid" həyata keçiriləcəkdir. Bu prosesdə dövlət orqanlarının rolu informasiya sisteminin idarə olunmasını müəyyən etməklə, məlumat bazalarını və onların keyfiyyət standartlarını inkişaf etmiş ölkələrin təcrübələri ilə uzlaşdırmaqla, informasiya sisteminin effektiv idarə edilməsini həyata keçirməkdən ibarət olacaqdır;

[21] Mənbə: Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

- dövlət təşkilatları tərəfindən informasiya sistemlərinin və resurslarının yaradılması, istifadəsi, elektron xidmətlərin göstərilməsi proseslərinin səmərəli təşkili üçün qabaqcıl beynəlxalq təcrübələrə əsaslanan məlumat idarəetməsi mexanizmləri müəyyənləşdiriləcəkdir. Dövlət müəssisələrində kompüter avadanlığı və proqram təminatından istifadə səviyyəsi, o cümlədən onlar arasında infrastrukturun inteqrasiyası imkanları təhlil ediləcəkdir. Həmçinin səmərəli təhlil üçün informasiya resurslarının aktuallığını təmin etmək, ilkin mənbədən istifadə əsasında izafiliyi aradan qaldırmaq, lazımi bilik və bacarıqlara malik kadr ehtiyaclarını ödəməklə, analitik resurslar yenidən təşkil ediləcəkdir;
- dövlət orqanları üçün mərkəzləşdirilmiş infrastrukturun yaradılması imkanları araşdırılıb tətbiq ediləcəkdir. Dövlət orqanları və özəl qurumların mövcud Data Mərkəzinin texniki imkanlarından istifadəsi üçün zəruri addımlar atılacaq, o cümlədən normativ-hüquqi aktlar üzrə təkliflər hazırlanacaqdır. "Bulud" texnologiyalarının tətbiqi və informasiya sistemlərinin qarşılıqlı əlaqəsi təmin ediləcəkdir.

RYTN "ASAN xidmət" mərkəzlərində "elektron hökumət" portalı vasitəsilə məlumat mübadiləsinin davamlı şəkildə tətbiq olunmasını təşviq edəcəkdir.

Tədbir 3.1.2: Nazirlər Kabineti, RYTN və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən elektron xidmətlərlə bağlı zəruri standartların işlənib hazırlanması

Dövlət orqanları üçün elektron xidmətlərlə bağlı zəruri standartlar işlənib hazırlanacaq, elektron xidmət provayderləri üçün texniki, texnoloji və hüquqi tələblər müəyyən ediləcəkdir. Yerli istehsal məhsulu olan və ya açıq mənbə kodlu (*"open source"*) proqram təminatlarının istifadəsi vasitəsilə xərclərin azaldılması üçün zəruri tədbirlər görüləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Effektiv fəaliyyət göstərən "elektron hökumət" xidmətləri hökumət əməliyyatlarında qənaət və səmərəliliyə yol açır. Bu prioritetin icrası nəticəsində 2020-ci ildə dövlət büdcəsi xərclərinə 55 milyon manat qənaət ediləcəyi proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- elektron xidmətlərin sayının artırılması ilə onların "ASAN xidmət" mərkəzləri və "elektron hökumət" portalı vasitəsilə səmərəli istifadə olunması;
- dövlət xərclərinə qənaət edilməsi.

Tələb edilən investisiya

Texnologiya və informasiya sistemlərinin qurulması, habelə tələb olunan xidmətlərin təşkili üçün 2020-ci ilədək, ümumilikdə, 290 milyon manat investisiya qoyuluşu proqnozlaşdırılır.

Gözlənilən risklər

- dövlət orqanları tərəfindən zəruri qərarların qəbulunun gecikdirilməsi və normativ-hüquqi aktlara əlavə və dəyişikliklərin vaxtında hazırlanıb təqdim edilməməsi;
- məsul tərəflər arasında tələb edilən koordinasiyanın lazımi səviyyədə təşkil edilməməsi;

- bu sahəyə tələb olunan maliyyə vəsaitinin ayrılmaması.

7.3.2. Prioritet 3.2. İnteqrasiya edilmiş fasiləsiz elektron səhiyyə infrastrukturunun yaradılması

Əsaslandırma

Azərbaycanda elektron səhiyyə məlumatları, elektron qeydiyyat, rəqəmsal təsvir və rəqəmsal resept kimi səhiyyə informasiya sistemlərinin tətbiqi aşağıdakı vacib məqsədlərə nail olunmasına zəmin yarada bilər:

- xidmət keyfiyyətinin yaxşılaşdırılması;
- əlçatanlığın artırılması;
- xərclərin optimallaşdırılması;
- pasiyentlərin məmnunluğunun artırılması;
- bürokratik problemlərin aradan qaldırılması və iş vaxtının daha səmərəli bölüşdürülməsi;
- xüsusi əhəmiyyət kəsb edən tibbi informasiyaların müalicə həkimləri tərəfindən əldə olunması prosesinin sürətləndirilməsi;
- səhiyyə xidmətlərinin pasiyentlər üçün daha əlverişli vəziyyətə gətirilməsi.

Bu məqsədlə, Azərbaycanda xidmətyönümlü arxitekturaya uyğun səhiyyə informasiya sistemlərinin təşkil olunması zəruridir.

Hazırda bir sıra tibb müəssisələrində pasiyentlərlə bağlı məlumatlar rəqəmsal yolla mübadilə olunur. Lakin tibb müəssisələrinin (həkimlərin) informasiya sistemlərinin məlumatlarla həddən artıq yüklənməsi nəticəsində bu məlumatları uzun müddətə arxivləşdirmək mümkün olmur. Bunun əsas səbəbi həmin məlumatların həcminin çox olması və tibb müəssisələrinin böyük əksəriyyətinin bu məlumatları elektron qaydada arxivləşdirə bilməmələri ilə bağlıdır. Göstərilənlərin nəticəsi olaraq, tibbi fəaliyyət zamanı aşağıdakı çatışmazlıqlar müşahidə olunur:

- müəyyən dövr aralığında xəstəliyin gedişatını izləməyin mümkün olmaması;
- mürəkkəb məsələlər barədə rəy almaq məqsədilə beynəlxalq ekspertlərin proseslərə cəlb edilə bilməməsi;
- pasiyentlərin müntəzəm radioloji müayinələrdən keçməsi və nəticədə onların radiasiya şüalanmasına daha çox məruz qalma təhlükəsi ilə üzləşməsi;
- çoxfunksiyalı diaqnostik avadanlıqla aparılan araşdırmalar üzrə videoçəkilişlərdən effektiv istifadə edilə bilməməsi.

Görüləcək tədbirlər

Tədbir 3.2.1: Elektron səhiyyə proqramının yaradılmasının nəzərdən keçirilməsi

Bu prioritetin həyata keçirilməsi məqsədilə elektron həllərin (həll variantlarının) işlənib hazırlanmasını, yüksək keyfiyyətdə və hamı üçün əlçatan səhiyyə xidmətlərinin göstərilməsini təmin edəcək elektron səhiyyə proqramının yaradılması nəzərdən keçiriləcəkdir. Proqramın yaradılmasında əsas məqsəd pasiyentlərin məmnunluğuna yönəlmiş səhiyyə sisteminin formalaşdırılmasının təşviq olunmasıdır. Bu sistem pasiyentlərin səmərəli və ehtiyaclarına uyğun şəkildə məlumatlandırılmasına şərait yaradacaqdır. Elektron səhiyyə proqramı icbari tibbi sığorta sahəsində fəaliyyət

göstərən dövlət qurumu tərəfindən Səhiyyə Nazirliyi ilə birlikdə yaradılacaq və onun fəaliyyəti adıçəkilən dövlət qurumlarının qarşılıqlı əməkdaşlığı çərçivəsində təmin ediləcəkdir.

Elektron səhiyyə proqramının əsas fəaliyyət istiqamətləri onun fəaliyyətini tənzimləyən sənədlə (nizamnamə) müəyyən ediləcəkdir. Bu istiqamətlər Azərbaycan səhiyyə informasiya sisteminin komponentlərinin işlənib hazırlanması, idarə olunması və bu məqsədlərə nail olunması ilə bağlı zəruri fəaliyyətlərin əlaqələndirilməsindən ibarət olacaqdır.

Dəyişən mühitdə innovativ, etibarlı və yüksəkkeyfiyyətli həll variantlarını təklif etmək məqsədilə elektron səhiyyə proqramı daimi inkişafa istiqamətlənmiş fəal tədbirləri özündə cəmləşdirəcək və bununla da ixtisaslaşmış fəaliyyət prinsipləri formalaşacaqdır. Bu tədbirlərə Azərbaycanda, eləcə də Avropada müxtəlif tərəflərlə əməkdaşlıq münasibətlərinin qurulması, yeni layihələrə başlanılması və əməkdaşlıq layihələrində iştirak, cəmiyyətin səhiyyə ilə əlaqədar mövzularda məlumatlandırılması, eyni zamanda, təşkilatın ayrı-ayrı üzvlərinin fərdi inkişafının dəstəklənməsi daxil olacaqdır.

Proqram çərçivəsində hazırlanacaq səhiyyə informasiya sistemi özündə aşağıdakı komponentləri birləşdirəcəkdir:

- elektron səhiyyə məlumatları;
- elektron qeydiyyat;
- rəqəmsal təsvirlər;
- elektron resept.

Səhiyyə ilə bağlı zəruri informasiyaların işlənib hazırlanması üçün baza rolunu oynayacaq bu məlumatlar tibb xidmətlərinin göstərilməsinə dair müqavilələrin bağlanmasına və icrasına, pasiyentlərin hüquqlarının etibarlı şəkildə qorunmasına, ictimai səhiyyənin və yüksək keyfiyyətli səhiyyə xidmətlərinin təmin edilməsinə, sağlamlıq vəziyyəti ilə bağlı reyestrlərin və ümumilikdə, səhiyyə infrastrukturunun daha effektiv idarə olunmasına şərait yaradacaqdır.

Tədbir 3.2.2: Mərkəzi elektron tibbi uçot sisteminin yaradılması və mövcud olan müxtəlifplatformalı tibbi informasiya sistemlərinin milli səhiyyə şəbəkəsinə inteqrasiya olunması

Hazırda müxtəlif tibb müəssisələrində tətbiq edilən rəqəmsal qeydiyyat sistemləri qarşılıqlı inteqrasiya edilmədiyi üçün pasiyentlərin tibb işçiləri ilə görüş vaxtları və gözləmə siyahıları barədə məlumatların vahid mərkəzdə toplanması və cəmiyyətin bu məlumatlara əlçatanlığının təmin edilməsi qeyri-mümkündür. Bu səbəbdən pasiyentlərin qəbulu zamanı böyük növbələrin və gecikmələrin yaranması, görüş vaxtlarının ötürülməsi kimi problemlər müşahidə edilir ki, bu da həkimlərin və pasiyentlərin vaxt itkisi ilə üzləşməsi və səhiyyə xidmətlərinin keyfiyyətinin aşağı düşməsi ilə nəticələnir.

Qeyd olunan problemlərin aradan qaldırılması məqsədilə icbari tibbi sığorta sahəsində fəaliyyət göstərən müvafiq dövlət qurumu tərəfindən Səhiyyə Nazirliyi və RYTN-in dəstəyi ilə mərkəzi rəqəmsal qeydiyyat sisteminin formalaşdırılması nəzərdə tutulur. Yeni sistemin işlənib hazırlanması zamanı tibbi xidmət təminatçılarının istifadə etdikləri mövcud qeydiyyat sistemlərinin tamamilə yenisi ilə əvəzlənməsi izafi xərclərə və tibb işçilərinin praktiki bacarıqlarının artırılması zərurətinin yaranmasına səbəb ola bilər. Göstərilənlər nəzərə alınaraq, mövcud sistemlərin internet portalı vasitəsilə mərkəzi rəqəmsal qeydiyyat sisteminə inteqrasiya edilməsi təmin ediləcək və bu fəaliyyət üzrə vahid standartların işlənib hazırlanması nəzərdən keçiriləcəkdir.

Tədbir 3.2.3: Ümumi standartlaşdırma sisteminin yaradılması

Elektron səhiyyə proqramı çərçivəsində bu sahədə standartların müəyyən edilməsi, inzibati idarəetmənin təkmilləşdirilməsi, Azərbaycanın tibbi terminologiyasının hazırlanması, istifadəçilər üçün dəstəyin göstərilməsi və standartlaşdırma ilə bağlı digər məsələləri özündə cəmləşdirən tədbirlər həyata keçiriləcəkdir.

Standartlaşdırma sisteminin formalaşdırılması məqsədilə milli və beynəlxalq standartlar, təsnifatlar və nomenklaturlardan (SNOMED, HL7 və s.) istifadə edilməklə, elektron səhiyyə proqramı çərçivəsində fəaliyyət göstərəcək standartların və təsnifatların nəşriyyat mərkəzi yaradılacaqdır. Mərkəz tibbi təsnifat və standartları dərc edən mərkəzi qurum rolunu oynayacaqdır. Növbəti bir neçə il ərzində mərkəz elektron tibbi uçot sistemində istifadə olunması nəzərdə tutulan bütün standart, təsnifat və nomenklaturları dərc edəcəkdir. Bundan əlavə, elektron tibbi uçot istifadəçiləri haqqında məlumat və interfeys təlimatları da Mərkəz tərəfindən təmin ediləcəkdir.

Tədbir 3.2.4: Rəqəmsal reseptin verilməsi

Rəqəmsal resept sisteminin tətbiqi nəticəsində mövcud vəziyyəti əsaslı şəkildə dəyişmək mümkün olacaqdır. Hazırda həkimlər tərəfindən reseptlər əl ilə yazılmaqla, kağız daşıyıcılarda təqdim olunur. Bundan əlavə, həkimlər yazdıqları reseptlərin sayı və növünü özündə əks etdirən hesabat hazırlayırlar. Pasiyent kağız resepti əczaçıya təqdim edir və əczaçı resepti öz məlumat sisteminə daxil etdikdən sonra müvafiq dərmanları təqdim edir. Pasiyentlər əl ilə yazılmış kağız resepti itirdikləri və ya bu reseptlər yararsız hala düşdüyü hallarda, öz həkimləri ilə yenidən görüş təyin etmək məcburiyyətində qalırlar.

Rəqəmsal resept sisteminin tətbiqi məqsədilə elektron səhiyyə proqramı çərçivəsində rəqəmsal resept standartları işlənib hazırlanacaqdır. Rəqəmsal resept sisteminə bütün əczaçılıq və tibb müəssisələrinin inteqrasiyası təmin ediləcək, həkimlər pasiyentin unikal elektron identifikasiya nömrəsinə uyğun rəqəmsal resept tərtib edərək, mərkəzi elektron tibbi uçot sisteminin yaddaşına ötürəcəklər. Pasiyent tərəfindən istənilən əczaçıya müraciət edilərək, şəxsiyyət vəsiqəsi və ya rəqəmsal resept nömrəsi təqdim edilməklə və əczaçı tərəfindən həmin məlumatlar rəqəmsal resept sistemində yoxlanılmaqla, tələb edilən dərman ləvazimatları əldə ediləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Prioritetin icrası nəticəsində tibbi xidmətlərin planlaşdırılması və bu sahədə inzibati idarəetmə təkmilləşəcəkdir. Yeni sistem problemləri aşkar etməyə, daha təkmil statistik məlumatların tərtib edilməsinə, pasiyentlərin tibbi uçot məlumatlarının tam və real icmalını əldə etməyə şərait yaradacaq, onların qəbulu proseslərinin sadələşdirilməsinə, müayinə və müalicənin daha dolğun aparılmasına imkan verəcəkdir.

Elektron tibbi uçot sisteminin tətbiqi nəticəsində həkimlərin pasiyentlərin sağlamlıq durumlarına dair məlumatlara operativ çıxış imkanları təmin ediləcək ki, nəticədə pasiyentlər daha dəqiq, obyektiv, sürətli və səriştəli tibbi xidmətlərlə təmin ediləcəklər. Sənədləşmə prosedurları sadələşəcək, həkimlərin iş prosesində vaxtdan daha səmərəli istifadə etməsinə şərait yaranacaq, izafi xərclər aradan qaldırılacaqdır.

Rəqəmsal resept sisteminin tətbiqi nəticəsində proseslərin izlənməsinə, daha effektiv şəkildə idarə edilməsinə və tibbi prosedurlara dair məlumatların tənzimlənmiş dövriyyəsinə şərait yaranacaqdır.

Bu prioritetin icrası nəticəsində 2020-ci ildə dövlət büdcəsi xərclərinə 60 milyon manat qənaət ediləcəyi proqnozlaşdırılır.

Əsas icra göstəricisi:

- Prioritetin icrası nəticəsində, ümumilikdə, səhiyyə xərclərinə 7 faiz qənaət edilməsi.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün 2020-ci ilədək 276 milyon manat investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

Bu prioritet üzrə risklər elektron sistemlərin fəaliyyətinin aidiyyəti dövlət və özəl təşkilatlarla lazımi səviyyədə əlaqələndirilməməsi, tibb müəssisələrinin prioritetdə əksini tapmış sistemlərin tətbiqinə hazır olmaması, maliyyə çatışmazlıqları və resurslardan düzgün istifadədə çətinliklərin yaranması ilə bağlı ola bilər.

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 585 milyon manat investisiya tələb olunur. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- Azərbaycan İnvestisiya Şirkətinin vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq, yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri və qrantlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, texniki və maliyyə yardımları;
- maliyyə bazarlarının alətləri;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitinin müəyyən edilmiş prioritet hədəflər üzrə ən səmərəli şəkildə sərf olunmasını təmin etmək üçün büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslərə digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyi təmin etməyə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflərlə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.

- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyət müzakirə ediləcək. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimini və tapşırıqların bölgüsünü məsul şəxs müəyyənləşdirəcək. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şərait yaradacaq, tələb olunduqda, kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.

- Strateji Yol Xəritəsinin icrasına nəzarət, yaranan problemlərin həlli və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu *("delivery unit")* müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında əlaqələndirmənin təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işi, rüblük hesabatların ümumiləşdirilməsi və illik hesabatın hazırlanması koordinasiya qurumu tərəfindən tənzimlənəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təmin edilməsinə və zəruri hallarda, əlavə resursların cəlb olunmasına nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olmaq məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda, mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində bu hədəflərdən istifadə olunacaqdır.

- İcraya rəhbərlik, eləcə də tələb olunan resurslara və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün prioritetlər üzrə nəzərdə tutulan tədbirlərə əsaslanan müfəssəl icra planları işlənib hazırlanacaqdır.

Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi məsuliyyət daşımaqla yanaşı, planın tətbiqinə bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb ediləcəklər.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurlu tətbiqi üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb edilməsi tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədilə özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlarla işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.

- Strateji Yol Xəritəsinin hərtərəfli dəstəklənməsi üçün vətəndaş cəmiyyəti və beyin mərkəzləri səfərbər ediləcək və işə cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və sair vasitəsilə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinqi və qiymətləndirilməsi həyata keçiriləcəkdir. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara uyğun tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumu nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabat əsas icraçı təşkilat tərəfindən işçi qrupun rüblük iclasından ən azı 10 gün əvvəl koordinasiya qurumuna təqdim ediləcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlilini və qiymətləndirilməsini, həmçinin işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar/tövsiyə	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. İdarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi					
1.1. Müstəqil tənzimləyici qurumun yaradılması					
1.1.1.	Telekommunikasiya sahəsində aparılacaq islahatlar çərçivəsində görüləcək tədbirlərin müəyyən edilməsi üçün işçi qrupun yaradılması	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi , İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi	• telekommunikasiya xidmətlərinin keyfiyyətinin artması; • 2020-ci ildə 100 yeni iş yerinin yaradılması.	2017
1.1.2.	Tənzimləyici qurumun fəaliyyəti üzrə normativ-hüquqi aktların hazırlanması və təsdiq edilməsi	Nazirlər Kabineti	Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2020
1.1.3.	Tənzimləyici qurumun yaradılması və fəaliyyəti	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2020
1.2. Telekommunikasiya bazarının liberallaşdırılması					
1.2.1.	Xarici investorların cəlb edilməsi və RYTN-in tabeliyində olan telekommunikasiya qurumlarının özəlləşdirilməsinin nəzərdən keçirilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 25 milyon manat birbaşa, 5 milyon manat dolayı olmaqla,	2018-2020

1.2.2.	Genişzolaqlı infrastrukturun əhatə dairəsinin artırılması üzrə yanaşmanın seçilməsi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	*Tövsiyə olunur:* internet provayderləri	ümumilikdə 30 milyon manat həcmində artması; • 2020-ci ildə ümumilikdə 650 yeni iş yerinin yaradılması; • 2020-ci ildə ölkə üzrə sabit genişzolaqlı xidmətlərin əhatə dairəsinin 70 faizə çatdırılması; • beynəlxalq şlüzlərə qoşulan operatorların sayının 2020-ci il üçün cari 2 operatordan ən azı 3 operatora qədər artırılması; • Azərbaycanda sabit genişzolaqlı şəbəkədə bir istifadəçinin internetdən istifadə sürətinin cari 3,6 Mbit/s orta sürətdən 2020-ci ildə 20 Mbit/s-ə, 2025-ci ildə 50 Mbit/s-ə, 2025-ci ildən sonra isə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması; • istehlakçıların sabit genişzolaqlı şəbəkə xidmətlərindən istifadə üzrə xərclərinin istehlak səbətindəki xüsusi çəkisinin hazırkı səviyyədə qalması.	2017-2018
1.2.3.	Beynəlxalq şlüzlərə qoşulmanın təmin edilməsi və tələbata uyğun beynəlxalq kanalların sürətinin artırılması	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	*Tövsiyə olunur:* internet provayderləri		2017-2018
1.2.4.	Genişzolaqlı şəbəkənin tətbiqinin artırılması üçün digər üsulların nəzərdən keçirilməsi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	*Tövsiyə olunur:* internet provayderləri, mobil operatorlar		2017
1.2.5.	Tranzit trafik xəttinin yaradılması	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi			2017
1.2.6.	Sabit şəbəkədə istismardan çıxarılmış mis xammaldan istifadə edilməsi	İqtisadiyyat Nazirliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi		2017-2020
1.3. Mobil infrastruktura investisiya qoyuluşlarının artırılması					

1.3.1.	LTE bölgüsünün effektiv həyata keçirilməsi üçün müvafiq qaydaların hazırlanması və prosedurların müəyyən edilməsi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 25 milyon manat birbaşa, 5 milyon manat dolayı olmaqla, ümumilikdə, 30 milyon manat həcmində artması; • 2020-ci ildə, ümumilikdə, 700 yeni iş yerinin yaradılması; • LTE və başqa simsiz texnologiyalar üzrə genişzolaqlı xidmətlərin əhatə dairəsinin hər il 10 faiz genişləndirilməsi yolu ilə, 2020-ci ildə 70 faizə çatdırılması; • mobil rabitə əlaqələri üzrə adambaşına düşən xərclərin istehlak səbətindəki payının cari 0,37 faizdən 1,41 faizədək artırılması; • mobil abunəçi sayının 2020-ci ilədək minimum hazırkı səviyyədə qorunub saxlanması.	2017-2020
1.3.2.	LTE-nin tətbiqi üçün mülki tezlik spektrinin mobil operatorlar arasında şəffaf və səmərəli bölgüsünün təmin edilməsi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	Radiotezliklər üzrə Dövlət Komissiyası		2017–2020
Strateji hədəf 2. Sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması					
2.1. Rəqəmsal ödənişlərin genişləndirilməsi					
2.1.1.	Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə işçi qrupun yaradılması	Azərbaycan Respublikasının Mərkəzi Bankı	İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Rabitə və Yüksək	• 2020-ci ildə real ÜDM-in 40 milyon manat birbaşa, 15 milyon manat dolayı olmaqla,	2017

			Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası	ümumilikdə, 55 milyon manat həcmində artması; • internet və mobil bank sistemlərində elektron imzanın əhatə dairəsinin 2016-cı ildəki 20 faiz göstəricisinin 2020-ci ildə 80-100 faiz aralığı səviyyəsinə çatdırılması; • POS-terminallar vasitəsilə həyata keçirilən əməliyyatların məbləğinin 400 milyon manatdan 2,7 milyard manatadək artması; • nağdsız əməliyyatların xüsusi çəkisinin 2016-cı ildəki 8 faizdən 2020-ci ilədək 30 faizə çatdırılması; • istehlak xərclərində POS-terminallar vasitəsilə aparılan nağdsız əməliyyatların payının hazırkı təxmini 1 faizdən 8-9 faizədək artması.	
2.1.2.	İşçi qrup tərəfindən təkliflərin verilməsi	Azərbaycan Respublikasının Mərkəzi Bankı	İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası		2017
2.1.3.	Rəqəmsal ödənişlərin daha geniş tətbiqi üçün maarifləndirmə, təbliğat və təşviqat işinin aparılması	Azərbaycan Respublikasının Mərkəzi Bankı			2018-2020
2.2. Sahibkarlıq subyektlərinin texnologiyaəsaslı əməliyyatlarının genişləndirilməsi					
2.2.1.	Biznes fəaliyyətində texnologiyanın daha geniş tətbiqi imkanlarını araşdırmaq məqsədilə işçi qrupun yaradılması	İqtisadiyyat Nazirliyi	Vergilər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,	• KOS subyektlərinin rəqəmsallaşma səviyyəsini yüksəltməklə, onların rəqabət qabiliyyətinin artırılması;	2017-2018

			yeni KOS agentliyi	• bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM-ə və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	
2.2.2.	Biznes subyektlərinin rəqəmsal mühitə keçidinin stimullaşdırılması	İqtisadiyyat Nazirliyi	Vergilər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, yeni KOS agentliyi		2017-2018
2.2.3.	Yerli infrastrukturun inkişafının dəstəklənməsi	İqtisadiyyat Nazirliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, yeni KOS agentliyi		2017-2018
2.3. Biznesin iştirakı ilə texnoloji tədrisin yenilənməsi					
2.3.1.	"Texnoloji Təhsil Qrupu"nun yaradılması	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası	• informasiya texnologiyaları üzrə ali təhsil almış məzunların təhsili başa vurduqdan sonra növbəti bir il ərzindəki məşğulluq səviyyəsinin hazırkı 43 faizdən 2020-ci il üzrə 60 faizə çatdırılması; • bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM-ə və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017-2018
2.3.2.	Texnologiyaların tədrisində çatışmazlıqların araşdırılması və müvafiq təkliflərin irəli sürülməsi	İqtisadiyyat Nazirliyi	Təhsil Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, yeni KOS agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası		2017-2018

2.3.3.	İKT sektorunun rəqabətədavamlılığını təmin edən məhsulların istehsalı və xidmətlərin göstərilməsi üzrə kadr hazırlığının gücləndirilməsi	Təhsil Nazirliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası		2017-2018
2.3.4.	Biznes subyektlərinin texnologiya savadlılığının artırılması	Təhsil Nazirliyi	İqtisadiyyat Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, yeni KOS agentliyi		2017-2018
2.4. Dövlət qurumlarının elektron xidmətlərinin təkmilləşdirilməsi					
2.4.1.	Dövlət sektoru daxilində, eləcə də dövlət sektoru ilə əlaqələr zamanı yazışmaların tamamilə elektronlaşdırılması və kağız daşıyıcılardan istifadənin aradan qaldırılması	Nazirlər Kabineti	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	• 2020-ci ildə real ÜDM-in 100 milyon manat birbaşa, 20 milyon manat dolayı olmaqla, ümumilikdə, 120 milyon manat həcmində artması; • “elektron hökumət”in inkişafının qabaqcıl ölkələr səviyyəsinə çatdırılması.	2017-2018
2.4.2.	Dövlət orqanlarının informasiya sistemlərinin yaradılması üçün vahid prinsiplərin və standartların işlənib hazırlanması	Nazirlər Kabineti	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,		2017-2018

			Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		
2.4.3.	Dövlət xidmətlərinin həyata keçirilməsinin keyfiyyət standartlarının hazırlanması	Nazirlər Kabineti	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Xüsusi Dövlət Mühafizə Xidməti		2017-2018
2.4.4.	eGov 2.0 versiyasında mobil hökumət (mGov) konsepsiyasının hazırlanması	Nazirlər Kabineti	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2018
2.4.5.	“Hökumət bulud”un (G-cloud) yaradılması	Nazirlər Kabineti	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi,		2017-2018

			Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Xüsusi Dövlət Mühafizə Xidməti		
2.4.6.	Elektron imzanın, o cümlədən "Asan İmza"nın beynəlxalq səviyyədə qarşılıqlı tanınmasının təmin olunması	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xarici İşlər Nazirliyi		2017-2018
2.5. İKT sahəsində bilik və bacarıqların artırılması, təhsil sistemində İKT-dən istifadə					
2.5.1.	Daha yüksək İKT bilik və bacarıqlarının təmin edilməsi üçün rəqəmsal təhsilin inkişafı üzrə islahatların aparılması	Təhsil Nazirliyi	Dövlət İmtahan Mərkəzi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası	• məşğulluqda İKT mütəxəssislərinin payının artırılması; • bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM-ə və məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	2017
2.5.2.	"Elektron məktəb" sisteminin tətbiqi və inkişaf etdirilməsi	Təhsil Nazirliyi	Dövlət İmtahan Mərkəzi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2025

2.5.3.	Təkmilləşdirmə kurslarının təşkil edilməsi	Təhsil Nazirliyi	Dövlət İmtahan Mərkəzi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası		2017-2020
2.5.4.	Bilik və bacarıqların qiymətləndirilməsi	Təhsil Nazirliyi	Dövlət İmtahan Mərkəzi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası		2017-2025
Strateji hədəf 3. Hökumətin və sosial mühitin rəqəmsallaşdırılması					
3.1. Dövlət təşkilatlarında informasiya sistemlərinin təkmilləşdirilməsi					
3.1.1.	Dövlət İT sistemlərinin modernləşdirilməsi	Nazirlər Kabineti	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	• elektron xidmətlərin sayının artırılması ilə onların "ASAN xidmət" mərkəzləri və "Elektron hökumət" portalı vasitəsilə səmərəli istifadə olunması; • bu prioritetin icrası nəticəsində 2020-ci ildə dövlət büdcəsi xərclərinə 55 milyon manat qənaət edilməsi; • bu prioritet digər prioritetlər üçün aparıcı mexanizm rolunu oynayacaq, lakin ÜDM-ə və	2017-2020
3.1.2.	Nazirlər Kabineti, RYTN və Azərbaycan Respublikasının Prezidenti yanında	Nazirlər Kabineti	Azərbaycan Respublikasının		2017-2020

	Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən elektron xidmətlərlə bağlı zəruri standartların işlənib hazırlanması		Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti	məşğulluğa birbaşa təsir göstərməyəcəkdir.	
3.2. İnteqrasiya edilmiş fasiləsiz elektron səhiyyə infrastrukturunun yaradılması					
3.2.1.	Elektron səhiyyə proqramının yaradılmasının nəzərdən keçirilməsi	İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi	Nazirlər Kabineti, Səhiyyə Nazirliyi	• tibbi xidmətlərin planlaşdırılması və bu sahədə inzibati idarəetmənin təkmilləşdirilməsi; • həkimlərin pasiyentlərin sağlamlıq durumlarına dair məlumatlara operativ çıxış imkanlarının təmin edilməsi; • rəqəmsal resept sisteminin tətbiqi; • bu prioritetin icrası nəticəsində 2020-ci ildə dövlət büdcəsi xərclərinə 60 milyon manat qənaət edilməsi; • səhiyyə xərclərinə 7 faiz qənaət edilməsi.	2020-2025
3.2.2.	Mərkəzi elektron tibbi uçot sisteminin yaradılması və mövcud olan müxtəlifplatformalı tibbi informasiya sistemlərinin milli səhiyyə şəbəkəsinə inteqrasiya olunması	İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi	Səhiyyə Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2018-2020
3.2.3.	Ümumi standartlaşdırma sisteminin yaradılması	Nazirlər Kabineti	Səhiyyə Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2020
3.2.4.	Rəqəmsal reseptin verilməsi	Nazirlər Kabineti	Səhiyyə Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi		2017-2025

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 6 dekabr tarixli
1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi

Mündəricat

1. QISA XÜLASƏ 825

2. QLOBAL TRENDLƏR 828

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ 833

3.1. Kommunal xidmətlər sektorunun mövcud vəziyyəti 833

3.2. Kommunal xidmətlər sektorunun GZİT təhlili 840

4. STRATEJİ BAXIŞ 841

4.1. 2020-ci ilədək strateji baxış 841

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış 841

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış 842

5. HƏDƏF İNDİKATORLARI 845

6. STRATEJİ MƏQSƏDLƏR 846

7. STRATEJİ HƏDƏFLƏR 847

7.1. Strateji hədəf 1. Kommunal xidmətlər sektorunun tənzimlənməsində dayanıqlılığın və effektivliyin təmin edilməsi 847

7.1.1. Prioritet 1.1. Müstəqil tənzimləyici orqanın və məqsədli fondun yaradılması, effektiv xidmət və yığım mexanizmlərinin, kadr təminatının formalaşdırılması 847

ELEKTRİK ENERJİSİ 850

7.2. Strateji hədəf 2. Tam şaxələndirilmiş və ekoloji baxımdan təmiz elektrik enerjisi istehsalının təmin edilməsi 850

7.2.1. Prioritet 2.1. Milli istehsal portfelinin ehtiyat həcminin artırılması 850

7.2.2. Prioritet 2.2. Milli istehsal portfelinin şaxələndirilməsi 857

7.2.3. Prioritet 2.3. İzafi təchizata görə qısamüddətli perspektivdə xalis elektrik enerjisi ixracı imkanının nəzərdən keçirilməsi 862

7.3. Strateji hədəf 3. Dünya üzrə orta səmərəlilik və keyfiyyət standartlarının tətbiqi və məqsədlərə nail olmaq üçün mexanizmlərin işə salınması 865

7.3.1. Prioritet 3.1. Elektrik stansiyalarının səmərəliliyinin artırılması və mövcud potensialdan səmərəli istifadə 866

7.3.2. Prioritet 3.2. Elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi verilişinin və paylanmasının keyfiyyətinin yüksəldilməsi 871

7.3.3. Prioritet 3.3. İstehlakda səmərəliliyin yüksəldilməsi üçün optimal mexanizmlərdən istifadə 876

7.3.4. Prioritet 3.4. Effektiv tənzimləmə və hərrac mexanizmlərinin yaradılması 881

QAZ TƏCHİZATI 883

7.4. Strateji hədəf 4. Səmərəli və effektiv qazpaylama infrastrukturunun yaradılması 883

7.4.1. Prioritet 4.1. Təbii qazın paylanması ilə bağlı bütün növ itkilərin minimuma endirilməsi ... 883

SU TƏCHİZATI VƏ TULLANTI SULARI **890**

7.5. Strateji hədəf 5. Yüksəksəviyyəli su idarəetmə strukturunun yaradılması **890**

7.5.1. Prioritet 5.1. İçməli və tullantı su infrastrukturunun tətbiqinin genişləndirilməsi..... 890

7.6. Strateji hədəf 6. Su təchizatında itkilərin azaldılması və səmərəliliyin təmin edilməsi **895**

7.6.1. Prioritet 6.1. İtkilərin minimuma endirilməsi, sudan istifadə tariflərinin optimallaşdırılması və tələb olunan infrastruktur üçün investisiyalar cəlb etməklə su istehlakında səmərəliliyin yüksəldilməsi..... 895

İSTİLİK TƏCHİZATI **899**

7.7. Strateji hədəf 7. Dayanıqlı və etibarlı istilik təchizatı infrastrukturunun yaradılması **899**

7.7.1. Prioritet 7.1. Coğrafi, sosial və iqtisadi xüsusiyyətlər nəzərə alınmaqla, ölkədə optimal istilik enerjisi və isti su təchizatı sisteminin genişləndirilməsi..... 899

7.7.2. Prioritet 7.2. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi, institusional tədbirlərin görülməsi və istilik tariflərinin optimallaşdırılması 903

7.7.3. Prioritet 7.3. Mərkəzləşdirilmiş istilik təchizatı sistemində mövcud problemlərin qiymətləndirilməsi və aradan qaldırılması, sistemin səmərəliliyinin təmin edilməsi..... 905

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ **907**

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ **908**

10. TƏDBİRLƏR PLANI **910**

1. QISA XÜLASƏ

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri təsdiq edilmiş və bundan irəli gələn məsələlərin həlli istiqamətində yerli və xarici mütəxəssislər cəlb olunmaqla, Azərbaycan Respublikasına uyğun strateji yol xəritələri işlənmişdir.

"Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi" (bundan sonra - Strateji Yol Xəritəsi) 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışı əhatə edir. Sənəddə sahə üzrə fəaliyyət səmərəliliyinə və yüksək xidmət səviyyəsinə nail olmaq üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi üzrə təkliflər verilmişdir. Həmçinin Strateji Yol Xəritəsi həyata keçiriləcək tədbirlər üzrə "dövlət-özəl tərəfdaşlığı" mexanizmlərinin hazırlanmasını da nəzərdə tutur.

Bununla belə, strateji hədəflərə nail olmaq məqsədilə həyata keçiriləcək hər bir layihə təsdiq olunmazdan öncə müəyyən olunmuş məsul qurumlar tərəfindən texniki-iqtisadi əsaslandırılmalar aparılmalı və aidiyyəti qurumlarla müzakirə olunmalıdır.

Kommunal xidmətlər sektoru üzrə Strateji Yol Xəritəsinin hazırlanması məqsədilə Azərbaycan Respublikasında sahə üzrə mövcud vəziyyət, habelə beynəlxalq təcrübəyə əsaslanaraq, təhlükəsiz və diversifikasiya olunmuş davamlı təchizat, dəyər zənciri boyu yüksək səmərəlilik və keyfiyyət səviyyələri, tənzimləyici mexanizmlər, istifadə olunan idarəetmə prinsipləri, formalaşdırılmış tarif siyasəti və digər istiqamətlər üzrə statistik məlumatlar əsasında təhlillər aparılmış və ölkədə dayanıqlı inkişafın təmin olunması üçün dünyanın qabaqcıl ölkələrinin analoji təcrübələrindən istifadə edilərək strateji məqsədlər müəyyənləşdirilmişdir.

Strateji məqsəd kimi tam şaxələndirilmiş və fasiləsiz ekoloji təmiz elektrik enerjisi istehsalının təmin edilməsi, beynəlxalq göstəricilərə uyğun səmərəlilik və keyfiyyət standartlarının yaradılması, elektrik enerjisi sahəsində məqsədləri reallaşdırmaq üçün əsas hərəkətverici mexanizmlərin işə salınması, səmərəli və effektiv qazpaylama infrastrukturunun, həmçinin yüksəksəviyyəli su idarəetmə strukturunun yaradılması və suyun istehlakında səmərəliliyin təmin edilməsi, istilik təchizatı sistemində mövcud problemlərin aradan qaldırılması və sistemin səmərəliliyinin təmin edilməsi müəyyənləşdirilmişdir. Hər bir strateji hədəf üzrə prioritetlər müəyyən olunmuş, müvafiq təhlillər aparılmış, bu prioritetlər üzrə həyata keçiriləcək tədbirlər müəyyənləşdirilmiş və onların həyata keçirilməsi ilə əldə olunacaq nəticələr proqnozlaşdırılmışdır.

Strateji Yol Xəritəsi çərçivəsində həyata keçiriləcək tədbirlər nəticəsində kommunal sahədə fəaliyyət səmərəliliyinin və xidmət səviyyəsinin yüksəldilməsi, eyni zamanda, ölkənin enerji resurslarının ixrac potensialının artırılması, resurslardan qənaətlə istifadənin genişləndirilməsi, ətraf mühitə atılan zərərli maddələrin həcminin azaldılması ilə yanaşı, ölkənin əksər bölgələrində çoxsaylı yeni iş yerlərinin açılması imkanları yaranacaqdır.

Bu baxımdan, Azərbaycan Respublikasında sahə üzrə yüksək texnologiyalardan istifadənin genişləndirilməsi məqsədilə dünyanın aparıcı ölkələrində müvəffəqiyyətlə sınaqdan çıxmış hüquqi, iqtisadi, təşkilati və texniki sahələrdə kompleks tədbirlərin həyata keçirilməsi zərurəti yaranır.

Həyata keçirilən tədbirlər nəticəsində 2020-ci ildə Azərbaycan Respublikasında real ÜDM-in 832 milyon manat artacağı, eyni zamanda, ümumilikdə 6645 min yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Nəzərdə tutulan tədbirlərin reallaşdırılması üçün

dövlət və özəl mənbələrdən istifadə etməklə, cəmi 8150 milyon manat investisiya qoyuluşunun tələb olunacağı gözlənilir.

Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələr

№	Prioritetin adı	Real ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(muzdlu işçilərin sayı, 2020)*	İnvestisiya *(milyon manatla)*
2.1.	Milli istehsal portfelinin ehtiyat həcminin artırılması	215	5085	1950
2.2.	Milli istehsal portfelinin şaxələndirilməsi	70	270	1040
2.3.	İzafi təchizata görə qısamüddətli perspektivdə xalis elektrik enerjisi ixracı imkanının nəzərdən keçirilməsi	115	–	–
3.1.	Elektrik stansiyalarının səmərəliliyinin artırılması və mövcud potensialdan səmərəli istifadə	75	–	1075
3.2.	Elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi verilişinin və paylanmasının keyfiyyətinin yüksəldilməsi	25	–	400
3.3.	İstehlakda səmərəliliyin yüksəldilməsi üçün optimal mexanizmlərdən istifadə	170	–	–
4.1.	Təbii qazın paylanması ilə bağlı bütün növ itkilərin minimuma endirilməsi	90	340	1515
5.1.	İçməli və tullantı su infrastrukturunun tətbiqinin genişləndirilməsi	40	–	1135
6.1.	İtkilərin minimuma endirilməsi, sudan istifadə tariflərinin optimallaşdırılması və tələb olunan infrastruktur	20	–	845

	üçün investisiyalar cəlb etməklə su istehlakında səmərəliliyin yüksəldilməsi			
7.1.	Coğrafi, sosial və iqtisadi xüsusiyyətlər nəzərə alınmaqla, ölkədə optimal istilik enerjisi və isti su təchizatı sisteminin genişləndirilməsi	12	950	190


Qeyd 1. Bu cədvəldə yalnız 2020-ci ildə real ÜDM-də 10 milyon manatdan çox artıma və ya 100-dən çox iş yerinin açılmasına şərait yaradan prioritetlər göstərilmişdir. Digər prioritetlər nəzərdə tutulan nəticələrin əldə olunmasında dəstəkləyici rola malikdir.

Qeyd 2. Bu rəqəmlər prioritetlərin təsiri barədə müəyyən təsəvvür yaratmaq məqsədilə verilmişdir. Tədbirlərin icrası zamanı hər bir prioritet üzrə hərtərəfli texniki-iqtisadi əsaslandırmaların aparılması və rəqəmlərin dəqiqləşdirilməsi zəruridir.

2. QLOBAL TRENDLƏR

Elektrik və istilik enerjisini, su və qaz təchizatını əhatə edən kommunal xidmətlər sektoru iqtisadi artımın və sosial rifahın təkanverici qüvvələrindən biridir. İstehlakçıların kommunal xidmətlərlə keyfiyyətli təminatı iqtisadiyyatın digər sektorlarının effektiv fəaliyyətinə birbaşa təsir göstərir. Son zamanlarda baş vermiş qlobal böhran digər sektorlarla müqayisədə kommunal xidmətlər sektorunun gəlirlərinə də ciddi şəkildə öz mənfi təsirini göstərmişdir (şəkil 1).

Şəkil 1. Qlobal böhranın sektorlara təsiri



1. *Bu sahədə fəaliyyət göstərən müəssisələr daxil olmaqla*

Mənbə: Datastream

Kommunal xidmətlər sektorundakı sözügedən maliyyə itkiləri bu sektorla bilavasitə əlaqəsi olan sahələrdə, habelə ev təsərrüfatlarının yüksəkkeyfiyyətli kommunal xidmətlərlə təminatında və xidmət şəbəkəsinin genişləndirilməsində çətinliklər yaratmışdır.

Elektrik enerjisi təchizatında tələbatın azalması nəticəsində yaranmış izafi həcmlər bu sektorda fəaliyyət göstərən müəssisələr tərəfindən əsas vəsaitlərin alınmasına sərf olunan investisiyaların geri qaytarılmasında çətinliklərin yaranmasına səbəb olmuşdur. Tənzimləmə sahəsindəki qeyri-müəyyənliklər də optimal enerji bazarlarının yaradılmasına öz təsirini göstərmişdir.

Bu baxımdan, böhrandansonrakı dövrün çətinliklərinin aradan qaldırılması məqsədilə elektrik enerjisi sektoru ilə bağlı dörd əsas istiqamət müşahidə edilir:

1. Elektrik enerjisi sektorunda gəlirlərdə baş verən azalmalardan sonra daha çox gəlir əldə edilməsi məqsədilə investisiyalardan səmərəli istifadənin təmin olunması üçün xərclərin optimallaşdırılması vacib amilə çevrilmişdir. Bu istiqamətdə iqtisadi səmərəliliyin yüksəldilməsi və şəffaflığın artırılması məqsədilə enerji bazarının liberallaşdırılması və sektorlar üzrə komponentlərin bir-birindən ayrılması xüsusi önəm kəsb edir. Belə ki, əksər ölkələr bu sektor üzrə dövlət inhisarçılığından elektrik enerjisi üzrə istehsaldan tutmuş pərakəndə satışa qədər ayrı-ayrı komponentləri özündə

ehtiva edən tamrəqabətli dəyər zəncirinə keçidi təmin etməyə nail olmuşlar. Hökumətlər sektor üzrə fəaliyyət səmərəliliyinin yüksəldilməsi, mülkiyyət növünün şaxələndirilməsi, investorların cəlb olunması, rəqabət mühitinin yaradılmasının intensivləşdirilməsi, sərişdə və yeni texnologiyaların tətbiqi kimi fərqli mexanizmlərdən istifadə etməklə, qarşıya qoyduqları məqsədlərə nail olmuşlar.

2. İstehsal portfelinin şaxələndirilməsi, o cümlədən bərpa edilən enerji mənbələrinə keçidin və istehsal edilən elektrik enerjisi üzrə təchizatın təmin edilməsi müşahidə edilən istiqamətlərdən biridir. İstehsal aktivlərinin düzgün planlaşdırılmaması və elektrik enerjisinə olan tələbatda artımın nəzərə alınmaması ötən dövrdə əksər ölkələrdə enerji təhlükəsizliyi riskini artıraraq müəyyən çətinliklər yaratmışdır. Elektrik enerjisi istehsalı həcminin proqnozlaşdırılması zamanı ÜDM-dəki və ya əhalinin sayındakı potensial artım nəzərə alınır. Buna uyğun olaraq, hökumətlər elektrik enerjisi istehsalı portfellərinin şaxələndirilməsi və başqa ölkələrdən asılılıqlarının azaldılması məqsədilə milli elektrik enerjisi istehsalı planlarını işləyib həyata keçirirlər.

Ənənəvi istehsalın mərhələli şəkildə bərpaolunan və yeni təkrar emal növlərinə çevrilməsi elektrik enerjisi istehsalının şaxələndirilməsi planının tərkib hissəsidir. Bərpaolunan enerji mənbələrindən istifadə edilməsi mənfəətli fəaliyyətin təmin olunması ilə yanaşı, enerji asılılığının aradan qaldırılmasına, ekoloji mühitin qorunmasına və xammal üzrə xərclərin sabit qalmasına şərait yaradır. Buna görə də günəş, külək və su enerjisindən istifadənin genişləndirilməsi məqsədilə qoyulacaq investisiyaların həcminin 2016-cı ilədək ənənəvi enerji mənbələrinə yatırılmış kapital qoyuluşlarının həcmini üstələməsi gözlənilir. Günəş enerjisindən istifadə ənənəvi mənbələrlə müqayisədə enerji istehsalında xərclərin azalmasına səbəb olacaqdır. Günəş enerjisi istehsalına keçid texnologiyaların modernləşdirilməsinə zərurət yaratdığından ilkin mərhələdə yüksək xərclə başa gəlir. Əlavə olaraq, külək enerjisindən istifadə olunması hesabına 2025-ci ilədək olan dövrdə elektrik enerjisi xərclərinin 15-25 faiz[1] azalacağı ehtimal olunur. Su elektrik stansiyalarının istismar müddətinin daha uzun, təminat və səmərəliliyin isə yüksək olması və digər elektrik stansiyaları ilə müqayisədə işəsalma vaxtının qısa olması hər meqavat-saat elektrik enerjisi üzrə istehsal xərclərini azaldır.

3. Beynəlxalq təcrübədə istehsal portfelinin şaxələndirilməsinə və bərpaolunan enerji növlərinə tələb edilən investisiyalar dövlət maliyyələşdirmə modeli və ya müstəqil enerji istehsalçıları (MEİ) modeli əsasında maliyyələşdirilir. Elektrik stansiyalarının yaradılması irihəcmli kapital qoyuluşları tələb etdiyindən daha çox özəl sektorun iştirakı tələb olunur. Dövlətlər investisiya portfelinin şaxələndirilməsi yolu ilə tərəfdaşın üzərinə əlavə yükün düşməməsi üçün investisiya riskləri ilə gəlirlər arasında tarazlığı təmin edirlər.

4. Ağıllı sayğac və şəbəkələrdən istifadə, habelə enerjinin saxlanması üçün texniki həllərin tətbiqi əsas qlobal istiqamətlərdən biri hesab olunur. Paylayıcı şirkətlər ağıllı şəbəkələr vasitəsilə öz investisiya qoyuluşlarını fəaliyyət səmərəliliyinin yüksəldilməsinə və tələbatın idarə edilməsinə yönəldirlər. Ağıllı şəbəkələrdən istifadə, elektrik enerjisinin paylanmasında informasiya mübadiləsinin biristiqamətli formadan ikiistiqamətliyə keçidini təmin edərək, sayğacların oxunması və istismarı xərclərini azaldır. Eyni zamanda, ağıllı şəbəkələrin tətbiqi avtomatlaşdırmaya və nasazlıqların aşkarlanmasına sərf olunan əməliyyat xərclərini aşağı salmaqla və kapital xərclərini optimallaşdırmaqla, ümumilikdə sektorun səmərəliliyinin artırılmasına təsir edir. Belə ki, qeyd olunan dəyişikliklərdən sonra elektrik enerjisi sektorunda yüksək gəlirin əldə

[1] Mənbə: “İEA Wind Group”, “Black and Veatch”, “Oxera”, “Bloomberg”

edilməsi mümkündür. Gələcəkdə əsas və yardımçı xidmətlərin göstəriləcəyi, ev təsərrüfatlarında günəş enerjisindən istifadə edən enerji istehsalçılarının sayının artacağı və ən yüksək yüklənmə dərəcələrinin idarə olunmasında təkmilləşdirmələrin olacağı gözlənilir.


Təbii qaz təchizatında da elektrik enerjisi sektorunda olan meyillər müşahidə edilir. Müxtəlif ölkələr tərəfindən əsas istiqamət hesab olunan fəaliyyət səmərəliliyinin yüksəldilməsinin tətbiqi zamanı fərqli metodologiyalardan istifadə imkanları araşdırılır. Habelə, müxtəlif səviyyələrdə paylama və pərakəndə satışın bir-birindən ayrılması və təbii qazın paylanmasında, xüsusən regional səviyyədə liberallaşdırma müşahidə olunur. Xüsusən də, yüksək inkişaf etmiş qaz infrastrukturu olan bazarlarda əsas aktivlərin təbii inhisarda saxlanılmaqla, xidmətlərdən ayrılması rəqabət intensivliyini gücləndirir.

Həmçinin kommunal xidmətlər sektorunda keyfiyyətin artırılması və xidmət şəbəkəsinin genişləndirilməsi sosial məqsədlər daşıyır. Bu baxımdan, bəzi ölkələr qazpaylama sektorunun bələdiyyələrə qaytarılması kimi əks proseslərdən də istifadə edirlər. Xüsusən də, Avropa ölkələrində bələdiyyələr bankların təklif etdiyi əlverişli maliyyələşdirmə şərtlərindən faydalanmaqla yerli qazpaylama şirkətlərindən payların alınmasında yaxından iştirak edir və bu yolla şəhərlərdə kommunal xidmətlərin keyfiyyətinə nəzarəti həyata keçirirlər.

Hazırda həcmi 600 milyard ABŞ dollarından çox olan qlobal su bazarında 3-5 faiz həcmində illik artım müşahidə olunur. Məlumdur ki, su ehtiyatları tükənməkdədir (2030-cu ilədək ehtiyacların 40 faizinin mövcud əlçatan resurslarla təmin olunmayacağı gözlənilir). Belə ki, Çin və Hindistan iqtisadiyyatının illik 4 faizdən çox artımı, Vyetnam kimi ölkələrdə ÜDM-in növbəti beş il ərzində gözlənilən artımı, 2040-cı ilədək dünya əhalisinin gözlənilən artımı (təxminən 9 milyard nəfər olacağı gözlənilir) su istehlakına tələbin artmasına səbəb olacaqdır.[2] Bu baxımdan, bir çox ölkələrdə artıq su mənbələrinin mühafizə olunması istiqamətində tədbirlərin görülməsinə başlanılmışdır. Həmçinin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr çirklənmə və təkrar istifadə qaydalarının sərtləşdirilməsi və su ilə bağlı yaranan risklər üzrə korporativ məlumatlılıq səviyyəsinin artırılması istiqamətində zəruri tədbirlər həyata keçirirlər. Su qıtlığı probleminin uzunmüddətli perspektivdə, xüsusilə Yaxın Şərq, Şimali Afrika, Cənubi Asiya, Şərqi Asiya və Şimali Amerikanın qərb sahillərində özünü kəskin büruzə verəcəyi gözlənilir (şəkil 2).

[2] Mənbə: “Global Water Intelligence”, “Ekonomist” jurnalının analitika şöbəsi

Şəkil 2. Qlobal su probleminin mövcud olduğu ərazilər



1. *2000-ci ilə olan baza qiymətləri ilə*
Mənbə: IFPRI

Buna görə də su ehtiyatlarından effektiv və tarazlaşdırılmış şəkildə istifadə edilməsi, fəaliyyət səmərəliliyinin yüksəldilməsi və su təchizatı təhlükəsizliyinin təmin edilməsi dövlətlər üçün prioritet məsələ hesab olunur. Lakin dünyanın qlobal su qıtlığı problemi ilə üzləşməsinə baxmayaraq, belə çətinliklər yerli xarakter daşıyır. Ölkələr öz hidroloji və iqtisadi xüsusiyyətlərinə görə su qıtlığı problemlərinin idarə edilməsində spesifik çətinliklərlə üzləşirlər.

Su qıtlığı ilə bağlı problemlərin idarəolunması sahəsində şor suyun şirinləşdirilməsi, tarif idarəetməsi və sənaye üçün xüsusi su sərfiyyatının azaldılması mexanizmlərinin tətbiqi kimi beynəlxalq təcrübələr mövcuddur. Artıq şor suyun şirinləşdirilməsi mexanizmi Yaxın Şərqdə alternativ su mənbəyi modelinə çevrilmişdir. Belə ki, dünya üzrə 2016-2020-ci illər ərzində şirinləşdirilməsi proqnozlaşdırılan 70 milyon m^3 su həcminin təxminən 25 milyon m^3-i (~36 faiz) Yaxın Şərq regionunun payına düşür.[3] Lakin şor suyun şirinləşdirilməsi xərctutumlu olduğu üçün bu mexanizmdən məhdud səviyyədə istifadə edilir.

Digər bir mexanizm kimi, dünyanın bir sıra ölkələrində səmərəlilik məqsədləri üçün həcmə əsaslanan tarif strukturlarından istifadə edilir. Bu metodla hökumət hər abonentə düşən istehlak səviyyəsini azaldır.

Sonuncu mexanizm isə bəzi dünya ölkələrində sektorlar tərəfindən səmərəliliyin yüksəldilməsi və sudan izafi istifadənin minimuma endirilməsi üçün qənaət planlarının həyata keçirilməsidir (məsələn, tikinti işlərində və müntəzəm istifadə olunan maşın və avadanlıqlarda müasir və qənaətcil texnologiyalardan istifadə).

Beynəlxalq Enerji Agentliyinin məlumatına əsasən, mənzillərin isidilməsi və soyudulması, isti su xidməti ilə təminat, işıqlandırma, yemək hazırlanması məqsədilə

[3] Mənbə: “Global Water Intelligence”

binalarda enerjiyə tələbat dünya üzrə ümumi enerji tələbatının təxminən 40 faizini təşkil edir. BMT-nin Ətraf Mühit Proqramının (UNEP) hesabatlarına əsasən, binaların istilik enerjisi ilə təmin edilməsi üçün daha müasir sistemlərə keçid dünyada 2050-ci ilədək bu sahə üzrə enerji istehlakının həcmini 2 dəfə azalda bilər. Dünyanın bir sıra şəhərlərində yerli resurslardan (külək, günəş, məişət tullantısı və s.) istifadə etməklə, müasir rayon (məhəllə) istilik sistemləri vasitəsilə istehlakçıları ucuz və keyfiyyətli istilik xidməti ilə təmin etmək mümkündür. Həmçinin bu metodla atmosferə atılan tullantı həcminin miqdarı da minimuma endirilir. Məsələn, ABŞ-ın Minnesota ştatında istilik sistemində bələdiyyə ərazisi üzrə ağac tullantılarından istifadə edilməklə, illik təqribən 275 ton kömürə və ya 12 milyon ABŞ dollarına qənaət edilir. Bundan başqa, bir sıra şəhərlərdə bələdiyyələr istilik sistemlərinin bir hissəsinin özəlləşdirilməsi hesabına əldə edilən vəsaitlə şəhərdə digər infrastruktur sahələrinin inkişafını təmin edirlər (məsələn, Kanadanın Toronto şəhərində istilik sisteminin 43 faizinin özəlləşdirilməsi hesabına 89 milyon ABŞ dolları gəlir əldə edilmişdir).

Dünya təcrübəsində digər yanaşma isə istifadə olunan yanacaq mənbələrinin effektivliyinin artırılması hesab olunur (məsələn, Helsinkidə istilik elektrik stansiyaları ilkin enerjinin 93 faizini istilik və elektrik enerjisinə çevirməklə, çox yüksək faydalı iş əmsalı ilə işləyirlər).

3. MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

3.1. Kommunal xidmətlər sektorunun mövcud vəziyyəti

Elektrik enerjisi sektoru üzrə

Azərbaycan iqtisadiyyatında kommunal xidmətlər sektoru - elektrik və istilik enerjisi, su və qaz mühüm əhəmiyyətə malikdir. Mövcud infrastrukturun təkmilləşdirilməsi və istehlakçıların fasiləsiz elektrik və istilik enerjisi, su və qazla təmin edilməsi məqsədilə ölkədə genişmiqyaslı islahatlar aparılmış, ötən illər ərzində iri investisiya layihələri həyata keçirilmişdir. Bunun nəticəsi olaraq, istehlakçılar elektrik enerjisi ilə tam təchiz olunmuş, təbii qaz, su və istilik təchizatı sahəsində isə investisiya qoyuluşu hesabına nəzərəçarpacaq irəliləyişlər əldə edilmişdir.

Elektrik enerjisinin istehlakı daxili bazarda, o cümlədən sənayedə xüsusi çəkiyə malikdir. Eyni zamanda, elektrik enerjisi ixracı ölkənin xarici ticarət dövriyyəsində müəyyən paya sahibdir. İstehlakçıların elektrik enerjisinə olan tələbatının ödənilməsi məqsədilə hazırda bir sıra enerji mənbələrindən (əsasən, təbii qaz olmaqla, su, günəş, külək, biokütlə və s.) istifadə edilir.

Hazırda respublikanın elektrik enerjisinə olan tələbatı "Azərenerji" ASC-nin tabeliyində fəaliyyət göstərən elektrik stansiyaları hesabına təmin edilir. Bu stansiyaların 13-ü istilik elektrik stansiyası olmaqla, ümumi qoyuluş gücü 5132 MVt, 16-sı isə su elektrik stansiyası olmaqla, ümumi qoyuluş gücü təqribən 1101,20 MVt-dır (cədvəl 1).

Cədvəl 1. Azərbaycanda istilik və su elektrik stansiyalarının qoyuluş gücü

№	*İstilik elektrik stansiyaları*	*Qoyuluş gücü (MVt)*
1	"Azərbaycan" ES	2400,0
2	"Cənub" ES	780,0
3	"Sumqayıt" ES	525,0
4	"Simal" ES	400,0
5	"Səngəçal" modul tipli ES	300,0
6	"Bakı" İEM	107,0
7	"Bakı" ES	104,0
8	"Şahdağ" modul tipli ES	104,0
9	"Astara" modul tipli ES	87,0
10	"Şəki" modul tipli ES	87,0
11	"Xaçmaz" modul tipli ES	87,0

№	*Su elektrik stansiyaları*	*Qoyuluş gücü (MVt)*
1	Mingəçevir SES	402,0
2	Şəmki SES	380,0
3	Yenikənd SES	150,0
4	Füzuli SES	25,0
5	Taxtakörpü SES	25,0
6	Şəmkirçay SES	25,0
7	Araz SES	22,0
8	Biləv SES	22,0
9	Arpaçay 1 SES	20,5
10	Varvara SES	16,0
11	Vayxır SES	5,0

12	“Naxçıvan” modul tipli ES	87,0
13	“Naxçıvan” QTES	64,0

12	Arpaçay 2 SES	1,4
13	Göyçay KSES	3,1
14	İsmayıllı 1 KSES	1,6
15	İsmayıllı 2 KSES	1,6
16	Qusar 1 KSES	1,0

Mənbə: “Azərenerji” ASC

Həmçinin ölkədə mövcud olan təbii resurslardan səmərəli istifadə etmək məqsədilə digər şirkətlər tərəfindən su, külək, günəş, məişət tullantılarının utilizasiyası hesabına çalışan bir sıra kiçik elektrik stansiyaları qurulmuşdur (cədvəl 2).

Cədvəl 2. Digər elektrik stansiyaları

№	*Elektrik stansiyası*	*Qoyuluş gücü (MVt)*
1	BP şirkəti və onun layihə tərəfdaşları	556,1
2	Yeni Yaşma KES	50,0
3	Neft daşları ES	48,0
4	Balaxanı BMTEZ	37,0
5	Gəncə gil-torpaq zavodu ES	25,0
6	İmişli şəkər zavodu	24,0
7	Naxçıvan MR GES	20,0
8	“Azərkimya” DŞ ES	12,5
9	Hökməli KES	8,0
10	Muğan KSES	4,05
11	Sitalçay KES	3,6
12	Qobustan (HES) KES	2,7
13	Şəki KSES	1,88
14	Yeni Yaşma KES	1,7
15	Qobustan (HES) GES	1,2
16	Qobustan (HES) BİO	0,7
17	Samux (layihə 2,8 MVt) GES	2,8
18	Sumqayıt (layihə 2,8 MVt) GES	2,2
19	Suraxanı (layihə 2,8 MVt) GES	1,6
20	Qaradağ (layihə 4 MVt) GES	1,2

21	Pirallahı (layihə 2,8 MVt) GES	1,1
22	Səngəçal (layihə 9 MVt) GES	0,0


Mənbə: Azərbaycan Respublikasının Energetika Nazirliyi

İstehsal olunmuş elektrik enerjisinin ötürülməsi 500 kV-luq, 330 kV-luq, 220 kV-luq, 110 kV-luq, paylanması isə 110 kV-luq və daha aşağı gərginlikli elektrik verilişi xətləri hesabına həyata keçirilir. Cari dövrədək ümumi uzunluğu 30 min km-dən artıq elektrik verilişi xətləri, ümumi gücü 2000 MVt-a yaxın 500-dən artıq yeni transformator istifadəyə verilmişdir.[4]

Son illərdə enerji sisteminə qoyulmuş investisiyalar hesabına elektrik enerjisinin keyfiyyət göstəriciləri nəzərəçarpacaq dərəcədə yüksəlmiş, itkilərin səviyyəsi aşağı düşmüş, yığım faizi isə artmışdır. Eyni zamanda, bu tendensiya paylamada da öz əksini tapmışdır. Belə ki, itkilərin 2010-cu ildəki təqribən 16,6 faizdən 2014-cü ildə 10,7 faizə qədər azaldılmasına nail olunmuşdur.[5]

Ölkədə istehsal olunan elektrik enerjisinin böyük bir hissəsinin - təqribən 94 faizinin istilik elektrik stansiyaları hesabına formalaşdığını nəzərə alaraq, qeyd etmək olar ki, ilkin enerji resursu olan təbii qazdan qənaətli və səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir (diaqram 1).

Diaqram 1. Azərbaycan Respublikasında elektrik enerjisi generasiyasının bölgüsü *(2014-cü il üzrə)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Qaz təchizatı sektoru üzrə

2004-cü ildən başlayaraq digər sahələrlə yanaşı, qaz təsərrüfatının da inkişafında yeni dönəm başlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli və 2005-ci il 14 fevral tarixli 635 nömrəli fərmanları ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı" çərçivəsində

[4] Mənbə: "Azərenerji" ASC

[5] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

iqtisadiyyatın və əhalinin təbii qazla təmin edilməsi, qaz təsərrüfatının yenidən qurulması tədbirləri daha da sürətləndirilmişdir. Bu tədbirlər, əsasən, ölkənin mövcud olan qaz nəqletmə sisteminin təkmilləşdirilməsi və genişləndirilməsindən, zəruri hallarda onun ayrı-ayrı hissələrinin yenidən qurulması, təbii qaz təminatı imkanlarının yaxşılaşdırılması və sistemin istismara yararlı halda saxlanılmasına yönəldilmiş texnoloji və texniki tədbirlərdən, hasil edilən və təhvil verilən təbii qazın artan həcminə uyğun magistral və şəbəkə qaz kəmərlərinin tikintisi və onların üzərində zəruri avadanlıqların quraşdırılmasından, təbii qazla təmin edilməyən yaşayış məntəqələrinin qazlaşdırılması işlərinin həyata keçirilməsindən ibarət olmuşdur. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İB-nin məlumatına əsasən, 2004-2008-ci illərdə 1926 km uzunluğunda yeni qaz xətləri çəkilmiş, 314 yaşayış məntəqəsi təbii qazla təmin olunmuşdur. Həmin dövrdə İmişli, Lerik, Yardımlı, Füzuli, Ağcabədi və Ağdam rayonlarının təbii qaz təminatı bərpa olunmuşdur. 14 il blokada şəraitində yaşamış Naxçıvan Muxtar Respublikasının təbii qaz təminatının bərpası üçün 2005-ci ildə qısa müddətdə 40,3 km uzunluğunda 530 mm diametrli "Culfa-Naxçıvan" magistral qaz kəməri, 12 MVt gücündə Astara qaz-kompressor stansiyası, İran-Azərbaycan sərhədində Astara və Culfada müasir avtomatlaşdırılmış dövlətlərarası qazölçmə stansiyaları, Naxçıvan Muxtar Respublikasında yeni daşıyıcı qaz kəmərləri inşa edilmişdir. Görülən işlər nəticəsində 2005-ci ildən başlayaraq Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa olunmuşdur. "Şimal" ES, Abşeron yarımadasında yerləşən istehlakçıların təbii qaz təminatı üçün Qaradağda 21 MVt gücündə kompressor stansiyası və 87,1 km uzunluğunda 1020/720 mm diametrli magistral qaz kəməri inşa olunaraq istifadəyə verilmişdir. 2008-ci ilin sonuna respublikada təbii qazdan istifadə edən əhali qrupu abunəçilərinin sayı 697 minə çatdırılmışdır. 2003-cü ilin sonuna sayğaclaşma səviyyəsi 5 faiz olduğu halda, 2008-ci ilin sonuna bu göstərici 99,2 faizə çatdırılmışdır.

Görülən işlərin məntiqi davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 1 iyul tarixli 366 nömrəli "Neft və qaz sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" Sərəncamı ilə qaz təsərrüfatında islahatlara start verilmiş və həmin dövrdən başlayaraq ciddi struktur islahatları aparılmışdır. İslahatlar hazırda da davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 dekabr tarixli 207 nömrəli "Əhalinin təbii qazdan istifadəyə görə yaranmış borclarının silinməsi tədbirləri barədə" Fərmanına əsasən, əhali abonentlərinin 2009-cu il 1 oktyabr tarixinə olan debitor borclarının silinməsi təmin olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 fevral tarixli 635 nömrəli, 2009-cu il 14 avqust tarixli 80 nömrəli, 2011-ci il 4 may tarixli 1490 nömrəli, 2014-cü il 17 yanvar tarixli 232 nömrəli və 2014-cü il 27 fevral tarixli 118 nömrəli sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində qazlaşma və qaz təchizatının yaxşılaşdırılması işləri sürətlə davam etdirilmişdir. 2009-2016-cı illər ərzində 1309 yaşayış məntəqəsi qazlaşdırılmışdır. Yaşayış məntəqələrinin qazlaşdırılması və respublikanın təbii qaz təminatının yaxşılaşdırılması məqsədilə 46082 km uzunluğunda yeni qaz xətləri çəkilmiş, təbii qaz təchizatının yaxşılaşdırılması üçün 8827 km uzunluğunda qaz xətti əsaslı təmir olunmuşdur. 2009-cu il 1 yanvar tarixinə qazdan istifadə edən əhali abunəçilərinin sayı

697000 təşkil etdiyi halda, 2016-cı il 1 oktyabr tarixinə bu göstərici 1929716-ya çatdırılmışdır. İstifadə olunan təbii qazın dəqiq uçotunun aparılması və dəyərinin ödəniş səviyyəsinin artırılması üçün sayğaclaşma səviyyəsi 100 faizə çatdırılmışdır. Ölkə üzrə ümumi qazlaşma səviyyəsi 2016-cı il 1 oktyabr tarixinə 87,8 faiz təşkil etmiş və bu göstəricinin 2016-cı ilin sonuna 90 faizə çatdırılması planlaşdırılmışdır. Qazlaşma proqramının icrası davam etməkdədir. Bu proqramın icrası nəticəsində 5 şəhərdə (Sumqayıt, Mingəçevir, Gəncə, Naftalan və Şirvan) və 6 rayonda (Abşeron, Biləsuvar, Hacıqabul, Füzuli, Balakən və Qazax) məntəqə üzrə qazlaşma səviyyəsi 100 faizə çatdırılmışdır. Regionların təbii qaz təchizatının yaxşılaşdırılması istiqamətində aparılan işlər nəticəsində 3 rayon mərkəzinin (Neftçala, Hacıqabul, Şabran) qaz təchizatı şəbəkəsi tam şəkildə yenidən qurulmuşdur. 2016-cı ilin yanvar ayının 1-dən isə "ASAN xidmət" mərkəzlərində "Azəriqaz" İB tərəfindən müvafiq xidmətlər təşkil olunmuşdur. İstifadə olunmuş təbii qazın dəyərinin ödənilməsində müasir texnologiyalar, Avtomatlaşdırılmış Qaz İnformasiya Sistemi, ölçü vasitələri, ödəniş terminalları tətbiq olunmuşdur.[6]

Su təchizatı və tullantı suları sektoru üzrə

"Azərsu" ASC respublika ərazisində əhalinin içməli su ilə təmin edilməsi məqsədilə yeraltı və yerüstü su mənbələrinin ehtiyatlarından istifadə edir. Cəmiyyətin məlumatına əsasən, Bakı şəhəri və Abşeron yarımadası 5 mənbədən (Şollar su kəməri, ikinci Bakı su kəməri, Ceyranbatan sutəmizləyici qurğular kompleksi (Ceyranbatan STQK), Kür sutəmizləyici qurğular kompleksi (Kür STQK) və Oğuz-Qəbələ-Bakı magistral su kəməri) götürülən su ilə təchiz edilir. Bunların ikisi (Şollar su kəməri, ikinci Bakı su kəməri) Xaçmaz rayonunun, biri isə (Oğuz-Qəbələ-Bakı magistral su kəməri) Oğuz rayonunun yeraltı su mənbələridir. Eyni zamanda, yerüstü su ehtiyatları olan və Samur çayından qidalanan Ceyranbatan su anbarının ehtiyatlarından və Kür çayının sularından (Kür su kəmərləri) da istifadə olunur.

Abşeron yarımadasında yerləşən yaşayış məntəqələrinin genişləndirilməsi və inkişafı mövcud su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması və təkmilləşdirilməsi zərurəti yaratmışdır. Belə ki, mövcud su təchizatı şəbəkə və qurğularının gücünün tükənməsi, onların mənəvi və fiziki köhnəlməsi istehlakçılara göstərilən xidmətin keyfiyyətinə mənfi təsir etməklə yanaşı, bu qurğuların istismarını iqtisadi cəhətdən səmərəsiz edir və su təchizatının fasiləsiz rejimlə həyata keçirilməsi zamanı su itkilərinin artmasına səbəb olur.

Hazırda yenidən qurulması ciddi kapital qoyuluşu tələb edən Bakı şəhərinin kanalizasiya sisteminin inşasına 1924-cü ildən başlanılmış və 1980-1983-cü illərdə "Bakının Böyük Kanalizasiyası" layihəsi çərçivəsində həyata keçirilmişdir. Bu layihəyə əsasən inşa olunmuş "Sahil", "Sənaye zonası", "Şəhərkənarı" daşıyıcı kollektorları, "Zığ" kanalizasiya nasos stansiyası kimi qurğular Bakı şəhərinin mərkəz hissəsində məskunlaşmış əhalinin tələbatına uyğun formalaşan tullantı sularının kənarlaşdırılması üçün nəzərdə tutulmuşdur.

"Bakının Böyük Kanalizasiyası" layihəsi çərçivəsində inşa olunmuş əsasən dəmir–beton boru və elementlərdən ibarət kollektorlar vasitəsilə şəhərin mərkəz hissəsində məskunlaşmış və sayı 2 dəfə artmış əhali ilə bərabər, Xırdalan şəhəri, Biləcəri və Binəqədi qəsəbələrində məskunlaşmış əhalinin, həmçinin sənaye müəssisələrinin də tullantı suları nəql edilir ki, bu da kollektorların ifrat dərəcədə yüklənməsinə, qəzaların sayının artmasına səbəb olur.

[6] Bu abzasda verilmiş statistik göstəricilər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İB-nin məlumatlarına əsaslanır.

Bununla yanaşı, qrunt və səth suları sistemlərinin rentabelli olmaması uzun illər bu şəbəkələrin inkişafı və genişləndirilməsi işini ləngitmişdir. Həmçinin araşdırmalar atmosfer çöküntüləri zamanı şəhərlərin ərazisində su yığılması, qruntun erroziyası və torpaq sürüşməsi kimi halların, bu növ təbii proseslər nəticəsində müxtəlif təyinatlı tikililərə və infrastruktura dəyə biləcək ziyanın qarşısının alınması məqsədi ilə səth sularının idarəolunması sistemlərinin yaradılmasının dünyanın bütün ölkələrində aktual olduğunu göstərir.

Eyni zamanda, ötən dövr ərzində Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə təsdiq olunmuş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində istehlakçıların su və kanalizasiya xidmətləri ilə təmin edilməsi, su və kanalizasiya təsərrüfatının yenidən qurulması istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Belə ki, 2004-2015-ci illər ərzində 8590 km uzunluğunda içməli su xətti və 3870 km uzunluğunda kanalizasiya xətti çəkilmiş, 253 su anbarı tikilmiş və ya yenidən qurulmuş, 73 su nasos stansiyası tikilmiş və digər zəruri tədbirlər görülmüşdür. Görülən işlər nəticəsində fasiləsiz içməli su ilə təmin olunan əhalinin sayı 2004-cü illə müqayisədə 2015-ci ildə respublika üzrə 26 faizdən 65 faizədək yüksəlmişdir.[7]

İstilik təchizatı sektoru üzrə

"Azərbaycan Respublikasında istilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 8 iyun tarixli 847 saylı Sərəncamına əsasən "Azəristiliktəchizat" ASC yaradılmışdır. Cəmiyyət tərkibinə daxil olan strukturlar vasitəsilə istilik enerjisinin istehsalı, ötürülməsi, paylanması, satışı və servis xidmətlərinin yerinə yetirilməsi funksiyalarını həyata keçirməklə, Bakı şəhərində və respublikanın regionlarında yaşayış evlərinin və binalarının, təhsil və səhiyyə müəssisələrinin və digər sosial təyinatlı obyektlərin istilik təchizatını təmin edir.

"Azəristiliktəchizat" ASC-nin yarandığı dövrdən istilik təchizatı sistemlərinin bərpası və yenidən qurulmasına qoyulmuş dövlət investisiyaları nəticəsində Bakı şəhərində və respublikanın regionlarında 166 yeni istilik mənbəyi yaradılmış, 108 köhnə tipli qazanxana müasir avadanlıqlar quraşdırılmaqla modernləşdirilmiş, rayon istilik qazanxanalarından qidalanan 57 istilik məntəqəsi yenidən qurularaq müasir qazanxanaya çevrilmiş, 271 qazlaşdırma layihəsi icra edilmiş, 1828 yaşayış binasının, 350-dən artıq təhsil və səhiyyə müəssisəsinin istilik sistemləri yenidən qurularaq istilik təchizatı bərpa edilmişdir.[8]

Yeni tikilmiş və modernləşdirilmiş qazanxanalarda Avropa ölkələrində istehsal edilmiş enerjiyə qənaət və ekoloji tələblərə tam cavab verən müasir qazanxana və istilik şəbəkəsi avadanlıqları quraşdırılmışdır. Bu qazanxanalar etibarlılıq və təhlükəsizlik tələblərinə görə sələflərindən kifayət qədər üstündür və tam avtomatlaşdırılmışdır.

Həyata keçirilən tədbirlər istilik təchizatının keyfiyyət parametrlərinin yüksəldilməsinə və texniki-iqtisadi göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına imkan vermişdir. 2011-ci illə müqayisədə istilik enerjisinin istehsalı 1,9 dəfə artaraq 1235,0 min Qkal təşkil etmiş, istilik itkiləri 4,5 faiz azalmış, 1 Qkal istilik enerjisinin istehsalına sərf edilən qazın xüsusi sərfiyyatı 5,9 m^3/Qkal azalmışdır

[7] Mənbə: "Azərsu" ASC

[8] Mənbə: "Azəristiliktəchizat" ASC

ki, bununla da şərti olaraq 7,4 milyon m^3 təbii qaza qənaət edilməsi mümkün olmuşdur.[9]

Cəmiyyətin mütəxəssisləri tərəfindən "Modul" tipli daşınan istilik qazanxanasının, Daşınabilən Kaskad Tipli İstilik Qazanxanasının (DKTİQ) və "Kombi" tipli istilik sistemlərinin tətbiqi ilə bağlı texniki əsaslandırma hazırlanmış, mövcud qanunvericiliyə uyğun olaraq bütün razılaşdırmalardan keçirilməklə, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən verilmiş uyğunluq sertifikatı əsasında həyata keçirilməyə başlamışdır. Bu qazanxanalar orta və kiçikhəcmli yaşayış binalarının, təhsil və səhiyyə obyektlərinin istilik təchizatı problemlərinin həllində əhəmiyyətli rol oynayır.

2016-cı il 1 iyul tarixinə Cəmiyyətin strukturu mərkəzi idarəetmə aparatı, 12 xidmət təsərrüfatı, 2 məhdud məsuliyyətli cəmiyyəti, Bakı şəhəri üzrə 22 istilik sistemi istismar sahəsi, 51 vahid regional istilik sistemi istismar sahəsi, gücü 807 Qkal/saat olan 5 rayon istilik qazanxanası, gücü 1501,2 Qkal/saat olan 530 məhəllədaxili istilik qazanxanası, 94 istilik məntəqəsi, 870 km-ə yaxın istismar edilən magistral və məhəlli istilik xətti, 2 yüksəldici nasos stansiyası, maşın parkı və digər mühəndis istilik kommunikasiyalarından ibarətdir.

[9] Mənbə: "Azəristiliktəchizat" ASC

3.2. Kommunal xidmətlər sektorunun GZİT təhlili

Kommunal xidmətlər sektorunun qısa, orta və uzunmüddətli perspektivdə inkişafının təmin olunması, xidmət səviyyəsinin beynəlxalq keyfiyyət normalarına uyğunlaşdırılması, təchizat sisteminin gücləndirilməsi, idarəetmə sistemlərinin formalaşdırılması, təminatda səmərəliliyin artırılması və s. məqsədlərlə strateji planlaşdırma metodu olan GZİT təhlili ümumiləşdirilmiş şəkildə formalaşdırılmışdır.

Təhlilin əsas məqsədi daxili və xarici mühitin təsirlərini müəyyən etməkdən və onları dörd istiqamət (daxili faktorlar üzrə - güclü və zəif tərəflər, xarici faktorlar üzrə - imkanlar və təhlükələr) üzrə sistemləşdirməkdən ibarətdir. Belə strateji planlaşdırma metodu sektorun cari dövr üçün ilkin qiymətləndirilməsi və inkişaf müstəvisindəki mövqeyinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir.

Güclü tərəflər	**Zəif tərəflər**
● təbii resursların mövcudluğu; ● ilkin resurslardan istifadədə qənaətli metodlardan istifadənin genişlənməsi; ● işçi xərclərinin nisbətən az olması; ● yerli bazarın qismən formalaşması; ● təcrübəli kadr potensialının mövcudluğu.	● istehlakçı qruplarının səmərəsiz bölgüsü; ● tariflər sisteminin və mövcud standartların təkmilləşdirilməsi zərurətinin olması; ● stimullaşdırıcı mexanizmlərin azlığı; ● uçot sistemində boşluqların olması; ● müasir texnologiyalardan qismən istifadə edilməsi; ● məhsuldarlığın aşağı olması; ● gələcək borc öhdəliklərinin olması.
İmkanlar	**Təhlükələr**
● tələbatın daim artması və yerli istehsal müəssisələrinin açılması; ● yeni bazarların formalaşdırılması; ● xarici bazarlara inteqrasiya vasitəsilə müasir texnologiyaların mənimsənilməsi; ● investisiyaların cəlb olunması; ● büdcə daxilolmalarının səviyyəsinin artması.	● xarici biznes risklərinin olması; ● texnoloji problemlərin yaranması; ● maliyyə bazarında faizlərin yüksək olması; ● resursların dəyərinin artması; ● beynəlxalq ekoloji tələblərin artması; ● dünya iqtisadi böhranının tələbata mənfi təsir etməsi; ● enerji daşıyıcılarının qiymətlərinin artması.

4. STRATEJİ BAXIŞ

2025-ci il və ondan sonrakı dövr üçün kommunal xidmətlər sektoruna daxil olan elektrik enerjisi, təbii qaz, su və istilik təchizatı istiqamətləri üzrə istehlakçıların tələblərini keyfiyyətli, səmərəli və günün tələblərinə uyğun şəkildə qarşılamaq məqsədilə bir sıra kompleks islahatların aparılması tələb olunur. Qeyd olunan dövrdə dayanıqlı inkişafın təmin edilməsi, sahə üzrə infrastrukturun genişlənməsi və rentabelliliyin təmin edilməsi üçün diversifikasiya olunmuş istehsalın və paylanma şəbəkəsinin formalaşması və səmərəli idarəetmə sisteminin qurulması vacibdir. Sahə üzrə kompleks islahatlar qısa, orta və uzunmüddətli dövrlərdə pilləli şəkildə həyata keçirilməlidir.

4.1. 2020-ci ilədək strateji baxış

2020-ci ilədək strateji baxış kommunal xidmətlər sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsinə, tənzimləyici orqanların funksional səmərəliliyinin artırılmasına, xidmət müəssisələrinin fəaliyyət səmərəliliyinin və xidmət keyfiyyətinin yüksəldilməsinə, investisiya mühitinin münbitləşdirilməsinə, beynəlxalq norma və standartların tətbiqinə, kadr bazasının gücləndirilməsinə, tariflərin optimallaşdırılmasına və stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanmasına nail olmaqdır.

4.2. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış kommunal xidmətlər sahəsində təkmilləşdirilmiş institusional mühitin və mütərəqqi idarəetmə sistemlərinin formalaşdırılmasına, müasir texnologiyalardan və ixtisaslaşdırılmış kadr potensialından istifadəyə, investisiya imkanları hesabına generasiyanın və hər bir sektor üzrə paylanmada diversifikasiyanın təmin olunmasına nail olmaqdır.

Uzunmüddətli baxışın şərhi

Azərbaycan Respublikasında 2025-ci ilədək kommunal xidmətlər sahəsi ilə bağlı uzunmüddətli hədəflər sayəsində bir sıra nailiyyətlər əldə ediləcək və elektrik enerjisi istehsalı sahəsində mühüm yenidənqurma işləri həyata keçiriləcəkdir. Ölkədə topdansatış bazarı və özəl sektor subyektlərinin iştirak etdiyi investisiya mühitinin yaradılması, əsasən, bərpaolunan enerjidən istifadənin təmin edilməsi və mikroelektrik enerjisi hasilatının tətbiq edilməsi yolu ilə elektrik enerjisi sektorunda səmərəliliyə nail olmaq məqsədi müəyyən edilmişdir. Həmçinin səmərəli və keyfiyyətli xidmət səviyyələri təmin edilməklə, daha geniş coğrafi ərazini əhatə edən təbii qaz və su paylama sistemlərinin tətbiqi genişləndiriləcəkdir.

Enerji sektorunda fəaliyyət səmərəliliyinin yüksəldilməsi üçün elektrik enerjisinin istehsalından pərakəndə satışa qədər dəyər zəncirinin bütün həlqələrinin (istehsal, nəqletmə, paylanma və satış) idarəçilik nöqteyi-nəzərindən bir-birindən ayrılması prioritet məsələ kimi nəzərdən keçiriləcəkdir. Bu sahədə əməliyyatların aparılması üçün səmərəli tələb-təklif bazarının yaradılması təmin edildikdən sonra elektrik enerjisi sektorunun topdansatış bazarı xarici investisiyalar üçün cəlbedici olacaqdır. Dövlət-özəl tərəfdaşlığı mexanizmləri vasitəsilə yeni elektrik stansiyalarına investisiya qoyuluşlarının stimullaşdırılması (məsələn, “Tik-idarə et-təhvil ver” modeli, stimullaşdırıcı tarif və ya hərrac mexanizmləri vasitəsilə) nəticəsində dövlətdən minimum həcmdə kapital qoyuluşu tələb ediləcəkdir.

Yeni istehsal güclərinə investisiya qoyuluşlarından əlavə, təbii qazla işləyən müəyyən istilik və su elektrik stansiyalarına investisiya qoyuluşları nəticəsində özəl

sektorun mövcud elektrik enerjisi istehsalında iştirakı genişləndiriləcəkdir. Azərbaycan Respublikasında ölçü, yer, istismar müddəti və səmərəlilikdən asılı olaraq, istehsal aktivlərindən bəziləri strateji aktivlər kimi saxlanacaqdır (məsələn, böyük istehsal həcminə görə 2400 MVt gücə malik olan "Azərbaycan" İstilik Elektrik Stansiyası). Bu strateji aktivlərdən əlavə, optimal mənfəət-zərər strukturuna malik təbii qazla işləyən istilik və su elektrik stansiyalarının özəlləşdirilməsinə diqqət yetirilərək ümumi istehsal portfelinin səmərəliliyinin yüksəldilməsi nəzərdə tutulur.

Elektrik enerjisi sektoruna qoyulan birbaşa xarici investisiyalar və özəl sektorun iştirakı 2025-ci ildən sonrakı dövr üçün qarşıya məqsəd kimi qoyulan bərpaolunan enerji ekosisteminin (əsasən, külək və günəş fotoelementlərindən ibarət) yaradılmasında mühüm rol oynayacaqdır. Azərbaycan Respublikasında artıq tənzimləmə sahəsində tələb olunan dəyişikliklərin edilməsi və ortamüddətli perspektivdə vəsaitlərin ayrılması yolu ilə cəlbedici investisiya mühitinin yaradılması istiqamətində müəyyən tədbirlər həyata keçirilməkdədir. Bununla da, ölkədə yanacaq növlü enerji mənbələrindən daha az asılı olan bərpaolunan elektrik enerjisi istehsalı gücünün artırılması istiqamətində müəyyən təşəbbüslərin göstərilməsi planlaşdırılır.

Azərbaycan Respublikasında son istehlakçılar özünü təminetmə məqsədilə mikroelektrik enerjisi istehsalına bu dövrdə başlayacaqdır. Tikililərin damında, xüsusən də kənd yerlərində quraşdırılan fotoelektrik enerji qurğularından alınan elektrik enerjisi müstəqil mikroelektrik istehsalı qurğularında istehsal edilən elektrik enerjisi ilə müqayisədə ucuz başa gəldiyinə görə daha geniş tətbiq olunacaqdır. Bu, əsasən, sellüloz məmulatların istehsalı və ya dağ-mədən sənayesi kimi xüsusi istehsal sahələrində fərqli enerji növlərindən (elektrik və buxar enerjisi) istifadə edən sənaye sahələri üçün daha səmərəli olacaqdır.

Modernləşdirmə layihəsindən sonra təbii qazın paylanması sahəsində Bakı şəhəri üzrə mövcud kommersiya və texniki itkilərin səviyyəsi azalacaqdır. Əhalinin təbii qaz təchizatının səviyyəsi mütəmadi olaraq yüksəldiyinə görə Azərbaycan Respublikasında həmin dövrə kimi sayğaclardan istifadə səviyyəsinin artırılması planlaşdırılır.

Azərbaycan Respublikasında içməli və tullantı suları, istilik və qazpaylama sistemləri üçün infrastrukturun yaxşılaşdırılması sahəsinə investisiya qoyuluşlarının 2025-ci ilədək davam etdirilməsi planlaşdırılır. Həmçinin yeni yaranan ev təsərrüfatları və kommersiya təşkilatları da daxil olmaqla, bütün son istehlakçıların sayğaclardan istifadəsinin (xüsusilə qeyri-əhali qrupu üzrə sayğacın sifarişçi hesabına quraşdırıldığını nəzərə alaraq, mümkün qədər qısa müddətdə tam başa çatdırılmasının) təmin olunması və səmərəliliyin yüksəldilməsi üçün köhnə infrastrukturun təkmilləşdirilməsi istiqamətində tədbirlər görüləcəkdir. Bütün bu səylər 2025-ci ildən sonrakı dövr üçün nəzərdə tutulan sektorlar üzrə fəaliyyət səmərəliliyi məqsədlərinə xidmət edir.

4.3. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış elektrik enerjisi, su və kanalizasiya, istilik və təbii qaz təchizatı sektorlarında fəaliyyət səmərəliliyinin və xidmət səviyyəsinin tam yüksəldilməsinə nail olmaqdır.

Hədəf baxışın şərhi

Azərbaycan Respublikasında elektrik enerjisi sektorunda istehsaldan son istehlaka qədər tam dəyər zənciri boyu səmərəsiz fəaliyyətlər müəyyənləşdirilməklə, onların aradan qaldırılmasına səy göstəriləcəkdir. Bu məqsədlərə nail olmaq üçün ölkədə elektrik enerjisinin istehsalı, verilişi, paylanması və pərakəndə satışı

xidmətlərinin 2025-ci ildən sonrakı dövrdə idarəçilik nöqteyi-nəzərindən bir-birindən ayrılmasını nəzərdə tutan tam müstəqil mühitin yaradılması ilə bağlı tədbirlər görüləcəkdir. Bu istiqamətlərin hər birinin optimallaşdırılması üçün göstəriləcək səylər ölkədə dəyər zəncirindən maksimum faydalanmaq imkanı yaradacaqdır. Bu səylər sektora daha çox birbaşa xarici investisiyaların cəlb edilməsi və sektoru təşkil edən dörd komponentin hər birində *"nou-hau"*ların tətbiqi məqsədləri ilə üst-üstə düşür.

2025-ci ildən sonrakı dövrdə Azərbaycan Respublikasında elektrik enerjisi sektorunun cəlbediciliyinin artırılması, dəyər zənciri boyu səmərəliliyin, ekoloji dayanıqlılığın, rasional rəqabətin və səmərəli tariflərin təmin olunması üçün tədbirlər görüləcəkdir. Görüləcək tədbirlər hesabına ev təsərrüfatlarının, kommersiya və sənaye istehlakçılarının elektrik enerjisinə keyfiyyətli və fasiləsiz çıxışı təmin ediləcəkdir.

Ölkədə elektrik enerjisi ehtiyatlarını artırmaq üçün təbii qaz, su və bərpaolunan enerji mənbələrindən (məsələn, günəş və külək) enerji istehsalına investisiya qoyuluşları ediləcəkdir. Təbii qazla işləyən elektrik stansiyalarının istehsal portfelində əsas paya malik olmasına baxmayaraq, onların ümumi portfeldəki payı 2025-ci ildən sonrakı dövrdə azalacaqdır. Bu nöqteyi-nəzərdən orta və uzunmüddətli perspektivdə bərpaolunan enerji növləri üzrə daha dayanıqlı enerji istehsalı strategiyası hədəflənəcəkdir. Azərbaycan Respublikasında istehsal gücünün bir hissəsinin 2025-ci ildən sonrakı dövrdə bərpaolunan enerji mənbələri hesabına təchiz edilməsi planlaşdırılır və bu stansiyaların tikintisini intensivləşdirmək məqsədi güdülür. Bu məqsədə nail olmaq üçün külək və günəş enerjisinə investisiya qoyuluşlarından əlavə, geotermal və biokütlə kimi digər bərpaolunan enerji mənbələrindəki potensial imkanlar da dəyərləndiriləcəkdir. Sektorun liberallaşdırılması bu məqsədə nail olmaqda vacib mexanizm rolunu oynayacaqdır. Belə ki, "Tik-idarə et-təhvil ver" modeli, stimullaşdırıcı tarif və hərraclar kimi mexanizmlər vasitəsilə bərpaolunan enerji mənbələrindən istifadə elektrik stansiyalarının işində özəl sektorun iştirakını birbaşa stimullaşdıracaqdır.

Azərbaycan Respublikasında sənaye sahələri və əhalinin müəyyən təbəqələri üçün kiçik istehsal gücünə malik elektrik panellərinin tətbiqinin (binaların damında quraşdırılan günəş enerjisi panelləri ilə yanaşı, təbii qazla işləyən istilik və elektrik enerjisi stansiyalarının və kiçikölçülü külək turbinlərinin tətbiqi) genişləndirilməsi planlaşdırılır. Xüsusən də, Bakıdan kənarda, elektrik enerjisi infrastrukturunun daha da təkmilləşdirilməsi potensialının olduğu regionlarda damda quraşdırılan günəş enerjisi panellərinin tətbiqi ilə bağlı vəziyyəti yaxşılaşdırmaq imkanları mövcuddur. Günəş enerjisi panellərinin quraşdırılmasının asanlığını və tətbiqi üzrə quraşdırma xərclərinin aşağı olmasını nəzərə alaraq, onların geniş istifadəsi nəzərdə tutulur. Eyni zamanda, təbii qazla işləyən sənaye müəssisələrində istehsalın ümumi səmərəliliyinin yüksəldilməsi üçün elektrik enerjisindən istifadə ediləcəkdir.

2025-ci ildən sonrakı dövrdə Azərbaycan Respublikasının milli portfelində elektrik enerjisi istehsalının səmərəliliyinin ən yüksək səviyyəyə çatdırılması hədəflənir. Bu məqsəd iki komponentdən ibarətdir:

- mövcud olan bütün təbii qaz və su əsaslı elektrik enerjisi istehsalı qurğularının tam modernləşdirilməsi;
- ən yüksək səmərəlilik göstəricilərinə malik yeni istehsal qurğularının (təbii qaz, su, külək və günəş enerjisinin istifadəsi ilə elektrik enerjisi istehsal edən qurğuların) tətbiqi.

Azərbaycan Respublikasında elektrik verilişi və paylanması prosesinin uzunmüddətli perspektivi ilə bağlı iki mühüm məqsəd qarşıya qoyulmuşdur:

1. 2025-ci ildən sonrakı dövr üçün elektrik verilişi və paylanmasında mövcud olan kommersiya və texniki itkiləri Avropa ölkələrinin müqayisəli göstəriciləri səviyyəsinə çatdırmaq;

2. qabaqcıl ölkələrin təcrübələrindən istifadə edərək, elektrik enerjisi sektorunda mövcud çatışmazlıqları aradan qaldırmaq.

Bu məqsədlərə nail olmaq üçün infrastruktur tamamilə modernləşdiriləcək, köhnə və nasaz avadanlıq və qurğular ən müasir avadanlıq və qurğularla əvəz ediləcəkdir (məsələn, ümumi şəbəkədə yüksəkgərginlikli yeraltı kabellərin payının artırılması). Daha sonra elektrik enerjisinin verilişi və paylanması xətlərinin uzaqməsafəli izlənilməsi və nəzarəti üçün rabitə kanalları vasitəsilə şifrələnmiş siqnallarla işləyən nəzarət və məlumatalma sistemi (SCADA sistemi) tam tətbiq ediləcəkdir. SCADA sistemi mümkün müdaxilə və ya itkiləri tam müşahidə etməyə imkan yaradaraq, şəbəkənin ümumi keyfiyyət və səmərəliliyini yaxşılaşdıracaqdır.

Eyni zamanda, elektrik enerjisi sektorunun pərakəndə satış komponenti ilə bağlı iki mühüm məqsəd prioritetləşdirilir:

- *sənaye və kommersiya sahəsində Avropanın enerji səmərəliliyi səviyyələrinə çatmaq* - hər iki sahədə dövlət müxtəlif enerji səmərəlilik metodologiyalarını stimullaşdıracaqdır (məsələn, enerjidən səmərəli istifadə edən binaların və məhsulların təbliği);

- *elektrik mühərriki ilə işləyən avtomobillərin istifadəsi üçün tələb olunan infrastrukturu qurmaq* - 2020-ci ildən etibarən respublikada elektrik mühərriki ilə işləyən avtomobillərdən istifadə edilməsi gözlənilir. Azərbaycan Respublikasında bunun üçün tam formalaşmış elektrik enerjisi infrastrukturunun yaradılması ilkin şərt kimi nəzərdən keçirilir.

Qaz təchizatında isə Bakı şəhərində itkilərin azaldılaraq Avropanın qazpaylamadakı müqayisəli itki səviyyələrinə çatdırılması nəzərdə tutulur. Qazın paylanması zamanı baş verən itkilərdən əlavə, mövcud qazpaylama sistemində həmin dövrdə bütün istifadəçilərin sayğaclardan istifadə etməsi ilə səmərəli fəaliyyət tam təmin ediləcəkdir. Bu, daha ətraflı məlumat əsasında şəbəkəyə effektiv nəzarət etmək, habelə yığım səviyyələrinin artımına nail olmaq imkanı qazandıracaqdır.

İçməli və tullantı suları sahəsində infrastrukturun və keyfiyyətli xidmətlərin əhatə dairəsinin ölkə miqyasında genişləndirilməsinə nail olmaq məqsədi müəyyən edilmişdir. Su sərfiyyatının səmərəli izlənilməsi və qiymətinin hesablanması üçün şəbəkəyə qoşulmuş bütün ev təsərrüfatlarında və kommersiya təşkilatlarında rəqəmsal sayğaclardan istifadəyə keçid təmin ediləcəkdir.

5. HƏDƏF İNDİKATORLARI

Kommunal xidmətlər sektoru üzrə nəzərdə tutulmuş prioritetlərin icrası nəticəsində:

- 2020-ci ildə real ÜDM 832 milyon manat artacaq;
- kommunal xidmətlər sektorunda bütün dəyər zəncirində 6645 yeni iş yeri yaradılacaqdır.

Bu, 2020-ci ildən sonrakı dövrdə Azərbaycan Respublikasında iqtisadi dayaqların və kommunal xidmət sektorunun gücləndirilməsinə imkan verəcəkdir.

Elektrik enerjisi istehsalı və təchizatı üzrə:

- ümumilikdə, istehsal gücünün 1000 MVt artırılması ilə yanaşı, külək enerjisi üzrə 350 MVt, günəş enerjisi üzrə 50 MVt və bioenerji üzrə 20 MVt olmaqla, şaxələndirilməsi (artıq planlaşdırılmış 900 MVt-dan əlavə);
- kombinə edilmiş dövriyyəyə malik seçilmiş qaz turbin stansiyaları üçün xalis yanacaq səmərəliliyi səviyyəsinin 50 faizədək artırılması;
- elektrik enerjisinin itki səviyyəsinin Bakıda 8,5 faizdən 7 faizədək, regionlarda isə 12 faizdən 8 faizədək azaldılması;
- Gürcüstanın elektrik enerjisi idxalının 50 faizinin, Türkiyənin isə 20 faizinin təmin edilməsi;
- səmərəliliyin artırılması hesabına qənaət edilmiş təbii qaz miqdarının (təbii qaz qurğularından) TAP/TANAP layihələri vasitəsilə Avropaya ixracı.

Təbii qaz təchizatı üzrə:

- bütün bölgələr üzrə təbii qazın paylanması zamanı baş verən texniki itkilərin 8 faizədək azaldılması (əgər hər hansı bölgə üzrə itki səviyyəsi 8 faizdən aşağı olarsa, bunun eyni səviyyədə qalacağı ehtimal edilir);
- səmərəliliyin artırılması hesabına qənaət edilmiş təbii qaz miqdarının (təbii qaz qurğularından) TAP/TANAP layihələri vasitəsilə Avropaya ixracı.

Su və kanalizasiya xidmətləri üzrə:

- kommersiya itkilərinin nisbətinin 20 faizdən ən azı 14 faizədək azaldılması ("Azərsu" ASC-nin 670 milyon m^3 illik su təchizatından);
- paylanmada olan itkilərin 31 faizdən 25 faizədək azaldılması;
- sayğacı olmayan qeydiyyatlı istifadəçilərin payının 26 faizdən 5 faizədək azaldılması (ev təsərrüfatlarının cəmi sayı 2 milyon 20 min);
- tullantı sularının toplanması səviyyəsinin 46 faizdən 65 faizədək artırılması ("Azərsu" ASC tərəfindən əhali üçün 314 milyon m^3 su təchizatından).

İstilik təchizatı üzrə:

- 2015-ci illə müqayisədə səmərəlilik nəzərə alınmaqla, istilik enerjisi istehsalının həcminin 427 min Qkal[10] artırılaraq 1767 min Qkal səviyyəsinə çatdırılması;
- istilik təchizatının əhatə dairəsinin genişləndirilməsi ilə 2017-2020-ci illərdə istiliklə təmin edilən yaşayış binalarının sayının 50,4 faiz artırılaraq, 5689-a çatdırılması;
- istilik təsərrüfatlarının gəlirlərinin, ümumilikdə, 5,1 milyon manat artması;
- 550-yə yaxın yaşayış binasında texniki cəhətdən nasaz olan istilik təchizatı sisteminin əsaslı şəkildə təmir edilməsi ilə istilik təchizatının yaxşılaşdırılması.

[10] Mənbə: "Azəristiliktəchizat" ASC

6. STRATEJİ MƏQSƏDLƏR

Strateji hədəf kimi qəbul edilmiş tənzimləyici orqanın yaradılması və kommunal xidmətlər sektorunun istiqamətləri üzrə səmərəliliyin təmin olunmasına nail olmaq üçün qısamüddətli (2016-2020-ci illər) və ortamüddətli (2020-2025-ci illər) perspektivdə qanunvericiliyin və normativ-hüquqi sənədlərin təkmilləşdirilməsi, bu sahələr üzrə xidmət göstərən müəssisələrin fəaliyyət səmərəliliyinin yüksəldilməsi, beynəlxalq standartları və yerli şəraiti nəzərə alaraq yeni standartların işlənib hazırlanması, investorların cəlb edilməsi üçün investisiya mühitinin yaxşılaşdırılması strateji məqsədlər kimi müəyyənləşdirilmişdir.

7. STRATEJİ HƏDƏFLƏR

7.1. Strateji hədəf 1. Kommunal xidmətlər sektorunun tənzimlənməsində dayanıqlılığın və effektivliyin təmin edilməsi

7.1.1. Prioritet 1.1. Müstəqil tənzimləyici orqanın və məqsədli fondun yaradılması, effektiv xidmət və yığım mexanizmlərinin, kadr təminatının formalaşdırılması

Əsaslandırma

Müstəqil tənzimləyici orqanın yaradılması bir sıra ölkələrdə kommunal xidmətlər sektorunun liberallaşdırılması və investorların cəlb edilməsi, habelə sahə üzrə çevik qərarların qəbul olunması istiqamətində atılan mühüm addımlardan biri hesab olunur. Həmçinin dövlət büdcəsinin yükünün azaldılmasına və sektor üzrə tələb olunan investisiya qoyuluşlarının vaxtlı-vaxtında icrasına nail olmaq üçün məqsədli fondun yaradılması kommunal xidmətlər sektorunun inkişafına müsbət təsir göstərə bilər.

Kommunal xidmətlərin daha keyfiyyətli, rahat və innovasiyaların tətbiqi ilə həyata keçirilməsi istehlakçı məmnunluğunun təmin olunmasına və xidmət haqlarının yığılmasında istehlakçı məsuliyyətinin artmasına səbəb olacaqdır. Habelə, xidmət haqlarının yığılması və istehlakçı məsuliyyətinin artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi bu sektorlar üzrə müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinə müsbət təsir edəcəkdir.

Bunlarla yanaşı, sahə üzrə ixtisaslı kadr potensialının formalaşdırılması və onların bilik və bacarıqlarından istifadə olunması bu sektorda fəaliyyət səmərəliliyinin və xidmət keyfiyyətinin yüksəldilməsinə imkan verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 1.1.1. Kommunal xidmətlər sektorunda vahid tənzimləyici orqanın yaradılmasının nəzərdən keçirilməsi

Kommunal xidmətlər sektorunda fəaliyyət səmərəliliyinin yüksəldilməsinə imkan verən mexanizmlərin işə salınması istiqamətində sistemli yanaşmaya, o cümlədən sahəyə investorların cəlb edilməsi üçün effektiv mexanizmlərdən istifadəyə təkan verən tənzimləyici orqanın yaradılması məsələsi nəzərdən keçiriləcəkdir. Bu zaman aşağıdakı 3 mühüm amil nəzərə alınacaqdır:

- müstəqil tənzimləyici orqanın təşkilati-hüquqi forması və fəaliyyət istiqamətləri;
- aidiyyəti orqanlara münasibətdə vəzifə və səlahiyyətlərin dəqiq müəyyən edilməsi;
- kadr təminatının formalaşdırılması.

Sektor üzrə istehsalçı, təchizatçı və istehlakçılar arasında münasibətlərin tənzimlənməsi, müvafiq sahələrin fəaliyyətinin təhlili və sektor üzrə səmərəliliyin təmin olunması, texniki tələblərə əməl edilməsi, restrukturizasiya tədbirlərinin həyata keçirilməsi, investisiyaların cəlb edilməsi üçün satınalma müqavilələri əsasında stimullaşdırıcı mexanizmlərin hazırlanması istiqamətində bir sıra strateji vəzifələrin həmin orqana həvalə olunması nəzərdən keçiriləcəkdir.

Həmçinin kommunal xidmətlər sektorunda, xüsusilə elektrik enerjisinin verilişi ilə istehsalının bir-birindən ayrılması, satış üçün topdansatış bazarlarının yaradılması, alternativ və bərpaolunan enerji mənbələri üzrə təqdim olunmuş layihələr əsasında tariflərin müəyyənləşdirilməsi, mövcud tariflərin (külək və kiçik su elektrik

stansiyalarında istehsal edilən elektrik enerjisi tariflərinin) təkmilləşdirilməsi, digər mənbələr üzrə tariflərin formalaşdırılması, seçmə qaydada özəlləşdirmə üçün istehsal aktivlərinin prioritetləşdirilməsi (bəzi istehsal aktivlərinin səmərəliliyini yüksəltmək üçün özəl müəssisələrə diqqət yetirilməsi), paylama ilə pərakəndə satışın bir-birindən ayrılması və pərakəndə satış sektorunun liberallaşdırılması məsələləri nəzərdən keçiriləcək və müvafiq islahatlar aparılacaqdır.

Bu sahədə uzunmüddətli qiymət zəmanətlərinin və rəqabətli tender təkliflərinin müəyyənləşdirilməsi müqavilələrin bağlanmasına, investorların cəlb edilməsinə və uzunmüddətli dövrdə tələbatın ödənilməsinə imkan verə bilər.

Tədbir 1.1.2. Kommunal xidmətlər sektorunda məqsədli fondun yaradılmasının nəzərdən keçirilməsi

Kommunal xidmətlər üzrə infrastrukturun təkmilləşdirilməsi və xidmət səviyyəsinin davamlı şəkildə yüksəldilməsi məqsədilə bu xidmətlər üzrə tariflərdə, əlavə olaraq, müəyyən həcmdə vəsaitin nəzərdə tutulması və həmin vəsaitin məqsədli fondda toplanması məsələsi nəzərdən keçiriləcəkdir.

Tədbir 1.1.3. Kommunal xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi

Əhaliyə kommunal sahədə xidmətlərin göstərilməsində idarəetmənin optimallaşdırılması və şəffaflığın artırılması, "ASAN xidmət" təcrübəsinin digər xidmət sahələrində tətbiq edilməsi məqsədilə yaradılmış "ASAN kommunal" mərkəzlərinin fəaliyyəti genişləndiriləcəkdir.

Tədbir 1.1.4. Kommunal xidmət haqları üzrə yığımın təkmilləşdirilməsi

Kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz, su və kanalizasiya), xüsusilə öncədən ödəniş olunmayan və fərdi qaydada xidmətin dayandırılması mümkün olmayan xidmət növləri (mərkəzi istilik, yaşayış sahəsinin saxlanılması haqqı, məişət tullantılarının yığılması) üzrə yığım alətlərinin müəyyənləşdirilməsi nəzərdən keçiriləcəkdir. Habelə, yığımların toplanmasında Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyənləşdirilmiş idarəetmə formalarına uyğun olaraq idarəedicilərin (mənzil mülkiyyətçiləri müştərək cəmiyyətlərinin və s.) fəaliyyətindən istifadənin genişləndirilməsi imkanları təhlil edilərək müvafiq təkliflər irəli sürüləcəkdir.

Tədbir 1.1.5. Kommunal xidmətlər sektorunda kadr potensialının təkmilləşdirilməsi

Kadr potensialının gücləndirilməsi ilə əlaqədar təhsil müəssisələrində və elmi-tədqiqat mərkəzlərində müvafiq ixtisasların və ixtisasartırma kurslarının yaradılması, habelə dərslik və metodik vasitələrin hazırlanması istiqamətində zəruri tədbirlərin görülməsi nəzərdən keçiriləcəkdir.

Tədbir 1.1.6. Kommunal xidmətlər sektorunda təkmil normativ-hüquqi bazanın yaradılması

Beynəlxalq təcrübə və milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla, kommunal xidmətlər sektorunda səmərəli və effektiv fəaliyyətin hüquqi əsaslarını, təchizatçı və istehlakçıların hüquq və vəzifələrini dəqiq müəyyən edən, sahənin operativ və davamlı idarə edilməsinə imkan yaradan mexanizmləri nəzərdə tutan və sahəyə sistemli yanaşmanı təmin edən vahid normativ-hüquqi sənədin (məsələn, kommunal xidmətlər sektorunun tənzimlənməsi haqqında qanun və s.) hazırlanması nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Tənzimləyici orqanın və məqsədli fondun yaradılması, yığım səviyyəsinin yüksəldilməsi və kadr potensialının artırılması kommunal xidmətlər sektorunun inkişafı, dövlət büdcəsinin yükünün azaldılması və sektor üzrə liberallaşdırmanın həyata keçirilməsi üçün mühüm amillərdir. Bu prioritet üzrə həyata keçirilən tədbirlər nəticəsində ÜDM-ə və məşğulluğa birbaşa təsir gözlənilmir.

Tələb edilən investisiya

Bu prioriteti həyata keçirmək üçün əlavə investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

Bu prioritetin həyata keçirilməsi ilə bağlı hər hansı risk gözlənilmir.

ELEKTRİK ENERJİSİ

Azərbaycan Respublikasının elektrik enerjisi ixracı imkanları genişdir və ötən 15 ildə ölkənin istehsal həcmi tədricən artmışdır. Ölkədə elektrik enerjisinin təxminən 94 faizi[11] təbii qazla işləyən, qalan hissəsi isə su və digər elektrik stansiyalarında istehsal edilir. Elektrik enerjisi istehsalı ilə məşğul olan əsas şirkətlər "Azərenerji" ASC və Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin müvafiq qurumlarıdır.

7.2. Strateji hədəf 2. Tam şaxələndirilmiş və ekoloji baxımdan təmiz elektrik enerjisi istehsalının təmin edilməsi

Azərbaycan Respublikasında uzun illərdən bəri kifayət qədər elektrik enerjisi istehsalı üçün potensialın olması istehsal və xidmət sahələrini, eləcə də əhalini etibarlı və sərfəli qiymətə elektrik enerjisi ilə təchiz etməyə imkan yaratmışdır. Artan tələbat və mövcud stansiyaların planlı şəkildə istismardan çıxarılması nəzərə alınaraq, təbii qazdan başqa digər enerji (su, külək, günəş, bioenerji və s.) mənbələrinin mövcudluğu elektrik enerjisi təchizatının daha da şaxələndirilməsinə və təchizatın fasiləsizliyinin təmin edilməsinə imkan verir. Aşağıdakı prioritetlər ölkənin elektrik enerjisi sektoru üçün növbəti illər ərzində hərtərəfli, strateji və dayanıqlı yanaşmanı əks etdirir.

7.2.1. Prioritet 2.1. Milli istehsal portfelinin ehtiyat həcminin artırılması

Əsaslandırma


2015-ci ildə elektrik stansiyalarının istehsal gücü təxminən 6748 MVt, ehtiyat gücü isə təxminən 34 faiz olmuşdur[12] (diaqram 2). Növbəti 5-10 il ərzində kifayət qədər elektrik enerjisi təchizatını həyata keçirmək üçün planlaşdırılan investisiyalarla yanaşı, istehsal həcmini 1000 MVt artırmaq məqsədilə investisiya qoyuluşları ediləcəkdir. Bu investisiyalar hesabına mövcud istehsal gücünün 2015-2020-ci illər arasında 19 faiz artması gözlənilir ki, bu da təhlükəsiz ehtiyat gücünü təmin edəcək səviyyədir[13] (istehlakda davamlı sabit artımın olacağı təqdirdə).

[11] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

[12] Mənbə: "Azərenerji" ASC

[13] Mənbə: "Azərenerji" ASC


Diaqram 2. 1000 MVt istehsal gücünün yaradılması üçün yeni investisiyanın cəlb edilməsi



Mənbə: “Azərenerji” ASC

Son illərdə ölkənin iqtisadi inkişaf səviyyəsi və elektrik enerjisinin istehlak həcmi elektrik enerjisi istehsalı həcmindəki artımı geridə qoymuşdur. 2010-2014-cü illər ərzində ölkənin ÜDM-i illik 9,2 faiz artımla 75,2 milyard ABŞ dolları (diaqram 3) təşkil etmişdir. Bu müddət ərzində elektrik enerjisi istehlakı ildə 7,8 faiz artsa da, istehsalın ilkin layihə həcmində artım 2,8 faizlə aşağı tempdə olmuşdur. Digər inkişaf etməkdə olan ölkələrdə isə elektrik enerjisinin istehlakındakı artım səviyyəsi, əsas etibarilə, ÜDM-in artımını daha çox üstələyərək, istehsal həcmindəki artıma uyğun gəlir.

Diaqram 3. Elektrik enerjisi istehlakının ÜDM-ə paralel olaraq artımı




1. *Cari qiymətlərin ABŞ dolları ilə ifadəsində*
Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərenerji" ASC, Dünya Bankı

Hazırda Azərbaycan Respublikasında ölkə üzrə elektrik enerjisinin ümumi istehsal həcminin ehtiyat gücü digər ölkələrlə müqayisədə kifayət qədər çoxdur. Mövcud həcm ildə 1 faiz[14] olmaqla artmışdır və bu artım tempinin 2020-ci ilədək, yəni ölkədə elektrik enerjisinin istehsal gücü, ümumilikdə, 5122 MVt-a[15] çatana qədər davam edəcəyi gözlənilir (diaqram 4). Bununla belə, 2009-cu ildən bəri pik vaxtlarda yüklənmə səviyyəsinin yüksək templə artması hesabına növbəti illərdə elektrik enerjisinin istehlakının da böyük həcmdə artacağı gözlənilir. Bunun nəticəsi olaraq, 2009-cu ildə 46 faiz olan ehtiyat gücü həcminin 2015-ci ildə 34 faizədək azaldığını nəzərə alsaq, ehtiyat gücün 2020-ci ilədək 14 faiz səviyyəsinə qədər azalması proqnozlaşdırılır. Bu da beynəlxalq miqyasda qəbul edilmiş 25 faizlik təhlükəsizlik səviyyəsindən aşağıdır.

[14] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

[15] Mənbə: "Azərenerji" ASC

Diaqram 4. Azərbaycan Respublikasında potensial ehtiyat həcminin 2020-ci ilə qədər təhlükəsizlik səviyyəsindən aşağı düşməsi ehtimalı




1. *Səciyyəvi yük faktorları ilə artan ilkin güc kimi müəyyən edilmiş mövcud potensial*

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi , "Azərenerji" ASC

İstehsal həcmi və pik vaxtlarda elektrik enerjisindən istifadə göstəriciləri investisiya qıtlığına görə eyni səviyyədə qərarlaşmışdır. 2014-cü ildə 2011-ci illə müqayisədə elektrik enerjisi istehsalında (elektrik enerjisinin istehsalı, verilişi və paylanması) illik dövlət investisiyalarının həcmi 42 faiz azalmışdır (diaqram 5). Elektrik enerjisi istehsalının ciddi kapital qoyuluşu tələb etməsinə baxmayaraq, enerji istehsalına investisiya qoyuluşlarının həcmi bu müddət ərzində azalaraq ümumi investisiyaların 5,6 faizini təşkil etmişdir. İnvestisiya qoyuluşu, xüsusən də, son iki il ərzində azalmışdır.

Diaqram 5. Elektrik enerjisi sektoru üzrə dövlət kapital qoyuluşunun həcmi




1. *Hər il üzrə manatın ABŞ dollarına nisbətdə orta mübadilə məzənnəsi nəzərə alınmaqla*

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərenerji" ASC, Polşa və Almaniyanın energetika agentlikləri

Respublikada istehsal gücünün həcmi 2014-cü ildə 7348 MVt olmuş, 2015-ci ildə "Şirvan" elektrik stansiyasının qismən bağlanması nəticəsində bu göstərici 600 MVt azalmışdır (diaqram 6).

Diaqram 6. Yeni investisiya qoyuluşu planları




1. *"Azərenerji" ASC-nin cari artım planı*
2. *Yalnız 2 blok ehtiyatda saxlanılır (hər biri 150MVt gücündə)*

Mənbə: "Azərenerji" ASC

Mövcud stansiyaların və infrastrukturun köhnəlməsi yenidənqurmaya və yeni stansiyaların tikintisinə ehtiyacı artırır. Təbii qazla işləyən stansiyanın orta istismar müddəti 25 il olsa da, 2014-cü il ərzində Azərbaycan Respublikasının elektrik enerjisi üzrə istehsal həcminin 56 faizi 30 ildən artıq müddətdə istismar olunan stansiyalarda əldə edilmişdir (diaqram 7). İstehsal gücünün 14 faizi isə istismar müddəti 10-30 il olan stansiyalarda istehsal edilmişdir. Bu isə həmin qurğulardan bəziləri üçün növbəti illərdə investisiya qoyuluşunu zəruri edir. Yenidənqurma və modernləşdirmə işləri bu stansiyaların istismar müddətini uzada bilər. Belə ki, 2400 MVt gücündə olan və ya öz istehsal gücünün təqribən üçdəbirindən istifadə edən "Azərbaycan" İstilik Elektrik Stansiyası son vaxtlar modernləşdirilmişdir. Buna baxmayaraq, növbəti beş il ərzində əlavə modernləşdirmə işlərinin aparılmasına tələbatın yaranacağı ehtimal edilir.

Diaqram 7. Stansiyaların və infrastrukturun köhnəlməsi



Mənbə: "Azərenerji" ASC

Görüləcək tədbirlər

Tədbir 2.1.1. Elektrik enerjisinə olan ölkədaxili ehtiyacın proqnozlaşdırılması

"Azərenerji" ASC və Azərbaycan Respublikasının Energetika Nazirliyi aidiyyəti orqanlarla əməkdaşlıq etməklə, 2020-ci il və ondan sonrakı dövr üçün elektrik enerjisinə olan ehtiyacı dəqiq müəyyənləşdirmək məqsədilə ölkə daxilində elektrik enerjisinin istehlak həcmi üzrə ətraflı araşdırma aparacaqdır.

Tədbir 2.1.2. Enerji mənbələri üzrə prioritetlərin müəyyən edilməsi üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması

"Azərenerji" ASC və Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi aşağıda

göstərilən məqsədlər üçün araşdırmalar aparacaq və texniki-iqtisadi əsaslandırmalar hazırlayacaqlar:

- prioritetin 2-ci mərhələsi üzrə həyata keçiriləcək tədbirlər çərçivəsində müxtəlif enerji mənbələri, o cümlədən bərpa olunan enerji və təbii qaz üzrə prioritetlərin müəyyən edilməsi;
- mövcud təbii resurslar, elektrik enerjisindən proqnozlaşdırılmış istifadə imkanları və gələcəkdə elektrik enerjisinin ixracı məqsədləri nəzərə alınaraq, tikilməli olan elektrik stansiyalarının sayının, istehsal gücünün və növlərinin, eləcə də tələb olunan investisiya həcminin müəyyən edilməsi;
- elektrik enerjisinə ən çox tələbatın olduğu mənbələrə yüksək səviyyədə xidmət edəcək və mövcud elektrik enerjisi infrastrukturuna daha çox uyğun gələn (bərpaolunan enerji mənbələrinin potensial xəritəsi nəzərə alınmaqla) ərazilərin müəyyən edilməsi.

Tədbir 2.1.3. İnvestisiya qoyuluşları üzrə maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi

Aidiyyəti tərəflər investisiya qoyuluşları üzrə maliyyələşdirmə formasına dair qərar verəcəklər. Buraya, əsasən, elektrik stansiyalarının dövlət təşkilatları və ya özəl investorlar tərəfindən tikilməsinin və istismar edilməsinin məqsədəuyğunluğuna dair qərarların verilməsi, habelə bu işlərin dövlət təşkilatları tərəfindən həyata keçiriləcəyi təqdirdə, dövlət büdcəsində maliyyə vəsaitlərinin həcmini müəyyənləşdirmək üçün aidiyyəti tənzimləmə orqanları ilə müzakirələrin aparılması daxildir. Yeni elektrik stansiyalarının dövlət tərəfindən tikilməsinə və istismarına dair qərar verildikdə, bu layihələrə investisiya qoyuluşu üçün təchizatçının seçim meyarları nəzərə alınmaqla, tenderlər elan ediləcəkdir. Əgər özəl investisiyaların lehinə qərar verilərsə, aidiyyəti orqanlar digər tənzimləmə orqanları ilə məsləhətləşmələr apardıqdan sonra ölkənin strateji təhlükəsizlik məsələsini nəzərə alaraq, hansı sahənin özəl investorlara açıq olmasını müəyyən etmək məqsədilə ətraflı təhlillər aparacaqlar. Özəl investorları Azərbaycan Respublikasında elektrik enerjisi sektoruna investisiya qoymağa təşviq etməyə zərurət yaranarsa, mövcud qanunvericiliyə və normativ-hüquqi aktlara dəyişikliklər edilməsi nəzərdən keçiriləcəkdir (məsələn, “Tik-idarə et-təhvil ver” modeli, stimullaşdırıcı tariflər, hərraclar və s.). Nəhayət, elektrik stansiyalarının tikintisinə görə məsul olan investor və ya təchizatçı barədə qərar veriləcək və onun adı açıqlanacaqdır.

Tədbir 2.1.4. Əlavə istehsal güclərinin yaradılması

Mütəxəssislərin hesablamalarına əsasən, növbəti 5-10 il ərzində təhlükəsiz enerji təchizatını təmin etmək məqsədilə əlavə 1000 MVt istehsal gücünün yaradılması üçün investisiya qoyulmasına zərurət yaranacaqdır. Tələb-təklif arasında tarazlıq yaradılması məqsədilə Azərbaycan Respublikasında müxtəlif bazar alətləri vasitəsilə istehlakı azaldacaq taktikalardan istifadə ediləcəkdir. İstehsala qoyulan investisiyanın növü prioritetlərdən asılı olacaqdır. Yeni stansiyaların tikintisi dövlət şirkəti tərəfindən həyata keçirildiyi halda, elektrik stansiyalarının tikintisinə başlanıldıqdan sonra tikinti prosesinə nəzarət etmək üçün əsas icra göstəriciləri müəyyən ediləcək və tikintinin gedişatı davamlı şəkildə izləniləcəkdir.

<u>Gözlənilən nəticə və nəticə indikatorları</u>

Bu prioritetin həyata keçirilməsi nəticəsində istehsal gücü artırılaraq, 2020-ci ildə real ÜDM-in 130 milyon manat birbaşa və 85 milyon manat dolayı olmaqla, ümumilikdə, 215 milyon manat artacağı, 5085 yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- istehsal gücünün 1000 MVt artırılması üçün əlavə investisiya qoyuluşunun həyata keçirilməsi (hazırda planlaşdırılan 900 MVt-dan əlavə olaraq[16]);
- investisiya qoyuluşlarının yaradılacaq yeni istehsal gücləri üzrə şaxələndirilməsi (məsələn, təbii qaz, külək, su və günəş enerjisi).

Tələb edilən investisiya

Bu prioritet üzrə istehsal gücünün 1900 MVt artırılması çərçivəsində (hazırda planlaşdırılan 900 MVt istehsal gücü də daxil olmaqla) 1500 MVt istehsal gücünün yaradılması məqsədilə yeni elektrik stansiyalarının tikintisi ilə bağlı (yalnız istilik və su elektrik stansiyalarının tikintisi nəzərə alınmaqla) 1 milyard 950 milyon manat investisiya tələb olunacağı proqnozlaşdırılır. Bu vəsait dövlət və özəl mənbələr hesabına maliyyələşən investisiyaları əhatə edir.

Gözlənilən risklər

- istehlak həcmində hər hansı əsaslı dəyişikliyin baş verməsi;
- dünya iqtisadiyyatında baş verən böhran nəticəsində tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyə çatışmazlığı.


7.2.2. Prioritet 2.2. Milli istehsal portfelinin şaxələndirilməsi

Əsaslandırma

Bərpaolunan enerji mənbələrindən istifadə elektrik enerjisi təchizatının təhlükəsizliyinə, ümumi istehsal xərclərinin azaldılmasına, təbii resurslara qənaət edilməsinə, əlavə iş yerlərinin yaradılmasına və ətraf mühitin qorunmasına müsbət təsir edir. Hazırda bərpaolunan enerji növləri arasında daha çox su, külək və günəş enerjisi texnologiyalarından istifadə edilir (diaqram 8). Bərpaolunan enerjidən istifadə səviyyəsi ölkədə mövcud potensialla müqayisədə aşağı səviyyədədir (iri SES-lər nəzərə alınmazsa). Bu səbəbdən istehsalı şaxələndirmək üçün Azərbaycan Respublikasında yüksək potensiala malik bərpaolunan enerji mənbələrindən, xüsusən də külək və günəş enerjisi imkanlarından geniş istifadə olunmalıdır.

[16] Mənbə: “Azərenerji” ASC

Diaqram 8. Bərpaolunan enerji mənbələri hesabına yaradılmış generasiya güclərinin resurslar üzrə bölgüsü *(2014-cü il üzrə)*



Mənbə: Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi

Azərbaycan Respublikasının elektrik enerjisi istehsalı portfelində iki növ mənbə üstünlük təşkil edir. Hazırda ümumi elektrik enerjisi istehsalının 94 faizi təbii qazdan istifadə hesabına təmin edilir (enerji istehsalının qalan 6 faizi isə su və digər elektrik stansiyaları hesabına təmin edilir).[17] Eyni zamanda, ölkə üzrə elektrik enerjisi təchizatının 55 faizini təbii qazla işləyən üç ən böyük elektrik stansiyası təmin edir.[18] Bu vacib stansiyalardan biri təmir işlərinə görə istismardan çıxarılarsa, istehsalın bu səviyyədə mərkəzləşdirilməsi səbəbindən elektrik enerjisi təchizatında risk yarana bilər. Bu baxımdan, portfelin daha çox şaxələndirilməsi təchizat təhlükəsizliyi riskini minimuma endirəcəkdir.

Bundan əlavə, aşağı xərclə başa gələn mənbələrdən, o cümlədən bərpaolunan enerji növlərindən istifadə etməklə, elektrik enerjisinin istehsalına çəkilən orta xərc məbləği azaldıla bilər. Təbii qaz yanacağının qiymətinin hər MVt-saat üzrə 30-40 ABŞ dolları arasında dəyişməsi onu ən ucuz istehsal variantlarından biri etsə də, bu, külək və günəş enerjisinin qiymətləri ilə müqayisə ediləcək səviyyədədir. Mütəmadi texnoloji tərəqqi külək və günəş enerjisinin istehsal xərclərini daim azaldır. Məsələn, 2016-cı ilin aprel ayında günəşdən alınan elektrik enerjisinin hərrac qiyməti dünyanın müxtəlif yerlərində hər MVt-saat üçün 29,9 ABŞ dolları olmuşdur.[19] Hazırda ölkədə elektrik enerjisi istehsalının iki əsas mənbə vasitəsilə həyata keçirildiyini nəzərə aldıqda, külək və günəş enerjisi hesabına şaxələndirmənin genişləndirilməsi orta xərc səviyyəsini aşağı sala bilər.

Bərpaolunan enerji növlərindən istifadə imkanlarının genişləndirilməsi, həmçinin ekosistemə öz müsbət təsirini göstərir. Təbii qaz və su mənbələri ilə müqayisədə külək və günəş enerjisi hesabına elektrik enerjisinin istehsalı zamanı ətraf


[17] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

[18] Mənbə: "Azərenerji" ASC

[19] Mənbə: Beynəlxalq Enerji Agentliyi (IEA)

mühitə atılan tullantı (CO_2 - karbon-dioksid) səviyyəsinin aşağı olması ölkənin enerji portfelinin ekoloji baxımdan üstünlüyünü artırır (diaqram 9).

Diaqram 9. Bərpaolunan enerji mənbələrinin enerji portfelinin dayanıqlılığına təsiri



Mənbə: Beynəlxalq Enerji Agentliyi

Azərbaycan Respublikasının bərpaolunan enerji növləri üzrə potensialı çox böyükdür. Hazırda külək enerjisi ölkənin ümumi qoyuluş gücündə 66 MVt-lıq paya malikdir ki, bu da 15000 MVt potensial həcmin cəmi 0,4 faizi deməkdir.[20] Abşeron yarımadası, Xəzər sahili boyu quru ərazilər, həmçinin Xəzər akvatoriyası, Naxçıvan Muxtar Respublikası və bir sıra digər ərazilər külək enerjisinə investisiya qoymaq üçün cəlbedici sahələr hesab olunur. Mühüm tələbat mərkəzinə çox yaxın yerləşdiyinə görə Bakı şəhəri quruda külək enerjisi istehsalına investisiya qoyuluşları baxımından əlverişli coğrafi mövqeyə malikdir.

Günəş enerjisi sahəsində qoyuluş gücü təqribən 30 MVt təşkil edir ki, bu da 8000 MVt potensial həcmin 0,4 faizi deməkdir.[21] Hazırda Bakı və onun ətraf qəsəbələrində, habelə ölkənin bir sıra rayonlarında günəş elektrik stansiyalarının inşası davam etdirilir. Bakıda il ərzində günəşli saatların sayı 2000-2800 arasında dəyişir ki, bu da günəş enerjisi istehsalı üçün qənaətbəxş səviyyə hesab edilir. Hər kvadratkilometrinə, orta hesabla, 1400-1800 kVts günəş enerjisi düşən Kür-Araz

[20] Mənbə: Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi

[21] Mənbə: Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi

ovalığı, Abşeron yarımadası, eləcə də Naxçıvan Muxtar Respublikası günəş enerjisi istehsalına əlavə investisiya qoyuluşları üçün əlverişli məkanlardır[22] (şəkil 3).


Bundan başqa, Azərbaycanda bioenerji sahəsində qoyuluş gücü 46 MVt təşkil edir ki, bu da 900 MVt iqtisadi səmərəli potensial həcmin 5,1 faizi deməkdir.

Ölkə ərazisində kənd təsərrüfatı sahəsinin, xüsusən pambıqçılıq və taxılçılıq təsərrüfatlarının inkişafı biokütlədən istifadə etməklə enerji istehsalına investisiya qoyuluşu üçün əlverişli şərait yaradır. Belə ki, respublikamızda cari il ərzində 52 min hektar ərazidən tədarük ediləcək 100 min ton pambığın gələn il 250-300 min tona çatdırılması, yeni taxıl əkin sahələrinin dövriyyəyə buraxılması bioenerji istehsalı üçün xammalın həcminin dəfələrlə artmasına səbəb olacaqdır.

2017-ci ildə pambıq istehsalının 300 min tona çatdırılması üçün hazırlıq işləri artıq başlamışdır ki, bu da təkcə pambıqçılıq sahəsində 700 min tona yaxın enerji istehsalına yararlı xammalın əmələ gələcəyini göstərir. Hazırda 24 rayonda pambıqçılığın və digər kənd təsərrüfatı sahələrinin inkişafı üçün görülən işlər Samux, Ağcabədi, Oğuz və s. kimi bir çox rayonlarımızda bioenerji potensialının və ondan istifadə imkanlarının geniş olduğunu deməyə imkan verir.

Araşdırmalar göstərir ki, bütün sənaye sahələrində istehsal tullantılarının tərkibinin çox hissəsi biokütlədən ibarətdir. Bu, elektrik enerjisi istehsalında istifadə oluna bilən bioqaz, həmçinin maye və bərk biokütlə istehsal etmək üçün səmərəlidir.

Şəkil 3. Azərbaycan Respublikasında günəş və külək enerjisinə investisiya qoyuluşları üzrə perspektiv ərazilər



Mənbə: Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi

Bu məkanların əksəriyyətində təbii qazla işləyən elektrik stansiyalarının mövcudluğu fasiləsiz külək və günəş enerjisi istehsalına imkan verir ki, bu da həmin mənbələr hesabına davamlı elektrik enerjisi təchizatına təminat yaratmaqla, bir və ya bir neçə mənbədən tam asılı olmaq ehtimalını aradan qaldırır.

[22] Mənbə: Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi

Görüləcək tədbirlər

Tədbir 2.2.1. Alternativ və bərpa olunan enerji potensialının qiymətləndirilməsi

Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi indiyədək aparılmış mövcud araşdırmalar əsasında və ya zərurət yaranarsa, ekspertlər dəvət etməklə aparılacaq yeni araşdırmalar əsasında ölkənin alternativ və bərpaolunan enerji potensialını qiymətləndirərək investisiya potensialının ən böyük olduğu regionları müəyyən edəcəkdir. Daha sonra bərpaolunan enerji qurğularının ən uyğun formalarının və yerlərinin seçilməsinə dair qərar vermək məqsədilə maliyyə və mənfəət-zərər təhlilləri apararaq, şəbəkəyə birləşməsi üçün ilkin şərtlərin siyahısını tərtib edəcəkdir (məsələn, elektrik enerjisinin keyfiyyəti, transformator məntəqəsi və yarımstansiyasında yol verilən maksimum bərpaolunan enerji payı). Nəhayət, ən böyük istehsal gücünə və ən böyük tələbata malik olan ərazilərin yaxınlığında investisiya qoyuluşlarını prioritetləşdirməklə, bu işlərin görülməsi üçün vaxt qrafikini və planı müəyyən edəcəkdir. Bundan əlavə, bu sahədə fəaliyyət göstərən özəl şirkətlərin müvafiq göstəricilərini nəzərə alaraq, vaxt qrafikinə daxil edilməsini təmin edəcəkdir.

Tədbir 2.2.2. İnvestisiya qoyuluşu tələb olunan elektrik stansiyalarının istismar və maliyyələşmə formasının seçilməsi

Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi müvafiq dövlət qurumları ilə birlikdə investisiya qoyuluşu tələb edəcək stansiyaların istismar və maliyyələşmə formasına dair qərar verəcəkdir. Buraya, xüsusən də, stansiyaların dövlət təşkilatları və ya özəl investorlar tərəfindən tikilməsinin və istismar edilməsinin məqsədəuyğunluğuna dair qərarın verilməsi daxildir.

Tədbir 2.2.3. Görülən tədbirlərlə bağlı ictimaiyyətin məlumatlandırılması

Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ölkənin alternativ enerji potensialından istifadə və karbonsuz elektrik enerjisi istehsalı ilə bağlı ictimaiyyətin məlumatlandırılması planını işləyib hazırlayacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Milli istehsal portfelində bərpaolunan enerji istehsalı üzrə prioriteti həyata keçirməklə, 2020-ci ildə real ÜDM-in 50 milyon manat birbaşa və 20 milyon manat dolayı olmaqla, ümumilikdə 70 milyon manat məbləğində artması və 270 yeni iş yerinin yaradılması proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- enerji portfelinin şaxələndirilməsi məqsədilə 350 MVt külək, 50 MVt günəş enerjisinin və 20 MVt bioenerjinin əldə edilməsinə investisiya qoyuluşunun həyata keçirilməsi;
- bu istiqamətdə görülmüş tədbirlər nəticəsində qənaət edilmiş təbii qazın (təbii qaz qurğularından) Trans-Adriatik qaz kəməri və Trans-Anadolu qaz kəməri (TAP/TANAP) vasitəsilə Avropaya ixrac olunması.

Tələb edilən investisiya

Bu prioritet üzrə yeni elektrik stansiyalarının (külək, günəş enerjisi və bioenerji) tikintisinə təqribən 1 milyard 40 milyon manat həcmində investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- iqlim şəraitinin kəskin dəyişməsi;
- tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyələşmə problemləri.

7.2.3. Prioritet 2.3. İzafi təchizata görə qısamüddətli perspektivdə xalis elektrik enerjisi ixracı imkanının nəzərdən keçirilməsi

Əsaslandırma

Hazırda Azərbaycan Respublikasında istehsal edilən elektrik enerjisi, əsasən, Gürcüstana və Türkiyəyə ixrac edilir. Yunanıstan və İraq kimi bir neçə ölkə xalis elektrik enerjisi idxalçılarıdır. Həmçinin İran və Rusiyanın elektrik enerjisi üzrə faktiki ixracatçı ölkələr olmasına baxmayaraq, onların Azərbaycan Respublikasına coğrafi baxımdan yaxın regionlarında infrastrukturun məhdud olması səbəbindən həmin ölkələrə də elektrik enerjisinin ixracı üçün əlavə imkanlar vardır. Regiondakı digər ölkələrə elektrik enerjisi ixracı artırılmaqla, qısamüddətli perspektivdə istifadə edilməmiş potensial gəlir mənbəyindən yararlanmaq imkanı nəzərdən keçiriləcəkdir.

Bu məqsədlə, ilkin olaraq elektrik enerjisi ixracındakı artımı əhatə edə biləcək mövcud ötürücü xətlərin və infrastrukturun vəziyyəti yoxlanılmalıdır. Hazırda Azərbaycan Respublikasında qonşu ölkələrə elektrik enerjisini nəql edən beş yüksəkgərginlikli elektrik verilişi xətti mövcuddur (şəkil 4).

Şəkil 4. Elektrik enerjisi ixracı üçün elektrik qovşaqları




Qeyd: İran barədə təhlillər yalnız ictimaiyyətə açıq olan və Azərbaycan hökumətinin sahib olduğu məlumatlara əsaslanmışdır.

Mənbə: "Azərenerji" ASC, Teias

Elektrik enerjisi istehsalında təbii qazdan istifadənin xüsusi çəkisi digər enerji mənbələrinə nisbətdə çox olduğuna görə Azərbaycan Respublikası öz qonşuları ilə müqayisədə elektrik enerjisini nisbətən ucuz istehsal etmək imkanına malikdir (şəkil 5). Qiymətdəki bu üstünlük elektrik enerjisinin ixracında Gürcüstanı və Türkiyəni əsas istehlakçılara çevirmişdir. Habelə, ölkədə elektrik enerjisi istehsalı istehlak həcmini üstələdiyinə görə topdansatış qiymətlərinin yüksək olduğu ölkələrə ixracın artırılması imkanları vardır. Bundan başqa, Azərbaycan Respublikası öz coğrafi mövqeyindən istifadə etməklə, qonşu ölkələr arasında elektrik enerjisi mübadiləsi üçün tranzit ölkə kimi də çıxış edə bilər.

Şəkil 5. Azərbaycan Respublikasının bir sıra digər ölkələrlə müqayisədə rəqabətli qiymət üstünlüyü



1. 2016-cı il 1 dekabr tarixinədək qüvvədə olan qiymətlərə əsasən

Mənbə: Erranet, Eurostat

Görüləcək tədbirlər

Tədbir 2.3.1. İxrac imkanlarının araşdırılması

Müvafiq dövlət qurumu elektrik enerjisi istehsalının maya dəyərini, yerli bazarda təbii qaza olan tələbi, ixrac bazarlarında elektrik enerjisinin, təbii qazın qiymətlərini və ixrac xərclərini nəzərə alaraq, elektrik enerjisi və təbii qazın ixracı arasında müqayisəli təhlil həyata keçirəcəkdir. Elektrik enerjisinin ixracı iqtisadi cəhətdən səmərəli olduğu halda, bu istiqamətdə digər işlərin görülməsinə başlanacaqdır.

"Azərenerji" ASC regionun elektrik enerjisinə olan ehtiyacları barədə qonşu ölkələrlə (İran, Rusiya, Türkiyə və Gürcüstan) ilkin müzakirələr aparacaq və təbii qazın birbaşa ixracının effektivliyini qiymətləndirməklə, elektrik enerjisi ixracının artırılması imkanlarını araşdıracaqdır. Eyni zamanda, "Azərenerji" ASC mövcud elektrik verilişi xətlərindən istifadə etməklə, Gürcüstan, Yunanıstan, İran, İraq, Rusiya və Türkiyə ilə elektrik enerjisi ticarəti imkanlarını qiymətləndirəcəkdir.

Tədbir 2.3.2. İxrac potensialının reallaşdırılması üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması

"Azərenerji" ASC Azərbaycan Respublikasının elektrik enerjisi ixracı potensialını reallaşdırmaq üçün müxtəlif layihələri texniki-iqtisadi əsaslandırmalar aparmaqla həyata keçirəcəkdir. Şirkət, ilk öncə, ixraca imkan verəcək mövcud istehsal gücünü öyrənmək məqsədilə elektrik enerjisinin istehsalına və istifadəsinə dair gələcək investisiya proqnozlarından istifadə edəcəkdir. İkincisi, elektrik enerjisinin istehsal xərclərini, nəqliyyat və gömrük rüsumlarını, istehsal həcmi üçün tələb olunan investisiya mənbəyini və region ölkələrinin elektrik enerjisinə olan tələbatını nəzərə alaraq, müxtəlif ölkələrə (həm birbaşa qonşu ölkələr, həm də Yunanıstan və ya İraq

kimi mövcud bazarlardan kənar ölkələr) elektrik enerjisi ixracı üzrə mənfəət-zərər təhlili aparacaqdır. Üçüncüsü, daha yüksək ixrac həcmini dəstəkləyən müxtəlif ölkələrdə olan şəbəkələrin qarşılıqlı uyğunluğuna və elektrik enerjisinin veriliş xətlərinin ötürmə gücünə xüsusi diqqət yetirməklə, infrastrukturun uyğunluğunu müəyyən etmək üçün araşdırmalar aparacaqdır. Nəhayət, ötürmə gücü üçün tələb olunan hər hansı əlavə investisiya qoyuluşunun da mənfəət-zərər təhlilinə daxil olunmasını təmin edəcəkdir.

Tədbir 2.3.3. İxracla bağlı həyata keçiriləcək tədbirlər üzrə işçi qrupun yaradılması

"Azərenerji" ASC yeni potensial satış imkanlarının aşkarlanmasına, potensial sifarişçilərlə qiymətin razılaşdırılmasına, müəyyənləşdiriləcək stimulların elektrik enerjisinin ixrac hədəfləri ilə uzlaşdırılması üçün əsas icra göstəriciləri sisteminin yaradılmasına və bu göstəricilərin ixrac üzrə mənfəət-zərər təhlilində düzgün əks olunmasının təmin edilməsinə cavabdeh olan işçi qrup təşkil edəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsinin nəticəsi olaraq, istehsal gücünün artırılması ilə 2020-ci ildə real ÜDM-in 70 milyon manat birbaşa və 45 milyon manat dolayı olmaqla, ümumilikdə 115 milyon manat məbləğində artması proqnozlaşdırılır. Məşğulluqda artım əvvəlki prioritetlərdə nəzərə alındığı üçün bu prioritet üzrə əlavə iş yerlərinin açılmasına birbaşa təsir gözlənilmir.

Əsas icra göstəricisi:

- Gürcüstanın elektrik enerjisi idxalının 50 faizinin, Türkiyənin isə 20 faizinin təmin edilməsi.

Tələb edilən investisiya

Bu prioritet üzrə investisiya tələbi əvvəlki prioritetlərdə nəzərə alındığına və əlavə həcmi nəql etmək üçün mövcud elektrik verilişi imkanı kifayət etdiyinə görə əlavə investisiya qoyuluşunun tələb olunmayacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

- iqtisadiyyatın diversifikasiyası və inkişafı nəticəsində elektrik enerjisinə daxili tələbatın kəskin şəkildə artması;
- elektrik enerjisi ixracı proqnozlaşdırılan ölkələrə daha aşağı qiymətə elektrik enerjisi idxalı üçün təkliflərin olması;
- rəqabətqabiliyyətli elektrik enerjisi ixracı üçün istehsalda xammal çatışmazlığı.

7.3. Strateji hədəf 3. Dünya üzrə orta səmərəlilik və keyfiyyət standartlarının tətbiqi və məqsədlərə nail olmaq üçün mexanizmlərin işə salınması

Azərbaycan Respublikasında bütün istehlakçı qrupları (sənaye, kommersiya və əhali) üçün fasiləsiz və uyğun qiymətə elektrik enerjisi təchizatında istehsal həcminin nəzərə alınması məsələnin yalnız bir tərəfidir. Bu baxımdan, investisiya qoyuluşu imkanları, səmərəlilik və məsuliyyətli istifadə faktorları da nəzərə alınmalıdır. Elektrik enerjisi üzrə nəqletmə və paylama sistemində müəyyən səviyyədə qeyri-səmərəlilik mövcud olduğundan Azərbaycan Respublikasında bu sahədə baş verən enerji itkilərinin azaldılmasına yönəldilmiş tədbirlər görüləcək, habelə mövcud elektrik stansiyaları modernləşdirilərək müasir tələblərə cavab verəcək səviyyəyə gətiriləcəkdir. Sahə üzrə səmərəliliyin təmin edilməsi, o cümlədən qiymətlərin xərcləri

əks etdirməsi və təsərrüfat müəssisələrinin səmərəlilik göstəriciləri nəzərə alınmaqla, göstərilən xidmət üzrə tariflərə düzəlişlər nəzərdən keçiriləcəkdir.

7.3.1. Prioritet 3.1. Elektrik stansiyalarının səmərəliliyinin artırılması və mövcud potensialdan səmərəli istifadə


Əsaslandırma

Azərbaycan Respublikasında elektrik stansiyalarının səmərəliliyinin artırılmasına zərurət vardır.

Elektrik enerjisi istehsalı obyektlərinin səmərəliliyini müəyyən etmək üçün üç əsas amildən – yanacağın səmərəlilik əmsalı (hər kVts elektrik enerjisini istehsal etmək üçün tələb olunan enerjinin miqdarı), aralıq istehlak, eləcə də istismar və texniki xidmət xərcləri göstəricilərindən istifadə ediləcəkdir.

Yanacağın səmərəlilik əmsalı ölkənin mövcud elektrik stansiyaları barədə, eləcə də onların sənaye üzrə müəyyən olunmuş standartlarla müqayisəsi baxımından ümumi təsəvvür yaradır və mövcud səmərəlilik göstəricisinin yaxşılaşdırılması imkanlarını müəyyənləşdirməyə kömək edir. Eyni zamanda, yanacağın səmərəlilik əmsalı elektrik stansiyasının istehsal proqramlarını qiymətləndirməyə imkan verməklə yanaşı, ölkənin elektrik enerjisi istehsalı portfeli üzrə orta yanacaq xərclərinin azaldılması üçün prioritetləri müəyyən edir. Məsələn, 2015-ci ildə “Şirvan” elektrik stansiyasında istehsal edilən elektrik enerjisinin hər MVt-saatının qiyməti 29,5 manat olduğu halda, bu göstərici “Şimal” elektrik stansiyasında 13,8 manat təşkil etmişdir (diaqram 10). Digər yanacaq mənbələrinin göstəricilərində təkmilləşdirmə potensialının olub-olmadığını araşdırmaq üçün bu əmsaldan istifadə edilə bilər.

Diaqram 10. Elektrik stansiyalarının xalis yanacaq səmərəliliyi




1. *Mövcud potensial səciyyəvi yük amilləri əsasında əmələ gələn istehsal gücünü müəyyən edir.*

Mənbə: "Azərenerji" ASC

Daxili istehlak (elektrik stansiyalarında elektrik enerjisi istehsalı zamanı istifadə edilən enerjinin miqdarı) elektrik enerjisi istehsalı zamanı yaranan itkinin başlıca səbəblərindən biri hesab olunur. Təhlillər göstərir ki, Azərbaycan Respublikasının elektrik stansiyalarında istehlak edilən enerjinin miqdarı cəmi enerji istehsalının artım tempi ilə müqayisədə daha yüksək sürətlə artmaqda davam edir. 2009-cu ildən 2014-cü ilədək olan dövr ərzində ümumi enerji istehsalı 31 faiz artdığı halda, stansiyalarda daxili istehlak 90,4 faiz artmışdır (diaqram 11). Bunun nəticəsi olaraq, daxili istehlak 2014-cü ildə istehsal edilmiş ümumi elektrik enerjisi miqdarının 16,2 faizini təşkil etmişdir ki, bu da 2009-cu illə müqayisədə 4,9 faiz artım deməkdir.

Diaqram 11. Elektrik stansiyalarında elektrik enerjisindən daxili istifadə




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Azərbaycan Respublikasında təbii qazla işləyən elektrik stansiyalarında daxili istehlak normaları standart göstəricilərlə müqayisədə yüksəkdir (cədvəl 3). Ölkədə daxili istehlak göstəricisinin səviyyəsi bütün elektrik stansiyaları üzrə orta hesabla 3,6 faiz[23] təşkil edir ki, bu da ümumi qəbul edilmiş 2 faizlik hədəf göstəricidən yüksəkdir. Hətta "Şirvan" İES və "Bakı" İEM-də həmin göstərici nəzərəçarpacaq dərəcədə yüksəkdir. Müqayisə üçün qeyd etmək olar ki, su elektrik stansiyalarında istehlak səviyyəsi istehsal gücünün 1 faizindən azdır.[24]

[23] Mənbə: "Azərenerji" ASC

[24] Mənbə: "Azərenerji" ASC


Cədvəl 3. İstilik və su elektrik stansiyalarında daxili sərfiyyat səviyyəsi



Mənbə: “Azərenerji” ASC

Bundan əlavə, hər MVt-saata düşən istismar, texniki xidmət və əməkhaqqı xərcləri hər bir elektrik stansiyası üzrə əsaslı şəkildə fərqlənir (diaqram 12). Elektrik stansiyalarının növü, ölçüsü və istismar müddəti həmin stansiyaların saxlanılması üçün tələb olunan bütün xərclərə, eləcə də istismar və texniki xidmət xərclərinə təsir edən amillər sırasındadır. Bu xərclərin məcmusu elektrik stansiyalarının ümumi məhsuldarlığına və investisiya qoyuluşlarına təsir edir. Azərbaycan Respublikasında elektrik stansiyaları arasında bu xərclər üzrə müşahidə edilən fərq bu sahədə əhəmiyyətli dərəcədə inkişaf potensialının olduğunu göstərir.

Diaqram 12. Hər meqavat-saat elektrik enerjisinin istehsalına çəkilən xərclərin müxtəlif stansiyalar üzrə müqayisəsi



Mənbə: "Azərenerji" ASC

Görüləcək tədbirlər

Tədbir 3.1.1. Elektrik stansiyalarının potensialından səmərəli istifadənin təmin edilməsi

"Azərenerji" ASC ekspertlər cəlb etməklə və standart göstəricilərin müqayisəsini aparmaqla, texniki-iqtisadi əsaslandırmalara və təhlillərə əsasən, səmərəliliyinin artırılması zəruri olan elektrik stansiyalarını, habelə bu stansiyalarda səmərəliliyin yaxşılaşdırılması üzrə münasib mexanizmləri müəyyənləşdirəcəkdir. Eyni zamanda, Cəmiyyət səmərəliliyi yüksək olan yeni stansiyalarla təchizatın təhlükəsizliyini təmin etməklə yanaşı, ən səmərəsiz işləyən stansiyaların istismarının dayandırılmasını nəzərdən keçirəcəkdir. Səmərəliliyin artırılması ilə bağlı yerinə yetiriləcək işlərin ölkənin elektrik enerjisi istehsalına göstərə biləcəyi mənfi təsirləri minimuma endirmək məqsədilə elektrik stansiyalarının istismara başlanma vaxtının mərhələli qrafikinə uyğun olaraq, təkmilləşdirmə işləri üçün ən münasib vaxt müddətləri təyin ediləcəkdir.

Tədbir 3.1.2. Elektrik stansiyalarının özəlləşdirilmə imkanlarının nəzərdən keçirilməsi

"Azərenerji" ASC, Azərbaycan Respublikasının Energetika Nazirliyi və digər müvafiq qurumlar səmərəliliyə dair investisiya tələblərini özəlləşdirmə şərtlərinə daxil edərək, optimal elektrik stansiyalarının özəlləşdirilməsi imkanlarını nəzərdən keçirəcəklər. Özəlləşdirməyə üstünlük verildiyi təqdirdə, aidiyyəti dövlət qurumları ilə məsləhətləşmələr aparılaraq, strateji baxımdan özəlləşdirmə predmeti olmayan mühüm aktivlər müəyyən ediləcəkdir.

Tədbir 3.1.3. İnvestor seçmək üçün tenderlərin elan edilməsi

"Azərenerji" ASC və Azərbaycan Respublikasının Energetika Nazirliyi təchizatçı və ya investor seçmək üçün şəffaf meyarlar əsasında modernləşdirməyə dair tender elan edəcəklər. Onlar, həmçinin müvafiq əsas icra göstəricilərini müəyyən edib idarəetmənin monitorinqini aparacaqlar (özəl sektor iştirakçıları üçün icraəsaslı tənzimləmənin həyata keçirilməsi). Daha sonra tender əsasında seçilmiş təchizatçı və ya özəl tərəfdaşla birgə modernləşdirmə işlərinə başlayacaq və işlərin gedişinə nəzarət etmək üçün işin icrasının idarə edilməsi mexanizmlərindən istifadə edəcəklər.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin həyata keçirilməsi nəticəsində mövcud portfeldəki təbii qazla işləyən elektrik stansiyalarının səmərəliliyinin artması ilə, 2020-ci ildə real ÜDM-in 70 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, ümumilikdə 75 milyon manat artacağı proqnozlaşdırılır. Bu prioritetin məşğulluğa birbaşa təsiri gözlənilmir.

Əsas icra göstəriciləri:

- kombinə edilmiş dövrəyə malik, seçilmiş qaz turbin stansiyaları üçün xalis yanacaq səmərəliliyinin (istehsal edilmiş elektrik enerjisinin sərf edilən yanacağın miqdarına nisbəti) 50 faizədək artırılması (hazırda seçilmiş tipik qaz turbin stansiyaları üçün bu göstərici 47 faizdir);
- 1 MVt-lıq təbii qaz stansiyasının modernləşdirilməsinə maksimum 300 min ABŞ dolları məbləğində investisiya qoyuluşu;
- səmərəliliyin artırılması hesabına qənaət edilmiş təbii qaz miqdarının (təbii qaz qurğularından) TAP/TANAP layihələri vasitəsilə Avropaya ixracı.

Tələb edilən investisiya

Hazırda mövcud olan stansiyaların modernləşdirilməsi üçün bu prioritet üzrə bilavasitə təqribən 1 milyard 75 milyon manat investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılır. 3.2-ci prioritetin 3.2.9-cu tədbirində göstərilmiş təhlilin nəticələrinə əsasən, bu prioritetə ayrılmış investisiyaların bir hissəsi 3.2-ci prioritetə yönəldilə bilər.

Gözlənilən risklər

Tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyə çatışmazlığı əsas risk yaradan amildir.

7.3.2. Prioritet 3.2. Elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi verilişinin və paylanmasının keyfiyyətinin yüksəldilməsi

Əsaslandırma


2014-cü ildə istehsal edilmiş elektrik enerjisi üzrə cəmi 13,6 faiz itki olmuşdur ki, bunun da 80 faizə yaxını paylanma, digər qismi isə nəqletmə prosesində baş vermişdir.[25] Elektrik enerjisi verilişinin keyfiyyət və səmərəliliyini yaxşılaşdırmaq məqsədilə ən səmərəsiz xətlərdən başlayaraq bu xətləri yenidən çəkməyi nəzərdə tutan baş planın hazırlanması zəruridir.

Azərbaycan Respublikasında mövcud olan elektrik verilişi xətlərinin yarıdan çoxu 45 il bundan əvvəl quraşdırılmışdır (diaqram 13). Elektrik verilişi və paylama

[25] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

infrastrukturunun köhnə olması elektrik enerjisinin istehsal stansiyasından son istehlakçılara çatdırılması zamanı səmərəliliyin azalmasına səbəb olur.


Diaqram 13. Elektrik enerjisi üzrə mövcud paylama xətlərinin istismar dövrü



Mənbə: "Azərişıq" ASC

Ümumi infrastruktur şəbəkəsinin köhnəlməsinə baxmayaraq, elektrik enerjisinin ötürülməsi və paylanması zamanı itkilərin azaldılmasında müəyyən nailiyyətlər əldə edilmişdir. Belə ki, 2010-2014-cü illərdə bu itkilərin istehsal edilmiş cəmi elektrik enerjisi miqdarında payı 20,4 faizdən 13,6 faizədək azalmışdır (diaqram 14).

Diaqram 14. Elektrik enerjisinin ötürülməsi və paylanması üzrə itkilər *(faizlə)*



Qeyd: Kommersiya və texniki itkilər daxil olmaqla

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dünya Bankı

"Azərişıq" ASC tərəfindən həyata keçirilən proqramların ilk mərhələsinə aid işlərin icrası nəticəsində paylayıcı elektrik şəbəkələrdə texniki itkilərin səviyyəsi 2016-cı ilin yanvar-sentyabr aylarının nəticəsinə əsasən 9,9 faizə qədər azaldılmışdır.[26]

Bununla belə, respublika üzrə istismar müddətini başa vurmuş 110 kV-luq və 35 kV-luq yarımstansiyaların, elektrik verilişi xətlərinin, o cümlədən 110 kV-luq və 35-20 kV-luq hava və kabel xətlərinin, ən səmərəsiz olanlarından başlamaqla, yenidən tikilməsinə və qurulmasına ehtiyac vardır.[27] Buna görə də, istehsal olunan elektrik enerjisinin müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə, istehlakçılara itkisiz çatdırılması və səmərəli şəkildə paylanması məqsədilə "Ağıllı şəbəkə"lərin (Smart Grid) yaradılması nəzərdə tutulur.

Kənd təsərrüfatı sahəsində, habelə Bakı Metropoliteninin yeni stansiyalarının, Bakı şəhərinin Füzuli meydanı ətrafındakı ərazinin və yeni yaşayış komplekslərinin, "Ağ Şəhər" layihəsinin və respublika üzrə sosial təyinatlı binaların tikintisi nəticəsində elektrik enerjisinə yaranacaq tələbatın (ümumi gücü təxminən 3590 MVt) qarşılanması məqsədilə elektrik şəbəkələrində işlərin aparılması da zəruri hesab olunur.[28]

Ötürücü və paylayıcı şəbəkələr üzrə vahid məlumat bankının yaradılması, bu məlumat bankı əsasında təsərrüfat üzrə maddi-texniki balansın təhlil olunması,

[26] Mənbə: "Azərişıq" ASC

[27] Mənbə: "Azərişıq" ASC

[28] Mənbə: "Azərişıq" ASC

müxtəlif növ sorğuların aparılması, perspektiv planın tərtib olunması, illik plan-qrafiklərin tutulması, yeni çəkilən və ya yenidən qurulacaq xətlərdə iqlim xəritəsinə uyğun avadanlıqların seçilməsi məqsədilə "Azərişıq" ASC elektron xəritə üzərində Şəbəkənin Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (ŞAİS) yaradılmasını nəzərdən keçirəcəkdir.

Qeyd olunan tədbirlərin icrası istehlakçıların fasiləsiz və keyfiyyətli elektrik enerjisi təminatına, şəbəkədəki elektrik enerjisi itkilərinin azaldılmasına, şəbəkələrin effektiv istismarına və idarə olunmasına gətirib çıxaracaqdır. Bu məqsədlə, "Azərişıq" ASC ortamüddətli dövrdə paylayıcı elektrik şəbəkələrinin mərhələli şəkildə reabilitasiya və yenidənqurulma işlərinin davam etdirilməsi üçün maliyyələşdirmə mənbələrini müəyyənləşdirməklə, tədbirlərin icrasını başa çatdıracaqdır.

Görüləcək tədbirlər

Tədbir 3.2.1. Səmərəliliyin artırılması məqsədilə icra mexanizmlərinin müəyyənləşdirilməsi

"Azərenerji" ASC və "Azərişıq" ASC regionlar üzrə səmərəlilik və keyfiyyət səviyyələrinin müqayisəli təhlili, itkilərə ən çox səbəb olan hissələrin aşkarlanması, elektrik verilişi və paylama şəbəkələri üzrə araşdırmaların aparılması, beynəlxalq təcrübənin öyrənilməsi, habelə bu istiqamətlərdə icra mexanizmlərinin müəyyənləşdirilməsi məqsədilə ilkin mərhələdə ekspertlərdən və aidiyyəti tənzimləyici orqanların nümayəndələrindən ibarət işçi qrup yaradaraq, səmərəliliyin artırılması imkanlarını müəyyən etmək üçün müvafiq addımlar atacaqlar.

Tədbir 3.2.2. Modernləşdirmə işləri üçün baş planın hazırlanması

"Azərenerji" ASC və "Azərişıq" ASC özlərinin mövcud yenidənqurma və genişləndirmə planlarından istifadə edərək (məsələn, Yaşma-Dərbənd 330 kV, Şimal-Zabrat 220 kV, müxtəlif 110 kV istehsal gücünə malik stansiyaların və yarımstansiyaların yenidən qurulması və ya inşa edilməsi), eləcə də yenidən qurulmasına zərurət olan sahələr üzrə işlərin hansı dövrdə icra olunmasına dair dəqiq müəyyən edilmiş intervalları nəzərə alaraq, modernləşdirmə işləri üçün baş plan hazırlayacaqlar. Daha sonra dövlət-özəl tərəfdaşlığı modelinə əsaslanmaqla, ən çox itkilərin baş verdiyi sahələri prioritetləşdirməklə, aydın icra göstəricilərini və hədəfləri müəyyən etməklə, bu modernləşdirmə işləri üzrə məsul tərəfləri təyin edəcəklər. Sonda tender elan edərək modernləşdirmə işlərinə başlayacaq və bu işlərin baş plana uyğun getməsinə davamlı şəkildə nəzarət edəcəklər.

Tədbir 3.2.3. Elektrik enerjisi verilişinin keyfiyyətini izləyən əsas icra göstəricilərinin (ƏİG) tətbiq edilməsi

"Azərenerji" ASC və "Azərişıq" ASC istehlakçılar, xüsusən də yük dəyişkənliklərinin baş verdiyi sənaye qurğularına malik polad və alüminium istehsalçıları üçün elektrik enerjisi verilişinin keyfiyyətini izləyən ƏİG-lər tətbiq edəcəklər (zəruri hallarda həm elektrik verilişi, həm də paylama xətləri üçün). Həmçinin bu ƏİG-lər vasitəsilə itkinin idarə edilməsini izləyəcək və izləmə sistemini tətbiq edəcəklər.

Tədbir 3.2.4. İtkilərin azaldılması üçün sayğacların quraşdırılması

"Azərişıq" ASC kommersiya itkilərini minimuma endirmək üçün sayğacların quraşdırılması işlərini genişləndirəcəkdir. Zərurət yaranarsa, şirkət daha çox itkinin baş verdiyi sahələrin müəyyənləşdirilməsi, sayğaclardan əldə edilən məlumatların dəqiqləşdirilməsi üçün monitorinqlər təşkil edəcəkdir.

Tədbir 3.2.5. Elektrik enerjisinə yaranacaq tələbatın qarşılanması məqsədilə elektrik şəbəkələrində işlərin aparılması

Respublika ərazisində aparılan tikinti-quraşdırma işləri və kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində elektrik enerjisinə yaranacaq tələbatın (ümumi gücü təxminən 3590 MVt) qarşılanması məqsədilə "Azərişıq" ASC tərəfindən elektrik şəbəkələrində zəruri genişləndirmə və bərpa tədbirləri davam etdiriləcəkdir.

Tədbir 3.2.6. Elektrik enerjisinin ötürülmə və paylanma sisteminin təkmilləşdirilməsi

Mövcud olan elektrik enerjisi yüklərinin bir mənbədən digər mənbəyə ötürülməsində gərginlik səviyyəsi minimum 220 kV olan dairəvi sxemlərin, paylanmada isə 110 kV-luq şəbəkənin Bakı şəhərində tətbiqi nəzərdən keçiriləcəkdir.

Elektrik enerjisinin veriliş xətlərinə əlavə investisiya qoyuluşları tələb olunduğu təqdirdə, çatışmazlığın ən çox müşahidə edildiyi sahələrin müəyyən edilməsi, çatışmazlıqlar olan sahələri prioritetləşdirməklə modernləşdirmə işlərinin aparılması və əhatəli baş planın işlənib hazırlanması məqsədilə "Azərenerji" ASC və "Azərişıq" ASC tərəfindən təhlillər aparılacaqdır. Çatışmazlıqların olduğu sahələr ölkə sərhədindən kənarda (məsələn, Gürcüstanda) yerləşərsə, həmin sahələrdə yerinə yetiriləcək işlərə və bu sahənin maliyyələşdirilməsi mənbələrinə dair, aidiyyəti qurumlarla razılaşdırılmaqla, qərar qəbul olunacaqdır. "Azərenerji" ASC və "Azərişıq" ASC şəffaf meyarlar əsasında tender elan etməklə, podratçını seçib modernləşdirmə işlərinə başlayacaqlar.

"Azərişıq" ASC respublika üzrə istismar müddətini başa vurmuş yarımstansiyaların və elektrik verilişi xətlərinin ən səmərəsiz olanlarından başlamaqla, yenidən tikilməsi və qurulması istiqamətində işləri davam etdirəcəkdir.

Tədbir 3.2.7. Ötürücü və paylayıcı şəbəkə üzrə məlumat bankının yaradılması

Şəbəkələr üzrə fəaliyyət səmərəliliyinin yüksəldilməsi istiqamətində "Azərişıq" ASC elektron xəritə üzərində Şəbəkənin Avtomatlaşdırılmış İdarəetmə Sisteminin yaradılmasını nəzərdən keçirəcəkdir.

Tədbir 3.2.8. İtkilər barədə ictimaiyyətin məlumatlandırılması

"Azərenerji" ASC və "Azərişıq" ASC itkilərin minimuma endirilməsi işlərinin hədəf və nəticələrini ictimaiyyətə açıqlayacaqlar. Onlar, həmçinin ictimai açıqlamaların forma və məzmununa dair qərar verəcəklər.

Tədbir 3.2.9. İtkilərin azaldılması layihələrinin prioritetləşdirilməsi

Müvafiq qurumların büdcə imkanlarının məhdud olması elektrik enerjisinin istehsalı, ötürülməsi və paylanması üzrə layihələrin həyata keçirilməsində seçim məhdudiyyətləri yarada bilər. Bu halda elektrik enerjisi itkilərinin azaldılması üzrə işlərin (3.1-ci və 3.2-ci prioritetlər daxil olmaqla) bir-birindən ayrı müxtəlif layihələrə bölünməsi, habelə hər bir elementin ayrıca təhlili və iqtisadi əsaslandırılması nəzərdən keçiriləcəkdir. Eyni zamanda, bu layihələrin hər biri üzrə investisiya tələbi araşdırılacaq və mənfəət-zərər təhlili aparılacaqdır. Müvafiq göstəriciləri daha yüksək olan layihələr prioritetləşdiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin nəticəsi olaraq, Azərbaycan Respublikasında elektrik verilişi xətlərindəki texniki və kommersiya itkiləri azaldılmaqla, 2020-ci ildə real ÜDM-in 24 milyon manat birbaşa və 1 milyon manat dolayı olmaqla, cəmi 25 milyon manat artımı proqnozlaşdırılır. Bu prioritetin yeni iş yerlərinin yaradılmasına birbaşa təsiri yoxdur.

Əsas icra göstəriciləri:

- Bakıda texniki itki səviyyəsinin 8,5 faizdən[29] 7 faizədək azaldılması (Avropanın müqayisəli göstəricilərinə yaxınlaşmaq);
- regionlarda texniki itki səviyyəsinin 8 faizədək azaldılması.

Tələb edilən investisiya

Yuxarıda göstərilmiş gözlənilən nəticələrin əldə edilməsi məqsədilə bilavasitə elektrik verilişi və paylama xətlərinin çəkilməsi və ya modernləşdirilməsi üçün təqribən 400 milyon manat investisiya tələb olunacağı gözlənilir. Bu prioritetin 3.2.9-cu tədbirində göstərilmiş təhlilin nəticələrinə əsasən, bu prioritet çərçivəsində ayrılmış investisiyaların bir hissəsi 3.1-ci prioritetə yönəldilə bilər.

"Azərişıq" ASC və "Azərenerji" ASC tərəfindən elektrik enerjisi itkilərinin azalmasında əlavə nəticələrin əldə edilməsinə kömək edəcək digər müstəqil investisiya proqramı da hazırlanmışdır. Bu proqramın texniki və iqtisadi qiymətləndirilməsi ayrıca aparılacaqdır.

Gözlənilən risklər

Tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyələşmə problemləri əsas risk yaradan amildir.

7.3.3. Prioritet 3.3. İstehlakda səmərəliliyin yüksəldilməsi üçün optimal mexanizmlərdən istifadə

Əsaslandırma


Elektrik enerjisi qiymətlərinin aşağı olması məsuliyyətli istehlakın və səmərəliliyin stimullaşdırılmasını ləngidən amillərdən biri kimi çıxış edir. Elektrik enerjisi istehlakında səmərəliliyin yüksəldilməsi məqsədilə tariflərin tənzimlənməsi məsələləri nəzərdən keçirilə bilər. Ümumiyyətlə, tarif tənzimlənməsi həyata keçirilərkən yalnız gəlirin əldə edilməsi ilə bağlı xərclər deyil, istehlakçıların və istehsalçıların maraqlarının uzlaşdırılması, iqtisadiyyatın dinamik və intensiv inkişafına əlverişli şəraitin yaradılması, resurslardan məqsədyönlü və səmərəli istifadə edilməsi, dövlət büdcəsinə daxilolmaların səviyyəsinin artırılması, subsidiya və dotasiyaların mərhələlərlə aradan qaldırılması, əhalinin alıcılıq qabiliyyəti, tələb-təklif səviyyəsi, malın (işin, xidmətin) ölkədaxili istehsal şərtləri, dünya bazar qiymətləri və s. bu kimi amillər nəzərə alınmaqla, optimal qiymətlərin tətbiqi zəruridir.

Azərbaycan Respublikasında elektrik enerjisi istehlakına təsir edən son istehlakçı qiymətlərinin aşağı olması, bəzi sənaye sahələri üçün güzəştlərin tətbiq edilməsi, günün vaxtına əsasən tarif diferensiasiyasının və həcmə əsaslanan tariflərin olmaması, o cümlədən binalarda, nəqliyyatda və məişət avadanlıqlarında enerji səmərəliliyi sertifikatlarının tətbiq edilməməsi kimi çatışmazlıqların aradan qaldırılması ilə bağlı aşağıda qeyd olunanların nəzərə alınması elektrik enerjisindən daha səmərəli istifadəyə şərait yarada bilər:

[29] Mənbə: "Azərenerji" ASC

1. Son istehlakçı qiymətləri. Azərbaycan Respublikasında ev təsərrüfatlarının elektrik enerjisi istehlakı 2010-cu ildə 5755 milyon kVt-saat olduğu halda, 2014-cü ildə 7292 milyon kVt-saatadək (2015-ci ildə 7938 milyon kVt-saatadək) artmışdır ki, bu da həmin dövr ərzində illik 6 faiz artım deməkdir. Halbuki, ev təsərrüfatlarının ümumi sayı cüzi artmışdır (diaqram 15). Azərbaycan Respublikasında əhalinin elektrik enerjisi istehlakı həcmi həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrlə müqayisədə yüksəkdir.

Diaqram 15. Əhalinin elektrik enerjisi istehlakı səviyyəsi




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dünya Bankı, Dünya Enerji Şurası

Azərbaycan Respublikası ilə müqayisə oluna bilən ölkələrə nisbətdə son istehlakçı qiymətlərinin aşağı olması istehlakın artım səbəblərindən biridir. Xüsusən də, manatın məzənnəsinin devalvasiyasından sonra bu qiymət kəskin surətdə aşağı düşmüşdür.

2. Xərcləri əks etdirməyən qiymətqoyma mexanizmləri. Azərbaycan Respublikasında elektrik enerjisinin qiymətlərinin istehsal, nəqletmə və paylanma xərclərini əks etdirməməsi dövlət tərəfindən subsidiyalaşdırmaya ehtiyac yaradır (Qrafik 2).

Qrafik 2. Dünya bazarında təbii qazın qiymətində baş verən dəyişikliyin Azərbaycanda topdansatış qiymətlərinə təsiri



Mənbə: "Azərenerji" ASC

Azərbaycan Respublikasında elektrik enerjisinin verilişindən və paylanmasından əldə edilən gəlir faktiki istehsal xərclərini əks etdirmir. Rusiya və Türkiyə ilə müqayisədə, elektrik enerjisinin satışını həyata keçirən şirkətlərdə enerji satışı üzrə yığım istehsal xərclərinə nisbətən çox aşağıdır. Yığılan vəsaitin həcmi elektrik enerjisi infrastrukturunun modernləşdirilməsinə kifayət etmədiyi üçün maliyyələşmə uzunmüddətli perspektivdə davamlı olmaya bilər.


3. Bəzi sənaye sahələri üçün güzəştlərin tətbiq edilməsi. Azərbaycan Respublikasında onunla müqayisə edilə bilən ölkələrə nisbətdə elektrik enerjisinin qiymətləri ev təsərrüfatlarında (əhali qrupu) olduğu kimi bir sıra sənaye müəssisələrində (polad və alüminium istehsalı) də aşağıdır. Belə ki, Azərbaycan Respublikasında sənaye müəssisələrinin elektrik enerjisinə görə ödədiyi qiymət Türkiyədəki qiymətdən 73 faiz, Rusiyadakı qiymətdən isə təqribən 50 faiz aşağıdır (Azərbaycan Respublikası üçün elektrik enerjisi üzrə 2016-cı il 1 dekabr tarixinədək qüvvədə olan qiymətlər əsas götürülmüşdür).[30] Digər tərəfdən, bir sıra strateji əhəmiyyətli sənaye sahələri üçün güzəştlərin tətbiq edilməsi yolu ilə (məsələn, təchizat-təhlükəsizlik riski olan, xüsusilə iri işəgötürən müəssisələrin olduğu sənaye sahələri) enerjinin aşağı qiymətləri hesabına Azərbaycan Respublikasının rəqabətqabiliyyətliliyini təmin etmək böyük əhəmiyyətə malikdir.

4. Tarifin günün vaxtına görə diferensiasiya edilməməsi. Dünyanın bir çox ölkələrində kommunal xidmət sektorunda elektrik enerjisi qiymətinin tələbata uyğun dəyişdirilməsi istehlak səviyyəsini aşağı salan standart təcrübədir. Azərbaycan Respublikasında qiymətlərin gün ərzində diferensiasiya edilməməsi tələb-təklif balansının qeyri-səmərəli olması ilə nəticələnir (Qrafik 3). Qiymətlərin günün müxtəlif vaxtlarına uyğun tənzimlənməsi günlük yüklənmə qrafikini nizamlayır, eləcə də

[30] Mənbə: Enerdata və "Azərenerji" ASC

qiymətin ucuz olduğu vaxtda elektrik enerjisindən istifadə üçün stimul yaratmaqla, pik saatlardakı yüklənmə səviyyəsini aşağı salır və əlavə həcm üçün investisiya qoyuluşuna zərurəti azaldır.

Qrafik 3. Gecə-gündüz tariflərinin gündəlik yük göstəricilərinə təsiri



1. *17 iyun 2015-ci il tarixinə pik saatlarda yüklənmə göstəricisi*
Mənbə: "Azərenerji" ASC

Türkiyədə günün müxtəlif vaxtlarına uyğun tariflər tətbiq olunmuşdur. Belə ki, elektrik enerjisi istehlakçılara gecəyarısı orta qiymətə, "pik yüklənmə" saatlarında (təxminən saat 17:00-22:00) isə ən yüksək qiymətə təqdim olunur.

5. İnfrastrukturun yaradılmasına çəkilən xərclərə əsaslanan tarifin olmaması. Azərbaycan Respublikasında qiymətlərin günün vaxtına görə diferensiasiya edilməməsi ilə yanaşı, infrastrukturun yaradılmasına çəkilən xərclərə əsaslanan qiymətlərdən istifadə olunmaması bəzi istifadəçilər üçün elektrik enerjisi təminatının dolayı yolla subsidiyalaşmasına yol açır. İnfrastrukturun yaradılmasına çəkilən xərclərə əsaslanan qiymətlərdən infrastruktur xərcləri ilə istehlak qiymətləri arasında uyğunsuzluğun aradan qaldırılması üçün istifadə edilir.

Görüləcək tədbirlər

Tədbir 3.3.1. İstehlakçılarla istehsalçıların maraqlarının uzlaşdırılması üçün optimal qiymətlərin müəyyənləşdirilməsinin nəzərdən keçirilməsi

Aidiyyəti orqanlar milli enerji portfelinin yaradılması üçün orta xərci, habelə aşağıdakı tədbirləri nəzərə alaraq, istehlakçılar və istehsalçılar üçün əlverişli qiymətin müəyyənləşdirilməsini nəzərdən keçirəcəklər:

- xərci əks etdirən tariflərin tətbiqinin nəzərdən keçirilməsi (elektrik enerjisinin qiymətlərini subsidiyalaşdırmadan);
- satınalma qiymətinin paritetlik göstəricilərini nəzərə alaraq, son istifadəçi tariflərinin beynəlxalq müqayisəli qiymətləndirilməsini həyata keçirmək üçün, zərurət olarsa, ekspert və məsləhətçilərdən ibarət qrup təşkil edilməsi;
- ev təsərrüfatları üçün ikisəviyyəli tarif sisteminin tətbiq edilməsi, tariflərin tətbiq olunacağı istehlak həcmi hədlərinin və bu şkalalar üzrə müvafiq tariflərin müəyyənləşdirilməsi;
- bəzi sənaye sahələri üçün güzəştlərin azaldılmasının, qiymətlərin günün vaxtına görə diferensiasiya edilməsinin, infrastrukturun yaradılmasına çəkilən xərclərə əsaslanan qiymətlərin tətbiqinin nəzərdən keçirilməsi zamanı aztəminatlı istehlakçı kateqoriyaları üzrə son istehlakçı qiymətlərinin dəyişməz saxlanılması;
- pik saatlarda yüklənməni azaltmaq üçün günün müxtəlif vaxtlarına (gecə və gündüz) uyğun elektrik enerjisi tariflərinin tətbiq edilməsi;
- sifariş əsasında ayrılmış həcm və sərfiyyat arasında uyğunsuzluğun aradan qaldırılması üçün elektrik enerjisi üzrə əlavə haqların müəyyən edilməsi;
- reaktiv enerjidən istifadənin səmərəliliyinin artırılması barədə təkliflərin hazırlanması.

Tədbir 3.3.2. Elektrik enerjisindən istifadə modellərinin müzakirə olunması

Aidiyyəti orqanlar elektrik enerjisindən istifadə modellərini və tələbini müəyyənləşdirmək üçün mühüm sənaye tərəfdaşlarının təmsilçiləri ilə müzakirələr aparacaqlar. Bundan əlavə, digər dövlət qurumları ilə müzakirələr əsasında yüksək elektrik qiymətlərindən əziyyət çəkən strateji vacib istehlakçı kateqoriyalarını müəyyən edib, həmin sahələrin qorunması üçün stimullaşdırma tədbirlərini nəzərdə tutacaqlar (məsələn, buraya yüksək elektrik sərfiyyatına malik strateji sənaye sahələri üzrə əlavə güzəştlər aiddir).

Tədbir 3.3.3. İstehlakçıların sərfiyyat proqnozlarının nəzərdən keçirilməsi

Aidiyyəti orqanlar tarif dəyişikliklərinə uyğun olaraq elektrik sərfiyyatında baş verən dəyişiklikləri təhlil edərək, daxili tələbatın artımını daha dəqiq müəyyənləşdirmək üçün gələcək sərfiyyat proqnozlarını yenidən nəzərdən keçirəcəklər. Qiymətqoyma mexanizmlərindəki dəyişikliklər daxili tələbatda istehlak həcminin azalmasına səbəb olarsa, yaranmış ehtiyat həcmi hesabına elektrik enerjisinin ixracı imkanları nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin icrası nəticəsində Azərbaycan Respublikasında istehlakın səmərəliliyinin yüksələrək, 2020-ci ildə real ÜDM-i 125 milyon manat birbaşa və 45 milyon manat dolayı olmaqla, cəmi 170 milyon manat artıracağı proqnozlaşdırılır. Bu prioritetin həyata keçirilməsinin məşğulluğa birbaşa təsiri yoxdur.

Əsas icra göstəricisi:

- elektrik enerjisi istehlakında səmərəliliyin artırılması hesabına qənaət edilmiş təbii qazın TAP/TANAP layihələri vasitəsilə Avropaya ixracı.

Tələb edilən investisiya

Bu prioritetin həyata keçirilməsi üçün heç bir investisiya tələb olunmur.

Gözlənilən risklər

- son istehlakçı tariflərinin artırılması nəticəsində istehlakçıların ödənişdən yayınma hallarının artması;
- elektrik enerjisi istehlakında səmərəliliyin artırılması hesabına qənaət edilmiş təbii qazın ixrac qiymətinin kəskin azalması.

7.3.4. Prioritet 3.4. Effektiv tənzimləmə və hərrac mexanizmlərinin yaradılması

Əsaslandırma

Mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi bir sıra ölkələrdə elektrik enerjisi sektorunun inkişafı istiqamətində atılan mühüm addımlardan biri hesab olunur. Bu baxımdan, elektrik enerjisi sektorunda istehsaldan pərakəndə satışa qədər dəyər zəncirinin bütün həlqələrinin dövlətə məxsus olduğunu və bu sahə üzrə fəaliyyətin dövlət tərəfindən tənzimləndiyini nəzərə aldıqda, enerji sektorunun özəlləşdirilməsi və bu sahəyə əlavə investisiyaların cəlb edilməsi istiqamətində bir sıra zəruri addımların atılması ölkəyə böyük fayda gətirə bilər.

Görüləcək tədbirlər

Tədbir 3.4.1. Elektroenergetika sahəsində əsas tənzimləyici qanunun və digər əlaqəli sənədlərin təkmilləşdirilməsi

Azərbaycan Respublikasında elektroenergetika sektorunda istehsalın, nəqletmənin, paylanmanın və alqı-satqının hüquqi əsaslarını, habelə istehsalçı, təchizatçı və istehlakçıların hüquq və vəzifələrini müəyyən edən, sahənin operativ və davamlı inkişafına şərait yaradan mexanizmlərin işə salınması istiqamətində sistemli yanaşmanı nəzərdə tutan sahə üzrə əsas qanunlar beynəlxalq təcrübə və milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla, yenidən işlənəcək və əlaqəli sənədlər təkmilləşdiriləcəkdir. Bu zaman paylayıcı elektrik şəbəkələrinin üzərinə düşən əlavə xərclərin (sayğacların ödənişsiz quraşdırılması və s.) maliyyə mənbələri dəqiqləşdiriləcəkdir.

Tədbir 3.4.2. Topdansatış bazarının yaradılması

Elektrik enerjisi üzrə topdansatış bazarı yaradılmaqla, bu sahəyə daha böyük həcmdə investisiyaların cəlb edilməsi təmin olunacaqdır.

Tədbir 3.4.3. Özəlləşdirmənin həyata keçirilməsi məqsədilə istehsal aktivlərinin prioritetləşdirilməsi

Seçilmiş özəlləşdirmə paketi üçün istehsal aktivləri prioritetləşdiriləcəkdir. Xərcləri əks etdirən qiymətlərin müəyyənləşdirilməsi məqsədilə, ilk öncə, seçilmiş qurğular üzrə cəlb edilmiş ekspertlərlə birgə əsaslandırılmış təhlil apararaq, səmərəliliyin yüksəldilməsi potensialını simulyasiya edəcəkdir. Həmçinin özəlləşdirmə zamanı potensial aktivlərin strateji vacibliyi (məsələn, ölkənin elektrik enerjisi ilə təhlükəsiz təminatı məqsədilə istehsal gücü 2400 MVt olan "Azərbaycan" İES-in dövlət mülkiyyətində saxlanılması vacibliyi) nəzərdən keçiriləcəkdir.

Tədbir 3.4.4. Dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin hazırlanması

Elektrik enerjisi istehsalı sahəsinə yeni investisiyaların cəlb edilməsi üçün dövlət-özəl tərəfdaşlığı razılaşmaları əsasında yeni mexanizmlər hazırlanacaqdır. İlk əvvəl "Tik-idarə et-təhvil ver" modeli əsasında, sonra isə stimullaşdırıcı tarif və

hərraclar şəklində yeni mexanizmlərdən istifadə ediləcəkdir (xüsusən də bərpaolunan enerji sahələrinin maliyyələşdirilməsində).

Gözlənilən nəticə və nəticə indikatorları

Təkmilləşdirilmiş yeni qanunvericilik bazasının yaradılması, sektor üzrə liberallaşdırılmanın həyata keçirilməsi və sektor üzrə dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin hazırlanması elektrik enerjisi sektorunun inkişafı üçün mühüm amillərdir. Prioritetin icrasının ÜDM-ə və məşğulluğa birbaşa təsiri gözlənilmir.

Tələb edilən investisiya

Bu prioritetə nail olmaq üçün heç bir investisiya qoyuluşu tələb olunmur.

Gözlənilən risklər

Son istehlakçı tariflərinin artırılması istehlakçıların ödənişdən yayınma hallarının çoxalmasına və ümumilikdə, yığım səviyyəsinin azalmasına səbəb ola bilər.

QAZ TƏCHİZATI

Azərbaycan Respublikası təbii qaz hasil edən əsas ölkələrdən biridir. Bu sərvət iqtisadi inkişaf (ixrac şəklində), biznes fəaliyyəti və əhalinin istifadəsi üçün mühüm mənbədir. Qarşıya qoyulmuş prioritetləri həyata keçirməklə, əhalinin fasiləsiz və təhlükəsiz təbii qaz təchizatı ilə yanaşı, bol ehtiyat həcminin saxlanılması təmin ediləcəkdir.

7.4. Strateji hədəf 4. Səmərəli və effektiv qazpaylama infrastrukturunun yaradılması


Azərbaycan Respublikası təbii qaz hasil edən ölkədir. Bu təbii sərvət iqtisadi inkişaf, məşğulluğun təmin edilməsi və ev təsərrüfatlarında istifadə olunması baxımından yüksək əhəmiyyət daşıyır. Təbii qaz üzrə sahib olduğu üstünlük əsasında qurulan prioritetləri həyata keçirməklə, həm bu sərvətin uzunmüddətliliyi, həm də kommersiya, sənaye və ev təsərrüfatlarına qaz təminatının davamlılığı təmin ediləcəkdir.

7.4.1. Prioritet 4.1. Təbii qazın paylanması ilə bağlı bütün növ itkilərin minimuma endirilməsi

Əsaslandırma

Azərbaycan Respublikasında mövcud qaz təchizatı sisteminin xeyli hissəsi keçmiş Sovet İttifaqında mövcud olan standartlar əsasında 1960-1980-ci illərdə qurulmuş şəbəkədən ibarət olduğu üçün illik təbii qaz itkilərinin həcmi böyükdür. Əhalinin və sənayenin təbii qaz tələbatının dinamik surətdə artması, son dövrlərdə qazlaşmanın sürətlənməsi, mövcud şəbəkənin gücünün isə artan tələbata uyğun olmaması təbii qaz təchizatı rejimlərinin tənzimlənməsində böyük çətinliklərin yaranmasına, kommunikasiyaların sıradan çıxmasına, nəticə etibarilə, təbii qaz itkilərinin xeyli artmasına səbəb olmuşdur. 2015-ci ildə təbii qazın paylanması zamanı ümumi itkinin həcmi 1,07 milyard kubmetr olmuşdur. İtki səviyyəsi, beş il öncəki göstərici ilə müqayisədə azalmasına baxmayaraq, 2015-ci ildə "Azəriqaz" İB tərəfindən satın alınan təbii qaz həcminin 18,6 faizini təşkil etmişdir (diaqram 16). Həmçinin 2016-cı ilin yanvar-sentyabr aylarının yekunları üzrə itki səviyyəsi 12,7 faiz olmuşdur.


Diaqram 16. Ölkədaxili qazpaylayıcı şəbəkədə qazın qəbulu və itkisi



Mənbə: “Azəriqaz” İB

Ümumən, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) üzrə magistral və paylayıcı şəbəkədə təbii qaz itkisi 2010-cu ildə 16,7%, 2015-ci ildə 8,1%, 2016-cı ilin yanvar-sentyabr ayları ərzində isə 5,5 faiz olmuşdur (diaqram 17).


Diaqram 17. Ölkədaxili magistral və paylayıcı qaz şəbəkəsində təbii qazın qəbulu və itkisi



Mənbə: “Azəriqaz” İB

Ümumiyyətlə, respublikada təbii qaz üzrə itkilərin böyük əksəriyyəti Bakı şəhərində baş verir. Belə ki, 2016-cı ilin yanvar-avqust aylarında ölkənin ümumi təbii qaz istehlakının 49,7 faizi, eləcə də qaz təchizatı zamanı baş vermiş itkilərin 68,4 faizi Bakının payına düşmüşdür (cədvəl 4).

Cədvəl 4. Texniki itkilərin baş verdiyi əsas regionlar *(2016-cı ilin yanvar-avqust ayları üzrə, faizlə)*




Mənbə: "Azəriqaz" İB

Azərbaycan Respublikasında təbii qaz itkiləri texniki və kommersiya itkiləri olmaqla, iki qrupa bölünür.

Ölkədə təbii qaz itkiləri texniki problemlərlə, əsasən də infrastrukturun köhnə olması ilə bağlıdır. Bakı və Abşeron regionunda təbii qaz təchizatı 40 ildən artıq müddətdə istismar olunan qaz boruları vasitəsilə həyata keçirilir ki, bu da 2015-ci ildə bu regionda sızıntı ilə müşayiət olunan 1,1 milyard m^3-dən artıq qaz itkisinə səbəb olmuşdur. Xüsusilə Bakı regionunda texniki itkilərin azaldılması məqsədilə köhnə və mürəkkəb infrastrukturun modernləşdirilməsinə, təzyiq səviyyələrinin səmərəsizliyinin aradan qaldırılmasına əsaslı investisiya qoyuluşu cəlb ediləcəkdir. Eyni zamanda, şəbəkənin köhnəlməsi və texniki vəziyyəti təhlükəsizlik tələblərinin pozulmasına, ekoloji mühitə mənfi təsirlərə səbəb olur. Şəbəkənin sadəcə genişləndirilməsi ilə gələcəkdə təbii qaz tələbatını təmin etmək qeyri-mümkündür. Bununla əlaqədar olaraq, ölkədaxili təbii qazpaylayıcı şəbəkənin beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulması və müasirləşdirilməsi proqramının həyata keçirilməsi ölkə daxilində dinamik artan təbii qaz tələbatını təmin etməyə, istehlakçılara fasiləsiz və etibarlı şəkildə təbii qazın verilməsinə, itkilərin texniki normalar səviyyəsinə çatdırılmasına, xidmətin keyfiyyətinin artırılmasına, istismar xərclərinin, həmçinin ətraf mühitə mənfi təsirlərin azaldılmasına zəmin yaradacaqdır.

Ötən illərlə müqayisədə respublikada təbii qaz satışı üzrə yığım faizləri artmışdır. Belə ki, 2009-cu ildə satılan təbii qazın dəyəri üzrə yığım faizi xeyli aşağı olsa da, növbəti illərdə bu sahədəki boşluq əhəmiyyətli dərəcədə aradan qaldırılmışdır (diaqram 18). İstehlakçılar üzrə ötən illərdən yaranmış debitor borcların toplanması və "smart" tipli qaz sayğaclarından istifadə nəticəsində istehlak olunacaq təbii qaz həcmlərinə görə öncədən ödəmə hesabına 2015-ci ildə yığımın səviyyəsi satışın dəyərini üstələmişdir.

Diaqram 18. 2009-2015-ci illər üzrə yığım dərəcələrinin tendensiyası *(milyon manatla)*




1. *Həm satış, həm də yığım üzrə göstəricilərə ƏDV daxildir.*
2. 2 dəfə *436 milyon manat məbləğində öhdəliklər silinmişdir.*

Mənbə: "Azəriqaz" İB

2010-cu illə müqayisədə 2016-cı ilin sonuna qeydiyyatdan keçirilməsi proqnozlaşdırılan istehlakçıların sayının 57 faiz artması hesabına, ümumilikdə, təbii qaz satışının həcmində də artım müşahidə olunmuşdur (diaqram 19). Buna baxmayaraq, sayğaclaşma ilə bağlı problemlər hələ də mövcuddur. Qaz sayğaclarının mühafizəsi və kommersiya itkilərinin azaldılması üçün əlavə mexanizmlərin (qazdan qanunsuz istifadəyə görə yeni cərimələrin tətbiqi və s.) tətbiqi zəruridir.

Diaqram 19. Qaz sayğaclarına dəyən zərər üzrə çəkilən xərclər



Mənbə: "Azəriqaz" İB, SOCAR-ın "2014-cü il üzrə illik hesabat"ı

Görüləcək tədbirlər

Tədbir 4.1.1. Mövcud şəbəkənin hərtərəfli qiymətləndirilməsi və inkişaf planının hazırlanması

SOCAR-ın "Azəriqaz" İB sızıntı və ya itkilərin ən yüksək olduğu regionların müəyyən edilməsi üçün, ilk öncə, mövcud şəbəkənin, o cümlədən qazpaylama xətlərinin hərtərəfli qiymətləndirilməsini həyata keçirəcək və bu qiymətləndirmənin nəticələrinə əsasən, modernləşdirmə xərci və itkilərin səviyyəsi kimi iki meyar üzrə regionları qruplaşdıraraq matris yaradacaq və müəssisə üzrə inkişaf planını hazırlayacaqdır. Daha sonra qazpaylama infrastrukturu olmayan ərazilərdə qazpaylama şəbəkəsinin yaradılması və ya modernləşdirilməsi üçün baş plan hazırlayacaqdır. Bu zaman, Bakı şəhərinin və regionların matrisin yüksək itki və ya aşağı xərc qrupunda prioritetləşdirilməsi vacib hesab olunur. Eyni zamanda, texniki itkilərin qarşısının alınması üçün Bakı regionuna əsaslı investisiya qoyuluşları, habelə yığım səviyyələrinin yüksəldilməsi məqsədilə təbii qazdan qanunsuz istifadəyə görə cərimələrin müəyyən edilməsi nəzərdən keçiriləcəkdir.

Bundan başqa, ölkənin qazpaylayıcı sisteminə nəql olunan təbii qazın keyfiyyət göstəricilərinin beynəlxalq standartların tələblərinə tam uyğunlaşdırılması, qazpaylayıcı sistemin texniki vəziyyətinə mənfi təsirlərin azaldılması və istehlakçı məmnuniyyətinin artırılması üçün şəbəkəyə ötürülən təbii qazın təmizlənməsi üzrə müvafiq tədbirlər həyata keçirilməlidir.

Tədbir 4.1.2. Qazpaylama xətlərinin tikintisi üçün tenderlərin elan edilməsi

Maliyyələşmə mənbəyi müəyyən edildikdən sonra SOCAR-ın "Azəriqaz" İB qazpaylama xətlərinin çəkilməsi üçün təchizatçının seçilməsinə və tikinti işlərinin gedişatının izlənilməsinə imkan verən meyarları əhatə edən tenderlər elan edəcəkdir. Əmlak Məsələləri Dövlət Komitəsi SOCAR ilə birgə bəzi regionlarda qazpaylama

fəaliyyətinin özəlləşdirilməsi məqsədilə xarici investorların cəlb edilməsini mümkün maliyyələşdirmə variantlarından biri kimi nəzərdən keçirəcəkdir.

Tədbir 4.1.3. Tikinti fəaliyyəti ilə bağlı əsas icra göstəricilərinin (ƏİG) müəyyənləşdirilməsi

SOCAR-ın "Azəriqaz" İB tikinti fəaliyyəti ilə bağlı ƏİG-lərə riayətetməni şərt kimi baş plana əlavə edəcəkdir. Bundan əlavə, SOCAR-ın "Azəriqaz" İB tikinti işlərinin müəyyən edilmiş hədəflərə uyğun şəkildə gedişatına davamlı nəzarət edəcəkdir.

Tədbir 4.1.4. Yığım səviyyəsinin maksimuma çatdırılması və təbii qazdan qanunsuz istifadəyə qarşı cərimələrin tətbiqinin nəzərdən keçirilməsi

Yığım səviyyəsinin artırılması məqsədilə təbii qazdan qanunsuz istifadəyə qarşı cərimələrin tətbiq edilməsi üçün Azərbaycan Respublikası ilə müqayisə oluna bilən ölkələr üzrə beynəlxalq təcrübə araşdırılmaqla, qanunvericilikdə müvafiq düzəlişlərin edilməsi nəzərdən keçiriləcəkdir. Bundan əlavə, Azərbaycan Respublikası ölkənin təbii qaz təchizatı sektorunun uzunmüddətli uğurunu təmin etmək və təbii qazdan daha çox dəyər əldə etmək məqsədilə zəruri tədbirlər görərək maliyyə vəsaitləri cəlb edəcəkdir.

Tədbir 4.1.5. Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ mənbələrlə təminatının həyata keçirilməsi

Ucqar yaşayış məntəqələrinin qazlaşdırılmasının səmərəliliyinin təhlili, bu sahədə beynəlxalq təcrübə və problemlərin həlli yolları, eləcə də qazlaşdırılması texniki-iqtisadi cəhətdən səmərəli olmayan yaşayış məntəqələrinin alternativ enerji təminatı ilə bağlı araşdırmalar aparılacaq və konkret təkliflər hazırlanacaqdır.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin tərkib hissəsi kimi, Azərbaycan Respublikasında təbii qazın paylanmasında itkilərin azaldılması nəticəsində 2020-ci ildə real ÜDM-in 85 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, cəmi 90 milyon manat artacağı və 340 yeni iş yerinin yaranacağı proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- bütün regionlar üzrə təbii qazın paylanması zamanı baş verən texniki itki səviyyəsinin 8 faizədək azaldılması (əgər hər hansı bölgə üzrə itki səviyyəsi 8 faizdən aşağı olarsa, bunun eyni səviyyədə qalacağı ehtimal edilir);
- təbii qaz təchizatı sisteminin beynəlxalq standartların tələblərinə uyğun olaraq modernləşdirilərək təkmilləşdirilməsi;
- istehlakçıların təbii qaza dinamik artan tələbatının etibarlı şəkildə təmin edilməsi;
- təbii qaz istehlakının proqnozlaşdırılmasının asanlaşdırılması və şəbəkədə ehtimal olunan itkinin qısa zamanda aşkarlanması;
- təbii qaz təchizatı sahəsində mövcud olan ciddi texniki problemlərin aradan qaldırılması;
- istehlakda səmərəliliyin artımı hesabına qənaət edilmiş təbii qazın (təbii qaz emalı zavodlarından) TAP/TANAP layihələri vasitəsilə Avropaya ixracı.

Tələb edilən investisiya

Bu prioritetin tərkib hissəsi kimi, köhnə boru xətlərinin modernləşdirilməsi və ya tikintisi üçün 1 milyard 515 milyon manat investisiya qoyuluşunun tələb olunacağı

proqnozlaşdırılır. SOCAR-ın “Azəriqaz” İB tərəfindən təbii qazın paylanmasında əlavə nəticələr əldə edilməsinə kömək edəcək yeni investisiya layihəsi də hazırlanmışdır. Bu proqramın texniki-iqtisadi əsaslandırılması ayrıca olaraq həyata keçiriləcəkdir.

Gözlənilən risklər

- tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyələşdirmə problemləri;
- tədbirlərin icrası zamanı yarana biləcək texniki çətinliklər;
- istehlakda səmərəliliyin artırılması hesabına qənaət edilmiş təbii qazın ixrac qiymətinin kəskin azalması.

SU TƏCHİZATI VƏ TULLANTI SULARI

Yerüstü su ehtiyatlarının 70 faizdən çox hissəsinin transsərhəd su axınlarının hesabına formalaşdığını nəzərə alaraq, Azərbaycan Respublikasının daxili su hövzələrində qeyri-bərabər paylanmış məhdud su ehtiyatlarının səmərəli istifadəsinin və mühafizəsinin təmin edilməsi qarşıda duran başlıca vəzifələrdəndir.[31]

Ölkədə su ehtiyatlarının və ondan istifadənin uçotunun təkmilləşdirilməsi və bu qiymətli təbii sərvətin məsuliyyətli şəkildə idarə edilməsi, istehlakçıların fasiləsiz və keyfiyyətli su təchizatı ilə təmin edilməsi, ümumilikdə, su təsərrüfatının idarə olunmasında effektivliyin yüksəldilməsi istiqamətində təkmil normativ-hüquqi baza yaratmaqla zəruri tədbirlər görüləcəkdir.

Görüləcək işlərin nəticəsi olaraq, Azərbaycan Respublikasında içməli və tullantı su infrastrukturunun genişləndirilməsi, habelə təchizatın və istehlakın səmərəliliyinin yüksəldilməsi yolu ilə effektiv su təchizatı sistemi yaradılacaqdır.

7.5. Strateji hədəf 5. Yüksəksəviyyəli su idarəetmə strukturunun yaradılması

7.5.1. Prioritet 5.1. İçməli və tullantı su infrastrukturunun tətbiqinin genişləndirilməsi

Əsaslandırma

2011-2014-cü illər ərzində dövlət tərəfindən su və kanalizasiya xidmətləri təsərrüfatının modernləşdirilməsinə və idarə edilməsinə böyük həcmdə investisiya qoyulmuşdur. Belə ki, qeyd olunan dövr ərzində bu sahəyə 2,7 milyard manatdan çox vəsait ayrılmışdır[32] (diaqram 20). Yalnız 2013-cü ildə su və kanalizasiya şəbəkəsinə dövlət vəsaiti hesabına qoyulmuş investisiyaların məbləği onun cəmi kapital qoyuluşu xərclərinin 9,8 faizini təşkil etmişdir.[33]

Yalnız 2013-cü ildə su və kanalizasiya şəbəkəsinə dövlət vəsaiti hesabına qoyulmuş investisiyaların məbləği bu sahəyə yönəldilmiş daxili vəsaitlərin 99,8 faizini təşkil etmişdir.[34]


[31] Mənbə: “Azərsu” ASC

[32] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

[33] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

[34] Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Diaqram 20. 2011-2014-cü illər ərzində su infrastrukturuna qoyulmuş investisiyaların həcmi *(milyon manatla)*



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi


Azərbaycan Respublikasında səmərəli və effektiv su və kanalizasiya sisteminin yaradılması istiqamətində səylərin davam etdirilməsi zəruridir.

Su sektoru bir neçə mərhələdən və çoxsaylı maraqlı tərəflərdən ibarət olan mürəkkəb bir ekosistemdir. Əhali və qeyri-əhali istehlakçılarının su ilə təchiz edilməsi üçün su, ilk növbədə, mənbələrdən qəbul edilməklə anbarlarda saxlanılmalı, daha sonra boru kəmərlərindən və digər zəruri avadanlıqlardan ibarət infrastruktur vasitəsilə son istehlakçılara çatdırılmalıdır. Nəhayət, tullantı suyunun qəbul edilməsi və təmizlənməsi bu ekosistemi tamamlayır, eləcə də çirkab suları təmizlənərək təhlükəsiz şəkildə sistemin özünə qaytarılır.

Bu baxımdan, su ehtiyatlarından səmərəli istifadə edilməsi, suyun istifadəsində qənaətli texnologiyaların tətbiqi, su itkilərinin azaldılması, istifadə edilən suyun qiyməti və digər məsələlər ölkənin dayanıqlı su təminatı baxımından böyük əhəmiyyət kəsb edir.

Son dövrlər su və kanalizasiya sektoruna qoyulmuş dövlət investisiyaları hesabına Azərbaycan Respublikasında sayğaclı və qeydiyyatdan keçmiş istehlakçıların sayı artmışdır. Belə ki, 2015-ci ildə sayğaclaşma səviyyəsi 61 faizə çatmışdır (diaqram 21). Kommersiya və sənaye istehlakçı qrupları arasında sayğaclaşma səviyyəsi 80 faiz təşkil edir. Azərbaycan Respublikasında 2 milyondan artıq ev təsərrüfatından (01.10.2016-cı il tarixinə "Azərsu" ASC-nin xidmət etdiyi abonentlərin sayı 1 milyon 350 min olmuşdur) cəmi 792 mininin su sayğacları üzrə qeydiyyatdan keçdiyini, habelə mövcud qanunvericilikdə qeyri-əhali qrupu üzrə sayğaclaşmanın sifarişçi hesabına olduğunu nəzərə aldıqda qeyd etmək olar ki, bu sahənin təkmilləşdirilməsinə ehtiyac vardır.

Diaqram 21. Sudan səmərəli istifadə imkanlarının mövcudluğu



Mənbə: "Azərsu" ASC


Kanalizasiya xidmətləri sahəsində müəyyən təkmilləşdirmələr aparılmasına baxmayaraq, bu xidmətlər hələ də optimal səviyyəyə çatdırılmamışdır. 2015-ci ildə Azərbaycan Respublikasında əhali qrupu üzrə 314 milyon kubmetr su satıldığı halda, toplanmış tullantı suyunun miqdarı cəmi 144 milyon kubmetr olmuşdur ki, bu da buraxılan suyun 46 faizini təşkil edir (diaqram 22). Qalan 54 faiz isə kommersiya itkiləri və tullantı suyunun qəbul edilməsi sisteminin olmaması ilə bağlıdır.[35]

Bu baxımdan, kanalizasiya sularının toplanma səviyyəsi təkmilləşdirilə bilər. Belə ki, müvafiq göstərici Rusiyada 74 faiz, Türkiyədə 73 faiz, Bolqarıstanda 73 faiz, Ukraynada 65 faizdir.[36]

[35] Mənbə: "Azərsu" ASC

[36] Mənbə: Global Water Intelligence

Diaqram 22. Tullantı sularının toplanma səviyyəsi



Mənbə: "Azərsu" ASC, Global Water Intelligence

Görüləcək tədbirlər

Tədbir 5.1.1. İnfrastrukturun olmadığı ərazilər üzrə qiymətləndirmə aparılması

"Azərsu" ASC içməli və ya tullantı su infrastrukturunun olmadığı ərazilər üzrə səmərəlilik nəzərə alınmaqla qiymətləndirmə apararaq, infrastruktur üzrə baş plan hazırlayacaqdır. Eyni zamanda, ev təsərrüfatları üçün içməli və tullantı su infrastrukturunun təkmilləşdirilməsi, ən aşağı xərc səviyyəsinin və ən böyük tələbatın olduğu regionları prioritetləşdirməklə, infrastruktura tələb olunan mümkün investisiya xərclərinin dəqiqləşdirilməsi məqsədilə, ekspertləri cəlb etməklə müqayisəli araşdırmalar aparacaq və bu xərclərə əməl olunmasını idarəetmə üzrə ƏİG-yə əlavə edəcəkdir.

Tədbir 5.1.2. Sayğaclaşma səviyyəsinin yüksəldilməsi və qeyri-əhali qrupu üzrə tam başa çatdırılması

"Azərsu" ASC monitorinqlər təşkil edərək, su istehlakçıları arasında sayğaclardan istifadə səviyyəsini yüksəldəcəkdir (xüsusilə qeyri-əhali qrupu üzrə sayğacın sifarişçi hesabına quraşdırıldığını nəzərə alaraq, bu qrup istehlakçılar üzrə sayğaclaşma tam başa çatdırılacaqdır). Bu zaman sayğacı olmayan su istehlakçılarının aşkarlanması, sayğacdan istifadə səviyyəsinin yüksəldilməsi üçün müəyyənləşdirilmiş konkret hədəflərin idarəetmə üzrə ƏİG-yə daxil edilməsi, eləcə də

su sayğaclarının quraşdırılması üçün tələb olunan zaman müddətinə və su sayğacından istifadə hədlərinə nail olmaq üçün tələb edilən işçi qüvvəsinə dair qərar verilməsi keçirilən monitorinqlərin əsas məqsədi olacaqdır.

Tədbir 5.1.3. İnfrastruktura investisiya qoyuluşları üzrə tenderlərin elan edilməsi

"Azərsu" ASC təchizatçının seçilməsinə və tikinti işlərinin gedişatının izlənilməsinə imkan verən meyarları əhatə edən tenderlər elan edəcək, infrastruktura investisiyaların qoyulması üçün maliyyələşmə mənbələrini müəyyənləşdirdikdən sonra infrastrukturun təkmilləşdirilməsinə başlayacaq və işlərin gedişatını baş plana uyğun olaraq davamlı izləyəcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin tərkib hissəsi kimi, içməli və tullantı su infrastrukturunun yaradılması nəticəsində 2020-ci ildə real ÜDM-in 25 milyon manat birbaşa və 15 milyon manat dolayı olmaqla, cəmi 40 milyon manat artacağı proqnozlaşdırılır. Bu prioritetin məşğulluq səviyyəsinə birbaşa təsiri gözlənilmir.

Əsas icra göstəriciləri:

- kommersiya itkiləri səviyyəsinin 20 faizdən ən azı 14 faizədək azaldılması ("Azərsu" ASC-nin 670 milyon m^3 illik su təchizatından);
- tullantı sularının toplanması səviyyəsinin 46 faizdən 65 faizədək artırılması ("Azərsu" ASC-nin ev təsərrüfatları üçün 314 milyon m^3 illik su təchizatından);
- sayğacı olmayan qeydiyyatlı istifadəçilərin payının 26 faizdən 5 faizədək azaldılması (ev təsərrüfatlarının cəmi sayı 2 milyon 20 min olmaqla).

Tələb edilən investisiya

Bu prioritetin tərkib hissəsi kimi, yeni su boru xətlərinin modernləşdirilməsi və ya tikintisi üçün 1 milyard 135 milyon manat investisiya qoyuluşu tələb olunur (investisiya həcmi üzrə əlavə texniki-iqtisadi əsaslandırmanın aparılması vacibdir).

"Azərsu" ASC yuxarıda göstərilənlərdən əlavə, nəticələrin əldə edilməsi üçün investisiya proqramı da hazırlamışdır. Bu proqram kanalizasiya sisteminin inkişafı, tullantı sularının təmizlənməsi, su ehtiyatlarının idarəolunması, qrunt və səth sularının idarəolunması kimi mövzuları əhatə edir. Proqram üzrə iqtisadi və texniki əsaslandırma hökumətə ayrıca təqdim ediləcəkdir.

Gözlənilən risklər

Tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyə vəsaitinin çatışmazlığı risk yaradan əsas amildir.

7.6. Strateji hədəf 6. Su təchizatında itkilərin azaldılması və səmərəliliyin təmin edilməsi


7.6.1. Prioritet 6.1. İtkilərin minimuma endirilməsi, sudan istifadə tariflərinin optimallaşdırılması və tələb olunan infrastruktur üçün investisiyalar cəlb etməklə su istehlakında səmərəliliyin yüksəldilməsi

Əsaslandırma

Elektrik enerjisi və təbii qaz istehlakında olduğu kimi, Azərbaycan Respublikasında bütün istehlakçı qrupları üzrə, o cümlədən ev təsərrüfatları və sənaye sahələri üçün su istehlakının səmərəliliyi yüksəldilməlidir. Bunun üçün optimal istehlakçı qiymətinin tətbiqi və ünvanlı investisiyaların qoyulması nəzərdən keçiriləcəkdir.

Azərbaycan Respublikasında su xidməti üzrə qiymətlər istehlakçı qruplarına və regionlara görə fərqlidir (cədvəl 5). Paytaxt Bakıda və bir neçə inzibati ərazi vahidində (Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Xırdalan şəhərləri və Abşeron rayonu) istehlakçılar digər regionlarla müqayisədə suyun sərfiyyatına görə hər kubmetr üçün 5 qəpik artıq ödəniş edirlər. Lakin ölkə üzrə tullantı sularının axıdılması xidmətləri üzrə çəkilən xərclər istehlaka əsaslanmadığından, bu xidmət üçün sabit qiymət müəyyənləşdirilmişdir.

Cədvəl 5. İstehlakçı qrupları və regionlar nəzərə alınmaqla diferensiasiyanın mövcudluğu




1. *Bakı regionu dedikdə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu nəzərdə tutulur.*
2. *2016-cı il 13 may tarixindən tətbiq olunan yeni tarifə əsasən*
3. *Sudan xammal kimi istifadə edən istehlakçılar (məsələn, pivə istehsalçıları) m^3 üzrə 12.0 manat ödəniş edir.*

Mənbə: Azərbaycan Respublikası Tarif (qiymət) Şurası

Xüsusən də, ölkədə manatın ABŞ dollarına nisbətdə devalvasiyasını nəzərə aldıqda qeyd etmək olar ki, içməli və tullantı su qiymətləri Azərbaycan Respublikası ilə müqayisə edilə bilən ölkələrə nisbətən aşağıdır (cədvəl 6).

Cədvəl 6. İçməli və tullantı su tariflərinin digər ölkələrlə müqayisəsi



1. *Türkiyə üçün İstanbul, Rusiya üçün Moskva, Almaniya üçün Berlin şəhərləri üzrə tariflər nəzərə alınmışdır.*
2. *Azərbaycan üçün Bakı şəhəri üzrə tariflər nəzərə alınmışdır (2014-2016-cı illər üzrə manatın ABŞ dollarına nisbətdə orta mübadilə məzənnəsi 0,67 manat götürülmüşdür).*
3. *Qeyd edilən ölkələrin yerli valyutaları ilə ABŞ dolları arasındakı məzənnə dəyişikliyi nəzərə alınmışdır.*

Mənbə: Global Water Inteligence, Azərbaycan Respublikası Tarif (qiymət) Şurası

İstehlakçıların fasiləsiz və keyfiyyətli su ilə təchiz edilməsi üçün mövcud infrastrukturun modernləşdirilməsi suyun nəqli zamanı baş verən itkilərin qarşısının alınmasına imkan yaradır. Belə ki, 2011-ci illə müqayisədə 2015-ci ildə istehlakçıların içməli su ilə təchiz edilməsi üçün mənbədən götürülən suyun son istehlakçıya çatdırılması zamanı baş vermiş itkilərin səviyyəsi azalaraq 52 faiz[37] təşkil etsə də, bu göstəricinin daha da yaxşılaşdırılmasına zərurət vardır.

Ev təsərrüfatlarına suyun paylanması zamanı yaranmış itkilər təxminən 30-32 faiz təşkil edir ki, bu da bir sıra ölkələrin müvafiq göstəricisi ilə müqayisədə (Türkiyə - 12 faiz, Polşa - 10 faiz, Yunanıstan - 8 faiz, Almaniya - 4 faiz) yüksəkdir. Yerdə qalan digər itkilər isə kommersiya itkiləri hesab edilməklə, təxminən 20 faiz həddində olmuşdur.[38]

Görüləcək tədbirlər

Tədbir 6.1.1. Şəbəkənin hərtərəfli qiymətləndirilməsi aparılmaqla, itkilərin minimum səviyyəyə çatdırılması

"Azərsu" ASC itkilərin səbəblərini və bu itkilərin ən çox baş verdiyi sahələri müəyyən etmək üçün, zərurət yaranacağı halda ekspertlər cəlb etməklə, mövcud

[37] Mənbə: "Azərsu" ASC

[38] Mənbə: "Azərsu" ASC, Global Water Intelligence

şəbəkənin hərtərəfli qiymətləndirilməsini həyata keçirəcək və bu qiymətləndirmənin nəticələrinə əsasən zəruri tədbirlər görəcəkdir. Həmçinin Cəmiyyət müqayisəli araşdırmalar apararaq, itkilərin azaldılması istiqamətində görüləcək zəruri tədbirlər üzrə tələb olunan vaxt qrafikini, o cümlədən infrastrukturun yenidən qurulmasının mümkün xərclərini müəyyən etməklə, maliyyələşmə mənbəyini əks etdirən baş plan hazırlayacaq və bu xərclərə əməl olunmasını idarəetmə üzrə ƏİG-yə əlavə edəcəkdir.

Tədbir 6.1.2. Su ehtiyatlarından səmərəli istifadə məqsədilə tədbirlər görülməsi

Ölkədə su ehtiyatlarının və onlardan istifadənin uçotunun təkmilləşdirilməsi, sudan ödənişli istifadənin təyinatının müəyyənləşdirilməsi, bu sektor üzrə vahid tarif siyasətinin həyata keçirilməsi, su ehtiyatlarından səmərəli istifadə və ümumilikdə, su təsərrüfatının idarə olunmasında effektivliyin yüksəldilməsi məqsədilə ölkənin su təsərrüfatı balansının tərtibi, suyun mənbədən götürülməsindən tutmuş son istehlaka qədər olan bütün mərhələlər üzrə sudan istifadə haqqının sərfəli tənzimlənməsi istiqamətində tədbirlər görüləcəkdir.

Tədbir 6.1.3. Su və kanalizasiya xidmətləri üzrə optimal tarif səviyyəsinin nəzərdən keçirilməsi

Müvafiq dövlət qurumu istehlak həcmlərindəki dəyişikliklərin tariflərə mümkün təsirlərini təhlil edərək, habelə GINI indeksi və ya istehlak gücü nəzərə alınmaqla, qiymətlərin cəmiyyət üçün optimal səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə müqayisəli araşdırmalar apararaq, su və kanalizasiya xidmətləri üzrə mövcud qiymətlərin araşdırmalar nəticəsində müəyyən edilmiş optimal tarif səviyyəsinə uyğunlaşdırılması məsələsinə baxacaqdır. Həmçinin istehlakçı kateqoriyaları üzrə minimal tariflərin tətbiq edildiyi istehlak həcmi səviyyələrinin müəyyənləşdirilməsini və bu səviyyələri aşan izafi istehlak üçün daha yüksək tariflərin (dövlət tərəfindən müəyyənləşdirilmiş həddə qədər) tətbiqini nəzərdə tutan ikisəviyyəli tarif sistemi nəzərdən keçiriləcəkdir. Bu sistem minimum qiymətqoymanı təmin etməklə və sərfiyyata əsaslanmaqla, qiymətlərin tədricən artımını nəzərdə tutacaqdır.

Tədbir 6.1.4. Su və kanalizasiya xidmətlərindən istifadə edən xüsusi istehlakçı qrupları üzrə sosial proqramların hazırlanması

Sosial proqramların əhatə edəcəyi aztəminatlı əhali və strateji əhəmiyyətli digər istehlakçı qruplarının müəyyənləşdirilməsi məqsədilə aidiyyəti dövlət orqanları ilə işlərin əlaqələndirilməsi istiqamətində tədbirlər görüləcəkdir. Müvafiq dövlət qurumu bu sosial proqramlara uyğun olaraq müəyyənləşdirilmiş istehlakçı kateqoriyaları üçün güzəştlər tətbiq etməklə, tarif siyasətini həyata keçirəcəkdir. Qeyd olunan meyarlar əsasında müəyyənləşdirilmiş tariflərin tətbiqindən sonra uzunmüddətli perspektivdə fasiləsiz və keyfiyyətli su təchizatını təmin etmək məqsədilə "Azərsu" ASC suyun istehlak səviyyəsindəki dəyişiklikləri nəzərə almaqla, gələcəkdə sudan istifadə üzrə proqnoz göstəricilərini müəyyənləşdirəcəkdir.

<u>Gözlənilən nəticə və nəticə indikatorları</u>

Bu prioritetin tərkib hissəsi kimi, su istehlakında səmərəlilik yüksəldilərək, 2020-ci ildə real ÜDM-in 12 milyon manat birbaşa və 8 milyon manat dolayı olmaqla, cəmi 20 milyon manat artacağı proqnozlaşdırılır. Bu sahədə məşğulluğa birbaşa təsir gözlənilmir.

Əsas icra göstəricisi:

“Azərsu” ASC-nin paylanmada olan itkilərinin 31 faizdən[39] 25 faizədək (müəyyən edilmiş bu hədəf təxminən 211 milyon m^3 olsa da, bençmark hesab edilən 10 faizlə müqayisədə hələ də yüksəkdir[40]) endirilməsi.

Tələb edilən investisiya

Bu prioritetin tərkib hissəsi olaraq, su infrastrukturunun modernləşdirilməsinə 845 milyon manat investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılır.

Gözlənilən risklər

Son istehlakçı tariflərinin artırılması istehlakçıların ödənişdən yayınma hallarının artmasına və ümumilikdə, yığım səviyyəsinin azalmasına səbəb ola bilər.

[39] Mənbə: “Azərsu” ASC

[40] Mənbə: “Azərsu” ASC

İSTİLİK TƏCHİZATI

Azərbaycan Respublikasında şəhər və rayonların sürətli inkişafı, infrastruktur şəbəkələrinin genişlənməsi, yeni yaşayış, təhsil, səhiyyə obyektlərinin, ictimai və digər sosial binaların tikintisi və istifadəyə verilməsi ilə əlaqədar onların infrastruktur tələbatının ən vacib elementlərindən olan enerjidaşıyıcılarla, o cümlədən istilik təchizatı xidmətləri ilə lazımi səviyyədə təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bu baxımdan müəyyən edilən strateji hədəflərin həyata keçirilməsi ölkədə dayanıqlı və etibarlı istilik təchizatı sistemi yaratmaqla, istehlakçıların istilik enerjisinə olan tələbatının fasiləsiz və keyfiyyətli təminatını təşkil etməyə, isitmə məqsədilə istifadə edilən təbii qaz və elektrik enerjisi sərfiyyatını azaltmaqla, enerji resurslarından səmərəli istifadə olunmasına, yanğın və ekoloji təhlükəsizliyin təmin edilməsinə imkan verəcəkdir.

7.7. Strateji hədəf 7. Dayanıqlı və etibarlı istilik təchizatı infrastrukturunun yaradılması

7.7.1. Prioritet 7.1. Coğrafi, sosial və iqtisadi xüsusiyyətlər nəzərə alınmaqla, ölkədə optimal istilik enerjisi və isti su təchizatı sisteminin genişləndirilməsi

Əsaslandırma

2005-ci ildən başlayaraq, Azərbaycan Respublikasında istilik təchizatı sahəsinin yenidən qurulması və inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Belə ki, istilik təchizatı sistemlərinin bərpası və yaxşılaşdırılması tədbirləri çərçivəsində görülmüş işlər istilik təchizatının inkişaf dinamikasında nəzərəçarpacaq dəyişikliklərin baş verməsinə, istiliklə təmin edilən yaşayış binalarının, təhsil, səhiyyə və digər obyektlərin sayının ildən-ilə artmasına səbəb olmuşdur.

Hazırda istilik təsərrüfatlarında 531 qazanxana istismar edilməklə, 3568 yaşayış binası, 276 məktəb, 154 uşaq bağçası, 151 səhiyyə obyekti və 603 digər sosial obyekt istiliklə təmin edilir ki, bu da 2004-2005-ci illərlə müqayisədə istilik mənbələrinin sayının 365 ədəd və ya 3,2 dəfə, istiliklə təmin olunan yaşayış binalarının sayının 2580 ədəd və ya 3,6 dəfə, məktəblərin sayının 130 ədəd və ya 1,9 dəfə, uşaq bağçalarının sayının 70 ədəd və ya 1,8 dəfə, səhiyyə obyektlərinin sayının 90 ədəd və ya 2,4 dəfə, digər obyektlərin sayının isə 512 ədəd və ya 6,6 dəfə artırılmasına imkan vermişdir (cədvəl 7).

Cədvəl 7. Mərkəzləşdirilmiş istilik təchizatı sisteminin inkişaf dinamikası

Göstəricilər	Mövsüm	Qazanxanalar	Yaşayış binaları	Məktəblər	Uşaq bağçaları	Səhiyyə obyektləri	Digər obyektlər
İstiliklə təmin edilən istehlakçıların sayı, ədədlə	2004-2005-ci il mövsümü	166	988	146	84	61	91
	2005-2006-cı il mövsümü	202	1519	176	111	70	112
	2006-2007-ci il mövsümü	234	1750	218	124	97	131
	2007-2008-ci il mövsümü	312	1933	277	123	127	203
	2008-2009-cu il mövsümü	310	2072	242	141	126	225
	2009-2010-cu il mövsümü	329	2187	244	153	133	265
	2010-2011-ci il mövsümü	352	2305	262	164	142	270
	2011-2012-ci il mövsümü	362	2561	266	158	131	310
	2012-2013-cü il mövsümü	436	2819	268	145	135	363
	2013-2014-cü il mövsümü	508	3142	275	156	147	421
	2014-2015-ci il mövsümü	525	3450	286	160	157	553
	2015-2016-cı il mövsümü	531	3568	276	154	151	603
2004-2005-ci il mövsümünə nisbətən fərq		3,2 dəfə	3,6 dəfə	1,9 dəfə	1,8 dəfə	2,4 dəfə	6,6 dəfə

Mənbə: “Azəristiliktəchizat” ASC

Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin ildən-ilə gücləndirilməsi Azərbaycan Respublikasında müasir standartlara cavab verən kommunal xidmət kompleksinin yaradılmasını, o cümlədən istehlakçıların istilik təchizatı xidmətləri ilə keyfiyyətli təminatı üçün infrastruktur şəbəkələrinin yenidən qurulması işlərinin davam etdirilməsini şərtləndirir.

Mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin əhatə dairəsinin genişləndirilməsi isitmə məqsədləri üçün birbaşa istifadə edilən təbii qaz və elektrik enerjisindən daha səmərəli və təyinatı üzrə istifadə olunmasına, mazut, dizel yanacağı, odun və digər yanacaq vasitələrindən istifadəni minimuma endirməklə, ətraf mühiti və ekoloji təmizliyi qorumağa imkan verəcəkdir.

Görüləcək tədbirlər

Tədbir 7.1.1. İstilik mənbələrinin yaradılması, bərpası və yenidən qurulması

Azərbaycan Respublikasında mövcud rayon istilik qazanxanalarından təmin edilən mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin səmərəsizliyi, xüsusən də inkişaf etmiş ölkələrin bu istiqamətdəki təcrübəsi nəzərə alınaraq, hazırda fəaliyyət göstərən rayon istilik qazanxanalarının tədricən ləğv edilməsi, əvəzində isə yeni texnologiyalara (bərpaolunan enerji texnologiyaları, istilik nasosları və s.) əsaslanan, müasir tipli məhəlli istilik sistemlərinin tətbiqi istilik təchizatı strategiyasında dəyişiklikləri zəruri edir. Bununla belə, rayon istilik qazanxanalarının eyni vaxtda məhəlli sistemlərin xeyrinə ləğv edilməsi praktiki və iqtisadi baxımdan əlverişli hesab olunmur. Bu məqsədlə mərhələlərlə aşağıdakı işlərin yerinə yetirilməsi planlaşdırılır:

− mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin əsas hissəsi olan rayon istilik qazanxanalarının mövcud texniki vəziyyətinin qiymətləndirilməsi, iqtisadi effektivlik, perspektiv inkişaf, təhlükəsizlik və ekoloji baxımdan istismarının davam etdirilməsinin məqsədəuyğunluğu üzrə tədbirlərin hazırlanması, nəticələrdən asılı olaraq onların bərpa edilməsi, məhəlli istilik mənbələri yaratmaqla, əhatə dairəsinin məhdudlaşdırılması və ya ləğv edilməsi üzrə müvafiq işlərin həyata keçirilməsi;

− rayon istilik qazanxanalarında istehsal edilən istilik enerjisinin paylanması funksiyasını yerinə yetirən istilik məntəqələrinin, tədricən yenidən qurulmaqla, məhəlli qazanxanalara çevrilməsi üzrə layihələrin iqtisadi təhlilinin aparılması və bunun əsasında icra mexanizmlərinə dair tədbirlərin hazırlanaraq həyata keçirilməsi;

− istilik təchizatı təmin edilməyən ərazi, məhəllə və binalarda istilik təchizatı üçün variantların müəyyənləşdirilməsi, müvafiq olaraq yeni sistemlərin qurulması.

Tədbir 7.1.2. Alternativ və bərpaolunan enerji mənbələrindən istifadə edilməsi

İsitmə məqsədləri üçün alternativ və bərpaolunan enerjidən istifadənin, əsasən də günəş, külək, geotermal və biokütlə enerji potensialının qiymətləndirilməsi və ondan istifadənin kütləviliyinin təmin edilməsi məqsədilə aşağıdakı istiqamətdə işlər görülməsi planlaşdırılır:

− Azərbaycan Respublikasında regionlar üzrə isitmə məqsədilə alternativ və bərpaolunan enerjidən istifadə potensialının qiymətləndirilməsi üzrə monitorinqin aparılması və tətbiqinin üstünlüklərinin araşdırılması;

− alternativ və bərpaolunan enerji mənbələrindən istifadə üçün ilkin qurğuların quraşdırılmasının kapitaltutumlu olması ilə əlaqədar onların yeni yaşayış və qeyri-yaşayış tikililərində istifadəsinin əlverişliliyi nəzərə alınaraq, tətbiqinin stimullaşdırılması;

− respublikanın qaz şəbəkəsinə qoşulması texniki-iqtisadi baxımdan səmərəsiz olan və ya yaxın gələcəkdə təbii qaz təchizatı şəbəkəsinə qoşulması planlaşdırılmayan ərazilərdə, xüsusilə də iri istehlakçılar olan inzibati binalarda və obyektlərdə (məktəblər, poliklinika-xəstəxanalar, yerli bələdiyyə binaları və s.) istilik təchizatı üçün bərpaolunan enerji mənbələrindən istifadə potensialının qiymətləndirilməsi.

Tədbir 7.1.3. Enerji səmərəliliyinin və enerjiyə qənaətin yaxşılaşdırılması

Bu məqsədlə aşağıdakı işlərin həyata keçirilməsi nəzərdə tutulur:

− Azərbaycan Respublikasında yaşayış və qeyri-yaşayış sahələrinin istilik enerjisi ilə təminatı üçün enerji daşıyıcılarından səmərəli istifadə edilməsi üzrə monitorinq

aparılması və qeyri-effektiv istifadənin qarşısını ala biləcək tədbirlərin işlənib hazırlanması;

− istilik enerjisinin istehsalında yanacaqdan (təbii qazdan) istifadənin səmərəliliyinin artırılması;

− istilik təchizatı sistemində enerjiyə qənaət və enerji səmərəliliyinin artırılmasına imkan verən texnologiyaların tətbiqinin genişləndirilməsini stimullaşdıran tədbirlərin həyata keçirilməsi;

− istilik təchizatı sistemində, yaşayış və qeyri-yaşayış sahələrində istilik itkisinin azaldılmasına imkan verən tədbirlərin həyata keçirilməsi;

− istilik sayğaclarının tətbiq edilməsi imkanlarının təhlili və müvafiq təkliflərin irəli sürülməsi.

Tədbir 7.1.4. İstilik enerjisindən istifadə zamanı ətraf mühitin qorunması üçün tədbirlər görülməsi

Bu məqsədlə aşağıdakı işlər nəzərdə tutulur:

− istilik təchizatı sistemlərində avadanlıqların ekoloji tələblərə və müvafiq standartlara uyğunluğunun öyrənilməsi üzrə monitorinqin aparılması, ətraf mühit üçün ziyanlı olan texnologiyaların istismardan çıxarılması və yenilənməsi üzrə tədbirlərin qiymətləndirilməsi;

− isitmə məqsədləri üçün ətraf mühitə ziyan vurmamaqla, təbii ehtiyatlardan səmərəsiz istifadə olunmasının qarşısının alınmasına yönəldilən tədbirlərin işlənib hazırlanması təmin ediləcəkdir.

Tədbir 7.1.5. İstilik təchizatı üçün enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi

İstilik təchizatı infrastrukturunun inkişaf etdirilməsi üçün investisiyaların əsas istiqamətləri üzrə səmərəliliyin artırılması və ətraf mühitin qorunmasının təmin edilməsi baxımından istilik təchizatı üzrə ölkədə istifadə olunan enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi istiqamətində elmi-tədqiqat və layihə-axtarış işlərinin aparılması, istilik təchizatının əhatəliliyinin təmin edilməsi, istilik təchizatı üçün enerji mənbələrindən istifadənin strukturunun optimallaşdırılması mühümdür. Bu məqsədlə:

- respublikanın inzibati ərazi bölgüsü, iqlim və relyefi nəzərə alınmaqla, istilik tələbatının qiymətləndirilməsi;

- istilik tələbatına müvafiq olaraq istilik təchizatının təmin edilməsində istifadə olunan istilik mənbələrinin növlərinin və kəmiyyətinin cari vəziyyətinin qiymətləndirilməsi;

- ölkə üzrə regional, iqlim və relyef xüsusiyyətləri, enerji mənbələrinin mövcudluğu və ənənəvi enerji mənbələri ilə təminat səviyyəsi nəzərə alınmaqla, istilik təchizatı üçün prioritet enerji mənbələrinin müəyyənləşdirilməsi;

- istilik təchizatı üçün seçilmiş prioritet enerji mənbələrindən istifadənin stimullaşdırılması və səmərəliliyinin artırılması üzrə elmi tədqiqatların aparılması, təklif və tövsiyələrin, normaların və qaydaların hazırlanması;

- seçilmiş istilik mənbələri üzrə texniki-ekoloji və digər normalar nəzərə alınmaqla, layihə-axtarış işlərinin aparılması və ilkin mümkün layihə təkliflərinin hazırlanması nəzərdə tutulur.

Gözlənilən nəticə və nəticə indikatorları

Bu prioritetin icrası nəticəsində 2017-2020-ci illərdə Bakı şəhərində və respublikanın regionlarında mərkəzləşdirilmiş istilik təchizatı sistemlərinin bərpası və yenidən qurulması ilə bağlı, ümumilikdə, 2915 layihə icra ediləcəkdir. Həmin layihələrin 2545-i yaşayış binalarında və sosial obyektlərdə aşağı paylama və məhəllədaxili istilik sistemlərinin yenidən qurulmasına, 55-i istilik enerjisinin paylanması funksiyasını yerinə yetirən istilik məntəqələrinin tədricən yenidən qurulmaqla, məhəlli qazanxanalara çevrilməsinə, 84-ü mövcud qazanxanaların modernləşdirilməsinə, 55-i yeni istilik mənbəyinin yaradılmasına, 176-sı qazanxanaların qazlaşdırılmasına aiddir. Eyni zamanda, bu prioriteti həyata keçirməklə, 2020-ci ildə real ÜDM-in 12 milyon manat məbləğində artması və 950 yeni iş yerinin yaradılması proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- səmərəlilik nəzərə alınmaqla, istilik enerjisi istehsalının həcmi 2015-ci illə müqayisədə 427 min Qkal artaraq, 1767 min Qkal təşkil edəcəkdir;
- istilik təchizatının əhatə dairəsi genişlənməklə, 2017-2020-ci illərdə istiliklə təmin edilən yaşayış binalarının sayı 50,4 faiz artaraq 5689 binaya çatdırılacaqdır ki, bu da istiliklə təmin edilməsi nəzərdə tutulan binaların, ümumilikdə, 87 faizini təşkil edəcəkdir. Qeyd edilən dövrdə əlavə olaraq 550-yə yaxın yaşayış binasında texniki cəhətdən nasaz olan istilik təchizatı sistemi əsaslı şəkildə təmir edilməklə, istilik təchizatının yaxşılaşdırılması nəzərdə tutulur.

Tələb edilən investisiya

Bu prioritet üzrə qeyd edilən layihələrin icrası üçün 190 milyon manat investisiya qoyuluşunun tələb olunacağı proqnozlaşdırılır. Nəzərdə tutulan tədbirlərin texniki-iqtisadi əsaslandırılması ayrıca olaraq aparılacaq və kommunal xidmətlər sektorunda fəaliyyət göstərən şirkətlərin büdcə və əməliyyat proseslərinin tərkib hissəsi kimi həyata keçiriləcəkdir.

Gözlənilən risklər

Tikinti-quraşdırma işləri üçün tələb olunacaq investisiyalar üzrə maliyyə çatışmazlığı risk yaradan əsas amildir.

7.7.2. Prioritet 7.2. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi, institusional tədbirlərin görülməsi və istilik tariflərinin optimallaşdırılması

Əsaslandırma

Respublikada əhalinin artımı, iqtisadi inkişaf səviyyəsi və bununla əlaqədar olaraq yaşayış və qeyri-yaşayış fondunun genişlənməsi nəzərə alınmaqla, istilik tələbatının ödənilməsi üçün yeni bazar iqtisadiyyatı münasibətləri şəraitində istilik təchizatı sisteminin inkişaf etdirilməsi zərurəti yaranır.

Perspektiv inkişaf bu sahəyə investisiya yatırımlarına və özəl sektorun cəlb edilməsinə istiqamətlənmiş kommersiyayönümlü inkişafa imkan verən institusional dəyişikliklərin aktuallığını artırmaqla, normativ-hüquqi bazanın təkmilləşdirilməsini və müxtəlif tənzimləmə variantlarının işlənib hazırlanmasını tələb edir.

Görüləcək tədbirlər

Tədbir 7.2.1. İstilik təchizatı sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi

İstilik enerjisinin istehsalı, ötürülməsi, paylanması və istehlakının təşkili prinsiplərinin müəyyən edilməsi və tənzimlənməsi, həmçinin istehlakçı və istehsalçı münasibətlərinin hüquqi müstəvidə formalaşdırılması məqsədilə istilik enerjisindən istifadə qaydaları, habelə istilik təchizatı sistemlərinin tikintisi və istismarı haqqında normalar və standartlar hazırlanacaqdır.

Tədbir 7.2.2. İstilik təchizatı sahəsində institusional tədbirlərin həyata keçirilməsi

Bazar iqtisadiyyatı və kommersiyalaşdırma prinsiplərinə əsaslanan istilik bazarının formalaşdırılması və sağlam rəqabətin inkişaf etdirilməsi, özəl və kommersiyayönümlü istilik təchizatı sistemlərinin yaradılması üzrə ardıcıl tədbirlərin həyata keçirilməsi dəyərləndiriləcəkdir.

İstilik təchizatı sistemlərinə investisiyaların cəlb edilməsi məqsədilə onların aktivlərinin idarəetməyə verilməsi və ya özəlləşdirilməsi ilə bağlı təhlillər aparılması istiqamətində perspektiv müəssisələr müəyyən edilərək təkliflər hazırlanacaqdır.

Tədbir 7.2.3. İstilik təchizatı üzrə tariflərin təkmilləşdirilməsinin nəzərdən keçirilməsi

- İstilik elektrik mərkəzləri və mərkəzləşdirilmiş istilik mənbələri üzrə iqtisadi əsaslandırılmış tariflərin hesablanması üçün metodologiyanın hazırlanması;
- digər mənbələrdən, eləcə də alternativ və bərpaolunan enerji mənbələrindən istehlakçılara verilən istilik enerjisinin maya dəyərinin hesablanması üçün ümumi hesablama metodologiyasının hazırlanması;
- əhali istehlakçı qrupu üzrə istilik tarifinin yaşayış sahəsinə görə deyil, mənzilin ümumi sahəsinə (faktiki isidilən sahəyə) görə müəyyən edilməsinin nəzərdən keçirilməsi;
- yaxın perspektivdə dövlət istilik təchizatı müəssisələrinin özünümaliyyələşdirmə prinsiplərinə keçidini təmin etmək üçün həmin müəssisələrin fəaliyyətində səmərəlilik faktoru nəzərə alınmaqla, tarif mexanizminin formalaşdırılması.

Gözlənilən nəticə və nəticə indikatorları

İstilik enerjisinin istehsalı, ötürülməsi, paylanması və istehlakının təşkili prinsiplərinin müəyyən edilməsi və tənzimlənməsi, istilik təchizatı sistemlərinin tikintisində və istismarında texniki və ekoloji tələblərə əməl olunması, tarif sisteminin optimallaşdırılması etibarlı və dayanıqlı istilik təchizatı infrastrukturunun təmin edilməsində əsas amillərdəndir. Eyni zamanda, sahəyə investisiya qoyuluşu üçün əlverişli mühit yaradılması, bazar iqtisadiyyatı və kommersiya prinsiplərinin təşəkkül tapması sistemin səmərəliyinin artırılmasında əhəmiyyət kəsb edir.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün investisiya tələb olunmur.

Gözlənilən risklər

Bu prioritetin icrası zamanı ciddi risklər gözlənilmir.

7.7.3. Prioritet 7.3. Mərkəzləşdirilmiş istilik təchizatı sistemində mövcud problemlərin qiymətləndirilməsi və aradan qaldırılması, sistemin səmərəliliyinin təmin edilməsi

Əsaslandırma

İstilik təchizatı sisteminin uzunmüddətli istifadəsi nəticəsində qazanxana və istilik şəbəkəsi avadanlıqlarının əksər hissəsi köhnələrək istismara yararsız vəziyyətə düşdüyünə, bəziləri isə istehsal-texniki parametrlərinin müasir tələblərə cavab vermədiyinə görə, mövcud şəbəkə iqtisadi cəhətdən səmərəsiz hesab olunur. Xərcləri əks etdirməyən tariflərin mövcudluğu və yığım səviyyəsinin aşağı olması nəticəsində istilik təsərrüfatları böyük ziyanla işləmiş, istilik enerjisinin istifadəsində xeyli itkilər olmuşdur.

Bununla yanaşı, ötən illər ərzində ölkədə istilik təchizatı sistemlərinin bərpası və inkişafı üzrə kompleks tədbirlər planı hazırlanmış, bu istiqamətdə əhəmiyyətli işlər görülmüş, yaşayış və sosial obyektlərdə istilik sistemlərinin yenidən qurulması işlərinə başlanılmışdır və hazırda bu işlər davam etdirilməkdədir.

Lakin hələ də bu sahə üzrə bir sıra problemlərin mövcudluğu istilik sistemlərinin səmərəliliyinə birbaşa mənfi təsir edir.

Görüləcək tədbirlər

Tədbir 7.3.1. İstilik təchizatı sistemində səmərəliliyin təmin edilməsi

"Azəristiliktəchizat" ASC səmərəli fəaliyyətin qurulması və qazanxanalarda xalis yanacaq səmərəliliyi səviyyəsinin yüksəldilməsi, habelə istilik enerjisinin istehsalı və ötürülməsi zamanı baş verən itkilərin səbəblərinin və bu itkilərin ən çox baş verdiyi sahələrin müəyyən edilməsi üçün mövcud şəbəkənin hərtərəfli qiymətləndirilməsini həyata keçirəcək və bu qiymətləndirmənin nəticələrinə əsasən zəruri tədbirlər görəcəkdir. Həmçinin Cəmiyyət müqayisəli araşdırmalar aparmaqla görüləcək zəruri tədbirlər üzrə tələb olunan vaxt qrafikini, habelə infrastrukturun yenidən qurulmasının mümkün xərclərini müəyyən etməklə, maliyyələşmə mənbəyini əks etdirən baş plan hazırlayacaq və xərclərə əməl olunmasını idarəetmə üzrə ƏİG-yə əlavə edəcəkdir.

Tədbir 7.3.2. İstilik xidməti üzrə büdcə təşkilatları üçün nəzərdə tutulan limitlərin optimallaşdırılması

İstilik haqlarının ödənişi məqsədilə büdcə təşkilatları üçün onların tələbatlarına uyğun limitlərin dəqiq müəyyən olunması və icra edilməsi məsələləri nəzərdən keçiriləcəkdir.

Tədbir 7.3.3. İsti su xidməti tariflərinin liberallaşdırılması

Respublika ərazisində isti su xidmətinin əhatə dairəsinin kiçik olduğunu, eləcə də Azərbaycan Respublikası kimi mülayim iqlim şəraitinə malik ölkələrdə (Türkiyə, Gürcüstan və s.) isti su xidmətinin mərkəzləşmiş qaydada verilməsinin məqbul hesab olunmadığını nəzərə alaraq, isti su sahəsində bazar iqtisadiyyatı prinsiplərinin tətbiq edilməsi, xidmət səviyyəsinin yüksəldilməsi və müəssisənin təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması məqsədilə isti su xidmətinin liberallaşdırılması istiqamətində tədbirlər görüləcəkdir.

Tədbir 7.3.4. İstilik enerjisinin istehsalına sərf olunan təbii qazın qiymətinin nəzərdən keçirilməsi

Mövcud qanunvericilikdə magistral qaz kəmərlərinə birbaşa qoşulmaqla, istehsal məqsədləri üçün təbii qaz istehlak edən (aylıq istehlak həcmi 10 milyon m^3-dən az olmamaq şərtilə) müəssisələrə təbii qaz satışı üzrə müəyyən güzəştlərin tətbiq edildiyini nəzərə alaraq, orta aylıq sərfiyyatı 14,5 milyon m^3-dən[41] artıq olan "Azəristiliktəchizat" ASC-nin də bu güzəştdən yararlanmaq imkanları nəzərdən keçiriləcəkdir.

Gözlənilən nəticə və nəticə indikatorları

İstilik təchizatı sistemlərində mövcud problemlərin həlli ilə bağlı müəyyən edilən prioritetlərin həyata keçirilməsi nəticəsində istilik təsərrüfatlarının gəlirlərinin, ümumilikdə, 5,1 milyon manat artması proqnozlaşdırılır.

Əsas icra göstəriciləri:

- istilik haqlarının ödənişi məqsədilə büdcə təşkilatları üçün müəyyən edilmiş limitlərin tələb olunan faktiki tələbata uyğunlaşdırılması ilə bağlı - 3,4 milyon manat;
- əhali istehlakçı qrupu üzrə istilik tarifinin yaşayış sahəsinə görə deyil, isidilən mənzillərin ümumi sahəsinə görə müəyyən edilməsi ilə bağlı - 1,7 milyon manat.

Tələb edilən investisiya

Bu prioritetin icrası üçün investisiya tələb olunmur.

Gözlənilən risklər

Bu prioritetin icrası zamanı ciddi risklər gözlənilmir.

[41] Mənbə: "Azəristiliktəchizat" ASC

8. MALİYYƏLƏŞDİRMƏ MEXANİZMLƏRİ

Müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün 2020-ci ilədək təxminən 8150 milyon manat investisiya tələb olunacağı proqnozlaşdırılır. Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası aşağıdakı mənbələr hesabına maliyyələşdiriləcəkdir:

- dövlət büdcəsi;
- büdcədənkənar fondlar;
- Sahibkarlığa Kömək Milli Fondunun və digər dövlət kredit və investisiya təşkilatlarının vəsaiti;
- yerli büdcələr;
- mülkiyyət formasından asılı olmayaraq yerli idarə, müəssisə və təşkilatların vəsaitləri;
- birbaşa xarici investisiyalar;
- ölkə bank sisteminin kreditləri;
- qiymətli kağızlar;
- beynəlxalq təşkilatların və xarici dövlətlərin kreditləri, qrantları, texniki yardımı;
- qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Maliyyə vəsaitlərinin müəyyən edilmiş prioritet hədəflər üçün ən səmərəli şəkildə sərf olunmasını təmin etmək məqsədilə büdcələr nəticələrə əsaslanan büdcə tərtibatı prosesi çərçivəsində işlənib hazırlanacaqdır. Tələb olunan maliyyə vəsaitlərinin böyük hissəsi mövcud büdcələrin restrukturizasiyası, özəl sektorun və müxtəlif investorların birgə maliyyələşdirmə səyləri ilə təmin ediləcəkdir.

9. İCRA, MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ

Strateji Yol Xəritəsinin icrası:

Koordinasiya və rəhbərlik: Qərarların qəbul edilməsinin sürətləndirilməsi, hesabatlılığın aydın müəyyən edilməsi və əlavə icra qabiliyyətinin formalaşdırılması üçün müvafiq koordinasiya və rəhbərlik təmin ediləcəkdir.

- Strateji Yol Xəritəsi üçün yüksək siyasi səviyyədə qərarların qəbul edilməsinin sürətləndirilməsi mexanizmi yaradılacaqdır. Bu mexanizm qərarları qəbul edən şəxslər üçün digər əsas iştirakçılar tərəfindən proqramın tətbiq olunmasına lazımi rəhbərliyin təmin edilməsinə imkan verəcəkdir. Tətbiqin prioritetləri və konkret hədəflər ilə bağlı qərarlar bu mexanizm vasitəsilə qəbul ediləcəkdir.
- Əsas icraçı təşkilat tədbirin vaxtında və mahiyyəti üzrə həyata keçirilməsi üçün ona aid hər bir prioritet və tədbir üzrə məsul şəxslər təyin edəcəkdir. Həmçinin tədbirlər planında qeyd olunan digər qurumların iştirakı ilə prioritet üzrə məsul qurumların rəhbərliyi altında işçi qruplar yaradılacaqdır. İşçi qrupların hesabat toplantıları əsas icraçı təşkilatın rəhbərliyi ilə rüblük əsasda keçiriləcəkdir. İclaslarda rüb ərzində görülmüş işlər və növbəti dövr üçün nəzərdə tutulmuş fəaliyyətlər müzakirə ediləcəkdir. İşçi qruplar illik iş proqramı əsasında fəaliyyət göstərəcəklər. İşçi qrupun gündəlik iş rejimi və tapşırıqların bölgüsü məsul şəxs tərəfindən aparılacaqdır. Bir qayda olaraq, qrupun cari görüşləri məsul şəxsin təklifi ilə əsas icraçı təşkilatda keçiriləcəkdir. Əsas icraçı təşkilat işçi qrupun maneəsiz fəaliyyətini təmin etmək üçün zəruri şərait yaradacaq, tələb olunduqda isə kənar ekspertlərin texniki dəstəyindən yararlanmaq üçün addımlar atacaqdır.
- Strateji Yol Xəritəsinin icra olunmasına nəzarətin aparılması, yaranan problemlərin həll olunması və ya qurumlar arasında əlaqələndirmənin düzgün təşkili məqsədilə müvafiq koordinasiya qurumu (*"delivery unit"*) müəyyən ediləcəkdir. Qurumun əsas işi tədbirlərin effektiv icrası məqsədilə zəruri qurumlar, proseslər və texnologiyalar arasında koordinasiyanın təşkili olacaqdır. Tədbirlər planı üzrə işçi qrupların ahəngdar işini, rüblük hesabatların ümumiləşdirilməsini və illik hesabatın hazırlanmasını koordinasiya qurumu tənzimləyəcəkdir. Bundan əlavə, həmin qurum digər qurumlar tərəfindən tələb olunan maliyyə və insan resurslarının təşkilinin təmin olunmasına və zəruri hallarda əlavə resursların təqdim edilməsinə nəzarət edəcəkdir.

Strateji uyğunlaşdırma və maliyyələşdirmə: Resurslardan səmərəsiz istifadənin və hədəflər arasında yarana biləcək ziddiyyətlərin qarşısının alınmasına imkan verən səmərəli icra prosesinə nail olunması məqsədilə Strateji Yol Xəritəsi sektorlar üzrə digər planlara və mövcud büdcələrə tam inteqrasiya olunacaqdır.

- Aidiyyəti dövlət qurumlarının təklifləri əsasında bütün müvafiq strateji sənədlər Strateji Yol Xəritəsinə uyğunlaşdırılacaq və zəruri hallarda mövcud qurumların funksiyaları hədəflərə müvafiq qaydada yenidən formalaşdırılacaqdır. Bu uyğunlaşdırma işlərinə şəffaf, ölçüləbilən tətbiq hədəfləri daxil ediləcək, bu barədə ictimaiyyətə məlumat veriləcək və prosesin izlənilməsində həmin hədəflərdən istifadə olunacaqdır.
- İcraya rəhbərlik edilməsi, eləcə də tələb olunan resurslara və gözlənilən nəticələrə münasibətdə şəffaflığın təmin edilməsi üçün bütün prioritetlər üzrə təqdim olunan tədbirlərə əsaslanan detallı icra planları işlənib hazırlanacaqdır. Təyin olunmuş aparıcı qurum icra planının yerinə yetirilməsi üçün ümumi

məsuliyyət daşımaqla yanaşı, planın tətbiq olunmasına bütün əsas qurumları və özəl sektoru cəlb edəcəkdir.

Maraqlı tərəflərin səfərbər edilməsi: Həm dövlət, həm də qeyri-dövlət sektorundan yerli və beynəlxalq tərəfdaşlar Strateji Yol Xəritəsinin icrası prosesinə cəlb olunacaqdır.

- Əsas strateji tərəfdaşların müəyyən olunması və cəlb edilməsi üçün müvafiq tədbirlər görüləcəkdir. Hər bir prioritetin uğurla tətbiq olunması üçün çoxsaylı təşkilatların və maraqlı tərəflərin cəlb edilməsi tələb olunur. Hədəflərin uyğunlaşdırılması və lazımi əlaqələndirmənin təmin edilməsi məqsədilə, özəl sektor, dövlət müəssisələri və beynəlxalq təşkilatlar, eləcə də beynəlxalq maliyyə təşkilatları kimi kritik beynəlxalq tərəfdaşlarla işləmək üçün məşvərətçi şuralar və işçi komitələr yaradılacaqdır.
- Strateji Yol Xəritəsinin geniş şəkildə dəstəklənməsi üçün vətəndaş cəmiyyəti və beyin mərkəzləri səfərbər ediləcək və cəlb olunacaqdır. Bundan əlavə, fəal kommunikasiya, şəffaflıq və cəlbolunma dövlət və özəl sektorun, eləcə də bütövlükdə cəmiyyətin və digər maraqlı tərəflərin səfərbər edilməsinə kömək edəcəkdir.

Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirilməsi

Tələb olunan alətlər, proseslər və digər vasitələrlə icranın uğurla həyata keçirilməsini təmin etmək üçün Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirilməsi aparılacaqdır. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritet üzrə gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır. Monitorinq və qiymətləndirmə beynəlxalq metodologiyalara uyğun tərtib edilmiş qaydalar əsasında aparılacaqdır.

İşçi qrupların illik iş proqramları koordinasiya qurumu ilə razılaşdırılaraq, əsas icraçı təşkilat tərəfindən təsdiqlənəcəkdir. İşçi qrupların rüblük iclasları koordinasiya qurumunun nümayəndələrinin iştirakı ilə keçiriləcəkdir.

Rüb üzrə görülmüş işlərə dair hesabatı əsas icraçı təşkilat işçi qrupun rüblük iclasından ən azı 10 (on) gün əvvəl koordinasiya qurumuna təqdim edəcəkdir. Koordinasiya qurumu qeyd olunmuş hesabatın hərtərəfli təhlilini və qiymətləndirilməsini, həmçinin işçi qrupun rüblük iclasında baş tutmuş müzakirələri nəzərə alaraq, iclasın keçirilmə tarixindən 10 (on) gün müddətində rüblük monitorinqin nəticələrini və növbəti dövr üçün tövsiyələri əsas icraçı təşkilata təqdim edəcəkdir. Koordinasiya qurumu və əsas icraçı təşkilat monitorinq nəticələrinin və tövsiyələrin işçi qrupun gündəlik fəaliyyətində nəzərə alınması üçün tədbirlər görəcəkdir.

10. TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	Əsas icraçı	Digər icraçılar	Nəticə indikatorları	İcra müddəti
Strateji hədəf 1. Kommunal xidmətlər sektorunun tənzimlənməsində dayanıqlılığın və effektivliyin təmin edilməsi					
1.1. Müstəqil tənzimləyici orqanın və məqsədli fondun yaradılması, effektiv xidmət və yığım mexanizmlərinin, kadr təminatının formalaşdırılması					
1.1.1.	Kommunal xidmətlər sektorunda vahid tənzimləyici orqanın yaradılmasının nəzərdən keçirilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi	• Kommunal xidmətlər sektorunun inkişafı; • dövlət büdcəsinin yükünün azaldılması; • sektor üzrə liberallaşdırmanın həyata keçirilməsi.	2018
1.1.2.	Kommunal xidmətlər sektorunda məqsədli fondun yaradılmasının nəzərdən keçirilməsi	Azərbaycan Respublikası Prezidentinin Administrasiyası	Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017

1.1.3.	Kommunal xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi	Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	"Azərenerji" ASC, "Azərişıq" ASC, "Azərsu" ASC, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, "Azəristiliktəchizat" ASC, "Azalternativenerji" MMC		2017-2020
1.1.4.	Kommunal xidmət haqları üzrə yığımın təkmilləşdirilməsi	İqtisadiyyat Nazirliyi	Tənzimləyici orqan		2017-2018
1.1.5.	Kommunal xidmətlər sektorunda kadr potensialının təkmilləşdirilməsi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	Təhsil Nazirliyi		2017-2020
1.1.6.	Kommunal xidmətlər sektorunda təkmil normativ-hüquqi bazanın yaradılması	İqtisadiyyat Nazirliyi	Tənzimləyici orqan, Ədliyyə Nazirliyi		2017
Strateji hədəf 2. Tam şaxələndirilmiş və ekoloji baxımdan təmiz elektrik enerjisi istehsalının təmin edilməsi					
2.1. Milli istehsal portfelinin ehtiyat həcminin artırılması					

2.1.1.	Elektrik enerjisinə olan ölkədaxili ehtiyacın proqnozlaşdırılması	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC, "Azərişıq" ASC	• 2020-ci ildə real ÜDM-in 130 milyon manat birbaşa və 85 milyon manat dolayı olmaqla, 215 milyon manat artması; • 5085 yeni iş yerinin yaradılması; • istehsal gücünün 1000 MVt artırılması üçün əlavə investisiya qoyuluşunun həyata keçirilməsi (hazırda planlaşdırılan 900 MVt-dan əlavə olaraq); • investisiya qoyuluşlarının yaradılacaq yeni istehsal gücləri üzrə şaxələndirilməsi.	2017
2.1.2.	Enerji mənbələri üzrə prioritetlərin müəyyən edilməsi üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması	Energetika Nazirliyi	Tənzimləyici orqan, İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti		2017

2.1.3.	İnvestisiya qoyuluşları üzrə maliyyələşdirmə mənbələrinin müəyyənləşdirilməsi	Energetika Nazirliyi	Tənzimləyici orqan, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC		2017-2018
2.1.4.	Əlavə istehsal güclərinin yaradılması	Energetika Nazirliyi	Tənzimləyici orqan, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC		2017-2020
2.2. Milli istehsal portfelinin şaxələndirilməsi					
2.2.1.	Alternativ və bərpaolunan enerji potensialının qiymətləndirilməsi	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi,	• 2020-ci ildə real ÜDM-in 50 milyon manat birbaşa	2017

			Azərbaycan Milli Elmlər Akademiyası, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC	və 20 milyon manat dolayı olmaqla, 70 milyon manat artması; • 270 yeni iş yerinin yaradılması; • enerji portfelinin şaxələndirilməsi məqsədilə 350 MVt külək, 50 MVt günəş enerjisinin və 20 MVt bioenerjinin əldə edilməsinə investisiya qoyuluşunun həyata keçirilməsi • qənaət edilmiş təbii qazın (təbii qaz qurğularından) Trans-Adriatik qaz kəməri və Trans-Anadolu qaz kəməri (TAP/TANAP) vasitəsilə Avropaya ixrac olunması.	
2.2.2.	İnvestisiya qoyuluşu tələb olunan elektrik stansiyalarının istismar və maliyyələşmə formasının seçilməsi	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Tənzimləyici orqan, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi		2017-2018

2.2.3.	Görülən tədbirlərlə bağlı ictimaiyyətin məlumatlandırılması	Energetika Nazirliyi	Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC		2017-2020
2.3. İzafi təchizata görə qısamüddətli perspektivdə xalis elektrik enerjisi ixracı imkanının nəzərdən keçirilməsi					
2.3.1.	İxrac imkanlarının araşdırılması	Energetika Nazirliyi	Tənzimləyici orqan, İqtisadiyyat Nazirliyi, "Azərenerji" ASC	• 2020-ci ildə real ÜDM-in 70 milyon manat birbaşa və 45 milyon manat dolayı olmaqla, 115 milyon manat artması; • Gürcüstanın elektrik enerjisi idxalının 50 faizinin, Türkiyənin isə 20 faizinin təmin edilməsi.	2017-2018
2.3.2.	İxrac potensialının reallaşdırılması üçün texniki-iqtisadi əsaslandırmaların hazırlanması	Energetika Nazirliyi	Tənzimləyici orqan, İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC		2017-2018

2.3.3.	İxracla bağlı həyata keçiriləcək tədbirlər üzrə işçi qrupun yaradılması	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC		2017
Strateji hədəf 3. Dünya üzrə orta səmərəlilik və keyfiyyət standartlarının tətbiqi və məqsədlərə nail olmaq üçün mexanizmlərin işə salınması					
3.1. Elektrik stansiyalarının səmərəliliyinin artırılması və mövcud potensialdan səmərəli istifadə					
3.1.1.	Elektrik stansiyalarının potensialından səmərəli istifadənin təmin edilməsi	"Azərenerji" ASC	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tarif (qiymət) Şurası	• 2020-ci ildə real ÜDM-in 70 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, 75 milyon manat artması; • kombinə edilmiş dövrəyə malik, seçilmiş qaz turbin stansiyaları üçün xalis yanacaq səmərəliliyinin (istehsal edilmiş elektrik	2017-2020
3.1.2.	Elektrik stansiyalarının özəlləşdirilmə imkanlarının nəzərdən keçirilməsi	Əmlak Məsələləri Dövlət Komitəsi	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, "Azərenerji" ASC		2017-2020

3.1.3.	İnvestor seçmək üçün tenderlərin elan edilməsi	Energetika Nazirliyi	Əmlak Məsələləri Dövlət Komitəsi, Tənzimləyici orqan, İqtisadiyyat Nazirliyi, "Azərenerji" ASC	enerjisinin sərf edilən yanacağın miqdarına nisbəti) 50 faizədək artırılması; • 1 MVt-lıq təbii qaz stansiyasının modernləşdirilməsi üçün maksimum 300 min ABŞ dolları məbləğində investisiya qoyuluşu; • səmərəliliyin artırılması hesabına qənaət edilmiş təbii qaz miqdarının (təbii qaz qurğularından) TAP/TANAP layihələri vasitəsilə Avropaya ixracı.	2017-2020
3.2. Elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi verilişinin və paylanmasının keyfiyyətinin yüksəldilməsi					
3.2.1.	Səmərəliliyin artırılması məqsədilə icra mexanizmlərinin müəyyənləşdirilməsi	Energetika Nazirliyi	Tənzimləyici orqan, "Azərenerji" ASC, "Azərişıq" ASC	• 2020-ci ildə real ÜDM-in 24 milyon manat birbaşa və 1 milyon manat dolayı olmaqla, 25 milyon manat artması; • elektrik enerjisinin itki səviyyəsinin Bakıda 8,5 faizdən 7 faizədək, regionlarda isə 12	2017
3.2.2.	Modernləşdirmə işləri üçün baş planın hazırlanması	"Azərenerji" ASC, "Azərişıq" ASC	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan		2017

3.2.3.	Elektrik enerjisi verilişinin keyfiyyətini izləyən əsas icra göstəricilərinin (ƏİG) tətbiq edilməsi	Energetika Nazirliyi	Tənzimləyici orqan, “Azərenerji” ASC, “Azərişıq” ASC	faizdən 8 faizədək azaldılması.	2017
3.2.4.	İtkilərin azaldılması üçün sayğacların quraşdırılması	“Azərişıq” ASC, “Azərenerji” ASC	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2018
3.2.5.	Elektrik enerjisinə yaranacaq tələbatın qarşılanması məqsədilə elektrik şəbəkələrində işlərin aparılması	“Azərişıq” ASC, “Azərenerji” ASC	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
3.2.6.	Elektrik enerjisinin ötürülmə və paylanma sisteminin təkmilləşdirilməsi	“Azərişıq” ASC, “Azərenerji” ASC	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
3.2.7.	Ötürücü və paylayıcı şəbəkə üzrə məlumat bankının yaradılması	“Azərişıq” ASC, “Azərenerji” ASC	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
3.2.8.	İtkilər barədə ictimaiyyətin məlumatlandırılması	“Azərişıq” ASC, “Azərenerji” ASC	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
3.2.9.	İtkilərin azaldılması layihələrinin prioritetləşdirilməsi	“Azərişıq” ASC, “Azərenerji” ASC	Tənzimləyici orqan, Energetika Nazirliyi,		2017-2020

			İqtisadiyyat Nazirliyi		
3.3. İstehlakda səmərəliliyin yüksəldilməsi üçün optimal mexanizmlərdən istifadə					
3.3.1.	İstehlakçılarla istehsalçıların maraqlarının uzlaşdırılması üçün optimal qiymətlərin müəyyənləşdirilməsinin nəzərdən keçirilməsi	Tarif (qiymət) Şurası	Tənzimləyici orqan, İqtisadiyyat Nazirliyi	• 2020-ci ildə real ÜDM-in 125 milyon manat birbaşa və 45 milyon manat dolayı olmaqla, 170 milyon manat artması; • elektrik enerjisi istehlakında səmərəliliyin artırılması hesabına qənaət edilmiş təbii qazın TAP/TANAP layihələri vasitəsilə Avropaya ixracı.	2017-2020
3.3.2.	Elektrik enerjisindən istifadə modellərinin müzakirə olunması	Tarif (qiymət) Şurası	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017
3.3.3	İstehlakçıların sərfiyyat proqnozlarının nəzərdən keçirilməsi	Tarif (qiymət) Şurası	Tənzimləyici orqan, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017
3.4. Effektiv tənzimləmə və hərrac mexanizmlərinin yaradılması					
3.4.1.	Elektroenergetika sahəsində əsas tənzimləyici qanunun və digər əlaqəli sənədlərin təkmilləşdirilməsi	Energetika Nazirliyi	Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan	• təkmilləşdirilmiş yeni qanunvericilik bazasının yaradılması; • sektor üzrə liberallaşdırmanın həyata keçirilməsi;	2017
3.4.2.	Topdansatış bazarının yaradılması	Tənzimləyici orqan	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020

3.4.3.	Özəlləşdirmənin həyata keçirilməsi məqsədilə istehsal aktivlərinin prioritetləşdirilməsi	Tənzimləyici orqan	Əmlak Məsələləri Dövlət Komitəsi, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi	• dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin hazırlanması.	2017-2020
3.4.4.	Dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin hazırlanması	Tənzimləyici orqan	Əmlak Məsələləri Dövlət Komitəsi, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi		2017-2020
Strateji hədəf 4. Səmərəli və effektiv qazpaylama infrastrukturunun yaradılması					
4.1. Təbii qazın paylanması ilə bağlı bütün növ itkilərin minimuma endirilməsi					
4.1.1.	Mövcud şəbəkənin hərtərəfli qiymətləndirilməsi və inkişaf planının hazırlanması	Azərbaycan Respublikası Dövlət Neft Şirkəti	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan	• 2020-ci ildə real ÜDM-in 85 milyon manat birbaşa və 5 milyon manat dolayı olmaqla, 90 milyon manat artması; • 340 yeni iş yerinin yaradılması; • bütün regionlar üzrə təbii qazın paylanması zamanı baş verən texniki itki səviyyəsinin 8 faizədək azaldılması (əgər hər	2017
4.1.2.	Qazpaylama xətlərinin tikintisi üçün tenderlərin elan edilməsi	Azərbaycan Respublikası Dövlət Neft Şirkəti	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan		2017-2020
4.1.3.	Tikinti fəaliyyəti ilə bağlı əsas icra göstəricilərinin (ƏİG) müəyyənləşdirilməsi	Azərbaycan Respublikası Dövlət Neft Şirkəti	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan		2017

4.1.4.	Yığım səviyyəsinin maksimuma çatdırılması və təbii qazdan qanunsuz istifadəyə qarşı cərimələrin tətbiqinin nəzərdən keçirilməsi	Energetika Nazirliyi	Azərbaycan Respublikası Dövlət Neft Şirkəti	hansı bölgə üzrə itki səviyyəsi 8 faizdən aşağı olarsa, bunun eyni səviyyədə qalacağı ehtimal edilir); ● təbii qaz təchizatı sisteminin beynəlxalq standartların tələblərinə uyğun olaraq modernləşdirilərək təkmilləşdirilməsi; ● istehlakçıların təbii qaza dinamik artan tələbatının etibarlı şəkildə təmin edilməsi; ● təbii qaz istehlakının proqnozlaşdırılmasının asanlaşdırılması və şəbəkədə ehtimal olunan itkinin qısa zamanda aşkarlanması; ● təbii qaz təchizatı sahəsində mövcud olan texniki problemlərin aradan qaldırılması; ● istehlakda səmərəliliyin artımı hesabına qənaət edilmiş təbii qazın (təbii qaz emalı zavodlarının) TAP/TANAP layihələri	2017-2018
4.1.5.	Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ mənbələrlə təminatının həyata keçirilməsi	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti		2017-2018

				vasitəsilə Avropaya ixracı.	
Strateji hədəf 5. Yüksəksəviyyəli su idarəetmə strukturunun yaradılması					
5.1. İçməli və tullantı su infrastrukturunun tətbiqinin genişləndirilməsi					
5.1.1.	İnfrastrukturun olmadığı ərazilər üzrə qiymətləndirmə aparılması	"Azərsu" ASC	İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan	• 2020-ci ildə real ÜDM-in 25 milyon manat birbaşa və 15 milyon manat dolayı olmaqla, 40 milyon manat artması; • kommersiya itkiləri səviyyəsinin 20 faizdən ən azı 14 faizədək azaldılması; • tullantı sularının toplanması səviyyəsinin 46 faizdən 65 faizədək artırılması; • sayğacı olmayan qeydiyyatlı istifadəçilərin payının 26 faizdən 5 faizədək azaldılması.	2017
5.1.2.	Sayğaclaşma səviyyəsinin yüksəldilməsi və qeyri-əhali qrupu üzrə tam başa çatdırılması	"Azərsu" ASC	İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan		2017-2018
5.1.3.	İnfrastruktura investisiya qoyuluşları üzrə tenderlərin elan edilməsi	"Azərsu" ASC	İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan		2017-2020
Strateji hədəf 6. Su təchizatında itkilərin azaldılması və səmərəliliyin təmin edilməsi					
6.1. İtkilərin minimuma endirilməsi, sudan istifadə tariflərinin optimallaşdırılması və tələb olunan infrastruktur üçün investisiyalar cəlb etməklə su istehlakında səmərəliliyin yüksəldilməsi					
6.1.1.	Şəbəkənin hərtərəfli qiymətləndirilməsi aparılmaqla,	"Azərsu" ASC	İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan	• 2020-ci ildə real ÜDM-in 12 milyon manat birbaşa	2017-2020

	itkilərin minimum səviyyəyə çatdırılması			və 8 milyon manat dolayı olmaqla, 20 milyon manat artması; • "Azərsu" ASC-nin paylanmada olan itkilərinin 31 faizdən 25 faizədək endirilməsi.	
6.1.2.	Su ehtiyatlarından səmərəli istifadə məqsədilə tədbirlər görülməsi	Nazirlər Kabineti	İqtisadiyyat Nazirliyi, Tarif (qiymət) Şurası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, "Meliorasiya və Su Təsərrüfatı" ASC, "Azərsu" ASC, Tənzimləyici orqan		2017
6.1.3.	Su və kanalizasiya xidmətləri üzrə optimal tarif səviyyəsinin nəzərdən keçirilməsi	Tarif (qiymət) Şurası	İqtisadiyyat Nazirliyi, "Azərsu" ASC		2017-2020
6.1.4.	Su və kanalizasiya xidmətlərindən istifadə edən xüsusi istehlakçı qrupları üzrə sosial proqramların hazırlanması	İqtisadiyyat Nazirliyi	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Tarif (qiymət) Şurası, Tənzimləyici orqan		2017-2020
Strateji hədəf 7. Dayanıqlı və etibarlı istilik təchizatı infrastrukturunun yaradılması					

7.1. Coğrafi, sosial və iqtisadi xüsusiyyətlər nəzərə alınmaqla, ölkədə optimal istilik enerjisi və isti su təchizatı sisteminin genişləndirilməsi					
7.1.1.	İstilik mənbələrinin yaradılması, bərpası və yenidən qurulması	"Azəristiliktəchizat" ASC	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, MİDA, Tənzimləyici orqan	• 2020-ci ildə real ÜDM-in 12 milyon manat artması; • 950 yeni iş yerinin yaradılması; • səmərəlilik nəzərə alınmaqla, istilik enerjisi istehsalının həcminin 2015-ci illə müqayisədə 427 min Qkal artaraq, 1767 min Qkal-a çatdırılması; • istiliklə təmin edilən yaşayış binalarının sayının 50,4 faiz artırılaraq 5689-a çatdırılması; • 550-yə yaxın yaşayış binasında texniki cəhətdən nasaz olan istilik təchizatı sisteminin əsaslı şəkildə təmir edilməsi ilə istilik təchizatının yaxşılaşdırılması.	2017-2020
7.1.2.	Alternativ və bərpaolunan enerji mənbələrindən istifadə edilməsi	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, "Azəristiliktəchizat" ASC		2017-2020
7.1.3.	Enerji səmərəliliyinin və enerjiyə qənaətin yaxşılaşdırılması	"Azəristiliktəchizat" ASC	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan		2017-2018

			Enerji Mənbələri üzrə Dövlət Agentliyi		
7.1.4.	İstilik enerjisindən istifadə zamanı ətraf mühitin qorunması üçün tədbirlər görülməsi	"Azəristiliktəchizat" ASC	Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Energetika Nazirliyi		2017-2020
7.1.5.	İstilik təchizatı üçün enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, "Azəristiliktəchizat" ASC, Tənzimləyici orqan, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi		2017-2018
7.2. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi, institusional tədbirlərin görülməsi və istilik tariflərinin optimallaşdırılması					
7.2.1.	İstilik təchizatı sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan, "Azəristiliktəchizat" ASC	• etibarlı və dayanıqlı istilik təchizatı infrastrukturunun təmin edilməsi.	2017

7.2.2.	İstilik təchizatı sahəsində institusional tədbirlərin həyata keçirilməsi	Energetika Nazirliyi	İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan, "Azəristiliktəchizat" ASC		2017-2020
7.2.3.	İstilik təchizatı üzrə tariflərin təkmilləşdirilməsinin nəzərdən keçirilməsi	Tarif (qiymət) Şurası	İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan, "Azəristiliktəchizat" ASC		2017-2020
7.3. Mərkəzləşdirilmiş istilik təchizatı sistemində mövcud problemlərin qiymətləndirilməsi və aradan qaldırılması, sistemin səmərəliliyinin təmin edilməsi					
7.3.1.	İstilik təchizatı sistemində səmərəliliyin təmin edilməsi	"Azəristiliktəchizat" ASC	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan, Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi	• istilik təsərrüfatlarının gəlirlərinin, ümumilikdə, 5,1 milyon manat artırılması.	2017-2020
7.3.2.	İstilik xidməti üzrə büdcə təşkilatları üçün nəzərdə tutulan limitlərin optimallaşdırılması	Maliyyə Nazirliyi	Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tənzimləyici orqan,		2017-2020

			“Azəristiliktəchizat” ASC		
7.3.3.	İsti su xidməti tariflərinin liberallaşdırılması	Nazirlər Kabineti	İqtisadiyyat Nazirliyi, Tarif (qiymət) Şurası, “Azəristiliktəchizat” ASC		2016
7.3.4.	İstilik enerjisinin istehsalına sərf olunan təbii qazın qiymətinin nəzərdən keçirilməsi	Nazirlər Kabineti	İqtisadiyyat Nazirliyi, Tarif (qiymət) Şurası, “Azəristiliktəchizat” ASC, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti		2017